Yeni texnika və texnologiyaların tətbiqi, həmçinin işğaldan azad edilmiş torpaqlar üçün qəbul edilmiş yeni Tədbirlər Planı çərçivəsində digər bitki növləri ilə yanaşı üzümlük sahələrinin artımı və daha yüksək məhsuldarlıq səviyyəsi hesabına ölkənin üzümə olan tələbat səviyyəsinin tam təmin edilməsi gözlənilir. Üzümçülük sahəsinin, o cümlədən texniki üzüm sortlarının yetişdirilməsi bu rayonda şərabçılıq sektorunun da inkişafına təkan verəcək. Belə ki, 2025-ci ildə üzüm istehsalında Qubadlı rayonunun ölkədəki üzüm istehsalında payının 1,5 faizini təşkil edərək, 2,7 min ton civarında üzüm istehsalı proqnozlaşdırılır.

Müstəqillik əldə edildikdən sonra aqrar sahədə aparılmış əsaslı islahatlar və innovativ texnologiyaların tətbiqi nəticəsində ölkədə məhsuldarlığın artması ilə yanaşı, işğaldan azad edilmiş Qubadlı rayonunda da bu yeni islahatlar və innovativ texnologiyaların tətbiqi ilə ümidverici nəticələr əldə etməyin mümkün olduğunu söyləmək mümkündür. Tədqiqatlar nəticəsində proqnoz inkişaf dövrü hesab edilən 2025-ci ilə qədər Qubadlı rayonunda taxıl istehsalının 32,4 min tona qədər artırılması gözlənilir. Qubadlı rayonunda torpaq, iqlim, su resursları, eləcə də tarixən mövcud olan bitkiçilik ənənəsi bu regionda meyvə və tərəvəz istehsalının da perspektivindən xəbər verir.




**Ekosistemlərin** qənaətbəxş olmayan vəziyyəti və xüsusən də torpaqların deqradasiyası onların sürətləndirilmiş ekoloji bərpası üçün metodların hazırlanması vəzifəsini irəli sürür. Dağılmış torpaqların ekoloji cəhətdən bərpası metodlarından biri meliorasiyadır.

Meliorasiyanın əsas hədəfləri: su rejimi əlverişsiz səraitdə olan torpaqlar (bataqlıqlar, bataqlaşmaya meyilli ərazilər, quraqlıq sahələr, səhra və yarımsəhralar); kimyəvi və fiziki xüsusiyyətləri əlverişsiz olan torpaqlar (şoran, ağır gilli, az lilli və qumlu torpaqlar); suyun və küləyin zərərli təsirinə məruz qalan torpaqlar (yuyulmaya, uçmaya və eroziyaya məruz torpaqlar); zibillənmiş və dayazlaşmış çaylar, göllər, bataqlaşmış və həddindən artıq rütubətli meşələr.

Meliorasiya müxtəlif əkinlərin məhsuldarlığını və əmək məhsuldarlığını kökündən artırmaq üçün kənd təsərrüfatı istehsalının təbii şəraitinin uzunmüddətli yaxşılaşdırılmasına yönəlmiş təşkilati, iqtisadi və texniki tədbirlər kompleksidir. Meliorasiya metodlarının müəyyən bir sistemdə və ardıcıllıqla mənimsənilməsinin köməyi ilə su, hava, qida və hətta müəyyən dərəcədə torpağın və bitkilərin temperatur rejimləri dəyişdirilə bilər. Meliorasiya digər əkinçilik əlaqələri ilə birlikdə torpağı yenidən düzəltməyə, bir çox əlverişsiz xüsusiyyətlərini (bataqlıq, quraqlıq, turşuluq, qələvilik, duzluluq, həddindən artıq sıxılma və s.) aradan qaldırmağa və kök qatının qalınlığını artırmağa imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Budaqov B.Ə "Azərbaycan təbiəti" Bakı 1988
2. Q.Məmmədov, M.Xəlilov, S.Məmmədova. Aqroekologiya, Bakı 2010
3. Q.Məmmədov, A.Cəfərov,Z.Mustafayeva, Əkinçiliyin və Bitkiçiliyin əsasları". Bakı-2008
4. https://www.virtualkarabakh.az/az/post-item/26/45/qarabag-tebieti.html
5. http://www.lachin-ih.gov.az/page/13.html


# İQTİSADİ İNKİŞAFA İNNOVATİV YANAŞMA


**Abbasova-Zeynalova Nuranə Nazim qızı**
***Mingəçevir Dövlət Universiteti***
***Elmi rəhbər: Dos. Hüseynova Emiliya Yəhya qızı***



**Açar sözlər:** İqtisadi inkişaf, innovasiya, texnologiya siyasəti.

**Ключевые слова**: Экономическое развитие, инновации, технологическая политика.

**Keywords**: Economic development, innovation, technology policy.


İqtisadi inkişaf - bir ölkədəki milli gəlir artımının, ÜDM-in xarici ticarət səviyyəsinin, pul və inflyasiya vəziyyətinin və borc səviyyəsinin ölçülməsidir. İqtisadi inkişaf, iqtisadi istiqamətli bir inkişaf olması ilə bərabər həm də ictimai və siyasi istiqamətli bir dəyişmədir.

İnnovasiya – ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək amillərdən biridir. Buna görə də, ölkəmizin önəmli strateji məqsədlərindən biri də iqtisadiyyatın innovasiya yönümlü inkişafıdır. İnnovativ inkişafı gücləndirmək məqsədilə texnoparkları, biznes inkubatorları və yüksək texnologiyalar mərkəzlərini özündə birləşdirən müvafiq infrastrukturun yaradılması vacibdir.

İqtisadi inkişaf anlayışı daha çox məhsul əldə etməklə, eləcədə bu zaman istifadə edilən texniki, təşkilati və ya struktur tənzimləmələrin dəyişməsidir. Yəni, investisiyaların və istehsal məhsuldarlığının artmasını ifadə edən iqtisadi inkişaf, real milli gəlirin də uzunmüddətli dövrdə dinamik formada artım göstəricisidir. Buna bağlı olaraq müəyyən zamanla real gəlirlərdəki artım templəri də iqtisadi inkişafın göstəricisi olaraq qiymətləndirilir. İqtisadiyyatın inkişafının əsas dinamikası insan kapitalı və yaratdığı yeniliklərdir. İnsan kapitalı təhsil, səhiyyə, elm, iş şəraiti və insanların həyat keyfiyyətinin artırılması üçün xərcləri nəzərdə tutur.

İqtisadi inkişaf özündə iqtisadi artımı ehtiva etməklə yanaşı, iqtisadi və sosial sferadakı keyfiyyət dəyişmələrini də bərabərində gətirən bir anlayışdır. Ona görə də iqtisadi inkişafı reallaşdırmaq istəyən ölkələrin müvafiq strukturlarında islahat müddəti başladılmalıdır. Bu məqsədlə iqtisadi inkişafı təmin edən aşağıdakı amillərin meydana gəlməsinə diqqət yetirilməlidir:

- Bir və ya da daha çox əhəmiyyətli emal sektorunun yüksək inkişaf sürətinin təmin edilməsi,
- Əhəmiyyətli hesab olunan sektorların gəlir transferləri, kapital idxalı, təşəbbüskarların mənfəətlərinin təkrar kapitala çevrilməsi üçün iqtisadiyyatın digər sahələrinə kompleks yanaşma nümayiş etdirməli,
- Dövrün tələblərinə cavab verən sahələrdə artımı təmin edən sosial-iqtisadi və struktur sisitemin varlığının formalaşdırmalı və ya onun qısa müddətdə meydana gəlməsinə zəmin hazırlanmalı,
- Sabit qiymətlərlə milli gəlirdə və adam başına düşən milli gəlirdə meydana gələn artımları təmin edən mühit formalaşdırılmalıdır.

İqtisadi inkişafa təsir edən müxtəlif amillər vardır. Bunları dövlətin dəstəkləyici və təşviqedici tənzimlənməsi, əhali, enerji, maliyyə, vergi sistemi, yüksək texnologiyanın təşviqi, ekologiya və beynəlxalq köç kimi dəyərləndirmək olar.

Texnologiyanın sürətli inkişafı və artan rəqabətin innovasiyanı sahibkarlıq fəaliyyətinin yaranması istiqamətlərində əsas şərt halına gətirdiyini söyləmək mümkündür. İnnovasiya fəaliyyətləri sahibkarlıq yanaşması

ilə kiçik şirkətlərin təşəkkül tapa biləcəyi kimi, birdən çox firma arasında da reallaşa bilər. İstehsal sektorundan xidmət sektoruna qədər geniş sahəni əhatə edə bilən innovasiyanın yerli, regional və ya ölkə səviyyəsində stimulverici rol oynadığı məlumdur. Müxtəlif səviyyələrdə təzahür edən innovasiya, regionda sinerji yaradaraq iqtisadi inkişafda əhəmiyyətli rol oynayır. İnnovativ yanaşma ilə əlavə dəyəri qazanmaq rəqabət və inkişafda açar rolunu oynayır.

İnnovasiyanı real həyata tətbiq edib kommersiyalaşdırmaq, hazırda ən əhəmiyyətli rəqabət gücü olaraq qiymətləndirilir. İnnovasiyanın qazandırdığı rəqabət üstünlükləri firmaların üstünlükləri firmaların diqqətində daha da aktuallaşır [2].

Hazırda, dövrün ehtiyacını daha doğru müəyyən etmiş olan ölkələr orta və uzun müddətli texnologiya siyasətlərini həyata keçirirlər. Texnologiya siyasəti sənaye siyasətinin bir hissəsi kimi qiymətləndirilə bilər. Texnoloji yeniliklərin tətbiqi ilə artan məhsuldarlıq göstəriciləri, ölkələrin sənaye siyasətinin ən əhəmiyyətli amili hesab olunan texnologiya siyasətinə də təsir edir. Bunu nəzərə alaraq, deyə bilərik ki, ölkənin sənaye siyasəti texnoloji yeniliklərin işlənməsi və tətbiqi də əsas götürülərək, istehsal imkanları və texnoloji yenilik nəticəsində ortaya çıxan tələblər çərçivəsində yenidən təşkil olunmalıdır. Sərbəst bazar şəraitində texnoloji yenilik və buna olan ehtiyac bazarın iştirakçıları tərəfindən müəyyənləşdirilir. Lakin, qeyd etməliyik ki, dövlət bu prosesə müxtəlif səbəblərə görə müdaxilə edir.

Rəqabət şərtləri və rəqabət mühitinin təşkil edilməsi üçün lazım olan, hüquqi tənzimlənmə mexanizmlərinin yaradılması dövlətin birbaşa dəstəyi ilə təmin edilir. Sağlam inkişaf prosesinin təmin olunması və onun ədalətli şəkildə işləyə bilməsi üçün, texnoloji yeniliyə əsaslanaraq inkişaf etdirilən məhsul və ya xidmətlərin qanunvericiliyə uyğun olaraq, zəmanət altına alınması bir zərurətdir. Bu cür qanuni tənzimləmələr yalnız fiziki mənada ortaya qoyulan məhsulları deyil, bəzi hallarda, həyata keçirilməmiş fikirləri də əhatə edir. Bu vəziyyətin təbii bir nəticəsi olaraq, bəzən inhisarların meydana gəlməsi də qaçılmaz olur.

Potensial olaraq müdafiə sektoru və bu kimi sahələrdə, yalnız dövlətin müştəri mövqeyində olması, onun bu sahədə uzun müddətli söz sahibi olmasını, həmçinin bu siyasəti gələcəkdə də tənzimləməsi ehtiyacını hiss etdirir. Texnologiya siyasətinin inkişaf etdirilməsində diqqət edilməsi lazım olan digər bir məsələ isə, əldə ediləcək informasiyanın prosesin iştirakçı tərəfdaşlarından kənar mexanizmlərə yayılmasıdır ki, bu da iki formada mümkün ola bilər. Birincisi, layihə çərçivəsində ixtisaslaşmış işçinin firmadan ayrılması, ikincisi isə son məhsulun başqa firmalar tərəfindən tədarük edilərək içərisində yer alan məlumatın istifadə edilməsi şəklində ola bilər.

1980-ci illərdən etibarən iqtisadi inkişaf nəzəriyyəçiləri inkişafda innovasiya anlayışının əhəmiyyətini vurğulayırlar. Latın mənşəli "innovatus" sözündən törəmiş olan innovasiya ictimai, mədəni və inzibati mühitdə yeni üsulların, metodların istifadə edilməsi ilə müəyyən olunmuşdur. İnnovasiyanı "inkişafın stimulverici qüvvəsi" olaraq görən Joseph Schumpeterə görə innovasiya sahibkarlara gəlir gətirən və texnoloji inkişaf nəticəsində ortaya çıxan anlayışdır. Dosi Giovanni yeniliyin yalnız icad mərhələsini deyil, qazanc məqsədi ilə bazara çıxarılması və ticariləşməsini də əhatə etdiyini ifadə etmişdir. OECD innovasiyanı performans xüsusiyyətləri artırılmış bir məhsulun, istehsal texnikasının kommersiyalaşdırılması, mənimsənməsi və ya bazara təqdim edilməsi olaraq təyin etmişdir [3].

İnnovasiyanın səmərəliliyinin mahiyyəti, onun rifahda, əmək məhsuldarlığında uzunmüddətli davamlı böyüməni təmin edən iqtisadi nəticələri, habelə ölkənin qlobal bazarlarda mövqelər uğrunda rəqabət aparmaqdakı uğurları, habelə onun təmin edilməsi və həyata keçirilməsi üçün zəruri edən amilləri, yenilik üçün əlverişli bir mühit yaratmaq, "innovasiya sistemi" dəstək sahələrinin düzgün prioritetləşdirilməsidir. “İnnovasiya piramidası” və təklif olunan “idarəetmə paneli” anlayışları izah olunur, eyni zamanda yenilik sisteminin bütün mərhələlərində yenilik sisteminin zəruri, əsas şərtlərlə təmin edilməsi izah olunur.

Həyata keçirdikləri yenilikçi layihələrin əhəmiyyətli bir hissəsi ilk növbədə təşkilati və ya marketinq yeniliklərinə yönəldilir və lazımi dərəcədə məhsul və texnoloji yeniliklərin inkişafına yönəldilmir [7].

## ƏDƏBİYYAT SİYAHISI :


1. İ.M.Abbasov, R.F.Sadıqov. Menecment, Bakı-2013
2. Qasımov F.H., Nəcəfov Z.M.. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı-2009
3. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı-2011
4. Tağıyev A.H., Aslanzadə İ.A.. İnnovasiya menecmenti. Dərs vəsaiti. I-II hissə. Bakı-2017

5. Tağıyev A.H., Səfərov Q.Ə.. İnnovasiya layihələrinin menecmenti. Bakı-2013
6. Tağıyev A.H. İnnovasiya. Bakı-2018
7. Tağıyev A.H., Əmirov İ.B.. İnnovasiya menecmenti. Bakı-2010
8. https://mydocx.ru http://www.library.fa.ru/exhib.asp?id=153

# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA MƏNFİ TƏSİR GÖSTƏRƏN ƏSAS ƏTRAF MÜHİT PROBLEMLƏRİ

**Abdiyeva Sineyvər Ayaz qızı**
***Azərbaycan Turizm və Menecment Universiteti, Magistr***
***Elmi rəhbər: c.e.d., prof. R.N.Mahmudov***
***abdiyevasineyver@mail.ru***

## XÜLASƏ

Məqalədə ətraf mühit problemləri və onların turizmin inkişafına təsiri təhlil olunub. Həm dünyada, həm də Azərbaycanda hələ də gündəmdə olan iqlim dəyişkənliyi, su, hava, torpaq çirklənməsi və meşə ərazilərinin sayının azalması kimi əsas problemlərə toxunulmuşdur. Bundan əlavə, məqalədə işğaldan azad olunan ərazilərin hazırki vəziyyətinədə yer verilib.

**Açar sözlər:** ekoloji problem, təbii ehtiyatlar, pandemiya, turizm.

## SUMMARY

## MAIN ENVIRONMENTAL PROBLEMS RELATED TO TOURISM IN AZERBAIJAN

The article analyzes environmental problems and their impact on the development of tourism. Major issues such as climate change, water, air, soil pollution and declining forest areas, which are still on the agenda in both the world and in Azerbaijan, were touched upon. In addition, the article describes the current state of the liberated territories.

**Keywords:** environmental problem, natural resources, pandemic,tourism.

## РЕЗЮМЕ

## ОСНОВНЫЕ ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ, СВЯЗАННЫЕ С ТУРИЗМОМ В АЗЕРБАЙДЖАНЕ

В статье анализируются экологические проблемы и их влияние на развитие туризма. Были затронуты такие важные вопросы, как изменение климата, вода, воздух, загрязнение почвы и сокращение лесных площадей, которые все еще остаются в повестке дня как в мире, так и в Азербайджане. Кроме того, в статье описывается текущее состояние освобожденных территорий.

**Ключевые слова:** экологическая проблема, природные ресурсы, пандемия, туризм.

Ətraf mühit problemləri, müxtəlif insan fəaliyyətləri səbəbindən ətraf mühit amillərinə vurulan zərər nəticəsində yaranan problemlərdir [1, s.19]. Ekoloji problem, hava, su və torpaq vaxt keçdikcə keyfiyyətini və canlıların yaşamağı üçün bütün imkanlarını itirməsi, insan ehtiyacları səbəbindən həddindən artıq istifadə edildikləri üçün bitki və heyvan aləmlərinin yox olması problemidir [1, s.19-21]. Ətraf mühit problemləri daha çox ətraf mühitin çirklənməsi kimi bilinir. Ətraf mühitin çirklənməsi, ətraf mühitdə meydana gələn və hər bir canlıya mənfi təsir edən, ətraf mühit dəyərlərini və ekoloji tarazlığı poza biləcək hər cür mənfi təsirlərdir. Təbii fəlakətlər, vulkanlar, güclü yağış və başqa təbii hadisələr nəticəsində ekoloji problemlər yarana bilər. Ancaq ətraf mühit problemləri daha çox insanın səbəbkar olduğu problemlərdir [2, s.35]. Ətraf mühitlə bağlı problemlərin mövcudluğu və təsirləri hazırda dünyanın bütün ölkələri tərəfindən qəbul edilir. Ətraf mühit

problemləri artıq bir əraziyə, regiona aid olan problem olaraq deyil, qlobal bir problemə çevrilmişdi. Qlobal ekoloji problem, bütün dünya ölkələrini narahat edən və onlara təsir edən, həmçinin yaşadığımız dövrdən gələcək dövrədə öz təsirini göstərə biləcək potensial malik ciddi və hədsiz böyük miqyaslı problemlərə səbəb olmaq deməkdir [1, s.19-20]. Qısası, ətraf mühitə dəyən uzunmüddətli mənfi təsirlər, təkcə bir millətə deyil, bütün bəşəriyyətə, bir canlıya deyil, bütün orqanizmlərə və ekoloji tarazlığa təsir edir və qorunmalıdır [2, s.55]. Ətraf mühitin qorunması həm davam edən yaşayış vəziyyətini qorumaq və zərərli vəziyyəti aradan qaldırmaq məqsədi daşıyır [1, s.20].

Bütün dünya ölkəri və ölkəmiz üçündə əsas ətraf mühit problemləri aşağıdakılardır;

Ø iqlim dəyişkənliyi

Ø hava və su çirkliliyi,

Ø torpaq çirkliliyi

Ø eroziya, meşələrin qırılması, sənaye tullantıları və əhalinin artması nəticəsində yaranan həddindən artıq məhsul istehsalı və istifadəsi nəticəsində planlaşdırılmamış şəhərsalma səbəbindən ətraf mühitin məhv edilməsi[3].

Bəşəriyyətin gələcəyinin təhdid edən ən vacib qlobal mühit problemlər arasında turşu yağışı, ozon təbəqəsinin nazikləşməsi, temperaturun artması və s. də daxil edilir. Bu problemlərlə yanaşı insanın səbəb olduğu daha bir problem, qlobal istiləşmə də aiddir. Sunami, fırtına və zəlzələlərin artması, yerin maqnit sahəsindəki dəyişikliklər və s. insanlar arasında qlobal fəlakət olacağı ilə bağlı fərziyyələrə, qiyamət ssenariləri yaradılmasına və qütblərin yerini dəyişəcəyinin söylənilməsinə gətirib çıxarır. Göründüyü kimi problemlərin meydana gəlməsinin ən vacib səbəbi, insanın təbiət sahibinin özü olmasını görməsidir. Təbii ehtiyatların şüursuz istifadəsi bəşəriyyəti bu problemlərlə üz-üzə qoymuşdur.

Bu icmal baxış çərçivəsindən əlavə ölkəmizin vacib ekoloji problemlərinə aşağıdakılarda daxildir:

Xəzər dənizi ilə bağlı problemlər ölkəmizi də yaxından maraqlandırır. Hər il təxminən 3 milyon $m^3$ miqdarında müxtəlif kimyəvi maddələr və təxmini 100 min ton kanalizasiya suyu ölkəmizin Sumqayıt və Bakı kimi şəhərlərin yaşayış məntəqələri ətrafında Xəzər dənizinə tökülür [4, 5, s.237-244]. Eyni zamanda Xəzər dənizinin səviyyə tərəddüdü Xəzər sahili turizm mərkəzlərinin inkişafına, onların infrastrukturuna ciddi ziyan vurur.

Neft, qaz və digər yeraltı təbii ehtiyatlardan əldə olunan xammal emal nəticəsində əmələ gələn tullantılar hər hansı bir təkrar istifadə və ya təmizləmə tədbirləri edilmədən birbaşa təbiətə atılır.

Əkinə əlverişli sahələrinin intensiv istifadəsi və düzgün olmayan əkinçilik üsulları səbəbindən keyfiyyət və məhsuldarlıq azalmışdır. Bu vəziyyət kimyəvi gübrə və həşərat dərmanlarının istifadəsinə olan tələbi artırmış və bu səbəbdən torpaq və su ehtiyatları əsasında təbii məhsul ilə bağlı problemlər yaranmaqdadır.

Meşə sahələri, insanların yandırmaq üçün oduna olan ehtiyacdan, heyvandarlıq fəaliyyəti, davam edən müharibə və yanğınlar səbəbi ilə gündən-günə azalır [4, 6].

Ölkənin su hövzələri böyük bir ekoloji təhlükə altındadır. Ölkə ərazisindəki çayların su miqdarı azalmaqda davam edir. Gürcüstan və Ermənistandan ölkəmizə daxil olan çayların çirklənmə nisbəti çox yüksək olduğundan, əkinçilikdə suvarma sistemində və daxili ehtiyaclar üçün istifadə olunma ehtimalı azalmaqdadır.

Havanın çirklənməsi vacib bir problem olaraq qalmaqda davam edir. Hələ 1991-ci ildə atmosferə atılan qaz və kimyəvi maddələrin miqdarı 2.600.000 ton hesablanmışdır [4]. Bakı, Sumqayıt, Şirvan və Gəncə metalurgiya və neft-kimya müəssisələrindən havanın çirklənməsi, xüsusilə də, qış aylarında daha çox artır[4].

Radioaktiv çirklənmə hələ də vacib bir problem mənbəyi olaraq qalmaqda davam edir. Məsələn, Qəbələ bölgəsində yerləşdirilmiş rus ordu təsislərindən yayılan radioaktivlərin qarşısı heç cür alınmamışdır. Şamaxı, Zaqatala və Balakən rayonları ilə Abşeron yarımadasındakı neft qazma qurğularının yaxınlığındakı radiasiya miqdarlarının normal dəyərlərin üstündə olduğu ölçülmüşdür[4]. Böyük şəhərlərin və sənaye mərkəzlərinin ətrafında olan kilometrlərlə torpaq, ağır metal, neft-kimya məhsulları ilə flor və digər zəhərli maddələrlə birləşməsi nəticəsində çirklənmişdir. Ekoloji aspektdən neft yataqları çoxdan istifadə edilən Abşeron yarımadası Azərbaycanın ən çox zərər dəyən bölgəsidir. Abşeronun uzun illərdir yeraltı və yerüstü sahəsi neft hasilatı səbəbindən olduqca çox pozulub[4,7].

Əlbəttə ki, bütün bu problemlər ölkəmizin müstəqillik qazanmasından sonra üzləşdiyi keçid dövrü ilə əlaqədar daha da artmışdır.

Onu da qeyd etməliyəm ki, Xəzər dənizi yalnız neft baxımından deyil, həm də kürü istehsalı baxımından dünyanın ən vacib istehsal mərkəzlərindən biridir. Xəzər dənizində yaşayan nərə balığının yumurtasından istehsal olunan kürü dünyanın ən dəyərli kürüsüdür [4]. Xəzərdəki çirklənmə bu balığın və digər canlıların nəslinin tükənməsinə səbəb olmaqdadır.

Azərbaycanın su ehtiyatları məhduddur. Su ehtiyatlarından səmərəsiz istifadə olunması su çatışmazlığı probleminin daha da artırır. Köhnəlmiş və düzgün istifadə olunmayan suvarma sistemi, əkinçilik sektorunda 50% su itkisinə səbəb olur. Sənaye sektorunda suyun təkrar istifadəsi demək olar ki yox səviyyədədir. Ölkədə su çatışmazlığına ən çox Muğan-Şirvan bölgəsində, Abşeron yarımadasında, Araz boyu ovalıqlarda, Mil-Qarabağ bölgəsində və Naxçıvanda rast gəlinir. Azərbaycanın böyük bir hissəsində suyun keyfiyyəti aşağıdır. Xalqın çox hissəsi müasir standartlara uyğun olan su və kanalizasiya şəbəkələrinin olmadığı yaşayış məntəqələrində yaşayır və əhalinin böyük bir hissəsi keyfiyyətli sudan istifadə etmə imkanına sahib deyil. Ölkəmizin əsas hissəsinin su ehtiyacını ödəyən Kür və Araz çayları ölkənin daxilindən və xaricindən, həmçinin sənaye, kənd təsərrüfatı, şəhərsalma nəticəsində tullantı materialları ilə çirklənmişdir [8,4]. Ümumiyyətlə, Azərbaycanda su tullantılarının həcmi digər bir çox ölkələrə nisbətən qat-qat daha çoxdur. Bunun səbəblərindən sudan səmərəli istifadə edən texnologiyalardan az istifadəsi və suyun təkrar istifadəsinin az olmasınında payı var.

Hazırki dövrdə ölkəmizin ən aktual ətraf mühit problemi heç şübhəsiz işğaldan azad olunan torpaqlarla bağlı problemdir. İşğal müddətində ermənilərin həmin əraziləri qarət etməsi ilə ətraf mühit amillərinin vəhşicəsinə istifadəsi və darmadağın hala gətirilməsi ilə demək olar ki, ərazilərin əvvəlki görünüşlərindən əsər-əlamət qalmayıb. Bildiyimiz kimi, bu torpaqlar istər tarixi baxımından, istərsə də təbii və antropogen ehtiyatlar baxımında demək olar ki ölkəmiz üçün olduqca əhəmiyyətli ərazilər hesab edilir. Azad edilən ərazilərdə vaxtı ilə yaşamış vətəndaşlarımız, hətta öz doğma yurd-yuvalarını, yaşadıqları küçə və evləri tanıya bilməmələri üzləşdiyimiz problemin böyüklüyünün bariz nümunəsidir. Bütün bunlara baxmayaraq, ölkə Prezidenti cənab İlham Əliyevin bu ərazilərdə həyata keçirilməsinin əsasını qoyduğu quruculuq işləri nəticəsində yaxın gələcəkdə ölkəmizin əsas turizm bölgəsi olmasını planlaşdırılır.

İşğal müddətində təbii sərvətlərlə (mineral sular, təbiət abidələri və s.), dini, mədəni, tarixi ehtiyatlarla yanaşı, 125 mindən çox eksponant, 67 məsciddən 65-i, 30-dan çox muzey dağıdılmışdır[9]. Kəlbəcər rayonununda yerləşən "İstisu" termal bulağı işğaldan əvvəl 1 sanatoriya və 2 mineral su zavodu istifadə edilirdi, ermənilər bunlardan istifadə etməklə yanaşı, hətta sularıda öz brendləri olaraq dünya ölkərinə təqdim edərək xarici ölkələrədə satışını həyata keçirmişdirlər [9]. Bu yerin gələcək müalicə və sağlamlıq turizm cəhətdən olduqca əhəmiyyətli yerlərdən olması gözlənir.

Azıx mağarası (Xocavənd rayonu) bizi tarixi qədimliyimizi, torpaqların keçmişi baxımında həm ölkəmiz üçün, həm də dünya ölkələri üçün dəyərli yerlərdəndir. Bu mağaradakı mədəni turizmin inkişafı üçün bu əraziyə turizm marşrutu çəkilməklə və tədbirlər görməklə burada turizmi inkişaf etdirmək olar.

Ən çox zərərin dəydiyi rayonlardan olan Cəbrayıl, Qubadlı və Zəngilən ərazilərdəndir. Bu ərazilərdə ediləcək ciddi yenidən quruculuq fəaliyyətləri əsasinda Zəngilan rayonundakı Çinar meşəsi, Süsən meşəsi, Sobu meşəsi, həmçinin Səvəcil meşəsi, bir çox xəstəliklərin müalicəsində istifadə oluna "Qotur" su bulağı (Şayıblı ərazisi), tarixi-mədəni abidələr, Vejnəli qızıl yataqları və s. turistlərin diqqətini cəlb edən ərazilər ola bilər [9]. Cəbrayıl rayonunda Araz çayı üzərində yerləşən Xudafərin körpüsü (11 aşırımlı), Diri və Ölü dağ əraziləri, eyni zamanda Araz çayı yaxınlığından Mincivan qəsəbəsinə qədər işğaldan qabaq əsası qoyulmuş süni göl ərazisi turizm üçün bənzərsiz gözəlliyə malik olan mərkəzlərdən ola bilər[10]. Bunlardan əlavə, Qubadlı rayonunda Haci Bədəl körpüsü, Alban kilisələrini, qoç heykəlləri (bunlar şəhərin simvolu hesab edilir) və qoç qəbir daşları, Laləzar körpüsü (Bərgüşad çayı üstündə) və s. edilən yenidən qurma tədbirləri ilə turizm üçün əhəmiyyət kəsb edə bilər[9].

Onu da qeyd etməliyik ki, Suqovuşan ərazisinin işğaldan azad edilməsi ilə həm elektrik enerjisi ehtiyati üçün, həm də su ilə təmin edilməsi üçün ölkəmizin yaxın gələcəkdə daha da çiçəklənməsi və problemlərin xüsusilədə suvarma ilə bağlı problemlərin azalacağı gözlənir.

Yaşadığımız dövrün aktual problemlərindən biri də həm ölkəmiz üçün, həm də bütün dünya ölkəri üçün çox ciddi və böyük problemə çevrilmiş "Covid-19" yoluxucu xəstəliyidir. Bu xəstəlik demək olarki, hər bir sahəyə təsir edib, dünyadakı iş həyatında 1 ildən artıqdır ki, durğunluğa səbəb olub. Ən çox mənfi təsir edən sahələrdən biridə heç şübhəsiz turizmdir. Xarici ölkələr arasında gediş-gəlişə məhdudiyyətlər qoyulduğundan

və uzun müddət dayandığından turizm sahəsinin "çökdüyünü" desək yanılmış olmarıq. Dünya iqtisadiyyatı və ölkə iqtisadiyyatına vurduğu təsirlər də böyükdür. İqtisadiyyata olan mənfi təsir, həmçinin ətraf-mühitə də mənfi təsir göstərir. Bütün bunlara baxmayaraq, "Covid-19" yoluxucu xəstəliyinin ətraf-mühitə müsbət təsirlərini də olmuşdur; istixana qazları tullantıları azaldı, suyun keyfiyyəti yaxşılaşdırıldı, səs-küy azaldı (xüsusilə də şəhərlərdə), hava keyfiyyəti nisbətən yaxşılaşdı və bəzi hallarda vəhşi təbiətin bərpası təmin edildi [11]. Əlbəttə ətraf mühitdə baş verən bir çox problemlərin səbəbkarı kimi bu xəstəliyində səbəbkarı da insandır.

## ƏDƏBİYYAT SIYAHISI :


1. https://dergipark.org.tr/tr/download/article-file/216104
2. Kaypak, Ş. (2010). Kent ve Çevre Sorunları. Basılı Ders Notları. MKÜ, Antakya.
3. Çevre ve Kültür Kuruluşları Dayanışma Derneği ÇEKÜD (2009). Temel Çevre Sorunları.ErişimTarihi:17.07.2009,http://www.cekud.org/site/page.asp?dsy_id=889.
4. https://dergipark.org.tr/tr/download/article-file/421925
5. EyüpZenginve Nesimi Kamalov, "Uluslararası Hukuk'a Göre Çevre'nin Savaş Sırasında Korunması: Ermenistan İşgali Altındaki Azerbaycan Topraklarında Durum," KOK Araştırmalar Dergisi, C. III, Sayı 1, Bahar 2001,
6. Eyüp Zengin, "Azerbaycan Ormanları ve Sorunları," Orman Mühendisliği Dergisi, Mart 2000, Yıl 37, sayı 3.
7. Ramiz Memmedov, "Abşeron Yarımadasının Esas Toprak Tiplerinin Rütubet ve Temperatur Rejimleri", Azerbaycan İlimler Akademisinin Haberleri, Biyoloji İlimleri Serisi, 1995, No: 3, s. 6.
8. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev 'Ekoloji Turizm (2011) (dərs vəsaiti).
9. https://m.modern.az/az/news/268965
10. http://www.anl.az/down/meqale/iki_sahil/2017/may/541097.htm
11.https://www.bdo.global/en-gb/insights/global-industries/natural-resources/how-does-covid-19-impact-the-environment


# FEATURES OF ADVERTISING TRANSLATION IN TURKISH-ENGLISH


**Abdilda Amina K.**
***Al-Farabi Kazakh National University***
***Academic Supervisor: Master of Arts Kairanbayeva N.N.***
***kairanbayeva.n.n@gmail.com***


## ABSTRACT


The article addresses the problem of correct translation of advertising texts. The translation of these texts should preserve national linguistic and cultural specificities and the translated text should encourage positive associations among the speakers of the language. These actions will contribute to the successful promotion of goods in foreign language. The article also explains the structure and content of Türk Hava Yolları (Turkish Airlines) translation of promotional materials from Turkish into English. In theory this type of text forms both business and advertising texts. Examples are given of the most common transformations and errors in translation. The result of the analysis revealed the specificity of business advertising texts and their translation.



**Keywords:** translation, intercultural communication, advertisements, linguistic specificities, promotional text and cultural.

**ÖZET**

Makale, reklam metinlerinin doğru tercüme edilmesi sorununu ele almaktadır. Bu metinlerin çevirisi, ulusal dil ve kültürel özetleri korumalıydı ve tercüme edilen metin, dilin konuşmacıları arasında olumlu ilişkileri teşvik etmeli. Bu eylemler makalel yabancı dilde başarılı bir şekilde tanıtılmasına katkıda bulunur. Ayrıca makale, Türk Havayolları'nın reklam materyallerinin Türkçe'den İngilizce'ye çevrilmesinin yapısını ve içeriğini ortaya koymaktadır. Teorik olarak, bu tür metin hem iş hem de reklam metinleri oluşturur. Çeviri sırasında karşılaşılan en yaygın dönüşüm ve hataların örnekleri verilmiştir. Analiz, ticari reklam metinlerinin ve çevirilerinin özelliklerini ortaya çıkarmıştır.

**Anahtar kelimeler:** Çeviri, kültürler arası iletişim, reklamlar, dil bilimleri, promosyon metinleri ve kültürel.

**АННОТАЦИЯ**

В статье рассматривается проблема корректного перевода рекламных текстов. При переводе данных текстов должны сохраняться национальная лингвокультурная специфика и переведенный текст должен вызывать положительные ассоциации у носителей языка. Данные действия будут способствовать успешному продвижению товара на за пределами страны. Также в статье раскрыта структура и содержание перевода рекламных материалов компании Türk Hava Yolları (Turkish Airlines) с турецкого на английский язык. Теоретически этот тип текста образует как деловые, так и рекламные тексты. Приведены примеры наиболее распространенных преобразований и ошибок, встречающихся при переводе. В результате анализа выявлена специфика деловых рекламных текстов и их перевода.

**Ключевые слова:** перевод, межкультурное общение, реклама, лингвистические особенности, рекламный текст и культура.

Advertising is information disseminated in any way, in any form and by any means, addressed to an indeterminate circle of persons and aimed at drawing attention to the object of advertising, forming or maintaining interest in it and promoting it on the market. The main functions of advertising are to increase the income from the realization of a product or service. This research focuses on the translation of business promotional materials of an international company. As a result, companies need to make themselves known through promotional materials that are of interest in terms of translation, thus combining the features of both promotional and business texts [1].

The subject of the study is the specificity of business advertising texts and their translation; the object is the advertising portfolio of Türk Hava Yolları (Turkish Airlines) company and two translations into Russian. Turkish Airlines is the flagship carrier of Turkey based in Istanbul. It operates regular flights to 220 foreign and 42 domestic airports in Europe, Asia, Africa and America. Turkish Airlines operates to 120 countries worldwide, more than any other airline. The main hub of the airline is Istanbul New Airport, Istanbul, with secondary hubs being Essenboga International Airport, Ankara and Izmir [2].

As it was mentioned before, promotional text is a text that is circulated orally or in writing and is intended to encourage the consumer to choose the company and its services [3]. In example above we can clearly see how promotional text has been used at airline in Turkey. Türk Hava Yolları (Turkish Airlines) portfolio has a typical advertising text structure and includes the following elements:

1. The slogan expressing the basic idea of advertising text: Dünya Daha Büyük. Keşfet!
2. Consumer interest title: "Gökyüzünün tüm renklerini bulutların arasında keşfedin. Unutulmaz bir manzara eşliğinde, konforlu bir yolculuk deneyimi yaşayabilirsiniz."
3. The main promotional text containing the main arguments in favour of the services provided by the company, for example: "Gökyüzüne doğru kanatlarımızı açtık uçmaya hazırlanıyoruz. Avrupa'nın en genç ve modern filosuna sahip olma hedefiyle hızla ilerledik ve daima teknolojinin sıkı bir takipçisi olduk. Üst düzey konfor sunan, yüksek teknolojik donanıma sahip, yakıt tasarruflu ve çevreye duyarlı uçak alımlarımızla filomuz devleşti".

4. Advertising details used for contact with company representatives: “Türk Hava Yolları Genel Yönetim Binası, Atatürk Havalimanı, Yeşilköy, 34149 İstanbul Türkiye” [2].

Each promotional text is addressed to a target audience. Turkish Airlines target audience is mostly international, with subsidiaries in more than 127 countries, it needs to attract more potential customers.

Since this advertising portfolio is written in English as a language of international communication, the target audience of the company is wide. However, when it is translated, the target audience is narrowed down to the business representatives of a country.

Grammatical Features. In the submitted portfolio there are verbs which show that the customer’s problems can be solved with the services offered by the company:

“Gökyüzüne doğru kanatlarımızı açtık uçmaya hazırlanıyoruz”

In English translation: “We've spread our wings towards the sky, getting ready to fly!” [2].

In literal translation like “We've spread our wings toward the sky, preparing to fly”, we can find some mistakes, such as:

- Grammatically incorrect translation. It will not convey the meaning of the text. Defective translation cannot be used as advertising text.

- Incomprehensible for foreigners. The company is represented on the world market, therefore audiences for advertising on the world level. Poor quality translation will affect the reputation of the company and its further sales results.

- Intercultural aspects are not considered. Intercultural aspects are an important point in translation. As mentioned above, the audience for advertising is composed of users from 127 countries and a meaningful translation for advertising text exposes empathy and assists in creating a picture of the company for the audience.

- Idiom translation.

In addition to intercultural aspects, it is important to correctly translate idioms. Translations should preserve national linguistic and cultural specificities and the translated text should encourage positive associations among native speakers of the language.

As the second example of advertisement translation, we can take Turkish Airline`s title:

“Avrupa’nın en genç ve modern filosuna sahip olma hedefiyle hızla ilerledik ve daima teknolojinin sıkı bir takipçisi olduk. Üst düzey konfor sunan, yüksek teknolojik donanıma sahip, yakıt tasarruflu ve çevreye duyarlı uçak alımlarımızla filomuz devleşti” [2]

If this sentence was translated literally, it would be like this:

We progressed rapidly with the aim of having Europe's youngest and most modern fleet and we have always been a strict follower of technology. Our fleet has grown with our purchase of high-tech, fuel-efficient and environmentally friendly aircraft that offer high-level comfort.

I would translate this text correctly:

We fly to more countries than any other airline. Keeping up to date with technology is an essential component of our innovation aims and in maintaining that we have the youngest and most modern fleet in Europe. Our fleet had flourished thanks to our high-tech, fuel-efficient and environmentally conscious aircraft purchases that provide a high level of comfort.

According to the aspects above we can make to conclusion that translation of advertisements should pay attention to:

- Audience, culture, business. The advertisement is created these points, and it is therefore necessary to take into account the opinions of the audience and linguistic specificities. The translated text should encourage positive associations among the speakers of the language. These actions will contribute to the successful promotion of the product outside the country.

- Careful choice of words. The specificity of business promotional texts is determined with the help of literate and correct translation.

- Reputation of the company. High-quality promotional text will allow clients to make sure that the company really values its reputation. This ensures audience confidence.

Slogans can also play a special role in drawing attention of customers. Slogan is a short sentence or phrase that carries basic advertising information, then the highest expression of its artistic value is the ability

to be remembered as a successful phrase and, ideally, to enter into everyday speech, as it happens with good words, but not lose touch with advertised [4].

For example, in the slogan "Dünya Daha Büyük. Keşfet!" is translated like "Widen Your World". Meaning of this slogan a call to the viewer to explore the world, and through it ourselves, with our five senses.

Examples of slogans in other airlines include:

Air Astana – "From the Heart of Eurasia" – "Avrasya'nın Kalbinden"

Spirit Airlines – "Catch the Spirit!"- "Ruhu yakalayın!"

American Airlines – "Fly the american way" – "Amerikan yolunu uçurun"

Southwest Airlines - "How do we love you? Let us count the ways" – "Sizi nasıl seviyoruz? Gelin yolları sayalım" [5].

The slogan has a summary role and usually stands at the end of the advertisement next to the advertiser's name or advertised. In my opinion, the slogan is the sum total of everything said and advertised. It acts as a link between individual messages of a general advertising company, serves as an identification mark.

Syntactic Features.

Short is one of the main features of advertising, because advertising is a sector of a brand, a company, a product that does not impose information on the consciousness of potential customers. For instance, the title of company "Turkish Airlines": "Gökyüzünün tüm renklerini bulutların arasında keşfedin. Unutulmaz bir manzara eşliğinde, konforlu bir yolculuk deneyimi yaşayabilirsiniz"

"Discover the colors of the sky above the clouds. Enjoy your travel with comfort, and remarkable scenery". Translation in English consists of simple sentences.

As in other official-business-style texts, most sentences are prefaced in direct word order and are characterized by short sentences and rational use of language tools.

Stylistic features. Besides the fact that the text is promotional, although the advertising here is implicit, it can also be considered business because it contains a strict regulation of language requirements (neutral tone, conciseness and clarity). It is informative and contains complete information about the company, its services, advantages over others, and what the consumer will get if they turn to it.

First, the translator faces the question of how to correctly translate the company name into Turkish or to another language. To avoid confusion, the original name in English is often retained. If for some reason the interpreter is unable to do so, the name is transcribed or transliterated. In our case, if you leave the original name "Türk Hava Yolları" (Turkish Airlines), the reader may have doubts about what language it is written in. Therefore, it is preferable to use a direct transfer facility – Türk Hava Yolları (Turkish Airlines). It is important to remember that company names, written as abbreviations, are not marked in quotation marks [6].

Lexical transformation

Lexical transformations are deviations in translation from the vocabulary, which consist of replacing individual lexical units of the source language with lexical units of the language other than their equivalents [7]. In the process of translation, one cannot avoid the difficulties associated with the retention and transfer of values. The semantic structure is unique for each language, and the complete coincidence of the lexical composition of the two languages is impossible, which leads to difficulties in translation [8]. In this case, lexical transformations that exist alongside grammatical and syntactic transformations become indispensable translator assistants.

Calque:

Dünya Daha Büyük. Keşfet Widen Your World

1st table

Concretization:

Gökyüzüne doğru kanatlarımızı açtık uçmaya hazırlanıyoruz. We've spread our wings towards the sky, getting ready to fly

2nd table

Generalization:

Gökyüzünün tüm renklerini bulutların arasında keşfedin. Unutulmaz bir manzara eşliğinde, konforlu bir yolculuk deneyimi yaşayabilirsiniz. Discover the colors of the sky above the clouds. Enjoy your travel with comfort, and remarkable scenery

3rd table

In conclusion, it can be concluded that promotional text is one of the ways to promote goods or services on the market in order to attract potential customers. What we found out is that it has its own specific structure: a slogan, a headline, a main text; at the end, it usually leaves promotional details for communication with the company. Vocabulary is carefully selected for successful advertising: there must be a vocabulary that shows the positive aspects of the product, especially its uniqueness, and stylistic techniques are used for emotional coloring. From a grammar point of view there is interest in using some grammatical construction, verb form, articles, and so on. With regard to syntax, the main properties of advertising text are brevity, repetition, word order; also advertising text is often written in simple sentences. Stylistically promotional text should contain complete and clear information about the company and its services with neutral key.

When we want to translate advertising texts of the company, it is necessary to consider the peculiarities of translations of both advertising and business texts. Large such texts can be successfully translated through translation transformations. In our text we have identified lexical (transliteration and transcription - used for translation of company names; calcification, specification, generalization), grammatical (permutation, sentence membership, consolidation of sentences, grammatical substitution) and complex (antonymic translation, compensation, additions) transformation.\

## REFERENCES


1. www.multisearch.mq.edu.au.com
2. www.turkishairlines.com
3. Barkhudarov, L.C. Language and translation (Questions of general and private translation theory), 1975 - 240p.
4. William Wells. Advertising: principles and practice. Advertising: principles & practice. - SPb.: Peter, 2001 – 736p.
5. www.brandingreference.com/airline-slogans-taglines/
6. Komissarov V.N. Theory of translation: (Lingv. aspects) – 3p.
7. Knyazheva E.A. Quality Assessment of Translation: Problems of Theory and Practice, 190-195p
8. Garbovsky N.K. Theory of translation: Textbook, Moscow, 2004 – 544p.


# ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ: ATƏT VƏ MİNSK QRUPU

**Abdinova Nigar**

## XÜLASƏ

1988-ci ildə başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1990-cı ildən bəri müharibəyə çevrilmişdir. 1994-cü ilə qədər davam edən toqquşmalar nəticəsində çox sayda insan ölmüş və yaralanmış, minlərlə Azərbaycanlı yaşayış yerlərini tərk etmişdir.

Nəticə etibarıyla, Azərbaycan ərazilərinin 20% -i Ermənistanın işğalı altında qaldı. Problemin başlanğıcından bəri aparılan danışıqlar nəticəsində 2020 - ci ilə kimi barışıq əldə olunmamışdır. Bu işdə Qarabağın tarixi araşdırılmış, Qarabağ probleminin ortaya çıxması, müharibəyə çevrilməsi və beynəlxalq təşkilatların barışıq cəhdləri qiymətləndirilmişdir. Regional - beynəlxalq problemə çevrilmiş Qarabağ probleminə qarşı regional dövlətlərin və beynəlxalq təşkilatların münasibətləri araşdırılaraq, Azərbaycanın atmalı olduğu addımlarla bağlı tövsiyələr verilmişdir.

**Açar sözlər:** Qrabağ Problemi, Ermənistan-Azərbaycan, Beynəlxalq Təşkilatların Münasibətləri, İşğalçılıq Siyasəti

**SUMMARY**

**ARMENIA'S AGGRESSION TO AZERBAIJAN: OSCE AND MINSK GROUP**

The Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh, which began in 1988, has turned into a war since 1990. As a result of the clashes that lasted until 1994, many people were killed and injured, and thousands of Azerbaijanis fled their homes. As a result, 20% of Azerbaijan's territory remained under Armenian occupation.

As a result of negotiations since the beginning of the problem, no reconciliation was reached until 2020. In this work, the history of Karabakh was studied, the emergence of the Karabakh problem, its transformation into a war and the efforts of international organizations to reconcile were evaluated. The relations of regional states and international organizations against the Karabakh problem, which has become a regional and international problem, were studied and recommendations were given on the steps to be taken by Azerbaijan.

**Keywords:** Karabakh Problem, Armenia-Azerbaijan, Relations of International Organizations, Occupation Policy

**РЕЗЮМЕ**

**АГРЕССИЯ АРМЕНИИ НА АЗЕРБАЙДЖАН: ОБСЕ И МИНСКАЯ ГРУППА**

Армяно-азербайджанский конфликт из-за Нагорного Карабаха, начавшийся в 1988 году, с 1990 года превратился в войну. В результате столкновений, продолжавшихся до 1994 года, многие люди были убиты и ранены, тысячи азербайджанцев покинули свои дома. В результате 20% территории Азербайджана остались под армянской оккупацией.

В результате переговоров с самого начала проблемы примирения не было достигнуто до 2020 года. В этой работе была изучена история Карабаха, оценены возникновение карабахской проблемы, ее превращение в войну и усилия международных организаций по примирению.

Были изучены отношения государств региона и международных организаций против карабахской проблемы, которая превратилась в региональную и международную проблему, и даны рекомендации по шагам, которые должен предпринять Азербайджан.

**Ключевые слова:** Карабахская проблема, Армения-Азербайджан, отношения международных организаций, оккупационная политика.

## GİRİŞ

Sovet İttifaqının yaratdığı məhdudlaşdırıcı çərçivə ortadan qalxdıqca, yeni dövlətlərin qarşıdurmaları və problemləri üzə çıxmağa başlamışdır. Torpaq mübahisələri, şübhəsiz ki, bu problemlərin ən başlıcasıdır. Bu mübahisələrin ən əsası Qarabağ problemi olmuşdur.

Şübhəsiz ki, Ermənistanla Azərbaycan arasındakı Qarabağ münaqişəsinin, nəticələrin nəzərə alındığı 20-ci əsrin ən qəddar və davamlı problemlərindən biri olduğunu söyləmək mümkündür. Tarix boyu beynəlxalq qurum və təşkilatların vasitəçilik səyləri nəticəsiz qaldıqda, hər iki ölkənin özünü müdafiə etməsi nəticəsində çıxılmaz vəziyyətlə üzləşmişik. Bu problem nəticəsində Azərbaycan Respublikası ərazilərinin bir hissəsinin işğalı, on minlərlə ölən və yaralanan, bir milyondan çox qaçqın, minlərlə itkin düşmə halları ortaya çıxmışdır.

Ermənistanin Azərbaycana Təcavüzü: ATƏT və Minsk Qrupu

ATƏT və Minsk Qrupu tərəfindən Dağlıq Qarabağ problemi 1992-ci ilə qədər regional problem olaraq təyin olunmuş və böyük ölçüdə Rusiya Federasiyasının nəzarəti altında qalmışdır. Lakin 1992-ci ildə Azərbaycan və Ermənistanın Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) üzv olduqdan

sonra Rusiya, eləcə də ABŞ, Fransa, Türkiyədəki müxtəlif beynəlxalq təhlükəsizlik qurumları ilə Dağlıq Qarabağ məsələsi beynəlxalq xarakter qazandı.

İranın vasitəçilik səylərində 30 Yanvar 1992-ci il tarixində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) üzv olan iki dövlət olan Azərbaycan və Ermənistan arasındakı problemləri həll etmək üçün ATƏT nümayəndələri bölgəyə göndərilmişdir [4, 33]. İclasda Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu etiraf etmək Azərbaycan üçün böyük əhəmiyyətə malik olmuşdur.

ATƏT-in Azərbaycan üçün vacib hesab edilməsinin səbəbi, Minsk konfransının 1992-ci il mart ayının sonunda Dağlıq Qarabağ münaqişəsinin bu təşkilat çərçivəsində sülh yolu ilə həlli üçün qurulması olmuşdur [3, 13]. Minsk Qrupunun qurucu hədəflərindən ən əsası Dağlıq Qarabağ məsələsini həll etmək olmuşdur. Məlum olduğu üzrə Fransa, Rusiya və ABŞ Minsk qrupuna rəhbərlik etmişdir.

ATƏT-in Minsk Qrupunun Təşəbbüsləri 1992-ci ilin fevralından etibarən Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın (ATƏT) prinsiplərinə uyğun olaraq aparılmışdır. Bu məqsədlə ATƏT-in xüsusi missiyası həmin ilin fevralın ortalarında Azərbaycana gəlmişdir.

Münaqişə zonasında xüsusi zabitlərin müşahidələri 27-28 fevral tarixlərində ATƏT-in Praqa iclasında qiymətləndirilmişdir. Bundan sonra, Dağlıq Qarabağın Azərbaycan Respublikasına məxsus olduğunu təsdiqləyən sənəddə, sərhədlərin dəyişdirilməməsi şərtilə problemin sülh yoluyla həlli barədə qərar verilmişdir.

24 Mart 1992-ci il tarixində ATƏT Xarici İşlər Nazirliyi Şurası, Azərbaycanın Qarabağ bölgəsində ortaya çıxan problemi müzakirə etmək və problemi sülh yolu ilə həll etmək üçün Qarabağla bağlı beynəlxalq sülh konfransı çağırmağa qərar vermişdir. Konfransda ABŞ, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çex Respublikası, Belarusiya, İsveç, Azərbaycan və Ermənistan iştirak etmişdir.

1992-ci ilin may ayında konfransın çağırılması qərarı, iclasın şərtləri və prezidentin səlahiyyətləri ATƏT-in Yüksək Səviyyəli İcra Komitəsi tərəfindən qəbul edilmişdir. Qərarda konfransa qatılan ölkələrin problemin həlli prosesində iştirak etməsi və nəticədə konfransın Belarusun paytaxtı Minskdə çağırılması və yekun sənədin imzalanması nəzərdə tutulmuşdur.

Bu vaxt Ermənistan konfransda Qarabağ ermənilərini tərəf kimi qəbul etməyi təklif etmişdi. Azərbaycan isə buna qarşı çıxmış və Qarabağ ermənilərinin konfransa yalnız Azərbaycan təmsilçiləri ilə qatıla biləcəyini bildirmişdir.

Dağlıq Qarabağ münaqişəsinin sülh yoluyla həlli üçün beynəlxalq konfransın keçirilməsi və ATƏT-in Azərbaycanda nümayəndəliyinin açılması barədə ilk razılıq 1992-ci il 31 mart tarixində ATƏT Xarici İşlər Nazirliyi Şurasının Sədri İrdi Dinstbiromun iclasında əldə edilmişdir [1, 67]. Bu görüşdə Azərbaycanın Dağlıq Qarabağdakı azərbaycanlı və erməni sakinlərinin nümayəndələrinin mümkün bir konfransda yalnız Azərbaycan nümayəndə heyəti daxilində təmsil oluna biləcəyini bildirilmişdir.

1 iyun 1992-ci ildə Minsk qrupunun vasitəçiliyi ilə Romada danışıqların ilk mərhələsi başlamışdır. Qrupun bütün üzvlərinin iştirakı ilə keçirilən bu görüşlər, iyun ayının sonunda bir araya gəlməsi planlaşdırılan Minsk konfransına hazırlıq idi. Ermənistan həmçinin Qarabağ ermənilərini ayrı bir partiya olaraq tətbiq etməyə çalışmışdır. Azərbaycan buna eyni səbəblə qarşı çıxmış və Qarabağ ermənilərinin Azərbaycan nümayəndə heyəti ilə birlikdə danışıqlarda iştirak edə biləcəyini vurğulamışdır. Ermənilər iştirak etməsələr də, danışıqlar aparılmağa davam edilmiş və qəbul olunan sənədlərdə hərbi hissələrin Laçından və Şuşadan çıxarılması, münaqişə səbəbi ilə köç etmək məcburiyyətində qalanların evlərinə qayıtması haqqında qərarlar qəbul edilmişdir.

Danışıqların ikinci mərhələsi 15 iyun tarixində başlamışdır. Bu danışıqlarda olan ermənilər Türkiyənin danışıqlardan kənarda qalması üçün tələb irəli sürmüşdür. Eyni zamanda, Ermənistan Azərbaycanın Goranboy və Ağdərə bölgələrindəki Azərbaycan qüvvələrinin təzyiqləri səbəbindən bu bölgədəki vəziyyətin son sənədə daxil edilməsini tələb etmişdir [1, 24].

Azərbaycan isə buna qarşı çıxmış və bu danışıqlardan nəticə alınmadığını bildirmişdir. Bundan əlavə tərəflərə təqdim olunan 60 günlük atəşkəs razılaşması ermənilər tərəfindən rədd edilmişdir. Bu zaman Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə heç bir əhəmiyyət vermir və ATƏT-in bütün tələblərini rədd edirdi. Bu güzəştsiz münasibətə görə heç bir sanksiya ilə üzləşmədiyi üçün Ermənistan hücumlarını daha da sürətləndirmişdir.

1993-cü ilin avqustunda Minsk Qrupu tərəflər ilə "Təcili Tədbirlər Planı" nı müzakirə etməyə başladıqda, Ermənistan hücumlarını sürətləndirdi və Azərbaycanın Qubadlı, Cəbrayıl və Füzuli bölgələrini işğal etdi. Bölgədə barışıq qurmaq heç cür mümkün deyildi, çünki Ermənistan bütün cəhdlərə baxmayaraq işğalçı münasibətindən əl çəkmədi və beynəlxalq ictimaiyyət problemə kifayət qədər maraq göstərmədi.

ATƏT-in Lissabon Zirvəsi

Azərbaycan, 2-3 dekabr 1996-cı il tarixində ATƏT-in Lissabonda keçirilən sammitində müəyyən edilmiş prinsiplər əsasında Minsk Qrupunun köməyi ilə bir həll tapıla biləcəyinə son dərəcə ümidli idi. Lakin sammit iştirakçıları Minsk Qrupunun Qarabağ münaqişəsinin həlli ilə bağlı təklif etdiyi mətni ilə bağlı razılığa gələ bilmədilər. Bu zirvədə ATƏT sədrliyi Ermənistan xaricində iştirakçıların təsdiqlədiyi prinsipləri dərc etmişdir. Nəşr olunan bəndin mətni belədir: "Minsk Qrupunun Sədrliyi Qarabağ münaqişəsinin həllinin bir hissəsini təşkil edən üç prinsipi tövsiyə edir. Bu prinsiplər Minsk Qrupunun bütün üzv dövlətləri tərəfindən dəstəklənir. Bu üç prinsip bunlardır: [2, 11]

1. Ermənistanın və Azərbaycan Cümhuriyyətlərinin ərazi bütövlüyü;
2. Azərbaycan daxilində ən yüksək özünüidarə dərəcəsi verən öz müqəddəratını təyinetmə əsaslı Qarabağın hüquqi statusu;
3. Bütün tərəflərin razılığını təmin etmək üçün qarşılıqlı öhdəliklər.

İştirakçı dövlətlərdən biri (yəni Ermənistan) bu prinsipləri qəbul etmədi. Bu prinsiplər digər iştirakçı dövlətlər tərəfindən tam olaraq dəstəklənmişdir. Ermənistan bu prinsipləri qəbul etmədiyini açıqlamış, daha sonra Ermənistan nümayəndə heyəti bəyannamə dərc edərək bu məsələyə cavab vermişdir. Bu bəyannamədəki iddialar aşağıdakı kimidir:

1. 1994-cü ildə Budapeşt Sammitində qurulmuş və siyasi bir razılığa gəlmək fikri ilə danışıqlar təklif edən Minsk Qrupunun məktubuna və ruhuna ziddir. Status problemi gələcək birbaşa danışıqların mövzusudur.
2. Siyasi razılaşmadan sonra toplanacaq və məsələni ATƏT-in Minsk Konfransının səlahiyyətinə buraxacaq olan 1992-ci il ATƏT Nazirlər Şurasının qərarı ilə, ziddiyyət təşkil edən Qarabağın statusu əvvəlcədən müəyyənləşdirir.
3. Razılaşdırılmış həll yolu əldə etmək baxımından, erməni tərəfi həm Minsk Qrupu daxilində, həm də bu qrupun həmsədri tərəfindən əlaqələndirilən birbaşa danışıqlar əsasında gərgin danışıqları davam etdirməyə hazırdır.

Göründüyü kimi, Ermənistan bütün ATƏT-ə üzv ölkələrin qəbul etdiyi prinsipləri qəbul etməmiş və bölgədəki sülhə qarşı çıxan Qarabağ münaqişəsi ilə bağlı Avropada təhlükəsizlik və sülhün müzakirə olunduğu zirvə toplantısında barışmaz bir mövqe tutmuşdur [3, 44]. Buna baxmayaraq, ATƏT sədrinin Azərbaycanın israrlı münasibəti qarşısında elan etdiyi prinsiplər Qurumun rəsmi sənədləri arasındadır.

Azərbaycan bu prinsipləri qəbul etdiyini və problemin həllində kompromis tərəfdarı olduğunu bəyan etmişdir. Bunu da qeyd etməliyik ki, problemin bütün Avropa dövlətləri tərəfindən qəbul edilmiş prinsiplər çərçivəsində həlli baxımından heç fürsətdən istifadə edilməmişdir.

## NƏTİCƏ

Həmin dövr üçün Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsuliyyəti Ermənistanın üzərinə düşmüşdür. Sonda qeyd etmək lazımdır ki, Azərbaycan və Ermənistan iki qonşu dövlətdir. Qonşu dövlətlər dostluqda və mülayim siyasətdə yaşamalıdır. Yalnız sülh, hər iki ölkənin sosial və iqtisadi cəhətdən inkişafına və dünya dövlətlərində əlverişli mövqe yaratmasına imkan verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. "Azerbaycan Ülke Raporu", Avrasya Dosyası, 2015, sayı 1. Avrasya Dosya Dergisi, C. II, S. 4: 100 s.
2. "Dağlık Karabağ Özerk Bölgesi Şubesi", Azerbaycan Sovyet Ansiklopedisi, Bakü, 2016, 511 s.
3. Azerbaycan Cumhuriyetindeki Mülteciler ve Yerinden Edilmiş Kişiler Hakkındaki İstatistik Albümü, Devlet İstatistik Komitesi Yaz, Bakü, 2014: 455 s.
4. Abbasov T.A. (2017) Devlet Başkanları Toplantısı, East-Coat Yayınevi, Bakü; 455 s.

## PSYCHOLOGICAL FEATURES OF DEVIANT BEHAVIOUR IN ADOLESCENTS

**Abdullayeva Fidan Adalat qizi**
***Western Caspian University***

Relevance of the topic: In modern society, the interaction between an individual, family and society takes place in a context of qualitative changes within social relations, which leads to not only positive but also negative consequences in various fields of social life. On one hand, deviant behavior of adolescents is the result of the processes taking place in society in different directions according to content and form. On the other hand, it is the changes taking place in one's immediate environment, i.e. in family and school.

Purpose of the study: The aim of our study is to study the impact of the family and school on the development of deviant behavior in adolescents in the event of inadequate self-esteem.

Results: Deviant teens are more likely to live in troubled families. Incomplete families, conflicted families, "antisocial" families, "families with alcoholic parents", families with mentally ill parents, other families that pose a "high risk" for the development of deviant behaviour in adolescents.

## POLİETİLEN, POLİPROPİLEN VƏ POLİVİNİLXLORİDDƏN İBARƏT POLİMER QARIŞIQLARIN HAZIRLANMASI VƏ TƏDQİQİ

**Abdullayeva G.M., Bünyadzadə İ.A., Alosmanov R.M.**
***Bakı Dövlət Universiteti***
***gozel.abdullayeva2@gmail.com***

### XÜLASƏ

Sənayedə ən çox istehsal və istismar olunan polietilen (PE), polipropilen (PP) və polivinilxloridin (PVX) həlledici mühitində (CCl4) mexaniki olaraq qarışdırılması nəticəsində alınan polimer qarışıq həm yeni və daha asan üsulla polimer kompozisiyaların alınması, həm də daha məqsədəuyğun xassələrə malik polimer materialların əldə edilməsi istiqamətində atılmış mühüm addımlardan biridir. Bu məqsədlə hər üç polimer kimyəvi modifikasiyaya məruz qoyulur və nəticələr analiz edilir. Göstərilən istiqamətdə görülən işlərin müsbət cəhəti həm istifadə edilən bu üç polimerin yenidən istehsalı, həm də tullantısının qarşısının alınmasıdır.

**Açar sözlər:** polietilen, polipropilen, polivinilxlorid, polimer qarışıq, kimyəvi modifikasiya, yenidən istehsal.

### РЕЗЮМЕ

### ПОЛУЧЕНИЕ И ИССЛЕДОВАНИЕ СМЕСЬ ПОЛИМЕРОВ СОДЕРЖАЩАЯ ПП, ПЭ и ПВХ

**Абдуллаева Г.М., Бунядзаде И.А., Алосманов Р.М.**
***Бакинский Государственный Университет***

Смесь полимеров, полученная путем механического смешивания полиэтилена (ПЭ), полипропилена (ПП) и поливинилхлорида (ПВХ) в среде растворителя (CCl4), которая является наиболее широко производимой и используемой в промышленности, имеет как новые методы, так и более простые методы для получения полимера, составы и более подходящие свойства – один из важных шагов на пути для приобретения полимерных материалов. Для этого все три полимера подвергаются химическому модификацию и наблюдаются. Положительной стороной работы в этом

направлении является как воспроизведение этих трёх использованных полимеров, так и предотвращение отходов.

**Ключевые слова:** Полиэтилен, полипропилен, поливинил хлорид, полимерная смесь, химическая модификация.

**SUMMARY**

**PREPARATİON AND RESEARCH OF POLYMER MİXTURES CONSİSTİNG OF PE, PP AND PVC**

The polymer mixture obtained by mechanical mixing of polyethylene (PE), polypropylene (PP) and polyvinylchloride (PVC) in the solution ($CCl_4$) which are the most widely produced and used polymers in the industry, is one of the most important steps in both new and easier method of obtaining polymer compositions and to get polymer materials with new and effective properties. For this purpose, all three polymers are chemically modified and observed. The positive side of the mentioned works is both the reproduction of these polymers and prevention of their waste.

**Keywords:** Polyethylene, polypropylene, polyvinyl chloride, polymer blend, chemical modification, reproduction.

XX əsrin ortalarından başlayaraq, mövcud polimerlərin modifikasiyası üçün yeni texnikaların inkişafının iqtisadi cəhətdən faydalı olacağı aşkar edildi. İki polimerin sadə bir mexaniki qarışığına əsaslanan yeni bir polimer modifikasiyası prosesi isə ilk dəfə Thomas Hancock tərəfindən quttaperça ilə təbii kauçuk qarışığının alınması ilə ortaya çıxdı. Bu proses "polimer qarışıqlar" adlı yeni bir polimer sinfi yaratdı[2].

Polimer qarışıqların hazırlanma səbəbləri[3]:

İqtisadi və elmi maraqlar;

Məhsuldarlığa qoyulan tələblər;

İstehlak tullantılarının xasələrinin yaxşılaşdırılması ilə yenidən istehsalı;

Beləliklə, ən az iki polimerin birləşərək əmələ gətirdiyi polimer qarışıq fərqli xüsusiyyətləri olan yeni sinif materialdır.

Polimer qarışıqların vacib üstünlükləri belə ümumiləşdirilə bilər:

Yeni xüsusiyyətlərin meydana gəlməsi və ya spesifik istifadə üçün mövcud olan xüsusiyyətlərin inkişaf etdirilməsdi;

Materialın işlənmə qabiliyyətinin yaxşılaşdırılması;

İnkişaf etməkdə olan sənayenin tələblərini qarşılamaqda yetərli olmayan polimerləşmə prosesi ənənəsindən çıxmaq;

Polimer qarışıqların hazırlanması kimyəvi modifikasiya və ya polimer mühəndislik əsasında müxtəlif xüsusiyyətlərin bir materialda birləşdirilməsi istiqamətində tətbiq edilən ən effektiv və iqtisadi cəhətdən əlverişli üsuldur. Polimerlərin qarışığın və kompozisiyanın tərkibində matris material haldında olduğu hesab edilir. Bu qarışıqların fiziki və mexaniki xüsusiyyətləri həm qarışdırılması təklif edilən polimerlərin bir-biri ilə, həm də onların mühitlə və doldurucularla qarşılıqlı təsirindən asılıdır.

Polimer qarışıqlar aşağıdakı xüsusiyyətləri əks etdirir[1]:

Mexaniki və fiziki xüsusiyyətlərin maksimum olması;

İndividual polimerlərin unikal xassələrinin çoxkomponentli sistemdə saxlanması;

Polimer qarışıqların xassələrinə təsir edə biləcək amillər:

Polimer zəncirinin həndəsi quruluşu, molekulyar kütləsi və şaxəliliyi;

Zəncirin təkrarlanan fraqmentləri və polimerləşmə ilə müəyyənləşmiş zəncir requlyarlığı;

Düzülüş effekti hesabına polimer zəncirlər arasında yaranan qüvvülər;

Laboratoriya şəraitində PE, PP və PVX-dən ibarət polimer qarışığın alınması istiqamətində aparılan işlər, adətən, ortaq həlledicinin seçilməsi və hər üç polimerin qarışdırılaraq qızdırılması ilə fosfoxlorlaşma reaksiyası əsasında nümunələrin hazırlanmasına əsaslanır. Polimerlər reaksiyaya daxil olma qabiliyyətinin artırılması üçün maksimum xırdalanır, həlledici mühitində və oksigenin iştirakı ilə xlorfosforlaşma

reaksiyasına məruz qoyulur. Hal-hazırda polietilen, polipropilen və polivinilxloridin məhlulda modifikasiyası və funksional qruplu polimer/polimer kompozisiyaları hazırlanması istiqamətində tədqiqatlar davam etdirilir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Cowie, J.M.G., Harris, S., Ribells, J.L.G., Meseguer, J.M., Romero, F., and Torregrosa, C., Macromolecules 32, 4430, 1999.

2. Cizek, E.P., in: Polymer Blends, S. Newman, D.R. Paul (Eds.), vol. 1, Academic Press: New York, 1978.

3. Folkes, M.J. and Hope, P.S., Polymers Blends and Alloys, Blackie Academic Press: New York, 1992.

# QAFQAZDA AZƏRBAYCANIN APARICI DÖVLƏTƏ ÇEVRİLMƏSİ. HEYDƏR ƏLİYEV FAKTORU

**Abdullayeva Nəsrin Famil qızı**
*Bakı Dövlət Universiteti*
*abdulova.99@inbox.ru*

**Açar sözlər:** Ulu öndər, beynəlxalq arena, Bakı-Tbilisi-Ceyhan, inkişaf, neft, Qafqaz
**Key words:** Great Leader, international arena, Baku-Tbilisi-Ceyhan, development, oil, Caucasus
**Ключевые слова:** Великий лидер, международная арена, Баку-Тбилиси-Джейхан, разработка, масло, Кавказ

Azərbaycanın neft sənayesi 150 illik tarixi dövr ərzində böyük bir inkişaf yolu keçmişdir. XX əsrin 70-80-ci illərində Azərbaycanın neft sənayesi böyük nailiyyətlər əldə etdi və maddi-texniki bazası möhkəmləndirildi. Həmin illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin xidmətləri sayəsində neft sənayesində böyük uğurlar əldə edilmişdir. Heydər Əliyev uzaqgörən siyasətçi idi və başa düşürdü ki, respublikanın inkişafı üçün enerji təminatını yaxşılaşdırmalı, sənaye potensialı yaradılmalı, elm və mədəniyyət, insan potensialı inkişaf etdirilməlidir. Azərbaycanın 2020-ci ilədək müəyyən olunmuş inkişaf konsepsiyası və buradakı əsas hədəflər Heydər Əliyev ideyalarından bəhrələnmişdir. Bu hədəflər Ulu öndərin layiqli davamçısı İlham Əliyev tərəfindən müasir reallıqlara söykənməklə zənginləşdirilmiş, Ulu öndərin strategiyası, arzuları artıq həqiqət olmuşdur. Azərbaycanın bugünkü enerji siyasəti Ulu öndərin neft strategiyası əsasında qurulmuş və dünyanın müasir tələblərinə uyğunlaşdırılmışdır. Hələ 70-ci illərin əvvəllərindən başlayaraq Xəzər dənizində planlı şəkildə geoloji-kəşfiyyat işlərinin təşkil olunması Heydər Əliyevin tarixi xidmətlərindən biri idi [12]. Heydər Əliyevin bu illərdə neft sənayesində gördüyü işlər onun uzaqgörən planlarının, xalqımızı müstəqilliyə doğru aparmaq niyyətlərinin əsası idi. Hələ 80-ci illərin axırlarından Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə danışıqlar aparılırdı. Xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklər baş verdi. Bakı şəhərində "Gülüstan" sarayında 1994-cü ilin 20 sentyabrında Qərb dövlətlərinin önəmli neft şirkətləri ilə bağlanan neft sazişi Azərbaycanın yeni tarixinin şanlı səhifəsi idi [3, s.372]. Müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olunan bu saziş "Əsrin müqaviləsi" adlandırıldı. Bu müqavilənin imzalanması müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən hazırlanan neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü idi.

Bu tarixi hadisə ilə Azərbaycan öz sərvətlərinin tam sahibi olduğunu bütün dünyaya nümayiş etdirdi və müstəqilliyini bir daha sübut etdi. Uzun bir müddət imperiya maraqlarına xidmət emiş milli sərvətlərimizin, təbii ehtiyatlarımızın dövlətimizin və xalqımızın rifahı üçün istifadə olunması, bu məqsədlə

xarici investisiyaların cəlb olunması üçün mühüm siyasi addımlar atılmışdır. 1994-cü ilin yazında və yayında İstanbul və Hyustonda keçirilən "Əsrin müqaviləsi" ilə bağlı danışıqların son mərhələsi ağır keçmişdi. Bəzən müəyyən şərtlərin qəbuledilməzliyi ucbatından böhran anları olur, danışıqlar dayandırılırdı. Prezident İlham Əliyev həmin anları belə xatırlayır: "Biz xarici şirkətlərin nümayəndələrinə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu sizin şirkətinizin yalnız bir layihəsində özünü göstərəcək, əgər biz səhv etsək, bu bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Biz heç cür heç bir səhvə yol verə bilmərik" [12]. 400 səhifə həcmində və 4 dildə hazırlanan, tarixi, siyasi, beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alan müqavilə bütün çətinliklərə baxmayaraq Azərbaycanın milli mənafelərinə uyğunlaşdırılmışdı. Bununla da müstəqil dövlətimizin tarixində milli neft strategiyası həyata keçirilməyə başladı. Təməli Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasının gerçəkləşməsi ilə təkcə Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqazda siyasi və iqtisadi sabitlik yarandı [3, s.375].

Azərbaycanın beynəlxalq əlaqələri genişləndi, inkişaf etmiş dövlətlərin iqtisadiyyatımıza marağı artdı. Azərbaycan xalqı öz sərvətləri üzərində sahiblik hüququnu təsdiq etdi. Azərbaycan iqtisadiyyatının dünya dövlətlərinə açıq olması nümayiş etdirildi. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsinə, dünya iqtisadi sisteminə qoşulmasına yol açdı. Beynəlxalq neft sazişlərinin imzalanması bu sazişlərdə iştirak edən dövlətlərlə qarşılıqlı əməkdaşlığın inkişafı üçün təməlin qurulması demək idi. Müqavilənin imzalanması ilə Azərbaycanın geosiyasi mövqeyi möhkəmləndi, dünya iqtisadiyyatına inteqrasiya prosesi sürətləndi. Heydər Əliyev 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı zamanı Azərbaycanın həqiqətlərini bütün dünyaya çatdırır, respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası sahəsində atdığı addımları bəyan etmişdi [7, s.94].

Ümummilli liderin əsasını qoyduğu neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəqli məsələsi idi. Regionda neftin hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə böyük əhəmiyyətə malik Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün mühüm işlər həyata keçirilmişdir. Bu layihənin reallaşması Şərq-Qərb enerji dəhlizinin tərkib hissəsi kimi ölkələrarası beynəlxalq əməkdaşlığın genişlənməsinə stimul verdi və regionda iqtisadi yüksəlişə, yeni beynəlxalq iqtisadi əlaqələrin qurulmasına şərait yaratdı [3, s.379]. Təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın XXI əsrdəki inkişafının əsasını qoyan Heydər Əliyevin neft konsepsiyası Xəzərdəki zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, inkişaf mərhələsinə yol açdı [3, s.382].

1999-cu il aprelin 17-də Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və Ukrayna prezidenti Leonid Kuçmanın iştirakı ilə Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı və Bakı-Supsa neft kəməri istifadəyə verildi. "Çıraq" yatağından hasil olunan neftin Supsa limanından dünya bazarlarına ixracına başlanıldı. İlk dəfə olaraq Azərbaycan nefti istiqamətini dəyişərək şimala yox, qərbə yönəldi. Bütün bunlar Heydər Əliyevin uzaqgörənliyini, onun siyasi, iqtisadi risklərin dəqiq hesablanmış balansı və ölkəmizin strateji maraqları üzərində qurduğu ixrac strategiyasının əsaslı olduğunun göstəricisi idi. Ümumilli liderin müxtəlif ölkələrin dövlət başçıları, neft şirkətlərinin rəhbərləri ilə danışıqları nəticəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması barədə sazişlər imzalandı. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilən Zirvə görüşü zamanı Azərbaycan prezidenti Heydər Əliyev, Türkiyə Cümhuriyyəti prezidenti Süleyman Dəmirəl və Gürcüstan prezidenti Eduard Şevardnadze "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə Bakı-Tbilisi-ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzaladılar. Bununla yanaşı Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsi"nə imza atdılar. Bu, regionda sülhün, sabitliyin bərqərar edilməsi, uzunmüddətli siyasi, iqtisadi mənafelərin təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi yolunda Heydər Əliyevin atdığı növbəti mühüm addım idi. İstanbul sammitində Cənubi Qafqazda və ümumiyyətlə, Qafqazda təhlükəsizlik və əməkdaşlıqla bağlı cənab Heydər Əliyevin çox sərt eyni zamanda çox konstruktiv, tarixi çıxışı baş tutmuşdu [5, s.92].

Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın ən mühüm uğuru olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi reallığa çevrildi. Məhz Heydər Əliyevin əsasını qoyduğu milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birlikdə istismarı

və ixracı ildən-ilə genişləndi və Azərbaycanın valyuta daxilolmaları sürətlə artdı. Bütün bunların sayəsində bügun Azərbaycan sürətli iqtisadi inkişaf tempinə malikdir və mühüm beynəlxalq layihələrin iştirakçısıdır. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiya olunması ilə neftdən gələn gəlirlərin idarə edilməsi sahəsində iqtisadiyyatda ən yaxşı təcrübələr tətbiq edildi. 1999-cu ildə Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondunun yaradılmasının məqsədi ölkəyə daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsinin təmin edilməsi idi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi resurslar, neft sənayesinin yüksəlişi "məqsəd yox, vasitədir" [12].

Göründüyü kimi Heydər Əliyevin neft konsepsiyası təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın XXI əsrdəki inkişafının əsasını qoymuşdur [3,s.380-382]. Və ardınca Prezident İlham Əliyevin genişmiqyaslı siyasəti nəticəsində görülən bütün işlər Azərbaycanın dinamik inkişafına, dünya miqyasında öz mövqeyini daha da gücləndirməsinə əlverişli zəmin yaradacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Əliyev H. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2007, 480 səh.
2. Əliyev İ. İnkişaf-məqsədimizdir. B., Azərnəşr, 2008, 424 səh.
3. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
4. Hüseynova İ. İlham Əliyev və Azərbaycanın milli inkişaf strategiyası. "Dirçəliş-XXI əsr" jurnalı, Bakı, 2004, səh 118-125.
5. Hüseynova İ. Dövlətçilik naminə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2001.
6. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, "Təhsil", 2003, 504 s.
7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 səh.
8. İsmayılov İ. Azərbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış). Bakı.2007

İnternet resursları

9. Azərbaycan beynəlxalq aləmdə sarsılmaz mövqe və nüfuz sahibidir. http://www.anl.az/down/meqale/xalqqazeti/2015/may İstifadə olunma tarixi: 24.04.2021
10. Azərbaycan Qafqazın meqalayihələrinin müəllifidir. http://www.azerbaijan-news.az/ İstifadə olunma tarixi: 25.04.2021
11. Heydər Əliyevin geosiyasi təlimi: XXI əsrdə Azərbaycanın əsas geosiyasi vəzifələri, perspektivləri http://www.anl.az/down/meqale/azerbaycan/2011/may İstifadə olunma tarixi: 25.04.2021
12. Heydər Əliyev və neft strategiyası. https://publika.az/news/ İstifadə olunma tarixi: 25.04.2021


## AZƏRBAYCANIN İTİRİLMİŞ TARİXİ TORPAQLARI


**Abdullayeva Rəqsanə**

***Elmi rəhbər: Abdullayev Babək***



**Açar sözlər:** mübahisəli ərazilər, deportasiya, işğal, "istiqlal bəyannaməsi", yenidənqurma

**Key words:** isputed territories, deportation, occupation, "declaration of independence", reconstruction.

**Ключевые слова:** спорные территории, депортация, оккупация, «провозглашение независимости», реконструкция.


Tarix boyu bütün türk və müsəlman dünyası xarici düşmənlərin hücumlarına məruz qalmış, qırğınlara, fəlakətlərə düçar olmuşdur. Milli və dini mənsubiyyətlərinə görə edilən bu soyqırımlar, deportasiyalar yer kürəsində bir qarış torpağı belə olmayan vətənsiz erməni daşnakları və onların havadarları tərəfindən törədilmişdir.

Iki əsrə yaxın müddətdə xalqımızın qanına susayan, torpağımıza göz dikən ermənilərin törətdikləri vəhşilikləri sadalamalı olsaq cild-cild kitablar yaranar. Ermənilər çar Rusiyasının köməyi ilə "Böyük Emanistan dövləti yaratmaq istəyirdilər. Bu dövləti yaratmaq üçün isə Azərbaycanın tarixi torpaqlarına göz dikmişdilər.

İlk növbədə belə bir ərazi İrəvan xanlığının əhatə etdiyi Azərbaycan torpaqları idi. Artıq ermənilər bu ərazidə əhalinin tərkibində üstünlük qazanmağa nail olmuşdular.1849-cu ildə isə İrəvan quberniyası yaradıldı. XX asrin əvvəllərində Cənubi Qafqaz da yaranmış şərait ermənilərin dövlət yaratmaq arzularını gerçəkləşdirdi. 1917-ci ilin martında yaradılmış Xüsusi Cənubi Qafqaz Komitəsində, bir necə ay sonra yaradılmış Cənubi Qafqaz Komissarlığında və Seymində ermənilər də iştirak edirdilər.[5.s.240] Lakin Cənubi Qafqaz Seyminin dağılması ilə Cənubi Qafqaz xalqları öz müstəqilliklərini elan etdilər. Meydana gələn yeni dövlətlərdən biri də Ermənistan, yaxud Ararat Respublikası idi. Məlum olduğu kimi. Cənubi Qafqazda Seym buraxıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxdı. İlk günlərdə erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı elan edilməsi barədə Azərbaycan hökumətinə müraciət etdi. Gərgin müzakirələrdən sonra Azərbaycan Milli Şurası İrəvan şəhərini siyasi mərkəz etməkdən ötrü ermənilərə güzəştə getdi. Bu zaman Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında da sərhəd məsələləri ilə bağlı danışıqlar aparılırdı. Razılıq əldə edildi ki, Azərbaycan Aleksondropol quberniyası hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. İrəvan şəhəri də bu şərtlə ermənilərə güzəştə gedilir ki. ermənilər Yelizavetpol (Gəncə) quberniyasının bir hissəsinə. yəni Qarabağın dağlıq hissəsinə olan iddiaların- dan imtina edirlər. Bu addım Azərbaycan Milli Şurasının və yeni yaranan Azərbaycan dövlətinin ilk səhvlərindən biri idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın sahasi 113.9 min kv. km olmuşdur. Bunun təxminən 97.3 min kv.km-i mübahisəsiz ərazilər, təqribən 16.6 min kv.km-i isə mübahisəli ərazilər hesab olunurdu [2. s.122]. Mübahisəli ərazilərin 7.9 min kv.km-i İrəvan quberniyasına, 8.7 min kv.km-i isə Tiflis qubemiyasına daxil idi. Ermənistanla mübahisəli ərazilər İrəvan quberniyasına qərb hissəsi xüsusilə Göyçə gölünün bir az cənubundan. Naxçıvan və Şərur-Dərələyəzin qərbindən tutmuş Kasak çayına kimi Arazın hər iki sahili - Böyük Vedi. Eçmiədzin, İqdır və s. ərazilər idi. Həmin ərazilər tarixi Çuxursəd bəylərbəyiliyinin və İrəvan xanlığı- nın ərazilərinə uyğun gəlirdi.

Gürcüstanla mübahisəli ərazilərə isə Qarayazı, Axalski və Siqnaq qəzasının cənub hissələri daxil idi. Qarayazı düzü Gencə-Qazax düzənliyinin davamı olub, həm etnik. həm də iqtisadi cəhətdən onunla bağlı idi. Buranın sakinlərinin 90 faizi azərbaycanlı olmuşdur. Əhalisinin 73.5 faizini azərbaycanlılar təşkil edən Axalski qəzası da gürcülər tərəfindən zəbt edilmişdir. Siqnaq qəzasının qərbində gürcülər, şərqində isə azərbaycanlılar yaşayırdı. XX əsrin ilk rübündə Azərbaycan torpaqlarının itirilməsi prosesi baş verdi.Bu proses müxtəlif mərhələlərdə həyata keçirilmişdi:

1. 1918-1920-ci illər də Azarbaycan Xalq Cümhuriyyəti vaxtında.
2. 1920-ci ilin aprel-noyabr aylarında Azərbaycan SSR elan olunduğu gündən Ermənistanda sovet hakimiyyəti qurulanadək.
3. 1920-ci ilin noyabrından 1921-ci ilin fevralınadək - Gürcüstanda Sovet hakimiyyəti qurulanadak.
4. ZSFSR-in təşkili va onun SSRİ tərkibinə daxil olmasına kimi - "müstəqil" Zaqafqaziya sovet respublikalarının fəaliyyət göstərdiyi dövrdə.

1919-cu ilin iyun ayının axırında erməni silahlı qüvvələri Zəngəzura soxuldular. Azərbaycan ordusunun hissələri Zəngəzuru tutmuş erməni hərbi qüvvələrinə qarşı hücuma keçdi. Noyabrın 23-da Azərbaycanla Ermənistan arasında saziş bağlandı və erməni hərbi hissələri Zəngəzuru tərk etdilər. Azərbaycan öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən Ermənistan sazişi pozaraq Zəngəzura nizami qoşun hissələri yolladı və yerli müsəlman əhaliyə qarşı talan və qırğınlar törətdilər. [1.s.186.] Dekabrın 30-da Azərbaycan hökuməti müttəfiq dövlətlərin Zaqafqaziya da ki, baş komissarından xahiş etdi ki, erməni ekstremistlərinin özbaşınalığına son qoyulsun. 1920-ci il avqustun 5-9-da qırmızı ordu hissələri Zəngəzura soxularaq buradakı erməni generalların Dro və Nijdenin qoşunlarını bölgədən qovub çıxardı. Lakin 1920-ci ilin avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında müvəqqəti saziş bağlandı və onun şərtlərinə görə Şərur-Dərələyəz qeyd- şərtsiz Ermənistana verildi. Qarabağ. Zəngəzur və Naxçıvan isə yenə də "mübahisəli vilayətlər elan olundu. Bununla Rusiya Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü.

Dekabrın 25-da onlar Zəngəzurda "Azad Sünik hökuməti" təşkil etdilər. Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın əlinə keçdi. Bununla da Azərbaycan ərazisinin 4505 kv.km-ni itirdi. Ermənilər Zəngəzurdan sonra Naxçıvanı da ələ keçirəcəklərinə ümid edirdilər. Rusiya Naxçıvanın Ermənistana verilməsini təkidlə tələb edirdi.Azərbaycan hökuməti 1919- cu il 28 fevral tarixli qərar ilə Naxçıvan general

qubernatorluğu yaratdı. Bəhram xan Naxçıvanski general-qubernator tayin edildi. " B. Şahtaxtinskinin RSFSR XKS-nin sədri V.Lenina göndərdiyi arayış və sənədlər də öz təsirini göstərdi. 1921-ci il martın 16-da isə RSFSR ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsi ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verdi, onun sərhədlərini dəqiqləşdirdi və Azərbaycanın onu üçüncü dövlətə güzəştə getməməsi göstərildi. Bununla da Naxçıvan məsələsi özünün ədalətli həllını tapdı.

1929-1931-ci illərdə Əldəra, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi və həmin ərazidə Mehri rayonunun yaradılması nəticəsində Naxçıvan bölgəsi Azərbaycanın digər torpaqlarından ayrı salındı. Eyni zamanda Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il fevralın 18- da keçirilən iclasında 1921-ci il Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozularaq Naxçıvan MSSR-in 9 kəndi – Qorçevan, Qurdqulaq. Xaçın, Horadiz, Oğbin, Ağraç, Almalı, və Sultanbay kəndləri öz torpaqları ilə birlikdə, habelə Kilit kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi.Bu illərdə Qazax qəzasının dağlıq hissəsi - Dilican ərazisi də Ermənistana verildi. Yenə Zaqafqaziya MİK Rəyasət Heyətinin 1938-ci il 5 mart tarixli iclasının qərarına əsasən Şərurun Sədərək və karki kəndləri ətrafındakı muəyyən ərazilər Ermənistana keçdi. Beləliklə, həmin illərdə Azərbaycanın 27.599 kv.km ərazisi itirildi. 1918-ci ildə Azərbaycan və Gürcüstan dövlətlərinin təşəkkülü gedişində Zaqatala dairəsinin siyasi mənsubluğu problemi ikitərəfli münasibətlərin gərgin məsələlələrindən biri idi.[4.s.350] 15 noyabr 1921-ci il M.Hacıyev - B.Mdivani sazişi ilə Gürcüstan SSR Zaqatala dairəsinə olan bütün iddialarından ol çəkirdi. Lakin gürcü hakimiyyət orqanlarnı zaqatalalıları Şirək çölündən sıxışdırıb çıxarma kursu yürüdürdü. 1924-cü ilin oktyabrından 1927-ci ilin əvvəlinədək Şirək çölündən qəzanın 17 kəndi tamamilə sıxışdırılıb çıxarılmışdı ki, nəticədə bu kəndlər 9.2 min hektar torpaq itkisinə məruz qalmışdı. Ümumiyyətlə. Azarbaycanla Gürcüstan arasında mövcud torpaq mübahisələri haqqında 20-ci illərin ortalarında və ikinci yarısında qəbul edilmiş qərarlar nəticəsində 63 min hektardan artıq ərazi Gürcüstana verilmişdi.

XX əsr boyu ermənilər Azərbaycan torpaqlarını hiylə ilə ələ keçirir. "böyük Ermənistan": genişləndirirdilər. L.Mirzoyan Azərbaycan KP MK-nın katibi işlədiyi dövrdə - 1929-cu ildə Qazax rayonundan 50 kv.km torpaq sahəsini. Cəbrayıl qəzasının Nüvədi, Elnazir, Tüğud kəndlərini Ermənistana verdi. 1946-cı ildə daha 40 kv.km meşə sahasi Ermənistana bağışlandı. V.Axundovun rəhbərliyi dövründə isə Gədəbəy rayonunun Şınıx zonasından 76 kv.km torpaq sahasi olan Hacılar sovetliyinin Tağlar kəndi, Qaravəllilər və Göyəlli kəndlərinin yaylaq və biçənək sahələri Ermənistana verildi. 1984-cü ildə Qazax rayonu ərazisindən müəyyən torpaq sahasi Ermənistana verildi. Belə ki, ermanilar Azərbaycan SSR rəhbərliyində yaranmış zəiflikdən istifadə edərək 1984 cü ildə Qazax rayonunun 5 min hektar torpaq sahəsinin Ermənistan SSR-3 verilməsi haqında rayon əhalisinin qəti etirazına baxmayaraq respublika rəhbərliyinin razılığını ala bilmişdilər. Xalq buna kəskin etirazını bildirsə da, sovet hərbçilərinin köməyi ilə xalqın etirazı ya- tırılmışdı. Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə qədər ermənilər Naxçıvanın Ermənistanla sərhədində olan Sədərək rayonunun ərazisində bir qi- sim torpaqları, Ordubad tərəfdən Mehri ilə sərhəddə olan torpaqları. Gədəbəy rayonundakı Tağlar kəndini, Qazax. Qubadlı və Laçın rayonlarından bir sıra torpaqları iddia edirdilər. XX əsrdə ermənilər bir neçə dəfə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqında məsələ qaldırmış, lakin məqsədlərinə nail ola bilməmişdilər.

XX əsrin 80-ci illərində meydana atılan "yenidənqurma" və "aşkarlıq" Azərbaycanın DQMV-də milli münaqişə ocağının yenidən alovlanmasına gətirib çıxardı. Rus hərbi hissələri ilə birləşmiş erməni dəstələri ilk vaxtlardan Azərbaycan torpaqlarını işğal etməyə başladılar. Dağlıq Qarabağ və atraf ərazilər işğala məruz qaldı. Problemin həlli" üçün görülmüş "tədbirlər" heç bir səmərə vermədi. Rus əsgərlərinin yaxın-dan iştirakı ilə ermənilər yeni-yeni ərazilər zəbt etdilər. Kərkicahan. Malıbəyli. Quşçular. Xocalı kəndlərini zəbt edən ermənilər 1992-ci il mayın 8-də Şuşanı ələ keçirdilər. Daha sonra Laçın. Kəlbəcər. Ağdam. Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonla-n işğal olundu. İtirilmiş torpaqlarımız 13082 kv.km olmuş. bunun 4372 kv. km-i Dağlıq Qarabağa. qalanı isə ətraf rayonlara aiddir. Ümumiyyətlə götürüldükdə. XX əsrin 20- 90-cı illərində 40.681 kvadrat kilometr ərazilərimiz Emanistan SSR və ya ermənilər tərəfindən işğal olunmuşdur Dağlıq Qarabağ məsələsi ortaya atılandan sonra Azərbaycanın vəziyyəti daha da ağırlaşdı. [3.s.72]ərazi bütövlüyü pozuldu. 1990-cı ilə kimi DQMV. keçmiş Şaumyan (kənd) rayonu. Çaykənd kəndi Azərbaycanın tabeçiliyndən çıxmışdı. Şərur rayonunun Kərki kəndi Ermənistan tərəfindən tamamilə işğal olunmuşdu. 80-ci illərin sonu 93_cü ilin oktyabr ayına qədər isə rus hərbçilərinin yardımı

ilə Dağlıq Qarabağı və onun ətrafındakı 7 Azərbaycan rayonunu işğal etmişdir. Lakin Müzəffər Azərbaycan ordusu və Ali baş kamandan İlham Əliyevin başçılığı altında 2020 cı il 27 sentyabrda başlamış və 44 gün davam etmiş İkinci Qarabağ döyüşləri nəticəsində işğal edilmiş Dağlıq Qarabağ və ətrafındakı 7 rayonumuz və Qazaxın bir neçə kəndi mənfur ermənilərin işğalından azad edilmiş Naxçıvana olan quru sərhədimiz bərpa edilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Əliyev S. Budaqov B. Tarixi həqiqətin soyqırımı Bakı 2003
2. Mustafazadə T.Erməni məsələsindən erməni terrorizminə Bakı 2016
3. Mahmudov Y. Şükürov K. "Qarabağ real tarixi faktlar sənədlər"Baki2009
4. Qurbanov Qafqaz tarixi Bakı 2001
5. Ziya Bünyadov Yusif Yusifov Azərbaycan Tarixi Bakı 1996


# QEYRİ STANDART MƏSƏLƏLƏR HƏLLİNİN TƏLİMİNDƏ QRAFİK TƏSVİRLƏRDƏN İSTİFADƏ EDİLMƏSİ TEXNOLOGİYASI


**Abdullayeva Səmayə**
***ADPU, Şamaxı Filiali***
***Elmi Rəhbər: Firide Mustafayeva P.U.F.D***



**Açar sözlər:** standart məsələ, qeyri-standart məsələ, qrafik, sxem, çertyoj, şəkil.
**Key words:** standard problem, non-standard problem, graphic, scheme, projict, draning.
**Ключевые слова:** стандартная задача, нестандартная задача,График, схема, чертёж, рисунок.


**1. Giriş:** Mövzunun aktuallığı

Son illər Respublikamızda təhsilə, xüsusən, ibtidai siniflərdə riyazi təhsilə dövlətin qayğısı və tələbləri artmaqdadır. Azərbaycanda təhsilin dünya ölkələri təhsilinə inteqrasiyası davam edir. Müasir mərhələdə ibtidai siniflərin riyaziyyat kursu təliminin vəzifələri şagirdlərdə yalnız hesablama və ölçmə bacarıqlarının əldə edilməsi ilə məhdudlaşmır. İndi artıq ibtidai siniflərdə şagirdləri riyazi nəzəriyyənin müəyyən elementlərinə aid biliklərlə silahlandırmaq, müstəqil öyrənmə bacarıqlarını formalaşdırmaq, səviyyələrinə uyğun ümumiləşdirmə aparmaq, yalnız konkret materiala deyil, həm də mücərrəd materiala şüurlu yiyələnmək nəzərdə tutulur.

**İşin məqsədi:** İbtidai siniflərin riyaziyyat kursunun təlimində qrafik əyaniliyin mahiyyətini və formalarını açıqlamaqdan, təlim prosesində şagirdlərin təfəkkürünü inkişaf etdirmək məqsədilə qrafik təsvirlərdən istifadənin əsas istiqamətlərini müəyyən etməkdən və tətbiqi imkanlarını üzərə çıxarmaqdan ibarətdir.

2. Qeyri standart məsələlər həllinin təlimində qrafik təsvirlərdən istifadə edilməsi texnologiyası.

Riyaziyyatdan metodik ədəbiyyatda məsələlər həll edilməsi üsuluna görə standart,qeyri standart məsələlərə bölünür. Standart məsələlərin həllində hazır düsturlardan, mürəkkəbolmayan mühakimələrdən istifadə edildiyi halda, qeyri-standart məsələlərin həllində, onların təhlil edilməsində və situasiyaların modelləşdirilməsində axtarıcılıq və yaradıcı mühakimə tələb olunur. İbtidai siniflərin riyaziyyat kursunda məhz belə məsələlərin həllində şagirdlər ciddi çətinliklə qarşılaşırlar. İbtidai sinif şagirdlərinə standatr olmayan məsələlər həlli təliminin səmərəliliyinin yüksəldilməsində aşağıdakı pedaqoji mülahizələrin gözlənilməsi faydalıdır.

1) Məsələlər təlim prosesinə uyğun müəyyən sistemlə çətinlik dərəcəsini tədricən artırılması yolu ilə daxil edilməlidir.Belə ki, gücə uyğun olmayan məsələ şagirdlərin inkişafına az təsir göstərir.

2) Məsələ həllinin axtarılmasında şagirdlərə maksimum sərbəstlik vermək zəruridir. Şagirdlərin səhv yolla axıra qədər getməyə, bu yolun səhv olduğuna inanmağa, nəhayyət yenidən başlanğıc vəziyyətə qayıtmağa, həllin düzgün yolunu axtarmağa imkan verilməlidir.

3) Standart olmayan riyazi məsələlər həllinin müəyyən üsulları, priyomları, ümumi yanaşmalarını dərk etməklə şagirdə kömək etmək müəllimin borcudur.

I qrup məsələ:

12 m uzunluqda tir 6 bərabər hissəyə mişarlanmışdır. Tir neçə yerdən mişarlanmışdır.

Məsələni oxuduqdan sonra müəllim şagirdlərdən əvvələr bu növ məsələ həll edib-etmədiklərini və belə məsələlərin həlli üsulunun onlara məlum olub – olmadığını soruşur.

Bəzi şagirdlər səhvən bu məsələnin həll üsulunu bildiyini hesab edirlər. “12-ni 6 bərabər hissəyə bölmək lazımdır”. Müəllim nəticəni tapmaq, onu qiymətləndirmək və səhfə inanmağa şagirdlərə imkan verməlidir (12-ni 6-ya bölməklə biz bir hissəni uzunluğunun 2 m olduğunu tapırıq. Məsələdə bir hissənin uzunluğu deyil, tirin neçə yerdən mişarlandığı soruşulur. Aydındır ki, məsələ düzgün həll olunmamışdır).Sonra şagirdlər səhv nəticəyə yenidən qayıda bilərlər: “Neçə hissə varsa bir o qədərdə mişarlanmış yerlər vardır”. Müəllim şərti şəkil və ya çertyoj çəkməklə tapılan cavabı yoxlamağı təklif edir. Şagirdlər tiri 12 dama uzunluqda düzbucaqlı və ya parça ilə işarə edərək onu şaquli xətlərlə 6 bərabər hissəyə bölürlər. Alınan şaquli xətləri sayaraq şagirdlərin əvvəl hesab etdikləri kimi 6 deyil 5 mişar yeri olduğuna inanırlar.

Bu məsələ hesab əməlləri yerinə yetirilmədən həll edildi, çertyoj (şəkil) qurmaqla cavab alındı. Onun altında şagirdlər cavabı yazırlar. Beləliklə, şagirdlər aşağıdakı nəticəyə gəlirlər: tanış olmayan məsələnin həllini axtardıqda certyoj (şəkil) çəkmək faydalıdır. Belə ki, çertyojlarla (şəkillərlə) iş məsələnin həlli üsulu ola bilər.

II qrup məsələ:

Pəncərə üçün pərdənin eni 1 m 20 sm – dir. Birinci və sonuncu halqalar pərdənin kənarına düşməklə bir – birindən eyni məsafədə 6 halqa tikmək lazımdır. Halqalar arasında necə santimetr məsafə saxlamaq lazımdır? Əvvəlki seriyadan çıxarılan nəticəyə əsasən şagirdlər bu məsələyə aid sxematik şəkil cəkməyə başlayırlar. Onlar parçanın başlanğıcında birinci halqanın yerini qeyd edib istənilən uzunluqda parça ayırmaqla ikinci halqanın yerini qeyd edirlər, sonra birinci ayrılan parça uzunluqda parça ayırıb üçüncü halqanın yerini qeyd edirlər və nəhayət 6 halqa yeri qeyd edilənə qədər belə hərəkət edirlər. Şagirdlər alınan sxematik çertyojda 6 halqanın pərdəni böldüyü bərabər hissələri sayırlar. Məsələnin sualına cavab vermək üçün pərdənin enini 5 bərabər hissəyə bölmək qalır: 120:5=24 (sm)

III qrup məsələ:

Qarışqa 30 m dərinlikdə quyunun dibindədir. O, gündüzlər 18 m yuxarı qalxır, gecələr isə 12 m aşağı sürüşür. Quyunun dibindən çıxmaq üçün qarışqaya necə gün lazımdır?

Şagirdlər aşağıdakı kimi mühakimə yürüdürlər:

1) 18-12=6 (m); qarışqa bir sutqada qalxa bilir.

2) 30:6=5 (sutka); qarışqanın quyudan çıxa bilməsinə lazım olan vaxt.

Müəllim şagirdlərə təklif edir:

a) qarışqanın hər gündəki hərəkətini ayrı-ayrı çertyojlarda göstərərək məsələnin həllini yoxlayın;

b) həllin gedişində qarışqanın quyudan çıxmasına necə metr qaldığını hesablayın.

Beləliklə, şagirdlər göstərirlər ki, 3 – cü gün qarışqa 18 m qalxır və quyudan çıxır.

Beləliklə, şagirdlər göstərirlər ki, 3 – cü gün qarışqa 18 m qalxır və quyudan çıxır. Deməli onlar əvvəlcə məsələni düzgün həll etməmişlər. Düzgün cavabın tapılmasına məsələdə təsvir olunan real situasiyadakı dəyişmələri əks etdirən bir necə ardıcıl çertyojların qurulması kömək etmişdir.

IV qrup məsələ:

Qutudakı almaların sayı ikirəqəmli ədədlə göstərilir. Bu almaları 2, 3 və 5 uşağa bərabər paylamaq olar. Lakin 4 uşağa paylamaq olmaz. Qutuda neçə alma vardır?Şagirdlər əvvəlcə məsələyə aid şəkil və ya çertyoj çəkməyə cəhd göstərirlər, lakin almaları 4 uşaq arasında bölmək mümkün olmadığını şəkildə göstərmək mürəkkəb olduğundan şagirdlər çətinlik çəkirlər. Məsələnin həlli üçün çertyojdan necə istifadə edilməsi aydın deyildir. Onda şagirdlər seçmə üsulunu tətbiq etməyə başlayırlar. Müəllim təklif edir ki, seçməni asan yerinə yetirmək üçün əvvəlcə məsələnin ifadəsini dəyişmək lazımdır. Aydınlaşdırılır ki, əgər

almaları 2, 3 və 5 uşağa bərabər paylamaq mümkündürsə, onda almaların sayı 2, 3 və 5-ə bölünür. Əgər almaları 4 uşağa bərabər paylamaq mümkün deyildirsə, onda almaların sayı 4-ə bölünmür. Məsələnin ifadəsi aşağıdakı şəkildə dəyişdirilir. «2, 3 və 5-ə bölünən, 4-ə bölünməyən ən kiçik ikirəqəmli ədəd tapın». Sonra seçmə yerinə yetirilir. Şagirdlər ən kiçik ikirəqəmli 10 ədədini yoxlayırlar. 10 ədədi 2 və 5-ə bölünür, lakin 3-ə bölünmür. Deməli 10 ədədi yaramır. Bütün ədədləri deyil, yalnız 5-ə bölünən ikirəqəmli ədədləri nəzərdən keçirərək seçmə prosesini qısaldırıq. 15 ədədi yaramır, çünki o, ikiyə bölünmür. Bu qayda ilə şagirdlər 30 ədədinə gəlib çatırlar ki, bu ədəd 2, 3 və 5-ə bölünür, 4-ə isə bölünmür. Deməli, qutuda 30 alma var.yoxlayırlar.

Nəticə

Riyazi anlayışların formalaşmasında və qeyri-standart məsələlər həllində qrafik təsvirlərdən istifadə edilməsi ibtidai siniflərin riyaziyyat kursunun şüurlu və möhkəm mənimsənilməsini təmin edir.Qeyri-standart mürəkkəb məsələlərin həlli üsullarının seçilməsində qrafik təsvir vasitələrindən istifadə edilməsi şagirdlərin riyazi inkişafına müsbət təsir göstərir. Şagirdlər müəyyən bir prosesi riyazi dilə çevirməyi öyrənir, onun riyazi modelini qurur. Bununla da onlarda kəmiyyətlər arasındakı miqdar münasibətlərini aşkar etmək vərdişləri formalaşır, inkişaf edir.

Təklif edirik:

İbtidai siniflərin riyaziyyat dərsliklərində həddən artıq əşyəvi – illüstrativ şəkillərin sayını müəyyən qədər azaldaraq, şərti sxemlərin, çertyojların sayının artırılması faydalıdır.

**ƏDƏBIYYAT SIYAHISI :**

1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika: Pedaqoji ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: Renanas, 2000, 202 s.

2. Adıgözəlov A.S., Əhmədov İ.Q. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası: dərs vəsaiti. Bakı: Mütərcim, 2001, 204 s.

3. Paşayeva Ü., Qurbanova L. Müasir riyaziyyat dərsliklərinin inkişafetdirici funksiyası // Kurikulum. 2011, №1 (13), s. 57-64

4. Süleymanov F.S. İbtidai məktəbdə məsələ həlli vasitəsilə riyaziyyat təliminin optimallaşdırılması: ped.elm.nam.... dis. Avtoref. Bakı, 1985, 30 s.

## AZƏRBAYCANDA NANOTEXNOLOGİYANIN İNKİŞAFI

**Abdullayev Fuad Elşad**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***Elmi rəhbər: prof. Səlimova Nigar***
***fuadabdullayev48@gmail.com***

**Açar sözlər:** nanometer, obyekt, debit, quyu, neft
**Ключевые слова:** нанометр, объект, дебет, скважина, нефть
**Key words:** nanometer, object, debit, well, oil

Son illər elmi-texniki tərəqqinin tempi süni yaradılmış nanometr ölçülü obyektlərdən istifadədən aslı olaraq müəyyənləşir. Bu obyektlərin əsasında yaradılmış cisimlərə nanomateriallar, onların istehsal və tətbiq üsullarına nanotexnologiyalar deyilir". Nano"nun mənası çox kiçik deməkdir. 1 nanometr metrin milyardda bir, millimetrin isə milyonda bir hissəsinə bərabərdir. Müqayisə üçün göstərək ki, insan tükünün diametri 5000 nanometrdir.[1,3,5,6]

SOCAR-ın fəaliyyətdə olan fondunda hazırda təxminən 7 min quyu var. onlardan 65%-i az debitli və güclü sulaşmış quyulardır ki, yatağın son işlənmə mərhələsindədirlər və laylardan hasil edilən hər ton neft əvəzinə 13-15 kubmetr lay suyu çıxarılır.Bu problemlərin həlli üçün SOCAR-da nanotexnoloji sistemlər işlənib hazırlanıb ki, onlar şirkətin istehsal sahələrində tətbiq edilirlər. Azərbaycanın Alpout

yatağının təbii xammalının zənginləşdirilməsi nəticəsində hazırladığımız Nanobentoniti xüsusilə qeyd etmək istərdim. Bizim bu unikal nailiyyətimiz Avropa İttifaqı və bütün dünya bazarında texnologiyaların kommersiyalaşmasına xidmət edəcək. Nanobentoniti yalnız neft sənayesində deyil, müxtəlif sahələrdə 200-dən çox istiqamətdə istifadə etmək olar. SOCAR, Almaniyanın Şimali Reyn Vestfaliya Federal Vilayətinin İqtisadi İnkişaf Agentliyi NRW.İNWEST GmbH və Nano- mikrotexnologiyalar yeni materiallar klasteri Nano Mikro+Werkstoffe+Werkstoffe arasında nanotexnologiyalar sahəsində əməkdaşlıq üzrə qarşılıqlı anlaşma memorandumu imzalanıb. Memorandum SOCAR şirkətinin "Nanotexnologiyalar" Elmi İstehsal Mərkəzinin Şimali Reyn Vestfaliya Federal Vilayətində bölməsinin yaradılmasını, eləcə də birgə layihələrin maliyyələşdirilməsini, texniki- hüquqi əsaslandırılmasını, nanotexnologiyaların istehsalı üçün ərazinin müəyyən edilməsini və satış bazarının öyrənilməsini nəzərdə tutur. [1,2,4,7]

## ƏDƏBİYYAT SİYAHISI


1. C.E.Əliyev, "Azərbaycanda neft sınayesinin inkişafı tarixindən", Bakı,1960, səh. 8-10;
2. M.Q.Məmmədli, "Neft-qaz emalının texnologiyası", Bakı,1964, səh. 35-38;
3. A.M. Məhərrəmov, R.A. Əhmədova, F.N. Əhmədova "Neftkimya və neft emalı", Bakı, 2009, səh. 42-46;
4. Q.İ.Səfərov, A.S.Məmmədov "Neft və qaz emalının texnologiyası", Bakı, 2000, səh. 68-71)
5. http://dx.doi.org/ 10.32737/2221-8688-2018-4-537-543
6. www.socar.az
7. http://www.science.gov.az/institutes/116
8. http://static.bsu.az/w35/Neft%20emali%20ve%20neft%20senayesinin%20ekoloji%20problemleri.pdf


# AZƏRBAYCAN RESPUBLİKASINDAKI İŞĞAL EDİLMİŞ MEŞƏ SAHƏSİ VƏ QARABAĞ MÜHARİBƏSİNİN ONLARA TƏSİRİ


**Abdullayev Şahin**
***ADPU-nun Şamaxı filalının tələbəsi***
***Elmi rəhbər: Həmidova Zərifə***



**Açar sözlər:** Dağ-meşə, İşğal, Maddi-mədəniyyət, Mountain-forest, occupation, material-culture, Горно-лесной, род занятий, материально-культурный.


Kiçik Qafqazın dağlıq zonası (meşə ilə örtülü sahənin) 25%-dən çoxu bu ərazilərdədir. Unikal dağlıq meşə landşaftı ilə xarakterizə olunan Qarabağın meşə fondu 133818 hektardır ki, bunun da 101688 hektarı meşə ilə örtülü idi. Bu meşələri əsasən Qafqaz vələsi 43,3 %, Şərq fıstığı 31%, Gürcüstan palıdı, Şərq palıdı 20,7% və s. təşkil edirdi. Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmiş 140 növ nadir və nəsli kəsilməkdə olan bitkilərin əksəriyyəti Yuxarı Qarabağda və ona bitişik işğal olunmuş ərazilərin meşələrində yayılmışdı. 261 min hektar meşə fondu sahəsi Ermənnistan tərəfindən işğal edilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür.

Ağdərə və Xankəndi meşə təsərrüfatlarının böyük ərazini əhatə edən məhsuldar fıstıq meşələri, Laçın rayonunun Şəlvə dərəsindəki qırmızı, dekorativ oduncaqlı mebel, parket üçün əvəzi olmayan iri gövdəli qırmızı palıd meşələri, Bəsitçay qoruğundakı möhtəşəm çinar və qoz ağacları, Kəlbəcər meşə təsərrüfatındakı mebel sənayesi üçün tayıbərabəri olmayan ayı fındığı ağacları, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlər ermənilər tərəfindən vəhşicəsinə qırılılaraq müxtəlif məqsədlər üçün istifadə edilmiş və ya xarici ölkələrə satılmışdır. Meşələrimizin 90% -I (təxminən 800 min ha) dağ yamaclarında

yerləşir. Kiçik Qafqazın dağlıq zonasının Ermənistan tərəfindən zəbt edilməsi ərazidəki mövcud meşə sahələrinə ciddi təsir göstərib.

Qeyd etmək lazımdır ki, Kiçik Qafqazın cənub yamacında (Həkəri hövzəsi) dağətəyi zonada araz palıdı, ardıc və saqqız, arid tipli meşələr, aşağı dağ-meşə qurşağında arid meşələr və iberiya palıdı meşələri, yuxarı dağ-meşə qurşağında isə şərq palıd meşələri yayılmışdı. Nadir meşələrdən Ayı fındığı (Kəlbəcər rayonu), Araz palıdı (Zəngilan rayonu), Azat meşəliyi (Xocavənd rayonu), Pirkal meşəliyi (Xocalı rayonu), Ardıc meşəliyi (Laçın rayonu), Şərq çinarı meşəliyi (Ağdərə rayonu) qarışıq ağaclardan ibarət olub, arealı məhdud idi, reliktdirlər. Bu meşəliklərdəki ağacların orta yaşı 100-1000 il, hündürlüyü 12-34 m, diametric 24-120 sm idi. Burda palıd, vələs, cökə, fındıq, fıstıq, qara çöhrə, şabalıd və s. yaşlı və nəhəng ağaclar vardı. 44 günlük Vətən müharibəsi nəticəsində bütün işğal altındakı ərazilərimiz azad olunmuşdur.

Azərbaycanın dağ meşələrində əsasən fıstıq, palıd və vələs üstünlük təşkil edir. Erməni işğalçıları tərəfindən ölkəmizə qarşı edilən təcavüz nəticəsində xeyli ərazilərimiz 30 ilə yaxın müddətdə işğala məruz qalmışdır. Burada yerləşən meşələrimizə xüsusilə də dağ meşələrimizə ciddi ziyan vurulmuşdur. Ermənistanın təcavüzü nəticəsində 246 min ha meşə sahəsi vəhşicəsinə qırılıb talan edilmişdir. Bu ərazilərdə bitən qiymətli ağac cinslərinin kəsilib aparılması nəticəsində biomüxtəlifliyin qorunmasını kritik həddə çatdırmışdır. Qeyd elədiyimiz kimi meşələrimiz və qiymətli ağac növlərimizin Qarabağdakı qorunduğu qoruq və yasaqlıqlar və onların fauna və fulorası haqqda mənlumat verəcəyəm.

**Bəsitçay Dövlət Qoruğu**

Bəsitçay Dövlət Qoruğu Azərbaycan hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Zəngilan rayonunda yaradılmışdır. Qoruq Azərbaycanın cənub-qərbində, Bəsitçayın dərəsində yerləşir. Qoruq ərazinin landşaft kompleksini, xüsusi ilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilmişdir. Onun sahəsi hazırda 107 ha təşkil edir. Qoruq ərazisinin uzunluğu 15 km-ə, eni isə bəzi yerlərdə 150-200 m-ə çatır. Qoruq Ermənistanın meşə fondu ərazisi ilə əhatələnir. Ərazinin 79,4%-ni meşə ilə örtülü sahə 14%-ni seyrək meşəlik təşkil edir. Meşəsiz sahələr isə 6. 5%-dir. Meşə ilə örtülü sahə əsasən dağlıq olub, dəniz səviyyəsindən hündürlüyü 600-800 m-ə çatır. Ərazinin iqlim şəraiti çinar meşəliyinin təbii bərpası və inkişafı üçün çox əlverişlidir. Burada günəşli saatların illik cəmi 2200-2500-ə qədərdir. Havanın illik orta temperaturu 13 dərəcə, yanvarda 10 dərəcə, iyulda 250 dərəcəyə qədərdir. İllik yağıntının miqdarı 600 mm-dir. Qar örtüyü 10-30 sm, bəzi illərdə 70-80 sm-ə çatır. Havanın nisbi rütubəti 60-70%-dir. Bəşitçayın uzunluqu 44 km, hövzəsinin sahəsi 354 km2-dir. Zəngəzur silsiləsindən (2600 m) başlayıb Araza tökülür. Bəşitçay dövlət qoruğunun sahəsinin 100 hektarını çinar meşələri tutur. Qarışıq çinarlıqlar da vardır. Burada yunan qozu, dağ-dağan, tut, söyüd, qovaq ağacları, yemişan, itburnu, murdarca, qaratikan və s. kollar inkişaf edir. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri 1 m-dir, onların yaşı 1200-1500 ilə, hündürlüyü 50 m-ə,diametri isə 4 m-ə çatan nümunələri də vardır. Meşənin ağac ehtiyatı hər nektarda 190 m3 ümumi ərazi üzrə isə 16200 m3-dir. Meşənin illik artımı 1 ha-da 1,22 m3-ə çatır. Burada çinar meşələrinin əmələ gəlməsi haqqında müxtəlif fikirlər vardır.

Bəzi tədqiqatçılar onlara qədim mədəni meşələrin qalığı kimi baxırlar. (A,A. Qrossheymə görə), bəziləri isə vaxtı ilə cənub-qərbi Zaqafqaziyanın çay dərələrində geniş yayılmış təbii çinarlıqların qalığı hesab edirlər. (L. Y. Prilinko,Y. S. Səfərova görə). Bəsitçay meşəliyində çinarlar toxum və pöhrələr vasitəsi ilə artır. Buradakı çinarların 80%-i pöhrələrlə, 20%-isə toxum vasitəsi ilə əmələ gəlmişdir. Qoruqdakı ən nəhəng ağacdan birinin yaşı 1200 il, hündürlüyü 53 m, diametri 4 m-dir. Onun kök gövdəsindən 185 ədəd pöhrə əmələ gəlmişdir. Bu pöhrələr də öz növbəsində nəhəng ağaca bənzəyirlər, böyüklərinin 100-150 il yaşı və 40 m-ə qədər hündürlüyü vardır. Xalqımız-çinar ağaclarını daim yüksək qiymətləndirmiş, onu bitki aləminin fəxri "şah" ağacı hesab etmişdir. Toz ağacı rus xalqının, ağcaqayın livanlıların bitki aləmi üçün rəmzi məna daşıyan ağac olduğu kimi, azərbaycanlılar da tarixən çinarı bitki aləmimiz üçün rəmzi məna seçmiş, ona xüsusi rəğbət bəsləmişlər. Buna tam əsasımız vardır. Axı çinar xalqımızın və təbiətimizin vüqarı qədər əzəmətlidir, tarixi qədər qədimdir. Çinarlar təbiətimizin yaraşığıdır, bəzəyidir, fəxridir, istəyidir. Təəssüf ki, belə bir sərvətimiz 1993-cü ildən ermənilər tərəfindən işğal edilmişdir rəşadətli Azərbaycan ordusu tərəfindən 20 oktyabır 2020-ci il tarixində işğaldan azad olunmuşdur işğal zamanı meşələrə amansız divan tutulmuş, kəsilib mebel istehsalında istifadə olunmuşdur.

**Daşaltı Yasaqlığı**

Şuşa və Xocalı ərazisində nadir təbiət komplekslərini qorumaq üçün 1988-ci ildə təşkil edilən yasaqlığ 450 hektar ərazini əhatə edir. Qoruğun ərazisinə Topxana meşəsi, Kirs dağının ərazisi, Cıdır düzü, Xocalı rayonunun qala divarları daxildir. Ərazidə "Xan mağarası" təbiət abidəsi vardır. Şuşa şəhəri və Şuşa rayonu Qarabağın, Azərbaycanın ən səfalı və füsunkar təbiətli, zəngin tarixi abidəli sahələrindən biridir. Onların qorunmasının, etalon ərazi kimi saxlanılmasının təbiət və tarixi baxımdan mühüm əhəmiyyəti vardır. Yasaqlığın ərazisi zəngin meşə, kol və ot bitkilərinin təbii muzeyidir. Burada palıd, vələs, ağcaqayın, cökə, göyrüş, yemişan, itburnu, zoğal, əzgil, alma, armud, alça və s. ağac və kol bitkiləri normal inkişaf edir. Ərazi dərman, endemik və nadir bitkilərlə zəngindir. Burada cüyür, çöl donuzu, dələ, dovşan, canavar, çaqqal, və onlarla quş növü məskunlaşmışdır. Burada digər yasaqlıq və qoruqlarımız kimiişğal altında idi və onun fəaliyyəti tamamilə dayandırmışdır. 1992-ci ildən işğal altında olan yasaqlıq məhv edilmişdi. 8 noyabır 2020 -ci ildə müzzəffər Azərbaycan ordusu Şuşa şəhərini o cümlədən onu ətrafında olan kəndləridə işğaldan azad etdi və Daşaltı yasaqlığıda erməni təcavüzündən xilas oldu

**Arazboyu Dövlət Təbiət Yasaqlığı**

1993-cü ildə tuqay meşələrinin qorunması və bərpası məqsədilə yaradılmışdır. Sahəsi 2200 hektardır. Bəşitçay dövlət qoruğuna tabe olmaqla Zəngilan rayonunun İranla sərhəd olan Araz çayı sahilində 1993-cu ilin iyun ayında yaradılmışdır. Uzunluğu 50 km, eni 50-100 metr bəzi yerlərdə isə 200-250 m, məsafəni əhatə edən bu yasaqlıq 5 min hektardır. Yasaqlığın yaradılmasında əsas məqsəd burada olan fauna və floranın qorunmasıdır. Bura yayı isti, qışı mülayim olan iqlimə malikdir. Torpaqı münbit gillidir. Ərazi suya təlabatı çox olan ağaclardan ibarətdir. Torpaq və iqlim şəraiti bitgilərin böyümə və inkişafı üçün normal şərait yaradır. İşğaldan qabaq burada mövcud olan heyvanların təxmini say uçotu aparılmışdır. Məlum olmuşdur ki, burada 300 başa dək çöl donuzu, 7 baş qonur ayı, 350 baş tülkü, 300 çaqqal, 15 baş canavar, 70 baş porsuq, 12 baş cüyür vardır. Quşlardan: turac, qırqovul, kəklik, bildirçin, yaşılbaş ördək daim məskünlaşmışlar. Uzun müddəd bu yasaqlığımızda işğal altında qalmışdır və ermənilər tərəfindan tamamilə dağıdılmış və məhv edilmişdir 44 günlük Vətən müharibəsi nəticəsində bütün işğal altında olan ərazilərimiz azad olunmuşdur. Bu əraziləri canı bahasına azad edən Şəhidlərimizə Allahdan rəhəmət qazilərimizə də can sağlığı diləyirəm

**İstifadə olunan ədəbiyyat:**


1. www.vikipediya.com,
2. Məmmədov.Q, Xəlilov.M-Azərbaycanın meşələri. Bakı Elm 2002.


## TƏBİİ MİNERAL SULARIN KİMYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ SAĞLAMLIĞA TƏSİRİ


**Abdullayev Yaşar Rəşid oğlu, Abdullayev Namiq**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***abdullayev.yawar@mail.ru***


**XÜLASƏ**


Təbii mineral sular adi sulardan fiziki xüsusiyyətlərinə, tərkibindəki mineral maddələrin müxtəlifliyinə, qaz tərkibinə və s. görə fərqlənirlər. Mineral suların yerin təbəqələrindən süzüldüyünə görə tərkibində yerdə olan kimyəvi elementlər vardır. Bu elementlər mineral suların tərkibində sərbəst və birləşmələr şəklində vardır. Bu elementlərdən ən geniş yayılanı natrium, magnezium, kalsium kationları və xlor, sulfat, hidrokarbonat anionlarıdır.

**Açar sözlər:** Mineral sular, kimyəvi tərkib, elementlər, minerallaşma

**РЕЗЮМЕ**

Природные минеральные воды отличаются от обычных вод по своим физическим свойствам, разнообразию минералов, газосодержанию и т.д. различаются в зависимости от. Поскольку минеральные воды фильтруются из земной коры, они содержат химические элементы, присутствующие в земле. Эти элементы присутствуют в минеральных водах как в свободном виде, так и в виде соединений. Наиболее распространенными из этих элементов являются катионы натрия, магния, кальция и анионы хлора, сульфата, углеводородов.

**Ключевые слова:** Минеральные воды, химический состав, элементы, минерализация.

**SUMMARY**

Natural mineral waters differ from ordinary water in their physical properties, diversity of minerals, gas content, etc. d. differ in dependence from.

Some mineral waters are filtered from the earth's crust, they contain chemical elements present in the earth. These elements are present in mineral waters as in free form, and also in the form of compounds. The most common of these elements are the cations of sodium, magnesium, calcium and anions of chlorine, sulfate, hydrocarbons.

**Keywords:** Mineral waters, chemical composition, elements, mineralization.

Mineral suların tərkibində olan mis, sink, arsen, dəmir, yod, brom, bor, mikroelementlər orqanizmdə olan müxtəlif fermentlərlə birlikdə maddələr mübadiləsində iştirak edirlər. Mineral suların orqanizmə təsiri mexaniki, kimyəvi və termiki amillərlə bağlı olmasına baxmayaraq, əsas yeri ionların kimyəvi xüsusiyyətləri tutur.[1]

Mineral suların içilməsi zamanı ion tərkibinin kəmiyyət və keyfiyyətinin dəyişilməsi nəticəsində xlor ionu mədənin selikli qişasını qıcıqlandırdığı üçün duz turşusunun ifrazatını artırır. Biokarbonat ionu selikli qişaya təsir edir və mədə-bağırsaq sistemində seliyin yuyulmasını müşayiət edir. Biokarbonat ionlu suda həm də natrium ionuda olduqda bu su süfrə suyu kimi istifadə edilə bilər. Buna səbəb bu suyun susuzluğu yaxşı yatırmasıdır. Bu sulara Barjom, Sirab, Badamlı, Vayxır, Berezovski və s. misal çəkmək olar. [2,3,4]

Mineral sular kimyəvi tərkibinə və süzülmə üsularına görə 4 texnoloji qrupa bölünür:

1. Qazlaşdırılmamış sular;
2. Karbon qazlı sular;
3. Tərkibində dəmir olan karbon qazlı sular;
4. Hidrosulfidli və hidrosulfidli-hidrogensulfidli sular.

Qazlaşdırılmış sular davamlıdır, süzülərkən oksidləşməyə məruz qalmır və bu sulara kimyəvi tərkibini dəyişməyən mineral sular aid edilir. Karbon qazlı sular kimyəvi tərkibi dəyişikliyə məruz qalır və onlarda olan CO2 kimyəvi tərkibin stabilizator rolunu oynadığından, bu cür suyun butulkalara süzülməsi qazsızlaşdırma prosesini minimuma endirmək üçün CO2-nin ifrat təzyiqi altında aparılmalıdır. Tərkibində dəmir olan karbon qazlı sulara 1 litr suda 5-70 mq dəmir olan mineral sular aid edilir.Bu suların butulkalara doldurulan zaman butulkada çöküntünün əmələ gəlməsinin qarşısı alınır. Bu zaman dəmirin oksidləşməsinə və süzmə zamanı qazsızlaşmaya mane olmaq lazımdır.Bunun üçün mineral suya stabilləşdirici turşular – askorbin və ya limon turşusu əlavə edilir.[2,3]

Suda həll olunan bütün maddələrin cəmi minerallaşma adlanır. Minerallaşma hər 1 litr suda olan mineralların qramla ifadə olunmasıdır. Mineralizasiya aşağıdakı qruplara bölünür:

- az miqdarda minerallaşmış - 1−2 g / l,
- az mineralizasiya suyu - 2−5 q / l,
- orta minerallaşma suyu - 5-15 q / l,
- yüksək mineralizasiya suyu - 15-30 q / l,
- duzlu mineral sular - 35-150 q / l,
- güclü duzlu mineral sular - 150 q / l və yuxarı.

Kimyəvi tərkibinə görə təbii mineral sular hidrokarbonatlı, xloridli, sulfatlı, qarışıq, bioloji cəhətdən aktiv, qazlı olurlar. Təbii mineral suyun minerallaşma dərəcəsi 1q/l –dən kiçik olduqda içməyə və yeməkdə istifadə olunmağa yararlı hesab olunur. Bu rəqəm çox olarsa uzun müddətli istifadə zamanı ehtiyatlı olmaq lazımdır.[5]

## ƏDƏBİYYAT SİYAHISI :


1. https://azertag.az/xeber/Mineral_sularin_faydasi_ichen_biler-1054850
2. http://library.adau.edu.az/view.php?lang=az&menu=subject&id=4
3. http://www.gedebeywater.com/
4. http://eco.gov.az/az/tebii-servetlerimiz/mineral-sular
5. https://www.water8.ru/blog/water-classification


## B.VAHABZADƏNİN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİYİN TƏBLİĞİ


**Abdulsəlimli İnci**
***ADPU-nun Şamaxı filialı***
***Elmi rəhbər: Şəlalə Seyidova***


Azərbaycan ədəbiyyatının, bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi, xalq şairi Bəxtiyar Vahabzadənin adı təkçə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda mütəfəkkir şair, lirik dramaturq, istedadlı alim və publisist, qeyrətli və cəsarətli ictimai xadim, sadə və səmimi insan kimi məşhurdur.

Yurdum, Vətənim, şöhrətim, andım! Bir vaxt ki sənin eşqinə yandım. Bildim ki, əsil insanam, insan! Bildim ki, nədir istəyim, arzum bu cahandan! Sevdim səni, həm nəşəni, həm dərd-qəmi tapdım! Sevdim səni, mən qibləmi tapdım!

Bu misralar Azərbaycan ədəbiyyatının ləyaqətli nümayəndəsi Bəxtiyar Vahabzadəyə məxsusdur. Böyük şair dağlar qoynunda – Şəkidə doğulmuş varlığına dağlardan vüqar, çeşmələrdən saflıq hopmuş, poetik xəyalı ana yurdunda – gözəl Şəkidə formalaşmışdır. İllər ötdükcə şairin sevgisi qəlbində pardaqlanmış, hansı torpağa, hansı millətə, hansı məmləkətə mənsub olduğunu dərk etmiş və böyük Vətən oğlu kimi sənət dünyasında, mübarizə meydanında, həyat adlı keşməkeşli yolda çalışmış, çarpışmış, namuslu əmək sərf etmişdir.

Bəxtiyar Vahabzadənin yaradıcılığı zəngin və genişdir. Üç ədəbi növdə qələm çalan filosof - şair, demək olar ki, bütün mövzularda mükəmməl əsərlər yazmışdır. Şeirlərində, poemalarında, pyeslərində Vətən, millət, ana dili, istiqlaliyyət, insanpərvərlik, doğrulma, ədalət kimi ali dəyərlər önə çəkilir.

Bəxtiyar Vahabzadə həmvətənlərini həssas, məsuliyyətli, məsləkli olmağa çağırır:

Sən də cavabdehsən, mən də hər zaman Vahid anamızın xoşbaxtlığına. [2, s.16]

Şair göstərir ki, "mənə nə var"lar böyük bir eli tar-mar eyləyər. İnsanlar həyatın qədrini bilməli, vaxtın sərvət olduğunu dərk etməli, ana Vətənin hər daşının, hər qayasının, hər qalasının sirrini duymalı, tarixini bilməlidirlər.

Ağaclar kök üstə qalxır, yüksəlir,
Meyvəsinin şirəsi rişədən gəlir.

Şair gəncləri oxumağa, öyrənməyə, hər bir işə yaradıcı yanaşmağa səsləyir. İnsan keçmişini, mənəviyyat və mədəniyyətini ehtiyatla, ehtiramla öyrənməli, bir ananın laylasında bir əsrin avazını hiss etməlidir.

Dağlarda kök atdı, arana çatdı. Şirin bayatılar diləklər kimi Bir qəlbdə boy atıb, min qəlbə çatdı.

Hərarətli, narahat qəlbli Bəxtiyar Vahabzadə ömrü boyu ana dilinin təəssübünü çəkmiş, hər kəlmənin, hər sözün üstündə əsmişdir. Dilin yad təsirlərə məruz qalmasını şair faciə hesab etmiş, doğma

dilə sevgi aşılamaq üçün zərif şeirlər yazmışdır. Bu şeirlərdən reyhan, yarpız ətri gəlir, bu şeirlərdən qəlpə-qəlpə qaya sərtliyi tökülür:

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti
Ey dilim, qüdrətinlə dünyalara yol açmış. [1, s.101-102]

Bəxtiyar Vahabzadə gənclərin qəlbini, istəyini dərindən duymuş, onların yeni fikirlərini qiymətləndirmişdir. Gənclik böyük qüvvədir, zamanın döyünən qəlbidir. Şair Azərbaycan gənclərinin halal, dürüst olmağa dəvət edir.

Pozular qayalar, dağılar nizam,
Verməsən hər kəsin öz qiymətini.
Gövhər də çatlayıb üzülər tamam,
Sərrafdan almasa düz qiymətini.

Şair sevgidə də düz olmağı, namuslu və vəfalı olmağı tövsiyə edir. Axı bizim öz nəcib adətlərimiz, ailə qanunlarımız var!

Məqsədim bu olub:
Bu təzə nəsil:
Dünənə güvənsin, bu günü sevsin.
"Özgəni" danmasın, ancaq müttəsil
Özünə tapınsın, özünü sevsin.

Elə sənətkarlar var ki, yalnız sənətdə öz sözünü deyir. Bəxtiyar müəllim elin ziyalısı idi, ictimai xadim idi. Bəxtiyar Vahabzadə üçün millətin taleyindən vacib heç nə yox idi, ola da bilməzdi.

Azərbaycanın başı üstünü 90-cı illərdə (XX əsr) qara buludlar alanda şair qələmi ilə, varlığı ilə, ruhu ilə mill azadlıq hərəkatına xidmət etmişdir. Onun ağıllı, sərt, alovlu çıxışlarını xalq indi də xatırlayır. Azərbaycanın torpaqlarının nankor ermənilər tərəfindən işğal edilməsi şairi yandırıb-yaxırdı.

1990-cı il 20 Yanvar faciəsi xalqın qəlbini yaralayanda, ruhunu əzəndə elin etibarlı oğlu "Şəhidlər" poemasını yazdı və gəncləri böyük mübarizə yoluna istiqamətləndirdi. Azadlıq şairin ən böyük arzusu, məqsədi, həqiqəti idi!

"Hələ biçilməmiş əkilənlərik" deyən müdrik şair xalqın düşüncəsinə, azadlıq yoluna yanar qığılcımlar səpirdi...

Vətən oğlu, maya tutmuş sənin qanın Bu torpaqdan, bu Vətəndən.
Qalx ayağa, imdad umur Vətən səndən
Sinəmizlə od-alovu biz yarmasaq,
İtirilən torpaqları qaytarmasaq,
Vətən bizi bağışlamaz,
Torpaq bizi bağışlamaz [4].

Əziz şairim, böyük ustad! Sən üzünü gələcəyə tutaraq Bilgə xanın nəvələrini, Cavanşirin, Babəkin, Xətayinin varislərini zəfərə həvəsləndirdin, inandırdın. Sən nəvələrinə inandın və dedin:

Ayağını ürəklə vur bu torpağa.
Sən qalxdıqca böyüyəcək,
Düşməninsə kiçiləcək.

Bəli, böyük şair, Azərbaycanın mərd oğulları 30 il sonra pələng kimi meydanlara atıldılar. Qəhrəmancasına döyüşdülər, yeri-göyü titrətdilər. Və tarix yazdılar.

10 Noyabr 2020-ci il! Qəhrəman şəhidlər, qazilər torpaqlarımızı, gözəl Qarabağımızı azad etdilər.

İndi biz gənclərin qəlbində yeni arzular doğur. Azad torpaqlarda yaşamaq, yaratmaq və ucalmaq. Bu yolda da sənin –Türk dünyasının ölməz şairinin qızıl sətirləri ömrümüzə nur saçacaq, ləyaqət və qeyrətimizin, milli heysiyyətimizin cövhərinə çevriləcək.

## ƏDƏBİYYAT SİYAHISI :

1. 1 B.Vahabzadə əsərləri I cild (Bakı-2008)

2. B.Vahabzadə əsərləri V cild (Bakı-2008)
3. İnternet resursları
4. Bəxtiyar Vahabzadə. [Elektron resirs], https://az.wikipedia.org/wiki/B%C9%99xtiyar_Vahabzad%C9%99
5. Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə. [Elektron resirs], http://anl.az/el/emb/b.vahabzade/about.htm

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA SƏNƏTKARLIQ VƏ NOVATORLUQ

**Adiyeva Ülkər**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. İbişov Aydın***

**Açar sözlər:** sənətkarlıq, müasirlik, novatorluq, poeziya
**Key words:** craftsmanship, modernity, innovation, poetry
**Ключевые слова:** профессионализм, современность, новаторство, поэзия

Bəxtiyar Vahabzadə 16 avqust 1925-ci ildə Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. 1934-cü ildə onun ailəsi Bakıya köçmüşdür. Burada orta məktəbi qurtarandan sonra ADU-nun Filologiya fakültəsində təhsil almışdır (1942–1947). Universitetin aspiranturasında saxlanmış, "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şeirini çap etdirdikdən sonra başlamışdır. O zamandan dövri-qədim mətbuatda şeirləri, elmi məqalələri, rəyləri müntəzəm çap olunmuşdur. "Mənim dostlarım" adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri əksini tapmışdır. Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilir. "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" və "Rəqabət" pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

Bəxtiyar Vahabzadə güclü poema və pyeslərin müəllifidir. O, bu əsərlərində müdrik və parlaq zəkasının üfüqlərini, milli özünüdərk və istiqlal məfkurəsinin əngin panoramını təzahür etdirib. Onun poema və pyeslərində azərbaycançılıq, türkçülük və milli müstəqillik ideyaları parlaq təcəssüm olunub. B.Vahabzadə 60-dan çox şeir kitabının, 10-dan artıq monoqrafiya, 20 poema və 9 pyes, 200-ə qədər elmi-nəzəri və publisistik məqalə, 12 cilddə "Əsərləri"n müəllifidir.

XX əsr Azərbaycan poeziyasında xüsusi və parlaq dəsti-xətti, məğrur şairlik cəlalı, lirikromantik, psixoloji-fəlsəfi, milli və sosial üslubu, vahid poetik sistemi ilə nümunə olan Bəxtiyar Vahabzadə mənəvi-əxlaqi kamillik, məhəbbət və gözəllik qanunları ilə səsləşən, Vətənin – millətin tələb və ehtiyaclarından yaranan sevinc, kədər, narazılıq, qəm-qüssə, qəzəb və nifrət dolu, zəngin ədəbi-bədii irs yaratmışdır.

Bəxtiyar Vahabzadə idealı böyüklük, arzusu təmizlik, məqsədi yüksəklik, eşqi gözəllik olan görkəmli şair, dramaturq, tərcüməçi, ədəbiyyatşünas-alim, publisist və ictimai xadimdir. O, ecazlı lirik "Mən"i, orijinal fərdi üslubu ilə həmişə zəmanəsi, torpağı, dövləti və milləti, Şərqi və Qərbi, bir sözlə, dünyanın - Zaman və İnsan münasibətlərinin sirli aləmi ilə əlaqəli olub.

Şairin təsvir təhkiyəsi insanın qəlb və əql aləmi, mənəvi-psixoloji və fəlsəfi-əxlaqi təbiəti ilə möhkəm bağlıdır. Bu poeziya bütün ruhunu folklor, klassik ədəbiyyat və bəşər bədii təfəkkürünün qaynaqlarından götürüb. Bəxtiyar Vahabzadə poeziyası hissi idrakla məntiqi idrakın poeziyasıdır! Onun fikir və düşüncə fəlsəfəsi kifayət qədər intellektualdır. Bu baxımdan Bəxtiyar Vahabzadə poeziyasının anlayış, mühakimə və əqli nəticə deyilən hüdudsuz bədii imkanları vardır. Böyük şair poeziyamıza intellektual yaradıcılıq üslubu gətirib və bu üslub bədii-fəlsəfi təzadların poeziyası kimi fərdilik qazanıb. Bəxtiyar Vahabzadə

poeziyası dinclik bilməyən, yürüşdə olan, ehtiraslı və əzəmətli poeziyadır! Vaxt, Zaman və Sürət Bəxtiyar Vahabzadə poeziyasının məhək daşıdır. İnsan bu zamanın fəlsəfəsində gözəllik və əqidə mücəssəməsidir!

İnsandır hər şeyi mənalandıran,
Saat nə gərəkdir zaman olmasa.
Bir dağın, bir çayın gözəlliyini,
Söyləyin, kim duyar insan olmasa.

Bəxtiyar Vahabzadə poeziyası xalq təfəkkürünün qədimliyindən, arxeologiya və etnoqrafiyasından, mifologiya, nağıl, dastan, əfsanə, rəvayət və bayatılarından gəlib, folkloru yaradıcı surətdə mənimsəyib.

Müasirlik və novatorluq bir-biri ilə üzvi şəkildə əlaqədədir. Müasir olmayan sənətkar novator da ola bilməz. Sənətkar dövrünü düzgün tədqiq etməlidir ki, əsərləri də oxunaqlı olsun. Bəxtiyar Vahabzadə yaradıcılığı çağdaş Azərbaycan poeziyasında baş vermiş bir çox prosesləri təhlil və izah etmək üçün zəruri ədəbi mənbələrdən biri kimi diqqətə layiqdir. Məlumdur ki, böyük şair ötən yüzilin 40-cı illərinin axırlarında ədəbiyyata təşrif buyurmuşdur. Onun həmin dövrdən 50-ci illərin ortalarına qədərki yaradıcılığını ilk və ayrıca bir mərhələ hesab etmək olar. Amma 50-ci illərin ikinci yarasından və 60-cı illərin əvvəllərindən etibarən isə bütün ədəbiyyatımızda, o cümlədən B.Vahabzadənin bədii axtarışlarında tamamilə təzə estetik prinsiplərlə səciyyələnən növbəti və əsas dövr başlanır. — “Təklik” (1956) şeiri B.Vahabzadə poeziyasında mənəvi-estetik yenilənmənin müjdəçisi olan bədii nümunələrdəndir. Bu şeirdə təkcə yeni şeir ab-havası və atmosferi yaratmaqdan deyil, həm də onun yaradacaq insanların bir-birinə münasibətindən, qarşılıqlı inam və sevgidən, bir sözlə, sağlam ədəbi mühiti formalaşdırmaq zərurətindən bəhs edilir. Şeirin ilk bəndlərində müəllif ədəbi mühitdə birliyin və ünsiyyətin olmamasından, ədəbiyyat və söz adamlarının tənhalığından söz açılır.

1960-cı illərin poeziyasında Bəxtiyar Vahabzadənin yaradıcılıq fərdiyyəti kamilləşib, poeziyasında ideyalılıq və sənətkarlıq axtarışları güclənib. Onun şeirlərinin başlanğıcı, davamı və sonu - təkamül mətni vardır ki, bədii təzad bunların qida mənbəyini təmin edib. Şairin əksər şeirlərində bir fərdi ideya qavrayışı olub ki, ədəbi-tənqid bunu "ikinci səs” adlandırıb.

B.Vahabzadə yaradıcılığında ən əsası vətən, dil, azadlıq mövzularına toxunsa da sənətkarlıq məsələlərinə də toxunmuşdur. Bəxtiyar Vahabzadə yaradıcılığı öz xüsusiyyəti ilə Azərbaycan poeziyasının inkişafında seçilən, diqqəti cəlb edən yeni bir hadisədir. Şair heç zaman tarixi keçmişi, öz kökünü unutmamışdır. Lakin bununla yanaşı o, müasir dövr ilə ayaqlaşmış və novatorluqda yaratmışdır.

Şairin poeziyasına xas fikirlə insan vəhdəti xüsusiyyətləri diqqəti cəlb edir. Sənətkarın kosmos mövzusu tamam başqa bir vəhdətdə insan ağlının möcüzəsini hiss etmək baxımından dəyərlidir. İnsanın iki saat kosmosda olması hadisəni insan ağlının lirik-romantik tərənnümü üçün şairin əlində materiala çevrilmişdir. O, öz təxəyyülün də əlavə edərək gözəl əsər ərsəyə gətirmişdir:

Bizim üçün yenidən göylər doğuldu,
İndi ayrı gözdə baxırıq ona.
Bir-iki saatın bir cavab oldu,
Min alim ömrümün suallarına.

Bu şeir haqqında yazıçı Mehdi Hüseyn yazır ki, B. Vahabzadənin bu şeirində xüsusilə insanın böyüklüyündən, rəşadətindən, gözəlliyindən söhbət gedir. Bir sözlə, kosmos poeziya üçün yeni bir mövzu olmuşdur.

B.Vahabzadə idrak, hiss, duyğu və düşüncələr şairi idi. Hissləri, duyğu və düşüncələri, amal və məqsədi yerində olan sağlam insan axtarışları ilə təbiəti, vətəni geniş mənada dünyanı qorumaq, sakitləşdirmək istəyirdi. B.Vahabzadə poeziyasına rövnəq verən, güclü müasirlik, mövzu aktuallığı, təbiilik şəklində özü də şeirin və şairin poetik simasını göstərən obrazlı dil vasitəsilə üzə çıxırdı. «Hər məqsədin çölü sözdür, içi fikir» - deyən Bəxtiyar Vahabzadə bütövlükdə fəlsəfi xarakterdə olan lirikası; təbiət, məhəbbət, ictimai-siyasi şeirləri, dramaturgiyası, elmi-nəzəri əsərləri, ictimai xidmətləri və yenilikçiliyi ilə ədəbi məktəb yaradan sənətkar kimi əbədi yaşayacaqdır.

## <u>ƏDƏBİYYAT SİYAHISI :</u>

1. Vahabzadə B. Seçilmiş əsərləri. iki cilddə: I cild. Bakı, Öndər, 2004

2. «Bəxtxyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri» mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 2015
3. Azərbaycan qəzeti:“Əlizadə ƏSGƏRLİ Bəxtiyar Vahabzadə poeziyasının sirri” http://www.azerbaijan-news.az/view-196155/bextiyar-vahabzade-poeziyasinin-sirri#.YIz2Oh5faNz

## FRAZEOLOGİYA DİLÇİLİYİN BİR SAHƏSİ KİMİ

**AĞAYEVA XƏYALƏ ƏHMƏD QIZI**
***Bakı Slavyan Universitetinin***
***agayevazx98@mail.ru***

**Açar sözlər:** dilçilik, frazeologiya, emosionallıq, leksikologiya, ifadə,
**Ключевые слова:** лингвистика, фразеология, эмоциональность, лексикология, выражение

**SUMMARY**

Linguistic discussion that studies the semantic structural features of phraseology from a modern and historical point of view is called phraseology. Phraseology as a field of science was first introduced by the French linguist Sh. Researched by Balli.The place of phraseology in the language system has been one of the problems of linguists. Phraseology cannot be outside the language system. From the 30s of the 20th century, analyzes began to be carried out in connection with the explanations of phraseological combinations.The article covers a number of researches of Azerbaijani linguists in the field of phraseology.
**Key words:** linguistics, phraseology, emotionality, lexicology, expression

Frazeologizmlər ifadəlilik, emosionallıq, üslub çaları ilə seçildiyinə görə, informasiyanın ötürülməsində güclü vasitədir. Məhz bu səbəbdən onlar həm dildən istifadə edənlərin, həm də dili tədqiq edənlərin diqqətini cəlb edir. Hər hansı bir dildə frazeologizmlərin toplusu “frazeologiya” adlanır. Eyni zamanda frazeologiya həm də frazeologizmlərin semantik-struktur xüsusiyyətlərini müasir və tarixi baxımdan öyrənən dilçilik bəhsidir [3, 4].

“Frazeologiya yunan sözüdür, pharis “ifadə” və loqos “təlim” sözlərinin birləşməsindən yaranmışdır”. XX əsrin ikinci yarısından etibarən, frazeologiya dilçiliyin xüsusi maraq sahələrindən birinə çevrilmişdir. Dilçilik elmində frazeologiya müxtəlif istiqamətlərdə işlənmiş önəmli sahələrdən biri hesab olunur. Frazeologiya bir elm sahəsi olaraq ilk dəfə fransız dilçisi Ş. Balli tərəfindən tədqiq olunub. Dilə sabit şəkildə daxil olan birləşmələrin öyrənilməsinin zəruriliyi ilk dəfə Ş. Balli tərəfindən qeydə alınmışdır. O, qeyd edir ki, frazeologiya leksikologiyanın müstəqil bir sahəsidir və frazeoloji birləşmələri təhlil edərkən həm daxili, həm də xarici faktorlara diqqət etmək lazımdır. Dilçilikdə frazeologiya leksikologiyanın müstəqil bir şöbəsi kimi ilk dəfə olaraq Ş. Balli tərəfindən qeydə alınıb.

XIX əsrin sonu və XX əsrin 30-cu illərindən başlayaraq müəyyən frazeoloji birləşmələrin izahları ilə bağlı olaraq dərin təhlillər aparılmağa başlanmışdır. Rus dilinin tarixi frazeologiyasında İ.İ. Sereznyovskinin adını xüsusilə qeyd etmək olar. Onun “İfadələrdən sözlərin yaranması haqqında qeydlər” adlı məqaləsi frazeologiya sahəsi ilə bağlı ilk ciddi əsər olaraq qəbul edilir.

S.Cəforov qeyd edir ki, frazeologiya az öyrənildiyindən onun əsas tədqiq obyektini təşkil edən söz birləşmələri üçün də vahid konkret termin hələ yaradılmamışdır. Odur ki, bu birləşmələr hələ də frazeoloji vahidlər, frazeoloji birləşmələr, tərkib hissələrinə bölünməyən söz birləşmələri, idiomatik ifadələr, leksik söz birləşmələri, dəyişməz söz birləşmələri, idiomlar, frazemlər və s. kimi çoxlu terminlər vasitəsilə adlandırılır.

Bununla belə, frazeoloji birləşmələrin istər məzmun və istərsə forma etibarilə zənginliyi, onların dildə həddindən artıq işlədilməsi tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Ona görə də frazeologiya dilçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevrilmişdir. [3, 88]

İ.Həsənovun "Müasir Azərbaycan dilinin leksikası" kitabında qeyd etdiyi fikirlərə əsaslanaraq deyə bilərik ki, frazeologiya dilin daxili inkişaf qanunları əsasında leksik mənalı sözlərdən düzələrək söz birləşmələri və cümlə şəklində formalaşır. Frazeologiya söz birləşmələrinin və cümlələrin mənaca məcazlaşmasından əmələ gəlir. [4, 121]

Dilçilikdə frazeologiya bir elm sahəsi kimi iki hissəyə bölünür:

1. Ümumi frazeologiya,
2. Xüsusi frazeologiya.

Dillərin frazeologiyasının ümumi problemləri araşdırlırsa, bu ümumifrazeologiya adlanır. Konkret bir dilin faktlarına uyğun olaraq dilin frazeoloji sisteminin tədqiqi isə xüsusi frazeologiya adlanır.

Frazeologiya elmini düşündürən problemlərə nəzər salaq. "Frazeologizm" anlayışının həcmi probleminə gəldikdə, alimlərə görə, frazeologiyanı geniş və dar mənada başa düşmək mümkündür. Geniş mənada nəzərdə tutulanda frazeologiyanın tədqiqat obyektinə dildə hazır şəkildə mövcud olan bütün söz birləşmələri daxil edilir. Lakin dar mənada frazeologiya deyiləndə isə bütün söz birləşmələrinin hamısı yox, komponentləri məna və quruluşca parçalanmayan frazeoloji birləşmələr nəzərdə tutulur. Fikrimizcə, dar mənada frazeologiya daha məqsədəuyğundur, dildə mövcud olan bütün söz birləşmələri frazeoloji birləşmələr adlandırıla bilməz, çünki bütün söz birləşmələri məna və quruluş baxımından bölünməz deyil.

Professor A.Qurbanovun "Müasir Azərbaycan ədəbi dili" kitabında qeyd etdiyi kimi, dilimizdəki frazeoloji vahidlərin əmələ gəlmə mənbəyi, əsasən, xalq danışıq dili, yazılı ədəbiyyat və folklor olmuşdur. Mövcud frazeoloji vahidlər müxtəlif ictimai-tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir.

1. Dilimizdəki bir sıra frazeoloji vahidlər qədim həyat və yaşayış tərzi əsasında yaranmışdır; məsələn: ayağının altını görməmək və s.
2. Bəzi frazeoloji vahidlər sənətlə, peşə ilə bağlı olaraq meydana çıxmışdır; məsələn: keçə atmaq, papağı papaqçıya ver, birini də üstəlik və s.
3. Bəzi frazeoloji vahidlər xalqımızın ictimai-tarixi adət və ənənələri əsasında meydana gəlmişdir; məsələn: duz-çörək kəsmək və s.
4. Bəzi frazeoloji vahidləri, o cümlədən bəzi aforizmləri, məsəlvari ifadələri yazıçı və şairlər yaratmışlar; məsələn:

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdəndə zəhərli.(H.Cavid) [6, 379]

Frazeologiyanin dil sistemində yeri dilçiləri düşündürən problemlərdəndir. O, dil sistemindən kənarda mövcud ola bilmir. Çünki frazeoloji vahidlərlə dil sistemi arasında güclü bir əlaqə var və bu əlaqə mütləqdir. Bu əlaqəyə görə, frazeoloji vahidlər dilin leksik sisteminin bir hissəsidir və onun yarımsistemlərindən biri hesab olunur [4.14]. Frazeologiyaya xas olan cəhət odur ki, dildə olan dəyişiklər ona da öz təsirini göstərir.

Frazeologiyanın tədqiqat obyekti sabit söz birləşmələri olduğuna görə, ilk növbədə dilşünaslar onların xüsusiyyətlərinə nəzər salırlar. Məsələn, A. Axundovun "Ümumi dilçilik" kitabında oxuyuruq ki, frazeologizmi təşkil edən sözlər ümumilikdə bir məna ifadə edirlər. Onlar frazeologizmlərdə elə birləşirlər ki, onları bir-birindən ayırmaq və ya müstəqil mənalarında düşünmək mümkün olmur. Frazeologizmi təşkil edən həmin bu sözlər frazeologizmin komponentləri və ya tərəfləri adlandırılır [1, 184].

Buludxan Xəlilov "Müasir Azərbaycan dilinin leksikologiyası" kitabında sabit və sərbəst söz birləşmələrinin bir sıra oxşar və fərqli cəhətlərini daha ətraflı qeyd edib. Oxşar cəhətlər aşağıdakılardır:

1. Hər ikisi iki və daha artıq sözlərin birləşməsindən yaranır;
2. Hər ikisi də cümlədə müəyyən cümlə üzvü rolunda çıxış edir;
3. Hər ikisinin də formal cəhətdən bir-birindən fərqlilikləri yoxdur. Hər iki söz birləşməsinin də tərəfləri arasında qrammatik əlaqələr mövcud olur.[5, 267]

Dilşünaslar frazeologizmləri sözlərlə də müqayisə edərək onların bir sıra fərqləndirici xüsusiyyətlərini göstəriblər:

1) frazeoloji birləşmələr sözlərdən, sözlər isə kök və şəkilçilərdən ibarət olur;

2) sözlər məna və forma müstəqilliyinə malik olur, frazeoloji vahidləri təşkil edən sözlər isə ayrı-ayrılıqda müstəqil olmur, onlar bütöv mənanın yaranmasına xidmət edir və birlikdə ümumi məna ifadə edirlər;

3) sözlərə yeni şəkilçi artırmaq yolu ilə yeni sözlər düzəltmək olar, lakin frazeoloji vahidlər cümlə yaradılmasına xidmət edir;

4) sözlər adlandırmağa xidmət edir, frazeoloji birləşmələr isə obrazlı və emosional şəkildə adlandırır;

5) sözlər həqiqi və məcazi mənalarda istifadə oluna bilər, frazeologizmlər isə yalnız məcazi məna ifadə edirlər;

6) frazeoloji birləşmələr sintaktik, mürəkkəb sözlər isə leksik vahidlər hesab olunur;

7) mürəkkəb sözlərin mənasını mətndən kənarda da başa düşmək olar, lakin frazeologizmin mənasını kontekst daxilində bilmək mümkündür;

8) mürəkkəb sözlərin tərkib hissələri arasına söz artırmaq mümkündür, lakin frazeologizmlərin tərkb hissələri arasına söz daxil etmək mümkün deyil;

9) mürəkkəb sözlərin dildə ekvivalentləri yoxdur, frazeoloji birləşmələrin isə dildə variantları mövcuddur;

10) mürəkkəb sözlər bir vurğu altında deyilirsə, frazeoloji vahidlərin tərkib hissələrini təşkil edən sözlərin hər birinin öz vurğuları olur [5, 263-265].

Azərbaycan dilçiliyində B. Xəlilov "Müasir Azərbaycan dilinin leksikologiyası" və A. Qurbanov "Ümumi dilçilik" kitabında frazeoloji vahidlərin üç növü haqqında məlumat veriblər: frazeoloji qovuşma, frazeoloji birlik (uyuşmalar),frazeoloji birləşmə. [5, 269]

1. Frazeoloji qovuşma dedikdə, ayrı-ayrı sözlərin müstəqil mənalarından asılı olmayaraq, bütövlükdə birləşmənin ümumi bir mənası olan sabit birləşmə başa düşülür. Bu o deməkdir ki, bütün sözlərin öz müstəqil mənalarından ayrılması nəticəsində əmələ gələn, bölünməz söz birləşmələrinə frazeoloji qovuşma deyilir. Məsələn: gözü su içməmək, topa tutmaq, bel bağlamaq, dağa dönmək və.s. frazeoloji qovuşmanın əsas əlaməti onların məna bütövlüyüdür, monolit birliyidir. Bu tip frazeoloji vahidlərə dilçilikdə bəzən idiom da deyilir. İdiom yunan mənşəli söz olub, özünəməxsus xüsusiyyətə malik ifadə deməkdir.

2. Frazeoloji birliyi əmələ gətirən sözlərdən birinin mənasının zəif hiss olunması əsasdır. Frazeoloji birliklər məna cəhətdən bölünməz olurlar. Bu birləşmələrin komponentlərindən birində həqiqi mənanın izləri müşahidə olunur. Eyni zamanda bu qəbildən olan frazeoloji vahidin ümumi mənası həqiqi mənalı sözün mənası ilə bağlı olur. Məsələn: söz almaq, dağ çəkmək, beyninə batmaq, başını üzmək, cin atına minmək və.s.

3. Frazeoloji birləşmə (uyuşma) – bu qəbildən olan frazeoloji sabit birləşmələrdə birləşmələrin tərkibindəki sözlərdən biri öz mənasında işlənir, qalan hissəsi isə asılı vəziyyətdə olmaqla yaranır. Belə birləşmələrdə sözün biri o birinə, yəni müstəqil mənada olana təhkim olunur. Müstəqil mənada olan söz birləşmədə əsas, öz mənasında olmayan söz isə asılı söz olur. Məsələn: tədbir tökmək, yada düşmək, qayğı çəkmək, fikir çəkmək, həvəsdən düşmək və s. nümunələrdə birinci sözlər öz mənasında işlənə bilir və əsas tərəfdir.

Sabit söz birləşmələrinin tərəflərinin məna və qrammatik cəhətdən qovuşma dərəcəsinə görə üç qrupa ayrılması V.V. Vinoqradov tərəfindən rus dili materialları əsasında aparılmışdır. V.V. Vinoqradovun bu bölgüsü uzun müddət məqbul bir bölgü kimi qəbul olunmuşdur. Lakin belə bir təsnifat özünü doğrultmur. Ona görə ki, sabit söz birləşmələrinin komponentlərinin istər qovuşması, istər birləşməsi, istərsə də uyuşması onların sabitliyini göstərir. Sabit söz birləşmələrinin məna bütövlüyünü, nitqdə hazır şəkildə mövcud olmasını, tərkib hissələrinin möhkəm bağlanmasını təsdiq edir. Yeni sabit söz birləşmələrinin forması da, məzmunu da göstərir ki, onları qovuşma, birləşmə, uyuşma məna qruplarına ayırmaq əsassızdır.

A.Qurbanov yazır ki, müasir Azərbaycan ədəbi dilinin frazeologiyası çox zəngin və rəngarəng üslubi imkanlara malikdir. Yüksək milli koloritə malik sabit birləşmələr, dərin mənalı atalar sözləri, müdrik məsəllər, kəskin aforizmlər, gözəl ibarələr Azərbaycan dilinin son dərəcə zəngin olan bədii və obrazlı fondunu təşkil edir. Nitqdə bunların hər biri bu və ya başqa şəkildə müəyyən üslubi vəzifə daşıyır. Eyni

zamanda, belə ifadələrdə çox yüksək obrazlılıq və emosionallıq da vardır. Elə buna görə də nitqdə məharətlə işlənən frazeoloji vahidlər çox hallarda danışığı daha ifadəli edir və ona xüsusi emosionallıq verir.

Frazeoloji vahidlərdəki obrazlılıq yuxarıda qetyd etdiyimiz kimi, onları təşkil edən bu və ya başqa sözün məcazi mənada işlədilməsi nəticəsində yaranır. Lakin bütün frazeoloji vahidlərdə obrazlılıq eyni dərəcədə olmur. Məsələn, frazeoloji qovuşma və frazeoloji birliklərdə obrazlılıq çox zaman daha güclü şəkildə nəzərə çarpır. Frazeoloji birliklər məlum olduğu üzrə mürəkkəb metaforalardır. Dildəki frazeoloji birləşmələr çox zaman ifadəli olmur. Lakin bu tip frazeoloji vahidlərdə də bir sıra gizli imkanlar xüsusiyyətlər vardır ki, onlardan bəzi üslubi məqsədlər üçün istifadə olunur.

Frazeoloji vahidlərin müəyyən bir qismi öz quruluşlarına görə, hər zaman nitqdə "donmuş" halda qalmır. Frazeoloji vahidlər üslubi məqsədlərlə əlaqədar çox rəngarəng formalara düşə bilir. Onlardan istifadəni başlıca olaraq iki qrupa bölmək olar:

1. Frazeoloji vahid əslində olduğu kimi, dəyişiklik edilmədən işlənilir. Bu zaman müəllifin nitqi daha canlı və təsirli olur; məsələn: Atalar demişlər ki: "Ustasına kəm baxanın gözlərindən qan damar".

2. Frazeoloji vahiddə müəyyən dəyişiklik edilərək istifadə olunur. Belə ki, frazeoloji vahidlərin quruluşunda dəyişiklik edildikdə həmin birləşmələr özündəkindən əlavə olaraq yeni estetik və bədii keyfiyyətlər alır. [6, 382]

Frazeoloji vahidlərdən həm bədii, həm publisistik, həm də digər üslublarda istifadə olunur. Frazeoloji vahidlər ədəbi dilin yazılı növündə, əsasən, bədii üslubda yazılan əsərlərdə, xüsusi üslubi rola malikdir. Böyük yazıçı və şairlərin əlində frazeoloji vahidlər bu və ya başqa surətin danışığını fərdiləşdirmək, tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilir. Məsələn, S.Vurğun "Vaqif" pyesində yaltaq, ikiüzlü vəzir surətini yaratmaq üçün aşağıdakı frazeoloji ibarədən istifadə etmişdir:

Vəzir: - Buyruq sizinkidir, adil hökmdar!
Sizdə fəzilət də, ədalət də var.[6, 380-381]

## ƏDƏBİYYAT SİYAHISI :


1. Axundov A.A. Ümumi dilçilik. Bakı: Maarif, 1976, 299 s.
2. Bayramov H.A. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: "Maarif", 1978, 174 s.
3. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Leksika. Bakı: "Şərq-Qərb", 2017, 191 s.
4. Həsənov İ.Q. Müasir Azərbaycan dilinin leksikası. Bakı: AMK, 2017,178.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.
6. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Bakı: Nurlan, 2003, 450.


# İNGİLİS DİLİNDƏ SÖZ SIRASININ ƏHƏMİYYƏTİ


**Ağayeva Nərgiz**
***ADPU-nun Şamaxı filialı***
***Elmi rəhbər: Sabir İbrahimov***



**Açar sözlər:** cümlə, söz sırası, dil, sabit.
**Key words:** sentence, word order, language, stable.
**Ключевые слова:** приговор, порядок слов, язык, стабильный.


İngilis dilində cümlələrdə söz sırasının əhəmiyyəti olduqca böyükdür. Belə ki, cümlədə söz sırasının dəyişməsi cümlənin mənasının dəyişməsinə səbəb ola bilər. Məsələn: "The policeman caught the thief". "The thief caught the policeman." Nümunədə 1-ci cümlənin tərcüməsi "Polis oğrunu tutdu", 2-ci cümlədə sözlərin sırasını dəyişdikdə cümlənin tərcüməsi "Oğru polisi tutdu" şəklindədir. Yaxud "You are Azerbaijani" nəqli cümlə olduğu halda, söz sırasını dəyişsək, "Are you Azerbaijani ?" olsa, bu cümlə sual cümləsi olar. İngilis dilində söz sırasının dəyişməsi cümlənin həm mənasını, həm də məqsəd və

intonasiyaya görə növünün dəyişməsinə səbəb ola bilər. Azərbaycan dilində isə söz sırası cümlənin məqsəd və intonasiyaya görə növündən asılı olmayaraq, demək olar ki, sabitdir. Mübtədə əvvəldə, xəbər sonda, təyin təyinolunandan əvvəl, tamamlıq və zərflik xəbər zonasına aid olur. Müəyyən məqamda cümlə üzvləri yerini dəyişsə də, cümlənin məqsəd və intonasiyaya görə növünü dəyişməz. Yəni Azərbaycan dilində hər cümlə növünə məxsus xüsusi söz sırası olmadığı halda, ingilis dilində demək olar ki, hər cümlə növünün özünə məxsus söz sırası vardır. Bunu aşağıdakı şəkildə şərh edə bilərik:

Nəqli cümlə ( Declarative sentences). İngilis dilində nəqli cümlə sırasına görə 2 cür olur:

1.Mübtəda və xəbərlə başlayan

2. there is / are ( was/ were, will be).

Mübtəda və xəbərlə başlayan nəqli cümlələrdə söz sırası mübtəda, xəbər, təyin, tamamlıq, zərflik tipində qurulur. Məs: “I will get a picture book tomorrow”. Lakin müəyyən məqamda zaman zərfliyi mübtədadan əvvəl, mübtəda və əsas feilli xəbərin arasında, köməkçi feildən sonra da gələ bilər: “I often read fiction books”.

There is/are tipli cümlələrin özünə məxsus söz sırası var: There is/are, mübtəda, yer zərfliyi: There are two pens and a book on the table. Azərbaycan dilində isə belə cümlələr yer zərfliyi ilə başlayır. Belə cümlələrə sual verərkən is/are (was, were, will be) there – dən əvvələ keçir: Are there two pens and a book on the table? İnkarda is/are (was, were, will be) dan sonra “not” və ya “no” işlənir: There is no bread on the table. There is not much bread on the table. [2. 56-57]

Sual cümlələri ( intorrogative sentences) İngilis dilində 4 cür sual cümləsi var;

1. Ümumi sual– General yes/ no question. Ümumi suallı cümlələr köməkçi fellər vasitəsi ilə başlayır. Köməkçi fellərə am, is, are, were, was, can, could və s. aiddir. Əgər cümlədə köməkçi fellər yoxdursa, belə halda “do,does,did”-dən istifadə olunur. Məs: She has long hair. Does she have long hair?

2. Seçmə suallar – alternativ questions. Seçmə suallı cümlələrdə söz sırası ümumi sualdan, or bağlayıcısından və ikinci variantdan ibarətdir. Məs; İs this pen, red or blue?

3. Ayrıcı suallar – tag questions. Ayrıcı suallı cümlələrdə söz sırası nəqli cümlə hissəsindən yəni mübtəda, xəbər ardıcıllığı ilə və köməkçi feldən və mübtədaya uyğun şəxs əvəzliyi ardıcıllığı ilə düzəlir. Əgər nəqli cümlə təsdiqdədirsə, qısa sual inkarda olur yaxud da tam əksi. Məs; she is at home, is not she?

4. Xüsusi suallar – Special / wh questions. Xüsusi suallı cümlələrdə söz sırası sual əvəzliyindən, köməkçi feildən, mübtədadan, əsas feildən və s ibarətdir. Məs; Where do you go every day? Azərbaycan dilində sual cümlələrində söz sırası nəqli cümlələrdəki kimi olduğu halda, İngilis dilində sual cümlələrinin özünə məxsus söz sırası var. [1. 22-23]

Əmr cümləsi – inperative sentences. İngilis dilində əmr cümlələrində söz sırası məsdərdən to hissəsinin atılması ilə başlayır. Open the door. Don’t go there. [3. 12-13]

Nida cümlələri – exclamatary sentences. İsmi qüvvətləndirmək üçün istifadə olunan nida cümlələrində söz sırası belədir: what, a/an, sifət, isim, mübtəda, xəbər. What a nice can it is!

Sifəti və ya zərfi qüvvətləndirmək üçün istifadə olunan nida cümlələrində söz sırası belədir; How, sifət/zərf, the, isim, əvəzlik, xəbər. How nice the car is!

Nəticə: İngilis dilində cümlə növündən asılı olaraq söz sırası dəyişir. İngilis dilində hər hansı bir cümlədə söz sırasının dəyişməsi cümlənin həm mənaca, həm də məqsəd və intonasiyaya görə növünün dəyişməsinə səbəb olar. Qeyd edək ki, ingilis dilində qrammatik şəkilçilər cəmi 6 ədəddir. Buna görə də sözlər arasında əlaqə yaratmaq üçün ilk növbədə söz sırasından istifadə olunur. Bundan başqa cümlə qurmaq üçün köməkçi sözlərdən: sözönülərindən, modal feillərdən, ədatlardan və s istifadə edilir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Oruc Musayev – İngilis dilinin qrammatikası. Ali məktəb tələbələri üçün dərslik. “Marif” nəşriyyat. Bakı 1979.

2. R.Həsənzadə, D.Pənahi, G.Pənahi – Müasir İngiliscə-Azərbaycanca, Azərbaycanca-İngiliscə lüğət. Qrammatika. “Çaşıoğlu” Bakı 2001.

3. William R. Smalzer with Raymond Murphy – Grammar in use intermediate woorkbook. Third edition.

# XX ƏSR DİZAYNINDA İTALYAN ÜSLUBU

**Ağazadə Aysel Nəriman qızı**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: Gülrəna Mirzə***
***Aysel.agazade@wcu.edu.az***

**Açar sözlər:** ənənə, İtalyan üslubu, funksional modernizm, eksperimental dizayn, radikal dizayn, postmodern, interaktiv dizayn.

**Key words:** tradition, Italian style, functional modernism, experimental design, radical design, postmodern, interactive design.

**Ключевые слова:** традиция, Итальянский стиль, функциональный модернизм, экспериментальный дизайн, радикальный дизайн, постмодерн, интерактивный дизайн.

Dizaynda İtalyan üslubu, bu günəşli Avropa ölkəsinin ecazkar gözəlliyini, zəngin tarixini və mədəniyyətini, eyni zamanda Qədim Romadan gələn ənənələri qoruyur. İtalyan interyerinin spesifikliyi Apennin yarımadasının zəngin tarixi və mədəniyyətinə istinad etməkdədir və bu gün mənzərəli freskalar, məcazi vasitələr və vitraj pəncərələr olmadan bu üslubu təsəvvür etmək olmaz. Antik dövr, Qədim Roma və İntibahın simmetriyasına sadiq qalmaqla yanaşı, İtalyan dizaynı memarlıq elementləri ilə zənginləşdirilmişdir. [1, 45]

Müasir dövrdə bütün dünyada memarlıq və dizayn sahəsində bir çox yeni istiqamətlər, üslublar meydana gəlməsinə baxmayaraq, klassik İtalyan dizayn üslubu qədimlik xüsusiyyətlərini qoruyub saxlamasına və müasirliklə çox üzvi şəkildə uyğunlaşdığına görə həmişə diqqət mərkəzindədir və bu cəhətdən aktual araşdırma obyekti hesab edilir. [1, 102]

İtalyan üslubu özündə bir-biri ilə sıx əlaqəli bir neçə fərqli tendensiyaları əhatə edir. Eyni zamanda, yenə də özünün xarakterik fərqlərinə malikdirlər ki, bu da interyerin hansı növə aid olduğunu müəyyənləşdirməyə imkan yaradır.

İtalyan dizaynı klassik üslubun içərisində qəsdən lüks, qiymətli ağac materiallarından hazırlanmış, əl oymaları ilə bəzədilmiş mebellər nümayiş etdirir.

Platin, qızıl, gümüşdən və qiymətli daşlardan bəzək üçün istifadə olunur. Tavanlarda suvaq bəzəkləri və ya rəsm əsərləri olur. Klassik İtalyan dizayn üslubu, tağlar və sütunlar, eləcə də kütləvi bahalı bir çilçıraq olmadan təsəvvür etmək olmaz. İtalyan dizaynında dekora çox diqqət yetirilir. İtalyan klassiklərinin məcburi bir elementi böyük pəncərələr və ya bir veranda ilə birləşdirilmiş oturma otağı, həmçinin pəncərələr və bir çox yer hesab olunur. [1,208]

Uzun əsrlər boyu davam edən mədəni inkişaf dövründə İtaliyanın məşhur memarları və ustaları öz əsərləri ilə dünya incəsənətində özünəməxsus iz qoymuş, bütün dövrlərdə memarlıq və incəsənətin avanqardı hesab edilmişlər. Müasir İtalyan dizaynerləri də öz yaradıcılıqlarında yeni stil və modellər yaratmaqla yaradıcı fantazaiyalarının tükənmədiyini göstərmişlər. [2, 14]

XX əsr dahi İtaliya yazıçısı və filosofu Umberto Ekoya görə, İtaliya dizaynın fəlsəfəsi və hətta ideologiyasının sahibidir, digər ölkələr isə yalnız dizayn nəzəriyyəsinin daşıyıcılarıdır. Bu ölkədə dizayn hər zaman tarix boyunca - İntibahdan XX əsrin əvvəllərindəki avanqard dövrünə qədər sənətlə birbaşa əlaqədə olmuşdur. Yüz il əvvəl, XX əsrin əvvəllərində İtaliyada heç kim dizayner kimi bir peşə barədə eşitməmişdi. Geniş satış bazarı da yox idi və lazımı mebel sənətkarlar tərəfindən onların emalatxanalarında istehsal olunurdu. Bu zaman formalar və dekorlar ilə təcrübələr aparmaq vaxtı gəlib çatmışdı. [2, 64]

Müxtəlif dizayn üslublrının formalaşması və üstünlük təşkil etməsi baxımından XX əsr İtalyan dizayn məktəblərinin aşağıdakı dövrlər üzrə öyrənilməsi daha məqsədəuyğun hesab olunur:

- 1940-1950-ci illər- funksional modernizm;
- 1960-1970-ci illər radikalizm;
- 1980-ci illər postmodernizm yüksək texnoloji, minimalizm;

- 1990-cı illər interaktiv dizayn.

Aşağıda hər bir dövrün xarakterik xüsusiyyətlərini və inkişaf meyllərini qısa olaraq göstərilmişdir.

XX əsrin 40-cı illərinin sonu İtaliyada iqtisadi yüksəliş dövrü hesab olunur. 1950-ci illərdə İtalyan dizaynı inkişaf etdi, bütün dünyada tanındı və milli bir sərvət kimi məşhurlaşdı. 1950-ci ildə Domus, dizayn nəzəriyyəçisi Max Billin "Gözəllik funksiyadan və funksiya olaraq gözəllik" əsərini nəşr etdirdi."Yaxşı dizayn" meyarlarının birləşdirilməsindəki son akkord 1956-cı ildə yaradılan Sənaye Dizaynı Dərnəyi (ADI) tərəfindən verilmişdir. Ölkədə bu sənət istiqamətinin inkişafına təşviq və təşviq problemini həll etdi, məhsulların texniki və estetik səviyyələrini yüksəltməyə yönəlmiş işə dizaynerləri cəlb etdi. [3, 24]

1960-cı illər- eksperimental dizayn və pop sənət inqilabı dövrü olmuşdur. Dizaynın inkişafında sonrakı mərhələ 1961-ci ilin sentyabrından bəri hər il keçirilən beynəlxalq Salon İnternazionale del Mobile sərgi-yarmarkasının təşkili hesab edilə bilər. Təşkilatçılar üçün əsas məqsəd dünyaya İtalyan dizaynerlərin nailiyyətlərini göstərmək və istehsalçıları onlarla əlaqə qurmağa təşviq etmək idi.

Bu dövrdə yeni materialların qiymətli taxtalar, dəri, mərmər kimi ənənəvi və klassik materiallarla cəsarətli birləşməsi simvolik bir məna almışdı. Böyük mebel fabriklərinin istehsalda əsas məqsədi yalnız iqtisadi gəlir (mənfəət) əldə etmək deyil, hər şeydən əvvəl bədii dəyəri olan yeni məhsullar yaratmaqdan ibarət idi.

Ötən əsrin 60-cı illəri, sənət və gerçəkliyin öz aralarındakı sərhədləri pozduğu pop sənətinin (İngilis popu- populyar, ictimai) inqilabçı yürüşünün vaxtıdır. Bu üslub Amerikadan yayılmağa başladı, sənətçi Andy Warhol isə ən məşhur nümayəndəsi sayılır. Dizaynda Amerika həyatının simvolları öz əksini tapmışdır. Pop sənətinin meyli insanların gündəlik istifadə etdikləri adi əşyaları sənət əsərinə çevirirdi. [4, 102]

1970-ci illər- radikal dizayn dövrüdür. Xaricdə İtalyan dizaynına münasibətdə inqilab yaradan hadisə 1972-ci ildə Nyu-Yorkdakı Müasir İncəsənət Muzeyində baş verdi. Bu sərgi “İtaliya: Yeni bir ev mənzərəsi” adlanırdı. Əvvəllər bu dövlət və onun mədəniyyəti yalnız gözəl rəsm, heykəltəraşlıq, memarlıq və qrafika ilə bir ölkə kimi qiymətləndirilirdi. İndi tamaşaçılara müasir dizaynerlərin əsərləri göstərildi. 1980-ci illər postmodern dövrüdür. Bu illərdə məhsulun yaratdığı duyğular ön plana çıxırdı. Bir əşyanın yaradılması prosesi, sanki bir oyuna çevrilir və son istehlakçı da bu işə cəlb olunur və oyunun fəal iştirakçısı olurdu. Dizaynerlər sərbəst şəkildə tarixi irsdən borc götürürlər, cəsarətlə üslubları qarışdırırlar, paradoksal və qrotesk məhsullar yaradırdılar. Bu, simvolik bir adı olan "Alchimia" dizayn stüdyosunun (1976-1989) çiçəklənmə dövrüdür. Onun yaradıcıları - Ettore Sottsass (1917-2007), Andrea Branzi, Michele de Lucchi və Alessandro Mendini tamamilə yeni yanaşmalar təklif etdilər. Dizaynerləri sadə materialların ləl-cəvahirata çevrildiyi öz "filosof daşını" tapmaq fikri birləşdirdi. Moda və kütləvi hobbilər studiya kimyagərləri üçün etalon oldu, fərdi dizayn vizyonunu cəmiyyətin əksəriyyətinin dəyərləri ilə birləşdirmək və yeni bir həyat tərzinin yaradıcısı olmaq istəyi ilə əvəz olundu. [4, 68]

1990-cı illər - yüksək texnoloji, minimalizm, oyun və interaktiv dizaynın vaxtıdır. Bu illərdə populyarlıq qazanan minimalizm üslubunun postmodernizmin həddindən artıq simvolizminə bir cavab olduğu düşünülürdü. İstiqamətin adı dizaynerlərin minimum vəsaitdən istifadə etmək istəklərini əks etdirirdi. Yaradılan obyektlər son dərəcə sadəliyi və gözəlliyi ilə seçilirdi. Hətta dizaynerlər də rəngdən imtina etmək qərarına gəlmişdilər. Məhsulun səthi mat və ya metal mat ola bilər, bəzən qızıl və ya gümüş detallara üstünlük verilirdi.

Minimalizm üslubunda mebel və ya digər interyer məhsulları, ilk növbədə, interyerdə mərkəzi bir mövqe tutmağa çalışmır və ətraf mühitin qalan hissələri ilə yaxşı birləşirdi. Yüksək texnoloji üslub İtaliya dizaynı sahəsində bir növ elmi və texniki nailiyyətlərin təcəssümüdür. Terminin İngilis dilindən tərcüməsi "yüksək texnologiya" kimi səslənir, istiqamət 1978-ci ildə ortaya çıxmışdır. Yüksək texnoloji nümayəndələr 1920-ci illər konstruktivistlərinin ənənələrini davam etdirdilər və yeni texniki formalara daha çox estetik dəyər verməyə çalışırdılar. Hi-tech-in əsas ideyası maksimum funksionallıq və yüksək texnoloji məişət mühitinin yaradılmasıdır. [5, 42]

1990-cı illərin digər bir mühüm məqamı, İtalyan dizaynının obyektlərin və istehlakçıların prosesin aktiv iştirakçılarına çevrildiyi oynaq və interaktiv hala çevrilməsidir. Müasir İtalyan üslubu, bir tərəfdən klassik kanonların davamlılığını qoruyur, digər tərəfdən də dekorasiyada ən yeni materiallardan istifadə edir. Məsələn, divar kağızı və ya bitmiş freska, müasir laminat və süni daş ola bilər. Taxta tez-tez davamlı

MDF ilə əvəz olunur və şüşələr PVC-dən hazırlanır. Bir mənzilin və ya evin içi müasir üslubda mebel ilə bəzədilir. Op-art (və ya optik sənət, incəsənət) elementləri məhsullarda müxtəlif optik illüziyalardan istifadə edildiyi zaman dizaynda bir yeniliyə səbəb olmuşdur. Op-art "Situation Art", "Kinetik incəsənət" kimi də adlandırılırdı. Əsas məqsədi optik və işıq effektləri, üçölçülü konstruksiya içərisindən keçən illüziyalar yaradaraq, yeni yaranan Op-art istiqaməti fiziki psixoloji qavramaya əsaslanan, əşyasız həndəsi abstraksiya yaratmaq idi. [5, 142]

XXI əsr daha sürətli inkşafın izi İtaliya dizaynını dünyada özünün öndə getməyini yenə də təsdiqləyir. İnsanların həyatını daha rahat etmək üçün, təbiətin gözəlliyini və tarixi irsini əks etdirmək, müasir zamanın problemlərini həll etmək İtaliya dizaynının əsas məqsədinə çevrilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Bəkirova Təranə. Dizayn tarixi. Dərslik. - Bakı.: 2012. 336 s.
2. Mirzə Gulrəna. İncəsənət tarixi. Metodik vəsait. – Bakı.: QU mətbəəsi. 2010. 104s.
3. Salamzadə Ə.Ə. Dizayn və informasiya. Bakı – 2006, 32 səh.
4. Рунге В. Ф. История дизайна, науки и техники. – Москва: Архитектура -С, 2006.
5. Рутманис В. Введение в теорию дизайна: методолог. Проблемы. Рига, 1998.–158 с.
6. www. Hudson (Thames), Desing. Краткое история дизайна с начало XX века.

# TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ PSİXOLOJİ AMİLLƏRİN ZƏRURİLİYİ

**Axundlu Aynur**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: Hüseynova Kəmalə***

**Açar sözlər:** təhsil, psixoloji amil, fərdi yanaşma, dərketmə üsulu, təlim nailiyyəti

## SUMMARY

## IMPORTANCE OF PSYCHOLOGICAL FACTORS IN IMPROVING EFFECTIVENESS OF LEARNING

The article stresses the importance of psychological factors in the creation of an individual approach to students. In order to improve the effectiveness of learning, along with other important issues, presented ways of applying in practice the Howard Gardner's multiple intelligences theory in the learning process.

**Key words:** education, psychological factors, individual approach, multiple intelligences, learning achievement

## РЕЗЮМЕ

## ЗНАЧЕНИЕ ПСИХОЛОГИЧЕСКИХ ФАКТОРОВ В ПОВЫШЕНИИ УЧЕБНЫХ ДОСТИЖЕНИЙ

В статье подчеркивается важность психологических факторов в создании индивидуального подхода к учащимся. В целях повышения эффективности обучения, наряду с другими важными вопросами, представленны пути применения теория множества интеллектов Говарда Гарднера в процессе обучения.

**Ключевые слова:** образование, психологические факторы, индивидуальный подход, множественные интеллекты, успеваемости

*Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdr. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun.*

*Heydər Əliyev*

Xeyirxah, vətənpərvər, yaradıcı, millətini hər şeydən uca tutmağı bacaran Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanda milli təhsil sisteminin formalaşdırılması və inkişafı istiqamətində gördüyü işlər əvəzolunmazdır. Ulu öndərin davamçısı olan İlham Əliyevin də təhsilə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, təhsil sistemində müsbət dəyişikliklər əldə olunmuşdur.

Sağlam təlim mühiti və onu formalaşdıran amillər tək dövlət qanunları ilə məhdudlaşmır, bu mühitə digər faktorlar da öz təsirini göstərir. Məlumdur ki, təhsilin keyfiyyəinin yüksəldilməsinə təhsilalanların fərdi xüsusiyyətləri və qabiliyyətləri təsir edir ki. gəlin bunları formalaşdıran amilləri gözdən keçirək.

Təcrübələr göstərir ki, təhsilin keyfiyyətinin yüksəldilməsində bir çox amillərlin nəzərə alınması zəruridir: bioloji amil, psixoloji amil, sosial-iqtisadi amil, ətraf mühit amili, intellekt amili. Qeyd edilən amillərin də tətbiqinin mexanizmləri zaman-zaman mütəxəssislər tərəfindən işlənib hazırlanmışdır. İnnovativ müəllimlər nəinki işlənib hazırlanmış yeni texnologiyaları öz təcrübələrinə uyğunlaşdırır və tətbiq edib keyfiyyəti yüksəldir, həm də həmin yeniliklərə öz praktik fəaliyyətində daha da zənginləşdirir və müəllim icmasına öz töhfələrini verir.

Bu araşdırmada qeyd edilən amillərdən yalnız birinin - təhsilalanları psixoloji baxımdan səciyyələndirən xüsusiyyətləri nəzərə alınmaqla təlimin təşkili məsələsi ilə bağlı dünyada yayılmış təcrübənin Azərbaycanda təbiqi imkanları öyrənilmişdir.

Məqsəd təhsilalanların təlim nailiyyətlərinin yüksəldilməsinə nail olmaq üçün psixoloji amilləri nəzərə almaqla təlim prosesində fərdi yanaşmanı təmin etməyin yollarını işləyib hazırlamaqdır.

Bu məqalədə Hovard Qardnerin Müxtəlif üsullarla dərketmə (Multiple intelegence) nəzəriyyəsi və həmin nəzəriyyə üzrə Nipissinq Universitetinin Təhsil fakultəsinin professorları Dr. Duqlas Goss və Oliv Ridlerin tədqiqatlarından faydalanılmışdır. Harvard Universitetinin professoru Hovard Qardner əmindir ki, təhsilalanları müxtəlif üsullarla öyrətməklə təlimin keyfiyyətini yüksəltmək olar. Məşhur psixoloq alim dərketmənin 8 üsulunu (son illərdə işlədiyi 9-cu üsul müzakirə edilir ) işləyib hazırlamışdır. Alim sübut edir ki, hər bir insan ətraf aləmi 8 yolla dərk edir: Linqvistik/söz, Məntiqi/riyazi, Vizual/məkan, Musiqi/səs, Bədən/kinestik, Naturalistik/təbiətr, Fərdlərarası, Fərddaxili.

Lakin ayrı-ayrı insanlarda dərketmənin bu üsullarından biri və ya bir neçəsi daha çox inkişaf etmişdir. Müəllimin hər bir təhsilalanda daha çox inkişaf etmiş üsulları müəyyən edib, təlim tapşırıqları hazırlayarkən bu individuallığı nəzərə alması əhəmiyyətlidir. Lakin bu heç də elə qəbul edilməməlidir ki, bir kəsdə linqvistik/söz və ya vizual/məntiqi dərketmə itidirsə, müəllim yalnız o üsul inişafına diqqət etməli və tapşırıqları da o üsuldan irəli gələn ehtiyaclara uyğun tərtib etməlidir. Müəllim inkişaf etmiş üsullar vasitəsi ilə inkişaf etməmiş üsulların da inkişafna şərait yaratmalıdır. Bəs şagirdlərdə hansı dərketmə üsulunun daha çox inkişaf etmiş olduğunu necə müəyyən etmək olar? Ayrı-ayrı tədqiqatlarda bunun müxtəlif yollarla müəyyənləşdirilməsi mümkün hesab edilir. Qeyd edilənlərin təlimin təşkilində nəzərə alınması təhsilalana nə verir? Hər bir öyrənənin maraq, imkan və ehtiyaclarına əsaslanan öyrənmə mühiti ilə təmin olunan təhsilalanın təlim nailiyyətinin artması aksiomdur. Bütün bu amilləri bir araya gətirmək necə mümkündür? Ayrı-ayrı alimlər bu məsələlərlə bağlı dəyərli araşdırmalar aparıb aşkar ediblər ki, müxtəlif dərketmə üsullarına aid təhsilalanların maraqları, nümayiş etdirdikləri bacarıqlar və arzuladıqları öyrənmə mühiti və öyrənmə üsulları fərqlidir. Belə ki, Linqvistik /söz intellekti daha güclü olanlar dinləməyi, sözlə işləməyi: oxumağı, yazmağı, hekayə danışmağı daha çox xoşlayırlar. Onlar əşya və hadisələrin adlarını, tarixləri yadda saxlamaqda xüsusi bacarıq nümayiş etdirirlər. Onlar danışırkən, dinləyərkən və sözləri görərkən daha yaxşı öyrənirlər.

Riyazi/məntiqi intellekti iti olan uşaqlar isə dah çox təcrübə aparmağı, rəqəmlərlə işləməyi, sual verməyi, əşyalar və onlar arasında olan münasibətləri araşdırmağı xoşlayırlar. Onlar riyaziyyatda, hadisələrin səbəblərinin müəyyən edilməsi, məntiq və problem həlli kimi bacarıqlara malik

olduqlarından kateqoriyalara ayırarkən, təsnif edərkən, abstrakt anlayış və münasibətlər üzrə işləyərkən daha yaxşı öyrənirlər.

Vizual/məkan dərketməsi daha üstün olanlar isə şəkil çəkməyi, konnstruksiya etməyi, əşyaları hazırlamağı, xəyallara dalmağı, şəkillərə/slaydlara baxmağı, filmlərə baxmağı, maşınlarla işləməyi və ya oynamağı xoşlayır, əşya və hadisələri təsəvvür etməkdə,dəyişiklikləri hiss etməkdə, labirint və tapmacaları tapmaqda, xəritələri oxumaqda xüsusi bacarıqlar nümayiş etdirirlər. Onlar üçün uğurlu təlim mühiti vizuallaşdırmaq, xəyalında canlandırmaq, rənglər və şəkillərlə işləməklə daha yaxşı öyrənməyə meyillidir.

Bədən/kinestik dərketməsi iti olanlar hərəkətdə olmağı, haqqında danışılan əşyalara toxunmağı, jest və mimikalardan geniş istifadə etməyi xoşladıqlarından fiziki fəaliyyətdə (idman, rəqs, hərəkət) və emal işlərində toxunaraq, hərəkət edərək, ətrafdakılar və əxz edilən biliklərlə sensor üzvləri vasitəsi ilə qarşılıqlı fəaliyyətdə olmaq bacarıqları daha çox inkişaf edib. Belə uşaqlarda rollu oyunlarda iştirak etmək, fiziki hərəkətlər nümayiş etdirmək, müşahidə etdiyi hərəkətləri icra etmək, muzeylərə, parklara və s. getməklə fəal hərəkətdə olmaq, məntiqi suallar vermək, internetdən itifadə etmək şəraitində daha səmələli öyrənmə baş verir.

Naturalist/təbiət qrupuna daxil olanlar müxtəlif coğrafi və hava şəraitlərində açıq məkanda olmağı, digər canlılırın (heyvanların, bitkilərin) yanında olmağı sevirlər. Belə uşaqlarda kateqoriyalaşdırmaq, ətrafında təbiət şəraiti (bitkilər, heyvanla, quşlar, balıqlar) yaratmaq, səyahətlər, ekskursiyalar təşkil etmək, əşyları yığmaq və qoruyub saxlamaq bacarıqalrı üstün olur. Onlar təbiət hadisələrini öyrənərkən, təbiət qoynunda olarkən, hadisələrin baş vermə prosesini öyrənərkən öyrənməyə daha meyilli olurlar.

Musiqi/səs intelleki daha yüksək olan uşaqlar oxumağı,zümzümə etməyi, musiqini dinləməyi, instrumentdə ifa etməyi, musiqiyə reaksiya verməyi çox xoşlayır, bu səbəbdən müxtəlif səsləri təqlid etmək,musiqini yadda saxlamaq, ritmləri tutmaq kimi bacarıqları inkişaf edib. Onlar ritmlər tutmaqla, melodiya və musiqi vasitəsi ilə öyrənməyi sevirlər.

Fərdlərarası intelleki inkişaf etmiş öyrənənlər çoxlu dostu olmağı, insanlarla söhbət etməyi və qruplarda fəaliyyət göstərməyi insanları anlamaqda, başqalarını öyrənməkdə, təşkilatçılıqda, ünsiyyət yaratmaqda, konfliklərin məharətli həllində, və vasitəçilikdə bacarıqlıdlrlar. Bu uşaqlar ideya və təcrübələrini mübadilə edərkən, müqayisə edərkən, əlaqələndirərkən, birgə fəaliyyət göstərərkən və müsahibə alarkən daha yaxşı öyrənirlər.

Fərddaxili intellekti yüksək olanlar isə təklikdə işləmək və öz maraqlarını gözləməyi sevirlər. Özünü dərk etmək,öz arzuları və duyğuları üzərində düşünmək, qərarlar qəbul edərkən hisslərindən çıxış etmək, öz maraq və məqsədlərini gözləmək, təkrarsız olmaq onlara xas bacarıqlardır. Təklikdə işləmək, fərdi layihələr işləmək, özünü təlimatlandırmaq və öz spesifik mühitinin olması kimi ehtiyaclarını nəzərə alraq elə tapşırıqlar verilməlidir ki, heç kəsin mane olmasına yol verməsin, məqsədləri dəqiq müəyyənləşdirməklə, fərdi oyunlarla, öz oxu, yazı, düşünmə tempini tənzimləməklə, təklikdə işləyə bilsin, məlumatları öz təcrübəsilə əlaqələndirsin.

Nəticədə təlimi təşkil edərkən müəllim bu məsələləri nəzərə almaqla hər bir şagirdə dərketmə üsulu baxımından fərdi yanaşmaqla onların dərketmə imkanlarını və təlim nailiyyətlərini yüksəldə bilər.

Lakin bunlarla yanaşı təhsilalanların ailə həyatında valideyinlərlə münasibətində travmatik məsələlərin uğursuzluqlarınaa səbəb olmamaları üçün avtoritarlıq, diqqətsizlik və qayğısızlıqdan uzaq olmaları çox vacibdir. Təhsilalanların dərsə motivasiya ola bilməsi üçün valideyinlərdən maraq, sevgi və şəfqət görməsi cox lazımlıdır.Eyni şəkildə həddindən artıq qorunan, həddindən artıq maraqlanılan və beləcə valideyinlər tərəfindən fərd olmasına icazə verilməyən məsələlər də öyrənənlərin psixoloji inkişafına mənfi təsir etməklə yanaşı, təhsildə müvəffəqiyyətsizliyə də səbəb yaradır.

Sağlam mühit uğur üçün çox vacibdir Yaş səviyyəsinə uyğun olaraq təlim mühitinin maraqlı, əyləncəli və cəlbedici edilməsi, eyni zamanda təhsilalanların potensial imkanlarını nəzərə alaraq və sağlamlıqlarının qorunması məqsədilə onlara davamlı inkişaflarını təmin edən, müstəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informativ-kommunikativ, psixomotor bacarıqlarının mənimsədilməsini təmin etmək lazımdır.

Son olaraq qeyd etmək olar ki, müəllim və valideynlər təhsilalanları erkən yaşlarından yaxından izləməli və hansı istiqamətə gedəcəklərini, istək maraqlarını başa düşərək dəstək vermələri müsbət nəticələr verər.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Əlizadə Ə, Əlizadə H. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, ADPU nəşriyyatı, 2008
2. Ə.Ə.Qədirov. Yaş psixologiyası. Bakı, 2003.
3.Afət Süleymanova, Təhsilin Əsasları, Bakı, Təhsil nəşriyyatı, 2014.
4. Hovard Qardner: Müxtəlif üsullarla dərketmə nəzəriyyəsi və təhsil
5. https://www.edutopia.org/multiple-intelligences-research


## HEYDƏR ƏLIYEVİN YENİ NEFT STRATEGİYASI


**Axundova Fidan Vüsal qızı**
*Azərbaycan Universiteti*



**Açar sözlər:** Əsrin müqaviləsi, Heydər Əliyev, strategiya, neft, ixrac
**Key words:** Contract of century, Haydar Aliyev, strategy, oil, export
**Ключевые слова:** Контракт века, Гейдар Алиев, стратегия, нефть, экспорт


1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra çətinliklərlə qarşı-qarşıya qaldı. SSRİ-nin keçmiş respublikaları ilə Azərbaycan respublikası arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfıra enməsi neft və qaz sənayesinin ağır böhranlı vəziyyətə düşməsinə, respublikanın hərbi təcavüz,daxili çəkişmələr və iqtisadi çətinliklərlə üzləşməsinə gətirib çıxardı. Bütün bu çətinliklər maliyyə, texniki və digər problemlər aşkar edilmiş “Azəri”, ”Çıraq”, ”Günəşli” kimi yataqların işləməsinə də mane olurdu. Belə vəziyyətdə Azərbaycan Respublikasının iqtisadiyyatının böhrandan çıxarılması və inkişaf etdirilməsində neft sənayesinin dirçəldilməsi,müasir texnologiyalar əsasında yenidən qurulması mühüm əhəmiyyət kəsb edirdi.

Xalqın tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdan cənab Heydər Əliyev “Neft Azərbaycanın milli sərvətidir” devizi ilə çıxış edərək,respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı [8]. Müstəqilliyin ilk illərində Xəzər dənizinin hüquqi statusunun müəyyənləşmədiyi,işğalçı Ermənistanla atəşkəsin hələ kövrək olduğu,ölkəmizin daxilində ictimai-siyasi sabitliyin olmadığı bir zamanda xarici dövlətlər və dünyanın bir sıra qabaqcıl neft şirkətləri Azərbaycan Respublikası iqtisadiyyatına, əsasən də neft sənayesinə investisiya yatırmaqdan çəkinirdilər və riskə getmək istəmirdilər. Azərbaycanın ümummilli lideri Heydər Əliyev qısa müddət ərzində ölkə daxilində sabitliyi bərpa etdi və dövlətin malik olduğu təbii sərvətlərin istismarına xarici investisiyaların cəlb edilməsi məqsədi ilə bir sıra cəsarətli siyasi addımlar ataraq “Yeni neft strategiyası”-nı işləyib hazırladı.

Neft sənayesinə investisiya və yeni texnolgiyalar cəlb etmək, respublikaya sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması Azərbaycan Dövlət Neft Şirkətinə (ARDNŞ) tapşırıldı[1,s.305]. Danışıqlar qrupuna bir sıra neft və beynəlxalq əlaqələr üzrə görkəmli mütəxəssislər cəlb olundu. Bu qrupun fəaliyyətində İlham Əliyev, Xoşbəxt Yusifazədənin, Natiq Əliyevin rolu xüsusən əhəmiyyət kəsb edirdi. Azərbaycanın maraqlarına cavab verən müqavilə şərtləri müəyyən edildi.

Müqavilənin bağlanmasına müxtəlif xarici qüvvələr mane olmağa çalışırdılar. Rusiya Federasiyasının təşəbbüsü ilə belə tezis irəli sürülürdü ki, Xəzər dənizi bütün Xəzəryanı ölkələr üçün ümumidir və onu milli sektorlara bölmək olmaz,buna görə də Azərbaycan birtərəfli qaydada xarici şirkətlərlə neft müqavilələri bağlaya bilməz. Lakin Azərbaycan hökuməti tərəfindən Vaşinqtona ezam edilmiş ADNŞ-in vitse prezidenti İlham Əliyev ABŞ-da Enegetika Nazirliyi ilə apardığı uğurlu danışıqlardan sonra ABŞ hökumətinin dəstəyi sayəsində xarici şirkətlər bu fikirdən əl çəkdilər.

Beləliklə, səmərəli danışıqlardan sonra Azərbaycanın neft strategiyasında yeni uğurlu mərhələ başlandı. 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında toplanmış neft sammitində bir sıra dövlətlərin nümayəndə heyətlərinin iştirakı ilə respublikanı təmsil edən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və dünyanın qabaqcıl neft şirkətlərinin daxil olduğu konsorsium arasında Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı “Azəri”, ”Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı,birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında “Əsrin müqaviləsi” adını almış müqavilə imzalandı[7,s.35].

”Əsrin müqaviləsi”ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoka, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına şərait yaratdı

“Əsrin müqaviləsinin” imzalanması ilə ümummilli lider Heydər Əliyevin neft strategiyasının əsası qoyuldu. Bu müqavilə milli dövlətçiliyimizin inkişafında mühüm tarixi mərhələ oldu və Azərbaycanın suverən dövlət olduğunu göstərdi. Bununla əlaqədar olaraq Heydər Əliyev demişdir: ”Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suverən hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk”[2,s.259].

1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış bu müqavilə noyabrın 12-də Milli Məclisdə müzakirə edilib ratifikasiya edildikdən sonra 1994-cü il dekabrın 2-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən müqavilənin təsdiq edilməsi haqqında qanun imzalanmışdır. Sazişi Heydər Əliyev obrazlı şəkildə belə izah edir: ”Müqavilə iki tərəfli hərəkəti olan yola bənzəyir,gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin... Mən Azərbaycan Respublikasının Prezidenti kimi, bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçməsi üçün əlimdən gələni əsirgəmiyəcəm”[3,s.260].

İmzalanmış neft müqaviləsi 30 il müddətinə nəzərdə tutulmuşdu. Müqaviləyə əsasən “Azəri”, ”Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinsulu hissəsindən 500 milyon tondan çox neft çıxarılması planlaşdırılırdı. Bu müqaviləni reallaşdırmaq üçün kapital qoyuluşunun 80 faizini Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər təmin etməlidir ki,bu da təqribən 7,4 milyard dollar təşkil edirdi[5,s.7].

Neft müqaviləsi uğurla həyata keçirilməyə başlandı. 1997-ci il noyabrın 7-də “Çıraq” yatağından ilkin neft çıxarıldı. Heydər Əliyev göstərdi ki, plana görə gələcəkdə həmin platformada ikinci quyu, daha sonra 8 quyu qazılacaq, ümumiyyətlə, isə orada 24 quyunun qazılması planlaşdırılmışdı. Həmin platformada ildə 6 milyon tona qədər neft çıxarılacağı gözlənilir [4,14 may 1997-ci il].

Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlər ilə birlikdə hasil olunan neftin və qazın iri həcmli nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edirdi. Bu məqsədlə 1996-cı ilin yanvar ayında “Azərbaycan neftinin Bakı Novorossiyisk marşurutu ilə nəql edilməsi haqqında” Rusiya Federasiyası ilə Azərbaycan Respublikası saziş imzalanmış, 1997-ci ilin oktyabrında həmin xətt istifadəyə verilmişdir. 1997-ci ildə Azərbaycan və Gürcüstan hökümətləri arasında neftin Qara dənizə çıxarılması üçün Bakı-Tbilisi-Supsa marşurutu ilə nəqli nəzərdə tutulan saziş imzalanmışdır. 1999-cu ilin 17 aprelində Azərbaycan, Gürcüstan, Ukrayna prezidentlərinin iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa terminalı istismara verilmişdir[9].

Heydər Əliyevin hazırladığı neft strategiyasının mühüm tərkib hissəsini Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası təşkil edirdi. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) “Əsas İxrac Neft Kəməri”nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmış, 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında ümummilli liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyularaq tikintisinə başlanmışdı. Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin rəsmi açılışı 2006-cı ilin 13 iyununda olmuşdur. Bu açılış ulu öndər Heydər Əliyevin neft startegiyasının böyük təntənəsidir. Həmin beynəlxalq kəmər təkcə iqtisadi deyil, həm də böyük siyasi starteji əhəmiyyət kəsb edərək Şərq ilə Qərb arasında energetika dəhlizi rolunu oynayır[6,s. 50].

Heydər Əliyevin uğurlu neft strategiyası sayəsində bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri,terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Son illərdə öz geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən TANAP, TAP kimi iri transmilli layihələrin reallaşdırılmasında Azərbaycanın söz sahibinə çevrilməsi və əhəmiyyətli paya malik olması,"XXI əsrin layihəsi" hesab edilən "Şahdəniz-2" layihəsinin reallaşdırlması da əsası "Əsrin müqaviləsi" ilə qoyulan böyük neft strategiyasının davamıdır[10].

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İkinci kitab. Bakı: Azərnəşr, 1997, - 604 s
3. Heydər Əliyev. Azərbaycan nefti dünya siyasətində. IV kitab s.119-123.
4. Heydər Əliyev. Müstəqillik yollarında. I cild. Bakı: 1997, 558 s.
5. Heydər Əliyevin Neft strategiyası. 1-ci hissə. Bakı: 2001 - 491 s
6. İsmayılov İsrafil Zakir oğlu. AZƏRBAYCAN NEFTİ XX ƏSRDƏ (hərbi-siyasi baxış). Bakı.2007
7. Məsimov Abbas Xuda oğlu. BP-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti. – Bakı: Elm və Təhsil, 2018. – 256 s. + 32 s. ill.
8. https://azerbaijan.az/related-information/131
9. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/əsrin-muqaviləsi/
10. https://nuhcixan.az/news/cemiyyet/6478-ulu-onder-heyder-eliyevin-neft-strategiyasi-olkemizin-davamli-inkisafina-yol-acib


## DƏBLİ GEYİM KOMPOZİSİYASININ YARADILMASINDA RƏNG VƏ NAXIŞ AMİLİ


**Axundova Firəngiz Xalid qızı**
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***firam25@gmail.com***


**XÜLASƏ**


Rənglərin öyrənilməsi, onların ahəngindən dizayn sahələrində düzgün istifadə dizayner hazırlığında mühüm yer tutan məsələlərdəndir. Müxtəlif rənglər və onların birləşmələri, naxışlar dəbli geyim kompozisiyasının yaradılması uçun çox vacib amillərdəndir. Rəng simvolizmi bəzək kompozisiyalarında da mühüm rol oynayır. Müəssisələrdə hazırlanacaq geyimlərin layihələndirilməsi zamanı dövrün dəbi, hakim üslub və ya alt üslub, mental dünyagörüşünü əhatə edən bir sıra məsələlər nəzərə alınmalı, rəng və naxış qismində ornamentlərin istifadəsinə düzgün riayət olunmalıdır.



**Açar sözlər:** geyim, kompozisiya, rəng həlli, naxış, estetika


**РЕЗЮМЕ**


Изучение цветов, правильное использование их гармонии в области дизайна - один из важных вопросов в обучении дизайнера. Разные цвета и их сочетания - один из важнейших факторов при создании стильной композиции одежды. Важную роль в декоративных композициях играет цветовая символика. При разработке одежды, которая будет производиться, следует учитывать ряд вопросов, касающихся моды, доминирующего стиля или подстиля, мировоззрения того времени, и следует должным образом соблюдать использование орнаментов в качестве цветов и узоров.

**Ключевые слова:** одежда, композиция, цветовое решение, узор, эстетика

**SUMMARY**

The study of colors, the correct use of their harmony in the field of design is one of the important issues in the training of a designer. Different colors and their combinations are one of the most important factors in creating a stylish composition of clothes. Color symbolism plays an important role in decorative compositions. When designing clothes to be produced in local factories, a number of issues related to fashion, dominant style or sub-style, worldview of the time should be considered, and the use of ornaments as colors and patterns should be properly observed.

**Key words:** clothing, composition, color scheme, pattern, aesthetics, fashion

Rənglərin öyrənilməsi, onların ahəngindən dizayn sahələrində düzgün istifadə dizayner hazırlığında mühüm yer tutan məsələlərdəndir. Müxtəlif rənglər və onların birləşmələri dəbli geyimlərin layihələndirilməsi üçün çox vacib amillərdəndir. Yohannes İtten (1888-1967-ci illər) rəngin vacibliyi haqda danışarkən qeyd edirdi, "əgər rəng qanunlarını bilmədən şah əsərləri yaradırsınızsa, o zaman yolunuzun adı cəhalətdir. Ancaq bu qanunları bilmədən şah əsərləri yaratmaq iqtidarında deyilsinizsə, o zaman müvafiq biliklər almaq üçün öz qayğınıza qalmalısınız" [3, səh.12] Rənglər obyektlərin görmə qabiliyyətini artırmaq və azaltmaq, cəlb etmək, sakitləşdirmək və həyəcanlandırmaq, hətta isti və ya soyuq etmək qabiliyyətinə malikdir. Rənglərin mənaları onların qavrayış psixologiyası, bir insanın həyat təcrübəsi, müxtəlif xalqların və mədəniyyətlərin ənənələri və mental xüsusiyyətləri ilə bağlıdır.

Rənglərin qəbul edilən emosional və estetik mənaları aşağıdakılardan ibarətdir:

· mavi rənglər - ən yüngül, ən soyuq, ən uzaq;
· yaşıl - ən neytral, sakit;
· sarı - isti, yaxın, xəbərdarlıq;
· qırmızı - isti, yaxın, aktiv, maraqlı;
· tünd tonda rənglər - ağır, kütləvi, tutqun;
· açıq rənglər- yüngül, sakit, təmiz;
· parlaq rənglər - xoş, aktiv və s.

Estetik tələblər geyim kompozisiyalarin estetik funksiyasının dolğunluğuna yönəldilmişdir. Onun əhəmiyyəti estetik xüsusiyyətlərin geyim üçün müəyyən olduqları və digər məhsul qrupları üçün çox əhəmiyyətli olması ilə müəyyən edilir. Geyimə ən yüksək estetik tələblər gənclər tərəfindən, xüsusilə də 17-21 yaşlarında olanlar tərəfindən yaranır. 70-80% -ə paltar seçərkən onlar moda ilə idarə olunur. Bu qrup istehlakçılara xüsusi diqqət yalnız dünya əhalisinin 45% -ni təşkil edir. Eyni zamanda gənclər 14-30 yaş arasındadır.

Estetik tələblər geyim moda istiqamətində və istehlakçıların estetik zövqləri uyğun təmin etməlidir. Moda geyim, ayaqqabı, saç, mebel, və s. görünən müəyyən estetik zövqləri müəyyən bir müddət ərzində müəyyən bir ictimai mühitdə qısa bir hakimiyyətdir. Geyimdə moda - müəyyən bir müddətdə, müəyyən bir ictimai mühitdə insanların ən gözəl hesab etdiyinə görə, xəttlər, rənglər, kəsmə və bitirmə elementləridir.

Dizayner rəng həllini seçərkən onu ilk növbədə rəngin estetik təsirləri maraqlandırır. Buna görə rəngləri estetik cəhətdən aşağıdakı kimi bölürlər.

1. Bir ayrı rəngin sadə və ya bir neçə uyğunlaşdırılmış rənglərin sadə estetik təsirləri, məsələn sadə rəng sırasının, kölgə sırasının və fəza prespektivinin göstərdiyi təssüratlar. Həqiqətdə bu hadisələr predmetin rəngini işıqlandırmadan və otağın ölçüsündən asılı olaraq dəyişməsi kimi qəbul edilir.

2. Ümumi bədii-estetik təəsürat. Bura bütün dərk edilən məkan daxildir.

Bir qayda olaraq hətta xırda bir fraqment bir-birini gücləndirən və ya zəiflədən bir neçə rənglə uyğunlaşır. Rəngin sayəsində biz predmeti görürük, bununla yanaşı rəng müəyyən həyacan və hiss oyadır. Buna görə rəngi seçərkən xüsusilə diqqətli olmaq lazımdır. Əsası bu və ya digər çıxış mövqeyi qoyulmuş müxtəlif rənglərin şüurlu qruplaşdırılmasına kombinatorika deyilir. Kombinə edilmiş rənglərdən istifadə edilməsi rəng həllinin yolunda mühüm addımlarından biridir.

Rəng və geyim münasibətlərini nəzərdən keçirildikdə təəssüratın bütövlüyü və ya rəng və formanın vahidliyi haqqında qeyd edilir, ahəngdarlıq əmələ gəlir.

Əgər rəngin seçilməsini estetik cəhətdən baxıldıqda üç pilləni, üç tədricən yaranan qradiasiyanı bir-birindən fərqləndirmək olar:

1. Kombinatorikanı, yeni estetik qanunauyğun rənglərin qruplaşdırılması – simmetriya və ya kontrasta oxşar; 2. Ahəngdarlıq – yəni rəngin xüsusi təsirini nəzərə almaqla və ya onun predmetlə bir də onun ifadəliyi və ya onun strukturu; 3. Rəngin dinamikliyi, yəni rəngin seçilməsinə edilən müəyyən psixofizioloji təsir.

Kostyum kompozisiyasında digər mühüm rola malik amil naxışdır. Naxış, ornament parçada müxtəlif formaların, cizgilərin, boşluqların parça üzərində və ya içərisində rənglərlə ərsəyə gətirilməsi kimi izah oluna bilər. Ornament - şaquli, üfüqi və ya maili oxlar boyunca simmetrik strukturlu elementlərdən, naxışlardan və ya hissələrdən qurulmuş ritmik bir kompozisiyadır; o müstəvi qrafik formalardan, dəqiq sərhədlərlə ayrılmış rəng sahələrindən ibarət olur. [2, səh.129] Bəzək sənəti ornamentlərin dili ilə yazılmış xalq mədəniyyətinin salnaməsi hesab edilir. Simmetriya, ritm və kompozisiya prinsiplərinə ciddi riayət etmək xalqın tarixini, sevinc və kədərlərini, arzu və problemlərini əks etdirir. Rəng simvolizmi bəzək kompozisiyalarında mühüm rol oynayır. [1, səh.328]

Adətən bəzək kompozisiyalarını təşkil edən naxış elementləri, yəni oramentlər aşağıdakı qaydada təsnif edilir: - əsası təbitətdən gələn nəbati elementlər: çiçəkli medalyonlar, meyvələr, kollar, yarpaqlar, budaqlar və ağaclar; bu qrupa həmçinin milli ornamentlərdən olan buta, islimi, bulud, vaq-vaqı, xətai və s. naxış elementləri də aid edilir.; - həndəsi elementlər: üçbucaqlılar, dairə, dördkünclər, coxguşəli ulduzlar və s.; - heyvan mənşəli elementlər: quş, ilan və nadir hallarda dəvənin boğazı, bülbülün gözü, dəvə, şir, pişik və s.; - insanı qoruyan magik elementlər; - kosmoqonik omamentlər: ay, ulduz, dağ, axan su və s.; - heraldik omamentlər işarələri; - köməkçi xarakterli omamentlər: naxışlı parçalar, medalyonun içərisini və haşiyəsini bəzəyən elementlər. Bura həm həndəsi, həm bitki, həm də heyvan təsvirləri daxildir.

Naxış - ornament, cizgi, boşluq və formanın fiziki və psixoloji təsirlərini qaydaya salır. İstifadə olunan hər üsul modelin verdiyi təsiri gücləndirir, zəiflədir, daha gözəl hala gətirə bilir. Naxışın təsir ediciliyi ümumiyyətlə motivlərə və onların bir-biri ilə olan əlaqələrinə bağlıdır. Motiv ölçüsündəki fəqliliklər vizual olaraq gözü modelə cəlb edir; böyük motivlər xoş bir şəkildə basqın, kiçik olanlar isə böyüklərə dəstək olur. Həndəsi, nəbati, böyük, boşluq, dərinlik, məsafə illuziyaları, fiziki təsirlər və görünən bütün ölçü, təsirlər modelin üzərində belə görünməkdədir: Motivlər böyüdükcə modellər də böyüyür;

Modelin böyüklüyündə olan uc nöqtələr motiv böyüklüyündəki uc nöqtələri vurğulayır; Modellər bədən üzərindəki istiqamətləri vurğulayır.

Beləliklə, dizayner tərəfindən hazırlanacaq geyimlərin layihələndirilməsi zamanı dövrün dəbi, hakim üslub, yaxud alt üslub, mental dünyagörüşünü əhatə edən bir sıra məsələlər nəzərə alınmalı, kompozisiya qanunauygunluqlarına sadiq qalaraq rəng, naxış qismində ornamentlərin istifadəsinə düzgün riayət olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Асанова А.Е. Народный орнамент как источник этногенезиса. Мир науки, культуры, образования. № 4 (29) 2011, с.325-329

2. Кожин П.М. О древних орнаментальных системах Евразии// Этнознаковые функции культуры. М.: Наука, 1991. с.129–151. 3. Йоханнес Иттен. Искусство цвета, М.: Издатель Дмитрий Аронов, 2020. с.96

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN İLK KONSTİTUSİYASI

**Axundova Həyat Vüsal qızı**
*Qərbi Kaspi Universititeti*

**Açar sözlər:** Heydər Əliyev, konstitusiya, qanunvericilik, demokratik dövlət, hüquq.

**Key words:** Haydar Aliyev, constitution, legislation, democratic state, law.

**Ключевые слова:** Гейдар Алиев, конституция, законодательство, демократическое государство, закон.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik əldə etdikdən sonrakı ilk günlərdən etibarən bir sıra hərbi təcavüzə məruz qalmış,xalqın yaddaşında dərin iz buraxmış Azərbaycan-Ermənistan münaqişəsinin də bu dövrdə baş verməsi mövcud vəziyyəti daha da gərginləşdirmişdir.Bu illərdə münaqişənin sonlanmasında xalqımızın ziyalı, siyasətçi,dünyagörüşlü bir liderə ehtiyacı vardı.Bu tarixi missiyanı öz üzərinə götürən cənab Heydər Əliyev xalqın təkidi ilə 1993-cü ildə respublikaya rəhbərliyə gəldi.Rəhbərliyə gəldikdən sonra ulu öndər siyasətçiliyi, iradəsi və zəkası ilə dövlətimizdə keçmiş sovetlər birliyindən qalan rejim əvəzinə yeni demokratik hüquqi bir dövlət yaratmaq məqsədilə bir sıra islahatlar həyata keçirməyə başladı.Bu islahatları keçirməsində əsas məqsədi isə deyildiyi kimi demokratik və hüquqi dövlət yaratmaq idi.

Müstəqillik əldə edildikdən sonra artıq 1978-ci il Konstitusiyası hüquqi dövlət və demokratik cəmiyyət quruculuğunun məqsəd və vəzifələrinə cavab vermədiyi üçün müstəqil Azərbaycan Respublikasının qarşısında ilk növbədə yeni Konstitusiyasının hazırlanması dururdu.

Təsadüfi deyil ki, 1993-cü ildə ulu öndərimiz qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdir: “Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi,milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir"[6].

Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli 1048 saylı qərarı ilə ümumilli lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya hayihəsini hazırlayan komissiyasının 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu[3,s.7].

1995-ci il iyunun 5-də Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclası keçirildi. Yeni Konstitusiyanı hazırlayan komissiyanın sədri ümumilli lider Heydər Əliyev öz nitqində qeyd edir ki “ Konstitusiya birinci növbədə dövlətin, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü,ali icra,qanunvericilik,məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli,seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox,dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyanın əsasını təşkil etməlidir[5].

Heydər Əliyevin sədrliyi ilə hazırlanmış Konstitusiya layihəsi 1995-ci ilin oktyabrın 15-də mətbuatda dərc edildi.

Azərbaycan ictimaiyyətinin fəal mühazirəsindən sonra 1995-ci il noyabrın 12-də keçirilən referendumda müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası qəbul olundu.Səsvermədə iştirak edən seçicilərin 91,9 %-i təklifə “hə” cavabı verərək müstəqil Azərbaycan xalqının ilk Konstitusiyası layihəsinin qəbul olunmasına tərəfdar çıxmışdır. Nəticə etibari ilə Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olundu və 27 noyabr 1995-ci ildə qüvvəyə mindi. Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən,12 fəsildən və 158 maddədən ibarətdir.

1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk konstiutusiyası həm daxili, həm də xarici strukturuna görə əvvəlki konstitusiyadan fərqlənirdi.

1-Bu müstəqil dövlətin konstituyasıdır və bu əsas qanun Azərbaycan xalqının suverenliyini bəyan edir. 2-Yeni konstitusiyamız markizm- leninizm məfkurəsindən, kommunizmin –totalitar rejminin təsirindən uzaq bir konstitusiyadır. 3-Bu konstitusiya özündə həm insan hüquqları, xalq suverenliyi,hakimiyyətlər bölgüsü, parlamentarizm konstitusiya məhkəmə nəzarəti mexanizmi, Prezidentlik insitutu, yerli demokratiya və.s kimi ümumbəşəri dəyərləri, həm də xalqımızın dövlət quruculuğu sahəsində əldə etdiyi müsbət təcrübəni inteqrasiya edir. 4- Bu konstitusiya birbaşa hüquqi qüvvəyə malikdir və özündə ehtiva etdiyi ümumbəşəri dəyərlərini real təmin olunma mexanizmlərini müəyyən edir.Azərbaycanda yaşayan hərkəs konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarının təmin olunmasını dövlətdən tələb edə bilər. 5- Bu konstitusiya ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir [4].

Hakimiyyət bölgüsü konsepsiyasına uyğun olaraq konstitusiya təsbit etdi ki, icra hakimiyyəti Azərbaycan Respublikasına mənsubdur, qanunverici hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyəti isə müstəqil məhkəmələr həyata keçirirlər. Azərbaycan Respublikası prezidenti təsisatının ikili hüquqi təbiəti vardır. Ali icra hakimiyyətinin ona mənsub olması ilə yanaşı o,birinci növbədə Azərbaycan dövlətinin başçısıdır, Azərbaycan xalqını bütövlükdə təmsil edir və xalqın vahidliyinin rəmzidir[2,s.286].

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası eyni zamanda Azərbaycan dövlətinin dünyəvi dövlətlər sırasına aid edilməsini təspit edir. Bu o deməkdir ki, din dövlətdən ayrıdır [1,s.5]. Konstitusiya bununla yanaşı dini etiqadların qanun qarşısında bərabərhüquqlu olmaların müəyyən edir. Eyni zamanda konstitusiya vətəndaşlara azadlığı bəxş etməklə bərabər hər kəsin hansı dinə təkbaşına vəya başqaları ilə birgə etiqad etmək hüququ verirdi.

Konstitusiyaya ilk əlavə və dəyişikliklər 24 avqust 2002-ci ildə,son əlavə və dəyişikliklər isə 26 sentyabr 2016-cı ildə referendum yolu ilə edilib[8]. Konstitusiyanın maddələrində düzəlişlərin edilməsi həmin dövr üçün aparılan ən uğurlu konstitusion islahatların tərkib hissəsi idi. Konstitusiyaya edilən düzəlişlər müddəaların daha da genişləndirilməsinə, insan hüquq və azadlıqlarının təminatına geniş şərait yaradılmasına əsas verən amildir. Bu istiqamətdə aparılan siyasət Heydər Əliyev ənənələrinin layiqli davamçısı olan dövlət başçısı İlham Əliyev tərəfindən xalqın rifahına, insan hüquq və azadlıqlarının inkişafına.siyasi,iqtisadi,sosial sferaların dəqiq tənzimlənməsinə xidmət edir. Bu siyasətin nəticələrinə qiymət verən prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycan,doğrudan da, dünyada seçilən ölkələr sırasındadır. ”Təhlükəsizlik təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır, beynəlxalq nüfuzu artır və ordu quruculuğu uğurla gedir”. İndi beynəlxalq aləmdə nüfuza malik olan ekspertlər də öz təhlillərindən izah edirlər ki, Azərbaycanda həyata keçirilən hüquqi və demokratik islahatlar dövlət və xalq birliyinin möhkəmlənməsinə, müstəqil Azərbaycanın sürətli inkişafına təminat verir[7]. Azərbaycanda hər il 12 noyabr Azərbaycan Respublikasının Konsititusiyası Günü kimi qeyd olunur.

## ƏDƏBİYYAT SİYAHISI :


1. A.H.Dəmirov, Ş.N.İsmayılov, Q.F.Hüseynov. Azərbaycan Respublikasının konstitusiyası və hüququn əsasları (mühazirə kursu). Dərs vəsaiti. – Bakı: Mütərcim, 2010. – 196 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.
3. H 18(11) Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası.-Bakı,”Azəzrbaycan” nəşriyyatı,2011.-304 səh.
4. C.A.Süleymanov. Azərbaycanın konstitusiya tarixində xalq hakimiyyətinin hüquqi tənzimi. Bakı universitetinin xəbərləri,sosial-siyasi elmlər seriyası
5. Qanunçuluq №1-2. Bakı, 1996.
6. https://www.justice.gov.az/articles/67
7. https://mod.gov.az/az/pre/20613.html
8. http://multikulturalizm.gov.az/post/692/azerbaycan-respublikasinin-konstitusiyasi.html


## REABİLİTASİYADA İSTİFADƏ OLUNAN TEXNOLOGİYALAR VƏ QURĞULAR


**Axundzadə Zəhra Arzu qızı**

***Elmi rəhbəri: p.ü.f.d. Qasımova Aynur***

***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası***

***axundzade.zehra2002@gmail.com***



**Açar sözləri:** Reabilitasiya, alqoritm, biofeedback, qurğular.

**Ключевые слова:** реабилитация, алгоритм, биологическая обратная связь, устройства.

**Keywords:** Rehabilitation, algorithm, biofeedback, devices.

Tibbi reabilitasiya keçirilmiş ağır xəstəliklərdən sonra, travma zamanı orqanizmin normal psixi və fizioloji funksiyalarının qismən pozulması və ya tam itirilməsinin bərpasına yönəldilmiş bir sıra müalicə metodlarının kompleks tətbiq olunmasıdır. Müalicədən fərqli olaraq reabilitasiya patoloji prosesin kəskin fazası dövründə aparılmır. Reabilitasiyanın dayaq-hərəkət aparatının bir sıra anadangəlmə və qazanılma xəstəliklərində körpə yaşından aparılması müalicənin uğurlu olmasında həlledici rol oynayır. Reabilitasiya istənilən yaşda insanları müxtəlif səbəblərin yaratdığı psixi, hərəki və nitq qüsurlarının əlillik dərəcəsinə gətirib çıxarmasından mühafizə və müalicə edərək onları cəmiyyətə geri qazandırır. [1]

Reabilitasiyada qabaqcıl texnologiyaların müşahidəsi və tətbiqində mütəxəssislərin rolu reabilitasiya prosesinin yenidən başlanılması disfunksiyalı bir reabilitasiya qrupundan azad olmaq üçün optimal bir yoldur. Ən təsirli fərdi reabilitasiya proqramı yüksək reabilitasiya texnologiyalarının, insanlar tərəfindən tətbiq olunmasıdır. Xəstəyə işləyəcəyi reabilitasiya vasitələrindən düzgün istifadə etməyi öyrətmək çox vacibdir, çünki gələcəkdə biofeedback sistemindən istifadə edərək uğur dərəcəsini qiymətləndirərək, müstəqil olaraq məşqlər aparmalı olacaqdır. Bu da bir mütəxəssis reabilitoloqun vəzifəsidir.

Məsələn, ağır bir vuruşdan sonra xəstə bir tərəfdən iflic olmuşdur: indi bədəni bu hərəkət mexanizmini "unutduğuna görə" tək başına hərəkət edə bilmir. Erkən reabilitasiyanın vəzifələri ona düzgün gəzinti alqoritmini "yadda saxlamağa" kömək etməkdən ibarətdir, bütün reabilitasiyanın vəzifələri itirilmiş bacarığın mümkün qədər (xəstənin potensialına əsaslanaraq) bərpa edilməsidir. Bunda, reabilitoloqlara müasir reabilitasiya texnologiyaları böyük kömək edir.

Hər bir texnologiya özünəməxsus problemləri həll edir, buna görə reabilitasiya prosesi ilə əlaqəli olduqda xəstənin funksiyasının ilkin vəziyyətini nəzərə almaq və onun bərpa ardıcıllığını başa düşmək lazımdır ki, xarici müdaxilə maksimum fayda gətirsin və zərər verməsin. Məsələn, erkən motor reabilitasiya prosesində bədənin sonrakı mərhələlərdə hərəkət prinsipini tamamilə unutmaması vacibdir.

- Xəstəyə düzgün gediş mexanizmini bərpa etməyə kömək etmək lazımdır. Əvvəlcə dəstəyi ilə gəzinti (sonrakı texnologiya), sonra müstəqil gəzinti (üçüncü texnologiya) olacaqdır. Məsələn, xəstənin ilk müstəqil addımlarını atdığı anda dərhal dəstəyi olmadan gəzməyə keçməsi səhv olar. Çünki bu anda bədənin yanlış gəzinti texnikasını "düzəldə" bilər, bundan gələcəkdə qurtarmaq çətin olacaq. Reabilitasiya prosesinin bütün bu incəlikləri illərdir İsrail reabilitoloqları tərəfindən öyrənilib, təcrübə çoxsaylı seminarlarda paylaşılıb.

Texnologiyanı xəstəyə görə mümkün qədər faydalı etmək üçün mütəxəssislər özlərinə aşağıdakı sualları verirlər:

- Bu texnologiyadan istifadə etməklə müəyyən bir tibbi problemi həll etmək nə qədər mümkündür?
- Yeni texnologiyanın mövcud reabilitasiya metodları ilə qarşılıqlı təsiri nə dərəcədə effektiv və qarşılıqlı olacaq?
- Müəyyən bir xəstə üçün bu texnologiya nə dərəcədə təhlükəsizdir?
- Xəstənin vəziyyətinə görə bu texnologiya nə dərəcədə uyğundur?
- Xəstə və ailəsi bu texnologiyanı istifadə etməyə nə dərəcədə hazırdırlar?
- Bu xəstənin vəziyyətində bu texnologiyadan istifadə perspektivləri nələrdir?
- İstədiyiniz nəticəni əldə etmək üçün bu texnologiyanı tətbiq etmək nə qədər çəkir?

Reabilitasiya texnologiyasının işləmə mexanizmini dərindən başa düşmək mütəxəssislərə ən optimal anda reabilitasiya prosesinə müraciət etmələrini və beləliklə funksiyanın bərpasında maksimum nəticə əldə etmələrini təmin edir. [2]

Keyfiyyətli bir reabilitasiya prosesində texnologiyaların əhəmiyyəti demək olar ki, çox qiymətləndirilmir: bunlar xəstəyə "funksiyanın mümkünsüzlüyü" maneəsini dəf etməyə və onun bərpası mexanizmini daha da aktivləşdirməyə imkan verir.

Reabilitasiya uzun bir proses olduğundan və görünən nəticələrə nail olmaq üçün eyni məşqi dəfələrlə, hər zaman düzgün şəkildə təkrarlamaq lazımdır, belə əziyyətli işləri öz əlinizlə etmək olduqca çətindir. Burada reabilitasiya texnologiyaları sadəcə əvəzolunmaz olacaqdır: [2]

- Xüsusi tapşırıqlar üçün təlim prosesini dəqiq tənzimləyin: bunlar xəstəyə nəinki gəzməyə, danışmağa, bədəni və əlləri ilə hər hansı bir hərəkəti etməyə kömək edəcək, eyni zamanda pozulmuş bir funksiyanı inkişaf etdirmək də mümkün olacaq;

- Kiçik təlim nəticələrini qeyd edin və real vaxt rejimində biofeedback sistemindən istifadə edərək xəstəyə nümayiş etdirin, bu da məşqdəki səhvləri vaxtında düzəltməyə kömək edəcək və özündə daha əziyyətli iş üçün bir motivasiya yaradacaq;
- Məşqlərin düzgün rejimdə təkrarlanmasını təmin edin və bu da nəticədə funksiyanın bərpasının əsasını qoyacaq;
- Məqsədə çatmaq üçün güclü stimul kimi işləyən oyun komponentlərinin köməyi ilə gündəlik işlərin yerinə yetirilməsini asanlaşdıracaq;
- Reabilitasiya proqramı xəstənin fərdi ehtiyaclarına uyğunlaşdırmağa kömək edəcək;

Yüksək reabilitasiya texnologiyalarının istehsalçıları bu texnologiyaların, o cümlədən evdə də istifadəsinin təcili ehtiyacını başa düşürlər və buna görə də evdə satış və istifadə üçün əlverişli versiyalar yaratmaq üzərində işləyirlər. Tibbi cihazlar reabilitasiya prosesində istifadə olunan qurğulardır. Adaptiv texnologiyalar, müəyyən funksiyaları insanlar da bərpa etməyə kömək edir.[2]

Tibbi texnologiyanın məqsədi itirilmiş funksiyanı mümkün qədər bərpa etməyə kömək etməkdir. Tibbi texnologiyalar xəstəni gerçəkliyə ən yaxın vəziyyətə qoyur, düzgün əzələlərin iştirakını təmin edir və beləliklə bərpa prosesini düzgün istiqamətə yönəldir. Tibbi texnologiyalar itirilmiş funksiyanı bərpa etmək üçün son dərəcə vacib olan zəruri dəqiqliklə eyni hərəkəti dəfələrlə təkrarlamağa imkan verir və həmçinin xəstənin məqsədə çatmaq üçün motivasiyasını artıran müxtəlif elementləri ehtiva edir. VectorGait sistemi xəstəni dik vəziyyətdə düzəltməyə və gəzərkən dəstək olmağa imkan verir, yıxılmağın qarşısını alır. Tavan boyunca hərəkət edən bir aparatdan bir kabelə qoyulan, qazanxanaya qayışlar ilə bağlanan xəstəyə xüsusi bir kostyum qoyulur. Kabelin uzunluğu xəstənin böyüməsinə və həssaslığına görə tənzimlənir.

Ağırlıqqaldırma əleyhinə ixtisaslaşmış qığırdaq sürüşmə zolağı bədənin ağırlıq yükünü azaltmağa və beləliklə mümkün qədər gəzmə bacarıqlarının bərpasını asanlaşdırmağa imkan verir. Tez-tez reabilitasiya komplekslərinə daxil edilir, xüsusən sınıqlardan və birgə yerdəyişmələrdən sonra, mümkün qədər tez gəzməyə başlamaq lazım olduqda, ancaq sümük və ya oynaqdakı yük xəstənin ümumi bədən çəkisindən xeyli az olmalıdır.

Stabiloqraf, xəstəyə pozulmuş tarazlıq funksiyasını öyrətməyə imkan verən bir sistemdir. Bu cür pozğunluqlar nevroloji xəstəliklərdən başlayaraq, insult və baş zədəsi, amputasiya (protez ilə tarazlıq) kimi tamamilə fərqli xəstəliklər və yaralanmalarla əlaqədar ola bilər. Belə bir məşq nəticəsində bədənin kosmosdakı mövqeyi daha sabit olur və gəzinti daha da təhlükəsizləşdirilir. Cihaz Biofeedback sistemi ilə təchiz edilmişdir. Re-Step sistemi müxtəlif qeyri-bərabər səthlərdə gəzməyi simulyasiya etməyə imkan verir. Sistem eyni zamanda tarazlığı bərpa etməyə və bununla da gəzinti keyfiyyətini yaxşılaşdırmağa kömək edir. Sistem hərəkətlərin koordinasiyasını yaxşılaşdırmaq və sabitliyi artırmaq üçün hazırlanmışdır.[2]

Ağıllı addım texnologiyası ("ağıllı insole") onurğa, oynaq, skelet sistemi xəstəlikləri olan insanlar üçün yaradılmışdır. Sistem, hərəkət zamanı xəstənin çəkisinin necə paylandığını anlayaraq şaquli yükləri optimallaşdırmağa imkan verir və buna görə də xüsusi amortizasiya sistemi sayəsində gəzinti keyfiyyətini artırır. Sistem yeriş pozğunluqları və müxtəlif mənşəli skelet problemləri üçün son dərəcə faydalıdır. Meditouch cihazı həm könüllü, həm də hədəf hərəkətləri bərpa etmək üçün xüsusi əlcək və interaktiv oyunlardan istifadə edir. Kompüterləşdirilmiş Videoterapiya sistemi (Video Terapiya) video təlim üçün nəzərdə tutulmuşdur, Məqsədi motor və idrak funksiyalarının bərpasıdır. Sistem real vaxt rejimində işləyir. Reabilitasiya proqramı hər bir xəstə üçün fərdi olaraq seçilir. Video təlimlər həm klinikada, həm də evdə bir mütəxəssisin nəzarəti altında aparılır.[2]

Hərəkəti bərpa etmək, eləcə də əzələ fəaliyyətini artırmaq üçün - həm hamar əzələlər, həm də motor əzələləri üçün müxtəlif elektromiostimulyasiya cihazları istifadə olunur. Enraf cihazı (ultrasəs terapiya cihazı) hədəfə məruz qalan intraartikulyar xəsarət və oynaq xəstəlikləri halı üçün istifadə olunur. Bundan əlavə, cihaz ağrıları aradan qaldırmaq, oynaqların hərəkət dairəsini artırmaq və trofizmi yaxşılaşdırmaq üçün istifadə olunur. Nonius cihazı (vakuum terapiyası cihazı) - əzələ və sümük toxumasının qan təchizatı və qidalanmasını yaxşılaşdırmaq üçün istifadə olunur. Onurğa, skelet xəstəliklərində hərəkətliliyi artırmaq və ağrıları aradan qaldırmaq üçün göstərilir.

Adaptiv texnologiyalar əlillərə itirilmiş funksiyaları əvəz etmək, xəstənin həyat keyfiyyətini yaxşılaşdırmaq, müstəqillik səviyyəsini artırmaq və bəzi hallarda onu peşəkar fəaliyyətinə qaytarmaqda kömək edir.

Bugünkü yüksək texnologiyaların imkanları çox böyükdür. Əlillərin itirilmiş funksiyalarını qismən və ya tamamilə əvəz edə bilirlər. Beləliklə, hətta tamamilə iflic olan bir insan, məsələn, bir kompüterdən istifadə edə bilər: ixtisaslaşdırılmış proqram təminatı quraşdıraraq xarici dünya ilə qarşılıqlı əlaqə qura bilər. Kompüterin köməyi ilə o da işləyə, yaza, oxuya, oynaya, məşq edə bilər.

Mən öz araşdırmalarımı Tibbi Reabilitasiya sahəsində xarici bilik və təcrubələri nəzərə alaraq, xüsusi proqram hazırlanmasına və onun tətbiq yollarının müəyyən edilməsində davam etdirməyi qarşımda məqsəd qoymuşam.

## ƏDƏBİYYAT SİYAHISI :

1. https://www.google.az/url?sa=t&source=web&rct=j&url=http://berpamerkezi.az/entries/reabilitasiya/fizioterapiya-reabilitasiya-orqanizmin-berpasi&ved=2ahUKEwjRga-P3tDnAhXHAGMBHT3gAmMQFjACegQIARAB&usg=AOvVaw0qWvKrWGRC5QO3glU67i2m
2. https://reuth-mc.org/reabilitacionnaya-terapiya/fizioterapiya/tekhnologii

# GENERAL ISSUES OF LEGAL PROTECTION OF CULTURAL HERITAGE IN THE EUROPEAN UNION

**Aliyev Adil**
***Baku State University***

## ABSTRACT

The article reveals the general aspects of history, essence and legislation of the law of cultural heritage in the European Union. The purpose of the study is to emphasize the important role of legal regulation in matters related to the protection of the rich cultural heritage of the European Union. The relevant article of the Lisbon Treaty, which is the modern constitutional basis of European Union law, is covered separately. As an example, various institutions that regulate the issues of legal regulation of European cultural heritage are also cited.

**Keywords:** Culture, heritage, law, European Union (EU), Treaty of Lisbon.

## XÜLASƏ

Məqalədə Avropa Birliyinin mədəni irs hüququ tarixi, mahiyyəti və qanunvericiliyinin ümumi məqamları açıqlanır. Tədqiqatın məqsədi Avropa Birliyinin zəngin mədəni irsinin qorunması ilə bağlı məsələlərdə hüquqi tənzimləmənin önəmli rolunu vurğulamaqdır. Avropa Birliyi hüququnun müasir konstitusiya əsasını təşkil edən Lissabon Müqaviləsinin müvafiq maddəsi ayrıca nəzərdən keçirilir. Nümunə olaraq, Avropa mədəni irsinin hüquqi tənzimlənməsi məsələlərini tənzimləyən müxtəlif qurumlardan da bəhs olunur.

## АННОТАЦИЯ

В статье раскрываются общие аспекты истории, сущности и законодательства о культурном наследии Европейского Союза. Цель исследования заключается в подчеркивании особой роли юридической регламентации в вопросах, связанных с защитой богатого культурного наследия Евросоюза. Соответствующая статья Лиссабонского договора, являющегося современной конституционной основой права Европейского союза рассматривается в отдельности. В качестве

примера также приводятся различные институты, регулирующие вопросы правового регулирования европейского культурного наследия.

*"The true history of a nation is the cultural history of a nation."* Jurji Zaydan (1861-1914), Lebanese writer

**Introduction**

For the clear understanding of the cultural heritage law we should primarily clarify the meaning of the notion of "culture". Article 1 of the law of the Republic of Azerbaijan "On Culture" prescribes, that: "Culture - a set of features that determine the material, spiritual, intellectual and emotional characteristics of a society or social groups, including literature and art, covering people's lifestyles, rules of coexistence, the system of moral values."

History of the mankind represents two main forms of human activity: creation and destruction. Cultural values often became objects of creation and destruction. History knows many examples of destruction of such objects. During the military conflicts of the 20th century, serious damage was inflicted to the monuments of the history and culture of the world.

Military conflicts served as a prerequisite for the development of legal protection of cultural property. In this regard, in the XX century, international legal acts were developed to regulate protection of cultural property such as the Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict 1954 - at the international level; Roerich's Pact of 1935 - at the regional level [2,p.1].

**General issues**

While speaking about the protection of cultural heritage, it is very important to take into account the provisions of the preamble of the 1954 Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict, which was the first international treaty that focuses exclusively on the protection of cultural property in armed conflict. Convention recognizes that "cultural property has suffered grave damage during recent armed conflicts and that, by reason of the developments in the technique of warfare. Damage to cultural property belonging to any people whatsoever means damage to the cultural heritage of all mankind, since each people makes its contribution to the culture of the world. Preservation of the cultural heritage is of great importance for all peoples of the world and that it is important that this heritage should receive international protection."

European Union is a political and economic union of 27 member states that are located primarily in Europe.

Remarkably, that culture has never been at the core of European integration. While economic, legal and political integration of the countries of Europe has a history of around seventy years, the first cultural aspects of the cooperation among the member countries of the European Economic Community could only be observed in the 1970s. The founding fathers of Europe seem to have forgotten about culture. The first reference to culture in the treaties came as late as 1992 as one of the many novelties of the Maastricht Treaty. Leaders of Europe had the tendency to pay attention to culture only when a crisis or a major new stage of closer integration called for solutions aiming to reconnect the people to the European project. An influential supporter of European unity, one of the founding fathers of the EU, famous French entrepreneur and diplomat, Jean Monnet, himself recognized this mistake. Looking back at the history of European integration he once said that: "*If we were to do it all again we would start with culture.*"[5, p. 779-799].

Because of great number of perspectives which can be taken on the subject, it is impossible to form a single, all-embracing conception of European culture.

Nonetheless, there are core elements which are generally agreed upon as forming the cultural foundation of modern Europe. One list of these elements given by prominent german-polish historician Klaus Bochmann includes:

1) A common cultural and spiritual heritage derived from Greco-Roman antiquity, Christianity, Judaism, the Renaissance and its Humanism, the political thinking of the Enlightenment, and the French Revolution, and the developments of Modernity, including all types of socialism;

2) A rich and dynamic material culture that has been extended to the other continents as the result of industrialisation and colonialism during the "Great Divergence";

3) A specific conception of the individual expressed by the existence of, and respect for, a legality that guarantees human rights and the liberty of the individual;

4) A plurality of states with different political orders, which are feeding each other with new ideas;

5) Respect for peoples, states and nations outside Europe.

6) European Union's cultural law policy aims to address and promote the cultural dimension of European integration through relevant legislation and government funding.

These policies support the development of cultural activity, education or research conducted by private companies, NGO's and individual initiatives based in the EU working in the fields of cinema and audiovisual, publishing, music and crafts.

The European Council, which is distinct from the European Union (EU), first formalised cultural cooperation policy in Europe with its European Cultural Convention. EU's cultural policy, promoting unified cooperation between member states was first initiated with the 1992 Maastricht Treaty.

The most important EU institutions through which decisions are made regarding cultural policies are:

1) the European Commission acting in the areas of culture, sport and languages,

2) the Committee on Culture and Education of the European Parliament,

3) the Education, Youth and Culture sector of the Council of the European Union,

4) the Education, Audiovisual and Culture Executive Agency of the European Commission.

EU also promotes cultural development through numerous institutions, programmes, civil society organisations and networks such as: Directorate-General for Education and Culture; European Film Promotion, Erasmus Mundus, European Route of Industrial Heritage, Europe Jazz Network, European Heritage Days, European Composer & Songwriter Alliance, European Network of Cultural Administration Training Centres, European Choral Association, Informal European Theatre Meeting, University Network of the European Capitals of Culture and so on.

**The Treaty of Lisbon**

The Treaty of Lisbon or the Reform Treaty is an international agreement which formed the constitutional basis of the European Union as a unique **supranational** organization. The Treaty of Lisbon (TEU&TFEU) was signed by the EU member states on 13 December 2007 and entered into force on 1 December 2009.

Article 167 of TFEU (ex Article 151, Treaty of Maastricht, 1992) describes the cultural policy of the Union: "The Union shall contribute to the flowering of the cultures of the Member States, while respecting their national and regional diversity and at the same time bringing the common cultural heritage to the fore. Action by the Union shall be aimed at encouraging cooperation between Member States and, if necessary, supporting and supplementing their action in the following areas: improvement of the knowledge and dissemination of the culture and history of the European peoples, conservation and safeguarding of cultural heritage of European significance, non-commercial cultural exchanges, artistic and literary creation, including in the audiovisual sector. The Union and the Member States shall foster cooperation with third countries and the competent international organisations in the sphere of culture, in particular the Council of Europe.

The Union shall take cultural aspects into account in its action under other provisions of the Treaties, in particular in order to respect and to promote the diversityof its cultures. In order to contribute to the achievement of the objectives referred to in this Article:

— the European Parliament and the Council acting in accordance with the ordinary legislative procedure and after consulting the Committee of the Regions, shall adopt incentive measures, excluding any harmonisation of the laws and regulations of the Member States,

— the Council, on a proposal from the Commission, shall adopt recommendations."

**Conclusion**

In modern developing world, in the period of digital capitalism, all-round scientific and technological progress, the boom of artificial intelligence, the conquest of space, numerous complexities caused by pandemic, only more closer voluntary coordination of national cultural policies, the harmonization of cultural, social, economic and foreign policies, the incorporation of cultural priorities into educational programs, support schemes to small and medium enterprises, regional development programs, entire realization of the Lisbon agenda would be an immense step forward. Through cultural cooperation it will be possible to achieve cornerstone aims of the Union, create a new political culture in Europe,

strengthen European values and build up the much needed and continuously transforming European identity for future generations.

## BIBLIOGRAPHY :

1. Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunu. Bakı, 2012.
2. Нешатаева В.О. Культурные ценности. Цена и право. Москва, 2013, стр.1.
3. Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict. Hague, 1954.
4. https://europa.eu/european-union/about-eu/eu-in-brief_en. [electronic source].
5. Chris Shore. Inventing the "People's Europe": Critical Approaches to European Community Cultural Policy. Publisher: Royal Anthropological Institute of Great Britain and Ireland. London, 1993, p. 779-799.
6. Treaty of Lisbon, title XIII. Lisbon, 2009.

# TƏLİM RUS DİLİNDƏ OLAN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN 6-CI SİNİFLƏRİ ÜÇÜN "AZƏRBAYCAN DİLİ" FƏNNİNİN MƏZMUNUNA DAİR

**Aslanova Afaq**
***Elmi-rəhbər: Məmmədov Ramazan Salam oğlu***
***Universitet: Sumqayıt Dövlət Universiteti***
***afaq.aslanova92@gmail.com***

**Açar sözləri:** Azərbaycan dili, rus bölməsi, dərslik, 6cı sinif, məzmun, struktur.
**Ключевые слова:** азербайджанский язык, русский сектор, учебник, 6 класс, содержание, структура.
**Keywords:** Azerbaijani language, Russian section, textbook, 6th class, content, structure.

## XÜLASƏ

Demokratik cəmiyyətinin tələblərinə cavab verən bir vətəndaş yetişdirmək pedaqoji texnologiyalardan istifadə etməklə həll edilə bilər. Dərslik siyaətinin prinsiplərinə əsasən dərsliklər hazırlanarkən şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, Vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hömrət etməsinə yönələn ideyaların olması labüddür. Həmçinin dərsliklərdə elmin, texnikanın və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və səlahiyyətli mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalıdır.

## РЕЗЮМЕ

Воспитание гражданина, отвечающего потребностям демократического общества, может быть решено с помощью образовательных технологий. При подготовке учебников, основанных на принципах политики в отношении учебников, у студентов должны быть идеи, направленные на воспитание национальных, духовных и культурных ценностей азербайджанского народа, его любви к своей семье, своему народу, своей родине, правам человека и человеческим ценностям. Учебники должны также включать информацию о современных достижениях науки, техники и культуры из достоверных и компетентных источников.

## SUMMARY

Cultivation of citizens who meet the requirements of the democratic society can be solved using pedagogical technologies. When preparing textbooks based on the principles of the textbook policy, it is important for students to have ideas aimed at nurturing the spirit of national, spiritual and cultural values of the Azerbaijani people, their love for their family, their people, their homeland, human rights and human

values. The textbooks should also include information on modern achievements in science, technology and culture, from valid and competent sources.

**Giriş**

Bu gün Azərbaycanda təhsilə kifayət qədər diqqət yetirilir. Hələ 1998-ci ildən başlayaraq Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə üç mərhələdə və müxtəlif məqsədlərlə həyata keçirilməyə başlayan təhsil islahatları orta və ali təhsil pillələrində ciddi dəyişiklikləri məqsəd olaraq qarşıya qoyulmuşdur. Məqsəd təkcə keyfiyyət və kəmiyyət dəyişikliklərinə nail olmaqdan və cari tədris prosesini yaxşılaşdırmaqdan ibarət deyildi. Müstəqillik şansını qazanmış bir ölkənin müstəqillik arzularının reallaşması, milli - azərbaycançılıq ideologiyasının formalaşdırılması, milli-mənəvi dəyərlər sisteminin hazırki və gələcək nəsillərə aşılanmasının yolu orta məktəb pilləsindən keçirdi. Ali təhsil sisteminin Avropa təhsil məkanına sürətli inteqrasiyası ali təhsilin məzmun və standartlarının bu istiqamətdə dəyişdirilməsini labüd edirdi.

Ümumtəhsil məktəbləri üçün yeni dərsliklərin hazırlanması məsələsi həmişə Azərbaycan dövlətini üçün hər zaman aktual məsələdir. Son illərdə təlim Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəblərinin şagirdləri üçün yeni dərsliklər hazırlanmış, dövlət vəsaiti hesabına çap olunaraq istifadəyə verilmişdir. Dərsliklərin nəşri və çapı işləri Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2002-ci il tarixli, 668 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender yolu ilə həyata keçirilir.

**Əsas hissə**

Material və metodlar

Məqalədə dərsliyin müasir tələblərə uyğunluğu və təhsil standartlarına cavab verməsi barədə araşdırmalar Azərbaycan Respublikasının dərslik siyasətinin prinsiplərinə əsasən aparılmışdır. Ümumi təhsil sistemində dərslik siyasəti Azərbaycan hökumətinin strateji fəaliyyət dairəsinə daxil olan təhsil sahəsində prioritet istiqamətlərdən biridir. Dərsliyin məzmun və strukturuna verilən rəylər də nəzəzrə alınaraq dərslik qiymətləndirilmiş, təkliflər irəli sürülmüşdür.

XXI əsr insanın bacarıq və qabiliyyətlərinin inkişafına yönəldilməli olan təhsilin məzmununda keyfiyyətcə dəyişiklik tələb etdi. Müasir şəraitdə dövlət üçün ən vacib vəzifə sürətli dəyişən dünyanı, cəmiyyətdə baş verən dəyişiklikləri tənqidi dərk edən vətəndaşların düşüncəsini inkişaf etdirmək, yüksək mədəniyyətli, tolerant, məqsədyönlü, azad fikirli vətəndaşların tərbiyə olunmasıdır. Çalışmaq lazımdır ki, tələbə pedaqoji fəaliyyətin passiv obyektinə çevrilməsin. O, təhsili üçün müstəqil olaraq lazımi məlumatları tapıb emal etməyi, müəyyən bir problem barədə fikir mübadiləsi aparmağı və s. yerinə yetirməyi bacarmalıdır [2, s.1].

Bu gün də məktəblərin təhsilin məzmun göstəricisini və inkişaf səviyyəsini əks etdirən tədris ədəbiyyatları ilə: proqram, kurikulum, dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlarla fasiləsiz və ahəngdar təminat ən ciddi problemlərdən biri kimi dövlətin diqqət mərkəzindədir.

Azərbaycan Respublikasında dərslik siyasətini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Dərslik siyasətinin məqsədi məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələndirmək, Vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Dərslik siyasəti bu işdə əsas icra orqanı funksiyasını yerinə yetirən Təhsil Nazirliyinin, onun müvafiq strukturlarının, elmi qurumların, özəl təşkilatların və ictimai orqanların vasitəsilə həyata keçirilir [2, s.1].

Dərslik siyasəti həyata keçirilərkən Azərbaycan Respublikası Konstitusiyası, Təhsil Qanunu, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları və bu sənəd ("Ümumi təhsil sistemində dərslik siyasəti") əsas götürülür. Dərslik siyasətinin prinsiplərinə əsasən ümumtəhsil məktəbləri dərsliklərinin müəllifləri əsasən Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Ümumtəhsil məktəblərinin dərslikləri, əsasən, variativ şəkildə nəşr olunur. Variativ dərsliklərdən istifadə üçün seçim hüququ məktəb pedaqoji şuralarına, fənn müəllimlərinə və valideyn-müəllim assosiasiyalarına məxsusdur. Hər bir müəllifin və nəşriyyatın öz dərsliyini məktəblərdə təbliğ etmək hüququ vardır [2, s.1].

Azərbaycan təhsilində dərsliklərin məzmununa verilən əsas tələblər aşağıdakılardan ibarətdir:

- şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, Vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyalar olmalıdır;
- şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətləri nəzərə alınmalıdır;
- dünyəvilik prinsipinə riayət edilməlidir;
- elmin, texnikanın və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və səlahiyyətli mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalıdır;
- illüstrasiyalar yığcam və mövzulara uyğun olmalıdır;
- Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, ölkənin qoşulduğu beynəlxalq hüquqi aktlara zidd olan fikirlərə yer verilməməlidir;
- milli, dini, irqi, cinsi və siyasi ayrıseçkilik təbliğ edən fikirlər, mübahisə doğuran məlumatlar olmamalıdır;
- elmi mübahisə doğuran məsələlərə yer verilməməlidir.

Dərsliklər:
- Dövlət Təhsil Standarları əsasında hazırlanmış kurrikulumlara uyğun olmalıdır;
- şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılanmalı, onları düşünməyə sövq etməli, məntiqi təfəkkürü inkişaf etdirməlidir;
- tətbiqi xarakter daşımalı, interqrativ xüsusiyyətə malik olmalıdır;
- şagirdlərdə demokratik dünyagörüşü formalaşdırmalıdır.

Bu baxımdan rus bölməsinin altıncı sinfində tədris olunan azərbaycan dili dərsliyinin bu tələblərə nə ədərəcədə cavab verməsi bu məqalədə araşdırılmışdır.

Altıncı sinfin rus bölməsində azərbayacan dilini öyrənmək, əvvəlki beş sinifin dərin proqramını və uşaqların hələ mənimsəməsi lazım olan yeni bilikləri özündə birləşdirir. Ənənəvi olaraq altıncı sinif kursu təkrarla başlayır - bilikləri yeniləməklə yanaşı biliklərin diaqnozu ilə başlayır. Bu bir neçə dərs alır və sonra məktəblilər birbaşa proqrama davam edirlər. Altıncı sinifdə azərbaycan dili kursunun məqsədi uşaqların savadlı yazılı nitq üzərində işləmək və gözəl danışıq dilinin formalaşdırılmasıdır [2, s.12].

İlin əvvəlində altıncı sinif şagirdlərinin diaqnostik qiymətləndirilməsi azərbaycan dilini tam mənimsəməyə imkan verir. 6-cı sinif tədris proqramı müəyyən çətinliklərilə fərqlənir. İlin əvvəlində keçirilən imtahan, hər sinifin ehtiyaclarına uyğun olaraq tədris planını düzəltmək üçün bütün müəllimlər tərəfindən aparılan bir araşdırmadır. Uşaqların biliyindəki zəif cəhətləri bilən müəllim təkrarlama müddətini uzada biləcək və yeni bir mövzu öyrənərkən problemli sahələrə xüsusi diqqət yetirəcəkdir [3, s.3].

Dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir. Dərslik 60 dərsin reallaşmasını nəzərdə tutan 57 paraqrafı (mövzunu) əhatə etmişdir [1, s.160]. Mövzu seçimində əvvəlki siniflərdə verilmiş materiallardakı varislik qorunub saxlanılmışdır. Dərslikdə "Sözlük", "Söz ehtiyatı", "Kəlmələrin "dili"ni öyrənək!", "Hikmət xəzinəsindən", "Bunları bilirsinizmi?" (qrammatik qaydalara dair), "Atalar sözüağlın gözü", "Tap görək", "Gülək-düşünək" kimi rubrikaların verilməsi müsbət haldır. Dərslik komplektindəki materiallarla yeni təhsil proqramına (kurikulum) əsasən 4 məzmun xətti üzrə əsas və alt standartların reallaşdırılması nəzərdə tutulmuşdur. Alt standartların reallaşdırılması üçün elmi-kütləvi və ədəbi mətnlər, şeirlər, əlavə tədris materialları şagirdlərin yaş səviyyəsinə uyğun seçilmişdir. Mətnlər, sual və tapşırıqlar, nəzəri məlumatlar alt standartların reallaşdırılmasına yönəlmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi tədris planına əsasən fənnin tədrisinə həftədə 2 dəfə olmaqla, 64 saat vaxt ayrılmışdır. Dərslikdə 7, 34, 44-cü paraqraflardakı mövzuların hər biri iki saat, qalan paraqraflardakı mövzuların isə hərəsi 1 saat üçün nəzərdə tutulmuşdur. 16, 30, 50, 64-cü dərslər summativ qiymətləndirmə üçün ayrılmış və MMV-də belə bir qeyd göstərilmişdir: "Summativ qiymətləndirmə üçün nəzərdə tutulmuş materiallar məqsədli şəkildə dərsliyə daxil edilməmiş, müəllim üçün vəsaitdə verilmişdir" [1, s.7]. Mündəricatın dərsliyin sonunda verilməsi istifadə zamanı müəyyən çətinlik yaradır. Lətifələr ayrıca mövzu kimi deyil, müəyyən tapşırıqları icra etmək üçün "Gülək və düşünək" rubrikası altında mövzuların içərisində verilmişdir. Bundan əlavə "Hikmət xəzinəsindən" [1. s. 6, 8, 16, 51, 56, 60, 66, 71, 76], "Atalar sözü-ağılın gözü" [1.s. 62], "Tap görək" rubrikalarında xeyli sayda hikmətli söz və tapmacalar verilmişdir ki, bunlar da dərsliyin məzmununu kifayət qədər zənginləşdirmişdir. Mətn və tapşırıqları yerinə yetirmək üçün nəzərdə tutulan təcrübi materiallarla yanaşı, dərslikdə şagirdlərin yaş səviyyəsinə uyğun olaraq "Bunları bilirsinizmi?" rubrikasında müəyyən qədər nəzəri məlumatların verilməsi də təqdirəlayiqdir.

Şagirdlərin mövzular üzrə özlərini yoxlaması üçün nəzərdə tutulmuş tapşırıqlar "Özünüzü yoxlayın" rubrikası altında verilmişdir. Nə qədər tərbiyəvi xarakter daşısa da, 6-cı sinif şagirdlərinin yaş xüsusiyyətləri bu cür bədii nümunələrin seçimində nəzərə alınmalıdır [3, s.23].

Dizayn və bədii tərtibat baxımından dərslik qənaətbəxşdir. Dərslikdə vahid dizayn prinsipi gözlənilmişdir. Üz qabığının tərtibatı bir qədər bəsitdir. İllüstrasiyalardan (məktəb, sinif, şagird və s. şəkilləri) istifadə olunması daha yaxşı olar. Dərsliyin üz qabığının tərtibatı ilə məzmun arasında uyğunluq demək olar ki, yoxdur. Dərsliyin üz qabığında onun ana dilinə - Azərbaycan dilinə aid olmasına dair kiçicik də olsa, hər hansı bir ştrix və ya əlamətin verilməsi məqsədəuyğun hesab edilir. Rəng baxımından dərslikdə əlvanlıq nəzərə çarpır. Rənglərin mövzu və materialları fərqləndirməyə xidmət etməsi müsbət hal olsa da, bəzi hallarda şagirdlər üçün yorucudur. Təsvirlə mətn bəzi hallarda səsləşmir [3, s.2].

**Nəticə və təkliflər**

· Müəllimin pedoqoji fəaliyyətində prioritet, təsirli interaktiv metodlara üstünlük verilməlidir. Xüsusi təlim və təhsil vəziyyətlərinin, müxtəlif yaradıcı təhsil fəaliyyətinin yaradılması ilə şəxsiyyətin inkişafını təmin etmək üçün təhsildə qarşılıqlı dialoq metodlarını ön plana çıxarmaq lazımdır. Bu məqsədə çatmaq üçün "ümumi təhsilin təlim nəticələrini və məzmununu, tədrisin hər mərhələsi üçün nəzərdə tutulmuş fənləri, dərs və dərsdənkənar tədbirlərin, tədris prosesinin təşkili üçün ayrılmış həftəlik standart normaları müəyyən edən konseptual sənəd" fənn kurikulumları hazırlanmışdır.

1. Dərslik komplekti məzmun xətləri üzrə əsas və alt standartları reallaşdırmağa imkan vermişdir.
2. Dərslikdə şagirdlərin yaş xüsusiyyətləri bəzi mövzular istisna olmaqla əsasən nəzərə alınmışdır.
3. Dərslik komplekti fənn üzrə bilik və bacarıqların formalaşdırılmasına imkan vermişdir.
4. Dərslik komplektində müəyyən mövzular üzrə bir sıra qüsurlara, texniki səhvlərə, düzgün qoyulmayan suallara da rast gəlinir.

Hər mövzuya cəmi 1 dərs saatının ayrılması isə bu fəaliyyəti tam şəkildə həyata keçirməyə qəti imkan vermir. Şagirdlərin yazıları müəllim tərəfindən oxunmalı və səhvlər üzərində iş aparılmalıdır. Əgər tapşırıq evə verilirsə, yenə də şagird yazılarının oxunması üçün vaxt ayrılmalıdır. Demək, inşa, esse yazılarının həyata keçirilməsi üçün bu fəaliyyətə ən azından 1 dərs saatı ayrılmalıdır. Eyni zamanda, izahat, teleqram kimi əməli yazıların yazılması bacarıqlarının formalaşdırılması da ayrıca 1 dərs saatı müddətində mümkün ola bilər.

Yazı bacarıqlarının düzgün şəkildə formalaşdırılması və yoxlanması üçün summativ qiymətləndirmə materiallarında da belə yazılara aid tapşırıqların verilməsi məqsədəuyğundur. I məzmun xəttində ("Dinləyib-anlama") nəzərdə tutulan alt standartlar şagirdlərin məhz dinlədiyi mətn üzərində iş görməsini tələb edir.

Dərslikdən əlavə uşağa mütləq lazım olacaq kitablar:

- orfoqrafiya lüğəti
- frazeoloji lüğət
- izahlı lüğət (tövsiyə olunan dərslik S. Ozhegov tərəfindən redaktə edilmişdir)
- əlavə tapşırıqlar
- təlim topluları (testlər, oyun tapşırıqları, ifadələr toplusu və s.)

Bədii nümunələrin seçimində materialın tərbiyəvi xarakteri ilə bərabər, şagirdlərin yaş xüsusiyyətləri də nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Həvva Abdullayeva, İradə Əfəndiyeva, Məlahət Əsgərova 6-cı sinif Azərbaycan dili, "Kövsər" nəşriyyatı, Bakı-2017.
2. http://www.edu.gov.az/upload/file/derslik-siyaseti-umumi-melumat.pdf
3. Respublikanın təlim rus dilində olan ümumtəhsil məktəblərinin 6-cı sinifləri üçün "Azərbaycan dili" dərslik komplekti Müəlliflər: Həvva Abdullayeva, İradə Əfəndiyeva, Məlahət Ələsgərova Bakı: Kövsər, 2015. Dərslik komplekti ilə bağlı TQDK-ya daxil olmuş və açıq müzakirələrdə bildirilmiş qeydlər, iradlar və təkliflər əsasında hazırlanmış yekun rəy.

# PAXLALI BİTKİLƏRDƏ YAYILMIŞ NANOVİRUSLARIN RCA (ROLLİNG CYCLE AMPLİFİCATİON) METODU İLƏ DİAQNOSTİKASI

**Aşirova İ.A., Sultanova N.F.**
***Bakı Dövlət Universiteti, Biologiya fakultəsi***
***AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu***
***ilahe.ashirova19@gmail.com***

Müasir dövrdə dünya ictimaiyyətini narahat edən əsas problemlərdən biri ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Müxtəlif ölkələrdə yayılmış bitki xəstəlikləri 15-20%, bəzən isə 90%-ə qədər məhsul itkisinə səbəb olur. Ekoloji cəhətdən səmərəli təhlükəsiz müdafiə tədbirləri sisteminin hazırlanmasında və məhsul itkisinin qarşısının alınmasında xəstəliyin müasir və dəqiq diaqnostikası əhəmiyyətli rola malikdir [3]. Bunun üçün, Azərbaycanın müxtəlif bölgələrində: Lerik, Cəlilabad, İsmayıllı və Gəncə bölgələrində fitopatoloji monitorinqlər aparılmışdır və virus infeksiyası zamanı yaranan, simptomatik əlamətlərə malik olan (xloroz, nekrotik ləkələr və s.) lobya, noxud, mərcimək nümunələri yığılmış, molekulyar diaqnostikası və identifikasiyası aparılmışdır. Fitopatoloji monitorinqlər iyun və iyul aylarında aparılmışdır, çünki, virus xəstəliklərinin əsas əlamətlərinə görə aşkar olunması üçün ən əlverişli vaxt hesab edilir. Ekspedisiyalar zamanı simptomlara əsaslanaraq (nekrotik, xlorotik və mozaik ) 98 seçmədən 28 olmaqla cəmi 126 paxlalı bitki nümunəsi (noxud, lobya, nut, mərcimək) toplanmışdır. Paxlalılarda yayılmış nanovirusların diaqnostikasında RCA (rolling cycle amplification)-nın istifadəsi, in vitro hibridləşmə zamanı həssaslığın bir neçə dəfə artırılmasına imkan verir ki, bu da kopyalanan genlərin uzanan DNT zolaqları üzərində 15 kb ilə xəritələnməsinə və fərqli allelləri kiçik əvəzetmələrlə ayırmağa imkan verir. Sekvensiya və restriksiya analizi üçün uyğun olan aşağı temperaturlu amplifikasiya metodundan istifadə edərək qısa müddətdə nisbətən çox miqdarda plazmid DNT (mikroqram) əldə etmək mümkün oldu.

Bitkinin virus xəstəliyinin ilkin diaqnostikasının verilməsi məqsədilə həyata keçirilmiş immunoferment analiz (İFA) üçün LCA-biotest (Fransa) və DSMZ (Almaniya) firmalarının hazırladıqları xüsusi reaktiv dəstlərindən istifadə edilmişdir. Toplanmış bitki yarpaqlarından ekstraktlar alınmış və Clark və Adams tərəfindən təsvir edilmiş metoda əsasən immunoferment analiz aparılmışdır [1]. Nəticədə Nanovirusların yayılma dərəcəsinin 24% (30/126) olduğu müəyyən edilmişdir. Molekulyar diaqnostika üçün DNT-nin ektraksiyası Edwards tərəfindən təsvir edilmiş metoda əsasən həyata keçirilmişdir [2]. Ekstraksiya olunmuş DNT-nin təmizlik dərəcəsi və qatılığı spektrofotometrik ULTROSPEC 3300 PRO (“Amersham”, ABŞ) təyin edilmişdir. DNT ekstraktlarında bir zəncirli DNT genomlu virusların aşkar olunması üçün diyirlənən həlqə üzrə DNT-nin amplifikasiyasına əsaslanan RCA (Rolling cycle amplification) metodundan və bu metod ilə molekulyar diaqnostikanı həyata keçirmək üçün TempliPhiTM (“GE Health Care”, ABŞ) reaktiv dəstindən istifadə edilmişdir. Amplifikasiya olunmuş pozitiv DNT-lərdə növ səviyyəsində virus xəstəliyinin identifikasiyası üçün BamHI, XbaI, Sau3A və HindIII restriksiya fermentlərindən istifadə etməklə RFLP analizi aparıldıqdan sonra RFLP məhsulları 2%-li aqaroza gelində elektroforetik analiz olunmuşdur. DNT-nin amplifikasiya məhsulları 1,5%-li aqaroza gellərində elektroforetik analiz olunmuşdur. Gelin vizuliasiyası üçün etidium bromiddən istifadə olunmuş və UB-işıq altında “Gel Documentation System UVİTEK” (İngiltərə) köməyilə şəkli çəkilmişdir. Fitopatoloji və statistik analizlər əsasında Azərbaycanın qida əhəmiyyətli paxlalı bitkilərin becərildiyi digər rayonları ilə müqayisədə, Lerik rayonunda paxlalı bitkilərdə virus xəstəliklərinin yayılma dərəcəsi və şiddətinin daha kəskin olması müəyyən edilmişdir. Bu işdə DNT-nin RCA metodu ilə amplifikasiyasından istifadə edərək tək zəncirli DNT genomlu bitki virusları təyin edilmişdir. RCA metodu, molekulyar biologiyanın bir çox sahələrində geniş tətbiq tapmış, güclü və həssas bir metoddur.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Clark M.F., Adams A.N. Characteristics of the microplate method of Enzyme-linked immunosorbent assay for the detection of plant viruses // Journal of General Virology, 1977, v. 34, p. 475-483.
2. Edwards K., Johnstone C., Thompson C. A simple and rapid method for the preparation of plant genomic DNA for PCR analysis // Nucleic Acids Res., 1991, v. 19, p. 1349.

3. Huseynova I.M., Mamedov A.Ch., Sultanova N.F., Aliyev J.A. Molecular identification of Faba bean necrotic yellow virus in Azerbaijan and some properties of naturally infected plants /International conference "Diversity, characterization and utilization of plant genetic resources for enhanced resilience to climate change". Baku: 2011, p. 125-128.

## KOMMERSİYA BANKLARINDA MALİYYƏ MENECMENTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Aydınlı Aydan Aslan qızı**
***Azərbaycan Universitetinin magistrantı***
***i.e.d prof. Mübariz Məmmədhüseyn oğlu Bağırov***
***aaidann92@mail.ru***

### XÜLASƏ

Bildiyimiz kimi menecment dedikdə idarəetmə prosesi başa düşülür. İdarəetmə dedikdə qarşıya qoyulmuş məqsəd nail olmaq üçün hər hansı bir təsarüfat subyektinə məqsədyönlü təsir başa düşülür. Müəssisələrdə maliyyə menecmenti maliyyə münasibətlərinin düzgün idarəedilməsinə istiqamətlənmiş fəaliyyət növüdür. Maliyyə menecmentinin həyata keçirilməsində istifadə olunan maliyyə vasitələrinə misal olaraq biz – pul vəsaitlərini, səhmləri, istiqrazları, opsionları, forvard kontraklarını və s. göstərə bilərik.

**Açar sözlər:** Kommersiya bankı, menecment, təkmilləşdirmək

### РЕЗЮМЕ

### СОВЕРШЕНСТВОВАНИЕ СИСТЕМЫ ФИНАНСОВОГО МЕНЕДЖМЕНТ КОММЕРЧЕС БАНКОВ

Как известно, менеджмент - это управленческий процесс. Управление - это целенаправленное воздействие на любой субъект хозяйствования для достижения поставленной цели. Финансовый менеджмент на предприятиях - это вид деятельности, направленный на правильное управление финансовыми отношениями. Примерами финансовых инструментов, используемых в управлении финансами, являются наличные деньги, акции, облигации, опционы, форвардные контракты и т. Д. мы можем показать. i.e.d prof. Mubariz Mammadhuseyn oglu Bagirov

**Ключевыее слова:** Коммерческий банк, менеджмент, улучшать

### SUMMARY

### IMPROVEMENT OF THE FINANCIAL MANAGEMENT SYSTEM OF COMMERCIAL BANKS

As we know, management means the management process. Management is a purposeful influence on any business entity to achieve the set goal. Financial management in enterprises is a type of activity aimed at the proper management of financial relations. Examples of financial instruments used in financial management are cash, stocks, bonds, options, forward contracts, and so on. we can show.

**Key Words:** Commercial banking, management, improve

Bildiyimiz kimi Azərbaycan Respublikasının bank sistemi iki pilləli bank sistemidir. Hansı ki, kommersiya bankları da həmin sistemin ikinci pilləsini təşkil edir və o, müştərilərlə işləyir, onlara xidmət göstərirlər. Kommersiya bankları borc almaq və borc vermək kimi funksiyaları yerinə yetirir. Borc almaq dedikdə buraya müştərilərdən cəlb edilən depozitlər, borc vermək dedikdə isə müştərilərə verilən kreditlər nəzərdə tutulur. Maliyyə menecmenti isə kommersiya banklarında pul münasibətlərinin idarəedilməsidir.

Kommersiya banklarında maliyyə menecmenti sistemini qurmaq üçün istiqamətlər qeyd olunur:

1. İlk öncə bank siyasətinin işlənib hazırlanması,
2. Bank marketinqi,
3. Bankın aktiv və passivlərinin idarə olunması,
4. Bankın xüsusi kapitalın idarə olunması,
5. Bankın kredit portfelinin idarə olunması,
6. Bank risklərinin idarə olunması.

Hər bir müəssisə öz fəaliyyətini həyata keçirərkən qarşısına əsas bir məqsəd qoyur ki,buda daha çox mənfəət əldə etməkdir. Bunun üçündə maliyyə münasibətlərinin baş verməsi vacib bir məsələ halına çevrilir. Müəssisələrdə baş verən bu maliyyə münasibətləri əsasən pul formasında təzahür edir. Maliyyə münasibətləri 2 formada olur: müəssisədaxili və müəssisəxarici. Müəssisədaxili maliyyə münasibətləri dedikdə əsasən buraya işçilərin əmək haqqlarının verilməsi, layiq olan işçiyə maddi yardım göstərmək və pul mükafatları verilməsi aiddir. Müəssisəxarici maliyyə münasibətləri dedikdə isə buraya alıcılarlarla və satıcılarla, kontragentlərlə, siğorta şirkətləri ilə,kredit təşkilatları ilə, dövlət büdcəsi və büdcədənkənar fondlarla həyata keçirilən maliyyə münasibətləri daxildir.

Maliyyə menecmentinin məqsədlərini 2 qrupa bölə bilərik:

1. strateji
2. taktiki məqsədlər

Strateji məqsədlər dedikdə - biz burada mənfəətin maksimumlaşdırmasını, adi səhmlə- rin qiymətinin artmasını və s. göstərə bilərik. Strateji məqsədlər müəssisənin rəbərləri, baş direktorları tərəfindən müəyyənləşdirilir.Taktiki məqsədlər dedikdə isə buraya risklər, xərc- lərin minimum həddə salınması, müflis- ləşmənin qarşısının alınmasını qeyd edə bilərik.

Maliyyə menecmentini səmərəli şəkildə həyata keçirmək üçün idarəetmə strategiyası və taktikasından geniş istifadə olunur. Maliyyə menecmentinin strategiyası dedikdə, qarşıya qoyulmuş məqsədə çatmaq üçün maliyyə resurslarının düzgün istiqamətlənməsi və onlardan istifadə olunması üsulları nəzərdə tutulur.

Maliyyə menecmentinin taktikası dedikdə həmin strategiyanı həyata keçirmək üçün istifadə olunan müxtəlif üsullar başa düşülür.

Kommersiya banklarında maliyyə menecmenti işini təkmilləşdirmək üçün aşağıdakıları etmək lazmdır:

Maliyyə fəaliyyətinin planlaşdırılması və nəzarət prosesinin təkmilləşdirilməsi,

Müəssisənin daxili və xarici hesabatlıq sistemini təkmilləşdirmək,

Məhsul və xidmətlərin maya dəyərlərinin hesablanması,

Maliyyə planlaşdırılması, müəssisənin səmərəli fəaliyyət göstərməsi üçün vacib amillərdən biridir. Maliyyə planlaşdırılmasının həyata keçirilməsi üçün müəssisə öz hədəflərini və məqsədlərini düzgün seçilməlidir ki, həmin proses maliyyə planlaşdırılmasının taktikalarına uyğun olsun.

Müəssisələrdə maliyyə planlaşdırılmasının əsas istiqamətləri kimi aşağıdakıları göstərə bilərik:

müəssisəni lazımi maliyyə ehtiyatları ilə təmin etmək və artıq istifadə edilməyən sərmayə mənbələrini aşkara çıxarmaq,

cəlb edilmiş maliyyə kapitalını düzgün istiqamətləndirmək,

istehsal və satış prosesindən gələn gəlirin və nağd pul vəsaitlərinin artırılması üzrə bir sıra tədbirlər həyata keçirtmək və onları təkmilləşdirmək,

Bank nəzarətinin məqsədi:

bank əmanətçilərinin baş verə biləcək itkilərdən qorunması,

maliyyə sabitliyinin qorunmasını təmin etmək,

ödəniş sistemlərinin fəaliyyətinə nəzarəti həyata keçirmək və s.

Banklarda həyata keçirilən mühasibat uçotu-bankın bütün aktivlərinin (uzunmüddətli və qısamüddətli aktivlər), öhdəliklərinin (uzunmüddətli və qısamüddətli öhdəliklərinin), kapitalının, gəlir və xərclərinin mühasibat hesablarında ikili yazılış üsulu ilə qeyd olunmasıdır. Aktiv dedikdə müəssisənin sərəncamında olan və ona gələcəkdə fayda, səmərə gətirə biləcək resusrlar başa düşülür. Bankın passiv hissəsinə isə kapital və öhdəlik aiddir.

Nəticə: Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, maliyyə menec- menti kommersiya banklarının uğurlu fəaliyyət göstərməsi və öz mənfəətini artırması üçün çox vacib nüansdır. Onuda qeyd edək

ki, maliyyə menecmenti ilə mühasibat uçotu bir-birilə sıx əlaqədədirlər. Maliyyə menecmenti müəssisələrdə maliyyə aktivlərini qiymətləndirir, uçota alır, maliyyə fəaliyyətinin planlaşdırılmasını həyata keçirir, maliyyə hesabatlarını hazırlayır.. Kommersiya banklarında idarəetmə qərarlarını qəbul etmək üçün dolğun düzgün informasiyaya ehtiyac duyulur. Məhz bu informasiyalar mühasibat uçotu əsasında toplanılır. Düzgün aparılmayan uçot müəssisə üçün mənfi nəticələrə gətirib çıxarır. Ona görədə uçotu aparan mühasib diqqətcil və öz işində təcrübəli olmalıdır. Mühasib qədər müəssisənin rəhbəri də diqqətli olmalıdır. Çünki ən sonda mühasibin apardığı hesabatı müəssisə rəhbəri yoxluyur və imzalıyır.

## ƏDƏBİYYAT SİYAHISI :

1. İ.M.Abbasov R.F.Sadiqov. Menecment Bakı-2013 səh 196-198
2. www.mühasib.az
3. www.old.525.az i.e.d Elnur Sadıqov Məhəmmədoğlu
4. www.günaybank.com
5. www.prezi.com
6. www.wikipedia.org

# KOMANDA ANLAYIŞI

**Babayeva Aysel Aprel qızı**
***Qərbi Kaspi Universitetinin Psixologiya fakültəsinin magistri***
***ayselbabayeva916@gmail.com***
***Elmi məsləhətçi - Kəmalə Hüseynova***

## XÜLASƏ

Məqalədə insanların cəmiyyətdə olmasının zəruriliyi vurğulanaraq,insanların komanda halında yaşamaları və bu zaman daha yüksək nəaliyyətlər əldə etmələri qeyd olunur.Eyni zamanda komandaya anlayış verilərək,həyatın müxtəlif sahələrində mövcud olan komandalardan bəhs edilir.
**Açar sözlər:** insan, komanda, cəmiyyət, anlayış, ünsiyyət.

## SUMMARY

Emphasizing the need for people to be in society, the article emphasizes that people live as a team and achieve greater success at the same time.
**Keywords:** person, team, society, understanding, communication

## РЕЗЮМЕ

Подчеркивая необходимость для людей быть в обществе, в статье подчеркивается, что люди живут в команде и в то же время добиваются большего успеха.
**Ключевые слова:** человек, команда, общество, понимание, общение.

İnsan cəmiyyət daxilində doğulub yaşayır. Hər bir fərd nəinki bioloji, eyni zamanda sosial irsə sahib olub, konkret mühitdə və cəmiyyətdə mövcud yaşayış tərzini, görüşləri, adət və ənənələri təkrar edir. Bu baxımdan hər bir şəxs konkret cəmiyyətin məhsulu, öz dövrünün övladıdır. Burada insan birliyi xüsusi rol oynayır. Əgər insan tək, tənha yaşasaydı nə onun bir şəxsiyyət kimi formalahması, nə də öz tələbatlarını ödəməsi işi istənilən səviyyədə gedə bilməzdi. Məhz buna görə də bəşər tarixində insanlar daima müəyyən qruplarda birləşir və fəaliyyət göstərirlər.Bəs hər cür insan birliyini komandaadlandırmaq olarmı? Qrupları

səciyyələndirən əsas amillər nədən ibarətdir? Bu kimi suallara cavab vermədən qruplar, onların rolu və funksiyalarını da düzgün dərk etmək mümkün deyildir.Hər şeydən əvvəl hər cür insan birliyini, məsələn, təsadüfən avtobusda, metroda, küçədə birgə gedən adamları komandaadlandırmaq düzgün deyildir. Bu adamlar fiziki cəhətdən birləşmiş fərdlər olmaqla, bir-birlərinə qarşılıqlı təsir göstərmirlər. Hər hansı bir insan birliyini komandaadlandırmaq üçün həmin adamların vahid məqsəd uğrunda birgə fəaliyyətə girişməsi tələb olunur. Bu cür ümumi mənafe və birgə fəaliyyət olmadıqda insanların birliyinin son məqsədi də məlum olmur. Bu cür təsadüfi birləşmədə insanların bir-birinə qarşılıqlı təsiri, onların bir-birini qavraması halları da aradan çıxır. Bu baxımdan görkəmli amerika psixoloqu D.Mayersin qrupa verdiyi tərif diqqəti cəlb edir. «Komandabir-birinə qarşılıqlı təsir göstərən, bir-birinə uzun müddət təsir göstərməklə özlərini «biz» kimi qavrayan iki və daha artıq insan birliyidir». Məhz buna görə də qrupları sosial mənsubiyyətə, birgə fəaliyyətin və ünsiyyətin xarakterinə görə birləşən insan birliyi kimi səciyyələndirmək lazım gəlir.

Tarixən müəyyən cəmiyyət çərçivəsində yaranmış, ümumi mənafe, sərvətlər və davranış normalarına malik olan adamların nisbətən sabit birliyi komandaadlanır.Adamların qeyri-mütəşəkkil yığımından, təsadüfü birliyindən fərqli olaraq komandaüzvləri komandaüçün tipik olan fəaliyyət növlərinə daxil olurlar. Məsələn, ali məktəbin tələbə qruplarında gələcəyin mütəxəssisi kimi formalaşmalı olan insanlar birləşirlər. Onlar üçün tipik fəaliyyət növü təlim fəaliyyəti olub, bu prosesdə müvafiq peşə bilik, bacarıq və vərdişlərinin formalaşması baş verir. Adətən hər bir adam müxtəlif qrupların üzvü ola bilir. Lakin hər hansı adam bütün qruplarda eyni statusa malik olmur, müxtəlif qruplarda müxtəlif rolları yerinə yetirir. Məsələn, uşaq ailədə övlad (oğul və ya qız), məktəbdə şagird, voleybol komandasında idmançı rolunu; yaşlı adam ailədə valideyn, işdə müdir və ya adi işçi və s. rolunu yerinə yetirə bilər.

Sosial qruplar. Qeyd olunduğu kimi, adi insan biriliklərində adamlar ümumi mənafe, sərvət və davranış normalarına malik olmurlar. Yalnız sosial qruplarda hər cür sosial münasibətlər mövcud olur. Sosial qruplar cəmiyyətin qəbul etdiyi, özünün məqsəd və vəzifələri onun xeyrinə olan qruplardır. Bu cür qruplara ailəni, orta və ali məktəb qruplarını, təşkilat və idarələrdə toplanmış insan qruplarını, hərbi və idman qruplarını və s. aid etmək olar. Həmin qrupların strukturu, normaları cəmiyyətin mövcud tələblərinə uyğun olmaqla, bir növ cəmiyyət tərəfindən idarə olunur. Təsadüfü insan biliklərində isə çox vaxt bu cür idarə olunma mövcud olmur. Bu cür insan birlikləri bir növ kütlə xarakteri daşıyır. Kütlə aydın dərk olunmuş ümumi məqsəddən məhrum olan, lakin bir-biri ilə öz emosional vəziyyətinin oxşarlığı və ümumi diqqət obyektinə görə bağlı olan, xüsusi strukturu olmayan insan toplusudur. Sosial qruplarda isə aydın dərk olunmuş ümumi məqsədlər mövcud olur. Komanda üzvlərinin hamısı həmin məqsədin həyata keçirilməsinə çalışırlar. Burada qarşılıqlı anlama, əvvəlcədən düşünülmüş struktura uyğunluq, müvafiq funksiyalar həyata keçirilir. Bu cəhəti nəzərə alaraq Ə.Bayramov və Ə.Əlizadə yazır: «Sosial komanda mədəniyyət meyarları, sərvət meylləri, həyat fəaliyyəti vasitələri və ya şəraiti ilə bir-biri ilə bağlı olan insanların nisbətən sabit birliyidir».

Psixoloji ədəbiyyatda (Ə.Bayramov, Ə.Əlizadə) sosial qrupların aşağıdakı funksiyaları qeyd olunur:

· sosializasiya funksiyası;
· instrumental funksiya;
· ekspressiv funksiya;
· müdafiəedici funksiya;

Qrupun sosializasiya funksiyası-burada komanda üzvlərinin sosiallaşması, sosial təcrübəni mənimsəməsi, bir şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur. İnsanın sosiallaşması onun düşdüyü ilkin sosial qrupdan başlayır. Ailənin ilkin sosial komandakimi uşağın sosiallaşmasında oynadığı rol hamıya məlumdur. İnsanın daxil olduğu sonrakı sosial qruplar da onun sosial təcrübəni mənimsəmək məktəbi rolunu oynayır. Sosial qrupların instrumental funksiyasına gəldikdə bu, qrupda insanların birgə fəaliyyətinin bu və ya digər şəkildə həyata keçirilməsini nəzərdə tutur. Bu, xüsusilə kollektiv şəkildə həyata keçirilən fəaliyyət növlərində özünü daha aydın şəkildə göstərir. Buna voleybol, futbol komandasının və birgə fəaliyyətə əməl olunmadan həyata keçirilməsi mümkün olmayan digər fəaliyyət növlərində birləşən insan qruplarını aid etmək olar. Sosial qrupların ekspressiv funksiyasına gəldikdə buna psixoloqlar qrupda insanın rəğbətləndirmə, hörmət və etimada tələbatının təmin olunmasında ifadə olunmasını aid edirlər.

Başqa sözlə sosial qruplar insanların qeyd olunan tələbatlarını ödəmək vəzifəsini də yerinə yetirirlər.(1,s.10)

Sosial qrupun müdafiəedici funksiyasına gəldikdə elə həmin funksiyanın adı onun mahiyyətini başa düşməyə imkan verir. Sosial komandaöz üzvlərinin hərtərəfli müdafiəsi üçün əsaslı şərait yaradan bir birlik kimi fəaliyyət göstərir. Gündəlik qurumlarda komanda işləri, effektiv iş qrupları və komanda qurulması məşhur mövzulardır. Müvəffəqiyyətli komanda işi sizin strateji məqsədlərinizin həyata keçirilməsini təmin edir. Effektiv iş qrupları fərdi işçilərin nailiyyətlərini artırır və müştərilərə daha yaxşı xidmət etməyə imkan verir. Davam edən komandalar ilə sınaqdan keçirirsinizsə, təşkilatınızın hansı komandanın fəaliyyətlərini dəstəkləyə biləcəyini müəyyən etmək üçün bir neçə nəfərlə başlayın. Komandalar resursları və xüsusilə də işçi vaxtını tələb edirlər. Çalışanlarınızla ən çox zövq alacaq və kömək edə biləcək qrupların tipini araşdırmaq istəyə bilərsiniz. Məsələn, bir müştəri şirkətinin şirkətin STEM (uşaqları elm, texnologiya, mühəndislik və riyaziyyat dərsləri almağa təşviq etməyi təşviq etmək) məqsədi ilə bu sahələrdə kariyerlərə hazırlamaq üçün qərar verən bir xeyriyyəçilik qrupu var. Komanda, şirkətin üz verdiyi 50.000 ABŞ dolları və ya illik xeyriyyəçilik üçün alıcıları təyin edir. Komanda həmçinin heyvan rifahı, tətillər zamanı möhtac ailələr üçün və daha çox bağışlar təşkil edir. Başqa bir şirkətdə işçilərin bir-birinin yaxşı işlərini, yardımlarını və komanda işlərini tanıması üçün tanınma qrupu yaradılmışdır. İş qrupları nə vaxt təsirlidir?

İş qrupları, işçilərin liderlik və komanda bacarıqlarını öyrənmək üçün bir fürsətdir. Sizin təşkilatınızın əməkdaşlarından hər zaman görməmiş işçilərlə işləmək şansını verirlər. Onlar işçilərə özlərindən və ya işindən daha böyük bir şeyin bir hissəsi olmaq imkanı verirlər.

İş qruplarınız ən təsirli hallarda:

§ müxtəlif işçilər qrupu iştirak edə bilər,

§ bir işçinin iştirak edə biləcəyi qrupların sayını məhdudlaşdırırsınız ki,

§ qruplar müntəzəm iclas planı hazırlayır,

§ periodik komanda qol qəbulu tələb edir,

§ dəqiqə və ya qeydlər komanda görüşlərindən və ya layihələrdən, və

§ komandalar müntəzəm olaraq daha yeni işçilər əlavə edərək özlərini asas etməlidirlər. Başqa sözlə, komandalardakı işçilər mütəmadi olaraq dəyişirlər ki, daha çox işçinin komandada xidmət etməsi mümkündür.

Bir çox təşkilatdan faydalanacaq nümunə qruplar

Hər bir təşkilatın ehtiyac duyduğu beş işçi qrupu var. Komanda rolları və məsuliyyətlərinə bir çox fərqli yanaşmalar gördüm. Fərqli təşkilatlar ayrıca məsuliyyətlərini fərqli olaraq təşkil edə bilərlər. Məsələn, bir təhlükəsizlik komitəsinə bir təşkilatın işçi sağlamlığı vəzifələrini yerinə yetirmək istədi. Tərəf, ətraf mühitə məsuliyyətlərini əlavə etməkdən imtina edərək, imtina etdi. Təşkil edilmiş bir komanda daha çox sağlamlıqla maraqlanırdı. Bunu nəzərə alaraq, mən bu təklifləri ən çox təklif edən beş komandadır.

Liderlik Qrupu. Tez-tez bir təşkilatın üst səviyyə idarəçiləri və ya şöbə müdirləri, rəhbərlik qrupu, təşkilatınızı idarə etmək üçün bir araya gələrək komandaolmalıdır. Liderlik qrupu, təşkilatınızın strateji istiqamətindən məsuldur, rəhbərlik komandası planları təyin edir, hədəfləri təyin edir, rəhbərliyə rəhbərlik edir və təşkilatınızı idarə edir.

Motivasiya və ya əməkdaşı Morale Komandası.Müxtəlif təşkilatlarda fərqli adlarla bilinən, işçi mənəvi qrupu. işçi fəaliyyəti komitəsi və ya tədbir planlaşdırma komitəsi (üç ümumi komanda adları), işçilər arasında müsbət rəftar yaradan hadisələri və fəaliyyətləri planlaşdırır və həyata keçirir. Komanda məsuliyyətləri işçi yeməklərini qəbul etmək, şirkət pikniklərini planlaşdırma, xəstə işçilər üçün fandreyzinq və xeyriyyə məqsədləri üçün fandreyzinq kimi fəaliyyətləri əhatə edə bilər. Komanda firma mərhələləri, işçilərin doğum günləri və yeni körpələrin gəlməsini təşkil edir. Komanda şirkət idman komandalarına sponsorluq edir. Komandanızın məhdudluğu komandanın üzvlərinin və işçilərinizin istəklərini nəzərə alaraq bu komanda ilə əylənə bilərsiniz.(2,s.20).

Təhlükəsizlik və Ətraf Qrupu.Komandanın iş yerində işçilərin təhlükəsizliyini təmin edir.Təlim təhlükəsizlik təlimində, aylıq təhlükəsizliyə dair danışıqlar və ev təsərrüfatı, təhlükəsizlik və iş yerlərinin təşkilinə nəzarət edir. Yenidənqurma və ətraf mühit siyasəti tövsiyələri və liderlik də komanda tərəfindən verilir..

İşçi Wellness Komandası. Wellness qrupu işçilər üçün sağlamlıq və fitnessə diqqət yetirir. Ən məşhur fəaliyyətlər arasında yürüyüş klubları, çalışan qruplar və yüksək qan təzyiqi taraması kimi sağlamlıq problemlərinin dövri testləri daxildir. Wellness qrupu bütövlükdə büdcə və ya nahar etmək və investisiyalar haqqında öyrənmək kimi bütün insan sağlamlığı fəaliyyətlərinə sponsor ola bilər - investisiya məsləhət deyil. Bir çox şirkətdə, sağlamlıq qrupu çətinlik çəkir. Bir müştəri şirkətində, komanda işçilərə daha çox getməyə təşviq etmək üçün bir gəzinti meydançası yaratdı. Hər bir iştirakçıya gündəlik olaraq yüklənmiş bir pedometre verildi. Müsabiqənin sonunda, uzanan qollarla qarşılaşan hər bir işçiyə bir cüt ayaqqabı üçün kupon verildi.

Mədəniyyət və Əlaqə Komanda. Təşkilat, təşkilatınızın uğuru üçün lazım olan müəyyən şirkət mədəniyyətini müəyyənləşdirmək və yaratmaq üçün çalışır. Komanda həmçinin, işçilərin komanda zəncirinə daxil olmasını təmin etmək üçün təşkilatınızda iki tərəfli ünsiyyəti dəstəkləyir. Komanda aylıq bülleteni, həftəlik şirkət yeniləməsini, üç ayda bir işçi məmnuniyyəti anketini və işçi təklifi prosesini sponsor edə bilər.Bir neçə şirkət qrupunu, bəlkə də bunlardan bir neçəsini başlasın və onların uğurlarını artırın. İşçilər uğurlu komandaları görürlərsə, daha çox işçi komandalara xidmət etməkdə maraqlı olurlar. Qruplar şirkətə işləmək üçün daha yaxşı bir yer və real işçilərin iştirakı və öhdəliyi üçün imkan yaradır. Komandalar, iş yerində davam edən komanda və ya bir məqsədi yerinə yetirmək üçün yaradılan bir komandaolub olmadığı bir fərq yaratır. Müvəffəqiyyətli qruplar, təşkilatınızdakı əsl bir komandaişi yaratmağa kömək edir. Zəhmli uğurlar üçün bunlarla başlayın.

Hər iş yerində olan insanlar komandanın qurulması barədə danışırlar, lakin çoxları komandada işləmə təcrübəsini necə yaratmağı və ya effektiv komandanı necə inkişaf etdirməyi başa düşmürlər. Bir komandaya mənsub olmaq, ən geniş mənada özündən daha böyük bir şeyin hiss olunmasının nəticəsidir. Bu, təşkilatınızın missiyası və ya məqsədlərini başa düşməyinizlə çox əlaqəlidir.

Uğura töhfə

Komanda yönümlü bir mühitdə, təşkilatın ümumi uğurlarına öz töhfənizi verirsiniz. Bu nəticələr çıxarmaq üçün təşkilatın digər üzvləri ilə işləyirsiniz. Müəyyən bir iş funksiyanız var və müəyyən bir şöbəyə aid olsanız da, ümumi məqsədləri yerinə yetirmək üçün digər heyət üzvləri ilə birləşirsiniz. Daha böyük şəkilə xidmət etmək üçün funksiyanız mövcuddur.

Bu ümumi komanda işi hissini müəyyən bir məqsədə çatmaq üçün formalaşan effektiv bütöv bir komanda hazırlamaq vəzifəsindən fərqləndirməlisiniz. İnsanlar iki komanda qurma məqsədlərini çaşdırırlar.Buna görə bu qədər komanda qurma seminarları, yığıncaqlar, geri çəkilmələr və fəaliyyətlər uğursuz sayılır. Liderlər qurmaq istədikləri komandanı təyin edə bilmədilər. Bir inkişaf komanda işi ümumi mənada təsirli, diqqət mərkəzində olan bir komanda qurmaqdan fərqlidir.

İcraçılar, menecerlər və təşkilat işçiləri ümumiyyətlə iş nəticələrini və gəlirlilik səviyyəsini yüksəltmək yollarını araşdırırlar. Bir çoxu komanda əsaslı, üfüqi, təşkilat quruluşlarını bütün işçilərin iş uğuru yaratmaq üçün cəlb edilməsi üçün ən yaxşı dizayn hesab edir.Komanda əsaslı yaxşılaşdırma səylərinizi (davamlı inkişaf, ümumi keyfiyyət, arıq istehsal və ya özünə yönəlmiş bir iş qrupu) adlandırmağınızdan asılı olmayaraq, müştərilər üçün nəticələri yaxşılaşdırmağa çalışırsınız. Bununla birlikdə, az sayda təşkilat, komandalarının təkmilləşdirilməsi səylərinin nəticələrindən məmnundurlar. Komandanızın yaxşılaşdırılması səyləri gözləntilərinizə uyğun deyilsə, bu özünüdərki diaqnoz siyahısı sizə bunun səbəbini izah edə bilər. Müvəffəqiyyətli, diqqətli iş qrupları yaradan müvəffəqiyyətli komanda qurulması aşağıdakılardan hər birinə diqqət tələb edir.

1. Komanda üçün gözləntilərin aydın olması

İcra rəhbərliyi komandanın fəaliyyətinə və gözlənilən nəticələrə dair gözləntilərini açıq şəkildə bildirdimi? Komanda üzvləri komandanın nə üçün yaradıldığını başa düşürlərmi? Komandaya insanların, vaxtın və pulun qaynaqları ilə dəstəkləməkdə məqsədyönlülük nümayiş etdirən təşkilat varmı? Komandanın işi icra rəhbərləri tərəfindən yola yönəldilən vaxt, müzakirə, diqqət və maraq baxımından prioritet olaraq kifayət qədər əhəmiyyət alırmı?

2. Komanda üçün kontekst

Komanda üzvləri komandaya niyə qatıldıqlarını başa düşürlərmi? Komandalardan istifadə strategiyasının təşkilatın ünsiyyətdə olan iş məqsədlərinə çatmasına necə kömək edəcəyini başa düşürlərmi? Komanda üzvləri kollektiv məqsədlərin yerinə yetirilməsində komandalarının əhəmiyyətini

müəyyən edə bilərmi? Komanda onun işinin təşkilatın məqsədləri, prinsipləri, baxışları və dəyərlərinin ümumi kontekstinə uyğun olduğunu başa düşürmü?

3. Komanda öhdəliyi

Komanda üzvləri komandada iştirak etmək istəyirlərmi? Komanda üzvləri komanda missiyasının vacib olduğunu hiss edirlərmi? Üzvlər komanda missiyasını yerinə yetirməyə və gözlənilən nəticələrə sadiqdirlərmi?Komanda üzvləri xidmətlərini təşkilat və onların karyeraları üçün dəyərli hesab edirlərmi? Komanda üzvləri töhfələr üçün tanınmağı gözləyirlərmi? Komanda üzvləri bacarıqlarının komanda üzərində böyüyəcəyini və inkişaf edəcəyini gözləyirlərmi? Komanda üzvləri heyətin fürsətindən həyəcanlanır və meydan oxuyurlar?

4. Komandanın səriştəsi

Komanda bunun uyğun adamların iştirak etdiyini hiss edirmi? Məsələn, prosesin yaxşılaşdırılması prosesində hər addım komandada təmsil olunur? Komanda hiss edir ki, üzvlər qrupun yaranan məsələləri həll etmək üçün bilik, bacarıq və qabiliyyətə malikdirlər? Yoxdursa, komandanın ehtiyac duyduğu yardıma girişi varmı? Komanda öz missiyasını yerinə yetirmək üçün lazım olan mənbələrə, strategiyalara və dəstəyə sahib olduğunu hiss edirmi?

5. Komandanın nizamnaməsi

Komanda təyin olunmuş məsuliyyət sahəsini götürmüş və missiyanı yerinə yetirmək üçün öz missiyasını, görmə qabiliyyətini və strategiyasını hazırlamışdır. Komanda məqsədlərini müəyyənləşdirdi və məlumat verdi; gözlənilən nəticələr və töhfələr; onun vaxtı; və həm işinin nəticələrini, həm də komandanın öz vəzifələrini yerinə yetirmək üçün izlədiyi prosesi necə ölçəcəkdir? Rəhbərlik qrupu və ya digər əlaqələndirici qrup komandanın hazırladığını dəstəkləyirmi?

6. Komanda nəzarəti

Komandanın nizamnaməsini yerinə yetirmək üçün lazımi mülkiyyəti əldə etmək üçün kifayət qədər azadlıq və səlahiyyət var? Eyni zamanda, komanda üzvləri öz sərhədlərini dəqiq başa düşürlərmi? Üzvlərin həll yolları axtarmasına nə qədər icazə verilir? Komanda maneələr və yenidən işləmədən əvvəl məhdudiyyətlər (məsələn, pul və vaxt ehtiyatları) layihənin əvvəlində müəyyənləşdirilibmi? Komandanın hesabat əlaqəsi və hesabatlılığı təşkilatın bütün üzvləri tərəfindən başa düşülürmü? Təşkilat komandanın tövsiyələr vermək səlahiyyətini müəyyənləşdiribmi? Planı həyata keçirmək üçün? Müəyyən edilmiş nəzərdən keçirmə prosesi varmı, buna görə həm komanda, həm də təşkilat ardıcıl olaraq həm istiqamət, həm də məqsədlə uyğunlaşdırılır?Komanda üzvləri layihə müddətləri, öhdəliklər və nəticələr üçün bir-birlərini məsuliyyət daşıyırlarmı? Təşkilatın təşkilat üzvləri arasında özünü idarəetmə imkanlarını artırmaq planı varmı?

7. Komanda ilə əməkdaşlıq

Komanda komanda və qrup prosesini başa düşürmü? Üzvlər qrupun inkişaf mərhələlərini başa düşürlərmi? Komanda üzvləri qarşılıqlı olaraq səmərəli işləyirlərmi? Bütün komanda üzvləri komanda üzvlərinin, komanda rəhbərlərinin və komanda qeydlərinin rollarını və məsuliyyətlərini başa düşürlərmi? Komanda problemin həlli, prosesin yaxşılaşdırılması, hədəfin təyin edilməsi və ölçü ilə birlikdə yaxınlaşa bilərmi? Komanda üzvləri komanda nizamnaməsini yerinə yetirmək üçün əməkdaşlıq edirmi? Komanda münaqişələrin həlli, konsensus qərarının qəbul edilməsi və görüşlərin idarə olunması kimi sahələrdə qrup normaları və ya davranış qaydaları yaratdımı? Komanda fəaliyyət planını yerinə yetirmək üçün müvafiq strategiyadan istifadə edirmi?

8. Komanda ünsiyyəti.Komanda üzvləri qarşıya qoyulan vəzifələrin prioriteti barədə aydın deyilmi? Komandaların rəy verməsi və vicdanlı rəy alması üçün qurulmuş bir metod varmı? Təşkilat müntəzəm olaraq vacib iş məlumatları verirmi?

Komandalar varlıqlarının tam məzmununu başa düşürlərmi? Komanda üzvləri bir-biri ilə aydın və dürüst ünsiyyətdədirmi? Komanda üzvləri masaya müxtəlif fikirlər gətirirlərmi? Zəruri münaqişələr qaldırılıb həll edilirmi?

9. Yaradıcı İnnovasiya

Təşkilat dəyişiklikdə həqiqətən maraqlıdır? Yaradıcı düşüncə, bənzərsiz həllər və yeni fikirlər qiymətləndirirmi? İnkişaf etmək üçün ağlabatan risk götürən insanları mükafatlandırırmı? Yoxsa şirkət status-kvoya uyğunlaşan və onu qoruyan insanları mükafatlandırır? Təlimi, təhsili, kitablara və filmlərə giriş, yeni düşüncəni stimullaşdırmaq üçün lazım olan sahə gəzintilərini təmin edirmi?

10. Komandanın nəticələri

Komanda üzvləri komanda nailiyyətləri üçün məsuliyyətli və məsuliyyət hiss edirlərmi? Komandalar uğurlu olduqda mükafat və tanınma təmin edilirmi? Təşkilatda məqbul risk hörmət və təşviq olunurmu? Komanda üzvləri qisas almaqdan qorxurlar? Komanda üzvləri vaxtlarını problemləri həll etməkdən daha çox barmaqla göstərməyə sərf edirlərmi? Həm komanda, həm də fərdi fəaliyyətini tanıyan mükafat sistemlərini tərtib edən təşkilat varmı? Təşkilat qazancı və artan gəlirliliyi komanda və ayrı-ayrı töhfəçilərlə bölüşməyi planlaşdırırmı? İştirakçılar artan təşkilat uğurlarına təsirlərini görə bilərmi?

11. Komandanın əlaqələndirilməsi

Qruplara müvəffəq olmaq üçün lazım olanları əldə etməyə kömək edən mərkəzi rəhbərlik qrupu tərəfindən əlaqələndirilirmi? Şöbələr üzrə prioritetlər və resurs bölgüsü planlaşdırılıbmı? Komandalar daxili müştəri anlayışını başa düşürlərmi (yəni məhsul və ya xidmət təqdim etdikləri hər kəs?)Çarpaz funksional və çox şöbəli komandalar ortaqdır və birlikdə səmərəli işləyirlər? Müştəri yönümlü bir proses yönümlü bir istiqamət inkişaf etdirən və ənənəvi şöbə düşüncəsindən uzaqlaşan təşkilat varmı?

12. Komanda mədəniyyətinin dəyişməsi

Təşkilat, gələcəyin təşkilati mədəniyyətini təmin edən, komandaya əsaslanan, əməkdaşlıq edən, gücləndirici və ənənəvi, iyerarxik quruluşdan fərqli fərqləndirdiyini, işə götürməsini, inkişaf etdirməsini, həvəsləndirməsini və idarə etməsini dəyişdirməyi planlaşdırır və ya müddətində? Təşkilat öyrənmə üçün uğursuzluqlardan istifadə etməyi və ağlabatan riski dəstəkləməyi planlaşdırır? Təşkilat iqlim dəyişikliyini komandaları dəstəkləmək üçün nə qədər dəyişə biləcəyini tanıyır?(3,s.10-15)

## ƏDƏBİYYAT SİYAHISI :


1. Turner, J.C. (1982). Tajfel, H. (ed.). "Towards a cognitive redefinition of the social group". Social Identity and Intergroup Relations. Cambridge: Cambridge University Press: 15–40.
2. Platow, M.J.; Grace, D.M.; Smithson, M.J. (2011). "Examining the Preconditions for Psychological Group Membership: Perceived Social Interdependence as the Outcome of Self-Categorization". Social Psychological and Personality Science. 3 (1).
3. Reicher, S. D. (1982). "The determination of collective behaviour." Pp. 41–83 in H. Tajfel (ed.), Social identity and intergroup relations. Cambridge: Cambridge University Press.
4. Macionis, John, and Linda Gerber (2010). Sociology 7th Canadian Ed. Toronto, Ontario: Pearson Canada Inc.
5. Hare, A. P. (1962). Handbook of small group research. New York: Macmillan Publishers.


# LİDERLİK XÜSUSİYYƏTLƏRİ


**Babayeva Aysel Aprel qızı**

***Qərbi Kaspi Universitetinin Psixologiya fakültəsinin magistri***

***aysel babayeva916@gmail.com***

***Elmi məsləhətçi - Kəmalə Hüseynova***


## XÜLASƏ


Məqalədə rəhbər və lider anlayışları fərqləndirilmişdir. Liderin özünəməxsus xüsusiyyətlərindən bəhs edilmişdir. Lider olmaq üçün lazım olan tələblər sadalanmışdır. İdarəetmə mədəniyyətinin növü kimi liderlik mədəniyyətinə toxunulmuş və bununla bağlı müyyən məlumatlar verilmişdir.

**Açar sözlər:** rəhbər, lider, mədəniyyət, xüsusiyyət, keyfiyyət.

**SUMMARY**

The article distinguishes the concepts of leader and leader. The peculiarities of a leader are discussed. The requirements for becoming a leader are listed. The culture of leadership as a type of management culture is touched upon and certain information is given in this regard.

**Keywords:** leader, leader, culture, feature, quality.

**РЕЗЮМЕ**

В статье различаются понятия лидер и лидер. Обсуждаются особенности лидера. Перечисляются требования для того, чтобы стать лидером. Затронута культура лидерства как тип управленческой культуры и дана определенная информация по этому поводу.

**Ключевые слова:** лидер, лидер, культура, характеристика, качество.

Liderlik mütəxəssisləri deyirlər ki, uğurlu liderlərin bəzi ümumi xüsusiyyətləri var. Bu xüsusiyyətlər aşağıdakılardır:

**1**. İnam

İnam effektiv komanda işinin, uğurlu və məhsuldar bir şirkətin əsasını təşkil edir. Bir lider üçün ən vacib məsələ öz komandasına inanmaqdır. Buna görə də komandanıza daim nəzarət etmək əvəzinə, onlara etibar edin və bəzi şeyləri özlərinin öyrənməsinə şərait yaradın. Şirkətinizin saat kimi işləməsini istəyirsinizsə, komandanız güclü olmalıdır.

**2**. Motivasiya edici mühit yaratmaq

Motivasiyalı işçi həmişə daha səmərəli işləyir. Buna görə də, böyük liderlər adətən öz işçilərini motivasiya etməyə çalışırlar. Motivasiya mühitinin hazırlanması əməkdaşların ehtiyaclarına görə fərqlənir. Onları maaşlarını artıraraq, işlərini bitirdikdən sonra tez çıxmaqlarına icazə verərək motivasiya edə bilərsiniz.

**3.** Hədəfləri müəyyənləşdirmək

Lider komanda ilə onun işi arasında körpü rolunu oynayır. Buna görə də öz fəaliyyətinizə diqqət yetirməli və məqsədinizə çatmaq üçün addım-addım, ancaq əsas fəaliyyətdən uzaqlaşmadan irəliləməlisiniz. Onlara öhdəsindən gələ biləcəkləri vəzifələr verin. Bu yolla əməkdaşlarınızın sizin məqsəd və missiyanıza uyğun işləməsinə nail ola bilərsiniz.

**4.** Dəstək vermək, gücləndirmək

Komandanız nə qədər güclü olarsa, siz də o qədər güclü olarsınız. Bu səbəblə işçilərinizə dəstək verməli və onları istənilən çətin vəzifəyə hazırlamalısınız. Bu, yalnız komandanı gücləndirməklə qalmır, həm də daha mürəkkəb vəzifələrlə məşğul olmağa imkan verir. Beləliklə, komandanız hədəflərinizə daha motivasiyalı, intizamlı və qətiyyətli yanaşacaq.

**5.** Layihələri tamamlamaq

Heç kəs hər hansı bir layihəni tamamlamadan kənara atan rəhbərə inanmaz. Hətta pis lider belə məsuliyyətsiz liderdən daha yaxşıdır. Bu səhvi heç vaxt etməyin. Yararsız olacağını bildiyiniz layihələri belə başlamısınızsa tamamlayın. Bu, komandanıza necə məsuliyyətli və qətiyyətli bir lider olduğunuzu göstərəcək və sizə olan inamı artıracaq.

**6.** Diqqətlə dinləmək

Liderlərin onları dinləyən insanlara ehtiyacı var. Ancaq bunun üçün əvvəlcə siz özünüz digər insanları dinləməlisiniz. Komandanızın sizin əmrlərinizdən başqa bir çox şeyə - dəstəyə, köməyə, geri bildirişə ehtiyacı olduğunu unutmayın. Bunları təmin etmək üçün əsas məsələ işçilərinizi diqqətlə dinləmək və anlamaqdır.

**7.** Məqsəddən yayınmamaq

Hər hansı bir şirkət uzunmüddətli hədəflərinin öhdəsindən müvəffəqiyyətlə gəlməklə öz əməkdaşlarına motivasiya verə bilər. Eyni zamanda, həmin hədəflərə çatmaq üçün işçilərin dəstəyini alması mütləqdir. Beləliklə, nə qədər yaxşı bir lider olmağınızdan asılı olmayaraq, işçiləriniz sizinlə eyni məqsədə sahib deyillərsə, uğur qazana bilməzsiniz.

**8.** Komanda mühitini yaratmaq

Uğurlu liderlər təkcə işçilərlə ünsiyyət qurmaqla kifayətlənmirlər. Onlar, eyni zamanda, komanda daxilində güclü əlaqələrin mövcudluğunu təmin etmək üçün çalışırlar. Beləliklə, liderlər olmasa belə,

komanda öz işini görməyə davam edir.Əgər işçiləriniz arasında komanda ruhu yarada bilmirsinizsə, sizə davamlı hesabat verən insan topluluğundan kənara çıxa bilməzsiniz. Komanda işi vacibdir; bu sayədə işçiləriniz fərdi məqsədlər əvəzinə şirkətin məqsədlərinə xidmət edəcəklər.

**9.** Vəzifələrdən qabaq insanlara dəyər vermək

İnsanların hamısı eyni deyil. Buna görə də fərqli xarakterlərə malik insanlara fərqli yanaşmaq lazımdır. Hər hansı bir işi yerinə yetirmək istəyirsinizsə, ilk növbədə vəzifələrə fokuslanmayın. Diqqətinizi işi yerinə yetirəcək şəxsə və onu necə motivasiya etməyə cəmləyin. Uğurlu komanda mühiti yaratmaq əslində asan bir iş deyil. Hər bir komandanın ümumilikdə 5 çatışmazlığı olur:

-İnamsızlıq;

-Mübahisə qorxusu;

-Məsuliyyətsizlik;

-Tələbkar olmamaq;

-Nəticələrə biganə yanaşmaq.

Bu maneələri dəf edən lider uğurlu komandaya sahib olacaq. Komandalarla işləmək və liderlik xüsusiyyətlərinə daha yaxşı bələd olmaq üçün “Komandaların beş çatışmazlığı. Liderlik əfsanəsi” kitabını mütləq oxumalısınız.Sizə daima sizi uğura aparacaq komanda ilə çalışmağınızı arzulayırıq.

Liderlik mədəniyyəti - əməkdaşların ümumi və fərdi tələbatları, maraq və gözləmələrinin təmin edilməsi şərti ilə liderin kollektiv qarşısında duran vəzifələrin həllinə yönəldilən biliyi, bacarığı, mütəşəkkilliyi, etikası və idarəetmə fəaliyyətidir. İdarəçiliyin çoxvariantlılığı liderlərin müntəzəm özünü təkmilləşdirməsini, effektiv idarəetmə mədəniyyətinə interaktiv təlim sistemi vasitəsilə onların biliklərinin və qabiliyyətlərinin inkişaf etdirilməsini tələb edir. Mahiyyət etibarı ilə, liderlik mədəniyyəti əsasən milli, beynəlxalq, sosial, iqtisadi, ailə idarəçiliyi və şəxsiyyətin özünüidarəsində tətbiq edilən universal idarəetmə modelidir.(1,s.10).

Lider - bərabər insanlar arasında birincidir, vəzifəsində və sosial mövqeyində deyil, şəxsi keyfiyyətlərində, intellektual və etik mədəniyyətində, elmi bilikləri, təcrübəsi, iradəsi, mütəşəkkilliyində, insaniyyətdə, cəmiyyətin mənafeyinə yaradıcı fəaliyyətdə üstünlüyə malik olan mədəniyyətli insandır. Liderin seçilməsi və ya təyin edilməsi kollektivlərin özlərinin yaranmasından və ya rəsmi rəhbərliyi olan mövcud kollektivin özəyi olmasından asılıdır. Lakin istənilən halda lider, bir sıra həm peşəkarlıq, həm də insani keyfiyyətləri sayəsində hörmət qazanmalıdır. Bununla yanaşı lider təşkilatın əməkdaşlarını ümumi vəzifənin yerinə yetirilməsini, kollektiv işi, işçilərin qarşılıqlı hörmətini istiqamətləndirməyi bacarmalı və onların inkişafına yardım etməlidir. Yüksək idarəetmə mədəniyyətinə malik lider öz işini yaxşı bilməli və dediyi sözlərin həqiqiliyinə inanmalı, kollektiv əməkdaşlarının enerji və istedadlarından düzgün istifadə etməyə qabil olmalı, insan təbiətini yaxşı dərk etməli və “qamçı və qoğal” metodu vasitəsilə, yəni mükafatlandırma və tənbeh etmənin birləşdirilməsi yolu ilə yüksək məhsuldarlı əməyi motivləşdirməlidir.

Kollektiv qarşısında duran problemlərin həlli üçün o, elmi, aksioloji vəpraktiki yanaşmanı özündə bacarıqla birləşdirməlidir. Liderlik mədəniyyəti, liderin başqalarından daha uzağı görmək və öncəgörənlik qabiliyyətinə malik olmaq bacarığını, insanları yaxşı ayırd etməyə, nöqsansız məntiqi təhlil qabiliyyətinə və insanların, onların keyfiyyətləri və xidmətlərini hesaba alan ədalətli qiymətləndirilməsinə qadir olmasını nəzərdə tutur. Leo Taksil və bir sıra digər müəlliflərin tədqiqatları göstərir ki, çox vaxt cəmiyyətdə bu və ya digər şəxsiyyətlərin pozitiv və ya neqativ imici formalaşır ki, bu da ictimai rəyin əsası olur və zamanla stereotip təsəvvürə çevrilir. Çox vaxt ictimai rəyin əsasını ayrı-ayrı “avtoritetlər” haqqında, onların şəxsi keyfiyyətlərinin, xarakter və xidmətlərinin qeyri-adekvat qiymətləndirilməsi, bəzən şüurlu surətdə cəmiyyətdə “inanılmış” surət kimi, məntiqiliyi, məqsədləri və doğruluğunun təhlili olmadan yaradılan və yayılan informasiya təşkil edir. Düzgün dərk etmə - düzgün fəaliyyətin açarıdır. Liderin düzgün, məhsuldar təfəkkürü onun doğru əməllərini və qərarlarını formalaşdırır ki, bunun ardınca praktik fəaliyyət və konkret nəticələr gəlir. Liderlik mahiyyətinin təhlilinə ənənəvi, qrup və situativ yanaşma mövcuddur. İnsanın öz anadangəlmə keyfiyyətlərinə görə lider olmasına əsaslanan ənənəvi yanaşma, - yalnız keyfiyyətlərin və pozitiv xarakterin kifayət etmədiyini göstərən elmi dəlillər və praktik təcrübə tərəfindən təkzib edildi. Qrup yanaşması - liderliyi qrupun tələbatları ilə şərtlənən funksiyalar kontekstində nəzərdən keçirir: nə edilməlidir.

Liderlik problemlərinin qrup yanaşması əsasında təhlili görüş dairəsinə üç əsas ölçünün daxil edilməsini tələb edir: lider (şəxsi keyfiyyətləri və xarakteri); situasiya (daimilik və dəyişmə parametrləri); qrup (qrupun tələbatları və dəyərləri). Ənənəvi yanaşmanın əksinə olaraq, situativ yanaşma o inama

əsaslanır ki, liderlik - konkret vəzifənin həlli zəruriliyinin yarandığı müəyyən müstəsna situasiya ilə şərtlənir. Bu isə öz növbəsində hakimiyyətin başlıca şərti olan biliklərin əhəmiyyətini aşkara çıxarır.

Con Adair hakimiyyətin üç aspektini ayırır: rəhbərin tutduğu vəzifəsi, adı, mənsəbi ilə şərtlənən vəzifə hakimiyyəti; liderin anadangəlmə mədəni keyfiyyətləri ilə şərtlənən şəxsiyyət (mədəniyyət) hakimiyyəti; rəhbərin peşə və xüsusi bilikləri ilə şərtlənən bilik hakimiyyəti. Bu zaman o haqlı olaraq qeyd edir ki, müasir demokratik dünyada idarəetmə mədəniyyətinin əsası, getdikcə daha çox ikinci və üçüncü kateqoriya olur.(2,s.25). Bəzi insanlar, onlara dominantlıq etmək və ya başqalarına təsir göstərmək və həyat fəaliyyətinin bu və ya digər sahələrində lider kimi tanınmaya nail olmaq imkanı verən anadangəlmə üstünlüklərə malik olurlar.

Bu anadangəlmə keyfiyyətlər, ilk növbədə, şəxsiyyətin ağıl və xarakter xüsusiyyətlərində təzahür olunur. Lakin təcrübə göstərdi ki, yalnız təlim, xüsusi hazırlıq nəticəsində lider olurlar. Əlbəttə ki, anadangəlmə istedad, istənilən digər fəaliyyət sahəsində olduğu kimi, burada da mühüm rol oynayır. Hər halda liderin idarəetmə mədəniyyəti, onun təbii və qazanılmış keyfiyyətləri idarəetmə prosesinin effektivliyi üçün aparıcı məna kəsb edir.

Orkestrə istedadlı və təcrübəli dirijor lazım olduğu kimi, eynilə təşkilatlar və kollektivlərə də yüksək idarəetmə qabiliyyətinə malik lider lazımdır. Yüksək idaretmə mədəniyyətinə malik lider, qoyulmuş məsələnin effektiv həlli üçün insan, maddi və vaxt resurslarının strateji idarə edilməsi bacarığına qabil olmalıdır: qısa müddətdə ən yaxşı nəticələrlə, ən az qüvvə və resurslarla. O, məsələnin həlli üçün yalnız öz intellektual, peşəkar və fiziki qabiliyyətlərindən istifadəni deyil, həm də qəlbini qoyan insanları möhkəm bir komandada birləşdirməyi bacarmalıdır. Məqsəd, kollektiv və fərd sahəsində istifadə olunmalı prinsiplər haqqında onun aydın təsəvvürü olmalıdır, müxtəlif situasiyalarda effektiv idarəetmə və yeni inkişaf vasitələrini yaratma məqsədlərilə bu prinsipləri birləşdirməyi bacarmalıdır. Yaxşı lider, dialektik ziddiyyətlərin və kollektivin iş prosesində yaranan gözlənilməz çətinliklərin aradan qaldırılması üçün zəruri olan dözüm və təmkinə də malik olmalıdır. O, qızıl orta həddi saxlamalı, ifrata varmamalı, əməkdaşlara qarşı münasibətdə ədalətli, dürüst, alicənab olmalıdır. Qoyulmuş məsələni uğurla yerinə yetirmək üçün liderə lazımdır: cəmiyyətdə qəbul edilməyə layiq yüksək keyfiyyətli məhsul istehsalını təmin etmək; əməkdaşların müntəzəm təlimini, hətta bu onların işdən ayrılmasına səbəb olsa belə, təşkil və təşviq etmək; kollektivlə məsləhətləşmək və həyati vacib sosial məsələlər haqqında onu məlumatlandırmaq; kollektivin "döyüş ruhunu", nikbinliyini və ruh yüksəkliyini, öz işinə görə onun qürur hissini və müvəffəqiyyət əldə etmək qabiliyyətinə inamını dəstəkləmək; mükafatlar və xarici səfərlər və s.(3,s.10) daxil olmaqla, maddi və mənəvi amillər vasitəsilə yüksək məhsuldarlı əməyi stimullaşdırmaq; dinclik, nizam-intizam, məsuliyyət, sabitlik, sərbəstlik və yumor mühitini formalaşdırmaq.

Yüksək idarəetmə effüktivliyinə nail olmaq üçün lider: yaradıcı təcrübə və dünya mədəniyyəti və sivilizasiyasının inkişaf dinamikasındakı dəyişiklikləri nəzərə alma əsasında idarəetmə texnologiyalarını daim təkmilləşdirməli; effektiv idarəetmə prosesində etik və hüquqi mədəniyyət dəyərlərini bacarıqla uyğunlaşdırmalıdır. Bu məqsədlə işçilərin fəaliyyətinin hüquqi savadlılığının və normativ tənzimlənməsinin təmin edilməsi ilə yanaşı, etik dəyərlər və normalar, adətlər və ənənələr, milli mentalitet kimi sosial mədəniyyət amillərini bilmək və düzgün istifadə etmək lazımdır; ictimai rəyi idarə etməyə və kollektivin şüuruna böyük təsir göstərən kütləvi informasiya vasitələri ilə məhsuldar əməkdaşlıq etməyə qabil olmaq gərəkdir.(4,s.10)

Həqiqi liderləri muzdlu idarəçilərdən, insanlarla işləmək və istehsal texnologiyalarının mahiyyətini, imkanlarını və tələbatlarını yaxşı bilən mütəxəssislərin rəyinə qulaq asmaq bacarığı fərqləndirir. Belə liderlərin kommunikasiya sistemində üç əsas məqsədə çatmağa yardım edən konsultativ və nümayəndələr müşavirələrinin dövri olaraq təşkil edilməsi mühüm yer tutur: bir-birilərinin nəzər-nöqtəsini və məqsədlərini anlamaqla, rəhbərlər və əməkdaşlar arasında qarşılıqlı anlaşma imkanları; effektiv idarəetmə məqsədi ilə əməkdaşların ideyaları və təcrübəsindən istifadə etmək imkanları; qərarların hazırlanmasında öz töhfəsini vermək üçün əməkdaşlara imkan verilməsi. Kommunikasiya və əməkdaşlığın - müşavirələr, informasiya qrupları, şuralar və komitələr kimi müxtəlif formaları mövcud olsa da, kommunikasiyanın ən yaxşı metodu yazılı sənədlə möhkəmləndirilən şəxsi söhbət hesab edilir. Şəxsi əlaqə şəxsiyyətə inamın formalaşmasına, uğurlu siyasət isə prioritetlərin düzgün seçilməsinə imkan yaradır. Liderlik mədəniyyətinə tələblərdən biri təşkilatın və ya qrupun xarakterik xüsusiyyətlərini əks etdirən kollektivin korporativ

ruhunun formalaşdırılması bacarığıdır. Bu prosesin əsasını qrupun və ya ayrılıqda götürülmüş fərdin ümumi tələbatları və dəyərlərinin başa düşülməsi təşkil edir.

Liderin idarəetmə mədəniyyətinin səviyyəsi, sosial-mədəni təsirin göstərilməsi və onun tərəfindən idarə edilən fərdlər, qruplar və ya bütövlükdə təşkilatın kollektivi tərəfindən pozitiv münasibətlərə nail olunması üçün onun imicinin formalaşdırılması və qorunması prosesinin effektivliyi ilə də şərtlənir. Lider yeni ideyalar yaratmaq, personalın təlimini təmin etmək, kadrların hazırlığı və yenidən hazırlığı proqramları və kurslarının effektiv qiymətləndirilməsini həyata keçirmək, rəhbərlik etdiyi fəaliyyət sahəsinin strateji inkişafına yönəldilmiş praktik tövsiyələr və fəaliyyət planlarını işləyib hazırlamaq qabiliyyətinə malik olmalıdır. İdarəetmə mədəniyyətində liderin informasiya mədəniyyəti, onun müasir informasiya texnologiyalarından effektiv istifadə etmək qabiliyyəti böyük rol oynayır.

Lider münaqişələri idarə etmək qabiliyyətinə malik olmalıdır. Uinston Çörçill təşkilatdakı mühiti hava ilə müqayisə edirdi: belə ki, soyuq havada insanlar soyuqlaya və xəstələnə, hətta sətəlcəmdən ölə də bilərlər. İnsanın həyatında çox vaxt şəxsiyyətin xarakter xüsusiyyətləri və sosial borc hissi ilə şərtlənən şəxiyyətin və cəmiyyətin maraqları arasında toqquşma, və yaxud eqoizm və altruizm hisslərinin düzgün harmonizasiyasını tələb edən şəxsi və özgə maraqlar arasında toqquşma baş verir. Çox vaxt münaqişələr mənəvi mövqelərdəki ziddiyyətlərlə şərtlənir. Məsələn, insanın müxtəlif öhdəlikləri yerinə yetirməsi cəmiyyətə və ya ayrı-ayrı adamlara ziyan vura bilər. Hər hansı bir şəxsə minnətdarlıq ifadə etmək prinsipiallıq prinsipinin pozulmasına gətirib çıxara bilər.

Məlumdur ki, daha tez-tez baş verən münaqişələrin əsasını sosial ziddiyyətlər, müxtəlif vəzifələrin uyğunsuzluğu, ayrı-ayrı şəxslərin düşünülməmiş hərəkətləri və ya təsadüfi vəziyyətlərlə şərtlənən, müxtəlif dəyərlər və normaların toqquşması təşkil edir.

Düzgün mənəvi seçimdə ən yaxşı arbitr, insanın xeyir və şər haqqındakı təsəvvürləri, onun daxili əqidəsi ilə bağlı olan vicdanıdır. Mədəniyyətlərin harmonizasiyasına neqativ təsir göstərən keyfiyyət, insanın xarakteri, onun tərbiyəsi və ruhi mədəniyyətində olan nöqsanlarla şərtlənən paxıllıqdır. Paxıllıq - başqa bir insanın uğurlarına, şöhrətinə, intellektual və mənəvi üstünlüyünə və yaxud üstün mövqeyinə qərəzli-düşmənçilik hissidir. Paxıllıq hissi onun daşıyıcısında nəinki digər insanın uğursuzluğa, bədbəxtliyə düçar olması, ətrafdakılar qarşısında özünü hörmətdən salması istəyini doğurur, həm də insanı əxlaq qaydalarına zidd hərəkətlər, cinayətlər və hətta ölüm hadisəsi törətməyə təhrik edir.

Alicənablıq və düzgün həyat mövqeyinə, pozitiv enerjiyə malik mədəni insanlar paxıllıq hissindən uzaq olurlar, lakin cəmiyyətdə və siyasətdə baş verən sosial ədalətprinsiplərinin pozulması xüsusunda böyük narazılıq hissi keçirə bilərlər. Buna görə də liderlik mədəniyyətinin mühüm göstəricilərindən biri - praktikada ədalətlilik prinsipinə sədaqət və kollektivdə favoritizmə yol verilməməsidir. Kollektivin səmərəli fəaliyyətinə və münaqişələrin qarşısının alınmasına kollektiv üzvlərinin fəaliyyətinin lider tərəfindən düzgün stimullaşdırılması böyük təsir göstərir. Bu onunla şərtlənir ki, stimullaşdırma insanların fəaliyyətinin məqsədyönlülüyünü və rasionallığını formalaşdırır və tənzimləyir. O, insanın şüuruna, davranışına və fəaliyyətinə, şəxsiyyətin motivləri və istiqamətinə güclü psixoloji təsir vasitəsi rolunu oynayır, insanın həyat fəaliyyətinin resurs imkanlarının fəallaşmasına imkan yaradır. Stimullaşdırma, həmçinin dəyərlərin yenidən qiymətləndirilməsinə, insanların maraqları, tələbatları və məqsədlərinin korrektə edilməsinə təsir göstərir. Liderin idarəetmə funksiyası və üslubu Yüksək idarəetmə mədəniyyəti iddiasında olan lider: O Kollektiv qarşısında vəzifəni düzgün qoymalı, onu ruh yüksəkliyi ilə izah etməli və onun haqqında daim xatırlatmalıdır.

Vəzifənin mahiyyəti və məqsədə nail olma texnologiyası barədə əməkdaşları təlimatlandırmalıdır. İşin bütün hissəsini, müddətini, əməkdaşların öhdəlikləri və məsuliyyətini əhatə edən konstruktiv plan işləyib hazırlamalıdır. O Hər bir işçi üçün konkret məqsədlər müəyyənləşdirməli və hər kvartalda onun uğurlarını və nöqsanlarını müzakirə etməlidir. Qoyulmuş qayda və prosedurları müdafiə etməli, nizam-intizamın qorunmasına tələbkarlığı və şəxsi nümunəsi ilə imkan yaratmalıdır. Qərarların qəbul edilməsini həvalə etməli, insanlarla məsləhətləşməlidir. O Kollektivin hər bir üzvünün işinin dəyərinin başa düşüldüyünü ifadə etməli, öz qərarlarının həyata keçirilməsində insanlara yardım etmək üçün onları izah etməlidir; hər ay işlərin vəziyyəti və siyasət haqqında insanları məlumatlandırmalıdır.

Məsələnin effektiv həlli maraqlarını nəzərə alaraq, yaradıcı və sosial fəallığı təşviq etməli, düzgün fikirləri, məramları, əqidələri və əməlləri dəstəkləməlidir. İdarəetmə mədəniyyəti İşin ümumi monitorinqini

keçirməli, müntəzəm olaraq əməkdaşlarla yerlərdə görüşməli, müşahidə etməli, onların mülahizələri və istəklərini dinləməli, onların vicdanlı əməyini təşviq etməlidir. O Kollektiv üzvlərinin rifahı üçün qayğı göstərməli, onların əmək şəraitini yaxşılaşdırmalı, həyati problemlərinin həllinə yardım etməlidir. İnsanların, xüsusilə, 25 yaşınadək gənclərin təlimi və tərbiyəsi vasitəsilə onların şəxsi inkişafına imkan yaratmalıdır. Liderin idarəetmə üslubu, insanın xətti kimi, təbii olaraq formalaşır və şəxsiyyəti xarakterizə edir. O, sabit kəmiyyətdir, eyni zamanda qərarların qəbul edilmə üsulu kimi dəyişə bilər. Şəxsiyyət üçün xarakterik liderlik üslubu - avtokratik, demokratik, konsultativ (daxili işlərə qarışmama prinsipi) ola bilər. Situasiyadan və zaman amilindən asılı olaraq, lider düzgün idarəetmə üslubu seçimi etməyi bacarmalıdır: rolların və vəzifələrin bölünməsindən təkbaşına qərar qəbul edilməsinə qədər. Məsələn, insanların həyat və ya ölüm məsələsi duran böhranlı vəziyyətlərdə (orduda, mülki aviasiyada, FHN-nin fəaliyyətində və s.) lider qərarları müstəqil və tez qəbul etməlidir, təlimləndirilmiş kollektiv isə - liderin komandalarını tez və danışıqsız yerinə yetirməlidir.

İdarəetmə təcrübəsi göstərir ki, liderin xarakterini və ya onun idarəetmə üslubunu dəyişmək, onun vəzifəsini yaxud səlahiyyətini dəyişməkdən çətindir. Bu səbəbdən burada liderin şəxsiyyəti, onun şəxsi mədəniyyət səviyyəsi - biliyi, bacarığı, mütəşəkkilliyi, mənəviyyatı və yaradıcı fəaliyyəti həlledicidir. Con Adairin fikrincə, lider kimi doğulmurlar, inkişaf prosesində lider olurlar. Bunun üçün nə lazımdır? Fikrimizcə, ümumiyyətlə mədəniyyət kimi, xüsusi təhsil və tərbiyə vasitəsilə formalaşan - liderlik mədəniyyəti. Liderin keyfiyyətlərinə qoyulan tələblər Liderin keyfiyyətlərinə bir çox yanaşmalar mövcuddur. Xarakterlər nəzəriyyəsinə görə, uğurlu liderin 15 xarakteristikası mövcuddur: mühakiməlilik, təşəbbüs, öncəgörmə, enerji, inad, insanlarla rəftar etmək bacarığı, qətiyyət, etibarlılıq, emosional sabitlik, düzlük, iddialılıq, həvəs, obyektivlik, əməkdaşlıq, cəsarət. Liderin statusu onun ruhi mədəniyyəti - biliyi və bacarığı, peşəkar təcrübəsi və məsuliyyəti ilə müəyyən edilir. Özünə inamı olan etibarlı lider - kollektivin təhlükəsizlik hissidir. Yaxşı lider tələbkarlıq və qayğı prinsiplərini birləşdirərək, effektiv idarəetməyə yardım edən, işin və əməyə görə ədalətli mükafatlandırma sisteminin yaxşı təşkil edilməsi qayğısına qalmalıdır. Lideri yeniliklər uğrunda və “insanın qəlbi” uğrunda daimi mübarizə fərqləndirməlidir. Con Adairə görə, lider: vəzifələrin qoyuluşu və həllində - təşəbbüs və inad, personalın idarə edilməsində - bütövlük və yumor, fərdlərlə qarşılıqlı münasibətdə - nəzakət və mərhəmət göstərməlidir. Yaxşı liderin malik olduğu əsas keyfiyyətlər: effektivlik, əməksevərlik, cəsarət, düzlük, özünə inam, ədalətlilik, ruhi qüvvə, ardıcıllıq, alicənablıq və şəfqətdir. Effektivlik - minimal qüvvə ilə maksimal nəticələrə nail olmaqdır. Əməksevərlik - qüvvələr və inadla çalışmaq istəyidir. Cəsarətlilik - riskə, bəzən böyük riskə getməyə hazır olmaqdır. Düzlük - istənilən növ yalan, aldatma, saxtakarlıqdan imtinadır. Özünə inamlılıq - öz qüvvələri və imkanlarına əminlikdir. Ədalətlilik - ədalətli, yanlış rəylərə əsaslanmayan və dürüst olmaq qabiliyyətidir. Ruhi qüvvə - çətin situasiyada dözümlülük və iradədir. Ardıcıllıq - möhkəmlik və öz prinsiplərinə sadiqlikdir. Alicənablıq və şəfqət - fədakarlıq və düzlüklə birləşən yüksək mənəviyyat, başqalarına qarşı mərhəmət hissidir.

Robin Şarmanın aşağıdakıları nəzərdə tutan liderlik mədəniyyəti prinsipləri müəyyən maraq doğurur: məvacibi ləyaqətli və alicənab məqsəddən ayırmama; ağılla idarə etmə, qəlbə əsaslanma; daimi mükafatlandırma, xidmətlərin qiymətləndirilməsi; dəyişikliklərə qarşı çıxmama; dəyərli olanın üzərində diqqəti cəmləşdirmə; özünü idarə etmək bacarığı; heç kimin görmədiyini görə bilmək bacarığı; liderliyin irslə birləşdirilməsi. Liderin şərtsiz yaxşı cəhətləri - görkəmli nailiyyətlərə və böyük qələbələrə yol açan ağlı, inadlı əməyi və həvəsidir. Onun mühüm keyfiyyətlərindən biri sağlam düşüncə, analoji problemlə məşğul olan digərlərinin görə bilmədiyini görə bilmək bacarığıdır. Uinston Çörçill mərdliyi bütün qalan əsas keyfiyyətlərin zamini hesab edirdi. Ruhi qüvvə və sadəlik də mühüm əhəmiyyətə malikdir. Lakin yadda saxlamaq lazımdır ki, həddən artıq sadəlik lider üçün zərərlidir, belə ki, o, lideri qətilikdən məhrum edir. Uğurlu liderin xarakteristika göstəriciləri sırasına ardıcıllığı, çevikliyi və ruh yüksəkliyini də aid edirlər. Liderin ruh yüksəkliyi kollektivdə öz işinə sadiqliyi formalaşdırır, komanda ruhunu tərbiyə edir və insanları ruhlandırır. Başqa sözlə, həqiqi lider - yüksəkpeşəkarlığı və yüksək etikanı, ağılı və düşüncəni, yaxşı təhsil və zəngin təcrübəni, dürüstlük və etibarlılıq, iradə, mərdlik və özünə güvənmə, kollektivin əhval-ruhiyyəsini və öz hisslərini idarə etmək bacarığı kimi keyfiyyətləri özündə birləşdirən nümunə olmalıdır.

Təfəkkürünün çevikliyi və itiliyi, reaksiyası, mənimsəmə sürəti, yaranmış vəziyyətdə nə etmək lazım olduğunu dərhal dərk etmə bacarığı, hadisələri və inkişaf imkanlarını qabaqlayıcı görmə qabiliyyəti liderin müvəffəqiyyəti üçün mühüm əhəmiyyətə malikdir. Liderin maraqları, meylləri və temperamentinin adətən, onun qəbul etdiyi qərarlara böyük təsir göstərdiyini hesab etmək qəbul edilmişdir. İdarəetmə mədəniyyəti şikliklərə operativ reaksiya verməlidir. Bu ondan yalnız məlum ruhi qüvvə deyil, həm də peşə biliklərinin səviyyəsinin daim artırılmasını, praktik bacarıqların və idarəetmə texnologiyalarının təkmilləşdirilməsini, insanlarla işləmək və onları öz arxasınca apara bilmək bacarığını tələb edir. İntellekti, istedadı və peşəkarlıq səriştəliliyindən asılı olmayaraq liderin insani, mənəvi keyfiyyətlərinin toplusunu təmsil edən xarakteri, idarəetmə üçün çox mühüm əhəmiyyət kəsb edir. Liderin pozitiv xarakteri təmənnasızlığı və sadəliyi, məsuliyyəti öz üzərinə götürmək və öz səhvlərini etiraf etmək qabiliyyətini, mərdlik və mərhəməti, düzlük və səmimiyyəti, insanların etibarını qazanmaq və doğrultmaq bacarığını nəzərdə tutur.

Lider öndə getməli, kollektivə pozitiv təsir göstərməlidir və öz həyat fəaliyyətinin şəxsi nümunəsi ilə, sözü ilə əməlinin bütövlüyü, şəxsi maraqlarını ümumi işə tabe etməsi, əməkdaşlıq mühitini formalaşdırması, əməkdə fədakarlığı, əməkdaşlarının problemlərinə şərik olması və onlara qayğı göstərməsi ilə insanların hörmətini və etibarını qazanmalıdır. Lider kollektivdə ruhi mədəniyyətin mahiyyəti və qeyri-məhdud imkanları, dünyagörüşü və həyati dəyərlər haqqında təsəvvürlərin düzgün dərk edilməsini formalaşdırmalıdır. Yaxşı lider insanların maraqları və mənəvi prinsipləri arasında olan ziddiyyətləri aradan qaldırmağı bacarmalıdır. Dürüstlüyün yoxlanılması düzgünlük tələbinin şəxsi maraqlarla ziddiyyət təşkil etdiyi zaman baş verir. Yadda saxlamaq lazımdır ki, vəzifə və hakimiyyət hörmətə adekvat deyil. Bu yalnız öz idarəçilik qabiliyyətlərini göstərmək, işdə yaxşı nəticələr əldə etmək, insanların məhəbbəti və hörmətini qazanmaq şansıdır.

Liderlik mədəniyyətinə pozitiv təsir göstərən mühüm komponentlərdən biri sağlam həyat tərzidir - əlverişli gün rejimi, düzgün qidalanma və yuxu, fiziki məşqlər, öz şüurunun idarə edilməsi, sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün təbii-coğrafi şəraitdən istifadə etmək. Liderin peşəkarlıq etikası və məsuliyyət mədəniyyəti Liderin peşəkarlıq etikası universal xarakter daşıyır. Bütövlükdə o, mahiyyət etibarilə, rəhbərin peşəkarlıq etikasına uyğundur, lakin siyasətçilər, məmurlar, dövlət qulluqçuları, ictimai təşkilatlar və bələdiyyə sədrləri, biznesmenlər və menecerlər üçün öz xüsusiyyətlərinə malikdir. O, qanunlara riayət olunmasını, kollektivin maraqlarına və vətənin milli maraqlarına xidmət etməyi, təşkilatın və dövlətin nüfuzunun möhkəmləndirilməsini, sosial tərəqqinin, kollektivin və ya ölkə vətəndaşlarının həyat keyfiyyəti və təhlükəsizliyinin təmin edilməsini də nəzərdə tutur. O, rəhbərin qəbul etdiyi qərarın əsasını təşkil edən hadisələr, proseslər, faktlar və insanlar haqqında təqdim edilən informasiyanın obyektivliyinə, həmçinin düzgün interpretasiyasına görə, eynilə qəbul edilən qərarların sosial nəticələrinə bərabər məsuliyyət tələb edir. Liderin peşəkarlıq etikası əməkdaşların fəaliyyətinin, "üfqi" və "şaquli" xidməti əlaqələrin, müxtəlif strukturlar, bölmələr və ayrı-ayrı işçilər, rəhbərlər və tabeçilikdə olanlar, müxtəlif dərəcə və ixtisas nümayəndələri ilə qarşılıqlı fəaliyyətin tənzimlənməsini təmin edən mənəvi münasibətləri də daxil edir.

Mənəvi ölçüdə liderin peşəkarlıq etikası: öz səhvlərinin etirafını; kollektivin nailiyyətlərinə görə qürur hissininin açıq ifadəsini; əməkdaşların rəyinə marağı; əməkdaşlarla ünsiyyətdə nəzakəti ("buyurun"); minnətdarlığın şifahi şəkildə ifadəsini ("təşəkkür edirəm"); nailiyyətlərin və uğurların bütün kollektivin xidmətlərinə aid edilməsini ("biz"); öz xidmətləri haqqında susmağı ("mən") nəzərdə tutur. Kollektiv daxilində fərdi münasibətlərin formalaşdırılmasında, müxtəlif mədəniyyətlər və xarakterlərin qarşılıqlı harmonik təsirinin təmin edilməsində liderin ümumi mədəniyyəti ilə şərtlənən məsuliyyət mədəniyyəti mühüm rol oynayır. Məsuliyyətli lider öz düşüncələrini, əməllərini və işlərini şüurunun nəzarəti altına alır. Liderin məsuliyyət mədəniyyəti əməkdaşlar üçün layiqli nümunə və kollektivdə əməkdaşların davranışını və fəaliyyətini tənzimləyən yaxşı etik və hüquqi qarşılıqlı münasibətləri saxlamaq imkanını verir. Liderin məsuliyyəti, həm etika, borc hissi və digər insanlara qarşı münasibətdə öhdəlik tələbləri ilə şərtlənən özünü qiymətləndirmə əsasında, həm də etik mədəniyyət prinsipləri və meyarları və liderin peşəkarlıq fəaliyyətinin nəticələri əsasında formalaşır. Əməkdaşların məsuliyyətinin mühüm formalaşdırılma amili, lider tərəfindən onların fəaliyyətinin maddi və mənəvi stimullaşdırılmasıdır.

Kollektivdə mühitə pozitiv və neqativ insan keyfiyyətləri böyük təsir göstərir. Pozitiv keyfiyyətlərə aiddir: alicənablıq, saflıq, səmimiyyət, mərhəmət, vicdanlı əmək, yaradıcılıq, mərdlik, sədaqət, yaxşılıq,

qayğı, məsuliyyət, həmrəylik, altruizm, məhəbbət, dostluq, şəxsiyyətə hörmət, etibar, anlaşma, inam, dəstəkləmə, təmkin, böyüklərə hörmət. Neqativ keyfiyyətlərə aiddir: ədalətsizlik, ikiüzlülük, aldatma, məkr, nankorluq, satqınlıq, qeybət, zorakılıq, tənbəllik, mütilik, eqoizm, konformizm, yaltaqlıq, şəxsiyyətin qiymətləndirilməməsi, ədəbsizlik, riyakarlıq, ikili əxlaq, favoritizm, despotizm, süründürməçilik, monopolizm, korrupsiya, laqeydlik, anlamama.

Deyl Karneqi tərəfindən doqquz qayda ifadə edilmişdir ki, liderin onlara riayət etməsi, insanları təhqir etmədən və incitmədən, onlara təsir etməyə imkan verir: 1-ci qayda. Müsahibinizin tərifindən və onun ləyaqətlərinin səmimi etirafından başlayın. 2-ci qayda. Başqalarının səhvlərni birbaşa deyil, dolayısı ilə göstərin. 3-cü qayda. Əvvəl öz səhvləriniz haqqında danışın, sonra isə artıq müsahibinizi tənqid edin. 4-cü qayda. Müsahibinizə əmr vermək əvəzinə, ona suallar verin. 5-ci qayda. İnsanlara öz nüfuzunu xilas etməyə imkan verin. 6-cı qayda. İnsanlara ən kiçik uğuruna görə təqdirinizi bildirin və onların hər bir müvəffəqiyyətini qeyd edin. "Öz qiymətləndirmənizdə açıqürəkli və tərifinizdə səxavətli" olun. 7-ci qayda. İnsanlar üçün onların doğrultmağa çalışacaqları yaxşı reputasiya yaradın. 8-ci qayda. Həvəsləndirməyə əl atın. Düzəldilməsini görmək istədiyiniz səhvin asan düzələ biləcəyi təəssüratını yaradın; elə edin ki, sizin insanları təhrik etdiyiniz iş onlara asan gəlsin. 9-cu qayda. İnsanların təklif etdiyiniz işi yerinə yetirməyə şad olmalarına müvəffəq olun.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Əhməd Qəşəmoğlu. Sosial idarəetmənin fəlsəfi, sosioloji problemləri. Ahəng yol elminə giriş. Bakı, 2008.
2. R.Ə. Əliyev. Avtomatik idarəetmə nəzəriyyəsi. Bakı, 2008.
3. Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modelinin axtarışı. Bakı, 2004.
4. Abraham Maslow.Motivation and Personality.N.Y.1987
5. Benedict.R. Pattens of Culture. Boston.N.Y.1934

# THE SYNTHESIS OF NOVEL IMIDAZOLE AND PYRIMIDINE DERIVATIVES

**Babayeva Sona N., Mamedov I.G.**
***Baku State University***
***Babasoy.93@gmail.com***

**Key Words:** Chalcone, heterocyclic compound, imidazole, pyrimidine.
**Açar Sözlər:** Xalkon, heterotsiklik birləşmə, imidazol, pirimidin.
**Ключевые Слова:** Халкон, гетероциклические соединения, имидазол, пиримидин.

Due to their pharmaceutical properties, the synthesis of new heterocyclic systems is the focus of modern chemical sciences. One of the important obtaining methods of heterocyclic compounds is the synthesis based on acetophenone derivatives. Since the difference in their functionality, these compounds reveal biological activities [1-3].

The reported work is devoted to the synthesis of imidazole and pyrimidine derivatives on the basis of two chalcones.


1


2


3

The structures of (*E*)-2-(2-amino-6-styrylpyrimidin-4-4-yl) phenol (1), 4-(4-bromophenyl)-6-(thiophen-2-yl)-5,6-dihydropyrimidin-2(1H)-imine (2) and 2-amino-5-benzyl-5-(4-bromophenyl)-3,5-dihydro-4*H*-imidazol-4-one (3) were confirmed in the basis of NMR spectral data.

## REFERENCES

1. I.Toledo, T.A. Grigolo, J.M. Bennet, J.M. Elkins, R.A. Pilli, 2019, 84 (21), The Journal of Organic Chemistry, p. 1487.
2. C.X. Wei, M. Bian, G.H. Gong, Molecules 2015, 20, p. 2074.
3. N. Kerru, L. Gummidi, S. Maddila, K.K. Gangu, S.B. Jonnalagadda, Molecules 2020, 25, p. 1909.

## ACTUALITY OF FORMATION OF SCIENTIFIC-BIOLOGICAL VIEW IN ACCORDANCE WİTH THE MODERN PERIOD

**Babayeva Zarovshan Yashar**
***Associate professor of Nakhchivan State University***
***zarifbabayeva@gmail.com***

The generalized system of views and beliefs that reflect the basic forms of social consciousness, the attitude of the individual to the surrounding reality, or the worldview of man as a system of views on the world as a whole, nature, social life, human thought determines the role of the individual in society. Their worldviews are scientific and unscientific, revolutionary and reactionary. It is not enough to teach the basics of science in order to form a worldview in the teaching of biology: 1. To teach the basics of science theoretically and practically and to develop cognitive abilities; 2. The use of the laws of nature in the interests of society, the formation of materialist views, the acquisition of specialists in accordance with modern standards of public life in the New World Order is one of the needs of the XXI century.
In order to form a worldview and impart fundamental knowledge, theory and practice must be combined, dialectical categories in the development of the organic world, evolutionary teaching, cell, genetics and selection teaching: adaptation to new living conditions, the ability to spread to different areas, opportunities and realities, etc. should be taught in the system, benefit from innovations.

## İSTİLİK ELEKTRİK STANSİYALARINDAN ATILAN TÜSTÜ QAZALARINDAN KÜKÜRD-DİOKSİDİN "YAŞ" ÜSULLA TƏMİZLƏNMƏSİ

**Balabəyova Ziba Abbas qızı, Baxışlı Züleyxa Əfqan qızı, Əhmədova Məleykə Nizami qızı, Sarıyeva Leyla Pərviz qızı, Yaqubova Nailə Rövşən qızı**
***Azərbaycan Texniki Universitetu***

Atmosferin antropogen yolla kükürd-dioksidlə çirklənməsi mənbələri sənaye müəssisələri və mazutla işləyən istilik elektrik stansiyalarıdır. Tüstü tullantılarından kükürd dioksidi çıxarmaq üçün

mövcud üsulları müqayisə edərək, ilk növbədə, qaz təmizləyici qurğulara olan tələbləri nəzərə almaq lazımdır ki, bu da sonda müəyyən bir üsulun seçilməsini müəyyən etməlidir. Üsullara qoyulan tələblər aşağıdakılardır :

• təmizləmə üsulu əsas məhsulun istehsalının maya dəyərini əhəmiyyətli dərəcədə artırmamalı və böyük sahələr tələb etməməlidir;
• tullantı qazlarının təmizlənməsi üçün lazım olan reagentlər bahalı və az olmamalıdır;
• qaz təmizləyici qurğunun əsas istehsal prosesində rejimlərin mümkün dəyişmələrinə münasibətdə çevik olması;
• avadanlığın korroziyasını minimuma endirmək lazımdır;
• üsul mövcud istehsal avadanlığının əsaslı təmirini tələb etməməlidir;
• qurğudan buraxılan qazlar minimum miqdarda kükürd dioksidini ehtiva etməli və onların temperaturu atmosferdə yaxşı dispersiyanı təmin etmək üçün kifayət qədər yüksək olmalıdır.

Tüstü qazlarından kükürd qazının çıxarılmasının bu və ya digər üsulunun tətbiqi həm də qazın özünün xüsusiyyətlərindən: temperaturdan, rütubətdən və xüsusilə $SO_2$-nin tərkibindən asılıdır. Əgər qazda $SO_2$-nin həcm payı 4%-dən çox olarsa, o zaman belə qazı məlum üsullarla sulfat turşusuna çevirmək olar (95). Daha çox seyreltilmiş qazların işlənməsi xüsusi texnika tələb edir. İşlənmiş qazlarda kükürd dioksidin aşağı, eləcə də dəyişkən konsentrasiyası bu cür qazların təmizlənməsi probleminin həllini çətinləşdirən mühüm amildir. İstehsal şəraitində təklif edilən və sınaqdan keçirilmiş çoxlu sayda üsullara baxmayaraq, əksər müəssisələrdə kükürd dioksidin tam tutulması problemi hələ də həll olunmamışdır. Bu, tullantı qazlarının $SO_2$-dən təmizlənməsinin bütün mövcud üsullarının kifayət qədər bahalı olması ilə izah olunur. Bundan əlavə, xərclər təmizlənmiş qazda $SO_2$ konsentrasiyasının azalması ilə demək olar ki, mütənasib olaraq artır [1]. Buna görə də, bu və ya digər təmizləmə üsulunu seçərkən, kükürd qazının tutulması və istifadəsi üsullarının iqtisadiyyatına böyük diqqət yetirmək lazımdır.

Tüstü qazlarının təmizalənməsinin "yaş" üsulu ən çox öyrənilmiş və iqtisadi cəhətdən əsaslandırılmış kimi tanınır. Bu üsul baca qazlarının sulu məhlullarla və ya kükürd oksidləri ilə kimyəvi qarşılıqlı əlaqədə olan və ya onları fiziki olaraq udan maddələrin süspansiyonları ilə təmasda olmasına əsaslanır.

Absorbsion təmizlənməyə həsr olunmuş bir çox tədqiqatlar arasında kükürd dioksidi ilə qarşılıqlı təsir mexanizmi baxımından su və qələvilərin absorbent kimi istifadə olunduğu əsərlər daha çox maraq doğurur. Sulfit - bisulfit məhlulları, maqnezium, ammonyak və əhəng kimi digər absorberlər sənayedə geniş istifadə olunur və praktiki baxımdan maraqlıdır.

Baca qazlarından $SO_2$-nin su ilə udulmasını nəzərə alaraq onu da qeyd etmək lazımdır ki, suyun özü ən ucuz və əlçatan uduculardan biridir. Kükürd dioksidi suda həll edildikdə, əvvəlcə sulu məhlulda ionlara parçalanan kükürd turşusu əmələ gəlir. Beləliklə, məhlulda udulmuş kükürd dioksid həm dəyişməmiş vəziyyətdə, həm də dissosiasiya olunmamış kükürd turşusu və və ionları şəklində mövcuddur.

Nəzəri olaraq, təzə qazın kükürd dioksidi ilə dolu su ilə qarşılaşdığı və işlənmiş qazın şirin su ilə təmasda olduğu əks cərəyan udma aparatında, kükürd oksidinin təmiz su üzərində qismən təzyiqi olduğundan, istənilən qazdan istənilən təmizlənmə dərəcəsinə qədər $SO_2$ çıxarmaq mümkündür. Bununla belə, qazın su ilə təmizlənməsi $SO_2$-nin aşağı həll olması səbəbindən çox miqdarda su sərf etdiyinə görə geniş tətbiq tapmamışdır. Məlumdur ki, suyun temperaturu təxminən 50°S olduqda, tərkibində $SO_2$-nin 1% olan 1 $m^3$ qazın yuyulması üçün təxminən 100 litr su tələb olunur [2], daha az $SO_2$ konsentrasiyasında sərf olunan suyun miqdarı azalır, lakin bu azalma əhəmiyyətsizdir. Bu səbəblərə görə, ucuz soyuq qələvi məhlulu mənbələri, eləcə də turşulaşmış suyun axıdılmasına icazə verilən su obyektləri olduqda sadə suyun yuyulması nadir hallarda istifadə olunur. Əgər tullantı suları üçün anbar yoxdursa, o zaman tullantı suları zərərsizləşdirilməlidir. Bu səbəblərdən qələvi reaksiyaya malik su istisna olmaqla, çay suyundan qazların $SO_2$-dən yaş təmizlənməsi üçün istifadə oluna bilməz. Qələviliyini artırmaq üçün suya təbaşir tozu əlavə etmək və sulfiti sulfata oksidləşdirmək üçün tullantı suya bir qədər maqnezium sulfat və hava əlavə etməkdir. $SO_2$-dən qazın təmizlənməsində dəniz suyundan absorbent kimi istifadə etməyə cəhdlər edilmişdir [3].

Kükürd dioksidin qələvi ilə qarşılıqlı təsir mexanizmini nəzərdən keçirsək müşahidə edərik ki, tərkibində $SO_2$ olan qazları qələvilərin sulu məhlulları ilə yuyarkən, prosesin əvvəlində kükürd dioksidi su ilə qarşılıqlı əlaqədə olur, kükürd turşusu əmələ gətirir, sonra isə qismən ionlara parçalanır. Hidrogen ionu məhlulda mövcud olan qələvi ilə bağlanır. Bu, kükürd turşusunun dissosiasiya tarazlığını ionların əmələ

gəlməsinə doğru dəyişdirir və son nəticədə məhlulda fiziki olaraq həll olunmuş $SO_2$-nin tərkibinin azalmasına səbəb olur. Əvvəlcə $SO_2$ artıq qələvi daxil olduqda sulfit ionu, $SO_2$-nin daha da udulması ilə hidrosulfit ionu əmələ gəlir. Təmizlənmənin yüksək dərəcəsinə (98%-ə qədər) baxmayaraq, “yaş” üsulları perspektivli kimi qəbul edilə bilməz, çünki bu metodun xarakterik olan əsas çatışmazlıqları - bahalı bir absorberin böyük istehlakı, eləcə də su itkisinin çox olmasıdır.

Su və qələvidən fərqli olaraq, tərkibində qələvi və qələvi torpaq metallarının sulfit və hidrosulfit qarışığı olan məhlullar $SO_2$-dən qazın təmizlənməsi üçün absorbent kimi nisbətən geniş istifadəni tapmışdır. Fakt budur ki, qələvidən fərqli olaraq, sulfit-hidrosulfit absorbentləri bərpa oluna bilər və təmizlənmə dövri olaraq həyata keçirilə bilər. Bu cür məhlullardan istifadə edən bütün üsullarda $SO_2$ udma mexanizmi qələvi absorbentlərdən istifadə edərkən olduğu kimidir. Yeganə fərq ondadır ki, OH- ionlarının tədarükçüsü qələvi dissosiasiya deyil, qələvi və ya qələvi torpaq metal duzunun və zəif kükürdlü turşunun hidrolizidir. Sorbsiya prosesi nəticəsində absorbentdə hidrosulfit əmələ gəlir. Əgər təmizlənmiş qazda oksigen varsa, o zaman hidrosulfit ionu regenerasiya olunmayan sulfata oksidləşir. Sonuncu arzuolunmazdır, çünki bu, həllin aktiv komponentinin həddindən artıq xərclənməsinə səbəb olur.

Sulfit-hidrosulfit üsulunun üstünlükləri: təmizlənmənin yüksək dərəcəsi, təmizləyici qurğuların sadəliyi və etibarlılığı. Onun çatışmazlıqları, eləcə də hər hansı digər "yaş" kimi, təmizlənmiş qazların 40-60°S-ə qədər soyudulması ilə müşayiət olunan su buxarı ilə doyması daxildir. Qaz atmosferə buraxıldıqdan sonra buxar kondensasiya olunur və qazın istilik qaldırıcılığı azalır. Digər çatışmazlıq isə təmizlənmə prosesində əldə edilən məhsulların heç də həmişə tətbiq tapmamasıdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Q.Məmmədov, M.Xəlilov. EKOLOGİYA, ƏTRAF MÜHİT VƏ İNSAN. BAKI, «ELM» – 2006
2. А.С.Носков, З.П.Пай . Технологические методы защиты атмосферы от вредных выбросов на предприятиях энергетики. Новосибирск, 2016
3. Разва А.С. “Природоохранные технологии в промышленной теплоэнергетике”, Томск 2018


# SÜNİ İNTELLEKTİN İNKİŞAFINDA LÜTFİ ZADƏ NƏZƏRİYYƏSİNİN ROLU


**Babayev Aydin Anar oğlu**
***Bakı Mühəndislik Universiteti***
***dos. Lalə Rəhman qızı Əliyeva***



**Açar sözlər:** Süni intellekt, qeyri-səlis məntiq, çoxluqlar nəzəriyyəsi
**Ключевые слова:** Искусственный интеллект, нечеткая логика, теория множеств
**Key words:** Artificial intelligence, fuzzy logic, set theory


Süni intellektin tarixi antik dövrdən, usta sənətkarların zəkası və ya şüuru ilə bəxş olunan süni varlıqların mifləri, hekayələri, təxəyyülləri və şayiələri ilə başladı. Müasir süni intellektin toxumları insan düşüncə prosesini simvolların mexaniki manipulyasiyası kimi təsvir etməyə çalışan klassik filosoflar tərəfindən əkilmişdir.

Müasir süni intellektin yaranması 1943-1956-cı illərə təsadüf edir. Beləki, süni intellekt akademik bir intizam olaraq 1956-cı ildə qurulmuşdur və sonrakı illərində bir neçə nikbin dalğa yaşamışdır. Amma buna baxmayaraq yeni yanaşmalar, uğurlar, həmçinin yeniləşmiş maliyyələşdirmə inkişafına təkan olub.

Süni intellektin inkişafı bir neçə mərhələlərdən ibarətdir. 1960-cı illərin ortalarında süni intellektin inkişafının 2-ci mərhələsi sayılan “Qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq” ideyaları meydana çıxdı. Beləki, 1965-ci ildə Lütfi Zadənin “Qeyri-səlis çoxluqlar” və 1969-cu ildə “Qeyri-səlis alqoritmlər” və “Sözlərin köməyi ilə hesablamalar” adlı elmi işləri çap edildi. Böyük tarixi əhəmiyyətə malik bu iş bütün dünyada rezonansa səbəb olur, elmdə yeni bir istiqamətə təkan verir. Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyy ətini Lütfi Zadə belə açıqlayıb:

"Qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin əsas mahiyyəti odur ki, mütləq heç nə yoxdur. Hər şeyi riyazi dillə desək 0-1 şkalasında müəyyən həddə dəyişir".

Dövrümüzdə süni intellektin inkişafı sürətlə gedir. İndi yaradılan süni intellekt sistemləri üzün və insan səsinin tanınmasını belə həyata keçirir. Hətta Almaniyada Passan Universitetində mürəkkəb intellektual sistemlər kafedrasının rəhbəri Born Şullerin fikrincə, süni intellekt 10 il sonra şer belə yaza biləcək.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Balayev R.Ə., Əlizadə M.M., Musayev İ.K., İntellektual sistemlər və texnoloqiyalar, Dərs vəsaiti, Bakı – 2016,
2. Zadeh.L.A., Similarity relations and fuzzy orderings, İnform.Sci., Vol.3., 1971.


# БАНКОВСКАЯ ИНДУСТРИЯ И БЛОКЧЕЙН-ТЕХНОЛОГИИ


**Бабаев Эмиль**

***Азербайджанский Государственный Экономический Университет***

***Научный руководитель: Ульвия Рзаева***



**Açar sözlər:** bank, blockchain, bank sənayesi, Bitcoin, kredit, əmanət

**Ключевые слова:** банк, блокчейн, банковская индустрия, биткоин, кредит, депозит

**Keywords:** bank, blockchain, banking industry, bitcoin, credit, deposit


Банковское дело - это отрасль, которая занимается денежными, кредитными и другими финансовыми операциями. Банки предоставляют безопасное место для хранения дополнительных денежных средств и кредитов. Они предлагают сберегательные счета, депозитные сертификаты и текущие счета. Банки используют эти депозиты для выдачи кредитов. Эти кредиты включают ипотечные кредиты на жилье, бизнес-кредиты и автокредиты. Банковское дело является одним из ключевых факторов развития экономики. Оно обеспечивает ликвидность, необходимую семьям и предприятиям для инвестирования в будущее.

Банки могут быть отнесены к определенным категориям в зависимости от типа бизнеса, который они ведут.

Коммерческие банки предоставляют услуги частным лицам и предприятиям.

Розничные банки предоставляет кредиты, депозиты и управление денежными средствами частным лицам и семьям.

Общественные банки меньше, чем коммерческие банки и они концентрируются на местном рынке. Они предоставляют более персонализированное обслуживание и строят отношения со своими клиентами.

Интернет-банкинг предоставляет эти услуги через всемирную паутину. Этот сектор также называется электронным банкингом, онлайн-банкингом и сетевым банкингом. Большинство ныне существующих банков теперь предлагают онлайн-услуги. Часто эти банки предлагают более высокую процентную ставку вкладчикам, поскольку они собирают деньги для кредитования ипотечных кредитов. Клиенты владеют своими кредитными союзами. Такая структура собственности позволяет им предоставлять недорогие и более персонализированные услуги. Вы должны быть членом их области членства, чтобы присоединиться. Это могут быть сотрудники компаний, школ или жители географического региона.

Инвестиционные банки находит финансирование для корпораций через первичное публичное размещение акций или облигаций. Они также облегчают слияния и поглощения. Крупнейшие

инвестиционные банки США включают Bank of America, Citigroup, Goldman Sachs, J.P.Morgan Chase и Morgan Stanley.3

Современная банковская индустрия, предлагающая широкий спектр финансовых услуг, имеет относительно недавнюю историю. Однако элементы банковского дела существовали на протяжении веков. Идея обеспечения безопасного хранения богатства и предоставления кредита для облегчения торговли уходит своими корнями в раннюю практику получения депозитом предметов богатства (например, золота, скота и зерна), предоставления займов, перевода денег из одной валюты в другую и проверки монет на чистоту и вес.

Инновация банковского дела позволила повысить прибыльность (средства использовались для приобретения активов, приносящих доход, а не хранились в качестве свободных денежных резервов), но подвергла депозитный банк уникальному риску, когда позже в сочетании с требованием конвертировать депозиты в валюту по требованию по номиналу, поскольку спрос в любой конкретный момент может превышать фактические резервы.

Период с 1980 года и далее ознаменовался усилением консолидации банков, существенной потерей доли финансовой деятельности на финансовых рынках, большей концентрацией рынка и значительным размыванием традиционных различий между банками и другими финансовыми институтами. Банки все чаще стали предлагать более широкий спектр финансовых услуг во все большем числе юрисдикций. В результате банки во многих странах, где их сфера деятельности когда-то была ограничена, стали все более похожими на универсальные банки.

Банковское дело пережило период дерегулирования. Конгресс отменил Закон Гласса-Стигалла в 1999 году. Этот закон не позволил коммерческим банкам использовать сверхбезопасные депозиты для рискованных инвестиций. После его отмены границы между инвестиционными банками и коммерческими банками размылись. Некоторые коммерческие банки начали инвестировать в производные финансовые инструменты, такие как ценные бумаги, обеспеченные ипотекой. Когда они потерпели неудачу, вкладчики запаниковали.

Блокчейн - это децентрализованная, распределенная и часто общедоступная цифровая бухгалтерская книга, состоящая из записей, называемых блоками, которая используется для записи транзакций на многих компьютерах, чтобы любой задействованный блок не мог быть изменен задним числом без изменения всех последующих блоков. Это позволяет участникам проверять и проверять транзакции независимо и относительно недорого. База данных блокчейна управляется автономно с помощью одноранговой сети и распределенного сервера временных меток. Они удостоверяются массовым сотрудничеством, основанным на коллективных личных интересах. Такая конструкция облегчает надежный рабочий процесс, когда неопределенность участников в отношении безопасности данных незначительна.

Банки часто выступают в качестве посредников в мировой экономике, управляя и координируя финансовую систему через свои внутренние бухгалтерские книги. Поскольку эти бухгалтерские книги недоступны для проверки общественности, это вызывает доверие к банкам и их часто устаревшей инфраструктуре. Технология блокчейн может разрушить не только мировой валютный рынок, но и банковскую отрасль в целом, исключив этих посредников и заменив их надежной, безграничной и прозрачной системой, к которой легко получить доступ любому человеку.

Идея технологии блокчейн была описана еще в 1991 году, когда ученые-исследователи Стюарт Хабер и У. Скотт Сторнетта представили вычислительно практичное решение для цифровых документов с отметкой времени, чтобы их нельзя было подделать задним числом или подделать. Система использовала криптографически защищенную цепочку блоков для хранения документов с отметками времени. Однако эта технология осталась неиспользованной, и патент истек в 2004 году, за четыре года до появления биткойна.

В конце 2008 года белая книга, представляющая децентрализованную одноранговую систему электронных денежных средств под названием Биткойн, была опубликована в списке рассылки криптографии человеком или группой, использующей псевдоним Сатоши Накамото Основные преимущества блокчейна для банковского дела и финансов:

Безопасность: Архитектура на основе блокчейна устраняет отдельные точки сбоя и уменьшает необходимость передачи данных в руки посредников.

Прозрачность: Блокчейн стандартизирует общие процессы и создает единый общий источник истины для всех участников сети.

Доверие: Прозрачные бухгалтерские книги облегчают сотрудничество и заключение соглашений между различными сторонами.

Программируемость: Блокчейн позволяет надежно автоматизировать бизнес-процессы за счет создания и исполнения смарт-контрактов.

Конфиденциальность: Технологии конфиденциальности, поддерживаемые блокчейном, позволяют выборочно обмениваться данными между компаниями.

Производительность: Сети спроектированы таким образом, чтобы поддерживать большое количество транзакций, поддерживая взаимодействие между различными цепочками, создавая взаимосвязанную сеть блокчейнов.

Наиболее очевидным и основным использованием технологии блокчейн является ее использование в качестве платежной системы. Биткойн и другие криптовалюты действуют как цифровые деньги, а также как способ отправки платежей в этой денежной форме по всему миру. Эти транзакции требуют только подключения к Интернету и происходят мгновенно. Хотя это правда, что для подтверждения транзакции на 100% может потребоваться много минут, сама транзакция происходит в считанные мгновения. Эти транзакции не имеют границ, безопасны и в значительной степени анонимны. Кроме того, транзакционные издержки минимальны и составляют всего несколько центов за транзакцию, что делает его гораздо более дешевым способом отправки денег по всему миру, чем банковские компании, такие как Western Union (WU), или через процессоры кредитных карт, такие как Visa Inc. (V), Mastercard Inc. (MA) или Discover Financial Services (DFS). Продавец, не желающий платить первоначальные и текущие сборы за прием кредитных карт, может вместо этого принять электронный платеж с помощью криптовалюты за небольшую часть стоимости.

**ЛИТЕРАТУРА :**

1. Уолтер Бейджхот, 1873 год. “Ломбард-стрит, Описание денежного рынка” Хоумвуд, Иллинойс: Ричард Д. Ирвин, 1962.[5-7]

2. Дуглас Даймонд и Филип Дыбвиг, 1983 год. “Банковские операции, Ликвидность и Страхование вкладов. Журнал политической экономии “ [401-419].

3. Д. Путал, Н.Малик, С. П. Моханти, Э. Коугианос и Г. Дас, “Все, что вы хотели знать О блокчейне: его перспективах, Компонентах, процессах и проблемах”[6-14]

4. “(PDF) Влияние технологической платформы Блокчейн на изменение финансового сектора и других отраслей", https://www.researchgate.net/publication/324158510_Impact_of_Blockchain_Technology_Platform_in_Changing_the_Financial_Sector_and_Other_Industries. [109-110 ]

## ETİLEN OKSİDİNİN İSTEHSALI ÜÇÜN TEXNOLOJİ PROSES

**Bağirov Araz Cəmil oğlu**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***Elmi rəhbər: prof. Əbülfəz Babayev***
***arazbagirov1991@gmail.com***

**XÜLASƏ**

Etilen oksidi etilendən əldə edilən ən böyük üzvi sintez məhsullarından biridir. Etilen oksid törəmələri (qlikollar və onların efirləri, etanolaminlər, oksietillənmiş səthi aktiv maddələr) antifrizlərin,

sintetik liflərin, toxuculuqların, sintetik kauçukların və plastiklərin, partlayıcı maddələrin sintezi, neftin çıxarılması və emalı, təbii qazların təmizlənməsi və istifadəsi üçün geniş istifadə olunur. Etilen oksidin belə geniş istifadəsi, böyük miqdarda etilen oksid istehsalını tələb edir. Müasir məlumatlara görə, etilen oksid istehsalı təxminən 5 milyon tondur və istehsal miqyası artır. Buna görə də müasir kimya sənayesi qarşısında etilen oksidinin istehsalını intensivləşdirmək, məhsulun keyfiyyətini yaxşılaşdırmaq və istehsalının maya dəyərini azaltmaq üçün üsul və üsullar hazırlamaq vəzifəsi durur [1].

**Açar sözlər:** Etilen, temperatur, su, qaz, qələvi, kimya, sintetik.

## SUMMARY

Ethylene oxide is one of the largest organic synthesis products derived from ethylene. Ethylene oxide derivatives (glycols and their esters, ethanolamines, oxyethylated surfactants) are widely used for the synthesis of antifreezes, synthetic fibers, textiles, synthetic rubbers and plastics, explosives, oil extraction and refining, and the purification and use of natural gas. Such widespread use of ethylene oxide requires the production of large amounts of ethylene oxide. According to modern data, the production of ethylene oxide is about 5 million tons, and production is growing. Therefore, the modern chemical industry faces the task of developing methods and techniques to intensify the production of ethylene oxide, improve product quality and reduce the cost of production.

**Keywords:** Ethylene, temperature, water, gas, alkaline, chemistry, synthetic.

## РЕЗЮМЕ

Оксид этилена - один из крупнейших продуктов органического синтеза, получаемого из этилена. Производные окиси этилена (гликоли и их сложные эфиры, этаноламины, оксиэтилированные поверхностно-активные вещества) широко используются для синтеза антифризов, синтетических волокон, текстиля, синтетических каучуков и пластмасс, взрывчатых веществ, добычи и переработки нефти, а также очистки и использования природного газа. Такое широкое использование окиси этилена требует производства больших количеств окиси этилена. По современным данным, производство окиси этилена составляет около 5 миллионов тонн, и производство растет. Поэтому перед современной химической промышленностью стоит задача разработки методов и технологий интенсификации производства окиси этилена, повышения качества продукции и снижения себестоимости продукции.

**Ключевые слова:** Этилен, температура, вода, газ, щелочной, химия, синтетический.

Etilen oksidi ilk dəfə 1859-cu ildə Fransız kimyaçısı Adolphe Charles Würz tərəfindən əldə edilmiş və əsas xüsusiyyətlərini təsvir etmişdir. Etilen qlikol törəmələrini öyrənən Würz, etilen xlorohidrin üzərində bir kalium hidroksid məhlulu təsiri ilə etilen oksidi əldə etdi və yeni birləşmənin + 13,5° C-də qaynadığını, hər cəhətdən su ilə qarışdığını, natriumla təravətləndirici bir dad büllur birləşməsi meydana gətirdiyini təyin etmişdir. Sulfat, nitrat gümüşün sulu məhlulunu bərpa edir, lakin efir ammonyak məhlulunun təsiri altında kristal çöküntü vermir [2].

Normal temperaturda və təzyiqdə etilen oksidi qaz halındadır. Aşağı temperaturlarda etilen oksidi, xüsusi bir efir qoxusu olan yüksək dərəcədə uçucu rəngsiz bir mayedir (bp 10.7 ° C; bp - 113.3 ° C); su ilə 7 $H_2O$ molekulu olan bir hidrat meydana gətirir, (ərimə nöqtəsi 12.8 ° C). molekulyar çəkisi 44.054 g/mol-dur. Etilen oksidi hər cəhətdən su ilə qarışır və hava ilə partlayıcı qarışıqlar əmələ gətirir. Etilen oksid insektisid və bakterisid xüsusiyyətlərinə malikdir. Saf etilen oksidi elektrik cərəyanının ötürücüsü deyil, həll olunan duzlar (məsələn, sodyum xlorid və xüsusilə kalium nitrat) keçirici məhlullar əmələ gətirir. Bəzi tədqiqatçılar etilen oksidin sulu məhlullarının elektrik keçirmədiyinə inanırlar. Digər məlumatlara görə, sulu məhlulları zəif cərəyan ötürücüləridir, baxmayaraq ki tədqiqatçılar bu məhlulların elektrik keçiriciliyini ikinci dərəcəli səbəblərlə, xüsusən az miqdarda qlikolik turşunun əmələ gəlməsi ilə izah edirlər. Etilen oksidin dielektrik sabitliyi 13.9-dır.

Şəkil 1. Etilen xlorohidrin vasitəsilə davamlı bir üsulla etilen oksidinin istehsalı üçün sxem.

Şəkil 2-də davamlı bir üsulla etilen xlorohidrin vasitəsilə etilen oksidinin istehsalının texnoloji sxemini göstərilir. 3 turşuya davamlı lövhələrlə örtülmüş polad reaksiya sütununda etilen, etilen xlorohidrin meydana gətirmək üçün hipoxlorlanır. Sütun iki yanal bağlayıcı qol (yuxarı və aşağı) ilə təchiz olunmuşdur. Xlor qazı bir difüzör vasitəsilə alt çıxış hissəsinə verilir və yuxarıdan gələn suya püskürür, etilen isə altdan reaksiya sütununun əsas hissəsinə daxil edilir. Aparatın bu cihazı sayəsində reaksiya mayesi intensiv olaraq dövriyyə olunur və qarışdırılır. Xlorun hidrolizi və hipoklor turşusunun etilen ilə qarşılıqlı təsiri yaxşılaşdırılır və nəticədə dikloretan əmələ gəlmə ehtimalı azalır.

Reaksiya verən komponentlərin konsentrasiyası nə qədər az olsa, bir o qədər etilen qlikol əmələ gəlir və etilen oksidin məhsuldarlığı bir o qədər az olur. Etilen xlorohidrinin qələvi ilə işləndiyi sütuna buxar daxil edilərsə və etilen xlorohidrinin 4-6% məhlulu etilen xlorohidrin və suyun azeotrop qarışığının qaynama nöqtəsinə qədər qızdırıldığı təqdirdə daha əlverişli şərait yaranır. Bu vəziyyətdə, buxarlarda etilen xlorohidrin miqdarı 41% -ə qədər artır, lakin konsentrə edilmiş etilen xlorohidrin sütunu geri qaytaran qələvi ilə qarşılıqlı təsirə girir. İstifadə olunan qələvinin konsentrasiyası da kifayət qədər yüksək olmalıdır (40% natrium hidroksid məhlulu və ya 30% əhəng südü). Beləliklə, reaksiya həqiqətən konsentrat etilen xlorohidrin və qələvi arasında baş verir və etilen qlikol əmələ gəlməsi minimuma endirilir [3].

Ən çox reaktiv üzvi maddələrdən biri olan etilen oksidi, kimya sənayesində etilen qlikol, polietilen qlikol, etanol, formaldehid və bir çox digər böyük tonajlı kimyəvi məhsullar istehsal etmək üçün geniş istifadə olunur.

Etilen oksid əldə etmək üçün müasir kimya istehsalının üç əsas metodundan istifadə edir: ikincisinin katalitik oksidləşməsi ilə etilendən istehsal, etilenin katalitik olmayan oksidləşməsi və etilen xlorohidrindən istehsal. Bu proseslərin göstəricilərini müqayisə edərək xlorohidrin metodunun ən qənaətcil olduğu qənaətinə gələ bilərik. Ancaq həyata keçirilməsi üçün xlorun istifadəsi, reaktorların xüsusi dizaynı, xlora davamlı materialların və reaktor astarının istifadəsi, həmçinin xlorla işləyərkən müəyyən təhlükəsizlik qaydalarına riayət edilməsi tələb olunur. Etilen oksidinin istehsalı üçün katalitik metodlar buna ehtiyac duymur, lakin proses üçün daha yüksək enerji istehlakı və yüksək kimyəvi xammal tələb edir. Etilenin etilen oksidinə katalitik olmayan oksidləşmə üsulu alınması hələ yarı sənaye tətbiqetmə hüdudlarından kənara çıxmamışdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Səlimova N.Ə., Şahpələngova B.Ş. Ümumi kimya texnologiyası. Bakı-2013, s.156
2. Смит В., Бочков А., Кейпл Р. Органический синтез: Наука и искусство. – М.: Мир, 2001. – 345 с.
3. Одабашян Г.В., Швец В.Ф. Лабораторный практикум по химии и технологии органического и нефтехим


## AZƏRBAYCAN DİLİNİN ŞAMAXI ŞİVƏLƏRİNDƏ PEŞƏ-SƏNƏT SÖZLƏRİ

**Bağiyeva Nərgiz**
*ADPU-nun Şamaxı filialı*
*Elmi rəhbər: Sənubər Şükürova*

**Açar sözlər:** şivə, peşə-sənət, misgərlik, dəmirçilik, xalçaçılıq, üzümçülük.
**Key word:** dialect, profession-art, coppersmithing, blacksmithing, carpet-weaving, viticulture.
**Ключевое слово:** диалект, профессия-искусство, медное дело, кузнечное дело, ковроткачество, виноградарство.

Şamaxı şəhəri Azərbaycanın qədim tarixi və mədəniyyəti olan şəhərlərindən biridir. Şamaxının nə vaxt yarandığı barədə müxtəlif fikirlər mövcuddur. Bəzi müəlliflər onun XI əsrin son rüblərində naməlum müəllifin əsəri olan "Tarix-əl-Bab" əsərinə qaynaqlanaraq şəhərin Şirvanşah Əbu Tahir ibn Məhəmməd tərəfindən salındığı və onun şərəfinə Yezdiyyə adlandırıldığını qeyd edirlər.

Müasir Şamaxının ərazisində yerləşən Şəhristan adlı yerdə arxeoloji qazıntılar aparılmış və bunun nəticəsində VIII-XI əsrlərdə Şəmaxiyyə şəhərinin mövcudluğu təsdiq edilmişdir. Şəhristanda yerləşən mədəni təbəqə VIII-IX əsrlərə aiddir. Bu təbəqədə divar qalıqları ətrafında qrafik rəsmlərlə bəzədilmiş keramik qablar tapılmışdır. Qazıntılar bunu təsdiq edir ki, X əsrin I yarısından sonra Şamaxı Şirvanın mühüm şəhərlərindən birinə çevrilmişdir. [3; 424 ]

Şamaxı mədəniyyəti ilə də məşhur şəhərlərdən biridir. Arxeoloji qazıntılar nəticəsində XII-XIII əsrlərə aid mədəni qalıqlar aşkar edilmişdir. Burada yaşayış evlərinin qalıqları, otaq və döşəmələr, çoxlu sayda şirli və şirsiz saxsı və şüşə qab qırıqları tapılmışdır. Tapılmış kirli keramikalar bir və çox rəngli, qrafikli və həndəsi naxışlarla bəzədilmişdir. Bu qabların bəzilərində orta əsrdə tapılmış dulusçuluq emalatxanasının möhürü vardır. Şamaxıda XII əsrə aid ictimai bina aşkar edilmişdir. Bunlardan başqa XII əsr təbəqəsində şirli, şirsiz keramika, Kaşan və Rey tipli naxışlı saxsı və şüşə qab qırıqları tapılmışdırBütün bunlar onu sübut edir ki, Şamaxıda dulusçuluq peşəsi ilə məşğul olmuşdur.

Şamaxı peşə-sənət sahələri ilə məşhurlaşan şəhərlərimizdən olmuşdur.[ 2; 416]

Şamaxıda qədimdən bugünümüzə qədər müxtəlif sənət və peşə sahələri ilə məşğul olan sənətkarlar yaşamışdır. Burada misgərlik, dulusçuluq, dəmirçilik, üzümçülük, kələğayıçılıq, qalayçılıq, xalçaçılıq, şərabçılıq, boyaqçılıq və s. kimi peşə sənət sahələri mövcud olmuşdur

Qədim xalq sənət növlərindən olan misgərlik dəmir dövründən qalma sənət növüdür. Aparılmış tədqiqatlar və misgərlik sənətinin günümüzədək sevilməsi onu təsdiqləyir ki, Azərbaycanda misgərlik sənətinin mövcudluğu qədim dövrlərə təsadüf edir və ölkəmiz misgərliyin inkişaf etdiyi mərkəzlərdən biridir. Azərbaycanda misgərlik sənətinin mərkəzlərindən biri də Şamaxı olmuşdur. Şamaxıda misgərlik sənəti ilə məşğul olan sənətkarlar misdən məişətdə istifadə olunan qablar düzəltmişdir. Həmin qablar müasir dövürdə istifadə olunmasa da, onlarla bağlı olan sözlər Şamaxı şivələrinin lüğət tərkibində qalmaqdadır.

Sərcam - Misgərlər kasanın üzərinə qoymaq üçün misdən dairəvi sərcam adlanan qabı düzəldirdilər.

Badyə - Nənələrimiz yığdıqları südləri badyə adlanan mis qabda saxlayırdılar.

Sərnic - Süd sağmaq üçün istifadə olunan mis qab

Teşt - Nənələrimiz paltarlarını misdən olan teşt qabda yuyurdular.

Gəlgəl, satıl- Su qabı

Mərciməy - Kündə daşımaq üçün istifadə olunan düz mis padnos

Ərsin - Xəmir kəsmək üçün alət [ 1; 480]

Azərbaycanda inkişaf etmiş sənət sahələrindən biri də dəmirçilik olmuşdur. Arxeoloji qazıntılar zamanı əldə olunmuş qalıqlar sübut edir ki, Şamaxıda dəmirçilik mövcud olmuşdur. Şamaxıda Dəmirçi kəndi də mövcuddur ki, bu kənd adını sakinlərinin əsas məşğuliyyəti olan dəmirçilikdən almışdır. Dəmirçiliklə məşğul olan sənətkarlar dəmirdən bir çox əşyalar düzəltmişdir. Bu sahə ilə bağlı Şamaxı şivələrində bəzi sözlər işlədilməkdədir.

Kürə - Dəmiri kürədən dəmir çıxardar.

Tayqulp - Anası gələn qonaqlara tayqulpda yemək bişirmişdi.

Qapçağ - Su yığmaq üçün dəmir qab

Dulusçuluq sənətkarlığın ən qədim növlərindən biridir. Dulusçuluq Azərbaycanda sənətkarlıq istehsalının ən qədim sahələrindəndir və öz əhəmiyyətini günümüzədək saxlamışdır. Arxeoloji qazıntılar onu göstərir ki, dulusçuluq sənətinin geniş yayıldığı şəhərlərdən biri də Şamaxı olmuşdur. Dulusçuluqla məşğul olan sənətkarlar Şamaxıda palçıq və gildən bir çox əşyalar hazırlayıblar. Bu sahə ilə bağlı Şamaxı şivələrində işlənən sözlərə nümünə olaraq aşağıdakıları göstərmək olar.

Gillə - Təndirdə alma qaxı qurutmaq üçün xüsusi qab

Kəndi -Taxılı saxlamaq üçün gildən düzəldilmiş əşya

Kulbə - Təndiri yandırmaq üçün əvvəlcədən insanlar kulbə açırdılar.

Qalğa - Yağ yığmaq üçün qab

Qədim dövrlərdə Azərbaycanda mövcud olmuş digər bir sənət növü də xalçaçılıqdır. Azərbaycan xalçaları içərisində Şirvan qrupunun özünəməxsus yeri vardır. Şirvan bölgəsinin ən böyük və əsas mərkəzlərindən biri də Şamaxıdır. Hətta Şamaxıda toxuculuq fabriki olmuşdur, bu fabrik hələ də öz fəaliyyətini davam etdirir. Xalçalar xovlu və xovsuz növləri vardır. Şamaxıda xalçaların müxtəlif növləri kilimlər, xalçalar, palazlar toxunmuşdur. Buranın məşhur xalçaları vardır: "Cəmcəmli", "Çuxanlı", "Cəyirli", "Nabur", "Ərçiman" və s. xalçalardır. Burada bir sıra xalçalar da vardır ki, onlar xüsusiyyətlərinə görə digər xalçalardan fərqlənir. Şamaxı şivələrində xalçaçılıqla bağlı bəzi sözlərə təsadüf etmək olur.

Cecim - Şirvan cecimləri digər toxunan cecimlərdən ensizliyi və yığcamlığı ilə fərqlənir.

Quyrumlu - Yerli əhalinin "quyrumlu" adlandırdığı kilim öz görünüşü ilə maraq doğuran kilimlərdəndir.

Taxtanmicə - "Taxtamicə" adlanan xovsuz xalçaları əsasən yaylaq-qışlaq həyat keçirənlər üçün xarakterikdir.

Şamaxıda inkişaf etmiş digər peşə növü də üzümçülük olmuşdur. Şamaxı öz üzümü ilə hər zaman məşhur şəhər olmuşdur. Keçmiş zamanlardan günümüzədək bir çox üzüm bağı salınmışdır. Bu bağlarda müxtəlif növdə üzüm yetişdirilmişdir.

Mərəndi - Şamaxı mərəndisi öz dadı ilə məşhurdur.

Xatını - Xatını iri gilələri və şirəli olması ilə məşhurdur.

Sarıgilə - Sarıgilənin gilələri çox dadlı olur.

Bütün verilən məlumatlardan bəlli olur ki, Şamaxı Azərbaycanın qədim tarixə malik şəhəridir. Arxeoloji qazıntılar zamanı buradan bir çox qiymətli materiallar tapılmışdır. Şamaxı öz sənətkarlıq sahələri ilə də məşhur şəhər olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964
2.Şirəliyev M Azərbaycan dialektologiyasının əsasları Bakı,2008
3.Ziya Bünyadov Azərbaycan VII- IX əsrlərdə Bakı, 2007

# KİMYANIN TƏDRİSİNDƏ ONLAYN TRENAJORLARDAN İSTİFADƏ

**S.Baxşıyeva, N.Abışov**
***Bakı Dövlət Universiteti***
***Seyre97@mail.ru***

**Açar sözlər:** kimya trenajorları,video oyunları,virtual trenajorlar,interaktiv trenajorlar.
**Key words:** chemical simulators,video games,virtual simulators,interactive simulators.
**Ключевые слова:** симуляторы химии, видео игры, виртуальные симуляторы, интерактивные симуляторы.

Trenajorlar müstəqil formada və ya müəllim rəhbərliyi altında şagirdlərin bilik,bacarıq,vərdişlərini praktiki cəhətdən inkişaf etdirərək təhsil almağa imkan verən təlim metodudur. Trenajorların köməyi ilə kifayət qədər xüsusi tapşırıqlar həll olunur. Kimya ilə yanaşı fizika,riyaziyyat,biologiya və digər ictimai fənlərin tədrisində trenajorlardan istifadə şagirdlər üçün tədrisi daha əyani edir və qavranılması çətin olan mövzuları daha əlçatan edir. Trenajorlar müxtəlif üsullarla: test,çalışma,video oyunlar vasitəsilə istifadə edilə bilər. Tarixin ən məşhur və uğurlu trenajor məhsulu video oyunudur. Video qeydlər şagirdlərin buraxdıqları səhvləri təhlil etməyimizə və sonrakı dərslərdə düzəlişlərinin gedişatına nəzarət etməyimizə imkan verir. Trenajorların əsas məqsədi şagirdlərin bilik,bacarıqlarının yoxlanılması və beyin əzələsinin inkişaf etdirilməsidir. Trenajorlar şagirdlərin daha yaxşı öyrənməsi,daha yaxşı təkrarlaması və daha yaxşı möhkəmləndirməsini təmin edir. Trenajorların sadəcə birləşdirilməsi lazım olan, ancaq insanları öyrətmək

üçün hazırlanmış "öyrənmə maşınları" olmadığını başa düşməliyik. İnsanlar trenajorlarla insanlara dərs verirlər. [1]

Təlim metodlarından biri elektron trenajorlardır. Bu metodla uşaqlara nə öyrədiriksə tədricən avtomatikləşir.Elektron trenajorlar vasitəsilə hər bir kimyəvi məsələnin həllini tapa bilərik. Elektron trenajorlar elektron resurslar deməkdir. Hər bir elektron trenajorlarda müxtəlif növ məsələlər var. Məsələn, kimya trenajorlarında məhlullara aid (məhlulların faizlə qatılığının hesablanması, kütlənin hesablanması, 2 müxtəlif məhlulun qarışdırılması, məhluldan suyun buxarlanması və ya məhlula suyun, maddənin əlavə olunması), maddələrin nisbi molekul kütləsi, maddə miqdarı, maddənin kütləsi, qazların həcmi, hidrogenə və havaya görə nisbi sıxlıqları, molekul və atomların sayının tapılmasını, energetik səviyyələr üzrə yerləşməsini, atomun tam elektron formulunu,elektrolizə aid tapşırıqları öyrətmək və biliyini yoxlamaq mümkündür. Məsələn, trenajorlarda uşağa sual verilir ki, ZnO-in formulunu tap. Uşaq formulu yazır, düzgün cavabı müəyyən edə bilir və öz düzgün cavablarına baxa bilir. Bununla da həm öyrənə bilir, həm də öz biliyini qiymətləndirə bilir. Sonda testin statistikası ekranda görünür: nə qədər düzgün cavab, neçə səhv və neçə sual ümumiyyətlə cavablandırılmadı.

Üzvi kimyanın bölmələri və qeyri-üzvi kimyanın digər bölmələrinin mövzularına aid test tapşırıqlarını da işləmək olur. [2]




Elektron trenajorların istifadəsi müxtəlif mərhələlərdə ola bilər. Məsələn,ev işlərinin yoxlanılması və ya yeni materialın izah edilməsi, hər hansı mövzunun təkrar olunması.

Tələbələr ilk öncə elektron trenajorlar olan saytda qeydiyyat olurlar. Hər bir dərsdə elektron trenajorların istifadəsi çox önəmlidir. Dərs həm maraqlı olur, həm də çox gözəl yadda qalır. Oyun vasitəsilə olan trenajorlar daha maraqlıdır. Uşaqlar oyun oynaya-oynaya öyrənirlər. Hətta çox passiv uşaqlarla belə nəticə almaq olur. Bununla da pedaqoqun əsas vəzifəsi yerinə yetirilmiş olur.

PhET interaktiv trenajorlar

"PhET" (Fizika Təhsili Texnologiyası) fizika, kimya, riyaziyyat və digər elmlərin tədrisi və öyrənilməsi üçün tədqiqata əsaslanan interaktiv kompüter trenajorlarından ibarətdir. PhET trenajorlarını onlayn olaraq həyata keçirə və ya PhET veb saytından pulsuz yükləyə bilərsiniz. Trenajorlar interaktiv,

cizgi xarakterlidir və şagirdlərin araşdırma yolu ilə öyrənmələri üçün oyuna bənzər mühitlər mövcuddur. Amerika Birləşmiş Ştatlarında Kolorado universitetinin məhsuludur. [3]




Tələbə virtual trenajorlardan istifadə edərək bir komandada ünsiyyət qurma bacarıqlarını və öz araşdırmalarını təqdim etmək bacarıqlarını inkişaf etdirdiyini və birləşdirdiyini sübut edir. Multimediyanın geniş imkanları və daha aşağı maliyyə xərcləri ilə birlikdə bu istiqaməti çox cəlbedici edir. Adətən material miqdarı ilə məhdud olan dərsliklərdən fərqli olaraq, onlayn trenajorlar çoxlu sayda istinad materiallarını daxil etməklə kifayətlənmir, eyni zamanda daha tez-tez yenilənir və bütün metodistlər qrupu onları yaxşılaşdırmaq üçün çalışır.Virtual interaktiv trenajorlar praktiki vərdişlər tətbiq etmək və tələbələrin öyrənməsi üçün hazırlanmış interaktiv multimedia trenajorlarının kompleksidir. Trenajorlar dünyanın bir çox probleminin həlli üçün əvəzolunmaz həll etmə metodologiyasıdır.

Uşaqlar tədris zamanı eşitdiklərini asanlıqla unudurlar, ancaq tətbiq etdiklərini heç vaxt unutmurlar.Trenajorların tapşırıqları uşaqlara belə bir fürsət verir.Trenajorlar çox faydalıdır,şagirdlərə yeni anlayışları araşdırmağa və qazanmağa kömək edir.Elektron trenajorlar şagirdlərə tapşırıqları təkrarən yerinə yetirmək imkanı verir ki, bu da materialın möhkəm mənimsənilməsinə kömək edir, mövzuya marağı artırır və idrak fəaliyyətini aktivləşdirir. Dərsdə trenajorlardan istifadənin formaları və yeri, əlbəttə ki, bu dərsin məzmununa, müəllimin qoyduğu hədəfə bağlıdır.

Şagirdlər üçün trenajorlardan istifadənin başqa bir üstünlüyü də ondadır ki, tapşırıqları növlərinə görə ayırd etməyi öyrənmək imkanı verəcək və nəticədə 9 və 11-ci siniflərdə son sertifikatı uğurla keçmələrinə kömək edəcəkdir. Problemləri həll etmək bacarığı 11-ci sinif şagirdlərinə təkcə kimya deyil, riyaziyyat, fizika, və biologiya fənlərindən də müvəffəqiyyətlə keçməyə imkan verəcəkdir.Trenajorlar üzərində işlənilən məlumatların əsaslı şəkildə tətbiq olunmasına,fərziyyələr yaradılmasına,problemli sualların formalaşdırılmasına və məlumatların tənqidi qiymətləndirməsinə kömək edir. [4]

## ƏDƏBİYYAT SİYAHISI :

1. https://www.google.com/search?client=ms-android-samsung-gs-rev1&source=android-browser&ei=tEy9X7_iL4nSa4zHv8AG&q=+химические+тренажеры&oq=+химические+тренажеры &gs_lcp=ChNtb2JpbGUtZ3dzLXdpei1zZXJwEANQ1JIBWNCaAWCbtgFoAHAAeACAAYkDiAGJE5IBAzMtN5gBAKABAcABAQ&sclient=mobile-gws-wiz-serp
2. https://play.google.com/store/apps/details?id=ru.trainer
3. https://phet.colorado.edu/en/simulation/balancing-chemical-equations
4. https://www.acs.org/content/acs/en/education/students/highschool/chemistryclubs/activities/simulations.html

# İCTİMAİ SEKTORDA BEYNƏLXALQ MÜHASİBAT STANDARTLARININ TƏTBİQİNİN METODOLOJİ ƏSASLARI

**Baxışova Lalə Fuad qızı**
***magistr, Xəzər Universiteti***
lala.bakhishova777 @gmail.com

***Elmi rəhbər: i.f.d.,dos.*** **Sadıqov Abdulkərim Əkbər oğlu**
***Azərbaycan Dövlət İqtisad Universiteti***

***Açar sözlər:*** müəssisə və təşkilat, ictimai sektor, Beynəlxalq Maliyyə Hesabatları Standartları, idarəetmə qərarları, qanunverici və normativ tənzimləmə

***Ключевые слова:*** *предприятия и организации, государственный сектор, международные стандарты финансовой отчетности, управленческие решения, Законодательное и нормативное регулирование*

***Keywords:*** *enterprise and organization, Public Sector, International Financial Reporting Standards, management decisions, legislative regulation*

Hazırda mühasibat uçotu sistemi həm özəl, həm də dövlət təşkilatlarını birləşdirən bazar iqtisadiyyatı infrastrukturunun mühüm elementidir. O, biznes bölmələrinin vəziyyətini və cəmiyyətdə bağlanmış həcmi milyard manatlarla ölçülən əməliyyatları əks etdirir. Onun əsasında sövdələşmədə iştirak edən tərəflərin maraqlar balansı, qiymətlər, faiz dərəcələri müəyyən edilir, investisiya qərarları qəbul edilir.

Əlbəttə, qeyd etmək lazımdır ki, mühasibat uçotunun informasiya komponenti kimi mühüm rolu heç də az əhəmiyyət kəsb etmir. Belə ki, mühasibat uçotu sistemi bazar iqtisadiyyatı infrastrukturunun elementidir və ilk növbədə ona görə ki, o, ictimai sektorda mühüm qərarların qəbulu üçün zəruri olan məlumatları təmin edir.

İctimai sektorda beynəlxalq mühasibat standartlarının tətbiqinin məqsədi bütün səviyyələrdə büdcə vəsaitlərinin xərclənməsinin səmərəliliyinin artırılmasına yönəlmiş dövlət siyasətinin prioritetlərinə uyğun olaraq maliyyə resurslarının səmərəli idarəetmə sisteminin yaradılmasından ibarət olmuşdur. Xüsusilə, aşağıdakı vəzifələrin həllinə imkan verə bilər:

- büdcə təsnifatının və büdcə uçotunun islahatı;
- mövcud və qəbul edilmiş öhdəliklər üçün büdcələrin ayrılması;
- ortamüddətli maliyyə planlaşdırmasının təkmilləşdirilməsi;
- prosedurların sadələşdirilməsi.
- büdcələrin tərtibi və nəzərdən keçirilməsi üçün, büdcə planlaşdırma üsulları.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkədə MHBS-nın tətbiqi təcrübəsinin ümumiləşdirilməsi və təcrübənin yayılması üzrə fəaliyyəti həyata keçirən əsas orqandır. Belə ki, Maliyyə Nazirliyi ictimai sektor təşkilatlarının hesabat sisteminin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər həyata keçirir. Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli, 716-IIQ nömrəli "Mühasibat uçotu haqqında" Qanunu Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən, mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan, habelə fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının tərtibi və təqdim edilməsi qaydalarını tənzimləyir.

Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimlənməsinin əsas məqsədi kiçik və orta müəssisələr üçün ictimai sektor üçün mühasibat uçotu standartlarının hazırlanması və tətbiqi yolu ilə ictimai sektor müəssisə və təşkilatlarında mühasibat uçotunun beynəlxalq standartlar əsasında inkişafını və maliyyə hesabatlarının şəffaflığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Mühasibat uçotu haqqında qanunun birinci fəslinin 2.1.4-cü maddəsində ictimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartları haqqında ümumi anlayış verilmişdir. Belə ki, orada İSMUBS-un qeyd olunur ki

*“Mühasiblərin Beynəlxalq Federasiyasının İctimai Sektor üzrə Komitəsi tərəfindən işlənib hazırlanmış, qəbul və ya təsdiq olunmuş mühasibat uçotu standartlarıdır”* [1].

Müvafiq qanunun 4.1-ci maddəsində isə ölkədə mühasibat uçotu sferasında əsas məqsədi öz əksini tapır. Orada vurğulanır ki, tənzimlənmənin əsas məqsədi kommersiya müəssisə və təşkilatlarının mühasibat hesabatlarının beynəlxalq standartlarını, eləcə də həmin standartlara uyğun olan MMUS-u, qeyri-kommersiya müəssisə və təşkilatları üçün isə İSMUBS-a (ictimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartlarına) uyğun olan Milli Mühasibat Uçotu Standartlarını hazırlamaqla, həmçinin də tətbiqi ilə Azərbaycanda maliyyə hesabatlarında şəffaflığın təmin olunmasından və uçot fəaliyyətinin beynəlxalq mühasibat uçotu standartlarına əsasən təkmilləşdirilməsindən ibarətdir [1].

Büdcə hüquq münasibətləri publik hüquqi şəxslərin fəaliyyətinin mühasibat uçotunda əks olunmasının qanunvericilik və normativ tənzimləməsini özündə cəmləşdirən büdcə uçotu və hesabatı sistemi ilə təmin edilir. Büdcə uçotu və büdcə hesabatlarının hazırlanması və istifadəçilərə təqdim edilməsi məsələləri Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən nəşr edilən İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarında (İSMUBS) əhatə olunur [2]. İSMUBS-un məqsədləri üçün dövlət sektoruna müxtəlif müəssisə və təşkilatlar, habelə yerli qurumlar və müxtəlif agentliklər daxildir. İqtisadiyyatın müvafiq sektoruna dövlət və bələdiyyə kommersiya müəssisələri, habelə özəl mülkiyyət formasına malik kommersiya təşkilatları daxil deyil.

Lakin son zamanlar büdcə təşkilatlarında mühasibat uçotunun kommersiya sektorunda mühasibat uçotu prinsipləri ilə yaxınlaşması tendensiyası müşahidə olunur. Bu, həm özəl müəssisələr üçün mühasibat uçotu sahəsində bu günə qədər işlənib hazırlanmış mühasibat uçotu prinsipləri və metodlarında böyük irəliləyişlə, həm də hesabat verən istifadəçilərə tam və başa düşülən maliyyə məlumatlarının təqdim edilməsi ilə bağlı mülahizələrlə bağlıdır [3].

Hazırda dövlət sektoru təşkilatlarının hesabat sistemində baş verən dəyişikliklər büdcə islahatının yeni mərhələsindən danışmağa imkan verir ki, onun məqsədi dövlət sektorunda beynəlxalq və milli maliyyə hesabatı standartlarını bir-birinə daha da yaxınlaşdırmaqdır.

Bütün dünyada büdcə təşkilatları tərəfindən beynəlxalq standartların tətbiqinə gəldikdə, bu halda söhbət beynəlxalq maliyyə hesabatı standartlarının fərqli toplusundan, yəni dövlət sektoru üçün MHBS-dan gedir. Bu standartlar müvafiq beynəlxalq qurumun daimi komitəsi tərəfindən hazırlanır və tətbiq edilir [4].

Bir çox ölkələrin hökumət strukturları ictimai sektor üçün mühasibat standartlarını tətbiq etməyə hazır olduqlarını bəyan edirlər, belə bəyanatlara baxmayaraq, dünyanın heç bir ölkəsi bu standartları faktiki olaraq tam şəkildə qəbul etməyib. Əsas problem dövlət orqanları tərəfindən idarə olunan bütün müəssisələr üçün konsolidasiya edilmiş maliyyə hesabatlarının yaradılması tələbidir. Bu kombinasiya tələbi çox vaxt aparan və baha başa gəlir, buna görə də bu prosedur hazırda dünyanın heç bir yerində həyata keçirilmir və müvafiq standartların tam tətbiqinə mane olur.

İctimai sektorda dəyişikliklərin yeni mərhələsi dövlət sektoru institutlarının fəaliyyətinin şəffaflığının, onların aşkarlığının artırılmasına yönəlmişdir. Dəyişikliklərin əsas aləti ictimai sektor üçün mühasibat standartlarının tətbiqidir. İctimai sektor təşkilatlarının müvafiq standartlara uyğun olaraq hazırlanmış hesabatları hesabat verən təşkilatın iqtisadi inkişafının miqyası, dövlət xidmətlərinin göstərilməsi ilə bağlı xərclər və profisit və ya kəsirin formalaşması haqqında daha çox məlumat verəcəkdir [5]. Bundan əlavə, əsas diqqətin mühasibat uçotundan təsərrüfat əməliyyatları haqqında məlumatların açıqlanmasına yönəlməsi yalnız təşkilatların hesabatlarının məlumat məzmununu artırmayacaq, həm də ölkədə mühasibat uçotu və hesabatların ümumi konsepsiyasında dəyişiklik tələb edəcəkdir

Azərbaycan Respublikasında ictimai sektor üçün mühasibat standartların məqsədi ictimai maraqlara xidmət etməkdən ibarətdir. Sektorda yüksək keyfiyyətli mühasibat uçotu standartlarını müəyyən etmək, idarəetmə qərarlarının qəbulunu və onların dövlət idarəçiliyi sektorunda həyata keçirilməsini asanlaşdırır.

İctimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartları hesabatın məqsədi haqqında anlayışı təmin edir, hesabatın tərifini və hesabat verən istifadəçilərin ehtiyaclarını ödəmək üçün hesabatın hansı məlumatları ehtiva etməsini təmin edir. İSMUBS hesabat üçün tələb olunan fərziyyələri müəyyən edir və onlar ölkə qanunvericiliyində müəyyən məsələlərdən fərqlənir. Əgər maliyyə hesabatlarına daxil edilmiş hər bir hesabatı ayrıca nəzərdən keçirsək, onda görə bilərik ki, İSMUBS hesabatın hər bir maddəsi üzrə məlumatların təqdim edilməsi və açıqlanması, eləcə də hesabatla birbaşa əlaqəli olan hər şey haqqında daha

ətraflı izahatlar verir. Yuxarıda deyilənlərə əsaslanaraq belə bir fakta qeyd etmək olar ki, əgər qurumlar beynəlxalq standartlar əsasında hesabatlar hazırlasalar, o zaman bu hesabatların daha çox istifadəçisi üçün dəqiq, açıqlanmış və başa düşülən olacaqdır. Maliyyə hesabatlarında iqtisadi fəaliyyətin təzahürü, maliyyə nəticələrinin qiymətləndirilməsi, maliyyə qoyuluşlarının qiymətləndirilməsində dəyişikliklər kimi məlumatlar açıqlanmalıdır. O, həmçinin balans tarixindən sonrakı hadisələr və dayandırılmış əməliyyatlar haqqında məlumatları açıqlayır. Hesabat verən təşkilatlar bazar iqtisadiyyatının şərtlərinə uyğun olaraq aktiv və öhdəlikləri qiymətləndirirlər. Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən təşkilatlar beynəlxalq standartları rəhbər tuturlar.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu, Bakı şəhəri – 29 iyun 2004
2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının qanunu, Bakı şəhəri – 4 may 2018
3. "İctimai sektor üçün Mühasibat uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının qərarı, Bakı şəhəri – 25 dekabr 2018
4. International Public Sector Accounting Standards Board, Handbook of International Public Sector Accounting Pronouncements, Volume I, 2021, p. 626
5. http://maliyye.gov.az/static/226/ictimai-sektor-ucun-mühasibat-ucotunun-beynelxalq-standartlari


## MÜXTƏLİF PSİXOLOJİ PROBLEMLƏRDƏ ÖZÜNÜ GÖSTƏRƏN NİTQ QÜSURLARININ PSİXOLOJİ SƏCİYYƏSİ


**Balaməmmədova Elvira İlqar qızı**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: P.ü.f.d.* Abbasova Afərin Əli qızı**
*elvirailqarqizi@gmail.com*



**Açar sözlər:** nitq qüsuru, təşviş pozuntuları, özünüqiymətləndirmə, depressiya.


**РЕЗЮМЕ**


В результате психологические проблемы, которые могут возникнуть у людей с дефектами речи, являются одной из проблем, мешающих адекватной оценке их структуры «Я», влияя на сферу социальной жизни и снижая качество жизни.



**Ключевые слова:** дефект речи, тревожные расстройства, самооценка, депрессия.


**RESUME**


As a result, the psychological problems that can occur in people with speech defects are one of the problems that damage the adequate assessment of their "I" structure, affecting the sphere of social life and reducing the quality of life.



**Keywords:** speech defect, anxiety disorders, self- assessment, depression.


Nitq uşağın ümumi psixofizioloji inkişafı prosesində formalaşan ictimai əhəmiyyətli hadisə olub, yalnız sosial mühit şəraitində qazanılmış bacarıqdır. Ona görə də, bu və ya digər dərəcədə özünü göstərən nitq qüsuru şəxsin həyatında, onun şəxsiyyətlərarası münasibətlərinin uğursuzluğunda, psixoloji sferasında əhəmiyyətli dərəcədə öz mənfi təsirini göstərir. Bunlar istər şəxsin normal nitqli insanlarla müqayisəsi zamanı qeyri-adekvat aşağı özünü qiymətləndirməsində, istər ünsiyyət sferası pozulmalarında, özünəqapanıq və daha çəkingən olmalarında və b. psixoloji problemlər fonunda müşahidə edilir.

Nitq qüsurlu şəxslər hər zaman ünsiyyətdən yayınmağa, ya da, sözlərini daha tez bitirməyə cəhd göstərirlər. Bu zaman stress və təşviş pozuntularının müşayət etdiyi nitqin icra səviyyəsi aşağı düşür və bu danışığın rəvanlığının daha da pozulmasına səbəb olur.

Wendell Johnsonun irəli sürdüyü "Diaqnozogen nəzəriyyə"sinin mahiyyətinə görə fərd dinləyənlərin diqqətini nə söylədiyindən daha çox, necə söylədiyinə çəkdiyi zaman nitq pozuntusunun varlığını qəbul etmək olar[2]. Nəzəriyyə uşaqlarda kəkələmənin sosial ekzogen amillərin təsirilə sonradan qazanıldığını təsdiq etmək üçün irəli sürülsə də, təksib edildi. Çünki yuxarıda qeyd olunan amil kəkələmənin səbəblərindən yalnız biri kimi çıxış edə bilər. Burada bundan əlavə nevroloji, bioloji, psixoloji və genetik faktorların təsiri də mütləq nəzərə alınmalıdır.

Nitq qüsurları zamanı rast gəlinə bilən psixoloji problemlər:

- Təşviş pozuntuları- şəxsin özünə təsir edə biləcəyi xəstəlik kimi ikinci yerdə qərarlaşıb. Təşviş şəxsin sayrışan və onu narahat edən mənfi düşüncələri olub, şəxsin davamlı tədirgin və narahat olmasına səbəb olaraq, onun özünü olduqca kontrollu saxlamasına, həssas və gərgin hiss etməsinə səbəb olur. Fizioloji olaraq ürək ritminin sürətlənməsi, qan təzyiqinin yüksəlməsi, əzələlərdə gərginlik, ağızda quruluq, göz bəbəklərinin böyüməsi, tərləmə kimi reaksiyalar müşahidə olunur.

- Obsessiv- kompulsiv pozuntu: iki əsas simptomla obsessiyalar və kompulsiyalarla özünü göstərən təşviş pozuntusu olub, xəstənin yanlış olduğunu bildiyi halda, həyatının gedişinə əhəmiyyətli dərəcədə təsir edən təkrarlanan, sayrışan fikirlər və bu obssesiyları yüngülləşdirmək üçün həyata keçirdiyi bir qrup təkrarlanan davranışların icrası ilə xarakterizə olunur. Nitq pozuntularında bu tip kompulsiyalar müəyyən söz və ya ifadələrin, cümlələrin dəfələrlə təkrarlanması kimi özünü göstərir.

- Fobyalar- qorxular və bununla bağlı aşırı dərəcədə çox stresslə və həyəcanla müşayət olunan təşviş pozuntusunun başqa bir növüdür. Nitq qüsurlu insanlarda daha çox sosial fobiya yeni insanlarla ünsiyyətdən- onların tənqidi fikirlərindən qaçınmaq üçün yayınmada özünü göstərir.

- Somatizasiya: emosional disforiyanın fizioloji simptomlarla özünü göstərməsi halıdır. Belə ki, xəstə özündə olan psixososial və emosional problemlərin xəstəlik simptomları kimi dəyərləndirərək, hər hansı fiziki səbəblə bağlı olduğuna inanır, lakin burada hər hansı patologiya aşkar edilmir. Bunu funksional simptomlar da adlanadırırlar.

- Depressiya- yuxusuzluq, yüksək halsızlıq, gərəksizlik hissi, sayrışan suisidal fikirlər, iştahanın azalması, psixomator tormozlama və ya həyəcan, həmçinin müxtəlif somatik simptom və şikayətlə müşahidə olunan, əhval ruhiyyənin aşağı enməsi ilə səciyyələnən psixi pozuntu olub, Psixi və Davranış Pozuntularının Beynəlxalq Təsnifatına (XBT-10) əsasən emosional, fiziki, sosial və iqtisadi problemlərə səbəb olan xəstəliklər sırasına görə dördüncü yerdə qeyd olunmuşdur. Problem bütün halda şəxsin şəxsiyyətlərarası münasibətlərinə özünü yansıdır, onun kommunikasiyadan yayınmasına və özünü təcrid etməsinə səbəb olur[3].

- Paranoid şəxsiyyət pozuntusu- şəxsin davamlı öz çevrəsini kontrol etməsi və təməl düşüncəsi "güvənsizlik" olan pozuntu olub, ətrafında baş verənlərin xəyali ssenarisini yazaraq, reallığı yanlış olaraq şərh edirlər. Bu tip insanlar özlərinin yetərsiz hiss elədikləri, tənqid və ələ salınmaqdan qorxduqları üçün başqalarını öz davranışlarına görə günahlandıra bilərlər[4].

Nəticə etibarilə nitq qüsurlu insanlarada yarana biləcək psixoloji problemlər onların "Mən" strukturunun adekvat qiymətləndirilməsinin zədələnməsinə, sosial həyat sferasına öz mənfi təsirini göstərərək yaşam keyfiyyətinin aşağı düşməsinə səbəb olan problemlərdən biridir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. "Klinik Pixologiya", E.İ.Şəfiyeva, Bakı- 2002, 81s
2. Gökçe Özer Antholz. Akici konuşma bozukluğu olan bireylerde kekemelik şiddeti ile psikolojik belirtiler arasindaki ilişkinin incelenmesi. Yüksek Lisans Tezi. Ankara- 2019. 77s.
3. Prof. Dr. M. Hakan Türkçapar. Depresyon. İstanbul: 2018, 569s.
4. Ömer Özmen, "Kekemeliğe İlişkin Yararlı Olmayan İnançlar ve Düşünceler Aracı", Ege Üniversitesi, Yüksek Lisans Tezi, İzmir- 2018, 54s. https://tez.yok.gov.tr/UlusalTezMerkezi/

# ÖLKƏYƏ XARİCİ İNVESTİSİYA CƏLB EDİLMƏSİ İLƏ TİCARƏTİN ASANLAŞDIRILMASI TƏDBİRLƏRİ ARASINDA ƏLAQƏ: AZƏRBAYCAN NÜMUNƏSİ

**Bayramlı Aynurə Nemət qızı**
***Dövlət Gömrük Komitəsinin Akademiyasının magistrantı***
***Elmi rəhbər: i.ü.f.d. Əlirzayev Elvin Vahid oğlu***

**Açar sözlər:** xarici investisiya, sərhəddə ticarət, investisiya cəlbi, ticarət xərcləri.
**Keywords:** foreign investment, cross-border trade, investment attraction, trade costs.
**Ключевые слова:** иностранные инвестиции, трансграничная торговля, привлечение инвестиций, торговые издержки.

**Tədqiqatın məqsədi**

İqtisadi sahələrin inkişafının təmin olunma səviyyəsi və iqtisadi artımın dəstəklənməsi, o cümlədən daxili bazarın həcminin genişləndirilməsi, ölkənin ticarət dövriyyəsinin effektiv şəkildə qurulmasından və artımından asılıdır. Bu məqsədlə ticarətin asanlaşdırılması üzrə ölkə əhəmiyyətli tədbirlər görülür və stimullar yaradılır. İstər real sektor, istərsə də xidmət sektoru olsun, müəssisələr istehsal etdikləri mal və xidmətləri minimum xərclə ehtiyac duyduqları xammal, əmək, texnologiya, infrastruktur kimi istehsal amillərindən istifadə etməklə maksimum gəlir əldə etməyə çalışırlar. Ticarət xərclərinə daxil olan sərhəddə çəkilən xərcləri də özündə ehtiva edən, Dünya Bankının Doing Business indeksinə daxil olan Sərhədboyu Ticarət indikatoru bu xərclərin dəyərləndirilməsində mühüm rol oynayır.[2]Tədqiqatın məqsədi müxtəlif istiqamətlər üzrə dəyərləndirilən ticarətin asanlaşdırılması göstəriciləri ilə ölkəyə daxil olan xarici investsiyalar arasında qarşılıqlı əlaqəni elmi əsaslarla təhlil etməkdir.

Ölkəmizdə müəyyən dövrdə sırf neft sektoru ilə bağlı olan investisiyaların son zamanlarda həmçinin qeyri-neft sektoruna yönəldilməsi məqsədilə "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Doing Business indeksində də ölkə mövqeyinin yaxşılaşdırılması istiqamətində onun tərkibinə daxil olan bütün indikatorlar üzrə müxtəlif tədbir və layihələr həyata keçirilir.

Hipotezlər:

*H0: Xarici İnvestisiya ilə seçilmiş makroiqtisadi göstəricilər (müstəqil dəyişənlər kimi göstərilmişdir) arasında statistik cəhətdən əhəmiyyətli bir əlaqə yoxdur.*

*H1: Xarici İnvestisiya ilə seçilmiş makroiqtisadi göstəricilər arasında statistik cəhətdən əhəmiyyətli bir əlaqə (korrelyasiya) mövcuddur. Statistik analizdə a = 5% əhəmiyyətsizlik səviyyəsi istifadə olunur, yəni null fərziyyədən imtina edilməsi üçün reqressiyanın p-dəyəri 0,05-dən az olmalıdır.*

Birbaşa xarici investisiyalara ticarət dövriyyəsindən başqa digər amillərin təsir dərəcəsini müəyyənləşdirmək üçün reqressiya və korrelyasiya analizindən istifadə olunacaq. 2019-cu ilə qədər mövcud olan statistik məlumatlar arasından 1998-2018-ci illər aralığındakı göstəricilər əsas götürülmüşdür.

**Şəkil 1. Reqressiya analizinin nəticələri**

SUMMARY OUTPUT

| *Regression Statistics* | |
|---|---|
| Multiple R | 0,947076197 |
| R Square | 0,896953322 |
| Adjusted R Square | 0,86260443 |
| Standard Error | 1331,177735 |
| Observations | 21 |

| | df | SS | MS | F | Significance F |
|---|---|---|---|---|---|
| Regression | 5 | 231365818,4 | 46273164 | 26,113 | 0,0000432572315356238 |
| Residual | 15 | 26580512,42 | 1772034 | | |
| Total | 20 | 257946330,8 | | | |

| | Coefficients | Standard Error | t Stat | P-value | Lower 95% | Upper 95% | ower 95,0% | pper 95,0% |
|---|---|---|---|---|---|---|---|---|
| Intercept | 5029,4569 | 1894,842734 | 2,654287 | 0,01804 | 990,6951779 | 9068,22 | 990,695 | 9068,22 |
| Neft qiymatlari | 15,349249 | 23,03340267 | 0,666391 | 0,51528 | -33,74528697 | 64,4438 | -33,745 | 64,4438 |
| İşsizlik faizi | -367,56716 | 208,8066044 | -1,760323 | 0,09872 | -812,6279039 | 77,4936 | -812,63 | 77,4936 |
| Ticarət Dövriyyəsi | 0,0928969 | 0,057352422 | -1,619755 | 0,12611 | -0,21514068 | 0,02935 | -0,2151 | 0,02935 |
| İnfilyasiya | 151,61676 | 54,10278789 | 2,802384 | 0,0134 | 36,2994023 | 266,934 | 36,2994 | 266,934 |
| İqtisadiyyata çakilən xərclər | 1,1489983 | 0,275629699 | 4,16863 | 0,00082 | 0,561507482 | 1,73649 | 0,56151 | 1,73649 |

***Xarici İnvestisiyalar=5029,45+ α1*15,34- α2*367,56+α3*0,09+ α4*151,61+ +α5*1,14***

Determinasiya əmsalı R-kvadratının 89 olmağı onu bildirir ki, approksimasiyya yüksəkdr. Bu nəticəyə gəlmək olar ki, müvafiq reqressiya tənliyi 89 %-i dispersiya göstəriciləri ilə, 11%-i isə digər faktorların təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olmağı reqressiya tənliyinin ilk daxil edilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin 89%-nin modelə daxil olan amillər hesabına izah edilməsi ilə bağlı olduğunu müəyyən edir. Signifiance F~ 0,0004 olduğundan, p < 0,05 şərtinə görə reqressiya modelimiz qiymətlidir. F-statistika ümumilikdə sərbəst dəyişənin modelə nə qədər təsir etdiyini müəyyənləşdirir. Bu modeldə F-statistika 26,11-a bərabərdir. Sərbəst dəyişənlərdə baş verən bir fazilik dəyişmənin asılı dəyişənə necə təsir etdiyini müəyyən etmək üçün elastiklik əmsalları hesablanmalıdır: **Düstur: E=$\alpha * \overline{xy}$ (1)**

$X^{\bar{}}$ –ayrılıqda səbəb amillərinin cəminə bölünmüş müşahidə obyektlərinin sayıdır.

$Y^{\bar{}}$ –nəticə amilinin cəminə bölünmüş müşahidə obyektlərinin sayıdır

Hesablamadan sonra deyə bilərik ki, inflyasiyanın 1 faiz artması xarici investisiyaların 0,13 faiz artmasına, ticarət dövriyyəsinin 1 faiz artması xarici investisiyaların həcminin 0,31 faiz artmasına,işsizlik faizinin 1 faiz artması xarici invstisiya daxilolmalarının 0,39 faiz azalmasına, neft qiymətlərinin 1 faiz artması xarici investisiyaların miqdarının 0,15 faiz artmasına, iqtisadiyyata dövlət tərəfindən çəkilən xərclərin həcminin 1 faiz artması isə xarici investisiyaların 0,63 faiz vahid artmasına səbəb olur.

**Şəkil 2. Dəyişənlər arasında korelyasiyanln yoxlanılması**

| | Xarici İnvestisiyalar | Neft qiymətləri | İşsizlik faizi | Ticarət Dövriyyəsi | İnfilyasiya | İqtisadi xərclər |
|---|---|---|---|---|---|---|
| Xarici İnvestisiyalar | 1 | | | | | |
| Neft qiymətləri | 0,782697832 | 1 | | | | |
| İşsizlik faizi | -0,774204289 | -0,6013845 | 1 | | | |
| Ticarət Dövriyyəsi | 0,804998076 | 0,912425735 | -0,6515474 | 1 | | |
| İnfilyasiya | 0,333597529 | 0,338404889 | -0,1414552 | 0,333712719 | 1 | |
| İqtisadi xərclər | 0,898176469 | 0,83655976 | -0,7342904 | 0,900733906 | 0,1307019 | 1 |

Korrelasiya sıxlığının çox olması vacibdir. X dəyişənlər əmsalında 0,1; 0,001; 0,02; 0,2 alınsaydı, deməli X (səbəb) amili, Y (nəticə amilinə) zəif təsir edir. Təsir dairəsi zəif olan amil heç bir rol oynamır. Təhlildə isə bu göstərici X1 üçün 0,78 X2 üçün isə -0,77 X3 0,80 X4 0,33 X5 üçün isə 0,89 alınıb. X2 ilə mənfi, X1, X3, X4, X5 ilə güclü müsbət asılılıq mövcuddur.

Ölkəmizdə ticarətin asanlaşdırılması istiqamətində müvafiq işlər görülür, gömrük sistemində elektron sənədləşmə sistemlərinin tətbiqi, o cümlədən tələb olunan sənəd sayının azaldılması vasitəsilə ticarət iştirakçılarının xərclərinin azaldılması təmin edilir.

**Cədvəl 1. Azərbaycanın Sərhəddə Ticarət indikatoruna daxil olan amillər üzrə göstəriciləri**

| İllər | İxrac vaxtı | İxrac Xərcləri | İdxal Vaxtı | İdxal Xərcləri |
|---|---|---|---|---|
| **2016** | 77 saat | 1175$ | 79 saat | 1023 $ |

| | | | | |
|---|---|---|---|---|
| **2017** | 62 saat | 514$ | 68 saat | 623$ |
| **2018** | 62 saat | 514$ | 68 saat | 500$ |
| **2019** | 50 saat | 464$ | 47 saat | 500$ |

Mənbə: *Dünya Bankının Doing Business hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.* https://www.doingbusiness.org/

Azərbaycan üzrə sərhədkeçmə vaxt və xərclərinə nəzər yetirdikdə, 2016-ci illə müqayisədə 2019-cu ildə həm idxal və ixrac xərclərində həm də vaxtında kifayət qədər azalma olduğu müşahidə edilir. Bu da indikatorun göstəricisinin 94-dən 83-ə qədər yüksəlməsinə səbəb olmuşdur. [6]  Ölkəmizdə gömrük sistemində davamlı olaraq yeni texnologiya və sistemlərin (“Bir Pəncərə”,“Yaşıl Dəhliz”, “Elektron növbə”, Elektron gömrük konsepsiyası, E-TIR və b.) tətbiq edilməsi iqtisadi subyektlərin fəaliyyətinin asanlaşdırılmasına yönəldilmişdir.[7] Bu mexanizmlərin əhəmiyyətli dərəcədə uğurlu olması ilə yanaşı, onların vaxtaşırı genişləndirilməsi, funksionallığının artırılması ehtiyacı da yaranır.

**Nəticə**

Azərbaycan iqtisadiyyatı üçün tətbiq edilən modelin təhlilləri göstərir ki, ticarət xərcləri xarici investorların qərarvermə prosesinə təsir edən əhəmiyyətli amillərdəndir. Həm qeyri-tarif, həm də tarif xarakterli beynəlxalq ticarət üzrə vaxt və xərclərin azaldılması, birbaşa xarici investisiyaların ölkəyə daxil olmasında artıma səbəb olur. Tədqiqatın təhlili zamanı istifadə olunan müxtəlif məlumat nümunələri və qiymətləndirmə metodlarında xarici investisiyalar ilə ticarət xərcləri arasındakı güclü əlaqənin olduğu aşkar edilmişdir. Deyilə bilər ki, bu səbəbdən də ticarətin asanlaşdırılması ilə bağlı davamlı tədbirlərin görülməsi, ölkənin Sərhəddə Ticarət indikatoru üzrə mövqeyinin yaxşılaşdırılması investisiyaların ölkəyə cəlb edilməsinin önəmli şərtlərindəndir.

Dünya təcrübəsində, Çin və Taylandda tətbiq edilən “E-port” sisteminin ölkəmizə uyğun pilot konsepsiyasının hazırlanması vasitəsilə dövlət qurumları və özəl sektor, eləcə də təşkilatlar arasında informasiya təminatlığının artırılması mümkündür.[5] Sistem, yeni açılan Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və fəaliyyəti planlaşdırılan Ələt Xüsusi İqtisadi Zonasında aparılan əməliyyatlar üzrə koordinasiyanın təmin olunmasına da töhfə verə bilər. Ticarətin asanlaşdırılması prosesində informasiya təminatı önəmli olduğu üçün dövlət qurumları qədər özəl sektor da məlumatlığın təmin edilməsinə şərait yaratmalı və iki sektor nümayəndələri birgə fəaliyyət göstərməlidir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Grainger, A. (2008). Customs and trade facilitation: from concepts to implementation. World customs journal, 2(1), səh. 17-30
2. Dünya Bankı, Sərhədboyu ticarət metodologiyası, https://www.doingbusiness.org/en/methodology/trading-across-borders
3. Santa Gadea, R. (2015). Analysis of Experiences in Trade and Investment between LAC and Korea: The Case of Member Countries of the Pacific Alliance., İnter-Amerika İnkişaf Bankı.
4. Yang, J. (2009). Small and medium enterprises (SME) adjustments to information technology (IT) in trade facilitation: the South Korean experience (No. 61). ARTNeT tədqiqat işləri seriyasından.
5. https://www.bangkokpost.com/business/1361767/customs-improvements-to-lift-ranking
6. Dünya Bankının Doing Business hesabatları, 2004-2020-ci illər üzrə https://www.doingbusiness.org/en/doingbusiness
7. 7.Dövlət Gömrük Komitəsinin hesabatları, www.customs.gov.az
8. Yadigarov T. (2019) Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika; 128-149 səh. Bakı
9. Neary, P.J. (2008), Trade Costs and Foreign Direct Investment. International Review of Economics and Finance No.18(2009) səh. 207-218.

10.ÜGT (2019) Ticarətin Asanlaşdırılması Xidməti illik hesabatı, https://www.tfafacility.org/annual-report-2019

## NEFT VƏ QAZ SƏNAYESİNDƏ HİDRAVLİK YARILMANIN APARILMASI

**Bayramlı Rəşad**
***ADNSU, Magistr***
***resadbayramli147@gmail.com***

**Açar sözlər:** neft-qaz, hidravliki yarılma, perforasiya, qazma prosesi

**ABSTRACT**

The topic of hydraulic fracturing in the oil and gas industry consists of 5 page, and the report details the process of hydraulic fracturing, which is one of the most important technological processes in oil and gas production, and what operations are carried out before and after it. Note that the process of hydraulic fracturing allows oil or gas to come to the surface
**Key words:**. oil and gas, hydraulic fracturing, perforation, drilling process

**РЕФЕРАТ**

Тема ГРП в нефтегазовой отрасли состоит из 5 сейфов, в докладе подробно рассматривается процесс ГРП, который является одним из важнейших технологических процессов в нефтегазодобыче, а также какие операции проводятся до и после него. Отметим, что процесс ГРП позволяет нефти или газу выйти на поверхность.
**Ключевые слова:** нефть и газ, гидроразрыв пласта, перфорация, процесс бурения

"Fracking" - açıq qaya qatlarını dağıdıb və içəridə qalan nefti və ya qazı sərbəst buraxmaq üçün çox yüksək təzyiq altında su, qum və kimyəvi maddələrin yeraltına vurulmasıdır. Texniki cəhətdən fracking yeni deyil: Şirkətlər istismarı çətin olan qaya laylarından neft və qaz çıxarmaq üçün bu texnikanı on illərdir istifadə edirlər. Halliburton ilk dəfə 1949-cu ildə Kanzasdakı quyulardan qaz axınını artırmaq üçün bir hidrolik yarılmadan istifadə etdi.Şist daşından neft və ya qaz çıxarmaq üçün hidravlik yarılma və üfüqi qazma istifadə etmək bir sıra addımları əhatə edir{1}. Onlar aşağıdakılardır:

1) Əvvəlcə "neft quyusu" ya da çuxur qazla zəngin şist qatına qədər qazılmalıdır. Bu şist qatı 5000 futdan çox yerin altında ola bilər və qazma bir ay davam edə bilər. Yaxınlıqdakı yeraltı suların çirklənməsinin qarşısını almaq üçün quyu polad korpusla örtülmüşdür.

2) Qazma şist qatına çatdıqdan sonra yavaş-yavaş dönür və qaya boyunca bir mil və ya daha çox üfüqi olaraq qazmağa başlayır.

3) Partlayıcı yüklərlə yüklənmiş "dəlikli silah" quyunun dibinə endirilir və şist təbəqəsinin dərinliyindəki gövdənin üfüqi hissəsindəki kiçik dəlikləri deşir.

4) İndi həqiqi fracking və ya "tamamlama" mərhələsi gəlir: Su, qum və kimyəvi maddələrin qarışığı son dərəcə yüksək təzyiqlə quyuya vurulur və korpusdakı kiçik dəliklərdən keçir və şist daşını açır. Qum bu çatlaqları açıq saxlayır. Kimyəvi maddələr təbii qazın sızmasına kömək edir {2}.

5) "Geri qayıtma" mərhələsi: Su və kimyəvi maddələr quyudan yenidən çıxarılr və atılmaq və ya təmizlənmək üçün alınır.

6) Nəhayət, təbii qaz şistdən və quyudan yuxarıya axmağa başlayır və burada boru kəməri ilə istehlakçılara göndərilir. Tipik bir quyu 20-40 il ərzində hər gün minlərlə kub fut qaz çıxarmaqla qaz hasil edə bilər.



**Şəkil.1**. Hidravliki yarılma prosesi

Gövdəni deşdirməlisiniz və ətrafdakı formasiyaya müvafiq miqdarda ziyan verməlisiniz - həddindən artıq ziyan artıq quyu işlərində problem yarada bilər və kifayətli deyilsə məhsuldarlığınızı məhdudlaşdıra bilər {3}. Normalda, ayaq başına 4 ilə 8 arasında delik var və bu deliklər çuxurun diametri ətrafında müəyyən bir yayılma ilə aparılır - ən çox 60, 90 və 120 dərəcə (nəticədə altı, dörd və ya üç fərqli istiqamət).




**Şəkil.2.** Perferasiyada yayılma bucaqları

Proses, hədəf hissəni bağlamaq, uyğun təzyiq altında uyğun maye ilə qabığı su basmaq və sonra ittihamları partlatmaqdan ibarətdir. "Balanssız" təzyiqin ətrafdakı formasiyadan bir az daha az olduğunu göstərir və bu, dərhal perfun ətrafındakı zibilləri təmizləməyə başladığı üçün prosesdə faydalıdır.

"Dəliyin Uzunluğu" və "Giriş Dəlik ölçüsü", perforasiya dizaynının iki müzakirə olunan elementidir. Bu elementləri idarə etmək üçün yüklərin forması və partlatma gücü zəiflədilir.



**Şəkil.3.** Güllənin formasına görə müxtəlifliklər

Boru və qablaşdırma: Yuxarıda göstərdiyim kimi, perforasiya mərhələsində digər proseslər həyata keçirilir, ən başlıcası istehsal borularından sonra çınqıla qablaşdırma aparılır. İstehsal borusunu (karbohidrogenlərin səthə axacağı) gövdəyə qoyduqdan sonra, bu borularla qabıq arasındakı boşluq doldurulmalıdır {4}.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://www.ipaa.org/fracking/
2. https://www.cred.org/explore/is-fracking-regulated/
3. https://www.e-education.psu.edu/png301/node/729
4. https://www.fractracker.org/resources/oil-and-gas-101/process/

# ON THE STRUCTURE OF THE OFFENDER'S IDENTITY

**Bayramova Dilara Eyvaz**
***Western Caspian University***

The identity of the offender is a multifaceted concept, as it is studied not only by psychologists, but also by lawyers dealing with the development of issues related to criminal law and procedure, criminology and forensic science. This problem is one of the central problems in legal psychology.The notion of the identity of the offender means the identity of the person guilty of committing a socially dangerous act prohibited by law under the threat of criminal prosecution, his social nature, the complex features that characterize him and the system of relations. When studying the psychological aspects of the offender's personality, it is very important to focus on its structure. The structure of the offender's personality includes a set of social – demographic and social – psychological characteristics. Social – demographic characteristics include gender, age, marital status, financial status, education, etc. Social – psychological traits include 4 important substructures:

1. Directions – are a set of relatively stable personality traits
2. Practice substructure – knowledge, habits etc
3. Mental reflection and self – control substructure
4. Temperament and other biologically, hereditary conditioned substructure

5. Character substructure

Studying each of these characteristics helps to determine the type of crime, the motive for the crime and whether the person is in fact a criminal.

## DƏRƏLƏYƏZ TOPONİMLƏRİNİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

**Bayramov Aslan, Niftiyeva Vəfa**
***Sumqayıt Dövlət Universiteti***
***Vafaniftiyeva14@gmail.com***

**Açar sözlər:** toponim, etnonim, oronim, oykonim, komponent.
**Key words:** toponym, ethnotoponym, oronim oykonim, component
**Ключевые слова:** топоним, этнотопоним, ороним, ойконим, коморнент

Dərələyəz toponimlərini tədqiqi zamanı maraqlı mövzu kimi dəiqqəti çəkən mətləblərdən biri də onların qrammatik xüsusiyyətləridir. Qrammatik cəhətdən toponimlər morfoloji və sintaktik yolla yaranır. Dərələyəz mahalı ərazisində qeydə alınmış xüsusiyyətlərə görə toponimlər sintaktik baxımdan belə qruplaşdırıla bilər: İsmi və feili birləşmə modelində formalaşan toponimlər.

Məlumdur ki,:"İsmi birləşmələr adı altında əsas sözü adlarla və ya substantivləşmiş bir sözlə ifadə olunan birləşmələr nəzərdə tutulur.İsmi birləşmələriki yolla əmələ gəlirr: 1.analitik yolla; 2.sintaktik yolla.

"Analitik yolla əmələ gələn ismi birləşmələrdə xüsusi şəkilçidən istifadə olunur. Belə birləşmələrin əmələ gəlməsində əsas rolu söz sırası və intonasiya oynayır. Analitik yolla ismi birləşmələr əmələ gəlməsində bəzən köməkçi sözlərdən də (qoşmalardan) istifadə olunur. Sintetik yolla əmələ gələn ismi birləşmələrdə şəkilçilər əsas vasitə hesab olunur".(1.47)

İsmi birləşmələr iki yerə ayrılır: 1.Təyini söz birləşmələri. 2.Təyini söz birləşmələrinə daxil olmayan.

Təyini söz birləşmələri təyinlə təyin olunanın birləşməsindən əmələ gəlir. Təyini söz birləşmələrinin üç növü mövcuddur. a)birinci növ təyini söz birləşmələri ; b)ikinci növ təyini söz birləşmələri; c)üçüncü növ təyini söz birləşmələri.

Birinci növ təyini söz birləşmələrinin birinci tərəfi isimlə,sifətlə, say, əvəzlik və feili sifətlə ifadə olunur. İkinci tərəf isə bir qayda olaraq isimlə və ya substantivləşmiş hər hansı sözlə ifadə olunur.

Birinci növ ismi birləşmə modelində formalaşan oykonimlər: Çaykənd, Başkənd, Pəyədərə, Ortakənd, İstisu, Ağdərə, Qaraqaya, Həsənkənd.

Birinci növ təyini söz birləşmə modelində olan oronimlər: Təhlədüşən yurd, Qısır yurd, Qısır dağ, Qazax dərə, Göy dərə, Göy dağ, Qızıl təpə, Ağ yoxuş, Dəlik təpə, Əyri qar, Sarı yer, Dəmir təpə, Boz yoxuş.

Birinci növ modelinə əsasən yaranan hidronimlər: Arpa çay, Püsyan çay, Daş körpü çay, Dərəyurd çayı, Cul çayı, Arınc çayı.

Birinci növ modelində formalaşmış hidronimlər: Topdaş bulağı, Alma bulağı, Civci bulağı, Şahbulaq, Qərəmə bulaq, Qara su, Şahnaz bulaq, Şirin bulaq, Dəlikdaş bulağı, Yastı bulaq, Turş su, Bal bulaq, Daş bulaq.

Birinci növ modelində formalaşmış göllər: Lal göl, Ala göllər, Qannı göl, Qazdı göl, Həsənuçan göl, Yarpızlı göl, Balıqlı göl.

Birinci növ modelində formalaşan biçənəklər (oronimlər): Düz biçənəklər

Birinci növ modelində olan kövşənlər: Şahbulaq, Dərə yurd.

Dərələyəz mahalında olan oronimləri qruplaşdırdığınız zaman aşağıdakı mənzərə ortaya çıxır.

1. Hidronimlərdən törənən birinci növ oronimlər: Sutökülən yer, Çay arxac, Sulu dərə, Göl yurd, Çayyuxarı biçənək, arx qırağı dərə.

2. Etnonimlərdən törənən birinci növ oronimlər: Qazax dərə, Qısır yurd. 3.Zoonimlərdən törənən birinci növ oronimlər: Qurdlu güney, Böçəkli yurd, Siçanlı yurd, Kəklikli dərə, Birəli dağ, Bildirçinli yer, Dərə uçan yer, Porsuğ təpə.

4. Fitonimlərdən törənən birinci növ oronimlər: Qamışlı yurd, Cəvizli dərə, Zirincli meşə, Çiçəkli biçənək, Kolluq dərə, Tikanli düz, Gilasdı dərə,Alçalı biçənək.

Dərələyəz qəzasında ikinci növ təyini söz birləşməsi modelində mövcud olan toponimlər də az deyildir.

1. Dərələyəz qəzasında ikinci növ təyini söz birləşməsi modelində formalaşan oronimlər: Vers dağı, Cığatag yurdu, Çıraqlı yurdu, Çıraqlı dərəsi, Qazaxlar yurdu, Xaç düzü, Ələyəz dağı, Əsmər dərəsi, Kəngərli dağı.

2. Birinci komponenti antroponim, ikinci komponenti “dağ coğrafi nomeni ilə ifadə olunan ikinci növ təyini söz birləşməsi formasıda olan toponimlər: Şah mirzə dağı, Abduləsər dağı, Hacı Eyvaz dağı, Həsənqulu dağı.

3. Birinci komponenti antroponim, ikinci komponenti “dərə” nomeni ilə ifadə olunan ikinci növ təyini söz birləşməsi modelində olan antroponimlər: Əli dərəsi, Hacı dərəsi, Xıdırlı dərəsi, Ağalar dərəsi, Səfo dərəsi, Vəli dərəsi, Xudamoğlu dərəsi, Həsənalı dərəsi, Alı dərəsi, Süleyman dərəsi.

4. Birinci komponenti antroponim, ikinci komponenti “kaha” coğrafi nomeni ilə ifadə olunan, ikinci növ təyini söz birləşməsi modelində olan antropooronimlər: Şərəf kahası, Əsəd kahası.

5. Birinci komponenti antroponim, ikinci komponenti “təpə” coğrafi nomeni ilə ifadə olunan ikinci növ təyini söz birləşməsi modelində olan antropooronimlər: murad təpəsi, Qurban təpəsi.

6. Birinci komponenti antroponim, ikinci komponenti, “yer” coğrafi nomeni ilə ifadə olunan ikinci növ təyini söz birləşməsi modelində olan toponimlər: Baxışlı yeri, Hacı İsmayıl yeri, Molla Mirzə yeri, İmamlı yeri.

7. Birinci komponenti antroponim, ikinci komponenti “bulaq” nomeni ilə ifadə olunan ikinci növ təyini söz birləşməsi modelində olan hidronimlər: Səfo bulağı, Məmməd bulağı, Knyaz bulağı, Bəhman bulağı.

8. Birinci komponenti antroponim, ikinci komponenti “meşə” coğrafi nomeni ilə ifadə olunan ikinci növ təyini söz birləşməsi modelində olan antroponimlər: Sona çuxuru meşəsi, Səfo meşəsi, Hava meşəsi, Kəlbəsüleyman meşəsi, Abtalıb meşəsi.

9. Birinci komponenti antroponim, ikinci komponenti “pir” “ocaq” nomeni ilə ifadə olunan ikinci növ təyin söz birləşməsi modelində olan toponimlər: Alıqulu ocağı.

Dərələyəz qəzasında mövcud olan toponimlərin müəyyən bir qismi üçüncü növ təyini söz birləşməsi modelinə uyğun olaraq yaranmışdır.

1. Birinci komponenti antroponim, ikinci komponenti “meşə”coğrafi nomeni ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi modelində olan antroponimlər: Təhməzin meşəsi, Şəmilin meşəsi, Əzizoğlunun meşəsi, Nazpərinin meşəsi, Mələyin meşəsi.

2. Birinci komponenti antroponim, ikkinci komponenti “tala” coğrafi nomeni ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi modelində olan antroponimlər: Nəsirin talası, Nəsibin talası.

3. Birinci komponenti antroponim, ikinci komponenti “dərə” coğrafi nomeni ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi modelində olan toponimlər: Şahbazın dərəsi, Nəsibin dərəsi, Köçərlinin dərəsi, Usubun dərəsi, Səməndin dərəsi, Talıbın dərəsi, Mustafanın dərəsi.

4. Birinci komponenti antroponim, ikinci komponenti “aşırım” coğrafi nomeni ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi modelində olan antropooronim: Səlim gədiyinin aşırımı.

5. Birinci komponenti antroponim, ikinci komponenti “ocaq” “pir” nomeni ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi modelində olan toponimlər: Məminin ocağı, Seyid Qasımın ocağı, Qara Seyidin qəbri, Alıqulunun ocağı.

6. Birinci komponenti antroponim, ikinci komponenti “çınqıl” coğrafi nomeni ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi modelində olan antropooronimlər: Nazpəri meşəsinin çınqılı, Təhməzin çınqılı, Şahbazın çınqılı.

7. Zoonimlərdən törənən üçüncü növ təyini söz birləşməsi modelində formalaşan toponimlər: Pələngənin dərəsi, Pələngənin meşəsi, Dərəzözü aşırımı, ayılı dərənin çınqılı, Dərədaşının yolu, Quşçunun biçənəyi, Ayı bulağının dərəsi.

8. Üçüncü növ təyini söz birləşməsi modelində olan və aykonimlərdən törənən aronimlər: Mozun çınqılı, Horsun kahası, Culun meşəsi.

9. Üçüncü növ təyini söz birləşməsi modelində olan fitonimlər: Qızıl almanın altı, Qanqallığın biçənəyi, Cəvizdi dərənin yolu, Armudduğun yalı, Armud ağacının biçənəyi, Almalığın biçənəyi, Alçalığın dərəsi, Almalığın yalı, Zəyliyin dərəsi, Şanun biçənəyi, Həmörsünlüyün biçənəyi.

Dərələyəz qəzasında olan mürəkkəb tponimlər tərkiblərinə daxil olan komponentlərə görə müəyyən quruplara bölünə bilər. Bu toponimlərin tərkibinə daxil olan komponentlər: qala, arx, baz, sarı, təpə,tala, bəy, xan, ağa, kilsə, vəng, daş, dərə, çay, qışlaq, qaya, qara, bulaq, göl, yol və s.sözlərinin vasitasilə yaranır.

1. Tərkibində "kilsə" komponenti olan toponim: Ağkilsə.

2. Tərkibində "bulaq" komponenti olan hidronimlər: Qırxbulaq, Şahlıbulaq, Qərəməbulaq, Gözəbulaq, Qocbulaq.

3. Tərkibində "daş" komponenti olan abidələr: Qaladaş, Qaçdaş.

4. Tərkibində "barmaq" komponenti olan abidələr: Beşbarmaq.

5. Tərkibində "xana" komponenti olan abidələr: Gümüşxana.

Bununla yanaşı, mürəkkəb toponimlər onların tərkibindəki elementlərin aid olduğu nitq hissələrinə görə qruplaşdırılıb təsnif edilə bilər.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Abdullayev. Ə, Seyidov. Y, Hədənov. A Müasir Azərbaycan dilinin Sintaksisi Bakı, "Şərq-Qərb", 2007, 424.s
2. Səfolu. A Dərələyəzli günlərim. Sumqayıt, 2013. 742.s
3. Dəmirçizadə. Ə Azərbaycan ədəbi dilinin tarixi I hissə, Maarif, 1979. 267.s


## HALAL OTEL MÜƏSSİSƏLƏRİNİN QƏBUL EDİLƏN XİDMƏT KEYFİYYƏTİNİN MÜŞTƏRİ DƏYƏRİNƏ TƏSİRİ


**Bayramov Əlövsət Soltan oğlu**
***BDU, Coğrafiya fakültəsi, II kurs magistr***
***Elmi rəhbər: Rəhman Səfərov***
***bayramov.lvs@gmail.com***



**Açar sözlər:** Halal Turizm, Xidmətlər, Yeni Otellər, İnanclar.
**Key Words:** Halal Tourism, Services, New Hotels, beliefs.
**Ключевые слова:** Халяльный Туризм, Услуги, Новые Отели, Убеждения.


Qloballaşmanın təsiri ilə hər sektorda rəqabət şərtləri ayrı-seçkilik etmədən xeyli artdı. Qloballaşma və informasiya texnologiyalarının təsiri və xidmətlərin asanlıqla təqlidinə görə xidmət sektorundakı rəqabət şərtləri çətinləşir. Rəqabətin intensivliyinin qloballaşma effekti xaricində fərqli tələb və ehtiyacları olan yeni müştəri kütlələrinin meydana çıxması və müəssisələr tərəfindən yeni xidmət tələblərinin ödənilməsi səyləri də təsir göstərir. [1, 22]

Dünyada turizm sənayesinə ehtiyac var və Türkiyə son dərəcə sürətlə inkişaf edən və böyüyən bir sahədir. Turizm sənayesində hər gün yeni bir xidmət növü və xidmət prosesi ortaya çıxır. Turizm sənayesinin əsas amillərindən biri insanlardır və insanların (müştərilərin) istək və ehtiyaclarının sonu yoxdur. Müasir marketinqin məqsədi istehlakçı məmnuniyyətini təmin etməkdir. İstehlakçı məmnuniyyəti; Yalnız istehlakçıların tələbləri və bazara mal və xidmətlər tədarükü ilə mümkündür. Sonu olmayan və hər bir fərd üçün fərqli olan bu istək və ehtiyacların ödənilməsi daxilində turizm sənayesində daima yeni bir xidmət növünün ortaya çıxması qaçılmazdır.[5]

Xüsusilə son illərdə dünyada dini həssaslığı yüksək olan müsəlmanlar üçün halal məhsullar, xidmətlər və proseslərlə bağlı bir qəbul və tələb artmaqdadır. İndi hər sektorda halal məhsul və xidmət tələb edən şəxsləri görmək mümkündür və bu şəxslərin ən çox tələb etdiyi sahə turizm sənayesidir. Bu səbəbdən, "Halal Anlaşma" olaraq da bilinən İslam qaydalarına uyğun məhsul və xidmətlər istehsalında turizm müəssisələri öndədir. Dindar müsəlman müştərilərin istək və ehtiyaclarını tam təmin etmək və sadiq müştərilər yaratmaq üçün otellər konsepsiyalarını halal konseptli otellərə çevirməli və bu konsepsiya ilə uyğun məhsullar, xidmətlər və proseslər təklif etməlidirlər. Halal konseptli otellər təklif etdikləri xidmətlərə və bu xidmətləri göstərmə tərzlərinə görə digər otellərdən fərqlənir. Bununla birlikdə, təklif olunan xidmət və ya bu xidməti müştərilərə təqdim etmə yolları nə qədər fərqli olsa da, "Müştəri sədaqətinin yaradılması rəqabət üstünlüyü təmin edir, davamlılığı və gəlirliliyini artırır" əsas şüarı halal konseptli otellər üçün də keçərlidir. Bu müddətdə təklif etdikləri xidmətlərin keyfiyyətini ölçməli və müştərilərin qəbul etdiyi dəyərin nə olduğunu bilməlidirlər.[3]

Bundan əlavə, halal konsepsiya otellərində qəbul olunan xidmət keyfiyyətinin müştəri sədaqəti və müştəri dəyərinə təsirinin yüksək mövsümdə və aşağı mövsümdə bir-birindən fərqlənib-edilməməsini müəyyənləşdirmək məqsədi daşıyırdı. Müştəri sədaqəti və müştəri sədaqəti anlayışı ilə bağlı ədəbiyyatda fərqli tədqiqatçılar tərəfindən verilən təriflərin olduğunu söyləmək mümkündür. Bu təriflərdən birinə görə müştəri sadiqliyi; Müştərinin başqa alternativlərin olduğu bir mühitdə müəyyən bir quruma, bir məhsula, bir xidmətə və ya bir markaya sədaqəti və satın alma meyli və istəyi təsadüfi deyil. [6,146-167]

Halal Turizm, İslamın qaydalarına və inanclarına uyğun olaraq turizmin tərifindəki "yerləşmədən qaynaqlanan ehtiyacların" qarşılanması ilə əlaqəli fəaliyyətlərdir. Turizm sənayesindəki xidmət müəssisələrində İslam tərəfindən qadağan edilmiş donuz əti və spirt kimi məhsullar yoxdur, müştərilərin namaz qılmalarına köməkçi imkanlar təqdim edilir, hovuz və SPA kimi bəzi xidmətlər kişilər və qadınlar üçün ayrı bölgələrdə təklif olunur.

Halal Otel Konsepti, İslami qaydalara uyğun olaraq dizayn edilmiş və əsas funksiyası bir otel tərifində olduğu kimi bir gecədə qalma ehtiyacını təmin etmək üçün bir təsisdir və bu xidmətdən əlavə İslam qaydalarına uyğun vahidləri də əhatə edir. yemək, içmə və əyləncə ehtiyacları üçün inanclar. Yuxarıda qeyd edildiyi kimi, bu müəssisələrdə İslam dininin qadağan etdiyi donuz əti və alkoqol kimi məhsullar yoxdur, müştərilərin namaz qılmalarına kömək etmək üçün imkanlar təmin edilir və hovuzlar və SPA kimi bəzi xidmətlər kişilər və qadınlar üçün ayrı olaraq təklif olunur. Halal bir oteldə vacib olan, alınan xidmətlərin caiz olmasıdır, yəni İslam dini tərəfindən qadağan edilməməsidir.[2]

Anketlərdən əldə edilən nəticələr kompüterdəki SPSS (Sosial Elmlər üçün Statistik Paketlər) proqramı istifadə edilərək qiymətləndirilmişdir. Sayı, faiz, orta və standart sapma məlumatların qiymətləndirilməsində təsviri statistik metodlar kimi istifadə edilmişdir. T testi iki müstəqil qrup arasındakı kəmiyyət davamlı məlumatları müqayisə etmək üçün və bir tərəfli Anova testi isə ikidən çox müstəqil qrup arasında kəmiyyət davamlı məlumatları müqayisə etmək üçün istifadə edilmişdir. Anova testindən sonra fərqləri təyin etmək üçün Scheffe testi tamamlayıcı post-hoc analiz kimi istifadə edilmişdir. Əldə edilən tapıntılar 95% güvən intervalı və 5% əhəmiyyət səviyyəsində qiymətləndirilmişdir. [ 7, 79-100]

Tədqiqatın əhatə dairəsi və məhdudiyyətləri bunlardır:

v Tədqiqat bütün il işləyən halal konsepsiya otellərinin müştəriləri üçün yüksək və aşağı mövsümdə aparılmışdır.

v Tədqiqat dörd və beş ulduzlu halal konsepsiya otelləri ilə məhdudlaşdı.

v Tədqiqat asanlıqla əldə edilə bilən və araşdırmada icazə ala bilən 12 fərqli otelin müştəriləri ilə məhdudlaşdı.

v Tədqiqatlar yüksək və aşağı mövsümlə məhdudlaşdırılmışdır.

v Tədqiqat əvvəllər etibarlılığı və etibarlılığı sınanmış qəbul edilmiş xidmət keyfiyyəti, müştəri sədaqəti, müştəri dəyəri tərəziləri və şəxsi məlumat forması ilə məhdudlaşdı.

Xidmətlərdə keyfiyyət, dəyər və sədaqət müştərilər tərəfindən müəyyən edilir. Bu səbəbdən, tətbiq ediləcək halal konseptli dörd və beşulduzlu otellərin xidmət keyfiyyətini, dəyərini və sədaqətini ölçməyi hədəfləyən araşdırmanın əsas kütləsi, həyata keçiriləcək otellərin müştərilərini təşkil etmişdir. Araşdırmada tam sayma aparmaq mümkün olmadığı üçün nümunə götürmə metodundan istifadə edilmişdir. Məhdudiyyətlərə görə seçmə metodu olaraq rahatlıq seçmə üsulu istifadə edilmişdir.

Türkiyə iqtisadiyyatında xidmət sektorunun əhəmiyyəti hər keçən gün artır. Xidmət keyfiyyəti, müştəri sədaqəti və müştəri dəyəri xidmət sektorunda fəaliyyət göstərən müəssisələrin uğur qazanmasında rol oynayan vacib amillərdəndir. Keyfiyyət, sədaqət və dəyər vacib məsələlər kimi görünsə də, xidmət anlayışında bu anlayışların düzgün ölçülməsi, şübhəsiz ki, əhəmiyyətini gündən-günə artır. Keyfiyyəti, dəyəri və sədaqəti təyin edən ən vacib amil müştəridir.

Tədqiqatlar çərçivəsində hər iki mövsüm üçün aparılan təhlillər nəticəsində, qəbul edilən xidmət keyfiyyəti ilə müştəri sədaqəti arasında bir əlaqə olduğunu söyləmək mümkündür. Bununla birlikdə, ətraflı bir analiz edildikdə, müştəri sədaqətinin determinantı olaraq qəbul edilən xidmət keyfiyyəti ilə əlaqəsi araşdırıldıqda, aşağı mövsüm halal konsepsiya otelinin qəbul edilən xidmət keyfiyyəti arasındakı əlaqəni söyləmək mümkündür. müştərilər və yaratdıqları müştəri sadiqliyi çox güclüdür. Bu münasibət yüksək mövsümdəki halal konseptli otel müştəriləri üçün eyni deyil. Başqa sözlə, aşağı mövsümdə halal konsepsiya otellərindən faydalanan müştərilər üçün qəbul edilən xidmət keyfiyyəti, yüksək mövsümdə halal konsepsiya otellərindən faydalanan müştərilərdən daha vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Bayuk, N. ve Küçük F. (2007), „Müşteri Tatmini ve Müşteri Sadakati İlişkisi‟ Marmara Üniversitesi İ.İ.B.F. Dergisi, 22 (1),

2. Buzcu, Z. (2010), „Otel İşletmelerinde Hizmet Kalitesi Ölçümü ve Karşılaştırması: Adana Örneği‟ Basılmamış Yüksek Lisans Tezi, Çukurova Üniversitesi, Sosyal Bilimleri Enstitüsü.

3. Cankül, D. (2011), „Otel Seçimine Etki Eden Faktörlerden Biri Olarak Dini Hayat Tarzlarının Etkisi Üzerine Bir Alan Araştırması‟ Basılmamış Yüksek Lisans Tezi, Gazi Üniversitesi, Eğitim Bilimleri Enstitüsü.

4. Durmaz, Y. (2006), „Modern Pazarlamada Tüketici Memnuniyeti ve Evrensel Tüketici Hakları‟ Yaşar Üniversitesi Dergisi, 1 (3), s. 255-266.

5. Ertürk, M. (2011), „Türkiye‟deki Otel İşletmelerinde Hizmet Kalitesinin Ölçülmesine Yönelik Bir Alan Araştırması‟ Basılmamış Doktora Tezi, Gazi Üniversitesi, Eğitim Bilimleri Enstitüsü.

6. Haciefendioğlu, Ş ve Koç Ü. (2009), „Hizmet Kalitesi Algılamalarının Müşteri Bağlılığına Etkisi ve Fast-Food Sektöründe Bir Araştırma‟ Kocaeli Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 18 (2), s. 146-167.

7. Kanibir, H. A. ve Nart S. (2006), „Hizmet Sağlayıcılarının Değer Yaratma Faaliyetlerinin Endüstriyel Müşteriler Cephesinden Algılanılış Biçimi: GSM Hizmetleri Üzerine Bir Araştırma‟ 11. Uluslararası Pazarlama Kongresi Bildiriler Kitabı, Ss: 79-100, Dokuz Eylül Yayınları, İzmir.

# “BULLA-DƏNİZ” YATAĞINDA NEFT VƏ QAZ QUYULARININ QAZILMASI ZAMANI FORMALAŞAN ŞLAMIN EMALININ EKOLOJİ VƏ İQTİSADİ ÜSTÜNLÜKLƏRİ

**Bəylərli Əfqan Tofiq oğlu, Məmmədova Arzu, Babayev Mirməhəmməd, Seyidov Nurlan, Məmmədova Sahilə**

***SOCAR, “Kompleks qazma işləri” tresti***

***Azərbaycan Texniki Universiteti***

*sahilememmedova84@gmail.com*, *afqan.baylarli@socar.az*, *nurlanseyidnurov@gmail.com*, *mehemmedbabayev777@gmail.com*, *memmedovaarzu712@gmail.com*

Neft-qaz sənayesinin əsas böyük həcmli və ən təhlükəli tullantısı qazma şlamı hesab olunur. Sənayenin istehsalat proseslərində yaranan digər tullantılara nisbətən qazma şlamının emalı və ya təkrar istifadəsinin təşkil edilməsi iqtisadi baxımdan çox çətin lakin ətraf mühitin mühafizəsi baxımından çox dəyərli prosesdir. Belə ki, qazma şlamının tərkibində qazma əməliyyatlarında istifadə olunan məhlulun tərkibində kimyəvi birləşmələrlə yanaşı yerin təkindən çıxan və ətraf mühitə bəzi hallarda təsiri məlum olmayan və ya radioaktiv birləşmələrə kimi təhlükəli ola biləcək maddələrin olması mümkündür. Xəzər dənizində aparılan qazma işləri zamanı formalaşan şlamın emalı və ya təkrar istifadəsi prosesinin mümkün olması dənizin ekoloji

baxımından mühafizə olunmasına və eyni zamanda qazma əməliyyatlarında iqtisadi baxımdan qazanc əldə olunmasına səbəb ola bilər.

Xəzər dənizində böyük qaz potensialına malik "Bulla-dəniz" yatağında quyularının qazılması zamanı VIII horizontun açılması məqsədilə layihə sənədlərinə əsasən 6500 m – dək karbohidrogen əsaslı qazma məhlulu tətbiq etməklə qazma işləri aparılır və nəticədə təxminən 1000 tona qədər qazma şlamı formalaşır ki, bu həcmdə qazma şlamının tamamilə basdırılma yolu ilə utilizasiya olunması həm iqtisadi və həm də ekoloji cəhətdən əlverişli deyil. Qeyd olunan həcmdə qazma şlamının emalı prosesinin təşkil edilməsi basdırılma yolu ilə utilizasiyası risklərinin aradan qaldırılmasına və eyni zamanda emal prosesi zamanı alınan məhsulun qazma əməliyyatlarında yenidən istifadə edilməsi qazma şirkətlərinin olduqca bahalı olan karbohidrogen əsaslı məhlullarının alınması xərclərinin müəyyən qədər azalmasına səbəb ola bilər. Azərbaycan neft sənayesində son dövrlərdə karbohidrogen əsaslı qazma şlamının emalı prosesi SOCAR tərəfindən Qaradağ rayonunda "Tullantıların İdarə edilməsi Mərkəzi"ndə (TİEM) təşkil edilmişdir. TİEM-də Almaniya istehsalı olan 3 ədəd VacuDry qurğusu vasitəsilə istilik enerjisindən və vakuum-distillə metodu ilə karbohidrogen əsaslı qazma şlamı emal edilir və prosesin məhsulu olan yağ qarışığı quyuların qazılması əməliyyatlarına cəlb edilir.

VacuDry qurğusunun iş prinsipi xüsusi hazırlanmış quruducu kamerada termodesobsiya üsulu ilə tərkibində karbohidrogen olan tullantıların qaynama tempuraturundan artıq dolayı yolla qızdırılmasından, vakuumdan istifadə etməklə buxarlanan çirkləndiricilərin tutulmasından və soyudularaq bərpa olunmasından ibarətdir. Termodesorbsiya qurğusunun gövdəsi və oxu qızdırılmış yağ vasitəsilə qızdırılır. Proses zamanı quruducu kameranın məkəzindəki fırlanan oxun üzərindəki qollar intensiv qarışdırmanı təmin edir. Buxarlanan axın yüksək effektli filtr blokundan keçərək buxarın tərkibində olan tozlar tutulur. Kondensasiya yolu ilə xüsusi işlənilmiş istilik mübadiləsi nəticəsində buxar axınının tərkibində çirkləndirici maddələr ayrılır. Qurğuda öz-özünə alışmanın (partlayış) qarşısının alınması məqsədilə sistemə əlavə azot qazı verilir. Qalıq buxar və qazlar vakuum blokundan keçərək, aktiv kömür filtrlər vasitəsilə çirkləndiricilərdən təmizləndikdən sonra atmoferə buraxılır.

## ƏZİZ MİRƏHMƏDOVUN KİTABŞÜNASLIQ FƏALİYYƏTİ

**Cabarova Ülkər Tahir qızı**
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının magistrantı***
***Bakı Dövlət Universiteti***

**Açar sözlər:** Kitab, Əziz Mirəhmədov, Ədəbiyyat, Azerbaycan, Əlyazma.
**Key words:** Book, Aziz Mirahmedov, Literature, Azerbaijan, Manuscript.
**Ключевые слова:** Книга, АЗиз Мирохмёдов, Литература, Азербайджан, Рукопись.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Görkəmli şəxsiyyətlər xalqın zəkasını elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər. Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyat belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycan müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz naliyyəti heç vaxt unutmamalıyq!"

XX əsr mətnşünaslıq elminin təşəkkülündə misilsiz xidmətləri olan tanınmış ədəbiyyatşünas, tənqidçi və mətnşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Əziz Mirəhmədovun yaradıcılıq yolu ədəbi elmi fikrimizin qazandığı naliyyətləri, nəzəri araşdırmalarının istiqamətlərini bütün dolğunluğu ilə özündə əks etdirir.

Əziz Mirəhmədovun yaradıcılığına nəzər saldıqda onun nə qədər rəngarəng və çoxşaxəli olduğunu görmək mümkündür. Kitabşünaslıq, ədəbiyyatşünaslıq, jurnalistika, müəllimlik, tərcüməçilik, tənqidçilik,

rəssamlıq, memarlıq kimi sənət növlərinin mahir bilicisi olan Əziz Mirəhmədov gələcəyimiz üçün böyük bir irs qoyub getmişdir.

Əziz Mirzəfeyzulla oğlu Mirəhmədov Azərbaycan Pedeqoji İnstutunun Filologiya fakültəsinə qəbul olmuş, 1941-ci ildə ali tehsilini başa vurmuşdur. Azərbaycan Dövlət Universitetinə dəvət olunmuş və Azərbaycan ədəbiyyatı kafedrasında baş müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

İstesadı,dərin düşüncəsi ilə diqqətləri özünə cəlb etməyə başlayan gənc müəllim görkəmli alimlər Həmid Araslı və Məhəmməd Arif tərəfindən akademiyanın Nizami adına Ədəbiyyat və dil İnstutuna dəvət edilir. O, 1955-ci ildə "Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığı mövzusunda namizədlik, 1976-cı ildə Cəlil Məmmmədquluzadə və XX əsrin əvvəllərində Azərbaycan dövi mətbuat məsələləri" mövzusunda doktorluq dissertasiyaları müdafie edir.

Əziz Mirəhmədov yaradacılığa hələ tələbə ikən başlamiş, ilk məqaləsi 1938-ci ildə "Müəllim" qəzetində" çap olunmuşdur. Sonradan 500-dən çox elmi-tənqidi və publisistik əsərləri, 17 monoqrafiyası, 18 kitabı çap edilmişdir.

Əziz Mirəhmədov Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olan kitab və kitabçılıq işinə yüksək dəyər vermiş, kitabşünaslığa dair mühüm elmi fikirlər formalaşdırmışdır. Kitabşünaslığın ümumi tipologiyasının müəyyənləşdirilməsində, onun inkişaf etdirilməsi istiqamətində alimin xüsusi xidmətləri vardır.

Əziz Mirəhmədovun ilk böyük həcmli elmi məqaləsi 1963-cü ildə yazdığı "Azərbaycan kitabı" adlı biblioqrafik göstəricinin 1-ci cildinə yazdığı müqəddimədir. Giriş məqaləsi kimi yazılmış bu elmi əsər 34 səhifə həcmindədir. Alim bu məqalədə kitabın növləri və tipləri haqqında da fikirlər söyləmişdir. O yazır: "Əlyazma kitabının ən çox yayılmış növləri divan, külliyyat, şərh, təzkirə, cüng, risalə, tarix, zey və s.- dir".

Sözügedən müqəddimədə Əziz Mirəhmədov yazı və yazı materialları, tarixi əhəmiyyətə malik olan əlyazma və çap kitabları, həmçinin Azərbaycan kitabının yaranması və inkişafı ilə bağlı elmi mülahizələr irəli sürür. O, bu barədə belə qeyd edir: "Azərbaycan mədəniyyətinin ən qədim kitaba qədərki yazılı abidələri...qayaüstü yazı və rəsmlərdən, qəbir kitabələrindən, müxtəlif memarlıq abidələrinin, habelə ev əşyalarının, zinət şeylərinin epiqrafik ünsürlərindən ibarət olmuşdur" (2, 37).

Kitaba, mütaliyəyə yüksək dəyər verən, kitabın cəmiyyətdə və insan fəaliyyətində misilsiz rolunu qiymətləndirən Əziz Mirəhmədov yazır: "Kitab mədəni irsin, xalqın mənəvi sərvətinin qiymətli bir hissəsi, siyasi-idoloji mübarizənin qüdrətli vasitəsidir. Kitablar bizim müdrik babalarımızın yadigarı,tarixin canlı şahidləridir".

Əziz Mirəhmədovun kitabşünaslıq sahəsindəki böyük rolunu professor Bayram Allahverdiyev belə dəyərləndirir: "Oktyabr çevrilişinə qədərki dövrdə Azərbaycan əlyazma və çap kitablarının yaranması və inkişafı, Azərbaycan Sovet kitab mədəniyyətinin aktual problemləri, milli mətbuatın inkişafında C.Məmmədquluzadənin rolu, klassik yazıçı və şairlərimizin əsərlərinin toplanması, öyrənilməsi və nəşri, habelə bir sıra digər kitabşünaslıq problemləri görkəmli ədəbiyyatşünas və kitabşünas Azərbaycan EA-nın müxbir üzvü, filologiya elmləri doktoru Ə.Mirəhmədovun elmi yaradıcılığında xüsusi yer tutur. Onun Azərbaycan kitab mədəniyyəti ilə əlaqədar olan elmi tədqiqatları müasir kitabşünaslığın inkişafına güclü təkan və elmi istiqamət vermişdir" (2, 48).

Alim kitabşünaslıq fəaliyyətini 1970-ci illərdə daha da genişləndirmiş, kitabşünaslığın mühüm sahələrindən biri olan kitab tarixi, kitab nəşri tarixi, ümumiyyətlə, kitab mədəniyyəti və mətbuat tarixi üzrə qiymətli əsərlər yazmışdır. Bu mənada alimin "Azərbaycan kitabı" adlı çoxcildli biblioqrafiyanın II cildində müqəddimə əvəzi yazdığı "Azərbaycan sovet kitab mədəniyyəti 1920-1940-cı illərdə" adlı elmi məqaləsi və Hacı Həsənovla birlikdə yazdığı "Sovet Azərbaycanının kitab mədəniyyəti" (1975) Azərbaycan və rus dillərindəki monoqrafik oçerki xüsusi əhəmiyyətə malikdir (3).

Əziz Mirəhmədovun Cəlil Məmmədquluzadə yaradıcılığını yuksek səviyyədə araşdırmış, yazıçı ilə bağlı "Molla Nəsrəddin" kitabını yazmışdır. Kitabda əsasən Cəlil Məmmədquluzadənin 1902-1907-ci illərdəki publisistik və jurnalist fəaliyyətini sosial-siyasi tarixi şəraitlə əlaqələndirmiş, ictimai-siyasi mövqeyini şərh etmişdir.

Əziz Mirəhmədovun 1983-cü ildə "Maarif" nəşriyyatında çap edilmiş "Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər)" adlı irihəcmli kitabına kitab və kitabçılıq işinə dair bir sıra qiymətli əsərləri də daxil edilmişdir. Onlardan "Kitab mədəniyyətimiz yeni mərhələdə", "İstedad və mədəniyyət", "N.A.Nekrasov

irsinin Azərbaycanda yayılması tarixindən", "Cəlil Məmmədquluzadə irsinin nəşri məsələləri" və s. kimi məqalələri diqqəti cəlb edir.

Əziz Mirəhmədov "Kitab mədəniyyətimiz yeni mərhələdə" adlı məqaləsində Azərbaycanda 1920-ci ilə qədərki dövrdə mətbəələrin yaranmasını, naşirlərin kitabın nəşri və yayılması sahəsindəki fəaliyyətlərini təhlil edir. O, Azərbaycanın görkəmli yazıçı və şairlərindən A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, H.B.Zərdabinin və digərlərinin kitab nəşr etmək, mətbuat, nəşriyyat açmaq, kitab tərtib etmək kimi kitab və kitabçılıq işi sahəsindəki xidmətlərini ilk dəfə geniş şəkildə öyrənmiş, ümumiləşdirmiş və çox böyük elmi əhəmiyyəti olan mülahizələr irəli sürmüşdür. Həmçinin o, nəşriyyat sahəsində fəallıq göstərən Orucov qardaşları, N.Vəzirov, İ.Aşurbəyli, Ə.Müznib, M.Mikaylov, M.Mirbağırov və b. kitab və kitabçılıq işi sahəsindəki fəaliyyətlərini də ümumiləşdirmiş, maraqlı, yeni və əhəmiyyətli fikirlər söyləmişdir (3).

Azərvaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 fevral 2020-ci il tarixində imzaladığı "Əziz Mirəhmədovun 100 illik yubileyi haqqında" Sərəncamında deyilir: "Professor Əziz Mirəhmədov ömrünün altmış ilini ədəbiyyat tariximizin xüsusən XIX əsri və XX əsrin əvvəllərini əhatə edən dövrünün sistemli tədqiqinə həsr etmiş, sanballı araşdırmaları ilə milli ədəbiyyatşünaslıq elmini zənginləşdirmişdir. Alimin Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və Məhəmməd Hadi kimi qüdrətli ədəbi şəxsiyyətlər haqqında ictimai fikir cərəyanları ilə bədii fikrin əlaqələrini vəhdətdə götürən fundamental əsərləri ədəbiyyatşünaslığımızın nailiyyətləri sırasında özünəməxsus yer tutur. Əziz Mirəhmədovun Azərbaycan romantizminin estetik prinsiplərinə dair ümumiləşdirici mülahizələri bu istiqamətdə sonrakı tədqiqatlar üçün elmimetodoloji baza rolu oynamışdır" (1).

Araşdırmalardan belə qənaətə gəlmək olar ki, professor Əziz Mirəhmədov Azərbaycan kitab mədəniyyətinə dair qiymətli əsərlər yazmış, Azərbaycan kitabşünaslığını əhəmiyyətli dərəcədə inkişaf etdirmişdir. Alimin kitabşünaşlıq sahəsindəki elmi fəaliyyətləri ilə bağlı daha çox araşdırmalar aparılmalı, gələcək nəsillərə çatdırılmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. "Əziz Mirəhmədovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı: 28 fevral 2020-ci il // http://anl.az/new/az/direction-view/640-Eziz-Mirehmedovun-100-illikyubileyinin-qeyd-edilmesi-haqqinda-Azerbaycan-Respublikasi-PrezidentininSerencami
2. Bayram Allahverdiyev. Kitabşünaslığın əsasları: Monoqrafiya. - Bakı, UniPrint, 2011, 446 s.
3. Knyaz Aslan, Şəhla Tahirqızı, Nailə Mehrəliyeva. Nəşriyyat işi və redaktə məsələləri: Tədris-metodik vəsait. - Bakı: "Müəllim" nəşriyyatı, 2018, 384 s.
4. 4.https://www.moderator.az/news/353119.html


## RUSLARIN VƏ ALMANLARIN CƏNUBİ QAFQAZA KÖÇÜRÜLMƏSİ


**Cabarov Rəşad**

***BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı,***

***Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müəllimi***

***Elmi rəhbər: prof. İradə Hüseynova***

***BDU-nun Qafqaz xalqları tarixi kafedrasının müdiri***

***rasad.cabarov@mail.ru***



**Açar sözlər:** Cənubi Qafqaz, ruslar, almanlar, köçürmə siyasəti.

**Ключевые слова**: Южный Кавказ, русские, немцы, переселенческая политика.

**Keywords:** South Caucasus, Russians, Germans, resettlement policy.


Qafqaz müharibəsinin nəticəsində Rusiya İmperiyasının mənafeyi ilə bölgəni idarə etmək üçün tədbirlər planlaşdırıldı. Bu baxımdan, 1860-cı ilin avqustun sonunda knyaz A.İ.Baryatinskiy

Vladikavkazda bir yığıncaq reallaşdırdı, Rusiyanın Qafqaz siyasətini həyata keçirmək üçün tədbirlər hazırlandı.

Rusiya-İran müharibəsi nəticəsində 1826-1828-ci illərdə Azərbaycanın şimal hissəsi Rusiya tərəfindən işğal olundu. Cənub Qacarlar dövlətinin bir hissəsinə çevrildi. Beləliklə, Azərbaycan Şimal və Cənuba bölündü. Rusiyanın köçürmə siyasətinin məqsədi Azərbaycan torpaqlarında etnik və dini dəstəyin yaradılması, azərbaycanlıların mənəvi cəhətdən zəifləməsi, onların "ikinci dərəcəli insanlar" a çevrilməsi idi. Eyni zamanda, məqsəd əslində Azərbaycan torpaqlarından azərbaycanlıları çıxarmaq və xristian miqrantların yerləşdirilməsi idi. Rusiyanın hakim elitası, yerli müsəlman əhalinin xarici hökmranlıq və xristianlığın üstünlüyü ilə barışmazlığını başa düşdü. Buna görə də Rusiya onları daim potensial düşmən və iğtişaşçılar kimi görürdü. Rusiyanın bu fəaliyyətlərinə qarşı ən mühüm direniş platforması islam dini idi.

Ermənilərlə yanaşı Azərbaycana ruslar da köçürülürdü. Azərbaycan ərazisində ilk rus qəsəbələri Türkmənçay müqaviləsinin bağlanmasından sonra 1830-1850-ci illərdə salınmışdır. N.Şavrovun sözlərinə görə, ilk rus qəsəbələrinin yerləşdirilməsinin ilkin məqsədi məzhəbçilərin yerləşdirilməsinin zəruriliyi səbəbindən yaranmışdı. Onların mərkəzdən uzaqlaşdırılması 1838-ci ildə başladı (60-cı illərin ortalarına qədər) [1, 14].

Köçürməyə icazə verən ilk qanunvericilik aktı 20 oktyabr 1830-cu il tarixində "Zaqafqaziya vilayətlərinə köçürülməsi" haqqında qərar adlanır. Ruslar daxili əyalətlərdən Qafqaza köçürüldü. Senator Kuzminskinin sözlərinə görə, Ruslardan ilk könüllü köçürülənlər 1830-cu ildə molokanların Orenburq vilayətindən köçürülməsi idi.

İlk rus kəndləri arasında Vel, Privolnoe, Prishib, Nikolaevka, Ivanovka idi [8, 53]. 1833-cü ilin ortalarından etibarən Rusiya məzhəbçiləri Şamaxı və Şuşa bölgələrinə, daha sonra Lənkəran bölgəsinə yerləşdirildilər. Bir müddət, onlara şəhərlərdə məskunlaşmaq qadağan idi. Bir müddət sonra Şamaxı və Lənkəran şəhərlərində məskunlaşmalar başladı və yalnız 1859-cu ildə Bakıda Slobodada yerləşməyə icazə verildi [9, 7].

1841-1847-ci illərdə Yelizavetpol vilayətində Slavyanka, Novo-Goreloe, Novo-Troitskoe və Novo-Spasskoe yaşayış məntəqələri duxobor təriqətçilərindən ibarət idi. Arxiv məlumatına görə, 1852-ci ildə, Yelizavetpol vilayətində köçkünlərin köçürülməsi zamanı yerli sakinlərdən daha çox torpaq alınırdı [6, 47].

Rus əhalisinin köçünün sonrakı dalğası XIX - XX əsrin əvvəllərində baş verir. Bu əsasən sənaye, xüsusilə də neft və şəhər inkişafı ilə bağlı idi. 1897-ci ildən 1913-cü ilə qədər Bakıda Rusiya miqrantlarının sayı 38.975-dən 76.288 nəfərədək artdı. Rus işçiləri əsasən Bakının şimal-şərq ətrafında sənaye kəməri olan Qara və Ağ şəhərə yerləşdirildilər [10, 322].

1902-ci ildə Bakının neft sənayesindəki rusların sayı bütün işçilərin 29,4% -ni təşkil etmişdir (3, 15). Ruslar əsasən rəhbər işlərdə idilər. 1910-cu ilin məlumatlarına əsasən, Bakıda 107 hüquqşünas və onların köməkçiləri var idi ki, onlardan 38-i rus, 48-i erməni, 4-ü isə müsəlman idi.

Muğanın ilk rus qəsəbələri 1860-cı illərdə ortaya çıxdı. 1887-ci ildə Qafqaz vətəndaş hissəsinin baş komandanı A.M.D.Dondukov-Korsakovun əmri ilə Cavad şəhəri ləğv edildi. Onun yerinə immiqrantların məskunlaşmasına icazə verildi. Beləliklə, Muğanda ilk kəndi Petropavlovka meydana gəldi. Bununla belə, Muğanın fəal məskunlaşdırılması XX əsrin əvvəlində başlamışdır. N. Volkovanın sözlərinə görə, Muğanların ruslar tərəfindən məskunlaşdırılması nəticəsində 1897-ci ildən 1917-ci ilə qədər 48 kənd meydana çıxdı [5]. O. D. Komarovanın məlumatına görə, yalnız 15 il, 1902-1917-ci illərdə Muğanda 20 min nəfərdən çox əhalisi olan 55 rus qəsəbəsi meydana gəlmişdi [7, 9]. Bu illər ərzində, onlarla rus qəsəbələri Xəzər sahili boyunca yaradılmışdır: şimal hissəsində - Lənkəran rayonunda - Quba rayonunda, eləcə də cənubda onların sayı artmışdı. XIX-XX əsrin əvvələrində yüzdən artıq Rus pravoslav kəndi Azərbaycanda yaranmışdır.

Bölgədə çar hökumətinin iqtisadi maraqları siyasi maraqları ilə əlaqəli idi. Rusiya höküməti zəngin ruslara Muğan çölündə pambıq əkilməsi üçün kapital qoymağı təkif edirdi. Mil düzündə də belə bir vəziyyət var idi. 1901-ci ilədək Yelizavetpol əyalətinin vəziyyəti ilə bağlı hesabat göstərir ki, Mil Rusiya üçün ciddi siyasi əhəmiyyətə malikdir, çünki İranla sərhəd olan bu Zaqafqaziya vilayətləri rus elementi ilə məskunlaşdırılmışdır. Bu köçürmə siyasətini həyata keçirərkən, hakimiyyət orqanları torpaqların istifadəsi şərtlərini pozur və rus miqrantlar və azərbaycanlı yarımköçərilər arasında münaqişəyə səbəb olurdular.

Beləliklə, Şərqi Zaqafqaziya ərazisində köçəri heyvandarlığın inkişafı üçün nəzərdə tutulan ərazilər ruslara əkin üçün verilirdi [4, 112-113].

Azərbaycana köçürülmüş xristian əhali arasında almanlar da var idi. Azərbaycana köçürülmüş almanların tarixini öyrənərkən Cənubi Qafqaza köç etmək üçün səbəblərini izah etmək lazımdır. Cənubi Qafqazda almanların köçürülməsinin səbəbi iki qrupa bölünür: 1) XIX əsrdə Almaniyanın daxili tarixi şəraiti; 2) Yeni işğal olunmuş Qafqaz bölgəsinə aktiv müstəmləkəçi köçürülmə siyasətini həyata keçirən Rusiya İmperiyasının siyasi və iqtisadi vəziyyətini əks etdirən səbəblər.

Ümumiyyətlə, Almanların köçürülməsinin səbəblərindən biri o zaman Qərbdə baş verən ictimai və siyasi proseslərlə əlaqəli olmalıdır. Napoleon ilə müharibədən sonra, Almaniyada yaşayan əhalinin səviyyəsi çox aşağı düşmüşdü, bu səbəbdən almanlar öz doğma torpaqlarını tərk etməyə başladılar [11, 303].

Çar hökumət orqanlarına ünvanladığı məktubunda General Yermolov Yelizavetpol vilayətində kolonistlərin yerləşməsini tövsiyə edirdilər. Nəticədə, Tiflisdə 40 alman ailə qaldı, qalan 8, 9 və 10-cu koloniyalar Yelizavetpol əyalətinə köçməyə məcbur edildi. Beləliklə, Yelizavetpoldan yeddi verstdə ilk Alman koloniyası yaradıldı - Yelenendorf (indi Göy-Göl rayonu). 8-ci koloniyaya Gottlob Koch rəhbərlik edirdi, Jacob Krause isə 9-cu koloniyaya və Wuchter 10-cu koloniyaya başçılıq edirdi. Yelenendorf koloniyası ilə bərabər, ikinci bir koloniya olan Annefelddə qurulmuşdu (indi Şəmkir şəhəri), qurulmuşdur (2, 303). Beləliklə, Azərbaycanın uzaq şərq torpaqları Almanlar üçün ikinci vətən oldu. XIX əsrin sonlarında Azərbaycanda Alman koloniyalarının sayı artmışdı. Bunlar arasında Georgsfeld (Leninkənd - Çinarlı), Alekseyevka, Grinfeld (Qazax əyalətində), Eigenfeld (İrmaclı - Şəmkir), Traubenfeld (Tovuz rayonu), Elizavetinka (Ağstafa) var idi [5, 303].

Rus çarizminin köçürülmə siyasətinin həyata keçirilməsində ümumi prinsip və əsas vəzifə, çar Rusiyası müstəmləkəçilik siyasətinin strategiyası, onun bölgədəki mövcudluğunun gücləndirilməsi idi. Qafqazın yeni bir bölgə kimi siyasi və iqtisadi itaətkarlığının təmin edilməsi çarizmin köç siyasətinin başlıca amili idi.

Beləliklə, XIX-XX əsrlərdə Qafqazda rus çaizminin köç siyasətinin nəticəsi olaraq, gəlmə əhalinin sayı artmışdı. Miqrantlar həm məcburi, həm də könüllü məskunlaşdırılmışdı.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Багиров Ф. А. Переселенческая политика царизма в Азербайджане (1830—1914 гг.). — М.: Маросейка, 2009., с.14
2. Басихин П. Немецкие колонии на Кавказе. Этнографический очерк, Кавказский вестник 1900. том 1, с.303
3. История Коммунистической партии Азербайджана. Ч. 1. — Баку: Азернешр, 1958. — С. 15
4. Исмаил-Заде Д. И. Граф И.И. Воронцов-Дашков. Наместник Кавказский. — М.: ЗАО Центрполиграф, 2005. — С. 112-113
5. Гизетти А.П. Сборник сведений о потерях Кавказских войск во время войн. Тифлис: 1901, с.303
6. Кафарова З. А. Формирование рабочего класса в Азербайджане. — Баку: Нурлан, 2005. — С. 47
7. Комарова О. Д. Демографическая характеристика русских селений в Азербайджане // Русские старожилы Азербайджана. Часть 1. — М.: Институт этнографии АН СССР, 1990. — С. 9. 8. Русские / Отв. ред. В.А. Александров, И.В. Власова, Н.С. Полищук. — М.: Наука, 2003. — С. 53.
8. Волкова Н. Г. Этнические процессы в Закавказье в XIX-XX вв. // Кавказский этнографический сборник. — М.: Изд-во АН СССР, 1969. — Т. 4. — С. 7.
9. Йорг Баберовски. Цивилизаторская миссия и национализм в Закавказье: 1828 — 1914 гг. // Новая имперская истории постсоветского пространства. — Казань: Центр исследований национализма и империи, 2004. — С. 322
10. Зейналова С. Немцы на Кавказе. Баку: 2008, с.303

# PEDAQOJİ KADR HAZIRLIĞINDA LİDERLİK QABİLİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Calahani Nigar**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Dürdanə Əliyeva***

**Açar sözlər:** pedaqoji kadr hazırlığı, rəhbərlik üslubu, liderlik qabiliyyəti.
**Key words:** pedagogical staff training, leadership style, leadership skills.
**Ключевые слова:** подготовка педагогических кадров, стиль руководства, лидерские качества.

Uzun illər pedaqoji kadr hazırlığında nəzəri biliklərin öyrədilməsi kifayət hesab edilmiş, gənc müəllim öyrətməyin sirlərinə bələd olmadan pedaqoji fəaliyyətə başlamışdır. Bu gün, təhsilə yeni tələblər verildiyi bir zamanda, "işləyə-işləyə öyrənər" yanaşması birmənalı şəkildə özünü doğrultmur. "İşləyə-işləyə öyrənənlər" geridə lazımi bilik-bacarıqlara nail olmamış uşaqlar, formalaşmamış şəxsiyyətlər, uğuru təmin olunmamış talelər buraxa bilərlər.

Təhsilvermək təkcə pedaqoji texnologiyaları tətbiq etmək deyil, tətbiq obyekti olan təhsilalanların bu texnologiyalara əsasən fəaliyyətinin idarə edilməsində böyük önəm kəsb edir. Pedaqoji kadrların hazırlığı zamanı onlara tədris olunan fənlərdə, sinifdə fəaliyyətin idarə olunması üçün liderlik xüsusiyyətləri aşılanmalıdır. Reallıq ondan ibarətdir ki, pedaqoji ixtisaslar üzrə məzun olan pedaqoji kadr bazası, sinfin idarə edilməsi zamanı çətinliklərlə üzləşir, şagird fəaliyyətinin idarə edilməsi müəllimin rəhbərliyi altından çıxır və nəticədə müəllimin nüfuzu aşağı düşür.

Ali təhsil ocağında informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqinə səyləri gücləndirmək, elektron idarəetmə və tədris sistemindən yüksək səviyyədə fayda götürmək, kadr hazırlığında dövrün tələblərini nəzərə almaq qarşıda duran mühüm vəzifələrdir. Hazırda müasir müəllimin yetişdirilməsi istiqamətində elə işlər aparılmalıdır ki, nəticədə müəllim özündə ehtiva edə bilsin: yeni pedaqoji təfəkkürün formalaşdırılması; təlim-tərbiyə prosesini müvəffəqiyyətlə həyata keçirmək üçün peşə bilik və bacarıqlarının formalaşdırılması; ixtisas fənləri və bütün pedaqoji-psixoloji fənlər üzrə nəzəri biliklərin praktik tətbiqi üçün bacarıq və vərdişlərin əldə edilməsi; pedaqoji fəaliyyətə tədqiqatçı kimi yanaşma və yaradıcı pedaqoji fəaliyyət təcrübəsinin formalaşdırılması; liderlik qabiliyyətinin inkişaf etdirilməsi; müasir metodların mənimsənilməsi və təbliği.

Lider və liderlik anlayışı əsrlər boyu olduğu kimi bu gün də aktual olan bir məsələdir.Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, min ildən daha qədim olan liderlik anlayışı, anqlo-sakson mənşəyindən gələn “leadare” sözündən yaranmışdır və “insanlara yol göstərmək” mənasını daşıyır. Liderlik müəyyən məqsədlər ətrafında bir qrup insanın toplanmasıdır. Liderlik, bu məqsədlərə nail olmaq üçün onları səfərbər etmək onların bilik və bacarıqlarının formalaşdırılmasının bir hissəsidir.

Müəllimin rəhbərlik üslubu və fəaliyyətin idarə edilməsi anlayışını ifadə edən məsələlər bu anlayışların reallaşmasını nizamlayan liderlik nəzəriyyələrində açıqlanır. Həmin nəzəriyyələrin köməyi ilə müəllimin necə rəhbər və lider olması suallarını aydınlaşdırmaq mümkündür. Ədəbiyyatlarda liderlik konsepsiyalarının əsas aspekti ayırd edilir: xassələr nəzəriyyəsi; davranış yanaşması; situativ yanaşma; adaptiv yanaşma

Xassələr nəzəriyyəsi. Bu nəzəriyyədə insanın şəxsi keyfiyyətləri ön plana çəkilir. Nəzəriyyəyə görə müvafiq şəxsi keyfiyyətlərə: intellekt, təşəbbüskarlıq, iradə, enerjililik, əminlik, etibarlılıq, yoldaşlıq, yaxşı danışıq tərzi və s. malik olan insan lider ola bilər. “Keyfiyyətlər liderin başqaları üzərində hakimiyyətini öz – özünə müəyyən edir”.

Davranış yanaşması. Bu yanaşma rəhbərin şəxsi keyfiyyətlərini deyil, onun davranışında tabe olanlarla qarşılıqlı münasibətlərini ön plana çəkir. Davranış yanaşması, “rəhbərlik üslubu” və “idarəetmə üslubu” anlayışlarını meydana gətirmiş, hakimiyyətin avtoritar və liberal idarəetmə üslubu istiqamətində yönəlməsinə zəmin yaratmışdır.

Situativ yanaşma. Yanaşmaya görə, situativ amillər rəhbərin situasiyaya uyğun səmərəli davranmasın da aparıcı rol oynayır. Nəticədə situativ davranışın xüsusi üslubuna və müəyyən idarə etmə situasiyasına daha çox uyğun olan xüsusi yanaşma əmələ gəlir.

Adaptiv yanaşma. Yanaşma rəhbərin daha səmərəli fəaliyyət göstərməsi üçün özün də olduqca mürəkkəb situasiya tiplərini (özünü fərqli aparmaq, idarəetmədə dəyişkən olmaq) birləşdirməsini və situasiyaya uyğun idarəetmə üslubunun adaptivə olmasını ehtiva edir.

Liderlik nəzəriyyələrinə daxil olan sadaladığımız yanaşmalar, pedaqoji rəhbərlik mühitində problemin daha tez həll olunmasına zəmin yaradır. Liderlik rolları ilə məşğul olan müəllimlər ümumiyyətlə həm özlərinə həm də həmyaşıdları arasında əməkdaşlığı artıra biləcək sahələrdə təcrübəli və hörmətlidirlər. Bu tip məktəb mühitlərində müəllimlər birbaşa şagirdlərlə etdikləri işə əsasən qərar qəbul edə bilirlər. İdarəetmə təcrübəsindən də məlumdur ki, rəhbərliyin və liderliyin eyni bir şəxsdə birləşməsi məqsədəuyğun hesab olunur.

Müəllimin pedaqoji fəaliyyətində onun şəxsi nümunəsi, liderliyi və onun rəhbərlik üslubu vacib məsələlərindəndir. Liderlik qabiliyyəti olmayan müəllim sinfi ələ almaqda çətinlik çəkər və şagirdləri öz ideyalarınnı arxasıyca aparmağı bacarmaz. Təklif edirik ki, sadaladığımız bu keyfiyyətləri və müəllimin liderlik keyfiyyətlərinin digər nəzəri məsələlərini yığcam şəkildə fənn proqramına daxil edərək, pedaqoji kadr hazırlayan ali və orta – ixtisas təhsil müəssələrinin pedaqoji ixtisaslarının tədris planına yeni bir fənn kimi əlavə edib tədrisini həyata keçirməklə, müəllimin liderlik keyfiyyətlərinin inkişafına dair mövcud çatışmazlığın aradan qaldırılmasına nail ola bilərik.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri. Monoqrafiya. Bakı, Elm və təhsil, 2018
2. Eğitimsel Liderlik. 2. Baskı. Ankara: Pegem A Yayıncılık. 2000
3. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, Elm və təhsil, 2010


## BÖYÜK QAFQAZ ÇAYLARINDA YAĞIŞ DAŞQINLARININ TƏHLİLİ


**Camalov Anar Daşqın oğlu**
***BDU, Coğrafiya fakültəsi***
***Elmi rəhbər: dos. İ.S.Əliyeva***
**lojamal@mail.ru**


Azərbaycanın müxtəlif rayonlarında yağış daşqınlarının əsas amili olan axım əmələgətirən yağışları müxtəlif tədqiqatçılar tədqiq etmişdir. Yağış daşqınlarının maksimal su sərflərinin məkan-zaman qanunauyğunluqlarını geniş analiz edilmişdir. Maksimal su sərfləri sıralarının əsas parametrlərini müxtəlif üsullarla təyin edilmiş, müvafiq təminat əyrilərinin tipini seçimiş, emprik təminatları hesablamaq üçün düstur təklif edimişdir. Həmçinin daşqınlıq əmsalının ərazi üzrə paylanma qanunauyğunluqlarını aşkar edimiş, müşahidə məlumatları olmadıqda maksimal axımı hesablama üsulunu işlənmişdir [4].

Böyük Qafqaz çaylarının daşqın məlumatlarını təhlil etmək üçün bu ərazidə yerləşən 34 məntəqənin məlumatlarından istifadə olunmuşdur. Çaylar elə seçilmişdir ki, bütün ərazini və yüksəklik qurşaqlarını tam əhatə etsin. Böyük Qafqazın Cənub yamac çayları üçün yağış daşqınları daha səciyyəvi olduğundan 34 məntəqədən 11-i şimal-şərq yamacda, qalanları isə cənub yamacda götürülmüşdür [1;2].

Daşqınların həm zaman, həm də axım göstəriciləri təhlil edilmişdir. Hər bir çay üçün əhəmiyyətli daşqınların başlanğıc tarixi, sonu və davamiyyəti təyin olunmuşdur. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, şimal-şərq yamacda ən böyük orta davamiyyət Qusarçay-Kuzun məntəqəsində (10 gün) ən kiçik orta davamiyyət isə (6 gün) Quruçay-Susay və Ağçay-Cek məntəqələrində müşahidə olunmuşdur. Cənub yamac üçün isə ən böyük orta davamiyyət (20 gün) Türyançay-Suqovşağı məntəqəsində müşahidə edilmişdir. Ən kiçik orta davamiyyət isə Pirsaat-Poladlıda 7 gün olub. Ümumilikdə götürdükdə cənub

yamac çaylarında daşqının davamiyyəti şimal-şərq yamaca nisbətən daha uzunmüddətlidir. Müəyyən edilmişdir ki, şimal-şərq yamac çayları üçün çoxillik dövr ərzində daşqının davamiyyətinin orta qiyməti 8 gün, cənub yamac üçün isə 12 gündür. Daşqının davamiyyətinin hündürlükdən asılı olaraq dəyişməsini araşdırmaq üçün davamiyyətlə hündürlük arasında əlaqə qrafiki qurulmuşdur (Şəkil 1.)

Bu şəkildən görünür ki, baxılan kəmiyyətlər arasında əlaqə yoxdur. Belə bir qanunauyğunluq diqqəti cəlb edir ki, şimal-şərq yamac çaylarında yağış daşqınlarının orta davamiyyəti eyni hündürlükdə olan, lakin cənub yamacda yerləşən çaylar üçün orta davamiyyətdən iki dəfə azdır.




**Şəkil 1.**Daşqının davamiyyti ilə hündürlük arasında əlaqə qrafiki.
1 – şimal-şərq yamac ;2 – cənub yamac

Daşqınların axım göstəriciləri də təhlil edilmişdir. Bu təhlildə cənub yamac çayları Şirvan və Qanıx hövzəsi kimi iki qrupa bölünmüş və təhlil ayrılıqda yerinə yetirilmişdir. Həm şimal-şərq, həm də cənub yamac çayları üçün qurulmuş qrafiklərdən bu nəticəyə gəlmək olur ki, hündürlük artdıqca axım layı artır. Bu artım daha qabarıq Şirvan çaylarıda müşahidə olunur. Şimal-şərq yamacda isə bu artımın sürəti zəifdir. [1;3]

Daşqınlıq dərəcəsinə görə çayları 4 tipə bölümüşdür:

I. Daşqınlıq dərəcəsi kiçik olan çaylar; $k_d<5$;

II. Daşqınlıq dərəcəsi orta olan çaylar:

$II_1$ $5 \leq k_d<10$

$II_2$ $10\leq k_d<20$

III. Daşqınlıq dərəcəsi böyük olan çaylar,

$20\leq k_d<30$

IV. Daşqınlıq dərəcəsi çox böyük olan çaylar,

$IV_1$ $30\leq k_d<40$

$IV_2$ $k_d \geq 40$

Böyük Qafqaz çaylarını bu təsnifatə görə II və III tiplərə aid edilmişdir. Şirvan çaylarının bir qrupu (Daşağılçay; Göyçay) və şimal-şərq yamacda hövzəsinin hündürlüyü 500m-dən çox olan Samuxçaydan Qudyalçaya kimi $II_1$ tipə aiddir. Qanıx hövzəsi çayları, Şirvan çayları (Axoxçay; Ağsu) və şimal-şərq yamacın qalan çayları isə $II_2$ tipə aid edilmişdir.

Son 25-30 ildə Böyük Qafqazın çay hövzələrində axımın əmələgəlmə şəraitinin dəyişməsi istisna olunmur. Bu bir tərəfdən qlobal iqlim tərəddüdlərinin regional təzahürləri ilə, digər tərəfdən isə meşələrin qırılması, yay otlaqlarının çox intensiv istifadəsi ilə bağlıdır.

Böyük Qafqaz çaylarının 1970-ci ildən sonrakı məlumatları əsasında daşqınlıq əmsalları hesablanmışdır. Alınmış nəticələr əsasında daşqınlıq əmsalının hündürlükdən asılılıq qrafiki qurulmuşdur (Şəkil 2.) Bu şəkildən görünür ki, Böyük Qafqaz ərazisi çayları üçün hündürlük artdıqca daşqınlıq əmsalı kiçilir [2].




**Şəkil 2.** Böyük Qafqaz çaylarının daşqınlıq əmsalının hündürlükdən asılıq qraiki

Bütün bunları nəzərə alaraq baxılan ərazi çayları üçün daşqınlıq əmsalının qiymətləri son dövrün məlumatlarını nəzərə almaqla hesablanmış və alınmış bu qiymətlər əvvəlki qiymətlərlə müqayisə olunmuşdur. Hesablanmış nəticələr cədvəl 1-də verilmişdir.

**Cədvəl 1. Böyük Qafqaz ərazisi çaylarının 1970-ci ilə qədər və 1971-ci ildən sonrakı dövr üçün daşqınlıq əmsalının göstəriciləri**

| **Çay – məntəqə** | **1970-ci ilə kimi** | **1971-ci ildən sonra** | ±Δd |
|---|---|---|---|
| Qusarçay-Kuzun | 18,60 | 16,00 | -2,60 |
| Qudyalçay-Qırız | 27,70 | 47,51 | +19,81 |
| Qudyalçay-Küpçal | 26,70 | 47,40 | +20,70 |
| Vəlvələçay-Təngəaltı | 29,10 | 50,90 | +21,80 |
| Talaçay-Zaqatala | 49,78 | 20,30 | -29,48 |
| Qaynar-Mənsəb | 2,63 | 3,90 | +1,27 |
| Damarcıq-Mənsəb | 19,25 | 12,90 | -6,35 |
| Çuxadurmaz-Mənsəb | 6,05 | 6,62 | +0,57 |
| Dəmiraparan-Qəbələ | 19,52 | 42,30 | +22,78 |
| Göyçay-Göyçay | 43,33 | 35,50 | -6,83 |
| Axoxçay-Xanagah | 10,59 | 14,71 | +4,12 |
| Girdimançay-Qaranohur | 42,69 | 72,90 | +30,21 |

Cədvəldə Böyük Qafqazın həm şimal-şərq, həm də cənub yamacında yerləşən 12 çayın məlumatları verilmişdir. Qeyd etmək lazımdır ki, 1970-ci ilə kimi olan məlumatlar (1984) hesablanmışdır. 1971-ci ildən sonrakı dövr üçün daşqınlıq əmsalı müəllif tərəfindən hesablanmış və cədvəldə əvvəlki dövrlə müqayisə edilməsi üçün bərabər verilmişdir. Həmçinin cədvəldə bu dövrlərin fərqi göstərilmişdir. Alınmış nəticələri təhlil edərək bu nəticəyə gəlmək olar ki, 1971-ci ildən sonra çayların daşqınlıq əmsalı artmışdır. Yalnız 4 çayda azalma müşahidə edilir. Lakin ümumi götürdükdə həm şimal-şərq, həm də cənub yamac çaylarında 1971-ci ildən sonra daşqınlıq əmsalının qiymətində artma müşahidə edilir [3].

## ƏDƏBİYYAT SİYAHISI:

1. Məmmədov M.Ə. Azərbaycanın hidroqrafiyası. Bakı, 2002, 266 s.
2. Məmmədov M.Ə., Mahmudov R.N., İmanov F.A. Çay axımı və hidroloji hesablamalar (metodik göstəriş). Bakı, 1995, 84s.
3. Mamedov M.A. Mnoqoletnie kolebaniə maksimalğnoqo stoka qornıx rek // Trudı V VSQ. L: Qidrometeoizdat, 1989, T.V, s.157-163.
4. Kulieva K.K. Dojdevoy stok qornıx rek Azerbaydjanskoy SSR. Dis. na soisk. uç. step. kond. qeoqr. nauk. Baku, 1987, 150s.

# ORTA ƏSR İNCƏSƏNƏTİNİN İFADƏ VASİTƏLƏRİ

**Cavadova Ellada Rasim qızı**
***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***Rəhbər-dosent. T.Ş.Bəkirova***
***edi.cavadova@mail.ru***

## XÜLASƏ

Orta əsr incəsənətində xristianlıq və islam dininə aid olan dini mövzular geniş istifadə olunurdu.İslam dinin yaranması ilə islam incəsənəti meydana gəldi. İslam incəsənətində xəttatlıq sənəti aktual oldu. Azərbaycanda isə miniatür sənəti yaranmağa başladı. Bu dövrdə Azərbaycanda məişətdə istifadə olunan məmulatlarda dekor sənəti fərqli obrazda özünü göstərdi. Azərbaycanda eyni zamanda memarlıq məktəbləri yarandı.

**Açar sözlər:** orta əsr incəsənəti, islam memarlığı, xəttatlıq, Azərbaycan memarlıq məktəbləri.

## ABSTRACT

## MEANS OF EXPRESSION IN MEDIEVAL ART

Məqalədə orta əsr incəsənəti, islam dininin incəsənətə təsiri, Azərbaycan incəsənətində memarlıq məktəbləri, onların fərqli xüsusiyyətləri haqqında məlumat verilir.

The article provides information about medieval art, the influence of Islam on art, architectural schools of Azerbaijani art, their distinctive features.

**Keywords:** medieval art, Islamic architecture, calligraphy, Azerbaijani architectural schools.

## РЕЗЮМЕ

## СРЕДСТВА ВЫРАЗИТЕЛЬНОСТИ В СРЕДНЕВЕКОВОМ ИСКУССТВЕ

В статье представлена информация о средневековом искусстве, влиянии ислама на искусство и архитектурных школ в азербайджанском искусстве, их отличительных особенностях.

**Ключевые слова:** средневековое искусство, исламская архитектура, каллиграфия, Азербайджанские архитектурные школы.

Orta əsr incəsənətinin inkişafı tarixdə regiondan və mədəniyyətdən asılı meydana çıxan yeni üslubların, incəsənətin bir çox sahələrinin, memarlıq, heykəltəraşlıq, vitrajların, dinin təsirinə tabe olan incəsənətin, əlyazma kitabələrin, mozaika, metal işləmələrin inkişaf etdiyi dövr kimi yadda qalmışdır.

VII əsrdən başlayaraq İslam dininin gəlişi ilə incəsənətdə, memarlıqda, ümumilikdə insan cəmiyyətində yeni abu-hava yarandı. Bu dövrdə xristianlıq öz dini ideologiyasını incəsənətin və memarlığın köməyi ilə ifadə edirdi. Xüsusi dini mövzular, obrazlı dini tikililər xristianlıqda olduğu kimi islam dininin də təbliğ olunmasında xüsusi inkişaf mərkəzinə qədəm qoydu. İslam dini özündən əvvəlki dinlərə hörmətlə yanaşır, amma öz incəsənət və memarlıq üsullarını yaratmağa başlayırdı. Bu dövrdə ərəb xəlifəsinin (VIII-XV əsrlər) İslam prinsipləri Qurani-Kərimin əsasında incəsənətdə, memarlıqda və eyni zamanda kitab miniatüründə xüsusi yer tuturdu(4). Quranın ayələri həm memarlıqda, həm də təsviri sənətdə öz formasını yazı və naxışlar şəklində ifadə etməyə yönəlmişdi. Müqəddəs yazını əks etdirmək üçün xəttatlıqdan, yəni əl ilə gözəl yazıdan istifadə edilirdi. Xəttatlıq İslam incəsənətində vacib yer tuturdu və bu sahə özünü Kufi, Nəsxi, Reyhani, Süls, Tanki, Muxakkak, Rukasi, Nastalik kimi təsnif edirdi (4). İslam xəttalığında Qurani-Kərimin yazılması ilə yanaşı oxunması da vacib hesab olunurdu. İslam dinini qəbul edən xalqların çoxu ərəb əlifbasını öz dillərində mənimsəyirdilər. Ərəb yazıları nəinki dekorativ incəsənətində, həmçinin bədii yaradıcılıqda və memarlıqda da geniş istifadə olunurdu. İslamda xəttatlıq təkcə Qurani-Kərimin yazısında deyil, bədii məqsədlərdə - farfor qablar üzərində, metaldan hazırlanan əşyalarda, xalçalarda, parçalarda,

pullarda və memarlıq tikililərində, məscidlərdə, hətta məzarlarda tətbiq olunurdu. Xəttatlıq sənəti təkcə dekorativ gözəllik vermirdi, onunla məşğul olan insanın mənəvi dünyasının zənginliyinin, kamilliyinin və savadının göstərici hesab olunurdu. (4).

Xəttatlıq sənəti daha sonralar Azərbaycanda inkişaf yolu keçdi və bu da Mübarək Şax Zərinqalamın (XVI əsr) adı ilə bağlıdır. Həmin dövrlərdə Abdulla Seyrafi Təbrizi, Benqdiri kimi məşhur xəttatlar işlərini binaların bəzəklərində də tətbiq edirdilər. İncəsənətdə rəngkarlıq, heykəltəraşlıq, dekorativ formalar, ornamentlər, təbiət elementləri və s. nümunələrin hər biri ifadəli xarakter daşıyırdı. Orta əsrlərdə memarlıqda tağlar, sütunlar, kümbəzlər estetik mühitin formalaşmasında geniş istifadə edilirdi. İslam memarlığında tağlar müxtəlif – nal, ox, üçkünc, bir-birinə keçən formalarda olurdu. İslam memarlığının əsas və vacib xüsusiyyətlərindən biri də dinin ibadət yeri hesab olunan məscidlərin tikintisi idi. Məscidlər özünün gözəl obrazlı memarlığı ilə seçilirdi və daxilində namaz qılmaq üçün xüsusi yer ayrılırdı. Məscidlərin daxili mühitində sütunlardan çox istifadə edilirdi. Sütunlar estetik gözəllik verməklə yanaşı, eyni zamanda daxili məkanda arakəsmələr də yaradırdı. İslam memarlığında dekorativ incəsənət abidələri qorunurdu. islam şəhərlərində məscidlərlə yanaşı, karvan – saraylar, bazarlar, hamamlar və.s tikilməyə başlandı.

Bu dövrdə Azərbaycan təsviri sənətində miniatür sənəti üstünlük təşkil edirdi. Bilirik ki, islam dini insan təsvirlərinin yaradılmasını günah hesab edirdi və islam incəsənətində insan obrazları qadağan idi. Miniatür sənəti poeziya ilə vəhdət təşkil edirdi. Poeziya miniatür sənətində bədii forma və ifadə dilini obrazlı şəkildə inkişaf etdiridi. Poeziyadakı obrazların zənginliyi, formanın müxtəlifliyi, musiqi ilə həmahəngliyi nəticəsində miniatür sənətindəki, bədii formalar dekorativ zənginliklə obrazları daha ifadəli şəkildə təsvirinə şərait yaradırdı. (1). Miniatür sənətində hər bir xalqın öz dəsti xətti olurdu, bu da hər xalqın öz estetik baxışı, bədii təfəkkürünün ifadəsi,ictimai həyatı və.s ilə əlaqəli idi. Bu dövrlərdə Azərbaycanda metal, şüşə, yun və.s. kimi materiallar müxtəlif sənət nümunələrində özünü göstərirdi.Toxuculuq sənəti geniş yayılmışdı, xüsusən xalça toxuculuğunda Təbriz xalçaları məşhurlaşmışdı, yun və pambıq parçalardan geyimlər tikilirdi və ipək parçaların istehsalı inkişaf edirdi. Dekorativ sənətdə isə dulusçuluq geniş yayılırdı. Duluzçuluq insanların gündəlik həyatları ilə əlaqəli olduğuna görə, Azərbaycanın hər yerində geniş kütlə tərəfindən bu sənətə yiyələnənlər çoxluq təşkil edilirdi. (3).

Saxsıdan hazırlanan məişət məmulatları üzərində xüsusi dekorlarla bəzəklər vurulurdu. Keramika məhsulları istehsal edilməyə başlandı və sadə dekor motivləri ilə bəzənirdi. Bu məmulatlar məişətdə daha geniş istifadə olunduğuna görə onların bəzəyi kobud və səliqəsiz olurdu. Daha sonralar isə dekorativ sənət inkişaf etdikcə məişət məmulatları üzərində bədii formalar daha səlis şəkildə tətbiq edildi. Dekorativ sənətdə cızma bəzək üsulu istehsal olunan qabların boğaz və tutacaqlarında müxtəlif formalarla, xüsusən dalğavarı naxışlarla bəzədilirdi. Bəzi qablarda isə cızmanının əvəzinə ritmik sürətdə təkrarlanan batıqlar və oyuqlar naxış kimi vurulurdu. (3). Bu dövrdə Azərbaycan memarlıq məktəbləri yaranmağa başladı. Aran,Təbriz, Naxçıvan-Marağa, Şirvan-Abşeron memarlıq məktəblərinin hər biri digərindən öz bədiiliyinə, kompozisiya qorlusuna görə fərqlənirdi, daş və kərpic materiallarından tikintidə istifadə edilirdi.

Naxçıvan-Marağa memarlıq məktəbində abidələr dəqiq hesablama və ölçmələr, planlaşma, yerləşmə, ornamentlərinin və kitabələrinin dəqiq düzülməsi əsasında inşa edilirdi. Hörgüdə kərpicdən istifadə etməklə müxtəlif bəzəklər verilirdi. Naxçıvan memarlığında kompozisiyaların zərifliyi, həndəsi formalı ornamentlər inşaatda çox səmərəli istifadə edilirdi.

Yusif Küseyir oğlu türbəsi, Mömünə Xatun türbəsi, Bərdə türbəsi, Qırmızı Günbəd türbəsi, Göy Günbəd türbəsi və s. bu məktəbin ən gözəl nümunələrindəndir. Aran memarlığına aid ən önəmli xüsusiyyətlərindən biri yerli material olan çaydaşı, ağ daş və kərpicdən istifadə edib divar hörgüsündə naxış formaları yaradılmasıdır. Bu məktəb digərlərindən rəngarəngliyi ilə seçilir.

Şirvan-Abşeron memarlığında isə daşın səliqəli yonulub, hamarlanan səthində ornamental oymaların tətbiq edilməsi idi. Bu məktəbdə kompozisiyalar öz sadəliyi ilə seçilirdi və əsas diqqət isə fərqli ünsürlərin bir biri ilə aydın şəkildə işlənməsinə yönəlirdi.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Azərbaycan miniatürləri (Azzərbaycan, rus, ingilis və ərəb dillərində) Bakı,”Şərq – Qərb” Nəşriyyat Evi, 2013, 248 səh

2. Afət Cumar qızı Seyidova. Avropa mədəniyyəti və dünya sivilizasiyasına onun təsiri. Metodik vəsait. Bakı – 2015
3. Rasim Əfəndi. Azərbaycan incəsənəti
4. Mir-Bağırzadə.S. İncəsənət Tarixi.Bakı.2012.

## AZƏRBAYCAN RESPUBLİKASINDA GƏLMƏ TURİZMİN DAYANIQLI İNKİŞAFI MODELİNİN FORMALAŞDIRILMASINDA METODİKİ YANAŞMALAR

**Cəfərova Aysu Nofəl**
***Azərbaycan Turizm və Menecment Universiteti, Magistrant***
***Elmi rəhbər: t.ü.f.d.,dos. Bahadur Bilalov***
***jafarova.aysu.1901@atmu.edu.az***

### XÜLASƏ

Azərbaycan Respublikasında gəlmə turizmin inkişafı ilə yanaşı, turizmin davamlı inkişaf problemləri meydana çıxır, inkişaf edir və aktuallaşır, keçmişdə mövcud olan metodlarla həlli praktik olaraq mümkünsüzdür və bu gəlirli sahənin rəqabət qabiliyyətinin azalmasına səbəb olur. Bütün bunlar turizmin planlaşdırılmasında sistematik bir yanaşmadan istifadə edilməsinin zəruriliyini göstərir.

**Açar sözlər:** turizm, davamlı inkişaf, metodiki yanaşma, dayanıqlılıq.

### SUMMARY

### METHODOLOGICAL APPROACHES IN THE FORMATION OF THE MODEL OF SUSTAINABLE DEVELOPMENT OF TOURISM IN THE REPUBLIC OF AZERBAIJAN

Along with the development of inbound tourism in the Republic of Azerbaijan, the problems of sustainable development of tourism appear, develop and become actual, it is practically impossible to solve by existing methods, and this leads to a decrease in the competitiveness of this lucrative industry. All this indicates the need to use a systematic approach in tourism planning.

**Keyword: tourism, sustainable development, methodological approach, sustainability.**

### РЕЗЮМЕ

### МЕТОДОЛОГИЧЕСКИЕ ПОДХОДЫ В ФОРМИРОВАНИИ МОДЕЛИ УСТОЙЧИВОГО РАЗВИТИЯ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Вместе с развитием въездного туризма в Азербайджанской Республике возникают, развиваются и становятся актуальными проблемы устойчивого развития туризма, которые практически невозможно решить существующими методами, и это приводит к снижению конкурентоспособности этой прибыльной отрасли. Все это указывает на необходимость использования системного подхода в планировании туризма.

**Ключевые слова: туризм, устойчивое развитие, методологический подход, устойчивость.**

Son illərdə turizm tələbinin yaranmasına təsir edən amillərin sayı nisbətən artmışdır. Tələb kəskin şəkildə fərqlənmişdir: yüksək gəliri olan vətəndaşlar yüksək seçiciliyə və xidmətlərin keyfiyyətinə tələbləri artırmışdırlar. Tələbin yeni keyfiyyət vəziyyəti turizm texnologiyalarına təsir göstərməyə başlamış və bu səbəbdən xidmət bazarındakı təklifin həcmi və strukturu daha da artmışdır.

Sənayeləşmə, iqtisadi inkişaf və böyümə qaynaqların həddindən artıq istifadəsi və ətraf mühitin məhvi kimi problemlərə səbəb olmuşdur. Dayanıqlılıq anlayışı, yaşanan problemlərə həll yolu axtarma kimi əhəmiyyət qazanmışdır [4, 331-344].

Turizmdə dayanıqlılıq yanaşması 1990-cı illərdə turizmin inkişafı ilə paralel olaraq əhəmiyyət qazanmağa başlamışdır.

Dayanıqlılıq, daha çox təbii, mədəni və ətraf mühit qaynaqlarına əsaslanan bir sektor olan turizmdə olduqca vacibdir. Dayanıqlılıq turizm növü deyil, lakin turizmin sağlam şəkildə həyata keçirilməsinin tələbi kimi qəbul edilə bilər. Resursların sonsuz olmadığı fikrinə əsaslanan davamlı inkişaf, iqtisadi inkişafla yanaşı ekoloji və sosial-mədəni inkişafın təmin edilməsinin vacibliyini müdafiə edir. Davamlı inkişaf konsepsiyasının turizmə inteqrasiyası ilə ortaya çıxan bütün turizm növlərinə uyğunlaşdırıla bilən bir fəlsəfə olan dayanıqlı turizm, ətraf mühitə həssas fəaliyyət və ətraf mühitin qorunması turizmin harmonik şəkildə həyata keçirilməsini əhatə edən bir müddətdir [2,17].

Dayanıqlı turizm yanaşması, təbii, mədəni və tarixi turistik yerləri əhatə edən turizm mənbələrinin qorunması və gələcək nəsillərə çatması üçün onların nəzarət altında istifadəsini nəzərdə tutur [3, 325-345].

Dayanıqlı turizmin ən əsas xüsusiyyəti həm yerli insanların, həm də turistlərin ehtiyaclarını ödəmək və turistik cazibə sayılan mənbələri qorumaq və zənginləşdirməkdir. Bundan əlavə, dayanıqlı turizm yanaşması, ətraf mühit mənbələrindən optimal istifadə, ev sahibi icmaların sosial-mədəni orijinallığına hörmət, formalaşmış və yaşayan mədəni irsin, ənənəvi dəyərlərin qorunub saxlanılması və mədəniyyətlərarası anlaşmaya töhfə verməklə kifayət qədər sosial-iqtisadi fayda təmin etmək bütün maraqlı tərəflərə hədəflənir.

**Dayanıqlı Turizmin Məqsədləri**

| | |
|---|---|
| **İqtisadi Uyğunluq:** | Turizm istiqamətləri və müəssisələrin canlılığı və rəqabət qabiliyyəti; həyatda qalmalarını və uzun müddətdə faydalanmağa davam etmələrini təmin edəcək şəkildə təmin etmək. |
| **Yerli rifah:** | Turizmin qonaq xərclərinin yerli səviyyədə qorunması da daxil olmaqla ev sahibi icmanın rifahına töhfəsini artırmaq. |
| **Məşğulluq keyfiyyəti:** | Ödəniş səviyyəsi, xidmət şərtləri və cinsi, irqi, fiziki qüsur və ya başqa bir səbəbə görə hər hansı bir ayrı-seçkilik edilmədən hər kəs üçün əlçatan olması baxımından; turizm tərəfindən yaradılan və dəstəklənən məşğulluğun kəmiyyət və keyfiyyətcə artması. |
| **Sosial bərabərlik:** | Yoxsullar üçün artan imkanlar, gəlir və xidmət axınları daxil olmaqla; turizmdən əldə olunan iqtisadi və sosial faydaların qəbul edən cəmiyyətə geniş şəkildə paylanmasını təmin etmək. |
| **Ziyarətçilərin məmnuniyyəti:** | Cinsiyyət, irq, əlillik və ya başqa bir səbəbə görə heç bir ayrı-seçkilik edilmədən bütün ziyarətçilərə təhlükəsiz və razı bir təcrübə təmin etmək. |
| **Yerli Nəzarət:** | Yerli icmalar, digər maraqlı tərəflərlə əməkdaşlıqda; onları bölgələrdə turizm idarəçiliyi və gələcək inkişafı ilə bağlı planlaşdırma və qərar qəbul etmə prosesinə daxil etmək və bu müddətdə gücləndirmək. |
| **Cəmiyyətin rifahı:** | Sosial strukturlara və mənbələrə, obyektlərə və həyatı dəstəkləyən sistemlərə daxil olmaq və sosial pozuntulara və istismara səbəb olmadan yerli icmalarda həyat keyfiyyətinin qorunması və yaxşılaşdırılması. |
| **Mədəni sərvət:** | Ev sahibi icmaların tarixi irsinə, orijinal mədəniyyətinə, ənənələrinə və fərqli xüsusiyyətlərinə hörmət etmək və inkişaf etdirmək. |
| **Fiziki Dürüstlük:** | Həm şəhər, həm də kənd mənzərələrini qorumaq və keyfiyyətini artırmaq və ətraf mühitin fiziki və vizual olaraq pisləşməsinin qarşısını almaq. |
| **Biomüxtəliflik:** | Təbii ərazilərin, həyati coğrafiyanın və vəhşi təbiətin qorunmasına dəstək və onlara zərərin minimuma endirilməsi. |
| **Resurs səmərəliliyi:** | Turizm obyektləri və xidmətlərinin inkişafı və istismarında nadir və bərpa olunmayan mənbələrdən istifadənin minimuma endirilməsi. |
| **Ətraf mühitin təmizliyi:** | Turizm müəssisələri və qonaqlar tərəfindən hava, su və torpaq çirkliliyinin və tullantıların yaranmasının minimuma endirilməsi. |

**Mənbə:** İnkişaf üçün Davamlı Turizm Bələdçisi, 2013

Turizm sektorunda ən geniş fəaliyyət şəbəkəsinə və turizm sahəsində ən böyük beynəlxalq birliyə sahib olan ÜTT-nin tez-tez istifadə etdiyi bir tərifə görə, dayanıqlı turizmin inkişafı bugünkü turistlərin və qonaqlamanı icra edən ölkənin gözləntilərini və ehtiyaclarını ödəməkdir. Dayanıqlı turizmin inkişafı

çərçivəsində mədəni inteqrasiya, ekoloji mühit, biomüxtəliflik və həyati sistemlər dəstəklənir, eyni zamanda iqtisadi, sosial və estetik ehtiyacları ödəyə biləcək bütün mənbələrin idarə edilməsinin planlaşdırılması həyata keçirilir. Bu tərifə əsasən, dayanıqlı turizmin xüsusiyyətləri aşağıdakı kimi sıralana bilər:

- Təbii, tarixi və mədəni sərvətlər, cəmiyyətin gələcək faydaları ilə yanaşı turizmin bugünkü cəmiyyət üçün yaratdığı faydaların davamlılığı üçün qorunur.
- Turizmin inkişafı turistik məkanda ekoloji və sosial-mədəni problemlərə səbəb olmayacaq şəkildə planlaşdırılır və idarə olunur.
- Ətraf mühitin ümumi keyfiyyəti qorunur və lazım olduqda yaxşılaşdırılır.
- Turizm məkanının marketinq və populyarlığını qorumaqla yüksək səviyyədə turist məmnuniyyətinə nail olmaq mümkündür.
- Turizmdən qazanclar cəmiyyətin geniş təbəqələrinə yayılır.
- Dayanıqlı turizm konsepsiyası turizm və ətraf mühit arasındakı əlaqəni vurğulayır.

Bu çərçivədə dayanıqlı turizm təbii mühit və yerli icmalar üçün turizmin maliyyətlərini minimuma endirən, faydalarını maksimum dərəcədə artıran və mövcudluğunun asılı olduğu qaynaqlara zərər vermədən sonsuza qədər tətbiq oluna bilən bir turizm formasına istinad edir [5].

Dayanıqlı turizm təcrübələri müəyyən hədəflərə çatmaq məqsədi daşıyır. Bu məqsədlər aşağıdakı cədvəldə göstərildiyi kimi ümumiləşdirilə bilər.

Turizmin bir istiqamətdə davamlı olması üçün lazımi tənzimləmə və planlaşdırma fəaliyyətləri müəyyən kriteriyalara uyğun olaraq həyata keçirilməlidir. Ətraf mühit mənbələri hər bölgəyə görə fərqli elementlər daşımasına baxmayaraq, bu meyarlar müəyyən prinsiplər çərçivəsində formalaşdırıla bilər. Bu kontekstdə irəli sürülə bilən dayanıqlı turizmin ümumi prinsipləri aşağıdakı kimi təsnif edilə bilər:

Tələbə deyil, təklifə görə turistik tənzimləmələr etmək.
Yerli əhalinin prioritetləşdirilməsi.
On iki ay ərzində turizm fəaliyyətinin yayılması.
İctimai nəqliyyat üçün infrastrukturun yaradılması.
Yerli icmaların turizmin inkişaf strategiyasına daxil edilməsi.
Təmiz enerjinin istifadəsinə üstünlük vermək.
Kütləvi turizm fəaliyyətləri tərəfindən təqdim olunan süni turistik yerlər əvəzinə turistlərin yerli həyata daxil edilməsi.
Mövcud yaşayış yerləri fondundan istifadə.
Sosial və mədəni şəxsiyyətin qorunması.

Dayanıqlı turizmin inkişafı, inkişaf və davamlı inkişaf anlayışlarını turizmə uyğunlaşdırmaqla əldə edilən bir paradiqmadır və bu anlayışlar işığında konkret prinsiplər qoyaraq ümumiyyətlə davamlı inkişaf hədəflərinə töhfə verməsi gözlənilir. Bu spesifik prinsiplər əvvəllər yuxarıda təsvir edilmiş prinsiplərə əlavə olaraq aşağıdakı kimi izah edilə bilər:

➢ Dayanıqlı turizmin inkişafı bu günə qədər yerli turistik yerlərdə aktivləri baxımsız qalan qrupların əsas ehtiyaclarının ödənilməsinə kömək etməlidir.

➢ Dayanıqlı turizmin inkişafı yerli turizm yerlərindəki bərabərsizliyi və mütləq yoxsulluğu azaltmalıdır.

➢ Dayanıqlı turizmin inkişafı yalnız milli iqtisadi artımı deyil, həm də regional və yerli iqtisadi artımı sürətləndirməlidir. Bu artım sosial qruplar arasında kifayət qədər bölüşdürülməlidir [1].

Dayanıqlılıq gəlmə turizmin inkişafının ekoloji, iqtisadi və sosial-mədəni aspektləri arasında uyğun bir tarazlığın qurulmasını nəzərdə tutur. Turizmin davamlı olması, turizmin planlaşdırılması və inkişafı prosesində turizmin mövcud və gələcək iqtisadi, sosial və ekoloji təsirlərinin nəzərə alınması deməkdir.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən hazırlanan Azərbaycan Respublikasının 2023-cü il üçün turizm strategiyası və 2020-ci ilin əsas layihələrində Azərbaycanı dünyaya cəlbedici və uğurlu turizm məkanı kimi tanıtmaqda və reklam etməkdə olduqca vacib 4 prinsip qeyd olunub. Bu prinsiplərdən biri də dayanıqlılıqdı.

Təbii və milli mədəni irsin mühafizəsinə, eləcə də ətraf mühitin qorunmasına  müvafiq olaraq, məsuliyyətli planlaşdırma və idarəetmə təcrübələrini təşviq etmək;

Məhsul formalaşdırılması zamanı şaxələndirmək, sənaye standartlarını yüksəltmək və ictimai marağı qorumaqla turizmdən əldə olunan əlverişli sosial nəticələri təmin etmək;

Turizm sənayesinin əhalinin gəlir səviyyəsinə və məşğulluğun artmasına müsbət təsirini və tədiyyə balansını optimallaşdırmaq[6].

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Manning E.W. Coping with Tourism: Governance for Tourism in Impacted Destinations // The Royal Commonwealth Society. Mode of access: http://www.rcs.ca/colloquium/Manning.doc. 67 p.
2. Moscardo G. (2008), Sustainable tourism ınnovation: challenging basic assumptions, Tourism and Hospitality Research, 8(1), https://doi.org/10.1057/thr.2008.7.
3. Wattanacharoensil W., Sakdiyakorn M. "The potential of floating markets for creative tourism: a study in nakhon pathom province", Thailand, Asia Pacific Journal of Tourism Research, 21(1), 2016, p.3-29.
4. Erdemir B. Sürdürülebilir turizm kapsamında destinasyonların fiziksel ve psikolojik taşıma kapasitesi analizi: Pamukkale Hierapolis ören yeri örneği, (Yüksek Lisans Tezi), Balıkesir Üniversitesi, Sosyal Bilimler Enstitüsü 2018.
5. http://sanctuaries.noaa.gov/management/international/pdfs/day1_concepts_manual.pdf
6. Azərbaycan Respublikasının 2023-cü il üçün turizm strategiysı və 2020-ci ilin əsas layihələri. Fevral 2020.


## AZƏRBAYCANDA QONAQ EVLƏRİNDƏ TƏLƏB VƏ TƏKLİFİN SƏCİYYƏSİ


**Cəfərov Rahib**

***Bakı Dövlət Universiteti, Magistr***

***Elmi rəhbər: c.ü.f.d. Talıbov Səbuhi***



**Açar sözlər:** qonaq evi, beynəlxalq aqriqatorlar, kirayə evlər, informasiyanın yenilənməsi, rəylərin təhlili.

**Keywords:** guest house, international aggregators, rental houses, information update, feedback analysis.

**Ключевые слова:** гостевой дом, международные агрегаторы, аренда домов, обновление информации, анализ отзывов.


Azərbaycanda qonaq evlərində satışın təşkilində beynəlxalq aqriqatorlardan istifadə imkanları və reklamında İKT istifadə olunmasında əsas istiqamət olaraq məsələnin həlli nəzərdə tutulur. Ölkədə fəaliyytə göstərən qonaq evləri və ona bərabəfr tutulan yerləşmə yerlərinin təhlili göstərir ki, beynəlxalaq aqriqatorlardan istifadə olunması aşağı səviyyədə olaraq qalır. Beynəlxalq aqriqatorlardan istifadə olunmasına görə əsas turizm mərkəzləri kimi formmalaşan Qəbələ, Quba, Qusar, Şəki, İsmayıllı, Şamaxı, Qax, Lənkəran, Masallı rayonları nisbətən fərqlənirlər. Əsas üstünlük Qəbələ və Quba rayonlarına aiddir [5].

Ümumilikdə ölkə üzrə qonaq  evləri və ona bərabər tutulan gecələmə müəssisələrinin beynəlxalq aqriqatorlardan istifadə edənlərin sayı 500-ə qədərdir ki, bu da çox aşağı göstərici sayılır. Ölkədə olan kirəyə evlərdə qonaq evləri uyğun olduğuna görə bu siyhıya əlavə etək, onların sayı 2000-dən çox olduğun görmək olar[6].

Ölkədə qonaq evlərinə olan tələbat regionları gedən turistlərin sayı ilə birbaşa bağlıdır. Ölkədə regionlara gedən turistlərin sayı bir milyon nəfərdən çoxdur ki, bununda əsas hissəsi, Quba-Xaçmaz, Şəki Zaqatala iqtisadi rayonlarının payına düşür.

Turistlərin qonaq evlərinin bronlaşdırması zaman Expedia, Booking.com və s. ki-mi beynəlxalq aqreqatorlardan istifadə etməsi, həmçinin 2019-cu ildə ölkəmizdə mehmanxanalardakı gecələmələrin 67%-

i (2240,9 min) xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxləri əhatə etməsi bunu deməyə imkan verir ki, Azərbaycan-da mehmanxanaların müştəri ilə təmin edilməsində beynəlxalq aqreqatorların rolu böyükdür. Ölkədə fəaliyyət göstərən 600-dən artıq mehmanxananın 435-i Booking.com, 386-ı Tripadvisorda aqreqatorunda təmsil olunur ki, onları da ulduz təsnifatına görə aşağıdakı aşağıdakı kimi qruplaşdırmaq olar[8,9].

Aqreqatorlarda ən çox təmsil olunan müəssisələr qonaq evi və ona bərabər tutulan yerləirn sayına görə villar üstünlük təşkil edir. Hər iki aqriqatorlarda bu məlumat üzrə paylaşmada müəyyən edilməyən təkliflərin sayının çox olması təqdim olunan xidmətlərin qonaq evləri kateqoriyasına uyğun gəlməməsi ilə bağlıdır. Ölkəmizdə bunqalo tipli qonaq evləri Booking.com və Tripadvisor aqreqatorlarında zəif təmsil olunur, Booking.com-da ən çox villalar təqdim edənlər üstünlük təşkil edir. Tripadvisorda isə təsnifatı müəyyınb edilməyən qonaq evləri üstünlük təşkil edirlər. Hər iki aqreqatorlarda koteclər və fərdi qonaq evləri eyni sayda təmsil olunur.

Beynəlxalq aqriqatorların qonaq evləri üçün təqdim etdiyi imkanlar aşağıdakılardır:

-Sərbəst satış və reklam imkanlarının yaradılması. Satış üçün yeni daha geniş bazar əldə edir, ölkəmizə gələn turistlərə birbaşa məhsul təqdim etmiş olur. Eyni zamanda, milli mətbəxtlə bağlı olan xidmətlərdə təklif edir ki, bu da xarici turizmin inkişafına birbaşa təsir etmiş olur. Dünyada müvəffəqiyyətlə istifadə olunan bu sistem qonaq evlərinin satışın 70%-dən çoxunu təşkil edir. Belə xidmətlərdən sitifadə olunması qonaq evləri sahiblərinə əlavə satış imkanları təqdim etmiş olur[3].

-Müxtəlif mənbələrdə istifadə imkanları. Qonaq evləri beynəlxalq aqriqatorla üzrə iqtisadi baxımdan səmərəlisin seçə bilər. Müxtəlif aqriqatorlar üzrə fəaliyyəti əlaqələndirə, həm də, seçim imkanlarını artıra bilər. Belə seçim imkanları qonaq evləri sahiblərinə satış kanallarını artırmağa, müştəri bazası formalaşdırır. Qonaq evləri üzrə qaydaların təqdim olunması da, onların yeni xidmətlərdən yararlanmağa şərait yaradır. Mənbələr üzrə araşdırma aparmağa, yeni ideyalardan yararlanmağa, mövcud təcrübədən istifadə etməyə, bu sahəyə daha innovativ olmağa şərait yaradır.

-İnformasiyanın yenilənmə imkanları. Qonaq evləri beynəlxalq aqriqatorlardan yararlanmaqla, özlərinə aid olan məlumatları yeniləməyə şətarit vardır. Yenilənmə fotolar, videolar, mətnlərdən ibarətdir. Eyni zamanda, qonaq evləri sahibləri informasiyanı yeniləməklə, turistlərə əlavə məlumat vermiş olur. Bu baxımdan, qonaq evlərinin təqdim etdikləri yeniliklərə turistlərin əlçatanlığı təmin olunur. Belə ki, qonaq evləri sahibləri innovativ lahiyələrin və ideyaların beynəlxalq aqriqatorlar vasitəsilə təqdim etmiş olar[4].

-Rəylərin təhlili və mənfi amillərin aradan qaldırlması imkanları. Qonaq evləri sahibləri xidmətləri haqqında verilən rəyləri əsasında məlumatlar təhlil ounduqdan sonra təqdim edilir. Rəylərin təhlili qonaq evləri sahiblərinə xidmmət üzrə yaranan problemləri həll etməyə imkan verir. Qonaq evləri sahibləri rəy üzrə daxil olunan məlumatları xüsusi vasitələrlə nəzarət etmiş olur. Otellərdə belə təhlillər aparılasa da yerlli qonaq evləri tərəfində bu mübarizə forması tətbiq edilmir.

-Təcrübələrin paylaşılması imkanları. Qonaq evləri üzrə aparılan tədiqatlar göstərir ki, mövcud təcrübələrin paylanılmasında beynəlxalq aqriqatorlar xüsusi rol oynayır. Mövcud aqriqatorlarda belə paylaşımlara tez-tez rast gəlinir ki, bu da qonaq evləri nsahibləri üçün əlavə imkanlar açır[1]. Nəzərə almaq lazımdır ki, belə təcrübələrin öyrənilməsi və özlərinin təcrübələrinin reklamı bu sahədə üstünlüyü təmin etmiş olur.

-İnnovativ lahiyələrin təqdim olunması imkanları. Beynəlxalq belə lahiyələrin təqdim olunması üçün müvafiq meydana sahib olmasa da, innovativ xidmətlərin qısa xülasəsin verməyə imkan verir. Bu da beynəlxalq turizmdə müsbət effekt yaradır. Eyni zamanda, qonaq evlərində mövcud ənənələrin tətbiqi yaxşı nəticə vermədiyi halda innovativ lahiyələrin təqdim olunmasına səbəb olur.

Beynəlxalq aqriqatorlardan alınan məlumatların təhlili göstərir ki, ölkəmizdən qonaq evləri kimi təqdim olunan gecələmə yerləri villalar, şalelər və s. formada təqdim edilir. Onların arasında villalar üstünlük təşkil edir. Bu da onların təqdim etdiyi xidmətlərin çox olması və mövcud imkanların daha çox sərgilənməsi ilə bağlıdır.




**Şəkil.1.** Booking.com saytında Azərbaycanın regionlarında fəaliyyət göstərən qonaq evlərinin tipləri üzrə sayları [8].

Qonaq evlərinin sayı çox olsa da, beynəlxalq aqriqatorlarda onlarəın qeydiyyatı və fəaliyyət istiqamətləri azlıq təşkil edir. Nəzərə alsaq ki, bütün kateqoriyalar üzrə qonaq evləri statusunda olan gecələmə yerlərinin sayı 2000-dən çox olsa da, bookingdə yerləşdirlən satış elanları 149-a çatır. Bu da ümumi qonaq evlərinin 7,5% beynəlxalq aqriqator olan booking istifadə edir ki, bu da çox aşağı göstərici sayıla bilər. Booking.com-da təqdim edilən qonaq evlərin əsas hissəsi Quba, Qəbələ rayonalrına məxsusdur.

Beynəlxalq aqriqatorlarda qonaq evinin qiymət intervalı [8,9]

| Qiymət intervalı | Qonaq evlərinin sayı və yerləşdiyi şəhər (rayon) |
|---|---|
| 50 dollara qədər | Bakı (165), Qəbələ (103), Sumqayıt (22), Ab-şeron (12), Şəki (68), Naxçıvan (20), Qax (21), Gəncə (15), Masallı (16) |
| 50-75 dollar arası | Bakı (15), Siyəzən (1), Şəki (1), Qəbələ (34), Quba (32) |
| 75-100 dollar arası | Bakı (5), Qəbələ (12), Quba (11) |
| 100-125 dollar arası | Bakı (10), Qəbələ (12), Quba (11) |
| 125 dollardan çox | Bakı (8), Qəbələ (10), Quba (7), Qusar (2) |

Cədvəldən göründüyü kimi, nəzərdə tutulmuş vaxt ərzində (29-30 iyun) respublikada fəaliyyət göstərən və beynəlxalq aqreqatorunda təmsil olunan qonaq evləri arasında bütün qiymət intervalları üzrə nömrə təklif edən müəssisələrin əksəriyyəti Bakı şəha-rində yerləşir. Daha bahalı qonaq evləri də Bakı şəhəri, Qəbələ və Quba rayonunda cəmlənib.

## ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının Qanunvericiliyi toplusu. XI cild, Bakı: "Avrasiya press", 2017.
2. Turizm və rekreasiya zonaları haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı: 2008, Azərbaycan Respublikasının Qanunvericiliyi toplusu. II cild, Bakı: "Avrasiya press", 2011.
3. Aqroturizm üzrə əl kitabçası, 2020 (elektron resurs) 84 s.
4. Kənd Evi Sahibləri üçün Qonaqlama Xidmətinin Təşkili üzrə Bələdçi, GIZ, 64 s.
5. http://seyyah.az › news
6. https://qonaq.az › property
7. http://mct.gov.az › medias › article › other › meh
8. https://www.booking.com
9. https://www.tripadvisor.com

# KÜTLƏVİ İDMAN TƏDBİRLƏRİ ZAMANI NƏQLİYYAT SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Çəmənli Pərviz Ənvər oğlu**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: t.ü.f.d., dosent Bilalov Bahadur***
***cemenliperviz@gmail.com***

## XÜLASƏ

Məqalədə kütləvi idman tədbirlər zamanı nəqliyyat sisteminin düzgün təşkilinin əhəmiyyəti vurğulanmışdır. Azərbaycanda idman yarışları müddətində nəqliyyat sistemi ilə bağlı görülmüş tədbirlər araşdırılmışdır. Nəqliyyat sistemində işlərin təkmilləşdirilməsi istiqamətində bir sıra təkliflər verilmişdir.
**Açar sözlər:** Kütləvi idman tədbirləri, idman turizmi, beynəlxalq turizm, nəqliyyat problemləri,”Formula 1” yarışları.

## РЕЗЮМЕ

## СОВЕРШЕНСТВОВАНИЕ СИСТЕМЫ ТРАНСПОРТИРОВКИ ПРИ МАССОВЫХ СПОРТИВНЫХ МЕРОПРИЯТИЯХ

В статье подчеркивается важность правильной организации транспортной системы при проведении массовых спортивных мероприятий. Были исследованы меры, принятые в отношении транспортной системы во время спортивных соревнований в Азербайджане. Был внесен ряд предложений по улучшению работы в этом направлении.
**Ключевые слова:** массовые спортивные мероприятия, спортивный туризм, международный туризм, транспортные проблемы, Формулы-1.

## SUMMARY

## IMPROVEMENT OF TRANSPORTATION SYSTEM DURING MASS SPORTS EVENTS

The article emphasizes the importance of proper organization of the transport system during mass sports events. The measures taken in connection with the transport system during sports competitions in Azerbaijan were investigated. A number of suggestions were offered in order to improve this field.
**Keywords:** Mass sports events, sports tourism, international tourism, transport problems, Formula 1 races.

Müasir dövrümüzdə ən vacib reklam və tanıtım vasitəsi kimi göstərilən kütləvi idman tədbirlərinin ən yaxşı şəkildə təşkil edilməsi ölkələrin imici baxımından olduqca mühümdür [2, səh 282]. İdman tədbirlərini ancaq başlanğıcından sonuna qədər sistematik şəkildə planlaşdırılması ilə yaxşı nəticələrin əldə edilməsi mümkün olur. Əks təqdirdə, idman tədbirləri müddətində meydana gələ biləcək ən kiçik qüsur belə ümumi təşkilatçılığa kölgə sala bilər. Bu səbəbdən ev sahibi ölkələri təşkilatçılıq məsələlərində hər xırda detalı dərindən analiz etməklə, mümkün riskləri minimallaşdırmalıdırlar [1, səh 17].

Azərbaycanda son illərdə təşkil edilmiş kütləvi idman tədbirlərinin nəticələrini analiz etdikdə məlum olur ki, ölkəmiz bu tədbirlərdən üzüağ çıxmağı bacarmışdır. Tədbirlər müddətində və sonrasında ənənəvi mediya vasitələrində və sosial mediya platformalarında xaricilərin təşkilatçılıq məsələləri ilə bağlı müsbət fikirləri bunu sübut edir. Bununla belə, dəyişən və daim inkişafda olan idman sənayesinin müasir tələblərinə cavab vermək üçün kütləvi idman tədbirlərinə sahiblik edən və sahiblik etmək istəyən hər bir ölkə beynəlxalq idman yarışlarının təşkilinin təkmilləşdirilməsi üçün əlavə tədbirlər görməlidir.

Ölkəmizin beynəlxalq idman tədbirlərinin təşkilində iki əsas məqsədi vardır. Birincisi ölkəmizdə gənc nəslin idmana marağının artırılması və bunun fonunda idman sənayesinin inkişafına əlavə təkan

verilməsi, ikincisi isə idman tədbirlərinin keçirilməsi ilə ölkəmizin tanınmasına nail olunması, əcnəbi turistlərin Azərbaycana səyahət etməsinə təşviq edilməsi və ümumi iqtisadi fəallığın artırılmasıdır. Azərbaycanda kütləvi idman tədbirlərinin təşkilini təkmilləşdirmək üçün turizm və ona yaxın sahələrdə mövcud olan bir çox problemlərin həll variantlarına nəzər salmalıyıq. Bu baxımdan kütləvi tədbirlər zamanı meydana çıxan nəqliyyat problemlərini analiz etməkdə fayda vardır.

Kütləvi idman tədbirlərində komanda heyətlərinin, onların rəsmilərinin və izləyicilərinin sayının çoxluğu yarışlar müddətində ev sahibi ölkənin nəqliyyat şəbəkəsində sıxlığa səbəb olur. İdman tədbirinin hansı şəhərdə keçirilməsindən asılı olmayaraq, demək olar ki, dünyanın istənilən ölkəsində bu problem yaşanmaqdadır [4, səh 221]. Nəqliyyat problemləri beynəlxalq idman yarışları ilə bağlı geniş təcrübəyə malik və nəqliyyat infrastrukturu ilə yaxşı təchiz olunmuş Avropa və Asiyanın qabaqcıl şəhərlərində, kütləvi tədbirlər ilə bağlı ilk və ya yeni təcrübə toplamağa başlamış şəhərlərlə nisbətdə daha az hiss edilir [3, səh 130].

Azərbaycanda kütləvi idman yarışlarının başlanğıcı “Avropa Oyunları 2015” hesab edilir. Lakin ölkəmizdə bu yarışlardan üç il öncə böyük nüfuza malik “Eurovision 2012” müsabiqəsi keçirilmişdir. “Eurovision 2012” müsabiqəsini beynəlxalq kütləvi tədbir kimi Azərbaycanın ilk sınağı olduğunu deyə bilərik.

Bakının ənənəvi tıxaclarının nəticələrinin minimuma endirilməsi məqsədilə müsabiqədən öncə artıq bu istiqamətdə işlərə başlanılmışdır. Bu məqsədlə nəqliyyat infrastrukturu yenilənmiş, qəzalı yollar bərpa edilmiş və yol kənarlarına yeni nişanlar qoyulmuşdur. Məsul şəxslər gücləndirilmiş iş rejiminə keçid etmişdirlər. Müsabiqə müddətində Bakı şəhəri üçün bəzi lokal məhdudiyyətlər də tətbiq edilmişdir. Məktəblərin qısa müddətlik bağlanılması, rayon qeydiyyatlı və irihəcmli yük avtomobillərin paytaxta girişinin məhdudlaşdırılması Bakıda müsabiqə müddətində tıxacın yaranmamasında effektli oldu. Sonrakı illərdə Avropa Oyunları və İslam Həmrəyliyi Oyunlarının təşkili zamanı da oxşar təcrübədən istifadə olunmaqla tıxac problemlərini minimallaşdırmaq mümkün olmuşdur. Bunun üçün nəqliyyatın hərəkəti məhdudlaşdırılmış, iş vaxtları dəyişdirilmiş, qaydalar sərtləşdirilmiş və yollara nəzarət gücləndirilmişdir. Ümumilikdə, yuxarıda sadalanan kütləvi idman tədbirləri zamanı Bakıda ciddi tıxac probleminin yaşanmadığını söyləyə bilərik.

Bakıda kütləvi idman tədbirləri zamanı nəqliyyat ilə bağlı əsas problem isə “Formula 1” yarışları ərəfəsində, müddətində və sonrasında müşahidə edilməkdədir. Nəqliyyatla bağlı problemlər dedikdə, burada Bakıya gələn komanda üzvlərinin, nümayəndə heyətlərinin və əcnəbi turistlərin qarşılanması və yerləşdirilməsi ilə bağlı problemlər nəzərdə tutulmur. Xarici rəylərə əsasən söyləmək olar ki, Bakı təşkilatçılıq məsələlərində olduqca peşəkar davranış sərgiləməkdədir. Əsas problem yarış zolağının

Bakının mərkəzi küçələrindən keçməsi ilə bu küçələrin ilin müvafiq dövründə ya bağlanması, ya da məhdudlaşdırılmasıdır. Bu da digər küçələrdə vaxtaşırı tıxacın yaranmasına gətirib çıxarır. Belə problemlər sakinlərin sosial narazılıqlarına səbəb ola bilir.

Mövcud problemi sırf kütləvi idman tədbirləri zamanı meydana çıxan problem kimi qiymətləndirmək düzgün olmaz. Alternativ yolların azlığı, əsas küçələrin darlığı, avtomobil sayının sürətlə artması və bunlar nəticəsində yaranan tıxac Bakının ənənəvi problemlərindəndir. Burada əsas məsələ kütləvi idman tədbirləri zamanı həmin ənənəvi problemlərin minimallaşdırılması və problemlərin düzgün idarə edilməsidir.

Bakı ilə yanaşı, Monako, Melburn və Sinqapur kimi şəhərlərdə də yarışlar mərkəzi küçələrdə təşkil edilir. Lakin həmin şəhərlərdə Bakıdakı kimi nəqliyyat problemləri və bunun fonunda sosial narazıçılıqlar yaşanmır. Bu kimi şəhərlərdə trolleybuslar, tramvaylar fəaliyyət göstərir ki, bu nəqliyyat vasitələri böyük tıxacların qarşısının alınmasına kömək edir. Azərbaycanda isə bu tipli nəqliyyat vasitələri tətbiq edilmir. Avropa praktikasında kütləvi idman tədbirləri zamanı əsas yolların bağlanılması, xüsusi buraxılış üçün icazələrinin verilməsi və digər məsələlər yoxdur. Avropanın əksər ölkələrində prospektlər geniş ölçüdə tikilib və yol kənarlarında velosiped sürənlər üçün də xüsusi hissə ayrılmışdır. Bütün bu amilləri nəzərə alaraq söyləyə bilərik ki, Azərbaycanda “Formula 1” müddətində nəqliyyat problemlərinin yaşanmaması üçün ya yarış zolağı şəhər mərkəzindən kənarda təşkil edilməli və bunun üçün xüsusi kompleks inşa edilməli, ya da şəhərin yol infrastrukturu Avropa standartları səviyyəsinə çatdırılmalıdır.

Yarışların şəhər mərkəzlərində təşkili ölkənin və paytaxtın tanıtımı baxımından çox əhəmiyyətlidir. Hər il yüz milyonlarla əcnəbi yarışları izləyərkən Bakının qədim və müasir memarlıq incilərinə şahidlik edir və növbəti illərdə Azərbaycana səyahət üçün stimul formalaşdırırlar. Həmçinin, “Formula 1” üçün

ayrıca kompleksin tikilməsinin də xeyli maliyyə vəsaiti tələb etdiyini nəzərə alsaq, nəqliyyat infrastrukturunu yaxşılaşdırmaqla, yarışların elə şəhər mərkəzində keçirilməsi daha məqsədəuyğundur [5].

Yuxarıda sadalan problemlərin həlli və ya onların minimallaşdırılması ilə kütləvi idman yarışlarının təşkilində mühüm nailiyyətlər qazanmaq olar. Bununla yanaşı, qlobal

idman sənayesi və idman turizmində yeni tendensiyaları izləməklə, kütləvi idman tədbirlərinin təşkilatçılığında həmin tendensiyalara uyğun davranmaq gərəklidir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Crompton J.L. “Economic impact analysis of sports facilities and events: Eleven sources of misapplication”. Journal of Sport Management: 1995,14–35 p.
2. Green B.C., & Chalip L. Sport tourism as the celebration of subculture. Annalsof Tourism Research:1998, 275-294 p.
3. Kim K., Uysal M. & Chen J. Festival visitor motivation from the organizers’ points of view. Event Management: 2002, 127-134 p.
4. McPherson B. Sport participation across the life cycle: A review of the literatureand suggestions for future research. Sociology of Sport Journal:1984. 213-230 p. 5. https://www.bakucitycircuit.com/ - “Formula 1” Azərbaycan Qran-Prisinin rəsmi vebsaytı


# YETKİN GƏNCLƏRDƏ PSİXOFİZİOLOJİ GƏRGİNLİYİN YARANMA SƏBƏBLƏRİ


**Dural Pinar, Əkbərova Xədicə, Abdullayev Pünhan**

***Qərbi Kaspi Universiteti***

**candanpinar734@gmail.com, xadica.akbarova@mail.ru**



**Açar sözlər:** emosional gərginlik, stres təsir, imtahan prosesi, yetkin gənclik, psixofizioloji dəyişiklik, fizioloji yaş dövrləri.

**Ключевые слова:** эмоциональное напряжение, стрессовые воздействия, экзаменационный процесс, взрослый юношеский период, психофизиологические изменения, физиологические возрастные периоды.

**Key words**:emotional tension, stress effects, exam process, adult youth period, psychophysiological change, physiological age periods.


Fizioloji yaş dövrləri içərisində mühüm əhəmiyyəti olan dövrlərdən 21-29 yaş arası dövrdür ki, bu yetkon gənclik dövrü adlanır. Bu yaşda dünyagörüşü, peşə maraqları, özünüdərketmə, arzu və ideallardan formalaşır və mükəmməlləşir. Tədris peşə fəaliyyəti zamanı gənc nəsil peşə təlimi sahəsinə istiqamət alır, özünə sənət seçmək iddiasında olur, özünü inkişaf elətdirir, iddia səviyyəsi yüksək olur. Karyera qurur və çox vaxt ailə həyatı qurur. Təbii qeyd edilən yaş dövrü də ən çox emosional gərginlik və stress təsirlərə məruz qalması ilə xarakterizə olunur.

Emosional gərginlik sindromunun təsiri altında bir sıra psixofizioloji dəyişikliklər qeyd olunur ki, nəticədə fərdin şəxsiyyət kimi tam formalaşmasında maneələr yarada bilər. Xüsusilə, fərdi inkişafın sürətlə getdiyi gənclik illərində stres faktorların fəsadı daha böyükdür. İmtahan stresi də gənc nəsildə psixoloji gərginlik yaradan faktorlardan biridir və nəticədə sinir-psixi pozğunluqlar yarada bilər. İmtahan tələbələrdə psixitravma yaradan faktor kimi qəbul edilir və tələbələrdə imtahan prosesi vaxtı gözləmə dövrü mühüm informasiya əhəmiyyətinə malikdir, psixoloji stresin yaranması ilə nəticələnir. Zehni yorğunluq, yuxusuzluq, imtahana gərgin hazırlaşma dövrü psixi, vegeto-hormonal və s. sistemlərdə tənzimləmə mexanizmlərinin pozulmasına səbəb olur ki, bu sinr sisteminin yorulmasına, dərketmə,informasiyanın yenidən işlənməsinə,stres şəraitə adaptasiya olmanın zəifləməsinə gətirib çıxara bilər. Hətta son illərin ədəbiyyatında stres faktorlarının sinir, ürək-damar, immun sistemlərindən əlavə, genetik aparata mənfi təsir etməsi, onkoloji xəstəliklərin inkişafına şərait yaratması qeyd edilib. Emosional gərginlik beyin qabığından

başlayan və hüceyrələrdə, molekullarda sonlanan zəncirvari reakisyalar yaradır. Təbii ki, emosional gərginliyə qarşı cavab reaksiyaları sinir sisteminin inkişaf səviyyəsindən asılı olaraq formalaşır və müxtəlifşəkillidir. Daha emosional insanlarda stres təsirlərdən yüksək səviyyədə simpatik və ya parasimpatik sinir sinir sistemi şöbələrinin aktivləşməsi qeyd olunur ki, son nəticədə vegetativ homeostazın pozulması və ürək-damar sistemi reakisyalarının labilliyinin artması (arterial təzyiqin yüksəlməsi) müşahidə edilir. Ali sinir sisteminin tipindən asılı olaraq zehni və psixo-emosional gərginlik neyroendokrin sistemin dəyişikliklərinə səbəb ola bilər və son nəticədə xroniki stres yaranar, maddələr mübadiləsinin (xüsusilə zülal mübadiləsinin) pozulması ilə müşaiyət oluna bilər.

Ədəbiyyatda rast gəlinən maraqlı məqamlardan biri də odur ki, emosional gərginlik fizioloji yaş dövrlərindən asılı olaraq müxtəlif səviyyəli psixofizioloji dəyişikliklərin yaranmasına səbəb olur. Emosional gərginlik səviyyəsinin imtahan önü dövrdə daha yüksək olması qeyd olunur ki, bu zaman sistemlər arası əlaqələrin zəifləməsi nəticəsində daha yüksək səviyyədə psixofizioloji dəyişikliklər qeyd olunur. İmtahandan sonrakı dövrdə aparılan tədqiqatlarda isə orqanizmin yüksək funksional gərginliyi qeyd olunur və imtahan önü dövrə nisbətən göstəricilər aşağı səviyyədə qeyd olunmuşdur (Kərəmova N.Y., 2010).

Beləliklə, gənclik dövründə stres təsirlər, emosional gərginlik şəraitləri və imtahan prosesi sağlamlığa ciddi ziyan vura bilən, fizioloji yaş, adaptasiya qabiliyyəti və yaranmış emosional gərginliyin ağırlıq dərəcəsindən asılı olaraq psixofizioji dəyişikliklərə səbəb olur.

## DÖVLƏT MALİYYƏ NƏZARƏTİ SİSTEMİNDƏ AUDİTİN SƏMƏRƏLİLİYİ

**Ellazova Lamiyə**
***Qərb Kaspi Universiteti***
***İqtisadiyyat və biznes məktəbi fakültəsi***
***Elmi rəhbər: Dos.Hacıyeva G.S.***
***lamiye.ellezova@gmail.com***

**Açar sözlər**: Maliyyə nəzarəti, Audit.
**Key words:** Financial control, Audit.
**Ключевые слова:** Финансовый контроль, Аудит.

Sosial iqtisadi proseslər inkişaf etdikcə bazar iqtisadiyyatında Dövlət maliyyə nəzarətini gərçəkləşdirmək ən önəmli şərtlərdən biri olmuşdur.

Maliyyə nəzarəti - istənilən qanunvericilik və icraedici hakimiyyət orqanlarına, həmçinin dövlətin, müəssisənin, idarələrin, təşkilatların maliyyə fəaliyyətinə nəzarət etməkdir. Dövlət maliyyə siyasətini reallaşdırmaq və maliyyə sabitliyini yaratmaq üçün dövlət maliyyə nəzarətini yaratmışdır. Maliyyə nəzarəti eyni zamanda iqtisadiyyatda milli məhsulun natural və dəyər göstəricilərindəki tarazlıq pozuntularını aşkara çıxarmaq üçün istifadə olunur. Maliyyə nəzarətinə pulun istifadə olunduğu bütün əməliyyatlar (büdcələrin və büdcədənkənar fondların tərtib olunması, yoxlanması, icrası, istehsal fondlarından səmərəli istifadəsini, istehsalın qiymət strukturunu tənzimləyir, yönəldiyi obyektləri stimullaşdırır, nizamlayır və möhkəmləndirir) daxildir.

Maliyyə həm də bölgü münasibətidir. Maliyyə də milli gəlirin,milli məhsulun və yenidən bölünməsi prosesleri bölgü münasibətlərinə aiddir.

Maliyyə dəyər xarakterinə malik olduğu üçün maliyyə nəzarəti dəyər nəzarətidir. Digər nəzarət formalarından fərqli olaraq, ictimai təkrar istehsalın bütün sahələrinə aid edilir və pul fondlarının bütün hərəkət proseslərində müşayiət olunur. Maliyyə nəzarəti şəxsi istehlakda həm cəmiyyətin üzvlərinin maddi və mənəvi tələbatlarının ödənilməsindəki uyğunsuzluğu, həm də şəxsi tələbatların ödənilməsindəki pozuntuları aşkara çıxarır.

Maliyyə nəzarəti - həm təkrar istehsalın bütün mərhələlərini, idarəetmənin səviyyələrini, həm də dövlət büdcəsini əks etdirir. Maliyyə nəzarətinin predmeti həm cəmiyyətdə istehsal münasibətlərini əks

etdirən iqtisadi subyektlərin istehsal, bölgü və məhsul mübadiləsi prosesidir, həm də dövlət büdcəsinin həm onun formalaşması mərhələsində, həm də onun bölüşdürülməsi və istifadəsi mərhələlərindən ibarətdir. Maliyyə nəzarətində bankların rolu xüsusi qeyd edilməlidir. Bazar iqtisadiyyatında bank fəaliyyətini və onun tərkib hissəsi kimi, bank nəzarətini daha önəmli etmişdir.

Azərbaycanda həyata keçirilən islahatlar qeyri-dövlət maliyyə nəzarəti, o cümlədən audit sahəsində də zəruri islahatların aparılmasını vacibləşdirir. Bu sahədə aparılan islahatların əsas məqsədi qeyri-dövlət maliyyə nəzarətinin bazar münasibətlərinə və beynəlxalq təcrübəyə uyğun olaraq təşkilinə nail olmaqla, ölkə iqtisadiyyatında maliyyə şəffaflığının təmin edilməsinə, müəssisədə və subyektdə sağlam maliyyə mühitinin və anlaşıqlı informasiya sisteminin formalaşdırılmasına yönəlməlidir.

Maliyyə nəzarəti iqtisadi nəzəriyyədən faydalanaraq, idarəetmə sistemində, bölgü və istehlak sistemində özünün praktiki məsləhətləri ilə həyati əhəmiyyəti olan bir rola sahibdir. Cəmiyyətdəki nisbətsizlikləri və neqativ hallar aşkarlanaraq onların aradan qaldırılmasına və yenidən təkrar olunmamasına səbəb olur, eləcə də istehsal münasibətlərinin səmərəli olmasına, istehsal gücündən optimal olaraq faydalanmağa kömək edir.

Dünya təcrübəsində qəbul olunmuş qaydalara uyğun dövlət maliyyə nəzarəti sisteminin bazasının araşdırılması nəticəsində belə qənaətə gəlinir ki, bu şəkildə göstərilən Azərbaycan Respublikasında mövcud maliyyə nəzarəti sistemi indiki şəraitdə xeyli dərəcədə şərti məna daşıyır, əslində isə bir-birindən təcrid olunmuş və öz aralarında əlaqələri çox zərif olan nəzarət orqanlarının müəyyən məcmusudur.

Son illər ölkəmizdə həyata keçirilən iqtisadi islahatların gedişini göstərir ki, xalq təsərrüfatının bütün sahələrində maliyyə nəzarəti işinin təşkili ilə əlaqədar konkret olaraq bir sıra işlər görülmüşdür. Müasir dövrdə iqtisadi münasibətlərə müvafiq dövlət nəzarəti tətbiq etməklə həmin nəzarətin daha uyğun vasitələri seçmək bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların qarşısını almaq üçün müəyyən tədbirlər görülməlidir.

İqtisadi cinayət xarakterli faktları aşkar etmək məqsədi ilə yoxlamalar, təftişlər və s. nəzarəti həyata keçirmək zərurəti yarandıqda Baş Prokurorluqda, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin əsaslandırılmış qərarları və Mərkəzi Bankının, Maliyyə Nazirliyinin, Vergilər Nazirliyinin və Auditor Təşkilatının mütəxəssislərinin iştirakı ilə yoxlamaların aparılması məqsədəuyğun hesab edilir. 1999-cu ildən etibarən Azərbaycan Respublikasının Nazirlik, Komitə və başqa mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş qürumları ləğv olunmuşdur.

Qeyri-dövlət maliyyə nəzarəti o cümlədən, təsərrüfatdaxili nəzarətin müəssisənin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən uçot siyasətinin formalaşdırılmasında, onun iqtisadi siyasətinə yüksək səviyyəli peşəkar ekspert rəyinin verilməsində, struktur bölmələrinin fəaliyyətinin təşkilində, əlaqələndirilməsində, ümumilikdə isə fəaliyyəti nəticələrinin qiymətləndirilməsində öz aparıcı mövqeyi ilə çıxış edir. Zənnimcə, müasir bazar iqtisadiyyatı şəraitində bu sahə daha geniş anlamda qiymətləndirilməli və bu anlama iqtisadi təhlillər, maliyyə startegiyasının müəyyənləşdirilməsi, bazar amillərinin tədqiq olunması, idarəetmə sisteminin qiymətləndirilməsi və bu sahədə zəruri təkliflərin verilməsi daxil edilməlidir.

## İNZİBATİ RAYONLARIN QAZ XƏTLƏRİNİN ÇƏKİLMƏSİNDƏ VBİS-LƏRİN TƏTBİQİNƏ DAİR

**Ədilzadə Türkay Rövşən**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***edilzadeturkay641@gmail.com***

### XÜLASƏ

İşdə verilənlər bazasının idarəetmə sistemindən istifadə edilməklə, inzibati rayonlarda qaz xətlərinin çəkilməsi məsələsinə baxılmışdır. Bunun üçün ilk növbədə həmin rayonun əhalisi, rayonun ərazisində fəaliyyət göstərən ali məktəblər, kurslar, orta məktəblər, uşaq baxçası, məcburi köçkünlər üçün ayrılmış

qaz ehtiyatı və.s. bu məlumatlar toplanılaraq siyahı tərtib edilmişdir. Daha sonra həmin rayonun strukturu və iş fəalyyəti haqqında məlumatlar verlmişdir. Daha sonra isə əlimizdə olan bütün bu məlumatlardan istifadə edərək, idarəetmə sisteminin işlənməsinə baxılmışdır.

**Açar sözlər**: Qaz xətlərinin çəkilməsi, SQL, Cihaz

## SUMMARY

This thesis considers the issue of construction of gas pipelines in administrative districts using the database management system. For this purpose, first of all, the population of the region, universities, courses, secondary schools, historical monuments, hospitals, kindergartens, gas reserves for IDPs, etc. operating in the region. This information was collected and a list was compiled. Then information was given about the structure and activities of the region. Then, using all the available information, the creation of the management system was considered.

**Keywords**: Construction of gas pipelines, SQL, Device

## РЕЗЮМЕ

В работе вопрос прокладки газопроводов в административных округах рассматривался с использованием системы управления базами данных. Для этого, в первую очередь, население области, в регионе действуют вузы, курсы, общеобразовательные школы, исторические памятники, больницы, детские сады, газовые резервы для вынужденных переселенцев и др. Эта информация была собрана и составлен список. Затем была предоставлена информация о структуре и деятельности региона. Затем, используя всю эту доступную нам информацию, была рассмотрена разработка системы менеджмента.

**Ключевые слова:** Строительство газопроводов, SQL, Устройство.

Qaz Respublikamızın strateji əhəmiyyətə malik olan milli sərvətlərindən biridir. Respublikamız müstəqilliyini yenidən bərpa etdikdən sonra bu məhsulun iqtisadiyyatımızın inkşaf etdirilməsində xüsusi çəkisi daha da artmışdır.

Bununla yanaşı, o əhalinin istilik sisteminin təminatında əvəzsiz yanacaq kimi istifadə edilir. Bir çox hallarda bu yanacağın istifadəsi zamanı israfçılığa yol verilir. Digər tərəfdən qaz pulunun vaxtlı-vaxtında ödənməməsi müəyyən problemlər yaradır ki, bu da təklif olunan "İnformasiya idarəetmə sisteminin" işlənməsini gündəmə gətirir. Belə ki, bu problemin həlli informasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə daha asan şəkildə həll oluna bilər.

Qaz idarəsinin abonent şöbəsi üçün informasiya idarəetmə sisteminin işlənməsinə Nərimanov rayonunun timsalında baxılmışdır. Bunun üçün ilkin olaraq Nərimanov rayonu qaz idarəsinin strukturu öyrənilmiş və informasiya idarəetmə sisteminin işi bu struktur əsasında qurulmuşdur.

Sistemin biliklər və verilənlər bazası struktur sxemə uyğun olaraq yaradılmışdır. Bu sistem idarəetmə funksiyalarını yerinə yetirən çoxfunksiyalı sistemdir. [2, 67-68]

Sistemin verilənlər bazasında aşağıdakı informasiyalar yerləşdirilmişdir:

Rayonunun inzibati ərazisi; rayonun qaz idarəsi haqqında informasiya; qaz idarəsinin ümumi sturukturu (şöbələr və vəzifələr); rayonun qaz idarəsinin şöbələrinin sayı və hər şöbəyə daxil olan abonentlərin sayı; abonentlər haqda ümumi məlumatlar; rayonun ərazisində yerləşən mənzil və ictimai obyektlərin (zavodlar, restoranlar və s.) sayı (abonentlərin sayı); rayonun qaz idarəsində istifadə olunan sayğacların sayı və tipi (mexaniki və ya smart tipli); rayona il ərzində verilən qazin həcmi və rayonun ərazisində hər bir abonentin il ərzində istifadə etdiyi qazın həcmi (m3); rayonun ərazisində məskunlaşmış məcburi köçkünlərin sayı; rayonun ərazisində məskunlaşmış məcburi köçkünlərin hər bir nəfərinə ayrılan limiti və hər bir nəfərin il ərzində istifadə etdiyi qazın həcmi (m3).




Sistemdən istifadənin əsas məqsədi satılmış qazın hesabatını aparmaq, sayğacların vəziyyəti haqqında məlumatı özündə birləşdirmək, real zaman anında abonentlər haqqında informasiyanı təqdim etməkdən ibarətdir. Hər bir abonent haqqında informasiya xüsusi kod altında saxlanılır. Kodun ümumi yazılışı aşağıdakı kimidir. 101011700700000. Burada 10 Bakı şəhərinin, 2-ci 10 Nərimanov rayonunun, 117 küçənin, müəssisənin adının, 0070 evin (binanin), 0000 isə mənzilin kodunu göstərir. [1, 15]

Sistem üçün üç baza götürülmüşdür:

1. Abonentlər haqqında məlumat üçün;
2. Hər abonentin Cihazlarının sayı üçün;
3. Cihaz haqqında məlumat üçün;

Abonent haqqında məlumatlar aşağıdakılardan ibarətdir: abonentin kodu, abonentin adı və soyadı, abonentin ünvanı, abonentin ailə tərkibinin sayı.

Ikinci bazada bir abonentin neçə Cihazı və hər Cihazdan neçə dənə olduğu haqqında məlumat yerləşir. Üçüncü bazada Cihaz haqqında məlumatlar aşağdakılardan ibarətdir: Cihazın kodu, Cihazın adı, Cihazın sərf etdiyi qaz sərfi, cihazın növü.

Sistemə yeni abonent haqqında məlumatları daxil etmək, abonent haqqında məlumatları səhv girildikdə bu abonenti bazada axtarıb tapmaq və üzərində dəyişiklik etmək, bazadan hər hansı abonent haqqında məlumatları silmək, bütün bazalardakı məlumatlara baxmaq, həmçinin bazada axtarışın sürətli aparılması üçün bazanı indeksləmək çox asanlıqla həyata keçirilir.

Həmçinin sistem bütün əməliyyatları yerinə yetirərkən, istifadəçi ilə dialoqa keçir. Əməliyyatları yerinə yetirməyi təsdiqləmək üçün sorğu verir, aldığı Cavaba uyğun əməliyyatı həyata keçirir. [1, 54]

SQL vasitəsilə hazırlanmış sistemdə bütün bu məlumatlar kompüterin yaddaşında saxlanır və buradakı informasiyaların məxfiliyi qorunur. [2, 57-70]

Tələb olunan Verilənlər bazasın qurmaq üçün SQL sorğu dilindən istifadə edilmişdir. Microsoft firmasının məhsulu olan SQL Server relasiya modelli VBIS olub, «Kliyent-server» arxitekturalı informasiya sistemlərinin yaradılması üçün nəzərdə tutulub. Bu cür IS-də o, verilənlər bazasının serveri rolunu oynayır. Onun 2000-ci ildən sonra yaradılan variantları informasiyanın paylanmış emalı sistemlərinə qoyulan tələblərə cavab verir, verilənlərin nüsxələnməsini, paralel emalını, böyük tutumlu verilənlər bazalarının yaradılmasını və emalını dəstəkləyir, idarə olunmasının və istifadə edilməsinin sadəliyi ilə fərqlənir və verilənlər bazalarının Internet və Intranetlə sıx inteqrasiyasını təmin edirlər. [3, 25]

## ƏDƏBİYYAT SİYAHISI :

1. ISO/IEC 9075:1992, Information Technology - Database Language - SQL, 1992.

2. ISO/IEC 9075-4:1996, Information Technology - Database Language - SQL - Part 4:
3. Persistent Stored Modules.
4. Борри Х. Firebird: руководство разработчика баз данных. – СПб.: БХВ-Петербург,
5. 2006. – 1104 с.

## KARYERA QURAN QADININ PSİXOLOJİ PORTRETİ

**Əfəndiyeva Aytən Fazil qızı**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: P.Ü.F.D. Abbasova Afərin Əli qızı***

**Açar sözlər:** karyera, qadın, ailə, özünüqiymətləndirmə, müvəffəqiyyət.

**РЕЗЮМЕ**

**ПСИХОЛОГИЧЕСКИЙ ПОРТРЕТ ЖЕНЩИНЫ, СТРОЯЩЕЙ КАРЬЕРУ**

В результате становится ясно, что в зависимости от человека карьера может иметь как отрицательное, так и положительное влияние на жизнь человека. При этом в психологическом портрете женщины, строящей карьеру, помимо положительных черт присутствуют и отрицательные моменты, возникающие под влиянием карьеры. Однако женщина, построившая карьеру, которая сводит к минимуму эти недостатки, будет успешна как в семье, так и на работе, и сможет решать проблемы в более широком масштабе.
**Ключевые слова:** карьера, женщина, семья, самооценка, успех

**RESUME**

**Afandiyeva Aytan Fazil gizi**

**PSYCHOLOGİCAL PORTRAİT OF A WOMAN BUİLDİNG A CAREER**

As a result, it becomes clear that, depending on the individual, a career can have both negative and positive effects on a person's life. At the same time, in the psychological portrait of a career-building woman, along with the positive features, there are also negative aspects that arise under the influence of the career. However, a woman who builds a career that minimizes these disadvantages will be successful in both family and work life, and will be able to solve problems on a larger scale.
**Key words:** career, woman, family, self-esteem, success.

"Karyera" sözü ictimai, rəsmi, elmi və digər fəaliyyət, peşə,eyni zamanda peşə sahələrində “uğurlu irəliləyiş” deməkdir. Karyera istədiyi statusa və uyğun həyat səviyyəsinə çatmaqla yanaşı şöhrət qazanmaqla fərdin peşə həyatının göstəricilərindən biridir. Uğurlu şəkildə qurulmuş bir karyera insana öz bənzərsizliyini, digər insanlar üçün, bütövlükdə cəmiyyət üçün əhəmiyyətini tanımağa imkan verir. Uğurlu karyera anlayışı ilk növbədə peşəkar öz müqəddəratını təyinetmə ilə əlaqələndirilir [1,50]. Karyera dinamik bir fenomendir, yəni davamlı dəyişən və inkişaf edən bir prosesdir. Karyeranın proses mahiyyəti, bu anlayışın əksər təriflərində əks olunur, bunlar da istifadə olunan "hərəkət", "irəliləmə", "böyümə" terminləri ilə sübut edilir [5,156]. Karyera anlayışı uzun bir tarixə malikdir. Etimoloji baxımdan "karyera" anlayışı latın dilindən gəlir belə ki, carrus - "araba"; italyancadan tərcümədə - "qaçış, həyat tərzi, sahə"; fransız dilində isə “sosial, xidmət, elmi və digər fəaliyyət sahələrində uğurlu irəliləmə və ya bir növ peşə daşıyıcısı” kimi şərh olunur [5,153]. Fransız dilində karyera sözünün etimoloji olaraq “bələdçi” kimi istifadə edildiyi də müşahidə olunur. Karyera anlayışının peşə, diplomatik karyera və uzun səyahət kimi bir çox fərqli

mənada istifadə edildiyi də ifadə edilə bilər. Karyera anlayışı haqqında bu günə qədər müxtəlif təriflər verilmişdir. Beləliklə, karyera, bir insanın bir həyat tərzinin inkişafı və yaxşılaşdırılması, ictimai həyat axınında sabitliyini təmin etməsi istiqamətində aktiv irəliləməsi olaraq başa düşülür. Karyera-bir şəxsin funksiyaları, statusu, sosial-iqtisadi vəziyyəti ardıcıl dəyişikliyi özündə cəmləşdirən təşkilati mövqelərdəki hərəkəti kimi yozulur. Yəni karyera bir cəmiyyətdə və ya bir təşkilatda tanınan müəyyən dəyərlərə, faydalara yiyələnmə yolu ilə gedən bir prosesdir.

Karyera quran qadının karyera pilləkənlərində uğurla irəliləməsində onun fərdi-psixoloji keyfiyyətləri, qısacası psixoloji portreti önəmli xüsusiyyətlərə malikdir.

Bir karyera üçün yüksək səviyyədə motivasiya olan qadınların əsas şəxsi keyfiyyətlərinə özünəinamlılıq və özünə hörmət daxildir. Bu fenomen, istədiyi nəticəni əldə etmək üçün lazımi səriştəyə sahib olduğuna inandığı qadına psixoloji baxımdan bağlıdır. Yüksək səmərəlilik gözləmək, müəyyən bir fəaliyyət növünün çətinliklərinə baxmayaraq başlanğıc etmək və eyni zamanda onu davam etdirmək üçün əsas şərtlərdən olur. Bir qadının öz effektivliyini qiymətləndirməsi və sonrakı davranışını təyin etməsi, fəaliyyət sahələrini və karyera xarakterini seçməsini genişləndirir və ya məhdudlaşdırır, böyümə imkanlarını, həmkarları arasında yerləri düzgün müəyyənləşdirməyə imkan verir. Başqaları ilə münasibətlər, tənqidi və özünə qarşı tələbkarlıq səviyyəsi, uğur və ya uğursuzluğa münasibət özünə hörmətdən asılıdır. Karyera quran qadının daima müvəffəqiyyət gözləməsi ilə əlaqədə olması yüksək öz effektivliyi ümumiyyətlə yaxşı nəticəyə gətirib çıxarır və buna görə də özünə hörmətini artırır. Yüksək effektivliyi olan qadınlar daha israrlı, daha az narahat və depresiyaya meylli olur, həm də böyük öyrənmə və öz-özünə öyrənmə bacarıqlarına malikdirlər. Uğursuzluq gözləntiləri ilə əlaqəli aşağı özünüqiymətləndirmə ümumiyyətlə uğursuzluğa səbəb olur və onların özünə hörmətini azaldır. Belə qadınlar çatışmazlıqlarına həddən artıq diqqət yetirir, öz səriştəsizliyi, onlara tapşırılan funksiyaları yerinə yetirmək üçün lazımi bilik və bacarıq olmaması barədə özünü tənqid etməklə daim tükənirlər. Onlar uğursuz bir ssenarini zehni olaraq təqdim etməyə meyllidirlər, daima ən pislərini gözləməyə yönəlirlər[6,87]. Səxavətlilik, açıqlıq və iradə kimi fərdi amillər də karyera quran qadın üçün çox vacibdir. Belə ki,bu kimi keyfiyyətlər karyera yüksəlişini daha da asanlaşdırırlar. Əksinə, şübhə və ya narahatçılıq,özünə inamın az olması səbəbindən bir karyera zərər çəkə bilər. Maksimum nəticələr isə peşəkarlıq yüksək şəxsi keyfiyyətlərlə birləşdirildikdə əldə edilir.

Bir sıra tədqiqatçılar öz araşdırmalarında karyera quran qadına olduqca geniş yer vermiş və eyni zamanda karyera quran qadınların psixoloji portretini çəkmişlər. İdeal karyera quran qadın portreti M. Henning və A. Jardin tərəfindən olduqca maraqlı tərzdə çəkilmişdir[4, 300]. Onların təsviri isə belədir: "Bu qadın parlaq bir şəxsiyyətdir, qəddar və soyuq deyil, intellektual və fiziki cəhətdən aktivdir.Qərarları ustalıqla verir, ancaq buna baxmayaraq hər qərarın nəticəsində başqalarının əhval-ruhiyyəsini mükəmməl şəkildə tutmağı bacarır. Risk almağa hazırdır, məqsədyönlü, özünə güvənir, tənqidlərə açıqdır. Tənqidlərə, iradlara və hətta təhqirlərə belə ləyaqətlə cavab verir. Bir sosial roldan (menecer, iş qadını və s.) digərinə (qız, ana, həyat yoldaşı) sürətlə keçməyi bacarır, həyat yoldaşının və övladlarının anlayışına, dəstəyinə və köməyinə inanır."

Həqiqətən də karyera quran qadın üçün bu sahədə maneələr olduqca çoxdur. Qadından bir tərəfdən ailədəki ənənəvi rollarına uyğun davranmaları (uşaq baxımı, ev işləri, həyat yoldaşına baxmaqla cavabdeh olmaq və s.), digər tərəfdən bərabər həyat səviyyəsində karyerası ilə məşğul olmağı öhdəlikdir. Nəticədə, kişilərdən fərqli olaraq, qadınlar həm də evdəki ənənəvi rolları və funksiyaları, həm də kişilərin iş həyatındakı iş yükünü yerinə yetirməyə borcludurlar. Qadınların karyera həyatında evlilik,ailə,uşağın karyeradan öncə gəlməsi,bununla da karyera həyatında yüksəlmənin məhdudlaşdırılması,həmçinin iş və ailə rollarının ziddiyyəti səbəbilə iş-ailə münaqişəsi qadınlar arasında daha çox görülür. İş və ya karyera həyatı, fərdin iqtisadi və digər həyati ehtiyaclarının ödənilməsində ikinci vacib sahədir. Ailə və peşə bir fərdin həyatının iki vacib sahəsini təşkil etsə də, insanın həyatı əsasən bütöv və birdir [3,90]. İş və ailə rolları fərdi həyatda bir-birinə bağlıdır və bu rollar davamlı qarşılıqlı əlaqədədir. Birindəki müsbət və ya mənfi vəziyyət digərinə asanlıqla təsir edə bilər və vəziyyətə görə müsbət və ya mənfi təsir göstərə bilər. İki vacib sahə olan "Karyera həyatı və ailədəki ziddiyyətlər" qadınların karyera həyatındakı əsas problemləridir. Bu qarşıdurmalar qadınların iş və ailə kimi iki həyati sahəsində bir çox problemə səbəb olur. Başqa sözlə, iş-ailə münaqişəsi həm ailə həyatı, həm də qadınların karyerası baxımından mühüm

nəticələrə səbəb olur. Bundan əlavə, bu iki sahə arasındakı qarşıdurma nəticəsində bir sahədəki problem, məsələn ailədəki problem həm ailə həyatına, həm də qadının fərdi rahatlığına təsir edir və eyni zamanda karyera sahəsini, oradakı iş performansına və ya əksinə təsir göstərir.

Həmçinin bu kimi səbəblərdən də qaynaqlanaraq karyera quran qadınlarda "günahkarlıq" hissi də çox görülür[2,120]. Bu günahkarlıq, bir qadın ailə ocağının rolu və yaxşı bir peşə sahibi ilə uyğunlaşmağa çalışdığı zaman daxili qarşıdurmanın nəticəsidir. Bu iki rol qadınlara qarşı ziddiyyətli tələblər edir və əksər hallarda hər iki rolu yaxşı oynamaq üçün fiziki və psixoloji imkanları olmur. Bunu başa düşən bir qadın, uşaqların, həyat yoldaşının və işdəki müdirinin qarşısında günah yaşamağa başlayır, bu da psixosomatik simptomlarla nəticələnə bilər. Günahkarlıq hiss etmək, qadının özünə daha az diqqət yetirməsinə səbəb olur, Uşaqlar qarşısında özünü günahkar hiss edirlər ki (xüsusilə doğuşdan sonra bir qadın işə qayıtdıqda və onu tərk edəndə), bunun da nəticəsində onlarla birlikdə müəyyən davranış nümunələri, xüsusən də psixoloqlar "hədsiz sevgi" adlandırdığı həddən artıq kompensator davranışa səbəb olurlar [2,118].

Bundan əlavə karyera quran qadınlarda tükənmişlik, stress və s. kimi faktorlar da aydın şəkildə özünü büruzə verir. Xüsusən də tükənmişlik son vaxtlar ən çox eşitdiyimiz bir anlayış halına gəlmişdir. Emosional tükənmişlik karyera quran qadınlarda olduqca geniş yayılmışdır. Təbii ki, bunun da səbəbləri yuxarıda qeyd olunan cəhətlərlə əlaqəlidir. Belə ki, karyera quran qadınlarda özünü yetərincə qiymətləndirməməsi,eyni zamanda karyera həyatında olan bir sıra uğursuzluqlar,bundan əlavə qeyd olunan ailə qarşısında rolunu yerinə yetirə bilməməkdəki çətinliklər və s. kimi faktorları qeyd etmək olar.

Nəticədə bəlli olur ki, şəxsdən aslı olaraq karyera bir insanın həyatına həm mənfi,həm də müsbət təsir göstərə bilər. Bununla yanaşı karyera quran qadının psixoloji portretində də müsbət xüsusiyyətlərlə yanaşı,karyeranın təsiri altında yaranan mənfi cəhətlər də özünü göstərir. Lakin, bu mənfi cəhətləri azaltmağa nail olan karyera quran qadın həm ailə, həm də iş həyatında uğurlu olacaq və problemlərin həllində daha da geniş miqyasdan baxaraq onu mükəmməl şəkildə həll edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov Menecment Bakı 2005
2. Абдурасулова Т.Д., Лимина О.В. Ефимова Н.В. Индивидуально-психологические особенности неработающих женщин //Семейная психология и семейная терапия.-2006.-№2.-С.114-126.
3. Берг В. Карьера – суперигра. – М.: Эксмо, 1998
4. Белядский Н.П. интеллектуальная техника менеджмента: Учебное пособие/Н.П. Беляцкий. -Минск: Новое знание.-2001-320с.
5. Э. Е. Женщина в развитом социалистическом обществе. М., 1985. 157 с.
6. Климов Е.А. Как выбирать профессию. – М.: Владос, 1994.
7. Поляков В.А. Технология карьеры. – М.: Академия, 1995.

## NEFTİN KATALİTİK KREKİNQ ÜSULU İLƏ EMALININ EKOLOJİ PROBLEMLƏRİ

**Əhmədova Aygün Həsrət qızı, Həmidli Şəbnəm Abduləziz qızı, Hüseynova Sevinc Ramiz qızı, Ramazanova Şahsi Rizvan qızı, Səfiyeva Sara Abidin qızı**
***Azərbaycan Texniki Universitetu***

Neft eləcədə maye neft məhsullarının emalı üçün müxtəlif fiziki və kimyəvi metodlar tətbiq olunur. Neft və neft məhsullarının fiziki emalı onların qaynama temperaturu, həllolma, kristallaşma, eləcə də digər fiziki xassələrinə görə ayrılmalarına əsaslanır.

Kimyəvi emal zamanı isə neft və neft məhsullarının tərkibinə daxil olan birləşmələr temperatur, təzyiq, katalizatorun təsiri ilə dərin çevrilmələrə məruz qalırlar və yeni neft məhsulları alınır. Neftin

kimyəvi emalı əsasən yüksək temperaturda aparıldığı üçün onun distillə məhsulları (liqroin, mazut fraksiyaları) parçalanaraq daha kiçik molekullara çevrilir. Ona görə neftin kimyəvi emal üsulu krekinq adlanır. Krekinq üsulu 3 qrupa bölünür: termiki krekinq, termiki-katalitik krekinq, aşağı temperaturlu katalitik krekinq. Katalitik krekinq 450-500°S-də katalizator tətbiq etməklə aparılan prosesdir. Bu üsulla alınan neft məhsulları doymamış birləşmələrdən azad olur və karbohidrogenlərin izomerləşməsi hesabına yüksək oktan ədədli benzin alınır.

Aşağı temperaturlu krekinq prosesi isə yalnız katalizator iştirakında aparılır. Ümumiyyətlə, krekinq mürəkkəb prosesdir. Bu zaman izomerləşmə, polimerləşmə, parçalanma və s. reaksiyalar baş verir. Yüksək temperaturlarda böyük molekul çəkili neft karbohidrogenlərindən daha kiçik molekul çəkili birləşmələr əmələ gəlir.

Katalitik krekinq neft emalında ən geniş yayılmış üsuldur. Bu proses üçün xammal kimi neftin birinci emal məhsulları, məsələn; qazoyl (solyar yağları) götürülür. Katalitik krekinq adətən 490-540°S-də və atmosfer təzyiqində aparılır.

Bu prosesdə katalizator kimi əsasən alüminium-oksid götürülür. Ona digər bərk və məsaməli əlavələr də qarışdırılır. Katalitik krekinq prosesindən alınan benzinin çıxımı 70-75 %, oktan ədədi isə 90-92 % olur. Bu prosesdə alınan karbohidrogen qazlarının çıxımı götürülən xammalın 12-15%-ni təşkil edir [1].

Göründüyü kimi, katalitik krekinq üsulu ilə alınan benzinin çıxımı və keyfiyyəti yüksək olur və onunla yanaşı çoxlu miqdarda qaz halında karbohidrogenlər də alınır ki, bunlar atmosferin tüstü qazları ilə çirklənməsinə səbəb olur.

Katalitik krekinq prosesində olefinlər, naften karbohidrogenləri, uzun yan zəncirli aromatik karbohidrogenlər az davamlı olduqları üçün onlar ilk növbədə krekinqə uğrayırlar. Aromatik karbohidrogenlərin krekinqi yan zəncirdən başlanır və aromatik halqa parçalanmır.

Katalitik krekinq üsulunun ən böyük çatışmayan cəhəti ondan ibarətdir ki, proses zamanı koks katalizatorun üzərinə yataraq onun aktivliyini korlayır, yəni onu zəhərləyir. Katalizatorun aktivliyini korlayan maddələr katalitik zəhər adlanır. Katalizatorun aktivliyini bərpa etmək üçün koksu onun səthindən təmizləmək lazımdır. Bu proses katalizatorun regenerasiyası adlanır.

Benzinin keyfiyyətinin yaxşılaşdırılması və çeşidinin genişləndirilməsi katalitik proseslərin işlənib hazırlanmasını sürətləndirdi. Neft emalı sənayesində birbaşa distillədən sonra ikinci yeri katalitik krekinq tutur.

Sənayedə katalitik krekinq zamanı əsasən üç tip katalizatordan istifadə olunur: aktivləşdirilmiş təbii alümasilikatlar; sintetik amorf alümosilikatlar; sintetik kristallik alümosilikatlar. Sənayedə sintetik katalizatorlar təbii katalizatorları demək olar ki, sıxışdırıb çıxarmışdır. Təbii katalizatorlardan istifadə etdikdə benzinin çıxımı 20-30 %, sintetikdən istifadə etdikdə isə 34-36 % təşkil edir[2].

Katalitik krekinqdə katalizatordan istifadə olunması termiki krekinqlə müqayisədə benzinin oktan ədədinin və çıxımının yüksəlməsinə səbəb olur. Digər mühüm cəhət prosesin sürətlə getməsi, alınan məhsulların qiymətli olması və prosesin bütün həcmində temperaturun stabil olmasıdır.

Çatışmayan cəhət isə tüstü qazlarının içərisində katalizator tozlarının getməsidir. Ətraf mühitə atılan tullantı qazların tərkibində katalizator tozlarının olması onun təmizlənməsini daha da çətinləşdirir, əlavə ekoloji problemlər yaranır. Katalitik krekinq, kokslaşma və başqa termiki, termokatalitik proseslərin sobalarında yanacaq tam yandıqda tüstü qazlarının tərkibində qorxulu qaz kimi yalnız $SO_2$ alınır. Katalitik krekinq qurğularının regeneratorlarında alınan regenerasiya qazlarının tərkibində $SO_2$-dən başqa, həm də dəm qazı olur ki, bunu da utilizator qazanında əlavə olaraq yandırmaq lazım gəlir. Ən təhlükəli hal tozların tüstü qazları ilə birlikdə atmosferə yayılmasıdır. Atmosferə yayılmış tozlar insanın nəfəs borularına düşərək onun qıcıqlanmasına, digər tərəfdən də katalizator itkisinin baş verməsinə səbəb olur ki, bu da iqtisadi cəhətdən istənilməyən haldır. Katalizator tozlarından baş verən itkinin qarşısını almaq üçün tsiklonlardan istifadə edilir. Tsiklonlardan çıxan tüstü qazları bir daha tozlardan təmizlənmək üçün elektrik süzgəcindən keçirilir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Nurəliyeva R.N. Azərbaycanın yanacaqenerji kompleksinin inkişafının iqtisadi-ekoloji problemləri, Bakı, Azərnəşr. 2018
2. N.Q.Məmmədova, M.F. Mirbabayev "Neftçıxarmanin ekologiyası və ictimai təhlükəsizlik". Bakı – 2015

## NİZAMİ İRSİNƏ HEYDƏR ƏLİYEV QAYĞISI

**Əhmədova İlahə Faiq qızı**
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının magistrantı***
***Bakı Dövlət Universiteti***

**Açar sözlər:** Heydər Əliyev, Nizami Gəncəvi, "Xəmsə", yubiley, ədəbiyyat, təbliğ.
**Keywords:** Heydar Aliyev, Nizami Ganjavi, "Khamsa" anniversary, literature, propaganda.
**Ключевые слова:** Гейдар Алиев, Низами Гянджеви, "Хамсе", юбилей, литература, пропаганда.

Müasir Azərbaycanın tarixinə adı qızıl hərflərlə yazılmış unudulmaz şəxsiyyət, müstəqilliyimizin banisi, ümumilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə hər zaman doğma xalqın, dövlətin rifahi, inkişafı üçün çalışmışdır. Ulu öndər digər sahələrlə yanaşı, ədəbiyyatımıza da xüsusi maraq və diqqət göstərmiş, şair və yazıçılarımızın əməyinə xüsusi sayğı ilə yanaşmışdır.

Heydər Əliyev 29 oktyabr 1997-ci ildə gənc yazıçılarla görüşü zamanı belə bir fikir söyləyir: "Ədəbiyyat, mədəniyyət həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan şairlər həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasa, böyük sənətkar ola bilməzlər. Siz gənclər bunu bilirsiniz, amma daha dərindən bilməlisiniz ki, ən qədim dövrlərdən bizə gəlib çatmış, indi fəxr etdiyimiz ədəbiyyat əsərlərinin – Nizaminin, Nəsiminin, Füzulinin, Mirzə Fətəli Axundovun, yaxud digərlərinin əsərlərinin heç birisi asanlıqla yaranmayıb. Heç də hamı bilmir ki, bu əsərlərin yarısı üçün onlar nə qədər zəhmət, əziyyət çəkiblər, nə qədər fədakarlıq göstəriblər" (2, 94).

Klassik ədəbiyyatımızın parlaq nümayəndələri, o cümlədən Nizami dühası hər zaman Heydər Əliyevin diqqətində olmuşdur. O, dahi şairimizn əsərlərinin nəşri, tədqiqi və təbliği istiqamətində misilsiz tədbirlər görmüş, mütəfəkkir şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi üçün önəmli addımlar atmışdır. Bunlardan ən əhəmiyyətli olanlardan biri də 1979-cu ilin yanvar ayının 6-da Azərbaycan KP MK-nın "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qəbul etdiyi qərar idi. Bu qərarda Azərbaycan Yazıçılar İttifaqının, Azərbaycan EA-nın, Mədəniyyət Nazirliyinin, nəşriyyat və kütləvi informasiya vasitələrinin qarşısında olduqca vacib vəzifələr qoyulmuşdu (2, 36).

Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıdışından sonra, 1993-cü ildə çıxışı zamanı Nizami Gəncəvi əsərlərinin əhəmiyyətini xatırlayaraq, onun irsinin təbliği istiqamətində gördüyü fundamental rolu vurğulayıb belə demişdir:

"Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa, yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtı ilə onun yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yaratmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır. Nizami Gəncəvinin əsərlərinin Moskvada, rus dilində çap olunması barəsində qərar qəbul edilmişdi. Lakin sonra öyrəndik ki, "Xudojestvennaya literatura" nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqıma xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim" (2, 107).

Onu da qeyd edək ki, həmin tarixi qərarın nəticələrindən biri olan "Xəmsə"nin Azərbaycan və rus dillərində yenidən tərcümələrinin hazırlanmasının və çapının həyata keçirilməsi hər bir azərbaycanlı üçün qürur olmaqla bərabər, dil faktorunu əsas göstərməklə Nizamini fars şairi adlandıran nabələdlərə ən gözəl cavab oldu (2, 109). 1981-ci ildə dahi şair Nizami Gəncəvinin 840 illiyinin böyük bir yubiley kimi qeyd edilməsi təşəbbüsünün müəllifi də məhz Heydər Əliyev olmuşdur. O, bu addımının bəziləri tərəfindən birmənalı qarşılanmadığını bu sözlərlə bildirmişdi: "Tariximizin böyük səhifələrini – intibah dövrünü, XI-XII əslərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamsının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1947-ci ildə keçirilib... Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdən irad tutuldu ki, 840 il yuvarlaq tarix deyil. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər" (2, 112).

1981-ci ildə "Literaturnaya qazeta" Heydər Əliyevin "Qoy ədalət zəfər çalsın" başlıqlı bir müsahibəsini yayımlanmışdı. Maraqlıdır ki, bu başlığı böyük rəhbər dahi Nizami Gəncəvinin əsərlərindən götürmüşdü. Müsahibə çox geniş marağa səbəb olmuş, Sovet İttifaqının hər yerində yayılmışdı. Bundan başqa, həmin il "Pravda" qəzetində onun Nizami Gəncəvi haqqında məqaləsi də çap olunmuşdu (2, 113).

Heydər Əliyevin Nizami irsinə, şəxsiyyətinə qayğısı ilə bağlı faktlar saysız-hesabsızdır. Məsələn, Ulu öndərin təşəbbüsü ilə Bakıda dahi şairin adını daşıyan "Nizami" metrostansiyası tikilmişdir. Heydər Əliyev bir neçə dəfə oraya gəlmiş, dayanacaqda Nizaminin əsərlərinin qəhrəmanları və əməkçi insan təsvirlərinin rəsm edilməsi tövsiyəsini vermişdi (3).

Heydər Əliyevin tövsiyəsi ilə Nizami Gəncəvi irsinin daha yaxşı tədqiqi üçün Azərbaycan MEA-da ayrıca "Nizamişünaslıq" şöbəsi yaradılmışdır. Bununla bərabər Nizaminin doğma yurdu olan Gəncə şəhərində olarkən AMEA-nın Gəncə Elmi Mərkəzində "Nizamişünaslıq" şöbəsinin yaradılmasıa təşəbbüşüsünü irəli sürmüş, Nizamişünas alimlərin bu şöbəyə cəlb edilməsini tapşırmışdı (3).

Nizami Gəncəvi haqqında məqalələrinin birində Heydər Əliyev yazır: "Bəşər tarixində unudulmaz adlar, dünyaya son dərəcə böyük mənəvi sərvətlər vermiş dahilər vardır: Dante, Şekspir, Şiller, Puşkin, Balzak, Tolstoy, Qorki... Onlar yaradıcılıqlarında öz dövrlərini bütünlüklə əks etdirərək üzvi surətdə sosialist cəmiyyətinin də mənəvi tələbləri olan humanizmə, yüksək mənəviyyata və yaxşı əməllərə səsləmişdir. Əsərləri ilə Şərq bədii fikrinin tarixində yeni səhifə açmış böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin də adı bu ədəbiyyat ustaları ilə yanaşı durur".

Ulu öndərin Nizami Gəncəvinin yaradıcılığına və şəxsiyyətinə göstərdiyi hörmət və ehtiram onun çoxsaylı çıxışlarından aydın duyulur. Bu gün Heydər Əliyev məktəbinin ən layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev onun işıqlı yolunu uğurla davam etdirir. Bunun nəticəsidir ki, Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında 5 yanvar 2021-ci ildə Sərəncam imzalamışdır. Həmin Sərəncam dahi mütəfəkkir, qüdrətli söz ustadı, insanı kamilliyə çağıran, mənəvi cəhətdən zənginləşdirən, öz işığı ilə aydın sabaha səsləyən zəngin yaradıcılığının bəşər mədəniyyəti və ədəbiyyatı üçün xüsusi əhəmiyyətini nəzərə alaraq Nizami Gəncəvinin anadan olmasının 880 illiyinin tamam olması ilə əlaqədardır (1).

Sərəncamda deyilir: "Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir".

Bu il məhz Heydər Əliyevin Nizami irsinə göstərdiyi diqqətin nəticəsidir ki, hər birimiz dahi şairi ən az Ulu öndər qədər sevib, sahib çıxmalıyıq. Ümumilli lider Heydər Əliyevin 98-ci il dönümündə onu sevgi və sayğı ilə anırıq. Eyni zamanda Heydər Əliyev siyasətini uğurla davam etdirən İlham Əliyevin Nizami irsinə göstərdiyi diqqəti dahi şəxsiyyətlərimizə göstərilən əvəzsiz qayğı kimi dəyərləndiririk.

**ƏDƏBİYYAT SİYAHISI :**

1. İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 5 yanvar 2021-ci il // https://president.az/articles/49904
2. Heydər Əliyev və Azərbaycan Ədəbiyyatı. - Bakı: Şərq-Qərb, 2009, 248 s.
3. Milli dövlətçilik tariximizdə böyük Nizami irsinə münasibət - burada da sistemli siyasəti Heydər Əliyev başladıb // Azərbaycan. - 2021. - 8 yanvar. - s.11.

## DİLİN YARANMASINA DAİR NƏZƏRİYYƏLƏR

**Əkbərova Humay**
***Elmi rəhbər: Xasıyeva Səkinəxanım***
***ADPU-nun Şamaxı filialı***

Lap qədimdən insanların diqqətini cəlb edən məsələlərdən biri dilin necə əmələ gəlməsi olmuşdur. Lakin irəli sürülmüş fikirlərin bəziləri məsələnin elmi zəminini təşkil etmək baxımından maraqlı və dəyərlidir. Məlumdur ki, insanlar qədim tarixi dövrlərdə bir çox hadisələrin əmələgəlmə səbəbini obyektiv izah edə bilməyəndə onu ilahiyyatla bağlayırdılar. Dilin yaranması haqqındakı dini mülahizə də məhz bu səbəbdən irəli gəlmişdir. Dilin sirrini" açmaq hələ ki, heç bir filosofa, heç bir psixoloqa və heç bir mütəxəssisə müyəssər olmamışdır. Qədimdən başlayaraq son zamanlara qədər çoxlu və müxtəlif nəzəriyyələr meydana çıxmışdır.[1.369]

Dilin mənşəyi haqqındakı nəzəriyyələri iki qrupa bölmək olar: birinci idealist, ikinci materialist nəzəriyyələr. İdealist nəzəriyyələr də öz növbəsində iki qrupa bölünür: fərdi-ilahi və ictimai-idealist nəzəriyyələr. Fərdi idealizmə görə dili bir nəfər yaratmışdır. Bu fikir əvvəllər dini kitablarda deyildiyi kimi, allahın adı ilə bağlıdır. Qurani Karimin ikinci surəsi olan «Bəqərə»nın 29-30-cu ayəsində Allahın yeri üzünü yaratmasından danışılır. Quranın ərrəhman surəsində deyilir: «Allah insanı yaratdı, ona danışmağı (fikrini bəyan etməyi) öyrətdi». Aydın idrak duyğusu ilə məsələyə yanaşdıqda dilin mahiyyətini düzgün qiymətləndirdikdə hamıya aydın olur ki, kim olur-olsun, bir nəfər xalq üçün dil yarada bilməz. Heç kəs bütün bir dil üçün leksik sistemi, qrammatik quruluşu, morfemlər sistemini, sintaksis konstruksiyanı yarada bilməz. Bundan başqa nəzəriyyələri başqa cür də iki yerə bölmüşlər: a)fərdi nəzəriyyələr; b) ictimai nəzəriyyələr. Fərdi nəzəriyyələrdə dilin yalnız bir cəhəti, yəni onun ekspressivliyi nəzərə alınırdı. Buraya səs təqlidi və nidalar nəzəriyyəsi aiddir. İctimai nəzəriyyələrdə dilin kommunikativliyi nəzərə alınır, dil ünsiyyət vasitəsi kimi şərh olunur, onun yaranma səbəblərinin aydınlaşdırılmasına cəhd göstərilir. Lakin bu nəzəriyyələrdə dilin kommunikativliyi ətraflı və zəruri faktlarla izah edilmir. [2.194]

Səs təqlidi nəzəriyyəsi bizim eradan əvvəl V-IV əsrlərdə qədim Yunanıstanda yaranmış, onu stoiklər irəli sürmüşlər. Elmi ədəbiyyatda səs təqlidi nəzəriyyəsinə "vau-vau nəzəriyyəsi" də deyilir; bunu XIX əsrdə Maks Müller belə adlandırmışdır. Alman mütəfəkkirlərindən Q.Leybnits bu nəzəriyyənin prinsiplərini qızğın müdafiə etmişdir. Səs təqlidi nəzəriyyəsinə görə, dil ilk insanların guya eşitdikləri səsləri təqlid etməsi əsasında əmələ gəlmişdir. Bu nəzəriyyə ictimai idealistlərin dilin mənşəyi haqqında ilkin fikri idi,.Sözlər səsləri təqlidən yaranmışdır fikri bütün əşyaların adlarını əhatə etmir. Çünki səs çıxarmayan əşyalar da vardır;.Dünyada elə bir dil olmaz ki, orada yamsılama əsasında söz yaranmamış olsun. Məsələn:Azərbaycan dilində: qarğa, qurbağa.Rusca: кукушка, кря-кря. və s. Dildə təqlidi sözlər olduqca azdır. Lakin səs təqlidi nəzəriyyəsi belə sözlərin azlığını nəzərə almamış və doğru olmadan bunları dilin yaranmasında əsas hesab etmişdir;Dildəki təqlidi sözlər insan həyatı üçün zəruri olan məfhumları ifadə etmir, məsələn, qaqqıltı, qurultu, xırıltı və s. Od yananda alovdan çıxan səsi heç cür tələffüz etmək mümkün deyil.Bundan əlavə, səsi necə eşitmək və necə adlandırmaq da xalqdan asılıdır. Məsələn, suyun şırıltısını biz "şir" adlandırırıq, lakin ruslar "jur" (çit) adlandırırlar və s. Bütün bu qüsurları ilə yanaşı, səs təqlidi nəzəriyyəsində həqiqətə uyğun cəhətlər də vardır. Həmin nəzəriyyə bəzi sözlərin haradan əmələ gəldiyini düzgün başa düşməyə istiqamət verir. Həqiqətən, hər bir dildə səs təqlidi əsasında əmələ gəlmiş müəyyən miqdar sözə təsadüf etmək olur. [3.19]

Dilin əmələ gəlməsinə dair nidalar nəzəriyyəsi qədim Yunanıstanda meydana çıxmışdır. Nidalar nəzəriyyəsi dilçilikdə "Fu-fu nəzəriyyəsi" də adlandırılır. Bu ad ona son tədqiqatçılar tərəfindən rişxəndlə verilmişdir. Qədim yunan materialist filosofu Epikür tərəfindən əsası qoyulan bu nəzəriyyə əslində səs təqlidi nəzəriyyəsini rədd etmək prosesində yaranmışdır. Epikür təlimində dili insanın özü ilə, öz iradəsi ilə bağlamaq əsas yer tutur. Epikürə görə, allahlar heç vaxt insanın işinə qarışmır. Dili insanın özü yaratmışdır. Bu, onların «təbii səsləri » idi. Bu səslər daxili hiss, həyəcan, şadlıq,təəccüb, qəzəb və s. kimi hissləri ifadə edir. Bu fikri görkəmli fransız maarifçisi, filosofu Jan Jak Russo (1712-1778) müdafiə edib dərinləşdirmişdir. Bu nəzəriyyənin bütöv şəkildə qəbul edilməsi «dilsiz insan» anlayışını qəbul etmək deməkdir.Başqa söz təbəqələrinə nisbətən dildə ay, ax, oho, bəh, vay, və sair kimi sözlər, demək olar ki,təqlidi sözlərdən də azdır, miqdarca bu dərəcədə az olan söz heç vaxt dildəki on minlərlə sözün mənşəyi üçün bünövrə təşkil edə bilməz.Nidalar nəzəriyyəsinin ən böyük qüsuru dilin kommunikativ vəzifəsinə istinad etməməsində özünü göstərir.Əlbəttə, dildə nidaların da rolunu tamamilə azaltmaq olmaz. Dil üçün bunlar da xüsusi əhəmiyyətə malik vahidlərdir, hətta, təbii olaraq, nidalar milli dillərdə müxtəlifdir. Məsələn, rus dilində olan "ага", "увы", "фу" nida sözləri həmin dil, "bəh-bəh", "paho" nidaları isə bizim dilimiz üçün xarakterikdir. Bu nəzəriyyənin həqiqət tərəfi odur ki, insanlar qorxu, həyəcan və s. hisslərlə bağlı müəyyən səslər çıxarmışlar.[1.380]

Əmək çığırtıları nəzəriyyəsi. Bu nəzəriyyə dilin yaranmasını əməklə bağlayır. İlk baxışda dilin ictimai zəhmət nəticəsində yaranmasını təsdiq etdiyinə görə bu, materialist təlim təsiri bağışlayır. Bu nəzəriyyə XIX əsrdə vulqar materialistlərdən L. Naure va K. Büxer tərəfindən əsaslanandırılmışdır. L.Naure ilk dəfə dilin əmələ gəlməsini əməklə bağlamışdır. Belə ki, əmək prosesində bir neçə adamın ağır bir şeyi götürmək istədiyi vaxt «ha», «hu», «hi» vo s. kimi səslər çıxarmasını ilkin dilin yaranması hesab edirdilər.Bəs həmin adamlar o ağır şeyi qaldırmağa getmək üçün bir-biri ilə ünsiyyət saxlamırdılar? İkinci, zəhmət prosesində çıxarılan həmin səslər yalnız işin ritmini təşkil etmək üçün əlavə vasitədir. Üçüncü, həmin səslər dilin heç bir funksiyasını yerinə yetirmir. Deməli, dilin «əmək çığırtıları» əsasında yarandığını iddia etmək olmaz. [2.199]

«İctimai müqavilə nəzəriyyəsi». Dilin əmələ gəlməsinə dair antik nəzəriyyələrdən biri olan ictimai razılaşma nəzəriyyəsi bizim eradan əvvəl V-IV əsrlərdə Yunanıstanda meydana çıxmışdır. Bu nəzəriyyəyə eyni zamanda tesey nəzəriyyəsi də deyilir.Nəzəriyyənin tərəfdarları öz nəzəriyyələri üçün müxtəlif elm sahələrinə dair terminlərin razılaşma əsasında qurulduğunu da əsas götürmüşlər. İnsanlar müqavilə bağlamağa yığışmaq üçün bir-biri ilə ünsiyyət saxlamalı idilər. Tərəfdarları ilk adi sözlərin yaranması prosesi ilə terminlərin əmələ gəlməsini səhv olaraq eyni məsələ hesab etmişlər. İlk sözlərin yaranması dillə, terminlərin meydana çıxması isə, əsasən, elmlə bağlıdır. Eyni zamanda, dil olmadan elm yarana bilməzdi. Deməli, ünsiyyət vasitəsi olan dil ictimai razılaşma əsasında meydana çıxmamışdır.

Dilin əmələ gəlməsi haqqında daha bir mülahizə nəzəriyyə N. Y. Marrin qızğın şəkildə müdafiə etdiyi «ol-hərəkət dili» fərziyyəsidir. O, səsli dilin əl-hərəkət dilindən çox-çox gec yarandığını söyləmiş,həmçinin səsli dilin ünsiyyət üçün deyil,sehrbazlıq üçün, mahnı oxumaq üçün yarandığını iddia etmişdir. Bununla da N.Y.Marr səhv olaraq dilin ictimai xarakterini inkar etmişdir.Buna başqa cür Jestlər nəzəriyyəsi də deyilir. Bu nəzəriyyənin müdafiəçilərindən biri olan alman psixoloqu V.Vundt prinsipcə jest və səsləri eyniləşdirmişdir. V.Vundta görə, həm səs, həm də jest hərəkəti ifadə edir. Vəzifələrinə görə bunlardan jest təsəvvürləri, səs isə əvvəllərdə ancaq hisləri ifadə etmişdi. Jestlər əyani şəkildə göstəricilik xarakterinə malikdir. Jestləri eşitməklə yox, görməklə dərk etmək olur. Dil isə danışılan və eşidilən bir hadisədir.Lakin unutmamaq lazımdır ki, yuxarıda qeyd etdiyimiz kimi, jestlər də səsli dilə köməkçi vasitələrdəndir. Bəşəriyyətin yeganə dili həmişə ancaq səsli dil olmuşdur. [1.382-385]

Dilin mənşəyi haqqında akad. N. Y. Marrin «Y a fə s» nəzəriyyəsi də olmuşdur. N. Y. Marr öz konsepsiyasını müasir dilçilikdə yeni təlim, dünya dilçiliyində isə inqilab hesab edirdi. Əslində Yafəs haqqında məlumatı N.Y.Marr özü uydurmamışdır. Yafəsin kimliyi haqqında məlumatı biz ham dullah Müstovfi Qəzvininin (1281-1349-50) «Tarixi-Kuzidə», XV əsrdə yaşamış Xandəmirin «Xülasətül-əxbar», yenə XV əsrdə (1433-1488) yaşamış Miraxundun 7 cilddən ibarət olan «Rövzətüsəfa», A. Bakıxanovun (1794-1847) «Gülüstani-İrəm» adlı əsərlərindən alırıq. 1935-ci ildə Marrin vəfat etməsindən sonra Yafos nəzəriyyəsi təftiş və tənqid edilməyə başlanmışdı. Hətta İ.İ Meşşaninov bu nəzəriyyədən uzaqlaşmağa başlayırdı. Marri Bakıda bircə prof. B Çobanzadə tənqid etmişdi. [2.201]

Dilin yaranmasına dair əmək hıçqırıqları nəzəriyyəsi. Bu nəzəriyyə XIX əsrdə əmələ gəlmişdir. Bunu həmin əsrin 70-ci illərində fransız filosofu Lüdviq Nuare (1829–1889) irəli sürmüşdür. O, ilk dəfə olaraq,

dilin əmələ gəlməsini əməklə bağlamışdır.Lüdviq Nuarenin əmək hıçqırıqları nəzəriyyəsinə görə, dil əmək prosesində insanların çıxardığı instinktiv və ya refleksiv hıçqırıqlar əsasında yaranmışdır.Bunlar dilin nə kommunikativ, nə də ekspressivlik vəzifəsini ifadə edir. Dilə xas olan xarakterik cəhətlərin heç biri əmək hıçqırıqlarında yoxdur. Buna görə də əmək hıçqırıqları dilin əsas vahidi olan söz sayıla bilmir.Əməklə dil paralel yaranan (Lüdviq Nuarenin dediyi kimi) hadisələr deyildir. Əmək insanın özünün və onun dilinin yaranmasında başlıca rol oynamışdır.Əmək hıçqırıqları çox azdır. Bundan əlavə, həmin hıçqırıqlara heyvanlarda da təsadüf olunur. Əgər bu hıçqırıqlar dilin əsasını təşkil etsəydi, şübhəsiz ki, heyvanlar da danışa bilərdi. [1.387]

Təbiət nəzəriyyəsinə görə ətraf aləmdə mövcud olan bütün varlıqlar təbiətin məhsuludur və onun bir tərkib hissəsidir. İnsan da təbiətin bir üzvü hesab edildiyindən dilin yaranmasında təbiətin rolunun aparıcı olduğu barədə fikirlər irəli sürülmüşdür. Bu fikirlərin istinadgah nöqtəsi təbiətin Allah tərəfindən yaradılması barəsindəki ilahiyyat kitablarında verilən hökmlər olmuşdur. Təbiət nəzəriyyəsinin banisi qədim Yunan filosofu Platondur (eradan əvvəl 427-347). Qədim dünyanın müdriklərindən olan Platona görə təbiət Allah tərəfindən yaradılmışsa təbiətin ayrılmaz bir üzvü kimi insanı da Allah yaratmışdır. [3.9]

## ƏDƏBİYYAT SİYAHISI :


1. Afad Qurbanov. Ümumi Dilçilik. Bakı.2004. l cild.
2. Adil Babayev. Dilçiliyə giriş. Bakı.2017
3. Mübariz Yusifov. LİNQVİSTİK TİPOLOGİYA. Bakı. 2017


## MİS VƏ ƏRİNTİLƏRİNİN ALINMASI PROSESİ VƏ ONUN ƏTRAF MÜHİTƏ TƏSİRİ


**Ələkbərli Nurlanə Sakit qızı**
***Magistrant***
***Azərbaycan Texniki Universiteti***


Misin filizlərdən alınması əsasən pirometallurgiya üsulu ilə aparılır. Sulfidli mis filizindən əvvəlcə mis şteyni (Cu, Fe və s. sulfid birləşmələri ərintisi) alınır. Həmin ərintinin tərkibində 20-45%-ə qədər mis olur. Sonra həmin maye üfürülərək tərkibində təqribən 1,0-1,5% qarışııq olan qara mis alınır. Bundan sonra qara mıs saflaşdırılma prosesinə uğradılır. Saflaşdırılmış təmiz misdən tunc və bürünc alınır. Təmiz misdən, fasonlu töküklər istehsalında, çox nadır hallarda istifadə edilir. Fasonlu töküklər istehsalında mıs əsaslı ərintilər olan bürünc (mis-sink) və tunclar (mis-qalay və ya başqa metallarla ərintisi) istifadə olunur. Tunclar qalaylı və qalaysız olmaqla iki əsas qrupa bölünür.

Qalaylı tunçların əridilməsi əsasən elektroqövs və induksiya sobalarında həyata keçirilir. Şixtə materialı kimi müxətlif markalı mis, qalay, fosforlu mis, qurğusunun və nikel istifadə olunur. İstehsal zamanı yaranan tullantıların şıxtadakı miqdarı 40%-dan, yonqarın əridilməsindən alınan töküyünkü isə 30%-dan çox olmamalıdır.

Əgər əvvəlki əritmədəki metalın tərkibində qalaylı tunclar üçün ziyanlı qatışıqlar olarsa, onda yuyucu əritmənin aparılması məqsədəuyğun hesab edilir.

Əritməni başlamaqdan əvvəl sobadan posa qalıqları təmizlənir və soba 600-700$^0$C temperaturuna qədər qızdırılır. Sobaya ilk növbədə mis verilir. Əgər şixtənin tərkibində mis olarsa, onda onu sobaya mis ilə birlikdə vermək lazımdır. Ərimiş metalı 1200$^0$C temperatura qədər qızdırdıqdan sonra onun fosforlu mis ilə oksigensizləşdirirlər.

Sobaya sink ərimiş metalın temperaturu 1160-1200$^0$C çatdıqdan sonra verilir. Bundan sonra ərimiş metal 1250-1280$^0$C temperaturuna qədər qızdırılır və 10-15 dəqiqə saxlanılır, sonra isə bundan texnoloji nümunə götürülür. Bütün texnoloji prosesi izləyərək aydın görünür ki, bu proseslər zamanı havaya müxtəlif miqdarda təşkil edir metalların damlaları daxil olur. Bunlar tullantı olaraq ətraf mühiti çirkləndirirlər.

Texnoloji proses yüksək temperaturda aparıldığına görə ətraf mühitin temperaturu artmış olur, başqa sözlə istilik çirklənməsi baş verir.

Alüminiumlu tunçları induksiya və qövslü elektrik sobalarında, həmçinin neft və qazla işləyən sobalarda və qrafit tiqellərdə hazırlamaq olar. Bütün markalardan olan manqan, yumşaq dəmir, ilkin Al, tərkibində Fe, Ni, Mn, Al olan liqatur, fosforlu mis və tökmə sexlərinin tullantıları. Əritmədən qabaq soba metal qalıqlarından və posadan təmizlənir. Təmizlənmiş soba 700$^0$C qədər qızdırılır. Metalı oksidləşmədən qorumaq üçün qoruyucu təbəqə kimi ağac kpmürü misin üzərinə səpilir. Bəzi hallarda ağac kömürü misin üzərinə səpilir. Bəzi hallarda ağac kömürü əvəzinə tərkibində 90% əzilmiş şüşə və 10% çol şpatı olan flüsdən istifadə olunur.

Beləliklə, bu texnoloji prosesin də özünə məxsus tullantıları və ətraf mühitə təsiri olur. Bunların hamısının qarşısını almaq həm ekoloqların, həm də müəssisədə olan əmək mühafizəsi işçilərinin borcudur.

Aydındır ki, sililisiumlu bürünclərin əridilməsinin öz xüsusiyyətləri var və bu prosesin uyğun tullantıları əmələ gəlir. Bunlar da iş yerində toplanıb insan orqanizminə təsir edir. Çirkləndirici maddələr ilk öncə atmosferə, suya, torpağa, litosferin səth qatlarına atılır və yayılma proseslərinin nəticəsində də təbiət sistemlərinin bütün üzvlərinə təsir edir. Texnogen atgilac biosenoza d öz təsirini göstərir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Həsənli R.K. Əlvan metal ərintilərindən töküklər istehsalı. Dərslik, Bakı “Təhsil” NPM, 2004, 262s.
2. Həsənli R.K. Metallurgiya sənayesində ətraf mühitin mühafizəsi. Dərslik, Bakı, AzTU, Tempus, 2005, 275s.
3. Həsənli R.K. Ətraf mühitə zərərli və zərərsiz maddələr Dərslik. Bakı, AzTU, Tempus, 2005, 221s.

# N.GƏNCƏVİ İRSİNİN ORTA MƏKTƏBLƏRDƏ TƏDRİSİ

**Ələkbərova Gülnar Zahid qızı**
**Namazova Flora Kamran qızı**
***Mingəçevir Dövlət Universiteti***

**Açar sözlər:** Nizami, müəllim, interaktiv, metod.
**Keywords:** Nizami, teacher, interactive, method.
**Ключевые слова:** Низами, педагог, интерактив, метод.

Orta məktəblərdə Nizami irsinin tədris olunmasında humanitar fənlər içərisində ədəbiyyat fənni xüsusi çəkiyə malikdir. Lakin bir sıra müşahidələr onu deməyə imkan verir ki, qabaqcıl müəllimlər istisna olmaqla, bir çox ədəbiyyat müəllimi N.Gəncəvini yalnız onun haqqında olan mövcud bilikləri qeyd etməklə sadəcə dahi şair kimi öyrədir. Halbuki N.Gəncəvi dahi şair olmaqla yanaşı, eyni zamanda da böyük mütəfəkkir, filosof və ensiklopedik biliyə sahib alimdir. Belə ki, Nizaminin əsərlərində həm humanitar, həm də təbiət-riyaziyyat elmlərinə dair çox dəyərli fikirlər kifayət qədərdir.

Nizami irsinin tədrisində ədəbiyyat müəllimi şairin əsərləri haqqında məlumat verməklə yanaşı, onun poeziyasındakı böyük tərbiyəvi təsir gücündən istifadə etməyə çalışmalı, həmçinin də şagirdləri şairin müsbət qəhrəmanlıqlarından örnək almağa səsləməlidir. Məsələn VI sinifdə keçirilən “Oğlum Məhəmmədə nəsihət” şeiri tədris edilərkən müəllim dərslikdə verilmiş sual və tapşırıqlarla yanaşı, eyni zamanda da əqli hücum, qruplarla iş və klaster kimi interaktiv metodlardan istifadə etməyə çalışmalıdır.

Müxtəlif interaktiv metodlardan istifadə edən müəllim alınan nəticələri ümumiləşdirərək aşağıdakı xülasəni müəyyən etməlidir:

-uşaqlar, gördüyünüz kimi N.Gəncəvi bu şeiri vasitəsilə oğlu Məhəmmədin timsalında gənc nəslə aşağıdakıları tövsiyə edir:

1. hər bir insan gənc yaşından hünərlə çalışmalı, atasının hesabına deyil, yalnız öz şəxsi keyfiyyətləri hesabına uğur qazanmalıdır;

2. cəmiyyətdə layiqli yer tutmaq üçün xalqa hörmətlə yanaşmaq lazımdır;

3. insan həmişə öz hisslərini cilovlamağı bacarmalı, eyni zamanda da Allah yolundan kənara çıxacaq hərəkətlər etməməlidir;

4. insan ixtisasından asılı olmayaraq, bir elmi öyrənmək qərarına gəldikdə, həmin elmin bütün incəliklərini dərinliklərinə qədər bilməli, öz peşəsinin ustası olmalıdır;

5. hər bir gənc atasının öyüd-nəsihətlərini dinləməli və onlara əməl etməlidir.

Fikrimizcə, Nizami irsinin hərtərəfli tədris olunmasında interaktiv metoddan istifadə olunması şagirdlərin dahi şairin yaradıcılığı ilə yaxından tanış olmasına köməklik göstərəcəkdir. Belə ki, X sinif ədəbiyyat dərsliyində tədris olunan və dahi şairin yaradıcılığının zirvəsi hesab olunan “İsgəndərnamə” poeması da interaktiv metod vasitəsilə şagirdlərin yaddaşına daha asanlıqla həkk edilə bilər. Qruplarla iş kimi də fəal təlim formasından məharətlə istifadə edən ədəbiyyat müəllimi poemanın öyrədilməsinin güclü tərbiyə vasitəsinə çevrilməsinə şərait yaratmış olar. Bu əsərdə müəllim əsas diqqəti türkçülüyün tərənnümünə həsr etməlidir. Hətta farsca yazılmış bu şah əsərdən istifadə edən bəzi bədxahlar dahi Nizaminin fars şairi olduğunu qəbul etdirməyə çalışsalar da buna nail ola bilməmişlər.

Tədris prosesində N.Gəncəvinin yaradıcılığını şagirdlərə dərindən mənimsətməyin və sevdirməyin əsas yollarından biri də dahi şair haqqında dünyaca məşhur şəxsiyyətlərin dəyərli fikirlərindən istifadə etməkdir. Belə ifadələrdən bir neçəsini nümunə kimi vermək olar [2]:

Ø "Əgər dünyanın bütün dövrlərində yaşamış şairlərini bir cərgəyə düzmək lazım gəlsə, mən birinci yeri tərəddüd etmədən Nizami Gəncəviyə verərdim". Dahi şair haqqında bu gözəl sözlərin müəllifi dünyaca məşhur şərqşünas alim Y.E.Bartelsdir. N.Gəncəvi yaradıcılığını daha dərindən araşdıran Bartels dahi şairi Firdovsi ilə müqayisə edir və bu müqayisədə üstünlüyü tərəddüdsüz N.Gəncəviyə verir. Bartels Nizaminin Firdovsidən üstünlüyünü onda görürdü ki, Firdovsi ideyaları keçmişlə bağlıdır, lakin Nizaminin əsərləri gələcək nəsillərə xitab edir. Keçmişi dəyişmək mümkün olmasa da, gələcək nəsillərin taleyində iz buraxmaq, onları müsbətə doğru dəyişmək mümkündür.

Ø Fransız şərqşünası H.Bamate 1958-ci ildə Paris şəhərində fransız dilində çap etdirdiyi "İslam dünyası" adlı kitabında N.Gəncəvi haqqında yazır: "Şair öz dövründə böyük hörmət sahibi, səmimi, ehtiramlı, mömin, heç bir səhvi olmayan bir insan olmuşdur".

Ø Məşhur alman şairi İ.V.Höte N.Gəncəvinin yaradıcılığına çox yüksək qiymət verərək yazmışdır: "Yüksək şair dühasına malik olan nəcib ruhlu Nizami əsərlərində zərif eşq, dərin məhəbbət əlaqələrindən, sevgililərdən bəhs edir. Poemaları heyrətamiz dərəcədə gözəl, müxtəlif və rəngarəngdir. Nizaminin əxlaqi məsələlərə həsr edilmiş əsərlərində belə bədii səmimilik vardır".

Şərqin təkcə görkəmli alimləri deyil, eyni zamanda N.Gəncəvini özlərinin müəllimi hesab edən məşhur şairlərinin əksəriyyəti onu əvəzsiz poeziya ustadı saymış və ona olduqca yüksək qiymət vermişlər. Məsələn, böyük hind şairi, alim və musiqiçisi Əmir Xosrov Dəhləvi N.Gəncəviyə çox yüksək qiymət verərək onu özünə "ustad", "müəllim" saymış, "Xəmsə"yə nəzirə yazmışdır [3., s.48]. O, Nizamini həm dahi şair, həm də böyük alim adlandırmışdır.

Söz xəzinəsinə, mülkünə hakim,
Gəncə hünərvəri, o böyük alim.
Qızıl rəngli meyi əlinə aldı,
O içdi safını, xılt bizə qaldı.

N.Gəncəvinin böyüklüyü və əzəmətini şagirdlərə anlatmağın vasitə və yollarından biri də onun həyatı və yaradıcılığı, ədəbi – fəlsəfi, pedaqoji-psixoloji irsi haqqında son dövrlərin elmi axtarışlarının nəticələri kimi meydana çıxan yenilikləri şagirdlərə çatdırmaqdır. Nümunə üçün belə yeniliklərdən bir neçəsini nəzərdən keçirək. Məlum ədəbiyyatların və dərsliklərin demək olar ki, hamısında N.Gəncəvinin 1141-ci ildə anadan olması və 1209-cu ildə vəfat etməsi göstərilmişdir. Lakin görkəmli şərqşünas alim prof. Rüstəm Əliyev apardığı elmi araşdırmalar nəticəsində sübut edir ki, N.Gəncəvi 1140-cı ilin avqust ayının 17-si ilə 22-si arasında dünyaya gəlmiş və 1202-ci ilin aprelində vəfat etmişdir [1., s.11].

Ədəbiyyat dərslərində N.Gəncəvi irsinə müraciət təkcə dahi şairin həyat və yaradıcılığına həsr olunmuş mövzuların tədrisi zamanı deyil, ədəbiyyat nəzəriyyəsinin öyrədilməsi zamanı da mümkün və zəruridir. Xüsusilə, “nəzm”, “məsnəvi”, “epizm”, “lirizm”, “ədəbi əlaqələr” və s. ədəbiyyatşünaslıq anlayışlarının şərhi zamanı N.Gəncəvinin “söz inciləri”ndən əyani misal kimi istifadə etmək vacibdir. Məsələn, ədəbi əlaqələrlə bağlı bilikləri öyrədərkən müəllim şagirdlərə məlumat verərək qeyd edir ki,

Azərbaycan – Avropa ədəbi əlaqələrinin tarixindən Azərbaycanda ilk dəfə N.Gəncəvi bəhs etmişdir. O, Azərbaycan ədəbi əlaqələr problemini öz yaradıcılğında ətraflı işıqlandırmışdır. Onun zəngin ədəbi irsi bu problemin tarixinin öyrənilməsi üçün mötəbər qaynaqdır.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, 2008, 244 s. 2. Nizami yaradıcılığında ədəbi əlaqə məsələləri. www.nizami.az
2. Bünyadova Ş. Nizami və etnoqrafiya, Bakı, "Elm", 2012, 158 s
3. Məmmədov Z.Nizaminin fəlsəfi görüşləri, Bakı, "Elm", 2000, 85 s.
4. Şirinova Z.Nizami Gəncəvinin psixoloji görüşləri, Bakı, 2002, 151 s.


## KRİPTOVALYUTANIN TİCARƏTƏ VƏ MALİYYƏ SAHƏSİNƏ TƏSİRİ


**Ələsgərli Tural**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: i.ü.f.d. Fərhad Mustafayev***
***turaleleskerli3437@mail.ru***



**Açar sözlər:** Kriptovalyuta, Ticarət, Maliyyə.
**Keywords:** Cryptocurrency, Trade, Finance.
**Ключевые слова:** Криптовалюта, Торговля, Финансы.



### XÜLASƏ

Son illərdə internet və texnologiyanın sürətli inkişafı ilə dünyada getdikcə daha çox tanınan kriptovalyutalar, xüsusilə bitkoin,dünya miqyasında istifadəsi durmadan artan bir valyuta halına gəlmişdir. Kriptovalyutalar mal və xidmətlərin alınmasında bir ödəmə vasitəsi olaraq istifadə olunan, etibarlı bir mərkəzi sistemə bağlanmadan fərdlərə ödəniş vasitəsi imkanı verən, standart bir valyuta kimi işləyən virtual valyuta sistemidir. Maliyyə bazarları baxımından yüksələn bu valyutalar,başda bitkoin olmaqla investorların və sahibkarların maraq dairəsindədir. Kriptovalyutaların bu tendensiyaya qarşı məlumatlılığının ölçülməsi sahibkarlar və investorlar üçün vacib olacaqdır. Sahibkarlar və investorlar nəticə yönümlü olduqları üçün kriptovalyutalara üstünlük verirlər. Kriptovalyutalarla bağlı hüquqi boşluqların olması bu valyutaların geniş yayılmasının önündə əngəl olaraq görüldüyü üçün bu haqda yeni qanunlara ehtiyac duyulur. Bu yazının məqsədi kriptovalyuta anlayışını ətraflı şəkildə araşdırmaq və daha sonra kriptovalyutanın ticarət və maliyyə sahəsinə necə təsir göstərdiyini öyrənməkdir.


### GİRİŞ

Son illərdə internet və texnologiyanın sürətli inkişafı ilə dünyada getdikcə daha çox tanınan kriptovalyutalar,xüsusilə bitkoin,dünya miqyasında istifadəsi durmadan artan bir valyuta halına gəlmişdir. Günümüzdə maliyyə sahəsində kriptovalyutaların önəmi artmışdır. Bununla yanaşı,inkişaf etməkdə olan texnologiya ilə mövcud ödəniş sistemləri insanların tələb və ehtiyaclarını qarşılaya bilmir. Klassik bank sisteminə alternativ olaraq görülən kriptovalyutalar 7/24 və ani pul köçürmə əməliyyatları üçün imkanlar yaradır. İnvestorlar və sahibkarlar kriptovalyutalardan həm ödəmə vasitəsi həm də investisiya vasitəsi kimi istifadə edirlər.

Araştırma üç hissədən ibarətdir. Birinci hissə də kriptovalyuta anlayışı və onun xüsusiyyətləri haqqında məlumat verilmişdir. İkinci hissə də kriptovalyutaların ticarət sektoruna təsiri, şirkətlərə və ayrı-ayrı şəxslərə mənfi və müsbət təsirləri,üçüncü hissə də kriptovalyutaların maliyyə sahəsinə necə təsir etdiyi tədqiq edilmişdir.

Kriptovalyuta və onun xüsusiyyətləri

Kriptovalyuta təhlükəsizliyi təmin etmək üçün kriptoqrafiyadan istifadə edən rəqəmsal və ya virtual pul vahididir. Kriptoqrafiya yəni şifrələmənin məqsədi tərəflər arasında paylaşılan məxfi məlumatların başqaları tərəfindən ələ keçirilməsinin qarşısını almaq,pul əməliyyatlarının təhlükəsizliyinə nəzarət edən mexanizmanı təmin etməkdir.

Kriptovalyutanın meydana gəlməsi 2008-ci ildə baş verən maliyyə böhranı ilə əlaqədardır.Yaşanılan maliyyə böhranı mərkəzi banklara və maliyyə quruluşlarına olan güvəni azaltmış və maliyyə sistemində bir çox dəyişikliklərə səbəb olmuşdur.Kriptovalyutalar maliyyə bazarlarının çökməsindən sonra USD və AVRO kimi güclü ehtiyat valyutalarına alternativ olaraq ortaya çıxmışdır.Kriptovalyuta transfer ediləbilən valyutadır.Kriptoqrafiya həm pul əməliyyatlarınnın təhlükəsizliyinin təmin olunmasında həm də yeni pul vahidinin yaranması mərhələsində istifadə olunur.Kriptovalyutaların digər valyutalardan fərqli olaraq bank hesablarında saxlanılmasına ehtiyac yoxdur.Lakin eynilə digər valyutalar kimi mal və xidmətlərin satın alınmasında istifadə olunurlar.

Dünya ölkələri arasında kriptovalyutalardan istifadə edəndər arasında 1ci yeri ABŞ tutur. ABŞ kriptovalyutanın qanunən qəbul edir. Eyni zamanda ən çox kriptovalyutaya və istifadəçisinə sahibdir.2020ci ilin may ayında tərtib olunan statistik göstəricilərə əsasən ABŞ-dan sonra kriptovalyutaya investisya eden ölkələr Cənubi Koreya, Rusiya, Çin və İngiltərədir.[1, 165-168]

Kriptovalyutanın Ticarətdə İstifadə Olunması

Müasir dövrdə internet və texnologiyaların inkişaf etməsilə yanaşı kriptovalyutalardan da istifadə edilməsi artmağa başlanmışdır. Nəticədə istehlakçılar və müəssisələr tərəfindən kriptovalyutaların istifadəsinə olan maraq gündən-günə artır. Ticarətin və beynəlxalq ticarətin həcminin gündən-günə artdığı dövrdə şirkətlər ödəmə əməliyyatları üçün fərqli üsullar axtarmaqdadırlar. Mövcud şəraitdə ticarət zamanı ənənəvi ödəmə üsullarının tətbiqi zamanı transfer sürətinin yavaş,qeyri-kafi olması,şirkətlərin yüksək dərəcədə köçürmə rüsumları ödəməsi şirkətləri alternativ yollar axtarmağa sövq edir. Bununla yanaşı xarici valyutaların rəqabət qabiliyyətindən uzaqlaşması şirkətlərə mənfi təsir göstərir. Şirkətlərin qarşılaşdığı bu problemlər eyni zamanda qlobal iqtisadiyyata da mənfi yöndə təsir etməkdədir. Buna görə də bu sahədə daha təsirli və sərfəli bir metod tapmaq həm daxili ticarətdə həm də beynəlxalq ticarətdə iş dünyasına böyük fayda gətirəcəkdir. Təkmilləşdirilmələr sayəsində istehlakçılar da rəqabətli qiymətlərdən faydalana biləcəklər.Şirkətlər də öz potensiyalını maksimum dərəcədə istifadə etmək şansına sahib olacaqdırlar. Tamda bu zaman problemin həll yolu olaraq “Blok Zənciri” texnologiyasına əsaslanan kriptovalyutalara olan maraq artmaqdadır. Kriptovalyutaların xarici valyutalardan asılı olmaması, aşağı dərəcədə transfer haqqının olması,ani ödəmə xidmətləri ilə həm iş dünyası, həm də istehlakçı tərəfindən həyəcan verici bir inkişaf olaraq ortaya çıxır.[3, 48-52]

İlk kriptovalyuta olan bitkoinin təmin etdiyi gizlilik xüsusiyyəti,ticarət fəaliyyətlərini gizlətməyə çalışan adamların diqqətini çəkməyə başlamışdır. Bitkoin sistemində pul hərəkətlərinin izlənməsi,bu sistemdən istifadə edən adamların saxta hesabdan və ya saxta adlardan istifadə etmələri reallıqda onları tapmaq imkanını sıfıra endirir. Bu xüsusiyyətdən istifadə edərək qanuna uyğun olmayan malların satılmasını təklif edən “Silk Road” adlı internet saytı olmuşdur. Buna görə də FBI tərəfindən 2013cü ildə sayt bağlanmışdır.Bu hadisə mərkəzi bir idarəetmə və nəzarətə sahib olmayan kriptovalyuta üçün ticarətdə qanundankənar işlərin olabiləcəyi ehtimalını göstərdi.[2, 23]

Ticarət fəaliyyəti ilə məşğul olan insanlar tərəfindən bitkoin təmin etmənin yollarından biri də məhsul və xidmətlərini bitkoin qarşılığında satmaqdır. Dünyanın bir çox ölkəsində, bitkoin ilə hər növdə olan məhsul və xidmət alınmaqda və gün keçdikcə daha da geniş yayılmaqdadır.

Texnolagiyanın inkiçaf etməsilə illərdir bir çox sahədə yenilikçi məhsul və həllər təklif edən bankların isə kriptovalyuta ilə bağlı bir layihə həyata keçirəcəyi düşünülür.Dünya səviyyəsində bir çox quruluşların kriptovalyutadan istifadə ilə bağlı risklər haqqında xəbərdarlıqlar etdiyi görülməktədir.Bütün bu xəbərdarlıqlara və risklərə baxmayaraq yaşadığımız rəqəmsal dövrdə bu mövzular üzərinə həm akademik dünyada həmdə tətbiqi sahədə bankçılıq və maliyyə sektorunda işlərin sürətini azaltmadan davam etdiyi açıq-aşkar olaraq görünür. Kriptovalyutalardan istifadə edən sahələr arasında e-ticarət ilk sıralarda yer alır.[1, 171-172]

Kriptovalyutanın ticarətə mənfi və müsbət təsirləri

Kriptovalyutaların ümumi mənada asan daşınabilən olması, dayanıqlı olması, bölünəbilən olması, asanlıqla kopyalana bilməməsi baxımından klassik valyutaya nisbətən daha çox üstünlüye sahibdir. Digər tərəfdən hamı tərəfindən qəbul edilməsi, miqdarının yeterincə olması, dəyərini qoruya bilməsi, vergi və borclanmada istifadə ediləbilmə və qanuni olma məsələlərində klassik valyutaya daha çox üstünlüye sahibdir.

Kriptovalyutaların bir çox mənfi və müsbət cəhətləri mövcuddur. Kriptovalyutaların ən önəmli xüsusiyyəti, məhdud təklifin müəyyən bir qaydaya əsaslanaraq,yəni rəqəmsal olaraq alqoritmik qaydalara görə reallaşmasıdır. Bu xüsusiyyət inflyasiyanın qarşısını almaqdadır. Bununla yanaşı kriptovalyuta mərkəzi bir quruluş olaraq idarə edilmədiyi üçün barter məqsədilə istifadə edən tərəflər üçün bir çox üstünlüyə sahibdir. Bu üstünlüklərə aşağıdakıları aid etmək olar:

Vergi, bəyannamə və qeydiyyat kimi qanuni sanksiyalardan azaddırlar.

Dövlətlər heç bir vergi tətbiq edə bilməzlər.

Gizlilik ön plandadır. Heç bir səlahiyyət hərəkətləri izləyə bilməz.

Məxfilik vacibdir. Heç kimin pulu və köçürmələri özləri istəmədikləri halda kimsə tərəfindən bilinə bilməz.

Bu fiziki pul deyil. İstənildiyində fiziki olaraq saxlanıla bilsə də, daşınma kimi fiziki yükləri ehtiva etmir.

İş yerləri üçün hər hansı bir komissiya tətbiq edilmir.

Transfer haqları digər vasitələrlə müqayisədə çox aşağıdır.

Digər tərəfdən, kriptovalyuta sisteminin əksəriyyətini təmsil edən bitkoin üçün ən böyük mənfi xüsusiyyət, ödənişlərin tamamlanmasının təxminən 10 dəqiqə çəkməsidir.Bu müddət uzlaşma üçün lazımdır. Digər bir mənfi cəhət, virtual pul mexanizmlərinin daxili dəyərinin sıfır olmasıdır, yəni ənənəvi olaraq heç bir nominal pul əvəzinin olmaması və arxasında qanuni olaraq heç bir qurumun dayanmamasıdır. Bunlara əlavə olaraq sözügedən sistemin digər sosial və iqtisadi mənfi cəhətləri var. Bunlar aşağıda göstərilmişdir:

Kriptovalyutalar hələ də kiçik bir auditoriya tərəfindən istifadə olunur və ödənişlər üçün rəsmi olaraq istifadə edilməməsi üçün müqavimət göstərilir.

Kriptovalyutalarla edilən əməliyyatların geri dönüşü mümkün deyil.

Kriptovalyutalar tamamilə spekulyativdir. Dəyəri ani olaraq düşə və yüksələ bilər.

Dələduzluğa açıqdır və öncədən izah edildiyi kimi geri dönüşü yoxdur.

İnflyasiyanın olmaması deflyasiyaya səbəb ola bilər. Təklif edilən valyuta miqdarı bitdikdən sonra mövcud valyutaların dəyəri həddindən artıq yüksələ bilər.[1, 173-177]

Günümüzdə kiber cinayətlər və hücumların artması ilə bitkoin proqramının da təhlükə altında olması bir mənfi xüsusiyyət olaraq görülməktədir. Virtual soyğunçuluq və dələduzluğa qarşı açıq bir mexanizmə sahibdir. Ancaq, bunun üçün hazırlanmış üstün alqoritmlər və təhlükəsizlik divarlarının köməyi ilə bitkoin istifadəsinin müsbət xüsusiyyətlərinin qorunması davam etdirilir. Təhlükəsizlik üçün dizayn edilmiş ən müasir texnologiya "Bitcoin hardware" adlanır. Bu cihazlar bitkoin hesablarını kompüter, internet və birjadan asılı olmayaraq şifrəli portativ yaddaşda saxlamaqdadır. Bitkoindən muhasibat vahidi kimi istifadə olunması çox çətindir ve bununla yanaşı bitkoinlə aparılan hər bir əməliyyat qeydiyata alınır. Lakin geri alına bilməmək xüsusiyyətinin olması kimi əhəmiyyətli risklərə də sahibdir.[4, 8-12]

Kriptovalyutaların maliyyə bazarlarına təsiri

Hər keçən gün kriptovalyutalara olan maraq artmaqda, bununlada daha çox kütləyə yayılmaqdadır. İlk zamanlarda mövzuya laqeyd yanaşan hökumətlər və onlara bağlı olan rəsmi qurum və quruluşlar prosesin xırda detallarına kimi maraqlanmağa başlamışlardır. İqtisadiyyat ilə maraqlananların bir hissəsi kriptovalyutanı bir şar kimi görürlər.Digər hissəsi isə kriptovalyutanı iqtisadi sahədə inqilab kimi xarakterizə edirlər. Proqram təminatçıları isə bu texnologiyanı gün keçdikcə daha da inkişaf etdirməkdə,sahibkarlar isə bu texnologiyanı dəstəkləməkdədirlər.Digər tərəfdən bəzi investorlar kriptovalyutanı qiymətli kağızlar kimi nəzərdə tutub qiymət artımı və azalmalarından istifadə edərək qazanc əldə etməkdədirlər. 2017-ci ildə kriptovalyutaların qiymətlərinin gözlənilməz dərəcədə artması və sonrasında kriptovalyuta ilə əlaqəli sektorların meydana gəlməsi maliyyə bazarlarına və iqtisadiyyata müsbət təsir göstərmişdir. Kriptovalyutaların dəyərlərindəki inanılmaz artışlar kriptovalyutaların daha çox tanınmasına və bir çox ölkədə qanuni əsasda olmamasına baxmayaraq bir çox fərqli ölkələrdə kriptovalyuta birjalarının qurulmasına səbəb olmuşdur.[4, 7]

Kriptovalyuta və çirkli pulların yuyulması.

Çirkli pulların yuyulması - qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin qanuniləşdirilməsi prosesidir. Yəni qanunsuz yolla əldə edilmiş maliyyə vəsaitlərinin gizli iqtisadiyyatdan rəsmi iqtisadiyyata keçirilməsi və sonrakı mərhələdə onlardan açıq şəkildə istifadə edilməsi deməkdir. Çirkli pulların yuyulması zamanı mənbəyini gizlətmək, formasını dəyişdirmək və pulu daha az diqəti cəlb edən sahəyə köçürmək yollarından istifadə edilir. Çirkli pulların yuyulması üç yolla həyata keçirilir.

Pulların maliyyə və qeyri-maliyyə sahələrində yerləşdirmə mərhələsi

Pulların qanunsuz mənbəyini gizlətmək üçün əməliyyat mərhələsi

Təmiz pulların əldə olunması-inteqrasiya mərhələsi

Kriptovalyutaların digər valyutalarla dəyişdirilməsi hər nə qədər virtual olsada fiziki məhsulların ticarətində istifadə olunması, fərqli hesablardan əməliyyatları icra edərək gizlədilməsi xüsusiyyətinə görə çirkli pulların yuyulması prosesi heç olmadığı qədər sürətli,ucuz və bir o qədər də asan olmuşdur. Kriptavalyutalar çirkli pulların yuyulması prosesinin birinci və ikinci mərhələsini eyni anda istifadə edərək pulların maliyyə sisteminə keçməsini və pulların mənbədən uzaqlaşdırılması üçün bir təbəqə yaratmışdır. Kriptovalyutaların xüsusiyyətləri səbəbindən bu təbəqənin aşılması prosesi son dərəcə çətindir.[5, 317-319]

NƏTİCƏ

Kriptovalyutalar xüsusilədə bitkoin,insanların son illərdə ticarət fəaliyyətlərində və investisiyalarda istifadə etdikləri,sürətlə inkiçaf edən texnologiya ilə birlikdə iqtisadiyyatdada öz yerini almağa başlamış,çağımızın ən vacib məsələlərindən biri halına gəlmişdir.Kriptovalyuta anlayışı,kriptovalyutanın ticarətdə istifadə olunması və "blok zənciri" texnologiyasının incələnməsi iqtisadiyyat,informatika və maliyyə sahəsinə bir neçə yeniliklər təqdim etmişdir. Satoshi Nakamoto'nun 2008ci ildə ortaya çıxardığı bu sistemə yeniliklər əlavə edilməklə gün keçdikcə daha da inkişaf etməkdədir. Bununla da sahibkarların,ticarətlə məşğul olanların, investorların kriptovalyutalardan gələcəkdə daha çox istifadə edəcəkləri,dövlətin qısa zaman ərzində kriptovalyutaların mühasibatlıq qeydləri və vergiləndirmə haqqında edəcəyi dəyişikliklərin ardından kriptovalyutaların daha çox inkişaf edəcəyi və yayılacağı gözlənilir.Qanuni tənzimləmədən sonra həyata keşiriləcək məlumatlandırma fəaliyyətlərindən sonra kriptovalyutaya maraq daha da artacaqdır.Müəssisələrin kriptovalyuta haqqında daha çox məlumatlı olmasına və kriptovalyutalardan daha çox istifadəsinə yo açacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Armknecht, F., Karame, G.O., Mandal, A., Youssef, F. ve Zenner, E. (2015). Ripple: Overview and Outlook, International Conference on Trust and Trustworthy Computing, s. 163-180.
2. Cusumano, M. A. (2014). The Bitcoin Ecosystem. Communications of the ACM, 50(10), s.22-24.
3. Hepkorucu, A. ve Genç, S. (2017). Finansal Varlık Olarak Bitcoin'in İncelenmesi ve Birim Kök Yapısı Üzerine Bir Uygulama. Osmaniye Korkut Ata Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 1(2), 47-58.
4. Kristoufek, L. (2015). What are the Main Driversof the Bitcoin Price? Evidence from Wavelet Coherence Analysis. Plos One, 10(4), s.1-15
5. Miynat, M. ve Duramaz, S. (2013). Karapara Aklama Aracı Olarak Yeni Bir Mali Suç: Siber-Aklama. Yönetim ve Ekonomi: Celal Bayar Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 20(1), s.315-325.


## LAYİHƏLƏRİN İDARƏ OLUNMASINDA RESURSLARIN ROLU


**Əliyeva Aytac Xosrov qızı**

*aytaj_aliyeva@inbox.ru*



**Açar sözlər:** layihə**,** layihə idarəetməsi, resurslar, maliyyə resursları, əmək resursları, material resursları, büdcə.

**Keywords:** project, project management, resources, financial resources, work resources, materials resources, budget.

**Ключевые слова:** проект, управление проектом, ресурсы, финансовые ресурсы, рабочие ресурсы, материальные ресурсы, бюджет.

**Giriş**

Layihə geniş məzmunlu və mürəkkəb bir sistemdir. Bu baxımdan layihənin günmüzə qədər dəqiq və yeganə tərifi yoxdur. Hər bir alim və mütəxəssis layihəyə öz düşüncələri çərçivəsində tərif vermişdir. Ümumilikdə desək, layihədə insanlar, materiallar və maliyyə resursları ilə bilikdə məhdud vaxt və büdcə şəraitində nadir işlər paketini yerinə yetirmək üçün təşkil edilmiş hərəkətlər çoxluğudur[2].

Layihənin alt sistemləri- bunlar nisbi muxtariyyət xarakterli sahələrdir. Alt sistem dedikdə işlər, resurslar, risklər, keyfiyyət, informasiya və s. başa düşülür. Developer(perspektiv) yanaşması zamanı layihənin alt sistemləri onun həyata keçirilməsi üçün lazım olan resurslar nəzərdə tutulur[1].




**Şəkil. 1**

Hər hansı bir layihənin yerinə yetirilməsi üçün lazım olan ehtiyyatlar deyildikdə, onun resursları başa düşülür və maddi- texniki resurs, əmək(insan) resurs, maliyyə resursu, informasiya resursları, material resursu kimi formaları vardır.(Şəkil. 1)

Effektiv resurs idarəçiliyini təmin etmək üçün layihə aşağıdakı əsas proseslərin həyata keçirilməsini təmin edir: məhdudiyyətlərin müəyyən edilməsi, ehtiyyatın tədarükü və tədarükün təşkili, mənbələrinin planlaşdırılması, resursların monitorinqi və nəzarəti. Bu proseslərin mahiyyətini nəzərdən keçirək. Məhdudiyyətlər dedikdə, əsas iki göstərici- vaxt və resursların məhdud nisbətlərini nəzərə alınmalıdır:

- vaxt məhdudiyyəti layihə üçün müəyyən bir son tarix və minimum miqdarda ehtiyat tələb edir. Bildiyimiz kimi hər bir layihə müəyyən bir başlama və qurtarma tarixi vardır. Tıxanma dövrləri üçün əlavə mənbələr verilə bilər;

- resurs məhdudluğu layihənin başa çatma müddətinin dəyişdirilə bilməyəcəyi müəyyən miqdarda ehtiyatla maksimum sürətlənməsini nəzərdə tutur. Resurs dəstəyi ilə bağlı münaqişələr ümumiyyətlə həll olunur tamamlama tarixini dəyişdirərək.

Resursların idarə edilməsi- onların planlaşdırılması, tədarükü, paylanması, uçotu və nəzarəti proseslərini özündə cəmləşdirən layihə menecmentinin əsas alt sistemlərindən biridir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Fərzəliyev S.A., Tikinti istehsalatının təşkili, planlaşdırılması və idarə edilməsi, AzMİU, “Nəşriyyat-Poliqrafiya Mərkəzi”, Bakı-2020, 464 səh.
2. İ.A.Babayev, Layihələrin idarə edilməsi metodologiyası, “Çaşıoğlu”, Bakı- 2003, 300 səh.

# SÜRÜ PSİXOLOGİYASI VƏ ONUN İNSANLARA TƏSİRİ

**Əliyeva Nərmin**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Əzizova Vəsilə***

**Açar sözlər:** Sürü psixologiyası, intuisiya, kollektiv maraq.
**Key words:** Bandwagon effect, intuition, collective interest.
**Ключевые слова:** Стадная психология, интуиция, коллективный интерес.

Əsrlər boyu insanlar həm digər canlılardan,həm də təbii fəlakətlərdən qorunmaq üçün müxtəlif yollara ehtiyac duymuşlar. Buna güclərini birləşdirərək birlikdə hərəkət edib müşahidə apararaq nail olmuşlar. Təbiətdə digər canlılardan zəif olan insanoğlu daim müdafiə mövqeyində olmalı, həmçinin diqqətli davranmalı idi. Məhz bunların nəticəsində insan cəmiyyətində əməkdaşlıq yaranmışdır.Cəmiyyət dediyimiz isə o zaman sürü idi.Hər fərd sürüdən ayrılacağı təqdirdə canını təhlükəyə atacağını da anlayırdı. Beləliklə,insanlar hərəkətlərini sürüyə görə uyğunlaşdırmalı,başqalarında onun haqqında müsbət fikirlər yaratmalı idi.

Sürü psixologiyası və müdafiə mövqeyindəki həyat,insanda qorxu hissinin yaranmasına gətirib çıxarırdı.Əgər zehnimiz qorxularla dolu olmasaydı,hər zaman məntiqli və aydın düşünə bilərdik.Lakin,Harvard Universitetindən olan Benjamin Libet tərəfindən aparılan araşdırmalar sübut etdi ki,çox zaman insan məntiqi ilə qərar vermir.Libet bu təcrübələrdə,hər hansı bir vəziyyət baş verdiyi halda,insanın şüuraltının onun əvvəlcə nə edəcəyinə qərar verdiyini,sonra da məntiqinin sayəsində bu qərarı doğruladığını təsdiqlədi.İnsan qərarlarını ağılla verdiyini düşünsə də,əslində ona rəhbərlik edən onun intuisiyasıdır.Libetin fikirlərinə görə,ağıl ümumiyyətlə insan qərarlarında sonradan “işə yarayır”.

Amerikanın MIT Universitetindən Daniel Wegner,müəyyən araşdırmalar nəticəsində insanların qərar verərkən ətraf mühitdən necə təsirləndiyini sübut etmişdir. Wegnerə görə,bir insan çox qərarı öz iradəsi ilə vermir,əksər hallarda istədiyini edə bilmir, ətrafına boyun əyir. Wegner bu araşdırmalarla insanların verdiyi qərarlara ətrafındakı insanların nə dərəcədə təsir etdiyini elmi olaraq sübut etmişdir.

Qustav Le Bon yazmışdır ki, izdiham zamanı adamlarda “indiyədək sahiblənə bilmədikləri yeni keyfiyyətlər meydana çıxır”. Belə vəziyyətdə fərd “fors-major şüur əldə edir və bu şüur onu elə instinktlərə tabe olmağa vadar edir ki, tək olduğu zamanlarda heç vaxt onlara azadlıq vermir”. Le Bon bunu belə izah edir:“kütlə anonimdir və ona görə məsuliyyət daşımır. Ayrı-ayrılıqda fərdləri həmişə çəkindirən məsuliyyət hissi, izdiham zamanı tamamilə ortadan qalxır” və izdihamda “hər bir hiss, hər cür fəaliyyət sirayətedicidir, özü də o dərəcədə ki, fərd öz şəxsi maraqlarını çox asanlıqla kollektiv maraqlara qurban verir”.

Psixologiya elminə görə sürü psixologiyası bir yığın qaydalar və şərtlərlə əsaslandırılmış müəyyən inancların, bir qrup, topluluq, ölkə və s.-nin insanlar arasında yayılmasına verilən addır.Sürü psixologiyası,qərar vermə və öz düşüncələrinə görə hərəkətetmə qabiliyyətinin olmamasıdır.Bu ifadə,1848-ci ildə Amerika siyasi sistemində işlənməyə başlandı. Den Reys adlı kloun o zamanlar ansambl arabası (bandwagon) işlədərək siyasi turlara qatılmışdı.Ansambl arabası çoşqun musiqilərlə turlara çıxır və “ansambla qatıl”şüarı ilə insanların diqqətini çəkirdi. Bu sayədə əldə etdiyi məşhurluğundan dolayı seçkilərdə böyük müvəffəqiyyət qazanmışdı. Buna görə ingiliscə “Bandwagon Effect” olaraq ifadə edilir.

Abilene paradoksu və Sürü psixologiyasının əlaqəsi.Abilene paradoksu qrupdakı hər kəsin əksəriyyətinin (və ya heç kimin) həqiqətən istəmədiyi bir şeyi,bəlkə digərləri sevər deyə həyata keçirməsi vəziyyətidir.. Əslində sağlam düşüncə tamamilə fərqli bir nəticəyə çatsa da, güzəşt mədəniyyətinin mənfi təsiri ümumi düşüncənin iflic olmasına və səhv qərarlar verməsinə səbəb olur.

“Sürüdən ayrılan quzunu qurd qapar” deyə, köhnə bir deyim var. Bu deyim düşündüyümüzdən daha dərin köklərə malikdir.

Günümüzdə qruplar uzlaşmanın ortaya çıxardığı problemlərlə baş çıxarmağa çalışırlar. Professor Harvey, qrup qərarlarının əksər hallarda xətalı olduğunu qeyd edir.Bəs insanlar niyə həmişə ümumi qərarla razılaşır?

Bunun səbəbləri adətən ictimai qınaq yaxud özünə inamsızlıqla bağlı olur.Belə ki, çox insan tənqid edilməkdən ya da gülünc vəziyyətə düşməkdən qorxduqları üçün deyilən fikirlərlə razılaşırlar.Bəzi insanlarda isə qarşı tərəfi məmnun etməyə çalışma hissi o qədər güclü olur ki, qərarın məntiqsizliyi barədə heç düşünmürlər.

Paradoksun kökündə duran hekayəyə nəzər yetirək:

Çox isti bir yay günündə Teksas-Kolemandayıq. Gənc evli cütlük və oğlanın valideynləri balkonda oturub. Sakit mühitdə ata qəfildən ortaya bir fikir atır: “Gəlin,Abilenə gedək və gəzək”. Gəlin bu fikirlə dərhal razılaşır. Bu qədər isti havada, 85 km uzaqlıqdakı şəhərə getməyin çox pis fikir olduğunu düşünən oğlan, yenə də, “Anam da istəyirsə, gedək” deyir. Ana da razılaşır və beləliklə ailə yola düşür.Yol çox isti və uzun, avtomobil isə narahatdır. Abileneyə çatdıqlarında yedikləri yemək bərbaddır. Geri qayıdanda isə yol ikiqat narahat keçir. Nəhayət, evlərinə qayıtdıqlarında yenə balkona yığışırlar.

Qrupdan bir nəfər gəzintinin xoş keçməsini qeyd edərkən, ana gəzintini heç bəyənmədiyini, hətta əslində evdə qalmaq istədiyini, sadəcə hərkəs həvəsli olduğundan məcbur razılaşdığını etiraf edir. Bu zaman oğlan da bu səyahəti qətiyyən istəmədiyini, onları incitməmək üçün özünü fəda etdiyini anlatmağa başlayır. Qadın yoldaşının fikirlərinə qatılır, hətta əsas fədakarlığı özünün etdiyini qeyd edir. 3 insan birlikdə ataya baxdıqlarında, ata təəccüb içindədir. “Mən heç vaxt getmək istəməzdim, sadəcə çox bezmiş görünürdünüz deyə, ortaya fikir atdım” – deyir.

Dörd insan fərdi olaraq heç vaxt verməyəcəkləri bir qərarda uzlaşmış, bunu icra etmiş və sonda məyus olmuşdular.Beləliklə,burada Abilene paradoksunun baş verdiyini görürük.Demək ki, “Abilene paradoksu” və “Sürü psixologiyası”nın kökündə duran səbəblərdə eynilik vardır.

Sürü psixologiyası insanların bir davranışını, düşüncə şəklini, tutumu bəsit şəkildə "hər kəs edir" deyə mənimsəməsi olaraq izah edilə bilər. Əgər bir tutum və ya inanc çoxluq bir qrup tərəfindən qəbul olunursa, başqa bir insanın da eynisini mənimsəmə ehtimalı artır.

Psixoloqlar bu vəziyyəti bəzən insanların fikirlərinə və qərarlarına mənfi təsir edən və onlara xəta etdirən bir durum olaraq xarakterizə edilir. Sürü psixologiyasının görüldüyü nümunələrə baxaq:

Çox insan bəlli bir geyim tərzini sırf çoxluq mənimsəyir deyə qəbul edir.Bir musiqi növü və ya bir sənətçi nə qədər çox insan tərəfindən dinlənilməyə başlanılarsa, tək bir fərdin də eyni davranışı göstərmə ehtimalı artar.

Bir çox sosial şəbəkə saytı olmasına rəğmən ən çox istifadə edilən saytlar yeni insanlar tərəfdən daha tez mənimsənənlərdir. Bəs insanlar nə üçün trendləri izləyir? Sürü psixologiyası necə yaranır? İnsanlar çoxluqların sahib olduğu normalardan və düşüncə tərzlərindən asanlıqla təsirlənər. Bəlli bir davranış çoxluq tərəfindən mənimsənildiyi halda, o davranışı rədd edən insan olmaq olduqca çətindir.

İnsanların hiss etdiyi bu təsir düşüncələrinə, yaşam tərzlərinə, hətta siyasi fikirlərinə belə təsir edər. İnsanlar yalnız qalmaq və uzaqlaşmaq istəməzlər:haqlı olan, qazanan tərəfdə olmaq istərlər. Bunu da çoxluğun fikirlərinin edəcəyini düşünərlər. Eyni zamanda aiddiyyət hissinə duyduqları ehtiyac çoxluq tərəfindən qəbul görən normaları qəbul etmələrinə səbəb olur.

Sürü psixologiyası zərərlidirmi? Bu suala dəqiq cavab vermək doğru olmaz, çünki sürü psixologiyası həyatın hər sahəsində müşahidə oluna bilər. Moda, musiqi kimi sahələrdə görülən sürü psixologiyası zərərsiz olaraq xarakterizə olunduğu halda, fərqli sahələrdə paylaşılan ortaq tutumların insanlara zərər verə biləcəyi də görülmüşdür. Məsələn, zərərli vərdişləri olan bir qrup içinə daxil olan bir kimsə qrupun davranışlarını izləyərək içki, siqaret və s. zərərli maddələrin istifadəsinə başlaya bilər.

Fərdin ən böyük qorxuları doğru yolda belə olsa, təcrid edilmək və ayrı qalmaqdır. Deyirlər ki, “doğru bildiyin yolda təkbaşına qalsan da, yürü”. Bunu edə bilən insan sayı çox deyil. Dolayısı ilə bu “səhv et, amma sürünün içində qal” fəlsəfəsidir.

Günümüzdə irəli sürdüyümüz fikir və tutduğumuz münasibət tərəfdarları cəlbə etmirsə,tək başımıza bu fikri müdafiə edə bilməyəcəyimiz qorxusu geniş yayılmaqdadır.Həmçinin,fərqli bir səs çıxarmaqdan,fərqli fikir səsləndirməkdən çəkinirik.Hər hansı sahədə mənfi tənqid alma ehtimalı bizim azad fikir bildirmə azadlığımızı demək olar ki,əlimizdən alır. Bu qorxular isə insanların susmasına gətirib çıxarır. Sizə inanan insanlar olmasa da, fərqli fikir bildirməkdən, doğruları müdafiə etməkdən çəkinməyin.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Gustave Le Bon Xalqların və kütlənin psixologiyası. 2015, 366 s.
2. https://en.wikipedia.org/wiki/Abilene_paradox
3. https://www.temelaksoy.com/suru-psikolojisi-nedir/

## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İKT-DƏN İSTİFADƏ

**Əliyeva Türkan**
***Mingəçevir Dövlət Universiteti***
***dos. Əzizova Zenfira***

**Açar sözlər:** İngilis dili, informasiya, kompyuter texnologiyası.
**Keywords:** English, information, computer technology.
**Ключевые слова:** Английский, информация, компьютерные технологии.

İngilis dili fənninin tədrisində yeni təlim texnologiyalarından istifadə daha yüksək nəticələrin əldə edilməsinə gətirib çıxarır və şagirdlərdə müstəqillik, işgüzarlıq, təfəkkür fəallığı, məsuliyyət kimi keyfiyyətlər formalaşdırır.

İngilis dilinin tədrisi və İKT-nin istifadəsi haqqında son on ildə, təqdirəlayiq bir nəticəyə nail olunmuşdur. Son ədəbiyyatlarda dil dərslərində İKT-nin istifadəsini öyrənənlərlə birlikdə həm də müəllimlərə təqdim edilən söz ehtiyatlarını artırmaq, oxularını yaxşılaşdırmaq, danışma bacarığı və s.kimi bir çox yeniliklər də var. İKT-dən istifadənin üstünlükləri qədər müəllimlərin ikiqat rolunun artması, kompleks vəziyyətlərin öhdəsindən gəlmək, dil sinfində təlimin olmaması və ya avadanlıq çatışmazlığı kimi bəzi çətinlikləri də mövcuddur.

İnternet-texnologiya müəllim və öyrənənlərə təlimin interaktiv şəkildə yaradıla biləcəyi real mənbələr təqdim edir. Bu mənbələrdən istifadə nəticəsində tələbənin öyrənmə imkanları daha da artır. DVD və ya e-poçt kimi bir İKT vasitəsi dərslərin gündəlik komponentidir. İKT vasitələri gücləndirici olmalıdır, müəllimlərin sahib olduğu əsas vasitə olan dərslik kitabı bir tədris planını bir araya gətirərək tələbələrin bütün ehtiyaclarını qarşılamalıdır. Buna baxmayaraq, müəllimi səy göstərərək İKT istifadəsi qorxusundan azad olmalıdır və xarici dil üçün inkişaf edən və təqdirəlayiq bir nəticə əldə etməlidir.

İngilis dili öyrənənlərin dinləmək bacarığı əsas əhəmiyyətə malikdir. Bu həm də öyrətmək üçün çox mürəkkəb bir bacarıqdır. Tələffüz anlayışı, bu dili anlamaq və ya bu dildə danışmaq anadili ingilis dili olmayanlar üçün problemlər yaradır. CALL (Kompüter Dəstəyi ilə Dil Öyrənmə) proqramı dil öyrənənləri motivasiya etmək üçün bir yoldur. Öyrənənlərin dinləmə bacarıqlarının inkişaf etdirməsinə rəqəmsal hekayələr, Mp3 qeydləri və ya podcast kimi müxtəlif multimedia alətləri köməkçi ola bilər.

Əlavə olaraq, uşaqlar jestlər, mimika, səslər və s. kimi danışıq vasitələri ilə tanış olurlar. Buna baxmayaraq, bunu qeyd etmək də vacibdir ki, internetdə müəllimin tapa biləcəyi maraqlı mənbələr, vasitələr sinif otağında həyata keçirilməsi üçün lazımi şərait mövcud olsun. Müəllimlər internet ilə təmin edilməlidir. Dərslər uşaqların dil səviyyəsi və texnoloji qabiliyyətləri yoxlanılaraq, onlara müvafiq tədris planı hazırlanaraq keçirilməlidir. Bundan əlavə, uşaqların öyrəndiyi mühit təhlükəsiz olmalıdır.

Xarici dil öyrənərkən ən vacib vasitələrdən biri də lüğətlərdir. Lüğət öyrənməyin sadə olduğu düşünülür, lakin lüğət qurmaq kimi onu öyrənmək də vaxt tələb edən və darıxdırıcı proses kimi qəbul edilir. Lüğətlərin bir neçə növü mövcuddur. İnternetdə də online ingilis dili lüğətləri (izahlı lüğət) çoxdur və hər biri müəyyən xüsusiyyətinə görə digərlərində fərqlənir. Belə lüğətlərə www.en.oxforddictionaries.com, www.dictionary.cambridge.org, www.oxfordlearnersdictionaries.com və s. misal olaraq göstərmək olar. Beləliklə, texnologiya vasitəsilə lüğət öyrənmə strategiyaları təlimatı mövcuddur. Bunlar aşağıdakı kimidir:

1. Söz münasibətlərinin mətn daxilində əyani göstəricilərindən məlumat əldə etmək.

2. Rəqəmsal lüğət ekskursiyasına çıxmaq.
3. Lüğət və öyrənməni onlayn lüğət ilə əlaqələndirən oyunlar.
4. Şagirdlərin söz ehtiyatını ifadə etmək üçün mediadan istifadə etmələrini təmin edən bilik.
5. Onlayn söz istinad vasitələrindən istifadə etmək.
6. Zamanında oxumaq və söz öyrənməyi dəstəkləyən lüğət dəstəyi.
7. Dil tərcüməçilərindən istifadə etmək.
8. Rəqəmsal mətn oxuyaraq oxu həcmini artırmaq.
9. Rəqəmsal mətn dinləyərək danışıq və dinləmə bacarıqlarını artırmaq.
10. Dil öyrənmə və sosial xidməti birləşdirmək.

İngilis dilinin öyrənilməsində İKT-nin istifadəsi və tədris hələ tam araşdırılmamış bir sahədir. İKT-nin hər bir istiqaməti, onlayn oxuma, söz ehtiyatının artırılmasına yönəlmiş və kompüter əsaslı proqramlar vasitəsilə danışığı artıran savadlılıq fəaliyyətlərini təmin edir. Dövrümüzün öyrənənləri, yalnız dil əsaslı əvəzolunmaz biliklərlə deyil, eyni zamanda multimediya əsaslı olan biliklərlə öyrənilir. Əlavə olaraq, motivasiya dəyərini nəzərdən qaçırmamalıyıq ki, İKT-nin uşaqlar və öyrənənlər üzərində olduğu kimi İKT-nin istifadəsində öyrədənlərə də rahatlıq imkanı verir və var beləliklə, onların təhsil dəyəri artır.

Kompüterlə təşkil olunan dil təliminin 3 mərhələsi mövcuddur. Birinci mərhələ 1970- 1980-ci illəri əhatə edən struktur kompüterlə dil öyrənmə adlanır. Kompüterlə dil tədrisinin bu mərhələsində əsas aparıcı metodlar qrammatik–tərcümə metodu və audio-linqual metodlar olmuşdur. İkinci mərhələ 1980-1990-cı illəri əhatə edən kompüterlə kommunikativ dil öyrənmə adlanır. Bu mərhələdə kompüterlə dil öyrənmədə əsas metod kommunikativ dil təlimi idi. Üçüncü mərhələ isə interaktiv kompüterlə dil öyrənmə adlandırılır və bu mərhələ XXI əsri əhatə edir. Kompüterlə dil öyrənmənin bu mərhələsi üçün ingilis dilinin tipik modeli dilin xüsusi məqsədlərlə və akademik məqsədlə öyrənilməsinə əsaslanan dil tədrisidir [2].

İnformasiya və kommunikasiya texnologiyaları bu gün insanların ünsiyyət tərzini və işlər görməsi üsulunu dəyişdirdi. Təhsildə İKT tədrisdə və tədrisin asanlaşdırılmasında mühüm rol oynayır. Sinif ünsiyyət metodlarını və dəyişdirilmiş təlim strategiyalarını dəyişdirdi. İKT, ənənəvi müəllim danışığı və şagirdlərin dinləmə yanaşması əvəzinə tədris və öyrənməni interaktiv və işbirliyi halına gətirdi. Böyük sinif ölçüləri demək olar ki, geniş miqyaslı bir fenomendir. Böyük siniflərdə keyfiyyətli təhsil əldə etmək üçün müəllimlər əlavə addımlar atmalıdırlar. İngilis dili müəllimləri İngilis dili fənninin tədrisinin demək olar ki, İKT-dən istifadə edirlər. Keyfiyyətli yanaşma yolu ilə aparılan bu tədqiqat böyük siniflərdə ingilis dilinin tədrisini və öyrənilməsini asanlaşdırmaq üçün multimedia cihazlarının istifadəsini əhəmiyyətli etmişdir. Böyük siniflərdə İngilis dilinin öyrənilməsində internet texnologiyalarından necə istifadə edilə biləcəyinə də diqqət çəkdi. Buna görə də, böyük siniflərin olmasına baxmayaraq, müəllim hələ də informasiya və kommunikasiya texnologiyalarının köməyi ilə kiçik siniflərdə olduğu kimi çıxış edə bilər.

İngilis dilinin tədrisində maqnitofonlar, videolar, televiziyalar, radiolar və proyektorlar ingilis dili müəllimlərinin ixtiyarında olan ən geniş yayılmış texnologiyalardandır. Bu gün kompüter və internet texnologiyaları İngilis dilinin öyrənmə və tədrisində böyük əhəmiyyət kəsb edir. Fərqli informasiya və kommunikasiya texnologiyaları İngilis dilinin öyrənilməsini və tədris edilməsini özləri dəyişdirmir. Təlim metodlarını, strategiyalarını dəyişdirəcək olan vasitə müəllim tərəfindən uyğun istifadələr və ya manipulyasiyalardır. Buna görə müəllimlər sinifdə yeniliklər gətirmək üçün İKT biliklərini təcrübə və ya peşəkar biliklərlə birləşdirməlidirlər. Məsələn, dil bacarıqlarının tədrisi üçün müxtəlif ənənəvi metodlar ingilis dili müəllimləri üçün hələ də vacibdir. Bununla birlikdə, İKT, uzun müddət davam edən ənənəvi müəllim əvəzinə şagird mərkəzli öyrənmə mühiti yaratmaq üçün tədris və öyrənmə strategiyalarını dəyişdirməyə imkan verir. İKT-nin köməyi ilə müəllimlər təhsil müəssisələrində geniş siniflərin yaratdığı bəzi problemlərə qarşı çıxa bilərlər. İKT-lər müəllimin böyük siniflərin yaratdığı problemlərlə mübarizə səylərini tamamlayır və dəstəkləyir. Başqa sözlə, sinifdə ənənəvi tətbiqləri, yəni təbaşir lövhəsi və tədris-danışma ənənəsini yenidən tətbiq edirlər. Bu gün bir çox ölkələrin təhsil sektorundakı problemlərdən biri də böyük siniflərdə keyfiyyətli təhsil əldə etməkdir.

Televiziya, radio, video və multimediya kompüter proqramı kimi İKT, İngilis dili müəllimlərinin dil bacarıqlarını və İngilis dilinin digər aspektlərini öyrətmək üçün istifadə edə biləcəyi əvəzolunmaz vasitədir. Məsələn, multimediya kompüter proqramı ingilis dilinin öyrənilməsində və tədrisində real vəziyyəti təmin edir. Şagirdlərin diqqətini cəlb edən və ya onları izləməyə, dinləməyə və dərsə cəlb olunmağa məcbur edən

səsləri, şəkilləri və mətnləri birləşdirirlər. Eynilə sinifdəki multimediya istifadəsi şagirdlərə İngilis dilini və öyrənmə mətnləri ilə qarşılıqlı əlaqələrini inkişaf etdirmək üçün hazırlanmış İngilis dili kurslarında tapşırıqlar və məzmunda möhkəm zəmin yaradan müxtəlif mətnlərlə qarşılıqlı əlaqə qurma imkanı yaradacaqdır. Bundan əlavə, İKT artıq tədris proqramının texnologiyanın ayrılmaz hissəsi olduğundan, İngilis dili öyrənən şagirdlər elektron mənbələrdən istifadədə bacarıqlı olmalıdırlar [1].

Dos. Sevda Xələfova öz məruzəsində qeyd etmişdi: “Bu gün respublikamızda təhsilin bütün pillələrində İKT-nin tətbiq və istifadə edilməsi, eyni zamanda İKT-nin özünün tədris olunması, gənclərdə müstəqil şəkildə informasiya toplamaq, analiz etmək, ötürmək qabiliyyətinin formalaşdırılması onların gələcəkdə informasiya cəmiyyətinin qiymətli üzvlərinə çevrilməsində mühüm rol oynaya bilər.” “Elektron tədris vəsaitlərinin, həmçinin digər tədris təyinatlı proqram vasitələrinin keyfiyyətinin qiymətləndirilməsi ilə əlaqədar laborator praktikumu tapşırıqlarının icrası zamanı xüsusi proqram vasitələrindən istifadə etmək məqsədəuyğundur.” Bu fikir isə ADPU-nun dosenti İlham Əhmədova aiddir. Hər iki fikir günümüzdə İKT-nin vacibliyindən, onu təhsilə düzgün tətbiqi və bu vasitədən istifadənin keyfiyyətindən bəhs edir.

Hər zaman İKT-ni nəzərə alacayıq çünki, tələbələrimiz, bütün insanlar bu vasitə ilə dünyadakı əlaqələrini genişləndirir və dünyagörüşünü artırır, işgüzar əlaqələr qurur, dilini inkişaf etdirir.

## GENERAL ISSUES OF LEGAL PROTECTION OF CULTURAL HERITAGE IN THE EUROPEAN UNION

**Aliyev Adil**
***Baku State University***
***European Law, Master’s student***

*“The true history of a nation is the cultural history of a nation.”* Jurji Zaydan (1861-1914), Lebanese writer

**ABSTRACT**

The article reveals the general aspects of history, essence and legislation of the law of cultural heritage in the European Union. The purpose of the study is to emphasize the important role of legal regulation in matters related to the protection of the rich cultural heritage of the European Union. The relevant article of the Lisbon Treaty, which is the modern constitutional basis of European Union law, is covered separately. As an example, various institutions that regulate the issues of legal regulation of European cultural heritage are also cited.

**XÜLASƏ**

Məqalədə Avropa Birliyinin mədəni irs hüququ tarixi, mahiyyəti və qanunvericiliyinin ümumi məqamları açıqlanır. Tədqiqatın məqsədi Avropa Birliyinin zəngin mədəni irsinin qorunması ilə bağlı məsələlərdə hüquqi tənzimləmənin önəmli rolunu vurğulamaqdır. Avropa Birliyi hüququnun müasir konstitusiya əsasını təşkil edən Lissabon Müqaviləsinin müvafiq maddəsi ayrıca nəzərdən keçirilir. Nümunə olaraq, Avropa mədəni irsinin hüquqi tənzimlənməsi məsələlərini tənzimləyən müxtəlif qurumlardan da bəhs olunur.

**АННОТАЦИЯ**

В статье раскрываются общие аспекты истории, сущности и законодательства о культурном наследии Европейского Союза. Цель исследования заключается в подчеркивании особой роли юридической регламентации в вопросах, связанных с защитой богатого культурного наследия Евросоюза. Соответствующая статья Лиссабонского договора, являющегося современной конституционной основой права Европейского союза рассматривается в отдельности. В качестве примера также приводятся различные институты, регулирующие вопросы правового регулирования

европейского культурного наследия.

**Keywords.** Culture, heritage, law, European Union (EU), Treaty of Lisbon.

Introduction**.** For the clear understanding of the cultural heritage law we should primarily clarify the meaning of the notion of "culture". Article 1 of the law of the Republic of Azerbaijan "On Culture" prescribes, that: "Culture - a set of features that determine the material, spiritual, intellectual and emotional characteristics of a society or social groups, including literature and art, covering people's lifestyles, rules of coexistence, the system of moral values."

History of the mankind represents two main forms of human activity: creation and destruction. Cultural values often became objects of creation and destruction. History knows many examples of destruction of such objects. During the military conflicts of the 20th century, serious damage was inflicted to the monuments of the history and culture of the world.

Military conflicts served as a prerequisite for the development of legal protection of cultural property. In this regard, in the XX century, international legal acts were developed to regulate protection of cultural property such as the Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict 1954 - at the international level; Roerich's Pact of 1935 - at the regional level [2,p.1].

**General issues**

While speaking about the protection of cultural heritage, it is very important to take into account the provisions of the preamble of the 1954 Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict, which was the first international treaty that focuses exclusively on the protection of cultural property in armed conflict. Convention recognizes that "cultural property has suffered grave damage during recent armed conflicts and that, by reason of the developments in the technique of warfare. Damage to cultural property belonging to any people whatsoever means damage to the cultural heritage of all mankind, since each people makes its contribution to the culture of the world. Preservation of the cultural heritage is of great importance for all peoples of the world and that it is important that this heritage should receive international protection."

European Union is a political and economic union of 27 member states that are located primarily in Europe.

Remarkably, that culture has never been at the core of European integration. While economic, legal and political integration of the countries of Europe has a history of around seventy years, the first cultural aspects of the cooperation among the member countries of the European Economic Community could only be observed in the 1970s. The founding fathers of Europe seem to have forgotten about culture. The first reference to culture in the treaties came as late as 1992 as one of the many novelties of the Maastricht Treaty. Leaders of Europe had the tendency to pay attention to culture only when a crisis or a major new stage of closer integration called for solutions aiming to reconnect the people to the European project. An influential supporter of European unity, one of the founding fathers of the EU, famous French entrepreneur and diplomat, Jean Monnet, himself recognized this mistake. Looking back at the history of European integration he once said that: "*If we were to do it all again we would start with culture.*"[5, p. 779-799].

Because of great number of perspectives which can be taken on the subject, it is impossible to form a single, all-embracing conception of European culture.

Nonetheless, there are core elements which are generally agreed upon as forming the cultural foundation of modern Europe. One list of these elements given by prominent german-polish historician Klaus Bochmann includes:

1) A common cultural and spiritual heritage derived from Greco-Roman antiquity, Christianity, Judaism, the Renaissance and its Humanism, the political thinking of the Enlightenment, and the French Revolution, and the developments of Modernity, including all types of socialism;

2) A rich and dynamic material culture that has been extended to the other continents as the result of industrialisation and colonialism during the "Great Divergence";

3) A specific conception of the individual expressed by the existence of, and respect for, a legality that guarantees human rights and the liberty of the individual;

4) A plurality of states with different political orders, which are feeding each other with new ideas;

5) Respect for peoples, states and nations outside Europe.

European Union's cultural law policy aims to address and promote the cultural dimension of European integration through relevant legislation and government funding.

These policies support the development of cultural activity, education or research conducted by private companies, NGO's and individual initiatives based in the EU working in the fields of cinema and audiovisual, publishing, music and crafts.

The European Council, which is distinct from the European Union (EU), first formalised cultural cooperation policy in Europe with its European Cultural Convention. EU's cultural policy, promoting unified cooperation between member states was first initiated with the 1992 Maastricht Treaty.

The most important EU institutions through which decisions are made regarding cultural policies are:

1) the European Commission acting in the areas of culture, sport and languages,
2) the Committee on Culture and Education of the European Parliament,
3) the Education, Youth and Culture sector of the Council of the European Union,
4) the Education, Audiovisual and Culture Executive Agency of the European Commission.

EU also promotes cultural development through numerous institutions, programmes, civil society organisations and networks such as: Directorate-General for Education and Culture; European Film Promotion, Erasmus Mundus, European Route of Industrial Heritage, Europe Jazz Network, European Heritage Days, European Composer & Songwriter Alliance, European Network of Cultural Administration Training Centres, European Choral Association, Informal European Theatre Meeting, University Network of the European Capitals of Culture and so on.

**The Treaty of Lisbon**

The Treaty of Lisbon or the Reform Treaty is an international agreement which formed the constitutional basis of the European Union as a unique **supranational** organization. The Treaty of Lisbon (TEU&TFEU) was signed by the EU member states on 13 December 2007 and entered into force on 1 December 2009.

Article 167 of TFEU (ex Article 151, Treaty of Maastricht, 1992) describes the cultural policy of the Union: "The Union shall contribute to the flowering of the cultures of the Member States, while respecting their national and regional diversity and at the same time bringing the common cultural heritage to the fore. Action by the Union shall be aimed at encouraging cooperation between Member States and, if necessary, supporting and supplementing their action in the following areas: improvement of the knowledge and dissemination of the culture and history of the European peoples, conservation and safeguarding of cultural heritage of European significance, non-commercial cultural exchanges, artistic and literary creation, including in the audiovisual sector. The Union and the Member States shall foster cooperation with third countries and the competent international organisations in the sphere of culture, in particular the Council of Europe.

The Union shall take cultural aspects into account in its action under other provisions of the Treaties, in particular in order to respect and to promote the diversityof its cultures. In order to contribute to the achievement of the objectives referred to in this Article:

the European Parliament and the Council acting in accordance with the ordinary legislative procedure and after consulting the Committee of the Regions, shall adopt incentive measures, excluding any harmonisation of the laws and regulations of the Member States,

the Council, on a proposal from the Commission, shall adopt recommendations."

Conclusion**.**

In modern developing world, in the period of digital capitalism, all-round scientific and technological progress, the boom of artificial intelligence, the conquest of space, numerous complexities caused by pandemic, only more closer voluntary coordination of national cultural policies, the harmonization of cultural, social, economic and foreign policies, the incorporation of cultural priorities into educational programs, support schemes to small and medium enterprises, regional development programs, entire realization of the Lisbon agenda would be an immense step forward. Through cultural cooperation it will be possible to achieve cornerstone aims of the Union, create a new political culture in Europe,

strengthen European values and build up the much needed and continuously transforming European identity for future generations.

**BIBLIOGRAPHY :**


1. Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunu. Bakı, 2012.
2. Нешатаева В.О. Культурные ценности. Цена и право. Москва, 2013, стр.1.
3. Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict. Hague, 1954
4. https://europa.eu/european-union/about-eu/eu-in-brief_en *[electronic source].*
5. Chris Shore. Inventing the "People's Europe": Critical Approaches to European Community Cultural Policy. Publisher: Royal Anthropological Institute of Great Britain and Ireland. London, 1993, p. 779-799.
6. Treaty of Lisbon, title XIII. Lisbon, 2009.


# QİDA MƏHSULLARININ QURUDULMASI ÜÇÜN APARATLAR: QURUTMA PROSESİNİN ELMİ TƏMİNATI


**Əliyev Böyükkişi İbrahim**

***dos. t.f.d. Cəfərov Elman Novruz***

***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***

***eboyukkisi@gmail.com***



**Açar sözlər:** qurudulma, nəmin uzaqlaşdırılması prosesi, istiliklə qurutma.

**Ключевые слова:** сушка, процесс удаления влаги, тепловая сушка.

**Keywords:** drying, dehumidification process, heat drying.


Müxtəlif qida sənayesi müəssisələrində emal olunan xam materiallar, bir qayda olaraq müəyyən miqdarda suya – yəni nəmliyə və rütubətə malik olur. Bəzən bu miqdar elə böyük əhəmiyyət kəsb edir ki, hətta xammalın daşınmasını belə çətinləşdirir. Bir çox hazır qida məhsullarının özləri də demək olar ki, həmişə müəyyən həcmdə suya malik olurlar. Tərkibində su olan bir çox qida məhsulları uzun müddət ərzində saxlanılmaq üçün yararsız olurlar, anbarda qısa müddət ərzində saxlanıldıqda belə, onlar korlanıb tullantıya çevrilə bilirlər. Çoxlu miqdarda suya malik olan qida xammallarını bir regiondan digər regiona daşımaq heç də həmişə əlverişli sayılmır. Məhz bu səbəbdən qida məhsullarını, istehsalat tullantılarını, bəzi hallarda isə hətta xammalları müxtəlif üsullarla susuzlaşdırırlar. Belə susuzlaşdırma üsullarına istilik-fiziki, mexaniki və istilik (qurutma) üsulları aiddir[1].

Qurudulma (istilik) – suyun buxarlanma istiliyi ilə əlaqəli olan məhsuldan nəmin uzaqlaşdırılması prosesidir. Nəmin uzaqlaşdırılması prosesi enerjinin sərf olunduğu məhsulun "skelet" i ilə əlaqəsinin azalması ilə müşayiət olunur. Bu cür əlaqələrin enerjisinin dəyəri ilə kimyəvi əlaqə ilə bağlanmış nəm (100 - 120° C-yə qədər qızdırıldıqda nəm cisimlərdən uzaqlaşdırılmır); fiziki-kimyəvi əlaqə ilə bağlanmış nəm (adsorbsiya qüvvələri ilə materialın məsamələrinin daxili səthində saxlanılır) və fiziki-mexaniki əlaqə ilə bağlanmış nəm (məhsulun xarici səthində iri kapilyarlarda yerləşir və kapilyar təzyiqlə tutulur) fərqləndirilir.

Nəmin məhsulla əlaqəsinin təbiəti və enerjisi, onun bu və ya digər maddəni ətraf mühit ilə tarazlıqda saxlaya bilən ümumi miqdarını təyin edir. Taraz nəmin dəyəri nə qədər yüksəkdirsə, ətrafdakı havada bir o qədər çox nəm olur və temperaturu bir o qədər də aşağı olur. Mövcud susuzlaşdırma prinsipləri aqreqat vəziyyətin dəyişdirilməməsi (presləmə, sentrifuqa vasitəsilə tərkib hissələrinə ayırma, separasiya, filtrasiya və s.), aqreqat vəziyyətin dəyişdirilməsi (buxarlanma-buğa verilmə, kondensasiya, sublimasiya, istiliklə qurutma və s.), həmçinin kombinə edilmiş (təzyiqi sərbəst buraxmaqla, çox qızdırılmış buxar

istifadə edərək vakuum sublimasiyalı qurutma, İK-induksiyalı və YT-yüksəktezlikli qızdırma və b.) üsulla nəmin çəkilməsini təmin edir. Bu metodlar kompleks daxili fiziki və kimyəvi əlaqələri olan olan sistem kimi qəbul edilə bilər.

Məhsula istilik vermək üsuluna görə aşağıdakılar fərqləndirilir: konvektiv qurutma (məhsulun qurutma agenti ilə bilavasitə təması), konduktiv (keçirici) qurutma (istilik daşıyıcıdan məhsula ayırıcı arakəsmə vasitəsilə istilik ötürülməsi); vakum-sublimasiyalı qurutma (dondurulmuş məhsulun yüksək vakuum altında buxarlanması); dielektrik qurutma (xammalın elektromaqnit sahəsində qızdırılması) və s.

Nəm qida xammalını susuzlaşdırma mexanizmi şərti olaraq iki mərhələyə bölünür: qurutma zamanı materialın sərhəd boyu qatının səthindən ətraf mühitə suyun buxarlanması baş verir (xarici istilikkütləmübadiləsi) və məhsulun daxilində nəm diffuziya yolu ilə hərəkət edir (daxili istilikkütləmübadiləsi). Qida mühitlərinin qurudulması prosesinin elmi təminatının tam dolğun şərhi A.V.Lykov və Yu.A.Mixaylovanın əsərlərində təqdim edilmişdir. Qurutma nəzəriyyəsində xarici birləşdirilmiş istilikkütlə ötürülməsinin təhlili diferensial hərəkət tənliklərinin və yapışqan sıxılmayan axının davamlılığının birgə nəzərdən keçirilməsinə əsaslanır[2]:

$\partial\bar{\omega}\partial\tau+(\bar{\omega},grad\bar{\omega})=\bar{g}-(1\rho)gradP+v\nabla 2\bar{\omega}$;

$\partial\rho\partial\tau/+div\rho\omega=0$,

hərəkətli quruducu agentdə nəm buxarının konvektiv-diffuziya ötürülməsi

$\partial C\partial\tau/+(\bar{\omega},gradC)=D\nabla 2C$,

istilikdaşıyıcı axınında temperatur sahəsini təsvir edən tənlik

$\partial t\partial\tau/+(\bar{\omega},gradt)=a\nabla 2t$,

burada ω, P, C, t – ümumi statik təzyiqin, nəmin konsentrasiyasının və quruducu agentin axınında temperaturun axtarılan sürət funksiyaları; ρ, v, a, D – qurutma agentindəki buxarın sıxlığı, kinematik özlülük əmsalı, istilik keçiricilik əmsalı və diffuziya əmsalı; t – zaman; g – sərbəstdüşmə təcili; $\nabla 2$ – Laplas operatorudur.

Verilən tənliklər sistemində impuls, kütlə və istinin ötürülməsi proseslərinin qarşılıqlı təsiri kinetik əmsalların ötürmə potensialından asılılığı ilə nəzərə alınır.

Əgər axtarılan funksiyaların lokal qiymətləri ω, P, C və t zamana görə ortalama olaraq, v, D və a-ötürmə əmsalları isə hər biri iki əmsalın: impuls, kütlə və istiliyin molekulyar və burulğanlı ötürülmə əmsallarının toplanmasından ibarət olaraq başa düşülərsə, bu tənliklər yalnız axının laminar rejimdə hərəkəti üçün yox, həm də burulğanlı izotrop axın üçün də doğrudur.

Quruducu agentin axını ilə nəm məhsul səthinin istilik və kütlə ötürülməsinin intensivliyinə dair məlumatlar tənliklər və unikallıq şərtlərindən alınan oxşarlıq rəqəmləri (meyarları) arasındakı əlaqə şəklində ifadə olunur. Sərhəd şərtlərinin əsas hissəsi konvektiv kütlə ötürülməsi şəklində yazılmışdır[2.3]:

$-D(\partial C\partial n/)|\omega=\beta(C|\omega-Cf$

– dəyəri, quruducu agentin axını ilə nəm məhsulun səthinin kütlə mübadiləsinin intensivliyini təyin edən kütlə ötürmə əmsalını $\beta$ ehtiva edir. Quruducu agentdə nəmin konsentrasiyasının qiyməti $C|\omega$ və градиента konsentrasiyanın qradiyenti $(\partial C\partial n/)|\omega$ səthə normal boyunca nəm cismin öz səthində götürülür. $\beta$ əmsalı tələb olunan Nusselt ədədinə daxil edilmişdir:

$Num=\beta dD/$,

Nusselt kəmiyyəti müəyyənləşdirici Reynolds ($Re = \omega d/v$), Prandtl ($Pr = v/a$) ədədindən və b. asılıdır.

Qida məhsulu içərisində olan qeyri-stasionar nəmlik və temperatur sahələri nəm və istilik qorunmasının diferensial tənliklər sistemi ilə müəyyən edilir [3].

$\partial u\partial\tau=/am(\nabla 2u+\delta\nabla 2T)$; $\partial T\partial\tau/=a\nabla 2T+\varepsilon(rc/)(\partial u\partial\tau/)$.

burada u, T – materialın nəmlik miqdarı və temperaturu; $am$ – potensial keçiricilik əmsalı; $\delta$ – nəmin ötürülməsinin temperatur əmsalı; ε – faza çevrilmə kriteriyası; r – buxarlanma istiliyi; c – istilik tutumu.

Qida xammalının qurudulması prosesləri, prosesin gedişatını təyin edən və bir-biri ilə qarşılıqlı əlaqədə olan çox sayda parametr ilə xarakterizə olunur, belə ki, bir parametrin dəyişdirilməsi digər parametrlərin qeyri-xətti dəyişikliyinə səbəb olur.

Qurutma prosesinin riyazi modelinin quruluşu ilk öncə hidrodinamik parametrlərlə müəyyən edilir və özünü məhsulun və qaz hissəciklərinin quruducu aparatda qalma müddətinin paylanması xarakterində biruzə verir. Ən çox yayılmış hidrodinamik modellər bunlardır: ideal qarışdırma modeli, hücrə modeli, mükəmməl sıxışdırıb-çıxarma modeli, diffuziya modeli və s.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Mustafayev X. S. Qida texnologiyasının prosesləri və aparatları. – Bakı.: "Təhsil" NPM, 2006. – 454 s.
2. Панфилова В.А., Груданова В.Я. — Минск: книга 2, том 2, 2007. Машины и аппараты пищевых производств.
3. Геккер И. Е. Процессы и аппараты пищевых производств. – М.: Госторгиздат, 1963.


# MİRZƏ ƏLƏKBƏR SABİRİN YARADICILIĞINDA İSTİFADƏ ETDİYİ TƏQLİDİ SÖZLƏRİN DİLİMİZİN İNKİŞAFINDAKI ROLU


**Əliyev Emil**
***ADPU-nun Şamaxı filialı***
***Elmi rəhbərin adı və soyadı: Sevinc Baxşiyeva***



**Açar sözlər:** təqlid, kəc, üsuli-cədid, hophopnamə
**Key words:** imitation, late, modern method, hophopname
**Ключевые слова:** подражание, поздно, современный метод, hophopname


Azərbaycan dili çox qədim tarixə malikdir. Dilimiz müxtəlif dövrlərdə müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Bugünkü müasir dilimiz çox çətinliklərə, təqiblərə məruz qalmış, lakin buna baxmayaraq o bütün bu çətinlikləri aşmış və müstəqil Azərbaycan Respublikasının müstəqil dili olaraq bütün dünya dilləri sırasında özünəməxsus mövqe tutmuşdur. Dilimizin inkişafında bir çox yazıçı və şairlərimiz əvəzsiz töhfələr vermişlər. Bir dilin inkişafında müxtəlif amillərin rolu vardır. Eləcə də bizim dilimizin inkişafında bu amillərdən biri də şair və yazıçılarımızın öz əsərlərində, şeirlərində sevə-sevə istifadə etdikləri təqlidi sözlərdir. Təqlidi sözlər söz yaradıcılığında iştirak etməklə əsas nitq hissələrinə yaxın olsalar da, müəyyən təbiət səslərinin bəzən də görünüşün təqlid olunması bunlara xüsusi nitq hissəsi səciyyəsi qazandırır. Təqlidi sözləri (yamsılamaları) əsas nitq hissəsinə yaxınlaşdıran əlamətlər bunlardır:

a) Təqlidi sözlərin (yamsılamaların) əsas nitq hissəsi kimi müstəqil mənası vardır;

b) Təqlidi sözlərin (yamsılamaların) suala cavab verməsi və cümlə üzvü olması da onu əsas nitq hissələrinə yaxınlaşdırır;

c) Təqlidi sözlər (yamsılamalar) söz yaradıcılığında iştirak edir, morfoloji əlamətlər üzrə dəyişir. Bu əlamətinə görə də əsas nitq hissələrinə bənzəyir. [2, 255]

Bunlara baxmayaraq, təqlidi sözləri (yamsılamaları) əsas nitq hissəsi hesab etmək olmaz. Ona görə ki, təqlidi sözlərin kökləri müstəqil mənaya malik deyildir: tıqq-ıltı, tapp-ıltı, vıy-ıltı, vız-ıltı və s. Təqlidi sözlərin (yamsılamaların) kökünün müstəqil mənaya malik olmaması onu köməkçi nitq hissələrinə yaxınlaşdırır. Lakin köməkçi nitq hissələrindən qoşmalar qoşulur, bağlayıcılar sözləri, söz birləşmələri və cümlələri bir-birinə bağlayır, ədatlar mənanı qüvvətləndirir. Bu əlamətlər isə təqlidi sözlərdə yoxdur. Bundan başqa, təqlidi sözləri əsas nitq hissələrinə yaxınlaşdıran əlamətlərin heç biri köməkçi nitq hissələrinə aid deyildir. Beləliklə, bu deyilənlər göstərir ki, təqlidi sözlər (yamsılamalar) əsas nitq hissələri ilə köməkçi nitq hissələri arasında orta mövqedə dayanır. Təqlidi sözlərə misal olaraq tıqqılqı, tıppıltı və.s. göstərmək olar. [3, 312]

Şair Mirzə Ələkbər Sabir ilk dəfə təqlidi sözlərdən öz şeirlərində istifadə edərək təqlidi sözləri ədəbiyyatımıza gətirmişdir. O, 1874-cü ildə Bakı quberniya məclisinin Şamaxıdakı ruhani məktəbində –

maarifpərvər şair Seyid Əzim Şirvaninin yeni üsullu ( üsuli-cədid) məktəbində oxumuşdur. Şair elə məhz həmin dövrdən etibarən tərcümələrə başlamış, həm də ana dilimizin tədqiqinə maraq göstərmişdir. 1908-ci il aprelin 11-də Bakı quberniya ruhani idarəsində imtahan verən şair mayın 7-də Tiflisə gedib, Qafqaz Şeyxülislamı vəzifəsindən ana dili və şəriət müəllimi diplomu alır. Lakin Qoridən aldığı bir məktubdan sonra o, bir müddət Şamaxı məktəblərindən birində köməkçi müəllim işləyir. Bu andan etibarən artıq şair dilimizin inkişafı istiqamətində əsaslı addımlar atmağa başlayır.

Həmin ilin sentyabr ayında Sabir "Ümid" məktəbini açmağa müvəffəq olur. Bu məktəbdə 60-a qədər şagird oxuyurdu. Yeni üsulda olan başqa məktəblərdəki kimi burada da şagirdlər skamyada oturur, əyani vəsaitlərdən istifadə edir, ekskursiyaya çıxırdılar. Məktəbdə fars dili, hesab, coğrafiya və təbiətə dair məlumat verilir, Quran və şəriət dərsləri ilə yanaşı ana dili dərsləri də dövrünə görə mükəmməl tədris edilirdi.

O bir-birindən rəngarəng, gözəl əsərləri ilə Azərbaycan dilini çox yüksək zirvələrə qaldırmışdır. Hal-hazırda M.Ə.Sabirin yaratdığı sənət nümunələri bütün dünya ölkələrində sevilir, şeirləri əlbəəl gəzərək oxunur. M.Ə.Sabir əsərlərinin çoxunda təqlidi sözlərdən geniş şəkildə istifadə edərək şeirlərinə axıcı ruh gətirmişdir. Sabirin dili əlvan, axıcı, səlis, təmiz və möhtəşəm idi. Onun ən məşhur əsərləri “Hophopnamə" də toplanmışdır. Və Şair bu ölməz əsərlərində təqlidi sözlərin ifadə imkanlarından çox gözəl şəkildə bəhrələnmişdir. İndi isə “Hophopnamə"dən bir neçə şeir nümunəsi verək və orada istifadə edilmiş təqlidi sözlərə nəzər yetirək. Onun “Leyli-Məcnun” şeirində biz təqlidi sözlərə nəzər yetirək.

Mırt-mırt oxuyub mırıldayırsan,
Qarğa kimi hey qırıldayırsan! [1.111]

Burada mırıldayırsan və qırıldayırsan sözləri təqlidi sözlərdir. Və yaxud da onun başqa şeirlərinə də baxaq Sabirin “Rədd ol qapıdan, ağlama zar-zar dilənçi!” şeirində

Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi!
Vaqqıldama bayquş kimi, idbar dilənçi! [1.264]

Burada işlənmiş vaqqıldama sözü təqlidi sözdür.

“Vay, vay! nə yaman müşkülə düşdü işim, Allah!” şeirində verilmiş təqlidi sözlərə nəzər yetirək.

Bir ildi, bir az çox da olur, yoxdu damağım,
Nə çatmır əlim bir işə, nə getmir ayağım,
Hərdən yeni bir söz danışır oğlan – uşağım,
Taqqıldayır, Allah da şahiddi, qulağım. [1.94]

Gördüyümüz kimi dahi şairimizin bu nümunədə də işlətdiyi taqqıldayır sözü təqlidi sözdür.

Mirzə Ələkbər Sabirin “Iki cavablara bir cavab" şeirinə fikir versək burada da böyük ustadın təqlidi sözlərdən yerli-yerində nece də gözəl şəkildə istifadə etdiyini görmüş olarıq.

Loğalaşıb, a görməmiş, çox da belə fırıldama!
Tərbiyəsiz uşaq kimi boş-boşuna hırıldama!
Baş-qulağın düzəlməyib, çox da basıb-guruldama!
Dinmə, danışma, yat balam, sən deyən olmayıb hələ! [1.133]

Bu nümunədə də fırıldama, hırıldama,guruldama sözləri təqlidi sözlərdir. Sabirin “Bakı pəhlivanlarına” adlı şeirində istifadə olunmuş təqlidi sözlərə nəzər yetirək.

Qoy börkünü kəc qaşının üstündə, fırılda,
Kəndin kimi bir lotiyi-meydanını görcək. [1.69]

Bu şeirdə fırılda sözü təqlidi sözdür. Nümunədən də gördüyümüz kimi fırılda sözü təqlidi sözdür, bu söz “ılda” şəkilçisi vasitəsilə yaranıb və bu sözün kökü ayrılıqda müstəqli məna ifadə etmir.

Böyük şairin “Hophopnamədən” başqa bir şeiri olan “ Gavur qızı" na baxaq,

Bundan yana dönüb itə mır-mır mırıldayır,
Qoymur olam evimdə də rahət, gavur qızı! [1.177]

Burada da mırıldayır sözü təqlidi sözdür və böyük şair bu sözü mükəmməl şəkildə yerli-yerində işlətmişdir. Ümumiyyətlə, bundan başqa Mirzə Ələkbər Sabirin azərbaycan dilinin inkişafında özünəməxsus, olduqca böyük rolu vardır. Onun çoxlu məqalələri, dərc etdirdiyi jurnallar və,s dilimizin inkişafı sahəsindəki əməyi əvəzolunmazdır.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Mirzə Ələkbər Sabir. Hophopnamə. İki Cilddə. I Cild. "Şərq-Qərb". Bakı-2004
2. Xəlilov B. Müasir Azərbaycan dili. Bakı-2016.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Bakı-2010.


## DÖVLƏT SEKTORUNDA AUDİTİN SƏMƏRƏLİ TƏŞKİLİ


**Əmirov Mirsəbuhi**
***Qərb Kaspi Universiteti***
***Elmi rəhbər: Dos.Hacıyeva G.S.***
***amirovmirsabuhi@gmail.com***


«Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edir». İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti

Məlumdur ki, «audit» sözü bir anlayış ifadə etmir. Onun mahiyyət və məzmunu yalnız idarəetmə ilə qarşılıqlı əlaqədə, xüsusilə də iqtisadiyyatın idarə edilməsi prosesində açıla bilər. Mövcud ənənəyə görə, idarəetmə funksiyası idarəetmə sisteminin iki istiqaməti – obyekti və subyekti üzrə müəyyən edilir. İdarəetmə obyekti dedikdə, istehsalın elmi-texniki hazırlıq səviyyəsi, dövlət sektorunun icra orqanları, dövlət sektorunun icraorqanlarının nəznində fəaliyyət göstərən qurumlar, istehsalın əsas və xidmətedici obyektləri, məhsulun keyfiyyəti, əmək və əmək haqqı, kadr, maliyyəkredit və digər sahələrin idarə edilməsi başa düşülür.

Auditin idarəetmə funksiyasının böyük bir hissəsi onun nəzarət və yoxlama ilə bağlı fəaliyyətində açıla bilər. Belə ki, bazar iqtisadiyyatı münasibətləri və azad iqtisadi şəraitdə auditin müstəqil ekspert və yoxlayıcı keyfiyyətinə malik olmasına baxmayaraq o, təsərrüfat proseslərinə nəzarət etməklə idarəetmənin başlıca prinsiplərindən biri olan əks əlaqənin təzahür forması kimi çıxış edir və idarə aparatının bütün tədbirlərinin səmərəliliyindən xəbər verir.

Audit təsərrüfat proqramının icrasının təşkilini öyrənir və bu proqramdakı tədbirlərin icrası üzərində təsərrüfatdaxili nəzarət sistemini qiymətləndirir, bütün proseslərin mənfi və müsbət kənarlaşmalarını yekunlaşdırır və lazım gəldikdə müvafiq qaydada hazırlanmış tədbirlər vasitəsilə proseslərin arzu olunan istiqamətə yönəlməsinə təsir göstərir. Beləliklə, audit dövlət sektorunun icra orqanında səlahiyyətli şəxslərə real məlumat təqdim etməklə verilən qərarların, sərəncamların yerinə yetirilməsi haqqında əlaqə yaradır və birbaşa idarəetmə funksiyası mövqeyindən çıxış edir.

Sənədlərin öyrənilməsi, istehsalat və maliyyə fəaliyyətinin yoxlanılması texnikasının iki forması mövcuddur:

Birinci – ibtidaidən aliyə doğru, yəni ilkin sənədlərdən əməliyyat prosesinə, analitik göstəricilərdən sintetik göstəricilərə, uçot registrlərinin məlumatlarından hesabat və balans məlumatlarına doğru hərəkətdir.

İkinci – alidən ibtidaiyə doğru, yəni sintetik və hesabat göstəricilərindən uçot registrləri və analitik məlumatlarına, əməliyyat proseslərindən ilkin sənədlərə doğru hərəkətdir.

Audit yoxlama-ekspertizasında sənədlərin tədqiqinin birinci formasından təcrübədə çox geniş istifadə olunur. Lakin bu forma ikinciyə nisbətən səmərəsiz və az nəticəlidir. Çünki auditor, yəni yoxlama ilə məşğul olan şəxs onun üçün ayrılmış vaxtı xırda, eyni və oxşar təsərrüfat əməliyyatlarının, məsələn, təhtəlhesab şəxslərlə hesablaşmalar, azqiymətli tez xarab olan əşyaların hərəkəti və sair bu kimi əməliyyatların yoxlanmasına sərf edir.

Belə yoxlama zamanı bir çox hallarda ən vacib məsələlər, yəni mənfəətin əmələ gəlməsi, bölüşdürülməsi, istifadəsi, ona təsir göstərən amillər, resurslardan istifadə edilməsinin qiymətləndirilməsi və sair bu kimi işlər çox zəif tədqiq olunur. Bunun bir neçə səbəbi vardır. Əsas səbəb isə audit işi ilə məşğul

olan mütəxəssisin bilik və bacarıq səviyyəsinin aşağı olmasıdır. Yüksək bilik və bacarığa malik olmayan yoxlayıcı hesabat məlumatlarını, sintetik göstəriciləri tədqiq edə bilmir, hesabat və sintetik göstəricilər üzrə kənarlaşmaları analitik məlumatlarla əlaqələndirməyi bacarmır. Nəticədə, yoxlama arayışı mənasız, biri digərini inkar edən, ziddiyyətli məlumatlarla doldurulur ki, bunun da əsasında maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün hazırlanmış tədbirlərin təsiri çox zəif olur.

Yoxlama materialını daha tam şəkildə ümumiləşdirmək üçün ayrı-ayrı başlıqlar verməklə arayışın modelini əvvəlcədən təqribi bölmələr üzrə hazırlamaq və yoxlamanın gedişində onlarda müəyyən edilmiş çatışmamazlıqları və pozuntuları sistemləşdirmək lazımdır. Yoxlamanın sonunda isə arayışın bütün müstəqil bölmələri lazımi ardıcıllıqla birləşdirilir, məntiqi nöqteyi-nəzərdən və mətn əlaqəliyi baxımından yenidən nəzərdən keçirilir, yoxlamanın nəticələri üzrə xülasə kimi təqdim edilir. Yoxlamanın gedişində müəssisənin fəaliyyətində aşkara çıxarılmış çatışmamazlıqların əvvəlcədən hazırlanmış arayışın bölmələrində əks etdirilməsi audit materialının rəsmiləşdirilməsinin sürətlənməsinə əhəmiyyətli dərəcədə təsir edə bilər. Yoxlama nəticələrinin ümumiləşməsinin daha optimal variantı da vardır. Belə ki, audit yoxlama-ekspertiza arayışı ayrı-ayrı hesablamaların birləşdirilməsi yolu ilə deyil, bu arayışların analitik təhlili əsasında tərtib edilə bilər. Belə olduqda auditin ümumiləşdirilmiş xülasəsində təsərrüfat maliyyə fəaliyyətinin təhlili nəticəsində məntiqi uyğunluq üçün müəyyən şərait yaranır. Yoxlama materialının ümumiləşdirilməsi üçün sənədlərin öyrənilməsi metodikası, müəssisənin təsərrüfat maliyyə fəaliyyətini xarakterizə edən iqtisadi göstəricilərin təhlili və onların aparılan qeydlərlə əlaqələndirilməsini tələb edir.

Auditin nəticələrinin ümumiləşdirilməsində əsas yeri icraorqanının fəaliyyətinin sintetik göstəriciləri tutur. Bu prosesdə lokal büdcə, lokal büdcədən maliyyənin təyinatları, təyinatların səmərəliliyi, təyinatların reallığı, dövlət sifarişi və müqavilə öhdəlikləri, məsrəflər və sair bu kimi göstəricilər üzrə tapşırıqların yerinə yetirilməsinin təhlili mühüm yer tutmalıdır. Bu göstəricilərin təhlili ayrı-ayrı amillərin öyrənilməsi şəklində deyil, kompleks qiymətləndirmə formasında aparılmalıdır. Onların qanunauyğunluqlarının nəinki nisbi, eləcə də mütləq kənarlaşmalarını təyin etmək lazımdır. Təhlilin və istehsalın quruluşunun nəzərə alınması nəticəsində arayışın sonrakı bölmələrinin əsas məqsədi və vəzifələri formalaşır. Bu bölmələrdə əsas məqsəd müəyyən edilmiş kənarlaşmaların səbəbləri və onların nəticələrini şərh etmək, baş vermiş əməliyyatların səbəblərini araşdırmaq və onların qanuniliyi barədə nəticə çıxarmaqdır. Audit yoxlama ekspertizası nəticəsində müəyyən edilmiş kənarlaşmalar bölmələr üzrə öz məntiqi qiymətini almalıdır. Bu üsulun tətbiqi audit nəticələrini rəsmiləşdirən arayışın həcmini də minimuma endirir. Auditin nəticələrinin bu qaydada ümumiləşdirilməsi müəyyən bir məqsəd üzrə tədbirin işlənib hazırlanmasına imkan verir.

## ACCOR QRUPDA MARKETİNQ STRATEGİYASI VƏ PANDEMİYANIN TƏSİRLƏRİNİN TƏHLİLİ

**Əsədli Elnur**
***BDU, Magistr***
***Elmi rəhbər: dosent Dərgahov V.S.***

**Açar sözlər:** otel, marketinq, Accor, covid 19, sadiqlik proqramı, rebrendiq, RMD konsaltinq.
**Key words:** Hotel, marketing, Accor, covid 19, Loyalty program,rebranding, RMD consulting.
**Ключевые слова:** отель, маркетинг, Accor, Covid-19, Программа лояльности, ребрендинг, RMD консалтинг.

Otelərdə marketinq kommunikasiyalarının yaradılması onun inkişafın təmin edən amillərə əsaslanır. Otel xidmətlərinin maddi istehsaldan fərqləndirən əsas əlamətdə marketinqin birbaşa təşkili ilə bağlıdır. Lakin xatırladırıq ki, marketinq kompleksinin 4 klassik elementinə (məhsul, xidmət, yer, irəlilətmə) 5-cini, - personalı əlavə etmək daha məqsədəuyğundur. Çünki otel xidmətinin göstərilməsində yaxşı savadlı və bu

sahədə özünü təsdiqləmiş personalın rolu böyükdür. Maddi tərəfi isə (interyerlərin vəziyyəti, binanın və ərazinin xarici görünüşü, mebel, avadanlıq və s.) sanatoriya-kurort məhsulun tərkib və ayrılmaz hissəsidir.

Accor qrupda marketinqinin vəziyyətindən asılı olaraq əsas prinsiplərindən biri geriyə əlaqənin olmasıdır. Bazarın təsərrüfat qərarının qəbulu ilə yanaşı rekreasiya təşkilatları istehlakçılara və rəqiblərə bütün mümkün metod və vasitələrlə fəal təsir edir. Accor otellərin bazarda müvəffəqiyyətli fəaliyyəti üçün zəmanət aşağıdakılardır[3]:

- tələbat, rəqiblər, mühitin daim tədqiq olunması;
- turistlərə tələbata uyğun göstərilən xidmət səviyyəsinin monitorinqi;
- bazarın məqsədli seqmentləri və onlara bütün kompleksin təsirinin savadlı şəkildə müəyyən edilməsi;
- qiymətəmələgəlmədə ritmilik;
- otel məhsulunun düşünülərək, əsaslı şəkildə irəlilədilməsi.

Accor qrupda marketinq strategiyasının aşağıdakı üstünlüklərdən yararlanır[6]:

- Analitik funksiya (bazarın, istehlakçının, rəqiblərin, məhsulun və bazarın daxili mühitinin öyrənilməsi);
- İstehsal funksiyası (otelin məhsulunun təkmilləşdirilməsi, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, xidmətin keyfiyyəti və servsin səviyyəsinin yüksəldilməsi);
- Qiymət qoyma;
- Satış (otel xidmətlərinin satışının təşkili, tələbatın formalaşması və satışın stimullaşdırılması);
- Bazara məhsulun irəlilləndirilməsi;
- İdarəetmə və nəzarət (otelin fəaliyyətinin strateji və operativ planlaşdırılması, müəssisədaxili kommunikativ siyasət, marketinq planlarının yerinə yetirilməsinə nəzarət və s.).

Müasir techndogy istifadəsinin markaları daha güclü göstərən ən tərəfsiz CSFS-nin cne kimi qəbul edildiyini bildirdi. Rəqəmsal inqilab Accor rəhbərləri tərəfindən çox əhəmiyyətli hesab olunur. Acoor, rəqəmsal strategiya planını göstərmək üçün 30 Oktyabr 2014-cü il tarixində Crder-də "Rəqəmsal Qonaqpərvərlikdə Liderlik" adlanan ilk rəqəmsal çevrilmə layihəsini başlataraq ilk dgital gününü təşkil etdi. Şirkətin rəqəmsal marketinq üçün 225 milyon avro vəsait ayrıldı. Bu proqnozlaşdırma mərhələsindəki innovasiyalardan biri də Mobil İlk Mobil şirkətinin veb satışlarına verdiyi töhfənin 12 % olması idi[9]. Bu vəziyyət mobil veb saytları çox müraciət edənlər olamas, yeniliklərin tətbiqin əks etdirirdi. Mobil tətbiqetmə uzaqdan sifariş etməklə yanaşı oteldəki rəqəmsal xidmətlərdən də faydalana bilir. Mobil ilk tətbiqetmə həm şirkətdə, həm də Accor ilə qarşılıqlı əlaqədə olmaları lazım olduqda qonaqlar üçün əsas mərkəz olacaqdır. Accor ayrıca satın aldığı e-ticarət komandanlığı Wipola Wipdo yeni tətbiq hesab edilir. Qonaqların gedəcəyi istəkləri ilə əlaqəli bir innovasiya yaşamağı asanlaşdıran səyahət sifarişlərini idarə etmək mümkün olur.

Accor loyallıq proqramı: Le ClubAccor Hotels Sadiqlik proqramları, bir otel otağını boklayarkən qonaqlar üçün çətinlik yaradır. Hər on şirkətindən gələn beş qonaqdan ikisi, sədaqət proqramının cəlbediciliyi səbəbi ilə bu otele sifariş verməyi üstün tutur. Sədaqətin daha çox otaq sahəsini əhtələməsi, korporativ və hökumət qonaqları uzaq dəyəri və uyğunluğu bağladığı zaman tənəzzül markalı xüsusiyyətləri üçün daha sabit bir iş adamı təmin etdir. Le Club Accor Hotels, qrupun ən işlək və müştəri cəlb edən innovativ lahiyəsidir. Bu sədaqət proqramının köməyi ilə Accor qonaqları ilə uzunmüddətli münasibət qurur. Bu proqramda 2700 otel iştirak edir. Üzvlər Accor markalarında qaldıqları zaman Accor ilə strateji tərəfdaşlığına sahizəştlə yararlana bilir. Bu proqramda 20 milyon üzv və 12 min karta sahib üzvü istifadəsinə şərait yaradır[2].

Görünməmiş qlobal sağlamlıq böhranı fonunda RevPAR 2020-ci ildə 62.0 % azaldı. Bu nəzərə çarpacaq azalma Covid-19 virusunun dünya miqyasında yayılması ilə əlaqəli sənayedəki dramatik pisləşməni, həmçinin kilidləmə tədbirləri və sərhədlərin bağlanmasını əks etdirir. Buna baxmayaraq, ikinci rübdə görülən ən aşağı nöqtədən sonra Avropada güclü bir yay mövsümü ilə üçüncü rübdə bütün bölgələrdə əhəmiyyətli bir bərpa əlamətləri gördük (RevPAR, II rübdə 88,2% azalıb). Son dörd rübdə epidemiyanın yenidən başlamasına cavab olaraq Avropa hökumətləri tərəfindən tətbiq olunan yeni məhdudiyyətlər, yayda bərpa olunmağı dayandırdı. Konsolidə RevPAR dördüncü rübdə% 66,2, Avropadakı RevPAR isə% 73,1 azaldı, tədricən bərpa digər bölgələrdə davam etdi. 2020-ci ilin tamamında Accor qrup markalarının otel

sahiblərinə müraciətini təsdiqləyən 205 otel, 28.942 yerlik otelə sahib oldu. 2020-ci ilin sonunda qrupun 753.344 oteli (5.139 otel) otel portfeli və 12.000 otağı (1.209 oteli) olan boru sistemi bütüvlükdə 73%-ü enmə ilə müşahidə olundu. 31 dekabr 2020-ci il tarixinə Accor qrup otellərinin 82-%-i, yəni 4.000-dən çoxu azalma ilə yeni ilə daxil oldu.[7]

ACCOR qrupda pandemiya dövründə geriləmənin regionlar üzrə göstəriciləri. Cədvəl:1.

| | | | |
|---|---|---|---|
| Asiya-Sakit okean | 214 | 76 | 63,8 |
| Yaxın Şərq və Afrika | 107 | 29 | 74,6 |
| Şimali və Mərkəzi Amerika, Karib hövzəsi | 132 | 37 | 72,0 |
| Cənubi Amerika | 49 | 15 | 65,3 |
| Cəmi | 1026 | 292 | 71,4 |

Vahid gəlirləin proqnozlaşdırlmasında bütün il ərzində ümumilikdə 62.0%, ikinci rübdə isə 64.5% azalma müşahidə edilib. M&F gəliri, Avropadakı kimi bir şəkildə 74.3 % nisbətində azaldı və bu, RevPAR-da ümumiyyətlə bütün seqmentlər üzrə ardıcıl olaraq 63.3 % azalma göstərdi. Fransa, RevPAR, 2020-ci ilin tamamında oxşar bir şəkildə 57,6 % azaldı. Bölgə şəhərləri tərəfindən idarə olunan ümidverici üçüncü rübdə sonra (RevPAR 2020-də 49% azalaraq) Paris və Paris bölgəsi ilə müqayisədə (RevPAR 68,9 aşağı) RevPAR bərpası dördüncü rübdə ikinci kilidləmə ilə dayandırıldı. Xarici qonaq çatışmazlığı paytaxt şəhərinə təsirsiz hala gəlməyə davam edir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. "Accor opens first Hotel in the UK at London St Pancras" Hospitalitynet.org. 14 September 2012. Retrieved 30 September 2017, 173 p.
2. "Accor continues expansion in asia Pasific with the Debut" Traveldailynews.asia 5 December 2012 Retrieved 30 September 2017, 56 p.
3. "Accor Unveils Global Responsitioning Strategy" Hospitalitynet.org. 28 May 2013 Retrieved 30 september 2017, 47 p
4. "AccorHotels Introduces North America's". Hotel-online.com. 6 November 2015. Retrieved 30 September 2017, 73 p
5. Peter Ruddick ( 29 may 2018). "Accor targets". Bighospitality.co.uk, Retrieved 30 September 2017, 268p
6. Jackues Neher "Accor is gambing on U.S. Motels" Nytimes.com. Retrieved 30 September 2017,124p
7. http://www.Accor opens report/…/2020
8. http://www.Accor hotel.com/pdfs/…/2020
9. http://www.Accor.com/.../pdfs/.../2016


## XİDMƏT MÜƏSSİSƏLƏRİNDƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ BARƏDƏ İQTİSADİ MAHİYYƏTİ

**Əsədzadə Cavidan Qeyrət oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Magistrant*

**ABSTRAKT**

Təşkilatın hər hansı bir əsas fəaliyyəti (istehsal, vasitəçi, ticarət və s.) Həyata keçirməsi üçün vəsait lazımdır. Təşkilatın vəsaiti hazır məhsulların, malların satışından, xidmətlərin göstərilməsindən və digər xidmətlərdən, həmçinin qiymətli kağızlarla əməliyyatlardan daxilolmalar şəklində və s.Təşkilatlar əsas fəaliyyətlərin inkişafına, maddi sərvətlərin alınmasına, işçilərin mükafatlandırılmasına pul xərcləyir; uzunmüddətli aktivlərə (sənaye və mədəniyyət obyektlərinin tikintisi, maşın, traktor və digər əsas fondların alınması, çoxillik əkinlərin salınması və böyüməsi xərcləri və s.) investisiyalar qoymaq.

**Açar sözlər:** pul vəsaitləri, xidmət müəssisələri, nağd pul axını, investisiya, nağdsız ödənişlər.

**РЕЗЮМЕ**

**ЭКОНОМИЧЕСКАЯ ПРИРОДА ДЕНЕЖНЫХ ПОТОКОВ НА ОБСЛУЖИВАЮЩИХ ПРЕДПРИЯТИЯХ**

Основой средств предприятия являются хозяйственные отношения предприятия с различными организациями и учреждениями, а также экономические отношения, связанные с выполнением работ, услуг и других торговых операций. Финансовое положение предприятия - это экономическая категория, которая отражает состояние капитала в процессе оборота и способность предприятия развиваться в определенный момент. Важнейшим аспектом финансового состояния предприятий является формирование и использование различных денежных средств.

**Ключевые слова:** наличные деньги, предприятия сферы услуг, денежный поток, инвестиции, безналичные расчеты.

**SUMMARY**

**THE ECONOMIC NATURE OF CASH FLOWS IN SERVICE ENTERPRISES**

The basis of the enterprise's funds is the economic relations of the enterprise with various organizations and institutions and economic relations related to the implementation of works, services and other trade operations. An entity's financial position is an economic category that reflects the state of capital in the turnover process and the ability of the business entity to develop itself at a particular time. The most important aspect of the financial condition of enterprises is the formation and use of various monetary funds.

**Keywords:** cash, service enterprises, cash flow, investment, non-cash payments.

**Giriş.** Pul fondları cəmiyyətin iqtisadi fəaliyyətinin, müxtəlif iştirakçıları arasındakı münasibətlərin və çoxalma prosesinin əlaqələrinin ən aktiv elementi və ayrılmaz hissəsi kimi xidmət edir. Pulun mahiyyəti onların aşağıdakı proseslərdə iştirakı ilə xarakterizə olunur:

a) müxtəlif növ sosial münasibətlərin həyata keçirilməsi;

b) daşınmaz əmlak, torpaq sahələrinin əldə edilməsində ümumi milli məhsulun bölüşdürülməsi;

c) malların dəyərini ifadə edən qiymətlərin təyin edilməsi.

Ayrıca, pul, mal, daşınmaz əmlak, sənət əsərləri, zərgərlik və s.

Müasir şəraitdə nağdsız dövriyyədə olan əskinasların və pulların öz dəyəri yoxdur, lakin mübadilə dəyəri kimi istifadə etmək imkanı qalır. Bu onu göstərir. pulun bir maldan getdikcə daha çox fərqləndiyini və onlara bir mala bənzərlik verən bəzi xüsusiyyətlərinin qorunub saxlanılması ilə müstəqil bir iqtisadi kateqoriyaya çevrildiyini.

3. Dövlət sərhədinin buraxılış məntəqələrində rejim isə sərhəd qoşunları və gömrük orqanları tərəfindən təmin edilən sərhəddən keçən hava, dəniz, dəmir yolu və başqa nəqliyyat əlaqəsinin həyata keçirilməsi ilə bağlıdır.

Bir sıra ingilis dilli ölkələrin təcrübəsinə müraciət etsək, görə bilərik ki, fövqəladə vəziyyət anlayışı bizim qanunvericilikdən fərqli iki mənada istifadə edilir: fövqəladə vəziyyət (state of emergency) və müstəsna vəziyyət (state of exception).

Hər iki vəziyyətin müəyyən hüquqi təsirləri vardır. Sözügedən ölkələrin tədqiqatçıları bu iki rejimin əsas təsirlərini bir tərəfdən qanunsuzluğun leqallaşdırılması mexanizmi olmasında, digər tərəfdən insan hüquqlarının pozulmasının onların əsas mahiyyətini təşkil etməsində görürdü. Bu fikirlər aşağıdakılarda öz əksini tapırdı.

Müstəsna və fövqəladə vəziyyət qanunsuzluğun leqallaşdırılması mexanizmləri kimi:

Avstriyalı hüquqşünas Hans Kelsen qeyd edirdi ki, cəmiyyətdəki hüquqi nizam məhz hüquq normalarının iyerarxiyasında öz əksini tapır. Bütün hüquqi normalar nəticədə üstün bir normadan qaynaqlanmalıdır. Ancaq bu iyerarxiya müstəsna və fövqəladə vəziyyət tətbiq olunduğu zaman pozulur. Fransız filosofu Jacques Derridanın “ Qanun qüvvəsi: Hüququn mistik təməli nəzəriyyəsi” adlı kitabında da qanun qüvvəsinin məhz qanunun toxunulmaz və müqəddəs hesab olunduğu anlamına gəldiyindən bəhs edilirdi. Fövqəladə və müstəsna vəziyyət kontekstində isə hər şey, hər bir hərəkət qanun qüvvəsini ala bilər. Bir fərman və ya bir qərar onların ziddiyyət təşkil etdiyi qanuna uyğunlaşdırılmasına ehtiyac duyulmadan qanunvericiliklə yaradılmış bir qurumu ləğv edə bilər.

Fransada qanunsuzluğun leqallaşdırılması mexanizmləri 20-ci əsrin əvvəllərindən müşahidə olunurdu. Həmin dövrlərdə hər şey idarəetmə üçün idi, insanlar üçün demək olar ki müdafiə mexanizmləri yox idi. Hakimlərin isə şikayət edildiyi hallarda rolları iddiaçılara etməli olduqlarının sadəcə hüquqlarını həmin vəziyyətə qurban verməkdən başqa bir şey olmadığını xatırlatmaqdan ibarət idi.

Məsələn, Heyriès işi buna bariz nümunədir. Fransanın 22 Aprel 1905-ci il tarixli qanununun 65-ci maddəsinə görə, hər hansı bir məmur şəxsə qarşı tətbiq olunan sanksiyadan əvvəl onu məlumatlandırmalıdır. Bu qanunun tətbiqinin dayandırılması üçün 10 sentyabr 1914-cü il tarixli fərman qüvvəyə mindi. Bu vəziyyətin qurbanı olan Heyrièsin məhkəməyə müraciət etməsinə baxmayaraq fərmanın bir qanunu, parlament aktını təxirə saldığına görə Heyrièsin müraciəti cavabsız qaldı. Məhkəmənin gəldiyi nəticəyə görə müstəsna hallarda idarəetmə orqanlarının insan hüquqlarını məhdudlaşdırmaq və onlardan geriçəkilmək də daxil olmaqla bütün hüquqları vardır.

Həmin dövrdə Fransada məhkəmələrin gəldiyi ümumi nəticə bundan ibarət idi ki, zərurətin (burada fövqəladə və müstəsna vəziyyət) qanunu yoxdur və o öz hüquqi əsasını özü yaradır.

Müstəsna və fövqəladə vəziyyətin digər zəif tərəfləri də vardır. Əsas zəiflik ondadır ki, zərurət hüquq mənbəyi deyil.

Zərurət hüquq mənbəyi deyil.

"Necessitas legem non habet." Hüquqi qaydaya müstəsna və ya fövqəladə rejimləri daxil etməyə çalışanlar üçün bu latın ifadəsi "zərurətin heç bir qanunu yoxdur" mənasını verir. Bu konsepsiyanın tərəfdarlarının sırasında Santi Romano da var idi.

Məsələn, onun sözlərinə görə, zərurət yarandığı zaman qaydalara riayət etmək məcburiyyəti yoxdur. Bu vəziyyətdə zərurət qanunun pozulması üçün avtomatik bir azad etmə mexanizmini yaratmış olur. Beləliklə, zərurət, çərçivəyə salına və tənzimlənə bilməyən bir vəziyyət kimi düşünülür

Şübhəsiz ki, qanun hüquqi qaydaların ən yüksək və ən ümumi təzahürüdür. Lakin Romano qeyd edirdi ki, zərurətin qanuna zidd (və ya qanunsuz) olmasına dair fikirlər onun təbiətindən və orijinal xarakterindən irəli gəlir. [4, 11]

**ƏDƏBİYAT SIYAHISI :**


1. Abdullayev Elşad İslam oğlu, "İnzibati hüquq", Bakı 2001, 723 s.
2. Abışov Vaqif Gülağa oğlu, "İnzibati hüquq", Bakı 2009, 277 s.
3. Frederic Maitland, "Constitusional History of England", 1908 first edition, 548 s.
4. Gerard Emmanuel Kamdem Kamga "State of emergency, state of exception: A critical investigation", December 2010, University of Pretoria, 45 s.
5. Md. Ershadul Bari, "Martial Law in Bangladesh 1975-1979" A Legal Analysis, September 1985, 459 s.


# İXTİSAS SEÇİMİNDƏ TƏLƏBƏLƏRDƏ HƏYƏCAN SƏVİYYƏSİNİN VƏ SİNİR SİSTEMİNİN TİPİNİN ROLU


**Əzizova Mahirə Araz qızı**

***Qərbi Kaspi Universitetinin***

***Klinik psixologiya ixtisası üzrə təhsil alan magistrantı***

***Elmi rəhbər: Afərin Əli qızı Abbasova***

***mahire.huseynova.97@mail.ru***


## XÜLASƏ


Məqalədə ixtisas seçimi, bu zaman diqqət yetirilməli olan nüanslar, şagirdlərin bilik və bacarıqlarının düzgün qiymətləndirilməsi və digər məsələlər müzakirə olunur. Bundan başqa şagirdlərin sosial, psixoloji və psixofizioloji durumu ilə peşə növünün xüsusiyyət və tələbləri arasındakı əlaqəyə diqqət yetirilmişdir. Həmçinin həyəcan səviyyəsinin və sinir sisteminin tipinin şagirdlərin ixtisas seçiminə təsiri araşdırılmışdır.



**Açar sözlər:** ixtisas seçimi, həyəcan, sinir sisteminin tipi, yeniyetmə


## РЕЗЮМЕ

## РОЛЬ ОТЛИЧНОГО УРОВНЯ И ТИПА НЕРВНОЙ СИСТЕМЫ У СТУДЕНТОВ ПО ОСОБОМ ВЫБОРУ


В статье рассматривается выбор профессии, нюансы, которые необходимо учитывать, правильная оценка знаний и умений студентов и другие вопросы. Кроме того, внимание было

обращено на взаимосвязь между социальным, психологическим и психофизиологическим статусом студентов и характеристиками и требованиями типа профессии. Также изучалось влияние уровня тревожности и типа нервной системы на выбор студентами профессии.

**Ключевые слова:** выбор специальности, возбуждение, тип нервной системы, подросток

**SUMMARY**

**THE ROLE OF EXCELLENT LEVEL AND TYPE OF NERVOUS SYSTEM IN STUDENTS IN SPECIAL CHOICE**

The article discusses the choice of profession, the nuances that need to be considered, the correct assessment of students' knowledge and skills, and other issues. In addition, attention was paid to the relationship between the social, psychological and psychophysiological status of students and the characteristics and requirements of the type of profession. The effect of the level of anxiety and the type of nervous system on students' choice of profession was also studied.

**Key words:** specialty choice, arousal, type of nervous system, teenager

Müasir dövrdə insanı 200-dən çox elm sahəsi tədqiq edir. Çünki insan canlıların ən mürəkkəbidir. Cansızlardan fərqli olaraq insan sosial mühitdə bioloji varlıqdan sosial varlığa çevrilir. Bununla da o, əmək və yaradıcı fəaliyyət, şüur, ünsiyyət qabiliyyəti kimi yeni keyfiyyətlər kəsb edir. Bu keyfiyyətlərin yaranması ilə insan yeni bir mərhələyə qədəm qoyur və şəxsiyyətə çevrilir.

İnsanın şəxsiyyət kimi təşəkkülü o qədər də adi proses deyildir [3, 3]. İlkin olaraq onu qeyd edək ki, şəxsiyyətin təşəkkülü həmişə müsbət istiqamətdə getmir. Buna görə də hər zaman eyni nəticəni vermir. Eyni zamanda bu bütöv, tam prosesdir. Bu proses ona təsir göstərən müxtəlif amillərin özünəməxsus şəkildə əlaqələnməsi sayəsində baş verir. Ona görə də bu fəal prosesdir.

Beləliklə, uşaq dünyaya bir fərd kimi gəlir və təlim-tərbiyə sayəsində, ictimai münasibətlərdə davamlı psixoloji sistemə - şəxsiyyətə çevrilir. Deməli, psixoloji xüsusiyyətlərin sosiallaşaraq sabitləşməsi, sistemləşməsi şəxsiyyətin başlıca göstəricisi, xarakteristikasıdır [4, 10].

Şəxsiyyətin təşəkkülünün əsas mərhələləri arasında yeniyetməlik dövrü xüsusi yer tutur. Yeniyetməlik dövrü 11-12 yaşdan 14-15 yaşa qədər olan müddəti əhatə edir. Bu yaş dövrünün dəqiq sərhədi yoxdur, gec və ya tez başlaya və bitə bilər. Bu yaş dövrü özünəməxsus psixoloji xüsusiyyətləri, müxtəlif çətinlikləri ilə fərqlənir.

Yeniyetməlik dövründə uşaq şəxsiyyətinin inkişafında bir çox dəyişkənliklər baş verir ki, onların sayəsində şagirdin təlim və tərbiyəsində, davranışında müxtəlif problemlər: inadkarlıq, şıltaqlıq, kobudluq, tənbəllik, qapalılıq və bu kimi keyfiyyətlət meydana gəlir. Yeniyetmə get-gedə valideynlərindən uzaqlaşır, öz həyatını qapalı şəkildə yaşamağa başlayır. Bu yaş dövrü ən böhranlı, ən tərəddüdlü dövr sayılır.

Peşə və ixtisas insanın öz həyatını davam etdirməsi, həyatda öz yerini tuta bilməsi, ailəsini maddi və mənəvi cəhətdən təmin edə bilməsi, arzu və istəklərini reallaşdırması və cəmiyyət daxilində özünü ifadə edə bilməsi üçün zəruri bir vasitədir. Peşə insana fərəh gətirməli, seçdiyi peşə sahəsində çalışmaq hər kəsə mənəvi zövq və başqalarına da fayda verməlidir [5].

İxtisas seçiminə ciddi yanaşılmalıdır. İxtisaslar çox və rəngarəngdir. Təxmini hesablamalara görə 40 mindən çox ixtisas vardır. İqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq yeni istehsal sahələri və bunlara müvafiq yeni peşələr, ixtisaslar da yaranır. Eyni zamanda, bəzi müasir peşələr, ixtisaslar formalaşır ki, bu da insanlardan yeni biliklər və bacarıqlar tələb edir. Düzgün deyilmişdir ki, pis peşə yoxdur, pis peşəkar vardır. Hər bir peşə və ixtisasın özünəməxsus cəlbediciliyi və çətinliyi vardır. Buna görə də seçmək üçün peşələr aləmini hərtərəfli araşdırmaq lazımdır.

İmtahan həyəcanı abituriyentlərin və tələbələrin ortaq problemidir. Olduqca stressli vəziyyət insanların fərdi xüsusiyyətinə görə dəyişir. Həyəcan çoxaldıqca stressin səviyyəsi yüksəlir. Bu da orqanizmə və insan psixologiyasına təsirsiz ötüşmür.

İmtahandan əvvəl həyəcan səviyyəsi çoxalır, ona görə də imtahan stressi yüksək olur. İmtahan stressi faktorunun yüksəlməyinin səbəblərindən biri də uşaqların imtahan anlayışı ilə ilk dəfə tanış olmalarıdır. Təəssüf ki, pedoqoji baxımdan yalnışlıq məhz bu olur.

Uşaqlara imtahan həyəcanını çox güclü şəkildə çatdırmaq düzgün deyil. Bu onların çiyinlərinə yüklənir. Və təbii ki, onların zərif çiyinləri üçün çox ağır bir yük olur. Valideynlər düşünür ki, nə qədər məsuliyyəti artırsalar, bir o qədər yaxşı olar. Amma bir şeyi unutmamalıdırlar ki, əgər valideyn övladında imtahana qarşı nə qədər adi, normal hisslər yaratsa, o, maksimum öz bacarığını göstərər. İmtahan zamanı təbii ki, stress səviyyəsi yüksəldikcə bilik səviyyəsi aşağı düşür, gərginlik artır. Bu da təbii ki, imtahan nəticələrinə təsir edir [6].

Eyni zamanda ixtisas seçiminə sinir sisteminin tipi də öz təsirini göstərir. Xarici amillərin təsiri sayəsində sinir sisteminin tipini dəyişdirmək və onları bir tipdən digərinə çevirmək mümkündür. Məsələn, məktəb şəraitində müəllim sinir sisteminin tipində zəiflik hiss olunan şagirdlərə icrası xeyli cəsarat tələb edən tapşırıqlar verməklə onların sinir sistemini güclü edə bilər. Məktəbdə zəif, təlimdə geriqalan şagirdlərə münasibəti dəyişmək, onların təlim uğursuzluqlarının köklərini psixoloji cəhətdən səbr və təmkinlə araşdırmaqla yanaşı sinifdə fəal mövqe tutmalarını təmin etmək lazımdır [2, 211].

İnsanda aşağıdakı sinir tipləri ayırd edilir:

1. Sanqvinik tip (diribaş tip). Sanqvinik yüksək fəallıqla fərqlənir [1, 457]. Bu, ən yaxşı tip hesab olunur. Sanqviniklər üç səciyyəvi xüsusiyyətlə başqalarından fərqlənir. Bunlar güclü oyanma və güclü ləngimə qabiliyyəti, müvazinəti və mütəhərrik sinir sistemi tipi olan adamlardır.

2. Melanxolik tip (zəif tip). Bu tipin əsas xüsusiyyəti qabıq hüceyrələrinin işgörmə qabiliyyətinin zəif olmasından ibarətdir, bunlarda hüdudxarici ləngimə çox tez əmələ gəlir, oyanma və ləngimə hadisələri zəif cərəyan edir, beyin qabığı fəaliyyətində ləngimə üstündür.

3. Xolerik tip (hövsələsiz tip). Bu tipə aid olan adamlar güclü sinir sisteminə malikdirlər. Bunlarda oyanma və ləngimə hadisələri öz ağır dinamizmi ilə seçilir, bu proseslər bir-birinə çətinliklə keçir. Möhkəm iradəli, ehtiraslarını boğa bilən adamlardır.

4. Fleqmatik tip (sakit,durğun tip). Bu tip adamların əsas xüsusiyyəti az mütəhərrik olmalarındadır. Belə adamların güclü və müvazinətli sinir sistemində çox vaxt oyanma və ləngimə hadisələri ağır cərəyan edir və çətinliklə biri digəri ilə əvəz olunur.

Beləliklə, qeyd edə bilərik ki, yeniyetmənin ixtisas seçimində həm ətraf mühitin, insanların təsiri nəticəsində onda yaranmış həyəcan səviyyəsi, həm də onun sinir sistemi tipinin özünəməxsus xüsusiyyətləri çox mühüm rolu ilə fərqlənir. Bu mərhələni uğurla başa vurmaq valideynlərin öz övladları ilə dost münasibəti qurması və eyni zamanda ehtiyac olduğu təqdirdə psixoloq dəstəyi ilə mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI :


1. “Psixologiya”., Ə.S.Bayramov., Ə.Ə.Əlizadə., “Çinar-çap”., Bakı-2009., 622s.
2. “Sosial psixologiya”., Ə.S.Bayramov., Ə.Ə.Əlizadə., “Qapp-poliqraf”., Bakı-2003., 355s.
3. “Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri”., Ə.S.Bayramov., “Azərnəşr, 1981”., 190s.
4. “Yaş psixologiyası”., Ə.Ə.Qədirov., “Maarif” nəşriyyatı., Bakı-2008., 386s.
5. http://anl.az/el/Kitab/2016/Azf-288154.pdf
6. 6.https://manera.az /tehsil/9056-mtahan-heyecanini-nece-yox-edek-psixoloqdan-mesleheti.html

# REGİONLAR DAYANIQLI İQTİSADİYYATIN TƏMİNATÇISI KİMİ

**Əzizov Nuru**
***Mingəçevir Dövlət Universiteti***
***Elmi rəhbər: İqtisad elmləri üzrə fəlsəfə doktoru, Şahin Bayramov***
***nuru.azizov.c@mdu.edu.az***

**Açar sözlər:** Dayanıqlı, iqtisadiyyat, region.
**Key word:** Sustainable, economy, region.
**Ключевое слово:** Стабильный, экономика, регион.

Son dövrlərdə iqtisadiyyatda baş verən hadisələr və tərəddüdlər bir daha onu göstərdi ki,iqtisadiyyatı yalnız təbii sərvətlər üzərində təşkil etmək heç də əlverişli deyildir. Odur ki,burada hər tərəfli inkişaf məsələsi ortaya çıxır. Xüsusilə də burada regionların imkanını qeyd etmək lazımdır. Bu sahədə qəbul və icra olunmuş proqramlar ixrac imkanlarının inkişafına,bölgələrdə infrastrukturun yaxşılaşdırılmasına,sosial rifah və təminat məsələlərinin təkmilləşdirilməsinə xüsusi xidmət edir. Məqalədə regionların iqtisadiyyatda əhəmiyyətinə xüsusi diqqət yetirilmişdir.Müstəqillik bərpa olunduqdan sonra ölkədə islahat aparılmalı olan ən mühüm işlərdən biri ölkə iqtisadiyyatını dərin böhranlı vəziyyətdən çıxarmaq,maliyyə vəziyyətini yaxşılaşdırmaq,iqtisadi sferada sabitliyi təmin etmək idi. Odur ki,regionlara dair sosial-iqtisadi inkişafı proqramlarının qəbulu bu sahədə aparılmış ən mühüm tədbirlərdəndir.

Proqramların əsas məqsədi regionlarda iqtsadi stabilliyə nail olmaq,yoxsulluğu azaltmaq,yeni iş yeri və müəssisələrinin yaradılmasına nail olmaq,səmərəli inteqrasiyaya nail olmaq,sahibkarlıq mühitinin yaxşılaşdırılması, məşulluğun təmin olunması, dayanıqlı inkişafa nail olmaqdır.

Birinci və ikinci dövlət proqramının icra olunduğu müddət ərzində ümum daxili məhsul 3,3 dəfə, sənayedə 2,6 dəfə,qeyri-neft sənayesində 2,4 dəfə,kənd təsərrüfatında 1,7 dəfə artım əldə olunub.İxracımız 4,7 dəfə və valyuta ehtiyatlarımız 24 dəfə artıb.(1)

Aparılmış islahatlar nəticəsində sənayedə real artım 2,6 dəfə olmuşdur.Hazırda 2019-cu ildə sonuncu Dövlət proqramı qəbul olunub.Aparılmış sosial infrastruktur işləri nəticəsində regionların mənzərəsi tamamilə dəyişmişdir. 17 ildə məktəb, uşaq bağçası və tibb müəssisəsi tikilib və əsaslı təmir edimişdir.(1)

Hazırda ixrac imkanlarının stimullaşdırılması məqsədilə bir sıra tədqiqat aparılıb, rəqabətqabiliyyətli və keyfiyyət standartlarına cavab verən yerli məhsul ixracına nail olunmuşdur. İxracımız 4,7 dəfə və valyuta ehtiyatımız 24 dəfə artıb. Regionlarda bu növdən olan zonalar və onların yaradılması, onlar arasındakı fərqlərin aradan qalxmasına,ümum daxili məhsulda və qeyri-neft məhsullarında regionların payının əlavə olunmasına səbəb olacaq. Ötən il müddətində qeyri-neft sahəsində ümum daxili məhsulda 3,5 dəfə,qeyri-neft sənayesi isə 14,3 dəfə artması regionlarda böyük rol oynayıb.Lakin ümumi daxili məhsul 2020-ci ildə 2019-a nəzərən 4,3 dəfə azalmışdır.Səbəb hasilatla əlaqədar öhdəliklərin yerinə yetirilməsi əlaqədar olmuşdur.(1)

Regionlarda belə zonalar yaradılması bu siyasəti həyata keçirənin ölkənin islahatlarıdan asılıdır. Bu öz növbəsində iqtisadiyyatın inkişafı üçün regional siyasətin həyata keçirilməsinə ehtiyac yaradır.Müstəqil və öz hesabına inkişafı təmin edən regionlarda inkişafı təmin etmək üçün dövlət sifarişi və müqavilələri sahəsində müəyyən islahatlar aparılmalıdır.(2)

Yeni təsərrüfatçılıq formaları yaratmaq üçün isə regional imkanlarıda nəzərə almaq lazımdır.Həmçinin burada regionda zəif və güclü tərəflərin öyrənilməsi və onların aşkara çıxarılması əsas məsələlərdən biridir.Tədqiqatlar göstərdi ki,regionların inkişafı iqtisadi inkişafa nail olmağın başlıca şərtidir.(2)

Əsas məqsəd regional inkişafda yerli və təbii resursların səmərəli təşkilinə,regionlar arasında disproporsiyalarının azaldılmasına,həmçinin səmərəsiz işçi axının qarşısının alınmasına,təhsil,elm,mədəniyyətə xüsusi diqqət yetirilməsinə nail olmaqdır.Regionların kompleks inkişafı müasir iqtisadiyyata uyğunlaşmaqdan irəli gəlir.Həmçinin burada ətraf mühitinin qorunmasına xüsusi diqqət yetirilməlidir.Əmək resurları yerləşdirilməsi burada mühüm önəm daşıyır.(2)

**ƏDƏBİYYAT SİYAHISI :**

1. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 29 yanvar 2019.
2. M.M. Mahmudov, İ.M. Mahmudova "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi", Bakı 2011

## AZƏRBAYCAN-PAKİSTAN MÜNASİBƏTLƏRİ MÜASİR MƏRHƏLƏDƏ

**Əzizzadə Məhəmmədəli**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: Tural Vəlizadə***

Pakistan Asiya qitəsinin cənubunda yerləşir. Dünyada ərazisinə görə 33-cü, əhalisinə görə isə 6-cı yeri tutur. Paytaxtı İslamabad olan ölkəyə İmran Xan başçılıq edir.

Pakistan Azərbaycan müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci ölkədir. Belə ki, Azərbaycan Resbuplikasının müstəqilliyi Pakistan tərəfindən 1991-ci il dekabrın 12-də tanınıb. İki ölkə arasında diplomatik əlaqələr isə 1992-ci ilin iyun ayının 9-da qurulmuşdur. Bundan sonra Bakıda Pakistanın 1997-ci ilin avqust ayında isə İslamabadda Azərbaycanın səfirliyi açılmışdır. Pakistan həmçinin Azərbaycanda səfirliyini açan ilk dövlətlərdən biridir. 1993-cü il aprelin 30-da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT nin 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik etmişdir. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər yüksək səviyyədə keçmiş və iki ölkə arasında bir sıra sənədlər o cümlədən Azərbaycan Resbuplikasi Hökuməti ilə Pakistan İslam Resbuplikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokol imzalanmışdır. Azərbaycan Respublikası və Pakistan İslam Resbuplikası arasında Əməkdaşlıq haqqında Müqavilə bağlanmışdır. 1996-cı il aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Pakistanda rəsmi səfərdə olmuşdur. İki ölkə arasında münasibətlərin inkişafına xüsusi təkan verən bu görüşdə 9 sənəd imzalanmışdır. Azərbaycan və Pakistan prezidentləri Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemlərində bir-birlərini dəstəklədiklərini bəyan edilmişdir.Pakistan İslam Respublikasında rəsmi təşkil olunmuş ziyafətdə Azərbaycan Prezidenti Ulu Öndər Heydər Əliyev burada nitq söyləmişdir "Pakistan dövləti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü daim pisləyib Ermənistanı bir təcavüzkar kimi ittiham edib."

Azərbaycan Resbuplikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatına üzvü olan ölkələrin Dövlət və Hökumət başçılarının 9-11 dekabr 1997-ci ildə Tehranda keçirilən VIII zirvə görüşündə iştirak edərək Tehrandada Pakistanın Baş Naziri Nəvaz Şəriflə görüşmüşdür. Görüş zamanı Prezident Heydər Əliyev bir daha bildirib, ki, həmişə Azərbaycan Pakistanın mövqeyini dəstəkləyib Baş Nazir öz nöbəsindədə Azərbaycanı dəstəklədiyini elan edib və Ermənistanı təcavüzkar siyasətini qətiyyətlə pisləyib. Azərbaycan Resbuplikasının Prezidenti Heydər Əliyev bu dəfə isə 2000-ci ildə Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının Sammitində Pakistan Respublikasının Prezidenti Pərviz Müşərrəfnən görüşü olmuşdur. Yenədə görüş zamanı tərəflər zamanı bir-birlərini dəstəklədiklərini bildirmişlər. 2002-ci ildə Azərbaycan Respublikası Hökuməti və Pakistan Respublikası Hökuməti arasında Müdafiə və Hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalanmışdır. Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev hələ 2003-cü il sentyabrın 25-də Pakistan Prezidenti Pərviz Müşərrəf arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

2004-cü il iyulun 8-də Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin Azərbaycana rəsmi səfəri olmuşdur. Azərbaycan Resbuplikası Prezidenti İlham Əliyevlə Pakistan Respublikası Prezienti Pərviz Müşərrəfin görüşü zamanı iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri müzakirə olunmuş,bundan əlavə beynəlxalq terrorçuluq, turizm, gömrük işi, sahəsində hökumətlərarası saziş həmçinin Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında birgə bəyannəmə imzalanmışdır.

2005-cı il aprelin 12-də Azərbaycan Resbuplikasının Prezidenti İlham Əliyev Pakistana rəsmi səfər etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan Respulikasının Prezidenti Pərviz Müşərrəfin bu dəfəki görüşündə ölkələrarası münasibətlər müzakirə olunmuş ve bundan əlavə nəqliyyat, informasiya və kommunikasiya, aviasiya, mədəniyyət,maliyyə və təhsil sahəsində 6 əməkdaşlıq sazişi imzalanmışdır. 2006-cı ildə ECO-nun Bakıda keçirilən 9-cu Sammitində Prezident İlham Əliyev Pakistan Respublikasının Baş Naziri Şövkət Əzizi qəbul etmişdir. 2008-cı ilin sentyabrında Pakistanda hakimmiyət dəyişikliyi baş vermişdir.Yeni Prezident seçilən Asif Əli Zərdari Azərbaycan ilə əlaqələr daha da inkişaf etməyə başlamışdır.

Prezident İlham Əliyev 2009-cu il mayın 19 –da Pakistan İslam Respublikasının müdafiə səneyesi naziri federal naziri Əbdül Qəyyum Xan Cotayı qəbul etmişdir. 2012-cı il martın 16-da tarixində Prezident İlham Əliyevin və Pakistan İslam Resbuplikasının Prezidenti Asif Əli Zərdanin görüşü olmuşdur. 2013-cı il oktyabrın 10-da tarixində Prezidenti İlham Əliyev Pakistan İslam Resbuplikasının Senatının sədr müavini Sabir Əli Bəlucun başçılıq etdiyi Pakistan Senatı və Milli Assamblesiyası üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir. 2015-cı il 11 mart tarixində Azərbaycanın birinci xanımı Pakistanın 'Hilal-e-Pakistan' ordeni ilə təqdim olunub. 2015-cı il 3 may tarixində Prezident İlham Əliyev Pakistan İslam Respublikasının maliyyə,iqtisadi məsələlər,gəlir,statistika və özəlləşdirmə naziri Mohammad İshaq Darı qəbul etmişdir. 2016-cı il 1 mart tarixində Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəislərləri Kamitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmışdir.

2016-cı il 26 sentyabr tarixində Prezident İlham Əliyev Pakistan İslam Respublikasının müdafiə sənayesi naziri Rana Tanvir başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. 2019-cı ilin martın 23-ü Pakistan Respublikasının mütəqilliyi günü ilə bağlı olan hərbi paradda Azərbaycan Respublikasının Müdafiə naziri Zakir Həsənovun başçılıq etdiyi hərbi qoşun iştirak etmişdir. 2019-cı il oktyabrın 26 da İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü olmuşdur. 2020-ci il sentyabr 27-sindən başlayan Vətən müharibəsində Azərbaycan Respublikasının mənəvi dəstəkləyən ölkələrdən biri Pakistan olmuşdur. Pakistan İslam Respublikası yeganə dövlətdir ki, Ermənistan Respulikasını bir dövlət kimi tanımır.

**ƏDƏBIYYAT SİYAHISI :**


1. Azərbaycan Respublikası ilə diplomatik əlaqələr qurmuş dövlətlərin siyahısı. mfa.gov.az
2. Azərbaycan – Pakistan əlaqələri. Bizim Yol. - 2018.- 7 noyabr. - № 197. - S. 11.
3. "Azərbaycan Respublikası - Pakistan İslam Respublikası münasibətləri" (PDF). 2014-08-01 tarixində orijinalından (PDF) arxivləşdirilib. İstifadə tarixi: 2019-12-14.
4. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 4 mart 2016-cı il tarixli, 161-VQR nömrəli Qərarı. e-qanun.az.
5. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 7 mart 1997-ci il tarixli, 256-I QR nömrəli Qərarı. e-qanun.az.


## İQTİSADİ RAYONLARDA MƏHSULDAR QÜVVƏLƏRİN İNKİŞAFININ TƏNZİM VƏ İDARƏ OLUNMASININ TƏŞKİLİNİN TƏKMİLLƏŞMƏSİ


**Fərəcov Nicat**
***Mingəçevir Dövlət Universitetinin magistri***
***Rövşən Əliyev, Elmi rəhbər***



**Açar sözlər**: məhsuldar qüvvələr, iqtisadi rayon, regional siyasət, regional inkişaf, Dövlət Proqramları, ərazi təmərküzləşməsi, əhalisinin məskunlaşması

**Ключевое слово:** производительные силы, экономический район, региональная политика, региональное развитие, Государственные программы, территориальная децентрализация, расселение населения.

**Keywords:** productive forces, economic area, regional policy, regional development, state programs, territorial decentralization, population settlement.

Məlumdur ki, respublikadaxili iqtisadi rayonlar respublikanın regional strukturunda mühüm yer tutur.

Ölkəmizdə sosial-iqtisadi inkişafın yeni mərhələyə daxil olduğunu nəzərə alaraq və müasir regional siyasətin tələblərinə uyğun olaraq “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”nda ilk dəfə olaraq iqtisadi rayonlar (həm də inzibati rayonlar və şəhərlər) üzrə beşillik müddət üçün məhsuldar qüvvələrin inkişaf istiqamətləri, işə salınması vacib olan müəssisə, istehsal və xidmət sahələri müəyyənləşdirildi. Həm də proqramı yerinə yetirmək üçün lazım olan maliyyə mənbələri, məsuliyyət daşıyan dövlət orqanları və özünüidarə strukturları müəyyənləşdirildi. Beləliklə, dövlətin inzibati rayon və şəhərlərlə bərabər respublikadaxili iqtisadi rayonların sosial-iqtisadi inkişafına tənzimləyici təsir göstərməsi məsələsi real xarakter aldı. Regional sosial-iqtisadi inkişafın yeni Dövlət proqramında da (2019-2023-ci illər) dövlətin iqtisadi rayonların inkişafına tənzimləyici təsir göstərməsi geniş miqyaslı nəzərdə tutulub və müvəffəqiyyətlə həyata keçirilməkdədir. Tədricən bu prosesin hərtərəfli davam etdirilməsi vacibdir.

İqtisadi rayonlar üzrə statistik göstəricilər birinci növbədə İqtisadiyyat Nazirliyi tərəfindən məhsuldar qüvvələrin regionlar üzrə yerləşməsi və inkişafı strategiyasını işləyib hazırlamaq, bu strategiyanın yerinə yetirilməsi vəziyyətini təhlil etmək, məhsuldar qüvvələrin yerləşməsini yaxşılaşdırmaq və başqa sosial-iqtisadi xarakterli problemlərin həllini asanlaşdırmaq üçün lazımdır [1].

Regional idarəetmənin perspektivdə səmərəli təkmilləşməsi iqtisadi rayonlar miqyasında iki qrup məsələlər kompleksini həli etməyi tələb edir:

1) İqtisadi rayonlara bölgü sisteminin inzibati-ərazi bölgüsü ilə sıx əlaqədə təkmilləşməsi;

2) İqtisadi rayonlar üzrə idarəetmə orqanlarının yaranması, onların hüquq və vəzifələrinin müəyyən edilməsi.

Son illərdə həyata keçirilən tədbirlər nəticəsində regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları (2004-2008, 2009-2013, 2014-2018-ci illər) müvəffəqiyyətlə yerinə yetirilmişdir. Regional inkişaf üzrə dördüncü Dövlət proqramı da (2019-2023-ci illər) müvəffəqiyyətlə yerinə yetirilməkdədir. Sosial-iqtisadi inkişaf davamlı xarakter almış, maliyyə imkanları genişlənmiş, xarici investisiyaların qeyri-neft sektoruna axını davam edir. Lakin sürətli inkişaf prosesinin başlanması, maliyyə imkanlarının genişlənməsinin özü sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsinin elmi və təşkilati-iqtisadi vasitələrindən daha geniş miqyasda istifadə olunmasını, bu istiqamətdə konseptual xarakterli tədbirlərin həyata keçirilməsini tələb edir.

Bunların içərisində Azərbaycanın uzun müddətli sosial-iqtisadi inkişaf strategiyasının icrasının ümumi təşkilati vasitələrindən biri kimi “Məhsuldar qüvvələrin səmərəli yerləşməsi və şəhərlərin inkişafının baş planı”nin işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edə bilər. Bu baş planda respublikamızda məhsuldar qüvvələrin gələcək kompleks inkişafı və səmərəli yerləşməsinin mühüm şərti kimi şəhərlərin, regional mədəni-iqtisadi mərkəz şəhərlərin (əyalət mərkəzlərinin), xüsusilə işğaldan azad olunmuş şəhərlərimizin inkişafına diqqətin artırılması, onların üstün sürətlə inkişafının təmin edilməsi və bu prosesin dövlət tənzimlənməsi tədbirləri mühüm yer tutmalıdır [2].

Ümummilli liderimiz Heydər Əliyevin xırda və orta şəhərlərin inkişafına göstərdiyi böyük qayğı - yeritdiyi regional siyasət, Prezident İlham Əliyevin regionların inkişafı üzrə Dövlət Proqramlarına uyğun olaraq son illərdə gördüyü tədbirlər, regionlarda sahibkarlığın inkişafına göstərdiyi böyük maliyyə, təşkilati-iqtisadi dəstək nəticəsində sürətlə, yeni keyfiyyətdə həyata keçirilməkdədir. Gəncə, Naxçıvan, Mingəçevir, Bərdə, Yevlax, Şəki, Zaqatala, Quba, Lənkəran, Sumqayıt və digər şəhərlərdə geniş mədəni-quruculuq işləri aparılmış, yeni istehsal müəssisələri, idman kompleksləri, aeroportlar, mehmanxanalar, istirahət, müalicə mərkəzləri tikilmiş, yollar çəkilmiş, yeni təhsil, səhiyyə, məişət xidməti müəssisələri istifadəyə verilmiş, iqtisadiyyat, istehsal və sosial infrastruktura sahələri sürətlə inkişafa başlamışdır.

Nəticədə şəhərlərimizdə qeyri-neft sektoru xeyli inkişaf etmiş, başlıcası isə güclü sosial və istehsal infrastrukturu, yol-nəqliyyat şəbəkəsi formalaşmış, güclü energetika bazası yaradılmışdır. İnvestisiya mühiti yaxşılaşmış, onların investisiya cəlb etmək qabiliyyəti yüksəlmişdir. Şəhərlərin əhalisi artır. 01

yanvar 2020-ci il tarixə Gəncə şəhərinin 335,6 min nəfər, Sumqayıt şəhərinin 345,3 min; Şirvan şəhərinin 87,4 min; Mingəçevir şəhərinin 106,1; Şəki rayonunun 188,1; Naxçıvan Muxtar Respublikasının 459,6; Lənkəran rayonunun 230,2; Xaçmaz rayonunun 179,8; Cəlilabad rayonunun 225,3; Yevlax rayonunun 129,7 min nəfər və s. əhalisi vardır. Bu şəhərlərin aid olduqları iqtisadi rayonların mədəni-iqtisadi həyatında rolu artmaqdadır. İndi əsas vəzifələrdən biri yaranmış bu əlverişli şəraitdən istifadə etməklə şəhərlərdə iqtisadiyyatın real sektorunun (sənaye, kənd təsərrüfatı, istehsal təyinatlı tikinti və i.a.) daha yüksək səviyyədə və səmərəli inkişafına nail olmaqdır [4,5].

Məlumdur ki, 2004-2008-ci illərdə yeni istifadəyə verilən müəssisələrin təqribən 40%-i regionların payına düşmüşdür. Əgər 16-17 il əvvəl regionların iqtisadiyyatının tamamilə dağılmış olduğunu və maliyyə imkanlarının son dərəcə məhdudluğunu nəzərə alsaq, bu rəqəmin məhsuldar qüvvələrin ərazi təşkilində böyük irəliləyiş olduğunu etiraf etməliyik. Lakin respublikanın investisiya imkanlarının genişliyini, regionlarda investisiya mühitinin xüsusilə son 5-6 ildə yaxşılaşdığını nəzərə alsaq, işə salınmış yeni müəssisələrin sayına görə regionların xüsusi çəkisinin artırılmasına ehtiyac və imkan olması ilə də razılaşmalıyıq. Yaxın illərdə yeni müəssisələrin tikintisində üstünlüyü regionlara vermək üçün respublikamızda əlverişli şərait yaranmışdır.

Məlumdur ki, təsərrüfat sahələrinin yerləşməsi və ərazi təmərküzləşməsi ilə əhalinin məskunlaşması arasında sıx əlaqə vardır. Əhali, xüsusilə əmək qabiliyyətli əhali həm istehsalın mühüm şərti, həm də onun məhsullarının istehlakçısı olmaqla istehsal və xidmət sahələrinin inkişafına və ərazi təmərküzləşməsinə əsaslı surətdə təsir göstərir. Bu baxımdan təsərrüfat sahələrinin və əhalinin ərazi təmərküzləşməsinin bir-birini qarşılıqlı surətdə tamamlayan regional sistemlərinin formalaşması respublikamızda məhsuldar qüvvələrin səmərəli ərazi təşkilinin mühüm şərtidir. Bu vacib cəhəti nəzərə alaraq məhsuldar qüvvələrin səmərəli yerləşməsi və şəhərlərin perspektiv inkişafının baş sxemində Respublikamızda sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi şəhər və kənd əhalisinin məskunlaşmasının regional sistemlərinin formalaşması və inkişafı konsepsiyası işlənib hazırlanmalıdır. Söhbət məhsuldar qüvvələrin yerləşməsi və əhalinin məskunlaşmasının elə bir regional sistemlərinin formalaşmasından, region əhəmiyyətli mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin respublika ərazisində elə vəziyyətdə bölüşdürülməsi və inkişafından gedir ki, son nəticədə kənd əhalisinin yaşayış yerini dəyişmədən belə şəhərlərdə işlə təmin olunmasına daha əlverişli şərait yaransın, inkişaf üçün əlverişli imkanı olan mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin regionda təşkiledici və tənzimləyici rolu artsın, regional bazarlar formalaşsın, kənddə yaşayan əhali tələbatını ödəmək üçün başlıca olaraq paytaxta deyil, məhz yaxındakı şəhərə üz tutsun.

Respublikada səmərəli regional siyasət aparılmasının mühüm məsələlərindən biri indi bu xırda və orta şəhərlərdən regional mədəni-iqtisadi mərkəz şəhər rolunu oynaya bilənlərin müəyyənləşdirilməsi və onların ərazisində regional bazarların formalaşdırılmasıdır. Bunun üçün respublikada daha perspektivli region əhəmiyyətli şəhərlərin müəyyənləşdirilməsi və onların üstün sürətlə inkişafı üçün tədbirlər görülməsi vacibdir. Bir sıra regionlarımızda belə şəhərlərin əksəriyyəti məlumdur (Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Lənkəran, Şirvan və i.a.). Lakin Aran, Quba-Xaçmaz, Gəncə-Qazax, Şəki-Zaqatala rayonlarında ikinci qrup perspektivli şəhərlərin və ikinci dərəcəli regional əhəmiyyətli bazarların müəyyən edilməsi və onların inkişafı üçün müvafiq infrastrukturun (elm, təhsil, tibb-müalicə müəssisələri, yol şəbəkəsi, region əhəmiyyətli bazar formalaşması və i.a.) müəyyənləşdirilməsi vacibdir. Bu məsələnin həlli də özlüyündə respublikanın regionlara bölgü sisteminin xeyli təkmilləşdirilməsini tələb edir [3].

Şəhərlərin inkişafı və idarə olunmasına yuxarıda göstərilən formada yanaşılması həm məhsuldar qüvvələrin səmərəli ərazi təşkilində, şəhər və kəndlərin əmək ehtiyatlarından qarşılıqlı əlaqədə səmərəli istifadə edilməsində, həm də ərazi idarəetmənin səmərəliliyinin artırılmasında mühüm rol oynayardı.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Bakı, 2019

2. Ağayev E.A, Ə.C.Qasımov və b., Regionların sosial-iqtisadi inkişaf problemləri, Bakı, 2006, 365

3. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları, Bakı, 2007

4. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu, 892-IQ, Bakı, 13 iyun 2000-ci il. 5. https://www.stat.gov.az/source/demoqraphy/

## "BAKTUR" TURİZM FİRMASININ QURULUŞU VƏ İŞİNİN TƏŞKİLİ

**Fərzullazadə Əminə**
***BDU, II kurs magistr***
***Elmi rəhbər: dos. E.Nuriyev***

**Açar sözlər:** turizm, firma, Baktur, xidmət, tur, personal, marketinq, xərc, qiymət.
**Keywords:** tourism, company, Baktur, service, tour, staff, marketing, cost, price.
**Ключевые слова:** туризм, фирма, Baktur, услуга, тур, персонал, маркетинг, стоимость, цена.

Baktur turizm firması ölkədə yaradılan ilk turizm firmalarından biri olub, 1993-cü ildə fəaliyyətə başlamışdır. Firma Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva küçəsi 50/72 ünvanında yerləşir. Yeni yarananda firmanın əsas məqsədi yerli xalqın xaricdə istirahətini təşkil etmək idi. Turfirma Azərbaycan Həmkarlar İttifaqının Turizm və Ekskursiyalar Şurasının təsisçiliyi və "Bank Respublika" ASC-nin maliyyə dəstəyi ilə fəaliyyət göstərir. İlk yarandığı zamanlar Bakı Ekskursiya Bürosunun tərkib hissəsi olsada, hal-hazırda turizm firması kimi fəaliyyət göstərir[8].

Baktur firmasının quruluşunu və işinin təşkilini əsasən 3 hissəyə ayırmaq olar:

1. Təklif etdiyi xidmətlər və turlar. Baktur firmasının alıcılara təklif etdiyi xidmətlərə: ekonom və lüks avtomobillərlə transfer, istənilən yerdə otel rezervasiyaları, avtomobil icarəsi, professional ekskursiya bələdçilər ilə yüksək səviyyəli xidmət, qruplarla ekskursiya turları, müalicəvi turlar, VİP paketlər və s. daxildir.

Şirkət xarici qonaqlara da müxtəlif xidmətlər təklif edir: bunlara xarici turistlərin gediş-gəlişinin təşkili, otel bronu, aviabilet satışı və sifarişi, qidalanma, ekskursiya və konfransların təşkili, digər ölkələrə səyahət edən turistlərin sığortalanması, qarşılanması və yola salınması və s. daxildir. Şirkətə xaricdə səyahət üçün çoxlu sayda vətəndaşlar müraciət edirlər. Onların əksər hissəsi Bakturun daimi müştəriləridir. Habelə Baktur müştərilərə turlar təklif edərkən ilk növbədə onlarla turoperatorlar söhbət aparır, onların arzu və istəkləri nəzərə alınıb, xüsusi turlar təklif edilir[6,s.53 ].

Ümumiyyətlə, Baktur tərəfindən təklif olunan standart turpaketlərə daxildir:

· Daşınma üzrə komfortlu nəqliyyat xidmətləri;
· Turpaketlərin əksəriyyətinə daxil olan gün ərzində üç dəfə qidalanma xidmətləri;
· Nömrələrdə yerləşdirmə xidmətləri;
· Müxtəlif əyləncə xidmətləri;
· Cəlbedici ekskursiya xidmətləri;
· Tibbi xidmətlərin zamanında və yerindəcə göstərilməsi

Turpaketlərin tərkibinə həmçinin xarici ölkələrin istirahət və müalicə mərkəzlərinə yollayışların satışı da əlavə edilmişdir. Firma yerli əhali üçün Bolqarıstanda – Qızılqum, Çexiyada – Karlovı Varı, Ukraynada – Truskavesk, Türkiyədə Bodrum, Antalya, Polşada – Varşava, Şimali Qafqazda (RF) – Kislavodsk, Yesentuki və həmçinin Moskva ətrafı istirahət mərkəzlərində çoxgünlük turların satışını təşkil etmişdir.

Həmçinin ölkədaxili təklif etdiyi turlara: Bakı - Şamaxı - İsmayıllı; Bakı - Qəbələ - Şəki; Bakı - Gəncə (Göy göl); Bakı - Quba – Qusar; Bakı – Nabran; Bakı - Lənkəran və s. turlar daxildir[10].

2. Personalın idarəolunması və qiymətləndirilməsi. Firma daxilində müəssisənin mədəni mühitini rəhbər müəyyən edir, bununla yanaşı, personalın mədəni səviyyəsi də əsas rol oynayır. Müəssisə üzrə davranış normaları yüksək mədəni səviyyədə təşkil olunmalıdır. Bütün işçilər firmadaxili nizam-intizam qaydalarını bilməli və ona riayət etməlidir. Müəssisənin digər təşkilat və firmalarla qarşılıqlı münasibətlər saxlaması və qoruması normaları da müəssisənin mədəni səviyyəsindən xəbər verir[5,s. 23].

Baktur turizm firmasında 2012-ci ildən bəri 6 nəfər personal fəaliyyət göstərirdi: direktor; baş mühasib; menecer; turizm təşkilatçıları olan 2 personal; xadimə.

Bugün isə firmada 10 nəfər ştatlı personal fəaliyyət göstərir. Əlavə olaraq 1 menecer, turizm təşkilatçısı olan 1 işçi daha, reklam üzrə agent, katibə fəaliyyətə başlamışdır.

Həmçinin ekskursiya bələdçiləri ilə də müqavilələr imzalanıb, təcrübəli bələdçilər kollektivə cəlb olunur:

Direktor bütün işlərə nəzarət edir. O Azərbaycan Respublikası Turizm və Ekskursiyalar Şurasının Kollegiyası tərəfindən təsdiq edilir. Baktur turizm firmasına Turizm və Ekskursiyalar Şurasının baş mütəxəssisi, həmçinin Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi Əlixan Mürvətov rəhbərlik edir.

Baş menecer isə Gülnar Eyvazovadır. Menecerin işi daimi əlaqə üzərində qurulmuşdur. Menecerin əsas vəzifəsi istehsalın idarəsi, texniki, texnoloji bazanın inkişafı daxil olmaqla, istehsalın səmərəli təşkili nəticəsində turfirmanın işinin mənfəətliyinin təmin olunmasını, hər bir personalın ixtisas və yaradıcı fəallığını artırmaqla kadr potensialından səmərəli istifadəni təmin etməkdir.

Mühasibat uçotu və nəzarəti bölməsi tərəfindən firmanın bütün maliyyə işi idarə olunur. Həmçinin firmanın mədaxil və məxarici bu bölmənin əməkdaşı tərəfindən hesablanır. Baş mühasib isə maliyyə işlərinə cavabdehdir.

I menecerin vəzifəsi qəbul turizmini reallaşdırmaqdır. O xarici ölkələrin turfirmaları ilə əlaqələr qurulması, xarici turistlərin Bakıda qəbulu, yerləşməsi, ərazilərdə səfərlərin təşkili, ekskursiya üzrə işlər və turxidmətlərin həyata keçirilməsi üzrə məsuliyyət daşıyır.

II menecer isə getmə turizmi ilə məşğul olaraq, turoperatorlar ilə müqavilələr bağlayır, xarici ölkələrə turistlərin göndərilməsini təşkil edir, aviabiletlərin alınmasını təşkil edir, vizaların alınmasına dəstək olur və sığortanın təşkilini və s. həyata keçirir.

Qrup təşkilatçıları isə yalnızca daxili turizmlə məşğul olurlar. İşin həcmindən asılı olaraq ştatdankənar işçilər iş qaydasına uyğun olaraq fəaliyyətə cəlb edilirlər. Reklamın çoxaldılması, qrupların müşayiət edilməsi və mövsümün pik zamanları müəssisələrdə işin təşkili üçün ştatdankənar işçilərin dəstəyinə hər zaman ehtiyac duyulur[4,s.67].

Bəzən bələdçilər qrupu menecerlər qrupu daxilində fəaliyyət göstərir. Onlar hazır materiallarla tanış olur, marşrutlar üzrə özlərini hər zaman daha da təkmilləşdirirlər. Onlara bu işdə həmçinin ixtisaslaşmış menecerlər də kömək olurlar. Bələdçilərin belə hazırlığına marşrutlar üzrə ümumi baxış aparılır və onlara müəyyən peşəkarlıq dərəcələri təqdim olunur[3].

3. Bank-maliyyə göstəricilərinin təhlili. Qiymət marketinq fəaliyyətinin ən mühüm elementi olub, doğru seçilmiş qiymət strategiyası firmanın kommersiya fəaliyyətinə, turməhsulların və turfirmanın uzun müddətli rəqabətə davamlı olmasına təsir göstərir.

Qiymətqoyma firmanın marketinq kompleksinin əsas yönü olub, onun mənfəət həcmini müəyyənləşdirən mühüm vasitəsidir. Qiymətin təyinində bir neçə amil nəzərə alınmalıdır. Daxili amillərə nəzər salsaq:

Məhsulun bazarda yerini müəyyən edərək onun qiymət və dəyərini təyin etmək olar. Cari mənfəətin maksimuma çatdırılması üçün məhsulun qiymətinin maksimum səviyyədə təyin etmək lazımdır. Bunun üçün:

Ø Turizm firması digər firmalarda olmayan keyfiyyətli unikal məhsul təklif edir.

Ø Bu məhsullara olan tələb isə təklifdən üstün olur.

Belə olduqda təklif olunan qiymət real xərcləri olduqca üstələyir və uzunmüddətli perspektiv diqqətə alınmır, qısamüddətli olur. Firmada qiymətəmələgəlmə üsulunun seçimində iki yoldan istifadə edilir:

1) Məsrəflərə əsasında: məhsulun hazırlanmasına sərf olunan ümumi xərclər müəyyən olunur və firmanın əldə etməli olduğu mənfəətin miqdarı isə bu xərclərə əlavə olunur. Lakin bu vəziyyətdə məhsula olan tələb yəni, müştərilərin təyin olmuş qiymətlərə həssaslığı və reaksiyası, rəqiblərdəki anoloji turların qiymət səviyyəsi diqqətə alınmır.

2) Marketinq üsulu əsasında: burada rəqabətin səviyyəsi və müştərilərin tələbi diqqətə alınır. Habelə bazardakı mövcud cari qiymətlər də diqqətə alınmalıdır.

Təşkilat və ya firmanın xərcləri 2 yerə ayrılır: sabit və dəyişkən xərclər.

Sabit xərclər istehsalın həcmindən, struktur və məhsulun satışından birbaşa asılı olmur. Bura əsas (ştatlı) və köməkçi çalışanlara görə əmək haqqı və müvafiq ayırmalar, icarə haqqı, lisenziya və sertifikatlaşma üzrə xərclər, kommunal xidmətləri, əsas fondların amortizasiyası, telefon abunə haqları və s. aid olunur.

Dəyişkən xərclər isə istehsal və realizasiyanın həcmindən birbaşa asılı olur. Bura işçilərə verilən mükafatlar, material, yanacaq xərcləri, telefon ilə danışıq haqları, agentlər üzrə verilən ödəmələr və müvafiq ayırmalar və s. aid olunur[4,s.74].

2014-cü il üzrə firmanın ümümi xidmətlərinin dəyəri 800.000 AZN-ə yaxın olmuşdur. Personalın aylıq maaşlarına əlavə kimi onların fəaliyyətinə əsasən müvafiq kommisyon haqqı da verilir. 2020-ci ilin mart ayının əvvəlinədək Baktur firmasında turlar müntəzəm olaraq vaxtı vaxtında baş tuturdu. 2020-ci ilin mart ayından başlanan covid 19 pandemiyası üzündən işlərdə dayanma baş vermişdir. Təkcə baktur firması deyil dünyanın bir çox məşhur turizm firmaları durğunluq yaşamışdır. Nəticədə Baktur firması 2020-ci ildən bəri çox az turlar təşkil etmiş, xərclər gəlirlərdən çox olmuş, firma həmin il üzrə 16.500 AZN ziyanla işləmişdir[9].

## ƏDƏBİYYAT SİYAHISI :

1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı.

2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli sərəncamı.

3. "Bakı Turizm Ekskursiya" turizm firmasının cari sənədləri (2014-2021).

4. " Azərbaycanda turizm firmalarının fəaliyyət imkanları" elmi məqalələr toplusu, Bakı 2017.

5. Bahadur Bilalov. "Səyahət agentlikləri və turoperatorluq" Bakı – 2012.

6. İsrail. İ, Sənan. Ə, Fuad. C, Korporativ Sosial Məsuliyyət, Azərbaycan Reallığı və Turizm Sektorunda Tədbiq imkanları, Azərbaycan Turizm İnstitutu elmi məqalələr toplusu, 2002.

7. Sona Daşdəmirova. Yerli turizm şirkətlərinin satış və stimullaşdırılması. 8. Baktur - http://tourismbaku.com/ 9. https://www.stat.gov.az/source/tourism/ 10. www.turizm.az

# PEDAQOJİ KOLLEKTİVİN İDARƏ EDİLMƏSİNDƏ MƏKTƏB RƏHBƏRİNİN İMİCİNİN ROLU

**Gözəlova Tünzalə**
***Elmi rəhbər: Dos. Sahilə Orucova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti, Magistrant***
***gozelova.t@mail.ru***

**Açar sözlər:** Təhsil, rəhbər, pedaqoji kollektiv, imic, məktəb.
**Key words:** Education, leader, pedagogical collective, image, school.
**Ключевые слова:** Образование, лидер, педагогический коллектив, имидж, школа.

Son vaxtlar Respublikada ən çox müşahidə olunan, inkişafı üçün bir sıra işlər görülən, köklü islahatlar aparılan sahələrdən biri və ən başlıcası təhsil sistemi olmuşdur. Həmçinin, idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı xeyli addımlar atılmış, məktəb rəhbərlərinin menecerlik sahəsində biliklərə yiyələnməsi üçün işə qəbul mexanizmi yenilənmişdir. Bu baxımdan məktəb rəhbərinin bu sahədə yüksək səriştəyə, liderlik keyfiyyətlərinə malik olması, pedaqoji kollektivin peşəkarlığı böyük siyasi əhəmiyyət kəsb edir. Bu baxımdan təhsil müəssisəsinin rəhbərliyi iki növə ayrılır:

§ Təhsil prosesinin idarəedilməsi
§ Pedaqoji kollektivinin idarəedilməsi.

Müasir cəmiyyət daim müxtəlif səviyyəli təhsil sistemlərinin idarə olunması üçün yeni tələblər irəli sürür. Bütün bunlar idarəetmə sahəsi daxil olmaqla, təhsil sahəsindəki pedaqoji işçidən müasir düşüncəli, tamamilə fərqli peşəkar səriştə səviyyəsi tələb edir. Hazırda pedaqoji kollektivin inkişafı təhsil müəssisəsinin strateji hədəflərindən biridir. Belə ki, məktəb rəhbəri təhsil prosesinin birbaşa iştirakçısı olduğundan pedaqoji kollektivin bütün problemlərini bilir və anlayır. O, pedaqoji fəaliyyətdə həmkarları ilə qarşılıqlı əlaqədə olur, həmçinin şagirdlərdə təlim prosesinin uğurlu və mənfi cəhətlərini görür. Bu zaman müasir cəmiyyətin tələb və çağırışlarına əsaslanan təhsil prosesinin xüsusiyyətlərinə diqqət yetirilir. Pedaqoji kollektivin idarəetmə və hüquqi səriştəsi səviyyəsinin yüksəldilməsi bütövlükdə bir təhsil müəssisəsinin idarəetmə səmərəliliyi səviyyəsini artırır.

Ümumiyyətlə, təhsil müəssisəsi haqqında danışarkən, əksəriyyət dərhal məktəbi xatırlayır. Çünki məktəb məktəbəqədər, peşə, ali təhsil ilə müqayisədə ən uzun zamanın sərf edildiyi başlıca təhsil müəssisəsidir. Uşaqlıq və müstəqil həyatın başlanğıcı arasında müəyyən bir əlaqə yaradan da məhz məktəbdir. Məktəb yalnız tədris planının əsas fənləri üzrə yüksək keyfiyyətli bilik vermək üçün deyil, həm də gənc nəsli yetkinliyə hazırlamaq, qabaqcıl texnologiyalara yiyələnməyin zəruriliyini dərk etdirmək üçün yaranmışdır [2, s.62]. Bu müddətdə məktəb rəhbərinin imici imkan verirki, pedaqoji kollektivin peşəkarlığı və səriştəsi inkişaf etsin və onlarda problemləri, psixoloji sabitliyi, peşəkar və şəxsi keyfiyyətləri tez bir zamanda həll etmək istəyi və bacarığı formalaşsın. Bu kimi məsələlərin həlli zamanı təhsil müəssisələrinin pedaqoji kollektivi lazımi səviyyədə hazırlanmalıdır. Müəllimlərin fəaliyyəti mükəmməl metod və üsullara əsaslanaraq bir-biri ilə uyğunlaşmalı və yaxşı koordinasiya edilməlidir.

Bu gün təhsil sahəsindəki "idarəetmə" anlayışı əvəzinə "menecment" anlayışından istifadə olunur. Bu baxımdan idarəetmə anlayışı insanın maraqları və ehtiyacları, istiqamət və nəzarət sistemlərinin qarşılıqlı əlaqəsinin məcmusudur. İdarəetmənin əsas vəzifəsi təhsil müəssisəsində çalışan insanların səmərəli birgə fəaliyyəti üçün əlverişli, xarici və daxili şərait yaratmaqdır. İdarəetmə prosesində əsas obraz, hərəkətverici qüvvə lider, daha doğrusu liderin şəxsiyyətidir. Sözü gedən təhsil müəssisəsində də bunlar ilk növbədə direktor və müavinləridir. Məktəb direktorunun sadəcə rəhbər, menecer olması fikri də doğru deyil. Çünki o, pedaqoji fəaliyyəti idarə edir. Direktorun pedaqoji fəaliyyətin əsaslarını bilməməsi idarəetmənin bütün effektivliyini azaldacaq, imicini zədələyəcəkdir. Bu səbəbdən məktəb rəhbəri pedaqoji prosesin qanunauyğunluqlarına bələd olmalı və məlumatlı olmalıdır. Əvvəllər uzun müddət ən yaxşı müəllimləri direktor təyin etsələr də, bu gün məktəbin başında yalnız keçmişdə uğur qazanan müəllimləri deyil, həm də müasir mütəxəssisləri - menecerləri qoymağa çalışırlar. Məktəb rəhbərinin imici pedaqoji prosesin yaxşılaşdırılması üçün bir mənbə, təhsil alanın şəxsiyyətinin inkişafı üçün "vasitə" kimi qəbul edilir.

Bu gün məktəb rəhbərlərinin pedaqoji kollektivin idarəedilməsi ilə bağlı fəaliyyətləri çoxsaylı müzakirə obyektinə çevrilir. Bu mövzunun psixoloji baxımdan öyrənilməsi nisbətən son zamanlarda öz əksini tapmışdır. Eyni zamanda, bəzi tədqiqatçıların (A.P.Eqorşin, N.S.Kasatkina) qeyd etdiyi kimi, müasir dövrdə idarəetmə psixologiyasında gənc nəsil, valideynlər, pedaqoji kollektiv tədris-tərbiyə sisteminə müxtəlif mövqedən yanaşırlar. Bu baxımdan məktəb rəhbəri yeniliyə adaptasiya olaraq bir sıra idarəetmə vəzifələrini həll etmək məcburiyyətində qalırlar. Beləliklə, pedaqoji kollektivin fəaliyyətində yenilikçi metod və yanaşmaların vacib xarakter daşıyır, təhsil prosesinin inteqrasiyası da öz inkişaf yolunu tapır [3, səh.63].

Məktəb rəhbəri müəllimlərdə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədlərinə çatmasını təmin edir və bunlara daxildir:

- müəllimlərin özünü reallaşdırması və bunun üçün şərait yaradılması;
- müəllimlərin peşəkar bilik və bacarıqlarından səmərəli istifadə;
- əlverişli mənəvi və psixoloji iqlimin yaradılması və qorunması;
- pedaqoji kollektivin peşəkar ehtiyaclarının ödənilməsi.

Hər bir müəllim bənzərsiz və təkrarolunmaz bir şəxsiyyətdir, bu baxımdan məktəb rəhbərinin imici eyni yanaşmanın, eyni idarəetmə hərəkətlərinin fərqli işçilərə tətbiqinin təsirli olacağını gözləyə bilməz. Təcrübəli rəhbər başa düşür ki, insan təbiəti performans baxımından dəyişkəndir və bu təhsil müəssisəsinin

səmərəli fəaliyyəti üçün vacibdir. Bu halda pedaqoji kollektivi tanımaq, onun kim olduğunu öyrənmək lazımdır. Pedaqoji kollektivin təşkilində məktəb rəhbərinin işinə psixoloji dəstəyin təsirli yolları belədir:

1. psixoloq və məktəb rəhbərliyinin qarşılıqlı əlaqəsi üslub və metodların təkmilləşdirilməsinə yönəldilməlidir;

2. pedaqoji kollektivin inkişaf mərhələsinin xüsusiyyətlərinə uyğun olaraq müəllim heyətinin idarə olunması;

3. kollektivdə bir atmosferin formalaşması;

4. xeyirxahlıq, işçilərə hörmət və etimad, kollegial qərar qəbul etmə metodlarından istifadə, idarəetmənin demokratikləşdirilməsi [1, səh.63].

Deməli, pedaqoji kollektivin hər bir üzvünün öz iş yerində bir təşkilatçı kimi hiss edə bilməsi üçün rəhbərin psixoloji və pedaqoji şərait yaratması lazımdır. Bu da işçilər və şagirdlərlə işgüzar ünsiyyət prosesində məhsuldar idarəetmənin tətbiqi ilə əldə edilir:

- Pedaqoji kollektivin fəaliyyəti üçün optimal şəraitin formalaşdırılması;
- Münasibətlərin, şəxsi təmasların və s. strukturunun yaxşılaşdırılması;
- İnsanların psixoloji uyğunluğu nəzərə alınaraq ibtidai sinif kollektivləri üçün işə qəbul prosedurunun təmin edilməsi;
- Kollektiv üzvləri arasında effektiv qarşılıqlı əlaqə vərdişlərini inkişaf etdirmək üçün aktiv sosial-psixoloji metodlardan istifadə.

Pedaqoji kollektivi idarəetmə funksiyaları bir sıra vəzifələri: – kadr siyasəti, işçilərin seçimi; qiymətləndirmə və sertifikatlaşdırma; təlim; işçilərin yerləşdirilməsi əhatə edir. Təhsilin modernləşdirilməsi səbəbilə strateji hədəflər qoymağı və mürəkkəb problemləri həll etməyi bacaran, həmfikir kollektivin yaradıcısı olan rəhbər müsbət imicə, idarəetmə sənətinə, yüksək keyfiyyətə malik liderlərdir.

Hazırda “pedaqoji kollektiv” termininin tərifinə müxtəlif yanaşmalar mövcuddur. Psixoloji və pedaqoji ədəbiyyatın təhlili kollektivin ən mükəmməl tərifin Makarenkoya məxsus olduğu qənaətinə gəlməyə imkan verir: “Kollektiv birləşmə prinsipinə əsaslanan, qarşılıqlı əlaqələr sistemidir. Bu, insanları yalnız ortaq bir məqsəd üçün deyil, həm də birgə iş üçün və bu işin ümumi təşkili üçün birləşdirir. Pedaqoji kollektiv hər şeydən əvvəl isə şagirdlərin və cəmiyyətin maraqlarını təmsil edən, idarəetmə və əlaqələndirici orqanlar tərəfindən təsdiqlənən bir sosial qrupdur” [4, səh.14].

Məktəb rəhbərliyi pedaqoji kollektivin üzvlərində özünə inam yaratmalı, pedaqoji işin səmərəliliyini artırmaqda onları ruhlandırmalıdır. Bu o vaxt öz səmərəsini vermiş olar ki, rəhbərlik daim yenilik axtarışında olsun, əməyi sevsin, müsbət keyfiyyətləri ilə hər bir müəllimə nümunə olsun. Nəticədə, bir məktəb rəhbərinin imici, işi düzgün təşkil edilirsə, o zaman həmin müəssisənin pedaqoji kollektivi də yüksək nailiyyət və keyfiyyətləri ilə seçilir. Ümumiyyətlə, məktəb rəhbərinin psixoloji, sosial, mənəvi hazırlığı pedaqoji kollektivin işini düzgün qurmaqda öz əksini tapır. Rəhbərliyin pedaqoji kollektivi idarə etməsində əsasən aşağıdakı məsələlərə diqqət yetirilir:

- Pedaqoji kollektivdəki hər bir üzvün siyasi-ideya səviyyəsinin yüksəldilməsi,
- Müəllimlərin təhsili və onların ixtisasartırmaları,
- Təlimin inkişafı, yenidənqurulması,
- Pedaqoji kollektivdəki hər üzvün təşəbbüskarlığına nail olunması,
- Məktəbin keçirdiyi ictimai çıxışların təsiriylə əlverişli mühit yaratmaq,
- Pedaqoji kollektivin asudə vaxtının səmərəliliyini təşkil etmək, müəllimlərin maddi və mədəni şəraitinə qayğı göstərmək.

Məktəb rəhbərliyi pedaqoji kollektivin idarəolunması prosesində “sabah gec olar” prinsipi ilə yaşamalı, hər yaranan vəziyyətlə bağlı digər variantları olmalıdır. O, öz imici ilə kollektivə təsir etməli, bu şəkildə münasibət qurmağı bacarmalıdır. Hədəfə gedən yol düzgün seçilmiş rəhbərliyin fəaliyyətindən, bacarığından asılıdır. Məktəb rəhbərliyi ilk gündən nəzarətin hər mərhələsinə həssaslıqla yanaşmalıdır. Rəhbərliyin nəzarəti kollektivdəki işin icrası zamanı məsuliyyət hissini, əməyin səmərəliliyini, onlarda dərin müşahidəçilik qabiliyyətini artırır. Bu şəkildə pedaqoji kollektivin iştirakçıları tapşırılan işi dərindən təhlil edir və hərtərəfli ümumiləşdirməyi bacarır.

**ƏDƏBİYYAT SİYAHISI :**

1. Haqverdiyev B. İdarəetmə psixologiyası. Bakı: Elm, 2008. -304s.
2. Məmmədov.S İdarəetmənin əsasları, Bakı: Nurlan, 2009, 140s.
3. Егоршин А.П. Управление персоналом: Учебник для вузов / А.П. Егоршин. 3-е изд. Нижний Новгород: НИМБ, 2013. 713 с.
4. Пивченко В.П. Педагогический коллектив в воспитательной системе А.С.Макаренко: исторический контекст и современный взгляд / В.П. Пивченко // Сибирский педагогический журнал, 2013. № 1. 204 с.

## MAIN VIRUS DISEASES OF CUCURBITACEAE AND THEIR MANAGEMENT

**Guliyeva Aytac, Sultanova Nargiz**
***Institute of Molecular Biology and Biotechnologies,***
***Azerbaijan National Academy of Sciences***

Plant diseases of Cucurbitaceous crops in various countries around the world cause significant economical losses between 15- 20% and sometimes up to 90%. Modern and accurate diagnosis of the disease plays an important role in the development of an ecologically efficient protective system and in preventing crop losses [1]. Managing diseases is a very important component of production for melons, cucumbers, squashes, pumpkins, and other cucurbit crops. Among the most widespread vegetable species in our country, the total production of Cucurbitaceae plants is second only to tomatoes. Due to the rich climate diversity, many plant species belonging to Cucurbitaceae are grown in our country. Cucurbitaceae production in Azerbaijan was 47% in 2019, but in 2020 dropped to 34%. There are many pests and various disease factors that lead to a decrease in production. Viral diseases are one of the main reasons of the loss of Cucurbitaceae production. Melons, watermelons, cucumbers and pumpkins, the main agricultural species of Cucurbitaceae are infected with at least 59 characteristic viruses that are widespread throughout the world. These include Zucchini yellow mosaic virus (ZYMV), Cucumber mosaic virus (CMV), Pumpkin mosaic virus (SqMV), Watermelon mosaic virus (WMV) and Papaya ring spot virus –W (PRSVW), which considered dangerous for vegetable plants. Such diversity of viruses is probably based on the ecological and genetic biodiversity of their plant hosts [2]. On the other hand, Cucurbitaceous crops are grown in various agricultural ecosystems, from the cultivation of watermelons by the classical method of irrigation, to the cultivation of cucumbers in greenhouses. These various environmental factors create desirable conditions for specific viruses and their insect vectors. Twenty-six strains of viruses infected Cucurbitaceae crops are found in the Mediterranean countries, while only four viruses (WMV, ZYMV, CMV and Cucurbit aphid-borne yellows (CABYV)) are shown to be prevalent in Azerbaijan. Most viruses that infect Cucurbitaceae crops belong to the Potyviridae family [3]. It should be noted that this is the most widespread group of plant viruses. This family of viruses includes more than 200 well studied and not yet well-studied plant viruses. Viruses of this genus cause great economic losses, resulting in a decrease in product quality and quantity throughout the world.

**References:**

1. Гусейнова И.М., Султанова Н.Ф., Маммадов А.Ч., Алиев Д.А. Вирусные заболевания, поражающие овощные культуры в Азербайджане. Элм-2012, с.118.
2. Desbiez C., Verdin E., Moury B., Lecoq H., Millot P., Wipf-Scheibel C., Sultanova N., Mirzayeva S., Balakishiyeva G., Mammadov A., Kheyr-Pour A., Huseynova İ. Prevalence and molecular diversity of the main viruses infecting cucurbit and solanaceous crops in Azerbaijan. European Journal of Plant Pathology, 2019, p. 1-11.
3. Desbiez C., Lecoq H. Viruses of Cucurbit Crops inthe Mediterranean Region:An Ever-Changing Picture. Advances in Virus Research. Academic Press, 2012, p.68-114.

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ FƏAL TƏLİM ÜSULLARI

**Hacıyeva Kəmalə**
***Mingəçevir Dövlət Universitetinin magistrantı***
***Elmi rəhbər: fil. f. d., dosent Namaz Manafov***

**Açar sözlər:** Azərbaycan dili, dərs planı, fəal təlim, problemli situasiya, beyin həmləsi.
**Ключевые слова:** Азербайджанский язык, план урока, активное обучение, проблемная ситуация, мозговой штурм.
**Key words:** Azerbaijani language, lesson plan, active learning, problem situation, brainstorming.

Fəal (interaktiv) təlim dedikdə şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlim nəzərdə tutulur. Fəal təlimdə müəllim və şagird tamhüquqludurlar – hər ikisi eyni dərəcədə nəticənin müəllifidir və ona görə məsuliyyət daşıyırlar. Buna görə də fəal təlim demokratik metod sayılır.

Fəal (interaktiv) təlim tədrisin və idrak fəaliyyətinin təşkilinin və həyata keçirilməsi metodlarının cəmidir. Bu təlimin səciyyəvi cəhətlərinə nəzər yetirək:

1. Müəllim tərəfindən şüurlu surətdə problemli situasiyanın yaradılması;
2. Problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaş-dırılması;
3. Şagirdlər üçün yeni və zəruri biliklərin müstəqil kəşfi, əldə edilməsi və mə-nimsənilməsi üçün şəraitin yaradılması

Yeni təlimin mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni biliklərlə zənginləşdirməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu metod biliyin şagirdin özünün fərdi və ya qrup şəklində axtarıb-tapma bacarığının formalaşmasında əsas amildir. Müəllim təlim prosesində daha çox təşkiledici, əlaqələndirici, istiqamətverici, şagirdlər isə təcrübəçi, tədqiqatçı, yaradıcı kimi fəaliyyət göstərirlər.

Təlim prosesinin iki tərəfi vardır: tədris etmə, öyrənmə. Tədris etmə birbaşa müəllimin işini tənzimləyən amilləri əhatə edir. Proqram, dərslik, təhsilə dair rəsmi sənədlər buraya daxildir. Öyrənmə isə prosesin gedişini və onun obyektini - şagirdi nəzərdə tutur. Bu iki tərəfin qarşılıqlı fəaliyyəti əsasında təlim prosesi həyata keçirilir. Təlim prosesində müəllim şagirdlərə müxtəlif bilikləri, bacarıq və vərdişləri aşılamaq üçün müxtəlif üsul və vasitələrdən istifadə edir. Bu vasitələrə yol, üsul, qayda, yaxud da tərz deyilir. Bu nəticəyə gələ bilərik ki, biliyi şagirdlərə çatdırmaq yolları təlim üsullarını - öyrənmə və öyrətmə prosesini təşkil edir.

Dərsi daha düzgün qurmağa çalışan müəllim hər zaman şagirdləri təlimə necə cəlb edəcəyini yaxşı bilir. Əyləncəli sinif fəaliyyətlərini dərs planına daxil etmək şagirdlərin öyrənmə motivasiyasını artırır, onlara yaradıcılıq və təxəyyüllərindən istifadə etmək imkanı yaradır. Təlim taktikalarından istifadə şagirdləri dərsə daha yaxşı cəlb edir və passiv öyrənmə prosesini aktiv öyrənmə ilə əvəz edir (2).

Azərbaycan dili dərslərində Əqli hücum, Söz assosiasiyaları, Müzakirə, Debatlar, Sual-cavab, Layihələr, BİBÖ, Venn diaqramı, Şaxələndirmə, Auksion, Fasilələrlə oxu, Proqnozlaşdırılmış oxu, İstiqamətləndirilmiş oxu, Ziqzaq üsulu ilə oxu, Qərarlar ağacı və s. interaktiv üsullardan istifadə etmək daha məqsədə uyğundur. Sintaksis bölməsinə daxil olan mövzuların tədrisi zamanı aşağıdakı üsullardan daha çox istifadə edirəm:

***Beyin həmləsi (Əqli hücum).*** İdeyaların cəmləşməsi, yığılması və problemin həlli vasitəsi kimi təklif edilmiş bu metodun yaradıcısı Amerika psixoloqu Aleks Osborn hesab edilir. Dərsin motivasiya və ümumiləşdirmə mərhələlərində 10-15 dəqiqə ərzində böyük və kiçik qruplarla iş formasında aparılır. Müəllim bir mövzunu, problemli situasiyanı və ya sualı şagirdlərə təqdim edir. Şagirdlər ağıllarına gələn ideya, mümkün həll variantları və ya uyğun gələn assosiasiya və sözləri ortaya atırlar. Qeyd etmək lazımdır ki, şagirdlər bu zaman səslənən fikirləri mühakimə etməməli, hər bir fikrə mümkün həll yolu kimi baxmalıdırlar. Sonra müəllim yığılan ideyaları bir lövhədə bir yerə yığa və ardınca müzakirəni başlaya bilər (1).

**Nümunə:** Motivasiya mərhələsində müəllim lövhəyə leksik mənası olan və olmayan sözlər yazıb onları əlaqələndirmək üçün şagirdlərə müraciət edir. Bunun üçün **söz assosiasiyası** üsulundan istifadə edilir.




Xatırladaq ki, şagirdlərin aşağı siniflərdə söz birləşməsi haqqında müəyyən qədər məlumatları vardır. Buna görə də bu tapşırığı yerinə yetirmək şagird üçün çətinlik törətməyəcək. Alınan cavablar müzakirə edilir.

***BİBÖ.*** BİBÖ cədvəli şagirdlərə mövcud bilikləri ilə yeni biliklər arasında əlaqə yaratmaq imkanı verən həm iş üsulu, həm də müəllimlər üçün diaqnostik qiymətləndirmə vasitəsidir. BİBÖ ilkin və qazanılmış bilikləri ölçür, müəllimə şagirdin bilik səviyyəsi haqqında bir fikir verir və şagirdlərə öyrəndikləri haqqında refleksiya etmək imkanı təqdim edir (1). ***Klaster (şaxələnmə)*** 5-7 dəqiqə ərzində tanış mövzu əsasında böyük və kiçik qruplarda şagirdləri sərbəst düşünməyə sövq edir, söz assosiasiyaları tapmaq və lüğət ehtiyatını zənginləşdirmək məqsədi ilə aparılan iş növüdür. Mərkəzi anlayış (söz) lövhənin mərkəzində yazılır. Deyilən bütün sözlər qeyd olunmaqla əlaqəli sözlər şaxələndirilir (3).

***Anlayışların çıxarılması.*** Oyun-tapmaca formasında olan bu üsul yeni anlayışların müstəqil çıxarılması məqsədilə tətbiq edilir və şagirdlərdə fəallığı artırır, tənqidi təfəkkürü inkişaf etdirir. 10-15 dəqiqə vaxt ərzində aparılır, şagirdlərə ipucu məqsədli sözlər təqdim olunur (3).

***Kublaşdırma*** tədqiqat metodlarından biri olub mövzunun hərtərəfli öyrənilməsinə şərait yaradır. Kublaşdırma vasitəsilə şagird mövzunu təsvir və müqayisə etməyə, əlaqələndirməyə, təhlilə, tətbiq və mübahisəyə yönəldir. Bu zaman şagirdin tənqidi və məntiqi təfəkkürü inkişaf edir, mövzuya hərtərəfli baxışı, qiymətləndirmə bacarığı, əməkdaşlıq vərdişləri formalaşır. Bu metod müəllimə imkan verir ki, mövzunu, vəziyyəti ətraflı tədqiq etsin, şagirdlərin mürəkkəb və inteqrativ yanaşmalarına şərait yaradılsın (2).

1. Təsvir et - Söz birləşmələri necə yaranır ?
2. Müqayisə et - Söz birləşmələri ilə mürəkkəb sözlərin hansı oxşar və fərqli xüsusiyyətləri var ?
3. Əlaqələndir - Söz birləşmələri ilə mürəkkəb adların yaranmasında hansı oxşar xüsusiyyətlər var ?
4. Təhlil et - Söz birləşmələrinin tərəfləri hansı nitq hissələrindən ibarət olur, söz birləşmələrinin əsas tərəfinə görə hansı növləri var ?
5. Tətbiq et- Söz birləşmələrindən harada və hansı məqsədlə istifadə olunur ?
6. Lehinə, yaxud əleyhinə mühakimə yürüt - Söz birləşmələri nitqdə istifadə olunarkən fikrin daha dəqiq çatdırılmasına xidmət edə bilirmi ?

## ƏDƏBİYYAT SİYAHISI :

1. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, “Elm və təhsil”, 2019, 384 səh.
2. İ. Həsənov, A. Rüstəmova, N. Babayeva. Kurikulum. Metodika. Pedaqogika, “Mücrü” nəşriyyatı. Bakı-2020, 228 səh.
3. M. Aranlı, C. Yusifova. “Kurikulum. Metodika və Məntiq testləri”, Bakı-noyabr-2016, “Nərgiz-N”, 348 səh.

# "QUBA" ADLI XALÇANIN NAXIŞ VƏ KOMPOZİSİYASININ TƏHLİLİ

**Hacıyeva Leyla**
***Azərbaycan Texnologiya Universiteti, Magistrant***
***Elmi rəhbər:t.e.d.,Bayram Bagırov***
***lhacizade@mail.ru***

## XÜLASƏ

**Açar sözlər:** kompozisiya, naxış, stilləşdirmə, qrafik.

Məqalədə Quba ərazisində toxunan və hazırda Azərbaycan Dövlət Xalça Muzeyində saxlanılan "Quba" adlı xalçanın kompozisiyaları və naxışları təhlil edilir Xalçadakı naxış və kompozisiyaların təhlili göstərdi ki, onda stilləşdirilmiş 70-dən çox naxış və ornamentlər vardır. Bu xalçanın baxımlılığını, diqqətçəkənliliyini dahada artırır.

Dünya çapında Azərbaycan dekorativ tətbiqi sənətləri içərisində xalça əsas yer tutur. arasında aparıcı sahələrdən biri xalçaçılıqdır. Milliliyi saxlamaqla bütün azərbaycan xalçaları həyatın ümumbəşəri fəlsəfəsini, təbiət qanunauyğunluğunu naxışlarla ifadə edir [1,2,3,4]. Xalça zərif ilmələrlə, müxtəlif rəng çalarlı naxışlar və təsvirlərlə bəzədilən bədii toxuculuq nümunəsidir. Ümumi təsnifata görə xalçalar iki cür olur, xovlu və xovsuz.Ölçücə böyük xalçaya xalı və kiçik xalçaya elə xalça deyirlər. "Quba" xalçası kiçik xalça qrupuna aiddir. Ona görə də ona xalça, yəni kiçik xalı deyirlər.

Azərbaycan Respublikasında xalça sənətinin ilk tədqiqatçılarından olan Lətif Kərimovun [1] araşdırılmaları nəticəsində, Azərbaycan xalçalarının 500-dən çox kompozisiyasının mövcud olmasını təyin etmişdir. O, Azərbaycan xalçalarını növlərə və qruplara bölmüşdür və onları əsasən Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz növləri kimi təsnif etmişdir.

Lətif Kərimov "Azərbaycan xalçaları"nın birinci cildində xovlu və xovsuz xalçalar üzərindəki 1300-ə yaxın naxış elementlərini sistemləşdirib təsnif etmişdir. Xalq arasındakı adlarını və mənalarını verməklə, bu ulu sənətin dərin qatlarını araşdırmışdır [1].

Quba xalçaçılıq sənəti və burda nəsillərdən nəsillərə ötürülən bu məktəb bənzərsiz naxış kompozisiyaları ilahəmişə seçilmişdir. Quba xalçaçılarının fərqli xüsusiyyətlərindən biri onların işə ciddi münasibəti və işlərinin keyfiyyətli olması üçün ona xüsusi önəm verirlər.

Quba xalçalarının ən məşhur xalçalarından biri "Quba" adlı xalçadır. "Quba" adlı xalçanın kompozisiyası əsrlər öz orginallığı ilə seçilmişdir. Onun ara sahəsində 3, bir-birinin üzərində yerləşmiş fon yerləşib. Alt qatdakı fon qırmızı rəngdə olub düzbucaqlı formasındadır. Onun üzərində yenə də daha kiçik formada uzunsov fon düzbucaqlı mehrabla tamamlanır. Onda şəkəri rəngli ensiz bir zolaqla əhatələnən ikinci fon mövcuddur. Bu fon rəngi qırmızıdır. Üçüncü fon isə xırda, incə, bir-birinin yanına düzülmüş oxvarı elementlərlə əhatələnmişdir. Buna xalq arasında "cağ" və ya "mollabaşı" deyilir.

Quba xalçaları adətən sıx toxunuşludur. "Quba" xalçası üzərində çəhrayı, ağ, sürməyi, saysız-hesabsız naxış elementləri var. İçərisində xüsusi rənglər vasitəsilə həndəsi elementlər, o cümlədən rombvarı, kənarı qarmaqlı elementlər, saysız-hesabsız nəbati elementlər, ağac, gül, budaq, yarpaq, çiçək, müxtəlifformalı çəmən çiçəkləri, həmçinin heyvan, əjdaha, xoruz, tovuz quşları və s. mövcuddur. Burada qadın və kişi rəsmləri, simvolik elementlərdən daraq və bərəkət simvollu nal, ən çox rast gəlinən astranomik elementlərdən ay və səkkizgüşəli ulduz rəsmləri əks olunub. Xalçada olan bütün bu elementlər çoxluğu nəinki forma, həm də rəng baxımından xalçada boyu müxtəlif istiqamətlərdə səpələnmiş və fərdi şəkildə yerləşmişdir. Bu da xalçanın kompozisiyasında elementlərin düzülüşünün asimmetrik quruluşa malikliyini göstərməklə onu digər xalçalardan əsaslı surətdə fərqləndirir və bu sahədə maraqlı yenilikdir.

Xalça beş haşiyə qurşağından –birinci haşiyənin yerliyi qırmızı, gəzməsi sürməyi və elementinin yerliyi şəkəri olan "dolanmaqıynaq" mədaxildən, ikinci haşiyənin yerliyi şəkəri, gəzməsi sürməyi və elementlərinin yerliyi qırmızı, tünd-mavi və qızılı-sarı ana haşiyədən, üçüncü haşiyənin yerliyi tünd-mavi, elementi şəkəri rəngli "zəncir" mədaxildən, dördüncü haşiyənin yerliyi tünd-mavi, gəzməsi sürməyi və qırmızı, elementlərinin yerliyi qırmızı, şəkəri və qızılı-sarı "qeysibişax" zəncirədən, beşinci haşiyənin yerliyi şəkəri, elementlərinin yerliyi sürməyi "zəncir" mədaxildən ibarətdir. Bütün haşiyələr bir-birindən

müxtəlifrəngli olmasına görə seçilir və sularla ayrılır. Xalçadakı naxış və kompozisiyaların təhlili göstərdi ki, onda stilləşdirilmiş 70-dən çox naxış və ornamentlər vardır. Bu xalçanın baxımlılığını, diqqətçəkənliliyini dahada artırır.

## ƏDƏBİYYAT

1.Керимов Л.Азербайджанский ковер, т.1.Лелинград, 1961.
2.Алиева К. Безвоорсовые ковры Азербайджана. Баку.Ишыг.1988
3.Kübra Əliyeva. “Azerbaycan sanatında Dünya ağacı, hayat ağacı və onun mitolojik esasları”. 15-16-17 Mayıs 2014, VIII uluslararası kültürü sanatı və kültürelmirası koruma sempozyumu/sanat etkinlikleri. Editörler:Osman Kunduracı, Ahmet Aytac.Konya-Türkiye,10 şubat 2016.
4.Tağıyeva Röya. Azərbaycan xalçası. Bakı,1999

## АНАЛИЗ УЗОРА И СОСТАВА КОВРОВ ГУБЫ
## РЕЗЮМЕ

**Ключевые слова:** *композиция, узор, стилизация, графика.*

В статье анализируются композиции и узоры ковра «Губа», сотканного на территории Губы и в настоящее время хранящегося в Азербайджанском государственном музее ковра.

Анализ узоров и композиций на ковре показал, что на нем более 70 стилизованных узоров и орнаментов. Это усиливает смотровую вид и внимание к ковру.

## ANALYSIS OF THE PATTERN AND COMPOSITION OF LIPS CARPETS
## SUMMARY

**Key words:** *composition, pattern, stylization, graphics.*

The article analyzes the compositions and patterns of the Guba carpet, woven on the territory of Guba and currently stored in the Azerbaijan State Carpet Museum. Analysis of patterns and compositions on the carpet showed that it has more than 70 stylized patterns and ornaments. It enhances the look and attention to the carpet.

# COVİD 19 PANDEMİYASININ MAKROİQTİSADİ TƏSİRLƏRİ

**Hacıyev İlqar**
***Dövlət Gömrük Komitəsinin Akademiyası***
***İxtisas: Gömrük işi II kurs magistrantı***
***Email.ilqarhaciyev1997@gmail.com***

## XÜLASƏ

Koronavirus pandemiyası dünya miqyasında çox sayda insan ölümünə səbəb olmuşdur. Qlobal pandemiya insan sağlamlığından başqa həm də tələb-təklif tarazlığını pozmuş, iqtisadiyyatı dayanma nöqtəsinə gətirmişdir. Iqtisadiyyatın demək olar ki bütün sahələri bundan təsirlənmişdir. Səbəb olduğu fəliritkisi ilə fərdlərin və cəmiyyətin rifahına mənfi təsir etmişdir. Koronavirus pandemiyası sürəti, dərinliyi və təsir gücü ilə dünyanı indiyə qədər görülməmiş iqtisadi böhranla qarşı qarşıya qoymuşdur. Pandemiyanın tibb və səhiyyə sistemindəki risklərindən əlavə iqtisadi riskləri də olduqca vacibdir.

**Açar sözər**. Koronavirus pandemiyası, Qlobal ticarət həcmi, Dövlətin maliyyə balansı

**Tədqiqat metodları:** Araşdırma bir neçə metoddan istifadə edilərək hazırlanmışdır. Məqalədə tədqiqat əsasən təhlil və sintez metodlarından istifadə edilmişdir. Mövcud ədəbiyyatın incələnməsi və beynəlxalq təşkilatların dərc etdiyi materiallar əsasında məsələ tədqiq edilmişdir. Məsələnin daha ətraflı tədqiq etmək üçün müqayisə metodundan istifadə eilmişdir.

**GİRİŞ**

2019-cu ilin sonundan etibarən Çində başlayaraq bütün dünyaya yayılan Covid19 Ümumidünya Səhiyyə təşkilatı tərəfindən qlobal bir epidemiya olaraq qəbul edilmişdir. Qlobal pandemiya ilk olaraq insan həyatına təsir edir və insan sağlamlığını təhlükə altına alırdı. Sağlıq krizini aradan qaldırmaq üçün Beynəlxalq Valyuta Fondunun hesabatlarında müəyyənləşdirdiyi kimi qlobal səviyyədə "təcrid tədbirləri" başladıldı. Təcridetmə tədbirləri içərisində ilkin olaraq insanların hərəkəti məhdudlaşdırılmış, gömrük qapıları bağladılmış və uçuşlar təxirə salınmışdır. Hətta bəzi ölkələr sərhədlərini və limanlarını belə bağlamış, mal idxalını dayandırmışdır. Beləliklə də ölkəyə giriş-çıxış nəzarət altına alınmışdır. İnsanların biri biri ilə olan təmasını minimuma endirmək üçün bəzi iş yerlərində evdən işləmək və fasilələrlə işləmək qərarları alınmışdır. Bu müddətdə əlaqələrin, maliyyə əməliyyatları və alış-verişin maksimum səviyyədə onlayn formada həyata keçirilməsi təmin olunmuşdur.

**Pandemiyanın makroiqtisadi təsirləri.**

2020-ci ilin birinci rübündə epidemiyanın təsiri və epidemiyaya qarşı tədbirlərin təsirindən asılı olaraq bütün dünya iqtisadiyyatında biri birinin ardınca problemlər yaşanmağa başlamışdır. COVİD 19 dünyaya yayıldıqdan sonra qlobal bazarlar dayanma nöqtəsinə gəldi. Dünya ticarəti dramatik şəkildə azalmağa başladı. Maliyyə bazarları böyük itkilərə məruz qaldı və ilin sonunda birjalardakı ucuzlaşmanın 2008 Qlobal Böhranından daha yüksək olacağı proqnozlaşdırılırdı. Iqtisadi təsirləri baxımından COVİD 19 pandemiyası 1929-cu il iqtisadi böhranından bu yana yaşanan ən böyük qlobal böhran olaraq görülür. Alınan tədbirlər çərçivəsində ticari həyat yalnız zəruri ehtiyacların qarşılanması üzərində davam etdirilir. Bir çox ölkədə küçələr boş qalmış, istehsal-istehlak tarazlığı pozulmuş, ticarət axsamışdır.

Araşdırmanın bu hissəsində 2000-2021- ci illər arasında qlobal dövlət maliyyə tarazlığı, qlobal işsizlik dərəcələri, inflyasiya dərəcələri, qlobal ticarət həcmi və qlobal artım templəri verilmişdir və proqnozlaşdırılmışdır. Beləliklə pandemiyanın yaxın gələcəkdə gözlənilən təsirlərini görmək mümkündür. Bundan əlavə iyirmi iki il ərzində dünya miqyasında baş verən sarsıdıcı və dərin iki qlobal böhranın təsirləri müqayisə olunur.

**Böhranın qlobal ticarət həcminə təsiri.**

Pandemiyanın qlobal iqtisadiyyatda izlərini araşdırmaq üçün əmtəə ticarətinin və toplam ticarət həcminin bilinməsində fayda var. 2019- cu ildə dünya ticarəti onsuz da bir qədər yavaşlamağa meyilli olmuşdur. Pandemiya səbəbi ilə də ticarət dövriyyəsində olan yavaşlama dünyada iqtisadi aktivliyi bir qədər də azaltmağa başlamışdır. Ümumidünya Ticarət Təşkilatı ticarət proqnozu ilə bağlı mətbuat konfransında 2019-cu ilə nisbətən dünya ticarətində 13-32% azalma olacağını bildirdi. Ümumidünya Ticarət təşkilatı tərəfindən hazırlanan ticarət həcmi rəqəmləri və 2020-2022 ci illərə dair proqnozlar Qrafik1-də verilmişdir. Qrafikə görə 2020-ci ildə ticarət həcmində azalma müşahidə olunur, lakin 2021 və 2022 ci illərdə yenidən vəziyyətin yaxşılaşacağı gözlənilir. Yaxşı halda 2020-ci ildən sonra ticarət dövriyyəsinin sürətlə bərpa olunacağı proqnozlaşdırılır. Hətta 2022-ci ildə pandemiya öncəsi proqnozlaşdırılan nəticəyə də çata bilərik. Pis halda isə qismən bir toparlanma gözlənilir. Ancaq qrafik göstərir ki, 2008-ci il böhranından əvvəl ticarət dövriyyəsinin tendensiyası tutulmayacaq kimi görünür. ( ÜTT, 2020a; 2)

2000-2019- cu illər ərzində gerçəkləşdirilmiş və 2020-2021-ci illərdə proqnozlaşdırılan ticarət həcmi məlumatları Qrafik2-də göstərilmişdir. 2008-ci qlobal böhranından sonra ciddi daralmaya məruz qalan dünya ticarəti ilk dəfə 2009-cu ildə b -10.46% neqativ böyümə yaşamışdır. Dünya ticarəti 2010-cu ildə +12,52%-li sürətli artım yaşasa da 2011-2019- cu illərdə ortalama 3.57%-lik artım yaşamışdır. 2011-2019- cu illərdə yaşanan düşüşün arxasında 2008-ci il böhranının təsirləri, ABŞ və Çin arasındakı ticarət savaşları və həddindən artıq borcu olan inkişaf etməkdə olan ölkələrin idxalı azaltmaları durur. (EBSO, 2020: 12).

2019-cu ildə qlobal investisiyalar və ticarətdə eniş tendensiyası başladı. 2019-cu ilin son rübündə yaranan pandemiya ilə birlikdə dünya şiddətli bir qlobal böhrana girməkdən qaça bilmədi. 2020-ci ildə dünya ticarətində -11.5% azalmanın yaşanması qeyd olunur.

**Qrafik1.** Toplam mal ticarəti həcmi; 2000-2022 (2015=100)




**Mənbə:** Ümumidünya Ticarət Təşkilatının dataları əsasında müəllif tərəfindən hazırlanıb.

**Qrafik -2.** Toplam Ticarət Həcmi 2000-2021(%)




**Mənbə:** Beynəlxalq Valyuta Fondunun dataları əsasında müəllif tərəfindən Tableau proqramı vasitısiyə hazırlanmışdır.

Pandemiya ilə gələn iqtisadi böhranın altında yatan səbəblərin 1929 və 2008 böhranlarından fərqli olduğu görülür. Əvvəlki böhranlarda hökumətlər sürətlə iqtisadiyyatı təşviq etməyə başlamışdılar. Ancaq COVİD19 pandemiyasının nəzarət altına alınması üçün görülən tədbirlərin bir nəticəsi olaraq vəziyət daha da dərinləşməyə doğru gedir. Sağlıq krizi olaraq başlamış, iqtisadi krizis olaraq davam etmişdir. Bu durumda iqtisadiyyatın təşviqi daha da çətinləşmişdir. Digər böhranlardan fərqli olaraq pandemiyadan qabaq bank sektoru yetərli sərmayələrə sahibdir və iqtisadi tarazlıq pozulmamışdır. Iqtisadiyyatı bir avtomobilin mühərriki ilə müqayisə etsək, 2019-cu ilədək mühərrikin gücünün yerində olduğunu deyə bilərik. Ancaq pandemiya avtomobilin mühərrikinə gedən yanacaq xəttini kəsdi. Yanacaq xəttinin mühərrikə birləşdirilməsi; ən qısa zamanda pandemiyanın nəzarət altına alınmasının hökumətlərin düzgün siyasət tədbirləri ilə mümkün olduğu deyilir. (ÜTT, 2020a və ÜTT, 2020b).

**Pandemiyanın dövlətin maliyyə balansına təsiri**

Dövlətin maliyyə balansının qorunması makroiqtisadi cəhətdən çox əhəmiyyətlidir. Dövlətin maliyyə kəsirlərinə qarşı daxili investisiya və istehsal gücü artırılmasa iqtisadiyyat təhlükə altına düşər. Dövlətin maliyyə balansı qorunmazsa nəticədə inflyasiya, faiz, böyümə və inkişaf kimi makro göstəricilərə mənfi təsir edər. Buna görə də araşdıracağımız əsas məsələlərdən biri də dövlətin maliyyə balansındakı dəyişimlər olacaq.

Koronavirus pandemiyası ilə tibbi avadanlıqlara və dərmanlara ehtiyacın artması, səhiyyə sektorunda xərclərin və sosial təhlükəsizlik dəstəyinin artırılıması hökumətlər qarşısında əlavə xərclərə gətirib çıxardı. Bundan əlavə pandemiya səbəbi ilə şirkətlər və ev təsərrüfatları iqtisadi tənəzzülə uğradılar. Həmçinin hökumət iqtisadiyyatı ayaqda saxlamaq üçün yardım paketləri də ayırmalı olurdu. Bununla da nisbətən də olsa iqtisadiyyatı genişləndirmə siyasəti həyata keçirir. Bütün bunların nəticəsi olaraq da dövlətin büdcəsində kəsir formalaşmış olur və borclanma artmış olur (Dünya Bankı).

Dövlətlərin maliyyə balansını ölçmək üçün dövlət borc alma-vermə əmsalları Qrafik3-də verilmişdir. 2008-ci ildən əvvəl inkişaf etməkdə olan ölkələr borclanma əmsalları o qədər də yüksək deyildi. 2008 böhranı inkişaf etmiş ölkələrin borclarını - 8.7%- ə endirmiş, inkişaf etməkdə olan ölkələrdə bu göstərici - 3.7%- ə enmişdir. Dünya üzrə borclanma əmsalı isə -6.4% olmuşdur.

**Qrafik-3.** Ölkələrin borclanma dərəcələri ( ÜDM-də payı %-lə)




**Mənbə:**Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun dataları əsasında müəllif tərəfindən hazırlanıb.

2019-cu ildə hər iki ölkə qrupunun da maliyyə balansında pozulma olmuşdur. Lakin 2020-ci il üçün ssenari heç də parlaq deyil. 2020-ci ildə dövlətlərin xarici borc əmsalları ən dibi gördü. Inkişaf etmiş ölkələrdə bu göstərici -10.6%, inkişaf etməkdə olan ölkələrdə isə -8.9% olmuşdur. 2021-ci ildə inkişaf etməkdə olan ölkələrin borclanma əmsallarını yarı-yarıya -5.4%-ə düşürəcəyi proqnozlaşdırılsa da, inkişaf etməkdə olan ölkələrin bundan çoxda asan qurtula bilməyəcəyi düşünülür. Xülasə, koronavirus pandemiyasının dövlətlərin maliyyə malansına təsirinin 2008 böhranından daha çox olduğunu görə bilərik. Dövlətin maliyyə balansındakı pozulma inflaysiya, faiz dərəcələri və iqtisadi böyümə sürətinə də təsir edəcəyi gözlənilir.

**Nəticə**

2020-ci il əsasən qlobal pandemiya elan edilən COVİD-19 virusu ilə mübarizə şəraitində keçmişdir. Qlobal ticarətin kəskin azalması, təchizat zəncirində pozulmalar, iş yerlərinin bağlanması və artan qeyri-müəyyənliklər qlobal iqtisadi aktivliyə mənfi təsir göstərmiş, əmtəə qiymətlərinin kəskin dəyişkənliyi müşahidə olunmuşdur. İqtisadi aktivlikdə enişi yumşaltmaq məqsədilə bir sıra ölkələrdə ev təsərrüfatlarını və müəssisələri dəstəkləmək üçün fiskal stimul paketləri elan edilmiş, ekspansiv pul siyasəti və faizlərin endirilməsi tədbirləri həyata keçirilmişdir. İlin ortasına doğru nisbətən səngiyən COVID-19 pandemiyasının, son rübdə yenidən güclənməsilə bir çox ölkələr yenidən məhdudlaşdırıcı tədbirləri bərpa etmişlər.

**ƏDƏBİYYAT SİYAHISI :**

1.Euler Hermes, (2020). Ekonomik Görünüm: Covid-19 Karantinadaki Ekonomiler, https://www.eulerhermes.com/tr_TR/ekonomik-arastirmalar/ekonomik-gorunumraporlari/ekonomik-

gorunum-covid-19-karantinadaki-ekonomiler.html, https://www.eulerhermes.com/tr_TR/covid-19.html (E.T. 7.5.2020).
2. European Commission (EC), (2020a). Spring 2020 Economic Forecast: A Deep And Uneven Recession, An Uncertain Recovery, https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_20_799 (E.T. 7.5.2020).
3.International Monetary Fund (IMF), (2020a). World Economic Outlook (April 2020), https://www.imf.org/external/datamapper/GGXCNL_NGDP@WEO/OEMDC/ADVEC/WEOWORLD (E.T. 7.5.2020).
4.International Monetary Fund (IMF), (2020b). World Economic Outlook: The Great Lockdown, World Economic Outlook 2020 Reports, https://www.imf.org/en/Publications/WEO/Issues/2020/04/14/weo-april-2020 (E.T. 7.5.2020)
5.International Monetary Fund (IMF), (2020c). World Economic Outlook 2020, https://www.imf.org/external/datamapper/datasets/WEO (E.T. 7.5.2020).
6.World Bank (WB), (2020a). Net lending/Net borrowing (% of GDP), https://data.worldbank.org/indicator/GC.NLD.TOTL.GD.ZS?end=2018&start=2000 (E.T. 7.5.2020)
7.World Trade Organization (WTO), (2020a). Trade Statistics And Outlook: Trade Set To Plunge As KOVİD-19 Pandemic Upends Global Economy, https://www.wto.org/english/news_e/pres20_e/pr855_e.pdf (E.T. 7.5.2020).

## FİRMA YANAŞMALARI VƏ FİRMANIN ŞAQULİ İNTEQRASİYA NƏZƏRİYYƏSİ

**Hacıyev Seymur Oktay oğlu**
**«Azərbaycan» Universitetinin doktorantı**

Firma və şaquli inteqrasiya anlayışlarına tərif verərkən bir sıra çətinliklərlə üzləşilir. Bu çətinliklər, ilk növbədə, bu anlayışların qavranılmasının mürəkkəbliyi, ikincisi isə, bu sahədə bir çox yanaşmaların mövcudluğu ilə əlaqədardır. Firma nəzəriyyəsi ona fərqli bucaqlardan baxan çoxsaylı yanaşmalarla xarakterizə olunur. Ancaq məqalənin məqsədi onu şaquli ölçüsü ilə təyin edən yanaşmalarda cəmlənəcəkdir. Bu konteksdə biz neoklassik yanaşmanı – texnoloji cəhəti vurğulayır və firmaya istehsal funksiyası kimi yanaşır, yeni müqavilə nəzəriyyələrini – daha çox stimullar məsələlərinə və müqavilə bağlamağın müxtəlif formalarına nəzər yetirir, ayırd edirik. Bir iqtisadi agent kimi iqtisadi resursların daha səmərəli paylanmasına çalışaraq, firma məhsul və xidmət istehsalını təmin edir. O, əvvəlcə texniki problemi həll etməlidir. Bunun üçün buraxılışı maksimuma çatdıracaq istehsal amillərinin optimal uyğunluğu seçilməlidir. Sonra mənfəəti maksimuma çatdıracaq buraxılış səviyyəsi seçilməlidir. Başqa sözlə, mənfəətin maksimum olması üçün vacib şərt, adətən, istehsalın marjinal dəyəri və marjinal mənfəətin (qiymətin) tarazlaşdırılaması ilə ifadə olunur. Firmaya marjinal baxış bir neçə cəhətdən, xüsusən, optimallaşdırıcı tərzi və məqsədinin unikallığına görə tənqidə açıqdır. Faktiki olaraq, təşkilat üzvləri tez-tez mürəkkəb hesablamalar əvəzinə kobud qaydalardan istifadə edirlər, ələlxüsus, gözlənilməz vəziyyətlər zamanı proqnozların qeyri-müəyyənliyini nəzərə alırıq. Bu halda firma artıq öz məqsədinə çatmaq üçün asılı olduğu dəyişənlərin hamısını idarə etmir (Nayt, 1933). Eynilə, təşkilatlar mənfəətin maksimuma çatdırılması, o cümlədən, sıxışdırılıb çıxarılmama, təhlükəsizlik, satış artımı, rəhbərliyin istirahəti və səlahiyyətiylə ziddiyyət təşkil edə biləcək bir çox məqsədə malik ola bilər (Monsen və Douns, 1965; Bomol, !959; Kert və Març, 1963). Beləliklə, neoklassik nəzəriyyənin tənqidçiləri bu yanaşmanın məqsədlərinin yetərincə real olmamasını və firmanın işləməsi, tərzi və məqsədi baxımından onu qavramamasında israr edirlər. Lakin qeyd etmək lazımdır ki, marjinal nəzəriyyədə firma modeli real dünyada firmanın tərzini izah etmək və proqnozlaşdırmaq məqsədi daşımır, müşahidə edilən qiymətlərin izahı və proqnozlaşdırılması üçündür. Buna görə, biz bu nəzəriyyəni qarşısına qoymadığı məqsədə çatmamaqda təqsirləndirməməliyik (Meçlap, 1967). Beləliklə, neoklassik yanaşmanın məhdudiyyətləri bir çox nəzəriyyələrin yaranmasına

səbəb oldu. Bu nəzəriyyələr stimul və müqavilə bağlanmasının müxtəlif formaları məsələlərində diqqəti cəmləyərək, real dünyada firmanın fəaliyyətinin daha dolğun təsvirini verməyə çalışırlar. Bu, xüsusilə, prinsipal-agent nəzəriyyəsi üçün xarakterikdir – təşkilatın müxtəlif üzvlərini birləşdirən agent əlaqələri ilə firmanı müəyyənləşdirir, mahiyyət etibarilə mülkiyyət və nəzarətin fərqləndirilməsi ideyasına, həmçinin, onlar (səhmdarlar və menecerlər) arasında fikir ayrılığı və ya maraqların toqquşmasına əsaslanmışdır. Nəticədə, bu yanaşma neoklassik baxışın müəyyən çatışmazlıqlarını aradan qaldırmağa imkan verir. Belə ki, o, müasir firmaların reallığına daha yaxın yanaşmanı qəbul edir və firma fəaliyyətinin vacib cəhətlərinin təsvirini verərək, qara qutunun nisbi yalanını açıqlayır. Lakin prinsipal-agent yanaşması əvvəlki kimi istənilən obyektiv firma nəzəriyyəsi üçün vacib görülən bəzi məqamların izahını verə bilmir – məsələn, iyerarxiyada hakimiyyətin qərar qəbulu mexanizmini və rolunu izah etmir. Beləliklə, bu nəzəriyyə firmanın digər iqtisadi agentlərlə, həmçinin, bazarla əlaqəsinin təsvirini verə bilmir və bu cür müxtəlif münasibətlərin agent problemləri ilə məhdudlaşdırılması reallığı hədsiz kiçiltməkdir. Agent yanaşmasından fərqli olaraq, əməliyyat xərcləri nəzəriyyəsi öz metodunun orijinallığı və cavab verməyə çalışdığı sualların aktuallığı cəhətdən xüsusilə vacibdir. Həqiqətən, nəzəriyyədə aşağıdakılarla xarakterizə olunan müqavilə yanaşmasından istifadə edilir:

1. Təhlilin əsas vahidi kimi əməliyyatı saxlayan mikroanalitik yanaşmanın qəbul edilməsi.
2. İqtisadi sistemin fəaliyyətinə yaxşı uyğunlaşan daha realistik tərz fərziyyələrinin saxlanılması.
3. İqtisadi fəaliyyətdə eyni rola malik iki iqtisadi sistem kimi firmanı və bazarı nəzərdən keçirən sistem təhlilinin aparılması.
4. Firmanın idarəetmə strukturu kimi nəzərdən keçirilməsi.

Beləliklə, əməliyyat xərcləri nəzəriyyəsində firma və bazar məqsədi istehsalı koordinasiya etmək olan iki alternativ rejim kimi nəzərdən keçirilir. Firmanın xaricində bir sıra bazar mübadilələrini koordinasiya edilən istehsalı qiymətlərin qalxıb düşməsi istiqamətləndirir. Digər tərəfdən, bu bazar əməliyyatları firmanın daxilində mürəkkəb mübadilə strukturunu əvəz edən koordinasiyaedici sahibkar tərəfindən aradan qaldırılır. Buna görə, seçim rəhbərlik tərəfindən razılaşdırma və qiymət razılaşdırılması arasında edilir. Nəticədə hər bir əməliyyat üçün tələb olunan təşkilat forması, ən az əməliyyat xərclərinə gətirən forma olacaq. Kouzuya görə (1937), bu prinsip firmanın böyüməsini və optimal ölçüsünü təsvir edərək işləyir. Lakin əməliyyat xərcləri nəzəriyyəsi çoxsaylı tənqidlə üzləşdi – bunlar, əsasən, onun aşağı əməliyyat xarakterli olmasına aid idi. Bu kontekstdə Klark (1985) hesab edir ki, firmanın əməliyyat nəzəriyyəsi mahiyyət etibarilə təsviri idi və əməliyyat tərkibindən məhrum idi, çünki empirik olaraq yoxlanıla bilən fərziyyələr təqdim edə bilmir. Eynilə Alçian və Demsets (1972) nəzəriyyəni iki tərəfdən tənqid edirlər. Birincisi, onun iddialarına rəsmi formanın verilməsinin mürəkkəbliyinə aiddir. Belə ki, adətən əməliyyat xərclərinin xarakterini göstərmək mümkün olmur. İkincisi, firmada hakimiyyətin rolu və bazarda qiymət mexanizmi dixotomiyasının zəifliyinə aiddir. Əməliyyat xərcləri nəzəriyyəsinə ünvanlanmış bir sıra tənqidi qeydlər natamam müqavilə anlayışına dair mühüm ədəbiyyatın yazılmasına səbəb oldu. Bu, firma və müqavilənin fərqli idarəetmə üsulu olduğu faktını vurğulayır və şirkətə müqavilədə nəzərdə tutulmayan gözlənilməz vəziyyətlərin müəyyənləşdirməyin bir üsulu kimi baxır. Bu yanaşma, bəzi halların gözlənilməz və ya hamısının yazılı formada göstərilməyəcək qədər çox olduğu üçün müqavilələrin mütləq natamam olması ideyasına əsaslanır. Natamam müqavilələr və yüksək əməliyyat xərcləri ilə səciyyələnən bir dünyada firma istehsal prosesində istifadə olunan fiziki aktivlərin mülkiyyətə verdikləri qalıq nəzarət hüquqları kimi müəyyən edilir. Beləliklə, mülkiyyət hüquqlarına əsaslanan yanaşma, öz mülahizələrini bu ideya üzərində qurur ki, aktivlərə malik olmaq onu natamam müqavilədə nəzərdə tutulmayan bütün hallarda istifadə etmək hüququ verir. Lakin bu hüquqlar yalnız fiziki aktivlərə aiddir, çünki onlar insan aktivlərindən fərqli olaraq satıla və ya ötürülə bilər. Beləliklə, mülkiyyət hüquqları nəzəriyyəsinin mülahizələri sahibkarlıq və nəzarət arasında açıq bir fərq qoymur. Bununla belə, bu anlayış sadəcə kiçik firmalara aid edilə bilər – burada nəzarət sahibkarın əlində toplanmışdır, kapitala malik şirkətlərə aid edilə bilməz, onlar sahibkarlıq və nəzarət arasında daha gözəçarpan fərqlə səciyyələnir. Beləliklə, bu çatışmazlıq yanaşmanı yalnız fərdi şirkətlərə aid etməyə imkan verir.

# RESEARCH OF MANAGEMENT PROCESS OF ANDROID OPERATING SYSTEM

**Phd Hajiyeva Rena, Eshrefov Ulvi**
*Western Caspian Universiteti, High Technology and İnnovative Engineering Faculty, İnformation Technologies Depatment*
*Western Caspian University, master of İnformation Technologies*
ulvieshrefov002@gmail.com, rena_gajieva@yahoo.com

Android is an operating system for mobile devices, TV, etc. If you search in google that how many active Android devices exist in the world, you might be surprised. This number is 2.5+ billion, which the number of people who live in the whole world is 7.9 billion. Of course, there are other mobile operating systems like IOS, Windows(WP), HarmonyOS, etc. But, the maximum number of users of operating system among three is İOS with 728 million, which three times less than Android OS. Also, there are different platforms to develop mobile applications for different operations systems. There are Android Studio, Flutter, Swift, React Native, etc. The platform that used to develop the Event App is Android Studio. With this platform, you can develop different kinds of applications for different sizes of mobile devices, TV, and smartwatches [1].

Event App is designed for the users to publish their events about anything. First of all, if you don't have an account to sign in to, you have to create a new account to sign in to the application. There is also the possibility to reset your password if you lost your password. It is a very simple procedure by writing only an email of yours. Reset instructions will come to that email via the link. If everything is OK, and you signed in then you are ready for publishing an event. It is very easy to publish an event with this program. There are just a few sections that you have to fill for publishing [2]. They are title and information about the event, cost of entrance, location of that event's take place, time, and three pictures to describe what kind of event is this. Also, you can edit any attributes of that event at any time, or delete them in the shared events section. Share an event and shared events will be seen when clicking on the top left button on the home screen. When you click an event on the home screen there will be seen user profile photo and all off publish attributes [3].

There are search functions and a profile information section on the top right of the home screen on the application. With the search function, you can filter the events that you are interested in or find the exact event that you are looking for. In the profile information section, there is information about the user's account and sign-out function. Also, you can put a profile photo from the camera or device and remove the photo in the profile information section. When you try any of these activities you can see that profile photo is automatically changing for every event that you published. This is because this application is connected to the Firebase database and its Real-Time database feature. The database which we have used for my Event App is Firebase. The structure of Firebase is based on the JSON tree. And it stores all of the data as a JSON file [4]. Unlike the other databases, there are no tables in Firebase. It saves the data as children of some node. If you want to see the child or children of this node, it is enough to click on it. There are different special keywords for each operation. For example, to add the node to Real-time Database we have to use the push () key. Every time user is created, Firebase automatically generates the user's uidd(id). What is uidd? This is the type of id, but the main difference is that it is not a number. It is just a bunch of characters and all users' uidd are unique. With the help of it, we can easily fetch the data from Firebase and publish it in our project [5].

## REFERENCES :

1. Holder, E., Shah, E., Davoodi, M., & Tilevich, E.Cloud twin: Native execution of Android applications on the Windows Phone. In Automated Software Engineering (ASE), 2013 IEEE/ACM 28th International Conference on (pp. 598-603). IEEE,2013.
2. Willocx, M., Vossaert, J., & Naessens,V. Comparing performance parameters of mobile app development strategies. In Proceedings of the International Workshop on Mobile Software Engineering and Systems (pp. 38-47), 2016.

3. Ryu, S., Lee, K., & Han, H. In-memory write-ahead logging for mobile smart devices with NVRAM. IEEE Transactions on Consumer Electronics, 2015.
4. Li,Q., & Clark, G.Mobile security: a look ahead. IEEE Security & Privacy, 11(1), 78-81,2013.
5. Willocx, M., Vossaert, J., & Naessens, V.Comparing performance parameters of mobile app development strategies. In Proceedings of the International Workshop on Mobile Software Engineering and Systems (pp. 38-47),2016.

## ŞORAKƏTLƏŞMİŞ TORPAQLARIN KİMYƏVİ MELİORASİYASI

**Həsənli P.N.**
***Elmi rəhbər: dos. İbrahimov S.K***
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Magistr***
***hesenli_p@list.ru***

### XÜLASƏ

Şorlaşmış torpaqların əsas meliorasiya üsullarından biri də kimyəvi meliorasiyasıdır. Bu üsulda kimyəvi meliorantlardan istifadə etməklə, yeni yuma metodu hazırlayırlar. Bu metodun əsas məqsədi ondan ibarətdir ki, torpağın məhsuldarlığını aşağı salan zərərli və toksik duzların daha faydalı duzlarla əvəz olunaraq yuma prosesinin intensivliyini artırmaq və torpağın su keçirmə qabiliyyətini yüksəltməkdən ibarətdir.

**Açar sözlər.** Kimyəvi meliorasiya, torpaq, Şorlaşma, şorakətləşmə, yuma, meliorasiya, qranulometrik tərkib.

### RESUME

### CHEMICAL LAND RECLAMATION OF CONCRETE SOILS.

One of the main methods of reclamation of saline soils is chemical reclamation. In this method, a new washing method is developed using chemical ameliorants. The main purpose of this method is to increase the intensity of the washing process and increase the permeability of the soil by replacing harmful and toxic salts, which reduce soil fertility, with more useful salts.

**Key words**: Soil, chemical reclamation, salinization, the soil washing, land reclamation, granulometric composition.

Respublika ərazisində münbitliyi və məhsuldarlığı aşağı olan torpaqlara müxtəlif səbəblərdən şorlaşmış və şorakətləşmiş torpaqları nümunə göstərə bilərik. Bu cür torpaqlar kənd təsərrüfatı üçün yararsız hesab olunur ki, bu torpaqları ilk olaraq əsaslı sürətdə yaxşılaşdırmaq lazımdır. Kənd təsərrüfatının qarşısında duran ciddi məsələlərdən biri də şorlaşmanın qarşısını alıb kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq və yararlı əkin sahələrini artırmaqdan ibarətdir. Şorlaşmaya məruz qalmış torpaqlarda münbitlik və məhsuldarlıq istifadəyə yararlı torpaqlarla müqayisədə dəfələrlə aşağı olur, bu tip torpaqlarda  ya bitkilər ümumiyyətlə bitmir, ya da inkişaf etmir. Şorlaşma ilə mübarizə aparmazdan öncə onun genezisini, yaranma səbəbini və hansı xüsusiyyətlərə malik olduğunu tədqiq etmək lazımdır. Respublika ərazisində şorlaşmış torpaqlara ən çox rast gəlinən quraq iqlim şəraitinə malik olan  və düzənlik əraziləri misal göstərə bilərik. Bu torpaqlar üçün əsas səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, bümumi buxarlanmanın atmosfer yağıntılarından xeyli yüksəkdə olmasıdır. Daha çox şorlaşmış torpaqlara  mailli dağətəyi düzənlikləri, Kür-Araz ovalığını və Xəzər dənizinin qədim vadilərini misal göstərə bilərik. Bu cür torpaqların yaxşılaşdırılaraq yenidən istifadə olunması ölkə iqtisadiyyatı üçün olduqca vacibdir.

**Cədvəl 1. Torpağın şorakətlik dərəcəsinə görə təsnifatı.**

| Natriumun miqdarı, udulmuş əsasların cəmindən %-lə | Torpaqlar |
|---|---|
| 5-dən az | Şorakətləşməmiş |
| 5-10 | Zəif şorakətləşmiş |
| 10-15 | Orta şorakətləşmiş |
| 15-20 | Şiddətli şorakətli |
| 25-50 | Şorakət |
| 50-dən artıq | Şiddətli şorakət |

Hal-hazırda bu problem öz aktuallığını qoruyub saxlayır. Adi yuma üsulları ilə bu problemi həll etmək olduqca çətindir. Yəni su sızdırma qabiliyyəti aşağı olan, belə torpaqların duzlardan təmizlənməsi və yaxşılaşdırılması müxtəlif həcmdə verilmiş su normaları ilə yumaqla həll oluna bilmir. Buna görə də, daha mütərəqqi üsulların işlənib hazırlanması əsas tələblərdən biri hesab olunur.

Son illərdə şorlaşmış torpaqların sistemləşdirilməsi üçün "Bitkilərin duza davamlılığa ilə əlaqədər torpaqların şorlaşma dərəcəsinə və keyfiyyətinə görə təsnifatı" istifadə olunur. (cədvəl 1). Bu təsnifata uyğun olaraq, sodalı şorlaşmış torpaqlar üçün 0-60 sm-lik qat bitkilərin inkişaf etdiyi qat sayılır. Suvarılan torpaqlar üçün bu qatın qalınlığı 1,0-1,5m qəbul edilir. [2]

Şorlaşmış və şorakətləşmiş torpaqların meliorasiyası üçün əsas göstəricilərdən biri də onların şorakətləşmə dərəcəsi hesab olunur. Meliorasiyaya başlamazdan öncə ilk növbədə həmin torpaqların şorlaşma və şorakətləşmə səbəbi, genezisi, yayılması və şorakətləşmə dərəcəsi düzgün olaraq təyin olunmalıdır. Daha sonra bu göstəricilərə uyğun olaraq meliorasiya üsulu seçilib, tətbiq edilməlidir. Şorakətləşmə dərəcəsi orta və ya çox yüksək olduqda kimyəvi meliorasiya üsulu daha effektiv hesab olunur.

Şorlaşmış torpaqların yaxşılaşdırılması üçün istifadə olunan ən geniş üsullardan biri də torpağa kimyəv meliorantların verilməsidir. Torpağa kimyəvi meliorantların verilməsi zamanı kolloid hissəciklərinin intensiv koaqulyasiyası baş verir ki, bunun da nəticəsində torpaq hissəcikləri arasında boşluqlar əmələ gəlir, məsaməlik artır, süzdürmə qabiliyyəti artır, uducu kompleksdə udulmuş natrium kalsium ilə əvəz olunması nəticəsində onun keyfiyyət göstəriciləri artır. [1;8]

Kimyəvi meliorasiyanın əsas məqsədi torpaqların strukturunu yaxşılaşdırmaq, torpaqların susızdırmaq qabiliyyətini yaxşılaşdırmaqdan ibarətdir. Hal-hazırda kimyəvi meliorant kimi bir sıra maddələrdən istifadə olunur, buna misal olaraq xam gipsi göstərə bilərik. Gips maddəsi ilə torpaqların yaxşılaşdırılması olduqca effektiv üsul hesab olunur və bu proses gipsləşdirilmə adlanır.

Torpaqların münbitliyinin artırılmasında istifadə olunan mühüm üsullardan biri də gipsləmə üsuludur. Bu üsul akademik K.K.Qedroyts tərəfundən təklif edilmişdir. Bu üsul kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını xeyli miqdarda artırır. Prosesə başlamazdan öncə gipsin təsir göstərmə qabiliyyəti artırılmalıdır. Prosesi sürətləndirmək üçün gipsin yumşaq un formasında olması məqsədəuyğun hesab olunur. Gipslənmə işi suvarılan torpaqlarla yanaşı, suvarılmayan torpaqlarda da aparıla bilər. Torpaqda udulmuş natriumun miqdarından asılı olaraq gipsləmə prosesindı torpağa verilən gipsin miqdarı hesablanır. Gipsləmə prosesi nəticəsində torpağın bir sıra fiziki-kimyəvi və aqrofiziki xassələri əvvəlkinə nisbətən yaxşılaşır və həmçinin bu torpaqlarda strukturanın da yaxşılaşmasına gətirib çıxarır. Gipsin torpağa verilməsi vaxtı və verilmə texnologiyası dəqiqliklə təyin olunmalıdır. Belə ki, gipsi torpağa küləksiz sakit havalarda vermək daha məqsədə uyğun hesab olunur.

Kimyəvi meliorasiya üsulunda diqqət edilməli əsas məsələlərdən biri də torpağa verilən kimyəvi meliorantin miqdarıdır. Bu prosesin uğurlu olması üçün meliorantın miqdarı əsas amillərdən biridir. Kimyəvi meliorantın miqdarını təyin etmək üçün udulmuş natriumun $HCO_3$ və $CO_3$, udulmuş Ca və Mg analizlərinin məlumatlarından istifadə edirlər. Meliorasiyada istifadə olunan turşunu istifadə edərkən ümumi təhlükəsizlik qaydalarına əməl etmək ən vacib məsələlərdən biri hesab olunur. Burada əsasən zəif sulfat turşusu məhlulundan istifadə olunur. Ilk növbədə torpağın şumlanması və hamarlanması prosesi aparılır, daha sonra isə müəyyən olunmuş miqdarda turşunun torpağa hopdurulması həyata keçirilir. Şorakət və soda ilə şorlaşmış torpaqlarda sulfat turşusu tez və yaxşı təsir göstərən meliorantdır. Lakin qatı sulfat

turşusu torpağa verildikdə torpağın uducu kompleksini pozur və onda mənfi xüsusiyyətlər yaradır. Odur ki, sulfat turşusu zəif məhlul halında (1-2 və 5%) işlədilməlidir.

Bundan əlavə aparılmış təcrübələr zamanı müəyyən olunmuşdur ki, ağır torpaqlar şəraitində yuma zamanı torpağın duzlardan təmizləmə effekti aşağı olur, yuyulmuş ərazidə şorakətləşmə və şorlaşmanın bərpa olunması kimi mənfi hallar meydana çıxır. Su sızdırma qabiliyyəti aşağı olan, natrium-maqnezium – sulfat duzları ilə şorlaşmış belə torpaqların duzlardan təmizlənməsi və yaxşılaşdırılması müxtəlif həcmdə verilmiş su normaları ilə yumaqla həll oluna bilmir. Buna görə də şorlaşmış torpaqların, xüsusi ilə ağır mexaniki tərkibli torpaqların zərərli duzlardan təmizlənməsini intensivləşdirmək yollarını təkmilləşdirmək və daha mütərəqqi üsullar hazırlamaq və istehsalata tətbiq etmək bu gün vacib məsələlərdən biri kimi qarşıya qoyulur.

Kimyəvi meliorasiya tam həyata keçirildikdən sonra həmin torpaqlardan yenidən eyni miqdarda analiz üçün torpaq nümunəsi götürülür. Ilkin və sonda alınan nəticələr müqayisə olunaraq kimyəvi meliorasiyanın effektivliyi müəyyən olunur.

**NƏTİCƏ**

Şorakətləşmiş və şorlaşmış torpaqların imyəvi meliorantların tətbiqi ilə aparılan yuma işlərinin sonrakı inkişafı göstərdi ki, ağır torpaqlarda yumanın effektivliyini yüksəltmək üçün sulfat və xlorid turşusunun zəif məhlullarından müvəffəqiyyətlə istifadə etmək olar. Məlumdur ki, mineral turşular çox güclü həlledicilər olub, nəinki torpaqda olan duzları eyni zamanda, çətin həll olunan digər maddələri də həll etmək qabiliyyətinə malikdirlər.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Ağır qranulometrik tərkibli torpaqların münbitliyinin artırılmasına təsir edən amillər, Ekoenergetika, Bakı, 2018, №3, s.27-34.
2. Ə.C.Əhmədzadə, A.C.Həşimov, “Ensiklopediya Meliorasiya və Su Təsərrüfatı” Bakı-2016, 632s
3. Əhmədzadə Ə.C., Həşimov A.C. Meliorasiya və su sistemlərinin kadastrı. Bakı: Azərnəşr, 2006, 272 s.
4. Cəfərov M.İ. Torpaqşünaslıq (I hissə), Bakı, «Maarif», 1982. 221 s.
5. Cəfərov M.İ. Torpaqşünaslıqdan praktikum. Bakı, «Maarif», 1984.
6. M.R.Abduyev“ Azərbaycanda şorakət torpaqlar və onların yaxşılaşdırılması” Bakı-2003, 66 səh.
7. M.Y.İsgəndərov “Şorlaşmış torpaqların meliorsiyası və ətraf mühit” Bakı-2018, 369 səh.
8. Uzun müddət təsir göstərən meliorativ maddələr və torpaqların yaxşılaşdırılmasında onların rolu, Azərbaycan Aqrar elmi, Bakı, 2018, №4, s82-84


## ƏLİLLİYİ OLAN UŞAQLARA QARŞI BULLİNQ VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI


**Həsənova Aytac**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Dürdanə Əliyeva***



**Açar sözlər:** əlilliyi olan uşaqlar, bullinq, bullinqin qarşısı alınması.
**Key words:** children with disabilities, bullying, prevention of bullying.
**Ключевые слова:** дети с ограниченными возможностями, издевательства, предотвращение издевательств.


Son zamanlar dünyanın bütün ölkələrində təhsil müəssisələrində müşahidə olunan ən qabarıq problemlərdən biri təhsilalanların təzyiq və aqressiv davranışların hədəfi olmasıdır. Onlardan biri son vaxtlar leksikonda yer almış bullinqdir. İlk dəfə 1985-ci ildə Böyük Britaniyada işlədilən bu termin bu

mövzuda ilk tədqiqat işləri üzə çıxdıqdan sonra XX əsrin əvvəllərində geniş istifadə olunub. Bullinq – bu bir uşağın başqaları tərəfindən təqib olunması, aqressiv davranışdır.

Bullinq başqa mənfi davranış və xoşagəlməz əməllərdən 3 səciyyəvi xüsusiyyəti ilə fərqlənir:

qəsdən törətmə

təkrarlanma

güc bərabərsizliyi

Uşaqların bullinqə məruz qalmağının əlamətləri:

Bədəndə kəsik və ya qançır kimi fiziki əlamətlər;

Məktəbə getmək yaxud sosial tədbirlərdə iştirak etmək həvəsinin olmaması;

Şəxsi əşyalarını tez-tez itirməsi və yoxa çıxması;

Özünü tənha hiss etməsi barədə şikayətlər;

Davranışında aşkar mənfi dəyişikliklər yaxud da bir qayda olaraq istifadə etdiyi marşrutdan və s. imtina etməsi;

Aqressivlik va ya düşməncəsinə davranış;

Tibbi səbəblər olmadan fiziki ağrılar hiss etməsi;

Başqalarına, məsələn bacı-qardaşına qarşı bullinq etməsi;

Təlim nailiyyətlərinin azalması və fikrini cəmləyə bilməməsi;

Əvvəllər narahat olmadığı məsələlər barədə şikayətlənməyə başlaması.

Bütün uşaqlar gec-tez bullinqlə rastlaşırlar; ya qurban, incidilən şəxs və ya şahid kimi, yəni həm onlayn, həm də reallıqda. Bütün bu rollar uşağın şəxsiyyətinə dağıdıcı təsir göstərir. Əgər siz öz həyatınızda heç vaxt digər, daha güclü və ya daha çox səlahiyyət sahibi olan insan tərəfindən sistematik təqib və ya başqa zorakılıq hiss etməyibsinizsə, belə görünə bilər ki, bullinq xırda məsələdir. Bununla belə, ABŞ təhsil sisteminin Departamentinin məruzəsinə əsasən, 12 yaşdan 18 yaşadək hər dörd uşaqdan biri son məktəb ili ərzində bullinqin qurbanı olub.

Bullinqə məruz qalan tərəf adətən sosial cəhətdən aşağı imkanlara sahib kəsdir ki, ona qarşı bullinq törətmək asandır və nəticə də bullinq törədənlərin cəza ilə üzləşmək ehtimalı olduqca aşağıdır. Bullinqin qurbanı olan şəxslər çox zaman digərlərindən fərqlənən geyimə, davranışa, danışığa, xarici görünüşə sahib olur.

Qeyd etməliyik ki, əlliliyi olan şəxslər də bullinq qurbanı olurlar. Çox zaman əlilliyi olan şəxslər əlilliyi olmayan şəxslər tərəfindən aqresiyyaya, zorakılığa, təhqirə məruz qalırlar. Amma unutmaq olmaz ki, belə bir halların qarşısını almaq vacib şərtlərdən biridir. Əlilliyi olmayan şəxslərin bullinqə məruz qalması çox pis haldır. Əlilliyi olan uşaqlar çox tez-tez hallarda aşağı səviyyəli hesab edilir, bu isə onların həssaslığının artmasına gətirib çıxarır. Əlilliyə əsaslanan ayrı-seçkilik özünü resurslardan və qərarların qəbul edilməsi prosesindən təcrid edilmədə, o cümlədən hətta uşaq qatilliyində özünü göstərmişdir. Təcrid olunma bir çox hallarda görünməzliyin nəticəsidir. Əlilliyi olan uşaqlara qarşı ayrı-seçkilik əlilliyi olan insanların digər insanlardan aşağı olduğu anlayışından irəli gələrək onlara qarşı təzyiq, sui-istifadə, bullinq davranışlarını əhatə edir. Əlilliyi olan şəxslərə qarşı ayrı-seçkilik, ilk növbədə, insanların yanaşmaları ilə bağlıdır: bu yalnız insanların şüurlu şəkildə ayrı-seçkiliyə əsaslanan rəftara deyil, həmçinin insanların qeyri-şüuru şəkildə əlilliyi olan insanlara qarşı rəftarına aid edilir.

Dövlətlər fiziki məhdudiyyətli insanlara qarşı cəmiyyətdə hələ də mövcud olan mənfi münasibətlərin dəyişdirilməsi istiqamətində tədbirlərə yardım etməlidirlər. (Əlilliyi Olan İnsanlara Bərabər İmkanların Yaradılması üzrə BMT-nin Standart Qaydaları)

BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyasına əsasən:

Hər kəsin irsən aldığı ləyaqətinə, seçim etmə azadlığına və müstəqilliyinə hörmət etmək;

Ayrı – seçkiliyə yol verilməməsi (hamı ilə ədalətli rəftar etmək );

Cəmiyyətdə tam iştirak və inteqrasiya (icmanın həyatına daxil olunma);

Əlilliyi olan uşaqların inkişaf bacarıqlarına və öz şəxsiyyətlərinin qorunub saxlanması hüquqlarına hörmət (bacarıqlarına görə hörmət edilməsi və kim olduğundan qürur duyulması)

Əgər bullinqə məruz qalan uşaqlarla qarşılaşmısınızsa, aşağıdakı məsləhətləri verməyiniz vacibdir:

Bullinq edən uşağın səni vurmasına və ya nəzarətdə saxlamasına icazə vermə. Təmkinli olmağa çalış. Onun üzünə baxaraq qətiyyətlə bildir ki, bunu etməsin. Yaxud heç bir reaksiya nümayiş etdirmədən və ya

cavab vermədən həmin yeri tərk et (üzündəki təbəssüm onu daha sərt və hətta zorakı əməllərə təhrik edə bilər)

Təhqir şifahi xarakter daşıdıqda, buna səthi yanaş və mübahisə etməkdən çəkin. Bullinq edən uşaqla mübahisə etmə, bu, onun daha da aqressiv olmasına və nəticədə vəziyyətin ağırlaşmasına gətirib çıxara bilər.

Fiziki zorakılıq təhlükəsi yarandıqda, təhlükəsiz yer tapmağa çalış. Bullinq edən uşağı dayandır və özünü müdafiə et (bullinq edən uşağın əllərini tutub saxlamağa çalış). Bunu edə bilmirsənsə, həmin yerdən dərhal uzaqlaş və böyüklərdən kömək istə.

Etibar etdiyin şəxslə bu barədə danış. Valideyninə və ya müəlliminə və yaxud qardaş-bacına, dostuna/rəfiqənə bu barədə danış, kömək axtar

Hal-hazırda Azərbaycan məktəblərində bullinq, onun təzahür formaları və onunla mübarizə haqqında məlumat çatışmazlığı vardır. Bunun qarşısının alınması və əlilliyi olan uşaqların məktəblərdə bullinqdən azad bir məktəbdə təlim-tərbiyə alması üçün təxirəsalınmaz şəkildə antibullinq problemləri yaradılmalıdır. Belə ki, hər bir məktəb öz daxili mühitində antibullinq qayda-qanunları yarada və onların tətbiqinə nəzarət edə bilər. Məktəb öz resursları hesabına əlilliyi olan uşaqlara qarşı bullinqin qarşısını alacaq sinif müzakirələri, ictimai tədbirlər, valideynlərlə görüşlər kimi fəaliyyət növlərini yaratmaqda maraqlı olmalıdır. Bunun üçün məktəb heyəti bullinq və digər sosial ədalət prinsiplərinə zidd olan davranışlar və onların qarşısının alınması haqqında təlimatlandırılmalıdır ki, onlar bu haqda düzgün bilik bazasına və və qabiliyyətlərə malik olsunlar. Burada məktəbin işinə yardım edəcək dövlət strukturları olmalı, tapşırıq və göstərişlər məktəb və təhsil şöbələrinin iştirakı ilə birgə hazırlanmalıdır.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. https://muallim.edu.az/news.php?id=5140
2. http://www.e-qanun.az/frame-work/39591
3. https://bakuresearchinstitute.org/az/a-comprehensive-approach-to-bullying-prevention-in-azerbaijani-schools/
4. 2013-cü il üzrə Dünya Uşaqlarının Vəziyyəti (qısa məzmun)
5. Əlilliyi olan Şəxslərin Hüquqları Haqqında Konvensiyanın izahı (BACARIQLAR HAQQINDA). BMT-nin Uşaq fondu (UNİCEF)
6. İnklüziv təhsil. Valdeynlər üçün bələdçi. 2020


## HEYDƏR ƏLİYEV HAQQINDA MƏRUZƏ


**Həsənova Fidan**

***Qərbi Kaspi Universitetinin Politologiya fakultəsinin 1-ci kurs tələbəsi***


1.Tarix elimizin böyük himayədarı

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitunun memarlıq fakültəsində təhsil almışdır. Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol misilsizdir. Ulu öndər hakimiyyətə gəldiyi 1969-cu ildə Azərbaycan xalqının taleyində mühüm rol oynamış görkəmli yazıçı dövlət xadimi Nəriman Nərimanovun anadan olmasinin 100 illiyini geniş qeyd etmək barədə sərəncam imzaladı. Bununla əlaqədar Pravda qəzetində çap etdirdiyi məqaləsində totalitar sovet rejimi şəraitində Nərimanovun haqsız huücumlara məruz qalması Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı mərkəzin antiazərbaycan siyasətinə qarşı cəsarətlə mübariz apardığını nəzərə çatdırdı. Heydər Əliyevi Azərbaycan tarix elminin banisi ve himayəçisi adlandıranlar tam haqlıdırlar. Onun bütün nitq ve yazılarında tarix elminin ən aktual problemlərinin tədqiqi qarşıya qoyulurdu. O dəfələrlə M.K.Atatürkün belə bir fikrinə diqqəti cəlb edirdi: “Tarixi yazmaq onu yaratmaqdan daha çətindir. Tarix

elm olmaqla heç bir təhrifə və ideyalaşdırmağa məruz qalmamalıdır.” Tanri Heydər Əliyevə fenomen bilik və möhkəm bilik bəxş etmişdir.o ən mötəbər beynəlxalq konfranslarda və toplantılarda heç bir mətndən istifadə etmədən məzmunlu nitq söyləmək dinleyicileri sehirləmək qabiliyətinə malik şəxsiyyət idi. Ulu öndər tarix nəsillərin varisliyi onlarin bir-birini əvəz etməsi deməkdir. Konsepsiyasını əsas götürərək çağdaş hadisələri keçmişdə baş verənlərlə əlaqələndirmək düzgün nəticələr çıxarma qabiliyyətinə malik idi. Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin, cümhuriyyət xadimlərinin fəaliyyətini yüksək dəyərlənmiş, 1991-ci ildə yaradilan Azərbaycan Respublikasinin AXC-nin varisi oldugu vurğulamışdır. Onun Cümhuriyyətinin 80 illiyi ilə elaqədar imzaladığı sərəncamda deyilir: “AXC gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fealiyyət göstərsə də, sonraki nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır.. Onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır”. Heydər Əliyev 70 il hökm sürən sovet tolalitar rejiminin Azərbaycana vurdugu böyük zərbədən bəhs edərək vurğulayır ki, bu illərdə heç bər əsas olmadan Azərbaycanın əzəli tarixi torpaqları mərkəzin təzyiqi ilə Ermənistana qatılmişdır. “Azərbaycan qədər heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb”.

2.Böyük Azərbaycanlı

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikamızı tarixin ağır sınaqlarından məharətlə çıxararaq, onu inkişafa və tərəqqiyə doğru aparmışdır. Bu müdrik şəxsiyyət DTK-da işlərdə də bütün varlığı ilə xalqəna xidmıt etmiş, neçə-neçə ziyalımızı qorumuşdur. O, harada işləməsindən asılı olaraq, hansı vəzifə, mənsəb sahibi olmasına baxmayaraq, hər yerdə özünü əsl azərbaycanlı olaraq aparmışdır. 34 il bir məmləkətə rəhbərlik etmək hər dövlət və siyasi xadəmin işi deyildir. Həm də bu illər görülən işlər öz miqyasına, əhatəliyinə görə müqayisə olunmazdır. Azərbaycana rəhbərlik etdiyi ilk gündən Heydər Əliyev mədəniyyətimizin tərəqqisi, inkişafı üçün çox işlər gördü. Onun təşəbbüsü ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinə abidələr, heykəllər ucaldıldı. N.Nərimanova, Nəsimiyə, Şah İsmayıl Xətaiyə,

H.Cavidə, C.Cabbarlıya və digərlərinə qoyulmuş heykəl və abidələr Heydər Əliyev yadigarıdır. Ötən əsrin 80-90-cı illərində bütün SSRİ-də dövlət xadimlərindən ən meşhuru, ən çox tanınanı,seviləni bizim xalqın lideri idi desək yanılmarıq.Heydər Əliyev şairlə şair, memarla memar, tarixçi ilə tarixçi kimi danışırdı. Bu o demək idi ki, böyük dövlət xadimi Heydər Əliyev hərtərəfli şəxsiyyət idi. Heydər Əliyevin 1997-ci il aprelin 20-də imzaladığı “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi haqqında fermanı, yubileyi keçirmək məqsədilə komissiyanı yaratması və ona sədrlik etməsi, bunu dövlət işinin tərkib hissəsinə çevirməsi milli-mənəvi irsinin qorunması, yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması sahəsində olduqca əhəmiyyətli bir hadisə olmuşdur. Bəşəriyyətin tarixi təkamül prosesi göstırir ki, hər hansı xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərinə qoruyub saxlamaq, genetik yaddaşını, tarix kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur.

3.Müstəqillik tarixi yazan lider

Dövlət müstəqilliyinin ilk illərində 1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə respublikada mövcud olmuş fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran,hərc-mərclik, anarxiya təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanilmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da əslində, bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdir. Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci ildə 74 nəfərdən ibarət konstitusiya layihəsini hazırlayan komissiya heç bir fəaliyyət göstərməmişdir. Azərbaycan Respublikası Milli Şurasının 6 dekabr 1993-cü il tarixli qərarı ilə 14 nəfərdən ibarət yenə Konstitusiya layihəsini hazırlayacaq komissiya yaradılmış, lakin bu komissiya da yarım il ərzində heç bir iş görməmişdir. 1994-cü ilin may ayında komissiyanın işini canlandırmaq üçün bu komissiyanın tərkibi genişlendirilsə də yeni Konstitusiya layihəsini hazırlamaq işinə başlamamışdır. Yalnız Milli Şuranın 2 may 1995-ci il tarixli qərarı ilə ümumilli lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan 33 nəfərdən ibarət komissiya yaradılmış ve bu komissiyanın qısa müddətdə 9 iclası keçirilərək yenə hazirlanmış layihə 15 oktyabr 1995-ci il tarixdə mətbuatda dərc edilərək ümumxalq müzakirəsinə verilmişdir. Ölkə başçısı cənab Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiyanın hazırladığı Konstitusiya layihəsinin 12 noyabr

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi isə müstəqillik yoluna qədəm qoymuş respublikamızın tarixində ən parlaq səhifələrdən biridir.

Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur. Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlatından biri də onun silahlı qüvvələridir. Azərbaycan ordusunun 1918-ci ildən başlayan keşməkeşli və şərəfli inkişaf yolu hərb tariximizin möhtəşəm səlnaməsidir. Bu tarixi başlanğıcın əsası torpaqlarımızın bütövlüyü naminə canlarını feda edən babalarımızın müqəddəs qanı ilə qoyulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması və genişlənməsi də məhz ümumilli liderimizin adı ilə bağlıdır. Bu əlaqələrin əsası 1994-cü ildə qoyulmuşdur. Belə ki, həmin il may ayının 4-də Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşŞ 1996-ci ilin aprel ayında isə Azərbaycan Prezidenti NATO-nun Baş katibinə Azərbaycanın prezentasiya sənədlərini teqdim etmişdir. Azərbaycan dövləti bu istiqamətdə keçirilən tədbirlərfə fəal iştirak edir. Belə ki, Silahlı Qüvvələrininsülhməramlı taborunun tərkibində 1999-cu ilin sentyabr ayından Kosovada, Əfqanısranda 150 nəfərdən ibarət sülhməramlı bölüyü isə 2003-cü ilin avqust ayından ABŞ Silahlı Qüvvələrinin kontingenti tərkibində İraqda sülhməramlı missiyanı yerinə yetirməyə başlamışdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. "Xalq qəzeti". 2013-21 aprel №84 (S.5)
2. "Respublika" 2009-12 dekabr №270 (S.7)
3. A.İsayev "Azərbaycan tarixi" 2018
4. İ.Hüseynova "Heydər Əliyev və Qafqazda sülh prosesi"


## TÖKMƏ İSTEHSALINDA YARANAN KONSOROGEN BİRLƏŞMƏLƏR VƏ ONLARIN EKOLOGİYASI


**Həsənova Xeyrənsə**

***Magistrant***

***Azərbaycan Texniki Universiteti***


Bir ton çuqun və ya polad məmulatın hazırlanması zamanı 50 kq-dək toz, 250 kq-dək karbon oksidi, 1,5-2 kq kükürd-oksdi əmələ gəlir. Tökmə istehsalında müxətlif üzvi və qeyri-üzvi birləşmələr (əlaqələndiricilər, katalizatorlar, əlavələr) istifadə olunur və bunlar ətraf mühitdə zərərli maddələrin yayılmasına səbəb olur.

Tökmə istiehsalında əmələ gələn tozun tərkibində 50% qədər $SiO_2$ olur. Bunlar çox narın dispersliyə malik olan tozlardır. Bu tozlar tökmə üçün istifadə olunan qəliblərin hazırlanması, ilkin materialların nəqli, konveyerlərə tozvari materialların və yanmış torpağın verilməsi bu tozun yüksək konsentrasiyası, toz etiologiyalı xəstəliklərin yaranmasına səbəb olur (bronxit, silikoz).

Üzvi əlaqələndiricilərlə işlədikdə, içliklərin qurudulması və qəliblərin metalla doldurulması zamanı gözə çarpan dərəcədə toksik buxarları və qazlar xaric olur. Məsələn, akrolein, metanol, formaldehid, furfurol, fenol, furil spirti, aseton sianidlər, karbon oksidi, amonjak, azot oksidi, doymuş karbohidrogentlər və s. müxtəlif orqanlarda xərçəng xəstəliyi əmələ gətirən maddələr konsorogen maddə adlanır.

Amerika alimləri təyin etmişdilər ki, əhalinin çuquntökmə istehsalında işləyən hissənui ən çox xərçəng xəstəliklərinin əmələ gəlməsi təhlükəlidir. Tökmə istehsalında adətən 3 qrup konsorogen maddələrin əmələ gəlməsi mümkündür: benzol və polisiklik aromatik birləşmələr, nitrozoaminlər və notrozoamidlər (nitritlər, nitratlar, azot oksidləri, aminlər), qeyri üzvi birləşmələr (metallar və onların oksidləri Cr(VI), Mn, Ni və s.).

I qrup birləşmələr (benzol və polisiklik aromatik birləşmələr) C və H tərkibli üzvi maddələrin 500-2000$^0$C-də pirolizi nəticəsində yaranır. Bunlardan ən təhlükəlisi benzopirendir. Bu kimyəvi cəhətdən davamlı, suda yaxşı həll olan maddədir. Bu birləşmə çirklənmə mənbəyindən uzaqolanda toplanır (dib çöküntülərində, su bitkilərində, suda yaşayan orqanizmlərdə). Benzopirin insan orqanizmasına qidə

məhsulları ilə daxil olur və bunun miqdarı insanın yaşama vaxtında bir neçə milliqram olur (30- 40 mq). Tökmə istehsalında benzopirinin mənbəyi üzvi bitişdiricilər və sənaye yağlarıdır.

Bunlardan ən təhlükəlisi sənaye yağlarıdır, bunlar isə əritmə sobalarının qidravlik sistemlərində, qəliblər üçün hazırlanmış qatışıqlarda, müxətlif mexaniki işləmədə (soyuducu qarışıqlara əlavə kimi). Qeyri-üzvi konsorogen xassəli birləşmələr leqirlənmiş çuqunların və poladların əridilməsi və soyudulması zamanı yaranır.

Son illərdə inkişaf etmiş ölkələrin tökmə istehsalında daha çox "soyuq" üsulla üzlüklərin hazırlanmasına üstünlük verilir. Bu proses qaz şəklində olan bərkidiricinin və ya katalizatorun üfürülməsi ilə aparılır və bir neçə saniyədən sonra özlük bərkiyir və yeşikdən çıxarılır. Bərkləşdirici katalizator kimi etilamin, dimetilamin, kükürd auhidridi, karbon qazı, dimetoksimetan və s. işlədilir.

"Soyuq" prosesin "isti" prosesə görə üstünlükləri ondan ibarətdir ki, ətraf mühitə toksik maddələrin (fenol, formaldeqid, metanol) çıxması müşahidə olunmur. Bu zaman yalnız havada triztullaminin olması periodik olaraq ölçülür. Belə zonalarda sorucu ventilyasiya sistemlərinin qurulması mütləqdir. "İsti" və "soyuq" prosesləri müqaisə etdikdə, ventilyasiya sistemin, qaztəmizləmənin və digər ekoloji məsələlərin həlli daha kiçik vəsaitlər tələb edir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Həsənli R.K.Tökmə istehsalının texnologiyası. Dərslik, Bakı, AzTU, 2000, 278s.
2. Həsənli R.K. Çuqun istehsalında yaranan zərərli çirkləndiricilər və onların tutulma üsullarının araşdırılması. Professor-müəllim heyəti və aspirantların 53-cü elmi-texniki konfransının materialları. I hissə, Bakı, AzTU, 2006, s.243-245
3. Həsənli R.K. Ətraf mühitə zərərli və zərərsiz maddələr Dərslik. Bakı, AzTU, Tempus, 2005, 221s.


# MƏMMƏD ARAZ YARADICILIĞINA HEYDƏR ƏLİYEV DİQQƏTİ


**Həsənova Lətafət Musa qızı**
***Bakı Dövlət Universiteti***
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının magistrantı***



**Açar sözlər:** ədəbiyyat, kitab, mədəniyyət, vətən, şeir.
**Ключевые слова:** литература, книга, культура, родина, стихотворение.
**Key words:** literature, book, culture, homeland, poem.


Müstəqillik illərində Azərbaycan ədəbiyyatının inkişafında bir çox görkəmli ictimai xadimlərin, yazarların, publisistlərin, şairlərin yaradıcılığının rolu böyük olmuşdur. Bunlardan biri də şair, publisist, tərcüməçi Məmməd Araz yaradıcılığıdır. Məmməd Arazın özünəməxsus dərin, fəlsəfi məzmunlu lirikası vardır. Onun zəngin ənənələrə malik lirikasının milli poezyamızın inkişafının keyfiyyətcə yeni mərhələyə yüksəlməsinədə və müasir ədəbiyyatımızın zənginləşməsində böyük əməyi olmuşdur.

Məmməd Arazın seçilmiş əsərlərinə ön söz yazan Yaşar Qarayev görkəmli şair haqqında belə söyləmişdir: "Əsl, həqiqi, böyük poeziya ümumbəşəri yaddaşdır. Və məncə, Məmməd Arazın şeiri də düşüncədə, əxlaqda və qeyrətdə belə yaddaşın şeirdə ifadəsidir" (1, 6).

Məmməd Araz ədəbiyyata gənc yaşlarından gəlmişdir. Doğma vətənə bağlılıq, vətən sevgisi onun poezyasında hər zaman hiss olunmuşdur. Məmməd Arazın özünəməxsus yazı tərzi oxucuların diqqətini çəkmiş, bu da onun əsərlərinin geniş oxucu kütləsinə çatmasına şərait yaratmışdır. Günümüzdə də onun əsərləri böyük rəğbətlə qarşılanmaqdadır. İstər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda böyük oxucu kütləsinə malikdir.

Ölkəmizdə mədəniyyət xadimlərinə və özəlliklə ədəbiyyatımızın görkəmli nümayəndələrinə xüsusi diqqət ayrılır. Belə ki, 2019-cu ildə Nəsimi ili, 2021-ci ildə isə

Nizami ilinin elan olunması, bir çox görkəmli ədəbiyyat numayəndələrinin yubileylərinin keçirilməsi və s. kimi tədbirlər ölkəmizdə ədəbiyyat xadimlərinə, sənətkarlar, şeir ustadlarına diqqəti, qayğını əks etdirir.

Görkəmli dövlət xadimi, ümumilli lider Heydər Əliyev hər zaman Azərbaycan xalqının qəhrəmanlıqla dolu keçmişinə, zəngin, mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə qayğı ilə yanaşmış və bütün fəaliyyəti boyunca tanınmış sənətkarlarımızın yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi, təbliği, dünya miqyasında tanıtdırılması kimi işlərə önəm vermişdir. Onun xüsusi diqqət ayırdığı görkəmli ədəbiyyat nümayəndələrindən biri də Məmməd Araz olmuşdur. Ümumilli liderimiz Məmməd Arazın şəxsiyyətinə, böyük istedadına, əvəzolunmaz sənətinə daim yüksək qiymət vermişdir.

Məmməd Arazın ilk şeiri mətbuatda 1952-ci ildə dərc olunsa da, o, bir şair olaraq məhz 1970-ci illərdə ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərliyi dövründə parlamışdır. Şairə böyük şöhrət gətirən "Qanadlı qayalar", "Atamın kitabı", "Həyatın və sözün rəngləri", "Oxucuya məktub", "Aylarım, illərim" kimi diqqətəlayiq kitabları məhz həmin illərdə çap olunmuş, geniş əks-səda doğurmuşdur.

Şairin “Eyfel qülləsində”, “Araz yadıma düşdü”, “Qoruyun dünyanı”, “Azərbaycanım mənim”, “Nobel mükafatı” şeirləri Azərbaycan poeziyasının təkamülündə yeni mənəvi iqlimin və tarixi mərhələnin əbədi məqamları və bədii sənədləri olan şeirlərdir. Bu şeirlərdə şair bir ənənənin yox, minillik əxlaq, fəlsəfə, hünər və poeziya irsinin varisi kimi çıxış edir (1, 7).

Həmin dövrdə Məmməd Araz müxtəlif vəzifələrdə də çalışmışdır. 1970-1972-ci illərdə "Ədəbiyyat və İncəsənət" qəzeti redaksiyasında, 1972-1974-ci illərdə isə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor müavini vəzifəsində, 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında poezya bölməsinə rəhbərlik etmişdir 1974-cu ildən isə "Azərbaycan təbiəti" jurnalının redaktoru kimi fəaliyyət göstərmişdir (2).

Hələ 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə təltif olunması, 1978-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görulməsi Məmməd Araz şəxsiyyətinə və sənətinə ulu öndərin hörməti və ehtiramının ifadəsidir.

Müasir Azərbaycan ədəbiyyatının bilicisi olan Heydər Əliyev görkəmli şair Məmməd Araz sənətinə həmişə diqqət göstərmisdir. Məhz Məmməd Arazın “Vətən mənə oğul desə” adlı vətənpərvər şeiri də ümumilli liderin diqqətindən kənarda qalmamışdır. Heydər Əliyev hər zaman bu şeiri yüksək səviyyədə qiymətləndirmişdir.

Təsadüfi deyil ki, istedadlı sənətkarın anadan olmasının 60 illiyi ərəfəsində ulu öndər Heydər Əliyev 6 oktyabr 1993-cü il tarixində şairə təbrik məktubu ünvanlamış, səmimi arzularını çatdırmışdır. Təbrikdə deyilir: “Qırx ildən çoxdur ki, dərin fəlsəfi lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir. Məmməd Araz istedadının, təfəkkürünün məhsulu olan yüzlərlə şeriniz milyonların qəlbinə yol taparaq özünə və Sizə əbədi yaşamaq hüququ qazandırıb. Əmin olduğumu bildirmək istəyirəm ki, xalqımızın mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda bundan belə də yorulmadan çalışacaq, qədim və zəngin ənənələri olan milli poeziyamıza yeni töhfələr bəxş edəcəksiniz” (2).

Ulu öndərin M.Araz şəxsiyyətinə, sənətinə hörmətinin başqa bir ifadəsi də 1995-ci ildə şairi dövlət vəsaiti hesabına Almaniyaya müalicəyə göndərməsi, ona həm fiziki sağlamlıq, həm də mənəvi cəhətdən böyük diqqət göstərməsi idi.

1995-ci ilin ümummilli liderimiz Xalq şairi Məmməd Arazı “İstiqlal” ordeni ilə təltif etmiş, bir gün sonra Azərbaycan Dövlət Filarmoniyasında vətənpərvər şairin poeziyasına həsr olunmuş “Azərbaycan - dünyam mənim” adlı ədəbi-musiqili məclisində iştirak etmişdir. Dörd saata yaxın davam edən bu möhtəşəm tədbirdən sonra ulu öndərimiz Heydər Əliyev Məmməd Arazla və ədəbi-musiqili gecənin iştirakçısı olan ziyalıların nümayəndələri ilə görüşüb söhbət etmiş, həm M.Araz sənəti haqqında, həm də, ümumən, poeziya, ədəbiyyat barədə qiymətli fikirlər söyləmişdir. Tədbirdə ifadə olunduğu kimi, öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.

Məmməd Arazın yaradıcılığı haqqında danışarkən dahi rəhbərin dediyi sözlər də bu baxımdan çox qiymətlidir: “Bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı, gərəkli olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılğının nə qədər böyük əhəmiyyəti var” (3).

Ulu öndər həmin çıxışında Məmməd Arazı, Bəxtiyar Vahabzadəni və Xəlil Rzanı respublika vətəndaşları içərisində ilk dəfə olaraq “İstiqlal” ordeni ilə təltif etməsi məsələsinə də toxunmuşdur O

demişdir: "Bildiyiniz kimi, müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordenidir. İndiyə qədər bu ordenlə heç bir vətəndaş, heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək Məmməd Arazı, Bəxtiyar Vahabzadəni, mərhum Xəlil Rzanı "İstiqlal" ordeni ilə təltif etmişəm. Bu, bir təsadüf, yaxud da ki, birdən meydana çıxmış, mənim tərəfimdən birdən qəbul olunmuş qərar deyil. Bu haqda mən çox düşünürdüm. O mənada ki, biz milli azadlığımız uğrunda çalışmışıq, vuruşmuşuq, mübarizə aparmışıq. Amma bu mübarizə bəzən açıq getməyibdir, bəzən qəlblərdə gedibdir, bəzən üstüörtülü yazılarda gedibdir... Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər… Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə hörmətli şairimiz Bəxtiyar Vahabzadə, hörmətli şairimiz Məmməd Araz və mərhum Xəlil Rza bu ordenlə təltif edildilər" (3).

Ümummilli lider Heydər Əliyev şair M.Arazın yaradıcılıq gecəsinin sonundakı çıxışında poeziyanın, bütövlükdə, söz sənətinin insanların sağlam ideyalar ruhunda formalaşması işində mühüm rol oynadığını yüksək qiymətləndirmişdir. O, şairin vətən ruhlu şeirlərinə də öz münasibətini bildirmişdir. "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur… Həmin şeirlər, həmin sözlər, doğrudan da, xalqımızda,

millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır" (3).

Bütün bunlar Heydər Əliyevin Məmməd Araz yaradıcılığına müstəsna diqqətinin təcəssümünü əks etdirir. Ötən əsrin ortalarında Azərbaycan ədəbiyyatında Məmməd Araz yaradıcılığı adlı bir dastan yazıldı. Bu dastanın yazılmasından illər keçsədə, əsirlər dəyişsədə, ancaq dəyişməyən tək şey oldu, bu dastana olan diqqət və qayğı. Bəli, illər keçsədə, əsirlər bir göz qırpımında getsədə Məmməd Araz yaradıcılığı heç vaxt unudulmayacaq.

**ƏDƏBİYYAT SİYAISI :**

1. Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə. I cild. - Bakı: "Lider nəşriyyat", 2004, 224 s.
2. https://edebiyyat-az.com/?p=5724
3.http://serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/1689-ulu-oendaer-heydaer-aeliyev-maemmaed-araz-saenaetinae-yuksaek-zhiymaet-vermishdir.html

## MƏKTƏBLİ ÇANTALARININ ERQONOMİK VƏ GİGİYENİK XASSƏLƏRİNƏ VERİLƏN TƏLƏBLƏR

**Hidayətzadə Aytəkin**
***Elmi rəhbər- B/M t.ü.f.d, Abbasova Sevinc***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Magistr***
***h_aytekin@mail.ru***

### XÜLASƏ

Məktəbli çantası, ilk dəfə 1910-cu ildə yaradıldığından bəri insanların əşyalarını saxlayıb, bir yerdən digər yerə daşınmasında əsas rolu olmuşdur. Dünyada ən çox istifadə edilən çanta növü məktəbli çantasıdır. Şagirdlərin geyimini tamamlayan, onlar üçün vacib sayılan əşyalardandan biridə məktəbli çantalarıdır.

Məktəbli çantaları dərs vəsaitlərinin saxlanması və daşınması üçün nəzərdə tutulub. Məktəb dövründə uşaqların tez-tez istifadə etdikləri bu çantalar iki bərabər kəmərlə çiyində oturaraq aparırlar. Məktəbli çantaları əşyaları düzgün və səliqəli saxlamaq üçün fərqli bölmələrdən ibarətdir. Bu bölmələr əşyaları simmetrik yerləşdirməyə və eyni zamanda yükü iki çiyin üzrə bərabər paylamağa imkan verir.

**Açar sözlər:** məktəbli çantası, məktəbli, çanta, əşya, material.

**SUMMARY**

**REQUİREMENTS FOR ERGONOMİC AND HYGİENİC PROPERTİES OF SCHOOL BAGS**

School bags are designed for storage and transportation of school supplies. The ergonomic properties of the bags are to ensure comfort and ease of use. When choosing school bags, you need to pay attention to their ergonomic properties. The hygienic properties of school bags mean that the upper part and the material from which they are made are not damaged and are less polluted by the environment. School bags with a rectangular shape and a shiny surface are considered more hygienic**.**

**Keywords:** school bag, school, bag, item, material

Şagirdlər məktəbli çantalarını tədris prosesi müddətində piyada, avtobusda və s. nəqliyyat vasitələrində, iqlim şəraitindən asılı olmayaraq yağışlı, qarlı, küləkli havada daşıyaraq məktəbə gedirlər. Məktəbli çantaların düzgün seçilməsi olduqca vacibdir. Məktəbli çantalarının xassələri erqonomik, gigiyenik, yararlılıq və təhlükəsizlik tələblərinə uyğun olmalıdır.

Çantaların erqonomik xassələri komfortluluğunun və istifadə rahatlığının təmin edilməsidir. Məktəbli çantaları seçərkən erqonomik xassələrinə diqqət yetirmək lazımdır. Seçim zamanı çantanın rahat istifadə edilə bilməsi üçün konstruksiyasına diqqət yetirmək lazımdır. Məktəb çantaları ağır olmamalı, xarici görünüşcə böyük olmamalıdır. Çantaların qulpu və qayışları geniş və dəstəkli olmalıdır. Bel dəstəyinin və kəmərinin olmasına diqqət yetirilməlidir. Çünki, geniş "S" şəklində çiyin qayışları və bel və ya sinə qayışları məktəbli çantasının ağırlığını uşağın çiyinlərində və onurğasında bərabər bölünməni təmin etməlidir. Çantada tənzimlənən çiyin qayışları olmalıdır. Çantanın çiyin qayışları, çanta məktəblinin belinə sıx oturacaq şəkildə düzəldilməlidir. Əks təqdirdə ağır çantalar dayaq-hərəkət sisteminin xəstəliklərinə gətirib çıxara bilər.

Məktəbli çantasının çərçivəsi yüngül polipropirendən və ya etilenvinil asetatadan hazırlanır. Polipropirendən hazırlanmış çantalar deformasiyasız, şəklini möhkəm saxlaya bilən çantalardır. Etilenvinil asetat çərçivəli məktəb çantaları daha yüngül olur.

Təəssüf ki, zəif dizayn edilmiş sırt çantaları, saysız-hesabsız uşaqlarda, tələbələrdə və böyüklərdə zəif duruşun və hətta xroniki bel ağrısının mənbəyi olmuşdur.Çanta bədən çəkisinin 10-15% -ni əhatə edir. Çantanı artıq olmayan bir şəkildə doldurmaq tövsiyə olunur. Bədən çəkisi 25 kiloqram olan bir məktəbli üçün çanta cəmi 2,5-3,7 kiloqram ağırlığında olmalıdır. Çantada hansı daşınacaq əşyalar barədə məktəb və ailə əməkdaşlıq etməlidir. Materiallar çantanın içərisinə sürüşməyəcək və yer dəyişməyəcək şəkildə yerləşdirilməlidir. Çantada lazımsız bir material olmamalıdır. Məktəbli çantasına qoyulacaq materiallar yerləşdirməsi də vacibdir. Ən ağır materiallar uşağın dərs belinə və onurğasına yaxın yerləşdirilməlidir. Bu ağırlığın tarazlaşdırılması baxımından vacibdir. Çantanın bölmələrindən səmərəli və düzgün istifadə təhlükəsizlik baxımından və yükün balanslı paylanması üçün vacibdir. Çanta çox ağırdırsa təkərli çantalar və s. kimi fərqli alternativlər sınaqdan keçirilməlidir.

Məktəbli çantalarının gigiyenik xassələri dedikdə isə üst hissəsinin və hazırlandığı materialın xarab olmaması, ətraf mühitin təsirlərindən az çirklənməsi kimi xüsusiyyətləri nəzərdə tutulur. Forması düzbucaqlı və səthi parlaq olan məktəbli çantaları daha gigeyenik hesab olunur.

Məktəbli çantaları material baxımından daha keyfiyyətli materialdan hazırlanmalıdır. Məktəbli çantasının hazırlanması üçün seçilmiş material olduqca yüngül, sadə, mexaniki təsirlərə davamlı olmalı və gec çirklənən materiallardan istifadə olunmalıdır.

Çantanın bütün tədris ilinə davam gətirə bilməsi üçün çantanın dibi möhkəm olmalı, istifadə olunmuş material su buraxmayan, rahat təmizlənə bilən və keyfiyyətli dərini əvəz edə bilən material olmalıdır. Çünki məktəblilər məktəbli çantasını yerə atır, onlarla oturur. Həmçinin məktəbli çantaları yağışda, qarda və s. kimi hallarda çirklənən zaman qısa zamanda təmizlənə bilməsi üçün səthi hamar olmalı və çanta möhkəm keyfiyyətli materialdan hazırlanmalıdır.

Təbii dəriləri əvəz edən material kimi süni və sintetik göndən, su keçirməyən material kimi isə poliester və ya neylondan istifadə olunur. Poliester və neylon parça nəmi özlərinə çəkmirlər, sabun və süngər vasitəsilə rahat təmizlənə bilirlər.

Süni dəri kimi isə vinilasetatdan istifadə olunur. Məktəbli çantaları əsasən poliesterdən hazırlanır, lakin pambıq parça və dəri dizayni modelleridə var. Bu materiallardan hazırlanan çantalar aşınmaya və nəmə az davamlı olduğu üçün az istifadə olunur.

İstifadə olunan parça aşağı temperatura və günəş işığına davamlı olmalıdır. Bu xüsusiyyətlərə malik olan materiallara neylon, polyester və vinil daxildir. Mükəmməl təmizlənir, silinir və tətbiq olunan nümunəni yaxşı qoruyurlar.

**Məktəbli çantasının materialının kimyəvi təhlükəsizliyinə aid olan tələblər**

Ucuz modellərin rənglənməsi kifayət qədər davamlı olmaya bilər və uşağın paltarını korlayır. Məktəbli çantası alarkən buna diqqət edilməlidir.

| Materiallar | Xaric olan maddələrin adları | Hava mühiti üçün normativlər mq/m³ (çox olmayaraq) |
|---|---|---|
| Bitki xammaldan olan təbii materiallar, təbii dəri | **Formaldehid** | **0,003** |
| Rezin | Formaldehid<br>Dibutulalat<br>Dioklalat | 0,003*<br>yol verilmir<br>0,02 |
| Karton | Formaldehid | 0,003* |
| Sintetik dəri | Formaldehid<br>Dibutulalat<br>Dioklalat | 0,003*<br>yol verilmir<br>0,02 |
| Poliamid | Formaldehid<br>Kaprolakdan<br>Heksamelendiamin | 0,003*<br>0,06<br>0,001 |
| Poliefir | Formaldehid<br>Demitelterealat<br>Asetaldehid | 0,003*<br>0,01<br>0,01 |
| Poliakrilonitril | Formaldehid<br>Akrilonitril<br>Vinilasetat | 0,003*<br>0,03<br>0,15 |
| Poliuretan | Formaldehid<br>Toluilendiizosianat<br>Asetaldehid | 0,003*<br>0,002<br>0,01 |
| Polivinilxlorid | Formaldehid<br>Fenol<br>Dioklalat<br>Dibutulalat<br>Aseton | 0,003*<br>0,003<br>0,02<br>yol verilmir<br>0,35 |
| Süni viskoz və asetat | Formaldehid | 0,003* |
| Poliolefin | Formaldehid<br>Asetaldehid | 0,003*<br>0,01 |
| Vinilasetat (süni dəri) | Formaldehid<br>Vinilasetat<br>Dioklalat<br>Dibutulalat | 0,003*<br>0,15<br>0,02<br>yol verilmir |

Məktəbli çantaları üçün parça sıxlığı 400-600 den olan materiallardan istifadə olunmalıdır. Belə materiallar optimal ağırlıq və güc tarazlığna malik olurlar.

Məktəblilərin dəriləri çanta ilə təmasda olan zaman çantanın tərkibində olan maddələr, konstruktiv elementlər dəriyə allergik, zərərverici və qıcıqlandırıcı təsirlər göstərməməlidir. Məktəbli çantalarının keyfiyyət göstəricilərini qiymətləndirən zaman çantanın tikişlərinidə nəzərə almaq lazımdır. İstifadə olunan saplar qalın, möhkəm olmalı, çıxıntılı iplər və saplar olmamalıdır. Məktəbli çantalaının hazırlanmasında materialda istifadə olunan xammallara icazəni Səhiyyə Nazirliyi verir.

Aşağıdakı cədvəldə məktəbli çantalarının materialına olan kimyəvi təhlükəsizlik göstəriciləri göstərilmişdir. Məktəbli çantalrının materialında olan zərərli və zəhərli maddələrin miqdarı məktəblilərin

sağlamlığı üçün tosik yükü daşımamalı və müəyyən olunmuş kimyəvi təhlükəsizlik normalarını keçməsi yol verilməzdir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Андреева Е.Е. Здоровья детей и подростков в организованных коллективах образовательных учреждений города Москвы/Здоровье населения исреда обитания. М.2015.

2. СанПиН 2.4.7/1.1.1286-03 Гигиенические требования к одежде для детей, подростков и взрослых, ГЛАВНЫЙ ГОСУДАРСТВЕННЫЙ САНИТАРНЫЙ ВРАЧ РОССИЙСКОЙ ПОСТАНОВЛЕНИЕ**,** от 17 апреля 2003 года N 51.

3. https://dergipark.org.tr/tr/pub/sted/issue/50488/461024

4. http://standupkids.az/pdf/chanta.pdf

5.https://repository.najah.edu/bitstream/handle/20.500.11888/11921/project_presentation_4.pptx?sequence=1&isAllowed=y.

6. http://zdorovye.khakassia.ru/32/561.html

7. http://bilmedigingerceklervar.org/etiket/yeni-okul-donemi.

8. http://achit-adm.ru/wp-content/СМИ.-ГДиП.Школьный-ранец.pdf.


# GEOSTRATEGIC IMPORTANCE OF TANAP AND TAP PROJECTS FOR THE EU-AZERBAIJAN RELATIONS

**Huseynova Melek, Huseynova Chichak**

## ABSTRACT

TANAP and TAP projects play a major geostrategic role for Azerbaijan. As well as Azerbaijan, European Union (EU) can also benefit from this project. From one hand, the EU gets an opportunity to diversify its energy import. From the other hand, it provides more geopolitical and economic benefits for Azerbaijan. With the help of those projects, Azerbaijan is on the way to become a strategic partner of the EU.

**Introduction**

The ultimate goal of this article is to highlight the importance of TANAP (Trans Anatolian Gas Pipeline) and TAP (Trans-Adriatic Pipeline) projects and to define the importance of those projects for Azerbaijan in particular. In 1991, Azerbaijan achieved its independence after the collapse of the Soviet Union. Furthermore, Azerbaijani government made a wise decision to initiate such a project. With the leadership and determination of Heydar Aliyev (national leader of Azerbaijan) this project presents a promising future for Azerbaijan (Yeni Azərbaycan Partiyası, 2018). Also, the article aims to analyze how this project can promote the image of Azerbaijan as a reliable partner for the future projects with the West.

As well as for the EU, this project also enriches the geostrategic role of Azerbaijan as an energy hub between Europe and Asia. Constant cooperation with Turkey makes Azerbaijan a more advantageous state in Caucasus. Furthermore, TANAP+TAP projects simultaneously increase mutual interdependence between Azerbaijan, Turkey, and the EU. In this case, this interdependence will more likely consolidate peace, and decrease any chance of a negative trend between those sides.

Analysis of Each Perspective

Three main perspectives will be analyzed in this article: Azerbaijani, Turkish and the EU perspectives on TANAP+TAP projects.

The construction of TANAP+TAP projects started in 2015 which later resulted in the commission of the projects in 2018. The huge project would enable the transmission of Azerbaijani gas through Anatolia to the EU.

From Azerbaijani perspective, this project serves a special role. Azerbaijan always tried to develop mutual relation with the EU and achieve a peaceful solution of Nagorno-Karabakh conflict. The reason why the project is successful and managed to get more international support is its idea of liberal relations. The idea of liberalism for Azerbaijan is the establishment of deeper economic relations with its neighboring and also with farther countries. The EU is an important partner for Azerbaijan. With the broader cooperation, the EU can also become one of the leading actors in the Caucasus region. It would eventually boost further economic relations with Azerbaijan. In case economic relations are carried to the next level, Azerbaijan would hope to consolidate resolute peace in the Caucasus region (Mikhelidze, 2013).

Turkey presents itself as a regional actor. Its leadership skills and brotherly relations with Azerbaijan give it a lot of advantages for its energy security. As well as Azerbaijan, the geographic location of Turkey also gives it numerous advantages to become an energy hub in its region. The diversification of its gas import would decrease its energy dependency on Russia. Turkey can get more profitable gas from Azerbaijan which would provide its energy needs. Also, TANAP+TAP can make Turkey a transcontinental economic power; uniting Europe and Asia (Tagliapietra, 2016).

The EU has a similar need; to decrease its gas import on Russia. The more it depends on Russian gas, the more it may be politically dependent on Russia. In case the EU continues its energy dependency on Russia, it may have to abide some political conditions from Russia. To break free from Russian gas, the EU chose a similar route as of Turkey; to diversify its gas import. In case it finds itself in a crisis situation with Russia, it would not be as threatened as it used to be (Cohen, 2014).

**Conclusion**

It can be inferred that the geostrategic importance of TANAP+TAP is actually more profound. Turkey and the EU chose the same strategy which is to decrease its gas dependency on Russia. Azerbaijan seems to be a salvation from the heavy dependence on Russian gas. As the project is profitable, it also encourages Azerbaijan to be involved in many other international projects which allow it to become an important international actor. The closer the Azerbaijan, Turkey and the EU get, the more it demonstrates that liberal cooperation is the ultimate answer for peace and sustainable development.

## REFERANCE:


1. Cohen, A. (2014). Caspian Gas, TANAP and TAP in Europe’s Energy Security. Istituto Affari Internazionali (IAI).
2. Mikhelidze, N. (2013). The EU’s Failed Policy in the South Caucasus. Istituto Affari Internazionali (IAI).
3. Tagliapietra, S. (2016). The Changing Dynamics of Energy in Turkey. Fondazione Eni Enrico Mattei (FEEM).
4. Yeni Azərbaycan Partiyası. (12 December 2018). Azərbaycan tarixinin Heydər Əliyev zirvəsi. Retrieved 26 April 2021, from yap.org.az:
5. http://www.yap.org.az/az/view/news/30919/azerbaycan-tarixinin-heyder-eliyev-zirvesi


# DİSTANT TƏHSİLİN ÜSTÜNLÜKLƏRİ VƏ HAZIRKİ DÖVRDƏ, GƏLƏCƏKDƏ YARADACAĞI FÜRSƏTLƏR


**Hümmətli A.G.**

***Bakı Dövlət Universieteti, Magistrant***

***K.e.n. Rəna Abdinbəyova Tofiq qızı***



**Açar sözlər:** İKT, distant təhsil, online təhsil, müasir təlim texnologiyaları.

**Ключевые слова:** ИКТ, дистанционное обучение, современные технологии обучения.

**Keywords:** ICT, distance learning, modern learning technologies.

Distant təhsil və ya online təhsil indi ən önəmli təhsil metoduna çevrilmişdir. Çünki dünyanı öz təsir altına alan koronavirus distant təhsili ən populyar mövzulara çevirdi. Beləliklə, distant təhsilə tərif verməli olsaq, "Müəllim və tələbənin eyni məkanda olma məcburiliyini ortadan qaldıran sistem distant təhsil sistemidir" kimi tanıda bilərik[3].

Distant Təhsil nədir?

Məsafəli təhsil (Distant) proqramı, təhsil müəssisələrinin, şagirdlərin tək başına təhsili reallaşdırmasına kömək etmək üçün müəyyən bir nizamda hazırlanmış dərs proqramı ilə həyata keçirilən işə verilən addır. Bu sistemdən istifadə etmək istəyən tələbələr və ya şagirdlər faks, poçt və ya e-poçt kimi üsullarla ixtisaslı bir müəllim tərəfindən hazırlanmış dərslə əlaqədar tapşırıqları və mövzuları əldə edirlər. Daha sonratələbələr və şagirdlər tapşırıqlar və sınaqlarla qiymətləndirilir. Peyk, video, audio qrafik, kompüter, multimedia texnologiyası kimi elektron vasitələrin köməyi ilə, təhsilin uzaqdakı şagirdlərə çatdırıla bilir[1,4]. Başlanğıcda təhsil proqramına möhkəmlətmə olaraq ortaya qoyulan məsafəli təhsil proqramı artıq təhsil sahəsində çox rəğbət görən bir proqrama çevrilib. İndiki vaxtda kolleclər, universitetlər, kiçik ya da böyük iş qrupları, təhsil agentləri, hərbi qüvvələr, dini təşkilatlar, sənaye təşkilatları, özəl sahibkarlar və digər sahələr Distant Təhsilə böyük önəm verirlər[2].

Uzun müddətdir Azərbaycanda da distant təhsil sisteminə keçilməsi ilə bağlı xeyli irəliləyişlər var. Beləki, Azərbaycanda ali təhsil müəssisələrində qiyabi təhsil üzrə qəbul 2015-ci ildən dayandırılıb.Və bununla bağlı qanunvericilikdə dəyişiklik edilərək qiyabi təhsili distant təhsillə əvəz etməyi düşünürlər.Çünki qiyabi təhsil müsbət nəticə vermir və digər öndə gedən ölkələrlə rəqabət apara bilmək üçün distant təhsilə keçmək vacibdir.Artıq demək olar ki, distant kurslar təşkil edilir və bu kurslarda iştirak edən kifayət qədər tələbə, şagird hətta müəllimlər də var.Körpə uşaqlı anaların, evdən çıxma şansı az olan hərəkət məhdudiyyəti olan şəxslərin belə təhsil ala bilməsinə, işləməsinə şərait yarada biləcək[5].

## ƏDƏBIYYAT SIYAHISI

1. "COVID-19 Educational Disruption and Response". UNESCO. 4 March 2020. Retrieved 27 July 2020.
2. "290 million students out of school due to COVID-19: UNESCO releases first global numbers and mobilizes response". UNESCO. 4 March 2020. Retrieved 6 March 2020.
3. Hood, Micaela (1 May 2020). "Virtual learning gets mixed reviews from Pocono parents".
4. Raymond, Jonathon (28 April 2020). "Georgia awards $21 million in digital learning grants".
5. "Yüksək texnologiyalar və innovativ mühəndislik" məktəbinin dekan müavini f.ü.f.d. D.F.Rüstəmova (6 may, 2020) " Görüntülü və canlı dərslər: keyfiyyətli idarə olunma üsulları."

# İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN SMART LÖVHƏLƏRİN ÜSTÜNLÜKLƏRİ VƏ ONLARIN GƏLƏCƏKDƏKİ VƏZİYYƏTİ

**Hümmətli A.G.**
***Bakı Dövlət Universieteti, Magistrant***
***K.e.n. Rəna Abdinbəyova Tofiq qızı***

**Açar sözlər:** İKT, smart lövhələr, planşetlər, müasir təlim texnologiyaları.
**Ключевые слова:** ИКТ, умная доска, таблетки, современные технологии обучения.
**Keywords:** ICT, smart boards, tablets, modern learning technologies.

Təhsil sahəsinin mütəxəsisləri məktəblərdə yeni interaktiv ekran texnologiyasına investisiyalar qoymaqla, yeni və az texniki baxımlı interaktiv ekranlar,öyrənməyi fərdiləşdirən və inkişaf etdirən texnalogiyalar yaratmağa çalışırlar. Promethean lövhə haqqında son araşdırmalara görə, müəllimlərin əksəriyyəti bu tip texnologiyalardan istifadə etmək mövzunu sinifdə mənimsəməyi sürətləndirdiyinə inanır

(% 82). Promethean interaktiv lövhələrdə Google Play Store dən uyğun tətbiqlər yükləməklə müəllimlər dərsi daha məhsuldar şəkildə təşkil edə bilərlər[3,5]. Bundan əlavə, dərs materialları və fəaliyyətlər lövhənin yaddaşında qaldığı üçün gündəlik təlimləri qarşılıqlı əlaqələndirmək və fərqləndirmək üçün daha çox imkanlar yaradır[1,2].

Elektron lövhələrdən sinif otaqlarında istifadə olunması tədris prosesində çox böyük yenilik olmuşdur. Lakin texnologiyanın inkişafı nəticəsində, onların gələcəkdəki rolu böyük sual altındadır. Artıq bir çox ölkədə elektron lövhələrlə yanaşı planşetlərdən istifadə olunmağa başlanılıb. Bəs elektron lövhə yoxsa planşetlər hansı gələcəkdə tədrisdə daha böyük rol oynayacaq?. Düşnürəm ki, gələcəkdə planşetlərdən daha çox istifadə olunacaq. Bunu isə aşağıdakı səbəblərlə əlaqələndirmək olar:

1. Elektron lövhələrlə müqayisədə planşetlərin qiymətləri daha aşağıdır. Müqayisə etsək: 10 sinifi elektron lövhə ilə təmin etmək üçün lazım olan məbləğdən daha aşağı xərclə həmin sinifləri planşetlərlə təmin etmək olar.

2. Elektron lövhədən istifadə zamanı tapşırığı yerinə yetirən zaman lövhədən bir və yaxud iki şagird istifadə edə bilir. Bu isə sinfin digər şagirdlərinin fəaliyyətsiz qalmasına səbəb olur. Planşetlərdən isə qrup işləri, cütlərlə iş, bütün siniflə iş zamanı istifadə etmək mümkündür.

3. Planşetlərdən istifadə edən zaman hər bir şagirdə fərqli tapşırıq vermək- şagirdə fərdi yanaşmaq mümkün olur.

4. Elektron lövhələrdə şagirdlər adətən müəllimin əvvəlcədən hazırladığı tapşırıqları yerinə yetirilər və şagrdin yaradıcılığını məhdud çərçivədə göstərə bilir. Planşetlərdə isə müxtəlif tətbiqetmələr var ki, şagird onlardan istifadə etməklə öz yaradıcılığını müxtəlif formalarda əks elətdirə bilir. Planşetlərdən istifadə edib şagirdlər:kitab, poster, video hazırlayır, onunla interetdə müxtəlif resurslardan istifadə edirlər. Eyni zamanda elektron lövhələr üçün hazırlanmış bəzi dərsləri planşetlərdə də açıb istifadə etmək mümkündür. Bunula siz şagirdə” öz lövhəsində işləmək imkanı “ verirsiniz.

5. Elektron lövhə daşına bilən deyil. Bunun əksinə planşetlərdən rahatlıqla sinifin müxtəlif hissələrində istifadə etmək olar[4,2]

## ƏDƏBİYYAT SİYAHISI :

1. Smartboard technology services Matthew B. Hoy və Tara J. Brigham, page 194-202, 22 Aprel 2013 2. SMART About Us Page (retrieved February 11, 2008)

3. SMART 2013 Annual report.pdf (SMART 2013 Annual report.pdf)

4. Decision Tree Consulting Ltd., Interactive Displays / ICT Products Market: Quarterly Insight State of the Market Report, Quarter 4 2007, Decision Tree Consulting Ltd., 31 January 2008.

5. ↑ SMART and Houghton Mifflin Harcourt Advance Education With Superior Content and Innovative Technologies (http://investor.smarttech.com/releasedetail.cfm? ReleaseID=820188)

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**Hüseynəliyeva Günay**
***Elmi rəhbər. Mirzə Gülrəna***
***Qərbi-Kaspi Universitetin, magistrant***

## XÜLASƏ

Dizayn, iqtisadi artıma və əməyin yüksək texnikiləşdirilməsinə əsaslanan bir sənaye, daha sonra bir post-sənaye cəmiyyəti mədəniyyətinin inkişafında yeni bir istiqamətdir. Bu, müasir dizaynda ziddiyyət yaradır, çünki bəzi istiqamətlərinin tərəfdarları texnologiyanı məqsədəuyğun hesab edir, bəziləri onu rədd edir, bəziləri dizayn prosesini alqışlayır, bəziləri isə yox. Ayrıca, bəziləri tarix və sosial problemlərlə, bəziləri forma yaratmaqla məşğuldur.

XV əsrdə Azərbaycan mədəniyyətinin iki mərkəzi formalaşır: Cənubi Azərbaycan və Aşağı Qarabağ. XVI–XVIII əsrlərdə bu mədəniyyət mərkəzlərinin formalaşması başa çatır. Onların ortaq dini və ortaq mədəni-tarixi ənənələri vardır. Müxtəlif mənbələrdə Azərbaycan Qafqaz və İslam mədəniyyət mühitlərinin daxilində götürülür. Hal-hazırda, 6 müstəqil türk dövlətindən biri olaraq, Azərbaycan Türk Şurası və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının aktiv üzvüdür Qobustan dövlət tarixi-bədii qoruğunda Mezolit dövründən orta əsrlərə qədər dövrü əhatə edən 6000 qayaüstü rəsm vardır. Ancaq burada primitiv incəsənətin çiçəklənmə dövrü Mis dövrü hesab edilir. Bu dövrdə qədim tayfaların yüzilliklərin əsəri olan həyat təcrübəsi dini və bədii görüşlər baxımından tam ifadə edilirdi.[12] Təxminən eramızdan əvvəl 6000–4000-cü illərdə Zaqafqaziyada Şulaveri-Şomutəpə mədəniyyəti inkişaf etmişdir. Bu mədəniyyət adını Gürcüstanda yerləşən Şulaveridən və Azərbaycan yerləşən Şomutəpədən alır. Şulaveri-Şomutəpə mədəniyyətinin mənsubları yerli obsidianı alətlər düzəltmək üçün istifadə edir, üzüm kimi mədəni bitkiləri yetişdirir, maldarlıqla məşğul olurdu. Bir çox xarakteri mədəniyyətin Yaxın Şərqin neolit mədəniyyətlərindən törədiyini göstərir.

Skiflər yüksək oxçuluq bacarığına malik idi. Bunun sübutu skif abidələrində və onların istehsal etdikləri mallar üzərindəki şəkillərdə tapılan oxluqlardır. Skiflər mütəşəkkil xalq olmaqla bərabər tayfa şurası və hərbi başçılar tərəfindən idarə edilən tayfalar ittifaqına sahib idi. Onlar hərbi iş sahəsində Azərbaycan ərazisindəki yerli əhalinin mədəniyyətinə əhəmiyyətli dərəcədə təsir edirdilər. Skiflər aborigenlərə at belində ox atmaq taktikasını öyrədirdilər.

Ellinizm dövründə hər biri ayrı dialekt və başçıya sahib alban tayfalarının birləşməsi nəticəsində Qafqaz Albaniyası yaranmışdır. Strabona görə Alban dinində üç tanrıya: Günəş, Zevs və Ay tanrısına ibadət var idi. İberiya sərhədinə yaxın yerləşən Ay məbədi böyük əraziyə sahib idi və bu məbədi idarə edən baş keşiş bütün krallıqda ikinci ən hörmətli adam sayılırdı. Albaniyadakı Ay kultunun ən spesifik cəhəti insan qurban verilməsi mərasimi idi. E.ə. IV əsr — eramızın VIII əsrlərində Cənubi Qafqazda, xüsusilə də Qafqaz Albaniyası ərazisində Küp qəbirləri mədəniyyəti yayılmışdır. Bu mədəniyyətdə ölülər bükülü vəziyyətdə sağ və ya sol böyrü üstə, əsasən, üfüqi şəkildə dəfn olunurdu. Qəbir invertarları metal (tunc və başlıca olaraq dəmir alət və silahlar, bürünc, gümüş və qızıl bəzək şeyləri), ağac, daş, gil, şüşə və pastalardan ibarət idi. Bu mədəniyyət əkinçilik, heyvandarlıq, ovçuluq, balıqçılıq və Qafqaz Albaniyası ədəbiyyatı ilə bağlı məlumatlar azdır. Alban dilinə dini və digər mövzulu kitablar tərcümə edilsə də, alban ədəbiyyatının ömrü qısa olub. Mehranilər sülaləsindən Cavanşirin əmri ilə Moisey Kalankatlı alban tarixşünaslığı abidələrindən biri olan "Alban ölkəsinin tarixi" əsərini yazmışdır. sənətkarlıqla məşğul olan oturaq əhaliyə aiddir. E.ə. III–I əsrlərdə Qafqaz Albaniyası ərazisində Yaloylutəpə mədəniyyəti mövcud olmuşdur. Mədəniyyəti günümüzə çatan nümunələri torpaq qəbirlərdə və kurqanlarda tapılmış müxtəlif alətlər mədəniyyətin nümayəndələrinin əkinçiliklə və şərabçılıqla məşğul olduğunu göstərir. VIII əsrdə Qafqaz Albaniyasının Ərəb Xilafətinin tərkibinə daxil olması ilə Azərbaycanda İslam dini yayılmağa başlamışdır. İslamın yayılması İslam mədəniyyətinin inkişafına səbəb olmuşdur. Ərəb Xilafətinin zəifləməsi ilə Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər kimi feodal dövlətləri yaranır. Şəddadi hökmdarı Fəzl bin Məhəmməd Araz çayı üzərində körpü, Əbüləsvar Şavur isə paytaxt şəhəri Gəncənin ətrafında sədd və xəndək qurmuşdur. Şirvanşahlar dövründə Bakıda çoxlu inşaat işləri həyata keçirilmiş və şəhər inkişaf etdirilmişdir. XII əsrdə qala divarları inşa edilmiş və şəhərin müdafiə sistemi gücləndirilmişdir. XV əsrdə Şirvanşahların öz iqamətgahlarını Şamaxıdan Bakıya köçürməsindən sonra şəhərin "Qala" adlandırılan qədim hissəsinin həyatında "kristallaşma" dövrü başlamışdır XI əsrdə Şirvanşahların sarayında əl-Qəzzi kimi ərəb dilində yazan şairlər var idi. XII əsrdə Əbülüla Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani və Mücirəddin Beyləqani kimi bir çox şairlər III Mənuçöhr və onun oğlu I Axsitanın sarayında toplaşmışdı. XVIII əsrdə Azərbaycanda türk mənşəli sülalələrin idarə etdiyi xanlıqlar əmələ gəlmişdir. 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsi ilə müasir Azərbaycan Respublikasının ərazisi Rusiya hakimiyyətinə keçmiş, Cənubi Azərbaycan isə İranın tərkibində qalmışdır. Beləliklə, Araz çayı sərhəd olmaqla azərbaycanlılar iki ayrı imperiyanın tərkibində qalmağa məcbur olmuş, İran və Rusiya mədəniyyətinin təsirində qalan azərbaycanlılar iki əsrlik sosial təkamül nəticəsində bir-birindən fərqlənməyə başlamışlar. 1822-ci ildə süqut etmiş Qarabağ xanlığının paytaxtı Şuşa şəhəri Azərbaycan mədəniyyətinin mərkəzlərindən biridir. Bu şəhər müəyyən bir dövr ərzində bir çox Azərbaycan ziyalıları — şairlər, yazıçılar və xüsusən musiqiçilərin (Azərbaycan aşıqları, Azərbaycan muğam ifaçıları,

qopuz ifaçıları) evi olmuşdur. Şuşa şəhərinin tarixi mərkəzində 549 qədim bina (bunlardan 72-si Azərbaycan tarixində iz qoymuş şəxslərin yaşayış evləri və ya ev muzeyləridir), 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, bir neçə kilsə və monastır, 2 qəsr və qala divarları yerləşir. Bu abidələrin çoxu XIX əsrdə yaşamış Azərbaycan memarı Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilmişdir.

IX əsrdə Azərbaycanın Rusiyanın tərkibinə daxil olmasıyla burada yaşayan insanlar Rusiya mədəniyyəti ilə və onun vasitəsilə də dünya mədəniyyəti ilə tanış olmuşlar. Bu dövrdə Tiflis şəhəri Azərbaycan mədəniyyətinin inkişafı üçün önəmli mərkəzlərdən birinə çevrilir. Tiflisdə yaşamış Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinə Molla Vəli Vidadi, Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Bülbülcan, Rəşid Behbudov, Qeysər Kaşıyeva, Xədicə Qayıbova misal göstərilə bilər. 28 may 1918-ci ildə Tiflisdə Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsini qəbul edərək rəsmən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını elan etmişdir. Sovet işğalına qədər 23 ay mövcud olan bu dövlət tarixə müsəlman Şərqindəki ilk demokratik və dünyəvi respublika (5 il sonra, 1923-cü ildə Türkiyə Cümhuriyyəti yaranıb) olaraq keçmiş və Azərbaycan qadınlara səs vermə hüququ verən ilk müsəlman xalqı olmuşdur. 19 noyabr 1918-ci ildə Milli Şuranın Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçən iclasında Azərbaycan ərazisində yaşayan bütün millətlərin təmsil edildiyi Azərbaycan parlamentinin yaradılması qərara alındı. Qərara görə 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar 80, ermənilər 21, ruslar 10, almanlar 1, yəhudilər 1 nümayəndə çıxarda bilərdi. Bir çox millətlərin nümayəndələri kimi parlamentin erməni Daşnaksütun fraksiyasından olan Abram Dastakov və Xoren Amaspür da Azərbaycan Nazirlər Kabinetinə seçilmişdir.

Erkən feodal dövrü memarlığı Azərbaycanda nəhəng müdafiə qurğularının Beşbarmaq, Gilgilçay və Zaqatala sədlərinin inşası ilə xarakterikdir. Azərbaycan ərazisində ən qədim islami tikililər VII əsrdə Ağsuda inşa edilmiş məscid və Şamaxı cümə məscididir. VIII əsrdə Azərbaycanın ərəblər tərəfindən ələ keçirilməsindən sonra ölkə ərazisində İslam mədəniyyətinin yayılmasına başlanılır, məscidlər, minarələr, mədrəsələr və türbələr inşa edilir. IX–X əsrlərdə Ərəb Xilafətində mərkəzi hakimiyyətin zəifləməsindən sonra Azərbaycanda müxtəlif kiçik sülalələr qısa müddətli hakimiyyətlərini qurmağa müvəffəq olmuşlar. Həmin dövrdə əsas yaşayış məntəqələri olan Bərdə, Şamaxı, Beyləqan, Gəncə, Naxçıvan, Marağa, Təbriz, Urmiya şəhərləri ətrafında spesifik xüsusiyyətlərə malik yerli memarlıq məktəbləri (Şirvan-Abşeron, Arran və Naxçıvan-Marağa) formalaşır. Bu memarlıq məktəblərindən Naxçıvan-Marağa məktəbi mükəmməl keramik-kaşı fasad işləmələri, Şirvan-Abşeron məktəbi hamar divar səthi və memarlıq elementlərinin plastik işləmələrinin kontrastı, Arran memarlıq məktəbi isə kərpic işləmələri ilə fərqlənir. XII–XIII əsrlər Azərbaycan memarlığının ən gözəl nümunələri Möminəxatun, Yusif Küseyir oğlu, Gülüstan türbələri, Bakıdakı Qız qalası, Qırmızı və Göy Günbəd türbələri, Mərdəkandakı dairəvi və dördkünc qəsrlər, Nardaran və Bayıl qəsrləri, həmçinin Pirsaatçay xanəgahıdır.

XIV–XVI əsrlərdə şəhərlərin genişlənməsi ilə kərpic və daş inşaatı inkişaf edir ki, bunun da ən gözəl nümunəsi Şirvanşahlar sarayı hesab edilir. Yerli memarlıq məktəblərinin ənənələri bu dövrlərə aid bürc formalı türbələrdə (Bərdə, Qarabağlar və Xaçındərbətli türbələri) və Ramana qalasının, həmçinin ikiyaruslu və gümbəzli quruluşa malik olan Diribaba türbəsinin, Təbrizdə Göy məscid, Sultaniyyədə Olcaytu Xudabəndə türbəsi, Gəncə cümə məscidinin memarlığında davam etdirilir. 1920–1930-cu illərin Sovet Azərbaycanı memarlığı üçün konstruktivizm ideyasının hakim olması xarakterikdir. Həmin dövr memarlar Aleksey Şusev, Vesnin qardaşları, S.S.Pen, Q.M.Ter-Mikelov, həmçinin memar Mikayıl Hüseynovun yaradıcılığının erkən dövrü ilə əlaqəlidir. 1934-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi İcrayə konstruktivizm üslubunu tənqid edən və milli memarlıq ənənələrinə qayıtmağa çağıran qərar verdi. Konstruktiv stil Azərbaycanda oturuşmağa imkan tapmamış, 30–40-cı illərdə yaradıcılığında klassik memarlıq ənənələri və milli memarlığın elementlərini birləşdirən S.A.Dadaşov, V.A.Munts və Mikayıl Hüseynovun təsiri Azərbaycan memarlığında hiss edilməyə başlayır. Bu sırada Mikayıl Hüseynovun yaradıcılığı xüsusilə fərqlənir. Həmin dövrün "klassik-milli memarlıq üslubu"nda inşa edilmiş əsərlər arasında Hökumət Evi (1934), Bakı Musiqi Akademiyası (1936), Azərbaycan Milli Kitabxanası (1947), Milli Ədəbiyyat Muzeyi (1940), AMEA binası (1948–1960) xüsusilə diqqəti cəlb edir. 1936-cı ildə Azərbaycan Memarlar İttifaqının əsası qoyulmuşdur. 1969–1982-ci illərdə ölkəni idarə etmiş Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Azərbaycan memarlarını müasir və milli memarlıq elementlərini

öz yaradıcılıqlarında birləşdirməyə çağırmışdı. Həmin dövrün memarlıq nümunələri arasında Bakı metropoliteninin Nizami (1970) və Elmlər Akademiyası (1976) stansiyaları, Zaqulba qonaq evi, Azadlıq prospektindəki yaşayış binaları, Gəncədə Kəpəz oteli (1973), Bakıda Abşeron oteli (1965) diqqət çəkir.

Müasir Azərbaycan memarlığı əvvəlki dövrlərin memarlıq ənənələrini özündə əks etdirməklə islam, qotik, klassik, barokko, modern memarlıq stillərinin milli memarlıq elementləri ilə vəhdətindən ibarət binalarda əks olunur. Son dövrlərdə inşa edilmiş binaların fasadlarının işlənməsində aqlay daşından geniş istifadə olunur. Bundan başqa mərmər, qranit, alüminium panellər də fasadların həllində tətbiq edilir. Müasir Azərbaycan memarlığının maraqlı nümunələri arasında Alov qüllələri, SOFAZ Tower, SOCAR Tower, Baku Tower, Trump Tower Baku, Bakı Kristal Zalı və başqa memarlıq layihələrini göstərmək olar.

## ƏDƏBİYYAT SİYAHISI :

1.R. Əfəndiyev "Azərbaycan dekorativ-tətbiqi sənətləri" Bakı. İşıq 1976.
2.Y.Ə. Həsənov "Dizaynın əsaslan". Dərslik. Bakı - 2005,152 səh.
3.Məmmədov Ə.Ə. Dizaynın əsasları.Bakı. Xudafərin.2018.88səh.
4. Dadaşov S.Ə., Türk miniatürünün formal təsvir dil nəzəriyyəsi. "Meqa" İstambul, 2006,124 s.
5.N.K.Abdullayev "Orta əsrlər memarlıq abidələrində dekorativ tərtibat" (kitab miniatürləri əsasında).Mədəniyyət dünyası №- 2010
6.Ə.Salamzadə, N.Rzayev, K.Kərimov, R.Əfəndiyev,N.Həbibov "Azərbaycan incəsənəti" Bakı.Maarif nəşriyyatı 1977, 212 səh.

# TORPAQLARIN MÜNBİTLİYİNİN QORUNMASINDA MÜASİR SUVARMA ÜSULLARININ TƏTBİQİ

**Hüseynova G.**
***Qurbanova L.M. k.ü.f.d., elmi rəhbər***
***Qərbi Kaspi Universiteti, magistr***
***gulu.hova1599@gmail.com***

## XÜLASƏ

Deqradasiyanın əsas forması meşəsizləşmə, səhralaşma, duzlaşma və torpaqların eroziyaya uğramasıdır. Kənd təsərrüfatının stabil inkişafının təmin edilməsi, səmərəli suvarma və digər aqrotexniki tədbirlərin düzgün təşkil olunması, otlaqların normadan artıq yüklənməməsi torpaqların müxtəlif deqradasiya proseslərinin qarşısının alınmasına zəmin yaradır.

**Açar sözlər:** eroziya, səmərəli suvarma, deqradasiya

## ABSTRACT

## APPLICATION OF MODERN IRRIGATION METHODS IN PROTECTION OF LAND FERTILITY

The main forms of degradation are deforestation, desertification, salinization and soil erosion. Ensuring stable development of agriculture, proper organization of effective irrigation and other agro-technical measures, non-overloading of pastures create a basis for preventing various land degradation processes.

**Keywords**: erosion, efficient irrigation, degradation

## РЕЗЮМЕ

# ПРИМЕНЕНИЕ СОВРЕМЕННЫХ МЕТОДОВ ПОЛИВА ДЛЯ СОХРАНЕНИЯ ПЛОДОРОДНОСТИ ЗЕМЕЛЬ

Основными формами деградации являются вырубка лесов, опустынивание, засоление и эрозия почвы. Обеспечение устойчивого развития сельского хозяйства, правильная организация эффективного орошения и других агротехнических мероприятий, отсутствие перегрузки пастбищ создают основу для предотвращения различных процессов деградации земель.

**Ключевые слова:** эрозия, эффективное орошение, деградация

Torpaq ehtiyatları bütün ölkələrin inkişafı üçün onun varlığının və potensial imkanlarının əsas elementlərindən biri kimi qiymətləndirilir. Məhz bu səbəbdən tarix boyu torpağa sahib olmaq üçün həm ölkə daxilində ayrı-ayrı şəxslər və inzibati ərazi bölgələri arasında, həm də dövlətlər arasında mübarizə getmişdir. Torpaq üzərində vahid dövlət mülkiyyət forması ilə yanaşı, xüsusi və bələdiyyə mülkiyyət hüquqları da qanunvericiliklə təsbit olundu.Torpaq yerin üst münbit qatı olmaqla aqrar sahənin əsas istehsal vasitəsidir. Ölkəmizin təbii-iqlim şəraiti kənd təsərrüfatı bitkilərinin bütün il ərzində becərilməsinə imkan versə də, torpaq fondunun yarıdan çox hissəsi kənd təsərrüfatına yararlıdır ki, bunun da əksəriyyəti rütubət çatışmayan quraq zonaya aid olduğundan burada suvarma tətbiq etmədən kənd təsərrüfatı məhsullarının istehsalı mümkün deyildir.

Quraqlıq illərində yerüstü su ehtiyatlarının azalması, daxili çayların su axınının tənzimlənməməsi nəticəsində daşqın sularından tam istifadə olunmadan dənizə axması əkin sahələrinin suvarma suyu ilə təmin olunmasını çətinləşdirir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında mövcud torpaq və su ehtiyatlarından səmərəli istifadə olunmasının rolu olduqca vacibdir.

Torpaqların münbitliyinin qorunması və ondan səmərəli istifadə olunması aqrar sahənin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Torpaqların münbitliyinin sabit saxlanılması və artırılması əhalinin həyat şəraitinin və sağlamlığının təmin edilməsi ilə yanaşı, gələcək nəsil üçün böyük imkanlar yaradır. Torpaqların səmərəli istifadə edilməsi məqsədilə onun su, qida, hava və istilik rejimləri düzgün tənzimlənməli kənd təsərrüfatı bitkilərinin fenoloji və bioloji inkişaf xüsusiyyətlərindən asılı olaraq optimal aqrofon yaradılmalıdır.

Deqradasiyanın əsas forması meşəsizləşmə, səhralaşma, duzlaşma və torpaqların eroziyaya uğramasıdır. Kənd təsərrüfatının stabil inkişafının təmin edilməməsi, səmərəsiz suvarma və digər aqrotexniki tədbirlərin düzgün təşkil olunmaması torpaqların yamaclarda və digər meylli ərazilərdə becərilməsi, kortəbii meşə materiallarının istehsalı və otlaqların normadan artıq yüklənməsi nəticəsində müxtəlif deqradasiya proseslərinin inkişafına zəmin yaranır. Səthi su axınlarının baş verməsi, eləcə də küləyin təsiri torpaqların mexaniki surətdə dağılmasına, eroziya prosesinin inkişafına şərait yaradır. Səhralaşmanın əsas səbəblərini otlaq sahələrində mal-qaranın və davarların normadan artıq saxlanılması və otarma qaydalarına düzgün əməl edilməməsi şumun və suvarmanın düzgün aparılmaması, bitki örtüyünün məhv edilməsi, ağır və iriqabaritli texnikanın dağıdıcı təsiri, torpağın, havanın, suyun sənayenin təsiri nəticəsində çirklənməsi ilə izah etmək olar.

Torpaqların münbitliyinin bərpası məqsədilə torpaqların konsolidasiyası, iri fermer təsərrüfatlarının yaradılması və təsərrüfatlarda müasir becərmə texnika və texnologiyaların tətbiqi, gübrə, pestisid və kənd təsərrüfatı texnikaları ilə təminat yaxşılaşdırılmışdır. Bu tədbirlərdən biri də elektron kənd təsərrüfatının strukturunda kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin dəqiq uçotunun aparılması, onlardan səmərəli istifadə olunması və mühafizəsinin təşkili kimi vacib məsələləri əks etdirən elektron xəritə materialları əsasında torpaqların vahid məlumat bazasının yaradılmasıdır. Məqsəd qeyri-neft sektorunun inkişaf etdirilməsi tədbirləri çərcivəsində aqrar sahədə istehsal potensialının və rəqabətliliyin möhkəmləndirilməsi üçün zəruri təhlillərin aparılması nəticəsində optimal qərarların qəbul olunmasına imkan yaratmaqdır. Torpaqların mühafizəsi və münbitliyinin bərpası üçün həmin sahələrə tələbata uyğun üzvi və mineral gübrələr verilməli, həmin torpaqlarda təsərrüfatdaxili meliorasiya-irriqasiya sistemləri təmir-bərpa olunaraq saz vəziyyətə gətirilməlidir. Eyni zamanda, suvarılan sahələr yaxşıca hamarlanmalı, bitkinin növündən asılı olaraq şırım və ox arxları çəkilməlidir. Kənd təsərrüfatı bitkilərinin suya olan tələbatı nəzərə alınmaqla suvarma qrafiki tərtib olunmalıdır ki, sahəyə normadan artıq su verilməsin.

Torpaq sahələrinin yuyulması başa çatdıqdan sonra buxarlanmanın qarşısının alınması üçün dərhal müvafiq becərmə işlərinə başlanmalıdır. Drenləri, təsərrüfat və sahə kanallarını müntəzəm olaraq təmizləməli və drenlərdə su durğunluğuna yol verilməməlidir. Yuma, arat və suvarmanın başlanma, qurtarma vaxtına və suvarma normasına düzgün əməl edilməli, suyun nəzarətsiz axmasına yol verilməməli və növbəli iş üsulu yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində su itkisinin və təkrar şorlaşmanın qarşısı alınmaqla torpaqların münbitliyinin yaxşılaşması və səmərəli istifadəsi üçün əlverişli şərait yaranacaqdır.

Örüş sahələrinin və biçənəklərin fiziki və hüquqi şəxslərin istifadəsinə vermək üçün tələbat hesablanarkən mal-qaranın sayı, torpaq ehtiyatlarının həcmi, sahənin tutumu, coğrafi yerləşməsi, suvarma imkanı nəzərə alınmalıdır.

Yeni iqtisadi şəraitdə torpaq resurslarına qənaətedici texnika və texnologiyalara üstünlük verilməli, intensiv texnologiyanın tətbiqi üçün böyük əhəmiyyət kəsb edən torpaqların işlənilməsinin minimallaşdırılması, “sıfır” becərmə, səthi azlaydırlı, laydırsız kombinə edilmiş üsulların tətbiqi, aqrolandşaftın ekoloji balanslaşmasını, təbii qanunauyğunluqları özündə cəmləyən ekoloji-landşaft əkinçilik sisteminin təşkili müasir dövrün tələbləri və davamlı inkişafın təmin olunması baxımından çox vacibdir. Müasir əkinçilik təsəvvürlərinə görə aqrar sahədə davamlı inkişafın təmin edilməsi üçün əkin sahəsinin 5-6 faizinin meşə zolaqlarından ibarət olunması tövsiyə olunur. Belə ki, meşə və meşə zolaqları küləyin zərərli təsirinin qarşısını almaqla, onun sürətini 30-50 faiz azaldır, havanın nisbi rütubətini 4-8 faiz artırır. Meşəqoruyucu aqrofitosenozlarda qarın əriməsi tədricən baş verir ki, bu da torpağın üst qatında nəm ehtiyatını 40-100 mm artırır. Meşə zolaqları torpaq səthi ilə baş verən qeyri-məhsuldar buxarlanmanı 20-30 faiz, yaz su axınını isə 2-4 dəfə azaldır. Meşə bitkiləri salınmış ərazilərdə kənd təsərrüfatı bitkiləri üçün böyük əhəmiyyətə malik mikrobioloji proseslər aktivləşir, torpağın münbitliyinin artırılmasında başlıca rol oynayan humusun, azotun, fosforun miqdarı artır ki, bu da aqrar sahənin qarşısında qoyulmuş piroritet vəzifələrin, o cümlədən etibarlı ərzaq təminatı siyasətinin uğurla həyata keçirilməsi sahəsində mühüm əhəmiyyət kəsb edir.

Yaranmış vəziyyət kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin fermerlərlə daha yaxından və qarşılıqlı faydalı müqavilələr əsasında işləmələrini tələb edir. Fermerlərimiz həm torpağın, həm də bitkilərin fiziologiyasını, morfologiyasını, mənşəyini, təbiətin əlverişsiz amillərinə qarşı davamlılığını və s. Bu kimi problemlərin mahiyyətini başa düşməli və ətraf mühitin mühafizəsi sahəsində əməli tədbirlər görməli, necə deyərlər həyacan təbili çalmalıdırlar. Yadda saxlamaq lazımdır ki, torpaq da canlıdır, ona olan münasibət digər canlılara olan münasibət kimi olmalıdır. Torpaqların yaxşılaşdırılması ilə bu gün məşğul olmalıyıq, onu sabaha və ya o biri günə saxlamaq vəziyyəti daha da gərginləşdirər və kapital qoyuluşunu qat-qat artırar. Bu gün hər bir torpaq istifadəçisi torpağın və bitkinin “dilində” danışmağı öyrənməli və onlarla necə davranmağı bacarmalıdır. “Pis torpaq yoxdur, pis təsərrüfatçı var” deyimini həmişə yadda saxlamaq və torpaqların becərilməsinə bu prinsiplərə ciddi əməl edilməsi baxımından yanaşılmalıdır.

Torpaqlarımızın sağlamlaşdırılması, mühafizəsi, ondan səmərəli istifadə olunması məqsədilə münbitliyinin bərpası və artırılması, habelə ekoloji cəhətdən təmiz və keyfiyyətli, bol məhsul istehsal edilməsi hamımızın müqəddəs və təxirəsalınmaz işidir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Məmmədov Q.Ş., Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları, Bakı “Elm” 2007, 383 s.
2. Məmmədov Q.Ş., Azərbaycanın torpaq ehtiyatlarından səmərərli istifadənin sosial-iqtisadi və ekoloji əsasları, Bakı “Elm” 2007, 856 s.
3. Müseyibov M.A., Azərbaycanın fiziki coğrafiyası, Bakı “Maarif” 1998, 397 s.
4. Məmmədov Q., Mahmudov X., Ekologiya,Ətraf Mühit və İnsan, Bakı “Elm” 2006, 608 s.
5. Ş. Xəlilov Azərbaycanın ekocoğrafi problemləri, Bakı 2006
6. Mövsümov E., Quliyeva L., Ətraf mühitin kimyası, Bakı “MBM” 2010, 184 s.
7. Hüseynov A., Hüseynov N., Torpaq kimyası, Bakı 2012, 100 s.

# AZƏRBAYCANDA İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ TƏNZİMLƏNMƏSİNƏ MÜASİR YANAŞMALAR

**Hüseynova Nərmin Elmir qızı**
***Azərbaycan Universitetinin magistrantı***
***narminhuseynova19@gmail.com***

**Açar sözlər:** investisiya, maliyyə, vergi, tənzimləmə, büdcə, inkişaf.

**РЕЗЮМЕ**

**СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ОРГАНИЗАЦИИ И РЕГУЛИРОВАНИЮ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ**

Создание благоприятного инвестиционного климата на основе организации инвестиционной деятельности оказывает существенное влияние на экономическое развитие страны, что требует эффективного использования внутренних инвестиционных возможностей и привлеченных ресурсов. Принципы организации инвестиционной деятельности меняются в зависимости от социально-экономической ситуации. В представленной статье изучены и обоснованы экономические механизмы регулирования инвестиционной деятельности с учетом текущей экономической ситуации.
Modern approaches to the organization and regulation of investment activities in Azerbaijan**.**

**Ключевые слова**: инвестиции, финансы, налоги, регулирование, бюджет, развитие.

**SUMMARY**

The creation of a favorable investment climate based on the organization of investment activities has a significant impact on the economic development of the country, which requires the effective use of domestic investment opportunities and attracted resources. The principles of organizing investment activity change depending on the socio-economic situation. In the presented article, the economic mechanisms of regulation of investment activity are studied and substantiated, taking into account the current economic situation.
**Keywords:** investment, finance, tax, regulation, budget, development

İnvestisiya fəaliyyəti mahiyyət etibarilə, investisiya obyektlərinin yaradılması, seçilməsi, istismarı və ləğv edilməsi, kapital qoyuluşlarının həyata keçirilməsi və xarici investisiyaların cəlb edilməsi üzrə tədbirlərin məcmusudur. Onun təşkili və tənzimlənməsinin hüquqi əsasları “İnvestisiya fəaliyyəti haqqında” qanunda öz əksini tapmışışdır. Həmin qanuna uyğun olaraq, investorun təsərrüfat fəaliyyətinin aşağıdakı prinsipləri müəyyən edilmişdir:

1. İnvestorun öz vəsaitlərindən istifadə həcmi və istiqamətlərinin seçilməsində sərbəstliyi;
2. İnvestisiya fəaliyyətinin iştirakçıları arasında qarşılıqlı münasibətlərin müqavilə yaxud kontrakt əsasında tənzimlənməsi;
3. Dövlət orqanlarının öz öhdəliklərinə görə digərləri ilə bərabər şəkildə məsuliyyət daşıması[1, 5-6].

İnkişaf etmiş investisiya infrastrukturu olmayan ölkədə səmərəli investisiya fəaliyyətinin həyata keçirilməsi mümkün deyil. Beləki, bank sistemi lazımi kapital həcminə malik olmaqla iqtisadiyyatın real sektorunu uzunmüddətli kreditlərlə təmin etməli, pensiya fondlarının və sığorta şirkətlərinin bazarda

investor kimi çıxış etmələrinə şərait yaradılmalıdır. Bundan əlavə investorların sərbəst pul vəsaitlərinin uzunmüddətli əsasda cəlb edilməsi üçün fond bazarının inkişafı da təmin olunmalıdır.

Səmərəli investisiya fəaliyyətinin reallaşdırılması mühüm istiqamətlərindən biri zəruri informasiya bazasının formalaşdırılmasından ibarətdir. Müasir dövrdə informasiya texnologiyalarından istifadənin istənilən fəaliyyət növünün ayrılmaz hissəsi olması bu amilin dəyərini daha da yüksəldir. Bu, iqtisadiyyatın real sektoruna özəl investisiyaların cəlb edilməsi baxımından da əhəmiyyətli məsələdir.

İnvestisiya fəaliyyətinin tənzimlənməsində müxtəlif iqtisadi mexanizmlərdən istifadə edilir. Tənzimləmə prosesində əsasən vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi nəzərdə tutulur. Bu baxımdan investisiya fəaliyyətinin stimullaşdırılmasının vergi mexanizminin xüsusiyyətlərinin öyrənilməsi və investisiya qoyuluşlarının prioritet istiqamətlərinin təhlili olduqca aktual bir məsələdir. Müasir dövrdə əmtəə istehsalçılarının investisiya fəallığı ilə gəlir vergisinin dərəcələri arasındakı asılılığı öyrənməyə yönəldilən Laffer nəzəriyyəsinə görə vergilərin artırılmasının müəyyən həddi vardır. Həmin həddin aşması öz növbəsində işgüzar fəallığın aşağı düşməsinə və nəticə etibarilə büdcə gəlirlərinin azalmasına gətirib çıxara bilər [ 5, 27].

Qeyd etmək lazımdır ki, ölkəyə investiyaların cəlb edilməsi sabit vergi rejiminin həyata keçirilməsini zəruri edir.Vergi rejiminin sabitliyi vergi dərəcələrinin, güzəştlərin və s. birdəfəlik və həmişəlik müəyyən edilməsi deyil. Vergi sistemi tətbiq olunduğu ölkədə sosial-siyasi vəziyyətin sabitliyini əks etdirir. Mövcud şərait və şərtlər dəyişdikdə vergi sistemi cari tələblərə cavab vermir və iqtisadi inkişafın obyektiv şərtləri ilə uzlaşmır. Bu zaman vergi sistemində yaxud onun ayrı-ayrı elementlərində zəruri dəyişikliklər aparılır. Vergi rejiminin sabitliyi və dinamikliyinin əlaqələndirilməsinə onunla nail olunur ki, aşkar görünən səhvlərin aradan qaldırılması istisna olmaqla il ərzində heç bir dəyişiklik edilmir [4, 15-16].

Respublikada sabit investisiya mühitinin yaradılmasında başlıca amillərdən xarici investorlar üçün əlverişli şəraitin yaradılmasıdır. Ölkə iqtisadiyyatına investisiyanın cəlb edilməsinin əsas motivi müvafiq əməliyyatlardan əldə olunan mənfəətin kəmiyyətidir. Bu və ya digər məsələlər respublikamızın investisiya siyasətinin aşağıdakı mühüm istiqamətlərində öz həllini tapır:

- mərkəzləşdirilmiş qaydada maliyyələşdirmənin azaldılması və müvafiq vəsaitlərdən əsasə dövlət obyektlərinə investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün istifadə edilməsi;
- investisiyaların əsasən iqtisadiyyatın prioritet sahələrinin inkişafına yönəldilməsi;
- investisiya resursları bazarının formalaşdırılması;
- investisiya sığortası üzrə hüquqi bazanın yaradılması;
- investisiya tsiklinin davam etməsi müddətinin qısaldılması.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi ölkədə vahid iqtisadi, elmi-texniki, sosial siyasətin həyata keçirilməsi üçün kompleks tədbirlər sistemini əhatə edir. Bu tədbirlərin maliyyələşdirilməsi dövlət, yerli büdcələr və xüsusi vəsaitlərin hesabına həyata keçirilir. İnvestisiya qoyuluşları başlıca olaraq ölkənin ictimai tələbatının ödənilməsinə, iqtisadiyyatın strateji sahələrinin inkişafına yönəldilir. Təsərrüfat və mülkiyyət formalarından asılı olmayaraq, investisiya qoyuluşları fəaliyyətdə olan ölkə qanunvericilik aktları ilə tənzimlənir. Dövlət ölkənin sosial-iqtisadi inkişafının tənzimlənməsinə, iqtisadiyyatın sahələri arasında zəruri nisbətlərin yaradılmasına, eləcə də istehsal və sosial infrastrukturun formalaşmasına nəzarət edir.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinə dövlət investisiyasının idarə olunması, habelə investisiya fəaliyyəti şərtlərinin müəyyən edilməsi və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl edilməsinə nəzarət daxildir. Öz növbəsində, dövlət investisiyası dövlət, yerli hakimiyyət və idarəetmə orqanları tərəfindən idarə olunur. Bu proses büdcə və büdcədənkənar fondarın vəsaitlərinin, eləcə də həmin orqanlar tərəfindən cəlb edilən digər vəsaitlərin kəmiyyətinin planlaşdırılmasından və investisiya qoyuluşu şərtlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Məlumdur ki, səmərəli investisiya fəaliyyəti üçün ölkə lazımi maliyyə resurslarına malik olmalıdır. Əks halda milli iqtisadiyyatın formalaşdırılmasını və inkişafını təmin etmək məqsədilə ölkəyə xarici investisiyalar cəlb edilməlidir. Məhz buna görə də, müasir şəraitdə respublikamızda xarici investorların marağına və milli iqtisadiyyatın inkişafı prioritetlərinə uyğun olaraq, qarşılıqlı investisiya qoyuluşlarının həyata keçirilməsi imkanı yaradılır. İnvestisya ölkə iqtisadiyyatı üçün o zaman səmərəli hesab edilə bilər ki, o, iqtisadiyyatın aparıcı sahələrinə yönəldilsin. İnvestisiyanın ölkə iqtisadiyyatına həddən çox tətbiq

edilməsi iqtisadiyyatın gərgin vəziyyətdə olmasına və inflyasiyaya səbəb ola bilər. Amma investisiyanın tələbdən az olması da deflyasiya ilə nəticələnər. Deməli investisiya iqtisadiyyata lazımi qaydada və miqdarda tətbiq edilməlidir [3, 19].

Ümumiyyətlə, əhalinin rifahına düşən xarici investisiya həcminə görə, hazırda ölkəmiz Şərqi Avropa və MDB məkanında lider ölkələrdən sayılır. Bu, ilk növbədə, hökumətin ölkəyə xarici sərmayənin cəlb edilməsi üçün həyata keçirdiyi açıq qapı" siyasətinin nəticəsidir."Əsrin Kontraktı" bağlandıqdan neftin dünya bazar qiymətinin azaldığı bəzi illər istisna olunmaqla, valyuta gəlirləri artmış və dövlətin maliyyə imkanları genişlənmişdir. Ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların strukturunda əhəmiyyətli dəyişikliklərin baş verməsi və daxili investisiyaların tədricən xarici investisiyaları üstələməsi də bunun nəticəsidir.

**Cədvəl 1. İqtisadiyyata yönəldilən investisiya qoyuluşlarının dinamikası.**

| İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Bütün mənbələr üzrə investisiya qoyuluşları** | | | | | | |
| milyon manat | 21890,6 | 20057,4 | 22706,4 | 24462,5 | 25877,0 | 24986,6 |
| milyon dollar | 27907,5 | 19547,2 | 14228,0 | 14213,3 | 15221,7 | 14698,0 |
| **Xarici investisiyalar** | | | | | | |
| milyon manat | 9175,6 | 10998,9 | 16216,1 | 15697,3 | 14002,1 | 12119,5 |
| milyon dollar | 11697,7 | 10719,1 | 10161,1 | 9120,5 | 8236,5 | 7129,1 |
| **Daxili investisiyalar** | | | | | | |
| milyon manat | 12715,0 | 9058,5 | 6490,3 | 8765,2 | 11874,9 | 12867,1 |
| milyon dollar | 16209,8 | 8828,1 | 4066,9 | 5092,8 | 6985,2 | 7568,9 |

***Mənbə:* www.stat.gov.az**

Cədvəl məlumatlarından göründüyü kimi,2014-2019-cu illər aralığında iqtisadiyyata qoyulan investisiyaların həcmi müəyyən tərəddüdlərlə artmışdır. Son üç il ərzində daxili investisiya qoyuluşlarının ardıcıl olaraq artması diqqəti cəlb edir. Verilən cədvəldə 2014-cü ildən başlayaraq, ABŞ dolları ekvivalentində investisiya qoyuluşlarının azalmasının bir sıra səbəbləri vardır. Burada 2015-ci və 2016-cı illərdə baş verən devalvasiya proseslərini xüsusilə qeyd etmək olar.Milli valyutanın məzənnəsinin iki dəfədən çox aşağı düşməsi daxili investisiyaların dollar ekvivalentində azalmasını şərtləndirmişdir. Bütövlükdə ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının artmasını ölkədə həyata keçirilən layihələrin uğurla maliyyələşdirilməsi ilə əlaqələndirmək olar. Sonrakı dövrdə milli valyuta məzənnəsinin sabitliyinin təmin edilməsi yerli investorların səmərəli fəaliyyəti əlverişli şərait yaratmışdır. Belə nəticəyə gəlmək olar ki, valyuta siyasəti investisiya fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayır.

Hazırda Azərbaycan öz tarixinin və iqtisadi inkişafının şərəfli və məsuliyyətli bir dövrünü yaşayır. Qarşıda işğaldan azad olunmuş 12 min.kv.m.ərazinin abadlaşdırılması, öz sakinlərinin istifadəsinə verilməsi kimi irimiqyaslı layihənin reallaşdırılması vəzifəsi durur.Bu da layihənin reallaşdırılması müvafiq ərazidə investisiya fəaliyyətinin təşkilini, onun maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsini və ölkənin investisya siyasətinə uyğunlaşdırılmasını tələb edir. Düşünürük ki, bu məqsədlə ilk növbədə ərazinin potensial gəlir məbələri hərəkətə gətirilməli və onun əsasında "Böyük Qayıdış" layihəsi üzrə sürətli bərpa-yeniqənqurma işləri həyata keçirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Azərbaycanın Respublikasının“İnvestisiya fəaliyyəti haqqında” qanunu,Bakı: 1995.
2. Azərbaycanın Respublikasının “Xarici investisiyaların qorunması haqqında” qanunu,Bakı: 1992.
3. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. monoqrafiya. Bakı: “Elm”, 2005, 468 s.
4. Məmmədov F.Ə. və başqaları. Vergilər və vergitutma. Bakı: 2010, 512 s.
5. Rzayev Z.H. Vergi menecmenti, dərslik. Bakı: 2007, 324 s.
6. İsayev S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi, dərs vəsaiti, Bakı: 2011,188 s.
7. Quliyev İ.Q. İnvestisiya layihələrinin qiymətləndirilməsi, dərs vəsaiti, Bakı: 2020, 280 s.
8. www.stat.gov.az

## BİODİZEL İSTEHSALINDA MÜXTƏLİF KATALİTİK SİSTEMLƏR

**Hüseynova S.E., Cavadova O.N., Məmmədov İ.Q.**
*Bakı Dövlət Universiteti*

**Açar sözlər:** biodizel, yanacaq, katalizator.
**Keywords:** biodiesel, fuel, catalyst.
**Ключевые слова:** биодизель, топлива, катализатор.

Nəqliyyat vasitələrinin atmosferə atdığı zəhərli qazlar bir çox ekoloji prob-lemlərə gətirib çıxarır. Bu ekoloji problemlərin qarşısının alınması məqsədilə hazırki dövrdə klassik yanacaqlara alternativ olan bioyanacaqlardan geniş şəkildə istifadə olunmağa başlanılmışdır [1].

Ədəbiyyat mənbələrində biodizelin alınması məqsədilə müxtəlif turşu-, qələvi-, ion mayesi-, fermentativ- və s. növ katalizatorlardan istifadə olunur. Göstərilən katalizatorlar iştirakında biodizelin sənayedə istehsal üsulları bir-birindən fərqlənir. Əsasi katalizatorlar turşu katalizatorlara nisbətən daha əlverişli hesab olunur. Lakin bu katalitik sistemlərin hər biri üstünlükləri ilə yanaşı, müəyyən çatışmazlıqlara da malikdirlər. Biodizel istehsalında yeni və səmərəli katalizatorlsrın axtarışı, hələ də günün aktual məsələsi olaraq qalmaqdadır [2].

Göstərilənlər əsas götürülərək, tərəfimizdən yeni ion maye katalizatoru biodi-zelin alınmasında sınaqdan keçirilmişdir. Tədiq edilən katalitik sistem bir sıra üstünlükləri ilə fərqlənmişdir.

### ƏDƏBİYYAT SİYAHISI :

1. J.O. Igbokwe, O.C. Nwufo, C.F. Nwaiwu, Biofuel, 2015, 6, p.1-8
2. B. Changmaia, C. Vanlalvenib, A.P. Inglec, R. Bhagatd, L. Rokhum, RSC Adv., 2020, 10, 41625-41679

## MÜASIR TEXNOLOGİYALARIN MODA İNDUSTRİYANIN İNKİŞAFINA TƏSİRİ

**Hüseynzadə Rəşad Qalib oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*stranger96@mail.ru*

### XÜLASƏ

Moda sənayesində də daxil olmaqla sürətlə inkişaf edən texniki tərəqqi və materialların yaxşılaşdırılması əsrində bu proseslərin formalizmə, stereotip dizayn ilhamına və fərdiliyə təsir etməyəcəyi sualı aktualdır. Bu əsərdə dünyanın aparıcı dizaynerlərinin işlərindən, moda kolleksiyası yaratmaq təcrübələrindən nümunə götürən müəllif, müasir texnologiyaların moda dizaynerlərinin yaradıcılığına təsirini göstrir.

**Açar sözlər:** müasir texnologiyalar, geyim dizayn, rəqəmsal çap, 3D-çapı, dəb

## РЕЗЮМЕ

В век стремительно развивающегося технического прогресса и со- вершенствования материалов, в том числе и в сфере модной индустрии, актуальным является вопрос о том, не повлияют ли эти процессы на формализм, шаблонность дизайнерского вдохновения и индивидуальности. В настоящей работе автор, используя в качестве примеров работы ведущих мировых дизайнеров, их опыта создания модной коллекции, раскрывает влияние современных технологий на творчество модельеров.

**Ключевые слова:** современные технологии, дизайн одежды, цифровая печать, 3D-печать, мода

## SUMMARY

In the age of rapidly developing technological progress and the improvement of materials, including in the fashion industry, the question of whether these processes will not affect the formalism, template design inspiration and individuality is relevant. In this paper, the author, using as examples the work of the world's leading designers, their experience in creating a fashion collection, reveals the influence of modern technologies on the creativity of fashion designers.

**Key words:** modern technologies, clothing design, digital printing, 3D printing, fashion.

Müasir texnologiyaları bizim həyatımızda artıq çoxdandır ki, öz yerini tutmuş və möhkəmləndirmişdir. Get-gedə daha çox insan ən müxtəlif kompüter proqramlarından istifadə edir, müasir həyatımızda belə bir sahə tapmaq çətindir ki, orada kompüterlərdən istifadə olunmasın.

Bu gün dəb evlərinin yüksək texnologiyalara olan aşkar marağı get-gedə daha nəzərə çarpacaq dərəcədə özünü büruzə verir. Dəb sənayesi zamanla ayaqlaşmalı və ən cəsarətli ideya və niyyətləri həyata keçirmək məqsədilə elmi ixtiralarından tam həcmdə istifadə etm əlidir.

Belə ki, dəbdəbəli rəqs gecəsində qaranlıqda parlayan Kler Deynsin “Met Gala” libası insanları heyrətə gətirmişdir. Həmin libas onun strukturuna tikilmiş 30 kiçik akkumulyator sayəsində ecazkarcasına işıq saçırdı, onun özü isə optik liflərlə örtülmüş orqanzada hazırlanmışdır.

“Admirallıq ili 2018” müsabiqəsində təqdim edilmiş “CYBER-00” kolleksiyasında müəllif işıq diodlarının kontur üzrə yerləşdirilməsindən istifadə etmişdir ki, bunun sayəsində yalnız insana xas olan sevgi və hissiyyat, həssaslıq ideyasını ötürməy qabil olan insan orqanizminin elementlərinin parlayan şəfəqinin (oreolunun) təəssüratını yaratmaq mümkün olmuşdur.

Hal-hazırda plastikdən və plastmasdan hazırlanmış geyim və aksesuarlarla kimisə təəccübləndirmək çox çətindir, belə olan halda dizaynerlər müasir materialların istifadəsinə əl atırlar ki, onların (belə materialların) hazırlanması metodları daha da dəbdəbəli və mürəkkəbdir. Onların arasında frezer kəsimi, lazer perforasiyası, rəqəmsal çap, 3D çapı və bu kimi xeyli başqa metod və üsulları göstərə bilərik.

“Lazer perforasiyası” plastik xirurgiyadan iqtibas edilmiş bir termin kimi səslənir. O, sanki olduqca iti bir cərrah bıçağı (skalpel) kimi mütəlif qalınlıqlı və teksturalı parçalarda kəsiklər etməyə imkan verir, eləcə də rəsmin tam simmetriyasına və yüksək dəqiqliyinə nail olmağa şərait yaradır. Perforasiya bu gün mürəkkəb, müəllif naxışların hazırlanması məqsədilə tətbiq edilir ki, burada dərinin üərində də həmin naxışların yaradılmasını da qeyd etmək yerinə düşərdi.

Dəbin texnologiyalardan iqtibas etdiyi innovasiya metodu kimi rəqəmsal çap üsulunu göstərə bilərik. Dünya şöhrətli brendləri əksəriyyəti adışəkilən bu texnologiyanın və texnikanın dəbdəbənin, şıqın xüsusi elementi kimi dəyərləndirirlər. Belə dizaynerlərdən biri Anna Suidir, o, 1960-1970-ci illər üçün səciyyəvi

xarakter daşıyan ornamentlərin bərpası üçün rəqəmsal çap texnologiyalarla işləyir.(1) Belə təsəvvür yaranırdı ki, heç də uzaq olmayan keçmişdə 3D printerdə yerinə yetirilən çap dəb aləmində sözün əsl mənasında inqilabi dəyişiklik və ixtira idi.

Dünyada ən birinci 3D-çapı libas 4 mart 2013-cü ildə ABŞ-da Nyu-York şəhərində yerləşən "Ace Hotel"-də keçirilmiş Dita fon Tizanın "Burleks kraliçası" adlı tədbirdə görüntülənmiş libas nümunəsi üçün işlənib hazırlanmışdır. Lakin, cəmi iki il keçdikdən sonra, yəni artıq 2015-ci ilin əvvəlində Anouk Wipprecht adlı dizayner-yenilikçi 3D-çapı ekzoskeletə malik libas təqdim etmişdir. Hörümçək-libas 20-yə yaxun datçıklə təmin edilib və onlar ətraf mühitə reaksiya verərək onunla qarşılıqlı fəaliyyətini qurur. Əgər datçiklər stressin artmasını "tutsa", o zaman mexaniki "əl-ayaqlar" hücum üçün qalxacaq. (2)

Heç şübhəsiz, dizayn sferasına yeni materialların və texnologiyaların tətbiqi əl əməyinin əhəmiyyətli qənaəti deməklə yanaşı, həmçinin istehsal prosesinin avtomatlaşdırılması və standartlaşdırılması hesabına vaxta da qənaət etməkdir. Lakin dəb sənayesinin inkişafının və modernləşdirilməsinin belə sürətlə getməsi fonunda müəyyən narahatlıqlar meydana gəlir və bu narahatlıqlar onunla bağlıdır ki, bütün bu proseslər dizayner ilhamının və fərdliliyin formalizminə, şablonluğuna və, belə demək mümkündürsə, kölə halına salınmasına təsir göstərə bilər.

Lakin belə narahatlıqların ifadə olunmasının qətiyyən heç bir real əsası yoxdur. Məsələ burasındadır ki, öz işinin ustadı və əsl peşəkar olan bir mütəxəssis dünya dəbinin ən müasir tendensiyalara əsaslanaraq kostyumun layihəsini qurmağı bacarmalıdır; dəbli tendensiyaların nəhəng çoxluğunda daha əhəmiyyətli olan və potensial baxımdan tələbatlara cavab verən istiqamətləri seçməyi bacarmalıdır; fərdlilik və orijinallığı büruzə verməlidir; üslubun hüdudlarını müəyyənləşdirməlidir; modelin praktiki və estetik keyfiyyətlərin düzgün nisbətini tapmağı bacarmalıdır; situasiyanı düzgün təhlilini aparmalı və proqnozlaşdırmalıdır.(3)

Yalnız bu halda müasir geyimtəkcə əhəmiyyətli və praktikli deyil, həmçinin komfortlu, rahat, eləcə də görkəmini fərqli-fərqli surətdə təqdim etmək və istehlakçılar üçün daha böyük rahatlıq gətirmək iqtidarında olacaq.

## ƏDƏBİYYAT SİYAHISI :

1.«Высокие» технологии в моде URL: http://thewallmagazine.ru/digital- fashion/ (дата обращения 23.05.2018). 2.Роль инновационных технологий в дизайне костюма URL: http://sci-article.ru/stat.php?i=1448993312 (дата обращения 29.05218).

3.Филиппова Г.С. Особенности подготовки специалистов квалификации «Дизайн одежды в современных условиях// Современные проблемы науки и образования №2 2009

# GEYİMDƏ DİZAYN STRATEGİYASI MODA İNDUSTRİYANIN İNKİŞAF AMİLİ KİMİ

**Hüseynzadə Rəşad Qalib oğlu**
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),***
***stranger96@mail.ru***

## XÜLASƏ

Xarici, yerli nəşrlərin və internet mənbələrinin təhlilinə əsasən, kütləvi geyimin (pret-a-porter) istehsal öncəsi bazardakı vəziyyət nəzərdən keçirilir, müasir moda meylləri və müasir moda sənayesində dəyişiklikləri müəyyən edən ətraf mühit faktorları araşdırılır, geyim inkişafına dair müxtəlif strategiyalara əsasən dizayn müəyyən edilir.

**Açar sözlər:** geyim dizayn, dizaynerlər, strategiya, dizayner firmaları, geyim bazarı.

## РЕЗЮМЕ

На основе анализа зарубежных, отечественных публикаций и интернет-ресурсов рассматривается положение на рынке pret-a-porter, исследуются современные модные тенденции и факторы внешней среды, обусловливающие изменения современной индустрии моды, определяются различные стратегии развития дизайна одежды.

**Ключевые слова:** дизайн одежды, дизайнеры, стратегия, дизайнерские фирмы, рынок одежды.

**SUMMARY**

Based on the analysis of foreign and domestic publications and Internet resources, the situation in the prêt-à-porter market, modern fashion trends and environmental factors that cause changes in the modern fashion industry are considered, various strategies for the development of fashion design are determined.

**Key words:** clothing design, designers, strategy, design firms, clothing market.

Hər bir dizayner özünün inkişaf strategiyasını seçmək hüququna malikdir. Fərdi müştərilərlə işlədikdə yaxud avanqard dəbi sektorunda fəaliyyət göstərdiyi zaman dizayner sifarişçinin istənilən üslub cərəyanlarına, istiqamətlərinə və (yaxud) riayət etmək iqtidarında idi. Kütləvi istehsal sahəsində iş fəaliyyəti zamanı "qızıl orta" prinsipinə riayət etmək daha məqsədəuyğun idi, yəni, bazar strukturu və tutulan istehlak boşluğunun nəzərə alınması ilə kolleksiyaların yaradılmasını həyata keçirmək, yaxud "kəskinliyin" müxtəlif dərəcəsi ilə bir neçə geyim xəttini işləyib hazırlamaq. Qeyd etdiyimiz bu strategiyadan son zamanlara qədər uğurlu dizayner firmaların əksər çoxluğu istifadə edirdi. Lakin son illərdə bütün dünyada, xüsusilə də ABŞ-da hazır geyim bazarında baş verən sarsıntılar onu göstərir ki, yeni strategiya haqqında düşünməyin vaxtı artıq çatmışdır.

"Firmanın sirri" şəbəkə jurnalının redaktoru V.Vasina müəllif olduğu məqalədə haqlı olaraq qeyd etdiyi kimi, xarici dövri mətbuatın təhlili göstərmişdir ki, "...dünyanın ən iri və ən əhəmiyyətli bazarı olan ABŞ alıcılıq qabiliyyəti bu qədər yüksək, işsizlik isə bu qədər aşağı səviyyədə hələ heç zaman olmamışdır...", lakin, bununla yanaşı, "...amerikalılar sanki mağazalara getməyi tərgidmişdi..." [1, səh.11]. Guess, Gap, Macy's, Michael Kors və bu kimi digər məşhur univermaqlar onlarla, hətta yüzlərlə öz mağazaları bağlamaq məcburiyyətində qalmışdı.

Bunun səbəbləri qismində bir sıra amillər, hər şeydən öncə də internet-ticarəinin inkişafı göstərilə bilər. "Küçə" satışlarından əldə olunan mənfəətin aşağı düşməsinin daha bir mühüm səbəbi böyüməkdə olan nəslin maraqlar paradiqmasında baş verən dəyişikliklərdir. Onlar üçün ön plana rahatlıq çıxır, yəni söhbət həm əşyaların özünün, həm də onların alışı prosesinin rahatlığından gedir.

İstehlak strukturunda da dəyişikliklərin baş verdiyini müşahidə edə bilərik. İndiki cavan adamlar hal-hazırda yeni əşyaların alınmasına deyil, daha çox müxtəlif əyləncələrə, yeni təəssüratların əldə edilməsinə xərcləməyə üstünlük verirlər. [2, səh.1]

Dress-kod da sadələşməyə doğru dəyişir. Əməkdaşların zahiri görkəmlərinə dair irəli sürülən tələblərin ciddiliyi 10-15 il bundan öncəki tələblərdən daha zəifdir.

Bu halda dizaynerlərə fəaliyyətin reallaşdırılması üçün geniş bir meydan açılır ki, onlar orijinallıq nümayiş etdirə bilsinlər və yeni dəbin yaradıcısı kimi malik olduqları imkanları ortaya qoysunlar. Bununla yanaşı, dizaynerlər tikiş məmulatlarının emalı və dekor edilməsi istiqamətində tətbiq olunan ən müasir texnologiyanın geniş imkanlarından fərqli-fərqli istifadə edə bilir.

Beləliklə, hər bir dizayner qaşısında hər zaman seçim dayanır: müvəfəqqiyyətə nail olmaq üçün hansı yolla getməli.

Bu tədqiqat işi çərçivəsində hesab edirəm ki, bütün bəşəriyyəti öz cənginə almış COVİD-19 Koronavirus pandemiyası probleminə toxunmaq son dərəcə vacibdir. Koronavirus pandemiyası, heç şübhəsiz, dəb aləminə də təsirsiz ötüşməyəcək. Məşhur istehsalçılar buraxdıqları kolleksiyalara sərgilənən yanaşmanı artıq yenidən nəzərdən keçirməyi – çeşidə müəyyən korrektələr etməyi və onu bir qədər sadələşdirməyi planlaşdırır.

Bu, dizaynerlərin strategiyalarında öz əksini tapmaya bilməz. Dizaynerlərin böyük əksəriyyəti bu gün yeni strategiyaların işlənib hazırlanması üzərində işləməyə məcburdur, həmin strategiyalar daha sadə və daha ucuz geyimin yaradılmasına istiqamətlənir.

Əlbəttə, dizaynerlərdən hər biri sələflərinin təcrübəsini nəzərə almaqla sırf özünə məxsus yaradıcı yolu seçmək hüququndadır. Hal-hazırda mövcud olan qeyri-sabit iqtisadi konyunktur və informasiya bumu şəraitində, bir qayda olaraq, yalnız öz modellərinin hazırlanmasında bütün üslub xüsusiyyətlərinin düzgün seçilməsinə və öz kolleksiyaların istehlakçılar seqmentinin düzgün müəyyənləşdirilməsi sayəsində modellərin yaradılmasını intuitiv metodları ilə möhkəmləndirən dizaynerlər uğur qazana biləcək. Bu prosesin bütün hissələrinin qarşılıqlı surətdə fəaliyyət göstərməsi, eləcə də əks əlaqələrin inkişafı müvəffəqiyyətlərin təminatçılı olacaq.

**ƏDƏBİYYAT SİYAHISI :**

1. Голый апокалипсис: почему магазины одежды массово закрываются [Электронный ресурс]. URL:https://secretmag.ru/trends/tendencies/golyi-apokalipsispochemu-magaziny-odezhdy-zakryvayutsya-a-mass-market-teryaet-vyruchku. htm (дата обращения: 28.02.2018).

2. Ильяшова А. 15 Zara Secrets The Press-Shy Brand Hasn’t Made Public. RL:http: //www.refinery29.com/2016/02/102423/zara-facts 3. https://sutd.ru/upload/Design_bydyshego_2018.pdf

## QARABAĞIN YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN MEMARLIQ PLANLAŞDIRILMASI VƏ YENİDƏN QURULMASI

**Hüsiyeva Mədinə Faiq qızı**

***Azərbaycan Dövlət İqtisad Universiteti***

***Süleymanova Adilə Yemilyan qızı, Həşimov Xalıq Məmməd oğlu***

**Açar sözlər:** Qarabağ, Smart city, Smart village, Şəhərsalma, Şəhər infrastrukturu, Yeni yollar.

**Ключевые слова:** Карабах, Умный город, Умное село, Градостроительство, Городская инфраструктура, Новые дороги.

**Key words:** Karabakh, Smart city, Smart village, Urban planning, Urban infrastructure, New roads.

**XÜLASƏ**

İşğaldan azad edilmiş ərazilərimizin çox qısa müddətdə bərpa edilməsi Azərbaycan dövlətinin əsas məqsədidir. Bu istiqamətdə inşaat işləri, atılan addımlar dağlıq görünümü və ətraf rayonların tez bir zamanda məskunlaşacağına, məcburi köçkünlərin öz yurdlarına qayıdaraq burada yeni standartlara uyğun həyat quracaqlarına inam yaradır. Müasir şəhərsalma sistemlərinin bu ərazidə tətbiq olunacağı işğaldan azad edilmiş ərazilərimz üçün ən yüksək standartların reallaşacağına xəbər verir.

**ŞANLI QƏLƏBƏMİZ.** 44 günlük II Qarabağ müharibəsi (27 sentyabr-10 noyabr 2020) Azərbaycan ordusunun şanlı qələbəsi ilə başa çatmış və,ölkəmizin ərazi bütövlüyünün təmin olunması ilə nəticələnmişdir. 28 il ərzində 20% ərazimizi işğal altında saxlayan Ermənistan dövləti bu yerlərdə bizə aid olan mədəni irsi, infrastrukturu və mövcud müəssisələri məhv etmiş,şəhər və kəndlərimizi dağıtmışdır. İşğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsiylə bağlı prezident İlham Əliyevin elan etdiyi kompleks tədbirlər planı qısa müddətdə həyata keçirilməyə başlamış və hal-hazırda uğurla davam etməkdədir

**Qarabağa gedən yeni yollar**. Azərbaycan ordusunun işğaldan azad etdiyi ərazilərdə bir sıra infrastruktur layihələrinin icrasına başlanılıb. Belə layihələrin birincisi Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının yenidən qurulmasıdır.

Ümumi uzunluğu 28,5 kilometr olan avtomobil yolları 2 texniki dərəcəyə uyğun bərpa olunur. İşğaldan azad edilmiş Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolunun yenidən qurulması bu ərazilərin qısa müddətdə məskunlaşmasına səbəb olacaq. Növbəti mərhələdə Çaylı kəndindən Talış kəndinə

qədər uzunluğu 8 kilometr olan yolun, həmçinin Talış kəndindən Tap Qaraqoyunlu kəndini keçməklə Qaşaltı Qaraqoyunlu kəndinə doğru 22 kilometr uzunluğa malik yeni yolun inşası da planlaşdırılır.





**Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolunun bərpası.**



**16 noyabr** 2020ci il tarixində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və 1-ci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonuna səfər edərkən burada yeni Əhmədbəyli Füzuli Şuşa avtomobil yolunun təməlini qoymuşdular. 84 km uzunluğu olan bu yol azad edilmiş torpaqlarımızın inkişafında müstesna rol oynayacaq. Bu zəfər yolu işğaldan azad edilmiş torpaqlarımızda hazırda icra edilən ən böyük infrastruktur layihəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il yanvarın 5-də Füzulidə beynəlxalq aeroportun tikilməsi ilə bağlı göstəriş verib. Füzulidə inşa olunan aeroportun tikinti işlərinin gələn ilin aprel-may aylarında yekunlaşdırılması nəzərdə tutulur. Hazırda tikinti prosesi sürətlə aparılır. Bu beynəlxalq aeroport istifadəyə verildikdən sonra bölgənin sosial iqtisadi potensialına, logistika və turizim imkanlarına əsaslı təsir edəcəkdir.Yeni çəkilən Bərdə-Ağdam-Xankəndi həmçinin Horadiz-Zəngilan-Ağbənd dəmiryolu xəttlərinin çəkilişi strateji baxımdan mühüm logistika layihəsi olmaqla yanaşı vətəndaşların hərəkəti və yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq.Göründüyü kimi ‘’yol həyatdır’’fəlsəfəsi ilə quruculuq işlərinə başlayan dövlətimiz işğaldan azad olunmuş Dağlıq Qarabağın qısa müddətdə ölkəmizin sosial iqtisadi həyatına inteqrasiya edəcəyinə zəmanət verir.



**<u>Dağlıq Qarabağın ‘’ağıllı kənd’’ və ‘’ağıllı şəhər’’ləri.</u>** Azad edilmiş ərazilərdə qurulacaq şəhər və kəndlərin prezident İlham Əliyevin elan etdiyi kimi “smart-city’’,“smart-village”,- yəni, “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyası əsasında qurulması gözlənilir. Azad olunmuş ərazilərdə ilk ağıllı kənd layihəsi Zəngilan rayonunun Ağalı kəndində inşa edilməyə başlanılmışdır. Layihə üzrə kənddə 200 evin inşası nəzərdə tutulur. Kənddə yaşayış, istehsal,sosial xidmətlər,ağıllı kənd təsərrüfatı, alternativ enerji sahələri üzrə smart layihələr icra olunacaqdır.’’Ağıllı şəhər’’ konsepsiyası informasiya və kommunikasiya texnalogiyalarının internet üzərindən idarəçilikdə vahid konsepsiya əsasında həyata keçirilir. Bu vətəndaşlarımız üçün həyat şəraitinin və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəlmiş bir layihədir. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə yalnız yaşıl və bərpa olunan enerji layihələrinin həyata keçirilməsinidə tapşırmışdır. Belə enerji layihələri ekoloji təmizliyi ilə seçilməklə yanaşı həmçinin istehlakçılar üçün ucuz enerji deməkdir. Laçın rayonunun Güləbirt kəndində 15 fevral tarixində 8 mqvt gücündə su elektrik stansiyasının işə salınması bu ərazilərin, yaşıl enerji ilə təmin edilməsinin ilk layihəsi sayıla bilər. Laçın rayonunun işğaldan azad olunmasından ay yarım



sonra belə bir layihənin reallaşdırılması həmdə rəmzi məna daşıyır- bizim bərpa işlərimiz sürətli olacaqdır.Yaxın gələcəkdə bu ərazilərdə külək, günəş və bioqaz enerjisindəndə alternativ enerji mənbəyi kimi istifadə ediləcəkdir. İşğal olunmuş ərazilərin bərpasında beynəlxalq əməkdaşlıda böyük önəm kəsb edəcəkdir. Bu yöndə ilk layihə kimi qardaş Türkiyə dövlətinin Şuşada təmənnasız olaraq məktəb inşa etməsi təqdirə layiqdir.

**Qarabağda şəhərsalma**. Yeni inşa ediləcək şəhər və kəndlərimizin baş planının mütləq qaydada mövcud landşafa uyğunlaşdırmaq lazımdır. Bu həmçinin relyefin və torpaq təkinin ahəngdarlığını,üfüqi xətlərin görüntüsünə sirayət etməlidir. Gur sulu çayların sahili boyunca və dağ ətəklərində yeni binaları mövcud əraziyə ekoloji ağırlıq verməmək şərti ilə, ‘’dəmir-beton cəngəllik’’ effektindən uzaqlaşmaqla, ərsəyə gətirmək lazımdır. Müasir şəhərsalma qaydalarına uyğun olaraq hər bir iri(20-50 min əhali) yaşayış məntəqəsinin fərdi planı klassik milli arxitektura elementləri,şərq ölkələrinə xas olan fasad elementləri və modern istiqamətlərin ahəngliyi nəzərə alınmaqla işlənilməli, standart,tipoloji layihələrin tətbiqindən imtina edilməlidir.

Şəhər,qəsəbə və kəndlərin fərdi şəkildə layihələndirilməsi mövcud landşafın özəlliyi ilə yanaşı gələcəkdə turizim cəlb ediciliyi baxımındanda böyük əhəmiyyət kəsb etməlidir.Mərkəzi meydan və küçələrin özəlliyi nəzərə alınmalıdır. Eyni zamanda bu ərazilərin sanatoriya-krortalogiya potensialı da unudulmamalı,müasir nəqliyyat vasitələri və piyadalar üçün hərəkət zolaqları da düşünülməlidir. Turizimin inkişafı üçün,dağıdılmamış,mədəni irsimizə aid olan mövcud abidələrlə yanaşı tarixi arxitektura imitasiyaları (qədim məbədlərin,qala və körpülərin bərpası və yenilərinin inşası) planlaşdırılan zaman bu tipli obyektlərin şəhər mühitinə və yol qovşaqlarına yaxınlığı nəzərə alınmalıdır.

Dağlıq Qarabağın mövcud relyefin düşünərək burada hündür mərtəbəli binaların inşası yol verilməzdir.Bu ərazilərdə üfiqi xətlərin görüntü zonasında olması, əhalinin psixoloji baxımdan sağlamlığı üçündə əhəmiyyət kəsb edir. Şəhər təsərrüfatının forması düşünülən zaman arxitektrlarla yanaşı bu şəhər mühitində yaşayacaq digər peşə sahiblərinində fikirlərinin öyrənilməsi vacibdir.

**İşğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluğu və şəhər infrastrukturu**. Daha çox kənd təsərrüfatı təyyinatlı hesab edilən Dağlıq Qarabağ və ətraf rayonlar ilk növbədə respublikamızın ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq.Heyvandarlıq və əkinçiliklə yanaşı bu ərazilərdə kənd təsərrüfatı təyyinatlı emal müəssisələrin yaradılması məskunlaşmış əhalinin iş yerləri ilə təmin olunmasında böyük önəm kəsb edir.

İstehsal və emal müəssisələrinin şəhərlərin coğrafi hüdüdlarından kənarda salınması, nəqliyyat və logistika xətləri üçün ayrıca dəhlizlərin ‘’dairəvi yol’’ variantında yaşayış məskənlərinnən aralıda olması məsləhətlidir. Bu yönümdə intensiv hərəkətin təşkili üçün küçə və maqistralların inkişaf perespektivi nəzərə alınaraq planlaşdırılmalıdır. Həmçinin sürətlə inkişaf edən xidmət sahələrinin perespektivi nəzərə alınmalı,helekopter və kvadrakopterlər üçün uçuş trayektoriyaları da düşünülməlidir.

Bu ərazilərdə həmçinin yeni, ‘’yaşıl’’ texnoloji parkların salınması, intellektual yönümlü və yüngül sənaye təyyinatlı məhsulların istehsalı ilə məşğul olacaq fabriklərin şəhər miqyasında çox ərazini tutmaması da nəzarətdə olmalıdır.Cənub-qərb bölgəmiz üçün mərkəzi şəhər statusunda olacaq 150-200 min əhalinin yaşaya biləcəyi iqtisadi- mədəni şəhərin salınmasını da vacib sayıram. Bu şəhər ətraf rayonları öz arealında birləşdirməklə gələcəyin meqapolis rolunu da oynuya bilər. Mərkəzi şəhərdə məişət tullantılarının və kanalizasiya sularının təkrar emalı ən müasir ekoloji standartlara uyğun qurulmalıdır. Dinamik inkişaf edən şəhər salma ənənələri ətraf mühitə tam uyğunlaşmalıdır.





İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, burada normal həyat şəraitinin qurulması üçün əsas faktorlardan biridir. Müharibə gedən müddətdə Ermənistan ordusu qadağan olunmuş kimyəvi silahlardan,fosforlu döyüş

başlıqlardan istifadə etmişdir.Bu ərazilərin hərbi sursatlardan tam şəkildə təmizlənməsi üçün əməli fəailiyyətə başlanılsada bu prosesin müəyyən zaman aparacağı labüddür. Aparılan təmizləmə işləri kompleks olmalı, mövcud torpaqların müharibə zamanı kimyəvi zəhərlənməsidə nəzərə alınmalıdır. Ermənistandakı metsamor atom elektrik stansiyasının işlənmiş radioaktiv tullantılarının da,bu ərazilərdə basdırıldığı haqda məlumatda yoxlanılmalı,və həmin ərazilər tapılaraq nəzarətdə saxlanılmalıdır.

**Yekun**

İşğaldan azad olunmuş ərazilərimizdə yeni şəhər və qəsəbələrin salınmasında məqsəd burada yaşayacaq insanların sadəcə mənzil probleminin həll olunmasında deyil, soydaşlarımız üçün layiqli yaşayış mühitinin yaradılmasıdır.Bu eyni zamanda məhsuldar əmək və gələcəyə hesablanmış uğurlu fəaliyyət planıdır.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Мир архитектуры." А. Гутнов, В. Глазычев. Молодая гвардия, 1990. Стр. 338-339.
2. "Архитектура Советского Азербайджана". Р. М. Эфендизаде. Москва 1986. Стр. 237.


## MUZEYLƏRİN İŞİNİN TƏŞKİLİNDƏ MARKETİNQ VƏ MENECMENTİN TƏŞKİL EDİLMƏSİ


**Xəlilli Araz Qurban**
***ATMU-magistrant***


**XÜLASƏ**


Tariximizi və mədəniyyətimizi əks etdirən muzeylərin inkişafı Azərbaycan xalqının çoxəsrlik milli ənənələrinin qorunulması üçün vacib faktor sayılır. Belə ki, "Muzeylərin işinin təşkilində marketinq və menecmentin təşkil edilməsi" mövzusunda yazılmış məqalənin məqsədi Azərbaycanın tarixi və mədəni muzeylərini təhlil etmək, muzeylərin marketinq işinin təkmilləşdirilməsi istiqamətində sərmayələrin cəlb edilməsinin potensial imkanlarının araşdırılmasıdır. Məqalədə mövzu ilə əlaqədar xarici və yerli ədəbiyyatlardan, internet resurslarından istifadə edilmişdir.



**Açar sözlər**: Azərbaycan muzeyləri, marketinq, menecment, sərmayə, muzey strukturu


**SUMMARY**

**MARKETİNG AND MANAGEMENT İN THE ORGANİZATİON OF MUSEUMSORGANİZED**


The development of museums reflecting our history and culture is an important factor in preserving the centuries-old national traditions of the Azerbaijani people. Thus, the purpose of the article on "Organization of marketing and management in the organization of museums" is to analyze the historical and cultural museums of Azerbaijan, to explore the potential of attracting investment to improve the marketing of museums. The article uses foreign and local literature and Internet resources related to the topic.


**Giriş**

Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Bildiyimiz kimi, bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olub respublikamızın bütün bölgələrini əhatə edir. Eyni zamanda, qeyd

etdək ki, tarixən regionda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin unikal nümunələri yüksək estetik dəyərə malik əsl sənət möcüzələri kimi dünyanın ən məşhur muzeylərinin daimi eksponatları sırasında yer tutmuşdur.

**Muzeylərin işinin təşkilində marketinq və menecmentin təşkil edilməsi**

Muzey işinin təşkilində muzey marketinqi və muzey menecmentinin tətbiqi dövrümüzün ən aktual tələblərindən biri hesab edilir. Muzey menecmenti muzeyin və muzey personalının idarə edilməsi nəzəriyyəsi və təcrübəsi anlamına gəlir (Лорд Б., Лорд Г.Д. 2002: s.169). Muzey marketinqi muzey xidmətlərindən istifadə edənlərin maraqlarını təyin etməyə, həmçinin həmin maraqları formalaşdırmağa imkan yaradan vasitələrdir.

Muzey fəaliyyətinə tətbiq edilərkən marketinq müasir iqtisadi şəraitdə muzeylərin ümumi məqsədlərə çatmaq üçün istifadə etdiyi strateji yanaşma metodudur. Başqa sözlə, marketinq - muzeyin rolunun yenidən dərk olunması, onun fəlsəfəsini, missiya və məqsədlərini qurban vermədən, işinin effektivliyini artıran və təşkilatın tələbatını təmin edən üsullardan biri hesab edilir (Майлз Р. 2001). Marketinq fəaliyyətinin əsas məqsədi potensial tamaşaçılara müvafiq informasiyanın çatdırılmasından və muzey təklifinin reklam edilməsindən ibarət olur. Marketinq strategiyası yalnız digər muzeylər və fərqli mədəniyyət təşkilatları ilə əməkdaşlıq nəticəsində effektiv sayıla bilər.

Müasir muzeylərdə informasiya texnologyalarının tətbiqi konservasiya və bərpa məsələlərinin, muzeylərdə aparılan elmi-tədqiqat işlərinin və s. sahələrin müasirləşməsi anlamına gəlir. Elm və mədəniyyətin tədrisi və təbliğində müasir muzeylərin rolu artmaqda davam edir. Bu da, informasiya texnologiyalarının tətbiqi sahələrinin genişlənməsi deməkdir. Muzey menecmentinin, yəni muzey idarəçiliyinin müasir prinsiplər üzərində qurulması artıq zamanın tələbi hesab edilir. Hal hazırda muzeylərin qarşısında duran əsas vəzifələr onların inkişaf konsepsiyalarına müasir layihə və proyektlərin tətbiqini, təşkilini və iqtisadi təminatını həyata keçirən xüsusi tədbirlər sisteminin yaradılmasını tələb edir. Belə təminatın əsas məzmununu müasir dövrdə muzey işinin və ya muzey menecmentinin təşkili və idarəetmə sisteminin optimallaşdırılması yollarının, həmçinin muzeyin maliyyələşdirilməsi üçün əlavə mənbələrin axtarışı, yəni muzey marketinqi təşkil edir. Muzeydə sosial marketinqin digərlərindən əsas fərqi ondadır ki, muzeylərin inkişafı və fəaliyyəti üçün zəruri olan resurslar iki formada əldə olunur:

- birbaşa, yəni muzey məmulatının alıcılara satışı hesabına;
- dolayı, yəni resursların “kənar”dan - büdcə vəsaitləri, sponsor köməyi, şəxsi ianələrin cəlb edilməsi hesabına.

“Muzey marketinqi” və “muzey menecmenti” terminləri mütəxəssislər tərəfindən heç də birmənalı formada qarşılanmır. Bu da yüksək muzey standartlarından geri çəkilmə qorxusundan irəli gəlmiş olur. Amma zaman öz şərtlərini diktə edir və yeni iqtisadi münasibətlər şəraitində muzeylərin hərtərəfli fəaliyyət göstərməsi, muzey fəaliyyətinin tamaşaçılar üçün cəlbedici olması üçün marketinq və menecmentin muzey işinə daxil olması labüd sayılır. Muzey fəaliyyətində muzey menecmenti və marketinqi sahəsində qarşıda duran vəzifələr (Лорд Б., Лорд Г.Д. 2002).

1. Muzey strukturunun maliyyə və muzey fəaliyyətinin digər resurslarının təkmilləşdirilməsi;
2. Muzey fəaliyyətinə və xidmətlərinə tələbat artmasının təkmilləşdirilməsi. Bununla bağlı olaraq muzey əməkdaşlarının yaradıcı fəallığının artmasının stimullaşdırılması;
3. Muzeyin maliyyələşdirilməsinin həcminin artması;
4. Potensial tamaşaçıların, muzeyin yaradıcı partnyorlar kontingentinin genişləndirilməsi

Bu vəzifələrin öhdəsindən gəlmək üçün hər bir muzey biznes əlaqələri yaratmalı, özünə biznes partnyorları tapmalıdır. Hər şeydən öncə muzey bunu özündən başlamalıdır. Muzey-biznes əlaqələrində əsas faktor sponsorun muzeyə olan inamıdır. İnam da, öz növbəsində, bir çox amillərdən ibarətdir:

a) muzey menecmentinin vəziyyəti;
b) maliyyə işlərinin müvəffəqiyyətlə aparılması;
c) personalın - işçilərin peşə səviyyəsi;
d) inzibati qurumun - müdiriyyətin və muzey hamilərinin nüfuzu.

Muzeylərin ünvanlandığı hədəf insanların müəyyən edilməsi muzey idarəçiliyinin ən mürəkkəb məsələlərindən biridir. Muzeyin ünvanlandığı ziyarətçilərin müəyyənləşdirilməsi muzeyin daha yaxşı təşkilinə səbəb olur. Məsələn, əsasən yerli əhaliyə müraciət edən muzey, qonaqların özlərini cəmiyyətin

üzvü kimi tanıya biləcəyi bütün elementləri və cəmiyyətin şəxsiyyətinin il ərzində necə dəyişdiyini qeyd etməlidir. Və ya muzey gənc tələbələri hədəf alırsa, didaktika üçün güclü idarə zəruri sayılır.

Uğurlu muzey dövlətin bir çox fərqli seqmentlərini ələ keçirəcək. Və hərdən bu da baş verə bilər ki, ilk növbədə cəmiyyət üçün nəzərdə tutulmuş muzey cəmiyyəti cəlb edə bilmir: bu zaman muzeyin strategiyasını dəyişdirməlidir və ya muzey yenidən təşkil olunmalıdır. Belə ki, muzeylər tərəfindən dərc edilmiş sənədlər bəzən şüuraltı olaraq, muzeyin özünə ünvanladığı tipik ziyarətçinin görünüşünə baxmayaraq, yalnız ziyarətçi sorğularında və muzeyin cəlb etməyə çalışdığı qonaqlar arasında uyğunluğu yoxlamaqla muzeyin uğurunu təsdiqləməyə imkan verəcəkdir. Yəni, şəbəkə qurarkən ziyarətçilərin kim olduğunu, muzeylərə nə üçün gəldiklərini, niyə muzeylərə ziyarət etmək qərarına gəldiklərini, anlamaq üçün müxtəlif növ ziyarətçi anketləri istifadə olunmalıdır. Eyni zamanda, muzeylərə səfər etməyən insanların muzeylərə marağının olmaması və muzeylərdə bu insanların gətirilməsi üçün potensial tədbirləri müəyyənləşdirmək məqsədilə üstünlükləri anlamaq üçün qeyri-ziyarətçi sorğuları da istifadə edilməlidir.

Maliyyə vəsaitlərinin cəlb edilməsi çox yüksək ixtisaslı iş halını almışdır və əlbəttə ki, muzeyin uğur hekayəsinin əsas göstəricilərindən biri sayılır, büdcənin bir hissəsini yaxşı təşkil edilmiş xeyriyyəçilik strategiyasına və bu sahədəki mütəxəssislərə yönəltmək, göründüyü kimi ziddiyət sayılmır, başlıca investisiya ola bilər. Bu hər zaman doğrudur, lakin artıq mövcud muzeyləri inkişaf etdirmək və istismar etmək lazım olduqda daha çoxdur, çünki belə hallarda muzeyin ictimaiyyətə malik olduğunu və hər zaman xilas olmasını təmin edən “adi hala” aid ola bilər. Lakin, missiya yalnız mövcud muzeylərin cəmindən ibarət olmayan yeni muzey şəbəkəsi qurmaq olduqda bu ən yalnış addım olacaqdır.

Beləliklə, “maliyyələşdirmə” biletlərin satılmasına, habelə qeyri-sabit və beynəlxalq gözlənilməz hallarla əlaqədar olaraq daha az dərəcədə asılı olmağa imkan verən maliyyələşdirmə mənbələrinin fərqləndirilməsini nəzərdə tutur. Bəzi mümkün variantlar aşağıdakılardan ibarətdir:

- Dostlar və donorlardan ibarət assosiasiyaların yaradılması
- Zənglərə və maliyyələşdirmə proqramlarına müraciət etmək
- Vergi imtiyazlarının üstünlüklərini müəyyən etmək
- Əməkdaşlıq layihələrini inkişaf etdirmək üçün tərəfdaşlıqları tələb etmək
- Maraqlı layihələr ilə sponsor və müştəriləri cəlb etmək

Yuxarıda göstərilən bütün tədbirlər üçün zəruri başlanğıc nöqtəsi muzey tərəfindən aparılan tədqiqatdır. Muzeyin əsas məqsədi müxtəlif faktorların ətrafında əlaqə yaratmaq üçün yüksək dəyərli fəaliyyətləri həyata keçirmək təklifi ilə cəmiyyətin toplanması və inkişafı ilə bağlı olmaqdır. (Şəkil 1) (https://creative.az/files/2/pdf/4.2.1%20Pilot).




**Şəkil 1. Muzeylərin müxtəlif faktorlar ətrafında yaratdığı əlaqə**

Müasir muzey bu səbəbdən mədəniyyət mərkəzi, qarşılıqlı və faydalı bir mübadilə yeri kimi qəbul oluna bilər. Hazırlanmış hər bir layihə muzeyin vəzifəsi ilə əlaqəli olmalıdır və muzeyin idealları üçün vektor kimi nəzərdən keçirilməlidir. Bu baxımdan, inkişaf və maliyyələşdirmə fəaliyyətinin yaxşı planlaşdırılmasının muzeyin ümumi rəhbərliyində əhəmiyyətli rol oynadığını aydın şəkildə göstərir. Əlavə olaraq, sponsorluq müqavilələri muzeylə özəl şirkət arasındakı məsafəni məhdudlaşdıra bilər və eyni zamanda muzeyin müvafiq gəlirləri və ya texniki müddəalarını, şirkətin prestijini və nüfuzunu artıra bilər.

Muzey idarəçiliyinin müasir prinsiplər üzərində qurulması zamanın tələbidir. Bu istiqamətdə görülən işlər sırasında muzeylərimizdə beynəlxalq əlaqələr və PR - ictimaiyyətlə iş şöbələrinin və onlara facebook, tvitter kimi sosial şəbəkələrlə iş formalarının yaradılması muzey menecmenti sahəsində görülən işlərin bir hissəsi sayılır. Azərbaycanda muzey işinin dövlət əhəmiyyətli fəaliyyət olmasını, muzey kolleksiyalarının, muzey əmlakının milli, mədəni sərvət kimi effektiv şəkildə mühafizə edilməsi və dövlət büdcəsi təşkilatları kimi maliyyələşdirilməsi ilə yanaşı, müasir dövrdə, yeni ideyaların və iş üsullarının tətbiqində şəraitin yaradılması - muzeylərin müasir dünyada rolunun artırılması deməkdir. Bütün bunlar muzey idarəetmə sisteminin yeni, aktual problemləri olmaqla bərabər XXI əsrin muzeyinə doğru atılan addımlardır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov A. Tariximiz, yaddaşımız, sərvətimiz. Bakı 2007
2. İsmayılova.E; Tarixi və mədəni turizm. Bakı 2017. Səda nəşriyyatı. 271 səh
3. Бутиков Г.П. Маркетинг в музее. СПб, 1995, 290 с.
4. Лорд Б., Лорд Г.Д. Менеджмент в музейном деле. М.: Логос, 2002, 256 с.
5. Майлз Р. Планирование: основной инструмент менеджмента: Кн.: Музеи. Маркетинг. Менеджмент. Практическое пособие / Составитель: В.Ю.Дукельский. М.: Прогресс-Традиция, 2001, с. 55-72
6. https://creative.az/files/2/pdf/4.2.1%20Pilot
7. https://museum.az/az/museum/124
8. www.lifebeyondtourism.org

# GƏNCƏ ŞƏHƏRİNDƏ TURİZM-EKSKURSİYA İŞİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

**Xəlilov Hüseyn**
***Bakı Dövlət Universiteti, Magistr***
***Elmi rəhbər: dosent Soltanova H.B***
.

**Açar sözlər:** Gəncə şəhəri, eksursiya, memarlıq nümunələri, imamzadələr, qala divarları, mehmanxana.

**Keywords:** Ganja city, excursion, architectural examples, imams, castle walls, hotel.

**Ключевые слова:** город Гянджа, екскурсии, архитектурные примеры, имамы, гостиница.

Böyüklüyünə görə Azərbaycanın ikinci şəhəri sayılan Gəncə qədim mədəniyyət abidəsi, qərbi Azərbaycanın sənaye mərkəzidir. Bu şəhər Gəncə-Qazax ovalığında, Gəncəçay çayının hər iki sahilində yerləşir. Azərbaycanın tarixində mühüm rol oynamış bu şəhər karvan yollarının kəsişdiyi yerdə salınmışdır. Yolçular burada dayanıb dincəlir, əcnəbi alimlər bir-biri ilə söhbət edirdilər. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- **Cümə məscidi.** Görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazeh Cümə məscidinin nəzdindəki mədrəsədə dərs demişdir.

- **İmamzadə kompleksi.** Türbə VIII əsrdə (Hicri təqvimi ilə 120-ci il) tikilmişdir. Həmin tarix türbədəki bir kitabənin üzərində yazılmışdır: «Odur əbədi. Bu şərəfli cənnət bağçası 120 il babasının – ona salam olsun – hicrətindən sonra vəfat etmiş, İmam Məhəmməd Bağır oğlu – ona salam olsun – Mövlana İbrahimin türbəsidir.» Hazırda dini mərasimlər keçirilməsi üçün istifadə olunur. İmamzadə türbəsi həmçinin müsəlmanların mötəbər və müqəddəs bir ziyarətgah yeri kimi məşhurdur.

- Şəhərdə daha bir neçə qədim məscid var: Qızılhacılı məscidi, Ozan, Balabağbanlı, Şərəfxanlı, Şahsevən və başqa məscidlər.

- Qədim memarlıq abidələri arasında aşağdakıları qeyd edə bilərik: böyük və kiçik körpülər (XII əsr), Darısultan sarayı (XII əsr), qüllələr, mədrəsə, hamamlar, karvansaralar və İmamzadə tikililər kompleksi (XVI əsr). Göy günbəzli bu gözəl bina İmam Bəcirə ibn İbrahimin məqbərəsi kimi tikilmişdir[5].

- Burada yerləşən Azərbaycan Demokratik Respublikasının ilk parlamentinin binası da maraq doğurur. Hazırda bu binanın qarşısında böyük şəhər parkı salınmışdır.

- XVI əsrə aid **qala divarlarının** qalıqları da buradadır. Şəhər hamamlarının diqqəti cəlb edən günbəzləri uzaqdan seçilir. Onların yaxınlığında Cavad xanın məzarı yerləşir[6].

- Qədim abidələrdən biri də **Aleksandr Nevski kilsəsidir** (indi həmin binada kukla teatrı yerləşir).

- Gəncənin mərkəzindən 6 km şərqdə qədim **Gəncənin xarabalıqları** qalmışdır.

- Şəhərin tarix muzeyi və akademiya muzeyi Gəncənin tarixi inkişaf yolundan söhbət açır.

- Gəncəyə getmək və dahi şair **Nizaminin məqbərəsini** ziyarət etməmək heç cür mümkün deyil. Mərmərdən düzəldilmiş bu monumental abidənin hündürlüyü 20 m-dir. Abidənin arxa tərəfində metaldan tökülmüş fiqurlarda Nizami əsərlərindən ayrı-ayrı sujetlər təsvir edilir. Gəncədəki şəhər muzeyi, təsviri sənət qaleriyası və poeziya teatrı Nizaminin adını daşıyır.

- Gəncə yaxınlığındakı filiz yataqlarından çıxarılan faydalı qazıntılar bu şəhərin metalurgiya sənayesi müəssisələrini xammalla təchiz edir. Şəhərdə çini qablar istehsalı, ipəkçilik, kənd təssüfatı məhsullarının emalı, araq-şərab və qənnadı məhsulları istehsalı, mebel sənayesi yaxşı inkişaf etmişdir.

**Cədvəl 1.**

**Gəncə şəhərində mehmanxanaların əsas göstəriciləri**

**(Mənbə 4)**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid | 7 | 9 | 8 | 9 | 10 | 12 |
| onlarda: | | | | | | |
| nömrələrin sayı, vahid | 511 | 636 | 636 | 657 | 659 | 688 |
| birdəfəlik tutum, yer | 956 | 1267 | 1267 | 1309 | 1329 | 1390 |
| Yerləşdirilmiş şəxslərin sayı, nəfər | 8036 | 17114 | 11245 | 13449 | 13635 | 15186 |
| Gecələmələrin sayı, adam-gecə | 8594 | 22200 | 21556 | 35551 | 28339 | 27900 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, min manat | 657,3 | 1709,5 | 2106,0 | 2689,4 | 2488,0 | 2416,8 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin xərcləri, min manat | 598,2 | 1570,2 | 1858,8 | 2777,7 | 2206,3 | 2134,7 |

- **Gəncə xalçaları** Azərbaycanda yüksək qiymətləndirilir. Gəncədə Kənd Təsərrüfatı Universiteti, eksperimental kənd təsərrüfatı stansiyası və elmi-tədqiqat pambıqçılıq institutu fəaliyyət göstərir. Bu yaxınlarda Gəncədə müasir tələblər səviyyəsində Olimpiya İdman mərkəzi açılmışdır.

Müxtəlif illərin statistikasına nəzər yetirdikdə, Gəncə-Qazax iqtisadi-coğrafi bölgəsində turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin ümumi gəliri çox dəyişkəndir və inkişaf etmişdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, son illərin statistikasında, turizm sektorunun ümumi gəliri yalnız Gəncə şəhərinin adı ilə məhdudlaşır və bu iqtisadi-coğrafi bölgəyə daxil olan digər şəhər və bölgələr haqqında məlumatlar əks olunmayıb.

Göstərilən statistik məlumatlar əsasında belə bir nəticəyə gəlmək olar ki, xüsusilə 2010-2018-ci illər ərzində Gəncə şəhərində turizm obyektlərinin inkişafında əhəmiyyətli artış olmuşdur. Nömrə sayının artması və turizm infrasturukturunun yaxşılaşdırılması nəticəsində son 10 il ərzində bu şəhəri ziyarət edənlərin sayı artmışdır. Eyni zamanda Göygöl Milli Qoruğunun turistlərə açılması ilə buraya səfər edən turist sayında əhəmiyyətli artış olmuşdur. Turistlər Gəncə-Göygöl ekskursiyalarında iştirak etməyə başlamışlar. Qoruq ərazisinə gələn turistlərin sayı 2010-cu ildə 6,2 min nəfər olduğu halda 2019-ci ildə 16,3 min nəfərə çatmışdır[5].

Azərbaycanın turizm əhəmiyyətli ehtiyatlarına sahib olan Gəncə aid olduğu iqtisadi-coğrafi bölgə üzrə həyata keçirilən dövlət proqramlarının müsbət nəticəsini daima hiss etmişdir. Gəncə-Qazax iqtisadi-coğrafi bölgəsinin turizm sənayesində dövlət proqramlarının rolu ölkənin potensialı nəzərə alınaraq 6 aprel 2010-cu il tarixində "2010-2014-cü illər arasında Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" olaraq qəbul edildi (Azərbaycan Dövlət Proqramı, 2010). Dövlət proqramına əsasən turizm kurortları və sanatoriyaları (istirahət-yerləşdirmə obyektləri) üçün istirahət planlarının hazırlanması

və müasir tələblərə cavab verilməsi nəzərdə tutulurdu. Bununla əlaqədar olaraq bir sıra yerləşdirmə mərkəzləri Naftalanda inşa edilmiş və istifadə edilmişdir. "Naftalan", "Magic Naftalan", "Miracle Naftalan", "Rixos Naftalan", "Çinar otel and SPA Naftalan", "Qarabağ SPA and Resort", "Qaşaltı" sanatoriyası və digərləri onlara əyani nümunələrdir. Müalicə məqsədli bu yerlərə səyahət edən turistlərin Gəncə şəhər ekskursiyalarına qoşulması, bu şəhərdə yerləşən ictimai-iaşə və digər turistik obyektlərdən istifadəsi Gəncə şəhərinin turizminə müsbət təsir göstərir [1].

Turistlər müxtəlif məqsədlərlə Gəncə-Qazax iqtisadi-coğrafi bölgəsini ziyarət edirlər. Lakin 2017-cü ildə edilən statistik göstəricilərin nəticələrinə diqqət yetirsək, müalicə turizmi ilə əlaqəli bölgəyə gələnlərin sayının daha çox olduğunu müşahidə edə bilərik. Bunun ilk səbəbləri arasında potensiallara əlavə olaraq bu tendensiya həm dövlət tərəfindən infrastruktur dəstəyi ilə, həm də sahibkarlar tərəfindən infrastruktur təmin edilməsi nəticəsində ön plana çıxdı. Bundan əlavə, ilk səbəblərdən biri də xidmət sektorunun inkişafı, tibbi müayinələrin yüksək səviyyədə aparılması və işçilərin iş prosesini yaxşı təşkil etməsidir. Bu, hazırda bu ərazidə yerləşdirmə müəssisələrində kifayət qədər işləyən şəxsin olmasının nəticəsidir.

2019-cu ildə edilən statistikanın nəticələrinə görə Gəncə-Qazax iqtisadi-coğrafi bölgəsində 1-3 gündə yerləşdirilən turist sayı 28988, 4-7 gündə yerləşdirilən turist sayı 16583, yerləşdirilən turist sayı 8-28 gün və daha çox müddətdə 1126 nəfər oldu. Bu, qısamüddətli səfərlərin üstünlük təşkil etdiyini bir daha sübut etdi, beləliklə turistlər daha az vaxtda qalır, qısa müddətdə mövcud mənbələrdən istifadə edir və nəticədə minimum xərclər çəkir [4].

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" qəbul edilmişdir. Bu sənəd Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il fərmanı ilə təsdiq edilmişdir. Fərman 2020-2025-ci illər Azərbaycan Respublikasında turizmin inkişaf yolunu izləyir. Bu fərmana əsasən Gəncə-Qazax turizm bölgəsi üçün xarakterik olacaq və görüləcək tədbirləri aşağıdakı kimi qruplaşdırmaq olar[1]:

- Gəncə şəhərində müxtəlif işgüzar tədbirlərin keçirilməsi məqsədilə həm onlayn resurslardan, həm də digər satış və marketinq resurslarından istifadə edilməklə aktiv təbliğat-təşviqat tədbirlərinin həyata keçirilməsi;
- Azərbaycanın ekoloji turizm potensialının araşdırılması və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili;
- Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi;
- Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması;
- Hədəf ölkələr üçün Bakı şəhəri ilə yanaşı Gəncə, Şəki, Qəbələ, Naxçıvan, Lənkəran şəhərlərinin və Azərbaycanın digər məkanlarının özünəməxsus dəyərlərini özündə əks etdirən xüsusi turist xidmət paketlərinin hazırlanması.
-

## ƏDƏBİYYAT SİYAHISI :


1."Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi", (elektron resurs) "Azərbaycan" qəzeti. Bakı, 17 dekabr. 2016-cı il.

2.ATIB. Azərbaycanda turizm sektoru: imkanlar, problemlər və perspektivlər yekun hesabat. Bakı 2010, 75 s.

3. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Monoqrafiya. Az TU-nun mətbəəsi. Bakı 2015, 475 s.

4.https://www.stat.gov.az/source/regions/

5.http://www.ganja.mctgov.az/service/lang/az/page/130/sid/100/

6.http://www.gencekitab.az

7.http://ier.az/uploads/Gence_Qazax_Iqtisadi_Rayonu_2015.pdf

# İQTİSADİ ARTIMIN AMİLLƏRİ STRUKTURUNDA LOGİSTİKANIN PAYININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**İbadzadə Aydan Eldəniz qızı,**
***Azərbaycan Texniki Universiteti, İqtisadiyyat və idarəetmə fakultəsi***
***Elmi rəhbər: dos Panaliyev Əliheydər Vəliəhəd oğlu***
**ali.panaliyev@mail.ru , aydan.ibadzada.9707@gmail.com**

## XÜLASƏ

Logistika, iqtisadiyyat elminin bir hissəsi və bir fəaliyyət sahəsidir ki, onun mövzusu istehsalçı və istehlakçılar arasında qarşılıqlı malların təşviqi proseslərinin təşkili ilə yanaşı tənzimlənməsi, məhsulların, malların, xidmətlərin və əmtəələrin dövriyyəsi üçün bir infrastrukturun yaradılmasıdır.Məqalədə səmərəli metodların tətbiqi ilə logistik xərclərin minimuma endirilməsi, logistik yanaşma və göstəricilərin həyata keçirilməsi zamanı logistik inkşafa nail olmaqla yanaşı iqtisadi artima da nail olmağdan bəhs edilmişdir.

**Açar sözlər:** logistik yanaşma, iqtisadi artım, əmtəə dövriyyəsi, logistik xərclər, nəqliyyat, logistika, səmərəlilik.

**Ключевые слова:** логистический подход, экономический рост, товарооборот, затраты на логистику, транспорт, логистика, эффективность..

**Keywords:** logistics approach, economic growth, trade turnover, logistics costs, transport, logistics, efficiency.

Hazırki dövürdə logistikanın iqtisadi sahəyə nüfuz etməsinin əsas səbəblərindən biri idaretmənin kompüterləşdirilməsidir. Əslində, iqtisadiyyat və istehsalın təşkili sahəsində sürətlə inkşaf edən infrastruktur mövcuddur ki bu da, elm və texnologiyanın inkişafından asılıdır.Ölkə iqtisadiyyatının indiki mərhələsində vacib əhəmiyyət kəsb edən amillərdən biri də malların hərəkətinin idarə edilməsində logistik yanaşmalarin tətbiqidir. Bu həm də əmtəə-pul münasibətlərinin daha cox intensivləşməsi və genişləndirilməsi ilə bağlı sənaye müəssisələri arasında üfüqi iqtisadi əlaqələrin artımı ilə birbaşa əlaqəlidir. Logistik yanaşmalar iqtisadi metodlar istehsal strukturları praktikasında - istehsalçılar və sənaye istehlakçıları arasında,eyni zamanda ticarət və vasitəçi təşkilatlar və müəssisələrlə qarşılıqlı fəaliyyət göstərməlidir. İqtisadi artımın amilləri strukturunda logistikanın payının artırılması istiqamətləri dedikdə göstərilən yanaşma və metodların köməyi ilə təsərrüfat subyektlərinin iqtisadi marağı, iqtisadi fəaliyyətin son nəticələrindən əldə olunan qənaəətlilik və logistika əməliyyatları və xidmətlərindən əldə olunan gəlirlər hesabına səmərəliliyinin artırılmasının təmin edilməsidir. İqtisadiyyatın qloballaşması ilə yanaşı, iri transmilli korporasiyaların yaradılması, həmçinin bir çox dövlətlərin nəqliyyatının dünya nəqliyyat sisteminə inteqrasiyası şəraitində beynəlxalq nəqliyyat dəhlizlərinin təkminləşdirilməsi üçün intensiv bir proses getməkdədir. Məhsulların daha səmərəli yollarla istehlakçılara çatdırılması üçün müasir logistik texnologiyalardan tətbiq edilir ki, bunun əsasında da müxtəlif ölkələr və qitələr arasında böyük əmtəə axınlarının sürətləndirilmiş təşviqi həyata keçirili.Məsələn,inteqrasiya olunmuş nəqliyyat və texnoloji sistemlərin yaradılması üçün logistik konsepsiyasının icrası ilə yanaşı malların intermodal nəqliyyatının təşkilidir. Bu gün sahibkarlar öz gəlirlərini artırmaq üçün istehsal xərclərini və paylama xərclərini azaltmaqda fürsət axtarırlar.Bundan başqa əmtəə dövriyyəsinin səmərəli şəkildə idarə edilməsində məntiqi yanaşmaların tətbiqi iqtisadi inkişafın hazırkı mərhələsində aktuallıq kəsb edir. Belə ki, sənaye və istehlak məqsədləri üçün malların daşınması zamanı yaranan problemlərin düzgün şəkildə həlli, malların bazara çatdırılması zamanı diqqət edilməli ən vacib və ən çətin məqamlardandır. Əsasən logistika xərclərinin 50-60% -ə qədəri nəqliyyat və tədarük logistikası problemlərinin aktuallığı ilə əlaqələndirilir ki bu da logistikanın iqtisadi artım amillərində əhəmiyyətli rola malikdir. Müxtəlif logistika əməliyyatlarının və funksiyalarının həyata keçirilməsi ilə bağlı yaranan xərclər birbaşa logistika xərclərinə daxildir. İqtisadi məzmununa görə logistik xərclər qismən də olsa istehsal xərcləri və paylama xərcləri ilə üst-üstə düşür. Tədarük, paylama və istehsal proseslərinin qarşılıqlı işləməsi və əlaqəsi nəticəsində formalaşan logistik xərclər fərdi bir firmanın üç əsas komponentinin toplamı kimi də şərh edilə bilər.

L = Lc + Lp + Lr

Burada LC - tədarük və nəqliyyat zəncirlərinin xərcləri, LP - istehsal və texnoloji və ya əməliyyat zəncirlərinin xərcləri, LR isə - nəqliyyat və paylama xərcləri, satış zəncirləridir.

Logistika xərclərinin bir hissəsi kimi, maddi axınların hərəkətini təmin edən maliyyə əməliyyatları, logistika idarəsi, maddi və maliyyə qaynaqlarının hərəkətsizləşdirilməsindən ortaya çıxan itkilər, bitməmiş istehsal və hazır məhsullar, zərərlər, habelə hazır məhsulların tədarükü, istehsalı və satışı keyfiyyətinin qeyri-kafi səviyyəsindən asılıdır. Həcmlərinə görə yalnız xammal, material və komponentlərin xərclərindən sonra ikinci yerdə olan logistik xərclər həm də, iş təşkilatları üçün ən böyük xərc maddələrindən biri hesab edilir. Bir çox xarici alimlərin araşdırmaları və hesablamalarına görə, müxtəlif firmaların satışlarının üçdə bir hissəsini elə logistikanın ümumi xərcləri təşkil etməkdədir.

Hər bir funksional logistika sahəsi, o cümlədən, nəqliyyat logistikası üçün xüsusi göstəricilər ayrılır - bunlar çatdırılma etibarlılığı, ümumi çatdırılma vaxtı və ümumilikdə çatdırılma məsafəsi, çatdırılma xərcləri, müştəri məmnuniyyəti, xidmətin operativliyi, itkilər və zərərlərin miqdarı, yükləmə və boşaltma müddəti, ümumi köçürülmüş çəki, səhv çatdırılma sayı, hərəkət heyətinin ölçüləri və daşıma qabiliyyəti, sürücülərin peşəkarlığı və s.

Beleliklə, iqtisadi artım amillərində logistika xərclərinin səviyyəsi çox böyük əhəmiyyət kəsb etdiyindən onların maksimum azaldılması yollarının həyat keçirilməsi də olduqca aktuallıq təşkil edir:

1. Təchizat zəncirini təhlil etməklə yenidən dəyərləndirmək, əlavə dəyər yaratmayan fəaliyyətləri (prosedurlar, əməliyyatlar) müəyyənləşdirmək və azaltmaq.

2.Daha aşağı satış və pərakəndə satış və ticarət qiymətlərinin müəyyən edilməsi üçün təchizatçılar və alıcılarla danışıqların aparılması.

3. Təchizatçılara və alıcılara daha aşağı maliyyəli səviyyələrə çatmaq üçün müştəri işinin inkişafı proqramları, satıcılar üçün seminarlar və.s həyata keçirilməsi.

4. Ümumi xərclərdə nəzarəti təmin etmək üçün irəli və geriyə inteqrasiya.

5. Resursları ucuzlaşdıran əvəzedicilərin axtarıb tapılması.

6. Şirkət tədarükçüləri və istehlakçıları ilə koordinasiyaların yaxşılaşdırılmasıdır ki bu da, məhsulların dəqiq vaxtında çatdırılması sahəsində fəaliyyətin daha yaxşı həyata keçirilməsinə yardımçı olur. Bu eyni zamanda inventarların idarə olunması, saxlanması, anbarlaşdırılması və çatdırılması xərclərini azaldır.

İqtisadi artimin amilləri strukturunda logistikanin payinin artirilmasi istiqamətlərində yük daşımalarının, anbar əməliyyatlarının və digər xidmətlərin optimallaşdırşlması, həmçinin logistika xərclərinin minimuma endirilməsində yükləmə və boşaltma əməliyyatlarının xərclərinin minimuma endirməsi başlıca rol oynayır. Bunun üçün yükləmə və boşaltma əməliyyatlarının mexanikləşdirilməsi ilə yanaşı əl əməyini mexanikləşdirilmiş işlərlə əvəz etmək vacibdir. Kompleks mexanizasiyanın nəticələrini təhlil və müqayisə etmək üçün il ərzində mexanikləşdirilmiş yükləmə ilə yükləmə və boşaltma əməliyyatlarının xərclərini düzgün qiymətləndirmək lazımdır.Müəssisənin yükləmə boşaltma əməliyyatlarından başqa anbar əməliyyatlarının da təşkilində səmərəliliyin əldə olunması logistika xərclərinin azaldılmasında əhəmiyyət kəsb edir. Anbar əməliyyatlarının səmərəliliyi onun rasional qurulması, yəni aydın və ardıcıl həyata keçirilməsi ilə təmin olunur. Bundan əlavə, anbar prosesinin tikintisi aşağıdakılardan təsirlənir:

• nəqliyyat şərtləri (giriş-çıxış yollarının mövcudluğu);

• gündəlik olaraq yük dövriyyəsinin dəyəri (gündəlik anbara daxil olan və anbardan çıxan malların miqdarı);

• yükləmə-boşaltma və başqa zəhmət tələb edən əməliyyatların mexanizasiyasının səviyyəsi;

• anbarın tərtibatı;

• malların saxlanma şərtləri və.s.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Логистика: управление в грузовых транспортно-логистических системах: Учебное пособие. – Под ред. Л.Б. Миротина. – М.: Юристъ, 2002. - 414 с..

2. Никифоров В.В. Логистика. Транспорт и склад в цепи поставок. – М.: ГроссМедиа, 2008. - 192с.
3. Степанов В.И.Логистика. Учебник. – М.: Проспект, 2006. - 488 с.

## KAĞIZSIZ TİCARƏTİN İNKİŞAFI ÜÇÜN ELEKTRON BƏYANETMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**İbrahimli Elvin**
***Dövlət Gömrük Komitəsinin Akademiyası***
***Elmi rəhbər: Prof. Səfər Purhani***
***ibrahimli.elvinn@gmail.com***

### XÜLASƏ

Azərbaycanda uzun illərdir ticarətin asanlaşdırılması istiqamətində mühim addımlar atılmaqdadır. Bu ölkənin gələcək iqtisadi inkişafı üçün prioritet bir sahədir. Ticarətin asanlaşdırılması sahəsində mühim rol oynayan aspektlərdən biri də kağızsız ticarətin tətbiqidir. Bu sahənin uğurlu inkişafını təmin etmək üçün səmərəli elektron bəyanetmə sisteminin yaradılması və onun təkmilləşdirilməsi zəruridirr. Bu mənada elektron bəyanetmə sisteminin işləmə mexanizmi, Azərbaycanın mövcud elektron bəyanetmə sisteminin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri təhlil edilmişdir.

**Açar sözlər: elektron bəyan etmə, kağısız ticarət, ticarətin asanlaşdırılması**

### GİRİŞ

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) “Ticarətin Asanlaşdırılması Saziși”ndə elektron bəyanetmə sisteminin əsas prinsipləri, onun təkmilləşdirilməsi istiqamətləri və İnformasiya Kommunikasiya Texnologiyaları ( İKT ) sistemlərinin inkişafı bir çox ölkələrdə o, cümlədən Azərbaycan Respublikasında elektron bəyanetmə sisteminin tətbiq edilməsi zərurətini yaratmışdır. Elektron bəyanetmə sisteminin yaradılması gömrük əməliyyatlarının optimallaşdırılmasına, sənədlərin hazırlanmasına sərf olunan vaxt və xərclərin minumuma endirilməsinə, vətəndaş- məmur münasibətlərinin aradan qaldırılmasına, ticarət dövriyyəsinin artmasına, sahibkarlar üçün olan əngəllərin aradan qalxmasına, onların stimullaşdırılmasına effektiv təsir etmişdir və etməkdədir. Bu tədqiqatda kağızsız ticarətin inkişafı üçün elektron bəyanetmə sistemin təkmilləşdirilməsinə təsir edən faktorlar BMT-nin Rəqəmsal və Dayanıqlı Ticarətin Asanlaşdırılılması Tədqiqatının anket nəticələri və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Ticarətin Asanlaşdırılması Göstəriciləri (TFI) əsasında araşdırılmış və bu məlumatlara əsaslanaraq Azərbaycan Respublikasının elektron bəyanetmə sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tətqiqat metodları.**

Araşdırma bir neçə metoddan istifadə edilərək edilmişdir. Məqalədə tətqiqat əsasən təhlil və sintez metodlarından istifadə edilmişdir. Mövcud ədəbiyyatın incələnməsi və beynəlxalq təşkilatların dərc etdiyi materiallar əsasında məsələ tədqiq edilmişdir. Məsələnin daha ətraflı tədqiq etmək üçün müqayisə metodundan istifadə edilmişdir.

**Azərbaycanın kağızsız ticarətin inkişaf səviyyəsini müəyyənləşdirmək üçün BMT-nin rəqəmsal və dayanıqlı tıcarətın asanlaşdırılması tədqıqatı**

Birləşmiş Millətlər Təşkilatının Rəqəmsal və Dayanıqlı Ticarətin Asanlaşdırılması Tədqiqatı ilk dəfə 2015-ci ildə BMT Regional Komissiyaları tərəfindən birgə həyata keçirilmişdir. Bu tədqiqat hər iki ildə bir olmaqla ən son 2019-cu ildə aparılmışdır. Anketdə iştirak edən 128 ölkənin ticarəti asanlaşdırma səviyyəsini müəyyən etmək üçün, beş əsas altqrup seçilmişdir. Onlara, şəffaflıq, sərhədlərarası kağızsız ticarət, kağızsız ticarət, institusional tənzimləmələr və əməkdaşlıq, rəsmiyyət daxildir. Ölkələrin bu əsas altqruplar tərkibindəki meyarları qarşılayıb-qarşılamama və ya qismən qarşılama səviyyələri isə faizlə

göstərilmişdir. Beləliklə, ticarətin asanlaşdırılmasının ümumi vəziyyəti bu əsas altqrupların hər bir ölkə üçün hesablanan faizlərin ortalaması ilə müəyyən edilmişdir. Azərbaycanın 2015-2019-cu illər dövrü üçün "BMT-nin Rəqəmsal və Dayanıqlı Ticarətin Asanlaşdırılması Tədqiqatı" nın anket nəticələrinin verildiyi Cədvəl 2-də Azərbaycanın 2019-cu il üçün ümumi anket nəticəssi 81.72% olaraq müəyylənləşdirilmişdir. Bu göstərici 2015 və 2017-ci illərin nəticələri ilə müqayisə edildikdə, Azərbaycanın ticarəti asanlaşdırmaq üçün gördüyü işlərin kifayət qədər effektiv və səmərəli olduğu qənaətinə gəlmək olar.

**Cədvəl 1.**

**"Birləşmiş Millətlər Təşkilatının 2015-2019-cu illər üçün Azərbaycanın Rəqəmsal və Dayanıqlılı Ticarətin Asanlaşdırılması" adlı Anket Nəticələri (%-lə)**

| **Anketin Əsas Başlıqları** | **Anket nəticəsi (%)** | | |
|---|---|---|---|
| | **2015** | **2017** | **2019** |
| Şəffaflıq | 46.67 | 86.67 | 93.33 |
| Rəsmiyyət | 50.00 | 75.00 | 91.67 |
| İnstitusional tənzimləmələr və əməkdaşlıq | 77.78 | 88.89 | 88.89 |
| Kağızsız ticarət | 55.56 | 85.19 | 85.19 |
| Sərhədlərarası kağızsız ticarət | 22.22 | 44.44 | 50.00 |
| Ümümi nəticə (%) | 48.39 | 75.27 | 81.72 |

Mənbə: 2019-cu il Birləşmiş Millətlər Təşkilatının Rəqəmsal və Dayanıqlı Ticarətin Asanlaşdırılması Tədqiqatı

**Azərbaycanın kağızsız ticarətin inkişaf səviyyəsini müəyyənləşdirmək üçün iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının TFI (Trade Facilition Indicators) göstəricilərinin tədqiqi**

TAS-ın müddəaları nəzərə alınmaqla müəyyənləşdirilən sözügedən TFI, 11 göstərici əsasında müəyyənləşdirilir. İƏİT tərəfindən bu TFI göstəriciləri haqqında ölkələrdən toplanan məlumatlar 0 ilə 2 arasında qiymətləndirilir. Misal olaraq yuxarıda qeyd olunana TFI- göstəricilərinin hər biri üzrə Azərbaycan Respublikasının statistikası Cədvəl 2-dəki kimidir.

Azərbaycan bütün TFİ göstəriciləri üzrə ya ən yaxşı göstəricini üstələyir və ya ona yaxındır. Ticarət cəmiyyətinin iştirakı, ilkin qərarlar, rüsum və ödənişlər, sənədlərin sadələşdirilməsi və uzlaşdırılması, sərhəd proseslərinin avtomatlaşdırılması, prosedurların sadələşdirilməsi, daxili sərhəd orqanlarının əməkdaşlığı kimi sahələrdə fəaliyyət 2017-2019-cu illər arasında yaxşılaşmışdır. Digər sahələrdə statistika əsasən sabitdir.

**Cədvəli 2.**

**TFI Göstəriciləri üzrə Azərbaycanın statistikası**

| **Kateqoriya** | **Statistik Çəki** | **Xal** | **Yekun** | **Ən Yaxşı Göstərici** |
|---|---|---|---|---|
| İnformasiya əlçatanlığı (İnformation availability) | 1 | 31 | 1.476190476 | 1.667 |
| Ticarət cəmiyyətinin iştirakı (Involvement of the trade community) | 1 | 8 | 1.142857143 | 1.75 |
| İlkin qərarlar (Advance rullinga) | 1 | 8 | 1.333333333 | 1.909 |
| Apellyasiya prosedurları (Appeal procedures) | 1 | 10 | 1.25 | 1.538 |
| Rüsumlar və ödənişlər (Fees & charges) | 1 | 18 | 1.384615385 | 1.857 |
| Rəsmi qaydalar (Sənədlər) (Formalities (Documents) | 1 | 9 | 1.125 | 1.778 |
| Rəsmi qaydalar (Avtomatlaşdırma) (Formalities (Automation) | 1 | 13 | 1.3 | 1.692 |
| Rəsmi qaydalar (Prosedurlar) (Formalities (Procedures) | 1 | 33 | 1.269230769 | 1.6 |
| Daxili sərhəd orqanlarının əməkdaşlığı (Internal border agency co-operation) | 1 | 9 | 0.9 | 1.273 |

| | | | | |
|---|---|---|---|---|
| Xarici sərhəd orqanlarının əməkdaşlığı (External border agency co-operation) | 1 | 8 | 0.8 | 1.273 |
| İdarəetmə və qərəzsizlik (Governance & impartiality) | 1 | 14 | 1.555555556 | 1.889 |
| Toplam | | ***161*** | ***13.536*** | ***18.226*** |

Mənbə: OECD-dən götürülmüş məlumatlar əsasında tərtib olunmuşdur

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

Ümumilikdə BMT-nin və İƏİT-nın müvafiq tədqiqatlarını analiz etdikdə görə bilərik ki, Azərbaycanın kağızsız ticarətə keçid və onun inkişafı istiqamətində mühüm addımlar atmışdır. Bu addımlara Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 saylı 11 noyabr 2008-ci il tarixli Fərmanını və bu Fərmana uyğun olaraq həyata keçirilən tədbirlərin davamı olaraq Dövlət Gömrük Komitəsinin sədri tərəfinfən gömrük sistemində elektron rəsmiləşdirmə və nəzarət avtomatlaşdırılmış idarəetmə sisteminin yeni konsepsiyasının hazırlanması və dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin avtomatlaşdırılmış idarəetmə sistemi - "Bir pəncərə-AİS" sisteminin tətbiqi haqqında 04 iyun 2009-cu il tarix əmrini, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2.1-ci hissəsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 22.1-ci bəndi, "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 yanvar 2013-cü il tarixli 7 nömrəli Qərarı, "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli 263 nömrəli Qərarı misal göstərə bilərik.

Eyni zamanda aşağıdakı istiqamətlər üzrə aparılacaq təkmilləşdirmə işləri Azərbaycanın kağızsız ticarətin inkişafında mühim rol oynayacağı praqnozlaşdırılır: Gömrük veb saytının keyfiyyətinin artırılması ( istifadə funksiyası üçün istifadəçi dostu); sənədlərin mallar gömrük ərazisinə daxil olmazdan öncə elektron formada təqdim edilməsi və emalının mümkünlüyünün daha da təkmilləşdirilməsi; risklərin idarə edilməsinin avtomatlaşdırılmış mühitdə həyata keçirilməsiin təkmilləşdirilməsi; "Bir Pəncərə" sisteminin İKT tərəfindən tam dəstəklənməsi; məlumatları elektron şəkildə qəbul etmək və mübadilə etmək qabiliyyətinə malik olan İKT sistemləri

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Duval, Y., & Mengjing, K. (2017). "Digital Trade Facilitation: Paperless Trade in Regional Trade Agreements (No. 747)". ADBI Working Paper
2. Laryea, E. (2005). "Facilitating Paperless International Trade: A Survey of Law And Policy İn Asia". International Review of Law, Computers & Technology, 19(2), 121-142.
3. Mitchell, A. D. and Mishra, N. (2017). "International Trade Law Perspectives on Paperless Trade and Inclusive Digital Trade (No. 170)". ARTNeT Working Paper Series.
4. United Nations (2019). UN Global Survey on Dijital and Sustainable Trade Facilitation Survey (https://untfsurvey.org/
5. OECD (2019) Trade Facilitation Indicators Simulator (https://sim.oecd.org/default.ashx?ds=TFI)


**ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUN KADR HAZIRLIĞI ÜÇÜN DAXİLİ KEYFİYYƏT TƏMİNATININ MÖVCUD VƏZİYYƏTİ**

**İlyasov Asiman Rasim**
***Azərbaycan Texnologiya Universiteti***
***Elmi rəhbər: Vəliyev Vilayət***
***asiman.ilyasov@tkta.edu.az***

**Açar sözlər:** Ali təhsil müəssisəsi, daxili keyfiyyət təminatı, təhsildə keyfiyyət, əmək bazarı.

**Keywords:** Higher Education Institution, internal quality assurance, quality in aducation, labor market.

**Ключевые слова:** высшее учебное заведение, внутреннее обеспечение качества, качество образования, рынок труда.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda "keyfiyyətlilik" təhsilin şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına, mövcud standartlara, sosial-iqtisadi tələblərə uyğunluğu olaraq qeyd olunmuşdur. Eyni zamanda, sözügedən Qanunda müəssisənin məzunlarının ölkənin sosial və iqtisadi inkişafında rolunun, beynəlxalq və milli əmək bazarında rəqabət qabiliyyətliliyinin təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsini müəyyən edən əsas meyarlardan olduğu vurğulanmışdır. Bununla yanaş, mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almağın təhsilalanların hüququ olduğu, təhsil proqramlarının mənimsənilməsinin və müəyyən olunmuş kompetensiyaların formalaşmasının təmin olunmasının, dövlət standartlarına uyğun olaraq keyfiyyətli təhsil verilməsinin təhsilverənlərin vəzifəsi olduğu əks olunmuşdur [1].

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda yüksək keyfiyyəti təmin etmək üçün bu sahədə monitorinq, keyfiyyət və fəaliyyət göstəriciləri sistemi inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanmış və təhsilin keyfiyyətinin təminatı üzrə yeni sisteminin yaradılması təhsil sahəsində ölkənin strateji istiqamətlərdən biri olaraq göstərilmişdir. Sözügedən strategiyada təhlil nəticəsi olaraq Azərbaycanda təhsil müəssisələrinin maliyyələşdirilməsinin təqdim etdiyi təhsilin nəticələrindən asılı olmadığı və keyfiyyətə yönəlmədiyi qeyd olunmuş, maliyyələşdirmənin tədrisin keyfiyyət nəticələrinə görə müəyyən edilməsi, təhsil müəssisələrinin keyfiyyət göstəricilərinə əsaslanan investisiya xərcləri sisteminin yaradılması müvafiq tənzimləyici mərkəzi icra hakimiyyəti orqanın (və ya orqanların) strateji öhdəliyi kimi vurğulanmışdır [2].

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunmuş öhdəliklərin icrasının təmini üçün hazırlanmış və təsdiq olunmuş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"də kvalifikasiyaların keyfiyyətinin təminatı üçün daxili keyfiyyət təminatı sisteminin yaradılmasının, keyfiyyətin qiymətləndirilməsi meyarlarının mövcud olmasının əhəmiyyəti əks olunmuşdur . Eyni zamanda müvafiq çərçivə sənədində qeyd olunur ki, peşələr üzrə kvalifikasiyaları müəyyən edərkən, cəmiyyətin və əmək bazarının mövcud ehtiyaclarının nəzərə alınması və bununla da milli iqtisadi fəaliyyətin gücləndirilməsi, təhsil və təlim sahələri ilə əmək bazarı arasında əlaqələrin təşviq edilməsi, kvalifikasiyaların əmək bazarının təhlili və proqnozlaşdırılması, peşə və ixtisaslara, eyni zamanda səriştələrə olan ehtiyac əsasında müəyyənləşdirilməsi, təhsil proqramlarının hazırlanması, qiymətləndirilməsi və təsdiq olunması proseslərinin təlim nəticələrinə əsaslanması əsas olmalıdır [3].

Ali təhsil müəssisələrinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının reallaşması üçün müəssisədaxili və müəssisəxarici keyfiyyət təminatı əsas planlaşdırma, tənizmləmə, nəzarətetmə, motivləşdirmə və idarəetmə qiymətləndirmə alətidir. Belə ki, sözügedən sahə ilə bağlı müvafiq qanunvericiliyə və normativ hüquqi aktlara əsasən daxili keyfiyyətin təminatı mexanizmi ali təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun, təhsil müəssisəsində səmərəli və müasir tələblərə uyğun tədris mühitinin yaradılmasının və onun fəaliyyətinin özünütəhlil əsasında davamlı inkişafının təmin olunmasına xidmət edən daxili idarəetmə qiymətləndirmə sistemidir. Xarici keyfiyyətin təminatı sistemi isə ali təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyət səviyyəsinin və onun daxili keyfiyyətinin təminatı sisteminin effektivliyinin qiymətləndirilməsi prosesidir.

Ali təhsil müəssisəsində səmərəli daxili keyfiyyət təminatı sisteminin qurulması, bu sistemin işləkliyini təmin etmək, ehtiyacları müəyyən etmək üçün müvafiq istiqamətlər üzrə monitorinq metodologiyasının hazırlanması, meyar və indikatorlarının müəyyən olunması və təkmilləşməsi istiqamətində addımların atılması ali təhsil müəssisəsinin (xüsusi təyinatlı ali təhsil müəsissələri istisna olmaqla) öz Nizamnaməsinə və müvafiq struktur bölmənin (və ya bölmələrin) əsasnaməsinə əsasən öz səlahiyyətindədir [4]. Lakin, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsinə əsasən ölkə üzrə xarici keyfiyyət təminatın sahəsində müəyyən olunmuş səlahiyyətli dövlət orqanı isə Təhsildə Keyfiyyət Təminatı Agentliyidir [5].

Azərbaycanda ali təhsil müəssisələrində daxili keyfiyyət təminatının mövcud vəziyyətinin təhlili və təlim ehtiyaclarının müəyyən olunması üçün Agentlik tərəfindən ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyət arasında 2022-ci ildə sorğu keçirilmişdir. Sorğuda 778 respondent iştirak etmişdir. Sorğu nəticələrinin təhlili göstərir ki, respondentlərin təxminən yarısı (48%) "Keyfiyyət təminatı" anlayışının məhz "keyfiyyətli təhsil" mənasına gəldiyini düşünür, hansı ki "keyfiyyətli təhsil" keyfiyyət təminatı sisteminin işləkliyi və səmərələliliyinin sadəcə olaraq məntiqi nəticəsidir. Bununla yanaşı, əksər akademi və inzibati heyətin ali təhsil müəssisəsindəki Keyfiyyət təminatı Mərkəzinin (və ya aidiyyəti struktur bölmənin) mövcudluğu haqqında məlumatsız olduğu müşahidə olunur. Respondentlər çalışdıqları ali təhsil müəssisəsində keyfiyyət təminatı ilə bağlı struktur bölmənin müsbət və mənfi cəhətləri olaraq daha çox aşağıdakıları qeyd etmişlər:

Müsbət cəhətlər:
1. digər şöbələrin işinin monitorinqi və şöbələr tərəfindən ümumi hesabatlılığın artması;
2. heyət üçün beynəlxalq standartlar əsasında təlimlərin təşkili;
3. tədrisin təşkilinə dəstək;
4. tələbələrə birbaşa dəstək olması;
5. imtahan prosesinə nəzarət edilməsi.

Mənfi cəhətlər:
1. sistematik yanaşmanın olmaması;
2. ixtisaslı kadr çatışmazlığının mövcud olması;
3. həmin struktur bölmənin heyətin akademik müstəqilliyini məhdudlaşdırması;
4. sadəcə audit funksiyası daşıması.

Sorğu təhlilinin nəticəsi olaraq demək olar ki, ali təhsil müəssisələrində Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təmin olunması üzrə Avropa Standartları və Tövsiyələri (ESG") və "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na dair savadlılığın artırılması istiqamətində addımlar atılmalı, eyni zamanda əmək bazarına ixtisaslı kadr hazırlığı üçün daxili keyfiyyət təminatı sisteminin formalaşmasına və inkişafına sistematik yanaşma formalaşmalı və Keyfiyyət Təminatı Mərkəzlərinin (və ya aidiyyəti struktur bölmələri) beyəlxalq təcrübədə nəzərdə tutulan əsas istiqamətlərdə fəaliyyət göstərməsini təmin edilməlidir.

**Ədəbiyyat siyahısı**


1. https://e-qanun.az/framework/18343
2. https://president.az/az/articles/view/9779
3. https://e-qanun.az/framework/39622
4. https://e-qanun.az/framework/41220
5. https://e-qanun.az/framework/44056


## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUN KADR HAZIRLIĞINDA STRATEJİ PLANLAMANIN MÖVCUD VƏZİYYƏTİ

**İlyasov Asiman Rasim**
***Azərbaycan Texnologiya Universiteti***
***Elmi rəhbər: Vəliyev Vilayət***
***Asiman.ilyasov@tkta.edu.az***

**Açar sözlər:** Ali təhsil müəssisəsi, Strateji inkişaf planı, keyfiyyət təminatı
**Keywords:** Higher Education Institution, Stratejic development plan, quality assurance
**Ключевые слова:** Высшие учебные заведения, стратегический план развития, обеспечение качества

Bir-biri ilə əlaqəli prosesləri bir sistem kimi başa düşmək və idarə etmək təşkilata nəzərdə tutulan nəticələrə nail olmaqda, eləcə də qarşılıqlı əlaqə və asılılıqlara nəzarət etməyə imkan verir. Proses yanaşması təşkilatın siyasətinə, məqsədlərinə və Strateji inkişaf planına uyğun olaraq nəzərdə tutulan nəticələrə nail olmaq üçün proseslərin və onların qarşılıqlı əlaqələrinin sistematik şəkildə müəyyən edilməsini və idarə olunmasını nəzərdə tutur [1].

Strateji inkişaf planı daxili və xarici amillərin təhlili əsasında gələcək məqsəd və hədəflərin müəyyən edilməsi və bu hədəflərə çatmaq üçün hazırda mövcud olan resursların istifadəsi istiqamətlərini müəyyən edən sənəddir. Strateji inkişaf planıın əsas məqsədi xarici dəyişikliklərə cavab olaraq müəssisə daxilində öncədən dəyişikliklərin həyata keçirilməsi və bununla da xarici dəyişikliklərin mənfi təsirlərinin minimuma endirilməsi, müsbət təsirlərinin isə maksimal fayda ilə istifadə edilməsindən ibarətdir.

Strateji səviyyədə qurumlar öz missiyasını, dəyərlərini, əsas məqsəd və hədəflərini əks etdirən uzunmüddətli planlar (müddəti üç ildən beş ilə qədər dəyişir) hazırlayırlar. Bu planlar adətən qurumu daha geniş iqtisadi, siyasi və mədəni çərçivədə təsvir edir, eləcə də qurumun açıq şəkildə regional və ya yerli missiyasının olub-olmaması və ya onun əsas istiqamətinin milli və ya beynəlxalq səviyyədə müəyyən olunması kimi suallara cavab verir [2]. Əlbəttə ki, Strateji inkişaf planında qeyd olunan məsələlərin icrasına gələcək maliyyə vəsaitinin ehtimal olunan məbləği böyük təsir göstərir. Belə ki, strateji inkişaf istiqamətlərinin maliyyələşdirməsinin planlaşdırılması zamanı əmək bazarının dəyişən tələbləri və strukturu nəzərə alınmalıdır [2]. Bununla yanaşı, strateji planlaşdırmanın müvəffəqiyyəti yalnız müəssisənin bütün heyəti planı qəbul etdikdə mümkündür. Strateji planlaşdırma idarə daxilində konkret bölmənin və ya şəxsin məsuliyyəti kimi qəbul edilməməlidir. Planın hazırlanması və bu plana uyğun fəaliyyətlərin icra edilməsi idarəetmənin əsas vəzifəsidir. Bu səbəbdən müəssisənin rəhbərliyinin dəstəyi əvəzsiz şərtdir, eləcə də rəhbərlik strateji plan yanaşmasını mənimsədiyini idarəetmə işçiləri ilə bölüşməli və korporativ mülkiyyəti təmin etməlidir [3].

Ali təhsil müəssisəsinin "məqsədlərlə idarəetmə" modeli, özünün Strateji inkişaf planında təyin edilmiş yüksək göstəricilərə nail olmaq istiqamətində ali təhsil müəssisəsinin bütün akademik və inzibati heyətinin fəaliyyət göstərməsinə əsaslanır. Məqsədlər sistemi təhsil müəssisəsinin daxilində müəyyənləşdirilir, məqsədlər icraçılar arasında bölünür və onları əldə etmək həm rəhbərliyin, həm də pedaqoji və inzibati heyətin ümumi dəyərinə çevrilir. Bir qayda olaraq, ali təhsil müəssisəsində "məqsədlərlə idarəetmə" dedikdə spesifik məqsədlərə nail olunması üçün işçi qrupların və komandaların yaradılması nəzərdə tutulur.

Təhsilin idarəçiliyi sahəsində dərc olunmuş xarici ədəbiyyatlarda, eləcə də aparılmış elmi araşdırmalarda ali təhsil müəssisəsinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının keyfiyyət təminatı problemlərinin əksəriyyət etibarı ilə müəssisənin Strateji inkişaf planından və onun icrasını təmin edən strateji idarəetməsindən qaynaqlandığı qeyd olunur.

14 dekabr 2021-ci il tarixli 493 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Təhsil müəssisələrinin akkreditasiyası qaydaları"nda müəssisənin akkreditasiya qiymətləndirilməsi zamanı təqdim etməsi gərəkən sənədlər arasında müəssisənin Strateji inkişaf planı da qeyd edilir və institusional qiymətləndirmə zamanı Strateji inkişaf planını hazırlanması, icrası, monitorinqi vəziyyəti, qoyulmuş hədəflərin cəmiyyətin və iqtisadiyyatın maraqlarına uyğunluğu səviyyəsi qiymətləndirilməsi planlaşdırılır [4].

Milli təhsilin inkişafı ilə bağlı qanunvericilik və müvafiq sənədlərdə strateji planlaşdırma termininə istinad edilir. Bununla yanaşı olaraq, “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramında” ayrı-ayrı ali təhsil müəssisələrinin Strateji inkişaf proqramının hazırlanması məsələləri hədəf olaraq qeyd olunmasına baxmayaraq əfsuslar olsun ki, bu zamana qədər qənaətbəxş səviyyədə icra olunmamışdır [5]. Belə ki, Azərbaycanda fəaliyyət göstərən 51 ali təhsil müəssisəsindən sadəcə 9 ATM öz Strateji inkişaf planını öz internet resurslarında əlçatan etmişdir [6,7,8,9,10,11].

Azərbaycanda keyfiyyət təminatı üzrə öz Nizamnaməsinə əsasən səlahiyyətli qurum olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyət arasında 2022-ci ildə sorğu keçirilmiş (sorğunun nəticələri ADA Universitetində ATM nümayəndələrinə elan olunmuşdur) və sözügedən sorğuda 40 ATM-in 29-dan ümumilikdə 778 nəfər akademik və inzibati heyət iştirak etmişdir. Sorğuda iştirak edən akademik və inzibati heyətin tərkibinə nəzər saldıqda daha çox professor-müəllim heyətinin üstünlük təşkil etdiyi görülür. Eyni zamanda ali təhsil müəssisələrində çalışan digər inzibati vəzifəli şəxslər də sorğuda iştirak etmişdir. Sorğu iştirakçılarının 20%-i çalışdıqları ATM-də Strateji inkişaf planının mövcudluğu haqqında məlumatsız olduqlarını və yarısından çoxu (63%) Strateji inkişaf planının hazırlanması prosesinə cəlb olunmadıqlarını və ya çalışdıqları ATM-də belə bir planlaşdırıcı sənədin mövcudluğundan xəbərsiz olduqlarını qeyd etmişdir.

Akademik və inzibati heyət arasında keçirilmiş sorğunun nəticələrinin qarşılıqlı müqayisəli təhlili məqsədi ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən ali təhsil müəssisələrində təhsilalanlar arasında keçirdiyi sorğunun nəticəsi olaraq 41 ATM-dən ümumilikdə 20729 nəfər tələbə iştirak etmişdir.Sorğu iştirakçılarının 50%-dən çox hissəsi strateji inkişaf planının hazırlanması prosesinə cəlb olunmadığını və ya ATM-də belə bir planlaşdırıcı sənədin mövcudluğundan xəbərsiz olduqlarını qeyd etmişdir.

Nəticə olaraq demək olar ki, ali təhsil müəssisələrinin əmək bazarına ixtisaslı kadr hazırlığı üçün strateji planlamanın strateji idarəetmənin əsası kimi istifadə olunması, eyni zamanda Strateji inkişaf planının hazırlanması prosesinə təhsilalanların, inzibati və akademik heyətin, eləcə də digər maraqlı tərəflərin aktiv olaraq cəlb olunması müəssisənin səmərəli daxili keyfiyyət təminatı üçün əsasdır.

**Ədəbiyyat siyahısı**


1. https://nobelcert.com/DataFiles/FreeUpload/ISO%2021001%202018.pdf
2. https://www.employment-studies.co.uk/system/files/resources/files/411.pdf
3. http://www.sp.gov.tr/upload/xSpKutuphane/files/0QRai+Kamu_Idareleri_Icin_Stratejik_Planlama_Kilavuzu_V3_1_.pdf
4. https://e-qanun.az/framework/46460
5. https://e-qanun.az/framework/17737
6. https://www.ada.edu.az/en/about/strategic-plan
7. http://www.adau.edu.az/haqqimizda/nkiaf-stratgiyas-665/
8. https://www.ada.edu.az/en/about/strategic-plan
9. https://www.bhos.edu.az/kcfinder/upload/files/report_web_az.pdf
10. https://oyu.edu.az/uploads/universitet/OYU%20strateji%20plan%20.pdf
11. https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf


## “HOTREC”-Ə DAXİL OLAN OTELLƏRDƏ SOSİAL MEDİYA MARKETİNQİNİN TƏŞKİLİ

**Şahin İmanlı İdris Oğlu**
*Bakı Dövlət Universiteti, magistr*

***c.ü.f.d., Səbuhi Talıbov Əlibala oğlu, Rəhbər***
***sahinimanli19971997@gmail.com***

**Açar sözlər:** SMM, HOTREC, marketinq, hotel, heşteqlər, Facebook, İnstagram, Twitter və Linkedin.

**Ключевые слова:** SMM, HOTREC, маркетинг, гостиница, хэштеги, Facebook, Instagram, Twitter и Linkedin.

**Keywords:** SMM, HOTREC, marketing, hotel, hashtags, Facebook, Instagram, Twitter and Linkedin.

Müasir dövrün məşhur ixtiralarından olan sosial mediya platformaları qonaqpərvərlik sənayesi müəssisələrinin marketinq fəaliyyətini həyata keçirməsində istifadə olunan vasitələrdəndir. Sosial mediya marketinqi, internet üzərində müxtəlif platformalarda reklam materialları, məhsul və xidmətlərə aid şəkil, video, rəy, status və s. paylaşılması vasitəsilə həyata keçirilir. Hal-hazırda bu sənayedə sosial mediya marketinqi ən çox Facebook, İnstagram, Twitter və Linkedin-dir. HOTREC qonaqpərvərlik sənayesi müəssisələrinin sosial mediya marketinqi aşağıdakı elementlərdən ibarətdir[6]:

1.Sosial mediya platformalarında brend adına uyğun səhifə və heşteqlərin yaradılması. Müəssisənin onlayn platformalarda imicinin qorunub saxlanılması və bu platformalarda daha asan tapılması üçün yaradılmış səhifənin adı və xüsusi heşteq müəssisənin adına uyğun olmalıdır. Bundan əlavə, müəssisənin imicini və xidmətlərini simvolizə edən heşteqlərdən də istifadə edilə bilər. Məsələn, 2013-cü ildən bəri Marriot Hotels şirkəti “MarriotHotel” heşteqindən əlavə, “TravelBrilliantly” heşteqindən istifadə edir. Sosial mediya marketinqi üzrə aparılan uzunmüddətli araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, müəssisələr təkcə öz brend adlarına uyğun heşteqlərdən deyil, həmçinin aşağıdakılardan da istifadə etməlidir:

- Ünvana əsaslanan heşteq: “#Baku”, “#Paris”, “#NYC”;
- Şəkil, video və ya statusların mövzusuna uyğun heşteq: “#coffee”, “#champagne”;
- Otel (restoran) heşteqləri: “#hotelroom”, “#hotellife”, “#restaurant”, “#dinner”.

2.Sosial mediya platformalarında təkcə tanıtım məqsədli paylaşımlar deyil, müəssisənin xarakteristikasını özündə əks etdirən paylaşımlar etmək və elektron müştəri topluluğu yaratmaq. Sosial mediya birbaşa sosiallaşma ilə əlaqəli olduğundan bu platformalarda müştərilər üçün elektron topluluqlar yaradılır. Belə elektron topluluqların yaradılması üçün aşağıdakı üsullardan istifadə edilir[2]:

- HOTREC üzv olan ölkələrdə sosial mediya səhifəsindən müştərilərə suallar soruşulur, müəyyən nüanslar barədə fikirləri öyrənilir, müştərilərin müəssisənin fəaliyyəti barədə paylaşımları bəyənilir və yenidən paylaşılır. Müştərilərin 71%-inin qeyd etdiyinə görə, onlar rəylərə tez cavab verən, paylaşımları daha tez bəyənən müəssisələri başqalarına tövsiyyə etmə dərəcəsigörə daha çoxdur;

- Paylaşımlar sadəcə reklam xarakteri daşımamalı, müştərilərdə mənfi təəssürat yaratmamalıdır. Bu məqsədlə sosial mediya marketinqinin qızıl bir qanunu var ki, bu da edilən paylaşımların 80%-i məlumat vermə və müştəriləri müəssisənin xüsusiyyətləri barədə öyrətmə xarakteri daşıması, 20%-i isə birbaşa reklam xarakterli olmasıdır [4]. Əks halda isə, izləyicilərdə müəssisənin yalnış satış üçün bu platformalarda olması kimi mənfi təəssürat yaranır və online müştəri topluluğunun yaradılması çətinləşir;

- Sosial mediya yarışlarının təşkil olunması. Belə yarışlar zamanı, müştərilərdən rəy, bəyəni və etiketləmə tələb olunaraq, bunun qarşısında onlara pulsuz qida, gecələmə, hədiyyə kartları və s. təqdim olunur.

3. Hansı platformda və günün hansı saatlarında paylaşımlar etməyin müəyyənləşdirilməsi. HOTREC üzv olan hotellərin sosial mediya platformalarında paylaşacağı müxtəlif şəkil, video və statusların professionallıq dərəcəsinin yüksək olmasına baxmayaraq, onların doğru gün və vaxtda paylaşmadan səmərəli sosial mediya marketinqi həyata keçirmək olmaz. Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, sosial mediya platformaları arasında ən səmərəli reklam tədbirləri Facebook-da həyata keçirilir, həmçinin həftə ərzində 16 ədəd paylaşım edən müəssisələr digərlərinə nisbətdə 3,5 dəfə çox müştəri topluluğu əldə edirlər[1]. Qonaqpərlik sənayesi müəssisələrinin bu paylaşımları etməsinin ən optimal variantları aşağıdakı cədvəllərdə öz əksini tapır (müvafiq olaraq Twitter, Facebook və Linkedİn-də).




**Şəkil:1.** HOTREC üzv otellərin Facebookdan istifadənin optimal paylaşım vaxtları[7].

Şəkildən də göründüyü kimi, bu müəssisələrin sosial mediyasında paylaşımlar etmək üçün ən optimal vaxt bazar ertəsi saat $12^{00}$, çərşənbə axşamı $12^{00}$ – $14^{00}$ arası, çər-şənbə günü $10^{00}$ – $15^{00}$ arası, cümə axşamı $11^{00}$, $12^{00}$ və $14^{00}$, cümə günü saat isə, $09^{00}$ - $11^{00}$ arasıdır. Ən əlverişsiz günlər isə, şənbə və bazar günləridir.




**Şəkil:2.** HOTREC üzv hotellərin İnstagramda optimal paylaşım vaxtları[7].

İnstagram sosial mediya platformasında qonaqpərvərlik sənayesi müəssisələri üçün paylaşım etməyin ən optimal vaxtı bazar ertəsi saat $14^{00}$, çərşənbə axşamı $12^{00}$ – $14^{00}$ arası, $12^{00}$ – $16^{00}$ arası, cümə axşamı $11^{00}$ – $12^{00}$ arası, cümə günü isə $11^{00}$ – $15^{00}$ arası-dır. Bu platformda da şənbə və bazar günləri paylaşım etməyin effektivliyi azdır.




**Şəkil: 3.** HOTREC üzv otellərin Linkedİndə optimal paylaşım vaxtları[7]

Bu sənayedə fəaliyyət göstərən müəssisələrin Linkedİn sosial mediya platformunda paylaşım etməyin ən optimal vaxtı çərşənbə axşamı saat $09^{00}$ – $10^{00}$ və $12^{00}$ – $13^{00}$ ara-sı, çərşənbə günü $08^{00}$ – $10^{00}$, $12^{00}$ və $15^{00}$, cümə axşamı $09^{00}$ və $13^{00}$ – $14^{00}$ arası, cümə günü isə saat $09^{00}$ –dur.

Sosial mediya marketinqinin üstünlükləri aşağıdakılardır[3]:

➢ Brend adının daha asan tanıdılır. Sosial media marketinqinin ənənəvi marketinqdən fərqli olaraq coğrafi sərhədlərə malik olmaması, onun vasitəsilə daha çox kütləyə təsir etməyə və brend adını daha asan tanıdılmasına imkan verir.

➢ Ölçüləbiləndir. Sosial mediya marketinqi ənənəvi marketinqdən fərlqi olaraq ölçüləbiləndir. Belə ki, bu platformalarda tətbiq edilən marketinq mesajlarının neçə dəfə klikləndiyi, bu mesajların (video, şəkil, status) neçə dəfə təəssürat (bəyəni, rəy, yenidən paylaşım) əldə etdiyi, müştərilərin hansı web-səhifəni neçə dəfə ziyarət etdiyi müxtəlif proqram təminatları vasitəsilə ölçülə bilir;

➢ Müştərilərlə qarşılıqlı əlaqə səviyyəsi yüksəkdir. Ənənəvi marketinqdən fərqli olaraq sosial mediya marketinqindən istifadə zamanı müştərilər müəssisənin nümayəndələri ilə birbaşa interaksiyada olur;

➢ Daha ekonomikdir. Sosial mediyada verilən reklam materiallarının hazırlanmasına və yayılmasına çəkilən xərclər, ənənəvi marketinq xidmətlərinin tətbiqi zamanı qəzet, televizor, radio və s. digər yayım vasitələrindəki reklamın dəyərindən dəfələrcə ucuzdur;

➢ Trend olma ehtimalı var. Müəssisələrin sosial mediya platformalarında etdiyi paylaşımların, xüsusilə də heşteq və statusların trendə çevrilməsi nəticəsində satışın yüksək dərəcədə artması mümkündür.

Mehmanxana biznesində sosial mediya marketinqinə misal olaraq Hilton otellər şəbəkəsinin 2014-cü ildə sosial mediyada həyata keçirdiyi trendi göstərmək olar. Belə ki, Hilton otel Twitterdə “Vacationis” heşteqini yaradaraq, müştərilərin səyahətləri müddətində başlarına gələn maraqlı əhvalatları paylaşmasını itəmişdir. Qısa müddət ərzində Twitterdə trendə çevrilən bu heşteq Facebookda da şöhrət qazanmış, bu heşteq altında paylaşılan video və fotoların bəyənilməsi yarım milyonu ötmüşdür. Bu addım nəticəsində Hilton otelin “Hilton VİP Newsletter” bülleteninə 7 mindən artıq insan abunə olmuşdur[5].

Yüz minlərlə müəssisə müxtəlif kilidləmə, dayandırılma və məhdudiyyətlər səbəbindən bağlanmalı oldu və təəssüf ki, hamısı qeyri-müəyyən bir gələcəklə üzləşdi. Bu hal hazırda milyonlarla insanın müvəqqəti işsiz qalması ilə nəticələndi və bu iqtisadi böhrandan xilas ola bilmədikləri üçün bir çox insanın daimi işsizliyə sürüklənmə ehtimalı real idi. 2020-ci ilin II rübü ərzində qonaqpərvərlik sektorunun AB-dəki dövriyyəsi 2019-cu ilin II rübü ilə müqayisədə 63,25% azalıb. Məşğulluq baxımından qonaqpərvərlik xidmətləri 2020-ci ilin II rübündə 2019-cu ilin II rübünə nisbətən 1,84 milyon nəfər az işləyib[6].

Buna baxmayaraq, HOTREC, Avropa Komissiyası tərəfindən iki mərhələli sosial tərəfdaş məsləhətləşməsində ifadə edilən alət seçiminə üstünlük verir. Bu sahədə bir sıra tövsiyyələr irəli sürmüşdür[6]:

• Vergi kimi fərqli iqtisadi və sosial amilləri nəzərə alaraq minimum parametrlər üzrə köklü SMM kollektiv güzəştlərin tətbiqi;

• Sosial tərəfdaşların qanunla müəyyən edilmiş rəqbət dözümlülüyünün nəzərə alınması və dəstəkləklənməsi

• Üzv ölkələrin siyasi, iqtisadi, sosial və ya milli ənənələrini nəzərə alınmaqla SMM təşkili və təşviq edilməsi;

• Üzv ölkələrdə effektiv struktur islahatlarını həyata keçirmək, investisiya strategiyalarını artırmaq və məsuliyyətli maliyyə siyasətini təşviq etmək.

## ƏDƏBİYYAT SİYAHISI :


1. A Study on Marketing Mix of Hospitality İndustry, İnternational Journal of Ma-nagement, İT&Engineering – 2017, //pp 260-263
2. Advertising of Boutique Hotel on The İnternet, L.Lodge, University of Applied Science, 2014 //pp 24-27
3. Hotel Marketing, International Course for Hotel Management, 2014// pp 20
4. The Routledge Handbook of Hospitality Marketing, İ.Pantelidis, 2017, 617 p.
5. Training Programme on Public Relations, Anna İnstitute of Management, 2015, //5 pp
6. www.hotrec.eu Homepage - HOTREC is the umbrella Association of Hotels
7. www.hotrec.eu2020_European_Hotel_Distribution_Survey_HOTREC


## TURİZM VƏ ƏQLİ MÜLKİYYƏT


**İsalı Xəzər**
***Bakı Avrasiya Universitetinin magistrantı***


**Turizm və onun əhəmiyyəti.** Müasir dövrdə turizm cəmiyyətin sosial-iqtisadi həyatında önəmli yerlərdən birini tutur. Hər il milyonlarla insan fərqli məkanlarda istirahət etmək məqsədilə ənənəvi yaşayış yerlərindən uzaqda olan regionlara, xarici ölkələrə səyahətə gedirlər. Bu cür səyahətlər isə turizm sahəsinin təməlini təşkil edən turizm sisteminin yaradılmasını və bununla əlaqəli turizm infrastrukturunun qurulmasını, eyni zamanda turizm məhsulları və xidmət sahələrinin yaradılmasını zəruri edir.

Bunlar isə öz növbəsində həmin sahələrdə istehsal fəaliyyətinin inkişafına təsir göstərir və son nəticədə turizm iqtisadiyyatının formalaşmasına gətirib çıxarır. Turizm iqtisadiyyatının əsas məqsədi isə turistləri məmnun edəcək turizm infrastrukturunun yaradılması, onları yüksək səviyyəli turizm məhsulları və xidmət sahələri ilə təmin etməkdir.

Ümumiyyətlə, turizm sektorunun fəaliyyəti hazırda bütün ölkələrdə aktual məsələlərdəndir və bu sahə bilavasitə sosial-iqtisadi inkişafla bağlı olduğuna görə dövlətlərin sosial-iqtisadi siyasətinin aparıcı istiqamətlərindən sayılır. Bunun da müəyyən səbəbləri vardır. İlk növbədə qeyd etmək lazımdır ki, müasir dövrdə turizm sektoru dünya iqtisadiyyatının aparıcı və ən gəlirli sahələrindən birinə çevrilmişdir. Turizm bütövlükdə insanın, cəmiyyətin maraqlarına xidmət edir və mikro və makroiqtisadi səviyyədə potensial gəlir mənbəyidir. Yüksək inkişaf etmiş ölkələrdə əhalinin əksəriyyəti məzuniyyətlərini evdən uzaq bölgələrdə keçirir ki, bu da geniş turizm sənayesinin yaranmasına gətirib çıxarır. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə turizm iqtisadi artım və sosial problemlərin həlli ilə yanaşı, ölkə üçün vacib olan xarici valyutanın daxilolma mənbəyinə çevrilmişdir. Digər bir vacib məsələni də qeyd etmək lazımdır ki, bir çox ölkələrdə turizm sahəsi əlavə iş yerlərinin açılmasına, xüsusən regionlarda və mərkəzdən uzaq bölgələrdə işsizlik probleminin həllinə müsbət təsir edir, yol və otel infrastrukturunun inkişafını

sürətləndirir, turizm üçün potensial və cəlbedici bölgələrdə abadlıq işlərini stimullaşdırır. Nəhayət turizm bölgələrin və ölkələrin xalq sənətkarlıqlarının və milli mədəniyyətlərinin inkişafına, təbliğinə və qorunmasına öz töhfəsini verir.

**Azərbaycanda turizmin inkişafı.** Ölkəmizdə turizm sahəsinin inkişafına böyük önəm verilir. Əhalinin rifahının yüksəldilməsinə yönələn, eləcə də ölkəmizin qeyri-neft sektorunda böyük inkişaf perspektivinə malik olan sahələrindən biri kimi onun inkişafı dövlət tərəfindən dəstəklənir. Bununla əlaqədar, ilk növbədə bu sahədə fəaliyyəti tənzimləyən müasir tələblərə uyğun olan qanunvericilik bazası yaradılmışdır.

1999-cu ildə qəbul edilmiş “Turizm haqqında” Qanun “Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını” müəyyənləşdirir. Bu Qanunun qüvvəyə minməsi, eləcə də onun tətbiqi ilə bağlı məsələləri tənzimləmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin imzaladığı 27 iyul 1999-cu il tarixli "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Fərman ölkəmizdə turizm sahəsinin inkişafına çox böyük təkan verdi.

Bu Qanunla turizm sahəsində dövlətin əsas vəzifələri müəyyənləşdirildi. Həmin vəzifələr sırasında aşağıdakıları xüsusi qeyd etmək lazımdır: turizmin inkişafına dair dövlət proqramının və normativ bazanın işlənib hazırlanması; turizmdə sahələrarası və regionlararası fəaliyyətin əlaqələndirilməsi; Azərbaycan Respublikasının xaricdə əhəmiyyətli turizm ölkəsi kimi tanıdılması məqsədilə informasiya şəbəkəsinin yaradılması; beynəlxalq turizm təşkilatlarında ölkəmizin nümayəndəliyinin təşkil edilməsi, turizmin inkişafına dair beynəlxalq proqramın işlənib hazırlanmasında iştirak edilməsi, turizm sahəsində əməkdaşlıq üzrə müqavilələr bağlanması və onların həyata keçirilməsi mexanizminin işlənib hazırlanması və s.

Göstərilən vəzifələrin müəyyənləşdirilməsi ilə məsələ tamamlanmadı, bu vəzifələrin yerinə yetirilməsi prosesinə başlanıldı. Bu çərçivədə turizm sahəsində beynəlxalq əlaqələrin qurulması istiqamətində işlər intensivləşdirildi və Ümumdünya Turizm Təşkilatının 2001-ci il sentyabr ayının 25-də Cənubi Koreyanın paytaxtı Seul şəhərində keçirilmiş XIV Baş Assambleyasında ölkəmiz bu beynəlxalq təşkilatın üzvü oldu. Bu üzvlük Azərbaycanın turizm sektoruna beynəlxalq turizm sahəsində müsbət tendensiyaların və təcrübələrin öyrənilməsi və tətbiq olunması üçün geniş imkanlar yaratdı. Ölkəmizə turist axınının hər il artması ilə əlaqədar 2001-ci ildə ingilis dilində “Azərbaycana xöş gəlmişsiniz” (Welcome to Azerbaijan) adlı təbliğat xarakterli video-disk buraxıldı və bunun ardınca həmin video-diskin materialları əsasında "Turizm in Azerbaijan" adlı veb-səhifə yaradıldı. Turizmin getdikcə artan əhəmiyyəti nəzərə alınmaqla 2002-ci ildə Ümumdünya Turizm Təşkilatının dəstəyi ilə Bakıda ilk dəfə olaraq Beynəlxalq Turizm Sərgisi təşkil olundu. Həmin tədbirdə ölkəmizin turizm sahəsini təmsil edən nümayəndələrlə yanaşı, xarici ölkələrin turizm şirkətləri də fəal şəkildə iştirak etmişlər. Bütün bunlar göstərirdi ki, Azərbaycan artıq dünyada tanınmış turizm məkanı kimi qəbul edilməkdədir.

Bu sahədə aparılan işlərin sistemli və daha səmərəli aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu. Həmin Proqramda göstərildi ki: “Nadir təbii-iqlim şəraiti olan Azərbaycan Respublikasında planetin 11 iqlim qurşağından 9-u mövcuddur. Ölkənin fauna və flora aləmi müxtəlif və zəngindir. Azərbaycanda 12 təbii və tarixi qoruq, 17 müvəqqəti qoruq və ovçuluq təsərrüfatı vardır. Xəzər dənizi boyunca 7 istirahət zonası yerləşir. Ölkə ərazisində 6 mindən artıq memarlıq və mədəniyyət abidələri qorunub saxlanılır. Ölkənin təbii, mədəni və tarixi irsi onun beynəlxalq turizm bazarına daxil olmasına real zəmin yaradır”.

Bununla əlaqədar, ölkəmizdə turizmin inkişafını müasir tələblər səviyyəsində təmin etmək üçün bir sıra istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu, o cümlədən:

- “turizm ehtiyatlarının öyrənilməsi və onların genişləndirilməsi;
- turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması;
- mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması;

- milli adət-ənənələri, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması;
- milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının genişləndirilməsi;
- Azərbaycanı turizm biznesi üçün əlverişli şəraiti olan ölkə kimi dünyada tanıtmaq məqsədi ilə reklam - təbliğat və məlumat - sorğu fəaliyyətinin canlandırılması;
- turizm inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi”.

Göstərilən Dövlət proqramı ilə yanaşı, sonrakı illərdə Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında qəbul edilmiş sənədlər ölkə iqtisadiyyatının, o cümlədən turizm sektorunun inkişafına çox böyük təkan verdi, imkanlar yaratdı.

Nəticədə ölkəmizin sosial-iqtisadi siyasətində xüsusən regional turizmin inkişafı mühüm əhəmiyyət kəsb etməyə başladı. Regionlarda turizmin inkişafı üçün düşünülmüş sosial proqramlar həyata keçirilməyə başlandı. Bu proqramlarda regionlarda turizm infrastrukturunun yaradılması və inkişafı proritet məsələlər kimi qoyulurdu. Bu isə regionaların inkişafına öz müsbət təsirini göstərir, infrastruktur obyektləri, o cümlədən mehmanxana kompleksləri inşa edilir, ictimai-iaşə sahəsi inkişaf edir, nəqliyyat xidmətləri təkmilləşdirilir, informasiya texnologiyalarından istifadə imkanları genişləndirilir, regionlarda əhalinin sayının artmasına səbəb olur, əhalinin real gəlirləri və alıcılıq qabiliyyəti artır, istehlak tələbatının strukturu dəyişir, o cümlədən turizmlə bağlı xidmətlərə tələbatı artırırdı. Yekun nəticədə turizm sahəsinin inkişafı ölkəmizdə ümumi iqtisadi inkişafa, sosial infrastrukturun təkmilləşdirilməsinə, eyni zamanda əhalinin rifahının yüksəldilməsinə və turizmin digər sosial xidmətlərilə bağlı tələbatlarının təmin edilməsinə müsbət təsir göstərirdi.

Bütün bunlar nəticələri çox da gözlətmədi. Ölkəmizə səyahətə gələn turistlərin sayında hər il artım müşahidə olunmağa başlamışdı. Artıq 2008-ci ildə ölkəmizə səfər etmiş turistlərin sayı 1.4 milyon nəfər, 2011-ci ildə isə ilk dəfə olaraq 2 milyon nəfərdən artıq olmuşdu. Azərbaycana səfər etmiş turistlərin ən çox sayı 2019-cu ildə olmuşdur. Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2019-cu ildə Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı 2018-ci illə müqayisədə 323 min və ya 11.4% artaraq, 3.2 milyon nəfərə çatmışdır. Bu da ölkəmiz üçün rekord göstəricidir. Təbii ki, ölkəmizə turist axını turizm sektorunun sürətli inkişafına şərait yaradır və bu sahə getdikcə Azərbaycan iqtisadiyyatının vacib tərkib hisəsinə çevrilirdi.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nin Qısa xülasəsində qeyd olunmuşdur ki, “Son illərin statistik göstəricilərinə görə, turizm Azərbaycanda daim inkişaf edən sektorlardan biri olmuşdur. Belə ki, son 5 ildə Azərbaycanda turizm sektorunda xidmət göstərən sahibkarlıq subyektlərinin və turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında müvafiq olaraq 4,5 və 8,5 faiz1 orta illik sabit artım müşahidə edilmişdir. Hazırda turizm sənayesinin ölkə üzrə ÜDM-də və məşğulluqda birbaşa payı müvafiq olaraq 4,5 və 3,3 faiz təşkil edir”.

Azərbaycanın turist sektorunda qazanılmış nailiyyətlər Beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Ümumdünya rəqabətqabiliyyətlilik hesabatında Azərbaycan 148 ölkə arasında turizm sahəsindəki göstəricilərinə görə 39-cu yeri tutmuşdur. Səyahət və turizm Beynəlxalq Şurasının məlumatına görə isə ölkəmiz 2010 – 2016-cı illərdə turist axınının artım sürətinə görə dünada ilk onluğa daxildir. Bununla yanaşı, ölkəmiz bu illər ərzində 46,1% göstərici ilə inkişaf etməkdə olan ölkələr arasında səyahət və turizmlə bağlı iqtisadiyyatın daha sürətli inkişafına görə birinci yeri tutur və bu sahədə müşahidə olunan müsbət tendensiya hər il davamlı turist axını ilə dəstəklənirdi. Bir sözlə, son on ildə Azərbaycan dünyada inkişaf etmiş turizm ölkələrindən biri kimi tanınır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan ordusunun 2020-ci ildə 44 günlük müharibədə erməni işğalçılarına sarsıdıcı zərbə vuraraq, Vətənimizin dilbər guşəsi olan Qarabağ bölgəsini işğaldan azad etməsi və cənab Prezidentin tapşırığı ilə həmin ərazilərdə artıq intensiv quruculuq və abadlaşdırma işlrinə başlanılması bu bölgələrin ən yaxın zamanlarda abad yaşayış məskəninə və turistlərin ən sevimli məkanlarından birinə çevriləcəyindən xəbər verir. Bu isə ayrıca mövzunun predmetidir.

**Turizm və əqli mülkiyyət.** Müasir turizm sektorunun inkişafını əqli mülkiyyət məhsulları olmadan təsəvvür etmək mümkün deyildir. Turizm bazarına çıxarılan əqli mülkiyyət məhsullarını digər məhsullardan fərqləndirən əsas xüsusiyyəti odur ki, bu məhsulun özü deyil, ona olan hüquqlar qorunur.

Daha doğrusu, təbiətinə görə qeyri-maddi olan əqli mülkiyyətin hüquq sahibinin icazəsi olmadan və istifadəyə görə haqq ödənilmədən ona məxsus hər hansı məhsul bazara çıxarıla bilməz. Buna görə də turizm xidmətləri bazarında sivil münasibətlərin qurulması, dövriyyədə istifadə olunan əqli mülkiyyət məhsullarına müstəsna hüququn müəyyənləşdirilməsi və qanunvericiliklə müəyyən edilmiş qaydada qorunması vacib şərtlərdəndir.

Bununla yanaşı, turizm sahəsində əqli mülkiyyəti səmərəli şəkildə idarə etmək və ondan iş strategiyalarının həyata keçirilməsi üçün istifadə etmək sahibkarlar üçün hər zaman vacib bir problem kimi qarşıda durur. Əqli mülkiyyətin qorunması və səmərəli idarə olunması müəlliflik hüququ obyektlərinin, ixtiraların, əmtəə nişanlarının, sənaye nümunələrinin qorunmasını tələb edir, bu isə hüquq sahibinin əqli mülkiyət hüquqlarının qorunması deməkdir. Təbii ki, əqli mülkiyyətin qorunmasını təmin etmək üçün ilk növbədə əqli mülkiyyət və əqli mülkiyyət hüquqları barədə ən azı minimum biliklərə malik olmaq tələb olunur. Bunun üçün ilk növbədə əqli mülkiyyət anlayışının mahiyyətini anlamaq, əqli mülkiyyət obyektlərini və turizmdə əqli mülkiyyətin qorunması üsullarını bilmək vacib məsələdir.

**Əqli mülkiyyət anlayışı və formaları.** İlk növbədə qeyd etmək lazımdır ki, mülki hüququn subyektləri arasında əqli mülkiyyət nəticələrindən istifadə ilə bağlı hüquqi münasibətlərin qurulmasında digər hüquqlarla yanaşı, əqli yaradıcılığın nəticələrinə olan müstəsna hüquqlar əhəmiyyətli yer tutur.

Bir çox ölkələrin qanunvericilik aktlarında bu hüquqları ifadə etmək üçün adətən ümumiləşmiş formada "əqli mülkiyyət" terminindən istifadə edirlər. Hüquqi ədəbiyyatda əqli mülkiyyət qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda və qaydada vətəndaşın, yaxud hüquqi şəxsin intellektual yaradıcılıq nəticələrinə, yaxud ona bərabər tutulan məhsulların, yerinə yetirilən iş və xidmətlərin növlərinə (əmtəə nişanı, coğrafi göstərici, sənaye nümunəsi və s.) müstəsna hüquqları kimi tanınır.

Əqli mülkiyyət anlayışının məzmunu barədə danışarkən onun mahiyətinin beynəlxalq müqavilələrdə necə izah edildiyini nəzərə almaq lazımdır. Çünki əqli mülkiyyət sahəsi çox genişdir və bu sahədəki münasibətlər milli qanunvericilik aktları ilə yanaşı, beynəlxalq ikitərəli və çoxtərəfli müqavilələrlə tənzimlənir.

Azərbaycan Respublikası əqli mülkiyyət sahəsində beynəlxalq müqavilələrin fəal iştirakçısıdır və beynəlxalq təşkilatlar və dünya ölkələri ilə geniş əməkdaşlıq əlaqələri qurmuşdur. Xüsusən dünyada əqli mülkiyyət sahəsində aparılan işlərin idarə edilməsi və koordinasiyasını həyata keçirən Ümumdünya Əqli Mülkiyyət Təşkilatını (ÜƏMT) ilə sıx əməkdaşlıq edir, 1995-ci ildən həmin Təşkilatın üzvüdür. Ölkəmizin nümayəndələri mütəmadi olaraq ÜƏMT-nın Hökumətlərarası və Daimi Komitələrinin sessiyalarında iştirak edir, müzakirə edilən beynəlxalq sənədlərdə əks olunması üçün ölkəmizin mövqeyinə uyğun təkliflər irəli sürürlər.

Həmin Təşkilatı təsis edən Konvensiyanın 2-ci maddəsinin 8-ci bəndinə əsasən, əqli mülkiyyət aşağıdakılara olan hüquqlara aiddir.

- ədəbi, bədii və elmi əsərlərə;
- ifalara, fonoqramlara və yayım təşkilatlarının verilişlərinə olan hüquqlara;
- insan fəaliyyətinin bütün sahələrində olan ixtiralara;
- elmi kəşflərə;
- əmtəə nişanlarına, xidməti nişanlara, firma adlarına və kommersiya nişanlarına;
- haqsız rəqabətə qarşı müdafiəyə;
- həmçinin ilkin istehsalat, elmi, ədəbi və bədii sahələrdəki intellektual mülkiyyətə olan bütün digər hüquqlara.

Təqdim olunan siyahıdan görünür ki, "əqli mülkiyyət" termini yaradıcılıq fəaliyyətinin nəticələrinə və ona bərabər tutulan obyektlərə olan bütün hüquqları özündə ehtiva edir. Bu isə o deməkdir ki, "əqli mülkiyyət" anlayışı altında ilk növbədə yaradıcılıq fəaliyyətinin nəticələrinə, həmçinin bunlara bərabər tutulan obyektlərə olan istər şəxsi (qeyri-əmlak), istərsə də əmlak xarakterli müstəsna hüquqların məcmusu nəzərdə tutulur.

Əqli mülkiyyət hüquqları ilə qorunan obyektlər iki böyük hissəyə bölünür: müəlliflik hüuqu və əlaqəli hüquqlarla qorunan obyektlər; sənaye mülkiyyəti obyektləri. Lakin qeyd etmək lazımdır ki, "əqli mülkiyyət" anlayışı ilə əhatə olunan ədəbi-bədii, elmi və sənaye mülkiyyətindən başqa, onların qorunmasını təmin edən qanunlarla əhatə olunmayan müəyyən obyektlər də vardır. Bu cür obyektlərin

qorunması üçün xüsusi qanunların qəbul edilməsi lazım gəlir. Buna görə də "əqli mülkiyyət" anlayışına ədəbi-bədii və sənaye mülkiyyətinin birlikdə götürüldüyü dairədən daha böyük və geniş anlayış kimi baxmaq lazımdır.

Əqli mülkiyyət anlayışı ölkəmizin müxtəlif qanunvericilik aktlarında öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsində əksini tapan aşağıdakı müddəanı xüsusi qeyd etmək lazımdır: "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur". Bu müddəa yaradıcılıq müstəqilliyini təmin etməklə təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan obyektiv formada mövcud olan bütün elm, ədəbiyyat və incəsənət əsərlərinin və sənaye mülkiyyəti obyektlərinin qorunmasına hüquqi baza yaradır.

Müasir əqli mülkiyyət hüququnun ən vacib vəzifəsi əqli fəaliyyət nəticələrindən cəmiyyətin maraqları naminə geniş şəkildə istifadəyə şərait yaradılmasıdır. Başqa sözlə, əqli mülkiyyət hüquqlarının qorunma səviyyəsinin yüksəldilməsi o demək deyildir ki, onun obyektlərindən müəyyən məqsədlər üçün, o cümlədən turizm məqsədi ilə istifadəsinə qadağa qoyulsun. Əqli mülkiyyət hüququnun göstərilən vəzifəsi onun əqli fəaaliyyət nəticələrindən sivil qaydalara uyğun olaraq istifadə etməklə həm yaradıcılığı stimullaşdırır, həm də xidmət sahələrində, o cümlədən turizm sektorunda rəqabətqabiliyyətliliyi artırmaqla inkişafa təkan verir.

**Müəliflik hüququ və əlaqəli hüquqların obyektləri.** Azərbaycan Respublikası ərazisində elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunla tənzimlənir.

Həmin Qanunun 5-ci maddəsinin müddəalarına görə, müəlliflik hüququ təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış, obyektiv formada mövcud olan elm, ədəbiyyat və incəsənət əsərlərinə şamil edilir. Müəlliflik hüququnun şamil edildiyi həm açıqlanmış, həm də açıqlanmamış əsərlər yazılı (əlyazması, makina yazısı, not yazısı və s.); şifahi (kütləvi çıxış, kütləvi ifa və s.); səs, yaxud videoyazılma (mexaniki, maqnit, rəqəmli, optik və s.); təsviri (rəsm, eskiz, şəkil, plan, cizgi, kino-, tele-, video-, yaxud fotokadr və s.); həcmli-fəzavi (heykəl, model, maket, tikili və s.) və digər obyektiv formalarda mövcud ola bilər.

Müəlliflik hüququnun obyektlərinin sırası çox genişdir. Buraya ədəbi əsərlər (kitablar, broşüralar, məqalələr, mühazirələr və çıxışlar, kompüter proqramları və s.), dram, musiqili-dram və başqa səhnə əsərləri; audiovizual əsərlər (kino-, tele-, və videofilmlər, slaydfilmlər, diafilmlər və başqa kino və teleəsərlər); memarlıq, şəhərsalma və bağ-park sənəti əsərləri; toplular və s. daxildir. Turizm fəaliyyətinin təşkilində xüsusi önəmi olan kompüter proqramları da bu siyahıya daxildir və ədəbi əsərlər kimi qorunur. Reklam da bu Qanunda nəzərdə tutulan şərtlər hüdudunda müəlliflik hüququnun obyektidir.

Turizm fəaliyyətində əqli mülkyyət hüququnun digər obyektləri – sənaye mülkiyyəti obyektləri də əhəmiyyətli vasitələrdən sayılır. Sənaye mülkiyyəti obyektlərindən əmtəə nişanları və coğrafi göstəricilər də turizm sahəsində çox geniş şəkildə işlənən obyektlərdir və təbii ki, onların qorunmasına böyük ehtiyac vardır. Azərbaycan qanunvericiliyinə görə, "**əmtəə nişanı** — sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır). **Coğrafi göstərici** isə "əmtəənin mənşəyinin dövlət, bölgə, ərazi, yaxud müəyyən ərazidəki yer ilə (coğrafi obyektlə) bağlılığını müəyyənləşdirən, eyni zamanda bu əmtəənin xüsusi keyfiyyətini, şöhrətini və başqa xassələrini əsasən coğrafi mənşə ilə əlaqədar əks etdirən işarədir".

Ümumiyyətlə, əqli mülkiyyət məhsulları insan əqlinin, elm, texnika, ədəbiyyat, sənət sahələrində birbaşa və təcili təzahürüdür. İnsan əməyinin digər məhsulları kimi, əqli fəaliyyətin nəticələri də ticarət dövriyyəsinə daxil edilə, faydalı iqtisadi, sosial və digər səmərə verə, şəxsi və sosial ehtiyaclarını təmin edə bilər. İlkin halda əqli mülkiyyət hüquqlarının sahibi ona məxsus intellektual fəaliyyət məhsullarının istifadəsini və sərəncamını üçüncü şəxslərin köməyi olmadan öz sərəncamçılığı ilə həyata keçirir. Əqli mülkiyyət məhsullarının əksəriyyətinin yaradıcılıq fəaliyyətinin nəticəsi olaraq konkret müəllifləri

tərəfindən yaradıldığına görə əmtəə nişanları və digər obyektlər adi əməyin (malların, xidmətlərin) mövzularını və məhsullarını fərdiləşdirir.

Əqli fəaliyyətin nəticələrini eyni vaxtda istənilən sayda şəxs istifadə edə bilər: hüquq sahibləri, eyni zamanda müvafiq lisenziya əsasında hər hansı bir qurum tərəfindən qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilə bilər.

**Turizmdə əqli mülkiyyətin qorunma formaları.** Müəllif hüququ elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquqi normalar məcmusudur. Müəllifin əmlak xarakterli hüquqları əsərin yaradılması ilə birgə yaranır, müəllifin bütün həyatı boyu və qanunvericilikdə nəzərdə tutulan xüsusi hallar istisna olmaqla, onun ölümündən sonra 70 il müddətində qüvvədə qalır.

Müəllifin əmlak (iqtisadi) hüquqları dedikdə əqli mülkiyyət obyektlərinə olan surətçıxarma hüququ, yaymaq hüququ, kirayə hüququ, idxal hüququ, kütləvi nümayiş hüququ, tərcümə hüququ, yenidən işləmək hüququ və s. hüquqlar nəzərdə tutulur. Bu hüquqların hər biri konkret məzmuna malikdir və hüquq sahibinin sərəncamçılığı əsasında həyata keçirilir. Məsələn, surətçıxarma hüququ əsərin birbaşa və ya dolayısı yolla surətini çıxarmağa, yaymaq hüququ əsərin orijinalını və ya nüsxələrini satış, yaxud mülkiyyət hüququnun başqa cür verilməsi yolu ilə yaymağa, kirayə hüququ əsərin orijinalını və ya nüsxələrini kirayəyə verməyə, **idxal hüququ** əsərin nüsxələrini (o cümlədən müəllifin, yaxud əsərə müstəsna müəlliflik hüquqlarının sahibinin razılığı əsasında istehsal edilmiş nüsxələri) yaymaq məqsədi ilə idxal etməyə, **kütləvi nümayiş hüququ** əsəri kütləvi nümayiş etdirməyə, **tərcümə hüququ** əsəri tərcümə etməyə, **yenidən işləmək hüququ əsəri** dəyişdirmək, aranjeman etmək, yaxud başqa formada yenidən işləmək **və s. hüquqlar başa düşülür.**

Müəllifin əmlak (iqtisadi) hüquqları vərəsəlik qaydasında qanun və ya vəsiyyətnamə üzrə keçir.

Müəllifin şəxsi hüquqlarının qorunması isə müddətsizdir, eyni zamanda bu hüquqlar vərəsəlik üzrə keçmir. Müəllifin şəxsi hüquqları altında aşağıdakılar başa düşülür:

- **müəlliflik hüququ – bu hüquq özündə** əsərin müəllifi kimi tanınmaq hüququnu ehtiva edir**;**
- **ad hüququ** – əsərdən öz adı ilə, təxəllüslə, yaxud adsız (anonim) istifadə etmək və ya bu cür istifadəyə icazə vermək hüququnu bildirir**;**
- **şöhrətinə hörmət edilməsi hüququ** – əsərinin mənasının dəyişilməsinə, təhrif olunmasına və müəllifin şərəf və ləyaqətinə xələl gətirən hər hansı başqa hərəkətlərə qarşı çıxmaq hüququ**;**
- **açıqlama hüququ –** istifadədən götürmək də daxil olmaqla, əsərini istənilən formada açıqlamaq və ya açıqlanmasına icazə vermək hüququ**.**

Nəzərə almaq lazımdır ki, şəxsi hüquqlar bölünməz və özgəninkiləşdirilməz olub, əmlak hüquqlarından asılı olmayaraq, müəllifə məxsusdur və əmlak hüququnun başqasına verildiyi hallarda da müəllifdə qalır.

Müəllifin şəxsi hüquqların qorunmasını onun vərəsələri həyata keçirə bilərlər. Vərəsələrin bu səlahiyyətləri müddətlə məhdudlaşdırılmır. Müəllif vəsiyyətnamənin icrasını təyin etdiyi qaydada şəxsi hüquqlarının qorunmasını həvalə etdiyi şəxsi də göstərə bilər. Belə şəxs öz səlahiyyətlərini ömürlük həyata keçirir.

Müəllifin şəxsi hüquqlarının qorunması haqqında belə göstərişi olmadıqda o, vəfat edəndən sonra şəxsi hüquqlarının qorunmasını onun vərəsələri, yaxud vərəsələri yoxdursa və ya müəlliflik hüququnun qorunma müddəti qurtarmışdırsa, belə hüquqların qorunmasını həyata keçirən Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən yerinə yetirilir.

Azərbaycanın müəllif-hüquq qanunvericiliyinə əsasən, müstəsna müəlliflik hüququnun sahibinin əsərə öz hüquqlarını bildirməsi üçün əsərin hər nüsxəsində göstərilən və üç ünsürdən ibarət müəlliflik hüququnu qoruma nişanından istifadə etmək hüququ vardır:

- dairəyə alınmış **C** latın hərfi-©;
- müstəsna müəlliflik hüquqlarının sahibinin adı (fiziki və hüquqi şəxslər);
- əsərin ilk dəfə dərc edildiyi il.

Əsərin anonim və ya təxəllüslə dərc edildiyi hallarda (müəllifin təxəllüsünü onun şəxsiyyətini şübhə altında qoymadığı hallar istisna olmaqla) əsərdə adı göstərilən naşir, digər sübutlar olmadıqda, bu Qanuna uyğun olaraq müəllifin nümayəndəsi sayılır və bu simada müəllifin hüquqlarını qorumaq və həyata

keçirmək səlahiyyətinə malikdir. Bu müddəa müəllifin öz şəxsiyyətini açıqladığı və müəllifliyini bəyan etdiyi ana qədər qüvvədə qalır.

Sənaye mülkiyyəti obyektləri ilə bağlı məsələlər iki qanunla tənzimlənir. "Patent haqqında" Qanun ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir. Göstərilən Qanunun 3-cü maddəsinə əsasən, "ixtira, faydalı model və sənaye nümunələrinə hüquqlar dövlət tərəfindən qorunur və patentlə təsdiq edilir. Patent, ixtira, faydalı model və sənaye nümunəsinə müəllifliyi və ilkinliyi təsdiq edir və onlardan istifadə etmək üçün müstəsna hüquq verir.

Kommersiya məqsədləri üçün istifadəsi ictimai mənafeyə, humanizm və əxlaqi prinsiplərə zidd olan, insanların, heyvanların həyat və sağlamlıqlarına, bitkilərin mühafizəsinə, ətraf mühitə ciddi ziyan vuran ixtira, faydalı model və sənaye nümunəsi patentlə mühafizə edilmir və onun istifadəsi qadağandır".

Əmtəə nişanları və coğrafi göstəricilərin qeydə qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətlər "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanunla tənzimlənir. Həmin obyektləri hüquqi mühafizəsi bu Qanunla və müəyyənləşdirilmiş qaydalara və nişanların beynəlxalq qeydiyyatına dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə və müqavilələrə uyğun olaraq həyata keçirilir.

**Nəticə.** Əqli mülkiyyət fərdi və ya hüquqi şəxsin İntellektual fəaliyyətin nəticələrinə dair müstəsna hüququdur. Əqli mülkiyyət obyektlərindən istifadə, o cümlədən müəssisə və təşkilatlara daha yüksək xüsusiyyətlərə malik məhsul və xidmətlər istehsal etməyə imkan verir və bununla da rəqabət üstünlüyünü təmin edir. Hər bir əqli mülkiyyət obyekti müvafiq qanunvericiliklərlə tənzimlənir və qorunur, onlara olan hüquqların qorunması isə müəssisələrə öz məhsul və xidmətlərini səmərəli şəkildə təqdim etməyə və satmağa imkan verir. Turizm iqtisadiyyatının inkişafı isə bilavasitə bu sahədə əqli mülkiyyət obyektlərinin qorunma səviyyəsi ilə sıx bağlıdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Kamran İmanov. Əqli mülkiyyət iqtisadi kateqoriya kimi və onun iqtisadi inkişafdakı rolu. Bakı-2016.
2. Natiq İsayev. İntellektual mülkiyyət və onun hüquqi qorunma sistemi. Fakt-info.az
3. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
4. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
5. Xəzər İsalı. Azərbaycanda turizm və turizm iqtisadiyyatı. "İki sahil" qəzeti. 7 yanvar 2021-ci il.
6. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu. 1998.
7. "Patent hüququ haqqında" Azərbaycan Respublikasının Qanunu. 1997.
8. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu. 1996.
9. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu. 1999.


# AZƏRBAYCANDA DEPOZİT VƏ KREDİT BAZARLARININ QARŞILIQLI İNKİŞAF PERSPEKTİVLƏRİ


**İsmayilova Nərmin Xamis qızı**
***Azərbaycan Universitetinin magistrantı***
***i.ü.f.d. Təhminə Əliyeva***
**ismylva.narminn@gmail.com**



**Açar sözlər:** Kredit Bazarı, Depozit Bazarı, Borcalan, Likvidlik
**Ключевые слова:** Кредитный рынок, Депозитный рынок, Заемщик, Ликвидность
**Key Words:** Credit Market, Deposit Market, Borrower, Liquidity

Azərbaycan Respublikası maliyyə bazarının formalaşması və maliyyə institutları bir-biri ilə sıx əlaqədədir. Və pul və qiymətli kağızların tədarükü üçün onun inkişafı prosesi daim davam edir.

Ümumi olaraq deyə bilərik ki, maliyyə bazarında kapitalın axını, kreditlərin verilməsi, vəsaitlərin istehsal prosesində yerləşdirilməsi və ötürülmə əməliyyatlarının həyata keçirilməsi mövcuddur. Xarici ölkələrin təcrübəsində ölkələrarası borc verənlərin və borcalanların kapitalına tələb və təklifin məcmusu dünya maliyyə bazarınının əsas hissəsini təşkil edir. Maliyyə bazarına aşağıdakıları qeyd edək: kredit kapitalı bazarı (pul bazarı, kredit bazarı), qiymətli kağızlar bazarı, valyuta bazarı, qiymətli metal bazarı, sığorta və təkrarsığorta bazarı.

Kredit bazarı ümumilikdə maliyyə bazarının seqmentləri arasında əsas yer tutur. Qeyd edək ki, maliyyə bazarı pul vəsaitlərinin hərəkətinin idarə və təşkilində əsas yer tutmaqla yanaşı alqı-satqı münasibətlərinin məcmusunu da öz əlində cəmləşdirir. O dövlətin, həmçinin müəssisələrin hansıki onlar müxtəlif təşkilati və hüquqi formaya malikdirlər onların fəaliyyəti ilə əlaqədar inkişafda olur. Maliyyə bazarında maliyyə resursları əsasən əmtəə kimi çıxış edir. Daha düzgün desək bu bazarda kredit resurslarının alqı-satqısı prosesi baş verir. Maliyyə ehtiyatlarının bölgü prosesi maliyyə bazarının yaranmasının zəruri edən əsas amilərindən biridir. Tarix boyunca sərbəst pul vəsaiti bazar iqtisadiyyatı şəraitində yaranır və eyni zamanda, orada sərbəst pula ehtiyac duyan, onu borc kimi götürüb istifadə etməkdə maraqlı olan tərəf yəni bazar subyektləti iştirak edir. O səbəbdən müvəqqqəti sərbəst pul vəsaitinin borc kapitalı bazarına daxil olması, kredit-maliyyə orqanlarının əlinə keçməsi və ehtiyacı olan sahələrə xərclənməsi vacibdir. Aydındır ki, müvəqəti sərbəst pul vəsaiti sahib üçün gəliri gətirir və buna görə də sərbəst pulları müəyyən mərkəzlərdə toplayır, borc kapitalı formasını alır və öz hərəkət istiqamətini müəyyən edir. Borc kapitalının hərəkət forması isə kreditdir.

Əgər maliyyə bazarları olmasaydı borcalanlar və kreditorlar bazarda bir-biri ilə görüşməkdə çətinlik çəkəcəkdilər. Bank formasında vasitəçilər kontragentlərə bu prosesdə köməkçi olurlar. Banklar pulu əmanətə götürərək depozit prosesinin başlanğıcını qoyurlar. Sonralar onların deponentləşdirilmiş vəsaitlər fonduna toplanmış pul vəsaitləri ehtiyacı olanlara kredit şəklində verilir. Kommersiya banklarının kredit vermək üçün əsas missiyası fiziki ve hüquqi şəxslərin vəsaitlərini cəlb etmək və bununla da öz maliyyə resurslarını təmin etməkdir. Deməli, kredit bazarının həm əlaqədə olduğu həm də əks tərəfi depozit bazarıdır. Banklar bank əməliyyatları(depozit) müqaviləsini vəsaitləri cəlb etmək üçün müştəriləri ilə bağlayırlar. Bank əmanəti müqaviləsi götürülmüş əmanətin müştərinin ilk tələb üzrə verilməsi şərti ilə və ya əmanətin müqavilədə göstərilmiş müddət qurtardıqdan sonra bağlanılır. Ümumilikdə desək kredit sistemi şəxslərdən depozitləri cəlb edir və daha sonra onları həmin fərdlər arasında bölüşdürür. Və iştirak edən qrup kreditorlar və borclular olaraq ayrılır. Bu sistemi ən vacib edən şərtlərindən biri əməliyyatın davamlı şəkildə baş tutmasıdır.

Belə bir sual ortaya çıxır ki, niyə banklar uzunmüddətli kredit verməyə istəkli olsunlar? Ənənəvi ədəbiyyatlar sözügedən məsələ ilə bağlı borcalan kredit riskinin borc müddətinə necə təsir etdiyinə diqqət yetirmiş ancaq uzunmüddətli borc vermə ilə əlaqəli digər bir riski - borc verənin maliyyə riskini gözardı etmişdirlər. Çünki, biznes kreditləri likvid olmadığına görə, borc müddəti ərzində onlar yaradıcının balansında saxlanılmalıdır. Beləliklə, mənfəətdəki azalmalar (dövrü tənəzzüllər zamanı) və ya maliyyələşdirmə xərclərindəki artımlar (yüksəlişlər zamanı) uzunmüddətli dövr üçün kredit verənin yeni, gəlirli kreditlər vermək qabiliyyətini məhdudlaşdıra bilər.

Depozit bazarının gücünün bankların maliyyə sabitliyini artırdığını və bununla da uzunmüddətli və qısamüddətli kredit vermə imkanın yəni, kredit və depozit bazarının bir birini necə dəstəklədiyini aydın şəkildə görmək olur. Depozit bazarının gücünə daha çox sahib olan banklar, digər banklara nisbətən daha uzun müddətli borc verir və daha az ödəmə haqqı alır. Bank kreditinin daha çox mövcudluğu, xüsusilə uzunmüddətli borca ehtiyacı olan firmalar üçün sənayenin daha sürətli böyüməsinə gətirib çıxarır. Nəticə olaraq, depozit bazarının gücünün kredit təklifini artırmağa kömək etdiyi göstərilir. Onu da qeyd edək ki, depozit bazarının bankın maliyyələşdirmə sabitliyinin qorunmasına kömək etdiyi sübut olunmuşdur.

Nəinki dünya təcrübəsində həmçinin Azərbaycan maliyyə bazarında banklar öz aktiv və passivlərini balansda saxlayaraq depozit və kredit təchizatı arasında əlaqənin düzgün qurulması, depozit və mövcud daxili fondların xərclərinin azaldılması ilə likvid olmayan fərdi və biznes kreditlərinin maliyyələşməsini bazarındakı stabilliyini təmin edə, həmçinin bankın likvidlik göstəricisini daim nəzarətdə saxlaya bilərlər.

Belə bir stabilliyin təmin olunması gələcəkdə uzunmüddətli kreditlərin verilməsindəki gəlirvermə qabilliyəti məhdudiyyəti riskini aşağı salır.

## HEYDƏR ƏLİYEVİN DÖVLƏT SİYASƏTİ: SOSİAL-İQTİSADİ İNKİŞAF MODELİ

**İsmayilova Nərmin**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Elmi rəhbər: Sevda Abbasova İ.q*
narminismayilzad@gmail.com

**Açar sözlər:** siyasət, sosial, iqtisadi, inkişaf, diversifikasiya, iqtisadi strategiya.
**Ключевые слова:** политика, социальное, экономическое, развитие, диверсификация, экономическая стратегия.
**Key words:** politics, social, economic, development, diversification, economic strategy.

Ümummilli lider Heydər Əliyevin dövlət strategiyasının özəyini təşkil edən sosial-iqtisadi inkişaf modeli milli diskussiya məkanında aktuallığına görə prioritet mövzulardan biri hesab olunur. Onun uzaqgörən iqtisadi siyasəti cəmiyyətin təkamülünə, həmçinin ölkənin milli təsərrüfatının fundamental dərəcədə diversifikasiyasına səbəb olmuşdur.

Heydər Əliyev respublika rəhbərliyinin ilk illərində (1969-1982-ci illər) əhatəli inkişaf konsepsiyası vasitəsi ilə milli iqtisadiyyatın dirçəlməsi baxımından yeni çoxşaxəli fəaliyyətin əsasını qoymuşdur. Məhz bu dövrdə uzunmüddətli perspektiv strategiya vasitəsi ilə kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılmasına böyük önəm verildi. Hətta Lənkəran zonasında faraş tərəvəz məhsullarının yetişdirilməsi nəticəsində, bu bölgə "Ümumittifaq bostanı" adını almışdı. Bundan başqa, 1970-ci illərdə ölkədə heyvandarlığın inkişaf etdirilməsi üçün bütün imkanların olduğu nəzərə alınaraq bu sahədə də müəyyən addımlar atıldı. 1976-cı il tarixində Azərbaycan KP Mərkəzi Komitəsi və respublika Nazirlər Soveti 1976-1980-ci illərdə dövlət və təsərrüfatlararası heyvandarlıq kompleksləri və quşçuluq fabriklərinin tikilməsi haqqında qərar qəbul etmişdi. Bununla yanaşı, Heydər Əliyevin fəaliyyətinin ilk illərində neft və qaz sənaye sahələrinin inkişafı da diqqət mərkəzində olmuşdur. 1976-cı il 25 dekabr tarixində Azərbaycanda ən iri neftayırma qurğusu (ELOY-AVT) işə salındı. Həmçinin, digər sahələrdə də bir sıra tədbirlər həyata keçirildi. 70-ci illərdə Cənubi Qafqazda ən iri poladtökmə zavodu tikildi və istifadəyə verildi.

Heydər Əliyevin təşəbbüsü ilə dənizin 200 metr dərinliyində 6 min metrlik quyu qazmağa qabil olan "Şelf-2" qurğusu istismara verildi. Neft hasilatının artırılması məqsədi ilə Bahar, Muradxanlı və Bulla-dəniz sahələrinin səmərəli istismarına dair qərarlar qəbul edilmiş və uğurla həyata keçirilmişdir. 1971-ci il tarixində Naxçıvan MSSR-də Araz, 70-ci illərin ortalarında Tərtər, 1981-1984-cü illərdə Şəmkir su-elektrik stansiyaları istifadəyə verildi. 1971-ci il tarixində yerli rezidentlərin içməli su təminatının yaxşılaşdırılması məqsədi ilə Kür su kəməri istifadəyə verilmiş, bununla da Kür suyu Bakıya gətirilmişdir. 1982-ci ildə Sabirabadda iri su təchizatı kompleksi istifadəyə verildi. 1982-ci il tarixində Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin açılması Azərbaycanda hərbi sahədə kadr hazırlığına və professional hərbi təhsilin əsaslarının möhkəmləndirilməsinə güclü təkan verdi. 1985-ci ildə Bakı - Aktau bərə yolunun açılması Azərbaycan və Qazaxıstan arasında iqtisadi-siyasi əlaqələrin tərəqqisinə zəmin yaratmışdır.

Bundan əlavə uğurlu siyasətçi, qətiyyətli liderin Azərbaycana ikinci rəhbərliyi dövründə (1993-1998-ci illər) vergi və sahibkarlığın uzunmüddətli təşəkkülünün təşkili üçün bir sıra islahatlar həyata keçirildi. Aydın məsələdir ki, qeyri-neft sektorunun təşəkkülündə sahibkarlığın rolu əvəzedilməzdir. Təsadüfi deyil ki, dövlətin yeni iqtisadi strategiyasının başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli inkişaf etdirilməsi, onun genişləndirilməsi üçün bu sahədə müxtəlif dəstək və təşviq mexanizmlərinin tətbiq edilməsidir. Bu dövrdə 1993-cü il tarixində "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı qəbul edilmişdir. Bu proqram Azərbaycanda kiçik və orta sahibkarlarının sayının artmasına, xarici ölkələrlə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərmişdir. 1995-ci ildə "Aqrar islahatın

əsasları haqqında” qanunun qəbulu ölkədə aqrar sahənin fəaliyyət imkanlarının geniş vüsət almasına şərait yaratdı.[1.səh-90]

Heydər Əliyevin müdrik siyasəti nəticəsində 1994-cü il sentyabrın 20-si tarixində “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq”yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi” haqqında dünyanın 11 iri neft şirkəti ilə birgə “Əsrin müqaviləsi” bağlanmışdır. Yeni neft strategiyası ölkəyə xarici investisiya qoyuluşunun artımı və Azərbaycan neftinin qlobal miqyasda tanınması prosesində mühüm rola malikdir. Ümumiyyətlə, 90-ci illər neft və qaz sənaye sahələrinin dərin proqresi dövrü kimi tanındı. 1996-cı il tarixində “Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında” Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ölkələrarası saziş imzalandı. Bu konvensiya Azərbaycan və Rusiya arasında dövlətlərarası əməkdaşlığın təşəkkülünə səbəb oldu. Neftin Qara dənizə çıxarılması üçün 1997-ci ildə Azərbaycan və Gürcüstan arasında Bakı-Tbilisi-Supsa sazişi imzalanmışdır.

Qeyd etmək lazımdır ki, bu dövrdə iqtisadiyyatın neft sektoru ilə bərabər, qeyri-neft sahələrinin də davamlı inkişafına nail olunmuşdur. 1997-ci ildə iqtisadi artımı sürətləndirmək, milli rezidentlərin rifahını yüksəltmək, qarşılıqlı ticarət münasibətlərini təkmilləşdirmək məqsədi ilə Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova ölkələrinin rəhbərliyi ilə “GUAM” təşkilatının əsası qoyuldu. Milli iqtisadiyyatda sabit valyuta siyasətinin təmini məqsədi ilə 1994-cü ilin əvvəllərindən Respublika ərazisində manat yeganə ödəniş vasitəsi elan edildi. 1994-cü ildə qəbul olunan “Xarici ticarətin sərbəstləşdirilməsi” haqqında fərman ölkənin dünya iqtisadiyyatı sisteminə inteqrasiyasına və beynəlxalq ticarətin yüksəlişinə zəmin yaratdı. Bununla birgə 1994-cü il iyul ayında “Əhalinin sosial müdafiəsi haqqında” qanunun qəbul edilməsi sosial cəhətdən həssas əhalinin maddi təminatının və həyat səviyyəsinin yaxşılaşdırılmasına şərait yaratdı. 1996-ci il tarixində Aqrar kredit kassalarının yaradılması da milli iqtisadi dirçəlişin başlanmasına səbəb oldu.

Ümummilli liderin Respublikaya üçüncü rəhbərliyi dövründə (1998-2003-cü illər) xarici siyasətdə başqa ölkələrlə iqtisadi əlaqələrin yaranmasına və möhkəmləndirilməsinə daha böyük diqqət yetirildi. 1999-cu il tarixində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan prezidentləri tərəfindən “Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Kəməri”nin çəkilişi haqqında dövlətlərarası konvensiya imzalandı. 2000-ci illərdə “Qurtuluş” müasir qazma qurğusunun və 2003-cü il tarixində “Lider” yarımdalma dəniz qazma qurğusunun işə salınması neft istehsalının artımına zəmin yaratdı. Bundan başqa Ümummilli liderin rəhbərliyi ilə respublikanın qlobal aləmdə özünü ifadə performanslarının genişləndirilməsi üçün bir sıra regional və beynəlxalq təşkilatlarla intensiv iqtisadi-siyasi əlaqələr qurulmuşdur. Dövlətin davamlı iqtisadi artım tempinin təməli sayılan Heydər Əliyevin sosial-iqtisadi inkişaf siyasəti Azərbaycan iqtisadiyyatı elminə əhəmiyyətli töhfələr vermişdir. [2.səh-472]

Heydər Əliyev irsi və böyük şəxsiyyətin fəaliyyət devizinin öyrədilməsi gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi və onların dünya görüşlərinin effektiv inkişafı üçün vacib rol oyranır. Nəticə etibarilə məlum olur ki, Heydər Əliyevin gərgin əməyi müstəqil Azərbaycan Respublikasının modern dünyaya fəal adaptasiyasına, iqtisadi qüdrətin təkmilləşdirilməsinə səbəb oldu. Həmçinin Ümummilli liderin əzmkarlığı sayəsində respublikanın dayanıqlı inkişafına nail olundu və dünya ölkələri ilə prioritet sahələr üzrə əməkdaşlıq aparıldı. Bir sözlə, böyük lider Heydər Əliyevin iqtisadi-siyasi fəaliyyəti Azərbaycan xalqının rəmzinə, onun həyat yolu isə doğma Vətənə sədaqət və məhəbbətin nümunəsinə çevrilib.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Bakı Dövlət Universiteti. Azərbaycan iqtisadiyyatı fənnindən bakalavr hazırlığı üçün metodik vəsait “iqtisadiyyat” ixtisası üzrə. Bakı-2015, 90 səh.,
2. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı-2004, 472 səh.

# TAXTAKÖRPÜ SU ANBARI AKVATORİYASININ MÜASİR GEOEKOLOJİ PROBLEMLƏRİ

**İsmayılova Zenfira**
***BDU – nun I kurs magistrantı***
***Elmi rəhbər: Əmiraslanov Sadiq***
***zema.ismailova99@mail.ru***

## XÜLASƏ

"TAXTAKÖRPÜ SU ANBARI AKVATORIYASININ MÜASIR GEOEKOLOJI PROBLEMLƏRI" mövzusunda yazılmış məqalə müvafiq ədəbiyyat araşdırılaraq, məqalə yazım qaydalarına uyğun şəkildə tərtib edilmişdir.

Məqalənin əsas məqsədi taxtakörpü su anbarı barədə ətraflı məlumat verib, yaranmış geoekolji problemləri vurğulamaq və bu xüsusda yaranmış problemlərin aradan qaldırılmasını tezləşdirə biləcək təklifləri irəli sürməkdən ibarətdir.

**Açar sözlər:** ekzogen, geoekeolji problemlər, geologiya.

## SUMMARY

The article on "MODERN GEOECOLOGICAL PROBLEMS OF TAXTAKORPU WATER RESERVOIR" was researched in the relevant literature and compiled in accordance with the rules of article writing.

The main purpose of the article is to provide detailed information about the Takhtakorpu reservoir, highlight the geo-ecological problems and make suggestions that can accelerate the elimination of problems in this area.

**Keywords:** Takhtakopru reservoir, geoecological problems, geology.

## РЕЗЮМЕ

Статья «СОВРЕМЕННЫЕ ГЕОЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ТАКСАКОРПУСКОГО ВОДОХРАНИТЕЛЯ» исследована в соответствующей литературе и составлена в соответствии с правилами написания статьи.

Основная цель статьи - предоставить подробную информацию о Тахтакорпуском водохранилище, выделить геоэкологические проблемы и внести предложения, которые могут ускорить устранение проблем в этой области.

**Ключевые слова**: Тахтакопровское водохранилище, геоэкологические проблемы, геология.

Taxtakörpü su anbarının inşasına 2007-ci ildə başlanmışdır. "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sifarişçisi olduğu həmin layihəni "Azərkörpü" – indi Avropa-Asiya İnşaat Korporasiyası "Evrascon" Açıq Səhmdar Cəmiyyəti adlanan iqtisadi qurumun rəhbərlik etdiyi konsorsium həyata keçirmişdir. Taxtakörpü su anbarına suyun verilməsinə başlanması münasibətilə rəsmi mərasim 2013-cü il iyulun 19-da keçirilmişdir. Samur çayından götürülən su öz axarı ilə Vəlvələçay-Taxtakörpü kanalı ilə Taxtakörpü su anbarına ötürülür.

Taxtakörpü su anbarının sahəsi 8,71 kvadrat kilometrdir. Bu qurğunun ümumi su tutumu isə 270 milyon kubmetrdir. Gölün faydalı su həcmi 238,4 milyon kubmetrdir. Gil nüvəli torpaq bənd olan bu hidrotexniki qurğunun dibdən eni 754, hündürlüyü 142,5 metrdir. Taxtakörpü su anbarı Azərbaycanın ən hündür torpaq bəndli su anbarıdır. Bu da, nəinki regionda, o cümlədən Avropada ən hündür torpaq bəndlərdən biridir. Buradakı qəza sutullayıcının uzunluğu 891, suqəbuledici qurğunun uzunluğu 43,6, enerji tunelinin uzunluğu isə 543 metrdir. Qapı şaxtası 56 metr dərinlikdədir. Burada müasir işıqlandırma sistemi quraşdırılmış, ərazidəki yollara asfalt döşənmişdir. Bakı-Rusiya Federasiyası dövlət sərhədi magistral avtomobil yolundan Taxtakörpü su anbarına ayrılan yol boyunca, həmçinin bütün ərazidə böyük

həcmdə abadlıq və yaşıllaşdırma işləri həyata keçirilmişdir. Təkcə Taxtakörpü su anbarının bəndinin gövdəsində 23 milyon kubmetrdən çox torpaq işi görülmüşdür.

Samur-Abşeron suvarma sistemi üzrə nəzərdə tutulan digər tədbirlərin də reallaşdırılması nəticəsində şimal bölgəsi rayonlarında 150 min hektara qədər torpaq sahəsinin su təminatı yaxşılaşdırılacaq və 31 min hektar sahədə yeni suvarılan torpaqlar istismara veriləcəkdir. Bu layihə respublikanın şimal zonasında ekoloji tarazlığın təmin edilməsinə də böyük töhfədir. Bütövlükdə Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi 14 il ərzində dörd mərhələdə reallaşdırılacaqdır.



**Şəkil 1.** Taxtakörpü su anbarı geoloji xəritəsi

Ən müasir standartlara cavab verən su elektrik stansiyasında ümumi gücü 25 meqavat olan üç hidroaqreqat quraşdırılmışdır. Stansiyada sərfiyyata nəzarət hovuzu yaradılmışdır. Buraya su xüsusi ötürücü vasitəsilə verilir. Hovuzdakı dörd qapıdan üçü elektrik enerjisinin alınması məqsədilə suyun turbinlərə verilməsinə xidmət edir. Həmin hovuzdan dəryaçaya sutullayıcı inşa edilmişdir. Taxtakörpü-Ceyranbatan kanalında gələcəkdə təmir aparılmasına ehtiyac olarsa və ya digər zəruri hallar yaranarsa, hovuzdakı normadan artıq su sutullayıcı vasitəsilə dəryaçaya yönəldiləcəkdir. Su elektrik stansiyası və açıq paylayıcı qurğuda əsasən Almaniya, Çexiya və digər xarici ölkələrdən gətirilən avadanlıq quraşdırılmışdır. Tikinti-quraşdırma işlərini əsasən yerli mütəxəssislər yerinə yetirmişlər. Bu prosesin reallaşmasına Almaniya, Çexiya və Türkiyədən dəvət olunan mütəxəssis və quraşdırıcılar da cəlb edilmişlər. Stansiyanın generasiya zalının sahəsi 923 kvadratmetrdir. Dispetçer otağında son elmi-texniki yeniliklərə əsaslanan avadanlıq quraşdırılmışdır. Stansiyanın daxili sərfiyyatı xüsusi otaqdan qidalanacaqdır. Qapalı paylayıcı qurğu, qəza dizel generatoru, digər qurğu və avadanlıq da inkişaf etmiş ölkələrin energetika obyektlərindəki standartlara uyğundur. 110 kilovoltluq açıq paylayıcı qurğu da mükəmməlliyi ilə seçilir. Burada Almaniyanın "Siemens" şirkətinin avadanlığı quraşdırılmışdır. Üç transformator, ifrat gərginlik boşaldıcısı, gərginlik və cərəyan transformatorları, eleqaz açarları, şin ayırıcıları, 110 kilovoltluq şinlərarası eleqaz açarı ən müasir avadanlıqdır. Açıq paylayıcı qurğudan elektrik enerjisi 110 kilovoltluq hava xətləri vasitəsilə 110 kilovoltluq 1-ci Xaçmaz hava xəttinə və 110 kilovoltluq 4-cü Siyəzən hava xəttinə ötürülür.

Tektonik cəhətdən Qusar-Dəvəçi meqazonasında yerləşən tədqiqat sahəsinin geoloji quruluşunda Dördüncü dövr sisteminin dəniz mənşəli Eopleystosen, Neogen sisteminin Alt Pliosen, Paleogen və Neogen sistemlərinin Oliqosen və Alt Miosen, maykop seriyasının süxur kompleksi yayılmışdır. Bu süxur kompleksi litoloji tərkibcə qumların, qumdaşlarının, gillərin, konqlomeratların növbələşməsindən ibarətdir.

Tədqiqat ərazisində köklü süxurlar Dördüncü dövr sisteminin Holosen yaşlı elüvial-delüvial və antropogen mənşəli gilcələr, qumcalar, tikinti tullantıları qarışığı olan gillər ilə örtülmüşdür.

Su anbarlarının sahil yamaclarının uçması və sürüşməsi əksər hallarda su səviyyəsinin sürətlə dəyişməsi ilə əlaqədar baş verir. Belə ki, daşqın su səviyyəsinədək doldurulmuş həcm sürətlə boşaldılarkən, islanma zamanı fiziki-mexaniki xassə göstəriciləri pisləşmiş qrunt ağırlıq qüvvəsinin təsiri altında su anbarının mərkəzinə doğru hərəkətə başlayır. Çünki həmin qüvvələrə əks təsir göstərən (yamacın sürüşməsinə qarşı) müqavimət qüvvələr azalmış və əvvəlki səviyyədə suyun yaratdığı əks təsir qüvvəsi götürülmüş, yəni təbii-tarazlıq şərti pozulmuş olur. Bu proses sahillərin yenidən işlənməsi adlanır. O, cümlədən Taxtakörpü su anbarının sahil yamaclarında bu proseslər özunu göstərir. Sürüşmə hadisəsi su

anbarının çıxış tunelində və qəza sutullayıcısında baş vermədiyi üçün su anbarı üçün ciddi təhlükə yaranmamışdır.

Su anbarına və İqamətgaha asfalt örtüklü avtomobil yolu çəkilmişdir. Bu yol ərazinin relyefindən asılı olaraq yamacların kəsilməsi, dərələrin tökmə qrunt ilə doldurulması ilə inşa edilmişdir. İqamətgahın həyətyanı sahəsində bağ və yaşıllıqlar salınmışdır. Bu agacların, yaşıllıqların suvarılması üçün su anbarının suyundan istifadə olunur. Belə ki, uzunmüddətli və intensiv suvarma nəticəsindən ərazidə örtük süxurların (gilcələr, qumcalar, qumlar və s.) nəmliyi kəskin dəyişir.

Bunun səbəbindən İqamətgaha giriş avtomobil yolunun sağ tərəfində İqamətgahdan 35-40 m aralıda şimal-şərqdə, və 180-195 m mütləq yüksəklikdə sürüşmə prosesləri baş vermişdir. Sürüşmə sahəsinin eni 65-70 m, uzunluğu 55-65 m, qırılma qaşının hündürlüyü 0.5-1.8 m-dir. Sürüşmə kütləsinin dil hissəsində süni formalaşmış yeraltı suların pazlaşması müşahidə olunur. Hətta bu proses uzunmuddətli olduğundan sürüşmə kütləsi üzərində su bitkiləri də inkişaf etmişdir. Sürüşmənin qaş hissəsində, İqamətgahın asfalt ortüyündə oturmalar baş vermişdir. Bu sürüşmədən 70 m cənub-şərqdə mövcud sürüşmə sahəsinin eni 70-75 m, uzunluğu 40-45 m, qırılma qaşının hündürlüyü 0.5-0.8 m arasında dəyişir. Bu sürüşmə kütlələri prosesin aktiv fazasında İqamətgaha və su anbarına gedən avtomobil yoluna və yolun kənarında suaparıcı kanala tökülür. Sürüşmənin dil hissəsində bərkitmə məqsədilə beton divar tikilmişdir. Lakin axma tipli olan sürüşmə kütləsi bu beton divardan keçib yola tökülür.

**Nəticə**

Taxatkörpü su anbarının geoekoloji problemlərinin aradan qaldırılması üçün aşağıda sıralanmış təkliflər irəli sürülmüşdür:

1. Qonaq evi ətrafında yerləşmiş meyvə ağaclarının və yaşıllıqların suvarılma rejimləri, su tələbatı nəzərə alınmaqla nəzarətdə saxlamalı, damcı suvarma üsuluna üstünlük verilməli;
2. Sürüşmə prosesinin ehtimal proqnozunu, süxurların fiziki-mexaniki xüsusiyətləri nəzərə alınmaqla Qonaq evinin ətrafında xüsusi mühəndisi bərkidilmə işlərinin aparılması;
3. Yeni inşa edilmiş Taxtakörpü-Ceyranbatan su kanalının keçdiyi ərazinin mühəndisi-geoloji şəraitinin qiymətləndirilməsi və süxurların fiziki-mexaniki xassələrini nəzərə alaraq baş vermiş EGP-nin inkişafının proqnozlaşdırılması;
4. Su anbarı akvatoriyasının tektonikası, geomorfologiyası, layların yatım elementləri, süxurların litoloji tərkibini və digər geoloji elementləri özündə əks etdirən (1:5000 və daha böyük miqyasında) geoloji xəritəsinin hazırlanması;
5. Taxtakörpü su anbarının sağ sahili boyu yamac bərkidilmə işlərinin davam etdirilməsi məqsədəuyğundur;

## ƏDƏBİYYAT SİYAHISI :


1. Инженерно-геологическая карта Азербайджана. М.1:500.000, Москва, 1991 г.
2. F.Ş.Əliyev. Azərbaycan Respublikasında Ekzogen geoloji proseslər, onların öyrənilməsi metodu və proqnozu prinsipləri. Bakı, 2002 il
3. Геология Азербайджана: Том IV. Тектоника. Баку, 2005 г.
4. Геология Азербайджана: Том I. Стратиграфия. Часть вторая. Мезозой и Кайнозой. Второе издание. Баку, 2007 г.
5. Геология Азербайджана: Том VIII. Гидрогеология и Инженерная Геология. Баку, 2008 г.
6. Azərbaycan Respublikasının Geoloji Xəritəsi. M. 1:500.000, Bakı, 2008 il.
7. F.Ş. Məmmədov, A.S.Şahsuvarov və başqaları; "Taxtakörpü su anbarının Su Elektrik Stansiyası ilə birgə tikintisi" sahəsində yerinə yetirilmiş mühəndisi-geotexniki tədqiqatların nəticələrinə dair hesabat; Bakı "Qrunt GEO Ltd şirkəti" arxivi, 2007
8. N.A.Musayev, Mahmudov K.S. və başqaları; "Taxtakörpü-Ceyranbatan su kanalı boyu aparılmış mühəndisi-geoloji tədqiqatların nəticələrinə dair hesabat; Bakı, "Qrunt GEO Ltd şirkəti" arxivi, 2011 il
9. F.Ş. Məmmədov, N.A.Musayev və başqaları; “2019-2020-ci illərdə Taxtakörpü SES ətrafında sürüşmə sahələrinin tədqiqi və öyrənilməsi işlərinin nəticələri haqqında hesabat” Bakı, "Qrunt GEO Ltd şirkəti" 2019-cu il

# РИСКИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ И КОМПЬЮТЕРНЫЕ ВИРУСЫ

**İsmayilov İslam**
***Научный руководитель: Gülməmmədov Rüfət***
***Азербайджанский Государственный Экономический Университет, Магистрант***
***vip.islam959@mail.ru***

Благодаря широкому распространению постоянно действующих высокоскоростных соединений Интернет стал мощным инструментом для улучшения инноваций и повышения производительности. Однако растущая зависимость от Интернета и других сетей связи означает, что Интернет также стал популярным и эффективным способом распространения компьютерных вирусов и других типов вредоносного программного обеспечения (вредоносных программ).

«Вирусы», «черви» и «зомби» могут звучать как научная фантастика, но на самом деле это реальность, представленная распространением вредоносных программ. Сила и угроза вредоносного ПО заключается в том, что оно может проникать, манипулировать или повреждать отдельные компьютеры, а также целые электронные информационные сети, при этом пользователи не подозревают, что что-то не так. Все это привело электронный мир к важному этапу.

Атаки вредоносного ПО становятся все более частыми и изощренными, что создает серьезную угрозу для экономики Интернета и национальной безопасности. В то же время усилия по борьбе с вредоносными программами не в состоянии справиться с этой растущей глобальной угрозой; Действия по реагированию на вредоносные программы и их смягчению по существу фрагментированы, локальны и в основном являются реактивными.

Широкий круг сообществ и субъектов - от политиков до интернет-провайдеров и конечных пользователей - все играют свою роль в борьбе с вредоносными программами. Но все еще существует ограниченное знание, понимание, организация и разграничение ролей и обязанностей каждого из этих субъектов. Улучшения могут быть достигнуты во многих областях, и международное сотрудничество принесет большую пользу в таких областях, как: превентивная профилактика (образование, руководящие принципы и стандарты, исследования и разработки); улучшенная правовая база; усиление правоохранительной деятельности; усовершенствованные методы технологической индустрии; и лучшее согласование экономических стимулов с общественными выгодами.

Три основные цели: информировать разработчиков политики о вредоносных программах - их росте, развитии и мерах по борьбе с ними; представить новое исследование экономических стимулов, влияющих на решения в области кибербезопасности; а также внести конкретные предложения о том, как международное сообщество может лучше работать вместе для решения этой проблемы. Национальная безопасность или национальная защита - это безопасность и защита национального государства, включая его граждан, экономику и институты, что считается обязанностью правительства.

Первоначально задуманная как защита от военного нападения, национальная безопасность в настоящее время широко понимается как включающая невоенные измерения, в том числе защиту от терроризма, минимизацию преступности, экономическую безопасность, энергетическую безопасность, экологическую безопасность, продовольственную безопасность, кибербезопасность и т. Д. К рискам национальной безопасности, помимо действий других национальных государств, относятся действия насильственных негосударственных субъектов, наркотических картелей и многонациональных корпораций, а также последствия стихийных бедствий.

Правительства полагаются на целый ряд мер, включая политическую, экономическую и военную мощь, а также дипломатию, для обеспечения безопасности национального государства. Они также могут способствовать созданию условий безопасности на региональном и международном уровнях путем уменьшения транснациональных причин отсутствия безопасности, таких как изменение климата, экономическое неравенство, политическое отчуждение и распространение ядерного оружия.

# ВЛИЯНИЕ МЕТЕОРОЛОГИЧЕСКИХ ФАКТОРОВ НА НАВОДНЕНИЯ

**İsmayilov İslam**
***Научный руководитель: Gülməmmədov Rüfət***
***Азербайджанский Государственный Экономический Университет, Магистрант***
**vip.islam959@mail.ru**

## РЕЗЮМЕ

Наводнения - природное явление, развивающееся в зависимости от климатических условий регионов, метеорологических факторов, рельефа местности, особенностей строения поверхности. Однако влияние человеческой деятельности на наводнения - неоспоримый факт. Рост количества и силы наводнений в глобальном масштабе в последние годы усилился, в основном из-за изменения климата. В статье исследуются наводнения, вызванные метеорологическими факторами.

**Ключевые слова**: наводнение, метеорологические факторы, ветер, влажность, давление, почва.

Благодаря широкому распространению постоянно действующих высокоскоростных соединений Интернет стал мощным инструментом для улучшения инноваций и повышения производительности. Однако растущая зависимость от Интернета и других сетей связи означает, что Интернет также стал популярным и эффективным способом распространения компьютерных вирусов и других типов вредоносного программного обеспечения (вредоносных программ).

«Вирусы», «черви» и «зомби» могут звучать как научная фантастика, но на самом деле это реальность, представленная распространением вредоносных программ. Сила и угроза вредоносного ПО заключается в том, что оно может проникать, манипулировать или повреждать отдельные компьютеры, а также целые электронные информационные сети, при этом пользователи не подозревают, что что-то не так. Все это привело электронный мир к важному этапу.

Атаки вредоносного ПО становятся все более частыми и изощренными, что создает серьезную угрозу для экономики Интернета и национальной безопасности. В то же время усилия по борьбе с вредоносными программами не в состоянии справиться с этой растущей глобальной угрозой; Действия по реагированию на вредоносные программы и их смягчению по существу фрагментированы, локальны и в основном являются реактивными.

Широкий круг сообществ и субъектов - от политиков до интернет-провайдеров и конечных пользователей - все играют свою роль в борьбе с вредоносными программами. Но все еще существует ограниченное знание, понимание, организация и разграничение ролей и обязанностей каждого из этих субъектов. Улучшения могут быть достигнуты во многих областях, и международное сотрудничество принесет большую пользу в таких областях, как: превентивная профилактика (образование, руководящие принципы и стандарты, исследования и разработки); улучшенная правовая база; усиление правоохранительной деятельности; усовершенствованные методы технологической индустрии; и лучшее согласование экономических стимулов с общественными выгодами.

Три основные цели:

- информировать разработчиков политики о вредоносных программах - их росте, развитии и мерах по борьбе с ними;
- представить новое исследование экономических стимулов, влияющих на решения в области кибербезопасности; а также
- внести конкретные предложения о том, как международное сообщество может лучше работать вместе для решения этой проблемы.

Национальная безопасность или национальная защита - это безопасность и защита национального государства, включая его граждан, экономику и институты, что считается обязанностью правительства. Первоначально задуманная как защита от военного нападения, национальная безопасность в настоящее время широко понимается как включающая невоенные измерения, в том числе защиту от терроризма, минимизацию преступности, экономическую

безопасность, энергетическую безопасность, экологическую безопасность, продовольственную безопасность, кибербезопасность и т. Д. К рискам национальной безопасности, помимо действий других национальных государств, относятся действия насильственных негосударственных субъектов, наркотических картелей и многонациональных корпораций, а также последствия стихийных бедствий.

Правительства полагаются на целый ряд мер, включая политическую, экономическую и военную мощь, а также дипломатию, для обеспечения безопасности национального государства. Они также могут способствовать созданию условий безопасности на региональном и международном уровнях путем уменьшения транснациональных причин отсутствия безопасности, таких как изменение климата, экономическое неравенство, политическое отчуждение и распространение ядерного оружия.

Сектор: Новые информационные технологии

## ВОПРОСЫ БЕЗОПАСНОСТИ ТЕХНОЛОГИЙ ИНТЕРНЕТА ВЕЩЕЙ

**İsmayilov İslam**
***Научный руководитель: Gülməmmədov Rüfət***
***Азербайджанский Государственный Экономический Университет, Магистрант***
***vip.islam959@mail.ru***

Как правило, с увеличением количества и типов устройств, подключенных к Интернету, возрастают риски, связанные с безопасностью и защитой технологии IoT. Предметы, которые нас окружают, могут использоваться не только по прямому назначению, но и в преступных целях. Естественно, их деятельность может привести к неудачам. Умные объекты все больше и больше переплетаются с нашей жизнью, делая нас более зависимыми от них, поэтому вопрос безопасности систем Интернета вещей актуален и является важным элементом нашей безопасности и конфиденциальности.

Важно заметить, что преступники обычно используя зараженными вирусными программами компьютерными сетями, осуществляют своих намерений. Такие сети называются ботнеты. Например, в 2016 году с помощью ботнета Mirai, который насчитывает 100 000 IoT-устройств, киберпреступники провели масштабную DDoS-атаку на инфраструктуру DNS-провайдера Dyn, сделав недоступными самые популярные сайты в США. Заметим, что ботнет Mirai по умолчанию собирает возможные комбинации имен пользователей и паролей, и таким образом, взломает многочисленные интеллектуальных камер и маршрутизаторов. С помощью их осуществлялось также и атаки в британских сетях провайдеров Post Office, TalkTalk, KCOM и Eircom.

Интернет вещей в отчете ЦРУ за 2008 год назван одной из потенциально опасных технологий до 2025 года. Терроризм, защита частной жизни и различная конфиденциальная информация относятся к числу угроз, которые представляет Интернет вещей. В отчете также подчеркивается, что после 2035 года Интернет вещей будет безопасно использоваться. Другими словами, этот орган надеется, что к тому времени опасные пробелы в концепции Интернета вещей будут устранены.

Собранные специалистами разных организаций информаций свидетельствует, что атаки не так сложны на устройства технологий IoT- системы. Они достаточно скрыты, чтобы пользователи их не видели – преступники воспользуются самые элементарные методы, основанные на угадывание комбинаций паролей и имен пользователей для доступа к сети. Исследователи обнаружили, что Китай был первой страной, подвергшейся атаке хакеров, за ним следовали Бразилия, затем Египет и Россия. Ожидаемые тенденции в целом сохранились в 2018 и 2019 годах.

В этой тезисе названы некоторые направления безопасности технологий IoT-системы, изложены мнения экспертов, связанные вопросами безопасностью технологий Интернета вещей.

Эксперты предполагают важность защиту взаимодействия устройств, подключенных общую сет. Учитывая быстрое расширения IoT-системы и ее распространение в мире, можно сказать, что принятие единого правила безопасности очень важно. Несомненно, это предоставляет возможность крупным промышленным корпорациям участвовать при решении возникающие проблемы. Это приводит к необходимости привлечение инвестиции. В этом направлении уже сделаны некоторые шаги. Достаточно сказать, что в соответствие с Интернетом вещей для приведения стандартов безопасности ISO 27000 был создан специальная группа. Оценивая возможные риски, эксперты утверждали, что без введения единых стандартов системы IoT будет развивать медленно и, конечно же, будут потребовать большие финансовые затраты. Отсутствие единого стандарта означает разработку для каждой системы IoT набора индивидуальных мер безопасности. Естественно, это увеличит стоимость всей системы и масштабы проверенных технологий.

Сектор: Новые информационные технологии

## KİMYƏVİ LABORATORİYALARDA İSTİFADƏ OLUNAN ELEKTRİK QIZDIRICI CİHAZLARIN NÖVLƏRİ VƏ ROLU.

**İsmayılov Ümid Şadiman oğlu**
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***umid13.06.1998@gmail.com***

**Açar sözlər:** elektrik qızdırıcı, elektrik sobası, termostat, elektrik hamamları, vakuum-quruducu elektrik şkaflar.

**SUMMARY**

**TYPES AND ROLE OF ELECTRIC HEATING DEVICES USED IN CHEMICAL LABORATORIES.**

Modern chemical laboratories use electric heaters as the main heat source. The role of electric heaters in gas-free laboratores is irreplaceable. Electric heaters come in different sizes,square and rectangular,with open and closed spirals.

The widespread use of electric heaters is explained by their simplicity of construction,ease of use,clean operation,the availabity of a wide range of electric heaters produced for general and special purposes. So with the help of these devices the temperature is 350-400˚C above room temperature,when using an electric oven,it is possible to increase it up to 1100˚C.

Electric furnances with closed spirals are used in the laboratory to heat liquids and sands,air baths,as well as different cups and flasks to 350-400˚C. Some types of electric ovens have three-stage stepper temperature controller. Open coil heaters are mainly used when there is no risk of the heated substance falling on the coil and burning. Such heaters are convenient because if the substance falls on the spiral and burns,it can be easily repaired.In some chemical laboratories,open-coil electric heaters with and old design still remain.

According to modern safety instructions,the use of such open spiral heaters is prohibited. Modern laboratories use water and steam baths to heat flasks and other test tubes to 100 degrees. Electric baths filled with other liquids can heat the liquid in the test tubes to a higher temperature, depending on the thermal stability.

Liquid baths are widely used in chemical laboratories for thorough heating of heat-resistant substances for drying and to eliminate local heating during many chemical reactions. Sand electric baths are used for thorough and slow heating from 100˚C to 400˚C.Special bulb heaters are produced for small-capacity round-bottomed flasks. If the temperature of the heated substance needs to be kept constant for a long time,then different types of thermostats are used. Thermostats are usually equipped with a thermostat

and a mixer, which in turn heats the liquid thoroughly, keeping the temperature constant to the nearest ±0,1˚C, which makes the use of thermostats more efficient.

**Key words:** electric heater, electric oven, thermostat, electric baths, vacuum-drying electrical cabinets

Müasir kimyəvi laboratoriyalarda əsas istilik mənbəyi kimi elektrik qizdirici qurğulardan istifadə olunur. Elektrik qızdırıcı qurğuların qaz ilə təmin olunmayan laboratoriyalarda rolu əvəzolunmazdır. Elektrik qızdırıcılar fərqli ölçülərdə kvadrat və düzbucaqlı şəklində, açıq və qapalı spirallı olurlar. Elektrik qızdırıcı qurğuların geniş yayılması onların quruluşunun sadəliyi,istifadə rahatlığı, təmiz işləməsi, ümümi və xüsüsi məqsədlər üçün istehsal olunan elektrik qızdırıcılarının geniş çeşidlərinin olması ilə izah olunur. Belə ki bu qurğuların köməyi ilə temperaturu otaq temperaturundan 350-400˚C, elektrik sobasından istifadə olunanda isə 1100˚C ə qədər artırmaq mümkündür. Qapalı spiralı olan elektrik sobaları laboratoriyada maye və qum tərkibli maddələrin, hava hamamlarının və eləcə də fərqli stəkanları və kolbaları 350-400˚C qədər qızdırmaq üçün istifadə edilir. Elektrik sobaların bəzi növləri pilləli üçmövqeli istilik dərəcəsi idarəedicisinə malikdir. Açıq spirallı qızdırıcılar əsasən o zaman istifadə olunur ki, orda qızdırılan maddənin spiralın üzərinə düşüb yanma riski olmasın. Belə qızdırıcılar ona görə rahatdır ki maddə spiralın üzərinə düşüb yanarsa onu asanlıqla düzəltmək olar. Bəzi kimyəvi laboratoriyalarda hələdə köhnə konstruksiyaya malik açıq spirallı elektroqızdırıcılar qalıb. Müasir təhlükəsizlik təlimatlarına görə bu kimi açıq spirallı qızırıcılardan istifadə qadağandır. Müasir laboratoriyalarda kolbaları və digər sınaq borularını 100 dərəcəyə qədər qızdırmaq üçün su va buxar hamamlarından istifadə olunur.

Digər mayelər ilə doldurulmuş elektrik hamamları sınaq şüşələrində olan mayenin termodayanıqlığından asılı olaraq onu daha yüksək temperatura qədər qızdıra bilir. Kimyəvi laboratoriyalarda bir çox kimyəvi reaksiyalar apardıqda istilik baxımından davamsız maddələrin qurudulmaq üçün hərtərəfli qızdırılmasında və yerli qızdırmanı aradan qaldırmaq üçün maye hamamlarından geniş istifadə olunur. 100˚C-dən 400˚C-yə qədər hərtərəfli və yavaş qızdırılma üçün isə qumlu elektrik hamamlardan istifadə olunur. Kiçik tutumlu dəyirmi altlı kolbalar üçün isə xüsusi kolbaqızdırıcılar istehsal olunur. Əgər qızdırılan maddənin temperaturunu uzun müddət sabit saxlamaq lazımdırsa bu halda müxtəlif növ termostatlardan istifadə edilir. Termostatlar adətən termoidarəedici və qarışdırıcı ilə təmin olunurlar ki bu da öz növbəsində temperaturun ±0,1˚C dəqiqlik ilə sabit qalmasını təmin edərək mayeni hərtərəfli qızdırır və bu da termostatlardan istifadəni daha səmərəli edir. Termoidarəedicisi olan elektrik quruducu şkaflardan laboratoriyada maddələrin 250˚C-dək qurudulması və qabların qurudulması üçün istifadə olunur bu da temperaturun dəqiq saxlanmasına imkan verir. Vakum-quruducu elektrik şkaflar isə maddə qızdırılan zaman onun eyni zamanda vakumla qurudulması üçün istidafə olunur.

Kimyəvi laboratoriyalarda çöküntülərin kalsinasiyası, oda davamlı hissələrin əridilərək birləşməsi və s. hallarda daha böyük temperaturlar 1000-1500˚C almaq üçün bacalı və trubalı elektrik peçlərindən istifadə olunur. Trubalı peçlərdən hər hansı bir qazın cərəyanında maddələrin kalsinasiyasi üçün istifadə edilir. Sənayedə istehsal olunan kolba və stəkanlardan ən çox diqqət cəlb edən səthinə yarımkeçirici qalay dioksid ($SnO2$) çəkilmiş kolbalardır. Bu növ qızdırıcıların yüksək gücü və istiliyin dərəcəsinin laborator avtotransformator vasitəsi ilə idarə olunması və digər qızdırıcıların olmaması səthinə qalay dioksid çəkilmiş kolba və stəkanlarla işi rahat və xoşagələn edir. Təəsuf ki bu növ məhsulların seçimi çox deyil və onların özbaşına istehsalı böyük zəhmət tələb edir. Onların geniş istifadəsinə qoyulan məhdudiyyət mayenin səviyyəsini cərəyan keçirən səthdən aşağı saxlamağa ehtiyac yaradır.Laboratoriyalarda geniş istifadə olunan kolbalardan biri üzərinə spirallı qızdırıcı element quraşdırılmış kolbalardır. Belə kolbalar bəzi çöküntüyə malik olmayan maye və qarışıqların qızdırılmasına və qaynadılmasına yararlıdır. Çöküntünün də olamaması ona görə lazımdır ki bu çöküntülər qızdırıcıya yapışaraq yanmasın.

**ƏDƏBİYYAT SİYAHISI :**

1. Həsənov Ə.P., Osmanov T.R., Həsənov N.N. və başqaları. Qeri-ərzaq mallarının laboratoriya tədqiqatı. II hissə. Dərslik, Bakı, 2005.

2. Həsənəv Ə.P., Osmanov T.R., Həsənov N.N. və başqaları. Qeri-ərzaq mallarının ekspertizası. II hissə. Dərslik, Bakı, 2006.

3. Həsənov A.H., Babayev Ə.İ., Həsənov Ə.P. və başqaları. Əmtəəşünaslıq və kimya. Dərslik, Bakı, 2006.

4. Чечик А.М. Товароведение и экспертиза товаров культурно-бытового назначения. -М.: Издательско-торговая корпорация «Дашков и К°», 2004. -535 с.

## QLİSERİN MÜHİTİNDƏ BƏZİ KLASSİK REAKSİYALARIN TƏDQİQİ

**İsrəfilova V.R., Məmmədova Y.V., Məmmədov İ.Q.**
*Bakı Dövlət Universiteti*
*isrefilovavusale1998@gmail.com*

**Açar sözlər:** keton, aldehid, xalkon
**Key words:** ketone, aldehyde, chalcone
**Ключевые слова:** кетон, альдегид, халкон

Məlumdur ki, sənayedə biodizelin istehsal proseslərində yan məhsul kimi çoxlu miqdar qliserin alınır [1]. Qliserin yuyucu maddələrin istehsalında, kosmetikada, tibbdə və sənayenin digər sahələrində geniş tətbiq edilir. Qliserinin tətbiq sahələrindən biri də üzvi sintezdə reagent kimi istifadəsidir [2]. Ədəbiyyatlarda qliserinin həlledici kimi istifadəsinə aid də məlumatlara rast gəlinir [3].

Göstərilənlər nəzərə alınaraq yaşıl həlledici və ekoloji cəhətdən toksiki olmayan qliserin iştirakında p-bromasetofenonla benzaldehidin klassik Klaizen-Şmidt kondensləşməsi, eləcə də əmələ gələn xalkonun asetilasetonla C-C Mixail alkilləşmə reaksiyalarına baxılmış, quruluşu aşağıda göstərilən birləşmələrin (1-(4-bromfenil)-3-fenilprop-2-en-1-on və 6`-asetil-4``-brom-1`,6`-dihidro-[1,1`:3`,1``-terfenil]-5`(2`*H*)-on) alınmasına nail olunmuşdur.







Sintez olunmuş birləşmələrin quruluşu Nüvə Maqnit Rezonansı (NMR) spektroskopiyasının köməyi ilə öyrənilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. A.B. Leoneti, V.A. Leoneti, S.V.W. Oliveira, Renew. Ener., 2012, 45, p. 138.

2. B.R. Manda, A.N. Prasad, N.R. Thatikonda et al, J. Braz. Chem. Soc., 2018, 29, p. 639.
3. Y. Gu, F. Jerome, Green Chem., 2010, 12, p. 1127.

## THE EFFECT OF CHARACTER ACCENTURY ON DEVIANT BEHAVIOR

**Karimli Nusiya**
Nusiya1998@mail.ru

**Açar sözlər:** yeniyetmələr, aksentuasiya, deviant davranış, xarakter
**Keywords:** adolescents, accentuation, deviant behavior, character
**Ключевые** слова: подростки, акцентуация, девиантное поведение, характер.

**The actuality of the subject:** There is currently an increasing trend of juvenile delinquency in modern society. Currently, in modern society, there is a growing trend of juvenile delinquency.

## CONCLUSION

We believe that it is important to study the accentuation of the character of modern adolescents in order to establish interrelated preventive measures for deviant adolescents, where deviant behavior refers to a system of actions that are both generally accepted and out of the norm.

## REFEENCES :

1. Chalabiyev N. Deviant behavior and socio-psychological motives that condition it // News of the Pedagogical University: Department of Natural, Humanitarian and Pedagogical-Psychological Sciences. 2015. №2. S.373-375.

## FOOD RECIPES AS AN OBJECT OF COPYRIGHT

**Karimova Turkan**
***Baku State University, Faculty: Law***
***Intellectual Property Law***
***P.h.d. Aydin Safhikanli***

**Açar sözlər:** Yemək reseptləri, müəlliflik hüququ,orijinallıq.
**Key words**: Food recipes, copyright, originality.
**Ключевые слова:** Рецепты приготовления, Авторские права, оригинальност.

## SUMMARY

The report examines the legal aspects of copyright protection of recipes

To assess whether a recipe is the subject of copyright, it is important to look at the definition of a recipe:what is the recipe? According to Marrian Webster's dictionary, a "recipe is for the preparation and cooking of food and drink: a list of ingredients and an expression of the procedures to be followed for their preparation." This concept evaluates the recipe as a formula. The definition given in the dictionary does not include the views in the doctrine, because the recipe of the existing approaches assesses both the object of copyright and the limit imposed on copyright.[ 4, 155]

The following conditions must be met for the protection of the object with copyright:

1.The object must be included in the list of works provided by law: these are scientific, literary and artistic works

2. Requirement of originality: the work must be results of creative activity

3. Fixed in any tangible expression: existing in objective form

Let's apply these conditions to recipes and explore the possibility of copyright protection of recipes:

1. According to first requirement, the recipe is considered a work of art, but it is debatable whether it is a literary work or a work of applied art. The problem lies in the originality of the recipe and the expression of creativity in the recipe.

We are in favor of accepting the food as a work of art in itself, and the presentation of the recipe in writing as a work of art. In our opinion, the written submission of the recipe allows to accept the recipe as a literary workin which, along with the ingredients of the recipe, their weight, volume ratios and preparation technology should be given.

According to Article 4 of the Law of the Republic of Azerbaijan on Copyright and Related Rights, a “work of applied art” is a work of art created by hand or industrially and having the functions of practical use or transferred to objects of practical use. We think that in the first case, the content of the recipe, and in the second case, the practical expression of the content becomes a work. [6, art 4]

In the United States, Great Britain and France, high culinary samples are considered "products of a professional artist."[5, 7]

2. As to second requirement how does the recipe include the condition of originality? It is known that copyright protects original, expressive, artistic (literary), art, drama works. Originality means “spark of crativity”, “de-minimis creativity level” and on the other hand the existing connection between the work and personality of the author. Originality is an essential part of copyright, in other words “sine qua non of copyright”. Originality in recipes is sometimes called “expressive elobarition”. [3, 5]

If cook presents the recipe to the public, he should insure recipe by saying the words "adapted from" (with minor adjustments to the recipe) or "inspired by".[2, 45]

If the recipe contains only the ingredients and their amount, for example, 1 teaspoon of sugar, 1 teaspoon of salt, 200 grams of butter, etc. This does not mean that the recipe is still original. This is just a set of facts.

3. As to third requirement: fixation in any tangible form this is deeply connected with originality as originality is reflected itself in objective form. Fixation of a recipe is its collection in any form in a cookbook, a collection of recipes.

Another approach is that recipes are generally perceived as a limitation to copyright, without any legal protection. Doctrine accepts recipes:

1.Useful article

2.Method, process, functional direction, instruction. [1, 34]

Publications Intern. Ltd. v. In the case of Meredith Corp., (1996), the use of popular Danone Yoghurt recipes was alleged to infringe copyright. The US Court ruled that “Prescription is a method and the use of any method cannot be monopolized. Determining the ingredient is an expression of the facts as an important step in the preparation of each dish. There is no expressive element that deserves copyright protection. Recipes are functional areas for a specific result and therefore copyright protection is excluded. ” [7, 21]

In a 2015 U.S. Court decision, Pechu Sandwich described the prescription as a "guideline to ensure a certain conclusion" and removed the prescription from being the subject of copyright. [4, 163]

According to USA Copyright Office: “Copyright doesn't just protect recipes that contain ingredients. Preservation of the recipe is possible only if the recipe is accompanied by an illustration, a picture and reflected in the cookbook. If we apply this approach to recipes, we can say that the recipe is accompanied by a high level of creative design.

If any manufacturer print his recipe on any product as a guide, recipe will not be protected by copyright. Fargo Mercantile Co. v. Brechet & Richter Co., 295 F. 823 (8th Cir. 1924) the court ruled that the recipe on the fruit juice label serves a useful purpose: to instruct the user and deprive him of protection. [4, 173]

**Conclusion:**

The content of the recipe is not directly protected by copyright. The recipe itself is not protected in the cookbook, but is copyrighted because it is expressed in book form. It is as if in this case the form is challenging the content. At first glance, this approach may sound contrary to the criterion of "originality". The point is that the recent approach to "originality" implies the originality of the "form of presentation" rather than the content. For example, the information contained in encyclopedias is facts, but due to its creative structure, copyright embraces and protects it. Because copyright loves "fine art." However, it is also possible for recipes to be protected by other areas of intellectual property rights: as copyright protection does not apply to the idea of the recipe, but protects the expression of the idea.

## BIBLIOGRAPHY:

1. Kamran İmanov -ənənəvi mədəni nümunələr və biliklər əqli mülkiyyət kimi: Erməni plagiatçılığıhttp://copat.gov.az/docs/nesrler/aze/folklor/%c6%8fn%c9%99vi_med.num-l%c9%99r_v%c9%99_bilikl%c9%99r.pdf?_t=1563281120

2. Kamran İmanov "əqli mülkiyyət və şəxsi qeyri-əmlak hüquqları"-http://copat.gov.az/nav/nsrlr-v-prezentasiyalar

3. Australian copyright council information sheet recipes: Legal protection,october 2019

4. Cooking and copyright: When chefs and restaurateurs should receive copyright protection for recipes and aspects of their professional repertoires michael goldman*seton hall journal of sports and entertainment law [vol. 23.1, 2013, p 154-186

5. Intellectual propertyprotectionfor recipes-by c. Bailey king, jr. And bridget v. Warren, july 2019

6. Law on copyright and related rights- http://copat.gov.az/nav/laws

7. Publications international, limited v. Meredith corporation nos. 95-3485, 95-3530 united states court of appeals for the seventh circuit 88 f.3d 473 (1996)

# COVİD-19 SALGININDA YEREL YÖNETİMLERİN VE KENTLERİN SOSYAL DİRENÇLİLİĞİNİ ARTTIRMAYA YÖNELİK POLİTİKALARI: İSTANBUL ÖRNEĞİ

**Kaşıkırık Ayşe**

**Anahtar Kelimeler:** Covid-19, İstanbul, Dirençli Kent, Yerel Yönetimler

Kentler tarih boyunca salgın hastalıkların merkez üssü olmuştur. 21. yüzyılın daha başlarında Sars, Mers, Ebola, Kuş gribi ve Domuz gribi salgınları yaşanmıştır. Aralık 2019'dan itibaren bunlara Covid-19 eklenmiş ve Dünya Sağlık Örgütü tarafından 12 Mart 2020'de küresel salgın olarak ilan edilmiştir. 18 Nisan 2021 tarihi itibarıyla dünyada 3 milyondan fazla insan Covid-19 virüsü nedeniyle yaşamını kaybetmiştir. Koronavirüs salgını sokaktan başlayarak tüm dünyayı tehlikeli bir alana dönüştürmüştür. Dünya nüfusunun yaklaşık %56'sını barındıran kentler Covid-19 salgınındanen çok etkilenen yerleşim merkezleri olmuştur. 2050 yılında dünya nüfusunun %68'inin kentlerde yaşayacağı tahmin edilmekte ve kentlerin salgınlara dirençli tasarlanmasının ve yönetilmesininin önceliği ortaya çıkmaktadır.

Nüfus yoğunluğu yüksek olan kentlerde salgın daha hızlı yayılma eğilimi göstermektedir. Günümüzde salgın karşısında alınacak önlemler, geleceğin salgına dirençli kentleri konusunda önemli ipuçları verecektir. Bu bağlamda, salgına dirençli kentlerin inşasında yerel yönetimlere önemli görev ve sorumluluklar düşmektedir. 16 milyon kayıtlı nüfusu ile Türkiye'nin mega kenti olan İstanbul, Türkiye'de salgının da merkezi konumundadır. Türkiye'de Covid-19 vakalarının %60'ı İstanbul'da görülmektedir. Bu çalışmada, İstanbul Büyükşehir Belediyesi'nin salgın koşullarında kentin sosyal dirençliliğini arttırmaya yönelik öncelikleri ve politikaları ele alınmaktadır. Bu kapsamda, web sitesi, sosyal medya hesapları ve dijital kaynakları taranarak, İstanbul Büyükşehir Belediyesinin Covid-19 ile mücadelede kırılgan gruplara yönelik çalışmaları, sosyal politika uygulamaları ve kamuoyu bilgilendirmeleri analiz edilmektedir.

# EKSKURSİYANIN KEÇİRİLMƏ TEXNİKASI

**Kazımzadə Hafiz Zabil oğlu**
*ATMU, Turizm və qonaqpərvərlik fakültəsi, II kurs magistr*
*Elmi rəhbər: Həsənov Hüseyn*

**Açar sözlər:** bələdçi, ekskursiya, ekskursiya obyekti, ekskursiya qrupu, nümayiş.
**Ключевые слова:** гид, экскурсия, экскурсионный объект, экскурсионная группа, демонстрация.
**Key words:** guide, excursion, excursion object, excursion group, demonstration.

Hər bir ekskursiyanın effektliyi, onun keçirilmə texnikasından, metodika və keçirilmə texnikasının əlaqəsindən əsaslı surətdə asılıdır. Ekskursiyanın keçirilməsi üzrə bir sıra tələblər irəli sürülür. Bu tələblərə aşağıdakılar daxildir: ekskursiya bələdçisinin ekskursiyaçılarla tanış olması; obyektin ətrafinda ekskursiyaçılarrn düzgün yerləşdirilməsi; ekskursiyaçıların avtobusdan çıxması və avtobusa qayıtması; ekskursiya bələdçisinin mikrofondan istifadə etməsi; ekskursiyanın bütövlükdə və ayrı-ayrı yarımmövzuların açıqlanmasma ayrılan vaxta riayət edilməsi; ekskursiyaçılarm suallarına cavab verilməsi və s. [3, səh. 174]

Ekskursiya bələdçisinin ekskursiyaçılarla tanış olması prosesi. Ekskursiya bələdçisi nəqliyyat vasitəsinə (avtobus, minik maşını) daxil olarkən ekskursiyaçılarla tanış olur. O, ekskursiya iştirakçılarını təmsil etdiyi ekskursiya müəssisəsi adından salamlayır, özünü daha sonra isə sürücünü təqdim edir, yəni ekskursiyanı girişdən başlayır.

Ekskursiya işinin düzgün təhlili və təşkili üçün, öncədən hazırlıq işləri görülməlidir. Bu işləri ekskursiya təşkilatçıları və ya turagentlər təşkil edirlər.

Hər mövzuda olduğu kimi bu mövzunun da giriş hissəsi olur. Qrupun tərkibi müxtəlif olduqda (məsələn, yerli əhali və gəlmə turistlər, yaşlılar və uşaqlar), eyni ekskursiyanın müxtəlif giriş hissəsi olacaqdır. Ekskursiya bələdçisi ekskursiyaçılara konkret istiqamət verən, onlarla əlaqə yaratmağa imkan verən giriş hissəsinin hazırlığına və icrasına xüsusi diqqət yetirir.

Ekskursiyaçıların avtobusdan çıxışı.

Avtobusdan çıxış üçün ekskursiyaçıları əvvəlcədən hazırlamaq zəruridir. Belə olmadıqda, qrupun bir hissəsi avtobusda qalmağı üstün tutur və abidə ilə tanışlıq imkanını itirir. Avtobusdan çıxmaq şərti ilə, dayanacaqların sayı haqqında məlumatın ekskursiyanın giriş hissəsində elan olunması məsləhətdir. Dayanacaqların əhəmiyyətini ekskursiyaçılara izah etməklə onları obyektin qeyri-adi, ekzotik olması ilə maraqlandırmaq lazımdır.

Nəzərdə tutulmuş dayanacaqlarda avtobusdan ilk növbədə ekskursiya bələdçisi enir və bununla da qrupa nümunə göstərərək, obyektə hərəkət istiqamətini təyin edir. Dayanacaqların digər hallarda baş verməsi, ekskursiya məqsədi olmayan dayanacaqlar zərurəti yaranırsa (məsələn, sanitar və ya suvenerlərin alınması), ekskursiya bələdçisi avtobusun yola düşməsinin dəqiq vaxtını (saat və dəqiqə) bildirir. Ekskursiyaçılardan ekskursiyanın keçirilmə reqlamentini tələb etmək lazımdır, çünki o avtobusun marşrut üzrə hərəkətinin qrafıkinə bilavasitə təsir edir. Əgər şəhərkənarı ekskursiyaların dayanacaq vaxtları hər hansı bir səbəbə görə azalır və ya çoxalırsa, o zaman bələdçi bu barədə ekskursiyaçıları məlumatlandırmalıdır.

Ekskursiyaçıların obyektin qarşısında yerləşdirilməsi. Ekskursiya hazırlanarkən bir qayda olaraq, ekskursiya obyektinə baxış zamanı qrupun yerləşməsinin bir neçə variantı müəyyən olunur. Bu aşağıdakı hallar üçün nəzərdə tutulur:

Metodiki hazırlamada təyin olunmuş yer, digər qrup tərəfindən tutulmuş və ya həmin yerdə dayandıqda günəş şüaları gözü qamaşdırır və obyektə baxmağa imkan vermir. Təklif olunan yerin istifadə edilməməsinin digər səbəbləri də vardır. Günün isti, qızmar vaxtında qrupların kölgədə yerləşməsi imkanlarından istifadə olunur. Yağışlı günlərdə ekskursiyaçıların örtük və çətirlərdən istifadə etməsi variantları da nəzərdə tutulur. Metodika ayrı-ayrı hallarda obyektin baxışı üçün bir neçə nöqtənin seçilməsini tələb edir: uzaq (obyekt ətraf mühitlə və ya digər obyektlərlə birlikdə göstərildikdə), yaxın

(binanın, qurğunun, ərazinin, təbiət obyektinin ayrı-ayrı detalları təhlil edildikdə). Bu xüsusiyyətlər «Metodiki hazırlama göstərişləri» qrafasında qeyd olunur. Hər bir ekskursiya bələdçiləri diqqətlə bu göstərişləri öyrənirlər və qrupla marşruta çıxmazdan öncə qrupun obyekti müşahidə etməsi üçün yerləşmə məsələlərini araşdırırlar.

Obyektlərə baxış zamanı və avtomagistral yolları keçərkən ekskursiyaçıların təhlükəsizliyi təmin olunmalıdır.

Bir obyektin yanında bir neçə ekskursiya qrupunu elə yerləşdirmək lazımdır ki. bir ekskursi ya bələdçisinin danışığı digərinə mane olmasın, bir qrup digər qrupun obyekti müşahidə etməsinə mane olmasın. Muzey ekspozisiyasının nümayişi zamanı qrupların yerləşməsində də belə çətinliklər yarana bilər.

Ekskursiyaçıların yerdəyişməsi (avtobusdan obyekto, obyektdən avtobusa, obyektlər arasında hərəkət) qrup halında həyata keçirilir. Qrupun mərkəzində ekskursiya bələdçisi olmalıdır, bir neçə nəfər öndə, bir neçəsi yan tərəflərdə, qalanları isə arxa tərəfdə hərəkət edirlər. Qrup dağınıq olmamalı, qabaqda gedənlərlə, arxada gedənlərin arasındakı məsafə 5-7 metrdən artıq olmamalıdır. Ekskursiya bələdçisi marşrut üzrə qrupun mütəşəkkil hərəkətinin pozulmamasına nail olmalıdır. Qrup üzvləri dağınıq olduqları halda, ekskursiya bələdçisinin yol boyu izahını, şərhlərini, məntiqli keçidlərini eşitmək də çətinləşir.

Təcrübəli bələdçilər qrupun marşrut üzrə hərəkətini bacarıqla idarə edə bilirlər. Qrupun hərəkətinin surəti, bilavasitə qrupun tərkibindən (uşaqlar, gənclər, orta yaşlı, ahıl yaşlı insanlar), ərazinin relyefindən (məsələn, dağa qalxmaq, abad olmayan yollarla irəliləmək və s.) asılıdır.

Piyada ekskursiyalarda nümayiş obyektləri bir-birinə yaxın yerləşdikdə, ekskursiyaçıların hərəkət surəti az olur, ağır addımlarla qrup tələsmədən irəliləyir. Avtobus ekskursiyalarında qrupun lazımi hərəkət tempinin təyin edilməsi daha mürəkkəbdir. Bələdçi avtobusdan düşərək tələsik hərəkət etmir. Xüsusən obyektin aralıda yerləşdiyi ərazidə, o, ekskursiyaçıların əksəriyyətinə avtobusdan çıxmağa imkan yaradır, sonra tələsmədən qrupun önündə obyektə doğru hərəkət edir. Obyektə çatdıqda, bütün qrup bir yerə yığıldıqdan sonra bələdçi danışmağa başlayır.

Ekskursiyaçıların avtobusa geri qayıtması. Qrupun avtobusa doğru hərəkətinin önündə adətən ekskursiya bələdçisi gedir. Qrup avtobusa mindiyi an o, girişdən sağ tərəfdə dayanır və avtobusa daxil olan ekskursiyaçıları sayır. Bu iş hiss olunmadan aparılmalıdır. Bütün ekskursiyaçıların avtobusa daxil olunduğuna əmin olduqdan sonra, bələdçi avtobusa daxil olur və sürücüyə hərəkətin başlanması üçün lazımi göstərişləri və şərti işarələri verir.

Avtobusda yerlərini tutmuş ekskursiyaçıları saymaq gülməli situasiyalara, yersiz əsəbiliyə səbəb ola bilər və nəticədə ekskursiyanın gedişi pozular.

Ekskursiya bələdçisinin yeri. Ekskursiya bələdçisi avtobusda elə yerdə əyləşməlidir ki, ekskursiya zamanı haqqında danışdığı obyektləri görə bilsin, həm də bütün ekskursiyaçılar diqqət mərkəzində olsun. Ekskursiya aparılarkən bələdçini bütün ekskursiyaçılar görməlidirlər. Bir qayda olaraq bələdçi sürücünün yanında, qabaqda xüsusi ayrılmış yerdə əyləşir. Təhlükəsizlik məqsədilə avtobusun hərəkəti zamanı nə ekskursiyaçılara, nə də bələdçiyə ayaq üstü dayanmağa icazə verilmir.

Ekskursiya vaxtına riayət olunma. Ekskursiyanın metodiki hazırlanması zamanı hər bir yarımmövzunun açıqlanması vaxtı dəqiqəsinə kimi dəqiqliklə qeyd olunur. Burada hər şey nəzərə alınır. Obyektin nümayişi, bələdçinin danışığı, marşrut üzrə digər obyektə hərəkət, qrupun baxış keçirilən obyektlər ətrafında hərəkəti. Ekskursiya bələdçisinə ayrılmış vaxtdan kənara çıxmamaq üçün böyük təcrübəyə malik olma tələb olunur.

Ekskursiyanın ayrı-ayrı hissələrinə sərf edilən vaxtın xronometraji bu işdə bələdçiyə kömək edir. Çox zaman ekskursiyanın vaxtı, ekskursiya bələdçisindən asılı olmayan səbəblərdən qısalır. Ekskursiyaçıların ləng yığılması, turistlərə səhər yeməyinin vaxtında verilməməsi, avtobusun gecikməsi və s. ekskursiyanın nəzərdə tutulan vaxdan gec başlamasına səbəb olur.

Bələdçinin çıxış yolu, mövzunun açıqlanmasına ayrılan vaxtın qısaldılmasıdır. Bu zaman ekskursiyanın əsas məqamlarını saxlayaraq ikinci dərəcəli əhvalatların izahını qısaltmaq lazımdır. Ekskursiyada bu cür hallar nəzərə alınmaqla, ekskursiya materialının qısaldılmış variantları da hazırlanmalıdır [3. səh, 179].

Avtobusun hərəkəti zamanı izah etmənin texnikası.

Avtobusun hərəkəti zamanı ekskursiya bələdçisi mikrofondan istifadə edir. Mikrofonun işlək vəziyyətdə olması ekskursiyadan əvvəl yoxlanılmalıdır. Əgər mikrofon pis işləyirsə və ya heç işləmirsə, hərəkət zamanı danışmağın əhəmiyyəti üsullarından istifadə olunma qaydasını bilməlidir [4, səh.36].

Ekskursiya zamanı müxtəlif mərasim elementlərindən də istifadə olunur (milli ənənələrə uyğun olaraq, dəfn və memorial xatirə yerlərində həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, fəxri keşikçilərin dəyişməsində, təntənəli yürüşlərdə və mitinqlərdə iştirak etmək, matəm melodiyalarının dinlənilməsi və s.).

Ekskursiya bələdçisi əklillərin qoyulması, qardaşlıq məzarları və obelisklərin yerləşdiyi yerlərdən keçmək, fəxri keşikdə iştirak, əbədi məşəl qarşısında, müharibə qəhrəmanlarının məzarları önündə hərəkət qaydalarını bilməlidir. Ekskursiyadan əvvəl bələdçi tarixi yerlərdə mərasim qaydalarına riayət etmənin əhəmiyyəti haqqında ekskursiyaçılara məlumat verir.

Ekskursiya keçirilməsi texnikası ilə əlaqəli məsələlərin müzakirəsi və əhəmiyyəti danılmazdır. Ekskursiyanın keçirilmə aspektləri ciddi şəkildə ölçülüb biçilmədikdə və obyektlərə baxış üçün şərait yaradılmadıqda, nə bələdçinin maraqlı danışığı, nə də abidələrin metodiki nümayiş üsulları lazımi dərəcədə effekt verməyəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI :**

1. Eqanlı Siyavuş, Hacıyev Emin. Turizm. Bakı, ABU, 2006.
2. Hüseynov İlqar, Əmirxanov S. Kulturologiya və onun əsas istiqamətləri. Bakı, ADMİU, 1996.
3. Sabir Rəhimov. Turizm-ekskursiya işinin təşkili. Bakı, Mütərcim, 2004
4. Tağıyev Ə., Əliyev Q. Kulturologiya, Bakı, Təbib, 1997.

# CAUSES OF CONFLİCTS BETWEEN PARENTS İN THE FAMİLY AND THEİR İMPACT ON CHİLDREN'S FUTURE İLLEGAL BEHAVİOR

**Kazimli İlkin Gilman**
***Western Caspian University***

*The actuality of the subject.* In our society today, most families have conflicts. The causes of these conflicts are poverty, betrayal of the other party, abusive behavior, alcohol, drug and gambling addiction, etc.

In most cases, the cause of the conflict is the interference of both parties in the young family. Like other causes of conflict, young people should not be psychologically mature and emotionally unprepared for the family table. Lack of resilience to stress, negative family experiences in childhood, etc. Symptoms of depression, stress and, most importantly, behavioral disorders in children as a result of family conflicts. As a result of parental inattention to the child, the child begins to be prone to antisocial groups. A child with a behavioral disorder who has already reached the age of 15 begins to show signs of antisocial personality disorder after the age of 15. If this is not prevented, the child begins to behave illegally in society and becomes dangerous.

*The purpose of the study*. The main purpose of the study is to investigate the past traumas of parents in the family and to find out what causes them in the conflict. Patterns of behavior of children in these families at an early age

Special tests should be used for this purpose. The study should also be conducted among a group of antisocial children

When these children grow up, their close friends, their worldview, analytical skills, moral principles, reactions to conflict and resilience to stress should be considered. During the study, parents should also be informed about their childhood and whether they have experienced antisocial personality disorder.

*The result*: As a result, antisocial or psychopathic children's misbehavior should be reviewed and linked to the family. That is, children's antisocial behavior as a result of wrong family behavior As a result, these children may begin to behave illegally when they grow up.

## "HEYDƏR ƏLİYEV VƏ ŞANLI AZƏRBAYCAN"

**Kərimli Mənsumə**
***Qərbi Kaspi Universiteti***

Bəzən elə adamlar olur ki, onların yaşayış tarixini yazmaq üçün bütün bir xalqın, ölkənin tarixini yazmaq lazım gəlir. Heydər Əliyev məhz belə xoşbəxt adamlardan idi.

Keçən XX əsrin 30 ili Azərbaycan tarixi üçün Heydər Əliyev dövrü olub. Heydər Əliyev Azərbaycan milli tarixində özünəməxsus yer tutan elə nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hələ uzun müddət politoloqların, filosofların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının müstəqillik mübarizəsindəki misilsiz xidmətləri ilə hələ sağlığında canlı əfsanəyə çevrilmiş, bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdı.

Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-82-ci illərdə sübut etmişdir. Ulu öndərimiz birinci dəfə hakimiyyətə gələndə – 60-cı illərin axırlarında Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşandı.

Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəri idi. Xüsusilə, Azərbaycanın tarixinin 1990-1993-cü illəri xalqın yaddaşında ən ağır fəlakət illəri, "olum ya ölüm" dövrü kimi qaldı. Moskvaya satılmış xəyanətkar rəhbərlər və onları əvəz edən, heç bir idarəçilik bacarığı olmayan "Azərbaycan Xalq Cəbhəsi rejimi" məmləkəti dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular. Azərbaycan Cənubi Qafqazın xəritəsindən silinmək üzrə idi. Bu zaman Vətənin ümid çırağı, əliyalın xalqın yeganə qələbə silahı Heydər Əliyev zəkası idi. Bu dövrdə — 1990-cı il yanvarın 21-də (20 Yanvar qırğınının ertəsi günü!) həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının qurtuluş mübarizəsinin önünə keçdi.

Sərt tarixi həqiqət belədir: 1993-cü ilin iyununda — Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ulularımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların "Böyük Ermənistan" yaratmaq

niyyətləri, tarixi düşmənlərimizin qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında — Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı.

30 ilə yaxındır ki, Azərbaycan-Ermənistan gərginliyi davam edirdi. Uzun müddət davam edən işğalçılıq 2020-ci il noyabrın 10-da bitdi. Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqımızın zəfər salnaməsini yazdı. Dövlət başçısının qəti iradəsi və müdrik xarici siyasəti, müzəffər ordumuzun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində erməni işğalçıları həm hərbi, həm də siyasi meydanda ağır məğlubiyyətə uğradıldı, Böyük Qələbə qazanılaraq tarixi ədalət bərpa olundu, xalqın inamı özünə qaytarıldı. 30 ildir BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin torpaqlarımızdan dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri ordumuzun inamlı qələbəsi ilə icra edildi, doğma torpaqlarının həsrətini çəkən, qayıdacaqları günü səbirsizliklə gözləyən insanlarımızın arzuları reallığa çevrildi.

Cəsur Azərbaycan hərbçiləri düşmənin işğal altındakı ərazilərimizdə otuz ilə yaxın müddətdə qurduqları istehkamları, hərbi texnikasını və infrastrukturunu, çoxsaylı canlı qüvvəsini darmadağın edərək torpaqlarımızı qarış-qarış, kəndbəkənd, şəhərbəşəhər əsarətdən xilas etdi. 44 günlük zəfər yürüşündə 300-dən çox şəhər, kənd və qəsəbələrimiz işğaldan azad edildi, Silahlı Qüvvələrimiz tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərində və digər doğma torpaqlarımızda üçrəngli şanlı bayrağımız ucaldıldı.

Şuşanın işğaldan qurtarılaraq üçrəngli bayrağımızın sancılması Vətən müharibəsində dönüş nöqtəsi oldu, dövlətimizin başçısı düşməni təslim olmağa məcbur edərək Ermənistanın kapitulyasiya aktı olan birgə bəyanatla qalan digər torpaqlarımızın – Kəlbəcər, Laçın və Ağdam rayonlarının qan tökülmədən Azərbaycana qaytarılmasına, ərazi bütövlüyümüzün bərpasına nail oldu.

Bununla da dövlət başçısı cənab İlham Əliyev xalqımızın qəlbində Milli qəhrəmana çevrilərək, onun adı tariximizə qızıl hərflərlə həkk olundu. Möhtərəm Prezidentimiz görkəmli dövlət xadimi kimi müdrik siyasəti nəticəsində uzun sürən savaşa son qoyaraq sülhü bərqərar etməklə, bəşəriyyətdə sülh naminə mühüm xidmətlər göstərdi.

Danılmaz həqiqətdir ki, ölkəmizin şanlı Qələbə qazanmasının təməlində Azərbaycan Prezidenti cənab İlham Əliyevin 17 ildə həyata keçirdiyi uzaqgörən, düşünülmüş və müstəqil siyasəti dayanır. Dövlətimizin başçısı bu illər ərzində respublikamızın iqtisadiyyatını gücləndirmiş, ordu quruculuğunu, müdafiə sənayesini inkişaf etdirərək Azərbaycan Ordusunu, Vətən müharibəsində bütün dünyaya nümayiş etdirildiyi kimi, 5-ci nəsil müasir silah və hərbi texnika ilə təchiz olunmaqla dünyanın ən güclü 50 ordusundan birinə çevirmişdir.

Ordumuzun əzmi, qüdrəti nəticəsində hər gün tariximizin şanlı səhifələrinin yazıldığı günlərdir. Müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır. İllərdir torpaqlarımızın itkisini, acısını Azərbaycan Ordusunun zəfər yürüşünün gətirdiyi qürur, qələbəyə inam, əzm hissi üstələyib. Ölkəmiz üçün bu taleyüklü məsələni bu gün Azərbaycan Ordusunun şəxsi heyəti də dərindən dərk edir.

## M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA ELEKTRON SƏNƏDLƏRİN QƏBULU VƏ FONDDA YERLƏŞDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Kərimli Şəbnəm Şövqi qızı**
***Bakı Dövlət Universiteti***
***Kitabxana Resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı***
***sebnemsebnem769@gmail.com***

**Açar sözlər:** Elektron sənəd, fond, elektron kitabxana, elektron kataloq, Milli Kitabxana, informasiya resursu.

**Key words:** electronic document, fund, electronic library, electronic catalog, Azerbaijan National Library named after M.F.Akhundov, information resourse.

**Ключевые слова:** электронный документ, фонд, электронная библиотека, электронный каталог, Национальная библиотека им. М.Ф.Ахундова.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası (AMK) "Elektron hökümət" konsepsiyasının icrası ilə əlaqədar oxuculara kitabxana-informasiya xidmətinin elektronlaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, virtual xidmət üçün müvafiq infranstrukturun və proqram təminatının yaradılması istiqamətində bir sıra kreativ yönlü layihələr həyata keçirmişdir. Məhz bu tədbirlərin icrası nəticəsində istifadəçilərə onlayn rejimdə informasiya-biblioqrafiya xidmətləri göstərilməsi üçün real şərait yaranmışdır. Kitabxananın müasir kompüter avadanlıqları ilə təchiz edilməsi, kitabxana işinin ənənəvi formalarının elektronlaşdırılması və mütəxəssislərin informasiya mədəniyyətinin artırılması internet üzərindən məsafədən informasiya resurslarına əlyetərliyin təmin edilməsinə şərait yaratmışdır [5,s.17].

Milli Kitabxanada son illər ərzində xidmət sahəsində çox böyük işlər görülmüş, mühüm nailiyyətlər əldə olunmuşdur. Kitabxanada elektron kataloq, elektron kitabxana, elektron məlumat bazaları, virtual sərgilər, müxtəlif metodik və biblioqrafik nəşrlərin, virtual məkanda təqdimatı üçün müxtəlif innovativ metodlardan istifadə böyük əhəmiyyət kəsb etmişdir [5,s.18].

İnformasiya cəmiyyəti quruculuğu dövrünün tələblərinə müvafiq olaraq 2006-cı ildən etibarən Milli Kitabxanada yeni tələblərə uyğun müvafiq struktur şöbələri və bölmələri: "Elektron informasiya xidməti", "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları", "Elektron resursların yaradılması", "Kitabxana siyasəti və metodik rəhbərlik", "Analitik elektron məlumat bazasının yaradılması", "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" və s. şöbələr yaradılmışdır [2, s.46].

İlk növbədə kitabxananın elektron resurslarının yaradılmasına olan böyük ehtiyac nəzərə alınaraq yeni strukturda Milli Kitabxananın qiymətli fondlarının elektron daşıyıcılara köçürülməsi kimi mühüm bir prosesə başlanğıc verilmişdir. Milli kitabxanada məlumat bazası yaradılarkən komplektləşmə zamanı ədəbiyyat ayrı-ayrı sahələr üzrə fonda daxil edilir. İlk növbədə: Fonda daxil olan yeni ədəbiyyat; Arxiv şöbəsində toplanmış və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat; Tammətnli resursların biblioqrafik yazılarının tərtib edilməsi üçün kitabxananın fondunda olan ədəbiyyat; Ümumi fondda olan və format üzrə düzülmüş rus dilində olan ədəbiyyat [1, s.32]

Milli kitabxanada elektron kataloqun yaradılması işi ilə "Elektron resursların yaradılması" şöbəsi məşğul olur. Elektron kataloqun məlumat bazasına ədəbiyyat 3 mənbədən daxil olur:

-Kitabxanaya daxil olan yeni ədəbiyyat;

-Arxiv şöbəsinə toplanmış və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat;

-Kitab verilişi məntəqəsində oxucular tərəfindən qaytarılan və daha çox tələb olunan ədəbiyyat.

Milli Kitabxananın elektron kataloqundan istifadə etmək üçün www.anl.az saytına daxil olaraq kitabxananın şöbələrinin adları əks olunan siyahıdan "elektron kataloq" sətrinin üzərində düyməni sıxaraq elektron kataloqa daxil olmaq olar. Elektron kataloqdan bir neçə axtarış növü üzrə:

a) sadə axtarış;

b) kombinasiya edilmiş axtarış;

c) başlıqların açar sözü üzrə axtarış;

d) xarici məlumat bazalarından - axtarış aparmaq olar.

Milli Kitabxananın Humanitar elmlər zalında Azərbaycan və rus dillərində Azərbaycan Respublikasının qanunvericiliyi üzrə onlayn məlumat bazası fəaliyyət göstərir. Bu bazadan www.qanun.info (Azərbaycan dilində) və www.consulting. minimax.az (rus dilində) internet səhifəsinə daxil olmaqla istifadə etmək olar. Milli

Kitabxananın saytındakı elektron kitabxana bölməsində mikrofilimləşdirilmiş ədəbiyyatın, qədim ədəbiyyatın, dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazası da mövcuddur [3, s.15].

Milli Kitabxananın saytındakı elektron kitabxana bölməsində mikrofilimləşdirilmiş ədəbiyyatın, qədim ədəbiyyatın, 15 adda dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazası da mövcuddur. Həmçinin qədim ədəbiyyat bölməsində fondda olan qədim kitablar əsasında hazırlanmış elektron

resursların siyahısı da təqdim edilir. Lakin məzmun və tarixilik baxımından qiymətli, xüsusilə, nadir nüsxələr olduğundan elektron resurslardan kitabxananın Elektron İnformasiya Xidməti və KAA (kitabxanalararası abonoment) şöbəsində lokal şəbəkədə istifadə etmək olar. Kitabxanada olan XVIII əsrin sonlarından başlayaraq Azərbaycanda nəşr olunmuş dövri və ardı davam edən nəşrlərin elektron versiyaları da hazırlanır ki, bu da dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazasında yerləşdirilib. Bu bölmədə Azərbaycanda nəşr olunan və internet saytı olan qəzetlərin, dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazası ayrıca linklər (keçid) şəklində gəlir. Bu siyahıdakı qəzet və jurnalların qarşısında il və ay qeyd olunub ki, bu da həmin mətbu orqanların hansı ayda hansı nömrəsinin elektron versiyasının hazır olmasını bildirir. Məsələn, jurnallar bölməsində "Əkinçi" jurnalını götürsək, 1921-ci il oktyabr ayından dekabr ayına qədər olan nömrələrin tam mətninin elektron versiyasının istifadəçilərə təqdim olunduğunun şahidi olarıq. Lakin onu da bilmək lazımdır ki, dünya elm sferasına müraciət etmədən, digər kitabxanalarla informasiya mübadiləsi aparmadan müasir oxucuların sorğusunu bütünlükdə ödəmək mümkün deyildir. Bu səbəbdən Azərbaycanın digər elektron resursları da mövcuddur. Qeyd edək ki, bu elektron resurslara Milli Kitabxananın saytından da keçid almaq olar. Milli Kitabxananın saytının elektron kitabxana bölməsinə vurduqda səhifə açılır ki, burada da "Azərbaycanın elektron resursları" adlı ayrıca link (keçid) var [3, s.17].

Milli Kitabxanada 2009-cu ildən fonoteka fondunun qrammafon vallarının CD-yə köçürülməsi işinə başlanmışdır. Hazırda 3000-dən çox qrammafon valı CD-yə köçürülmüşdür ki, bu işdə milli musiqimizə xüsusi yer verilmişdir. Artıq bu materialların kataloqunun birinci buraxılışı "Azərbaycanın səs xəzinəsi" seriyasında çap olunaraq kitabxanalara, musiqi vəincəsənət məktəblərinə göndərilmişdir [1,s.24].

Mikrofilmlərin mətninin xüsusi fayllar vasitəsilə kompyuter yaddaşına köçürülməsinə imkan verən qurğu isə xüsusilə əhəmiyyətlidir və qiymətli kitabların və qəzet-jurnal dəstlərinin tam elektron mətnlərinin yaradılmasının sürətləndirilməsi işində böyük rol oynayır. Artıq bugünədək 150-dən çox qiymətli kitabın və 60-dan artıq dövri mətbuat materialının mikrofilmləri hazırlanaraq oxucuların istifadəsinə verilmişdir onların originalları isə konservasiya olunaraq gələcək nəsillər üçün saxlanılır [1, s.25].

Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində də əsaslı işlər görülmüş, 2012-ci ilin məlumatına görə 4965 tammətnli elektron resursdan 1131 nüsxəsi avtoreferat, 3834 nüsxəsi isə dissertasiyadır. İl ərzində 1272 dissertasiya işi rəqəmsallaşdırılmışdır. 2012-ci ildə Rusiya Dövlət Kitabxanasının dissertasiya və avtoreferatlarının tammətnli elektron bazasından və Azərbaycanda müdafiə olunmuş dissertasiyaların tammətnli elektron məlumat bazasından 625 oxucuya virtual xidmət olunmuşdur [1, s.25].

Azərbaycan Milli Kitabxanası istifadəçilərin elektron-informasiya tələbatını ödəmək məqsədilə daim yeni layihələr həyata keçirir, kreativ iş formalarından istifadə edir. Bu mənada "Elektron virtual sərgi" layihəsi xüsusilə diqqəti cəlb edir. Kitab sərgilərinin təşkili kitabxana fəaliyyətinin mühüm istiqaməti olub, kitabxana-informasiya xidmətinin inkişafına təsir göstərir, çünki kitabxanaçının kitab təqdim etmək qabiliyyəti və ümumiyyətlə, kitabxana haqqında ilk təəssürat oxucuda kitab sərgiləri ilə tanış olarkən formalaşır. Yeni texnologiyalardan faydalanma imkanları kitabxana xidmətinin qədim ənənəvi formasına da innovasiyaların tətbiqini stimullaşdırır. Bu gün Milli kitabxanada virtual sərgilərin təşkili, onların işlənməsi üçün proqram təminatının, multimedia vasitələrinin, formaların, yeniliklərin növlərinin tapılması sərgi işinin daha səmərəli şəkildə inkişafına imkan yaradır. Virtual sərgi distant istifadəçi üçün internet şəbəkəsində onlayn xidmət növü kimi nəzərdən keçirilir, yəni kitabxanaya gəlməyən, onun xidmətlərindən məsafədən yararlanan, kompüterdən ayrılmadan müəyyən informasiya xidmətindən istifadə etmək arzusunda olan istifadəçi üçün nəzərdə tutulur [5,s.22].

Milli Kitabxanada olan kitab və digər materialların qanunsuz olaraq kitabxanadan kənara çıxarılmasının qarşısını almaq məqsədilə kitablara və digər materiallara RFID mikroçiplərin yapışdırılması üçün avadanlıq və kitabxananın çıxışında siqnalizator qapılar quraşdırılmışdır. Həmçinin, Milli Kitabxanada olan ənənəvi kataloqların retrokonversiyası həyata keçirilməyə başlamışdır [4,s.128].

İstifadə olunmuş ədəbiyyatın siyahısı

1. Əsədova R. Azərbaycan Milli Kitabxanası-90 // məqalələr məcmuəsi, Bakı, 2013.- s.28-37

2. Manafova U. M.F.Axundov adına milli kitabxanada sənəd-informasiya resurslarından istifadənin təşkilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin müasir vəziyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya.-Bakı,2019.-№2.-s.41-46

3. Salamlı S. Elektron məlumat bazalarının yaradılması və virtual xidmət // metodik tövsiyə.-Bakı, 2012.-s.46

4. Sarıcalinskaya K. Multikultural cəmiyyətdə innovativ kitabxana modeli (Milli Kitabxana və Prezident Kitabxanasının nümunəsində) // elmi əsərlər, Bakı, 2018.- s.126-132

5. Tahirov K., İsmayılova Ə. Azərbaycan Milli Kitabxanası virtual informasiya məkanında // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-Bakı,2020.-№2(47).-s.17-25

## MÜASİR TƏLİM PROSESİNDƏ TƏTBİQ OLUNAN YENİ TEXNOLOGİYALAR

**Kərimli Təranə Nəbi qızı**
***BDU-nun "Təhsildə qiymətləndirmə və monitorinq" ixtisaslaşması üzrə II kurs magistrantı***
***Elmi rəhbər: dos. Rəfiqə Bəxtiyarova***
***teranerehimova94@gmail.com***

**Açar sözlər:** Müasir təlim, təhsil prossesi, təlim texnologiyaları
**Ключевые слова:** Modern training, educational process, learning technologies
**Key words:** Современное обучение, образовательный процесс, технологии обучения.

Hazırki dövrdə Azərbaycan təhsil sistemində yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından istifadə edilir. Buna ilk növbədə səbəb ölkənin Avropa təhsil sisteminə inteqrasiya etməsidir.

Tədris prosesində təhsilalanın yüksək əxlaqi, mənəvi və tərbiyəvi keyfiyyətlərə sahib, geniş dünyagörüşlü bir şəxsiyyət kimi yetişməsi üçün yeni təlim texnologiyalarından məqsədəuyğun və doğru şəkildə istifadə edilməlidir. Belə olduğu halda yüksək nailiyyətlər əldə etmək olur.

"Texnologiya yunan mənşəli söz olub, sənətə sistemli yanaşma deməkdir. Başqa sözlə texnologiya xüsusi sahələrdə biliklər sisteminin tətbiqi nəticəsində xüsusi metodlardan istifadə edərək tapşırığı yerinə yetirmək tərzi kimi dərk olunur" [1, s.9].

Təlim texnologiyasının yaranması tarixi XX əsrin ikinci yarısından başlamışdır. Birinci bilikləri yoxlamaq məqsədilə texniki qurğular yaradılmışdır.

"Təlimin məzmununa uyğun texnologiyalar seçilməsi və onların ardıcıl, qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirmək məqsədəmüvafiqdir. Hazırda müasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönümlü-inkişafetdirici pedaqoji texnologiyalar aşağıdakılardır:

1) Əməkdaşlıqla təlim texnologiyası;
2) Layihələr metodu ilə təlim texnologiyası;
3) Modulla təlim texnologiyası" [1, s.12].

"Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası - bu təlim texnologiyasında əsas ideya nəyisə birlikdə yerinə yetirmək yox, birlikdə öyrənməkdir.

Layihələr metodu ilə təlim texnologiyası -bu metodla fəal təlim əsas şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarına uyğun qurulmuşdur. Metodun əsas mahiyyəti uşaqların əldə etdikləri biliklərin həyatda onlara lazım olmağını göstərməkdir. Müasir pedaqoji texnologiyaların bünövrəsi kimi layihələr metodu-müxtəlif təlim vasitələri və informasiya texnologiyalarından istifadə etməklə reallaşır. Burada həm müasir (kompüter telekommunikasiyaları, elektron baza göstəriciləri, video və multimedia vasitələri, faks, video rabitə), həm də ənənəvi (elm və məlumat kitabları, video yazıları və b.) tədris vasitələrindən istifadə edilə bilər. Həmçinin layihələr metodu bir kompleks problem üzrə yerinə yetirilir.

Modulla təlim texnologiyası - təlimdə şəxsiyyətyönümlü konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşməsi və praktikada tətbiqi onların müxtəlif şəraitdə, müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, bu sahədə pedaqoji təcrübənin öyrənilməsini tələb edir.

Məktəblərdə tətbiqinə geniş maraq göstərilən yeni pedaqoji texnologiyalardan biri də modulla təlim texnologiyasıdır. Təlimin modul texnologiyası dedikdə, uşaqların müstəqil olaraq dərsdə və dərsdənkənar vaxtlarda modullu iş prosesində konkret təlim məqsədlərinə nail olması başa düşülür" [1, s.14-15].

Yaşadığımız bugünkü zamanda informasiya və kommunikasiya, yeni texnologiyalar cəmiyyətin ayrılmaz bir hissəsini təşkil edir. Dünyanın bütün ölkələrində informasiyanin ötürülməsi bir çox fərqli yollarla olub.

"Ən yeni innovativ texnologiyalar informasiya ötürülməsini sürətləndirdi və kommunikasiyani daha yüksək nöqtəyə çatdırdı. İnsanlar müxtəlif ölkələrdə bir-biriləri ilə internet vasitəsilə işıq sürətində informasiya bölüşür və kommunikasiya yaradırlar. Bu yolla insanlar bir-birlərinə daha yaxın olur və tanıyırlar. Onlar mədəniyyətləri arasındakı oxşar və fərqli cəhətəri aşkar edir, bu yolla qarşılıqlı anlaşma yaradırlar. İnternet vasitəsilə müxtəlif məşhur universitetlərdə də təhsil almaq mümkündür. Hətta fiziki qabiliyyəti məhdud olan insanlar da bu yolla məktəblərdə, kolleclərdə, universitetlərdə distant təhsil ala bilərlər. Həqiqətən internetin bizə təhsil sahəsində verdiyi imkanlar çox önəmlidir və sadə bir dillə desək internet əsasən təhsil üçün yaradılmışdır" [1, s.6-7].

Təlim prosesinin əsas məqsədi təhsilalanların şüurunda dünyanın düzgün mənzərəsini formalaşdırmaq, onların intellektual, yaradıcı inkişafını, və əxlaqi tərbiyəsini təmin etməkdən ibarətdir. Yeni texnologiyaların təlimdə tətbiq edilməsi nəticəsində şagirdlərin öz düşüncələrini açıq, aydın şəkildə, məntiqi ardıcıllıqla ifadə edə bilirlər. Eyni zamanda bu metodlar şagirdlərdə yüksək ünsiyyət mədəniyyətini inkişaf etdirir, onların idrak fəallığını artırır. Müəllimlər yeni təlim texnologiyalardan istifadə etməklə tədrisi daha da maraqlı və rəngarəng edə bilirlər. Bu da dərsin darıxdırıcı olmamasına səbəb olur.

"Yeni təlim texnologiyalarının üstün cəhətləri odur ki, dərs tam fəallıq şəraitində keçir, təkcə müəllim deyil, şagirdlər də yaradıcılıq axtarışında olurlar, müstəqil düşüncə tərzi formalaşır, təşəbbüskarlıq, yeniliyə meyllilik güclənir" [1, s.39-47].

Yeni təlim texnologiyaları ilə müstəqil şəkildə bilik və bacarıq əldə edən şagirdlərin həm təfəkkürü inkişaf edir, həm də onların aktivliyi artır. Yeni təlim texnologiyaları ilə keçirilən dərslərin üstün cəhətlərindən biri də təhsilalanların sosiallığının artırılmasıdır.

Yeni təlim texnologiyalarının tətbiqi ilə təşkil edilən dərslərdə istifadə olunan tədris vəsaitlərinin rolu da danılmazdır. Hətta, onlarsız yeni təlim texnologiyaları əsasında keçirilən dərsləri təsəvvür etmək belə mümkün deyildir. Çünki əsas biliklər tədris vəsaitlərində əks olunur.

Bildiyimiz kimi, təlim prosesi müəllimin fəaliyyəti ilə təhsilalanın fəaliyyətini özündə cəmləşdirir. Bu iki fəaliyyətin qarşılıqlı əlaqəsi nəticəsində təhsilalanlar bilik, bacarıq və vərdişlər sisteminə yiyələnirlər. Yeni təlim texnologiyalarının düzgün qaydada və məqsədəuyğun tətbiqi ilə yeni informasiyalar mənimsədilir. Bunun üçün də müəllimin peşəkarlığı yüksək səviyyədə olmalıdır. Müəllim yaradıcı olmalı, daima yeniliklərlə tanış olmalı, öz ixtisasını, biliklərini təkmilləşdirməlidir. Ən əsası da yeni təlim texnologiyalarından istifadə etməyi bacarmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006, 132 səh.;

2. Ağayev Ə.A. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. Bakı: 2006, №1. səh. 29-44.;

3. Nəzərov M.. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 səh.

# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA HUMANİTAR ELMLƏR ÜZRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**Kərimova Könül**
*BDU, Kitabxanaşünaslıq kafedrasının magistrantı*
*Elmi rəhbər: dos.E.Y.Əhmədov*

Müasir dövrdə ölkəmizdə elm, mədəni quruculuq, elmi-texniki tərəqqi, təhsil və tərbiyə sahəsində əldə edilən nailiyyətlər, cəmiyyət üzvlərinin intellektual səviyyəsinin yüksəlməsi, ziyalı ordusunun sürətlə artımı, oxucu kontingentinin keyfiyyətcə yüksəlməsi kitabxana xidməti qarşısında professionallığın artırılmasını, xidmət prosesinin daha da optimallaşdırılması vəzifələrini qoymuşdur. Bu gün Respublikanın baş kitabxanası olan, əhaliyə yüksək səviyyədə kitabxana-informasiya xidmətini təmin edən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası zəngin universal fonda, elektron resurslara, oxuculara təqdim edilən əlverişli şəraitə malikdir və sənəd tələbatçılarının böyük həcmdə mürəkkəb və çoxşaxəli sorğularının operativ ödənilməsi, yüksək inkişaf etmiş biblioqrafik və elektron informasiya xidmətinin təşkili, xidmətin müasir metodlarından istifadə etməklə bütün oxucu kateqoriyasının informasiya tələbatlarını operativ şəkildə ödənilməsi ilə öz xidməti işini uğurla həyat keçirir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında elm sahələrinə görə göstərilən xidmətdə humanitar elmlər üzrə kitabxana-informasiya xidmətinin xüsusi mövqeyi vardır. Humanitar elmlər üzrə kitabxana-informasiya xidmətinin qarşısında duran vəzifələr, fondun təşkili və apardığı işin miqyası baxımından, sənəd tələbatçılarının sayı, kitab dövriyyəsi və s. xüsusiyyətlərinə görə digər elm sahələri üzrə kitabxana-informasiya xidmətindən kəskin surətdə fərqlənir. Humanitar elmlər üzrə kitabxana-informasiya xidmətinın məqsəd və vəzifəsi Antropologiya, Jurnalistika, Mədəniyyətşünaslıq, Tarix, Kulturologiya, Liqvistika, Ədəbiyyatşünaslıq, Elmşqnaslıq, Pedaqoqika, Politologiya, Hüquq, Psixologiya, Sosiologiya, Filologiya, Fəlsəfə, Estetika, Etika, Etnoqrafiya sahələri üzrə sənəd tələbatcılarına xidmət etmək, yüksək ixtisaslı kadrlar hazırlanmasına kömək göstərmək, hərtərəfli hazırlığa, yüksək professional səviyyəyə malik oxucuların elmi-tədqiqat, istehsalat sorğularını ödəmək, cəmiyyətin informasiya tələbatına cavab verməkdir.

Azərbaycan Milli kitabxanasında sənəd tələbatçılarının humanitar elmlər üzrə hərtərəfli sorğularına cavab vermək məqsədi ilə zəngin, məlumat-biblioqrafiya materialları, hər cür biblioqrafik göstəriciləri, həmçinin müxtəlif formalı və məzmunlu məlumat daşıyıcılarına malik çoxsahəli informasiya fondu, mütəxəssislərə xidmət etmək üçün xüsusi Hümanitar elmlər zalı mövcüddür. Bu gün bir çox oxucuları dövlət sənədləri - Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin, Nazirlər kabinetinin qərarları və digər rəsmi sənədlər daha çox maraqlandırır. Bu marağı nəzərə alaraq Milli Kitabxananın Humanitar elmlər zalında “Qanunvericilik üzrə onlayn məlumat bazası” oxucuların ixtiyarına verilmişdir. Müasir oxucu tələbinə cavab verən bu baza oxucuların vaxta qənaət etmələrinə kömək edir. Kitabxana kataloqundan istifadə etmədən oxucu birbaşa məlumat bazasından istifadə edir. Bu bazanı www.qanun.info (Azərbaycan dilində) www.consultinq.minimax.az - (rus dilində) internet səhifəsinə daxil olmaqla əldə etmək olar.

Eynı zamanda, həm mövzu biblioqrafik vəsaitləri, həm də “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından zəngin biblioqrafik informasiya materiallarını nəşr edən mərkəz kimi Milli Kitabxananın fəaliyyəti ön plana çəkilməlidir. Nəşr edilən biblioqrafiyaların 90 faizi humanitar elmləri əhatə edir. Bunlardan “Heydər Əliyev: biblioqrafiya”, “Nizami Gəncəvi”, “Cəlil Məmmədquluzadə – 150”, “İmadəddin Nəsimi – 650”, “İsmayıl Şıxlı: biblioqrafiya”, “Abuzər Xələfov: biblioqrafiya”, “Akademik İsa Həbibbəyli (Həbibbəyli İsa Əkbər oğlu): biblioqrafiya”, Ülu Öndərin fəaliyyətini əks etdirən “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin üççildli köməkçi göstəricisini, “Azərbaycan Xalq Cümhuriyyəti – 100: biblioqrafiya”, “Xocalı soyqırımı”, “Azərbaycan Xalçası” və s. adını çəkmək olar. Özündə çox qiymətli məlumatları əks etdirən bu vəsaitlər humanitar elmlərin müxtəlif sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynayır. Eyni zamanda mövzu ilə bağlı ölkə ərazisində və xaricdə dərc olunan kitab və kitabçaları, məqalələri toplu şəkildə özündə əks etdirərək müxtəlif oxucu qruplarının, mütəxəssislərin, alimlərin, ziyalıların, tədqiqatçıların, o cümlədən, kitabxanaçıların daha çox

müraciət etdikləri məlumat nəşrləri kimi də əhəmiyyət kəsb edir. Nəşr edilən biblioqrafik informasiya materialları əsasında Elektron məlumat bazaları (http://www.millikitabxana.az/databases ) hazırlanib, Milli kitabxananın saytı vasitəsilə istifadəçilərin ixtiyarına verilir.

Mədəniyyət Nazirliyinin rəhbər işçilərinə və aparıcı mütəxəssislərinə, eləcə də mədəniyyət, ədəbiyyat, incəsənət və turizm sahəsində fəaliyyət göstərən mütəxəssislərə, bu sahə ilə maraqlanan istifadəçilərə müvafiq mövzu üzrə Azərbaycan və rus dillərində kitabxanaya daxil olan dövri mətbuat nümunələrində dərc edilən məqalələr haqqında operativ məlumat vermək məqsədilə 2006-cı ildən etibarən “Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat” adlı ayda bir dəfə nəşr edilən cari biblioqrafik informasiya göstəricisi nəşr edilir. Mütəxəssislərin istifadəsini asanlaşdırmaq üçün kitabların şifrələri və sonda göstəricidə istifadə olunmuş qəzet və jurnalların siyahısı verilmişdir. Göstəricidə verilən məqalələrin tam elektron mətnini açıb oxumaq mümkündür. Vəsaitin elektron mətni Milli Kitabxananın saytında yerləşdirilir (http://www.millikitabxana.az/publications/publications-of-the-library

Azərbaycan Milli kitabxanasında humanitar elmlər üzrə kitabxana-informasiya xidmətinin əsas məqsədi tədqiqatçıların, ziyalıların, yazıçıların, incəsənət xadimlərinin, dövlət idarələri işçilərinin, ümumiyyətlə hümanitar elm sahələrində çalışan mütəxəssislərin və tələbələrin tədris, elmi tədqiqat, layihələrinin hazırlanması proseslərində meydana çıxan informasiya resurs tələbatlarının operativ şəkildə ödənilməsini təmin etməkdir. Bu prossesdə kitabxanaçıların oxuculara xidmət işinin təşkilində yüksək peşəkarlıq, elmi səriştəlik, pedaqoji ustalıq və oxucuların tərbiyə prosesində yaxından iştirak edə bilmək bacarığı da ön plana çəkilir.

Azərbaycan Milli Kitabxanası sənəd tələbatçılarına humanitar elmlər üzrə kitabxana-informasiya xidmətini günün tələbləri səviyyəsində təşkil etmək məqsədi ilə müxtəlif dillərdə resursların əldə edilməsi, universitet və tədqiqat mərkəzlərində nəşr edilmiş elmi jurnalların komplektləşdirilməsi işini uğurla həyata keçirir, ənənəvi, elektron forma və üsullardan bacarıqla istifadə etməklə, öz işində ardıcıl olaraq islahatlar aparır, yeni metodlardan istifadə edir, xidmət prosesini təkmilləşdirir və yeniləşdirir.

## SƏHVİN AŞKARLANMASI VƏ KORREKSİYASI ALQORİTMLƏRİ

**Qafarlı Aytac**
***Azərbaycan Texniki Universiteti***
***Elmi rəhbər: dos. Qəhrəmanov Vaqif***
***qafarli.1997@gmail.com***

### XÜLASƏ

Təqdim edilən məruzədə rabitə sistemlərində səhvlərin aşkarlanıb korreksiya edilməsinə baxılır.

**Açar sözlər:** Kod sözü, kod simvolları, səhvin aşkarlanması, səhvin korreksiyası, maneəyə davamlılıq, Xemminq məsafəsi, doğuran polinom.

### КРАТКОЕ СОДЕРЖАНИЕ

В представленном докладе рассматривается вопросы обнаружения и коррекции ощибок в системах связи.

**Ключаевые слова:** Кодовое слово, кодовые символы, обнаружения ощибок, коррекции ощибок, сопротивление препятствия, расстояние Хемминга, порождающий многочлен.

### SUMMARY

In the presented report, the correction of errors in communication systems is being considered.

**Keywords:** Code word, code symbols, the detection of error, the correction of the error, obstacle resistance, Hemming distance, civilized polynom.

**Giriş.** Müasir telekommunikasiya sistemlərində istifadə edilən rabitə kanalları, ideal olmayıb müxtəlif mənşəli maneə siqnallarının təsirlərinə məruz qalırlar. Məhz bu səbəbdən də, rabitə sistemlərindən keçərək ötürülən siqnallar təhrif olunurlar. Məlumatların kodlanmasında sadə kodlardan istifadə olunarsa, bu halda rabitə kanallarından qəbul olunan kod sözlərində səhvlərə məruz qalmış kod simvollarının yerinin müəyyən edilməsi mümkün olmur. Bu isə, son nəticədə məlumatın səhv qəbul olunmasına gətirib çıxarır [1].

**Əsas hissə.** Rabitə sistemlərindən keçərək ötürülən məlumatların düzgünlüyünə yüksək tələblər qoyulduğundan, bir çox hallarda rabitə kanalları bu tələblərin öhdəsindən tam şəkildə gələ bilmir. Bu çatışmazlığın aradan qaldırılması üçün, səhvlərin aşkarlanması və korreksiya edilməsində müxtəlif üsullardan istifadəyə ehtiyac yaranır [2].

Əgər məlumatın kodlanmasında istifadə edilən ilkin sadə kodun uzunluğu, qəbuledici məntəqədə kanaldan daxil olan kodun uzunluğuna bərabər olmuş olarsa, belə olan halda veriliş prosesində baş vermiş səhvin aşkarlanması mümkünsüz olur. Veriliş prosesində baş vermiş səhvin aşkar edilərək ləğv edilməsi üçün istifadə edilən ən sadə üsul təkrar veriliş alqoritmləridir. Əgər müxtəlif maneə faktorunun təsirindən baş verə biləcək səhvləri aşkar etmək məqsədilə üçqatlı təkrar veriliş üsulundan istifadə edilmiş olarsa, onda verilməsi tələb olunan informasiyanın ötürülməsi üçün lazım olduğundan daha çox məlumat ötürülmüş olacaqdır. Bu səbəbdən də veriliş sürəti aşağıya düşəcək və bunun nəticəsində informasiyanın ötürülməsi üçün lazım olduğundan daha çox məlumat istifadə ediləcək [3].

İnformasiya verilişi prosesində baş verən səhvlərin aşkar edilməsinin ən sadə alqoritmi, kod sözlərində cütlük şərtinə nəzarət edilməsi üsuludur. Kod sözlərinin maneəyə davamlığının artırılması adətən uzunluğu M bit olan verilənlər blokunu ona əlavə simvollar daxil edilərək, N elementli kod sözünə çevirməklə nail olunur. Yəni, bu çevirmə prosesində M elementli məlumat bloku $N > M$ elementli məlumat blokuna çevrilir. Yeni formalaşdırılan koda əlavə edilən məlumat artıqlığı $1 - M/N$ şəklində xarakterizə olunur. Veriliş zamanı yaranan səhvin aşkarlanması ehtimalı isə, $M/N$ şəklində müəyyən edilir (Bu nisbətin qiyməti nə qədər kiçik olarsa, səhvin aşkar edilməsi ehtimalı və bu çevirmə prosesində istifadə edilmiş məlumat artıqlığı bir o qədər çox olacaqdır).

Veriliş prosesində informasiyanın maneəyə davamlı kodlanılması elə olmalıdır ki, sadə kod sözlərinə əlavə edilən yoxlayıcı kod simvollarının sayı mümkün qədər az və dekodlama prosesində baş verə biləcək səhv ehtimalının qiyməti minimum olsun. Bu prosesdə kodlama üsulunun seçilməsində Xemminq məsafəsi böyük rol oynayır.

Rabitə sistemlərində sadə kodun maneəyə davamlı koda çevrilməsində bir yoxlayıcı simvola malik kodlardan geniş istifadə edilir. Bu kodlarda M bitli məlumat blokuna bir bit əlavə edilir. Əlavə edilən kod simvolunun işarəsi, M elementli kod sözündəki vahid simvolların sayının cüt yaxud tək miqdarda olmasından asılıdır. Məsələn, iki bitli – 00, 01, 10, 11 kod sözlərinə yoxlayıcı simvollar əlavə etməklə formalaşdırılan cütlük kodunun kod kombinasiyaları belə olacaqdır: 000, 011, 011, 110. Bu kod kombinasiyaları bir səhvi aşkar edən maneəyə davamlı kodun kod sözləridir. Bu kod kombinasiyalarının verilişi prosesində kod simvollarından ixtiyari biri səhv qəbul olunarsa, onda cütlük şərti pozulur, bu isə, kod sözündə simvollardan hansısa birinin səhv qəbul olunduğunu göstərir. Səhv aşkar edilən kod sözü ləğv edilir. Bu haqda əks-əlaqə kanalı ilə vericiyə məlumat verilir və səhv qəbul olunan kod təkrar verilir [4].

Fərz edək ki, veriliş prosesində səhvin baş verməsi tezliyi (BET – Bit Error Rate) $p == 1 \cdot 10^{-4}$-ə bərabərdir, yəni hər ötürülən 10000 kod simvolundan biri səhv qəbul olunur. Belə olan halda səkkiz bitlik kod sözünün qəbulu ehtimalı $1-(1-p)^8 = 7{,}9 \cdot\cdot 10^{-4}$-ə bərabər olacaqdır. Səkkiz elementli kod sözünü maneəyə davamlı cütlük kodunun kod sözünə çevirmək üçün ona bir simvol əlavə etmiş olsaq, kod sözündəki səkkiz simvoldan istənilənində səhvin baş verməsini aşkarlamaq mümkün olur.

Maneəyə davamlı kodun uzunluğunun tapılması $n = k + r$ şəklində müəyyən edilir. Burada, k – sadə kodun uzunluğu, r – əlavə edilən yoxlayıcı simvolların sayıdır. Baxılan misalda, sadə kodun uzunluğu $k = 8$, yoxlayıcı simvolların sayı $r = 1$ olduğundan, formalaşdırılan bir səhvi aşkarlaya bilən kodun uzunluğu

$n = k + r = 8 + 1 = 9$ olacaqdır. Doqquz elementdən birisinin səhv qəbul olunması ehtimalı $9\text{p}(1-\text{p})^8$-ə bərabər olacaqdır. Onda səhvin aşkarlana bilinməsi ehtimalını hesablasaq alarıq: $1-(1-\text{p})^9-$ $-9\text{p}(1-\text{p})^8 = 3{,}6 \cdot 10^{-7}$. Kodun uzunluğunun $n = 8$ və $n = 9$ olan hallarda, səhvin aşkarlanmaması ehtimallarının müqayisəsi göstərir ki, $n = 8$ elementli sadə kodun kod sözünə bir yoxlayıcı simvolun əlavə edilməsi, səhvin aşkarlanmaması ehtimalını 1000 dəfə azaldır [5].

Müasir telekommunikasiya sistemlərində veriliş prosesində baş verə biləcək səhvlərə nəzarət edilməsi üçün dövrü kodlarda tsiklik cəmin hesablanması metodundan (CRC – Cyclik Redundancy Cheek) istifadə edilməsi daha məqsədəuyğun hesab edilir. Bu metoddan istifadə edilərkən ötürüləcək kadra uyğun gələn $\text{F}(\text{x})$ polinomunu, xüsusi seçilmiş $\text{g}(\text{x})$ – doğuran polinomuna bölürlər. Bölmə nəticəsində alınan qalıq vasitəsilə baş verə biləcək səhvlərə nəzarət edilir.

İnternetdə CRC-nin hesablanması aparat üsulu ilə realizə edilir. Səhvin aşkarlanması üçün doğuran polinomu $\text{g}(\text{x}) = 1 + \text{x}^2 + \text{x}^3 + \text{x}^5 + \text{x}^7$ olan dövrü koddan istifadə edildiyi hal üçün, CRC-in hesablanmasını realizə edən, qurulmuş sxemi şəkil 1-də göstərilib.




**Şəkil 1.** CRC hesabatının realizəsi sxemi

Rabitə kanalından daxil olan kod sözü sürüşmə registrinə (səhv sindromunun hesablanması registrinə) yazılır, həm də bu yazılma müddəti ərzində kod sözünə uyğun $\text{F}(\text{x})$ polinomu $\text{g}(\text{x})$ polinomuna bölünməklə $\text{S}(\text{x})$ səhv sindromu polinomu müəyyən edilir. Əgər qəbul olunan kod kombinasiyasında səhv yoxdursa, yaxud aşkar edilə bilinmirsə, onda $\text{S}(\text{x}) = 0$ alınır, əks təqdirdə isə, $\text{S}(\text{x}) \neq 0$ alınır. Səhv sindromunun sıfırdan fərqli olması qəbul olunan kod sözündə səhvin olduğunu göstərir. Beləliklə də, rabitə kanalından keçərkən qəbul olunan kod kombinasiyasında səhvin baş verməsi aşkarlanır [6].

**Nəticə.** Səhvin aşkarlanması üçün CRC hesablanılmasının metodundan istifadə edilməsi daha məqsədə uyğundur. Bunun üçün kifayətdir ki, səhv sindromu hesablanılsın.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Блейхут Р. Теория и практика кодов, контролирующих ощибки. – М.: Мир, 1986.
2. Витерби А. Д. Отира Д. К.
3. Мельнико Д. А. Организация и обеспечение безопасности информационно – технологических сетей и систем. М.: ІДО, 2012.
4. Сетенов Ю. А. Алгоритмы телекоммуникационных сетей. – М.: Бином, 2016.
5. Соловьева Ф. И. Введение в теорию кодирования. – Новосибрск: Изд.-во НГУ, 2011.
6. Трифонов П. В. Основы помехоустойчивого кодирования. – СПБ.: Изд.-во Политехнического университета, 2011.

# FIRE RETARDANTS FOR WOOD OF HISTORICAL MONUMENTS

**Qasımlı F.**
***Western Caspian University***
***School of High Technologies and Innovative Engineering, student***
***M.S. Nasirov, teacher***
**nasirovmursal@gmail.com, mursel7676@mail.ru, fgasymly@gmail.com**

**Ключевые слова:** Древесина, термический, антисептик, антипирен, защита, разрушение.
**Açar sözlər:** Oduncaq, termiki, antiseptik, antipiren, mühafizə, dağılma.
**Keywords:** Wood, thermal, antiseptic, retardant, protect, destruction.

## ABSTRACT

Wood is a unique material of living nature, which since ancient times has been used by man not only as fuel, but also as a building material. Wood - durable and lightweight at the same time material with good thermal insulation properties, the ability to absorb shock loads, damp vibration. Wood is easy to handle, sticks together, holds metal and other fasteners, and has excellent decorative qualities and a unique resonance ability.

## INTRODUCTION

Such a rare combination of valuable properties, along with the easy availability of wood, renewability and the possibility of reuse, determines its wide and varied use in various sectors of the national economy.

However, wood has a number of disadvantages: structural heterogeneity, anisotropy, variability of properties, presence of defects, the ability to dry out, swell, warp and crack, rot and ignite. The most a significant disadvantage of wood is its low durability, that is the ability to withstand factors and agents of destruction. Concerning, studying and changing the properties of natural wood allows not only their improve, but also eliminate the disadvantages inherent in wood, as well as obtain new materials with the required technological and operational properties. To protect wooden structures from biological damage, constructive measures and chemical methods are used.

The main source of moisture for wooden structures is moisture condensation, therefore, design measures are aimed at eliminating moisture in wooden structures during the operation of buildings. Chemical protection measures against wood decay and damage by wood-destroying insects - antiseptic and preservation. Wood preservative - surface application of chemicals to wood, with a poisonous effect, destructive for biological destroyers. Antiseptic treatment is carried out by various methods: by applying antiseptic solutions with brushes, hydraulic panels, soaking or short-term immersion of wooden parts in solutions (heated and unheated).

Wood preservative can be carried out on construction sites. To protect the wood, a thin protective layer is applied to its surface. The retention of protective agents depends, on the one hand, on the viscosity and surface activity of the impregnating liquid, and on the other hand, on the density, moisture and roughness of the surface of the wood itself. Impregnation is carried out using hydraulic controllers, sprayers and spray guns of various systems. In hard-to-reach places, brushes are used.

Another chemical treatment method is dipping or soaking. In the conditions of construction sites, wood is deeply impregnated in cold or hot aqueous solutions of antiseptics. For impregnation, metal baths with anti-float devices and a lid are used. Sometimes metal baths are replaced with wooden ones with walls and bottom, protected by a waterproof film material. Soaking is especially recommended if there is a risk of hygroscopic wetting during operation.

Canning method is carried out in the factory. When preserving, chemical preparations with a toxic effect, designed for biological destroyers, are introduced into the deep layers of wood. The following impregnation methods are used at domestic factories: autoclave under pressure above atmospheric; warming up - cold bath; surface application; autoclave-diffusion; combined drying-impregnation.

One of the most important tasks that builders have been solving for many centuries is fire protection of wood. During the construction or renovation phase of wooden structures, constructive measures are used

to protect the wood from fire. For this, wooden structures are removed from sources of fire or protected from direct exposure to it. Another way to solve this problem is to apply fire retardants to the surface of the wood - substances or mixtures that protect wood, fabrics and other materials of organic origin from ignition and self-combustion. To do this, wood is coated with fire retardant paints, varnishes and coatings or impregnated with aqueous solutions of fire retardant salts. As a rule, works on fire protection and wood biosecurity are carried out simultaneously. Fire retardant materials often contain antiseptics. The impregnating compound is applied to wooden elements using brushes, dipping or spraying. Impregnation of wooden structural elements consists in three-time treatment with a fire-retardant solution at a temperature of 10-15 ° C or two-time treatment at a solution temperature of 50-60 ° C (with a break between treatments for at least 6 hours). The impregnation is carried out at a positive air temperature. Do not impregnate wooden structural elements if they were previously coated with another impregnation or with different paints (oil and silicate). After impregnation, the parts should not undergo additional machining, as this removes the fire retardant layer.

Minimum consumption of fire retardant solutions per 1 liter:

- with two-time processing of the structure with a heated solution - 500 g / m2;
- with three cold solution processing - 550-600 g / m2;
- when impregnated by immersion method - 600 g / m2.

The tree begins to actively rot only under certain conditions. This requires a temperature above the freezing point of water (some representatives of mushrooms can grow with a slight minus), but below 50 degrees. Oxygen access and high air humidity are also important. The wood itself must also be moist.

To protect wood from moisture and decay, impregnations with water-repellent properties are used. Unfortunately, the process of wood decay is irreversible. That which has rotted has rotted. But you can stop this process so that it does not spread to the rest of the wood. This is how it is done. The area affected by rot is carefully cut down (with an ax, chisels), while some part of healthy wood is captured. Then, reinforcing metal rods are installed in the cut-out space, so that they would go into healthy wood to a certain depth and the area is carefully putty with acrylic or epoxy putty. This is a rather laborious and expensive procedure, so constantly treat the critical load-bearing wooden parts with anti-rotting impregnations, copper sulfate, mineral oils. Problems are easier to prevent than to cure.

Wood preservatives can be divided into the following groups:

1. Antiseptics or antiseptic impregnations for wood are chemical preparations that protect wood from biological destruction (decay, damage by woodworms, mold, house fungi).

2. Fire retardants or wood fire retardants are chemical preparations that protect wood and wood-based materials from the effects of fire.

3. Means of fire-biological protection of wood are complex fire-bio-protective preparations (antiseptic + fire retardant) that protect wood from biological destruction (decay, damage by woodworms, mold, house fungi) and the effects of fire.

Results and Discussion

Antiseptics, fire retardants MC (01), PP and fire-retardant preparations are supplied in the form of a dry powder and in the form of a ready-made working solution. Dry antiseptic can be prepared at the point of consumption by dissolving in warm water. In this case, it is necessary to dissolve the entire powder so as not to violate the required ratio of components in the finished solution. Ready-to-use solutions are supplied in cans of 5, 10 and 30 liters.

## LITERATURE:

1. С.Н. Горшин Консервирование древесины, Издательство «Лесная промышленность», Москва -1977

2. А.А. Чернуха, А.А. Киреев, А.Я. Шаршанов Огнезащита древесины с помощью гелеобразующих составов на основе силикатов Харьков – 2015

# DAŞQINLARIN BAŞ VERMƏSİNƏ METEOROLOJİ AMİLLƏRİN TƏSİRİ

**Qasımova Nəzrin**
***Bakı Dövlət Universiteti***
***Elmi rəhbər: dos. İsgəndərov S.M***
***nn_qasimova@outlook.com***

## XÜLASƏ

Daşqınlar bölgələrin iqlim şəraitindən, meteoroloji amillərdən, ərazinin relyefi, səth quruluşu xüsusiyyətlərindən asılı olaraq inkişaf edən təbii hadisədir. Ancaq daşqınlarda insan fəaliyyətinin təsiri danılmaz bir həqiqətdir. Son illərdə qlobal miqyasda daşqınların sayının və şiddətinin artması əsasən iqlim dəyişikliyinin təsirilə daşqınları intensivləşdirmişdir. Məqalədə meteoroloji amillərin təsirindən baş verən daşqınlar tədqiq olunmuşdur.
**Açar sözlər**: daşqın, meteoroloji amillər, külək, rütubət, təzyiq, torpaq

## SUMMARY

## INFLUENCE OF METEOROLOGİCAL FACTORS ON THE OCCURRENCE OF FLOODS

Floods are a natural phenomenon that develops depending on the climatic conditions of the regions, meteorological factors, the relief of the area, the characteristics of the surface structure. However, the impact of human activity on floods is an undeniable fact. The increase in the number and severity of floods on a global scale in recent years has intensified, mainly due to climate change. The article examines floods caused by meteorological factors.
**Keywords:** flood, meteorological factors, wind, humidity, pressure, soil

Son zamanlarda insanın təsərrüfat fəaliyyətinin ətraf mühitə təsiri güclənmişdir. Çay hövzəsində gedən proseslər, meşələrin qırılması,əkin sahələrinin düzgün idarə olunmaması təhlükəli daşqınların yaranmasına səbəb olmuşdur. Bəs daşqın nədir? Daşqın çayların su rejimində hər il təkrar olunan dövrdür, Çaylarda daşqının yaranmasının əsas səbəbi sutoplayıcıya intensiv yağışın ən çox yağdığı və kəskin temperatur artımı ilə müşayiət olunan qarın və buzların əriməsidir. Çayların suyunun artması, səviyyəsinin qalxması, yatağın tamamilə su altında qalması, bəzən də sahilləri basması ilə səciyyələnir.




**Şəkil-1.** Azərbaycan ərazisində illik maksimal yağıntının trendi,mm-lə [4, səh 206]

Daşqına səbəb olan meteoroloji amillər: yağıntı, temperatur, buxarlanma, külək, rütubət və təzyiqdir.Yağışlar daşqınların intensivliyinə, müddətinə və meydana gəlməsinə təsir edir. Güclü yağışlarda

süzülmə üçün kifayət qədər vaxt olmadığından səth axını artaraq, daşqınlarda artan rol oynayır. Davamlı bir intensiv yağışın müddəti artdıqca səbəb olacağı daşqının ölçüsü su hövzəsinin böyüklüyünə, toplanma vaxtına və hövzənin digər xüsusiyyətlərinə görə bir həddə çatır və yağış müddəti sonsuz olsa da, daşqın həcmi artsa da, daşqın zirvəsi dəyişmir. Yağış intensivliyinin dəyişkən olduğu hallarda, ən yüksək yağış dövründə maksimum həddə çatır. Bir əraziyə düşəcək yağıntılar ümumiyyətlə yağış, qar və ya dolu şəklində ola bilər. Yağışın daşqına təsiri yatağı doldurduqdan sonra su hövzəsindəki axın ilə başlayır. Bu vaxt, hövzəyə yağan yağışın bu təsiri bitki örtüyü və torpaq örtüyü tərəfindən udulur. Ancaq infiltrasiya son infiltrasiya qabiliyyətinə çatan kimi hövzəyə yağan yağış səth axınına keçərək daşqına səbəb olur. [1]

Daşqının yaranmasında qarın təsiri ərimənin başlaması ilə görülür. Bu vaxt səth və yeraltı suyun miqdarında ciddi dəyişiklik olur. Qar əriməsi daşqının axın sürətinə az təsir göstərir,lakin zirvəyə çatma vaxtı və daşqın vaxtı təsiri çox olur. Dolu ümumiyyətlə yerin temperaturu 0 ° C-dən yuxarı olduqda yağış yağdığından sürətli ərimə təmin edir və bu səbəbdən qısa müddətdə səth axınına çevrilə bilər. Bu səbəbdən quru ilə müqayisədə daşqınlarda daha təsirli olur. [1]

Qeyd etmək lazımdır ki, çöl zonası və dağlıq rayonların çay hövzlərindən məcraya daxil olan ərinti sularının kəmiyyəti qiymətləndirildikdə küləyin yarğanlara, qobulara, dərələrə və başqa mənfi relyef formalarına sovurub gətirdiyi əlavə qar həcmləri də nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, çöl zonası və dağlıq rayonların çay hövzələrindən məcraya daxil olan ərinti sularının kəmiyyəti qiymətləndirildikdə küləyin yarğanlara, qobulara, dərələrə qiymətləndirildikdə küləyin yarğanlara, qobulara, dərələrə və başqa mənfi relyef formalarına sovurub gətirdiyi əlavə qar həcmləri də nəzərə alınmalıdır. Belə qalın qar örtüyü qısa müddət ərzində əridikdə yüksək daşqın dalğaları və su sərfləri müşahidə olunur. [3, səh 143]

Daşqını təsir edən digər bir meteoroloji amil temperaturdur. Daşqın zamanı tempe-ratur dəyişikliyi baş verərək yağıntının növünə təsir göstərir, baş verəcək daşqın hidroqrafını da təsir edir. Temperatur 0 ° C-dən aşağı düşəndə qar şəklində, sıfırdan yuxarı qalxdıqda dolu və ya yağış şəklində olur. Qar əriyən anda hava ilə əlaqəli olan isti və sıx yağışlar xüsusilə mart-aprel aylarında meydana gələn ani daşqınlara səbəb olur. Bu halda daşqının pik dəyərinə çatma vaxtı az olduğundan, yüksək yamaclı ərazilərin aşağı axınlarında yerləşən yaşayış məntəqələri üçün təhlükəli vəziyyətlər yarana bilər.




**Şəkil 2.** Daşqın hadisəsinə meteoroloji amillərin təsiri

Digər bir meteoroloji parametr olan külək xüsusilə qar əriməsinə təsiri ilə daşqını sürətləndirir. Bunlara əlavə olaraq təzyiq və rütubət kimi amillər də dolayı təsir göstərir. Güclü yağışlar nəticəsində yamac hərəkətlərinə meylli olan zəif daşıyıcı qabiliyyətli torpaqlarda sürüşmə tez-tez görülür. Sürüşmə və böyük torpaq kütlələrinin axına doğru hərəkəti, axın hissəsinin daralmasına səbəb olaraq daşqının intensivliyini artırır. Axın içərisində sürüşən dağıntılar axın istiqamətindəki körpülər və borular membranında yığılır və axın axınının qarşısını alır. Bu çöküntülər daşqın suyunun bir su hövzəsinə

çatmasının qarşısını alır və suyun səviyyəsinin yüksəlməsinə səbəb olur. Bu səbəbdən sürüşmə daşqınların şiddətinə getdikcə daha çox təsir göstərir.

Torpaq növü infiltrasiya üçün ən vacib amil olduğundan, daşqın dövrü boyunca təsirini davam etdirir. Daşqından əvvəl torpağın nəm vəziyyəti axıntıya böyük təsir göstərir.Quru bir yerə düşən daşqına səbəb olacaq bir yağış səth axınına keçməyəcək, çünki yerin sızma qabiliyyəti yüksək olacaqdır. Doymuş bir yerdə, aşağı sızma qabiliyyəti, yağışın birbaşa axıdılmasına çevrildiyi üçün daşqın ehtimalını artıracaqdır.[1]

Daşqınlar nəticəsində qrunt sularının səviyyəsi yer səthinə yaxınlaşdığından torpaqların tərkibi yüksək dərəcədə minerallaşır və bunun nəticəsində şoranlaşma baş verir. Şoranlaşma nəticəsində əvvəllər əkinə yararlı olan torpaq sahələri uzun müddət dövriyyədən çıxır. [2]

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, daşqınların yaranmasında iqlim yaradan amillər iştirak edir. Təbii ki bu amillər relyef, ərazinin geoloji quruluşu, səth quruluşu ilə qarşılıqlı əlaqədə olaraq birgə təsir göstərir. Beləki, əsasən çaylarda daşqınların başlanmasına temperatur amili və ən çoxda yağıntılar təsir edir. Qlobal və regional iqlim dəyişmələri də bu hadisələrə birbaşa təsir göstərir. Təsadüfi deyilki, qlobal və regional istiləşmə dövrlərində təbii fəlakətlərin sayı artmaqda davam edir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. https://insapedia.com/taskin-nedir-taskin-nedenleri-turleri-ve-olusumu/
2. Осипов В.И. Природные катастрофы на рубеже XXI века. Вестник РАН Том No24. – 2001 г.
3. F.Ə.İmanov. Çay axımı. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Bakı-2002
4. R.MahmudovMüasir iqlim dəyişmələri və təhlükəli hidrometeoroloji hadisələr, Bakı-2017


## “YÜKSƏK MOLEKULLU BİRLƏŞMƏLƏR” ORTA MƏKTƏB KİMYA KURSUNDA


**Qəribli Ş.E., Əhmədova N.F., Cəfərov Y.İ.**

***Bakı Dövlət Universiteti***

***sahaneqaribli@gmail.com***


**Açar sözlər:** rabitə, inteqrasiya, monomer, polimer, reaksiya, limmerizasiya.

Kimya fənninin təməli olaraq ən vacib funksiyası öyrədilmənin uğurla mənimsədilməsi üçün fənnin elmi bazasının yaradılması və şagirdlərdə sistematik düşüncənin formalaşdırılmasıdır. Öyrənilən maddi obyekt bir-birinə bağlı bir çox elementlərdən ibarət sistemdir [8]. Nəzəri materialı əldə tutaraq, fənlərarası kimya əlaqələrindən istifadə etməklə digər fənlərlə əlaqə yaradaraq sistem düşüncəsinin formalaşması mümkündür.Fənlərarası əlaqələrin əsas didaktik funksiyası obyektiv fənlərin təbiət fənləri məzmununda əks olunmasıdır.[9]. P.G.Kulagin fənlərarası əlaqələrjn bir öyrənmə prinsipi olduğunu qeyd edir.Ona görə məktəb fənləri yeni proqram materialının əsasında tədris olunur. [3].

N.A.Loşkareva fənlərarası əlaqənin, obyektiv dünya hadisələrinin qarşılıqlı asılılığı barədə biliklərin təhsil prosesində əks olunmasının reallığını qeyd edir. Bunlarla yanaşı fənlərarası inteqrasiya- tədris planlarının, dərsliklərin və metodikanın qarşılıqlı uyğunluğunu təmin edir.

E.E.Miçenkova görə bu uyğunluq mövzulararası əlaqələrin funksional xüsusiyyətini özündə birləşdirir Buradan nəticəyə gəlmək olur ki “əlaqə”, “ münasibət” ifadələri “tutarlılıq” ifadəsi ilə sinonim ola bilməz.[6].

V.N. Maksimova fənlərarası inteqrasiyanın xüsusilə əhəmiyyət daşıdığını bildirir: “müasir elmi inteqrasiya şərtləri,məzmunun formalaşması amili və mövzunun quruluşu funksiyanın müxtəlifliyinin obyektiv mənbələrindən biridir”.[5]

Fənlərarası inteqrasiyanın kimya müəllimindən tələbi ondan ibarətdir ki, ilk növbədə, məzmunu bilməyi tələb edən metodiki tapşırıqları, digər üzrə proqramlar və dərsliklərdən istifadə etmək bacarığı olsun. Kimya müəlliminin əməkdaşlığı olmadan digər fənn müəllimləri ilə tədris praktikasında fənlərarası əlaqənin həyata keçirilməsi mümkün deyil.

Müasir məktəblərdə fənlərarası əlaqə inkişaf etməkdədir. Bu istiqamətdə müəllimin yaradıcılıq işinin metodologiyası olmalıdır və bu bir neçə mərhələdə mövcuddur:

1. Kimyada proqramın "Fənlərarası rabitə" bölməsinin,digər mövzularda dərsliklər, əlavə elmi populyar və metodik ədəbiyyatın öyrənilməsi

2. Kursdan istifadə edərək fənlərarası əlaqənin dərs planını, çıxış və tematik plan hazırlamaq

3. Fənlərarası əlaqənin həyata keçirilməsi üçün cihaz və texnikanın hazırlanması, xüsusi dərslərin keçirilməsi (idrak tapşırıqlarının formalaşdırılması,ev tapşırığı, seçilmiş tələbələr üçün əlavə ədəbiyyat, lazımi dərsliklərin hazırlanması və digər mövzularda əyani vəsaitlər, istifadəsi üçün metodiki üsulların inkişafı)

4. Metodların hazırlanması, mürəkkəb təşkilati formaların hazırlanması və həyata keçirilməsi ( fənlərarası əlaqələrlə ümumiləşdirici dərslər, kompleks seminarlar, ekskursiyalar,dairə dərsləri, fənlərarası mövzular üzrə seçmə fənlər)

5. Fənlərarası inteqrasiyanın həyata keçirilməsinin nəticələrini izləmək və qiymətləndirmək üçün metodların hazırlanması, tədrisdə mövzu əlaqələri (suallar, tələbələrin bacarıqlarını müəyyənləşdirmək üçün tapşırıqlar) yaratmaq

İnformasiya meyarına fənlərarası inteqrasiyanın faktiki, konseptual və nəzəri növləri var. Fərqli subyektlər arasındakı əlaqələrin spesifikliyində mühüm rol oynayır.[10]. " Yüksək molekullu birləşmələr" mövzusunda mövzulararası əlaqə əsas yer tutur. Biologiya ilə əlaqələr faktiki və konseptual, fizika ilə nəzəri və konseptual, riyaziyyat ilə nəzəri, coğrafiya ilə faktiki. Bölmələrarası tətbiqetmə üçün tədris materialının seçilməsinə inteqrasiya olunmuş yanaşma əlaqələrinə aşağıdakılar daxildir.[12]:

1. Məsələləri müəyyənləşdirmək üçün kimya kursunun tədris materialının təhlili mövzulararası bir xarakter tələb olunan əhatə dairəsi;

2. əlaqələri tətbiq olunan fərqli fənlərdən materialın təhlili və seçilməsi;

3. dozaj (prioritetə əsaslanaraq bir materialın digərindən üstün olması) subyektlərarası əlaqələrin həyata keçirilməsi üçün mövzulararası material və subyektlərarası sintezin nəticələrinin proqnozlaşdırılması.

Sistem düşüncəsinin formalaşması üçün müəllim fənlərarası inteqrasiya, həm də onların müstəqil tədrisi də daxil olmaqla müxtəlif zehni əməliyyatların aparılmasını təşkil etməlidir. Metodoloji tədqiqat nəticəsində kimya tələbələrinin tədrisinin başlanğıc mərhələlərində fənlərarası müstəqil axtarış əlaqəsi kimya ilə bağlı müəyyən problemlərin həllinə tətbiq olduğu ortaya çıxır. Lakin bu müəyyən qədər çətin və təsirsizdir [2]. Bəlkə də tələbələr üçün fənlərarası inteqrasiyanın nəcibliyi qeyri-adi bir şeydir. Bu kimi problemləri aradan qaldırmaq üçün məktəblilərə başlanğıc dərslərdən sistematik yanaşma öyrədilməlidir.

Məktəb kimya kursunda " Yüksək molekullu birləşmələr" mövzusu fənlərarası əlaqələrin ən geniş yayılmış mövzularından biridir. Əsasən, bu məktəbdə biologiya kursu ilə daha çox əlaqəlidir. Bu, molekulyar təbiətdə, canlı orqanizmlərdə aktiv maddələrin ( zülallar, nuklein turşuları, karbohidratlar) olması ilə bağlıdır. Məktəb dərsliklərinin müəllifləri dərsliklərin, tapşırıqların, məşğələlərin mətnini tərtib edərkən biologiya ilə inteqrasiyanı daim tətbiq edirlər [1;11]. Həm də biologiya ilə kimya fənlərinin inteqrasiyası mövzuların öyrənilməsini və daha asan mənimsənilməsini təmin edir. 10 və 11-ci siniflərdə məktəblilər biologiya kursunda ümumi bioloji proseslərin kimyəvi əsaslarını öyrənirlər.

Buna görə də 11-ci sinfin sonunda kimya dərslərində makromolekullar, onların ümumi xüsusiyyətləri, yüksək molekullu birləşmələr və onların xassələrinin bioloji proseslərdə rolunu xarakterizə etmək məsləhətdir.

Məktəbdə kimyanın biologiya ilə yanaşı bir çox fənlərlə inteqrasiyasını təmin etmək olar. Odur ki digər fənlərlə " Yüksək molekullu birləşmələr" mövzusunun əlaqəsinə baxaq:

1. Riyaziyyat- orta polimer parametrlərinin hesablanması (polimerləşmə dərəcəsi, molekulyar çəki), makromolekulların statistik paylanması əlaqələrin sayı

2. İnformatika- Polimer materiallardan və karbohidrogen xammal mənbələrindən istifadə etməklə kompüterlərin sıxılması

3. Tarix- Polimerlərin geniş yayılması ilə idarə olunan texnoloji inqilab

4. Coğrafiya- Polimer materialların və karbohidrogen xammal mənbələrinin istehsalının qarşılıqlı təşkili

5. Biologiya- Bioloji makromolekulyar birləşmələr həyatın kimyəvi əsasları kimi

6. Fizika- Cisimlərin mexaniki xüsusiyyətləri, gərginlik və deformasiya anlayışı, plastiklik və elastiklik

7. İncəsənət- Polimerlərin texniki sənətdə istifadəsi

8. Bədən tərbiyəsi- Polimer materiallardan hazırlanmış inventar istifadəsi. Bəzi idman oyunlarının istifadəsi olmadan mövcudluğunun mümkünsüzlüyü elastik cisimlərin meydana gəlməsi (futbol, basketbol, voleybol). Kimyəvi əzələ büzülməsinin təbiəti

9. H.B.Ə.T.- Polimer materialların rasional istifadəsi və atılması

10. Əmək təlimi- Polimer materialların emalı xüsusiyyətləri, termoplastiklik, termosetləmə, polimer əsaslı yapışqan və boyaların istifadəsi, saxlama üçün polimer materialların istifadəsi və məhsullar

11. Rəsm- Elastomerlərin istifadəsi nümunəsi olaraq silgi

Yüksək molekullu birləşmələrin tədqiqi ən çox riyaziyyat, fizika və biologiya kimi təbiət elmi dövrünün akademik mövzuları ilə əlaqələndirilir. YMB-nin istehsal sahəsi ilə də əlaqəsi danılmazdır. Məsələn, iqtisadi coğrafiyaya nəzər salsaq polimer materialların və onlar üçün xammal mənbələrinin – neft və qazın idarə olunmasının nisbi mövqeyini görə bilərik. Buna misal olaraq, Bakı Neft Emalı Zavodunu göstərmək olar ki, neftin polipropilen vərəqlərdə təmizlənməsi bizə aydındır.

Tarixi sənət əsərləri, kinematoqrafiya film ixtiralarının olması polimerlər olmadan ağlasığmazdır. Bədən tərbiyəsi dərsləri polimer materiallardan hazırlanmış avadanlıqlardan istifadə etmədən o qədər də maraqlı olmayacaqdı.

Ancaq kimya ilə əlaqəli mövzulara qayıdaq.Polimerləşmə reaksiyası zamanı böyüyən zəncirinin təsadüfi bir proseslə sona çatması, makromolekulların zəncir boyunca paylanması (əlaqələrin sayına görə) ehtimalın riyazi nəzəriyyəsi çərçivəsində təsvir edilə bilər. Makromolekulun xassələrini öyrənərkən eyni zamanda bir şeyi nəzərdən qaçırmaq olmaz ki, bir-birinə bağlı atomların sayı, polimer elmi kimya elminin ən çox inkişaf etmiş sahələrindən biridir. Belə bir "həvəs" gənc kimyaçıların diqqətini polimer sahəsinə cəlb edə bilər.

Polimerlərin mexaniki xassələrini deformasiya və dartılma kimi anlayışlarsız araşdırmaq çətin olardı."Plastiklik" və "elastiklik" kimi fiziki anlayışları ümumiyyətlə kimya müəllimi şagirdlərə izah etməlidir. Bu mövzunun fənlərarası əlaqələrinin bir çox nümunəsi var.

Məktəb kimya kursunda yüksək molekullu birləşmələrin öyrənilməsinin üç səbəbini qeyd etmək lazımdır. YMB mövzularının tədrisi bioloji materialşünaslığı qrafiki və kimyəvi cəhətdən izah edir.[7].

Beləliklə, "Yüksək molekullu birləşmələr" mövzusu olduqca böyükdür və fənlərarası inteqrasiyanın imkanlarından istifadə etməmək səhv olardı.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Вивюрский В. Я. Задачи, вопросы и упражнения по органической химии. – М.Владос, 1999
2. Зайцев О.С. Системно-структурный подход обучения общей химии. – М.: МГУ;1983.
3. Кулагин П.Г. Влияние межпредметных связей на усвоение программного материала в вечерней школе. – Диссертация на соискание ученой степени кандидата Педагогических наук. – М., 1965.səh-7
4. Лошкарева Н.А. Межпредметные связи и их роль в реформировании знаний и Умений школьников. – Диссертация на соискание ученой степени кандидата педагогических наук. – М., 1967. səh-70
5. Максимова В.Н. Межпредметные связи в учебно-воспитательном процессе современной школы. – М.: Просвещение, 1987. səh-33

6. Минченков Е.Е. Межпредметные связи на основе структур химии и физики / Советская педагогика. – 1971. – № 11. səh-32-39.

7. Саламов А.Х. и др. Изучение темы «Высокомолекулярные соединения» в курсе Химии средней школы // Материалы XXV Международной научно-практической Конференции «Наука в современном мире». – М., 2016.

8. Саламов А.Х. Обучение химии на основе межпредметных связей. – Диссертация На соискание ученой степени кандидата педагогических наук. – М., 2003. səh- 4.

9. Федорова В.Н., Кирюшкин Д.М. Межпредметные связи. – М., 1972. səh-152

10. Шаталов М.А. Межпредметные связи в формировании системных связей // Химия в школе. – 1997. – № 5.

11. Чернобельская Г.М. Методика обучения химии в средней школе. – М.: Владос,2000

12. Чертков И.Н. Эксперимент по полимерам в средней школе. – М.: Просвещение,1980.

# FƏAL TƏLİMDƏ LİNQVİSTİK TƏHLİLİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

**Qəhrəmanova Fatimə**
***Sumqayıt Dövlət Universiteti***
***Elmi rəhbər: Nabat Cəfərova***

## XÜLASƏ

Fəal təlim zamanı linqvistik metod çox vaxt ümumilikdə idrak nəzəriyyəsinin əsas prinsiplərini formalaşdıran elmlərin ümumi metodologiyası, fəlsəfi idrak metodu deməkdir. Nəticə etibarilə linqvistik metod dil haqqında məlumat əldə etməyin, dili öyrənməyin vasitəsidir. Bu cür metodların birləşməsi xüsusi metodlar sistemini təşkil edir.

Məktəbdə şagirdlərə linqvistik təhlilinin elementlərini öyrətmək üçün metodiki tövsiyələr müəllimə uşaqların diqqətini nitqinin zənginliyinə, xalqın mənəvi dəyərlərinə yönəltməyə imkan verir.

**Açar sözlər:** linqvistik təhlil, dil qaydaları, dil tarixi, linqvistik təlimin elmi-metodik əsasları, fəal təlim

## SUMMARY

## PROBLEMS OF TEACHING LINGUISTIC ANALYSIS IN ACTIVE LEARNING

During active learning, the linguistic method often means the general methodology of the sciences, the philosophical method of cognition, which forms the basic principles of the theory of cognition in general. As a result, the linguistic method is a means of learning a language, not learning about it. The combination of such methods forms a system of special methods.

Methodical recommendations for teaching students the elements of linguistic analysis at school allow the teacher to draw children's attention to the richness of speech, the moral values of the people.

**Keywords:** linguistic analysis, language rules, language history, scientific-methodical bases of linguistic training, active learning

## РЕЗЮМЕ

## ПРОБЛЕМЫ ОБУЧЕНИЯ ЛИНГВИСТИЧЕСКОМУ АНАЛИЗУ В АКТИВНОМ ОБУЧЕНИИ

В активном обучении лингвистический метод часто означает общую методологию наук, философский метод познания, который формирует основные принципы теории познания в целом. В результате лингвистический метод является средством изучения языка, а не его изучения. Сочетание таких методов образует систему специальных методов.

Методические рекомендации по обучению школьников элементам лингвистического анализа в школе позволяют учителю обратить внимание детей на богатство речи, нравственные ценности людей.

**Ключевые слова:** лингвистический анализ, языковые правила, история языка, научно-методические основы лингвистической подготовки, активное обучение.

Fəal təlimdə linqvistik təhlilin tədrisi məsələləri

Fəal təlimdə dilin müxtəlif tərəflərinin, aspektlərinin linqvistik təhlilinin metodları və prinsipləri fərqlidir. Dilin bu və ya digər aspektinin izah olunması çox vaxt linqvistik baxış metodundan ayrılmazdır. Eyni zamanda, dilin özü fonetik, leksikologiya, morfologiya kimi bölmələri özündə birləşdirən ənənəvi (klassik) dilçilik çərçivəsində inkişaf etdirilmiş dil təsviri modelində əks olunan mürəkkəb və tarixən hərəkət edən bir fenomen olaraq təyin edilir. Bu bölmələrin hər birinin öz tədqiqat mövzusu var və eyni zamanda vahid dil elminin bir hissəsini təşkil edir. Fəal təlimdə linqvistika metodundan istifadə, bir elm kimi quruluşunun özü açıq şəkildə göstərir ki, dil fenomenlərini təsvir edərkən dilin müəyyən bir sistem olduğundan irəli gəlir.

Dili bir sistem olaraq anlamaq XX əsr dilçiliyinin ən vacib metodoloji prinsipinə çevrilir. Buna görə də dil tədqiqatlarının, təhlillərinin əsas vəzifələrindən biri olaraq dil sistemi komponentlərinin öz aralarında yerləşdikləri münasibətlərin adekvat təsviri və təfsiri ilə əlaqəli tapşırıq irəli sürülür. Lakin dil sistemi mürəkkəbdir və mürəkkəbliyi ilk növbədə çox qatlılığında, yəni sözdə təbəqələşmə prinsipi əsasında təcrid olunmuş bir neçə alt sistemdən ibarət olmasındadır. Bu alt sistemlər dil səviyyələrini təşkil edir. Fəal təlim prosesində üstünlük təşkil edən anlayışlara görə, yalnız linqvistik səviyyə anlayışının köməyi ilə dilin açıq təbiəti və elementlərinin ayrı-seçkiliyi kimi vacib bir xüsusiyyəti düzgün əks etdirmək mümkündür. Buna baxmayaraq, dildə səviyyələrin sayı məsələsi birmənalı həll yolu tapmır. Çoxları bunun sıradakı dörd anlayışın olduğunu qəbul edir:

1. fonetik-fonoloji,
2. morfemik.
3. leksik-semantik və
4. sintaktik. [3, s.2-3].

Fəal təlim zamanı linqvistik metod çox vaxt ümumilikdə idrak nəzəriyyəsinin əsas prinsiplərini formalaşdıran elmlərin ümumi metodologiyası, fəlsəfi idrak metodu deməkdir.

Nəticə etibarilə linqvistik metod dil haqqında məlumat əldə etməyin, dili öyrənməyin vasitəsidir. Bu cür metodların birləşməsi xüsusi metodlar sistemini təşkil edir. Metodun ən ümumi tərifini sıradakı şəkildə təsvir etmək mümkündür: "linqivstik metod - idrakın və gerçəkliyin praktik çevrilmə üsulları və əməliyyatlarının məcmusudur." Bir dili öyrənməyin xüsusi metodlarının köməyi ilə təsirli nəticələr əldə etmək üçün bu metodlardan düzgün istifadə etmək, yaxşı mənimsəmək lazımdır. Qaydalar, linqvistik metodlardan istifadə ardıcıllığı və onları təşkil edən üsullar linqvistik analiz metodlarıdır.

Dil təhlilinin metodları və üsulları elmi tədqiqatın aspekti və konsepsiyası ilə sıx bağlıdır.

Fəal təlim prosesi zamanı linqvistik metodologiya analayışına, dar mənada, tədqiq olunan obyektin təbiəti ilə bağlı inandırıcı fərziyyələrə əsaslanaraq dilçilik elminin inkişafı prosesində qarşıya qoyulmuş məqsədə nail olmaq formalaşmış standart tədqiqat vasitələri (metodları və üsulları) kompleksi kimi yanaşmaq mümkündür. Geniş mənada, hər hansı bir elmi intizamın metodologiyası yalnız tədqiqat üsullarını və vasitələrini deyil, həm də bu elmlə əlaqədar formalaşmış elmi fərziyyələri və dəyərlər sistemində də əhatə edir.

Fəal təlim prosesində bədii mətnin linqvistik təhlilinin əsas məqsədi ədəbi əsərin əslində gizli olan tərəflərini, o cümlədən müəllifin mətndə qeyd etdiyi düşüncələrin dərinliyini və qəhrəmanların yaşadığı hissləri aşkarlamaq və anlamaqdır. Bədii mətnin linqvistik təhlilinin mövzusu birbaşa mətnin linqvistik materialıdır. [2, s.120-130].

Bir çox bədii əsər müəllifinin özünəməxsus fərdi xüsusiyyətlərinə görə mətnin linqvistik təhlili onun həyata keçirilməsi üçün bir neçə varianta malikdir. Bu, hər bir yazıçının dil fenomenini nəzərə almağa və göstərməyə imkan verəcəkdir. Buna görə tədqiqatçılar hər konkret halda əsərin poetik dünyasını öyrənməyin xüsusi bir yolunu seçirlər. Bununla birlikdə, fəal təlim zamani bədii bir mətnin linqvistik analizini aparmaq üçün bəzi ümumi tövsiyələr hazırlanmışdır.

Xüsusilə bu təhlilin uğurla həyata keçirilməsi aşağıdakı tələblərə uyğun olması ilə əlaqədardır:

1. Mətnin təhlili şifahi formasından məzmunun çox yönlü tərəflərinə - məcazi-estetik, sosial-tarixi, əxlaqi, ideoloj, psixoloji yönümlü olmalıdır və s.

2. Bütün vahidləri bədii və estetik funksiyanı həyata keçirən və bununla da tamamlayıcı rol oynayan öyrənilən mətnin dil səviyyələri və aspektlərinin hərtərəfli nəzərdən keçirilməsini əhatə etməlidir.

3. Uyğunluq mətndəki bir-biri ilə əlaqəli və tamamlayıcı obrazların müəyyənləşdirilməsinə və başa düşülməsinə kömək edən ardıcıllıq və quruluş prinsiplərinin idarə olunmasını ehtiva eməlidir.

· Mətndə üslub baxımından üstünlük təşkil edən və ideoloji və bədii, üslub formalaşdıran və obrazlı-estetik müstəvidə ən əhəmiyyətli olan dil səviyyələrinin, elementlərinin və ya təsəvvür növlərinin müəyyənləşdirilməsi vacibdir. [1, s.252-253].

Bundan əlavə, bəzi tədqiqatçılar bədii mətnin linqvistik təhlilini ədəbi analiz, yəni ədəbi əsərin ictimai inkişafın tarixi faktı kimi öyrənilməsi və üslubi təhlil kimi iki əsas hissəyə ayırmağa üstünlük verirlər. Bunun səbəbi bədii mətnin, ilk növbədə, forma və məzmunun üzvi birləşməsidir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Abdullayev Ə.Ə. Mətnin linqvistik təhlili modelləri. Bakı: Səda, 1999.
2. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı-2008
3. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: "Çaşıoğlu", 2010.

# CƏMİYYƏTİN VƏ ELMİN İNKİŞAFINDA İKT-NİN ROLU

**Qəzənfərova Günel Sahib qızı**
***Elmi rəhbər: Baş müəllim Şahbazova Qahirə Lələ***
**sahbazovaqahire@gmail.com, gezenferovagunel@gmail.com**

## XÜLASƏ

**Açar sözlər:** İKT, informasiya cəmiyyəti, informasiya mədəniyyəti, kompüter, məktəb, şagird, təhsil
**Key words:** ICT, information society, information culture, computer, identity, activities, school
**Ключевые слова:** ИКТ, информационное общество, информайцонная культура, компютер, школа, ученик, образование

İnformasiya cəmiyyətinin əsas hərəkətverici qüvvəsi olan informasiya kommunikasiya texnologiyaları (İKT) həmçinin elm və təhsilin uğurlu və dayanıqlı inteqrasiyasını təmin etmək üçün böyük potensiala və perspektivlərə malikdir. Ölkənin iqtisadi potensialının formalaşdırılmasında Azərbaycan elmi mühüm əhəmiyyət kəsb edir Müasir qloballaşma dövründə elmi-intellektual sferada qazanılan yüksək nailiyyətlər hər bir dövlətin inkişaf səviyyəsindən, ümumi potensialından xəbər verən, sosial, iqtisadi, mədəni tərəqqini təmin edən, demokratikləşmə proseslərini sürətləndirən mühüm meyarlardan biri kimi çıxış edir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həllində "açar rolunu" oynayan elm və təhsil həm də xalqların dünya arenasında layiqli təmsilçiliyinə, insan kapitalının formalaşdırılması yolu ilə qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsinə real təminat yaradır.

Gələcəkdə bütün sahələrdə müvəffəqiyyətin açarı İT və informasiya resurslarından düzgün istifadə olunmasındadır.

## SUMMARY

Information and communication technologies (ICT), which are the main driving force of the information society, also have great potential and prospects to ensure the successful and sustainable integration of science and education. Azerbaijan plays an important role in the formation of the country's economic potential The high achievements in the scientific and intellectual sphere in the era of modern

globalization are one of the important criteria for the level of development, overall potential of each state, ensuring social, economic and cultural progress. Science and education, which play a "key role" in solving a number of fundamental problems facing society, also provide a real guarantee for the worthy representation of peoples on the world stage and the confident advancement of their goals through the formation of human capital.

The key to success in all areas in the future is the proper use of IT and information resources.

“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”. Heydər Əliyev

Dövlət siyasətinin əsas prioritet məsələlərindən biri də ölkəmizdə informasiya cəmiyyətinin qurulması prosesi idi. Dünyada belə bir maraqlı fikir formalaşıb ki, İnformasiya cəmiyyətinin formalaşması əksər dövlətlərdə ölkənin iqtisadi göstəricisidir. Yəni müasir informasiya texnologiyalarının cəmiyyətə inteqrasiya səviyyəsi ölkənin iqtisadi inkişaf dərəcəsini əks etdirən amilə çevrilmişdir.

Respublikamıza rəhbərliyi dövründə ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda informasiya kommunikasiya texnologiyaları sektorunun inkişafına səbəb oldu.

Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyev 2003-cü ilin fevral ayında respublikamızda informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi haqqında "Azərbaycanın inkişafı naminə İKT üzrə Milli Strategiya"nı (2003-2012-ci illər) təsdiq etmişdir. Milli Strategiyanın qəbulundan keçən müddət ərzində Azərbaycan hökuməti tərəfindən bu sahədə bir sıra kompleks tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk xarici səfəri kimi 2003-cü il dekabrın 12-də Cenevrədə İnformasiya cəmiyyəti məsələləri üzrə Dünya Sammitində iştirakı Azərbaycan dövlətinin bu sahəyə diqqətini beynəlxalq aləmə bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev sammitdə çıxış edərək xüsusi qeyd etdi ki, Azərbaycan dövləti İnformasiya cəmiyyətinin qurulması istiqamətində bütün imkanlardan istifadə edəcəkdir. O, Azərbaycanın bu sahədə dövlət siyasətinin əsas prioritetlərini şərh etmiş, onun İKT-ni inkişaf etdirməkdə maraqlı olduğunu bəyan etmişdir. Bu istiqamətdə dövlət siyasətini həyata keçirmək məqsədi ilə 2004-cü il fevralın 20-də cənab Prezident İlham Əliyev Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında qərar qəbul etdi. [3]

Müstəqil dövlətimizdə cəmiyyətimizin bütün sahələrində İnformasiya kommunikasiya texnologiyalarının tətbiqinə start verildi. Sərhədlərin açılması, internet məkanının mövcudluğu və nəhayət bol məlumatlılığın yaranması ilə əlaqədar daha yeni, son model texnologiyaların istifadəsinə tələbat artırdı. İnformasiya bolluğunda lazımı məlumatların tez qəbul olunması, tez ötürülməsi və ünvanına tez çatdırılması üçün İnformasiya kommunikasiya texnologiyalarının istifadəsini zərurət yarandı. Beləliklə müstəqil dövlətimizin informasiya cəmiyyəti formalaşdı. "Beynəlxalq Telekommunikasiya İttifaqı 2006-cı ildə 17 may tarixinin Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü kimi qeyd edilməsi ilə bağlı qərar qəbul edib və hər il beynəlxalq səviyyədə dünyanın əksər ölkələrində 17 may tarixi ilə əlaqədar tədbirlər keçirilir. Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününün əsas məqsədi və əhəmiyyəti internetdən və informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadənin cəmiyyət və ölkələrə verdiyi imkanlar, eyni zamanda rəqəmli fərqliliyin aradan qaldırılması ilə bağlı məlumatlılıq səviyyəsinin yüksəldilməsinə kömək göstərməkdən ibarətdir".

Azərbaycanda İKT-nin inkişafı, informasiya cəmiyyətinin formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. [6] Uğurla yerinə yetirilən bu dövlət proqramı struktur və iqtisadi islahatlar, infrastrukturun təkmilləşməsi, yeni tənzimləmə mühitinin yaradılması və ictimaiyyətin daha da məlumatlandırılması və İKT-dən istifadə kimi bir sıra məqsədləri özündə cəmləşdirirdi. [7] Həmin dövlət proqramı 2009-2012-ci illər üçün uzadılaraq hazırkı e-Azərbaycan proqramının planlaşdırılmasına zəmin yaratdı.

Heydər Əliyev tərəfindən informasiya kommunikasiya texnologiyaları sahəsində aparılan siyasət 2003-cü ildən sonra hazırki dövlət başçımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar

və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir. Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq cəmiyyətdə təhsil mədəniyyətinin, informasiya mədəniyyətinin formalaşmasında onun da rolunun əvəzsiz olduğunu unutmamalıyıq.

Qloballaşma insan fəaliyyətinin bütün sferalarına təsir edir. Bu konsepsiya müxtəlif sosial-iqtisadi proseslərin analizində geniş istifadə olunur. Məhz qloballaşma müxtəlif ölkələrin başladıqları qarşılıqlı iqtisadi, siyasi, informasiya və mədəni proseslər yığımının müasir mərhələsidir. İnformasiyalaşdırma isə qloballaşma prosesinin bir hissəsidir.

İqtisadiyyatının sürətlə inkişaf etdiyi bir dövrdə Azərbaycan Respublikası da qloballaşma prasesindən kənarda deyildir. Son illərdə ölkədə informasiya cəmiyyətinin (İC) təşəkkül tapması, onun sosial-iqtisadi, siyasi və hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bir sıra strateji əhəmiyyətli proqramlar və qanunlar verilmişdir. Əsas məqsəd Azərbaycanda siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə beynəlxalq əlaqələrin genişlənməsinə, qloballaşan dünyada etibarlı tərəfdaş kimi möyqeyinin möhkəmləndirilməsinə, milli elektron infprmasiya fəzasının yaradılmasına, davamlı inkişafın təmin edilməsinə yönəlmişdir. Digər tərəfdən belə qanun və qəbul edilmiş proqramlar elektron hökumətə və İC-nə keçiddə texniki, təşkilati və ən əsası psixoloji hazırlıq səviyyəsini aydın şəkildə qiymətləndirməyə təkan verir. Həyata keçən proqramlar xalqın xeyrinə yönələrək, cəmiyyətin inkişafının magistral istiqamətləndiricisidir.

IC-nə keçidin təmin edilməsi üçün Azərbaycanın mövcud potensialından səmərəli istifadə etməklə onu inkişaf etdirməli, rabitə və informasiya texnologiyaları (İT) sahəsinin təşkilati, hüquqi, texniki, kadr baxımından təkmilləşdirməklə, informasiya-kommunikasiya texnologiyaları (IKT) sənayesini formalaşdırmaqla, bu sahəyə yeni investisiyalar cəlb edilməli və sahibkarlığı genişləndirməklə, azad bazar və sağlam rəqabət prinsipləri gözlənilməli, sosial əhəmiyyətli layihələri reallaşdırmaqla müxtəlif tədbirlər həyata kecirilməlidir, Bu məsələlərin həllində rabjtə və İT-nın xüsusi yerı vardır. Azərbaycanda rabitə və İT ən dinamik inkişaf edən istiqamətlərdəndir. Müxtəlif sahələrin inkişafı İKT sektorundan asılıdır [2].

Respublikamızda İC-nin və biliklərə əsaslanan iqtisa-diyyatın formalaşması sahəsində məqsədyönlü fəaliyyət həyata keçirilir: rabitə və informasiya texnoiogiyaları sa-həsində iqtisadi-struktur islahatlar aparılır, təkmilləşmə və yeni texnologiyalar tətbiq edilir,. İC-nə keçid üzrə layihələr hazırlanır. Məhz İKT-dən və İnternet qlobal kompyuter şəbəkəsindən istifadənin sıçrayışlı artım inkişafı sənaye iqtisadiyyatından İC-nə keçidin əsasını qoydu.

Bu gün İnformasiya cəmiyyəti anlayışı müasir sivilizasiyanın inkişafının dərəcəsi kimi başa düşülür. Qlobal informasiya məkanının yaradılması ilə daxili məhsulların xidməti və informasiya məhsullarının, informasiya-kommunikasiya vasitələrinin artımı cəmiyyətin həyatında informasiya və biliyin rolunun artması ilə xarakterizə olunur. Bu da insanlar arasında effektiv informasiya mübadiləsini, onların dünya informasiya resurslarına müraciətini, informasiya məhsullarına yə xidmətlərinə sosial və şəxsi tələbatlarını təmin edir. İC-nə keçid istifadəçiyə təqdim edilən informasiyanın müxtəlif vaxtda, müxtəlif yerdən müraciətinin mümkünlüyünü təmin edən tamlığa, operativliyə, düzgünlüyə, aktuallığa tələbi artırmaqla, əsas informaslya massivinin elektron daşıyıcılarına keçirməklə artan informasiya axını ilə müşayiət olunur. Məhsulun istehsal və istehlakına yönəlmiş şənaye cəmiyyətilə müqayisədə İC-də, zehni əməyin artmasına səbəb olan bilik, intellekt işlədilir və hasil edilir. İnsanlardan professional və şəxsi yaradıcılığa, inkişafa peşəkarlıq qabiliyyəti, informasiya fəzasının tələblərinə cavab verən, biliklərin alınması və emal edilməsi bacarığının artması tələb olunur. Beləliklə, yüksək keyfiyyətli və yüksək texnoloji informasiya-təhsil mühitinin yaradılması təhsil sisteminə münasibətin fundamental dəyişməsinə gətirib çıxarır. İKT əsasında təhsil sahəsinin intensiv inkişafı inkişaf etmiş ölkələrin əsas milli prioritetlərindən sayılır. Yüksək inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əsas maliyyə və maddi ehtiyatları təhsilə və yüksək informasiya mədəniyyətinə malik olan kadrların hazırlanmasına yönəlmnək lazımdır. Bu zaman kütləvi kompyuter istifadəçiləri hazırlamaqla kompyuter savadsızlığını ləğv etmək, eləcə də kütləvi kompyuter savadlılığı içərisindən bu sahələr üzrə peşəkar mütəxəssislər hazırlamaq əsas şərtlərdəndir.

Elm və təhsil cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvələri kimi çıxış edir. Sivilizasiyanın bütün inkişaf mərhələlərində elm və təhsil bir-biri ilə sıx əlaqədə olub. Çünki bu intellektual sahələrin ayrı-ayrılıqda inkişafı, hər hansı bir nailiyyət əldə etməsi mümkün deyil. Elmi axtarışların uğurlu nəticələri, yeni kəşflər və ixtiralar təhsil proqramlarının dəyişdirilməsini, yeni tədris texnologiyalarının işlənməsini zəruri edir, təhsilin məzmununa yeni biliklər əlavə olunur, tədris planlarına yeni fənlər daxil edilir. Elmi yeniliklər təhsilin bütün pillələrində öz təsirini göstərir.Təhsil sistemi də, öz növbəsində, elmi biliklərin ötürülməsinin, yayılmasının və tətbiqinin sosial praktikası və vasitəsi kimi çıxış edir.

Kompyuter texnikası artıq gündəlik həyatımızın ayrılmaz tərkib hissələrindən birinə çevrilib. Şübhəsiz, günümüzdə kompyuterin ən böyük faydalarından biri qısa zaman içərisində kitablardan axtardığımız bilikləri buradan əldə edə bilməyimizdir. Kompyuter uşaq və gənclərin bünövrəsi qoyulmuş biliklərinin inkişafından əlavə problem və həlli yollarının inkişaf etdirilməsində faydalıdır. Kompyuter bacarığı günümüzün problemlərindəndir ki, yaxın zamanlarda kompyuter biliyi olmayan insanların cahil insanlardan heç bir fərqi olmayacaqdır. İnsanlar bir-biri ilə əlaqə yaratmağı, alışveriş etməyi, kütləvi informasiya vasitələrindən məlumat və digər kompyuter biliyi olmayan heç bir insan bunlardan istifadə edə bilməyəcək.

Müasir mərhələdə elm və təhsilin informasiya təminatını, informasiya texnologiyalarının nailiyyətlərinin elm və təhsil sahələrində çevik və səmərəli tətbiqini yüksək səviyyədə həyata keçirmək üçün hərtərəfli imkanlar mövcuddur. Qeyd edilən imkanlar, eyni zamanda, cəmiyyətin bu iki əsas intellektual fəaliyyət sahəsində qarşılıqlı münasibətlərin və təsir imkanlarının inkişaf etdirilməsinə, səmərəliliyinin artırılmasına xidmət edir. Elm və təhsil sferaları arasında inteqrasiya müvafiq sahələrin inkişafına mühüm töhfə verməklə yanaşı, bütövlükdə, ölkədə informasiya cəmiyyətinin bərqərar olmasına, biliklər iqtisadiyyatının formalaşmasına, informasiya təhlükəsizliyinin təmin edilməsinə zəmin yaradır.

Müasir dövrdə elm və təhsilin inteqrasiyası – qarşılıqlı faydalı bir proses olmalıdır ki, bundan hər iki tərəf eyni dərəcədə bəhrələnə bilsin və nəticədə vahid elm-təhsil mühitinin formalaşması təmin edilsin. Müasir elm və təhsil sistemlərinin inteqrasiyasının hüquqi, siyasi, iqtisadi, texnoloji, təşkilati və aspektlərini fərqləndirmək olar. İnformasiya cəmiyyətində elm və təhsilin inteqrativ inkişafı xüsusi əhəmiyyət kəsb edir. Belə ki, sivilizasiyanın bu yeni inkişaf mərhələsində informasiya və biliklər əsas maddi sərvətə, ən vacib strateji məhsula çevrilir. Bu məhsulların əsas istehsalçıları isə elm və təhsil sistemləridir. İnformasiya cəmiyyətinin əsas hərəkətverici qüvvəsi olan informasiya-kommunikasiya texnologiyaları (İKT) həmçinin elm və təhsilin uğurlu və dayanıqlı intqrasiyasını təmin etmək üçün böyük potensiala və perspektivlərə malikdir

İnformasiya cəmiyyətinin əsas hərəkətverici qüvvəsi olan informasiya kommunikasiya texnologiyaları (İKT) həmçinin elm və təhsilin uğurlu və dayanıqlı inteqrasiyasını təmin etmək üçün böyük potensiala və perspektivlərə malikdir. Ölkənin iqtisadi potensialının formalaşdırılmasında Azərbaycan elmi mühüm əhəmiyyət kəsb edir Müasir qloballaşma dövründə elmi-intellektual sferada qazanılan yüksək nailiyyətlər hər bir dövlətin inkişaf səviyyəsindən, ümumi potensialından xəbər verən, sosial, iqtisadi, mədəni tərəqqini təmin edən, demokratikləşmə proseslərini sürətləndirən mühüm meyarlardan biri kimi çıxış edir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həllində "açar rolunu" oynayan elm və təhsil həm də xalqların dünya arenasında layiqli təmsilçiliyinə, insan kapitalının formalaşdırılması yolu ilə qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsinə real təminat yaradır. [3]

Respublikamızda elmin, təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin çağdaş dövrün tələbləri səviyyəsində inkişafı istisnasız olaraq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, böyük öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan elminin, təhsilinin, ümumilikdə mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuş ulu öndər ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, xalqın nicatını məhz intellektual tərəqqidə görmüşdür.

Artıq dünyanın əksər inkişaf etmiş ölkələrində cəmiyyətin müasir tələblərə uyğun inkişafı, dövlət idarəçiliyinin təkmilləşdirilməsi və şəffaflığının təmin edilməsi məqsədini daşıyan elektron hökumət formalaşıb. Ölkəmizdə də bu istiqamətdə mühüm layihələr həyata keçirilir. Qeyd edək ki, respublikamızda hakimiyyət strukturlarının şəffaf fəaliyyətinə təkan verən elektron dövlətin formalaşması prosesi dövlət başçısının 22 oktyabr 2005-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında rabitə və

informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" üzrə həyata keçirilməyə başlamışdır. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqinə imkan yaradan, eləcə də bölgələrdə yayılmasını təmin edən bu fəaliyyət konsepsiyası ölkəmizdə texnoparkların, texnopolislərin, innovasiya mərkəzlərinin yaradılmasına, alim və mütəxəssislərin elmi-texniki potensialından daha səmərəli istifadə edilməsinə, rəqabətə davamlı, elmtutumlu məhsulların istehsalına, nəticə etibarilə, informasiya cəmiyyətinin əsasını təşkil edən biliklər iqtisadiyyatının formalaşmasına zəmin yaradıb. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi bu sahədə həyata keçirilən dövlət siyasətinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Dövlət proqramının məqsədi Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi, informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması və inkişaf etdirilməsidir. Bununla yanaşı, dövlət idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması və qərarların qəbulu prosesində vətəndaşların iştirakı imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya məhsulu və xidmətlərinə olan tələbatının ödənilməsidir [4].

Gələcəkdə bütün sahələrdə müvəffəqiyyətin açarı İT və informasiya resurslarından düzgün istifadə olunmasındadır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. "Azərbaycan müəllimi " qəzeti, 4 Oktyabr 2013 - №38" http://www.muallim.edu.az/arxiv/2013/38/30.htm
2. Əli Abbasov "İnformasiya cəmiyyətinin qurulması Azərbaycan Respublikasının dövlət siyasətinin əsas prioritetlərindən biridir" məruzəsi
3. İlham Əliyev və İKT" Sentyabr 27, 2008, http://www.ict.az/az/index.php?option=com_content&task=view&id=800&Itemid=122
4. http://idp.gov.az/az/news/217


# MALİYYƏ TƏHLİLİ VƏ NƏZARƏTİNİN METODİKASININ TƏKMİLLƏŞDİRİLMƏSİ


**Quliyeva Fidan**
***Qərb Kaspi Universiteti***
***İqtisadiyyat və biznes məktəbi fakültəsi, 2-ci kurs tələbəsi***
***Elmi rəhbər: i.ü.f.d., prof, Qurbanov P.Ə***
***guliyeva.fidan92@gmail.com***



**Açar sözlər:** Maliyyə nəzarəti, metod.
**Key words:** Financial control, method
**Ключевые слова:** финансовый контроль, метод.


İqtisadi sistem idarəçiliyinin ən vacib qollarından biri maliyyə idarəetməsidir. Azərbaycanın inkişafının hazırkı mərhələsi dövlət idarəçiliyinin gücləndirilməsi, iqtisadiyyatın idarə edilməsində hökumətin əhəmiyyətinin artırılması, iqtisadi təzyiqlə borc və korrupsiyanın artması tendensiyaları ilə xarakterizə olunur. Bu baxımdan maliyyə nəzarətinin əhəmiyyəti və rolu obyektiv olaraq artır. Beləliklə, təsirli və səmərəli maliyyə nəzarəti, dövlət quruculuğunun olması bir şərt və ən vacib amildir.

Maliyyə nəzarətinin əsas formalarından biri olan dövlət maliyyə nəzarəti konstitusiyaya və müvafiq qanunvericiliyə əsaslanır, məqsədi dövlətin maliyyə siyasətinin həyata keçirilməsinə, ölkədə maliyyə sabitliyinə, habelə yaradılıb istifadəsinə nəzarət etməkdir dövlət büdcəsi və büdcədənkənar fondlar.

Maliyyə nəzarəti hər bir dövlətin iqtisadi və maliyyə fəaliyyətində qanunçuluğun təmin edilməsinin əsas vasitəsidir. Maliyyə nəzarəti hökumətin müəyyən edilmiş qayda və prosedurlarına, habelə yerli hakimiyyət orqanlarının vəsaitlərinə uyğun olaraq ictimai təşkilatlardakı xüsusi nəzarət orqanları

miqdarında həyata keçirilir. Maliyyə nəzarəti qanunvericilik pozuntularını aşkar edən əsas vasitədir (büdcə, inzibati, vergi, mülki, korporativ). Hazırda Azərbaycan iqtisadiyyatı iqtisadi inkişafın bütün mərhələlərində bir dönüşüm dövrünü yaşayır.

Dövlət maliyyə nəzarəti xidmətinin əsas fəaliyyət istiqamətləri bunlardır: məqsədli büdcə daxil olmaqla dövlət büdcəsinin xərcləri üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsi, fondlar, habelə büdcə təşkilatlarının büdcədənkənar fondlarının formalaşması və xərclənməsi; dövlət zəmanəti ilə verilmiş kreditlərin xərcləri və dövlət büdcəsi vəsaitlərinin xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirir; Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin metodiki rəhbərliyini həyata keçirir, bu sahədə mövcud çatışmazlıqları və mənfi amilləri aradan qaldırmaq üçün mütəmadi tədbirlər həyata keçirir; qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

İqtisadiyyatın mütərəqqi inkişaf yollarının axtarışı investisiya fəaliyyətinin intensivləşdirilməsini nəzərdə tutur ki, bu da ilk növbədə əsas struktur dəyişikliklərinə yönəldilməli və daxili investisiyaların - intellektual dəyərlərə investisiyaların hərtərəfli cəlb edilməsinə əsaslanmalıdır. Burada biz daxili investisiyalar üzərində dayanırıq, çünki dünya investisiya fəaliyyətinin təcrübəsi göstərir ki, əksər hallarda xarici investorlar yüksək texnoloji sənaye və texnologiyalara, yəni intellektual investisiyalara maraq göstərmirlər.

Azərbaycan qarşısında Avropa Birliyinə inteqrasiya və daha geniş mənada, daha zəngin xalqlarla ayaqlaşmaq vəzifələri durur ki, bu ölkələrin daha da mütərəqqi inkişafı üçün müsbət təcrübəsi fəal şəkildə tətbiq olunmalıdır. Bu gün ölkə iqtisadiyyatı bir neçə il əvvələ nisbətən çox güclüdür, ölkə bölgənin iqtisadi və maliyyə mərkəzinə çevrilir, Azərbaycansız qlobal enerji və kommunikasiya layihələri həyata keçirilə bilməz. İqtisadiyyatda müsbət tendensiyaların qorunub saxlanması və inkişafı cəmiyyətin rifahının daha da artması, insanların həyat səviyyəsinin yüksəlməsi üçün zəruridir. Milli iqtisadiyyatın inkişafındakı mövcud dinamizm, neft gəlirlərindən istifadə üçün düzgün seçilmiş strategiya, cəmiyyətdəki sabitlik, ölkənin getdikcə daha da mürəkkəbləşən vəzifələrini uğurla həll etməyə imkan verən tərəqqinin etibarlı amilləridir. Respublikamızda maliyyə nəzarətinin öyrənilməsi göstərir ki, maliyyə nəzarəti sisteminin müasir tələblərə uyğun təşkili və təkmilləşdirilməsi çox vacibdir. Bunun üçün, ilk növbədə, müasir maliyyə nəzarəti formalarının təşkili və fəaliyyət göstərməsini, nəzarət sisteminin koordinasiyasını və təsirini təmin etmək lazımdır.

Eyni zamanda, ölkədə bazar iqtisadiyyatı şəraitində maliyyə nəzarətinin təmin olunmasına, maliyyə mərkəzinin dövlət büdcəsinin gəlirlərinin formalaşmasına və xərc səmərəliliyinin artırılmasına, maliyyə nəzarətinin maneələr olan azadlığına cəmlənməsinə xüsusi diqqət yetirilməlidir.

Maliyyə nəzarətinin daha da inkişaf etdirilməsi, onun effektivliyi əsasən dövlətin qanunvericilik bazasının dövrün tələblərinə uyğun təkmilləşdirilməsindən asılıdır. Maliyyə nəzarətini tənzimləyən tənzimləmə bazası, nəzarətin demokratik bir dövlətin keyfiyyətcə yeni bir səviyyəsini təmin etməlidir.

Qeyd etmək lazımdır ki, respublikada maliyyə nəzarəti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə işlər genişlənir.

Maliyyə nəzarəti orqanlarının fəaliyyətini tənzimləyən bir qanunvericilik aktına ehtiyac olduğunu nəzərə alaraq, Maliyyə Nazirliyi "Maliyyə nəzarəti haqqında" qanun layihəsi hazırladı və yaxın vaxtlarda baxılması üçün Milli Məclisə təqdim edilməsi gözlənilir.

Bu qanun maliyyə nəzarətinin tətbiqi üçün vahid hüquqi və metodoloji əsasları, habelə dövlət maliyyə nəzarəti orqanlarının vahid sistemi və onların bir-biri ilə əlaqələndirilməsini təmin edəcək, eyni zamanda ölkədə maliyyə şəffaflığını təmin edəcək, dövlət xərcləri üzərində nəzarəti genişləndirəcəkdir.

Bazar münasibətləri və sahibkarlıq bir sıra islahatlardan keçir və müxtəlif nəzarət orqanlarının vəzifə və funksiyalarını müəyyənləşdirmək çox vacibdir.

İqtisadi gücün və rəqabət prosesinin tənzimlənməsində əsas mexanizm olaraq bazar iştirakçılarının fəaliyyətini stimullaşdırmaq və artırmaq üçün mövcud iqtisadi şəraiti, hər bir müəssisənin fəaliyyətinin nəticələrini yaxşılaşdırmaq lazımdır.

Seçilmiş mövzusunun aktuallığı maliyyə nəticələri göstəricilərinin ən çətin iqtisadi kateqoriyalardan birinə aid olması ilə müəyyən edilir, onların öyrənilməsi və təhlili istehsalın səmərəliliyinin artırılması, yüksək səviyyəyə çatmaq üçün tədbirlər hazırlanması və həyata keçirilməsi kimi suallara cavab verir. son nəticələr ən aşağı xərclə. Bunlar müəssisənin fəaliyyətinin bütün sahələrində mütləq səmərəliliyini

xarakterizə edir: istehsal, satış, təklif, maliyyə, investisiya. Bundan əlavə, bu göstəricilər müəssisənin iqtisadiyyatının əsasını təşkil edir və onun bütün biznes iştirakçıları ilə maliyyə əlaqələrini gücləndirir.

Bu iş yazılarkən aşağıdakı metodlardan istifadə edilmişdir: müşahidə, müqayisə və bənzətmə, analiz, sintez, şaquli və üfüqi analiz, tarixi metod, əmsal metodu. İqtisadi, riyazi və statistik metodların tətbiqi müəssisənin inkişaf meyllərini müəyyənləşdirməyə, müəssisənin maliyyə nəticələrini yaxşılaşdırmaq üçün gizli ehtiyatları aşkar etməyə, gələcək inkişafını proqnozlaşdırmağa imkan verdi.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Azərbaycan Respüblikasının «Müəssisələr haqqında» Qanunu. 1999.
2. Azərbaycan Respüblikasının «İnvestisiya fəaliyyəti haqqında» Qanunu, 1995.
3. Bağırov D.A. «Vergi nəzarəti» Bakı, 2006.
4. Bağırov D.A. «Vergi auditi», Bakı, 1999.
5. Bağırov D.A., Həsənli M.X. «Maliyyə». Dərslik. Bakı, 2010.
6. Bağırov D.A., Həsənli M.X., P.H.Quşxani «Korporativ maliyyə». Dərs vəsaiti. Bakı, 2010.


## "MƏN OBRAZ"IN TƏTQİQİ İSTİQAMƏTLƏRİ


**Quliyeva Gülnar Rasim qızı**
***Bakı Dövlət Universiteti Sosial və Pedaqoji psixologiya kafedrasının disssertantı***
***Elmi rəhbər: Mustafayev Müşviq Hüseyn oğlu***
***gulnar9129@mail.ru***



**Açar sözlər:** Mən obrazı,özünəinam, özünəhörmət, yeniyetmə, şəxsiyyət.
**Ключевые слова:** Я имидж, уверенность в себе, самооценка, подросток, личность.
**Key words:** I am an image, self-confidence, self-esteem, a teenager, a personality.


Mən obrazı anlayışı insan şəxsiyyətinin əsasında duran və fərd üçün çox vacib olan qavrayış, hiss və düşüncələri ilə müəyyən edilir. Mənlik anlayışı, insanın özünü dərk etməsi, qavraması və fərdin özü haqqında düşündüklərini ehtiva edir. Başqa sözlə, insanın fiziki, zehni, sosial və emosional xüsusiyyətləri, istəkləri və nailiyyətləri haqqında inanclarının cəmi mənlik anlayışını təşkil edir. [1]

Mənlik, insanın özünəinamının, özünü tanıma və qiymətləndirmə növüdür. Bu baxımdan Mənlik mürəkkəb bir quruluşa malikdir və irsiyyət və ətraf mühitin təsiri ilə formalaşır. Bu quruluşu təşkil edən elementləri təhlil etmək üçün insanın öz xüsusiyyətlərini yaxşı bilməsi lazımdır Bu istiqamətdə fərd ömrü boyu ətrafındakı varlıqlara və obyektlərə münasibət bəslədiyi kimi eyni zamanda özünəmünasibət də inkişaf etdirməyə başlayır.

Mənlik konsepsiyasını araşdıran ilk tədqiqatçılardan biri olan və bu konsepsiyaya sosioloji baxımdan yanaşan Cooley-yə görə fərd yaşadığı sosial mühitdən ayrı hesab edilə bilməz. [3] Bu səbəbdən nəfsin inkişafı və formalaşmasında ilk təcrübələr çox vacibdir və fərdin mənlik konsepsiyasının inkişafı onun fiziki və sosial mühiti ilə qarşılıqlı əlaqəsinin məhsuludur. [4]

Rogers, mənlik şüurunun vacibliyini vurğulayır. İnsanın mənlik şüuruna özü haqqında düşüncələrini, qavrayışlarını və inanclarını daxil edir və hər zaman həqiqəti əks etdirməyə bilər. Müsbət mənlik inkişaf etdirmək üçün qeyri-şərtsiz sevgi içində böyümək lazımdır. Qeyri-şərtsiz sevgi, şəxsiyyətin nə etməsindən asılı olmayaraq sevgiyə və hörmətə layiq olduğunu başa düşməyin məhsuludur. Şərtsiz sevgi içində böyüyən insanlar güclü və müsbət bir mənlik duyğusuna sahibdirlər. [

İbtidai sinif və kiçik məktəbli uşaqlarda məktəb yoldaşları, dostları və valideynləri uşaqlarının "Mən obrazı"nın inkişafında böyük rol oynayırlar. Bəzi tədqiqatlar da ailənin və məktəb mühitinin uşaqların mənlik hissinin inkişafında təsirli olduğunu göstərir.

Mənlik anlayışı ilə əlaqədar olaraq, yeniyetmələrin bəzi davranışları: özünü anlamaq, özünü qəbul etmək, şəxsi dəyərinə,qabiliyyətinə sahib olmaq, inanmaq, özünə güvənmək, problemləri həll etmək, öz yönümlü olmaq, seçimləri görmək, qərar vermək və verdiyi qərarlarının məsuliyyətini daşımaq, səhv düşüncə və qavrayışları dəyişdirmək və duyqusal həssaslıq qazanmaq üçün məsuliyyət inkişaf etdirmək gözlənilir.

Yeniyetmə uşaqdan fərqli olaraq, antenaları xaricə deyil, özünə çevirir,necə insan olduğunu, kim olmaq istədiyi barədə dərin düşüncələrə düşür və duyğularına və müxtəlif keyfiyyətlərinə tənqidi yanaşır. Onların duyğuları, düşüncələri və xəyalları dərindir və başqalarının özləri haqqında müsbət və mənfi hisslərini hiss edə bilərlər

Yeniyetmə bəyəndiyi insanları təqlid edərək ideal mənliyini qurur. İdeal mənliyinə uyğun olaraq başqalarını heyran etmək istəyir. Şüurunda yaratdığı ideal mənliyinə inkişaf səviyyəsinə görə çata bilmədiyi üçün bədbin olur. Otağını düzəldə bilməsə də, dünyanın nizamından danışa bilər.

Uşaqlıq dövrlərindən yeniyetmələrin mənliyinin inkişafına valideyn münasibətlərinin əhəmiyyətli bir təsiri var. Bu təsirlərin müsbət ola bilməsi üçün, valideynlər öz davranışları ilə onlara bir model olaraq, yeniyetmənin inkişaf xüsusiyyətlərinə və ehtiyaclarına şüurlu yanaşıbvə uşaqları ilə sevgiyə dayanan bir münasibət qurmalıdırlar.

Yeniyetmələr, valideynlərinin onlar haqqında yaratdığı obrazdan təsirlənirlər. Valideynlər başa düşməlidirlər ki, hər bir yeniyetmənin inkişaf üçün xüsusi bir ehtiyacı və öz yolu vardır. Yeniyetməni uğurları və ya uğursuzluqları olan vəziyyətində digər insanlarla və ya qardaş bacısı ilə müqayisə qısqanclıq hisslərinə səbəb ola bilər.

Bu, yeniyetmənin mənliyinin inkişafına mənfi təsir göstərir. Buna görə də yeniyetməyə mümkün qədər məsuliyyətə əsaslanan müstəqillik verib onun şəxsi dəyərlərinin, özünə hörmətin inkişafına şərait yaradıbonun nailiyyətlərini, gördüyü işləri qiymətləndirmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1.Aydoğan, S. (2010). İlkögretim II. kademe öğrencilerinin umut ve benlik saygısı düzeylerinin bazı değişkenler açısından incelenmesi (Yayınlanmamış yüksek lisans tezi). Selçuk Üniversitesi, Konya.

2. Biçer, E. (2009). Parçalanmış ve tam aileye sahip ergenlerin atılganlık ve sosyal yetkinlik beklenti düzeylerinin bazı demografik değişkenler açısından incelenmesi (Yayınlanmamış yüksek lisans tezi). Çukurova Üniversitesi, Adana

3.Pedaqoji psixologiya. Bəxtiyar Əliyev,Kamilə Əliyeva, Rəşid Cabbarov.Bakı-2011.254s

4. Psixologiya. prof.S.İ.Seyidov və prof.M.Ə.Həmzəyev. Bakı-2007. 672s.


# АВТОМАТИЗАЦИЯ ТЕХНОЛОГИЧЕСКОГО ПРОЦЕССА ПЕЧАТАНИЯ И ОБОРУДОВАНИЯМИ


**Гулиева Масума**

***Западно-Каспийский Университет***

***Школа высоких технологий и инновационной инженерии, студентка,***

***Мурсал Насиров, преподаватель***

***masuma.guliyeva@gmail.com***


## РЕЗЮМЕ


В статье рассмотрены технологические схемы полиграфического оборудования, строение, принцип действия, конструкция основных узлов, проведен классификация печатных машин и их недостатки которые можно решать научным путем.



**Ключевые слова:** Машины, оборудования, ротационные, тигельные

**Введение.** Основное назначение печатного оборудования заключается в выполнении технологического процесса печатания, т. е. многократного получения идентичных оттисков путем нанесения краски на материал. Кроме использования по основному назначению, оно приспосабливается также для тиснения, высекания и перфорации материала. Структурная схема печатной машины изображена на рис. 1 (в прямоугольниках представлены ее основные узлы, причем штриховой линией обведены те из них, которые в отдельных видах машин могут отсутствовать). Название устройства соответствует выполняемому им технологическому процессу. Классификация печатных машин, отражающая лишь главные принципы их построения, представлена на рис. 2. По виду обрабатываемого материала (ленты, разматываемой с рулона, или же листов, подаваемых из стопы) машины называют соответственно рулонными и листовыми. Следующий признак классификации – форма собственно печатающих поверхностей. Машины, в которых печатающие органы выполнены в виде цилиндров, называют ротационными. Машины, в которых рабочая поверхность печатной формы расположена в плоскости, а давящая поверхность цилиндрическая, называют плоскопечатными. Машины, в которых обе рабочие печатающие поверхности плоские, называют тигельными.

В зависимости от числа красок, получаемых на оттиске, машину называют многокрасочной или однокрасочной. Плоскопечатные и тигельные машины в настоящее время выпускают, за редким исключением, лишь в виде однокрасочных автоматов или полуавтоматов для обработки листовых материалов. Ротационные машины строятся исключительно в виде автоматов для печатания на листовых или ленточных материалах. При этом широкое распространение получили как однокрасочные, так и многокрасочные машины. Нашли применение двусторонние ротационные машины, в которых материал одновременно или последовательно запечатывается с двух сторон. Многокрасочные машины, составленные из однотипных однокрасочных печатных секций, получили название секционных, а многокрасочные машины, содержащие один общий печатный цилиндр, вокруг которого установлены другие цилиндры (см. рис. 2), – планетарных. Плоскопечатные и тигельные машины строятся для высокого способа печати, а ротационные – для высокого, офсетного и глубокого способов печати [1].




**Рис. 1.** Структурная схема печатной машины




**Рис. 2.** Классификация печатных машин

По степени автоматизации современное печатное оборудование – это, как правило, машины-автоматы, которые представляют собой высокоавтоматизированные и скоростные высокоточные механические системы с автоматической подачей запечатываемого математические системы с автоматической подачей запечатываемого материала и приемкой готовой продукции. Они способны благодаря достижениям электроники управлять и обслуживать в автоматическом режиме основные функциональные узлы, проводить их диагностику и настройку. Эволюция печатного оборудования выражается не только в увеличении эксплуатационной скорости машин, но и в резком повышении их производительности благодаря высокой степени автоматизации.

Однако еще встречаются машины с ручной подачей запечатываемого материала, которые принадлежат к классу полуавтоматов. Они отличаются низким уровнем автоматизации и невысокой производительностью. Листовые печатные машины имеют меньшую производительность по сравнению с рулонными. Скорость их работы ограничена возможностями листопитающей системы, осуществляющей поштучную (дискретную) подачу листового материала и печатный аппарат. Для машин среднего формата производительностью составляет 18 000 лист/ч при линейной скорости движения листов до 4 м/с, а для машин большого формата – 9000-15 000 лист/ч. Современные печатные машины обладают широкими технологическими возможностями воспроизведения на высоком качественном уровне практически любых текстовых и иллюстрационных изображений с одновременным проведением дополнительных отделочных операций. Для этого по ходу работы ПМ осуществляется перфорирование, лакирование, нумерация, высечка, тиснение и другие дополнительные работы, что расширяет технологические возможности машины и позволяет получать печатную продукцию повышенной стоимости. Листовые печатные машины способны запечатывать листовой материал в широком диапазоне форматов при массе 1 м2 лист от 30 до 800 г и толщине от 0,03 до 1,2 мм. Листы бумаги проводятся через технологические секции машины без натяжения и коробления, что снижает, по сравнению с рулонными машинами, вероятность их отмарывания, позволяя получить высокую точность совмещения красок за один прогон в пределах ±0,05мм.

При проектировании печатных машин размеры цилиндров ПА выбираются с учетом коэффициентов использования рабочего цикла Кц и окружности печатного или формного цилиндров Кц=$tn$Т; К$n$=$lp\pi Dn\approx Lmax\pi Dn/$; где $tn$-время запечатывания листа; Т – длительность кинематического цикла; $lp$ – длина рабочей части окружности печатного цилиндра; $Lmax$ – наибольший размер листа в направлении его подачи; $Dn$- диаметр печатного цилиндра. Значение

этих коэффициентов меньше единицы (Кц=К$n$=0,65−0,85), так как цилиндры печатных аппаратов ЛПМ имеют нерабочие зоны (выемки) для размещения в них исполнительных механизмов.

В рулонных печатных машинах с ротационным печатным аппаратом полностью используется время рабочего цикла для печатания и поверхность формного цилиндра, поэтому Кц=К$n$=1,0. Эти машины наиболее быстроходные из всех видов печатного оборудования, что достигается благодаря непрерывной подачи бумажной ленты в ротационный печатный аппарат. Скорость ее проводки около 18 м/с при частоте вращения цилиндров печатной пары 50 000 -100 000 об/ч. Рулонные машины обладают широкими технологическими возможностями воспроизведения на запечатываемом материале любых графических изображений при совмещении по ходу проводки бумажной ленты операций ее разрезки, перфорирования, проклейки, шитья и фальцовки. Многооперационность рулонных машин дает возможность получать на выходе печатную продукцию в виде тетрадей, листов, рулонов и даже в виде готовых брошюр, книг и журналов при включении РПМ в состав печатно-отделочной линии.

Заключение. К недостаткам РПМ по сравнению с листовыми ПМ следует отнести:

- ограниченность формата печатной продукции (кроме машин глубокой печати), так как формат может быть изменен только по ширине рулона;
- ограниченность длины рубки ленты (кроме машин глубокой печати) из-за жесткой схемы фальцаппарата;
- меньшую точность совмещения красок из-за нестабильного поведения бумажной ленты;
- ограниченный диапазон по толщине и массе запечатываемого материала при силовом замыкании цилиндров ПА на контактные кольца (40-210 г/м2).

**ЛИТЕРАТУРА:**


1. Анкуда Д.А. Полиграфические машины, автоматы и поточные линии. Минск-2018
2. Штоляков В.И. Румянцев Печатное оборудование. Москва-2011


## YENİYETMƏLƏRDƏ SUSİDAL DAVRANIŞININ YARANMASININ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ


**Quliyeva Şəfiqə**
***Qərbi Kaspi Universiteti***
**guliyevasherfiqe99@gmail.com**



**Açar sözlər**: yeniyetmə, ailə, intihar, cəmiyyət, valideyn.
**Key word**:teenager, family, suicide, society, parent.


İnsanlar nə üçün intihar edir? Görəsən həyatda elə bir çətinlik, hadisələr varmı ki insan bu çətinliklərin öhdəsindən gəlmək ağrılara, iztirablara tab gətirməkdənsə, həyatla vidalaşmağı üstün tutsun? Bu heç də sadə sual deyil. Ən bəsit izah suisidal davranışı psixi xəstəliyin ayağına yazmaq olardı. Ancaq müşahidələr göstərir ki, bir çox hallarda psixi xəstələrin əksəriyyəti ümumiyyətlə suisidal cəhd göstərmir. İntihar edənlərin çoxu isə bunu remissiya vəziyyətində, yəni xəstəliyin kəskin simptomların özünü büruzə verdikdə icra edilir.

Deməli, heç bir sağlam insan qarşılıqlı münasibətlərdən sarsılma, nüfuzunun itirilməsi, qanunla ixtilaf, ağır fiziki xəstəlik və s. müşayət olunan böhran vəziyyətlərinə düşməkdən sığortalanmayıb. Belə hallarda bir çox isanlar yeganə çıxış yolunu intiharda görür, yaranmış böhranı həll edə biləcək çıxış yolunu görmür və ya onu düzgün qiymətləndirmir. Suisidal davranış bir çox amillərin - bioloji, sosial, psixoloji və sosial - psixoloji amillərin  təsiri altında formalaşır.(1)

Son zamanlar intihar mövzusu gündəmdə olan mövzulardan biri sayılır. Hər il intihar bir çox insanların seçiminə çevrilir. Ən təhlükəlisi isə odur ki, intihar cavanlaşır uşaq və yeniyetmələrin də həyatına son qoyur. Dünya üzrə statistikaya nəzər salsaq görərik ki, intihar halları daha çox yeniyetmələr arasında olur. Çünki bu yaşlarda onlar daha həssas olduqları üçün qaranı ağ, ağı qara kimi görürlər. Bu dövrdə onlar baş verən hər hansı bir çətinliklə üzləşən zaman problemdən çıxış yolunu tapa bilmədikləri, onu həll edə bilmədikləri üçün bu yola əl atırlar. Bu səbəbdən də yeniyetmələr intiharın nə olduğunu və onunla necə mübarizə aparılacağını bilməlidirlər. (2)

Yeniyetmələrdə intihar davranışı əlamətləri, duyğusal davranış pozulması ilə müşahidə edilir. Bəzi hallarda intihara hazırlığın əlamətləri özünü biruzə etməz. İntiharlar bir neçə qrupa ayrılır;

- Gizli: risk aclığı, təhlükəli hobbilər, özünə zərər vermək.
- Real: ölmək arzusu ilə.
- Dramatikləşdirilmiş: istədiyini əldə etmək üçün şantaj.

Bütün yeniyetmələr az da olsa intiharın siqnallarını verə bilir. Bir yeniyetmə intihar planını yaxın dostları ilə paylaşa bilər. Və yaxud sosial şəbəkə profillərində intiharla bağlı qeyd edə bilər. Övladınızda dəyişiklik hiss etdiyiniz zaman psixoloqa, sonra isə psixiatra aparın. Dərhal tibbi yardım, intiharın meydana gəlmə səsəblərini aradan qaldıra bilər.

Unutmayın ki, uşaqların və yeniyetmələrin intiharı təsüdüfi deyil. Bu uzun müddət planlanır və hazırlanır. İntihara hazırlıq bir neçə gün və ya aylar çəkə bilər. Hazırlıq dövründə gənc, yardım və dəstək almaq üçün valideynlərinə yaxınlaşır. Ancaq valideynlərin diqqətsizliyi və biganəliyi, onu intihar addımı konkertləşdirməyə qərarlı edir. (3)

## ƏDƏBİYYAT SİYAHISI :


1. M.N.Eyyubova, D.R.İbrahimova.Yeniyetmələrdə susidal davranışın psixoloji xüsusiyyətləri. Bakı -2019, 95 s.
2. http://pcc.az/blog/?p=1470
3. https://www.bizimyol.info/az/news/371139.html


# TURİZM XİDMƏTLƏRİNİN TƏSNİFATLAŞDIRILMASI

**Quliyev Orxan**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: Pərviz Qurbanov***
***orikk94@mail.ru***

## XÜLASƏ

Bu məqalədə, turizmdə turistlərə göstərilən xidmətlərin təsnifatlaşdırılması və həm də tədqiqatçıların müəyyən etdikləri turizm xidmətləri təsnifatlaşdırılması barədə bəhz edilmişdir. Açar sözlər: Xidmətlər, turist xidmətlərinin təsnifatlaşdırılması

## РЕЗЮМЕ

В данной статье обсуждается классификация услуг, предоставляемых туристам в туризме, а также классификация туристических услуг, выявленная исследова- телями. Ключевые слова: Услуги, классификация туристических услуг

## SUMMARY

This article discusses the classification of services provided to tourists in tourism, as well as the classification of tourism services identified by researchers. Keywords: Services, classification of tourist services

Turizm xidmətləri təsnifatlaşdırılması daxili vahidə əsas olmalıdır. Biz təsifləşdirmənin əsasına səyahət prosesini sadəcə olaraq, onlarsız qeyri-mümkün olan xidmətlər qrupunu daxil elədik. Başqa sözlə, bu proses əmələgəlmə prosesindən başlayaraq, turizm tələbatlarının formalaşmasından onun ödənilməsinə qədər bu və ya başqa dərəcədə bir neçə etablardan keçir. Bir halda ki, turizm tələbatının ödənilməsi prosesi turizm xidmətləri sayə- sində baş verir, axırıncının baş verməsi üçün insan fəaliyyətinin maddi baza ilə birləşməsi yolu ilə mümkündür, turizm xidmətlərinin ayrılması turizm tələbatlarının qruplaşdırılması əlamətinə görə aparılmalıdır. Bəzi tədqiqatçılar turizm xidmətlərinin təsnifləşdirilməsinin başqa metodlarını təklif edirdilər. Onlar öz konsepsiyalarında turizm xidmətlərinin yaranma mahiyyətindən deyil, çoxnövlülüyündən nəticə çıxarırlar. Yəni, turizm hərəkatına xidmət göstərən maddi obyektləri əsas götürürlər. Hərçənd ki, bu maddi obyektlərin tərkibi və strukturu vaxt keçdikcə dəyişir, sahə əlaqələrin həcmi genişlənir, buna uyğun olaraq da bu obyektlərin təsnifləşdirilməsi dəyişilir.

Birinci dəfə müəssisələrin təsnifləşdirilməsinə əsa- sən xidmətlərin təsnifləşdirilməsi K.Krapf və V.Xuntsiker tərəfindən irəli sürülmüşdür. O, turistlərə dolayı və birbaşa xidmətlər göstərən müəssisələrin ilk və bir o qədər də qaba bölgüsünə əsaslanır. I qrupa turistə, bilavasitə xidmət edən müəssisələr, II qrupa isə həm turizmə xidmət edən, həm də birinci qrup obyektlərə xidmət edənlər aiddir. O.Roqalevski bu prinsiplə turizm xidmətlərini aşağıdakı qruplara bölür: 1) turistlərə xidmət etmək üçün olan obyektlər; yerləşdirmə (kempinqlər, mehmanxanalar və s., çimərliklər, xüsusi yollar və s.) O.Roqalevski bunları “turist obyektləri” adlandırır; 2) turist məqsədli olmayan obyektlər, epizodik və vaxtaşırı turizm hərəkatı tərəfindən yararlanan ( restoranlar şəbəkəsi, mağazalar, ictimai nəqliyyat və s.) o, onları “para turizm obyektləri” adlandırır. Belə cür təsnifləşdirmə metodiki olaraq düz deyil. Səyahət prosesi vaxtı “turist” və “turist olmayan” obyektlərin dəqiq ayrılması qeyri - mümkündür.

Hələ SSRİ-i zamanında turizmin təsnifatlaşdırılması sahəsi iqtisadiyyatın tədqiqatı eyni yolla davam eləyirdi. Sadəcə, forması dəyişilərək mahiyyəti isə saxlanılmışdır. V.Azar turizm xidmətləri göstərən müəssisə sisteminin təhlili zamanı onları 3 qrupa bölmüşdür: 1) birinci dərəcəli müəssisələr, yalnız turistlərə xidmət edilir; 2) ikinci dərəcəli müəssisələr, turistlərə, o cümlədən yerli sakinlərə xidmət edilir; 3) üçüncü dərəcəli müəssisələr, bütün əhaliyə, o cümlədən eyni zamanda turist tələbatları- nın ödənilməsi xidmətlərini edir. Belə təsnifləşdirmə şərti xarakter daşıyır. Sistemli yanaş- maya əsasən turizmin iqtisadiyyatı sahəsindəki tədqiqatların genişlənməsi xidmətlərin təsnifləşdirilməsinə təsir göstərirdi.

Y. Qezqala bu təsnifləşdirməyə ən yaxın yaxınlaşaraq onları turizmin xidmətlər qrupuna ayıraraq əksinə təsnifləndirmişdir. 1) gecələməyə aid xidmətlər, 2) nəqliyyat xidmətləri, 3) qastronomiya xidmətləri, 4) müşayiət xidmətləri, təbii elementlərin istifadəsinə daxil olan xidmətlər, idmanın, əyləncənin, tarixi abidələrin, 5) risepşın xidmətlər, reklam, səyahət xidməti, bələdçi xidmətləri, valyuta mübadiləsi:

A.Kornak isə turizm xidmətlərini 8 qrupa bölür: 1) məlumat reklam və dispozisiya üzrə xidmətlər, 2) nəqliyyat xidmətləri, 3) gecələməyə aid xidmətlər, 4) qastronomiya xidmətləri (bura qəlyanaltıların və içkilərin hazırlanması, qastronomiya xarakterli əyləncəli müəssisələr nəzərdə tutulur), 5) əyləncə xidmətləri (kino, teatr, təhsillə əlaqəli fəaliyyətlər və s.), 6) sənətkar və ticarət xidmətləri (açıqcaların satışı, təchizat, kitab, reklam materialları, qida) 7) rekreasiya – idman xidmətləri, 8) administrativ – ictimai xidmətlər.

Turizm xidmətlərinin təsnifatlaşdırılması təhlili onu göstərir ki, müəlliflərin çoxu turizm xidmətlərinin ilkin istehsalını nəzərə almırlar, nəticədə isə təsnifləşdirmənin dialektik forması rəsmi olanla əvəz olunur, yeri gəlmişkən bir çox vəziyyətlərdə təsnifləşdirmə formasını və qanunları qorumur. Bizim tərəfimizdən turizm xidmətləri qrupunun qarşılıqlı əlaqə və asılılığına səyahət gedişatında və vaxtla uyğunsuzluğunda vəhdətinə əsasən təsnifləşdirilməsi irəli sürülmüşdür. Digər sözlə, ayrılan turizm xidmətləri qrupu, səyahətin istənilən forma, növündən bu səyahətə səbəb olan zamanından və məqsədindən asılı olmayaraq lazımdır. Bu yolla, təkcə, turistlər tərəfindən alınan turizm xidmətləri vahid xidmətlər kompleksidir. Həmçinin, bu xidmətlər qrupu bir-birindən turizm tələbatının ayrıca tərəflərini ödəyən formasına və spesifikasına görə fərqlənir. Xidmətlərin obyektə doğru təsnifləşdirmə aşağıdakılardan ibarətdir:

1) nəqliyyat xidmətləri

2) yerləşdirmə xidmətləri, yəni mehmanxanalarda, kempinglərdə, motellərdə və s. obyekt-lərdə məişət və ticari xidmətlər, gecələmə ilə əlaqəli bütün xidmətlər aiddir.

3) qidalanma xidmətləri yerləşmə obyektlərində qidalanmanın təşkili ilə əlaqəli resto- ranlar, yeməkxanalar, kafelər və s.

4) əyləncə xidmətlərinə təşkilati və təqdim olunan əyləncələr, idman və tamaşalarda təqdim olunan bütün xidmətlər aiddir. 5) məlumat xidmətləri isə yerləşmə yeri barədə məlumatların əldə olunması, ekspozisiya obyektləri barədə məlumat, reklam vasitəsilə alınan məlumat, xidmət göstərmə bürosu, əlaqə xidmətləri daxildir. Hər bir turist xidmətlər qrupu digərindən fəaliyyət əlamətinə və konkret turist tələbatının ödənilməsinin təmin olunmasına görə fərqlənir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Rüfət Kasumov Beynəlxalq turizm bazarı, 2012-ci il, səh 69-74
2. Turizm bazarı Kitabxana.net, Turizm xidmət formaları, səh 22-25 3. www.kalitebelgeseli.com turizm xidmətləri idarəetmə sistemi
4. Turizm fəaliyyətinin tənzimlənməsi, Bilalov Bahadur, Bakı 2006 səh 63
5. Turlar.az
6. az.wikipedia.org

## AZƏRBAYCAN İQTİSADİYYATI KEÇMİŞDƏN GƏLƏCƏYƏ

**Quliyev Rahib Sahib oğlu**
***Təhsil müəssisəsi-Azərbaycan Universiteti***
***ünvanı-rahibquliyev51@gmail.com***

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Müstəqillik dövründən bu günə kimi mövcud iqtisadi inkişafı 2 dövrə bölmək mümkündür. Birinci dövr 1991-1995 ci illəri əhatə edən iqtisadi xaos və tənəzzül dövrüdür. Ikinci dövr isə 1996-cı ildən başlayaraq iqtisadi dirçəliş və inkişaf dövrüdür.

Birinci dövr iqtisadiyyatı müstəqilliyin yenicə qazanılması, müharibə şəraitinin olması, iqtisadiyyatın inkişafına təkan üçün ciddi islahatların aparılmaması fonunda mövcud olmuş iqtisadi böhran dövrüdür. Bu dövrdə inflyasiya pik həddə çatmış, pul siyasətindəki nöqsanlar iqtisadi böhrana səbəb olmuşdur. İqtisadi böhran istehsalın sürətlə azalmasına, qiymətlərin artmasına, bundan əlavə dövlət büdcəsinin ciddi kəsir verməsinə səbəb olmuşdur. Vergi yığılması sistemindəki əksikliklər, vergi nisbətlərinin inflyasiya səbəbiylə eroziyaya məruz qalması kimi səbəblərlə dövlət büdcəsindəki gəlir hissəsi kəskin sürətdə azalmışdır. İqtisadi böhranın ağrılı nəticələrindən digəri isə, milli valyutanın dəyər itkisi şəklində ortaya çıxması olmuşdur.

Iqtisadiyyatdakı bu geriləmələri yalnız 1994-cü ildən sonra aradan qaldırmaq mümkün olmuşdur. 1994-cü ilin sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə müqavilə imzalanmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta) iştirak etmişdir. Bu müqavilədə Böyük Britaniyanın "British Petroleum" (qoyulacaq investisiyanın 17,12 faizi) və "Ramco" (2,08 faizi), ABŞ-ın "Amoco" (17,01 faiz), "UNOCAL" (11,2 faiz), "Penzzoil" (9,81 faiz), "McDermott" (2,45 faiz), Rusiyanın "Lukoil" (10,0 faiz), Norveçin "Statoil" (8,56 faiz), Türkiyənin "Türk petrolları şirkəti"nin (1,75 faiz) və Azərbaycan Neft Şirkətinin isə 20 faiz payı var idi. Bu hadisə Azərbaycan iqtisadiyyatına qoyulmuş ilk böyükhəcimli investisiya idi.

1994-2000-ci illər arasındakı xarici sərmayənin ümumi həcmi isə 15,9 milyard dollar təşkil etmişdir. Bu miqdarın 22.8%-i maliyyə kredit, 56.3%-i neft sənayesinə, 20.9%-i isə digər sektorlara qoyulan sərmayə şəklində olmuşdur. Azərbaycan iqtisadiyyatı neft sektoruna xərclənən böyük miqdarda xarici sərmayə nəticəsində köhnə SSRİ daxilində ən sürətli böyüyən iqtisadiyyatlardan biri olmuşdur. ÜDM-dakı artış nisbəti 1998-ci ildə 10%, 1999-cu ildə isə 7.2% təşkil etmişdir. 1994-cü ildə 1700 %-ə qədər yüksələn infilyasiya 2000-ci ildə 1,8%-ə düşmüşdür. Birbaşa xarici investisiyalar Azərbaycan iqtisadiyyatında açar rolunu oynamışdır. 2000-ci ildən etibarən 122 ölkə ilə iqtisadi münasibətlər qurulmuş, ticarət münasibətlərinin ümumi həcmi 2.9 milyard dollardan artıq olmuşdur. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əmək haqqı 5,6 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Qlobal maliyyə-iqtisadi böhran nəticəsində dünyanın aparıcı ölkələrində baş vermiş kəskin ressesiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009-cu ildədədavam etmişdir. Eyni zamanda, Azərbaycan 2009-cu ildə iqtisadiyyatın real artım tempinə görə region ölkələri arasında lider olmaqla yanaşı, müvafiq göstərici üzrə dünya miqyasında da yüksək yerdə qərarlaşmışdır. Belə ki, ilin yekunlarına əsasən, 2009-cu ildə ÜDM-in real artımı 2008-ci illə müqayisədə 9.3%, əhalinin hər nəfərinə düşən ÜDM-nin real həcmi isə 7.9% təşkil etmişdir. ÜDM-nin 64.1%-i iqtisadiyyatın istehsal, 28.3%-i xidmət sahələrinin payına düşmüş və bu sahələrdə real artım müvafiq olaraq 10% və 9.1% təşkil etmişdir. 2009-cu ildə neft-qaz sektorunda real artım 14.3%, qeyri-neft sektorunda isə 3.2% olmuş və eləcədə sənaye sektorunda real artım tempi 12.8%, nəqliyyatda 9.3%, rabitədə 13.1%, ticarətdə 9.9%, kənd təsərrüfatında 3.5% təşkil etmişdir. Əlbətdəki bu artım tempinin əsası neft sektoru ilə bağlıdır. 2008-ci ildə Azərbaycanın AzəriLayt markalı neftinin bir bareli 149.66 dollar olmuşdur.

BVF-nun hesablamalarına görə Azərbaycan 2013-cü ildə 73.5 milyard dollarlıq nominal və 158.5 milyard dollarlıq satınalma gücü paritetli ÜDM göstəricisi üzrə dünya ölkələri arasında 65-ci sırada olmuşdur.



Şübhəsiz ki, Azərbaycan iqtisadiyyatının əsasını neft sektoru tutur. Bu isə Holland sindromunun yaranmasına gətirib çıxarmıdır ki, bunun da qarşısını almaq və iqtisadiyyatın neft sektorundan asılılığını aradan qaldırmaq məqsədilə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayrılır. 2017-ci il ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 44061.9 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 57.8%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, tikinti və digər sahələrin payına düşmüşdür. 2017-ci ildə ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2.7% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 62.8% təşkil etmişdir. Qeyri-neft sektorunun alt sahələri üzrə ÜDM-ə ən çox müsbət töhfə verən sahələr nəqliyyat və anbar təsərrüfatı, tikinti və ticarət və vasitələrinin təmiri sahələri olmuşdur.

2016-cı ilin müvafiq dövrünə nisbətən kənd, meşə və balıqçılıq təsərrüfatları sahəsində 4.2%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 2.5%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 8.5%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 5.9%, informasiya və rabitə sahəsində 6.6% artım olmuşdur.

2018-ci ilin yanvar-sentyabr ayları ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 32821.1 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 53.1%-i sosial və digər xidmətlər, ticarət nəqliyyat,tikinti sahələrinin payına düşmüsdür. 2018-ci ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1.0% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 56.8% təşkil etmişdir. [https://economy.gov.az/article/state-programs/21429]

Dünya bankı növbəti üç il ərzində Azərbaycan iqtisadiyyatının əhəmiyyətli dərəcədə artımını proqnozlaşdırır. Proqnoza əsasən 2018-ci ildə Azərbaycanın ümumi daxili məhsulu(ÜDM)1.8%, 2009-cu ildə 3.8%, 2020-ci ildə 3.2% artacaq. "Ortamüddətli perspektivdə Azərbaycan iqtisadiyyatının artım templəri qaz hasilatının genişlənməsi və Transanadolu boru kəmərininin işə salınması ilə sürətlənəcək". [http://banco.az]

Həmçininin Azərbaycan iqtisadiyyatının gələcək inkişafı 2025 ci ilin strateji yol xəritəsində də əks olunmuşdur. İqtisadiyyatın sektorları üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadi inkişafla yanaşı dörd xüsusi hədəfə nail olunacaqdır ki, Bunlara aşağıdakılar aiddir:

Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,6 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması; Qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması; Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yerinin yaradılması; Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması.

## AZƏRBAYCANDA QUŞ GÖZLƏMÇİLİYİNİN TƏŞKİLİ PERSPEKTİVLƏRİ

**Qurbanova Yeganə Balabəy qızı**
***Bakı Dövlət Universiteti***
***Elmi rəhbər: dos. Vüqar Dərgahov Gmail:***
***yeganequrbanova96@gmail.com***

**Açar sözlər:** quş gözləmçiliyi, quşlar, ornitologiya, ornitoloji cəmiyyət, mühüm ornitoloji ərazilər.
**Keywords:** bird, birdwatching, birding, bird guide, ornithology.
**Ключевые слова:** наблюдение за птицами, бёрдвотчинг, птичничество, орнитология, бердинг.

Azərbaycan Avropada biomüxtəlifliyin qorunmasında xüsusən də quşlar üçün mühüm bölgələrdən biridir. Eyni zamanda ölkəmizdə təbii və süni yaradılmış su-bataqlıq sahələri də mövcuddur. İndiyə kimi Azərbaycanda 53 MOƏ (Mühüm Ornitoloji Ərazilər) müəyyən edilmişdir. Bu da ölkəmizi MOƏ-nin sayı çox olan Avropa ölkələri sırasına çıxarır. 4 MOƏ Naxçıvan Muxtar Respublikasının ərazisində, 12-si Kür-Araz ovalığında, 5-i Lənkəran zonasında, 9-u Abşeron-Qobustan ərazisində, 8-i Kiçik Qafqaz və ona bitişik

ərazilərdə, qalanları isə Böyük Qafqaz və ona bitişik ərazilərdə yerləşir. Azərbaycan Ornitologiya Cəmiyyəti 1986-cı ildə yaradılmışdır. Bu cəmiyyətin əsas vəzifəsi cəmiyyətdə quşlara qarşı marağın artmasına kömək etmək, quşlar haqqında məlumatları artırmaq, quşsevərlərin fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Eyni zamanda əhalinin ekoloji savadını artırmaq və təbiətin qorunmasına dəstək olmaq da cəmiyyətin əsas missiyalarındandır. Ramsar Konvensiyası beynəlxalq əhəmiyyətə malik su-bataqlıq ərazilərinin qorunması və davamlı istifadəsi üçün beynəlxalq müqavilədir. Konvensiya Azərbaycan tərəfindən 2001-ci il iyulun 18-də ratifikasiya edilib. Ölkəmizdə Ağgöl və Qızılağac milli parkları əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətə malik olan su-bataqlıq yerləri haqqında ramsar konvensiyasının ramsar siyahısına daxil edilib. Ramsar Konvensiyasına daxil edilən su-bataqlıq sahələri eyni zamanda Ramsar sahələri adlanır. Həmin bu ərazilər haqqında məlumatlar hər il yenilənir. Ramsar Konvensiyasına daxil olan ərazilərdə 4 əsas göstərici mövcuddur:

1. Unikallıq
2. Heyvan və bitkilərə əsaslanan ümumi meyar
3. Su quşlarına əsaslanan meyar
4. Balıqlara əsaslanan meyarlar

Azərbaycanda quşları öyrənən mütəxəssislərin sayı az olduğu üçün burada məskunlaşan quşların sayını dəqiq hesablamaq mümkün olmur. Elə quş növləri var ki, həmin quş növünə cəmi bir neçə dəfə rast gəlinib. Ola bilsin ki, Azərbaycan ərazisində elə quş növləri var ki, indiyə qədər onlar bir dəfə də olsun qeydə alınmayıb. Bütün bu faktlardan belə nəticəyə gəlmək olar ki, hazırda Azərbaycanda 400-dən artıq quş növü yaşayır.

XIX əsr rus tədqiqatçılarından olan M.Boqdanov, Q.Radde, N.Dinnik Azərbaycanda mövcud olan bir çox quş növləri haqqında məlumatlar vermişdir. Q.Radde bütün Qafqaza olduğu kimi Azərbaycana da səfər edir və quşların müşahidəsi ilə məşğul olur. Q.Radde "Орнитологическая фауна Кафказа" adlı əsərində ölkəmizdə müşahidə etdiyi bir çox quş növləri haqqında məlumatlar verir. Əsərində Qarabağ, Muğan, Talış və Xəzər sahili ərazilərdə imperator qartalı, çöl muymulu, kərkəs quşlarını da qeydə alaraq, həmin quşların təsvirini vermişdir. M.Boqdanov "Птицы Кафказа" əsərində öz müşahidələrini qeydə almışdır. Q.Radde eyni zamanda Salyan, Muğan, Lənkəran kimi bəzi aran rayonlarında quşların müşahidəsini aparmış və həmin ərazilərdə bir çox quş növlərinə rast gəldiyini qeyd etmişdir. Aparılan tədqiqatlar nəticəsində əvvəllər rast gəlinməyən bir çox quş növləri aşkar edilmişdir. İmperator qartallarına əsasən düzənlik ərazilərində rast gəlinir. Xüsusilə Tuqay meşələrində bu qartallara rast gəlmək olar. Macarıstanlı mütəxəssislər söyləyirlər ki, Avropada bu qartalların ikinci ən böyük populyasiyası məhz Azərbaycandadır. Təxmini hesablamalar görə, ölkəmizdə 100-dən artıq imperator qartalı yaşayır.

## ƏDƏBİYYAT SİYAHISI

5. Azərbaycanın heyvanlar aləmi, onurğalılar, 2004, III cild, Bakı, Elm, s 280-337
6. Cabbarova A.F. 2008. Varvara su anbarında leyləkkimilərin müasir vəziyyəti. AMEA Xəbərləri, biol.elmlər seriyası, 2008
7. Elçin Sultanov. 2000. Bozqobu göl sistemi, Kitabda: Azərbaycanın potensial Ramsar sahələri, Bakı, Wetlands İnternational-AEME, s. 46-48
8. Əliyev H, Mirzəyev Ş. 1979. Həkəriçay hövzəsinin dağ-meşə torpaqları və onlardan səmərəli istifadə edilməsi. Bakı, Elm, 125 s.
9. Məmmədov Q., Mahmudov X., 2004 Ekologiya və ətraf mühit, Bakı, Elm, 500 s.
10. Sultanov E., Kərimov T., 2007, Azərbaycan ornitofaunasından beynəlxalq saziş və konvensiyalara daxil edilmişquş növləri. Bakı, 107 s.
11. BirdLife İnternational, 2000, Threatened Birds of the World
12. Health, M,F., Evans, M.İ, 2000, Important birds areas in Europe: priority sites for conservation
13. Patrikeev M., The Birds of Azerbaijan. Pensoft, Sofia-Moscow, 2004, 380 p. BirdLife International (2009) Important Bird Area factsheet: Zakataly, Azerbaijan.
14. Patrikeev M., Wilson M, 2000, Important Bird Areas in Europe–Azerbaijan. BirdLife Conservation Series № 8, vol. 2, New-York, 108 p.

15. Султанов Э.Г., Керимов Т.А., 2008. О миграции журавлей в Азербайджане. Журавли Евразии (биология, распространение, миграции). Вып.3., Москва, с. 394-399 (рез. англ.).
16. Заповедники СССР, 1990. Заповедники Кавказа. М. «Мысл», с.251-259.

## DÜNYADA ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

**Qurbanov Təbriz**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı*
*Elmi rəhbər: b.m. Muradlı Eldar*

**Açar sözlər:** FAO, ərzaq təhlükəsizliyi, ərzaq çatışmamazlığı
**Key words:** FAO, food safety, food shortages.
**Ключевые слова:** Фао, безопасности пищевых продуктов, нехватка еды.

Ərzaq təhlükəsizliyinin hüquqi əsasını ölkə konstitusiyası təşkil edir və hər bir ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Ölkənin milli ərzaq suverenliyi baş verə biləcək hər hansı fövqəladə vəziyyətlər zamanı, dövlətin əhalini ərzaq və qida məhsulları ilə təmin etmək imkanına, eləcə də hər kəsin ərzaq məhsulları əldə etmək üçün fiziki, sosial və iqtisadi imkanlara malik olması deməkdir.

Bəşəriyyətin ən qlobal problemlərindən biri ərzaqla təminatdır. Bunun həllində taxıl istehsalı xüsusi əhəmiyyət kəsb edir. Bu, aqrar-sənaye istehsalında digər sahələr üçün yaradıcı sistem rolunu oynayır və taxılın bazardakı vəziyyəti beynəlxalq miqyasda, eləcə də ayrı-ayrı dövlətlərin ərzaq təhlükəsizliyində əsas göstəricilərdən biri sayılır. Dünya miqyasında ərzaq təhlükəsizliyinin xarakteristikasını, strategiya və taktiki yanaşmaları işləyib hazırlayan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Beynəlxalq Təhlükəsizlik Komitəsi dünya əhalisinin ehtiyacını hesablayarkən dünyada taxıl ehtiyatının ümumdünya istehsalına nisbətini əsas götürür. Dünya taxıl istehlakının 60 gününə bərabər (cəmi istehlakın 17%-i miqdarında) olan keçid taxıl ehtiyatının həcmi təhlükəsiz səviyyəni təşkil edir. Bununla yanaşı, taxıl ixrac edən ölkələr tərəfindən təklif edilən taxılın, qarğıdalının və düyünün qiymətləri əsas götürülür. Beynəlxalq miqyasda bazarda qiymətlərin aşağı səviyyəsi ehtiyatların toplanmasının indikatoru, qiymətlərin yüksək səviyyəsi isə ehtiyatlardan istifadənin indikatoru funksiyasını yerinə yetirir.

Bu amil həm idxalçılar, həm də icraçılar üçün iqtisadi cəhətdən sərfəli sayılır. Dünya təcrübəsində o ölkənin ehtiyatı təhlükəsiz hesab edilir ki, ölkə əhalisinin illik istehlakının 17-20%-i həcmində taxıl ehtiyatı olsun. Yəni taxıl resursu illik istehlakdan əlavə ölkə əhalisinin daha 2 ay müddətinə taxıla olan tələbatını təmin etmək imkanı versin. Taxıl və onun emal məhsulları mənşə etibarı ilə əhalinin həyat fəaliyyətinin əsasını təşkil edir.

Bununla yanaşı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində digər kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvə-tərəvəzin, bostan və heyvandarlıq məhsullarının istehsalı vacibdir. Bu məhsullar insanların qida rasionunun əsas tərkib hissəsi, həyat mənbəyidir. Mütəxəssislərinhesablamaları göstərir ki, gün ərzində 2500 kkal həcmində qidalanmaya, yalnız dünya əhalisinin 35 faizinin imkanı vardır. Dünya əhalisinin daha 15 faizi kifayət qədər kalorilikdə ərzaq məhsulları qəbul etsələr də, bu və ya digər qida əhsullarının, ilk növbədə, heyvan mənşəli zülalların qəbul edilməsində çatışmazlıqlara məruz qalırlar. Dünyanın 20 faiz əhalisi mütləq qida çatışmazlığı şəraitində yaşayır və bu qədər insanın qidalandıqları məhsulların enerji təminatı 1500 kaloridən aşağıdır. Araşdırma göstərir ki, adambaşına gündəlik istehlak edilən ərzaq məhsullarının orta illik həcmi 4 ölkədə 1880 kkaldan aşağıdır (bu ölkələrdə yaşayanlar dünya əhalisinin 1,3 faizini təşkil edir), bu göstərici 6 ölkə üzrə 1800-2000 kkal arasında dəyişir (1,9%), 50 ölkənin, yəni 31,2 faiz dünya əhalisinin qidalanmasının enerji təminatı 2000-2500 kkal-a bərabərdir. Dünya ölkələri üzrə əhalinin qidalanması üçün enerji təminatının minimum həddi Konqo Demokratik Respublikasında (1585 kkal) maksimum həddi isə ABŞ-da (3770 kkal) müşahidə olunur.

Hazırda dünya əhalisi 7 milyard nəfəri ötmüş və 2050-ci ildə dünya əhalisinin sayının 9,2 milyard nəfərə çatacağı ehtimal olunur. Dünya əhalisi 1970–ci ilə nisbətən, demək olar ki, 2 dəfəyədək artmışdır.

Eyni zamanda, 3 mlrd. əhalinin yemək rasionu da dəyişmiş, yumurta, süd və ət məhsullarının istehlakı artmışdır.

Bu isə, heyvandarlıq məhsullarının dünya miqyasında istehlakının artmasına və nəticədə heyvanları da yedizdirmək lazım olduğundan heyvandarlıqda yem məhsullarına da tələbatın artması nəticəsində qarğıdalıya, dənli və paxlalı bitkilərə tələbatın artmasına gətirir.

Hazırda dünyada hər il təqribən 2.2 mlrd. ton taxıl istehlak olunur. On il bundan əvvəl istehlakın artım həcmi hər il 20 mln. ton olduğu halda, hazırda bu rəqəm 40 mln. tona çatmışdır. Son illərdə dünya bazarlarında qarğıdalının, düyünün, buğdanın qiymətləri xeyli artmışdır. Dünyada dənli bitkilərin ümumi əkin sahəsinin 32%-ni buğda təşkil edir. 2010-cu ildə dünyada buğdanın ümumi istehsalı 681.9 mln. ton, hər hektardan orta məhsuldarlıq isə 3.02 ton təşkil etmişdir. Buğda istehsalının hazırki səviyyəsi ilə (təqribən 620-680 mln. ton) müqayisədə bu artımı təmin etmək üçün 2020-ci ilə kimi buğda istehsalı 840 mln. tona çatdırılmalıdır.

Eyni zamanda, dünya üzrə su çatışmazlığı da ərzaq təhlükəsizliyinin təmin olunmasında problemlər yaradır. Ümumiyyətlə, bu hal Şimali Afrika və Ərəb ölkələri üçün xarakterik sayılır. Belə ki, Səudiyyə Ərəbistanının ərazisinin çox hissəsi səhra olsa da, 20 il bundan öncə, yeraltı sulardan istifadə etməklə özünü buğda ilə təmin edə bilirdi. Suların çəkilməsi və səhralaşma ilə əlaqədar, hazırda elə vəziyyət yaranıb ki, ölkə yaxın gələcəkdə tələb olunan buğdanın hamısını idxal etməli olacaq. Taxıl istehsalı İraqda, Suriyada getdikcə aşağı düşür, Yəməndə isə su çatışmazlığı əsas problemdir.

Amerika alim M. Ensmingerin deyiminə görə, "istehlak ərzağı həm məsuliyyət, həm də silahdır. Məsuliyyət, çünki insanın yaşaması və yeməsi üçün lazım olan kifayət edəcək ərzağın olması onun ən başlıca hüququdur. Digər tərəfdən, o silahdır, çünki siyasətdə və iqtisadiyyatda ərzaq məhsulları böyük təsirə, güllə və neftdən artıq gücə malikdir". Təbii ki, əhalinin artım sürəti həlledici dərəcədə ərzağa tələbatın artım sürətini müəyyən edir, digər tərəfdən isə bu tələbat ilbəil keyfiyyətcə təkmilləşir, dəyişir və yeniləşir.

Bu səbəbdən də dünyanın əksər ölkələrində kənd təsərrüfatı məhsulları istehsalında məhsuldarlığın artırılması məqsədilə mütəmadi olaraq elmi tədqiqatlar aparılır, yeni texnika və texnologiyaların kənd təsərrüfatı istehsalına tətbiqi, innovasiyaların istehsal sahələrinə gətirilməsi, gen mühəndisliyi və genetik cəhətdən modifikasiya olunmuş mikroorqanizmlərdən, müxtəlif kimyəvi preparatlardan, qida əlavələrindən, əvəzedicilərdən və s. istifadə hazırda geniş yayılmışdır. Təbii ki, bu vasitələr və elmi-texniki nailiyyətlər istehsal həcminin artırılmasında mühüm rol oynamaqla yanaşı, bəzən düzgün istifadə edilmədikdə qida sağlamlığı üçün müəyyən təhlükələr yaradır. Bundan əlavə, tələbatın artım sürəti istehlak bazarında keyfiyyətsiz, insan sağlamlığı üçün təhlükə yarada biləcək ərzaq məhsullarının yer almasına da şərait yaradır.

Bir də vacib məqam odur ki, bu gün dünyada ərzaq təhlükəsizliyi problemi ayrı-ayrı ölkələrin şəxsi problemi yox, artıq qlobal, bütün dünyanın ortaq probleminə çevrilmişdir ki, bunun da başlıca səbəbi müasir dövrdə iqtisadi münasibətlər sürətlə qloballaşır və ölkələrin sərhədlərini aşır. Buna görə də bu gün, BMT yanında Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) çoxsaylı dövlətlərin iqtisadi təcrübəsində ərzaq təhlükəsizliyi və onun hədlərini təhlil edərək, beynəlxalq ümumiləşdirmələr aparır. Bu təşkilatın 1979-cu ildə keçirilən konfransında hər il oktyabr ayının 16-sının "Ümumdünya Ərzaq Günü" olaraq keçirilməsi qərara alınmışdır. Bu tarix həm də BMT yanında Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yaranma günüdür. Bununla yanaşı, 1974-cü ildə "Ümumdünya Ərzaq Şurası" yaradılıbdır. Bu şura ümumdünya ərzaq proqramı təşkilatı kimi fəaliyyət göstərir.

Ərzaq çatışmamazlığı dünya üzrə çox ciddi problemdir. Baxın, BMT-nin hesablamalarına görə bu gün dünyada milyonlarla insan aclıqdan əziyyət çəkir. Kifayət qədər qidalanmama cəmiyyətə çox baha başa gəlir və müxtəlif formalarda təzahür edir. Dünyada beş yaşından aşağı hər dörd uşaqdan biri aclıqdan əziyyət çəkir. Bu o deməkdir ki, kifayət qədər qidalanmayan 165 milyon uşaq həyat boyu tam fiziki və əqli inkişafdan geri qalacaqdır.

Təxminən 2 milyard əhali sağlam həyat üçün zəruri olan vitamin və mineral maddələrin çatışmazlığı ilə üzləşmişdir. Ona görə də zəncirboyu, yəni, ərzağın nəqli, saxlanması, super-marketlərdə və evdə ərzaq itkisinin qarşısının alınması yolları öyrənilməsi bu baxımdan çox vacib məsələdir. Təbii ki, bu da bu sahənin mütəxəxssislərinin məşğul olduğu sahədir.

Yer kürəsində baş verən ekoloji və iqlim dəyişiklikləri, kənd təsərrüfatı istehsalına yararlı torpaq sahələrinin və su resurslarının azalması, eroziya proseslərinin sürətlənməsi, habelə dünya əhalisinin müntəzəm artması ərzaq məhsullarına qlobal tələbatın yetərincə ödənilməsində ciddi problemlər yaradır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Quliyev E. Qlobal ərzaq təhlükəsizliyi, reallıqlar, çağırışlar və perspektivlər. Bakı, Kooperasiya nəşriyyatı.2018

2. Hacızadə E.M Sosiallaşan iqtisadiyyat. Bakı, Elm nəşriyyatı. 2006

3. http://serqqapisi.az/index.php/iqtisadiyyat/23319-aerzazh-taehlukaesizliyi-vae-onun-huzhuzhi-bazas.html

4.https://www.academia.edu/38561102/M%C3%B6vzu_10_Qloba1_%C9%99rzaq_problemi_v%C9%99_%C9%99rzaq_t%C9%99hl%C3%BCk%C9%99sizliyi_doc

# UZAQDAN (MƏSAFƏDƏN) İŞ SƏBƏBİNDƏN MEYDANA GƏLƏN KİBER TƏHLÜKƏSİZLİK RİSKLƏRİ

**Mahmud Arif Akif**
***Azərbaycan Texniki Universiteti1***
***t.f.d., Orucova Milana Yaqub***

**Açar sözlər:** Uzaqdan(məsafədən) iş, VPN texnologiyası, Bulud sistemləri.
**Keywords:** Remote work, VPN technology, Cloud systems.
**Ключевые слова:** удаленная работа, технология VPN, облачные системы.

## XÜLASƏ

Ölkəmizdə gündəmə gələn COVID-19 virusu ilə bir çox təşkilat üçün uzaqdan işləmək və ya evdə işləmək məsələsi gündəmə gəldi. Bunun nəticəsində təşkilatların kiber hücumdan müdafiə tədbirləri birdən genişləndi. İşçilərinə uzaqdan (məsafədən) işləmək imkanı verən və ya verməyi düşünən təşkilatların bu vəziyyətdə kiber təhlükəsizlik yönündə nəzər yetirməli olduqları bir sıra vacib məlalələr vardır. Bu məqalədə biz bu vacib məsələlərdən bəhs edəcəyik.

Uzaqdan (məsafədən) təhlükəsiz işləməklə bağlı risklər.Təşkilat daxilində olan sistemləri və məlumatları təhlükəsiz saxlamaq, bu məlumatların təşkilat binasının xaricində və bəzən təşkilatın nəzarəti altında belə olmayan sistemlərdə tutulması ilə müqayisədə çox asandır. İşçilərə uzaqdan (məsafədən) işləmək imkanı verdikdə hər şeydən əvvəl vacib məlumatların təşkilatın fiziki sərhədlərinin xaricinə çıxacağını başa düşmək lazımdır. Bunun yanında təşkilata gələn bağlantıların növü və sayı dəyişəcəkdir. Bir çox təşkilatda kritik iş sistemləri(verilənlər bazası və s.) birbaşa internetə açıq deyilkən artıq açılmasına ehtiyyac yaranacaqdır. Əvvəllər təşkilatın satış və marketinq işçiləri uzaqdan bağlanırdısa indi isə mühasibat şöbəsi işçilərinin də uzaqdan bağlanması lazım olacaqdır. Bu vəziyyətdə, bu günə qədər gözlənilməyən bəzi risklərin həyatımıza gəlməsi təbiidir.

Uzaqdan işləmə modelində yaranan əsas kiber təhlükəsizlik riskləri aşağıdakı kimi sadalana bilər;

1. Bağlantılardan yaranan risklər
2. Məlumatların xaricdə saxlanmasından yaranan risklər
3. İşçinin kənarda olmasından qaynaqlanan risklər

Uzaqdan (məsafədən) işləyərkən diqqət edilməli olan məsələlər. Uzaqdan təşkilat sistemlərinə bağlanarkən mütləq bir VPN istifadə edilməlidir. Bu şəkildə həm işçilər təşkilat şəbəkəsi içərisində imiş kimi idarə edilə bilir həm də bağlantının təhlükəsizliyi təmin olunur. VPN(Virtual Private Network- Virtual Özəl Şəbəkə) işçinin özünə aid şifrəli, başqaları tərəfindən dinlənməyəcək bir bağlantıya sahib olmasını həyata keçirir. Beləliklə, sistemlərə təhlükəsiz giriş təmin etməklə yanaşı, hansı istifadəçinin hansı sistemə

və nə vaxt qoşulduğunu qeyd etməyimizə imkan verir. İşçilərin təşkilat xaricində olduğu bir vəziyyətdə bu məsələ çox vacibdir. [4]

İşçilərin təşkilat xaricində olduğu bir vəziyyətdə bağlanacaqaları və istifadə etdikləri sistemlərin təşkilat daxilində olması şərt deyildir. Xüsusilə təşkilatın internet sürətinin zəif olduğu halda və ya bağlanılacaq server, infrastruktur və s. komponentlərin sıxışaraq performans problemlərinə səbəb ola biləcəyi vəziyyətlərdə serverləri və sistemləri Buluda(Cloud) və ya bir məlumat mərkəzinə köçürmək məntiqli ola bilər. Beləliklə həm yaddaş problemi əlavə maliyyə yatırmadan həll edilə bilər həm də işin davamlılığı artırıla bilər. [2]

Evdən (məsafədən) işləyən işçilər təşkilat mühitində məruz qalmadıqları bəzi risklərlə qarşılaşa bilərlər. Bunların bir qismi fiziki olaraq ofis mühitində olmamaqdan qaynaqlanarkən (məsələn: birinin ekranı görməməsi) bir qismi də evdə olmanın verdiyi rahatlıqdan (məslən: uşağa aid bir USB kartı təşkilat noutbukuna taxılması və ya hesablarının güncəl olamayan bir mobil cihazda açılması) yarana bilər. İşçilərin uzaqdan işləyərkən nəyi edə biləcəkləri və nəyi edə bilməyəcəkləri haqqında məlumatlandırmaq bu səbəblə çox önəmlidir.

Uzaqdan (məsafədən) işləyərkən alınacaq texniki tədbirlər.Uzaqdan işləyən bir təşkilatda nəzərə alınacaq texniki tədbirlərdən bəziləri aşağıdakılardır;

2 mərhələli kimlik doğrulama: Bütün istifadəçi girişlərinin 2 mərhələli doğrulama istifadə edilərək edilməsi çox önəmlidir. İstifadəçilərin şifrələrini daxil etdikdən sonra SMS və s. üsullar ilə işçiyə çatdırılaraq tək istifadəlik bir açar(key) ilə giriş etməsi, baş verə biləcək şifrə oğurlanmasına qarşı ən təsirli metodlardan biridir. [1]

İstifadəçilərin şifrə təxmin hücumlarına qarşı qorunması üçün istifadəçilərin ən azı 12 rəqəmdən ibarət olan və təxmin etmək çətin olan parollardan istifadə etmələri tövsiyə olunur.

VPN bağlantılarının izlənməsi: VPN xaricində (məsələn: RDP) bir əlaqə növünü qəbul etməyin. Bütün bağlantıların VPN üzərindən edilməsi və VPN bağlantılarının izlənməsi önəmlidir.

İstifadəçi hesablarının izlənməsi: Əməliyyat sistemlərinin təhlükəsizliyindən çox istifadəçi hesablarının və təşkilat məlumatlarının təhlükəsizliyi nəzərə alınmalıdır. Bunun üçün hansı hesabların hansı icazələrin olduğunu və hansı məlumatları qəbul etdiyini və işləndiyini izləmək vacibdir. Bu mərhələdə, Active Directory təhlükəsizliyini təmin etmək, hesab icazələrinin yoxlanılması və DLP həllərindən istifadə kimi bəzi texniki tədbirlər görülməlidir.

Fiziki təhlükəsizlik: Quruluşa aid noutbuk və ya planşet kimi cihazların oğurlanması riski həmişə var. Bu sistemlər oğurlanarsa, oğruların təşkilat məlumatlarına girməməsi üçün disk şifrələməsindən istifadə edilməlidir.

Kibertəhlükəsizlik gigiyenası: Bu şərtlərdə, əsas kibertəhlükəsizlik gigiyena qaydalarının əhəmiyyəti də artır. Sistemlərə quraşdırılmış proqram təminatının ən son versiyada saxlanılması, antivirus proqramının quraşdırılması, sıxışdırma (ZİP) və ya PDF oxunması kimi funksiyalarda istifadə olunan proqramlardan yarana biləcək risklərin qiymətləndirilməsi kimi məsələlər hər zamankindən daha kritik olacaqdır. Bundan əlavə, bu günə qədər sadəcə lokal şəbəkədə istifadə olunduğu üçün təhlükəsizlik səviyyəsi yaxşılaşdırılmamış tətbiqetmələrin (məsələn, təşkilat daxilində hazırlanmış bir izləmə tətbiqi və ya xaricdən satın alınan bir tətbiq) hər an xarici aləmə açıla biləcəyini nəzərə alaraq əvvəlcədən əlavə tədbirlər görülməlidir. [3]

Nəticə

Məqalədə uzaq məsafədən işləməkdən yaranan problemlərdən, risklərdən və onlara qarşı alınacaq tədbirlərdən bəhs edildi. Hansı ki, bu məsələ günümüzdə olduqca aktualdır ki, bu da əsasən məlumatların qorunmasına qarşı görülən təhlükəsizlik tədbirlərindən irəli gəlir. Bu təhlükəsizlik tədbirləri işçilərin uzaqdan(məsafədən) heç bir risk olmadan təşkilatın məlumatlarından istifadə etməsinə imkan yaradır. Məqalədə işçilərin uzaqdan(məsafədən) təşkilat məlumatlarından necə təhlükəsiz şəkildə istifadə etməyi və işin davamlılığını artırmaq üçün risklər araşdırılmışdır.

## **ƏDƏBİYYAT SİYAHISI:**

1. https://tr.godaddy.com/blog/iki-faktorlu-ya-da-iki-adimli-dogrulama-nedir/

2. https://www.ibm.com/cloud/learn/cloud-computing
3.https://www.industryweek.com/technology-and-iiot/cybersecurity/article/22024980/cybersecurity-hygiene-17-steps-your-business-should-be-taking-now
4. https://www.pcmag.com/news/what-is-a-vpn-and-why-you-need-on

# MİNGƏÇEVİR SU ANBARI SAHİLLƏRİNDƏ YERALTI SULARIN HİDROGEOLOJİ PARAMETRLƏRİNİN HESABLANMASI.

**[1]Mahmudzadə A.M., [2]Rzayev R.T.**
***[1,]Fövqəladə Hallar Nazirliyinin Akademiyası***
***[2] "Azərsu" ASC "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutu,***
***anarmah98@mail.ru***

## ABSTRACT

Within the limits of its underground waters of the Strait of Mingechaur almost entirely rooted in the Absheron collected layers of sandstone. Sandstone layers the shallow depth of groundwater, deep gorges and ravines, steepness of the slopes at the top of fragmented parts, and located close to the lowest depths of the layers in the core of the fault, there is a steepness of the slope platforms.

**Açar sözlər**: suçəkmə, sutökmə, depressiya əyrisi, sulu horizont, psevdokarst, drenaj, eroziya bazisi, süzülmə əmsalı.

**Giriş.** Mingəçevir su anbarı hövzəsinin hidrogeoloji şəraiti indiyədək dəqiq öyrənilməmişdir. Aparılmış tədqiqatlar zamanı əsas diqqət tektonika, stratiqrafiya və ekzogen-geoloji proseslərin öyrənilməsinə yönəldilmişdir. Ona görə də hidrogeoloji şəraitin öyrənilməsinə lazımınca diqqət yetirilməmişdir. Mingəçevir su anbarı sahillərinin yeraltı suları demək olar ki, tamamilə köklü Abşeron qumdaşı laylarında yayılmışdır. Həmin süxurların müxtəlif dərəcədə parçalanmış çatlı və olduqca qeyri-sabit qranulometrik tərkibli olması nəzərə alınmaqla süxurlar hidrogeoloji parametrlərinin müvafiq hidravlik qanun əsasında hesablanması bu tədqiqat işində öz əksini tapmışdır.

**Nəzəri hissə.** Əldə olunmuş materiallara əsasən demək olar ki, Mingəçevir "Boğazının" hüdudlarındakı yeraltı sular Abşeron yaşlı qumdaşı kompleksində toplanmışdır.

Abşeron yaşlı süxurlar hidrogeoloji baxımdan 3 tipə bölünür:

1. Sərbəst hidrogeoloji rejimi olan, daha böyük qalınlıqlı, sulu qumdaşı layı;
2. Tərkibində qumdaşı laycıqları olmayan sukeçirməyən gil layı;
3. Sululuq şəraitinə görə aralıq vəziyyəti tutan, bir süxur qrupunda birləşən, az qalınlıqlı gil və qumdaşı laylarının növbələşməsi [5].

Ümumiyyətlə, bu ərazidə sahil zolağı istisna olunmaqla, yamaclarda qrunt sularına rast gəlinməmişdir. Bu onunla əlaqədardır ki, bu ərazi tektonik qalxma zonasıdır. Bunun da nəticəsində IV dövrdən altda yatan ana süxurların səthi qrunt suları üçün suyadavamlı lay hesab olunur və "Boğaz"da cənuba və şimala nisbətən daha yüksək nöqtələrdə yerləşir. Ana süxurların bu yeraltı suayırıcısının iki tərəfli mailliyi "Boğaz"ın suları ilə drenlənir və onların allüvium və dellüvium qatları ilə örtülmüş ana süxurların tavanının azalma sahəsində, "Boğaz"dan aşağıda və yuxarıda toplanmasına şərait yaradır. Həqiqətən də Kürün terras çöküntülərində "Boğaz"dan yuxarıda və aşağıda hər yerdə allüvinin qumlarında və çaqıllarında qrunt sularına rast gəlinir.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Mingəçevir "Boğaz"ının hər yerində IV dövrün qrunt suları drenaj olunmuşdur. Lakin "Boğaz"ın hüdudlarında Abşeron və Ağcagil qumdaşı çöküntüləri sulu hesab olunur.

Ümumiyyətlə, Abşeron və qismən də Ağcagil qumlu-gilli çöküntüləri qalınlığı təqribən 1400 m olmaqla, hidrogeoloji cəhətdən bir-biri üzərində, ayrı-ayrı mərtəbələr şəklində böyük bucaq altında maili yerləşmiş sulu horizontların tam sırasını təmsil edir. Bu sulu qumdaşı layları arasındakı məsafə olduqca

müxtəlifdir və bu da, ayrıca laylar və lay dəstələrinin, onları bir-birindən ayıran sukeçirici olmayan gillərin qalınlığı ilə əlaqədardır. Sulu horizontların qalınlığı çox müxtəlifdir və susaxlayan qumdaşlarının qalınlığından və onların dənəvərlik dərəcəsindən asılıdır [2].

Tədqiqat ərazisində Abşeron çöküntülərinə aid olan aşağıdakı bulaqlar mövcuddur:

1. Şirinbulaq–Bozdağ silsiləsinin cənub yamacında yerləşir, suyunun keyfiyyəti yaxşıdır, debiti 0.4 l/san təşkil edir;
2. İstisu bulağı–Qocaşen dağ silsiləsinin cənub yamacında yerləşir, suyu şirindir, debiti aşağıdır, alt abşeron yaşlı qumdaşı çöküntülərindən süzülür, kimyəvi tərkibinə görə hidrokarbonatlı-xloridli-natriumludur, tərkibində nəzərə çarpacaq dərəcədə sulfat ionları iştirak edir (cədvəl 1).
3. Samux bulağı – Mingəçevir su anbarının sol sahilində yerləşir, debiti aşağıdır, suyun temperaturu 12-130 C-dir.

**Cədvəl 1. İstisu bulağının kimyəvi tərkibi**

| | Na+K | Ca | Mg | Cəmi | Cl | $SO_4$ | CO3 | $HCO_3$ | Cəmi | Ümumi min.dər |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| q/l | 0.1129 | 0.0329 | 0.0026 | | 0.0834 | 0.0823 | - | 0.165 | - | 0.3964 |
| Mq-ekv | 4.91 | 1.64 | 0.21 | 6.76 | 2.34 | 1.71 | - | 2.70 | 6.76 | - |
| % ekv | 72.64 | 24.26 | 3.10 | 100 | 34.76 | 25.28 | - | 39.96 | 100 | - |

Tədqiqat ərazisinin yeraltı sularının ümumi minerallaşma dərəcəsi kifayət qədər yüksək olmaqla (1300-4000 mq/l) quru qalığın miqdarı 2-12 q/l arasında dəyişir və əsasən sulfat və xlorid duzlarından ibarətdir.

Mingəçevir su anbarının sağ sahilində lay suları (əsasən NaCl) xloridli tiplidir [5]. Tədqiqat ərazisinin Abşeron yaşlı qumdaşları üçün süzülmə əmsalının hesablanmasının istənilən cəhdində belə bir sualın yaranması mümkünlüyü və məcburiyyəti yaranır. Bu hesablamaları suyun hərəkətinin hansı qanununa əsaslanaraq, hansı düstur üzrə aparmaq mümkündür.

Məlum olduğu kimi, hidravlikada suyun qruntlarda üç əsas hərəkət tipi nəzərdə tutulur.

1) laminar, xırda dənəli qruntlarda, “şırnaqlı” hərəkət üçün, hesablamada “Darsi” qanunu tətbiq olunur;
2) turbulent, kobud-qırıntılı, çatlı, böyük karst boşluqlarında hesablamalarda isə Şezi qanunu tətbiq olunur;
3) qarışıq, “şırnaqlı-borulu”, iri-dənəvər, kobud qumlu, ümumiyyətlə kəskin məsaməli qruntlar üçün Smreker qanunu tətbiq edilir [1].

Qruntlarda suyun hərəkət sürətini hesablamaq üçün uyğun olaraq aşağıdakı düsturlardan istifadə edilir:

1. Laminar hərəkət halı üçün $V=KI$ (Darsi qanunu) (1)
2. Turbulent hərəkət halı üçün $V=C\sqrt{I}$ (Şezi qanunu) (2)
3. Qarışıq hərəkət halı üçün $V=\frac{I}{C}$ (Smreker qanunu) (3)

Burada V - qrunt məsamələrində suyun süzülmə sürəti; K - qruntun sukeçiricilik və ya süzülmə əmsalıdır, C=K bərabər qəbul olunur. I - hidravliki qradiyent (su səthinin meyilliyi) m - xüsusi əmsal, qiymətləri 1-dən 2-yə qədər dəyişir. Süxurların süzülmə əmsalının hesablanması üçün bu düsturlardan birinin tətbiqi haqqındakı sual, sulu layın xarakteristikasına yanaşmaq üçün hansı kriteriyadan asılı olmağına görə həll edilir [1, 3, 4].

Tədqiqat ərazisinin Abşeron qumdaşlarına çatlı və iri məsamələrdən məhrum olunmuş çox xırda dənəli, sıx, gilli süxur kimi baxmaq olar. Bu halda onlar üçün Darsi qanunu tətbiq edilə bilər. Digər nöqteyi-nəzərdən, süxurların tektonik cəhətdən kəskin parçalanmış-qəlpələnmiş olduğunu nəzərə alaraq, hansı ki, Mingəçevir su anbarının sağ sahili üçün xüsusilə xarakterikdir və iri görünən (açıq) çatların,

psevdokarstların mövcudluğu səbəbindən həmin süxurlar üçün Şezi qanununun tətbiqi tamamilə məqbuldur.

Nəhayət, bu hər iki kənar baxışı tətbiq edərək, ərazinin Abşeron qumdaşlarını nəzərdən keçirək. Onların müxtəlif dənəli, olduqca qeyri-sabit qranulometrik tərkibli süxur olmasını, həm açıq, həmdə sulu-məhlullu duzlarla dolmuş çatlarının həddən çox olmasını nəzərə alsaq, həmin süxurlar üçün Smreker qanununun tətbiq olunması tövsiyyə edilir. Sərbəst su güzgü səthinə malik horizontal təzyiqli sulu laya qazılmış tək vertikal quyu üçün

$$K=\frac{Q^{ln\frac{R}{r}}}{\pi(H^2-h^2)}$$

düsturunun tətbiqi təklif edilir. Burada,

R - təsir radiusu;

r - quyunun radiusu;

h - quyunun dərinliyi;

H - sulu horizontun qalınlığı. Təsir radiusunun qiymət sol sahil üçün R=50-100 m, sağ sahil üçün isə 25-50 m qəbul edilir. İki müşahidə quyusunda suçəkmə sınağı aparıldığı halda, yuxarıda göstərilən düstur dəyişəcək və aşağıdakı kimi olacaqdır

$$K=\frac{Q^{ln\frac{a1}{a2}}}{\pi(h1^2-h2^2)}$$

a1 və a2-müşahidə quyularının məkrəzi quyulardan məsafəsi;

h1 və h2-uyğun olaraq quyularda suyun sukeçirməyən laya qədərki dərinliyidir.

Mingəçevir su anbarının sağ və sol sahillərində aparılmış suçəkmə və sutökmə sınaqları nəticəsinə görə süzülmə əmsalının bu düstur üzrə hesablanmış qiymətləri nəticədə verilmişdir [2].

**Nəticə**. Mingəçevir rayonunun bütün yeraltı sularının ümumi minerallaşma dərəcəsi kifayət qədər yüksəkdir və 130-400 mq/ekv/l arasında dəyişir. Mingəçevir su anbarının sağ sahilində lay suları xloridli (əsasən NaCl), sol sahilində isə hidrokarbonatlı-xloridli-natriumludur. Sol sahildə suçəkmə və sutökmə sınaqlarının nəticələrinə görə süzülmə əmsalının qiyməti 0.0054-0.0170 sm/san (4.66-14.688 m/gün) arasında dəyişir. Sağ sahildə isə süzülmə əmsalının qiyməti 0.0011-0.0024 sm/san (0.950-2.074 m/gün) arasında dəyişir. Göründüyü kimi sağ və sol sahillərdə süzülmə əmsalının qiymətləri kəskin fərqlidir. Suçəkmə sınaqlarının nəticələrinə əsasən hesablanmış K əmsalının qiyməti sutökmə sınaqlarının nəticələrindən alınmış K əmsalının qiymətindən böyükdür. Bu da onunla əlaqədardır ki, sulu layın yuxarı hissəsinin sukeciricilik qabiliyyəti aşağı hissəsinə nisbətən azdır. Sağ sahildə qazılmış 16 və 17 saylı quyularda süzülmə əmsalının qiyməti bir birindən kəskin fərqlənir. Bu da, 16 saylı quyunun kəsilişində iştirak edən qumdaşı laylarında tektonik çatların varlığı ilə əlaqəlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Климентов П.П., Богданов Г.Я. Общая гидрогеология. М., «Невра», 1977, 357 с.
2. Лукашевич С.И., Страхов В.А., Гидрогеологический очерк долины верхней Куры, Матер. к общей схеме использов. водных ресурсов Кура-Араксинского бассейна. Вып. 5, 1933.
3. Потетенко О.В. и др. Подземная гидравлика. Харьков, НТУ «ХПИ» 2008.
4. Rəsulov C.Ö. “Mühəndis geologiyası və hidrogeologiya”, Bakı., “Maarif nəşriyyatı”, 1991, 34 səh.
5. Сулейманов Д.М. Вопросы физико-геологических явлений на берегах Мингечаурского водохранилища, Баку-1961, 144 стр.

# ПРИЧИНЫ НАЧАЛА ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Магомедова Аида**
***Западно-Каспийский Университет***
***Научный преподаватель: Турал Велизаде***

**Açar sözlər:** Birinci Dünya Müharibəsi, Hitler, SSRİ, Nasist, müqavilə.
**Ключевые слова:** Первая Мировая Война, Гитлер, СССР, Нацист, договор.
**Key words:** I World War, Hitler, USSR, Nazi, contract.

Весной 1940-го года Гитлеровские войска вторглись в Западную Европу, 19-го июня без боя был сдан Париж. Франция капитулировала. По приказу Гитлера, из Парижа в Компьенский лес доставили вагон, в котором 22 года назад немцы заключили унизительное перемирие с Антантой. Гитлер не скрывал своей радости и упивался совершенной местью, спустя неделю немцы уничтожат мемориальный комплекс в Компьене. Старая система международных отношений перестала существовать.

Ненависть Гитлера к западным демократиям зародилась в годы Первой Мировой Войны, в Кайзеровской армии он служил в звании простого ефрейтора. Первая Мировая Война унесла жизни более двух миллионов немцев, по условиям Версальского мирного договора, Германия была поставлена в унизительное положение. К Франции перешли промышленно важные районы Эльзаса и Лотарингии. Польша получила часть восточной Пруссии, все немецкие колонии в Африке и Азии были переданы союзникам по Антанте. Немецкий народ должен был возместить победителям ущерб от войны в виде специальных выплат «репараций». Сумма которых составляла 269 млрд золотых марок, приблизительно 100 тысяч тонн золота.

Западные державы решили раз и навсегда покончить с немецкими милитаризмом. Германии было запрещено иметь боеспособную армию. Ей запрещалось иметь нормальную армию, только 100 тысяч, также иметь воинский призыв, только добровольцы, запрещалось иметь танки, авиацию, тяжелую артиллерию, подводные лодки. На факте национального унижения и сыграл Гитлер. Национал-социалистическая партия, заявившая, что они унижены не по заслугам и поэтому они сейчас будут восстанавливать справедливость. «Немцы — это не те люди, которых можно так унижать.»

Призыв к избавлению страны от версальских оков, Гитлер положил в основу нацистской пропаганды. Молодые немцы стали охотно носить свастику, но в основной массе, жители Германии с подозрением относились к радикалам. На выборах в рейхстаг национал-социалисты, так и не получили большинство мест. В 1932 году Гитлер принял участие в президентских выборах, но проиграл их знаменитому полководцу первой мировой, Паулю фон Гинденбургу.

Пробиться во власть Гитлеру помог прямой шантаж. Он угрожал раздуть громкий коррупционный скандал вокруг сына президента Оскара Гинденбурга, который якобы вел незаконную коммерческую деятельность под прикрытием отца. 30 января 1933 года в поместье будущего министра Иоахима фон Риббентропа, после длительных переговоров, Гинденбург назначил Гитлера рейхсканцлером и позволил сформировать правительство, что касается основного населения, они услышали то, что хотели услышать то есть, что они унижены, что необходимо ликвидировать безработицу и прекратить репарации и с этим все были согласны.

28 февраля 1933 года во всех берлинских газетах была напечатана срочная новость, «Пожар в Рейхстаге», здание полностью сгорело. Нацисты обвинили в поджоге коммунистов и призвали страну бороться с «красной заразой».

Геринг открыто заявил, что они намерены перейти в наступление. Под давлением нацистской партии правительство отменило действующую конституцию, были отменены гражданские свободы. Власть целиком перешла в руки Гитлера.

Борьба с коммунизмом стала частью гитлеровской пропаганды. Идея мировой революции, провозглашенная марксистами, была объявлена главной угрозой для Германии и всей Европы.

Заявления новой германской власти касались и молодого советского государства, лидеры которого оказывали решающую поддержку мировому коммунистическому движению.

В 20-х годах, вплоть до начала 30-х годов советский союз активно работал с Германией, вспомним Рапалльский договор 1922 года, после которого началось широкое военно-техническое сотрудничество между Германией и СССР. После того как Гитлер пришел к власти, сотрудничество практически было свернуто. Этот жест был знаком того, что Гитлер готовится к нападению на восток (Дранг нах Остен), потому что именно за счет территории Советского Союза Гитлер хотел создать основу будущего тысячелетнего рейха.

Не скрывая своих планов, в 1932 году Гитлер заявил о создании германской расовой империи, призванной господствовать над миром. Ядром этого государства должны были стать территории Германии, Австрии, Чехословакии и Польши. Соседние народы следовало истребить или обратить в рабство. Предполагалось стереть с лица земли крупнейшие города на востоке: Москву, Ленинград и Варшаву. Культура русских, поляков и других славянских народов должна была быть уничтожена, а доступ к образованию полностью закрыт. Промышленное оборудование оккупированных территорий подлежало демонтажу и вывозу в Германию. Население должно было заниматься исключительно сельскохозяйственными работами. Саму же Европу нацистские главари планировали очистить от цыган и евреев.

Для покорения Европы Гитлеру нужна была армия. В 1933 году Германия вышла из Лиги Наций и прекратила свое участие в Женевской конференции по разоружению, нарушая условия Версальского договора, германские власти объявили всеобщую мобилизацию. Вместо старой республиканской армии рейхсвера, Гитлер создал новую, Вермахт. В 1935 году немцы заключили с Британией морское соглашение. Германии разрешалось иметь морской флот, общий тоннаж которого не должен был превышать 35% от тоннажа британского флота. Наращивание военной мощи нацисты объясняли тем, что Германия последний оплот борьбы против большевизма в Европе.

Англия и Франция закрывали на это глаза, полагая что война Гитлера с советами будет им только на руку.

В 1936 году Вермахт вторгся в демилитаризованную Рейнскую область на границе с Францией. Французы и англичане выразили протест, но не предприняли никаких действий для сдерживания агрессора, единственным участником Лиги Наций, предложившим санкции в отношении Германии, был нарком по иностранным делам СССР Максим Литвинов. СССР предлагал создать межгосударственный союз для предотвращения войны и обеспечения безопасности, не допущения новой войны в Европе.

Вскоре о своем союзе с Германией заявила милитаристская Япония. Военные круги, захватившие власть в империи, заявили о необходимости покорения восточноазиатского пространства и одним из главных врагов в этом деле для них стал СССР. 25 ноября 1936 года японская делегация прибыла в Берлин для подписания договора, получившего название Антикоминтерновский пакт. Официально договор призывал к борьбе с коммунистическим интернационалом и распространением идей мировой революции. В действительности в секретных соглашениях Берлин и Токио договорились о взаимном нейтралитете на случай войны с СССР. Новый военный союз, называвшийся Ось Берлин-Токио, был большой удачей для Гитлера. Спустя год к нему присоединилась Италия, затем Финляндия во главе с Карлом Маннергеймом, Румыния и ее диктатор Ион Антонеску, и Венгрия под властью фашистского режима Миклоша Хорти.

4 февраля 1938 года имперским министром иностранных дел был назначен Иоахим фон Риббентроп. Спустя неделю ему поручили дипломатическую миссию, Гитлер планировал включить Австрию в состав Германии. 13 марта Австрия была объявлена одной из земель германской империи. Цель Гитлера была воплощена. Следующей жертвой стала Судетская область, Чехословакия. Оккупация Судетской области должна была пройти по отработанной схеме, в Берлин был приглашен лидер

Судетских нацистов Конрад Гелий. Его задачей было организовать провокации на Чешской территории. В сентябре 1938 года начались вооруженные столкновения националистов с чешской

полицией. Гитлер поспешил заявить, что, если Чехословакия не отдаст ему Судеты, война неизбежна. В итоге о поддержке Чехословацкой независимости твердо заявила СССР, на заседании Лиги Наций советский полпред предложил признать Германию агрессором и поддержать Чехословакию военными средствами. 29 сентября 1938 года в Мюнхен прибыли премьер-министр Великобритании Чемберлен, президент Франции Даладье и итальянский дуче Муссолини. Поздно ночью 30 сентября, они подписали соглашение с Гитлером, согласно которому Судетская область передавалась Германии. Чехословакия и СССР не были допущены к обсуждению Мюнхенского договора. Через полгода оставшаяся часть Чехословакии была разделена между Германией и ее союзниками.

В начале 1939 года нацисты разрабатывали план захвата новых территорий. Целью была Польша. 6 января в Берлин с визитом прибыл министр иностранных дел Польши Юзеф Бек. Встреча с Риббентропом и Гитлером была напряженной. Гитлер предложил Польше отдать Германии Вольный город Данциг, в обмен на территории на востоке и союз с Германией, но Польша отказалась. Гитлер готовился к войне…

В ночь на 4 апреля фюрер отдал приказ начать тайную подготовку к вторжению в Польшу, которое следовало провести не позднее сентября. Во избежание недоразумений Гитлер решил наладить дружественные отношения с СССР. В Кремле состоялась встреча двух сторон. 4 мая 1939 года М.Литвинов освобождается от обязанностей народного комиссара иностранных дел, на его место был назначен Вячеслав Молотов. Западу все это происходящее не нравилось.

В начале августа Берлин спешил, до нападения на Польшу оставался месяц, а договора с СССР все еще не было. Гитлер поручил Шуленбергу провести срочные переговоры с Молотовым в Москве. Первая встреча прошла сдержанно, Молотов напомнил Германии о пактах и их союзниках. Утром 15 августа Шуленбергу поручили срочно встретиться с Молотовым и зачитать ему послание Риббентропа. В нем говорилось, что между Германией и СССР не существует столкновения интересов и что он в любой момент готов приехать в Москву для подписания союзного договора. Но Молотов не спешил, он написал в Берлин, что подобная встреча требует подготовки, но у Гитлера не было времени. 19 августа Шуленбург зачитал Молотову ответ Риббентропа: «Германия готова немедленно заключить пакт о ненападении сроком на 25 лет». Молотов отвечал: «Если на следущий день 20 августа стороны подпишут торговое соглашение, то через неделю 27-го Риббентроп может посетить Москву».

В Берлине напряжение достигло апогея, все было готово для вторжения в Польшу. 1 сентября две группы армии должны были перейти в наступление, подводные лодки ждали приказа о выходе в море, а Москва тянула с ответом.

20 августа Гитлер лично написал Сталину письмо: «Напряжение между Германией и Польшей сделалось нестерпимым. Польское поведение по отношению к великой державе таково, что кризис может разразиться со дня на день. Поэтому я вторично предлагаю вам принять моего министра иностранных дел во вторник 22 августа, но не позднее среды 23 августа». На следующий день Сталин ответил: «Благодарю за письмо. Народы наших стран нуждаются в мирных отношениях между собою. Советское правительство поручило мне сообщить вам, что оно согласно на приезд в Москву господина Риббентропа 23 августа. Сталин».

22 августа вечером Риббентроп и делегация из 37 человек на двух транспортных самолетах вылетели сначала в Кенигсберг, а затем в Москву. Сталин и Риббентроп договорились о разграничении интересов в Восточной Европе. Ближе к полуночи все договоренности закрепили в секретном протоколе.

31 августа на внеочередной сессии Верховного Совета Молотов доложил о заключении договора с Германией о ненападении. Пакт получил название «Пакт Риббентропа-Молотова». В ответ на это 25 августа Англия и Франция подписали с Польшей договор, гарантировавший ей безопасность. Однако агрессию Гитлера уже было не остановить.

1 сентября немцы вторглись в Польшу, сопротивление польской армии продолжалось менее двух недель, правительство бежало из страны. В связи с распадом польского государства по приказу Сталина, 17 сентября Красная армия вошла в восточные районы Польши. 13 октября 1949 года

Сталин получил письмо от Риббентропа, он предлагал ему присоединиться к тройственному пакту, военному союзу Германии, Японии, Италии. Риббентроп пригласил Молотова в Берлин. Сталин приказал Молотову не заключать никаких планов, разузнать действительные планы пакта трех.

Вернувшись в Москву Молотов докладывал, покидая фашистскую Германию все мы были убеждены, что это была показная демонстрация. Главные события лежат впереди. Спустя месяц Гитлер утвердил секретную директиву номер 21, известную как «План Барбаросса». Вермахт получил приказ начать масштабную подготовку к войне против СССР.

Весной 1941 года Сталину удалось добиться крупного дипломатического успеха. 12 апреля в Москву приехала делегация японских дипломатов во главе с министром иностранных дел. В итоге переговоров был заключен пакт о ненападении сроком на 5 лет. Япония получила возможность вести войну против США и Великобритании в Тихом океане, а Советский Союз направить войска на восточный фронт. Сталин не скрывал радости, опасность войны на два фронта миновала. К этому времени дипломатические контакты с Германией практически прекратились, это было затишье перед бурей.

22 июня 1941 года в 4 часа утра Германские войска общей численностью в 3 миллиона человек, атаковали СССР практически по всей западной границе.

## PSYCHOLOGICAL FEATURES OF JUVENILE DELINQUENCY IN MODERN CONDITIONS

**Mammadova Aynur Gudrat**
***Western Caspian University***

*The actuality of the subject.* The actuality of the subject. Children are the only beings who ensure the future of society and carry society to the future. Any violation of the normal development of the child can lead to conflicts and people take precautionary measures against him. Juvenile delinquency is a hot topic around the world. The number of crimes committed by or with the participation of minors in Azerbaijan in the last 5 years was 395 in 2016, 532 in 2017, 455 in 2018, 323 in 2019, and 323 in 2020.

*The purpose of the study.* The aim of the study was to determine the causes of juvenile delinquency and the impact of family offenses, which are important factors in juvenile delinquency.

*The result.* As a result, it is impossible to claim that a single factor influences juvenile delinquency. Potential risk factors and protective factors may play a direct role in juvenile delinquency or increase or decrease crime by influencing each other. In addition, several factors can have a specific effect, and one factor can have several effects.

## DİLİN SOSİOLOJİ TƏHLİLİ

**Mehdiyeva Nərmin Aftandil qızı**
***Bakı Slavyan Universiteti***
***Elmi rəhbər: dos. Fətaliyeva Sevinc Həbib qızı***
**new_way_910@mail.ru**

**Açar sözlər:** dilin sosial mahiyyəti, sosial amillər, cəmiyyət və dil,linqvistik fərqlər.
**Key words:** social essence of language, social factors, society and language, linguistic differences
**Ключевые слова:** социальная сущность языка, социальные факторы, общество и язык, языковые различия.

Dilin sosial cəhətləri, müasir mənada, ilk dəfə 1930-cu illərdə Hindistan və Yapon dilçi alimləri tərəfindən, 1900-cü illərin əvvəllərində İsveçrədə Luis Qauçat tərəfindən araşdırılmışdı, lakin heç biri qərbdə o zamanlar marağa səbəb olmadı. Dil dəyişikliyinin sosial motivasiyasının öyrənilməsi isə 19-cu əsrin sonundakı dalğa modelində əsas götürülmüşdür. Sosiolinqvistik termininin ilk təsdiqlənmiş istifadəsi Tomas Kallan Hodson tərəfindən 1939-cu ildə Hindistanda nəşr olunan "Hindistandakı sosiolinqvistika" adlı məqaləsində olmuşdur. Qərbdə sosiolinqvistika ilk dəfə 1960-cı illərdə meydana çıxdı. ABŞ-da V. Labov və İngiltərədə Basil Bernsteyn kimi dilçilər tərəfindən ilk dəfə istifadəyə başlanıldı.

“Dil cəmiyyətin inkişafının özünəməxsus barometridir. Həmin dildə danışıqların sosial həyatı dildə öz inkişafını tapır.” [3, 4] Dil mövqeyindən yanaşsaq, xalqlar arasında mövcud olan sosial fərqlər onların nitqində özünü göstərir və dilin istifadəsi zamanı yaranan yayınmalar sosial seqmentasiyanı əmələ gətirir. Yaş, sinif, region,etniklik, peşə fəaliyyəti, irq, gender kimi faktorlar linqvistik fərqlərin yaranmasına səbəb olur.

Amerikalı sosiolinqvistlərin sosial və linqvistik quruluşlar arasında uyğunluqları tapmağa çalışması və dilin formal təhlil metodlarını sosiolinqvistik kateqoriyalara köçürməsi, müəyyən dərəcədə sosial amillərin nitq davranışına təsir mexanizminin öyrənilməsinə kömək edir. Sosiolinqvistika dili danışanlara istinad edərək öyrənən və dilin niyə və necə dəyişməsi kimi bir neçə vacib məsələləri araşdırmağa yönəlmiş bir tədqiqat sahəsidir. Sosiolinqvistika, əsasən dil istifadəsi, xüsusən danışıq dili ilə məşğul olan bir dilin qrammatik və ya fonetik quruluşu ilə əlaqəli olmayan bir tədqiqat sferasıdır.

Dil variantlarını araşdıran tədqiqat sahəsi mikro-sosiolinqvistika adlanır. Sosial aspektləri və dil münasibətlərini araşdıran tədqiqat sahəsi isə makro-sosiolinqvistika adlanır. Sosiolinqvistik tədqiqatların çeşidi olduqca genişdir, lakin bütün sosiolinqvistik tədqiqatlar dil variantlarının seçilməsini və dil dəyişməsini hansı sosial amillərin müəyyənləşdirdiyini araşdırmaq məqsədilə əlaqədardır. Tədqiqatların məqsədləri müxtəlifdir: fərqli yaşa, cinsə, sosial siniflərə məxsus danışanların dili; söhbət strategiyaları, natiqlərin ünsiyyət qabiliyyəti; şəhər və regional növlər, ləhcələr və standart dil arasındakı əlaqə, çoxdillilik; ictimai dil (TV, radio); yeni medianın dili (mətn mesajları, Facebook, Skype); dil münasibətləri və onların alternativləri.

Dilin funksional inkişafının əsas kateqoriyası olan dilin sosial funksiyası, əslində onun əsas funksiyalarının cəmiyyət həyatının bu və ya başqa sahələrində reallaşması deməkdir. [4, 114] Sosiolinqvistika praqmatikaya xeyli üst-üstə düşür və linqvistik antropologiya ilə sıx əlaqəlidir. Sosiolinqvistika ilə antropologiya arasında tarixi qarşılıqlı əlaqə dil növlərinin sosial dəyişənlərlə (məsələn, etnik mənsubiyyət, din, status, cins, təhsil səviyyəsi, yaş və s.) və ya fiziki dəyişənlərlə ayrılan qruplar arasında necə fərqləndiyini araşdırmaqda müşahidə edilə bilər. Bir dilin istifadəsi hər yerdə fərqli olduğu üçün dil istifadəsi sosial siniflər arasında da dəyişir.

Sosiolinqvistika mədəniyyətin normaları, gözləntiləri və məzmunu da daxil olmaqla cəmiyyətlə dilin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini təsvir edən tədqiqat sahəsidir. Bu tədqiqat sahəsində dilin funksional dəyişkənliyinin öyrənilməsinə də xüsusi diqqət yetirir.

Sosiolinqvistlər mükəmməl şəkildə mövcud kommunikativ davranışları çeşidləyib, linqvistik müxtəlifliyə səbəb olan faktorlararı araşdırmağa çalışırlar.[1, 14] Bu tədqiqatlar çox geniş olsa da, sosiolinqvistik məsələlərin asılı olduğu bir neçə konsepsiya mövcuddur. “Nitq icması” sosiolinqvistikada dilini öz aralarında bənzərsiz və qarşılıqlı qəbul edilmiş bir şəkildə istifadə edən fərqli bir qrup insanları təsvir edən bir anlayış kimi qəbul edilir. Hər hansı bir nitq icmasının bir hissəsi hesab olunmaq üçün ünsiyyət qabiliyyətinə sahib olmaq lazımdır. Yəni natiq, dili müəyyən bir vəziyyətdə uyğun şəkildə istifadə etmək qabiliyyətinə malikdir. Əgər kimə görəsə sosiolinqvistik davranış dəyişkən hesab olunursa, bunun səbəbi dilin müxtəlif çalarlarından istifadə etməsidir, xüsusən də tələffüz alternativlərindən, cümlə quruluşundan və s. Natiqin birdən çox dildə kommunikativ cəhətdən səriştəli olması mümkündür. Danışıq cəmiyyətləri lisey şagirdləri və ya hip-hop pərəstişkarları kimi ixtisaslaşdırılmış jarqonlar istifadə edən, hətta ailələr və dostlar kimi sıx əlaqəli sosial qruplara sahib ola bilər. Sosiolinqvistika dilçilik, sosiallaşma, səriştəlilik və şəxsiyyət arasındakı əlaqəni araşdırmağa imkan verir. Şəxsiyyət çox mürəkkəb bir quruluş olduğundan, dilin sosiallaşmasını öyrənmək praktik fəaliyyətin (gündəlik fəaliyyətlərin) mikro-qarşılıqlı səviyyəsini araşdırmaq üçün bir vasitədir. Bir dilin öyrənilməsinə ailənin təsiri böyükdür, lakin məktəb,

idman komandaları və ya din kimi daha geniş yerli mühit tərəfindən dəstəklənir. Danışıq icmaları daha geniş bir praktik icma daxilində mövcud ola bilər.

Sosiolinqvistlər bir dili və ya bir dil çeşidini ictimai həyata istinad etmədən qapalı bir sistem olaraq öyrənmirlər. Onlar dil istifadəsinin hər zaman dəyişkən və heterogen olduğunu vurğulayırlar, dilləri və danışanları "yaxşı" və "pis" olaraq bölmürlər. Bütün dil növlərinin (yalnız standart dillər deyil, həm də dialektlər, şəhər dilləri, gənclər dili, müxtəlif sosial qrupların dili) dəyərli olduğunu söyləyən fərqləndirmə nəzəriyyəsini izləyirlər. Onların dəyəri sosial kontekstdən və vəziyyətdən asılıdır. Hər bir dil müxtəlifliyi danışanlara lazımi funksiyaları yerinə yetirir, lakin dəyərləri fərqlidir, çünki dəyərləri müəyyən bir ictimai, siyasi, mədəni və iqtisadi şərtlər daxilində, müəyyən bir tarixi dövrdə, müəyyən bir cəmiyyətdə gücün, rifahın və nüfuzun paylanmasından asılıdır. İstənilən vəziyyətdə danışanın hansı dil müxtəlifliyini, dil xüsusiyyətini və ya üslubunu seçməsi məhz sosial münasibətlərdən irəli gəlir. Dil repertuarınız zəngin və genişdirsə, arzu olunan məqsədə çatmaq daha asandır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Cahangirov F. Dil və mədəniyyət. Bakı 2014, -Elm və təhsil. səh.306
2. Qurbanov A. Ümumi dilçilik. I cild. Bakı, 2011, -Elm, -s.756.
3. Rəcəbli Ə. Sosiolinqvistika. Bakı, -Nurlan, 2004, -s.520.
4. Məhərrəmli Q. Kütləvi kommunikasiya və dil. Bakı, -Çaşıoğlu, 2004, -s.207


# BÖYÜK QAFQAZ ÇAYLARINDA ARALIQ FAZANIN HİDROQRAFDA SEÇİLMƏSİ VƏ AXIM GÖSTƏRİCİLƏRİNİN HESABLANMASI


**Məhərrəmova Nigar Yaşar qızı**
***BDU, Coğrafiya fakültəsi, II kurs magistrant***
***Elmi rəhbər: c.ü.f.d. Quliyeva A.A.***
***meherremova-n00@mail.ru***


Müasir dövrdə aralıq fazaların həm axım, həm də zaman göstəricilərinin ətraflı öyrənilməsi ən azı iki səbəbə görə çox vacibdir. Birinci səbəb odur ki, yay-payız aralıq fazanın əsas hissəsi bitkilərin vegetasiya dövrünü əhatə edir və bu dövrdə su ehtiyatlarına tələbat daha böyük olur. Qlobal istiləşmənin çayların rejiminə təsirinə həsr olunmuş tədqiqatların əksəriyyətində yay mövsümündə axımın azaldığı, qışda isə artdığı qeyd olunur. İkinci səbəb isə antropogen təsir nəticəsində azsulu dövrlərdə çaylarda suyun keyfiyyətinin kəskin pisləşməsidir.

İrriqasiya işlərində, su təminatında, energetikada, suyun keyfiyyətinin qiymətləndirilməsi və s. məsələlərlə bağlı layihələri yerinə yetirərkən azsulu dövrün davamiyyəti haqqında məlumatlar tələb olunur.

Azsulu dövr axımının öyrənilməsində iki yanaşma mövcuddur. Bu yanaşmalardan birində azsulu dövrün davamiyyəti ay, o birində isə sutka dəqiqliyi ilə təyin olunur [3,4].

Tədqiqat işində 10 məntəqənin hər biri üçün yay-payız azsulu dövrlərinin orta su sərfləri sıraları tərtib edilmişdir. Yay-payız azsulu dövrünün zaman sərhədləri bütün çaylar üçün eyni götürülmüşdür. Bu hidroloji hesablamaları asanlaşdırır. Lakin belə yanaşmada azsulu dövr axımı hesablanarkən bu dövrdə keçən daşqınların da axımı nəzərə alınır. Yəni, azsulu dövr axımının formalaşmasında, xüsusilə yay-payız mövsümündə yeraltı sularla yanaşı səth suları da iştirak edir. Bu isə axım sıralarının genetik bircinsliyinin pozulmasına gətirib çıxara bilər. Bunu nəzərə alaraq, həmçinin yay-payız aralıq fazaların axım və zaman göstəriciləri təyin edilmişdir [2].

Beləki, azsulu dövrdən fərqli olaraq aralıq fazanın zaman sərhədləri 1 sutka dəqiqliyi ilə təyin olunur və aralıq fazada keçən əhəmiyyətli daşqınların axımı nəzərə alınmır. Bu halda hesablamalara çox vaxt və vəsait tələb olunur. Belə yanaşmada aralıq fazanın axım sıralarının genetik bircinsliyi təmin olunur və bu isə hesablamaların dəqiqliyini artırır.




Qeyd: - baxılan il üzrə azsulu dövrün davamiyyət göstəricisi

**Şəkil 1.** Dəmiraparançay–Qəbələ məntəqəsi üçün 2001-ci il üzrə yay-payız azsulu dövr hidroqrafı




**Şəkil 2.** Dəmiraparançay–Qəbələ məntəqəsi üçün 2005-ci il üzrə yay-payız azsulu dövr hidroqrafı

Bu zaman göstəricilərinə görə hidroloji illiklərin məlumatlarından istifadə etməklə hər bir müşahidə ili üçün aralıq fazaların orta su sərfləri hesablanmış və müvafiq sıralar tərtib edilmişdir. Hidroqrafda azsulu dövrün seçilməsi ilə bağlı çətinliklər ilin sululuğundan asılıdır. Çoxsulu ildə çayın hidroqrafında azsulu dövrün seçilməsi azsulu illə müqayisədə daha mürəkkəbdir. Lakin azsulu il belə dövrün xarakterinin və onun ən böyük davamiyyətinin göstəricisidir. Ona görə də azsulu dövrün zaman göstəricilərinin təhlilini səciyyəvi (azsulu, çoxsulu və ortasulu) illərə görə aparmaq məqbul hesab olunur [1].

Böyük Qafqaz çaylarında yay-payız aralıq fazaları müşahidə olunur. Lakin indiyə kimi bu fazaların nə axım, nə də zaman göstəriciləri geniş öyrənilməmişdir. Bu vacib məsələyə az diqqət yetirilməsinin əsas səbəbi aralıq faza haqqında məlumatların toplanıb ümumiləşdirilməsinin çox zəhmət və vaxt tələb etməsidir. Baxılan ərazidə ən uzun müddətli müşahidə məntəqələrindən biri Dəmiraparançay-Qəbələdir. Bu məntəqənin axım göstəricilərini müqayisə etmək üçün əvvəlcə müxtəlif illər üzrə yay-payız azsulu dövr məlumatlarına görə hidroqraflar qurulmuşdur. Aşağıda Dəmiraparançay-Qəbələ məntəqəsi üzrə 2001 (Şəkil 1.) və 2005-ci illər üçün hidroqraflar tərtib edilmişdir (Şəkil 2).

Müəyyən bir nəticəyə gəlmək üçün bu hesablamaları davam etdirirərək bəzi illərin hidroqrafları üzərində təhlillər aparmaqla Dəmiraparançay-Qəbələ məntəqəsi üzrə yay-payız azsulu dövrü üçün axım göstəricilərinin çoxillik tərəddüdlərini bir cədvəldə toplamaqla ümumiləşdirək (Cədvəl 1).

**Cədvəl 1.**

**Dəmiraparançay-Qəbələ məntəqəsi üzrə yay-payız azsulu dövr fazasının axım göstəriciləri**

| № | İllər | $T_{dav}$ (gün) | ΣQ | $Q_{or}$ |
|---|---|---|---|---|
| 1 | 2001 | 68 | 460.61 | 6.77 |
| 2 | 2003 | 64 | 309.4 | 4.83 |
| 3 | 2004 | 15 | 47 | 3.13 |
| 4 | 2005 | 54 | 220.99 | 4.09 |
| 5 | 2006 | 59 | 242.69 | 8.06 |
| 6 | 2007 | 71 | 265.58 | 3.74 |
| 7 | 2008 | 67 | 293.06 | 8.48 |
| 8 | 2009 | - | - | - |
| 9 | 2010 | 99 | 376.36 | 3.80 |
| Orta | | 62.125 | 276.96 | 5.36 |

Qeyd: **$T_{dav}$** – rejim fazasının davamiyyəti
**ΣQ** – cəm su sərfi
**$Q_{or}$** – rejim fazasının orta illik su sərfi

Təhlildə adı qeyd olunan məntəqə üzrə 9 ilin məlumatlarından istifadə olunmuşdur. Nəticə olaraq, cədvəldən də göründüyü kimi Dəmiraparançay-Qəbələ məntəqəsi üzrə yay azsulu dövr fazasının davamiyyət müddəti bu illər ərzində ən uzun müddət 2010-cu ildə müşahidə olunmuşdur və 99 gün davam

etmişdir. Orta hesabla isə 9 il ərzində 62.125 gün davam etmişdir. Orta illik su sərfi 3.13-8.48 arasında dəyişmişdir. Su sərfinin müşahidə illəri ərzində orta qiyməti isə 5.36-a bərabər olmuşdur.

Bunlardan əlavə, müşahidə məlumatları olmayan çayların axım göstəricilərini təyin etmək üçün metodlar hidroloji bircins rayonlar üçün işlənir. Bu zaman təbii şəraitin oxşarlığı, fiziki-coğrafi amillərin çayların rejiminə və axım kəmiyyətinə təsirinin xarakteri nəzərə alınır [3].

## ƏDƏBİYYAT SİYAHISI :


1. Владимиров А.М. Минимальный сток рек СССР. Л.: Гидрометеоиздат, 1970, 214 с.
2. Кузин П.С. Циклические колебания стока рек северного полушария. Л.: Гидрометеоиздат, 1970, 179 с.
3. İmanov F.Ə. Çay axımı. Bakı, «BDU» nəşriyyatı. 2001, 208s.
4. Məmmədov M.Ə., Mahmudov R.N., İmanov F.A. Çay axımı və hidroloji hesablamalar (metodik göstəriş). Bakı, 1995, 84s.


# ŞOTLANDİYADA SEPARATİZMİN YARANMASI VƏ İNKİŞAFI


**Məmmədli Cavid**
***Qərbi Kaspi Universiteti, Magistrant:***
***Elmi Rəhbər: Tural Vəlizadə***
***memmedli.cavid.2139bm@wcu.edu.az***


## XÜLASƏ


Bu məqalədə Şotlandiya separatizminin yaranması və Böyük Britaniyanın münasibəti təhlil edilmişdir.



**Açar sözlər:** Şotlandiya, Böyük Britaniya, tarixi ilkin şərtlər, müasir ilkin şərtlər, Şotlandiya separatizmi.


Şotlandiya millətçiliyinin tarixi və onun ifrat forması olan Şotlandiya separatizmi uzun bir tarixə malikdir. Lakin, adətən, bu mövzuya olan marağın inkişafı, Şotlandiyadakı siyasi vəziyyətdən asılı olaraq dalğalar halında baş verirdi. Tədqiqatçıların diqqəti millətçi hərəkatın güclənməsi ilə birlikdə artır və millətçi hisslərin zəifləməsi ilə birlikdə azalırdı.

Birləşmiş Krallıq daxilində müstəqillik tələbi ilə beynəlxalq arenada məşhurluğu artan Şotlandiya maariflənmə hərəkatının ən öndə gələn mərkəzlərindən biri olaraq dünya siyasi tarixində ən önəmli məsələlərindən biridir.Şotland xalqı üçün maariflənmə həyati önəmə sahibdir. Maariflənmə ilə Şotlandlar müxtəlif sahələrdəki zəifliklərini üzərlərindən ata biləcəklərini düşünmüşdülər. Onlar üçün maariflənmə sadəcə mədəni inqilab deyil,bundan daha çox anlayışa sahib olmuşdur. Yoxsulluq, inkişafdan geri qalmaq, işğallar, mədəni fərqliliklər ancaq bu sayədə tərsinə çevrilə bilər və zərərsiz ola bilərdi. Şotlandiya 1700-cü illərdə qərb mədəniyyətini yaxından təsriləndirmişdir. [1, 68]

Bu təsiri kimyadan mühəndisliyə, iqtisadiyyatdan fəlsəfəyə uzanan geniş spektrdə görmək mümkündür.Şotlandiya Avropanın ən qədim universitetlərinə sahib olmaqla bərabər, mədəni və hüquqi mövqedən önəmli tədqiqatlara ev sahiblyi etmişdir. XVIII əsrin əvvəllərində Birləşmiş Krallıq siyasi sistemi daxilində Avropa və dünyaya təsir etmə potansiyalı daha da artmışdır. Şotlandlar İngilis mədəniyyəti daxlində assimliyasiya olma qorxusunu hər zaman hiss ediblər.[1,58]

Şotlandiya müstəqil bir krallıq kimi yaradıldıqdan sonra bu xüsusiyyətini uzun illər qorumuşdur. Britaniya Adalarının digər krallıqlarla ittifaq yaratmasının ilk addımı Kraliça Elizabetin ölümüdən sonra 1603-cü ildə Stüartlar sülaləsinin ilk təmsilçisi və I Ceyms adı ilə İngiltərə kralı olan Şotland kralı VI Ceyms ilə atılmışdır. I Ceyms ətrafındakı yaranan bu ittifaq İngiltərə və Ules ilə İrlandiya və Şotlandiyadan ibarət olan üç ayrı krallığın birləşməsi nəticəsində yaradılmışdır. Bu krallıqlar arasındakı tam ittifaq 1707-ci ildə "İttifaq Sazişi"- (Union Act) ilə yaradılmışdır. [2, 5]

Bunun nəticəsində Böyük Britaniya Birləşmiş Krallığı yaranmışdır. Шотландлар юз гануни системлярини сахладылар вя пресвитериан килсяси гурдулар, лакин онларын щюкумяти вя

парламенти Инэилтярянинки иля бирляшди. "Британийалы" термини щям инэилисляря, щям дя шотландлара аид едилмякля ишлянмяйя башлады. İngiltərə və Şotlandiyanın bir-birindən ayrı parlamentləri yeni sistemdə yerini Böyük Britaniya parlamentinə vermişdir. Bu quruluş daxilində olan Şotlandiya Krallığı Böyük Britaniya parlamentində təmsilçi saxlamaq hüququna malik oldu. Əslində bu parlament İngiltərə Parlamentinin davamı idi. Yenə də Şotlandlar ayrı məhkəmə sistemi, təhsil sistemi,yerli idarə və kilsə məsələlərindən azadlıqlarını qoruya bildilər. İngilis höküməti siyasətini Şotlandiyaya tətbiq edən bir Şotland Ofisi (Scottish Office) yaratmışdır. 1707-ci ildən sonra Şotlandiyanın idarəsi eyni qalmış, XX əsrə qədər dövlətin idarəsindəki təsiri daha da artımışdır.Beləliklə Şotlandlar İngilitərənin daxilində ayrı bir siyasi sahəyə və idarə sisteminə sahib olmuşlardır. [3, 8]

Bu birlik tarixi boyunca Şotlandiya dəfələrlə tam müstəqilliyin qaytarılması məsələsini qaldırdı. Müstəqillik mübarizəsindəki ən böyük yüksəliş, Şotlandiya sahillərində bir neft yatağının kəşf edildiyi 1970-ci illərin əvvəllərinə aid edilə bilər. Bu baxımdan, Şotlandiya Milli Partiyası (ŞMP) 1979 və 1997-ci illərdə maliyyə planlaşdırması və neft gəlirləri ilə məşğul olacaq öz icra orqanlarının və parlamentinin yaradılmasına dair xalq səsverməsinə nail oldu. 1997-ci ilə qədər keçirilən referendumlar Şotlandiyaya məhdud özünüidarə verdi və iki il sonra dar vergi səlahiyyətlərinə sahib milli bir parlamentə sahib oldu. Bir çox məsələ muxtariyyətin səlahiyyətinə düşdü, lakin London vergi, xarici və daxili siyasətə nəzarət etməyə davam etdi. Bu məsələ 2007-ci ildə Şotlandiya millətçilərinin başçısı Aleks Salmondun Şotlandiya muxtariyyətinə dair referendum təşkil etmək vədi ilə əlaqədar daha da kəskinləşdi. Ancaq ŞMP-nin seçkilərdə qələbəsinə baxmayaraq, partiyanın bir hökumət qurmaq üçün yetərli səlahiyyətləri olmadığı üçün planlarını gerçəyə çevirə bilmədi. Bununla birlikdə, Aleks Salmond 2011-ci ildə Şotlandiyanın müstəqilliyi müzakirəsinə qayıtdı. 2011-ci ilin may ayında Şotlandiya Milliyyətçi Partiyası Şotlandiya Parlamentinə seçkilərdə qalib gəldi. Milliyyətçilər mümkün 129 yerdən 69-u qazandı. Şotlandiya Milli Partiyasının lideri Aleksander Salmond, Şotlandiyanın Böyük Britaniyadan ayrılmasına dair referenduma çağırdı.

Nəticədə, 15 oktyabr 2012-ci il tarixində Edinburqda İngiltərə Baş naziri David Cameron və Şotlandiyanın birinci naziri Alex Salmond müstəqillik referendumu keçirilməsinin şərtlərinə dair Edinburq razılaşmasını imzaladılar. Referendum 2014-cü ilin payızında keçiriləcək və nəticələrinə görə, Şotlandiyanın gələcəyinin necə olacağına, daha doğrusu Londona bağlı olub-olmayacağına qərar veriləcək. 18 sentyabr 2014-cü il tarixində seçicilərə "Şotlandiya muxtar olumalıdr mı ?" sualının verildiyi referendum keçirildi. Seçicilərin əksəriyyətinin müsbət cavabı olduğu təqdirdə müstəqilliyin elan edilməsi üçün xüsusi bir tarix təyin olundu – 24 mart 2016-cı il.Bu tarixin seçilməsi təsadüfi deyildi, çünki məhz 1603-cü ilin bu günü Böyük Britaniya və Şotlandiya uzun illər müstəqil qaldıqları bir sülalə ittifaqı qurmuşdular. Bununla birlikdə, səsvermənin nəticələrinə görə, Şotlandiya Böyük Britaniyanın bir hissəsi olaraq qaldı, çünki seçicilərin 55,3% -i bölgənin müstəqilliyinə “yox” demişdi.Müstəqil Şotlandiya tərəfdarı olan Aleks Salmond referendumdan qısa müddət sonra istefaya göndərildi. İndi Şotlandiya Milli Partiyasının lideri vəzifəsini Böyük Britaniyanın Avropa Birliyindən çıxması ilə əlaqədar olaraq Şotlandiya statusu ilə bağlı yeni bir xalq səsverməsinin hazırlandığını elan etmiş Nikola Stergen tutdu. Stergenin özünün də qeyd etdiyi kimi, bu gün Şotlandiyanın İngiltərədən ayrılma ehtimalı 2014-cü ilə nisbətən çoxdur. Milli Partiya üzvləri, Şotlandiyanın muxtar olması üçün siyasi, tarixi, sosial, dini və digər səbəbləri ön plana çəkir. [4, 67]

Birincisi, müstəqil Şotlandiya iqtisadi zənginliyini artıra biləcək. Edinburq neft gəlirlərini İngiltərə xəzinəsinə ödəmək məcburiyyətində qalır, halbuki bu gəlirlər öz bölgələrinin inkişafına sərf edilə bilər.Qeyd edək ki, bu gün Şotlandiya Avropada böyük neft ehtiyatına görə ikinci yerdədir. Beləliklə, Şotlandlar Avropa qitəsinin ən varlı xalqlarından birinə çevrilə bilər. Bu, şübhəsiz ki, ən böyük səbəbdir. [6, 85-86]

İkincisi, tarixi aspekt- müstəqil Şotlandiya krallığı 843-1707 illərdə,yəni 900 il mövcudluğunu qoruyub saxlaya bilmişdir, və bu Şotlandiyanın Birləşmiş Krallığın tərkibində olmasından daha çox uzun tarixidr. Buna görə də, şotlandlar tarixi statuslarını bərpa etmək və Londondan asılı olmayan siyasət aparmaq istəyirlər.

Üçüncüsü, millətçilər muxtar Şotlandiyanın daha demokratik olacağına inanırlar. Bu, ilk növbədə İngiltərə hökuməti ilə şotlandların istəkləri arasındakı fikir ayrılıqları ilə əlaqədardır. Milli Partiya

təmsilçilərinə görə, Böyük Britaniya Parlamentində çox az yerləri var və bu səbəbdən mənafelərini tam şəkildə müdafiə etmək imkanından məhrumdurlar.

Dördüncüsü, Britaniya İmperiyasının çökməsindən sonra iki bölgə sosial-mədəni baxımdan uzaqlaşdı.

Bundan əlavə, xalqına öz milli kimliyində inam bəxş edən Şotlandiyadakı Presviterian Kilsəsinin təsirinin azalması, muxtariyyət istəyinin güclənməsinə müəyyən dərəcədə təsir etdi.

Və nəhayət, beşincisi, Şotlandiyanın ərazi suları qaz, filiz və neft yataqları ilə zəngindir, əlavə olaraq bölgə əhalisini ehtiyac duyduğu hər şeylə təmin edə bilən sənaye və kənd təsərrüfatı yaxşı inkişaf etmişdir. Şotlandiya özünəməxsusluğu, misilsiz təbiəti və zəngin tarixi çox sayda turisti cəlb edir və bu da öz növbəsində büdcə gəlirlərinin artımına yardım edir. Belə çıxır ki, Şotlandiya xoşbəxtliklə İngiltərədən ayrı olaraq mövcud ola bilər və tamamilə müstəqil ola bilər, bu səbəbdən də millətçilər ayrılmağa can atırlar.

Lakin mütəxəssislər, Şotlandiya bu vacib addımı atmağa qərar verərsə və müstəqillik qazanarsa, tezliklə "Birləşmiş Krallığa dönməsi" istəyi kimi proqnozlar irəli sürürlər. Yalnız bir "amma" var – Şotlandiya geri qəbul ediləcəkmi və bu, təəssüf ki, bilinmir. Mövcud vəziyyət müxtəlif yollarla inkişaf edə bilər. [5, 64]

Şotlandiyanın Birləşmiş Krallığı təşkil edən ünsürlər içində fərqli bir xüsusiyyətə sahib olduğunu deyə bilərik. Bu xüsusiyyətin ilk səbəbi, Şotlandiyanın digərlərinə nisbətən daha homogen və kollektiv bir sosial quruluşa sahib olmasıdır. İkinci səbəb, Şotlandiya da sol siyasətin hakim olmasıdır.Mühafizəkarların siyasəti Şotlandiyada məşhur deyildi. Mühafizəkarların Şotlandiya əleyhinə olduqlarına dair ümumi bir inam da var.Bu inamın arxasında Tetçerin Şotlandlara qarşl bəslədiyi mənfi münasibəti olmuşdur. Eyni zamanda, Şotlandiyada mühafizəkarlara dəstəyin azalaraq Şotland Milli Partiyasına dəstəyin artması milli şüur və fərqliliyin yüksəlişi ilə əlaqədar olmuşdur. Bu yüksəliş Şotland millətçiliyinin güclü dəstyə qovuşması kimi bir nəticəsi olmamışdır.Fəhlə Partiyası da Şotlandiyanı Mühafizəkar partiya qarşısında qoruyan bir mövqe sərgiləmişdir.Müstəqillik ideyasını dəstəkləyən və Mühafizəkar Partiyadan ayrılan Şotland mühafizəkarlığı da mövcuddur. Bunun əsasında 3 amil vardır. Birincisi "Milli Kimlik" məsələsidir. Milli kimlik məsələsi şotland mühafizəkarlığı ilə şotland müstəqilliyinin kəsişmə nöqtəsində yer alır. Bu, öz milli kimlik şüuruna sahib olan hər bir şotlandın müstəqillik tərəfdarı olduğunu mənasına gəlmir.Şotlandiyanın Birləşmiş Krallıqdan ayrı bir aktor olması fikri dəstəklənmir.Şotlandiyada Şotland və İngilis kimliyi arasında seçim edərkən ön planda olan Şotland kimliyidir. Ancaq təqdim edilən seçimlər artdıqda isə "Dominant şəxsiyyət" konsepsiyası altında qeyd edildiyi kimi, Şotlandiya və İngilis şəxsiyyətinin iç-içə olduğu şərtlər meydana gəlmir.

## **<u>ƏDƏBİYYAT SIYAHISI :</u>**


1. Yanık, C. (2013). Etnisite, Kimlik ve Milliyetçilik Kavramlarının Sosyolojik Analizi. Kaygı 2013/ 20.

2. Thomas Benedikter " Modern Özerklik Sistemleri" Nika Yayınevi 2016 Ankara

3. Андерсон Б. Воображаемые сообщества: размышления об истоках и распространении национализма / Б. Андерсон; пер. с англ. В. Г. Николаева. Социологии. – Москва: КАНОН-пресс-Ц: Кучково поле, 2014. – С. 286.

4. Бодрова Е. В. К вопросу о причинах роста национального сепаратизма на Северном Кавказе в годы Великой Отечественной войны // Знание. Понимание. Умение. — 2005. — № 2. — С. 23-30.

5. Коцюбинский Д.А. Глобальный сепаратизм – главный сюжет XXI века / Даниил Коцюбинский. – М.: Фонд «Либеральная Миссия», 2014. – С. 132.

6. Прохоренко И.Л. Национализм, сепаратизм, терроризм (Размышления над книгой С. Хенкина и Е. Самсонкиной) // Общественные науки и современность. – 2012. – № 4. – С. 173.

7. Сепаратизм в политической жизни современной Европы /Separatism in the political life of modern Europe / [под ред. П.Е. Канделя] Доклады Института Европы /Reports of the Institute of Europe. – М.: Ин-т Европы РАН, 2015. – С. 88

1. Бочарова С. Шотландия выходит из себя // Газета.ру. – 16.10.2012. – Режим доступа: http://www.gazeta.ru/politics/2012/10/16_a_4813305.shtml

2. Василенков С. Шотландия поборется за свободу на референдуме
3. // Правда.Ру: Аналитика и новости. – 11.10.2012. – Режим доступа: http://www.pravda.ru/world/europe/european/11-10-2012/1131074-scotland-0/

## XARAKTER ƏLAMƏTLƏRİNİN FORMALAŞMASI ŞƏRTLƏRİ

**Məmmədkərimova Sevinc**
***Qərbi Kaspi Universitetinin II kurs magistrantı***
***sevinckerimova13@gmail.com***

### XÜLASƏ

Psixoloji tədqiqatlar belə nəticəyə gətirib çıxmışdır ki, şəxsi münasibətlər şəxsiyyət xüsusiyyətlərinin fərdiliyini müəyyən edir. Xarakter əlamətləri müxtəlif şəxsi münasibətlərlə müəyyən edilən xüsusiyyətlər sisteminə malikdir. Xarakterin formalaşması problemini nəzərdən keçirərkən onun sabitliyi və dəyişkənliyi prinsipini eyni zamanda tətbiq etmək lazımdır. Məlumdur ki, xarakterin formalaşmasına mühit təsir edir. Bioloji şərait də mühüm rol oynayır. Bu şərtlər xarakterin formalaşmasına fatalist təsir göstərmir, həmişə fərqli və öz qanunlarına malik olan daxili şərait vasitəsilə dəyişir. Xarakterin formalaşmasında kompensasiya fenomeni də mühüm rol oynayır. Bir xarakter xüsusiyyəti zəiflədikdə, bu qüsurun yerinə başqa bir xüsusiyyət daha yaxşıdır.

**Açar sözlər:** xarakter, şəxsiyyət, insan, özünüdərk, psixologiya, münasibət, formalaşma

İnsanları bir – birilərindən fərqləndirən şəxsiyyətin davamlı fərdi psixi xassələrindən biri də xarakterdir. Adətən, insanları bir – birindən fərqləndirərkən onların xasiyyətini, xarakterini ön plana çəkirlər. Bu baxımdan, yunanca “xarakter”, “möhür”, “naxış” mənasını bildirir. Xarakter bir növ insanın yalnız özünəməxsus davranış formasını əks etdirir. Onun ən mühüm cəhəti ondan ibarətdir ki, xarakter şəxsiyyətin hər cür xüsusiyyətini deyil, mühüm və davamlı fərdi xüsusiyyətlərinin məcmusunu özündə əks etdirir. Digər tərəfdən xarakteri bir psixi fenomen kimi fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, o həmişə fəaliyyət və ünsiyyət prosesində, insanın onu əhatə edən gerçək aləmə və insanlara münasibətdə təzahür edir. Xarakter həyatda qazanılmış davranış formasıdır. Heç kim anadan tənbəl və ya işgüzar, kobud və ya mehriban, qəddar və ya humanist, səliqəli və ya pinti, təvazökar və ya xudbin doğulmur. Bu kimi keyfiyyətləri həyat prosesində, tipik şəraitin, təlim və tərbiyənin təsiri altında əldə edilir. Həmin əlamətlər həmin insanın xarakterini təşkil edən tipik əlamətlər kimi formalaşır və tipik şəraitdə dərhal özünü göstərməyə başlayır. (3)

Bütün bunlarla yanaşı olaraq insan xarakteri onun dünyagörüş və əqidəsilə də sıx bağlıdır. İnsanın münasibətlər sistemini təşkil edən dünyagörüşü və əqidəsi istər-istəməz onun xarakter əlamətlərinin formalaşmasına zəmin yaradır. Adətən, xarakter formalaşdıqdan sonra bu və ya digər davranış tərzini həyata keçirməyə təhrik edir. (1, s 397)

İnsanlar özlərinin xarakterinə görə bir – birilərindən fərqlənirlər. Onlar həmişə bir – birilərinin xarakterinə böyük əhəmiyyət verir, özlərinin davranış və rəftarında biri digərinin xarakterini nəzərə alırlar. “yaxşı adam”, “pis adam” haqqındakı etalon və stereotiplər nə qədər ümumi olsa da, onların əsasını insan xarakterləri haqqındakı təsəvvürlər təşkil edir. “Qonşun pisdir köç qurtar” kimi onlarla atalar sözlərində xalqın insan xarakterləri haqqında təsəvvürləri öz əksini tapmışdır.

Xarakter nədir? Onun əsas xüsusiyyətləri hansılardır?

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, xarakter insanın ən başlıca fərdi psixoloji xüsusiyyətlərindən biridir. Bu fikri necə başa düşək? Axı, şəxsiyyətin fərdi – psixoloji xüsusiyyətləri çoxdur. Qabiliyyətlər də, temperament də şəxsiyyətin fərdi – psixoloji xüsusiyyətləridir. Bəs, xarakter şəxsiyyətin digər fərdi – psixoloji xüsusiyyətlərindən, məsələn, qabiliyyətlər və temperamentdən nə ilə fərqlənir?

Biz qabiliyyətlərdən danışanda insanın yaradıcılıq imkanları haqqında danışırıq. Xarakterdən danışanda isə insanın davranış və rəftarında özünü göstərən xüsusiyyətlərə diqqət yetiririk. (2, s 466)

Yuxarıda qeyd edilənlərə əsasən xarakterə belə tərif vermək olar: Konkret şəxsiyyət üçün tipik olan fəaliyyət və ünsiyyət prosesində formalaşan və təzahür edən, tipik şəraitdə üzə çıxan və şəxsiyyyətin bu şəraitə olan münasibəti ilə müəyyən edilən özünəməxsus fərdi psixoloji xüsusiyyətlərinin məcmusuna xarakter deyilir.

Psixoloqların apardıqları tədqiqatlar belə bir qənaətə gəlməyə imkan vermişdir ki, şəxsiyyətin münasibətləri xarakter əlamətlərinin fərdi özünə məxsusluğunu iki cəhətdən müəyyənləşdirir. Birinci, insanın düşdüyü hər bir tipik şəraitdə emosional həyəcanların fərdi özünəməxsusluğu şəxsiyyətin münasibətlərindən asılıdır. Həyati faktlar xarakterin hər bir xüsusiyyətinin məhz bu cür tipik şəraitdə özünü büruzə verdiyini göstərir. İkincisi, hər bir tipik şəraitdə şəxsiyyətin təzahür edən davranış fomasının özünəməxsus fərdi xüsusiyyətləri də onun münasibətindən asılıdır. (1, s 397)

Xarakter əlamətləri şəxsiyyətin müxtəlif münasibətləri ilə müəyyən edilən xassələr sisteminə malikdir. Bu münasibətlər eyni zamanda xarakterin mühüm əlamətlərini təsnif etmək üçün əsas rol oynayır. Bu baxımdan şəxsiyyətin münasibətlər sistemini və xarakter əlamətlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. İnsanın başqa adamlara: doğma və yaxın adamlara, təhsil və iş yoldaşlarına, tanıdığı və az tanıdığı adamlara münasibətdə ifadə olunan xarakter əlamətləri. Bunlara sədaqətlilik, prinsipiallıq və prinsipialsızlıq, ünsiyyətlilik və qapalılıq, doğruçuluq və yalançılıq, mərifətlilik və kobudluq, qayğıkeşlik və laqeydlik və s. aid etmək olar.

2. İnsanın özünün özünə münasibətini bildirən xarakter əlamətləri. Bunlara heysiyyət, öz gücünə inam və inamsızlıq, şöhrətpərəstlik, lovğalıq, təvazökarlıq, özü haqqında yüksək fikirdə olmaq və s. aid etmək olar.

3. Əməyə münasibətdə özünü göstərən xarakter əlamətləri. Bunlalara vicdanlılıq, əməksevərlik, tənbəllik, təşəbbüskarlıq, işə məsuliyyətli və məsuliyyətsiz münasibət, ciddilik və s. aid etmək olar.

4. İnsanın əşyalara münasibətini ifadə edən xarakter əlamətləri. Bunlara səliqəlilik və ya pintilik, əşyalara qayğılı və qayğısız münasibət və s. aid etmək olar.

XX əsrin əvvələrində A.F.Lazurski ilk dəfə olaraq təkcə insanın subyektiv xüsusiyyətlərini deyil, həm də onun dünya görüşünü, "ictimai baxışlarını" nəzərə alan xarakterin psixo – sosial təsnifatını yaratmağı təklif etdi. Lazurski insanın ətraf mühitə uyğunlaşma dərəcəsindən və ətraf mühitin insana hansı dərəcədə təzyiq göstərməsindən asılı olaraq üç psixoloji səviyyə ayırd edirdi:

Aşağı səviyyə – kifayət qədər uyğunlaşma qabiliyyəti olmayan insanlar;

Orta səviyyə - ətraf mühitdə öz yerini tapa bilən və ondan öz məqsədləri üçün istifadə edə bilən insanlar;

Ali səviyyə - yaradıcı səviyyədir. O ətraf mühiti dəyişdirməyə çalışan insandır. Bu üç uyğunlaşma və üstünlük səviyyələrini nəzərə alma əsasında Lazurski xarakterin aşağıdakı təsnifatını təklif etmişdir:

Aşağı səviyyə: 1) ağıllı tip; 2) affektiv tip (hərəkətli, hissiyatlı, xəyalpərvər); 3) fəal tip (impulsiv, enerjili, itaətkar, fəal, inadkar).

Orta səviyyə:1) praktik olmayan nəzəriyyəçilər, idealistlər (alimlər, rəssamlar, dini xəyalpərəstlər); 2) praktiklər – realistlər, alturistlər, ictimayətçilər, hökümlülər, evdarlar.

Ali səviyyə: Bu insanlara şüurluluq, ruhi duyğuların uzlaşması, ali insani ideallar xasdır. Sonrakı tədqiqatlar xarakterin daha dəqiq anlaşılmasına gətirib çıxardı.

Fərdi xarakterlərin tipologiyasını təhlil edən Z.Freyd xarakterin strukturu ideyasını əsas götürərək sübut edir ki, "müəyyən əlamətlərdən əsas xarakterin formalaşdırılması formulunu çıxartmaq olar, həm də nəzərə almaq lazımdır ki, daimi əlamətlər ya dəyişilməyən ilkin impulsları, ya da onların sublimasiyasını və ya onların yaratdığı reaktiv törəmələrini təmsil edir". Erkən uşaqlığın xüsusiyyətləri, psixoseksual mərhələnin inkişaf etməsinin spesifikası, müəyyən psixoseksual mərhələnin təsbit edilməsi insanın xarakterinin xüsusiyyətlərini şərtləndirir. Freyd xarakteri oral-passiv, oral-təcavüzkar, anal xarakterə, genital xarakterə ayırırdı. Müasir psixoanalitiklər xüsusilə A.Louenin tipoloji modelində xarakterin aşağıdakı tiplərini ayırırlar: aral, mazoxist, əsəbi, fallik-narsis, şizoid. (1, s 400)

K.Yunq tərəfindən irəli sürülmüş ekstravert və introvert tipli xarakterlərin təsnifatı geniş yayılmışdır. Ekstravertlərə coşqunluq, təşəbbüskarlıq, uyuşqanlıq, ünsiyyətlilik xasdır. İntrovertlər üçün öz daxili aləmində baş verənlərdə şəxsi maraqlarını güdməsi, ünsiyyətsiz, qapalı, özünü təhlilə meyl, uyğunlaşmada çətinlik çəkmək xarakterikdir. Həmçinin xarakteri konform və sərbəst, hakim və itaətkar, normativ və anarxist tiplərə də ayırmaq olar.

İnsanın xarakteri adətən sosial amillərin təsiri altında formalaşır. Xarakterin formalaşması problemini nəzərdən keçirərkən onun eyni zamanda həm sabit, həm də dəyişkən olması prinsipini tətbiq etmək lazımdır. Bundan başqa, şəxsiyyətin ən vacib xüsusiyyətlərindən biri olan xarakter – ictimai tarixi bir kateqoriyadır, ona görə də insanın xarakterinin formalaşmasından danışarkən həmişə sosial şərtlərin təsirini nəzərdə tutmaq lazımdır. İnsanın xarakterinin formalaşmasına sosial mühitin təsiri hər şeydən əvvəl müxtəlif ictimai formasiyalarda tipik xarakterlərin müqayisəsi ilə sübut edilir. Kiçik qrupların psixologiyası onun üzvlərinin xarakterlərinin formalaşmasında böyük rol oynayır. Xarakterin formalaşmasına eyni zamanda bioloji şərtlər də təsir edir. Ancaq, xarakterin formalaşmasına irsi təsirin əhəmiyyətli roluna istinad edərkən çox ehtiyatlı olmaq lazımdır. A.N.Leontyevin sözlərilə desək, bioloji irsilik əhəmiyyətsiz sayılmır, ancaq mənimsəmə prosesi ilə müqayisədə o asılı vəziyyətdə olur.

Xarakterin əlamətlərində cinsi və psixi fərqlərin probleminin həlli üçün bir çox tədqiqatlar aparılmış, hətta kişilik qadınlığın müəyyənləşdirilməsi üçün xüsusi testlər də işlənib hazırlanmışdır. Şəxsiyyətin xüsusiyyətlərində cinsi fərqlər ortaya çıxıb. Məsələn, kişilər daha özünə güvənən, aqressiv, inadkar və cəsarətlidirlər, xasiyyət, danışıq və hisslərində daha çox kobuddurlar. Qadınlar isə daha çox həssas, utancaq, xeyirxah və emosionaldırlar. (7)

Xarakterin formalaşmasının bioloji şərtlərindən danışarkən fiziki tərbiyənin böyük əhəmiyyətini qeyd etmək lazımdır. İdmançıların xarakterində iradəlilik xüsusiyyətlərinin tərbiyəsinə həsr olunmuş bir çox əsərlər mövcuddur. Daha ümumiləşdirilmiş formada bu problem P.A.Rudik, A.Ç.Puni, 394 O.A.Çernikova tərəfindən təhlil edilmişdir. (1, s 410)

Həyat öz müxtəlifliyi ilə tərbiyə edir, ancaq xarakterin formalaşmasının əsas amili ailə və məktəbdir. Uşaqların xarakterinin bir çox qüsurları ailədə düzgün olmayan tərbiyənin nəticəsidir, məsələn, ərköyünlik, inadkarlıq, şıltaqlıq və eqoizm yaradır, fiziki cəza isə uşaqları kobud, sərt bəzən isə qorxaq, yalançı, aciz edir. Ancaq heç də həmişə uşaqların xarakterinin qüsurlarını ailə tərbiyəsinin səhv olması ilə izah etmək düzgün olmaz. Bəzən xarakterin yaranmış xüsusiyyətlərini uşaqlar “küçənin”, pis məktəb yoldaşlarının və s. təsiri altında qazanırlar.

Məktəblilərin xarakterinin formalaşdırılması məktəbdə təlim və tərbiyənin əsas vəzifələrindən biridir.

Xarakterin formalaşmasının əsas şərtlərinin siyahısına özünü tərbiyəni də əlavə edirlər.

Məlumdur ki, xarakterin formalaşmasına ətraf mühit təsir edir. Bioloji şərtlər də əhəmiyyətli rol oynayır. Bu şərtlər xarakterin formalaşmasına fatalist təsir etmir, onlar həmişə müxtəlif və öz qanunauyğunluqları olan daxili şərtlər vasitəsilə dəyişir.

Xarakterin formalaşmasında kompensasiya hadisəsi də böyük rol oynayır. Xarakterin bir əlaməti zəiflədikdə bu çatışmazlığın əvəzinə başqa əlamət daha yaxşı inkişaf edir.

Xarakterin formalaşması daxili vəziyyətdən də asılı olur. L.S.Vıqotski uşaq üzərində hər hansı bir təsir onu uşağın hiss etməsi nöqteyi-nəzərindən ona subyektiv münasibətindən keçməsi anlayışını inkişaf etdirmişdir. İnkişafın uşağın daxili vəziyyətindən asılılığı prinsipi daha sonra A.N.Leontyev tərəfindən inkişaf etdirilmiş və L.İ.Bojoviç və onun əməkdaşlarının tədqiqatlarında xüsusi sübutlarla təsdiq olunmuşdur. Bojoviç daxili vəziyyəti uşağın şəxsi ehtiyacları və arzularının sistemi kimi müəyyən edir. Daxili vəziyyət həm də yaşlı insanların xarakterinin dinamikliyində az rol oynamır, məsələn, inadkar adamın yenidən tərbiyə edilməsinin çətinliyi onun daha çox bu xüsusiyyətlə mübarizə aparmağa ehtiyac hiss etməməsindən və onu pis əlamət kimi hesab etməməsindən ibarətdir. İnsanın psixi vəziyyətinin öyrənilməsi prosesində daha bir zəruri qanunauyğunluq meydana çıxır: xarakterin dinamikliyi, onun xüsusiyyətlərinin əldə edilməsi, dəyişməsi psixi vəziyyətin keçid mərhələsindən, daha dəqiq desək insanın öz hərəkətlərinə münasibətindən keçir. (6)

Şəxsi nümunə də tərbiyənin və özünütərbiyənin ən güclü vasitəsidir.

Məktəblilərin xarakterinin formalaşmasına şəxsi nümunənin təsiri haqqında aparılmış tədqiqatlarda nümunənin seçilməsi yolları məsələsinə böyük yer verilmişdir. Nümunələrin seçilməsi yolları müxtəlifdir. Belə yollardan biri şagirdlərin etiraf etdikləri bəzi qüsurların təkmilləşdirilməsi üçün nümunənin seçimidir. Belə ki, qeyri-mütəşəkkil bir şagird çox intizamlı və mütəşəkkil yoldaşına oxşamaq istəyir. Nümunənin seçilməsinin ikinci yolu-oxşarlığa görədir. Nümunənin seçiminin başqa bir yolu mənalı həyatı hadisələrin maraqlı, cəlbedici axarına əsaslanır.

Nəhayət nümunə seçiminin daha bir yolu, N.Levitovun şərti olaraq emosional adlandırdığı yoldur. O, şagirdin müəyyən bir adama əvvəlcə rəğbət hissi keçirdiyindən və daha sonra isə nümunə kimi bu adamın

arxasınca getməsindən ibarətdir. Nümunənin seçilməsi prosesində həm obyektiv, həm də subyektiv amillər rol oynaya bilər. (10)

Hansı şagirdlərə və onların xarakterlərinin hansı xüsusiyyətlərinə nümunə daha yaxşı təsir edir. Bu baxımdan şagirdləri iki qrupa ayırırlar:

a) Xarakterin xüsusi plastikliyi və yüngüllüyü ilə seçilənlər;

b) Yaşadıqları əqidələrin konkret daşıyıcıları olan insanları şüurlu surətdə axtaranlar.

Fərdi psixoloji şərtlərlə yanaşı təsəvvürün, maraqların canlılığı, öz üzərində işləmək arzusu kimi ümumi psixoloji şərtlər də mövcuddur. İnadkarlıq, özündənrazılıq, lovğalıq kimi xüsusiyyətlər nümunənin təsirinə mane olur.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. S.İ.Seyidov, M.Ə.Həmzəyev. Psixologiya. Bakı, Nurlan, 2007, 700s
2. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı, ÇİNAR-ÇAP, 2006, 613s
3. R.İ.Əliyev, Tərbiyə psixologiyası. Bakı, Nurlan, 2006
4. https://az.wikipedia.org/wiki/Xarakter
5. https://kayzen.az/blog/psixologiya/8176/xarakter-haqq%C4%B1nda.html
6. https://haqqinda.az/%C3%9Cmumi+Psixologiya/36396-Xarakter+haqq%C4%B1nda.html


## NEFT EMALI PROSESSLƏRİNDƏ $CO_2$ QAZININ ÜTİLİZASİYASI ÜCÜN KİMYƏVİ YOLLARIN AXTARIŞI


**Məmmədzadə Amin Əlhəm oğlu, Quliyev Həsən Əli oğlu, Əhmədli İbrahim Tahir oğlu, Allahquliyev Tariel Şöhlət oğlu, Musayev Cavid Əkbər oğlu**

***Azərbaycan Texniki Universiteti***

***gtalibov61@gmail.com***


$CO_2$ qazının atmosferə tullantısı milyon tonlarla ölcülür. Atmosferdə isə onun miqdarı 0,03%-dir, lakin bu qaz 18% istilik şüalarını udur. Yanacağa olan tələbatın gündən-günə artması bu qazın artıq miqdarlarda atmosferə atılmasına, bu isə öz növbəsində “parnik effekti”nin yaranmasına səbəb olur. $CO_2$ qazının su ilə absorbsiyası ən geniş yayılmış üsullardan hesab edilir. Qarışıqların suda həll olmasını artırmaq üçün proses yüksək təzyiqdə aparılır. Bu üsulun üstün cəhərləri qurğunun konstruksuyasının sadə olması, istidəyişdirici və qaynadıcılardan istifadə olunmaması, istilik itgisinin olmaması, həlledicinin ucuz olması, qaz fazaya keçəcək qiymətli və zəhərli həlledici buxarlarının olmamasıdır.

Yüksək təzyiqdə qazın həll olması üçün çoxlu miqdarda qaz itgisinin olması, uducunun $CO_2$-yə görə effektivliyinin az olması (suyun maksimal udma qabiliyyəti 100 kq həllediciyə 8 kq $CO_2$-dır), məhlulun vurulmasına enerji sərfinin çoxluğu, ayrılan qazın ($CO_2$) kifayət qədər təmiz olmamasıdır.

$CO_2$ təmizlənməsini effektiv üsulsu kumyəvi yolla onun udulması və əhəmiyyətli birləşmələrə cevrilməsidir. Bu üsullar əsasən sənaye müəssisələrindən atmosferə atılan qazları karbon qazından təmizləyirlər. Uducu kimi mono-,di-, tri (üçlü)-etanloaminlərdən istifadə olunur. Ancaq etanolaminlər $CO_2$ qazını və hidrogen sulfidi udma dərəcəsi cox aşağıdır.

Təmizlənəcək qaz absorberin aşağı hissəsindən, uducu məhlul isə absorberin yuxarı hissəsindən verilir. Kalonun çıxışında təmizlənmiş qaz monoetanolamin damcılarından təmizləmək üçün seperatora verilir. Doymuş uducu məhlulu həll olmuş karbohidrigen qazlarından təmizlənmək üçün tutuma verilir, istilikdəyişdiricidən keçərək buxarlandırıcı kalona daxil olur. Turş qazlar, buxar və monoetanolamin məhlulu kalonun yuxarı hissəsindən seperatorda soyudulduqdan sonra kondensat kalonun suvarılması üçün yığılır. Kalonun aşağı hissəsindən regenerasiya olunmuş məhlul istilikdəyişdiricidən soyuducuya verilir, oradan tutuma verilir və absorberin suvarılmasına göndərilir.

Metil spirti karbon qazının udulması üçün yaxşı uducu hesab olunur.Temperaturun aşağı düşməsi və yüksək təzyiq sistemdə udma qabiliyyətinin artırır. Bu üsulun çatışmayan cəhəti qurğunun, aparatların böyük

ölçüdə olmasıdır. Bu proses çoxlu miqdarda qazların təmizlənməsində (koklaşma prosesində, qazların dərin soyudulmasında) tətbiq edilir.

$CO_2$ təmizlənməsi üçün ən effektli üsul onun oksiranollarla udulmasıdır. Bu tip maddələrin yeni alınma üsulu müəlliflər tərəfindən aparılmışdır [1]. Üsulun üstün cəhəti prosesin yüksək cıxımla getməsi, alınan maddələrin bioloji aktivliyə malik olmasıdır.




Reaksiya nəticədə 3-alkoksioksolan-2-onlar alınar. Bu proses yüksək selektivliklə və olduqca yumşaq şəraitdə gedir. Bu üsul həmcinin çox yüksək iqtisadi üstünlüyə malikdir.

Adsorbentlərlə udulmadan sonra onun zərərsizləşməsi problem kimi qalır, bu üsulla alınan 3-alkoksioksolan-2-onlar neft məhsullsrında olan mikroorqanizmlərin məhv olunmasında istifadə etmək olar.

## ƏDƏBİYYAT SİYAHISI :

[1]. Talybov G.M., Dzhafarova N.V., Bairamova S.T. Condensation of chloromethyl propargyl ether with carbonyl compounds. Russ. J. Org. Chem. 2015, 51(7),1028.

# ГЕЙДАР АЛИЕВ И ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ ССР В 70-Х НАЧАЛЕ 80-Х ГОДАХ XX ВЕКА

**Мамедова Илаха Магеррам г.**
***Докторант Западно-Каспийского университета***
***Научный руководитель: ак. Ахундова Н.Ч.***

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan SSR, iqtisadiyyat, inkişaf.
**Ключевые слова:** Гейдар Алиев, Азербайджанская ССР, экономика, развитие.
**Keyword:** Haydar Aliyev, Azerbaijan SSR, economy, development.

С именем Гейдара Алиева связано более 50 лет истории Азербайджана. Он является основателем нового Азербайджана, к строительству которого приступил еще в 1940-х годах, когда работал в правоохранительных органах и возвысился до должности председателя Комитета Государственной Безопасности Азербайджана. Как великий и дальновидный политик, он уже тогда начал очистку КГБ от врагов Азербайджана, в котором в 1920-1930-е гг. обосновались армяне и представители других национальностей, которые периодически готовили и проводили кровавые репрессии против азербайджанского народа.

Как говорил Дзержинский, у чекиста должны быть горячее сердце, ясный ум и чистые руки. Именно благодаря этим, и многим другим положительным качествам, на историческом пленуме ЦК Компартии Азербайджана от 14 июля 1969 года он был назначен первым секретарем ЦК КП АзССР. Выступая на пленуме, Гейдар Алиев сказал: «Занимая эту должность, я осознаю всю ложащуюся на меня ответственность. Понимая сложность и трудность стоящих передо мной задач, хочу заверить, что использую все свои возможности для того, чтобы оправдать это большое и высокое доверие. В этом, я буду опираться и рассчитывать на помощь и поддержку всего состава Центрального Комитета Коммунистической партии Азербайджана, членов Бюро ЦК, всех руководителей партийных, советских и хозяйственных организаций. Считаю, что наша искренняя активная совместная работа станет залогом будущих достижений» (1,л.2).

В 1960-е годы Азербайджан во многих отраслях экономики отставал от общесоюзного уровня (2,5). И промышленность, и сельское хозяйство не развивались на должном уровне. Регионам страны не уделялось достаточного внимания для социально-экономического развития. Большинство промышленных предприятий строились в больших городах, что препятствовало развитию остальных городов и пропорциональному протеканию процесса урбанизации. Ввиду замедления развития экономики, социальное положение населения стало ухудшаться. Достижения научно-технического прогресса фактически не внедрялись в производство. По объемам национального дохода АзССР также отставал от общесоюзного уровня. Был нарушен непрерывный цикл работ в нефтяной промышленности, энергетике, черной металлургии, химической и нефтехимической областях. Продолжал падать уровень и в сельском хозяйстве.

В сложной исторической ситуации господства тоталитарного режима, Гейдар Алиев, используя богатый экономический потенциал Советского Союза, с целью превращения Азербайджана в передовую республику СССР, приступил к проведению реформ. Во главе его планов стояло превращение Азербайджана в самодостаточную, способно жить самостоятельно и высокоразвитую страну (выражаясь терминологией того времени, в административно-экономическую единицу). Одним словом, Гейдар Алиев ещё тогда начал путь, шедший к независимости.

Меньше чем за месяц после своего избрания, Гейдар Алиев выступил с докладом на августовском пленуме ЦК КП республики. За такой краткий срок, ему удалось глубоко и всесторонне проанализировать бедственное положение, в котором находилась экономика республики и выявить серьезные ошибки и недостатки, допущенные в руководстве народным хозяйством.

Благодаря упорному труду Гейдара Алиева, Совет Министров СССР принял постановление от 23 июля 1970 года «О мерах по развитию сельского хозяйства Азербайджанской ССР». Благодаря этому постановлению, уже к 1975 году произошел подъем в сельском хозяйстве. Общий объем сельскохозяйственной продукции составил 1 млрд. 572 млн., в то время как в 1969 году этот показатель равнялся 999 млн. рублей (5,36).

В октябре 1970 года в Баку в связи с 50-летним юбилеем Азербайджанской ССР и Компартии Азербайджана, прибыл Брежнев (4,140). Он высоко оценил работу Алиева 1969-1970-х годов и отметил, что вскоре эта большая и напряженная работа принесет свои плоды. Так и произошло.

К концу 1970 года Республика досрочно выполнила план о продаже основных видов продуктов сельского хозяйства. Производство продукции в 1970 году превысило более чем на 106 млн. рублей показатели 1969года. Общий объем сельскохозяйственной продукции в 1970 году возрос на 15.4 процента, в то время как в 1966-1969 годах этот прирост, в среднем, составлял 1.9%. Хлопкоробы сдали государству 335 тыс. тонн хлопка. Урожайность сырца составила 17.4 центнера с гектара, а зерновых - 12 центнеров (6,92). Подобного результата в хлопководстве не было 13 лет, а в зерноводстве 20 лет.

В сентябре 1973 года в Ташкенте состоялся Всесоюзный слет актива шести хлопкосеющих республик. Выступая на этом слете, Гейдар Алиев проанализировал состояние хлопководства в республике и заявил, что у Азербайджана есть потенциал сдавать государству по 450 тыс. тонн. Генеральный секретарь ЦК КПСС Л. И. Брежнев очень высоко оценил меры Гейдара Алиева и заявил: « Еще до недавнего времени прежнее руководство Азербайджана культивировало в республике пренебрежительное отношение к хлопку. А ныне Азербайджан поднял эту работу на высоту» (3,134).

Проанализировав возможности дальнейшего развития сельского хозяйства, Гейдар Алиев вновь обратился от имени ЦК КП Азербайджана. В результате его обращения ЦК КПСС и Совет Министров 9 июля 1975 года и 27 июня 1976 года приняли постановления «О мерах по дальнейшей интенсификации сельскохозяйственного производства в Азербайджанской ССР» и постановление «Об итогах рассмотрения предложений ЦК Компартии Азербайджана о развитии отдельных отраслей промышленности республики в 1976-1980 годах». Меньше чем через год было принято еще одно постановление «О дальнейшей специализации продукции сельского хозяйства Азербайджанской ССР и развитии виноградарства и виноделия».

Все эти постановления сыграли большую роль в социально-экономическом развитии нашей страны в 1970-х – начале 1980- годах. Гейдару Алиеву пришлось преодолеть тысячи препятствий, чтобы добиться принятия этих постановлений Советским правительством, а также обеспечить их выполнение.

В результате его усилий 70-80-е годы XX века вошли в историю Советского Азербайджана как самый блестящий период строительства за всё время его существования. В результате дальновидной политики Гейдара Алиева, Азербайджан в то время превратился в самую передовую сельскохозяйственную республику Советского Союза, в том числе в передовой край хлопководства и виноградарства. В 1970-1985 гг. на территории республики были созданы сотни заводов, фабрик, отраслей производства. Было запущено 213 промышленных учреждений. 350 наименований продукции, производимой в Азербайджане, экспортировалось в 65 стран мира(7,32).

В 1960 году Азербайджанская ССР экспортировала свою продукцию только в 23 страны, экспортную продукцию 49 наименований производило всего 30 предприятий, а в 1970 году в 56 стран, а экспортную продукцию 300 наименований производило более 70 крупных предприятий.

Лишь за 1971-1981 годы объем экспорта из Азербайджана увеличился более чем на 63 %. Расширился и ассортимент экспортируемой продукции. Только объем планового экспорта продукции из Азербайджанской ССР в 1970-1975 годах возрос в 1,7 раза, а количество наименований экспортной продукции увеличилось на 50 единиц. Особенно значительный рост объема экспорта в указанные годы отмечен в следующих отраслях: экспорт машинотехнической продукции увеличился на 94,2%, продукция химической промышленности – более чем в 4 раза, ковров и ковровых изделий – более чем в 3 раза.

Самым важным доказательством социально-экономического процветания АзССР в 1970-1980-х годах явилось то, что уже в период распада Советского Союза, Азербайджан по уровню своего развития и многоотраслевой экономике являлась второй среди союзных республик, способной жить самостоятельно.

## СПИСОК ЛИТЕРАТУРЫ:


1. АДП УДП АР Ф.1, оп.56, д. 5, л. 2.
2. Бакинский рабочий, 30 дек. 2000 г.
3. Брежнев Л.И. Верность великому союзу братских республик. Баку, 1973 г.
4. Брежнев Л.И. Ленинским курсом. 3-й том, Москва 1972, 140 с.
5. Гусейнова И.М. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру, Баку, Тахсил, 2005, 513 с.


# QƏBƏLƏ, ŞƏKİ, GƏNCƏ VƏ QAZAX RAYONLARININ TURİZM REKREASİYA EHTİYATLARININ TƏHLİL EDİLMƏSİ


**Məmmədova Günay Ədalət**

***Azərbaycan Turizm və Menecment Universiteti***

***Elmi rəhbər: f.ü.f.d. A.N.Quliyeva***

**Aysel.guliyeva@atmu.edu.az, mammadovagy@gmail.com**


## XÜLASƏ


Ən son olaraq gəldiyimiz yekun nəticə qeyd edilən hər bir rayonunun özünün zəngin təbii rekreasiya ehtiyatları və o cümlədən tarixi əhəmiyyətli memarlıq abidələri olaraq tək turizm yox, iqtisadiyyat üçün böyük əhəmiyyət kəsb etməklə diqqəti cəlb edir.Həm yerli, həm də gəlmə turistlərin sayında üstünlük Şəki və Qəbələdədir. Aparılmış tədqiqat işindən çıxardığımız digər nəticəyə əsasən Qəbələ, Şəki, Gəncə rayonlarında turizmin müasir vəziyyəti və infrastruktur təminatı yaxşı olasa da Qazaxda bu göstərici daha aşağıdır.Ölkə ərazimizdə hal-hazırda turizm sahəsi ilə məşğul olan bir çox turizm müəssisələrində, şirkətlərində hər il həm ayrı-ayrılıqda, həm də ümumi bir marşrut formasında Gəncə, Qazax, Şəki və Qəbələyə həm yerli həm də gəlmə turistlər üçün yeni maşrutlar hazırlanır.



**Açar sözlər:** turizm, Azərbaycan, potensial, inkişaf, səyahət, turist,rekreasiya

**Giriş**

Turizm inkişaf etməkdə davam edən dünyanın ən qlobal əhəmiyyətə sahib olan həmçinin sosial və iqtisadi əlaqələri tənzimləyən bütün bunlarla yanaşı ayrı-ayrı ölkələr və müxtəlif qruplardan olan xalqlar arasında münasibətlərin təşkilində əsaslı yer tutan və onların maraq dairələrini genişləndirən bir sahə kimi sahə kimi tanınır. İnkişaf ilə bağlı olaraq isə bəlli məsələdir ki, ölkəmizə gələn turistlərin sayının artması səbəbi ilə yeni turist marşrtunun yaradılması zərurəti ortaya çıxmışdır. Respublikamızın bir çox bölgəsi, əlavə olaraq da Gəncə, Şəki, Qazax və Qəbələnin turim potensialı ilə zəngindir. Qeyd edilən rayonların hər birinin zəngin rekreasiya ehtiyatları mövcuddur.

**Rekreasiya ehtiyatı barədə ümumi məlumat**

Son zamanlarda geniş kütlə arasında çox tez-tez rast gəldiyimiz anlayış rekreasiya ifadəsidir. Rekreasiya sözünün anlamını bu şəkildə göstərə bilərik:turizm-rekreasiya ehtiyatları və onlardan istifadə deyərkən insanların əmək fəaliyyətinin və şəraitinin inkişafı səbəbilə yaranan, asudə vaxtlarını dəyərləndirmək üçün müraciət edən insanlara istirahət, müalicə və digər məqsədlər ilə istifadəsi üçün şərait deməkdir. Bir növ rekreasiya ehtiyatı zəngin olan ərazinin turist sayı da çox olacağdır. Bir çoxumuz getməzdən öncə həmin yerin tarixi və təbii ehtiyatları çox olarsa bir pillə üstünlük hesab edirik. Rekreasiyanın növ bölgüsü tarixi və təbii olaraq ayrılmışdır.Təbii rekreasiya ehtiyatlarımıza bölgənin relyefi, flora-fauna,milli parkları, mineral su ehtiyatları, təbiəti, obyektlər və bir-sıra cəhətləri aid edə bilərik. Tarixi özü də iki hissəyə bölünərək maddi və mənəvi ehtiyatlar kimi qruplaşmışdır. Ümumi olaraq qruplaşmamıza tarix, mədəniyyət, elm və incəsənət abidələri aiddir.

**Qəbələ rayonu rekreasiya ehtiyatları**

Zəngin turizm potensialı ilə tanınan Qəbələ rayonunun bir çox hissəsi dağlardan ibarət olaraq çəmənlik, dağ-meşələr ilə, həmçinin mərkəzindən və cənubunda mövcud olan çöküntülər,əlverişli iqlim şəraiti( qışı mülayim, dağlıq ərazilərdə isə nisbətən yağıntılı və qarlı olaraq) ilə bir çox insanın diqqətini özündə toplamışdır. İşgüzar səfərlər, biznes görüşləri, həm təbii, həmdə tarixi-mədəni rekreasiya ehtiyatları, macəra, kənd və idman turizmi üçün ən ideal istirahət mərkəzi hesab edilir. [2, səh 96] Öz gözəlliyi ilə gözoxşayan Qəbələ rayonu həmçinin gur sulu, sürətli, dənizdən 3000-3500 m hündürlükdə olan Mucux ( ucalığına görə ölkə ərazisində 2 yerə sahibdir), Tufangöl kimi şəlaləri ilə təbiətin ən gözəl incilərinə sahib olaraq yay aylarında ən gözəl istirahət zonası kimi diqqəti cəlb edir.Rayon ərazisində əlavə olaraq, müalicə xarakterli təbii ehtiyat olan Yengicə və Qəmərvan adlı mineral su da mövcuddur. Tarixi əhəmiyyyətli abidələrə isə Həzrə türbəsini, daha sonra Qəbələ rayonun mərkəzində 1899-1906- ci il nümunəsi olan Came məscidini, Qəbələnin Qafqaz Albaniyanın mərkəzi şəhəri olması səbəbi ilə halhazırda Nic kəndində mövcud olan Alban məbədini, Səkkizguşəli məscid nümunəsini,XVIII əsr üçün xarakterik olan İmam Baba türbəsini nümunə gətirə bilərik.

**Şəki rayonunun rekreasiya ehtiyatları**

Turizm potensiali ilə seçilən Şəki rayonunun tarixinin qədimiliyi ilə də diqqəti cəlb edir. Qəbələ rayonu kimi, Şəki rayonu da ölkə ərazisinin qədim şəhəri olaraq göz oxşayır. Halhazırda tarixi abidələr ilə zəngin olan Şəki rayonu,tarixin ən mühim zamanlarında müdaifə məqsədi ilə qala divraları ilə əhatə edilərək, şimal-şərqdə Albaniya, o cümlədən cənub-şərqdən Qəbələ rayonu ilə əhatə edilmişdi. Əlavə olaraq qeyd edək ki Şəkinin bu qədər potensiala malik olmasına Böyük-İpək yolunun üzərində yerləşərək ölkənin iqtisadi əlaqələrinə, ticari münasibətlətin inteqrasiyasına birbaşa təsir göstərmişdir. [2, səh 100]

Paltarların və məişətdə istifadə edilən əşyalara ipək saplar ilə xüsusi tikilişlərə görə Şəki rayonu ölkənin ipəkçilik mərkəzi kimi ad qazanmışdı. Rayon ərazisində olan ən məşhur yerlərə bunlar aiddir: Şəki Xan Sarayı, Tarix Memarlıq qoruğu, Şəki qalası-Narınqala, Yuxarı Karvansara, Aşağı Karvansara, Xan məscidi, Ömər Əfəndi məscidi, Cümə məscidi, Kiş alban məbədi və Gələrsən-Görərsən qalası buraya daxildir.

**Gəncə rayonu rekreasiya ehtiyatları**

Gəncə şəhərinə gələrkən gəzib görməli, tanımalı olduğumuz tarixi-memarlıq abidələrinə məscidlərdən Qızılhacılı, Ozan, Qazaxlar, Bala Bağman, Şahsevən və Şərəfxanlını, XII əsrin bariz nümunəsi olan Böyük və Kiçik körpünü(Gəncəçay üzərində) məşhur İmamzadə türbəsi, Şeyx İbrahim türbəsi, Gəncəvi adına məqbərəni və qədim hamamları siyahımıza aid edə bilərik. [6, səh 401] Kiçik Qafqazın şimal-şərq tərəfində yerləşən, mülayim və quru-çöl iqlimin əsas rol oynadığı Gəncə şəhəri Gəncəçay sahilində, Gəncə-Qazax adlanan ovalıqda olmuş ölkəmizin ən böyük əraziyə malik sayca ikinci şəhəri hesab edilir.Təəssüf hissi ilə bildirməliyik ki, tarixən bu şəhər dəfələrlə hücümlara məruz qalaraq dağıdılmış, lakin yenidən təmir bərpa işləri görülmüşdür. Gəncə

şəhərində gəlmə və yerli turistlərin istirahət etməsi üçün bir sıra turizm və istirahət mərkəzləri mövcuddur. Misal olaraq isə infrastruktur, xidmət səviyyəsi cəhətdən yüksək olmayan Kəpəz turist mehmanxanasını aid edə bilərik. Yağıntıların normal, iqlimi quru hesab edilən Gəncədə infratstukturu mütləq artırmaqla burada turizm potensialını artırmaq gərəkdir.

**Qazax rayonun rekreasiya ehtiyatları**

Qazax rayonu ərazisində olan təbii rekreasiya ehtiyatı hesab edilən çaylar və su hövzələrinə Ağstafa, İncə, Coğaz və Həsənsu aid olaraq, bu çaylar müvəqqəti axarlı tipə aiddirlər. Bu çayların hər birinin başlanğıc obyekti bir-birindən fərqli olaraq bu formada qruplaşmışdır: İncəçay Murovdağın şimal-şərqindən, Həsənsu çayı Murquz adlan silsilədən, Ağstafaçay isə Bambak adlı silsilədən mənbəyini götürür. Həmçinin onu da qeyd etməliyik ki, Qazax rayonu ərazisində milli irs nümunəmizin ən gözəl nümunələrindən olan xalçaçılıq xüsusi yerə və əhəmiyyətə malikdir[6, səh 404].Məlumat üçün qeyd edək ki, milli irs nümunəsi olan xalçaçılıq sənətinin fəaliyyəti tunc dövründən başlayaraq bu günədək davam etmişdir. Qazax rayonu ərazisində 250 metr hündürlüyə, 130 metr diametrə sahib olan adı dillər əzbəri Göyəzən dağı ən hündür dağ olmasa da, öz əzəməti və qeyri-adi yaradılış xüsusiyyətinə görə rayonun rəmzi kimi məşhurdur. Qazax rayonu ərazisində Azərbaycanın möcüzsəsi adlandırılan Damcılı bulağı adından göründüyü kimi daş dövründə sıx qayaların arasından suyun dam formasında süzülməsi nətəcəsində yaranmışdır.

**Nəticə**

Tədqiqatımıza əsasən gəldiyimiz yekun nəticə qeyd edilən hər bir rayonunun özünün zəngin təbii rekreasiya ehtiyatları və o cümlədən tarixi əhəmiyyətli memarlıq abidələri olaraq tək turizm yox, iqtisadiyyat üçün böyük əhəmiyyət kəsb etməklə diqqəti cəlb edir.Həm yerli, həm də gəlmə turistlərin sayında üstünlük Şəki və Qəbələdədir. Aparılmış tədqiqat işindən çıxardığımız digər nəticəyə əsasən Qəbələ, Şəki, Gəncə rayonlarında turizmin müasir vəziyyəti və infrastruktur təminatı yaxşı olasa da Qazaxda bu göstərici daha aşağıdır. Qazaxın rekreasiya ehtiyatlarından səmərəli istifadə edilərək yaxın gələcəkdə turizm potensialının artımına nail olmaq mümkündür.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Abadov M. Turizm məhsulunun tərtibi texnologiyası. Bakı, 2011, 69 s.
2. Abadov M. Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı, 2014, 247 s.
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Gəncə-Qazax İqtisadi rayonunun pasportu. Bakı, 2015
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Şəki-Zaqatala İqtisadi rayonunun pasportu. Bakı, 2015
5. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı, 2006
6. Bilalov B.Ə., Ç.G.Gülalıyev Ç.G.Turizmin əsasları. Bakı, 2015, 492 s.
7. Биржаков М.Б. Введение в туризм. М. - СПб. Герда, 2000. 192 с.
8. Дурович А.П., Копанев А.С. Маркетинг в туризме. Минск, 1998, 400 с


## SOSİAL MEDİANIN GƏNCLƏRİN FORMALAŞMASINA TƏSİRİ


**Məmmədova Samirə**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Dürdanə Əliyeva***



**Açar sözlər:** gənclərin inkişafı, sosial media, sosial şəbəkə.
**Key words:** youth development, social media, the social network.
**Ключевые слова:** развитие молодежи, социальные медиа, социальная сеть.


Gənclərin inkişafına və formalaşmasına təsir edən amillər müxtəlifdir: ailə, ətraf mühit, irsiyyət, və s. Bu amillərdən biri də sosial mediadır. Bəs sosial media nədir, necə istifadə olunmalıdır, mənfi və müsbət cəhətləri nələrdir?

Sosial media insanlar arasında virtual internet alətləri vasitəsilə sosial ünsiyyət yaratmaq və məlumatları paylaşma deməkdir. O daha əlçatan və veb əsaslı texnologiyaladan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Sosial media vasitələrinə internet üzərindən yayımlanan informasiya saytları, sosial şəbəkələr, bloqlar, mikrobloqlar, adi ünsiyyət proqramları, forumlar daxildir.

Sosial media nümunələrinə xəbər saytlarını, sosial şəbəkələri (Facebook, Twitter, Google, You tube), ünsiyyət vasitələrini (MSN, Skype, Google Talk və s.), forum və bloqları aid etmək olar.

Texnologiyalar hər keçən gün inkişaf edərək artıq həyatımızın böyük bir hissəsini əhatə edir. Virtual məkan genişləndikcə internetdə mövcud olan sosial şəbəkələrin də sayı günü-gündən artır. Sosial şəbəkələrin əsas istifadəçi kütləsi gənc nəslin nümayəndələridir.

Ümumiyyətlə, gənc nəslin inkişafına sosial media necə təsir edir?

Gündəlik həyatımızda sosial şəbəkələrin müsbət tərəflərini müşahidə etsək də, kifayət qədər mənfi tərəflərini də görürük. Bir çoxları artıq istəsə də, istəməsə də, sosial şəbəkələrsiz qala bilmir. Araşdırma nəticəsində sosial şəbəkələrdən istifadə edənlərin 80 faizini məhz elə gənclərin təşkil etdiyi ortaya çıxır. Onların bir çoxunun istifadə etdiyi sosial şəbəkələrdə "Facebook", "Twitter", "İnstagram", "Google+", "Vkontakte", "Odnoklassniki", "YouTube" və başqaları üstünlük təşkil edir.

Tədqiqat işi zamanı sosial şəbəkələrdən istifadə edən 50 nəfər gənc arasında bu şəbəkələrin onların həyatında tutduğu rol ilə bağlı sorğu apardıq. Sorğudakı suallar aşağıda göstərilmişdir. Sorğuya verilən cavablar isə müxtəlif oldu.

1) Ən cox istifadə etdiyiniz sosial şəbəkə? Bu suala gənclərin böyük əksəriyyəti instagram cavabını verdi. Google və Twitter isə verilən cavablar arasında 2-ci yerdə dayanır.

2) Sosial şəbəkələrə gün ərzində nə qədər vaxt sərf edirsiniz? Verilən cavablardan bu nəticəyə gəlirik ki, gənclərin çoxu gün ərzində sosial şəbəkələrə 2 saata qədər vaxt sərf edir. Az bir hissəsi 5-8 saatdan daha çox sosial şəbəkələrdə olur.

3) Sosial şəbəkələrdən hansı məqsədlər üçün istifadə edirsiniz? Cavablara baxdıqda 100%-dən 70%-i "şəxsi inkişafla əlaqəli məlumatlar əldə etmək" cavabını, bəziləri "dünyada baş verən yeniliklər haqqında məlumat əldə etmək", qalanları isə boş vaxtlarını doldurmaq üçün cavabını verdi.

4) Sosial şəbəkələrin olmadığını düşünsək, sizə lazım olan məlumatları haradan və necə əldə edərsiniz? Bu suala gənclərin demək olarki hamısı kitabxanalardan, televiziyadan və qezetlərdən cavabını verdi. Çox az hissəsi isə ümumiyyətlə sosial şəbəkələrin olmadığını düşünmək istəmədiklərini bildirdi.

5) Gənc nəslin inkişafına sosial medianın təsiri varmı? 50 nəfərdən 48-i "bəli", 2 nəfər isə bu sualı "xeyr" cavabı ilə cavablandırdı.

6) Sizcə, sosial şəbəkələr gənclərə psixi və mənəvi cəhətdən hansı təsirləri göstərir? Bu suala daha çox aqresivlik, depressiya, insanlarla ünsiyyətdən qaçmaq, əsəb, gərginlik və s. cavablarını verdilər. Lakin bəziləri isə sosial şəbəkələrdən istifadənin insanın özündən asılı olduğunu bildirdilər.

7) Sizin fikrinizcə, sosial şəbəkələr sizin inkişafınızda hansı rolu oynayır? Verilən cavablara ümumiləşdirdikdə sosial şəbəkələrin gənclərin inkişafında çox böyük rol oynadığını görürük. Buna dünya görüşün artması, təcrübə əldə etmək, sosiallaşmaq, baş verən yeniliklərdən vaxtında xəbərdar olmaq və s. aiddir.

8) Sizin fikrinizcə, sosial şəbəkələrin gənclərə təsiri daha çox hansı istiqamətdədir? Bu suala 50 nəfərdən 27-i müsbət, 23-ü isə mənfi cavabını verdi.

9) Sosial şəbəkə vasitəsi ilə əldə etdiyiniz ən böyük nailiyyət? Verilən cavablara nəzər saldıqda görürük ki, gənclərin ən böyük nəaliyyəti sosial media üzərində bir çox

yarışlara qatılaraq uğur əldə etmək, müəyyən sahələrdə özlərinə sosial media üzərindən biznes yaratmaq və s. olub. Bəziləri isə heç bir nailiyyətinin olmadığını cavabını verdi.

Aparılan sorğunun və əvvəlki tədqiqatları da nəzərə alaraq qeyd edək ki, bir qisim sosial şəbəkələrin bugünkü günümüzdə sosiallaşmaq, dünyanın ən ucqar nöqtəsində olan insanlarla ünsiyyət yaratmaq, fikir bildirmək və qarşılığında cavab almaq, ictimai həyatda baş verən aktual məsələlər ətrafında müxtəlif sorğular təşkil etmək, canlı yayım vasitəsilə iclaslar, müzakirələr keçirmək, olduğun yer haqqında məlumatları dostlarınla audiovizual şəkildə paylaşmaq, bizi maraqlandıran hər bir məlumatı asanlıqla əldə edə bilmək və s., o cümlədən, köhnə dost-tanışları tapa, keçmiş münasibətləri bərpa edə, ünsiyyəti genişləndirə, yeni tanışlıqlar yarada bilmək kimi müsbət xüsusiyyətləri var.

Maariflənmə və maarifləndirmə baxımından da sosial media mühüm rol oynayır. Sosial media üzərindən gənclər bir çox tədbirlərə, təlimlərə, xarici dil kurslarına videokonfranslara, elmi yarışmalara və s. qoşulurlar. Bu gün artıq gənclər hər hansı bir məlumatı və ya dərs vəsaitini kitabxanalarda sıraya düzülərək əldə etmirlər. Onlar bir neçə dəqiqə ərzində internetdən istifadə edərək özlərinə lazım olan məlumatı əldə edirlər və informasiya bazalarını genişləndirirlər.

Sosial medianın müsbət tərəfləri ilə yanaşı mənfi tərəflərini də mütləq qeyd etməliyik. Bir çoxları düşünürlər ki, sosial şəbəkələr insanların internet asılılığını artırır, mənəvi dəyərləri məhv edir, real həyatdan uzaqlaşdırır. Artıq bu asılılıq insanlarda bir sıra psixoloji problemlərin üzə çıxmasına səbəb olur.

Sosial şəbəkədən söhbət məqsədilə istifadə edənlərin sayı bu gün daha çoxdur. Əslində, ondan müzakirə, diskussiya üçün istifadə etmək, qarşılıqlı fikir mübadiləsi aparmaq daha faydalıdır.

Sosial şəbəkələrdən kimisi, sadəcə, vaxt keçirmək üçün istifadə edir ki, bu da bir müddətdən sonra "internet asılılığı" yaradır. İnsanın vaxtını "virtual dünya"ya sərf etməsi real həyatdan uzaqlaşmağa gətirib çıxarır ki, bu da sonralar psixoloji problemlər yaradır. Əvvəlcə vərdiş, sonra isə xəstəlik dərəcəsində asılılıq yaradan sosial şəbəkələr insanlarda depressiya, yuxusuzluq, yorğunluq, aqressivlik, paxıllıq və digər xoş olmayan halların yaranmasına səbəb olur. 2016-cı ildə 1700 nəfər arasında aparılan tədqiqat nəticəsində müəyyənləşdirilib ki, çox sayda sosial media platformasından istifadə edənlər arasında depressiya və narahatlıq riski üçqat artır. Təəssüflə qeyd etmək

lazımdır ki, sosial şəbəkələr səbəbindən intihara cəhd edənlər də az deyil. O cümlədən narkotik aludəçiliyinə cəlbetmə, müxtəlif dini cərəyanların təbliği qarşılaşdığımız mənfi hallardır. Buna görə də azyaşlı uşaqların, xüsusilə yeniyetmələrin sosial şəbəkələrdə çox vaxt keçirmələri təhlükəlidir

Müasir dövrdə sosial şəbəkələrdən düzgün istifadənin təbliği çox mühüm əhəmiyyətə malikdir. İstifadəçiləri mənfi təsirlərdən qorumaq və insanların şəbəkələrdən düzgün istifadə etməsi üçün maarifləndirmə işi aparılmalıdır.

Düşünürük ki, bu işdə ən böyük öhdəlik müəllimlərin və valideynlərin üzərinə düşür. Gənc nəslin nümayəndələrini doğru istiqamətləndirmək lazımdır, sosial şəbəkələrin müsbət cəhətlərinə üstünlük verilməsinin nə qədər düzgün olduğu onlar üçün aydınlaşdırılmalıdır. Məsələn, dərslə bağlı tədqiqat işləri tapşırılmalı və bunun məğzində müzakirələr edilməlidir. Şagirdlər isə mövzunu araşdırarkən şəbəklərdən istifadə etməli, biliklərini daha da zənginləşdirməlidirlər.Valideynlər isə övladlarının sosial şəbəkələrə sərf etdikləri vaxta nəzarət etməlidirlər. Həmçinin övladlarının bu şəbəkələrdən hansı istiqamətdə istifadə etdiklərinə də diqqət etməlidirlər.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Ağayev Ə.Ə, Rzayeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə. Sosial pedaqogika. Bakı, 2008
2. Gənclik mənəvi formalaşma prosesində sosial şəbəkə imkanlarından düzgün bəhrələnə bilirmi? // http://www.anl.az/down/meqale/baki_xeber/2014/may/370904.htm
3. http://ikisahil.com/post/ 119335-sosial-shebekelerin-musbetve-menfi-terefler


## TARİXDƏ ERMƏNİ SAXTAKARLIĞI


**Məmmədov Seymur**
***ADPU-nun Şamaxı filialı***
***Elmi rəhbər: baş müəllim Məmmədov Fəxrəddin***



**Açar sözlər:** "Böyük Ermənistan", etnos, tarixçilər, saxtakarlıq, dənizdən-dənizə.
**Key words:** "Great Armenia", ethnos, history, fraud, from sea to sea.
**Ключевые слова:** «Великая Армения», этнос, история, мошенничество, от моря до моря.


Tarix boyu bütün türk və müsəlman dünyası xarici düşmənlərin hücumlarına məruz qalmış, qırğınlara, fəlakətlərə düçar olmuşdur. Milli və dini mənsubiyyətlərinə görə edilən bu soyqırımlar, deportasiyalar yer

kürəsində bir qarış torpağı belə olmayan vətənsiz erməni daşnakları və onların havadarları tərəfindən törədilmişdir. Mənşəyi və tarixi keçmişi məlum olmayan bu xalq harada məskunlaşmasından asılı olmayaraq özlərini həmin torpağın sahibi kimi aparmağa adət etmişlər.

Iki əsrə yaxın müddətdə xalqımızın qanına susayan, torpağımıza göz dikən ermənilərin törətdikləri vəhşilikləri sadalamalı olsaq cild-cild kitablar yaranar. Çox təəssüf ki, belə bir hesabat aparılmadığından başımıza yeni-yeni fəlakətlər gəlmişdir. Ermənilər "dənizdən-dənizə" "Böyük Ermənistan" yaratmaq uğrunda bütün vasitələrdən istifadə etmişlər. Bu fitnə-fəsad yuvası olan millətin mənşəyi bu gün də tarixşünaslıqda tam elmi həllini tapmamışdır. Qafqaz tarixi üzrə görkəmli mütəxəssis olan Tadeyus Svyatakovski qeyd edir ki, "Zaqafqaziyada yaşayan ermənilər köklü xalq deyil, Frakiya Mesopotomiyasından azıb gəlmədirlər. Onların bir hissəsi XIX əsrdə Qafqaza İran və Türkiyədən köçürülüb. Bu yer tarixən Azərbaycan torpaqlarıdır". Bu fikri erməni tarixçisi B.İşxanyan "Qafqaz xalqları" əsərində təsdiq edir; "Antik dövürdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada – yəni Rusiyadan xeyli kənarda yerləşirdi" [2,18]. Digər erməni alimi Manuk Abeqyan 1975-ci ildə İrəvanda dərc etdirdiyi "Erməni ədəbiyyatı tarixi" əsərində ermənilərin mənşəyi ilə bağlı daha maraqlı fikir irəli sürür: "Erməni xalqının əsli nədir; necə və nə vaxt, haradan və hansı yollarla onlar İrəvan torpağına gəlib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur" [3,11-22]. Əgər erməni alimləri bu məsələdə dəqiq fikrə gəlməyiblərsə, onda hansı "Böyük Ermənistan"dan danışılır?!

Ermənilərin Ermənistan ərazisində köklü xalq olmadıqlarını sübut etmək üçün "Ermənistan" və "Ərməniyyə" anlayışlarını aydınlaşdırmaq kifayətdir. "Ermənistan" 1921-ci ildə Sovet Rusiyasının İrəvan quberniyası ərazisində təşkil etdiyi dövlətin adıdır. Ondan əvvəl "Ermənistan" adı məlum deyil [4,20]. 1588-ci və 1728-ci illərə aid türkcə arxiv sənədlərində İrəvan şəhərinin adı ilə bu ölkə müvafiq olaraq "Rəvan əyaləti" və "İrəvan əyaləti" adlanır. Əyalətin əsasında yaranmış xanlıq və Rusiyanın bu xanlıq əsasında təşkil etdiyi quberniya da İrəvan xanlığı və İrəvan quberniyası adlanırdı. "Ermənistan" adının kökünü Azərbaycan dilində "erməni" etnonimi təşkil edir. Lakin tarixən "erməni" etnonimi ermənilərin özünü adlandırması olan "hay" etnonimi ilə üst-üstə düşmür. [3,21]

Məsələ kökündən araşdırılarkən aydın olur ki, ermənilər Ermənistana gəlmədirlər. Onlar "Böyük Ermənistan" xülyası üçün öz tarixlərindən daha çox, tarixi saxtalaşdırmalarda usta olan erməni tarixçilərinə minnətdar olmalıdırlar. "Dənizdən-dənizə" "Böyük Ermənistan" yaratmaq üçün qədim türklərin məskunlaşdığı ərazilərin özlərininki olduğunu göstərirlər. Bununla belə, bəzən tarixi fakt qarşısında qalmalı olurlar. Məsələn; "Erməni xalqının mənşəyi məsələsinə dair" kitabda belə bir fikir var ki, ermənilər ya müasir Suriya ərazisindən, ya da Makedoniyadan köçmədirlər.

Bir sıra erməni tarixçiləri belə iddia edirlər ki, guya Ermənistan yaylası ta qədimdən ermənilərin yaşadığı diyardır. Guya bizim eradan əvvəl XVII-XIV əsrlərdə "hayas heroqlif yazısı" mövcud olmuşdur. Iddia edilir ki, b.e.ə. XVIII əsrin "metsamor-qiksos" – qədim erməni əlifbasından dünyanın bütün əlifbaları meydana gəlmişdir. Vanın mixi yazıya bənzər yazısı guya erməni mixi yazısıdır və onu ermənicə oxumaq lazımdır kimi, heç bir elmə əsaslanmayan tarixi saxtakarlıq edirlər (5). Bütün bu yanlış fikirlər Ermənistanın və qonşu regionların əhalisinin aborigen (ölkənin qədim yerli sakinləri) erməni mənşəli olduğunu sübut etməyə cəhddir. Tarixi fakt budur ki, erməni etnosunun vətəni Ermənistan deyildir.

Erməni müəllifləri özlərinin də etiraf etdikləri kimi, onların ən qədim özəyini Kiçik Asiyanın şimali-şərq hissəsinin əhalisi təşkil edir. Bu ölkə Armatana, sonralar isə Haysa adlanırdı [3,48]. Oradan ermənilərin əcdadları Van gölündən cənub-şərqə doğru hərəkət etmişlər. B.e.ə. VIII əsrin I yarısında Şupria-Urme və ya Arme adı ilə Urartu dövlətinə birləşdirilmişlər.

Erməni tarixçiləri tarixi saxtalaşdıraraq Erebuni qalasınının adını Yerevan adı ilə eyniləşdirirlər və onun əsasının ermənilər tərəfindən qoyulduğunu iddia edirlər. Əslində isə bu qala Urartu və erməni torpağında deyil Aza tayfalarının yaşadığı ərazidə inşa edilmişdi.

Deyilənlərdən aydın olur ki, indiki Ermənistan ərazisi erməni tarixçilərinin iddia etdiyi kimi ermənilərin deyil, türkmənşəli tayfaların yaşadığı ölkə olmuşdur. XIX əsrin əvvəllərinə qədər burada türklər aparıcı rol oynamışlar. Mənbələrdə elə bir məlumat yoxdur ki, Ermənistan ərazisində azərbaycanlılar erməniləri kəndlərindən qovub yerlərini tutsunlar. Lakin türk kəndlərində hələ orta əsrlərdə ermənilərin yaşadığı məlumdur. Bütün bunlar isə kimin gəlmə, kimin yerli olduğunu sübut edir.

Bütün bu faktlar ermənilərin erkən orta əsrlərdən başlayaraq bizim günlərə qədər davam edən yalanlarını puça çıxarır. Məlum olur ki, XIX yüzilliyin əvvəllərinə qədər dünyanın siyasi xəritəsində Ermənistan adlı bir

dövlət olmamışdır. Bu bəd xislətli millət isə tarixi saxtalaşdırmaqla məşğul olur, öz mənşələri və tarixi keçmişləri barədə dünyaya səhfv məlumatlar yayırlar. Ermənilərin bu fəallığında, "Azərbaycana qarşı ərazi iddialarında, azərbaycanlılara qarşı soyqırım, deportasiya siyasətində azəri türklərinin ürək yumşaqlığı da mühüm rol oynamışdır. Amma bir el misalını yaddan çıxarmaq olmaz: "Erməni xalqına yaxşılıq etmək olmaz, onlarla bacardığın qədər gərək ədalətsiz olasan. Nə qədər yaxşılıq etsən, o qədər qarşısındakı adama pislik etməlidir". V əsr erməni tarixçisi Moisey Xoreniskinin "Erməni tarixi" kitabındakı qeydləri dediklərimizi bir daha təsdiqləyir. "Biz "haylar" kiçik, azsaylı, zəif və çox hallarda başqalarının hakimiyyəti altında yaşayan xalq olmuşuq" [6,123].

## ƏDƏBİYYAT SİYAHISI :


1. "Azərbaycan" qəzeti. 14 dekabr. 2001-ci il.
2. B.Ə.Budaqov. Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı 1998.
3. B.İşxanyan. Qafqaz xalqları. Petroqrad. 1916
4. M.Abeqyan. Erməni ədəbiyyatı tarixi. İrəvan. 1975
5. İ.Əliyev. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı. Elm. 1989.
6. M.Xorenski. Erməni tarixi. Moskva 1893


# ADİL İSGƏNDƏROVUN TEATR PEDAQOGİKASI


**Məmmədbəyova Böyükxanım BÖYÜKAĞA qızı**
ADMİU-nun dissertantı
e-mail: bellatalibova73@gmail.com


**Açar sözlər:** Adil İsgəndərov, teatr pedaqogikası, yaradıcılıq, aktyor, rejissor, tədris teatrı.

Adil İsgəndərov Azərbaycan teatr təhsilinin elə görkəmli simalarındandır ki, zaman keçdikcə onun teatr pedaqogikasının əhəmiyyəti daha da artır. Rejissor, aktyor, teatr rəhbəri, pedaqoq kimi böyük təcrübəyə malik olan A.İsgəndərov incə sənət duyumu, teatr zövqü, bənzərsiz mühakimələri, ehtiraslı temperamenti və iti yumor hissi ilə seçilirdi. Müasirləri dəfələrlə qeyd edib ki, onun çox güclü maraqlandırmaq bacarığı var idi. O hər gün – teatrda, dərslərdə, küçədə, teatr haqqında söhbətlərdə, öz teatr təcrübəsi haqqında xatirələrini bölüşəndə - hər zaman insanları teatra cəlb edirdi. Onun teatra nə qədər istedadlı dramaturqları, rejissorları və aktyorları cəlb etdiyi hamıya məlumdur. Təsadüfi deyil ki, Azəraycan teatrı ən nüfuzlu vaxtlarını məhz A.İsgəndərovun vaxtında yaşayıb. Onun bir pedaqoq kimi də ən güclü silahı məhz maraqlandırmaq bacarığı idi.

Təcrübə göstərir ki, teatr təhsilində intellekt, dərin savad, nəzəri bilgilər kifayət etmir. Tələbənin bir aktyor-şəxsiyyət kimi yetişməsində pedaqoqun şəxsiyyəti, onun maraqlı olması, inandırmaq qabiliyyəti mühüm rol oynayır. Bir sərkərdə nə qədər dərin hərbi bilgilərə malik olsa da, ordu ona inanmasa, heç bir uğur qazana bilməz. Teatr təhsilində də eyni vəziyyətdir. A.İsgəndərovu Azərbaycan teatr pedaqogikasının ən böyük simalarından birinə çevirən nəzəri bilgilərindən, metodikasından çox onun xarakteri, insani keyfiyyətləridir.

A.İsgəndərov teatr pedaqogikasında improvizəyə böyük önəm verirdi. O, məşq prosesində də, tədris işində də improvizədən geniş istifadə edir, aktyorlarla birgə intuitiv axtarışlara böyük yer ayırırdı. Çoxları elə hesab edir ki, A.İsgəndərovun tamaşa üzərində iş zamanı və tədrisdə konkret metodu yox idi. Ancaq onun yaradıcı və pedaqoji irsini daha dərindən araşdırdıqda görürük ki, əslində, A.İsgəndərovun həm yaradıcı, həm də pedaqoji işdə rəhbər tutduğu özünəməxsus metod olub. Sadəcə, böyük rejissor aktyorları və tələbələri ağır nəzəri anlayışlarla yükləməyi sevməyib, yaradıcılıq prosesini mürəkkəbləşdirmək yox, sadələşdirmək yolunu tutub. Bəzən psevdaintellektual rejisorlar aktyoru, həmçinin tələbəni quru

nəziyyələrlə o qədər yükləyir ki, aktyor sənətinin başlıca meyarları diqqətdən kənarda qalır. Aktyor-tələbə teatr tarixini yaxşı öyrənir, nəzəriyyəçilərin adlarını əzbərdən bilir, dram nəzəriyyələrinin, müxtəlif cərəyan və üslubların hamısından xəbərdar olur, ancaq əsas məsələyə gələndə - səhnəyə çıxıb hər hansı rolu ifa etmək zamanı iqtidarsızlıq göstərir. A.İsgəndərov bunun qəti əleyhinə idi. O, tədris işində tələbə-aktyorların ilk növbədə psixotexnikaya yiyələnmələrinə - "düşünüşlü psixotexnika ilə təbiətin düşünüşaltı yaradıcılığına" çatmasına çalışırdı. A.İsgəndərova görə, teatr sənətini mahiyyətindən uzaqlaşdıran, ona yalançı mürəkkəblik gətirən hər şey bu sənətin ziyanına idi.

Öz pedaqoji fəaliyyətində A.İsgəndərov rus teatr mədəniyyətinin əsas xəttinə - psixoloji teatra sədaqətli idi. Ancaq təbii ki, A.İsgəndərov ancaq psixoloji teatrla kifayətlənmir, o dövrdə Rusiya teatrında mövcud olan müxtəlif tendensiyaları da zaman-zaman Azərbaycan teatrına tətbiq edirdi. Ancaq A.İsgəndərovun teatrını Rusiya teatr mədəniyyətində mövcud olan hər hansı teatr üslubu ilə müqayisə etmək düzgün deyil. Çünki A.İsgəndərovun teatr görüşləri Rusiya teatr məktəbinin təsiri ilə formalaşsa da, onun yaratdığı teatr məhz Azərbaycan teatrı idi, azərbaycanlının teatrı idi. O, hesab edirdi ki, teatr sənəti zamanından qopa, içində olduğu zamanı nəzərə almaya bilməz. Görkəmli rejissor tələbələrinə də həmişə zamana qarşı həss olmağı, zamanla yanaşı addımlamağı tövsiyə edirdi. A.İsgəndərovu tamaşaları, o cümlədən tədris teatrındakı işləri, "hamımızdan böyük" incəsənətə xidmət etməklə yanaşı, həm də kütlə ünvanlı idi. Onun tamaşaları ilə zaman arasında heç bir konfrantasiyadan söhbət gedə bilməzdi. Belə olmasaydı, onun hazırladığı tamaşalar Azərbaycan teatrının ən tələb olunan, ən sevimli və uzunömürlü tamaşaları ola bilməzdi.

A.İsgəndərov üçün səhnə sənətində ən önəmli fiqur K.S.Stanislavski idi. Həm səhnə fəaliyyətində, həm də pedaqoji işində A.İsgəndərov Stanislavski irsinin təbliğatçılarından biri kimi tanınmışdı. O, gələcəyin aktyoru olacaq tələbələrinə deyirdi ki, Stanislavki irsi bizim teatr fəaliyyətimizin əsasında dayanır. O, bizim hamımızın müəllimidir. Stanislavski sistemi olmadan bu gün teatrda işləmək mümkün deyil. Tələbələrini Stanislavski sisteminin əsas şərtləri və prinsipləri ilə tanış edən rejissor onlarda psixoloji teatra maraq oyadırdı. O, Stanislavskinin ideyalarını rəhbər tutaraq, elə hesab edirdi ki, tələbə-aktyorun istedadı məhz başqalaşma prosesində üzə çıxır. Tələbələrinə məhz bunu öyrədən rejissorun 40 illik pedaqoji fəaliyyəti dövründə onun tələbəsi olmuş aktyorlar məhz başqalaşma sənətinə xüsusi önəm verir, hər tamaşada özlərində nə isə yeni bir cəhət aşkarlamağa çalışırdılar.

İncəsənət İnstitutundakı işi A.İsgəndərova öz tələbələrini yetişdirmək və uzun illər rəhbərlik etdiyi Akademik teatr üçün kadr yetişdirmək imkanı verirdi. O, əmin idi ki, teatr təhsili ancaq Universitetdəki məşğələlərlə yekunlaşa bilməz. Ona görə də rejissorun bütün tələbələri Tədris teatrında hazırlanan tamaşalarda müntəzəm surətdə çıxış edirdilər. Hətta rejissor ən istedadlı tələbələrinin Akademik teatrın tamaşalarında da epizodik rollarda çıxış etməsinə şərait yaradır, onların böyük səhnədə oynamasını, peşəkar aktyorlarla tərəf-müabil olmasını, iş prosesində tələbələrin böyük sənətkarlardan səhnə sənətinin sirlərini öyrənməsini gərəkli hesab edirdi. Məhz böyük səhnədəki çıxışlarında, məşqlərdə onlar öz müəllimlərinin rol üzərində necə işlədiyini müşahidə edir və A.İsgəndərovun iş metodunu tam olaraq dərk edirdilər. Məhz teatrda, o cümlədən tədris teatrının tamaşalarında tələbələr tamaşa hazırlığı prosesini mərhələli şəkildə öyrənərək, aktyor kimi yetişirdilər.

Pedaqogika ikitərəfli prosesdir. A.İsgəndərov tələbələrinə bütün gücünü, enerjisini verir, dəyərli vaxtını onlardan əsirgəmirdi, sənətkarın bu zəhməti cavabsız qalmır, tələbələri ona qarşı böyük hörmət və səmimi məhəbbət hissləri bəsləyirdilər. Onun həyat dərsləri və yaradıcılıq dərsləri bir-birinin içində ərimişdi. A.İsgəndərov sanki pedaqogikada hipnoz qabiliyyətinə malik idi. O, çox asanlıqla auditoriyanı ələ alır, tələbələrin rəğbətini qazanır və onların gözündə şəriksiz avtoritetə çevrilirdi. O, dərs zamanı rejissorun və aktyorun pyes üzərində işinin əsas mərhələlərini nəzərdən keçirir və "pyesin əməli təhlili", "rolun partiturasının qurulması" və s. bu kimi anlayışlara özünəməxsus şəkildə aydınlıq gətirirdi. O, tələbələrə müraciət edərək deyirdi ki, əməli təhlil tamaşa hazırlığı prosesində olduqca mühüm əhəmiyyət kəsb edir.

A.İsgəndərovun pyesin analizi zamanı əməl məntiqini çox gözəl qurmaq bacarığı var idi və ən əsası, o tələbələrlə və analitik iş zamanı mühüm nəticələrə gələ bilirdi. Onun iş üslubu materiala ən dərin nöqtələrinə qədər nüfüz etmək, detalların dəqiq müəyyən edilməsi (fərqləndirilməsi), bütün ifadə vasitələrinin vahid həllə yönəldilməsi idi. Onun həm bir rejissor kimi yaradıcı üslubu, həm də pedaqoji metodu elə idi ki, o, qəhrəman haqqında təsəvvürlərdən yox, onun əməl məntiqindən çıxış edirdi.

A.İsgəndərov Stanislavski sisteminin "ali məqsəd", "ikinci plan", "qarşılıqlı hərəkət", "pyesin nüvəsi", "obrazın nüvəsi" kimi elementlərindən faydalanırdı. Dərs zamanı "Stanislavski sistemi" ifadəsini o qədər də sıx-sıx işlətməsə də, rejissor bu sistemin mahiyyətini təşkil edən elementlərin hər birini tələbələrinə izah edir və istəyirdi ki, tələbələr bu elementləri bilavasitə öz təcrübi fəaliyyətlərində sınaqdan keçirərək hiss etsinlər. Görkəmli pedaoqun işinin əsas məqsələrindən biri o idi ki, tələbələri hansısa sistemin, yaxud təlimin prsinsiplərini mexaniki şəkildə əzbərləməsinlər, teatrla, aktyor sənəti ilə bağlı prinsip və şərtləri özləri "kəşf etsinlər".

Pedaqoji fəaliyyəti zamanı qarşısına çox yüksək meyarlar qoyduğuna, əsl sənət əsəri yaratmağa qadir olan tələbələr yetişdirmək məqsədinə doğru getdiyinə görə A.İsgəndərovun pedaqoji irsi yalnız öz yaşadığı dövr üçün yox, elə bu günün özündə də olduqca aktual mahiyyət kəsb edir. Belə demək mümkünsə, A.İsgəndərovun pedaqogikası bu günə yox, gələcəyə yönəlib. A.İsgəndərov bənzərsiz rejissurası ilə Azərbaycan teatrında "Adil İsgəndərov teatrı" adlandırılan yeni bir məktəb yaratdığı kimi, teatr pedaqagikasında da məktəb içrə özünəməxsus bir məktəbin əsasını qoydu. Onun teatr pedaqogikasında yaratdığı yeni məktəbin orientirləri günümüzün baxım bucağından daha aydın görünür. Bu orientirlər dahi rejissor haqqında yazılan monopqrafiyalarda, məqalələrdə, müsahibələrdə, həmçinin onun tələbələrinin yaradıcılığında özünü göstərir. Biz bu gün A.İsgəndərovun həm teatr praktikasında, həm də teatr təhsilində əsasını qoyduğu ənənələri yaşatmaq barədə düşünməyə, onun pedaqoji irsinin qorunmasının qeydinə qalmaya bilmərik. Çünki Azərbaycanda teatr təhsilinin peşəkar əsaslar üzərində qurulmasında, eləcə də Tədris teatrının inkişafında görkəmli rejissor, pedaqoq, SSRİ xalq artisti Adil İsgəndərovun xidmətləri danılmazdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. İsgəndərov A. Teatr və dramaturgiyanın qarşılıqlı əlaqəsi // Vətən uğrunda, 1946, N 2.
2. İsrafilov İ.R. Adil İsgəndərovun teatrı. Bakı: Mars-Print, 2001, 208 s.
3. Sultanov F. Azərbaycanda teatr təhsili. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1995, 114 s.
4. Завадский Ю. А. Об искусстве театра / Предисл. П. А. Маркова. М.: ВТО, 1965. 347 с., с. 43
5. Станиславский К.С. Собрание сочинений: в 8 т. / К.С. Станиславский. – М.: Искусство, 1958-1961. – Т.6. С. 288


# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ÜNSİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ


**Mərdanova Günay**
***ADPU-nun Şamaxı filialı***
***Elmi rəhbər: Əfəndiyeva Teybə***



**Açar sözlər:** uşaq, oyun, ünsiyyət, inkişaf.
**Key words:** child, game, development, communication.
**Ключевые слова:** рабенок, коммуникация, игра, разработка.


Uşağın inkişafında, o cümlədən şəxsiyyətin formalaşmasında ünsiyyət mühüm rol oynayır, nəinki uşaqlar, hətta böyük adamlar da uzun müddət tənha qaldıqda, ünsiyyətdə olmadıqda, insanlardan təcrid şəraitində yaşadıqda onların psixikasında dəyişiklik, sarsıntı baş verir. Ünsiyyət zamanı isə uşaqlar bir-birinə qarşılıqlı təsir göstərir, əlaqəyə girir, əməkdaşlıq edir və bir-birini anlayıb başa düşürlər. Ünsiyyət zamanı o, özünün və başqalarının hərəkətlərini, rəftarını təhlil etməyi öyrənir, sosial psixoloji təcrübəyə yiyələnir, mənəvi cəhətdən zənginləşir, onda psixi sağlamlıq, xoş əhval yaranır. [1,170]

Həyatının ilk illərindən uşağın sosial və emosional cəhətdən inkişafının onun şəxsiyyətinin inkişafına böyük təsiri vardır. Emosional inkişaf dedikdə isə uşağın başqalarının hislərini başa düşməsi, öz hislərini düzgün ifadə etməsi və hislərini tənzimləməsi başa düşülür.

Erkən uşaqlıqda olduğu kimi, 3-5, yaşlarında da hislər uşağın həyatının bütün cəhətlərinə hökmranlıq edir, onlara özünəməxsus çalar və ifadəlilik verir. Uşaq bu yaşda onu əhatə edən aləmin onda yaratdığı

təəssüratları idarə edə bilmir və demək olar ki, həmişə ona hakim kəsilən hislərin əsiri olur. Bütün uşaqlar fərdi xüsusiyyətlərə malikdir, onların təcrübəsi isə dünyanın, ətraf aləmin dərkini şərtləndirir. [2,7]

Həyatının ikinci ilində uşağın nitqi, təqlidetmə bacarığı inkişaf edir, lüğət ehtiyatı təxminən 300 sözü əhatə edir. Uşaqlar ismin cəm şəklini, bəzi hallarını, keçmiş və gələcək zamanları az-çox düzgün işlətməyə başlayırlar. Uşağın fəal emosional nitqinin inkişaf etməsi onun dərketmə qabiliyyətinin, müstəqilliyinin və təşəbbüskarlığının təkmilləşməsi üçün əlverişli şərait yaradır. Uşaq ətraf aləm haqqında təcrübi biliklərə, əsasən, oyun prosesində yiyələnir. Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir.

-Uşağa ünsiyyət yollarını göstərmək və onları təkrarlamağa həvəsləndirmək;

-İnsanların davranışını və insanların bir-biri ilə nə üçün ünsiyyət saxladıqlarını izah etmək;

-Ünsiyyətə maraq və müsbət emosiyalar yaratmaq.

Bu dövrdə fiziki inkişafın intensivliyi azalsa da, ətrafdakılarla münasibətdə əsaslı dönüş baş verir. Fəaliyyətlərin müxtəlifliyindən və məşğələlərin xarakterindən asılı olaraq, onlar nitq fəaliyyətinin müxtəlif formalarına cəlb olunurlar. Əvvəlki yaş dövrlərinə nisbətən ətrafdakılarla canlı ünsiyyətə-dialoqa girir, danışanı dinləməyə, eşitdiklərini başa düşməyə, sual verməyə, "bu nədir"?, "nə vaxt"?, "harada"?, "nə üçün"? suallarına cavab verməyə çalışır. Erkən yaşlı uşaqlar tərbiyəçi-müəllimlərin nəzarəti ilə sosial mühitə uyğunlaşmağı, başqaları ilə qarşılıqlı əlaqə qurmağı və ünsiyyətdə olmağı öyrənirlər. Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir.

- Təhlükəsiz ünsiyyət dairəsinin genişləndirilməsi, qarşılıqlı fəaliyyətdən qarşılıqlı fəaliyyətə keçid;

- Emosional-işgüzar ünsiyyətin tələbatına uyğun olaraq uşağın müraciətinə cavabın təşkili;

- Ətraf mühit barədə danışmaq xahişinin dəstəklənməsi və cavablandırılması. Digər uşaqlarla ünsiyyət qurmaqda uşağa yardım etmək.

- Ünsiyyət prosesində müsbət emosiyaların yaranması üçün şəraitin yaradılması. Böyüklərin və uşaqların müsbət nümunələrinin təqlid edilməsi istəyinin dəstəklənməsi. [4,40-42]

Ümumiyyətlə, 1-3 yaş dövrlərində nitqin təşəkkülü və əyani-əməli təfəkkürün formalaşması və başlanması dövrüdür. Uşaqda ilk dəfə "mən", "mən özüm" kimi şüurlu təzahürlər meydana çıxır. Uşaq daha hərəkətli və müstəqil olur. Bu da böyüklərdən onun təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirilməsini tələb edir.Uşağın tanış böyüklər və yaşıdları hesabına ünsiyyət dairəsi genişlənir. Ünsiyyət, əşyavi-manipulyativ fəaliyyətlər; uşağın dili fəal mənimsəməsinə aparır və onu oyuna hazırlayır. Əşyalarla fəaliyyətin təsiri altında ünsiyyət və oyun zamanı uşaqlarda təfəkkür, yaddaş, duyğu və digər idraki proseslər inkişaf edir.[4,7]

Üç-beş yaşında uşağın yaşlılarla ünsiyyəti qeyri-formal şəraitdə ətraf aləmlə qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsinə yönəldilmiş idrak fəaliyyətində həyata keçirilir. Psixoloji tədqiqatlar göstərir ki, uşağın idrak inkişafı artdıqca o, yaşlılarla qarşılıqlı münasibətdə cisim və hadisə haqqında birgə fikir mübadiləsi etməyə səy göstərir.Belə ünsiyyət forması istər orta, istərsə də yuxarı məktəbəqədər yaşlı uşaqlar üçün səciyyəvi xarakter daşıyır. Uşaqda yaşlı tərəfindən onun rəftar və davranışına, şəxsiyyətinə, mənliyinə verilən qiymətə ciddi tələbat oyanır.

Altı yaşlı uşaqlarda ünsiyyət şəxsi xarakter daşımağa başlayır. Bu ünsiyyət forması tamamilə müstəqil olub, kommunikativ fəaliyyət şəklində həyata keçirilir. Şəxsi ünsiyyət şəxsi motivlər, oyun, əmək idrak fəaliyyəti əsasında təşəkkül tapır. Həm də bu ünsiyyət forması uşaq üçün daha çox həyati əhəmiyyət kəsb edir. Belə ki, o özünü, başqa adamları və insanlar arasındakı qarşılıqlı münasibətləri dərk etməyə imkan tapır. Əlbəttə, bu da öz növbəsində uşağın psixolji baxımdan məktəbə hazırlanmasında ən mühüm şərtlərdən biridir. [1,171]

3-6 yaş dövrlərində kommunikativ bacarıqlar nail olmaq uşağın sosial davranışını yaxşılaşdırır:digərini başa düşüb qəbul etməyə, məlumat verməyə, hislərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır. Bu yaş mərhələsində nəinki bütün uşaqlar üçün ümumi olan xarakter cizgiləri, həm də xüsusi, fərdi psixi və davranış xüsusiyyətlərinin açılmasına və inkişafına nail olunur.

Məktəbəqədər dövrdə "uşaq-uşaq", "Tərbiyəçi-müəllim-uşaq", "valideyn-tərbiyəçi-müəllim" münasibətlərinin, eləcə də kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılır. Bu zaman psixologiya, pedaqogika, sosiologiya və digər elmlərin nailiyyətlərinə yiyələnmək zəruri hesab olunur. [4, 8-9]

Uşaqların ünsiyyəti nitq vasitəsilə qurulur, buna görə də uşağın nitqinin inkişafına təsir edən əsas amillərdən biri də oyundur. Oyunun sözlə müşayiət olunması, hərəkətlərin sözlə ifadə edilməsi, obrazların yaradılması, uşaqların lüğət tərkibinin zənginləşməsinə kömək edir. Xüsusilə kollektiv oyun zamanı sözün ünsiyyət vasitəsi, hərəkətlərin razılaşdırılması və oyunlar arasında qarşılıqlı razılıq faktoruna çevirilir.[5, 24]

Oyun zamanı uşaqda şəxsiyyətin formalaşması, sosiallaşması gedir. Uşaqların öz aralarında ünsiyyət və əməkdaşlıq qurmalarına oyunlar əvəzsiz kömək edir. 4,5 yaşında uşaq tək oyunlardan çox qrupla təşkil olunmuş oyunlara keçid alır. Onlara artıq manipulyativ oyunlardan çox süjetli, rollu oyunlar maraqlı maraqlı gəlir. Süjetli rollu oyunların müsbət cəhəti yetişkinlərlə ünsiyyət qurmaq, həyatı başa düşmək, ətrafdakıları təqlid etmək kimi xüsusiyyətləri inkişaf etdirir.[3,11]

Ünsiyyət zamanı ünsiyyətə girməkdə çətinlik çəkən uşaqlar var. Bu problemi yaradan əsas səbəb ailədən gələn yanlış tərbiyəvi mühitdir. Məsələn: Ailədə valideynlər arasında uşaqların tərbiyəsində vahid tələbin olmaması, valideynlərin davranışında uşağa mənfi təsir edəcək qüsurların mövcudluğu buna səbəb olur. Bu cür uşaqlar özlərini kollektivdə sərbəst apara bilmirlər, şıltaq və əsəbi olurlar. Bu problemləri aradan qaldırmaq üçün davranışında və şəxsiyyətinin inkişafında qüsurları olan şagirdləri dərindən öyrənmək və həmin uşağın kollektivə alışmasına kömək göstərmək lazımdır. [1,287-288]

Uşağın inkişafında ailədaxili ünsiyyət, həmçinin yaşlılarla, həmkarları ilə ünsiyyət mühüm rol oynayır. Uşaq ata-ana ilə ünsiyyətdə formalaşıb ərsəyə çatır və onun bir şəxsiyyət kimi inkişafının özülü bəzən həmin söhbətlərlə qoyulur. Valideynlə ünsiyyətdə uşaq təbiət və cəmiyyət haqqında müəyyən biliklərə yiyələnir, özünü, başqa adamları qiymətləndirməyi öyrənir. Uşaq ailədaxili ünsiyyətlə məhdudlaşmır, tez-tez ailədənkənar ünsiyyətdə də olur. Məsələn; qonaqlıqda, gəzintidə, asudə vaxtda, yaxud müxtəlif oyunlarda olan ünsiyyət uşağın inkişafını sürətləndirir.

Uşaq ünsiyyətinin mühüm bir forması söhbətdir. Müxtəlif mövzularda aparılan söhbətlərdə uşaq yoldaşı, dostu ilə ünsiyyət saxlayır və tədricən uşaqda ünsiyyət mədəniyyəti formalaşır, nitq zənginləşir. Uşaq ünsiyyət zamanı nitqin monoloji və dialoji formasından istifadə edərək onun dünyagörüşü formalaşmağa başlayır. [1,170]

Səmərəli ünsiyyət insanın özünə və ünsiyyət qurduğu insanlara müsbət münasibətdən başlayır. Şəxsiyyətlərarası münasibətlərdə çox sayda ünsiyyətqurma yolları var və onların hər biri müsahibinə müxtəlif təsir göstərir.

1. “Mən yaxşıyam, sən pissən”. Belə münasibətlər əsəbi mühit yaradır və insanları bir-birindən ayırır. Aşağıdakı formalarda təzahür edən bu ünsiyyət yolu qeyri-səmərəlidir.”Mən sənin üçün hər şey edirəm, bəs sən”..., “Sən naşükürsən”. Belə münasibətlər uşağı alçaldır və heç bir müsbət nəticəyə gətirmir.

2. “Mən pisəm, sən yaxşısan”. Belə ünsiyyət adekvat özünü qiymətləndirmənin olmamasını göstərir və həmsöhbəti zalım, zülmkar vəziyyətinə qoyur. Bu vəziyyət mənfi xarakter daşıyır və əməkdaşlıq etməkdən çəkindirir. “Mənim vaxtımda sənin qədər imkanlarım yox idi”, “Sən belə rahat olasan deyə mən həyatda çox şeydən imtina etmişəm” ifadələri yaxşı nəticəyə gətirmir. “Mən pisəm, sən də pissən”-münasibətləri destruktivdir. “Mən bu dünyada nə gün gördüm ki, sən də gün görəsən...” ifadələri uşaqlarda inamsızlıq, depressiya, bədgümanlıq formalaşdırır. “Mən yaxşıyam sən də yaxşısan”-ünsiyyət forması həmsöhbətlər arasında bərabərhüquqlu münasibət yaradır.”Mən səndən razıyam...”, “Sən mənə çox kömək etdin, sənsiz mən bacarmazdım” ifadələri müsbət atmosfer yaradır.[3,93]

Uşaq şəxsiyyətinin inkişafında pedaqoji ünsiyyət (müəllimlərlə, tərbiyəçilərlə ünsiyyət) daha böyük əhəmiyyətə malikdir. Uşaq qruplarında ünsiyyətin əsas forması dialoqdur. Kollektivdə qarşılıqlı xarakter daşıyan bu ünsiyyət zamanı uşaqda mənlik və əxlaq şüuru formalaşır. [1,171]

Məktəbəqədər müəssisələrə getməyən uşaqların vəziyyətini nəzərə alsaq, onların məktəbə uyğunlaşması daha çətin və əziyyətlidir. Çünki uşaqlar ünsiyyətdə olmur, kollektivdə özünü necə aparmağın yollarını bilmirlər. Çünki uşaqlar ilk öncə məktəbdə kollektivə; müxtəlif inkişaf səviyyəli uşaqlar arasına daxil olacaqlar. Buna görə də vəsaitdə uşaqların uyğunlaşdırma dövrünü yüngülləşdirmək və asanlaşdırmaq üçün işlərin oyunla aparılmasının zəruriliyi bildirilib. Nəyə görə məhz oyun şəklində? Oyun bu yaş dövründə insanın bütün sonrakı həyatı üçün lazım olan düşünmək, ünsiyyətə girmək, davranışı idarə edə bilmək üçün əsas şərtdir. Oyun vasitəsilə uşaqlar onları əhatə edən əşyaları istifadə etməyi, insan

münasibətlərini öz həmyaşıdları ilə ünsiyyət qurmağı öyrənirlər. Həmyaşıdları arasında uşaq daha tez onu əhatə edən mühitə uyğunlaşır, özünə dost taparaq onunla fikirlərini, maraqlarını bölüşür.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Əzizov Qulam Psixologiya Bakı-2016
2. İcma əsaslı məktəbəqədər təhsil proqramı
3. Məktəbəhazırlıq qrupunda işin təşkili metodikası: Bakı-2017
4. Məktəbəqədər Təhsilin Kurikulumu: Bakı-2017
5. Rüfət Hüseynzadə məktəbəqədər pedaqogika fənni üzrə proqram: Bakı-2013
6. Uşaq psixologiyası: Bakı-2014


# AZƏRBAYCANDA MAKULATURA SƏNAYESİ


**Mirzəyeva Gülarə Arif**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***Elmi rəhbər: Sadıqov Ramil***
***mirzeligulnare@gmail.com***



**Açar sözlər:** Ağac, kombinat, qutu, tullantı, poliqon, karton, qablaşdırma.
**Keywords:** Wood, factory, box, waste, landfill, cardboard, packaging.
**Ключевые слова:** Дерево, завод, ящик, отходы, полигон, картон, упаковка.


Gündəlik həyatımızın ayrılmaz parçasına çevrilən kağız tullantılar ətraf mühiti çirkləndirmə dərəcəsinə görə 3 cü yerdə dayanır. İstehsal olunan kağız məhsullarına görə isə dünyada 42% meşə qırılır. 1 ağac isə orta hesabla il ərzində 4 nəfərlik ailənin oksigen ehtiyyatı deməkdir. Meşələri qorumaq və ətraf mühitin vəziyyətinə nəzarət etmək məqsədilə kağız tullantıların təkrar emalı günümüzdə aktual məsələlərdən biridir. Kağız tullantıların təkrar emalı makulatura adlanır və digər ölkələrdə olduğu kimi respublikamızda da bu sahədə son illər ciddi irəliləyişlərə nail olunub.Aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1 ton kağız istehsal edən zaman təxminən 17 şam ağacı kəsilir ki, bu da bəşəriyyətin ağ ciyərləri olan meşələrin məhvi deməkdir. 1 gün ərzində dünyada istehsal edilən kağız miqdarı təxminən 1 milyon tona yaxındır. Bu qədər kağızın emalı zamanı isə kəsilən ağacları təsəvvür etmək heçdə çətin olmur. Ağacların kəsilməsi oksigen çatışmazlığına bu isə öz növbəsində qlobal istiləşməyə səbəb olur. Həmçinin kağız istehsalı zamanı xlor tərkibli ağardıcılardan, dioksinlərdən istifadə olunur, kağızın çürüməsi zamanı isə karbon qazından 25 dəfə artıq zəhərlilik xüsusiyyətinə malik olan metan qazı yaranır. 1 kiloqram kağız istehsalı zamanı 324 litr su sərf olunur ki, buda həddindən artıq yüksək göstəricidir. Bu dediklərimizdən belə aydın olur ki, 1 ton kağızı yenidən emal edən zaman 324000 litr su və 17 ağaca qənaət etmiş oluruq. Təkrar emal zamanı daha az enerji və su sərf olunur. Yenidən emalla həm ətraf mühiti qorumuş oluruq, həm də iqtisadi cəhətdən fayda əldə edirik. [1, 5]

Azərbaycanda kağız tullantıların emalı ilə məşğul olan ilk sənaye müəssisəsi 2013-cü ildən fəaliyyətə başlayan, Azərsun Sənaye Parkı ərazisində yerləşən Təkrar Kağız Emalı Fabrikidir. Bütün ölkə ərazisindən toplanmış kağız tullantılar təkrar emal edilərək yenidən istifadəyə verilir. İllik istehsal gücü 50000 ton olan Kağız və Karton İstehsalı Kombinatı MMC 100-ə yaxın kağız toplama müəssisələrindən makulatura toplayaraq, yenidən istehsala verilir. Kombinat müasir avadanlıqlarla təmin edilib. Burada həmçinin tullantı sular təmizlənərək təkrar istifadəyə verilir. Fabrik İSO 9001-2008 və İSO/İEC 17025 sertifikatlarına layiq görülüb. Müəssisədə fluting, test liner, kraft liner, ağ liner kimi məhsullar istehsal olunur. Respublika ərazisində 26 rayonda kağız emalı müəssisəsi var. Bundan əlavə müəssisəyə təhvil verilən hər ton kağıza görə 65 manat pul ödənilir. Əgər səyyar şəkildə qəbul edilsə bu rəqəm 50 manat kimi dəyişir. Balaxanı Bərk Məişət Tullantılarının Zərərsizləşdirilməsi Poliqonunda il ərzində yığılan bütün kağız tullantıları da emal üçün sözü gedən kombinata verilir. Həmçinin ASAN Xidmət -lə əməkdaşlıq təmin olunub,

vətəndaşlar kağız tullantıları təkrar emala göndərmək üçün ASAN Xidmət mərkəzlərinə müraciət edə bilərlər. Tullantı kağızın dəyəri həmçinin onun keyfiyyətindən asılı olaraq qiymətləndirilir. Ağ qalın kağız daha keyfiyyətli olur və ona görə daha çox ödəniş olunur. [1, 2, 3]

Bəs təkrar emal necə gedir? İstənilən kağız məhsulu kənar maddələr və pulpadan ibarətdir. Emal zamanı kənar maddələr çıxarılaraq saf pulpa alınır. Emalın ilk mərhələsində kağız tullantılar sıralanır və xarici əşyalardan təmizlənir. Sonra xammal böyük qarışdırıcıya bənzəyən cihaza yerləşdirilir, üzərinə su əlavə olunaraq əzik kütlə halına salınır. Bu zaman liflərdə şişmə baş verir artıqlardan təmizlənir. Bu üsulla təkrar emaldan alınan kağızdan yumurta qabları və karton istehsal olunur. Növbəti mərhələdə isə daha dərin təmizlənmə həyata keçirilir. Bu zaman titrəyən ələkdən istifadə olunur və daha keyfiyyətli karton materiallar alınır. Keyfiyyətli kağız almaq üçün isə əlavə kompanentlərdən istifadə olunur. [1, 4]

Nəticə olaraq bir daha qeyd edək ki, kağız tullantıları yenidən emal etməklə biz təbii sərvətlərə qənaət etmiş oluruq, poliqonların sayı azalır, zibildən qazanc əldə edə bilirik, iqtisadi cəhətdən sərərlədir, ən əsası ətraf mühiti qorumuş oluruq. Bunun üçün hər birimiz məsuliyyət daşıyırıq. Əhali arasında maarifləndirmə işləri həyata keçirməli, onlara makulatura barədə məlumat verərək kağızı yararsız hala salıb, yandırmaq əvəzinə təkrar toplama məntəqələrinə təhvil verərək daha yararlı bir iş görmüş olacaqlarını aşılamalıyıq. Burada xüsusi yük tədris müəssisələlərinin üzərinə düşür, çünki kiçik yaşlarından uşaqları maarifləndirmək, həm də gələcəyə atılmış uğurlu addımdır.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Azərbaycan Kağız və Karton İstehsalı Kombinatı, https://akkik.az/public/ kagiz-tekrar-emali-muessisesi.
2. https://asan.gov.az/az/media/press-releases/ her-kagizi-bir-yarpaga-deyisek-layihesine-start-verilib
3. Təmiz Şəhər ASC, https://tamizshahar.az/
4. Spargen R. Dünyanın ensiklopediyası. Ekologiya – M.: Rosmen, 1997
5. https://az.hydroponicsbc.com/8221-how-is-cardboard-and-paper-recycled-waste-paper.html


## “IRK BITIG” ABİDƏSİNDƏ İŞLƏNƏN ZOONİMLƏRƏ BİR BAXIŞ


**Mollazadə Afət Tofiq qızı**
***Bakı Dövlət Universiteti***
***Elmi rəhbər: f.ü.f.d.dos Abdullayeva Qızılgül***



**Açar sözlər:** Irk Bitig, göy türk yazılı abidələri, qədim uyğur dili, zoonimlər, müqayisə.
**Key words:** Irk Bitig, Turkish written monuments, ancient Uyghur language, zoonyms, compare.
**Ключевые слова:** Ирк Битиг, Турецкие письменные памятники, древний уйгурский язык, зоонимы, сравнивать.


“Irk bitig”, həm də “Falnamə” adı ilə türkoloji ədəbiyyatlarda adı keçən bu kitab göytürk əlifbası qədim uyğur dilində kağız üzərində yazılmışdır. “Kül tigin”, “Bilgə kağan”, “Tonyukuk” kimi Göktürk yazılı abidələrinin həm tarixi, həm filoloji, də etnoqrafik təhlilə cəlb olunması və öyrənilməsi türkologiya üçün vacib sahələrdən olduğu kimi, “Irk Bitig” abidəsinin də filoloji tədqiqata cəlb olunmasının türkologiyaya qazandıracağı elmi biliklərin önəmini xatırladaraq qeyd etmək gərəkdir. “Irk Bitig” özlüyündə maraqlı abidədir, çünki digər yazılı abidələrdən fərqli olaraq bu kağız üzərində tam şəkildə gəlib çatmış ilk əsərdir və əsərin məzmunu digər yazılı abidələrinkindən fərqlənir. Bu əsər bir fal kitabıdır. Əgər digər yazılı abidələr daha çox tarixin izlərini daşıyıb etnoqrafik səciyyə daşıyırsa, “Irk Bitig”-dən türklərin həyat və məişətinin izlərinə, gündəlik yaşam və inanclarına aid daha çox materiallar toplamaq olar.

Abidə özündə topladığı leksik qatın müxtəlifliyi ilə fərqlənir. Bu leksik qata daxil olan və intensiv işlənmə tezliyinə sahib olan bir kateqoriya da zoonimlərdir. Məlum olduğu kimi gününü döyüşlərdə at

üstündə keçirən türkün ən yaxın silahdaşlarından biri atdır, bununla belə qoyun oturaq həyatın bir parçası olduğu kimi, duxa türklərinin bu gün belə maral təsərrüfatını saxladıqlarını bilik. Deməli, heyvan kultu maddi və mədəni həyatın daim bir parçası olmuşdur. Bunun sübutlarından biri kimi türklərin on iki heyvanlı təqvimini də göstərmək olar. Bu məqalənin yazılmasındakı məqsəd "Irk Bitig" abidəsində adı keçən heyvan isimlərinə nəzər yetirmək və onların müqasiəli təhlilini aparmaqdır.

Toğan. Şahin mənasını bildirən bu leksik vahidə abidədə üç dəfə rast gəlinir: Örüŋ əsri toğan kuş mən, çıntan ıġıç üzə olurıpan, məŋiləyür mən. IB,6/ Parlaq xalxal şahin quşam, səndəl ağacı üstündə oturub zövq alıram. Bu leksik vahida daha sonrakı ümümtürk yazılı abidələrindən "Kitabi Dədə-Qorqud"un lüğət fondunda "toğan/qızıl quş, şahin" formasında, "Divanü-lüğat-it-türk" əsərində isə "toğrıl" deyə qeyd olunduğuna rast gəlirik. Əbülfəz Rəcəbli isə bu sözü "Qədim Türkcə Azərbaycanca lüğət"inə daxil etmişdir. Belə demək olar ki, "toğan/doğan" sözü əski türklərdə "şığıyan, hücüm edən" mənalarında işlənmişdirki, bu da eyniadlı quşa məxsus xarakterik xüsusiyyətlərdir, daha sonra fars mənşəli şahin sözünün dilə daxil olması ilə "toğan/ doğan" sözü dildən çıxmışdır.

Bununla belə, "Irk Bitig" abidəsinin başqa bir sətrində yalnız bir yerdə Talım kara kuş/yırtıcı qara quş ifadəsinə rast gəlirik: Toğan ügüz kuşı kuşayı barmış utru talım kara kuş kopupan barmış, -tir" IB,66/Doğan çay quşu ova getmiş, yırtıcı qara quş uçub getmiş, deyir. Talat Təkin bu sətrin qarşılığını belə qeyd edir: Bir şahin su kuşu avlamaya gitmiş. Yırtıcı bir kartal yerinden uçup karşısına çıkmış, -der.(10,31) Başqa bir sətirdə kəkük sözünə rast gəlirik: Oğlan. Kərkük təzkin bultı, çuk tin kutluğ bolzun, -tir" IB,35/Oğlan qu quşu lələyi tapdı, kaş ki xoşbəxt olsun, -deyir. Lakin biz qu quşu mənasında başqa bir sətirdə başqa bir vahidə rast gəlirik: Ər sükə barmış, yolta atı armış ər koğu kuş ka sokuşmuş koğu kuş kanatına utıp(an a)nın kalıyu barıpan öginə, kaŋına təkürmiş, ögi, kaŋı ögirər, sebinür, -tir. IB,53/ Ər qoşuna getmiş, yolda atı xəstələnmiş, ər qu quşu ilə qarşılaşmış, qu quşu qanadına vurub onunla yuxarıya qalxaraq, anasına, atasına çatdırmış.

"Irk Bitig" abidəsinin lüğət tərkibində keçən heyvan adlarından biri təbə sözüdür. Təbə sözü abidədə iki dəfə işlənmişdir: Təbəsiŋəri barmış örüŋ inkəni butulamış altun budluğuğ buğralığ yarağay. IB,8 /Dəvələrinə tərəf getmiş. Parlaq mayası erkək balalamış, qızıl budlu buğralığa yarayar. Abidənin başqa bir yerində isə buğra sözünə iki dəfə rast gəlirik. Buğra "erkək dəvə" deməkdir. Təbəsiŋəri barmış örüŋ inkəni butulamış altun budluğuğ buğralığ yarağay. IB,8 /Dəvələrinə tərəf getmiş. Parlaq mayası erkək balalamış, qızıl budlu buğralığa yarayar. Mahmut Kaşğarı dəvə sözünü tərtib etdiyi "Divanü-lüğat-it-türk" əsərində oğuzların dilində "dəvəy" kimi işləndiyini qeyd etmişdir. Ərəblərin "səhra gəmisi" adlandırdıqları dəvə digər türk dillərində dəvəy, tevey, teve, tive, dive, töve və tebe şəkillərində işlənməkdədir. (14) Bu da həmin sözün orijinal türk sözü olduğunu bildirir. Abidədə, həmçinin dişi dəvə mənasında inkeni sözü də bir dəfə işlənmişdir: Təbəsiŋəri barmış örüŋ inkəni butulamış altun budluğuğ buğralığ yarağay. IB,8 /Dəvələrinə tərəf getmiş. Parlaq mayası erkək balalamış, qızıl budlu buğralığa yarayar.Talat Təkin bu sətrin qarşılığını belə verir: Beyaz dişi devesi yavrulamış.(10,27) Həm erkək cinsi dəvə üçün xüsusi bir leksik vahidin işlənməsi, həm də dişi cinsi dəvə üçün başqa bir leksik vahidin işlənməsi türklər arasında dəvədən geniş istifadənin sübutudur.

Adığ. Abidədə iki yerdə rast gəlinir: Adığlı toŋuzlı art üzə sokuşmış ermiş adığın karnı yarılmış toŋuzun azığı sınmış, -tir. IB,10/ Ayılı donuzlu dağ keçidində qarşılaşmış imiş. Ayın qarnı yarılmış, donuzun köpək dişi sınmış. Lakin "Divanü lüğat-it-türk" əsərinə baxsaq bu sözün "adhığ" kimi qeyd olunduğunu görərik. Adığ> azığ>ayığ>ayu>ayı sözün tarixi fonetik halları olmuşdur.(13,4) Türk dillərinin təsnif edən türkoloqlardan A.Samayloviç d qrupuna daxil olan dillər haqqında danışarkən bu dillərdə ayaq sözünün "adaq" kimi işləndiyini qeyd edirdi. Türk dillərində d>y səs əvəzlənməsi nəticəsində adığ sözü öz fonetik formasını "ayığ", daha sonra isə söz sonundakl samitin düşməsi ilə "ayı" salaraq gününmüzə qədər gəlib çatmışdır.

Toŋuz. İki dəfə qeydə alınmışdır: Adığlı toŋuzlı art üzə sokuşmış ermiş adığın karnı yarılmış toŋuzun azığı sınmış tir. IB,10/ Ayılı donuzlu dağ keçidində qarşılaşmış imiş. Ayın qarnı yarılmış, donuzun köpək dişi sınmış. Orjinal türk sözü olan bu vahid oğuz qrupu türk dillərinə məxsus xüsusiyyət olan söz əvvəlindəki samitin cingiltiləşməsi hadisəsinə məruz qalmış və hal-hazırda oğuz qrupu türk dillərində işlənməkdədir. İbrahim Kafesoğlunun "Türk milli kültürü" kitabında irəli sürülən fikirlərdən biri də donuzun islamdan öncə, nə də islamdan sonrakı dönəmlə türk tayfaları arasında yayılmadığı və monqolların

həyat və məişətinin bir parçası olmasıdır. (5,318)Həmçinin onu da qeyd edək ki, əski göktürk və uyğur yazıtlarında donuz sözü üçün "lazğın" işlənmişdir.

"Irk Bitig" abidəsində at sözü bir neçə leksik vahidlə ifadə olunmuşdur. Sadəcə at leksik vahidinə abidədə üç dəfə rast gəlinir: Turuk at səmriti yirin ötən yügünü barmış utru yirde oğru sookuşup tutıpan minmiş... IB,23 / Arığ at kökəldiyi yeri xatırlayıb qaçaraq getmiş. Qarşı yerdə oğru zorla onu tutub minmiş. Başqa bir sətirdə tağığ sözünə bir dəfə rast gəlinir. Tomsen bu sözü "atığ" kimi oxuyur. Tağığ tərtü kişəmiş...IB,58/ Atı tərsinə bağlamış...

Təklük kulun irkək yonda əmig tiləyür kün ortu yütürük, tün ortu kanta nəgüdə bolğay ol, -tir. IB,36/ Kor qulun erkək atdan əmmək diləyir, günorta iztirabda, gecəyarısı qanda –nə gündə olar, -deyir. Talat Təkin də bu sözün tərcüməsini "erkek at" kimi qeyd edir.(10,24)

Abidədə at mənasında işlənən digər bir söz bisi sözüdür. Madyan mənasını ifadə edən bu söz yalnız bir dəfə işlənir: Bəg ər yontuŋaru barmış ak bisi kulunlamış altun tuyuğluğ adğırlığ yarağay. IB,7/Bəy ər ilxısına tərəf getmiş. Ağ madyanı qulunlamış, qızıl nallı ayqırlığa yarayar. Madyan "yetkin, dişi at" deməkdir.

Ögrinə kutluğ adğır mən yağak ığaç yaylağım kuşluğ ığaç kışlağım. IB,86/ Nəsil verən xoşbəxt ayğıram. Qoz ağacı yaylağım quşlu ağac qışlağım. Azərbaycan dilinin İzahlı lüğətində ayğır sözünün leksik izahı "döllük erkək at" kimi qeyd olunmuşdur. A.M.Şerbak da adğır sözünün mənasının "atın erkəyi" anlamına gəldiyini qeyd edir.(13,3) Əski türkcədə adğır kimi işlənən söz d>y keçməsi ilə ayğır formasını almışdır.

Qeydlərdən də aydın olduğu kimi türklərin ən yaxın dostu və əsas minik vasitəsi at olduğu üçün atla bağlı leksik vahidlər də çoxdur. Bunu ərəblərin dəvəni adlandırması ilə müqayisəyə çəkə bilərik.

Öpgüg. Sadəcə bir dəfə işlənmişdir: Kara öpgüg yıl yarumazkan tidi edemən körmən ürkittin tir. IB,32 /Qara şanapipik il dəyişməz dedi. Talat Təkin "Irk Bitig": Karı üpgük yıl yarumazkan etdi./Yaşlı hüthüt kuşu yıl ağarmamışken öttü.(10, 29) Azərbaycan dilində işlənən şanə fars sözüdür və şanapipik dilimizin fonetik quruluşuna uyğunlaşaraq öz mövcudluğunu sürdürür. Lakin öpgüg/üpgük sözləri türk sözüdür və tədqiqatçılar söz kökünün ötmək feili ilə bağlayırlar. Bu söz Monqol dilində də öbüg şəklində rast gəlinir (13,331) Qazax dilində üdüt şəklində işlənən bu sözün Türkiyə türkcəsində rast gəlinən fonetik variantı hüthütdür.

Öküz. "Irk Bitig" abidəsinin lüğət tərkibində iki dəfə rast gəldiyimiz bu sözü Əbülfəz Rəcəbli "Əski Türkcə-Azərbaycanca lüğət" kitabına da daxil etmişdir. Eki öküzün bir bokarsıka kolmış kamşayu umatın turur tir. IB,37/ İki öküzü bir boyunduruğa qoymuş, hərəkət etməyi bacarmayaraq durur, -deyir. Həmçinin Ahmet Caferoğlunun "Eski Uyğur Türkcesi Sözlüğü" kitabında da bu sözə rast gəlirik. İbrahim Kafesoğlu "Türk Milli Kültürü" kitabındakı bu fikirlər yada salaq: "Öküz Bozkır hayvanı değildir; sulak, verimli, çifçilik yapmaya elverişli sahalarda oturanlar için ehemmiyyetli bir hayvandır fakat Bozkırın işine pek yaramaz"(5, 318)

Örüŋ əsri ingəg bozağulaçu bolmış ölgəy mən timi. IB,60-61/ Parlaq xallı inək buzovlayası olmuş, öləcəyəm demiş. Abidədə iki sətirdə ingəg və bozağ sözləri iki dəfə işlənmişdir. Bəzi türkoloqların bozağ sözü haqqında qeyd etdikləri etimoloji şərhlər bu sözün orjinal vahid olduğunu deməyə imkan verir. Məsələn, V.Banq bozağ sözünün buzla/bozla yəni "böğürmək" feilindən yarandığını irəli sürür ki bu da kifayət qədər məntiqlidir.

Tabışğan. Abidədə ən çox adı keçən heyvan növlərindən biri də tabışğan beş dəfə işlənmişdir: Toğan kuş teŋridin kodı tabışğan ipən kapmış... IB,66/ Doğan quş göydən ada dovşanı deyib şığımış. Digər türk yazılı abidələrindən "Tonyukuk" və "Moyun Çor" abidələrində də bu söz qeydə alınmışdır. A.M.Şerbak, V. Banq, K. Brokkelman kimi təqiqatçılar irəli sürür ki, tabışğan sözü tabış, yəni sıçramaq feilindən törəmiş və türkcəyə məxsus orijinal bir sözdür. (13,98)

Abidədə həm yılan sözünə, həm də mağ sözünə rast gəlinir. Yılan bir dəfə işlənmişdir: Altun başlığ yılan mən. IB,12/ Qızıl başlı ilanam. Mağ sözü isə iki dəfə qeydə alınmışdır: Əsri mağ yalım kayaka ünür barmış ölümtə ozmış... IB,75 /Xallı ilan sərt qayaya çıxıb getmiş ölümdən qurtulmuş...

## ƏDƏBİYYAT SİYAHISI :

1. Azərbaycan Dilinin İzahlı Lüğəti, Bakı, 2006, 740 səh.
2. Caferoğlu A. "Eski uğur türkcesi sözlüğü", İstanbul, 1968, 320 səh.

3. Ərəb-fars sözləri lüğəti, I cild, Bakı, 2005, 416 səh
4. İbnü-Mühenna lugati, İstanbul, 1934, 105 səh.
5. Kafesoğlu İ. "Türk Milli Kültürü", İstanbul, 1998, 466 səh
6. "Kitabi Dədə-Qorqud", Bakı, 2004, 374 səh.
7. Kaşğari M. "Divanü lüğat-it-türk", Bakı, 2006, I-IV cildlər
8. Rəcəbov Ə. "Qədim türk yazısı abidələrinin dili", Bakı, 2006, 479 səh.
9. Rəcəbov Ə. "Qədim Türkcə-Azərbaycanca lüğət", Bakı, 2001, 191 səh
10. Təkin Talat "Irk Bitig", Ankara, 2017, 66 səh.
11. http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/46678.pdf
12. https://islamansiklopedisi.org.tr/deve
13. https://dergipark.org.tr/en/download/article-file/933175
14. https://dergipark.org.tr/tr/download/article-file/157144

## MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

**Muğbilov İmran**
***Qərbi Kaspi Universiteti***
***Elmi rəhbər: Tural Vəlizadə***

Türkiyə ilə Azərbaycan arasında istər siyasi, istər iqtisadi, istərsə də digər sahələrdə əlaqələr qədim tarixi dayaqlar üzərində qurulmuşdur. Bu əlaqələr müasir dövrümüzdə daha da inkişaf etmiş və iki dövlət arasında olan əlaqələr digər dövlətlərə, xalqlara örnək olacaq səviyyədə təşkil olunmaqdadır. Azərbaycan-Türkiyə arasında olan siyasi əlaqələr SSRİ dövründə heç də ürək açan səviyyədə inkişaf etmədi. Sovet hakimiyyəti Türk birliyini özünə təhdid kimi görürdü.

1991-ci il 18 oktyabrda Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Bu aktdan sonra Azərbaycan 70 illik fasilədən sonra müstəqilliyini əldə etdi. 1991-ci il 9 noyabr tarixində Azərbaycanı beynəlxalq aləmdə ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti oldu. 1992-ci il yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradıldı. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqustundan isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlamışdır. Həmin vaxtan etibarən iki qardaş ölkə arasında siyasi və iqtisadi əlaqələr sürətlə inkişaf etməyə başladı. Qərbin istədiyi ən böyük siyasi hadisə baş vermişdi. Böyük Sovet imperiyası parçalanmışdı. Sovetlər dövründə Qərbin açıq müdaxilə və nəzarət edə bilmədiyi Cənubi Qafqaz geosiyasi ərazisi bu hadisə ilə sərbəst qaldı. Azərbaycan SSRİ-in süqutundan sonra sərbəst, müstəqil siyasət yürütmək üçün addımlar atırdı. Lakin Xocalı soyqırımı və onun ardınca Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın işini daha da çətinləşdirirdi. Əfsuslar olsun ki, həmin dövrdə dünya birliyi Cənubi Qafqazda baş verən xüsusilə Azərbaycanın başına açılan bəlalara biganə qaldı və heç bir sərt reaksiya verilmədi.

Bu cür çətin bir siyasi dövrdə Türkiyə Azərbaycanı əldən verməmək niyyətini açıq aşkar bəyan etməsə belə öz mövqeyini müxtəlif vasitələrlə bildirirdi. Bu da başa düşlən idi çünki, Cənubi Qafqaz regionuna bir başa müdaxilə beynəlxalq münasibətlər baxımından çox riskli idi. Ölkədə davam edən müharibə və itirilən ərazilərin ardından Naxçıvan Muxtar Respublikasının blokadaya düşmüş olması muxtar respublika ilə əlaqələrin kəsilməsinə səbəb olmuşdur. Bu zaman yenə Türkiyə öz dəstəyini Azərbaycandan əsirgəmədi. Ermənilərin Naxçıvana olan iddiaları və ara sıra hücumları Heydər Əliyevi qətiyyətli diplomatik addımlar atmasına vadar edirdi. Heydər Əliyevin 1992-ci ilin martında Türkiyəyə səfəri zamanı Türkiyə baş naziri Süleyman Dəmirəllə görüşlərində Azərbaycan Türkiyə münasibətləri müzakirə olundu və Naxçıvan Muxtar Respublikasının qarşılaşdığı çətin vəziyyəti haqqında Türkiyə hökumətinə çatdırıldı. Naxçıvanla bağlı imzalanan Qars, Moskva müqavilələri yenidən gündəmə gətirildi və Süleyman Dəmirəl Naxçıvan Muxtar Respublikasının statusunda baş verəcək hər hansı dəyişikliyə mövcud müqaviləyə əsasən Türkiyənin müdaxilə edəcəyini bütün dünyaya bəyan etmişdir. Türkiyə

rəhbərliyinin siyasi iradəsi və Heydər Əliyevin diplomatik fəaliyyəti nəticəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı.

Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra iki dövlət arasındaki əlaqələr yüksələn xətt üzrə inkişaf etməyə davam edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər dövründə Türkiyə Prezidenti ilə görüşən Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında məlumat verib. Beynəlxalq arenada Türkiyə və Azərbaycan ən etibarlı, güvənilir siyasi, iqtisadi müttəfiq kimi özlərini təsdiq etməyə başladılar. 1994-cü ilin sentyabrında imzalanan “ Əsrin Müqaviləsin”də iştirak edən xarici neft şirkətlərinin konsorsiumunda “Türk Petrollar” şirkətinin təmsil olunması Türkiyə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real göstəricisi idi. 1995-ci ildə Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı iki dövlət arasında qarşılıqlı strateji maraqları müdafiə edən bir neçə sənəd imzalandı. 1996-cı ildə Türkiyə və Azərbaycan hərbi, texniki, və elmi sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı. 5-8 may 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri zamanı həyata keçirilən görüşlər, danışıqlar nəticəsində imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin yeni bir mərhələyə daxil olmasının təzahürü idi.

İkitərəfli əlaqələrlə yanaşı regional və beynəlxalq təşkilatlar çərçivəsində də Türkiyə ilə səmərəli işbirliyinin möhkəm təməli yaradılmışdır. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi, İslam Konfransı Təşkilatında qarşılıqlı mənafelərin müdafiəsi baxımından düzgün siyasi kurs həyata keçirmişlər. Türkiyənin olmadığı yerdə Azərbaycan dəfələrlə Türkiyənin mövqeyini çatdırmış və onun əlehinə səslənən fikirlərə tutarlı əsaslarla cavab vermişdir. Eynən Türkiyə də Azərbaycanın ərazi bütövlüyü ilə bağlı dəfələrlə fikir söyləmişdir. Bakı-Tiblisi-Ceyhan Neft kəmərinin həyata keçirilməsi və Xəzər neftinin Türkiyənin Ceyhan limanı vasitəsi ilə dünya bazarına çatdırılması bu iki ölkə arasında daha da möhkəm bir dayaq yaratmış oldu. Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin gerçəkləşməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Son dövrlərin ən böyük layihələrindən olan, tarixi ipək yolunun bərpası kimi qiymətləndirilən Bakı-Tiblisi-Qars dəmir yolunun təməli 2002-ci ildə qoyuldu.

Bu gün Azərbaycan və Türkiyə arasında müxtəlif sahələr üzrə təsis edilmiş bir sıra birgə mexanizmlər fəaliyyət göstərməkdədir. Bunlardan xüsusilə, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiya, Kənd Təsərrüfatı İcra Komitəsi, Quru Nəqliyyatı Birgə Komissiya, Gömrük Məsələləri üzrə Birgə Komitə kimi mexanizmləri vurğulamaq olar.

Siyasi arenada Azərbaycan daima Türkiyənin mənafeyini qorumuşdur. Türkiyənin bu gün qarşılaşdığı terror təhdidlərində Azərbaycan daima qardaş dövlətini dəstəkləmiş və bu kimi halları pisləmişdir. Rusiya ilə Türkiyə arasında yaranmış siyasi konflikt nəticəsində Türk yüklərinin Rusiya ərazisindən keçməsinə çətinliklər yaradıldı. Türk yükləri günlərlə Rusiya sərhədlərində gözlədildi. İlham Əliyevin məsələyə müdaxiləsi ilə Azərbaycanın sərhədləri və Baki limanı Türk yükləri üçün açıldı. Heç bir maneə yaradılmadan Türk yükləri Bakı limanından keçərək Mərkəzi Asiyaya çatdırıldı. Bunlar sadəcə Azərbaycan-Türkiyə əlaqələrinin görünən çox az bir qismidir.

2020-ci il 27 sentyabr tarixində başlayan Vətən müharibəsində Azərbaycan Respublikasını hərtərəfli dəstəkləyən ilk ölkə Türkiyə dövləti olmuşdur. 44 günlük Vətən müharibəsində təmənnasız respublikamızın yanında olaraq, öz dəstəyini əsirgəməmişdir. Əsl əməkdaşlıq və qardaşlıq nümunəsi bu olsa gərək. Türkiyə və Azərbaycan bu əmədaşlığın, qardaşlığın əbədi olacağını və hər bir sahədə (özəlliklədə siyasi sahədə) Azərbaycanı dəstəkləyəcəyini xüsusilə vurğulamışdır.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Əli Həsənov. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı 2001.səh.51
2. Azərbaycan tarixi 7 cilddə VII cild. Bakı 2007.səh.301
3. Şərq qapısı qəzeti 28 may 1992 4) https://ankara.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler

# SƏNAYE DİZAYNI DİZAYN FƏALİYYƏTLƏRİNDƏN BİRİ KİMİ

**Muradov Elxan Telman oğlu**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***Elmi rəhbər: fəl.f.d., dos. Elfanə Qasımova***
**elxan.muradov.95@bk.ru**

**XÜLASƏ**

Dizayn məlumat mənbəyidir. Sensor dizaynı və zehni dizayn həmişə qarşılıqlı olduğundan, duyğulu məlumat və rasional məlumat həmişə iç-içədir. Dizayn özü yaradıcı prosesdir və fəaliyyət üçün lazım olan eskizləri və planları hazırlamaq işini əhatə edir. Dizayn, fikrimizdə olan informasiyani formalaşdırır, qurur və nəzərdə tutur.

Tarix boyu insanlar öz həyat fəaliyyəti və yaradıcılığından istifadə edərək, tələbata uyğun müəyyən məhsulları istehsal etmiş və təkminləşdirmişlər. İnsanın fəaliyyəti cəmiyyətin inkişaf səviyyəsindən asılıdır.

Sənaye inqilabı yalnız emalat sənayesinə deyil, gündəlik həyata da təsir edir. Üç ölçülü printerlər, köhnəlmiş texnoloji məhsullar, dronlar, internetin həyatının hər anına nüfuz etdiyini görmək mümkündür.

**Açar sözlər:** dizayn, inqilab, avtomatlaşdırma, sənaye.

**Ключевые слова:** дизайн, революция, автоматизация, промышленность.

**Keywords:** design, revolution, automation, industry.

Ənənəvi korporativ kodun yıxılmasının əvəzinə yeni inqilabçı şirkət kodları meydana gəldi. Məsələn insan qüdrətinə ehtiyacı olan sektorlar üçün insan beyinlərinə ehtiyac var. İnnovasiya və texnoloji inkişaflarla insan gücündən istifadə etmək əvəzinə, robotik sistemlərin istifadəsinə üstünlük verilir. Ancaq yaxşı bir komanda olmadan, robot sistemlərinin çalışması çox çətindir [5]. Ağıllı robotların təsiri ilə sənaye inqilabında smart zavodlar quruldu. Ağıllı zavodlarda qaranlıqda istehsal edə biləcək sistemlər inkişaf etdirilir və ən üst səviyyədə istehsal gedir. Yeri gəlmişkən, texnologiyalar insan səhvini sıfıra endirib. Məsələn, daima keyfiyyətə nəzarət edən bir işçinin bir müddət sonra yorğunluğa düşməsi ən yaxşı nümunədir. Sənaye inqilabının təklif etdiyi imkanlarda belə bir şey yoxdur. Çünki müəyyən smart fabrikalarda, robot sistemləri və ya texnoloji istehsal qrupları, onlara verilən vəzifələri yerinə yetirməklə bu və bənzərsiz dezavantajları aradan qaldırır [3].

İşəgötürmə baxımından, komandanın ruhuna və beyinin gücünə diqqət edən sənaye fabrikləri işçilərin əmək xərclərinə qənaət etməyə imkan verir. İşçi qüvvəsi ilə edilən istehsalları indi maşınlarlar həyata keçirir. Bu nöqtədə istehsalçıların diqqət etməsi lazım olan ən əhəmiyyətli nöqtə texnoloji inkişafa qənaət etmək deyil. Texnologiya gün ərzində də digər inkişaf sahələri ilə həyatımıza təsirini davam etdirir. Bundan əlavə, gündəlik həyatımızdan iş dünyasına qədər hər bir sahəsi bütün istiqamətlərdə yönəlir [8].

Texnologiya və cəmiyyət həmişə tarix boyunca bir-biri ilə qarşılıqlı əlaqədə olmuşdur. Bu ikisi arasında qarşılıqlı təsir dünyadakı bir sıra əhəmiyyətli dəyişikliklərə öncüllük etmişdir. Texnologiyalar müasir zamanda dizayn prosesinə öncül təsir imkanı əldə etmişdir. Cəmiyyətdə hər yeni nəsil texnologiya inqilabı, sənaye inqilabı və informasiya inqilabı kimi yeni bir dəyişikliklər gətirmişdir [6].

Müasir sənaye dövrü avtomatlaşdırma sistemləri, məlumat mübadiləsi və istehsal texnologiyası, internet xidmətləri və obyektlərin fiziki-virtual sistemlərinin geniş yer aldığı zamana təsadüf edir. Bu texnologiyalar zamana qənaət edir və hosting obyekti ilə birlikdə məhsuldarlığı artırmağa kömək edir. Bu inqilab "ağıllı fabriklər" konsepsiyasının formalaşmasında da böyük rol oynamışdır [7].

Əgər əvvəllər dizayn yalnız faydalı texniki tələbləri birləşdirən müstəqil proses və estetik cəhətdən əhəmiyyətli forma kimi görülürdüsə, yeni materialların kəşfi ilə dizayn ətraf mühitin elementi kimi qəbul olunmağa başladı. Sənaye dizaynında forma bir maddi konsepsiyadir, lakin maddənin xüsusiyyətləri onun xarici görünüşü ilə yanaşı, keyfiyyətində də rol oynamağa başladı. Sənaye dizaynı tədricən materialın xüsusiyyətlərini onun forması ilə uzlaşdırmağa, keyfiyyət və görünüş amillərini vahid şəkildə təqdim etməyə başladı [2].

Müasir dövrdə texnologiyaların daha böyük şəkildə gündəlik həyatımızda yer tutmasına rəğmən, materialların yeni xüsusiyyətlərinin kəşf olunması, yeni növ kimyəvi və texnoloji məhsulların yaradılması

sənaye dizaynının formalaşmasına və inkişafına əvvəlkitək mühüm təsir göstərməkdədir. Dizayn artıq təkcə estetik görünüş deyil, həm də rahatlıq, təhlükəsizlik, komfortluluqdur. Müasir materiallar hazırda dizaynerlərin iş fəaliyyətində mühüm rol oynayır. Bu materiallar sənaye dizaynında formayaratmaya böyük təsir göstərir [4].

XX əsrin ikinci yarsından sonra yeni yaranmış texnogiyaların inkişafında sürətli dəyişikliklər nəticəsində sənaye dizaynı daha da inkişaf edərək təkmilləşir. Dünyadakı ən yeni IT dövrü informasiya və kommunikasiya texnologiyalarının inkişafı nəticəsində meydana gəlmişdir. İnkişaf edən informasiya cəmiyyəti dizaynerlər üçün misilsiz imkanlar yaratmışdır. Texnoloji irəliləyiş hər yerdədir və hər zamankindən daha sürətlidir. Yeniliklər texnoloji dəyişikliklərə uyğun şəkildə aparılır. Hər hansı bir məhsulun hazırlanması prosesi zamanı insanların zövqünü qane etmək üçün, təkcə estetik görünüşünü, materialların xüsusiyyətlərini deyil, həm də erqonomik tərəflərini də nəzərə almaq lazımdır [1].

XVIII əsrdə inkişafı start götürmüş sənaye dizaynı müasir dövrümüzdə texnologiyaların geniş tətbiqi ilə gündəlik həyatın bir hissəsinə çevrilmişdir. Müasir dövrümüzdə robotların, texnilogiyaların sürətli inkişafına baxmayaraq, insan amili, onun yaradıcılıq imkanları və dizayner düşüncələri öz aparıcı rolunu itirməmişdir. Sənaye dizaynı bu gün həyatımızın hər nöqtəsinə nüfuz edir və gələcək dövrdə texnologiyalaın daha da inkişaf edəcəyini nəzərə alaraq, sənaye dizaynının daha bir intibah dövrünün olacağı şübhəsizdir [5].

## ƏDƏBİYYAT SİYAHISI :


1. Deyan Sudjic. The Language Of Things. 2008.
2. Don Norman. The Design of Future Things. Basic Books. 2007. ISBN 978-0465002276.
3. Александр Отт. Курс промышленного дизайна. 2005. ISBN 5-98569-003-2.
4. Борис Евгеньевич Кочегаров. Промышленный дизайн. ДВТГУ. Владивосток, 2006.
5. Б.Е.Кочегаров. Промышленный дизайн. 2006.
6. Виктор Папанек. Дизайн для реального мира. Изд. Д. Аронов. 2010.
7. З.Н.Быков и др. Художественное конструирование. Проектирование и моделирование промышленных изделий: Учебник. – М.: Высш.шк., 1986.
8. Ю.С. Сомов. Художественное конструирование промышленных изделий. 1967.


# BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ MİLLİ İQTİSADİYYATIN İNNOVATİV İNKİŞAF PRİORİTETLƏRİ


**Mustafayeva Kamilə Şofiq Qizi**
***Mingəçevir Dövlət İniversiteti***
***Elmi rəhbər: Dos. İsgəndərov Fərman Əlisgəndər oğlu***



**Açar sözlər:** İnnovasiya, iqtisadiyyat, texnologiya.
**Keywords:** İnnovation, economy, technology.
**Ключевые слова:** Инновасии, экономика, тенология.


Bazar iqtisadiyyatına keçid Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi inkişafının innovasiya istiqamətini təkcə yeni texnika və texnologiyaların tətbiqi istiqamətində axtarılmasını kifayət hesab etmək düzgün olmaz. Eyni zamanda rəqabət mövqeli amil olaraq, beynəlxalq sistemin tələblərinə cavab verən milli innovasiya sistemi səviyyəsinə çatdırılması mühüm problem olaraq diqqət mərkəzində dayanır. Milli innovasiya siyasətinin qurulması beynəlxalq innovasiya mühitinin təsiri altında formalaşır. Yəni inkişafda olan təhsil prosesləri, milli innovasiya siyasəti, elmi-texniki tədqiqatların inkişaf istiqamətlərinin formalaşması qlobal innovasiya şəbəkəsinə və beynəlxalq innovasiya mühitinə inteqrasiya edilməsi ilə müəyyən mövqeyə malik ola bilər.

Müasir dövrdə Azərbaycan Respublikasının elmi-texniki nailiyyətləri və profesional kadrlarının səviyyəsi müəyyən sahələrdə nailiyyətlərlə qarşılansa da ümumi səviyyə də müasir elmin tələbləri istiqamətində işlənməsi, gözlənilən xeyli problemlər hələ də işlənməmiş qalır. Bu məsələləri araşdıranda məlum olur ki, innovasiya mühitinin daxili problemləri hələ də özünün ənənəvi vəziyyətindən kənarlaşa bilmir.

Baxmayaraq ki, inkişaf etmiş ölkələrdə innovasiya fəaliyyətinin genişləndirilməsi, tətbiqi ilə bağlı olan maliyyə vəziyyətinin inkişafa doğru meylliliyi daim artmaq istiqamətindədir. Lakin Azərbaycan Respublikasında bu məsələ müəyyən daxili və xarici mühitin təsirlərinə məruz qalır.

Respublikamızda milli iqtisadiyyatın inkişaf meylli olan sahələrin inkişafında, xüsusilə metallurgiya, tikinti materialları istehsalı, ərzaq və qeyri-ərzaq məhsulları emalı, aqrar sahələrdə sərbəst inkişaf əvəzinə monopoliyanın hökm sürməsi bu sahələrdə innovasiyalı inkişafı ləngidən biri kimi nəzərə çarpır. Belə vəziyyət innovasiya məhsullarının sınaqdan çıxarılması və cəmiyyətə doğru hərəkətinin qarşısının ləngiməsinə səbəb olur. Çünki uzun müddət özünü təsdiqləmə imkanlarından kənarda, istifadəsiz qalaraq tədricən mənəvi köhnəlir və əhəmiyyətsiz varlığa çevrilir. Mövcud vəziyyətdən çıxmaq və innovasiyanın prioritet istiqamətlərini inkişaf etdirmək məqsədilə dövlət dəstəyinin olmasına ehtiyac duyulur. Belə ki, innovasiyaların sınaqdan keçirilməsinə müəssisələrin marağını artırmaq məqsədilə bu işi təşkil edən müəssisələrə stimullaşdırıcı vasitələrlə şərait yaratmaq olar.

Müasir dövrün innovasiya siyasətinin prioritet istiqamətlərindən biri də ölkə iqtisadiyyatının qeyri neft sektorunun inkişaf etdirilməsi istiqamətində innovasiya tipli araşdırmaların miqyasının genişləndirilməsi diqqəti cəlb edən istiqamətlərdəndir. Çünki bazar iqtisadiyyatının tələbləri istiqamətində işləyən müəssisələr, xüsusilə istehlak malları istehsal edən sahələrdə müasir dövrün tələblərini ödəyə biləcək texnologiyalardan istifadə cəhətdən ciddi çətinliklərlə üzləşirlər. Bunun üçün respublikamızda elmi cəhətdən baza olsa da, onların fəaliyyətindən səmərəli istifadə olunmasına ehtiyac duyulur.

Aparılmış müşahidələr göstərir ki, 30 ilə yaxın dövrdə təcavüzkar, terrorist qurumların yaratdığı, terroristlərin yaşadığı Ermənistan tərəfindən Qarabağ regionumuzda milli-mədəni obyektlərimiz, sosial iqtisadi inkişafın maddi-texniki bazası məhv edilərək tam yararsız vəziyyətə salınmışdır. Ona görə də respublikamızın innovasiya potensialının qarşısında duran əsas prioritet istiqamət regionun sosial-iqtisadi inkişafının bütün sahələrini əhatə etməyə yönəldilməsi müasir dövrün tələblərindən hesab olunur.

Regionların elmi inkişafını ödəyə biləcək kompleks yüksək səviyyəli kadr hazırlanmasına kompleks yanaşma innovasiya prioritetlərindən sayıla bilər. Bu prosesdə əsas məqsəd Azərbaycanın tərkib hissəsi olan Qarabağ regionunun müxtəlif ixtisaslı kadrlara olan tələbatını yaxın dövrlərdə ödənilməsinin təmin edilməsinə istiqamətlənməkdədir.

Qeyd edilənləri nəzərə alaraq ölkəmizdə milli innovasiya strategiyasının işlənməsi məqsədəuyğun olardı. Hazır ki, dövrdə Azərbaycan Respublikası iqtisadiyyatın innovativ inkişafının prioritet istiqaməti olaraq, Qarabağ bölgəsinin mövcud potensial resurslarından səmərəli istifadə təmin edilməklə müxtəlif sahələrin inkişaf etdirilməsidir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Hüseynov T. H “Azərbaycanda bazar sisteminin iqtisadi problemləri” (Monoqrafiya) Bakı, Elm, 2004, 228 s.
2. Qasımov F. H, Nəcəfov Z. M. “İnnovasiyaların yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: “Elm”, 2009, 416 s.
3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər (monoqrafiya). Bakı: “İqtisad Universiteti”, 2009, 415 s.

# TANIMA MƏSƏLƏLƏRİNDƏ MODELLƏŞDİRMƏ

**Mustafayev Rənsani**
***Tex.f.d. Elmira İsrafilova***
***Mingəçevir Dövlət Universiteti***

**Açar sözlər:** tanıma sistemi, modelin adekvatlığı, modelin səmərəliliyinin qiymətləndirilməsi meyarları.

**Ключевые слова:** система распознавания, адекватность модели, критерии оценки эффективности модели.

**Key words:** recognition system, model adequacy, criteria for model performance evaluation.

Tanıma məsələləri informasiyanın emalı və istifadə edilməsi proseslərinin avtomatlaşdırılması ilə əlaqəli olaraq informatikanın aktual istiqamətlərindən biridir. Praktiki məsələlərin həllində mövcud uğurlara baxmayaraq, tanıma metodologiyası əslində təxmini olaraq qalır. Nəzəriyyə səviyyəsində belə modellərin, üsulların və alqoritmlərin əsaslı olub-olmamaları haqqında bir fikir irəli sürmək çox çətindir. Bu səbəbdən əldə edilmiş nəticələrin düzgünlüyü haqqında danışmaq mümkün olmur.

Model – fiziki və ya riyazi elementlər və onlar arasındakı əlaqələr toplusudur. O, element və əlaqələri tədqiq olunan obyektin müəyyən xüsusiyyətlərini adekvat şəkildə əks etdirir. Buna baxmayaraq, model reallığın özü kimi qəbul edilə bilməz. Belə ki, model bir qədər məhduddur və obyektin tədqiq olunan bəzi tərəflərini və xüsusiyyətlərini təqribi nümayiş etdirir [2].

Modelləşdirmə işlək olan maddi, riyazi və ya virtual modelin qurulmasını nəzərdə tutur. Həmin model tədqiq edilən sistemin adekvat xüsusiyyətlərinə malik olmasını nəzərdə tutur. Modellər əsasında funksional sistemlərin imitasiyası, öyrənilməsi və ən yaxşı variant üzrə qərarların qəbul edilməsi mümkündür.

Modelləşdirməyə başlamadan əvvəl həll olunacaq məsələnin məğzi təyin olunur. Belə ki, real obyektlər (vəziyyətlər, hadisələr) çox nadir hallarda dəqiq müəyyən edilmiş və aydın olur, ətraf mühitlə mürəkkəb əlaqələr isə bu cür obyektlərin dəqiq təsvirini çətinləşdirir. Riyazi baxımından təhlil edilə bilən məsələnin müəyyən edilməsi prosesi bəzən tədqiq olunan obyektə aid olmayan biliklərin toplanmasını tələb edir. Bu isə məsələnin həllinə sərf edilən vaxtın artması deməkdir.

Əksər hallarda məsələnin qoyuluşu ilə eyni zamanda obyektin əsas xüsusiyyətləri aşkar edilir və bu, bir qayda olaraq, modelləşdirmənin ən çətin mərhələsidir. Model qurulduqdan və onun keyfiyyəti təyin olunduqdan sonra onun kəmiyyət baxımından təsviri aparılır. Bu proses alınmış modelin təcrübə verilənlərinə adekvatlığının (uyğunluğunun) yoxlanması ilə yekunlaşır. Əslində, modelin adekvatlığı artıq məsələnin qoyuluşu zamanı müəyyən dərəcədə yoxlanmalıdır.

Adekvatlığın yoxlanması zamanı iki tələb ödənilməlidir [3]:

1. Modelin riyazi əsasları fizikanın qanunlarına zidd olmamalı və riyazi məntiq qanunlarına tabe olmalıdır.

2. Modelin doğruluğu onun eksperimental vəziyyətinin adekvat şəkildə təsvir edilməsi imkanından asılıdır. Adekvatlığın statistik yoxlanması statistik meyarlar əsasında aparılır. Statistik meyarların təyin edilməsi üçün eksperimentin nəticələri və model tərəfindən proqnozlaşdırılan qiymətlərin eksperimentin nəticələrindən meyletməsi istifadə olunur.

Tədqiq olunan obyektlərin əks olunmasının tamlığı və adekvatlığı anlayışına əsaslanaraq modellər sadə və mürəkkəb modellərə ayrılır. Sadə modeldə təxmini nəticənin tez əldə edilməsi mümkündür. Mürəkkəb modeldə nəticənin əldə edilməsi daha çox resurs tələb edir. Bu baxımdan sadə model daha səmərəlidir. Sadə modelin çatışmayan cəhəti obyektdə baş verən proseslərin təxmini qiymətləndirilməsi və proseslərin qarşılıqlı təsirinin müəyyən edilməsi imkanının olmamasıdır.

Aydındır ki, yaradılan model tədqiq edilən obyekt ilə (hadisə, proses) tamamilə eyni ola bilməz. Bu səbəbdən modelləşdirmə bir neçə model əsasında aparılır. Hər bir model obyektin (hadisənin, prosesin) müəyyən detallaşdırılmasını nəzərə alaraq həyata keçirilir.

Ümumi halda modelləşdirmənin fiziki və riyazi növlərini ayırmaq olar.

Fiziki modelləşdirmə müxtəlif fiziki obyektlərin fiziki bənzərini yaradaraq, eksperimental tədqiqini nəzərdə tutur. Alınan nəticələr təhlil olunur, sonra real miqyaslı obyektlərdə tətbiq olunur. Fiziki modelləşdirmənin yerinə yetirilməsi səbəblərinə aşağdakıları aid etmək olar: tədqiq olunan obyektin ölçüsünün böyük və ya xüsusiyyətlərinin sayının çox olması; tədqiq edilən obyektin təsviri üçün dəqiq riyazi aparatın olmaması və ya təsvirin çox iri olması və çox sayda hesablamaların aparılmasının tələb olunması.

Riyazi modelləşdirmə – riyazi nisbətlər sisteminin müəyyən simvolları ilə yazılmış mücərrəd bir prosesdir. Əks etdirdikləri xüsusiyyətlərə görə riyazi modellər funksional və struktur modellərə ayrılır. Funksional modellər modelləşdirilən obyektin fəaliyyətini təsvir edir və tənliklərlə ifadə olunur. Struktur modellər obyektin ancaq struktur tərkibini təsvir edir və matrislər şəklində təsvir olunur [1].

Modelləşdirmə prosesi üç mərhələdən ibarətdir:

1. Formalaşdırma mərhələsi – real obyektdən modelə keçidin təmin edilməsi.

2. Tənliklərin həlli və ya eksperimentlərin keçirilməsi mərhələsi – nəticələrin alınmasının təmin edilməsi.

3. İnterpretasiya mərhələsi – modelləşdirmənin nəticələrinin reallığa çevrilməsinin təmin edilməsi.

Müxtəlif parametrlərin riyazi model şəklində tədqiqi çətin olduqda və çox böyük hesablamaların kompüterdə yerinə yetirilməsi tələb olunduqda kompüter modelləşdirilməsindən bəhs edilir. Buraya modelin təhlili və optimallaşdırılması və ya proses və obyektlərin layihələndirilməsi məqsədi ilə modelin hazırlanması və onun üzərində hesablama eksperimentlərinin aparılması daxildir. Alqoritmin səciyyəvi xüsusiyyəti kompüterin olduğu süni hesablama mühitində tədqiq olunan obyektin ardıcıllığının əks etdirilməsidir. Kompüter modelləşdirməsinin üstünlüyü nəzəriyyənin və təcrübənin vəhdət təşkil etməsindən ibarətdir. Kompüter modeli, mümkün olan vəziyyətlərdə obyektin xüsusiyyətlərini və davranışını nisbətən tez və xərc çəkmədən asanlıqla tədqiq etməyə imkan verir. Həmin modellərdə aparılan hesablama eksperimentləri onların dərindən öyrənilməsi və təhlilini mümkün edir. Hesablama məsələlərinin yüngülləşdirilməsi üçün kompüter modelləşdirilməsində riyazi model alqoritmik şəklə çevrilir. Bu prinsip əsasında təşkil olunan məsələlər analitik və təqribi üsullarla həll oluna bilər.

Riyazi baxımından təsvir olunmuş obyektin kompüterin köməyi ilə məntiqi strukturunu və ardıcıllığını qorumaqla modelləşdirilməsi imitasiya modelləşdirməsi adlanır. Düzgün işlənmiş riyazi aparatın istifadəsi üçün analitik modellərdə bəzi sadələşdirmələrə yol verilir. Bu səbəbdən alınan nəticələrin dəqiqliyi müəyyən şübhə doğurur. İmitasiya modelləşdirilməsində əsas məqsəd tədqiq olunan obyektin elementləri arasında qarşılıqlı əlaqələrin nəticələri əsasında obyektin əks etdirilməsidir. Adətən imitasiya modelləri məhdud resurslar şəraitində (digər riyazi modellərin mürəkkəblik dərəcəsi çox yüksək olduqda) optimal həllin tapılması üçün qurulur.

Layihələndirmə obyektin modelinin yaradılması prosesidir, modelləşdirmə isə layihələndirmə nəticəsinin qiymətləndirilməsidir.

Modelləşdirmənin aparılması məqsədləri kimi aşağıdakıları qeyd etmək olar:

– sistemin parametrlərinin və ya onun fəaliyyət şərtlərinin dəyişməsi nəticələrinin proqnozlaşdırılması; real şəraitdə bu cür dəyişiklik böyük maddi xərclər və ya risklərlə bağlıdır;

– mövcud sistemlərin tədqiqi və təkmilləşdirilməsi; hələlik mövcud olmayan sistemlərin yaradılması ilə bağlı araşdırmaların aparılması;

– model və sistemlərin işləmə üsullarının nümayiş etdirilməsi.

Beləliklə, eyni bir obyektin öyrənilməsi zamanı prinsip etibarilə fərqli modellər istifadə oluna bilər, bununla yanaşı eyni model müxtəlif prosesləri təsvir edə bilər. Bu səbəbdən modellərin qiymətləndirilməsində onların səmərəliliyinin aşağıdakı meyarları istifadə olunur [4]:

1. Riyazi modelin dəqiqliyi – parametrlərin əsl qiymətlərinin model vasitəsi ilə hesablanmış qiymətlərlə üst-üstə düşməsi dərəcəsini əks etdirən xassədir. Lakin müxtəlif modelləri kəmiyyət baxımından qiymətləndirərkən, bu müqayisənin aşağıdakı xüsusiyyətləri nəzərə alınmalıdır:

− obyektlər və onların modelləri bir çox meyyar ilə səciyyələnir və bu cür modellərin dəqiqliyinin qiymətləndirilməsi üçün modellərin parametrlərini bir və ya bir neçə ölçüsüz göstəriciyə gətirilməsi tələb olunur;

– bir sıra hallarda modellər müxtəlif növlü obyektlər üçün tərtib və istifadə olunur; nəticədə bu cür modellərin qiymətləndirilməsi dəqiqliyi modelləşdirilən obyektlərin xüsusiyyətlərindən asılı olaraq dəyişir;

– bəzi hallarda riyazi modelləşdirmənin nəticələri və onların dəqiqliyinin qiyməti eksperiment nəticəsində alınmış qiymətlərlə müqayisə olunur. Lakin əksər hallarda eksperimentin xətaları riyazi modelləşdirmənin xətaları ilə mütanasib olur.

2. Riyazi modellərin qənaətliliyi maşın vaxtının xərcləri ilə ölçülür. Modelin qənaətli olması göstəricisi kimi onda istifadə edilən parametrlərin sayı ilə təyin edilir. Parametrlərin sayının çox olması daha çox hesablama əməliyyatların aparılması və bunun üçün daha çox əməli yaddaşın tələb olunması deməkdir.

3. Riyazi modellərin universallıq dərəcəsi onların bir və ya bir çox fəaliyyət rejimlərində qismən çox saylı qrupun təhlilinə tətbiq edilə bilməsi ilə müəyyən edilir.

Beləliklə, qeyd olunan tələbləri təhlil edərkən müəyyən ziddiyyətlər aşkar olunur: modeldə proseslərin müxtəlif qanunauyğunluqlarının daha ətraflı əks etdirilməsi onun dəqiqliyini və universallığını artırır, lakin modeldə istifadə olunan parametrlərin sayının artması onun realizə olunması üçün hesablama həcmlərinin artırılmasını tələb edir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Барташевич С. А. Моделирование систем обработки информации. Минск: БГТУ, 2014, 118 с.

2. Советов Б. Я. Моделирование систем. Москва: Высш. шк., 2001, 343 с.

3. Торшина И.П., Якушенков Ю.Г. Оценка адекватности компьютерной модели оптико-электронной системы её заданным свойствам // Изв. вузов. Приборостроение. 2009. №9, с. 63-68.

4. Звонарев С.В. Основы математического моделирования. Екатеринбург: Изд-во Урал. ун-та, 2019, 112с

# İDEOLOGİYANIN TÜRKİYƏNİN AVROPA İTTİFAQI ÜZVLÜYÜ PROSESİNƏ TƏSİRİ

**Nağıyev Yadigar**
***Bandırma Onyedi Eylül Üniversitesi***

**Açar sözlər:** İdeologiya, Türkiyə, Avropa İttifaqı, Türkiyə`nin Avropa İttifaqına Üzvlüyü.

1999`cu il Helsinki Konfransı`nda Türkiyə`nin "Namizəd Ölkə" olaraq elan edilməsindən sonra, əgər Türkiyə, Kopenhag zirvəsində qəbul edilən siyasi və iqtisadi kriteriyaları tamamlayarsa, üzvlük üçün prosesin başlayacağı bildirmiş və Aİ`nın Türkiyə üçün İştirak Əməkdaşlığı Sənədinin hazırması və Türkiyə`nin bu proses üçün Milli Proqramını hazırlaması, Türkiyə - Aİ münasibətlərini sürətləndirmişdir. Aİ konstitusiyasının qaralamasının hazırlanması, avropa məzənnəsinin istifadəyə buraxılması kimi daxili səbəblər və 2001 ABŞ`da ekiz qüllələrə qarşı təşkil edilən terror hadisəsi və təşkilatçıların müsəlman olması, Aİ daxilində mədəni parçalanmalara və əhali çoxluğu müsəlman olan Türkiyə kimi dövlətlərə Aİ daxilində fərqli yanaşmaların ortaya çıxmasına səbəb olmuşdur. Nəticədə, bəziləri Türkiyə`nin üzvlük prosesinin dayandırılmasını tələb edərkən, bəziləri də Türkiyə ilə birgə terrorizmə qarşı mübarizənin daha efektiv olacağına inanırdı (Denk, 2016: 78-79).

İlk konstitusiya dəyişiklikləri, Ədalət və İnkişaf Partiyası hakimiyyəti dövründə tətbiq edilməyə başlandı. Xüsusilə, Aİ üzvlük prosesi üçün tətbiq edilən inqilabi reformlar, 1980`ci il xunta konstitusiyasında bir çox yeniliklər formalaşdıraraq, demokratiya, insan haqqları kimi mövzularda, böyük liberalizasiya tətbiq edilməsinə baxmayaraq, Aİ`nin Türkiyə`yə dair 2002 İnkişaf Raportunda, ölkənin siyasi zəmində hədəflərə çatmadığı göstərilmiştir. (Çalış, Metkin, 2017:18). ƏİP dövründə, Aİ üzvlük prosesi istiqamətində tətbiq edilən hüquqi və demokratiya reformları ilə yanaşı, üzvlük istiqamətində ən

böyük problemlərdən biri kimi Kipr məsələsi gündəmə alınmışdır. Bu istiqamətdə, ƏİP hökuməti, Kipr`də inteqrasiya və siyasi fedarassiya qurulmasını planlaşdırdığı qanununu olan Anna Planı istiqamətində 2004`cü il 24 Aprel tarixində hər iki tərəfdə refarandum keçirilməsinə rəğmən, Türkiyə tərəfi 65% səslə "Hə" deyərkən, Rum tərəfi 70% səslə "Yox" demiştir (Mor, 2008: 1015). Bu qərarın qəbul edilməsi isə hər iki tərəf üçün gələcəkdə problem yarada bilərdi. Çünki, Türkiyə daxilində anklav olan Şimali Kipr ilə Aİ daxilinə daxil olacaq Cənubi Kipr arasında, sərbəst gediş-gəliş vəya siyasi qərarlar ləngiyəcəkdi.

Qeyd edilən kimi, ƏİP hökumətinin, Kipr münaqişəsinin həlli üçün aldığı sürətli qərarlar və refarandumun təşkilinə baxmayaraq, refarandumda gözlənilən qərarın çıxmaması ilə nəticələndi. (Denk, 2016: 85-93).

ƏİP hökuməti üzvlük istiqamətində bir çox reformlara imza atdı.

1. 1980 inqilabından sonra Vətəndaş və Hərbi münasibətlər arasında
2. Təbii hüquqların Aİ standartlarına gətirilməsi
3. Dini azadlıqlar haqqında
4. Dərnək qurmaq və sərbəst toplaşmaq ilə bağlı yeniliklər
5. Həbsxanalarda vəziyyətin yaxşılaşdırılması və işgəncələrə qarşı mövqey
6. Qadın haqqlarında reformlar (Özer, 2009: 103).

Türkiyə`nin Aİ üzvlüyü istiqamətində vacib göstərilən hüquqların sürətli bir formada parlamentdə təsdiq ediləməsi Türkiyə`nin üzvlük üçün ciddi marağını göstərirdi. Buna baxmayaraq, Türkiyə`nin Aİ`na yaxınlaşdıqca Aİ`nın Türkiyə`dən uzaqlaşması strategiyası, Türkiyə - Aİ arasında münasibətlərə mənfi təsir etmişdir. Bildiyimiz kimi, Aİ ilk başlarda iqtisadi dövlətlərüstü bir təşkilat ikən üzv saylarının artması ilə siyasi dövlətüstü təşkilata çevrilməkdədir ki, Türkiyə - Aİ münasibətlərinə diqqət edərsək bu halı görmək mümkündür. Bu proses, Dədəoğluya görə, Aİ, üzv vəya üzv olmaq istəyən dövlətlər üzərində öz ağalığını müxtəlif insan haqqları çatışmamazlıqları vəya iqtisadi sərbəstlikdən yararlanaraq edirlər ki, bu hal digər dövlətlər kimi Türkiyə daxilində də Aİ müstəmləməkə sisteminə qarşı bir mövqeyi yaradır (Dedeoğlu, 2011: 92).

ƏİP dövründə, Türkiyə - Aİ münasiblətlərini daha yaxşı qavramaq üçün Aİ üzv dövlətinin Türkiyə`yə qarşı sosial-iqtisadi və siyasi tutumlarını bilmək faydalı olacaqdır. Bu istiqamətdə Fransa, ittifaqın qurulduğu ilk günlərdən mənimsədiyi Avropaçı mövqeyə istinad edərək müxtəlif Fransa prezidentləri dövründə təzyiqlər edildiyini görmək mümkündür. Məsələn; N.Sarkozy dövründə, Türkiyə - Aİ münasibətləri gərgin hadisələrə şahid olmuşdur. Sarkozy`nin sahib olduğu Sağ Xristiyan Demokratiya ideologiyası Türkiyə`nin Aİ üzvlük prosesini əngəlləmişdir. Buna görə, Türkiyə Avropa`nın parçası deyl və Türkiyə sadəcə Aİ ilə iqtisadi əməkdaşlıq edə bilər. N.Sarkozy`dən sonra bu mövqey, F.Holland`inin prezidentliyi dövründə biraz mülayimləşərək inteqrativlik əldə edilsə də, Holland, seçkilər dövründə Erməni lobbisinin dəstəyini qazanmaq üçün qondarma Erməni Soyqırımı məsələsin gündəmə gətirməsi ilə Türkiyə - Aİ əlaqələri yenidən zəyifləmişdir (Örmeci, 2016: 153-155).

2017-ci il 7 May tarixində prezident seçilən E.Macron, Türkiyə - Fransa münasibətlərində özündən əvvəlki prezidentlərdən fərqli bir mövqey almışdır. Macron dövründə Fransa`nın istiqamətləndiyi Ultra Liberal və Avropa birliyi ideologiyası, sərhədlərin gücləndirilməsi və Avropa mədəniyyətinin mühafizə edilməsi, miqrasiyya axınlarının qarşısının alınması kimi mövzuları gündəmə gətirmişdir. Bu çərçivədə, tranzit ölkə mövqeyində olan Türkiyə üçün müsbət olmasına baxmayaraq, Almaniya və digər dövlətlərin Türkiyə`nin üzvlük prosesini əngəlləməsi, Fransa tərəfdən Türkiyə üçün yeni bir modelin ortaya çıxmasına səbəb olmuşdur ki, Macrona`a görə Türkiyə - Aİ münasibətləri, +Aİ üzvlük formasında olmalıdır (Günar, Akdoğan, Aras, 2018: 121-123).

Türkiyə`nin Aİ üzvlük prosesində Fransa kimi Almaniya da vacib təsirə sahibdir. Xüsusilə, 2008`ci il Almaniya`da CDU-CSU və SPD liderliyində yeni koalisyon hökumətin qurulması anti-Türkiyə hərakatını güclendirmişdir. Buna baxmayaraq, Türkiyə - Almaniya münasibətləri iqtisadi və hərbi məsələlər hər hansı problemlə qarşılaşmamış əksinə 2011`ci ildə başlayan Ərəb Baharı inqilab dalğası ilə güclənmişdir (Günar, Akdoğan, Aras, 2018: 26-28).

Fransa və Almaniya`nın əksinə Birləşmiş Krallıq, Türkiyə`nin Aİ üzvlük prosesini dəstəkləmişdir. Bu proses 2010`cu il 11 May tarixində Mühafizəkarların namizədi D.Cameron`un baş nazir seçilməsi ilə güclənmişdir. Buna baxmayaraq, BK özünündə Aİ`nın dövlətlərüstü siyasi təşkilat olması və universal

hüququn üzv dövlətlərin hamısında tətbiqi ciddi narahatlıq doğurması və digər iqtisadi-sosial səbəblərdən, BK, Aİ`ı üzvlüyündən ayrılmışdır. (Örmeci, 2016: 603).

## ƏDƏBİYYAT SİYAHISI :


1. ÇALIŞ, Ş, METKİN, K. (2017). "Algı ve Yanılgı": AB Normları, Türkiye`nin Üyeliği ve AK Parti`nin Rolü". Marmara Üniversitesi Avrupa Topluluğu Enstitüsü Avrupa Araştırmaları Dergisi, 25 (2), 1-39
2. DEDEOĞLU, B. (2011). "Türkiye'de AB Karşıtlığı-Küreselleşme Karşıtlığı İlişkisi". Uluslararası İlişkiler Dergisi, 7 (28), 85-109.
3. DENK. E. (2016) "Türkiye-Avrupa Birliği İlişkileri". Ankara Universitesi. Ankara
4. MOR, H. (2008). "Kıbrıs Sorununun Türkiye-AB İlişkilerine Endekslenmesi Süreci". Ankara Hacı Bayram Veli Üniversitesi Hukuk Fakültesi Dergisi, 12 (1), 983-1026
5. ÖZER, M. (2009). "Avrupa Birliği'ne Tam Üyeliğin Eşiğinde Türkiye. Yönetim ve Ekonomi". Celal Bayar Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 16 (1), 89-105
6. Örmeci, O. (2016). "Yakın Dönem Türkiye-Fransa İlişkileri: Hollande Döneminde Yaşanan Normalleşme ve Geleceğe Dair Öngörüler". Beykent Üniversitesi Sosyal Bilimler Dergisi, 9 (2), 0-0
7. GÜNAR. A, AKDOĞAN. M, ARAS. İ, (2018). "Fransanın Avrupa Birliği-Türkiye ilişkilerine etkisi". Conference: 4 th SCF International Conference on "Economics and Social Impacts of Globalization" and "Future Turkey-European Union Relations, (301)


# SEYSMOSTRATİQRAFİK TƏHLİL ƏSASINDA ŞİMALİ ABŞERON TEKTONİK HÖVZƏSİNİN MƏHSULDAR QATININ FORMALAŞMASININ PALEOCOĞRAFİ ŞƏRAİTİNİN ÖYRƏNİLMƏSİ


**Namazlı Nurlan Emin oğlu**

***Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutu, B. Lab***

***nurlannamaz@gmail.com***



**Açar sözlər:** seysmostratiqrafik təhlil, məhsuldar qat, Şimali Abşeron hövzəsi, qeyri-antiklinal tipli tələlər, paleocoğrafi şərait.


## SUMMARY

## THE STUDY OF PALEOGEOGRAPHIC CONDITIONS OF FORMATION OF PRODUCTIVE SERIES OF NORTHERN ABSHERON TECTONIC BASIN ON THE BASIS OF SEISMIC STRATIGRAPHIC ANALYSIS


The main oil and gas reserves of Azerbaijan Republic are concentrated in the Productive series of the Basin. Therefore, it is important to study the paleogeographic conditions of this serie. The paper deals with the study of paleogeographic conditions of formation of the Productive series of the Northern Absheron tectonic zone. The use of seismic stratigraphic analysis is important in solving these issues.

Изучение палеогеографических условий формирования продуктивной толщи Северо-Абшеронской тектонической зоны на основе сейсмостратиграфического анализа.



**Key words:** seismic stratigraphic analysis, Productive series, Northern Absheron basin, non-anticlinal traps, paleogeographic conditions.

**РЕЗЮМЕ**

Основные запасы нефтегазовых скоплений Азербайджанской Республики сосредоточены в Продуктивной толще бассейна. В этой связи, первоочередной является изучение палеогеграфических условий формирования этой толщи. В тезисе отражаются особенности формирования продуктивной толщи Северо-Абшеронской тектонической зоны и изучение его палегеографических условий.

Являясь "родиной", т.е. вместилищем запасов углеводородов, бассейн обладает высокой перспективностью на выявление неантиклинальных типов ловушек. Сесмостратиграфический анализ является важным инструментом при решении такого рода задач.

**Ключевые слова:** сейсмостратиграфический анализ, Продуктивная толща, бассейн Северного Абшерона, неантиклинальные ловушки, палеогеографические условия.

Məlum olduğu kimi, Pont əsrinin sonunda Paleoxəzərin səviyyəsinin kəskin enməsi nəticəsində məhsuldar qat hövzəsi Şimal Paratetisdən tam təcrid olunmuş, bu da Paleovolqa, Paleouzboy və Paleokür kimi çay sistemlərinin geniş inkişafına səbəb olmuşdur. Çöküntütoplanma prosesi müasir Cənubi Xəzərin hüdudunda yerləşən təcrid olunan erkən pliosen hövzəsində və bu hövzəyə tökülən çay arteriyalarında baş vermişdir. Məhsuldar qatın kəsilişi aşağıdan yuxarıya iri qırıntılı materialların ardıcıl olaraq çökdüyü qumlu-gilli, gilli-qumlu, bəzən kobud qırıntılı süxur qalıqlarından ibarət lay və dəstələrin ritmik növbələşməsindən ibarət olan qalın kontinental-dəniz çöküntüləri kompleksindən ibarətdir. Bu qatın tavanı və dabanının yaşı, müvafiq olaraq, 3,2 və 6,0 mln. il hesablanmışdır [1].

Şimali Abşeron hövzəsi kəsilişində sedimentasiya komplekslərinin öyrənilməsi, o cümlədən neft-qaz perspektivli obyektlərin (strukturların, tələlərin) axtarışı, onların təkamül prosesində mövcud olmuş paleohövzələrin genetik tiplərinin, çöküntütoplanmanın məxsusi şəraitlərinin öyrənilməsini şərtləndirir. Hövzənin paleocoğrafi şəraitinin öyrənilməsi neft-qaz perspektivli qeyri-antiklinal tipli tələlərinin (QAT) aşkarlanması baxımından çox vacibdir. Seysmik stratiqrafiya məhz bu kimi məsələlərin öyrənilməsində güclü alətdir.

Ümumi dərinlik nöqtəsi (ÜDN) üsulunun zaman kəsilişlərinin seysmostratiqrafik analizi QAT-ın axtarışı nöqteyi-nəzərindən Şimali Abşeron hövzəsinin yüksək perspektivə malik zona olmasını sübut edir. Öyrənilmişdir ki, lay dəstələri və qatların çöküntü hövzəsinin təbii sərhədləri yaxınlığında (strukturların qanad hissələrində) regional pazlaşması, layların qalınlığının erozion və tektonik səbəblərdən kiçilməsini şərtləndirən fasilələrin və uyğunsuzluq səthlərinin mövcudluğu, o cümlədən, gömülmüş relyefin konstruktiv formaları və ekzogen proseslər burada QAT-ın formalaşmasına səbəb olmuşdur. Hövzədə mövcud olan neft-qaz yığımlarının əsasən Məhsuldar qat (MQ) çöküntüləri ilə əlaqədar olması müəyyən edilmişdir. Burada, adətən, MQ-ın daban lay dəstələrində yerləşmiş litoloji-stratiqrafik tipli tələlər geniş yayılmışdır. Litoloji-paleocoğrafi şəraitlərin, həmçinin fasiyaların və qalınlıqların yayılma qanunauyğunluqlarının öyrənilməsi nəticəsində məlum olmuşdur ki, Abşeron arxipelaqının şimali-qərb hissəsi hüdudlarında litoloji-stratiqrafik yataqların axtarışı üçün Qala (QaLD), Qırməkialtı (QALD) və qismən Qırməki (QLD) lay dəstələri birinci dərəcəli obyektlərdir [2].

**<u>ƏDƏBİYYAT SİYAHISI :</u>**

1. Геология Азербайджана, том IV, Тектоника, Баку, Издательство "NaftaPress", 2005, с. 378-382

2. Ализаде А.А., Гулиев И.С., Мамедов П.З., Фейзуллаев А.А., Гусейнов Д.А.. Продуктивная толща Азербайджана. Издательский дом “Недра”, 2018 – Т. I.

# PLASTİK QABLAŞDIRMA TULLANTILARININ ƏTRAF MÜHİTƏ TƏSİRİ

**Namazov Asif Müşfiq oğlu**
***Mingəçevir Dövlət Universiteti***
***Elmi rəhbər Məmmədov Elşad Ərşad oğlu***

**Açar sözlər:** ətraf mühit, plastik tullantı, çirklənmə, polietilen torba, sağlamlıq.
**Keywords:** environment, plastic waste, pollution, polyethylene bag, health.
**Ключевые слова:** окружающая среда, пластиковые отходы, загрязнение, полиэтиленовый мешок, здоровье.

Ətraf mühit çirkləndiriciləri ilə mübarizədə ən ideal hal tullantıların yaranmasının qarşısının alınmasıdır. Müasir dünyada tullantısız və az tullantılı texnologiya problemi mövcuddur. Az tullantılı texnologiyaya az da olsa nail olunmuşdur. Bu məsələləri həll etmək üçün qapalı texnoloji proseslər tərtib edilməlidir.

Plastik qablaşdırma tullantıları ətraf mühiti çirkləndirən əsas faktorlardan biridir. Plastik torba və ya qablaşdırmadan orta hesabla 15-20 dəqiqə istifadə edilir və tullantı kimi ətraf mühitə atılır. Dünyada hər il 5 trilyon plastik torbadan istifafə olunur, bu təqribən 1 dəqiqədə 10 milyon plastik torba deməkdir. Plastikin tam çürüyərək yox olması üçün torpaqda 800-1000 il, dənizdə isə 40il lazımdır. Hesablamalara görə hər il dünyada 300 milyon ton plastik istehsal olunir. Hər il yüzlərlə heyvan və quş təbiətə atılan plastik tullantıların qurbanı olur. Okean səthinin ¼ hissəsi plastik tullantılarla örtülə bilər. Belə davam edərsə, 2050-ci ilədək okeandakı plastiklər balıqlardan çox olacağı güman edilir. Şimal dənizində bütün quşların 94%-nin mədəsində plastik tullantılara rast gəlinir. Plastik tullantıları quşlar qida kimi qəbul edir. Dəniz quşlarının 40%-i bu səbəbdən tələf olur. Dənizdə yaşayan 267 müxtəlif növ plastik tullantıların təsirinə məruz qalır.

Plastik məhsulların tərkibinin əsasını insan sağlamlığı üçün təhlükəli olan bisfenol-A maddəsi təşkil edir. Plastik tullantılar isti şəraitdə yağlar və turşularla təmasda olduqda, yuyulduqda insan sağlamlığı üçün təhlükəli maddələr ifraz edir. Plastik tullantılar yandırıldıqda da havanı zərərli maddələrlə çirkləndirir. Plastik istehsal edən zavodlar hər il atmosferə 400 min ton karbon qazı ($CO_2$) atır. Təqribən 800 növ canlı plastikdən zəhərlənmə təhlükəsi altındadır.

Sürətlə artan plastik məmulat istehsalı plastik tullantıların, o cümlədən plastik qablaşdırma tullantılarının daha böyük templə çoxalmasına təkan vermişdir. Bu baxımdan, artan plastik tullantıların ətraf mühitə və insan sağlamlığına təsiri səbəbindən plastik tullantıların yaranması tempinin azaldılması istiqamətində qlobal miqyasda bir sıra tədbirlər görülür. Bir çox Avropa ölkələrində plastik torbadan istifadəyə qadağa qoyulmağa başlanılmışdır. Almaniya, İtaliya, İngiltərə və başqa ölkələrdə çürüməyən torbalara mübarizə üçün onların qiymətlərinin qaldırılması və ya tam qadağan oluması fikrləri irəli sürülür. Hal-hazırda 50-dək ölkə plastik torbalardan, o cümlədən, plastik qablardan istifadəyə qadağa qoyub, onun istifadəsini məhdudlaşdırıb. Həmin ölkələrdə mağazalarda alıcılara parça çanta, kağız torba və ya təkrar istehsal olunan materiallardan hazırlanan torbalar təklif edilir. Şirkətlərin çoxu artıq ekoloji təmiz torba istehsal etməyə çalışır, onların tərkibində plastik maddə azlıq təşkil edir, çox hissəsi qarğıdalı və ya kartof nişastasından ibarətdir.

Plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi baxımından bu tullantıların səmərəli idarə olunması ilə bağlı tədbirlər görülməsi zəruridir. Son illərdə ölkədə bu istiqamətdə, o cümlədən ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadə, tullantıların utilizasiyası, təkrar emalı, təkrar istifadəsi, aztullantılı və ya tullantısız texnologiyaların tətbiqi hədəflərinə nail olmaq istiqamətində bir çox məqsədyönlü işlər görülmüşdür. Təbiəti mühafizənin və ətraf mühit keyfiyyətinin idarə olunmasının mühüm aspektlərindən biri də tullantıların minumuma endirilməsinə aid tədbirlərin görülməsidir. Maarifləndirmə tədbirlərinin bağçalarda, məktəblərdə, universitetlərdə və digər yerlərdə həyata keçirilməsi mütləqdir. Hər bir bələdiyyə orqanları tərəfindən müvafiq yerlərdə konteynerlər quraşdırılmalıdır. Daha sonra çeşidləmə işlərinin aparılması üçün konteynerlərin sayı 2-yə qədər artmalıdır: təkrar emala yararlı tullantılar (ilkin mərhələdə sadəcə bu materiallar: şüşə, plastik, kağız və karton) və

digər tullantılar. Yaşayış məntəqələrində yemək tullantıları üçün 3-cü ayrı konteynerin olması məqsədəuyğundur. Yalnız plastic tullantılar üçün nəzərdə tutulmuş konteynerlərin yanında mütləq "digər tullantılar" üçün də konteyner yerləşdirilməlidir. Bununla plastik konteynerlər üçün olan konteynerlərdə "digər tullantılar"ın mövcudluğunu azaltmaq mümkün olacaqdır [1].

Respublikamızda plastik tullantıların ətraf mühitə mənfi təsirinin azaldılması, alternativ qablaşdırma materiallarından istifadənin genişləndirilməsi məqsədilə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təbliğat və maarifləndirmə işləri aparılır. Eyni zamanda, plastik qabların toplanması üçün şəhərlərdə və rayon mərkəzlərində əhalinin cəmləşdiyi ərazilərdə xüsusi konteynerlər qoyulmuşdur. Həmçinin Azərbaycan Respublikası prezidentinin 07 fevral 2019-cu il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı" çərçivəsində görülməsi nəzərdə tutulan işlər nəticəsində plastik qablaşdırma tullantılarının ətraf mühitə. mənfi təsirinin azaldılması nəzərdə tutulmuşdur. Tədbirlər planının qəbul edilməsində məqsəd plastik tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi, alternativ qablaşdırma vasitələrindən istifadənin genişləndirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə müasir texnologiyalar əsasında yeni müəssisələrin yaradılması, təkrar emal bazarının möhkəmləndirilməsindən ibarətdir [2].

Ölkə Prezidentinin 26 noyabr 2020-ci il tarixli fərmanı ilə "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Qanun qəbul olummuşdur. "Ətraf mühitin mühafizəsi haqqında" Qanunun 46-maddəsinə "Qalınlığı 15 mikrona qədər olan polietilen torbaların,habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarəti, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadagandır"əlavə olunmuşdur. Bu qanunun müddəaları polietilen torbalara münasibətdə 1 yanvar 2021-ci ildən, birdəfəlik çubuq, çəngəl, qaşıq, bıçaq və stəkanlara münasibətdə isə 1 iyul 2021-ci ildən qüvvəyə minir. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə yeni 275.4 və 275.5-ci maddələri əlavə olunmuşdur. Bu maddələrin tələbləri pozulduqda inzibati xətanın bilavasitə obyekti olmuş plastik material müsadirə edilməklə vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək, hüququ şəxslər isə 3000 manatdan 4000 manatadək cərimə edilirlər. İnzibatı xəta cərımə qərarı qüvvəyə mindikdən 1 il müddətinə təktar törədilərsə onda plastik materiallar müsadirə olunmaqla vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək, hüquqi şəxslər isə 4000 manatdan 5000 manatadək cərimə edilirlər.

Hər birimiz ətraf mühitin mühafizəsi və insanların sağlamlıgı məqsədilə polietilen torbaların, plastik qabların alternativlərindən olan şüşə qablardan, parça və kağız torbalardan istifadəyə üstünlük verməliyik.

**ƏDƏBİYYAT SİYAHISI :**

1) www.eco.gov.az
2) Azərbaycan Respublikasının ətraf mühitə dair qanunvericilik toplusu - Ekologiya və Təbii Sərvətlər Nazirliyi - Bakı 2002

## TERRORİZMİN QLOBAL SƏVİYYƏDƏ FORMALAŞDIRDIĞI TƏHDİDLƏR VƏ BU PROSESDƏ QLOBALLAŞMANIN TƏSİR MEXANİZMLƏRİ

**Nəcəfli Röya**

**XÜLASƏ**

Qloballaşma ilə birlikdə dünayada terror təşkilatları da daxil olmaqla, bütün aktyorlar daha çevik, daha sürətli hərəkət edə, müxtəlif mənbələrə sahib ola və zaman zaman beynəlxalq qanunvericilikdən uzaq münasibətlərə sahib ola bilirlər. Bu vəziyyət təhlükəsizliyi digər dövlətlər üçün daha vacib və kritik bir fenomenə çevirir. Bu halda terror təşkilatları məlumatları, insan və iqtisadi qaynaqları daha asan əldə edə

və asan coğrafi hərəkətlilik sayəsində daha təsirli ola bilərlər. Rabitə və nəqliyyat vasitələri terror təşkilatlarını daha güclü və təsirli edə edir. Bu işin əsas məqsədi qloballaşmanın formalaşdığı şəraitdə terrorizmin dünyəvi səviyyədə yaratdığı təhdidlərin araşdırılması və müəyyən edilməsidir.

**Açar sözlər:** Terrorizm, qloballaşma, qlobal təhdidlər, sabitlik.

## РЕЗЮМЕ

## УГРОЗЫ ТЕРРОРИЗМА НА ГЛОБАЛЬНОМ УРОВНЕ И МЕХАНИЗМЫ ВЛИЯНИЯ ГЛОБАЛИЗАЦИИ НА ЭТОТ ПРОЦЕСС

В условиях глобализации все участники в мире, включая террористические организации, могут действовать более гибко, быстрее, иметь разные источники и время от времени поддерживать отношения, далекие от международного права. Эта ситуация делает безопасность более важным и критическим явлением для других государств. В этом случае террористические организации могут получить более легкий доступ к информации, человеческим и экономическим ресурсам и быть более эффективными благодаря легкой географической мобильности. Связь и транспортные средства делают террористические организации сильнее и эффективнее. Основная цель этой работы - исследование и выявление угроз терроризма в глобальном масштабе в условиях глобализации. Threats posed by terrorism at the global level and the mechanisms of influence of globalization in this process**.**

**Ключевые слова:** терроризм, глобализация, глобальные угрозы, стабильность.

## SUMMARY

With globalization, all actors in the world, including terrorist organizations, can act more agile, faster, have different sources, and from time to time have a relationship that is far from international law. This situation makes security a more important and critical phenomenon for other states. In this case, terrorist organizations can access information, human and economic resources more easily and be more effective due to easy geographical mobility. Communications and vehicles make terrorist organizations stronger and more effective. The main purpose of this work is to investigate and identify the threats posed by terrorism on a global scale in the context of globalization.

**Keywords:** Terrorism, globalization, global threats, stability.

Bugün dünya daha öncə də olduğu kimi, böyük bir dəyişiklik vəziyyətindən keçir. Dəyişiklik bugünkü dünyanın əsas xüsusiyyəti olaraq önə çıxmaqdadır. Həyatın gedişində dövlət və qeyri-dövlət aktyorları, həyatın sosial ünsürləri ciddi bir dinamizmdə yeni rol və vəzifələrə sahib olurlar.

Mövcudluğu, reallığı və vaxtı barədə müzakirələri bir kənara olmaqla, qloballaşma prosesi nəzərə alınaraq, bu, böyük bir transformasiyanın səbəbi və bəzən nəticəsi kimi ifadə edilə bilər. Qloballaşma prosesi ilə demək olar ki, dünyada heç bir şey eyni və ya köhnə vəziyyətində qalmır. İnsan populyasiyasındakı böyük artım, başgicəlləndirici dəyişiklik və iqtisadi inkişafın cəlbediciliyi, ictimai və siyasi hərəkatlar, dövlətlər arasındakı güc və maraq mübarizəsi qlobal dünyanın görünən üzünə çevrilmişdir. Sosial həyatın gücləndirilməsi və şaxələndirilməsi strukturu fərddən cəmiyyətə və oradan dövlət səviyyəsinə qədər təhlükəsizlik anlayışını şaxələndirir [2, 59].

Günümüzdəki çox qütblü qlobal səviyyədə dövlət və qeyri-dövlət aktyorlarının sayının artmasına əlavə olaraq keyfiyyət dəyişikliyi də diqqət çəkir. Bu çərçivədə, qeyri-dövlət orqanları dövlət mərkəzli qurumların yanında vacib və məcburi hala gəlmişdir. Terror təşkilatları hədəfləri, məqsədləri, metodları və miqdarları baxımından artmışdır.

Realistlərə görə, hər bir dövlət öz maraqlarını maksimum dərəcədə artırmağa çalışacağı üçün digər dövlətlərlə əməkdaşlıq etməməkdədir. Buna mənada realistlərə görə hər bir dövlət öz təhlükəsizliyini təmin etməli olacaqdır. Əksinə, liberallara görə isə dövlətlər müxtəlif əməkdaşlıq imkanlarını inkişaf etdirərək, beynəlxalq bir təşkilat, birlik yaratmalıdırlar. Beləliklə, beynəlxalq təhlükəsizlik qurulan beynəlxalq

təşkilatın dəstəyi və köməyi ilə təmin ediləcəkdir. Başqa sözlə, beynəlxalq təhlükəsizliyin beynəlxalq hüququn effektivliyini artırması və beynəlxalq təşkilatların dəstəyi ilə qlobal əməkdaşlığı təmin etməsi lazımdır. Çünki bir dövlət üçün tanınan təhlükə yalnız digər dövlətlərin fəaliyyətindən deyil, həm də qlobal istiləşmədən, ekoloji fəlakətlərdən və terrorizmdən qaynaqlanır. Dövlətlərin qlobal xüsusiyyətləri olan təhdidlərə qarşı iş birliyi oxunda birlikdə hərəkət etmək məcburiyyətində olduqları bildirilir [5, 127].

Terrorizm, soyuq müharibə dövründə böyük dövlətlərin bir-birlərinə qarşı istifadə etdikləri bir vasitə olaraq ortaya çıxmışdır. Başqa sözlə, Soyuq Müharibə dövründə terrorizm bir şəkildə dövlətlərin rəhbərliyi altında və ya ən azından onların nəzarəti altında işləmişdir. Terrorizmdən bir vasitə kimi istifadə edən blok dövlətlərdən biri olan Sovet İttifaqının dağılması, beynəlxalq terrorizmin quruluşunda ümumi beynəlxalq sistemdə göründüyü kimi bir sıra struktur dəyişiklikləri gətirdi. Bu baxımdan terrorizm Soyuq Müharibənin sona çatması ilə son böyük dəyişikliyini və çevrilməsini yaşadı. Sovet İttifaqının dağılması ilə sona çatan Soyuq Müharibədən sonrakı dövrdə beynəlxalq sistemdə köklü dəyişikliklər və yeniliklər baş verdi. Sözügedən dəyişikliklər beynəlxalq terrorizmə yeni ölçülər gətirdi [4, 567-588]

Terrorizm indi dövlətlər üçün çoxtərəfli birlik tələb edən bir fenomen kimi qəbul edilir. Dövlətlərin maraqlarına görə qarşıdurma terrorizmə qarşı mübarizədə əməkdaşlığı çətinləşdirir. Bu gün bəzi dövlətlər terrorizmə dəstək verə bilər, terror təşkilatlarının hərəkətlərini görməzdən gələ bilər və ya terrorizmə dözə bilər. Bu vəziyyət terrorizmlə mübarizənin həqiqətən çətin və çox amilli bir sahə olduğunu ortaya qoyur.

11 sentyabr 2001-ci ildə Əl-Qaidə terror təşkilatına üzv qəbul edilən bir qrup terrorçu, qlobal dünyada böyük əks-səda doğuran bir hərəkət etdi. Dünya Ticarət

Mərkəzinə və Müdafiə Nazirliyinin Pentaqonuna edilən hücumlar bir çox mülki şəxsin ölümü ilə nəticələndi. Hücumlardan sonra ABŞ terrorizmə qarşı mübarizəni milli ölçüdən götürəcəyini və beynəlxalq arenaya aparacağına dair mesaj verdi, sonra isə bu mesajları tətbiq etdi. Bu terror hücumlarından sonra ABŞ-ın dostu və düşməni əsaslı şəkildə dəyişdi. 11 sentyabr 2001-ci il terror hücumlarından sonra beynəlxalq münasibətlərin gündəminə "terrorla mübarizə" məsələsinin qoyulması buna dəlalət edir. Yaranan bu yeni terrorizm bu günə qədər konseptual çərçivəsini aşdı və indi daha dağıdıcı bir ölçü qazandı. Terror hücumlarından sonra hərbi müdaxilələri bir vasitə olaraq istifadə edən ABŞ, dünyanı öz maraqlarına uyğun şəkildə formalaşdırmaq üçün səy göstərdi [2, 131].

11 sentyabr hücumlarından sonra məhdud və yerli səviyyədə fəaliyyət göstərən terrorizm transmilli bir ölçü qazandı. Bu hücumların təsir və potensial baxımından terrorizmin qloballaşmasına və dünyaya yayılmasına səbəb olduğu barədə mübahisələr ümumiyyətlə qəbul edilir. Terror təşkilatları təsir və potensial səviyyələrini artırmaq üçün qloballaşma və texnologiyanın gətirdiyi fürsətlərdən faydalanmağa başladılar. Beləliklə, qloballaşma ilə birlikdə terror təşkilatları kodlaşdırdıqları elementləri düşmən olaraq təyin edə, yerli regionlar və sərhədlər xaricində də terror fəaliyyətlərinə başlaya bildilər. Əlavə olaraq, dünyanın bir ucundan digər ucuna bir dövlətin terror hücumlarına məruz qala biləcəyi və hətta ən varlı və inkişaf etmiş ölkələrin vurula biləcəyi bu dövr küçələrdə insanların psixoloji narahatlığına və şübhəsinə səbəb olmaqdadır.

11 sentyabr 2001-ci il terror hücumları nəticəsində dövlətlərin təhlükəsizlik anlayışlarındakı dəyişiklik dönüş nöqtəsinə gəldi. 11 sentyabr 2001-ci ildə baş verən terror hadisələri nəticəsində təhlükəsizlik anlayışının əhatə dairəsi xeyli genişləndi. Qlobal terrorizm, mütəşəkkil cinayət şəbəkələri, narkotik, silah və insan alveri, qanunsuz immiqrasiya və kütləvi qırğın silahlarının artması və s. buraya daxildir. Təhdidlərin meydana çıxması təhlükəsizlik konsepsiyasının beynəlxalq şəkildə yenidən təyin olunmasını zəruri etdi. Soyuq müharibənin sona çatması ilə ABŞ-ın suveren bir güc iddiası beynəlxalq mühitdəki qeyri-müəyyənliyi ortadan qaldırmadı. Qloballaşma prosesinin gətirdiyi iqtisadi və sosial sahələrdəki mənfi nəticələr ABŞ və Qərbə qarşı terroru alovlandıran ən vacib amildir.

Terrorizm, qloballaşmanın gətirdiyi fürsət və imkanlardan maksimum dərəcədə istifadə edərək, az xərclə böyük itkilərə səbəb olan fəaliyyətləri həyata keçirə bilər. İnformasiya-kommunikasiya və nəqliyyat texnologiyalarındakı sürətli inkişaf, qloballaşma ilə ölkə sərhədlərinin itməsi milli sərhədlərə nəzarəti əsaslı şəkildə çətinləşdirir. Bu vəziyyət, bir növ terror təşkilatlarının işini və terrorizmi bir fəaliyyət olaraq asanlaşdırır.

Bu şəkildə terror təşkilatları fəaliyyətlərini asanlıqla təşkil edə, mütəşəkkil cinayətkar təşkilatlarla qarşılıqlı əlaqələri inkişaf etdirə və dövlət nəzarətindən uzaqlaşa bilərlər [6, 154]. Məsələn, terror

təşkilatları kütləvi qırğın silahlarına çatmaq üçün mütəşəkkil cinayətkar təşkilatlarla əməkdaşlıq edirlər. Həmçinin, mütəşəkkil cinayətkar təşkilatlar terror təşkilatlarının insan, silah və narkotik qaçaqmalçılığı imkanlarından faydalanırlar. Bundan əlavə, təhlükəsizliklə əlaqəli təhdid anlayışları, sərhəd pozuntuları, terror təşkilatlarının beynəlmiləlləşməsi, terror təşkilatlarının müxtəlif millətlərdən üzv toplama qabiliyyəti, terrorizm və terror təşkilatları ilə əlaqəli problemlər çox ölçülü kompleks vəziyyətə çevrilir və vəziyyət bir çox ölkəni narahat edir. Terror təşkilatları sərhədləri aşan bir şəkildə fəaliyyət göstərir, qloballaşmanın gətirdiyi fürsətlərdən istifadə edərək, sərhəd boyu qazandıqları üzvlər vasitəsi ilə kamikadzelər təşkilatı bütün beynəlxalq aktyorların terrorla mübarizədə toplu şəkildə iştirak etmələrini tələb edir.

Şübhəsiz ki, bir terror təşkilatını gündəmdə saxlayan ən əhəmiyyətli xüsusiyyətlərdən biri, hərəkətlərini gözlənilməz bir anda həyata keçirmə bacarığıdır. Bu xüsusiyyət qloballaşma prosesi, məkan, zaman və s. b İlə sürətlə inkişaf edən texnologiyadan istifadə etmək qabiliyyətidir. fərqlər ilə təmin edilmişdir. Terror təşkilatları bu özünəməxsusluğunu itirməyə başladıqda, yox olma müddətinə girəcək və nəticədə yox olacaqlar. Bu səbəbdən müvəffəq olmaq üçün dəyişikliklərə uyğunlaşmalı və təsirli şəkildə dəyişməyi öyrənməlidirlər. Başqa sözlə, terror təşkilatları öz hərəkətlərini sürətlə dəyişən, təhdid edən və rəqabətə davamlı bir dünya sistemində apardıqları üçün hərəkət metodlarını və davranış qaydalarını dəyişdirməli olurlar.

1990-cı illərdə terror fəaliyyətinin metodları və ölçülərindəki ciddi dəyişiklik diqqət çəkməkdədir. İnsanların ən sıx olduğu anlarda cəmləşdiyi yerlərdə terror hücumları, çox yüksək dağıdıcı gücə sahib bomba istifadə edərək qırğınların edildiyi bir quruluşa çevrilmişdir. Terror təşkilatlarının fəaliyyət formalarında görülən fərqliliklərə əlavə olaraq, 1990-cı illərdəki hərəkət və dağıdıcı güc sayında əhəmiyyətli dəyişikliklər diqqət çəkir. Terror təşkilatlarının qloballaşması ilə birlikdə hərəkətlərin sayında azalma olsa da, hücumların dağıdıcı gücü artmışdır. Beləliklə, terror təşkilatları uzun müddətdir və qloballaşmadan istifadə edərək hədəflərinə çatmağı asanlaşdırırlar.

Demokratikləşə bilməyən cəmiyyətlər, məsələn, qloballaşmanın gətirdiyi təhsil, ədalət, səhiyyə və texnologiya və s. imkanlardan yararlana bilmir. Yaxın Şərq bölgəsinə qloballaşma çərçivəsində baxanda icmalararası və dövlətlərarası qarşılıqlı əlaqələr mövcuddur. Bölgədə qloballaşma ilə ortaya çıxan terror təşkilatları və hərəkətləri də dünyanın ortaq probleminə çevrilir. Suriya və İraqdakı vətəndaş müharibəsi və İŞİD kimi terror təşkilatları bunun ən yaxşı nümunələri kimi qəbul edilir. ABŞ-ın İraqdakı işğalından sonra ortaya çıxan güc boşluğu yeni aktyorların formalaşmasına zəmin yaratsa da, mövcud aktyorların bəzilərini ya gücləndirmiş, ya da zəiflətmişdir. Bu aktyorların ən başlıcası, şübhəsiz ki, özünü "İraq və Şam İslam Dövləti" kimi təqdim edən İŞİD terror təşkilatıdır. İraqın milli bütövlüyünü təhdid edən İŞİD terror təşkilatına qarşı bir aktyor olsa da, bu vəziyyət tərəflər arasındakı problemləri həll edə bilmədi [3, 147].

Suriyadakı müharibə və münaqişə mühitinin artması ilə yenidən gündəmə gələn İŞİD terror təşkilatı, qlobal terrorizm anlayışını ən yaxşı təyin edən təşkilatlardan biridir. Neft mənbələrinə yaxınlığı səbəbindən dünyanın ən zəngin terror qrupları arasında sayılan İŞİD, qloballaşmadan maksimum dərəcədə istifadə edir və bununla da dünyanın hər yerindən on minlərlə insanı özünə cəlb etməyi bacarır. Qloballaşma və texnoloji inkişaflarla birlikdə İŞİD internetdən, məlumat sistemlərindən və yazılı, vizual və sosial mediadan bir təbliğat vasitəsi olaraq çox təsirli şəkildə istifadə edir.

İŞİD qloballaşan dünya nizamının hakim prinsiplərini qəbul edir, habelə texnoloji inkişafları, xüsusən hərəkət formalarında, hərəkətin hazırlanmasında, planlaşdırılmasında və həyata keçirilməsində istifadə edir, beləliklə bugünkü qlobal bir yer qazanmaq üçün səy göstərdiyini ifadə edir. İraqda meydana gələn terror təşkilatı İŞİD, qloballaşmanın gətirdiyi fürsət və imkanlardan istifadə edərək dünyanın bir çox yerində müxtəlif terror hücumları edərək yerli bir terror təşkilatından qlobal bir terror təşkilatına çevrildi. 2015-ci ilin yanvarında Fransız jurnalında Charlie Hebdo, eyni ilin noyabrında Paris, 2016-cı ildə Fransada Nice və Belçikanın paytaxtı Brüsseldə müxtəlif hücumlar həyata keçirdi. Sözügedən təşkilat yenidən 2015-ci ilin yanvarında - 2016-cı ilin avqustunda Türkiyədəki 9 canlı bomba terror aktını icra etdi. Bu hərəkətlər Türkiyədəki bir çox əsgərin, polis və mülki insanların həyatını itirməsi ilə nəticələndir. Yanvar ayı, 2015 və avqust ayı, 2016-cı ildə Türkiyədə bir intihar bombasının-kamikadzenin həyata keçirdiyi aktlar da buna daxildir.

Qlobal dünyada dəyişikliklərin vacib bir sütununu təşkil edən təhlükəsizlik fenomeni indi iqtisadi, ekoloji və humanitar amillərlə əlaqələndirilir. Çox aktyorlu, çox elementli müasir dünya vəziyyətində bəlkə

də ən diqqət çəkən aktyor və hərəkət dəyişikliyi xüsusilə terror təşkilatları tərəfindən icra edilir. Terror təşkilatları hazırda qloballaşma ilə böyük iqtisadi imkanlar əldə edir və təşkilatların quruluşu daha mürəkkəb hala gəlir. Onların hərəkətləri çoxşaxəli olduğu üçün əldə etdikləri imkanlar sayəsində hərəkətlərinin əhatə dairəsi və təsiri də artmışdır. Bu dinamizm dövlətlərin və beynəlxalq ictimaiyyətin onlara qarşı dinamik münasibətlərini tələb edir.

Beləliklə, İŞİD və bənzər terror təşkilatları, hərəkətlərini elan etmək üçün qlobal dünyanın təqdim etdiyi fürsətlərdən maksimum dərəcədə istifadə edirlər. Peyk rabitəsi və rabitə texnologiyalarından internetə, kütləvi qırğın silahlarından asimmetrik müharibə taktikasına, təlim keçmiş, təchiz olunmuş və bacarıqlı üzvlər cəlb etmək qabiliyyətinə qədər bir çox faktordan əsaslı şəkildə istifadə edən terror təşkilatları, ictimai və siyasi vəziyyətə əsaslı şəkildə təsir edir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. Abdullayev A., Rəfiyev A. Beynəlxalq terrorizmin xronologiyası və kriminoloji aspektləri.- B.: 2006.- 294 s.
2. Akbaş Z. (2011). “ABD’nin Ortadoğu Politikalarının Sürdürülebilirliği ve Ortadoğu’da Güç Mücadelesi”, History Studies, ABD ve Büyük Ortadoğu İlişkileri Özel Sayısı, s. 1-18., 2014: 131
3. Akbaş Z. (2015). “İkinci Körfez Savaşı’ndan Günümüze Irak: Aktörler ile Çıkar Çatışmalarının Analizi”, Türkiye’nin Yakın Havzasındaki Devlet-içi Çatışmalarının Analizi, s. 139-172.: 147
4. Kanat S., Kodoman, T., İren A. A. (2016). “İnsani Güvenlik Ve Terörizmle Mücadele”, Cilt 21, Sayı 2, s. 567-588.
5. Sancak K. (2013). “Güvenlik Kavramı Etrafındaki Tartışmalar ve Uluslararası Güvenliğin Dönüşümü”, KTÜ Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 3, Sayı 6, s. 134.
6. Türköz Ş. (2016). “Küresel Terörizm Sorununa Güvenlik Perspektifli Bir Yaklaşım”, Niğde Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 9(2), s. 153-162.
7. Одесский М. Ф., Фельдман Д. М. Поэтика террора. – М.: РГГУ, 1997
8. Севдималиев Р. Международный терроризм – глобальная проблема современности.- Б.: Элм, 2004.- 294 с.


# AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN GENİŞLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ APARILAN İSLAHATLAR


**Nəcəfov Bəşər Ayaz oğlu**
***Mingəçevir Dövlət Universiteti, Magistrant***
***Elmi rəhbər: dos. Musayeva Cəmilə Qəzənfər qızı***



**Açar sözlər:** rəqəmsallaşma, rəqəmsal iqtisadiyyat, İKT, Qlobal Əlaqə İndeksi, “Azerbaijan Digital Hub”, rəqəmsal ekosistem.


İKT sektorunda gedən sürətli irəliləyişlər, qazanılan nailiyyətlər daimi şəkildə dəyişərək inkişafını təmin edən dünyamızda internetin bir çox sahələrdə yayğın olaraq tətbiqinə, rəqəmsal mühitdə reallaşdırılan əməliyyatların artmasına və yayılmasına səbəb olmuşdur. Qloballaşma ilə birlikdə ticarətin və digər əməliyyatların rəqəmsallaşması rəqəmsal iqtisadiyyat anlayışını ortaya çıxarmışdır. Rəqəmsal iqtisadiyyat sözü ilk dəfə Tapskott tərəfindən 1996-cı ildə nəşr olunan “Rəqəmsal iqtisadiyyat: şəbəkə əlaqəsi dövründə imkanlar və təhlükələr” adlı kitabı ilə iqtisadiyyata gətirilmişdir. Don Tapskott bu adlı kitabında rəqəmsal iqtisadiyyat anlayışının on iki fərqləndirici xüsusiyyətini bilik, rəqəmsallaşma,

virtuallaşdırma, kiçik parçalara ayırma, şəbəkələr arası əlaqə, vasitəçinin olmaması, yaxınlaşma, yenilikçilik, istehlak edərək istehsal, anlıq olma, qloballaşma, uyuşmazlıq olaraq müəyyən etmişdir.

Rəqəmsal iqtisadiyyatın yaranmasının əsasları günümüzə yaxın tarixlə bağlı olmasına baxmayaraq, artıq günümüzdə bazar kaiptallaşmasına görə ən böyük firmalardan çoxu rəqəmsal informasiyalarla işləyir və rəqəmsal platformalara əsaslanırlar. Bunlardan insanların böyük əksəriyyətinin gözəl tanıdığı “Uber”, “Airbnb” kimi firmalar məhz rəqəmsal əsaslara malik biznes modellərinə malikdirlər. Məsələn “Uber” dünya çapında böyük rəqəbatqabiliyyətli güclü bir taksi şəbəkəsi yaradıb. Amma şirkətin özünə məxsus xüsusi taksiləri yoxdur və bunun əvəzinə qeydiyyatdan keçən fərdi sürücülərin avtomobilləri onun adından xidmət göstərir. Yaxud digər adını qeyd etdiyimiz nümunə olan “Airbnb” rəqəmsal əsaslarla fəaliyyət göstərir və rəqəmsal iqtisadiyyatın əhatə dairəsində olan paylaşım iqtisadiyyatına çox gözəl bir nümunədir. Artıq iqtisadiyyatda bu cür rəqəmsal əsaslı biznes modellərinə malik quruluşlar dəyər yaratmağına və bazar kapitallaşmasına görə liderlik etməyə başlayıblar. Rəqəmsal texnologiyaların gün keçdikcə inkişafı, onların yayğınlaşması və “Sənaye 4.0”ın əsasını qoyduğu kiberfiziki sistemlər də bunu şərtləndirir.

Rəqəmsallaşmanın gətirdiyi imkanlar rəqəmsal iqtisadiyyatın formalaşmasında, onun təkmilləşməsində müstəsna rol oynmasına baxmayaraq, dünyanın hər yerində bərabər sürətlə getmir. İstər texnoloji inkişaf səviyyəsi və istərsə də dünya ölkələrinin internetə çıxış imkanları mütləq fərqləri özündə ehtiva edir. Bu hal bizə deməyə imkan verir ki, dövlətlər bu baxımdan inkişaf etmək üçün bir-biri müxtəlif səviyyələrdə rəqabət halındadırlar.

Qeyd olunanlar “Global Connectivity İndex” (Qlobal Əlaqə İndeksi) tərəfindən yayımlanan “Rəqəmsal iqtisadiyyat istilik xəritəsi”ndə də müşahidə olunur. Bu xəritədə ölkələr yeni başlayanlar, adaptasiya olanlar və qabaqcıllar olaraq müxtəlif kateqoriyalara bölünür. Bu dövlətlər təbiidir ki, reallığı göz önündə saxlayaraq yeni layihələr reallaşdırır, öz ölkələrində rəqəmsal iqtisadiyyat sahəsində hökm sürən vəziyyəti çox daha yaxşılaşdırmağa yönəlmiş tədbirlər planları hazırlayaraq tətbiq edirlər.

Bu xüsusda rəqəmsal iqtisadiyyat səhəsində Ölkəmizdə də yeni-yeni işlər görülür, yeni layihələrin reallaşdırılmasına başlanır. Azərbaycanda rəqəmsal iqtisadiyyat sahəsində çoxşaxəli və çoxsaylı işlər görülməkdədir və onlardan bir digəri “AzerTelecom” şirkətinin reallaşdırmaqda olduğu “Azerbijan Digital Hub” proqramıdır. Bu proqramın reallaşdırılma məqsədi “Made in azerbaijan” adı altında rəqəmsal xidmətləri yaratmaq və bu xidmətlərin qonşu regionlara ixrac olunmasıdır. Proqram çərçivəsində Azərbaycanın regioanda rəqəmsal mərkəzə çevrilməsi və bu regionlarda həyat fəaliyyətini davam etdirən əhaliyə təqdim olunan rəqəmsal xidmətlərin keyfiyyətinin artırılaraq yüksək keyfiyyətli olması məqsəd kimi qoyulmuşdur. Qeyd olunan layihə bir-neçə mərhələdən ibarətdir.

Ø Ölknin daxili və xarici məkanında rəqəmsal infrastrukturun dayanıqlı şəkildə qurulması;

Ø Ölkə paytaxtının “İnternet Mübadilə Məkəzi”nə çevrilməsi və iri məzmun provayderlərinin məlumatlarının sistemləşdirilmiş şəkildə burada saxlanılmasının təmin edilməsi. (Google, Facebook, Alphabet və.s);

Ø Ölkədə rəqəmsal ekosistemin formalaşması;

Bu Proqramın reallaşdırılması ilə ölkədə rəqəmsal ekosistemin, habelə rəqəmsal iqtisadiyyatın inkişaf etməsinə böyük təkan veriləcəkdir.

Azərbaycanda rəqəmsal iqtisadiyyat sahəsi ilə əlaqədar yerinə yetirilən işlərdən xüsusi yerə malik olan bir digəri isə “2018-2020-ci illərdə Azərbaycan Respublikasında Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət proqramı”dır. [7]

Proqramın məqsədi nağdız ödənişlərin və bu ödənişlər fonunda nağdız ödəniş dövriyyəsinin hə sürətləndirilməsi, həm də əhatə dairəsinin genişləndirilməsidir.

Ödənişlərin rəqəmsal şəkildə reallaşdırılmasının əhatə dairəsinin genişləndirilməsi dövriyyədə şəffaflıq yaratmaqla, nağd pula xərclərin, qurumların əməliyyat məsrəflərinin minumuma endirilməsinə zəmin verecək və vergi bazasının, həmçinin müəssisələrin və müştərilərin maliyyə sahəsində göstərilən xidmət növlərindən istifadə etməsinə əlçatanlılğının təmin edilməsinə, bank sektorunda investisiyaetmə, habelə kreditləşmə sahəsindəki imkanların çoxaldılmasına, bunun nəticəsində isə iqtisadiyyat sektorunun irəliləməsinə, nəticədə isə iqtisadi artımın böyüməsinə şərait yaradacaqdır.

Bu proqramın icrası ilə bilavasitə “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə rəqəmsal ödənişlərlə bağlı qarşıya qoyulmuş hədəflərə nail olmaq nəzərdə tutulur.

Rəqəmsallaşmanın artmsı ilə dünya dövlətlərində və o cümlədən Azərbaycanda "Elektron hökümət" formalaşdırılır. E-dövlət (hökümət) müasir informasiya texnologiyaların imkanlarından yararlanaraq müvafiq dövlət qurumları tərəfindən istər rezidentlərə, istərsə də qeyri-rezidentlərə informasiya və e-xidmətlərin təqdim edilməsinə imkan verir. Azərbaycan dünya praktikasını göz önündə saxlayaraq və real şərtləri nəzərə alaraq "bir pəncərə" prinsipi ilə, dövlət qurumlarının göstərdikləri xidmətlərin vahid halda cəmləşdirildiyi "Elektron hökümət portalı"nı yaratmışdır.

Vətəndaşlara göstərilən xidmətlərin xüsusi bir şəklə salınmış formada əlaqələndirilməsi prosesi "ASAN xidmət" mərkəzləri vasitəsilə həyata keçirilir. "ASAN xidmət" mərkəzlərinin təsis edilməsi göstərilən xidmətlərin bir nöqtədə cəmləşdirilməsi və oradan yayılması imkanlarını gün üzünə çıxarmışdır. Öz növbəsində bu aparılan proseslərin çevik, həm də bir mərkəzdən koordinasiya edildiyinə görə aydın olmasını şərtləndirir. "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. [3]

Rəqəmsallaşma və rəqəmsal fəaliyyətlərin iqtisadi önəmi nəzərə alınaraq, qeyd olunan istiqamətdə lazımlı məsələlər "Strateji Yol Xəritəsində" əks etdirilmişdir.

Rəqəmsal inkişaf, rəqəmsal iqtisadiyyatın yaranması dünya ölkələri ilə yanaşı olaraq ölkəmiz üçün də müəyyən şərtləri irəli sürür. Bunun üçün aşağıdakı təkfliflərə nəzər yetirmək lazımdır:

Ø Yeni texnologiyaların tətbiqi ilə dəyişən əmək tələblərini nəzərə almaq və rəqəmsal sahədə savadsızlığın aradan qaldırılması;

Ø Ölkədə rəqəmsal infrastrukrun yaradılması və rəqəmsal sahənin inkişafına xüsusi diqqət yetirilməsi;

Ø Bütünlüklə elektron sənəd dövriyyəsi tətbiq edilmədiyi üçün maddi daşıycılardan ibarət adi sənəd dövriyyəsi ilə onun arasındakı əlaqələrin tənzim oluması;

Ø Dövlətin, digər iqtisadi subyeklərin konfidensial xarakterli məlumatlarının sızması riskini nəzərdə saxlamaq və minimuma endirmək üçün tədbirlərin görülməsi;

## ƏDƏBİYYAT SİYAHISI :


1. Babu.R. (2003). The Digital Economy: Promise and Peril in the Age of Networket İntelligence by Don Tapscott. (14.03.2019)
2. "Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar" mövzusunda Beynəlxalq konfransın materialları. Bakı: UNEC-2020, 542 səh
3. https://www.asan.gov.az/az/about
4. https://mincom.gov.az/az/view/pages/57/
5. https://president.az/articles/21953
6. https://azertelecom.az/az/projects/key/
7. http://www.e-qanun.az/framework/40164


# SOSİAL KAMİLLƏŞMƏDƏ BƏDİİ ƏDƏBİYYATIN ROLU


**Nəsibova Ülkər Zahid qızı**
***Azərbaycan Dövlət Pedaqoji Unversiteti***
***Elmi rəhbər:Dos.S.A.Orucova***
**nsibovaulkr@gmail.com**



**Açar sözlər:** kamillik, təhsil, elm,ədəbiyyat, inkişaf, cəmiyyət.


## SUMARY


Fiction is the most optimal and understandable way to convey social and political, social ideas to the masses. It has a large readership to express even the deepest idea of fiction in images, and,

consequently, its sphere of influence is much wider. In particular, oral folk literature, the art of ashug, in fact, acts as a direct expression of the national spirit.

Problems of social perfection can never be associated with proverbs, instructive ideas, or hadiths that are not in pedagogical books. The role of complex dramatic perception to penetrate the deeper layers of the human psyche, the spiritual world, is undeniable.

**Key words:** perfection, education, science, literature,development, society

**РАЗЮМЕ**

Художественная литература - самый оптимальный и понятный способ донести до масс общественно-политические, социальные идеи. У него большая читательская аудитория, способная выразить в образах даже самые глубокие мысли о художественной литературе, и, следовательно, сфера его влияния намного шире. В частности, устная народная литература, искусство ашуга, по сути, выступает как прямое выражение национального духа.

Проблемы социального совершенства никогда не могут быть связаны с пословицами, поучительными идеями или хадисами, которых нет в педагогических книгах. Роль сложного драматического восприятия в проникновении в более глубокие слои человеческой психики, в духовный мир неоспорима.

**Ключевые слова:** совершенство, обучение, наука,литература, развитие. общество

Bədii ədəbiyyat insanın mənəvi,sosial inkişafı prosesində müstəsna əhəmiyyətə malik bir vasitədir.Dahi pedaqoq N.Çernışevskinin də qeyd etdiyi kimi, “elmi ədəbiyyat insanları nadanlıqdan, bədii ədəbiyyat isə kobudluq və bayağılıqdan qoruyur.”[1.səh.43]

Bəzən bədii ədəbiyyatı pedaqoji çərçivə ilə məhdudlaşdırırlar.Lakin ədəbiyyat elə böyük miqyaslı bir hadisədir ki, o, dərs prosesinə, bütövlükdə təhsil sisteminə sığışa bilməz. Bu baxımdan, bədii ədəbiyyatın tərbiyəvi rolu iki miqyasda nəzərdən keçirilməlidir. Birincisi, dar mənada, məktəb miqyasında, şagirdlərin dünyagörüşünü və bədii-estetik zövqünü formalaşdıran istiqamətlərdən biri kimi. İkincisi, insanı bütün ömrü boyu müşayiət edən, ancaq bədii oxu vasitəsi ilə deyil, həm də teatr, kino, televiziya vasitəsi ilə ona mənəvi-estetik dünya bəxş edən universal vasitə kimi.

İctimai və siyasi,sosial ideyanın geniş xalq kütlələrinə çatdırılmasının ən optimal və anlaşıqlı yolu bədii ədəbiyyat hesab olunur. Bədii ədəbiyyat isə ən dərin ideyanı da obrazlarla ifadə etdiyi üçün onun oxucuları çoxdur və deməli, təsir dairəsi də qat-qat genişdir. Xüsusən şifahi xalq ədəbiyyatı, aşıq sənəti əslində milli ruhun bilavasitə ifadəçisi kimi çıxış edir.

Sosial kamilləşmə problemləri heç də bəzi pedaqogika kitablarında olduğu kimi atalar sözləri, ibrətamiz fikirlər, hədislər vasitəsilə həll oluna bilməz. İnsan psixikasının, mənəvi aləminin daha dərin qatlarına nüfuz etmək üçün mürəkkəb dramatik təhkiyənin rolu danılmazdır. İnsanın mahiyyəti, iç üzü, siması,şəxsiyyəti,sosial yetkinliyi qəlbinin ən dərin güşəsində yerləşərək, gündəlik həyatda üzə çıxmayan həqiqi” Mən”i, eqosu məhz gərgin dramatik yaşantılar, sarsıntılar, iztirablar zamanı ortaya çıxır. Hər bir insan öz şəxsi həyatında həmin anları yaşamaya da bilər. Bədii ədəbiyyat, klassik ədəbi əsərlər insanları bədii obrazların yaşantılarına qoşmaqla, onlara öz qəlblərinin sirli-sehrli güşələrinə bələd olmaq, öz “Mən”lərini psixik səviyyədə, duyğularla ifadə etmək imkanı yaradır. Mənəvi kamillik yolu informasiya, soyuq bilik şəklində qəbul olunan aforizmlərdən, öyüd-nəsihətlərdən deyil, həyəcan və iztirablardan, təcrübələrdən, nümunələrdən, ülvi duyğulardan, gözəllikdən, katarsisdən(təssürat) keçir.

Ümumiyyətlə qədimdə də, indi də – bütün tarix boyu insan qarşısında eyni fəlsəfi problemlər dayanır. Bu ilk növbədə insanın cismi, nəfsi və mənəviyyatı arasındakı münasibət və mücadilənin şəxsi və sosial prizmada, ailə və tarix miqyasında fərqli təzahürləridir. Bir tərəfdən, cismani tələbat, nəfs və onun ödənilməsinə yönəldilmiş,bioloji və fizioloji üstünlük, var-dövlət, əmlak üstünlüyü və hökm, sahiblik, taxt-tac üstünlüyü, Başqa tərəfdən, maddi yükdən azad olmaq, imtina etmək hesabına daxili mənəvi yüksəliş, intellektual və əxlaqi üstünlükdür Sosial müstəvidə nəfs iqtisadi və siyasi prizmalardan keçərək başqa boyutlara girsə də, mahiyyəti olaraq eyni mənanı daşıyır.

Bədii ədəbiyyatda sosial çəhətdən kamil şəxsiyyət probleminə,insanın mənəvi missiyasına, dünya malına, var-dövlətə münasibətinə,yüksək əxlaqi normalar haqqında ən gözəl bədii təhkiyəyə malik olan nümunələr hesabsızdır deyə bilərik.Bu əsərlər onunla əlamətdardır ki, burada, bir birinə zidd olan maddi və mənəvi həyatlar arasındakı körpü maneələrlə dolu olur, bir tərəfdən maddiyyatdan, puldan imtinanın ən yüksək nümunəsi, digər tərəfdən də sərvətdən, var-dövlətdən, necə deyərlər, insanın kamilləşməsi üçün istifadəsi öz əksini tapmışdır.

Çox vaxt sosial kamilliyin də, mənəvi çöküşün də kökündə bu iki dünya arasında uyğunluq və fərq dayanır. İstək nə qədər güclü olsa və onun reallaşması nə qədər əlçatmaz olsa, faciə də bir o qədər qaçınılmazdır. Bu iki dünya arasında uyğunluq yaradılmasının bir yolu gerçək dünyadakı fəaliyyətimizi arzularımız istiqamətində formalaşdırmaqdırsa, digər yolu arzu və istəyin özünün reallığın imkanları yolunda tərbiyə olunmasıdır. Kamil insanlar məhz arzularını cilovlayır, cəmiyyətin qəbul etdiyi normalara riayət edirlər.İnsanla mühit arasında, bir əqidə ilə başqa əqidə arasında, eyni zamanda, ayrıca bir insanın daxili aləmindəki müxtəlif fikir və istəkləri arasında ziddiyyətlər bir-birini tamamlayaraq bütövlükdə dövrün sosial-siyasi və psixoloji-mənəvi səciyyəsini verir. Təbiət insana fikir, düşüncə, şüur kimi ən yüksək nemətlər bəxş edib. Yalnız insana məxsus olan bu nemətlər sayəsində insan təbiətin güzgüsü kimi ən yüksək məqama ucala bilib. Yer üzünün əşrəfi sayılan insan öz böyüklüyünü hər sahədə göstərib. Qədim yunan filosofu Protaqorun,,İnsan bütün şeylərin ölçüsüdür’’, Sokratın,,Özünü dərk et,, fikirlərində insan, onun həyatının mənası, əxlaq məsələləri,kamilləşməsi əsas yer tutur.Bütün zamanlarda insan, onun həyatı, mənsub olduğu cəmiyyət və mühit, ədəbiyyatın əsas mövzularından olmuşdur.

Tarixə nəzər yetirsək şahidi olarıq ki,bədii ədəbiyyat insana, onun mövcud olduğu cəmiyyətə əsaslı şəkildə təsir edir. «Bədii ədəbiyyat onu yaradanlarla dinləyicilər və ya oxucular arasında mənəvi körpüdür». Bədii ədəbiyyat hər bir insanın həyatda bir şəxsiyyət kimi formalaşmasında çıraq,tərbiyəçi,yolgöstərən və yaxud nümunə rolunu oynayır.Məhşur bir deyim var,,,Bədii əsərlər keçmişi öyrənmək üçün tarix elmi ilə yol yoldaşıdır. Tarix elmi hadisəni tarixən səciyyələndirir, bədii ədəbiyyat tarixi keçmişlərdə cəmiyyət həyatını bədii boyalarla canlandırır, onu sanki göstərir, gərəkli şeyləri sevdirə, lüzumsuz şeyləri pisləyə bilir,, Üstündən əsrlər keçsə də N.Gəncəvinin “Xəmsə”si tərbiyə mücəssəməsi,Fizulinin qəzəlləri daxili gözəllik abidəsi,Vaqifin qoşmaları duyğuların zirvəsi,Axundovun dramları cəhalətdən işığa pəncərədir.Bədii ədəbiyyat şəxsiyyət kimi yetişməkdə bələdçidir,yol göstərəndir.Yüzilliklər boyu Şirinin bəlalı həyatı gənc qızlar üçün ibrət dastanı., Otello və Yaqo surətləri rəğbət və nifrət duyğusunun formalaşmasının səbəbkarları., Fərhadın, Məcnunun macəralarındakı romantik zirvə gənclərin sevgi səcdəgahı olmuşdur. Bədii ədəbiyyat yalnız gəncliyə deyil, yaşlıların da həyat məktəbi olmuşdur. Nəsillər bir birini əvəz etsə də yetişməkdə olan nəsil «Xəmsə»dən, «Kitabi-Dədə Qorqud»dan, təriqət ədəbiyyatından, sufi şairlərdən,elm dühalarından,ədəbiyyatşünaslardan daim bəhrələnir,öyrənirlər, öyrəndikcə mənən zənginləşirlər, keçmişimizi görüb,yaşlı nəslin bizə ötürdükləri təcrübəni mənimsəmiş olurlar. Oxuculardan şair və yazıçılarımızın, dramaturqlarımızın aldığı yüzlərlə məktublardan məlum olur ki,bədii əsərlər şəxsiyyətə çox güclü təsir edir,nəinki onlar obrazları mənən yaşayır,hətta onların sonrakı həyatı,məcaralarının davamı oxucuları dərindən maraqlandırır, şəxsiyyətlərinə təsir edir. Mir Cəlalın «Bir gəncin manifesti»i əsərini oxuyan uşağ yazıçıya məktub yazır, Qumrunun körpə qızının ağaca dəyməsindən nigaran qalıb, onun sağ qalıb-qalmadığını soruşur. Belə faktlar çoxdur. Bədii ədəbiyyatın təsir gücü böyükdür. Əsrinin, zəmanəsinin övladı olan yazıçılar qabaqcıl fikirli «ictimai xadimdir», xalqın yolgöstərəni,tərbiyəçisi,kamillik zirvəsidir

Məsələn, XX əsr Maarifçilərinin apardıqları mübarizə,tutduqları yol xalq həyatı, mübarizə və arzularının təbliği üçün ən münasib, məqbul yol idi. Bu sənətkarlar xalqa nə demək lazım olduğunu bildikləri kimi, necə demək, hansı ədəbi formalardan, hansı sənət, üslub məharətindən faydalanmaq lazım olduğunu da yaxşı müəyyən etmişdilər. Bu sənətkarlar oxucunun qəflət yuxusunda ayıltmaq, onu mövhumi fikirlərin, vahimələrin, xürafatın paslı buxovlarından xilas etmək üçün münasib üsul və formalar arayıb axtarırdılar.İnsanları mənəvi inqilaba səsləyir,kamilləşmələrinə çalışırdılar.

Gördüyümüz kimi, bədii ədəbiyyatın gənc nəslin yüksək mənəvi prinsipləri əsasında tərbiyəsi və insan xarakterinin formalaşdırılması proseslərində rolu olduqca güclüdür. Ona görə də, cəmiyyətə nə kimi bir ədəbiyyat nümunələrinin təqdim və təbliğ edilməsi də çox önəmlidir. Çünki, ədəbi-bədii dünya çox genişdir və heç də bütün əsərlər tərbiyəvi yük daşımır. Böyük klassik ədəbi nümunələrlə yanaşı

«kütləvi mədəniyyət»ə aid olub, ancaq biznes maraqları güdən ədəbiyyat nümunələri də mövcuddur ki, o tərbiyənin pozulmasına xidmət edə bilər. Deməli burada da ənənəvi təzadla üzləşirik. Hər kəs öz maraqlarına və səviyyəsinə uyğun ədəbiyyat seçdiyi üçün bəlkə də yaxşı daha da yaxşılaşır, pis daha da pisləşir.İnsanların düzgün seçim edə bilməsi üçün bədii ədəbiyyat nümunələri haqqında ictimai rəy düzgün formalaşdırılmalı və insanların diqqətini məhz tərbiyəvi missiyalı əsərlərə yönəltməliyik. Burada isə ədəbi tənqidin rolu əsasdırr. Deməli, meyar rolunu ədəbiyyata peşakar münasibət,kamillik zirvəsinə ucalmağa xidmət edən ədəbiyyatların düzgün seçilə bilməsi üçün, ədəbi tənqid böyük rol oynayır. Buna görə də, məktəblərdə məhz hansı bədii əsərlərin tədris olunması məsələsi də metodşuralara tanınmış ədəbiyyat tənqidçilərinin daxil edilməsi sayəsində həll olunmalıdır.İnsanın bir şəxsiyyət kimi formalaşmasına xidmət edən əsərlər çoxaldılmalıdır.

Kamillik zirvəsinə ucalmağı bacaran ədiblərin təkcə yaradıcılığı deyil, həyat və fəaliyyəti də gənc nəsil üçün bir nümunə, əsl örnək olmalıdır. İdeal və gerçəklik, arzu, istək və real həyatın özü,insanın qəlbində, fikrində yaratdığı və yaşamaq istədiyi xəyali dünya, bir də yaşamağa məcbur olduğu gerçək dünya bu iki aləm arasındakı fərqi minimuma endirmək üçün insan ilk növbədə öz "mən"ini tapmalı,kamillik zirvəsinə ucalaraq,dünyanı və özünü dəyişdirməyi məqsəd seçməlidir.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Çernişevski.N."Nə etməli"Bakı.Gənclik-1987.705s
2. Əliyev.P,Əhmədov.H.Təhsil müəssisələrində tərbiyə işinin təşkili"Bakı.2004
3. Nəzərov.M.H.,Babayev.A.R."Şəxsiyyətin hərtərəfli inkişafında mədəniyyətin rolu" Pedaqoji Unversitet Xəbərləri (ADPU) Bakı 2012 N-³ səh30
4. Захотова.И.Н."Социальная педагогика. Москва.2006


## YENİ İŞĞALDAN AZAD OLUNAN REGİONLAR, ŞƏHƏRLƏR ÜZRƏ EKO SƏNAYE PARKLARIN YERLƏŞDİRİLMƏSİ


**Nəsrullazadə Zeynəb Səbuhi qızı**
***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***Rəhbər-dos. Y.Ə.Hacıyeva***
***zeyneb.nzade@gmail.com***



**Açar sözlər:** Eko Sənaye Parkı, regionlar, iqtisadiyyat,ətraf mühit.
**Key words:** Eco industrial park, regions, ecinimy, environment.
**Ключевые слова:** Эко индустриальный парк, регионы, экономия, Окружающая среда.


Azərbaycan ordusunun 2020-ci il sentyabr ayının 27-də Qarabağda başladığı uğurlu əməliyyat nəticəsində 30 il işğal altında olan torpaqlarımız azad olundu.

Azərbaycanın bu gözəl guşələrində Kəlbəcər-Laçın,Yuxarı Qarabağ regionları təbii sərvətlərlə zəngindir. Kəlbəcər-Laçın regionunda iqtisadi rayon ərazisində qızıl, civə, xromit, mərmər, üzlük tikinti daşları koral, perlit və s. faydalı qazıntı ehtiyatları vardır.Yuxarı Qarabağ regionunda isə təbii sərvətlərə polimetal filizləri, neft, təbii qaz, müxtəlif tikinti materialları (mərmər, sement xammalı, tikinti daşı) aiddir.

İşğal müddəti ərzində düşmən torpaqlarımızdan, təbii sərvətimizdən və ərazimizdə yerləşən sənaye sahələrindən istifadə etmişdir. Bu müddət ərzində ətraf mühitə yüksək dərəcədə zərər verilmişdir. Həm ətraf mühitin, atmosferin çirklənməsi, həm də təbii ehtiyyatların düzgün istifadə olunmaması, düşmənin torpaqlarımıza nə dərəcədə zərər yetirdiyini göstərir.

Beləliklə biz azad olunmuş torpaqlarımıza verilən zərərləri bərpa etmək, təbii sərvətlərimizdən, təbii ehtiyyatlarımızdan düzgün istifadə edərək iqtisadiyyatımızı və ölkəmizi inkişaf etdirə bilər, müasir dövrün tələblərinə cavab verə bilərik.

Eko sənaye parkları ekoloji və sosial baxımdan davamlı iqtisadi böyümənin yeni inkişaf edən bir hərəkətvericisidir.Eko sənaye parkları əhatəli və davamlı sənaye inkişafını təmin edir.

Bu regionlarda eko sənaye parklarının tədbiqi üçün regionların xarakteristikasını təyin etmək və lazımi münbit şəraitə yaradılmalıdır.

Yuxarı Qarabağ regional mərkəzinin inkişafında Ağdam, Kəlbəcər-Laçın regional mərkəzinin inkişafında isə Zəngilanda Eko parkların salınması daha məqsədə uyğundur. Eko parkların salınması hər iki region üçün həm yaranan ekoloji problemləri, həm də gələcək inkişaf, perspektivləri tənzimləməkdə respublikamız üçün öz müsbət təsirini göstərəcəkdir.

Eko Sənaye parklarının yaradılması, sənaye fəaliyyətləri arasında sinerjinin artırılmasının, mənbələrdən istifadənin səmərəliliyinin artırılması və paylaşılan infrastruktur və xidmətlərin təqdim edilməsinin təsirli bir yolu kimi qəbul edilir.

Layihə, təhlükəli tullantıların, istixana qazlarının və suyun çirkləndiricilərinin minimuma endirilməsi üçün təmiz texnologiyaların və tətbiqlərin ötürülməsini, yerləşdirilməsini və yayılmasını artırmağa və Yeni işğaldan azad olunmuş sahələrdə, sənaye zonalarında kimyəvi maddələrin sağlam idarə olunmasına istiqamətləndirilmişdir.

Sənaye zonaları çirklənmə, istixana qazı tullantıları və zəif iş standartları kimi mənfi ekoloji və sosial təsirləri cəmləşdirmə potensialına sahibdir. Sənaye istehsalını artırmaq istəyən inkişaf etməkdə olan iqtisadiyyatlar, daha geniş sosial hədəflərə çatmaq üçün iqtisadi böyüməni ətraf mühit və resurs səmərəsizliyindən ayırmalıdırlar. Eko-sənaye parkları firmaların rəqabət apara bilməsi üçün daha davamlı bir iş mühiti yarada bilər və resurslardan səmərəli istifadə və daha çox məhsuldarlıq hesabına iş yerləri yarada, eyni zamanda investorların sosial məsuliyyət hədəflərinə çatmalarını təmin edə bilər.

Eko sənaye parkları bizlərə sadalayacağımız bir sıra üstünlüklər təmin edir. Məs- Azaldılmış istehsal xərcləri və daha yaxşı ətraf mühit iştirakçı şirkətlər üçün performans, yerli və beynəlxalq rəqabət qabiliyyətinin artırılması və şirkətlərin gəlirliliyi, yeni, müasir vəziyyətə uyğun texnologiyalar, sənaye zonalarının səmərəliliyi, sənayenin ətraf mühitə qarşı mənfi təsirin azaldılması, işçilərin sağlamlığı və təhlükəsizliyi və sahələrdə yaxşılaşdırılmış ekoloji vəziyyət.

Bu cür parklar gələcək üçün əhəmiyyətli potensial olub, əhatəli və davamlı sənaye inkişafını təmin edir. Eko sənaye parkları ətraf mühiti, işçiləri və ictimaiyyəti qorumaqla birlikdə iqtisadi böyümənin necə təşviq ediləcəyi barədə ümumi bir anlayış yaradır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. https://www.economy.gov.az /article/sənaye-park /21403
2. https://www.unido.org/news /partners-launch-new-framework-eco-industrial-parks


## TƏRTƏR RAYONU ŞIXARX ƏTRAFI BİTKİLİYİNDƏ RAST GƏLİNƏN BƏZİ DƏRMAN ƏHƏMİYYƏTLİ BİTKİLƏR HAQQINDA MƏLUMAT


**Nəzərova G.X., Qurbanov E.M.**
***Bakı Dövlət Universiteti***



**Açar sözlər:** terpenoid, flavonoid, antioksidant, fungisid,sitronellol.
**Ключевые слова:** терпеноид, флавоноид, антиоксидант, фунгицид, цитронеллол.
**Keywords**: terpenoid, flavonoid, antioxidant, fungicide, citronellol.


Tədqiqat zamanı Tərtər rayonu Şıxarx ətrafının yarımsəhra bitkiliyində rast gəlinən dominant formasiyalar müəyyənləşdirilmiş, onların əmələ gətirdiyi fitosenozlar öyrənilmiş və bu fitosenozların növ tərkibinin flora konspekti tərtib edilmişdir. Həmçinin tədqiqat zamanı yarımsəhra bitkiliyinin dominant formasiyalarında rast gələnən bəzi nümayəndələrin bioekoloji xüsusiyyətləri, dərman əhəmiyyətli növlər, onların təsərrüfat əhəmiyyətləri öyrənilmiş və bu növlərin qorunması, mühafizə olunması yolları haqda təbirlər verilmişdir. [1]

Tədqiqat zamanı Tərtər rayonu Şıxarx ətrafının yarımsəhra bitkiliyində rast gəlinən dominant formasiyalar müəyyənləşdirilmiş, onların əmələ gətirdiyi fitosenozlar öyrənilmiş və bu fitosenozların növ tərkibinin flora konspekti tərtib edilmişdir. Həmçinin tədqiqat zamanı yarımsəhra bitkiliyinin dominant formasiyalarında rast gəlinən bəzi nümayəndələrin bioekoloji xüsusiyyətləri, dərman əhəmiyyətli növlər, onların təsərrüfat əhəmiyyətləri öyrənilmiş və bu növlərin qorunması, mühafizə olunması yolları haqda təbirlər verilmişdir. Bu zaman ərazidə rast gəlinən dərman əhəmiyyətli bitkilərdən Fumaria officinalis L.-Dərman şahtərəsi, İnula helenium L. -Uca andız, Tussilago farfara L.-Adi dəvədabanı, Matricaria chamomilla L.- Aptek çobanyastığı kimi dərman bitkiləri öyrənilmişdir. [2]

Tədqiqat işi zamanı ərazinin fiziki-coğrafi şəraiti, florası, bitkiliyi və digər xüsusiyyətlər öyrənilmişdir. Bu zaman müxtəlif ədəbiyyatlar əsasında ərazidə yayılmış növlərin bioekoloji xüsusiyyətləri, qida, yem, dərman, və başqa təsərrüfat əhəmiyyətləri araşdırılır. Bu məqsədlə ərazidən 100-ə yaxın herbari materialı toplanmış, Azərbaycan Respublikasının təbii yem sahələrinin irimiqdarlı geobotaniki tədqiqatına dair təlimat və təbii yem sahələrinin geobotaniki tədqiqatına dair metodiki göstərişlər əsasında analizlər aparılır. Bu bitkilərin floristik analizi aparılmış, onların həyati formaları, fenofazaları, ekoloji qrupları, endemikliyi, coğrafi və areal tipləri müəyyən edilmişdir.

Tərtər rayonu floristik cəhətdən çox zəngin bir ərazidir.Ərazidə geniş təsərrüfat əhəmiyyətli, kənd təsərrüfatı bitkiləri,ədviyyat, balverən, dərman əhəmiyyətli bitkilər geniş yayılmışdır.Onlardan rayonda rast gəlinən dərman əhəmiyyətli bitkilər haqda aşağıda məlumat veririk:

Cinsin nümayəndələrinin səbətlərinin alt tərəfləri bir neçə cərgə kirəmitvari sarğı yarpaqları ilə əhatə olunmuşdur. Sarğı yarpaqlarının forması və rəngi bu cinsin bir çox növlərinin əsas fərqləndirici əlamətlərindəndir. Xarici cərgədə yerləşən zarlı sarğı yarpaqları boyca qeyri-bərabər,daxili cərgədə olanlar isə bərbər olur. Səbətlərin tək və çoxsaylı olması növlərin təyinində əsas kriteriya hesab olunur. [3]

Yovşanların kökü çox vaxt odunlaşmış və yoğun (məsələn, A.vulgaris L. növündə olduğu kimi torpağa bərkiyən hissəsi yoğunlaşmış olur), bəzən uzunsov, daha dərinə gedən və həddindn çox yoğunlaşmış kökdən çoxlu miqdarda çoxillik budaqcıqlar ayıran (A.chamaelifolia Vill), nazik,şaquli (A.annoa L, A.scoparia Valst et Kitt ) mil kökə malik (A.splendens Vild, A.spicigera C.Koch), kökü şaquli yoğunlaşan (A.absinthium L.və A.capestris L.) [1]

Nəzərə alsaq ki, yovşan cinsinin növləri çox polimorfdur, onda bu növlərin təyinində xemotaksonomik,karioloji və s. tədqiqatların da aparılması vacib kriterilərdən sayılır.

Artemisia -yovşan cinsin növlərinin Azərbaycanın bitki örtüyündəki mövqeyini aydınlaşdırmaq üçün respublikamızın əksər bölgələrində ekspedisiya səyahətləri edilmiş və aparılan çöl müşahidələri zamanı cinsin florada yerləşmə qanunauyğunluğu müəyyənləşdirilmiş,bütün növlərin ümumi yayılma sahələri, bioloji və ekoloji xüsusiyyətləri öyrənilmiş, yayılma arealının xəritələri tərtib edilmişdir.

Tədqiqat aparılan ərazidə yayılan A.absinthium cinsin bütün morfoloji xüsusiyyətlərini əks etdirir, tərkibində terpenoidlər, flavanoidlər, alkoloidlər, qlükozidlər kimi bioloji fəal maddələrə rast gəlinir. Məhz buna görə də bu bitki, antioksidant, antiparazitar, antimikrob, fungisid xüsusiyyətlərə malikdir. [4]

Bədrənc (ballı nanə, limonotu, arıotu, balotu, batrinc və s.) - Melissa L.- Lamiaceae Lindl. – Dalamazkimilər fəsiləsinə aid olub, Aralıq dənizi ölkələrində, Qafqazda və Azərbaycanda bir növü - M.officinalis L.- dərman bədrənci yayılmısıdır. Azərbaycanın bir çox rayonlarında bitkinin yarpaqlarından mədə-bağırsaq xəstəliklərində, köpməyə, sancılara qarşı geniş istifadə olunur. Təəssüf ki, belə qiymətli dərman və ədviyyat bitkisi öz geniş istifadə imkanlarını tapmamışdır. Yerüstü hissəsi (yarpaq və budaqları) limon ətri verir. Gövdəsi düzbudaqlı olub nisbətən tükcüklüdür, hündürlüyü 50-100 sm-dir. Yarpaqları qarşı-qarşıya düzülmüş, saplaqlı yumurtavarı formadadır. Yarpağın alt tərəfi bozumtul-yaşıl rəngdədir. Yarpaqları nisbətən iridir, kənarlarında qırmızımtıl nöqtələr hiss olunur. Yarpaq ayasının uzunluğu 8-12 sm, eni 3-4 sm- dir. Çiçəkləri xırda, açıq-bənövşəyi və ya çəhrayıdır.

Çiçəkləməsi mayın axırlarından başlayır və iyulun axırlarına kimi davam edir. Bitkinin yerüstü zoğ hissəsində 0,33%, yarpaqlarında 0,1-0,3%, çiçəklərində 0,04-0,08% efir yağı vardır. Efir yağının tərkibinin çox hissəsini (60%) sitral aldehidi təşkil edir. Bundan əlavə tərkibində sitronellol, mirsen, geraniol, linalol və başqa ferhenlər, yarpaqlarında aşı maddələri (5%), qətran, selikli maddələr, qəhvə, ursol, oleanol turşuları və 150 mq %-C vitamini vardır. [3,4]

Fumaria officinalis, Papaveraceae xaşxaşçiçəklilər fəsiləsinə aiddir, bir illik çiçəkli ot bitkisidir. Fəsilənin Şimal yarımkürəsinin mülayim və subtropik rayonlarında yayılmış 45-dən çox cinsi və 700 növü var. Azərbaycanda isə 7 cinsi, 40-dan çox növü məlumdur. Qərbi və Mərkəzi Avropada Fumaria cinsinin ən çox

yayılmış növü məhz F.officinalisdir. F. officinalis, yarımfəsilənin Azərbaycanda ən geniş yayılmış növü olub, bitkinin budaqlarının uzunluğu təxminən 10-50 sm olan zəif dik qalxan ot bitkisidir. Çiçəkləri ziqomorf olur. İkiüzvlü çiçək yanlığının olması xarakterikdir. Ləçəklərin sayı 4, nadir hallarda çoxdur, iki dairədə düzülmüş olur. Bitki ümumiyyətlə hər sünbüldə 20-dən çox və 60-a qədər çiçək olur. Erkəkciklər 8 və ya 2 ədəd olur. Yumurtalıq üstdür, 2-20 meyvə yarpağının birləşməsindən əmələ gəlmişdir. Dişicik oturaqdır. Meyvə bir toxumlu olan qutucuq və ya fındıqcadır. Toxumlar endospermli və kiçik rüşeymlidir. Bu bitkilər üçün süd boruları xarakterikdir. Tərkibində alkoloidlər vardır. Alkaloidlər, kalium duzları və tanenlərdən ibarətdir və eyni zamanda fumarin turşusunun mənbəyidir. Birillik ot birkisidir, mil ök sisteminə malikdir, gövdəsi yaxşı inkişaf etmişdir, budaqlanandır, 10-40 sm-ə qədər çatan hündürlüyə malikdir. Yarpaqlar böz rəngli, çoxqatlıdır, yarpaq ayası dilimlənmiş olur. Çiçəklər xırda ölçülü olub, sıx olmayan salxım çiçək qrupunda toplanır. Xırda çiçəkləri xəttşəkilli, uzunsovdur. Çiçəkləmə III-VI aylar.Tac çəhrayı rəngli, 7-9 mm diametrində olur, çiçək qrupunun zirvəsində toplanmış çiçəklərdə isə 2 mm- olur. Yumurtalıq üst vəziyyətdədir. Meyvəsi yumurtaşəkilli qozmeyvədir. [2,4]

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ələsgərova Ə.N., "Azərbaycan florasının yovşan (Artemisia L.) növləri və onların xemotaksonomiyası, Bakı - 2012.
2. Qurbanov E. M. "Ali bitkilərin sistematikası" Bakı Dövlət Universiteti nəşriyyatı, Bakı -2009,420 s.
3. Qurbanov E.M. "Dərman bitkiləri " Bakı -209, "Bakı universiteti" nəşriyyatı, 360 s.
4. Mustafayeva İ.R., İbadullayeva S.C., Ələkbərov R.Ə., İsmayılov A.H., Qasımov H.Z., Qasımova Ş.Ş., " Farmokoqnoziya Botanikanın əsasları ilə", "Əcəmi" Nəşriyyat- Poliqrafiya Birliyi. Naxçıvan, 2015, 648 s.

# SOSİAL ŞƏBƏKƏDƏN İSTİFADƏ RİSKLƏRİ VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

**Nəzərova Rəfiqə Xudaverdi qızı**
***Azərbaycan Texniki Universiteti1***
***Elmi rəhbər: t.f.d., Orucova Milana Yaqub***

## XÜLASƏ

Aparılan tədqiqatlar nəticəsində son bir ildə dünyada ən çox ziyarət edilən ilk yeddi veb saytdan üçünün sosial şəbəkə olduğu müəyyən edilmişdir. Sosial şəbəkələrədən istifadənin günü-gündən artması və özüylə bərabər bir sıra təhlükəsizlik problemləri gətirməsi mövzunu kifayət qədər aktual edir. Məqalə sosial şəbəkədən istifadə ilə əlaqəli risk faktorlarının analizi və informasiya təklükəsizliyi problemlərinin tədqiqinə həsr olunmuşdur.

**Açar sözlər:** Sosial şəbəkə, informasiya, informasiya təhlükəsizliyi, gizlilik, big data.
**Keywords:** Social networking, information, information security, privacy, big data.
**Ключевые слова:** социальные сети, информация, информационная безопасность, конфиденциальность, большие данные.

Xüsusilə rəqəmsal və mobil texnologiyalardakı inkişaflar nəticəsində son iyirmi ildə sosial şəbəkələr olduqca sürətli inkşaf etmiş və bununla bərabər günümüzə sosial şəbəkə ilə bağlı ciddi kibertəhlükizlik təhdidləri də gətirmişdir. Sosial şəbəkələrin "gücü" rəqəmsal verilən formasında olan məlumatdır. Məlumat həmişə olduğu kimi bu gün də ən vacib güc mənbəyidir. Belə ki, sosial şəbəkələrdəki məlumatların toplanması, saxlanması və istifadəsi dövlətlər üçün təhlükəsizlik problemi yarada bilər. Sosial şəbəkədəki məlumatların köməyi ilə bir cəmiyyətin "sosial gen xəritəsi" və ya reaksiya formulu tərtib edilə və sosial qarışıqlığa səbəb olar bilər. Hamımıza aydındır ki, bu kimi sosial qarışıqlıqlar, cinayət, terror və ya siyasi manipulyasiya kimi məqsədlər üçün əlverişli mühit yaradır. Sosial şəbəklərdəki məlumat bazası topluma anlıq, saatlıq, gündəlik, həftəlik və aylıq duyğu, düşüncə və reaksiya funksiyasının formalaşmasına kömək

edə bilər. Bunun nəticəsində hədəf auditoriyasını idarə etmək daha asan olur. Bütün bu hallarla mübarizə aparmaq və kibertəhlükəsizliyi təmin edib, qorumaq ciddi məsuliyyət tələb edən bahalı bir işdir.

Sosial şəbəkədə toplanan məlumatların təhlili sayəsində bir insanın sağlamlığı, ailəsi , maddi durumu, yaşadığı ərazi və s məlumatlar müəyyən edilə bilər. Eyni zamanda bu məlumatlar satıla və ya birbaşa istifadə edilərək "mənfəət" və ya "təsir" üçün istifadə edilə bilər. Bu gün hamımıza məlumdur ki, istifadəçi kütləsi geniş olan platformalar müəyyən alqoritmlər daxilində xəbərləri və paylaşımları yönəldə bilməkdədirlər. Bu səbəbdən sosial şəbəkələrdəki məlumatlar təkcə ticarət müəssisələri üçün deyil, eyni zamanda hökumətlər, müxtəlif dövlət təşkilatları, cinayətkarlar, terror təşkilatları və s. üçün də son dərəcədə əhəmiyyətlidir. Bunun nəticəsində həm dövlət qurumları, həm də özəl şirkətlər büdcələrinin böyük bir hissəsini bu kibertəhlükəsizlik sahəsindəki fəaliyyətlərə ayırırlar [1, 56].

Sosial şəbəkələr vasitəsi ilə dövlətlərin belə əldə edə bilmədikləri bir miqyasda "sosial məlumatlar" bir neçə ölkədəki serverlərdə saxlanılır. Bu "böyük məlumatlar" ın (big data) lazım olduqda iqtisadi, siyasi və beynəlxalq əlaqələrin mənafeləri üçün istifadə oluna biləcəyinə dair ciddi narahatlıqlar var. Hər hansı bir ölkənin cəmiyyətinə aid sosial məlumatlarının xarici ölkə serverlərində davamlı olaraq toplanıb, saxlanılması çox ciddi bir təhlükəsizlik problemidir.

Sosial şəbəkələrlə əlaqəli başqa bir risk faktoru da istifadə edilməyən hesablardır. Beləki, cinayətkarlar parolu təhlükəsizlik qaydalarına uyğun olmayan və istifadə olunmayan hesab və oyunlardan hesab sahibi adına paylaşım edə ,şərh və ya mesaj yaza bilərlər [3, 310-311].

Fotoşəkil, video, yer və məkan məlumatları vasitəsi ilə hər cür şəxsi məlumatların paylaşıla biləcəyi sosial şəbəkələrdə təhlükəsizlik və məxfilik parametrlərinə kifayət qədər diqqət yetirməyən və standart seçimlər səbəbi ilə icazə verdiklərinin fərqində olmayan istifadəçilər özləri də fərqində olmadan bir çox risklə qarş-qarşıyadırlar. Məsələn, sosial şəbəkələr vasitəsilə linkləri paylaşılan və adətən naməlum mənbələrdən yüklənən tətbiqetmələrdə həddindən artıq çox şəxsi məlumat və icazə tələb olunur : dost siyahılarına və profil məlumatlarına, kamera, mikrofon və məlumat bazasına daxil olmağa icazə vermək, istifadəçi adından paylaşım etmək və bəyənmək, mesajları oxumaq və söhbətləri dinləmək və s . Bunları diqqətlə oxumadan keçən və bu naməlum mənbələrdən endirilən təqbiqlərə “lazımlı icazələri” verən istifadəçilər adətən gələcəkdə ciddi problemlərlə qarşılaşır.

Ağıllı telefonlar və ya digər cihazlarla çəkilən şəkillərə çox zaman coğrafi yer məlumatları (EXIF) (tarix, yer, ölçü, cihaz məlumatları və çəkiliş parametrləri) daxil olmaqla çox vaxt istifadəçidən xəbərsiz və adətən avtomatik olaraq əlavə olunur. Məsələn, rəqəmsal kameralar və ya ağıllı telefonlarla çəkilən foto faylına, həmin fotonun harada çəkildiyi barədə coğrafi yer məlumatları əlavə olunduğundan, onları sosial şəbəkələrə yüklədiyiniz andan etibarən həmin şəbəkələrin məlumat xidmətləri bu fotonun metaverilənlərinə avtomatik daxil olub onları öz bazasına daxil edir. Bundan əlavə, paylaşılan şəkillərə daxil ola bilən hər hansı digər sosial şəbəkə istifadəçisi də bu fotonu öz kompüterinə yükləyə və EXIF metaverilən göstərmə vasitələri ilə məzmunun metadatasında olan coğrafi yer məlumatlarına asanlıqla daxil ola bilər. Və bu məlumatları Google Maps və ya Google Earth kimi vasitələrə daxil edərək yerin ünvanı saniyələr içində əldə edə bilər.

Sosial şəbəkələrdəki məzmunlar xidmət göstərən şirkətin sistemində saxlanılıb “ehtiyat nüsxə” üçün bazalaşdırıldığından bu məlumatlar üçüncü şəxslər və ya təşkilatlar üçün əlçatan ola bilir. Mesajlaşma proqramlarında silinmiş mesajlar və ya məzmunlar adətən dərhal silinmək əvəzinə tətbiqin verilənlər bazasında məntiqi olaraq silinmiş kimi qeyd olunsada, yeni mesajlar əlavə olunanadək köhnə mesajlar bazada bir müddət daha qalır və əlçatan olur [2, 11-12] .

SMS (Short Message Service) olaraq tanıdığımız qısa mesaj xidməti mesajların tamamilə şifrəsiz göndərildiyi bir xidmətdir. SMS vasitəsilə göndərilən mesajlar alıcılarına çatdırılmaq üçün olduğu kimi-yəni mətn formatında mobil rabitə operatorunun serverlərinə ötürülür. Mobil xidmət operatorunun serverlərinə gələn mesaj buradan alıcının telefonuna göndərilir. Bütün bu ünsiyyət zamanı göndərilən mesaj məzmunu mətn formatında olduğundan hər kəs tərəfindən oxunula bilər.

Sosial şəbəkələr vasitəsi ilə dövlətlərin belə əldə edə bilmədikləri bir miqyasda "sosial məlumatlar" bir neçə ölkədəki serverlərdə saxlanılır. Bu "böyük məlumatlar" ın (big data) lazım olduqda iqtisadi, siyasi və beynəlxalq əlaqələrin mənafeləri üçün istifadə oluna biləcəyinə dair ciddi narahatlıqlar var. Hər hansı

bir ölkənin cəmiyyətinə aid sosial məlumatlarının xarici ölkə serverlərində davamlı olaraq toplanıb, saxlanılması çox ciddi bir təhlükəsizlik problemidir.

**Nəticə**

Tədqiqatdan da məlum olduğu kimi, sosial şəbələrdəki gizlilik və informasiya təhlükəsizliyi riskləri müasir dövrümüzdə hələ də aktual olaraq qalmaqdadır. Günümüzdə bir çox sosial şəbəkə istifadəçiləri hələ də bu təhlükə və risklərdən xəbərsizdir ki, məqalədə bu təhlükə və risklər tədqiq olunmuş, risklərə "fərd","cəmiyyət" və "dövlət" aspektindən yanaşılmışdır. Sonda nəticə olaraq bunu xüsusi qeyd etmək labüddür ki, şəxsi məlumatlar dövlət səviyyəsində qanunla qorunsa da, rabitə, əyləncə və ticarət əsaslı fəaliyyət adı altında toplanan "sosial məlumatlar" qorunmamaqla bərabər ölkə xaricindəki serverlərdə saxlanılmaqdadır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Hekkala, R., Väyrynen, K., & Wiander, T. (2012). Information Security Challenges of Social Media for Companies.
2. Kim, H. J. (2012). Online Social Media Networking and Assessing Its Security Risks.
3. Verma, A., Kshirsagar, D., & Khan, S. (2013). Privacy and Security: Online Social Networking.


# (2*E*, 4*E*)-1-(2-HİDROKSİFENİL)-5-FENİLPENTA-2,4-DİEN-1-ON ƏSASINDA PİRAZOL VƏ TİAZOL TÖRƏMƏLƏRİNİN SİNTEZİ

**Niftullayeva S.Ə., Məmmədova Y.V., Məmmədov İ.Q.**
***Bakı Dövlət Universiteti***

**Açar sözlər:** xalkon, pirazol, tiazol
**Key words:** chalcone, pyrazole, thiazole
**Ключевые слова:** халкон, пиразол, тиазол

Məlumdur ki, xalkonlar əsasında sintez olunan birləşmələr bakteriya-, göbələk-, vərəm-, xərçəng-, virus-, iltihab-, malyariya-, və s. əleyhinə bioloji aktivliyə malikdirlər. Müxtəlif quruluşlu pirazol nüvələrinin iştirakı bu birləşmələrin dərman kimyası, kənd təsərrüfatı və s. kimi sahələrdə tətbiqinə imkan yaradır [1-3].

Göstərilənlər nəzərə alınaraq, (2*E*, 4*E*)-1-(2-hidroksifenil)-5-fenilpenta-2,4-dien-1-onun tiosemikarbazid və alınmış tiosemikarbazonun monoxlor sirkə turşusu ilə kondensləşmə reaksiyaları öyrənilmiş, (*E*)-3-(2-hidroksifenil)-5-stiril-4,5-dihidro-1*H*-pirazol-1-karbotioamid (1) və (*E*)-2-(3-(2-hidroksifenil)-5-stiril-4,5-dihidro-1*H*-pirazol-1-il)tiazol-5(4H)-onun (2) alınması müəyyən olunmuşdur.




(1)




(2)

Sintez edilmiş birləşmələrin quruluşu NMR spektroskopiyasının köməyilə təsdiq olunmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. K.Karrouchi, S.Radi, Y.Ramli, J.Taoufik, Y.N.Mabkhot, F.A.Al-aizari, M.Ansar, Molecules journal, 2018, 23(134), p. 86
2. M.F.Mohamed, M.S.Mohamed, S.A.Shouman, M.M.Fathi, İ.A.Abdelhamid, Appl Biochem Biotechnol, 2012, 168, p. 1153
3. N.M.M.Hamda, N.Y.M.Abdo, Molecules journal, 2015, 20, p. 10468

## "GEOLOJİ MÜXTƏLİFLİYİN" MÜQAYİSƏLİ ANALİZ İLƏ ÖYRƏNİLMƏSİ

**Ocaqov Hüseyn**
*ADNSU, magistrant*
*Rəhbər: dosent F.F.Məhərrəmov*

Dağ süxurlarının litologiyası və onları doyduran flüidlərin fiziki, kimyəvi və digər xassələri sahə və kəsiliş boyu (son nəticədə həcm üzrə) dəyişir. Bununla əlaqədar "Geoloji müxtəliflik" məfhumu istifadə olunur və geoloji obyektlərin strukturlarının o xüsusiyyətlərini təsvir olunmasına kömək edir ki, onlar qərarların qəbul edilməsinə öz təsirini göstərir. Qeyd etmək lazımdır ki, geoloji tədqiqatların, yaxud işlənilmə proseslərinin idarə olunmasının son məqsədlərinə nail olma yollarının effektivliyi geoloji mürəkkəb sistemin öyrənilməsindən asılıdır.

Bu sistem haqqında təsəvvürlər müəyyən qoyuluşlar əsasında qurulur. Onun mürəkkəbliyi elementlərin böyük sayı və onların arasında müxtəlif nisbətlər çoxluğu ilə ifadə olunur. Bu kimi baxımdan məruzədə bir neçə geoloji cisimin müəyyən parametrin müxtəliflik dərəcəsi öyrənilmişdir. Məsələ, tektonik qırılmalar ilə sərbəst istismar obyektlərinə (bloklara) ayrılmış hipotetik neft yatağında həll edilmişdir. Yatağın bu obyektlərinin lay sularının hidrokimyəvi göstəricilərinin müxtəlif dəyişmələri müəyyən edilmişdir. Hidrokimyəvi göstəricilərdən daha informasiyadaşıyıcı olan suların ümumi minerallaşma qiymətləri riyazi geologiyada istifadə olunan parametrlərin oxşarlıq dərəcələrinin müqayisəli analizın köməyi ilə statistik qiymətləndirilmişdir. Nəticələr müvafiq qrafikdə təqdim olunur. Yatağın lay sularının hidrokimyəvi göstəriciləri müqayisəli təhlil edilərək onların müxtəliflik dərəcəsi Fişer və Bartlet parametrik statistik meyarların köməyi ilə müəyyən edilmişdir. Nəticədə yatağı parçalamış tektonik qırılmaların ekran xarakteri statistik baxımdan qiymətləndirilmişdir. Tektonik qırılmalarla mürəkkəbləşmiş yataqda lay sularının ümumi minerallaşma qiymətinin paylanması xüsusi sxemdə təsvir olunur. Sistem baxımdan geoloji müxtəlifliyi səciyyələndirən digər lay parametrləri də təhlil üçün cəlb edilərək müqayisəli analiz olunmalıdır.

## HEYDAR ALIYEV IN AZERBAIJAN HISTORY

**Orucova Sugra**
*Master's degree (History faculty), Baku State University*
*Dos. Aydın Mammadov*

**Açar sözlər**: Heydər Əliyev, Azərbaycan, inkişaf, xalq.
**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, развитие, народ.
**Key words:** Heydar Aliyev, Azerbaijan, development, nation.

This article is dedicated to Heydar Aliyev's great achievement for Azerbaijani nation and his policy which was taken throughout his activity and mainly the success of that. Heydar Aliyev considered as a hero and legend for Azerbaijan people because he did a lot of great things which opened the way for the creation

of today Azerbaijan Republic, and He holds a special place in Azerbaijan history. Heydar Aliyev made great works for Azerbaijani nation and for achievement independence. That was successful because of his heroism which was showed during those years [3,7].

Now I want to write all events using the historical side. In the context of the existence of an independent state, it is important to pay special attention to the wider study, teaching and promotion of official history, the history of statehood. Because the teaching of official history, which expresses the will of the people, unites the people, unites them and strengthens the state. A strong state means a strong citizen, regardless of political position and affiliation. It is known that in the absence of an independent state of the people, any action against the central government in the interests of the people is assessed positively in terms of the history of the people, and negatively in terms of official history.

During the early leadership of Heydar Aliyev (1967-1982) great works were taken by him like the recovering of economy and fast development, great industrial places were opened which gave opportunities for extend of new thousand working areas, approximately all spheres of economy reached high range of acceleration including transport and communication, agriculture, trade and public catering, village towns, and republic’s cities landscaping, laying of roads, the foundation of new social objects – schools, hospitals and etc. was paid great attention for their development [1, 3-4].

Under the leadership of Heydar Aliyev, the people of Azerbaijan, closely united around the political authorities, without using any slogans or inappropriate words, began to gradually prepare the international conditions necessary for building an independent state in the common Soviet system and solve national problems. There is no doubt that these conditions, which formed the basis of Azerbaijan's independence, were formed as a result of H. Aliyev's pragmatic policy, taking into account the nationalist views and the realities of the time, despite being the communist leader of the republic. It is important and relevant to study his great historical activity in order to achieve the progress of the people under the Soviet system, to prepare the conditions for independent statehood and to solve the problems of the people. Therefore, we have tried to investigate this problem objectively, as it is scientifically and politically relevant, without allowing any political conjuncture. Undoubtedly, many books written about Heydar Aliyev so far are valuable and important. However, the problem that is the subject of research in the monograph has never been studied as a complex scientific research based on primary sources [2, 11].

Heydar Aliyev is a patriot of his country in the highest sense of the word, he was a patriot throughout the Soviet era and in the post-Soviet period, and during his presidency, and in the pre-presidential period. At the same time, he is not one of those patriots who see their country and their people shrouded in a pink veil of romantic illusions. As a sober politician, he perceives these people without any illusions, and he is too real to start a battle with windmills or build castles in the air. The good of Azerbaijan for him is the highest goal, in the name of which his political will is capable of crushing any bastions.

Historical science has long noticed that great talents always appear where there are social conditions favorable to their emergence and development after which development can follow different paths, and sometimes political the will of one person at this very moment in history can suspend a nationwide catastrophe, shift the arrow of society's development to other paths.

The economy of Azerbaijan has gone through a period of great changes and reforms over the years. The transition to market relations and integration into the world economic system are the main directions of the policy of Heydar Aliyev. Macroeconomic stability has been ensured, and the production decline trends that have taken place since the end of the 1980s have been suspended. In some areas, significant positive developments have already been achieved. They do not need to be expressed in concrete figures, they are reflected in the quality of life of the entire people and are strikingly striking, noticed by all the benevolent guests of the country [4, 11].

# KORPORATİV İDARƏETMƏ VƏ DAXİLİ AUDİT

**Poladov David Adam oğlu**
*Qərbi Kaspi Universiteti*
*Elmi məsləhətçi: Kəmalə Hüseynova*

## XÜLASƏ

Ədəbiyyat araşdırması nəticəsində Keyfiyyət Təminatı və İnkişaf Proqramı və bu proqram çərçivəsində həyata keçirilən xarici qiymətləndirmə prosesinin şirkətlərin korporativ idarəetmə təcrübələrinə əhəmiyyətli töhfələr verdiyi müşahidə edildi. Xüsusilə xarici qiymətləndirmə prosesi; Daxili audit vahidinin mövcud vəziyyətin açıqlanmasında, şirkətin maraqlı tərəflərinə şirkətin fəaliyyətində zəmanət verilməsində və daxili audit vahidinin peşəkar səriştəsinin artırılmasında əhəmiyyətli bir töhfə verdiyi müəyyən edilmişdir.

**Açar sözlər:** Korporativ İdarəetmə, Daxili Audit, Keyfiyyət Təminatı Təkmilləşdirmə Proqramı.

## ABSTRACT

As a result of the researches in literature, the exterior assesment process, which has been realized within Quality Assurance and Improvement Program and the framework of this programme,has been observed to provide important contributions for the corporate governance applications of the companies. It has been ascertained that especially the external assesment process has made important contributions in finding out the current situation of the internal audit unit, in assuring the firm stakeholders about the operations of the firm and in increasing the professional competence of the internal audit unit.

## РЕЗЮМЕ

В результате обзора литературы было отмечено, что Программа обеспечения качества и развития и процесс внешней оценки, проводимый в рамках этой программы, вносят значительный вклад в практику корпоративного управления компаний. Особенно процесс внешней оценки; Было установлено, что подразделение внутреннего аудита внесло значительный вклад в раскрытие текущей ситуации, обеспечение деятельности компании перед заинтересованными сторонами и повышение профессиональной компетенции подразделения внутреннего аудита.

### Giriş

Korporativ idarəetmə konsepsiyası, son illərdəki maliyyə böhranları və Amerika və Avropadakı şirkət qalmaqalları ilə əhəmiyyət qazanan bir rəhbərlik anlayışıdır. Saxta mühasibat metodlarından istifadə edərək şirkətin fəaliyyətinin natamam və aldadıcı reklamı nəticəsində ortaya çıxan şirkət qalmaqalları həm investorlara ciddi maliyyə itkilərinə səbəb oldu, həm də maliyyə sisteminə olan inamlarını sarsıtdı. Şirkət qalmaqallarından sonra bir çox ölkədə maliyyə sisteminə inamı bərpa etmək üçün korporativ idarəetmə sahəsində mühüm tənzimləmələr edildi. Korporativ idarəetmə, səhmdarlar da daxil olmaqla, müəssisənin həyata keçirdiyi bütün fəaliyyətlərlə birbaşa və ya dolayısı ilə əlaqəli olan bütün maraqlı tərəflərin hüquqlarını qorumaq və müəssisə rəhbərliyinin məsuliyyət və öhdəliklərini ortaya qoymağı hədəfləyən bir idarəetmə yanaşmasıdır (2.,110). Bu idarəetmə yanaşmasının əsas məqsədi bilavasitə və/və ya vasitəli iş fəaliyyəti ilə əlaqəli olan bütün maraqlı tərəflərin qanuni hüquq və mənafelərinin qorunması və maraqlı tərəflərin bu istiqamətdə zəmanəti təmin edilməsidir. Bu nöqtədə, iş fəaliyyəti ilə əlaqəli təminat və məsləhət xidmətləri göstərən daxili audit fəaliyyətləri, müəssisələrdə korporativ idarəetmə təcrübələrinin gücləndirilməsində son dərəcə əhəmiyyətli bir rol oynayır. Daxili audit, bir müəssisənin fəaliyyətini araşdırmaq və onlara dəyər əlavə etmək üçün iş daxilində yaradılmış müstəqil bir məsləhət və zəmanət xidmətidir. Şirkətdə təsirli daxili audit xidmətinin mövcudluğu şirkətin nəzarət mexanizmlərinin sağlam bir

şəkildə işləməsinə kömək edə bilər, həmçinin əməliyyat risklərinin, saxtakarlıq və gəlir itkilərinin minimuma endirilməsinə kömək edə bilər. Bununla birlikdə daxili audit funksiyası şirkətin korporativ hədəflərinə çatmasına kömək edir. Qlobal səviyyədə təşkil olunmuş daxili audit peşəsi qurumu olan "Daxili Auditorlar İnstitutu" daxili audit fəaliyyətini müəyyən bir çərçivədə həyata keçirmək üçün Daxili Audit Peşə Təcrübə Standartlarını hazırlamış və 1300 Keyfiyyət Təminatı və İnkişaf Proqramı Standartını müəyyən etmişdir. Bu tədqiqatın məqsədi nəzəri bir çərçivədə Daxili Auditin korporativ idarəetmə təcrübələrinə təsirlərini araşdırmaqdır. Bu məqsədlə, ilk olaraq korporativ idarəetmə konsepsiyasına diqqət yetirildikdən sonra, məqalə daxili auditin korporativ idarəetmə təcrübəsindəki rolu və əhəmiyyətindən bəhs edir.

1. Korporativ İdarəetmənin Əsasları

Korporativ idarəetmə konsepsiyasına ilk olaraq İngiltərədəki Sir Adrian Cadbury-nin rəhbərlik etdiyi bir komitə tərəfindən hazırlanan "Cadbury Report" olaraq da bilinən 1992-ci il hesabatında toxunuldu. Hesabatda korporativ idarəetmə şirkətlərin idarə olunduğu və istiqamətləndirildiyi bir sistem olaraq təyin edilir. Cadbury hesabatının yayımlanmasından sonra maliyyə bazarlarındakı inkişaflar, korporativ idarəetmə sahəsindəki işləri sürətləndirdi (3.,42). Beynəlxalq təşkilatlar müəyyən prinsiplər çərçivəsində korporativ idarəetmə konsepsiyasının inkişafına çox mühüm töhfələr vermişlər. Bu sahədə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və özəl sektor nümayəndələrinin iştirakı ilə qurulan Qlobal Korporativ İdarəetmə Forumu ön plana çıxır. Bu işlər çərçivəsində 1999-cu ildə OECD tərəfindən Korporativ İdarəetmə İlkələri yayımlandı və o zamandan bəri bütün dünyada korporativ idarəetmə anlayışı yayılmağa başladı.

OECD-yə (2004) görə, korporativ idarəetmə ticarət müəssisələrinin idarəedilməsi və nəzarətində istifadə olunan bir sistem olaraq təyin edilir. Bu sistem sayəsində şirkətin müxtəlif iştirakçıları arasında - direktorlar şurası, yüksək vəzifəli rəhbərlər, səhmdarlar və digər maraqlı tərəflər arasında hüquq və vəzifələr, aralarındakı münasibətlər müəyyənləşdirilir və şirkət daxilində qərar qəbul etmə qaydaları və prosesləri tənzimlənir. Dünya Bankı, korporativ idarəetmə anlayışını kapital və insan resurslarının cəlb edilməsinə, səmərəli fəaliyyət göstərilməsinə, məqsədlərinə çatmasına, hüquqi öhdəliklərin və sosial gözləntilərin yerinə yetirilməsinə yönəlmiş hər cür qanun, qaydalar, məcəllə və təcrübələr kimi müəyyənləşdirir.

Akademik tədqiqatlara baxaraq Shleifer və Vishny (1997), korporativ idarəetmənin şirkətlərə kapital verənlərin investisiyalarından gəlir əldə etmək üsulları ilə əlaqəli olduğunu bildirirlər. Denis və Mc Connell (2003), korporativ idarəetməni bir şirkətin menecerlərini şirkətin səhmdarları üçün şirkətin dəyərini maksimum dərəcədə artıran qərarlar verməyə təşviq edən bir sıra institusional və bazar əsaslı mexanizmlər olaraq təyin edirlər. Aguilera (7.,2005), korporativ idarəetməni şirkətlərin səmərəli idarə olunmasına və eyni zamanda şirkətdəki bütün maraqlı tərəflərin maraqlarını maksimum dərəcədə artırmağa imkan verən bir sıra qaydalar olaraq təyin edir.

Verilən təriflərə əsasən, korporativ idarəetmə şirkət rəhbərliyi, səhmdarları və maraq qrupların (maraqlı tərəflər) hüquq və vəzifələrini təmin etmək üçün şirkət daxilində zəruri idarəetmə və nəzarət mexanizmlərinin həyata keçirilməsi kimi ifadə edilə bilər. Korporativ idarəetmənin əsas məqsədi maraqları olan hər kəsin, xüsusən də səhmdarların şirkət rəhbərləri tərəfindən qəbul edilmiş qərarlardan təsirlənə biləcəyini nəzərə alıb, onlar tərəfindən nəzarəti, şirkətin özbaşınalıqdan uzaq, qanun və qaydalara bağlı olaraq şəffaf bir şəkildə idarə olunmasını təmin etməkdir.

1.1.Korporativ İdarəetmənin Əhəmiyyətini Artıran amillər

Korporativ idarəetmənin əhəmiyyətinin müxtəlif səbəbləri olsa da, 1990-cı illərin əvvəllərindən bəri inkişaf etməkdə olan ölkələrdəki maliyyə böhranları və 2000-ci illərdə ABŞ və Avropadakı böyük şirkət qalmaqalları konsepsiyanın qlobal səviyyədə inkişafında böyük rol oynadı.

Bu baxımdan, korporativ idarəetmənin maliyyə böhranlarına və şirkət qalmaqallarına bir həll olaraq ön plana çıxdığını və müasir idarəetmə elminin vaxtında müdafiə etdiyi prinsiplərin həyata keçirilməsindən çox ciddi əhəmiyyət qazandığını söyləmək olar. Korporativ idarəetmənin əhəmiyyət qazanmasına səbəb olan amilləri aşağıdakı başlıqlar altında təsnif etmək mümkündür:

· Maliyyə Böhranları: Maliyyə bazarlarının inteqrasiyası nəticəsində ortaya çıxan maliyyə böhranları bir çox ölkəni və ölkənin yerləşdiyi bölgəni təsir edə bilər. Bu vəziyyət 1997, 1998 və 1999-cu illərdə sırasıyla Cənub-Şərqi Asiya, Rusiya və Braziliyadakı böhranlarla müşahidə edildi.

· Şirkət qalmaqalları: Korporativ idarəetmə konsepsiyasının əhəmiyyətini artıran əsas amillərdən biri şirkət rəhbərliyindəki səhv davranış və nəticədə meydana çıxan maliyyə uğursuzluqlarıdır. Enron, Worldcom, Xerox, Global Crossing şirkət qalmaqallarının ortaq xüsusiyyəti, sözügedən şirkətlərin korporativ idarəetmə tələblərini yerinə yetirməsindəki çatışmazlıqlar göstərilməkdədir. Rezaee (4. 134-148) etdiyi araşdırmada bu qalmaqallar nəticəsində yalnız investorlar tərəfindən çəkilən zərərin 500 milyon dollardan çox olduğunu iddia etdi.

· Artan Beynəlxalq İqtisadi Öhdəlik: Qloballaşma səbəbi ilə bu gün ölkələrin iqtisadi qarşılıqlı asılılıq səviyyəsi artmışdır. Bu gün investorlar səhmlərə yatırım etdikdə, yalnız öz ölkələrinin ortaqlıqları ilə məhdudlaşmırlar, dünyanın hər yerində investisiya alətləri ilə maraqlanırlar. Bu vəziyyətin inkişaf etməkdə olan bazarlara təsiri, məhsuldarlığın, investisiyaların, gəlirlərin və ixracatın artması və inkişaf etməkdə olan bazarlara beynəlxalq kapital axınının sürətlənməsi ilə maliyyə bazarlarının dərinləşməsidir.

· Özəlləşdirmə: 1980-ci illərdən bəri bütün dünyada geniş yayılmış özəlləşdirmə praktikaları, dolayısı ilə korporativ idarəetmənin əhəmiyyətini artırmağa təsir etdi. Dövlət müəssisələrinin xüsusi mülkiyyətinin ardınca, maliyyə bazarlarında kapital tədarükünə və şirkət nikahlarına müraciət etdilər ki, bu da korporativ idarəetmə prinsiplərinin əhəmiyyətinin arttmasına səbəb oldu.

1.2.Korporativ İdarəetmənin Əsas Prinsipləri

Korporativ idarəetmə təcrübələri hər ölkədə müxtəlif amillər (hüquq sistemi, korporativ mədəniyyət və s.) Çərçivəsində müəyyən olunduğundan, hər bir ölkə üçün etibarlı olan standart bir korporativ idarəetmə modeli haqqında danışmaq mümkün deyil. Bununla birlikdə bərabərlik, şəffaflıq, hesabatlılıq və məsuliyyət anlayışlarının ümumiyyətlə qəbul edilmiş bütün korporativ idarəetmə yanaşmalarında ortaq prinsiplər kimi qəbul olduğu məlumdur. Bu dörd əsas korporativ idarəetmə prinsipi, performans ölçülməsi və inkişafı əsasında bir-biri ilə əlaqələndirilir, beləliklə şirkətlərin səhmdarları üçün dəyər yaradır və sosial dəyərlərlə uyğun şəkildə işləyir.

· Bərabərlik prinsipi şirkət rəhbərliyinin bütün faydalananlara eyni münasibət göstərməsini nəzərdə tutur.

· Korporativ idarəetmənin digər bir prinsipi şəffaflıqdır. Şəffaflıq prinsipi, şirkət haqqında ticarət sirləri xaricindəki bütün maliyyə və qeyri-maliyyə məlumatlarının vaxtında, dəqiq, anlaşıqlı, hərtərəfli və asanlıqla təhlil edilə təqdim edilməsini nəzərdə tutur.

· Hesabatlılıq prinsipi ümumiyyətlə qərar qəbul etmək və həyata keçirmək səlahiyyətinə malik şəxslərin qərarlarının düzgünlüyünü müdafiə etmək və nəticələrə görə məsuliyyət daşıması kimi təsvir edilə bilər.

· Məsuliyyət prinsipi, maraqlı tərəflərin qanunlarda və ikitərəfli müqavilələrdə göstərilən hüquqlarının tanınması, sərvət və yeni iş sahələrinin yaradılmasında şirkətlər və maraqlı tərəflər arasında səmərəli əməkdaşlığı təşviq etməklə maliyyə cəhətdən güclü iş yerlərinin stabiliyinin qorunması kimi qəbul edilir.

Yekun olaraq, korporativ idarəetmə anlayışı səhmdarlar da daxil olmaqla bütün maraqlı tərəflərin hüquqlarını qorumağı və maraq qrupları arasındakı münasibətləri bərabərlik, məsuliyyət, şəffaflıq və hesabatlılıq prinsipləri çərçivəsində tənzimləməyi hədəfləyən bir anlayışdır.

2. Korporativ İdarəetmə Sistemindəki rol və vəzifələr; Daxili Audit

Korporativ idarəetmə sistemində daxili auditin əhəmiyyətini aydın şəkildə ortaya qoymaq üçün bu sistemdə rol oynayan elementləri araşdırmaq faydalıdır. Korporativ idarəetmənin ümumi anlayışı; Rəhbərliyin, direktorlar şurasının, audit komitəsinin, daxili və xarici (müstəqil) auditorların rol və məsuliyyət götürdükləri bir sistemdir. Bu mənada korporativ idarəetməni bu sistemi təşkil edən elementlərin qarşılıqlı təsiri kimi ifadə etmək mümkündür. Bu sistemdə idarəetmə funksiyası (idarəetmə), nəzarət funksiyası (direktorlar şurası və audit komitəsi), audit funksiyası (daxili və xarici auditorlar) və istifadəçi funksiyası (maraqlı tərəflər) tərəfindən həyata keçirilir. Korporativ idarəetmə anlayışında rol oynayan amillər aşağıdakılardır.

İdarəetmə: Korporativ idarəetmənin ən vacib üzvlərindən biri rəhbərlikdir. Korporativ idarəetmə sistemi daxilində idarəetmə; Şirkət strategiyalarının yaradılmasından, mənbələrdən səmərəli surətdə istifadəsindən, şirkət fəaliyyətinin idarə edilməsindən və koordinasiyasından, şirkətin kapitalının qorunmasından məsuldur. Bu vəzifələri yerinə yetirmək üçün rəhbərlik şirkət daxilində etibarlı və keyfiyyətli maliyyə hesabatları təqdim edəcək bir mühasibat sistemi ilə effektiv daxili nəzarət sistemi qurmalı və saxlamalıdır (4.,184). Bundan əlavə, rəhbərlik təşkilati riskləri müşahidə etmək və bu riskləri azaldacaq nəzarətin həyata keçirilməsindən məsuldur. Rəhbərlik bu vəzifələrin çoxunu daxili audit vahidindən istifadə etməklə yerinə yetirir. Rəhbərlik daxili auditorlardan risklərin idarə edilməsi, şirkət fəaliyyətinin yaxşılaşdırılması və bu fəaliyyətlərin səmərəliliyinin qiymətləndirilməsi məsələlərində məsləhət və təminat xidmətləri göstərmələrini tələb edir.(5., 32-33)

İdarə Heyəti (direktorlar şurası): Monks and Minow'a (2001) görə, idarə heyəti, şirkətə kapital təmin edənlərlə (səhmdarlarla) bu kapitaldan şirkətin dəyərini artırmaq üçün istifadə edənlər (menecerlər) arasında bir körpüdür. Korporativ idarəetmə sistemində son nəticədə şirkətin maraqlı tərəflərinin faydaları istiqamətində fəaliyyət göstərməsindən məsul olan orqan direktorlar şurasıdır. İdarə heyəti, səhmdarların ümumi yığıncaqda verdiyi səlahiyyətlə maraqlarını qoruyacaq bir rəhbərlik qurur və rəhbərliyin müvəffəqiyyətini bu meyara görə qiymətləndirir (6.,9). Korporativ idarəetmə sistemi içindəki direktorlar şurasının vəzifələri belə ümumiləşdirilə bilər: (5.,48)

Ø Şirkətin əsas strategiyalarını nəzərdən keçirmək və təsdiqləmək,

Ø Şirkətin icraçı direktorunun və şirkətin fəaliyyətinin izlənməsi,

Ø Şirkətin qarşılaşa biləcəyi riskləri və şirkətin bu risklərə qarşı nəzarət sistemlərini izləmək,

Ø Şirkətin səhmdarları və maraqlı tərəfləri arasındakı münasibətlərdə ədalətin təmin olunmasına yönəlmiş fəaliyyət və fəaliyyətlərin izlənməsi.

· Audit Komitəsi: Audit Komitəsi daxili və xarici auditin tətbiqi səmərəliliyinə, əlavə dəyərə, mühasibat uçotuna, maliyyə hesabatına, daxili nəzarətin işinə və adekvatlığına direktorlar şurası adından nəzarət edən bir komitədir. Bu funksiya ilə Audit komitəsi direktorlar şurasına zəmanət verir. Audit komitəsinin fəaliyyətini müəyyənləşdirən əsas amil komitənin strukturudur. Komitə üzvləri müstəqil idarə heyəti üzvləri arasından seçilir. Audit komitəsi korporativ idarəetmə sistemində kritik rola malikdir. Komitə risklərin müəyyənləşdirilməsində və idarə olunmasında, eyni zamanda şirkət daxilində keyfiyyətli və etibarlı maliyyə hesabatı və nəzarət sistemlərinin təmin edilməsində ciddi əhəmiyyətə malikdir (5.,50). Bu kontekstdə audit komitəsinin korporativ idarəetmə daxilindəki vəzifələri aşağıdakı kimi ümumiləşdirilə bilər.

Ø Maliyyə Hesabatı Prosesinin İzlənməsi: Audit komitəsinin əsas məsuliyyəti şirkətin etibarlı maliyyə hesabatını əldə etməsinə kömək etmək üçün maliyyə hesabatı prosesini izləməkdir. Audit komitəsinin bu sahədəki vəzifələri; Maliyyə hesabatlarının və açıqlamalarının araşdırılması, şirkət mənfəətinin keyfiyyəti və saxta maliyyə hesabatı riskinin qiymətləndirilməsidir (5.,50).

Ø Risk İdarəetmə və Daxili Nəzarət Sistemləri: Şirkətlər fəaliyyətlərini həyata keçirərkən müxtəlif risklərə məruz qalırlar. Bütün bu riskləri idarə etmək audit komitələrinin vəzifəsi olmasa da, xüsusilə maliyyə hesabatları, uyğunluq, səhv davranış və məlumat sistemlərindəki əhəmiyyətli risklərin qiymətləndirilməsi prosesinə nəzarət audit komitələrinin vəzifələri arasındadır. Digər tərəfdən, audit komissiyası şirkətin daxili nəzarət strukturunun adekvatlığını və effektivliyini qiymətləndirməlidir. Təsirli bir daxili nəzarət sisteminin mövcudluğu uğurlu risk idarəetmə prosesinin şərtlərindən biridir.

Ø Daxili və Xarici Audit Proseslərinin İzlənməsi: Audit komitəsinin daxili və xarici audit üçün məsuliyyətləri vardır. Daxili audit prosesi baxımından komitənin; Daxili audit planını, prosedurlarını, əhatə dairəsini və daxili audit nəticələrini nəzərdən keçirmək kimi vəzifələrə malikdir (4.,167). Başqa sözlə, daxili audit prosesinin fəaliyyətini nəzərdən keçirmək komitənin vəzifələrindən biridir. Audit komitəsinin müstəqil audit üçün vəzifələri daxili yoxlama ilə eynidir. Komitənin vəzifələrinə müstəqil auditorların təyin və vəzifədən azad edilməsi, auditorların müstəqilliyinin qiymətləndirilməsi, müstəqil audit hesabatının nəzərdən keçirilməsi və hazırlanan hesabatların qiymətləndirilsi daxildir. (1.,455).

Daxili Audit: Korporativ idarəetmə quruluşu daxilində daxili audit; Risk menecmenti, qiymətləndirmə, konsepsiya və daxili audit proseslərinə riayət olunmasının həyata keçirilməsində əsas

aktyor kimi meydana çıxır. Bu baxımdan daxili audit idarəetmə prosesinin effektivliyi ilə bağlı rəhbərliyə kömək etməyə çalışır.

Müstəqil Audit: Müstəqil auditorlar şirkətin maliyyə hesabatlarının və əməliyyat nəticələrinin etibarlı, ədalətli və ümumiyyətlə qəbul edilmiş mühasibat prinsiplərinə uyğun hazırlanıb-hazırlanmadığı barədə fikir bildirirlər. Müstəqil auditorlar, maliyyə hesabatları üzərində daxili nəzarətləri qiymətləndirərək şirkətin maliyyə hesabatlarına etibarlılıq əlavə edirlər. Bu nöqtədə korporativ idarəetmə daxilində müstəqil auditorların əsas vəzifəsi, rəhbərliyin, borc verənlərin və investorların münasibətlərinin yüksək inam zəminində formalaşmasına kömək etməkdir. Bu səbəbdən müstəqil auditorlar, maliyyə hesabatlarına zəmanət verərək şirkət daxilində korporativ idarəetmə təcrübələrinə dəyər qatırlar (4.,202).

Yuxarıda qeyd edildiyi kimi, korporativ idarəetmə sistemindəki hər bir aktyorun müəyyən rolları və vəzifələri vardır. Hər bir aktyorun korporativ idarəetmə təcrübələrinin effektivliyini artırmaq baxımından bir-biri ilə harmoniya şəraitində fəaliyyət göstərməsi vacibdir. Korporativ idarəetmə sistemi daxilində rəhbərliyin əsas vəzifələrindən biri maliyyə hesabatlarının hazırlanmasıdır. Müstəqil auditorlar maliyyə hesabatlarının yoxlanılması ilə yanaşı daxili nəzarət sisteminin qiymətləndirilməsindən də cavabdehdirlər. Digər tərəfdən, audit komitəsi müstəqil audit prosesini izləməkdən məsuldur və direktorlar şurası ilə müstəqil auditorlar arasında körpü rolunu oynayır. Komitə, şirkət daxilində daxili auditlə əlaqəli bütün fəaliyyət planlarını təsdiq etmək səlahiyyətinə malikdir. Daxili auditorların bu strukturda mühüm rol oynamaları labüddür. Rəhbərlik, müstəqil auditor və audit komitəsi ilə birlikdə işləyən daxili auditorlar, daxili nəzarətin səmərəliliyinin təmin edilməsində və mümkün zəif nüansların tərəflərin diqqətinə çatdırılmasında fəal rol oynadıqları təqdirdə, korporativ idarəetmə təcrübələrinin keyfiyyətini artırırlar.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Robert ve MİNOW, Nell (2001)Corporate Governance: Second Edition Malden, MA: Blackwell Publishers,
2. Ç. Can (2006) “Kurumsal Şirket Yönetimi”, http://www.sobiadacademy.net, Erişim 16.09.2013
3. A.Pelin (2003) “Türkiye’de 2001 Yılındaki Mali Kriz Sonrasında Kurumsal Sektörde Yeniden Yapılandırma” Bankacılar Dergisi, Sayı 47, ss38- 55
4. Zabihollah, RİLEY, Richard (2002) “Financial Statement Fraud, Prevention, and Detecion” John Willey &Sons, INC, Second Editon
5. R.Dana ve RİTTENBERG, E. Larry (2003) “Internal Audit and Organizational Governance” The Institute of Internal Auditors Research Foundation
6. Deloitte (2007) “Nedir Bu Kurumsal Yönetim” Kurumsal Yönetim Serisi” http://www.deloitte.com/assets/DcomTurkey/Local%20Assets/Documents/turkey(tr)_cgs_nedirbuky_261206.pdf Erişim:12.10.2013
7. AGUİLERA, Ruth V. (2005), “Corporate Governance and Director Accountability: An Intuitional Comparative Perspective”, British Journal of Management,Vol. 16,.
8. KAEN - R. Fred, (2003). A Blueprint For Corporate Governance: Strategy, Accountability, and The Preservation of Shareholder Value, American Management Association, NewYork.

# AZƏRBAYCANIN MƏDƏNİYYƏT TARİXİNDƏ ŞUŞA ŞƏHƏRİNİN YERİ

**Razmiyani Səkinə Şahin qızı**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı***
***Elmi rəhbər: dosent Cavadova Zərifə Şamil qızı***
***bcell9816@gmail.com***

**Açar sözlər:** Şuşa, Vətən, Azərbaycan, mədəniyyət, Qarabağ
**Key words :** Shusha, Motherland, Azerbaijan, culture, Karabakh
**Ключевые слова:** Шуша, Родина, Азербайджан, культура, Карабах

**“Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir”**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.**

Azərbaycan xalqı qədim və zəngin bir tarixə malikdir. Buranın gözəl iqlimi və füsünkar təbiəti hələ ta qədim zamanlardan buranı ilk insan məskənlərindən biri etmişdir. Belə ki, ta keçmiş zamanlardan Azərbaycan bəşər mədəniyyətinin ilk beşiyi olmuşdur. Yurdumuzun hər guşəsi gözəldir və hər qarışı bizə əzizdir.Yurdumuzun bir ayrılmaz bir hissəsi də Şuşa şəhəridir.Azərbaycanın alınmaz qalası olan mədəniyyət məbədi olaraq bu qədim şəhərin xalqımızın mədəniyyət tarixində özünəməxsus yeri vardır.

Vətənimizin dilbər guşələrindən biri olan Şuşa səhəri gözəl Qarabağımızın əzəli torpağıdır. Tarixə nəzər salsaq, qeyd etmək lazımdır ki, Şuşa şəhəri də yurdumuzun ayrılmaz bir hissəsi olaraq zəngin və şanlı tarixi keçmişə malikdir. Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin (e.ə ikinci minilliyin II yarısı – birinci minilliyin əvvəlləri) əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranmış və daimi insan məskəninə çevrilmişdir. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası (Üçmıx dağında) bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu bir daha sübut edir.

Şuşa qalası uzun illər boyu Azərbaycan ərazisində mövcud olmuş Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlanmış və 1756-1757-ci illərdə tikilib başa çatdırılmışdır. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan etmiş, oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə “Pənahabad”, sonradan isə “Şuşa qalası” və “Şuşa” adlandırılmışdır. Şuşa şəhərinin qədimliyi barədə təkcə Azərbaycanlı alim və tədqiqatçılar deyil, həm də xarici ölkələrin səyyah və alimləri də öz fikirlərini söyləmişlər. O cümlədən İngilis səyyah və alimi C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, “Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır”. Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir.

Şuşa hər zaman öz qədimliyi ilə seçilməklə. həm də hər zaman Azərbaycanın tarixində . xüsusən də mədəniyyət tarixində özünəməxsus yer tutmuşdur. Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar vardır. Belə ki, mənbələrdə qeyd olunur ki, XVIII əsrin ikinci yarısından başlayaraq şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi [1, 277]. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da güclənmişdi. Xanlığın ərazisində Əskəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq abidələrdir. Qarabağ xanı orada strateji əhəmiyyətli qalalar tikdirirmişdi. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdi. Sovet

alimlərindən E.İ.Vasilyev apardığı tədqiqat əsasında belə nəticəyə gəlmişdi ki, orta əsrlərdə Şərq ölkələrində qüdrətli və alınmçaz qalalara Şuşi qalaları deyilirdi. [3,12]

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə nəinki Azərbaycanda mühüm şəhərlərdən biri olmuş, həmçinin də, qeyd etdiyimiz kimi, dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. XVIII əsrin 80-ci illərində şəhərin dövrəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırılmışdı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranmış, ticarət daha sürətlə inkişaf etmişdi. Şuşalı tacirlər Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi.

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. "Rastabazar"ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri başdan-başa örtülü olduğundan bütün fəsillərdə quru və təmiz qalırdı Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas meydanı "Rastabazar" küçəsi boyunca tikilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşa minarəli yaraşıqlı Cümə məscidində nibarət idi.

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda doqquz şəhər var idi ki. onlardan biri də Şuşa idi. Bu müddət ərzində Şuşada əhalinin sayı 10.118-dən 15.194-ə çatmışdı [2, səh.91] Artıq XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdı. Təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar.

Şuşa həm də Azərbaycan tarixinə Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov,Əbdürrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli,Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər də bəxş etmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Şuşa nəinki Azərbaycan, bütövlükdə Qafqazın musiqi beşiyinə çevrilmişdi. Şuşanı kiçik Paris, Qafqazın sənət məbədi, Azərbaycan musiqisinin beşiyi, Zaqafqaziyanın konservatoriyası adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə etmişdi. Vaxtilə XIX əsrin II yarısında Şuşada "Nəvvabın məclisi" deyilən musiqi məclisinin əks-sədası təkcə iri şəhərlərdə deyil, əyalətlərdə, hətta kəndlərdə də yayılırdı. Kor Xəlifənin məktəbi 1883-cü ildən 1893-cü ilə qədər Şuşada fəaliyyət göstərmiş dini xarakterli musiqi məktəbi olmuşdu. Məktəb şəhərdə xəlifə vəzifəsində çalışan və dini işlərə nəzarət edən Molla Əli Qarabaği tərəfindən açılmışdır. Tədris ocağı kimi "muğam məktəbi" ilk dəfə XIX əsrin ortalarında Xarrat Qulu tərəfindən yaradılmışdır. Bu məktəb də Azərbaycan muğam sənətinin inkişafında mühüm rol oynamış sənətkarların yetişməsinə sabab olmuşdur. Qarabağın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Əbdülbaği Zülalov (Bülbülcan), Keçəçioğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və Sadıqcan həmin məktəbin yetirmələri olmuşlar. Şuşa bir sıra görkəmli şəxsiyyətlərin vətənidir. Qurban Pirimov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, görkəmli Azəerbaycan bəstəkarı Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov. Soltan Hacıbəyov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov və başqaları Şuşada doğulmuşlar.

Şuşa şəhəri 1992-ci il mayın 8-də erməni birləşmələri tərəfindən işğal edilmişdir. Şuşanın işğalı nəticəsində vandallar azərbaycanlıların izlərini silmək məqsədilə 600-ə yaxın memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ag məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə yeksan etmiş, 8 muzey. 2 kinoteatr binasını və sairə binaları, abidələri dagıtmışlar. Qürurla deyə bilirik ki, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə 8 noyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən əzəli mədəniyyət beşiyi olan Şuşa işğaldan azad edildi. Cənab Prezidentimizin dediyi kimi, biz səni dirçəldəcəyik Şuşa. Yenə də Sən Azərbaycanımızın, gözəl Qarabağımızın mədəniyyət mərkəzi olacaqsan. Çünki, Qarabağ Azərbaycandir!

## ƏDƏBİYYAT SİYAHISI:


1. Q.Cəbiyev , S, Allahverdiyev Azərbaycan tarixi Bakı2017
2. Azərbaycan tarixi vıı cilddə IV cild Bakı 2000
3. F. Qaradağlı "Gözəlim, həsrətim Şuşanın tarixindən Bakı xəbər 7 iyun 2017.


# ƏŞYALARIN İNTERNETİ

**Rəfili Asya**
***Azərbaycan Texniki Universiteti***
***Müəllim: Orucova Milana***

## XÜLASƏ

Əşyaların interneti müasir dövrdə ən çox maraq dairəsi olan tədqiqat sahəsi olmaqdadır. Bir İntellektual Sistem bir neçə maraq sahəsi haqqında məlumatları özündə cəmləşdirir; onun mürəkkəb qərar qəbuletmə prosesləri və yerinə yetirdiyi əməliyyatları izah edəbilmə qabiliyyəti vardır.
**Açar sözlər:** Əşyaların İnterneti, bulud, şəbəkə.

## ABSTRACT

Intelligent System is a research area that has the greatest interest for modern era. An intelligent system contains knowledge about some domain; it has sophisticated decision-making processes and the ability to explain its actions.
**Keywords:** internet of things, cloud, network.

Əşyaların İnterneti vəya IoT (internet of things), bir-biri ilə əlaqəli hesablama cihazları, mexaniki və rəqəmsal maşınlar, obyektlər, heyvanlar və ya bənzərsiz identifikatorlar (UID) ilə təmin olunan insanlara və insandan şəbəkəyə ehtiyac olmadan bir şəbəkə üzərindən məlumat ötürə bilən sistemlərin hamısını ifadə edir. Getdikcə artan bir şəkildə, müxtəlif sahələrdəki təşkilatlar daha səmərəli işləmək, daha yaxşı müştəri xidməti təmin etmək, qərar qəbul etmək, iş dəyərini artırmaq və müştəriləri daha yaxşı başa düşmək üçün IoT texnologiyasından istifadə edirlər.

İngiliscə İnternet of Things (IoT) olan Əşyaların İnterneti ilk dəfə 1991-ci ildə Kevin Eştonun təqdimatında istifadə edilmişdir. Əşyaların İnternetini bir qol saatından tutun,bir çox elektrik cihazları bir-biri ilə əlaqə qurmağa çalışır. Məsələn; biləyinizdə ağıllı bir saatınız var. Bu ağıllı saatda gəzdiyiniz məsafəni, atdığınız addımları və bu hərəkətləri edərkən ürəyinizin necə vurduğunu müəyyən edən sensorlar var. Burada toplanan bu məlumatlar bizə müştəri (kompüter, mobil telefon və s.) Tərəfindən həyatımızı təhlil etməyə və təşkil etməyə kömək edir. Bu iki cihaz arasındakı əlaqə əşyaların internetini yaradan ən əsas xüsusiyyətdir.

Problem: İnsanlar məhdud vaxta, diqqətə və dəqiqliyə məxsusdur, bunların hamısı həqiqi dünyadakı informasiyaları saxlamaqda yaxşı olmadıqlarını göstərir. Hər şeyi bilən kompüterlər olsaydı, bizdən heç bir kömək olmadan topladıqları məlumatları istifadə edərək hər şeyi izləmək və saymaq, itki və maya dəyərini əhəmiyyətli dərəcədə azaltmaq mümkün olardı. Hər şeyi dəyişdirmək, təmir etmək və ya geri çağırmaq lazım olduqda, bilin ki, onlar təzə və ya ən yaxşı keçmiş olublar." dedi.

IoT, sənaye şirkətlərinə iş qərarlarını daha sürətli qəbul etməyə imkan verən qiymətli məlumatlar verərək məlumatları izləyən, toplayan, dəyişdirən və təhlil edən sistemlər yaratmaq üçün rabitə texnologiyaları vasitəsi ilə birləşdirən bir cihaz şəbəkəsidir.Sənaye IoT sistemi aşağıdakılardan ibarətdir:

- Özləri haqqında məlumat qəbul edə, ötürə və saxlaya bilən ağıllı varlıqlar.Yəni proqramlar, nəzarətçilər, sensorlar və təhlükəsizlik komponentləri;
- Məlumat rabitə infrastrukturu. Məsələn,bulud;
- Xam məlumatlardan iş məlumatları istehsal edən insanlar və proqramlar.

IoT cihazları, topladıqları sensor məlumatlarını bir IoT şlüzünə və ya məlumatları lokal olaraq təhlil etmək üçün buludlara göndərildiyi və ya yerli olaraq təhlil edildiyi buluddan başqa bir uc cihaza bağlayaraq bölüşürlər. Bəzən bu qurğular digər əlaqəli qurğularla əlaqə qurur və bir-birlərindən aldıqları məlumatlara uyğun hərəkət edir. Cihazlar işin çox hissəsini insan müdaxiləsi olmadan edir, lakin insanlar cihazlarla qarşılıqlı əlaqə qura bilər

Əşyalar İnterneti təşkilatlara bir sıra üstünlüklər təklif edir:

- Ümumi iş proseslərini izləmək.
- Müştəri təcrübəsini inkişaf etdirmək.
- Vaxt və pula qənaət etmək.
- İşçilərin məhsuldarlığını artırmaq.
- Biznes modellərinin inteqrasiyası və uyğunlaşdırılmasını təmin etmək.
- Daha yaxşı iş qərarları vermək.
- Daha çox gəlir əldə etmək.

IOT şirkətləri öz işlərinə, sənaye sahələrinə və bazarlara yaxınlaşma yollarını yenidən düşünməyə təşviq edir və onlara biznes strategiyalarını inkişaf etdirmək üçün vasitələrlə təmin edir. Ən çox istifadəyə verilmiş üstünlüklərdən biri, müəssisələrin təqdim etdiyi sənaye internet şəbəkələrinin proqnozlaşdırılmasıdır. Buraya "maşınlarda səhvləri təxmin etmək üçün IoT sistemlərindən yaradılan real vaxt məlumatlarından istifadə edən təşkilatlar" daxildir; Məsələn, şirkətlərə bu problemləri baş verməzdən əvvəl, bir hissəsi parçalanmadan və ya bir maşın parçalanmadan əvvəl həll etmək üçün tədbirlər görməyə imkan verir.Digər ümumi bir fayda inkişaf etmiş sahə xidmətidir. IoT texnologiyaları, sahə xidməti texniki işçilərinə müştəri avadanlığı ilə əlaqəli problemlərin aşkarlanmasına və müştəriləri narahat etməzdən əvvəl problemlərini həll etməsinə imkan verən əsas problemə çevrilmədən əvvəl müəyyənləşdirməyə imkan verir.

IoT ayrıca idarə idarəetməsini də inkişaf etdirir. İstehsal avadanlıqları köhnəlməyə və həmçinin bir fabrik daxilindəki müəyyən şərtlərə həssas olduğundan, sensorlar titrəmələri, temperaturu və qeyri-optimal şəraitdə iş şəraitinə səbəb ola biləcək digər amilləri izləyə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Гринчук О., В мире “интернет-вещей”: один день из 2020 года, http://telecomer.com http://www.larin.clan.su

2. Edited by Harald Sundmaeker, Patrick Guillemin, Peter Friess Sylvie Woelfflé. Vision and challenges for realising the Internet of things, Luxembourg: Publications Office of the European Union, 2010, 229 pp.

3. Əliquliyev R.M., Mahmudov R.Ş. İnternet fenomeninə çoxaspektli baxış. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası. Bakı: “İnformasiya Texnologiyaları” nəşriyyatı, 2010, 96 səh.

4. Chaouchi H. The Internet of Things: Connecting Objects. John Wiley & Sons, 2010, 288 pp.

5. http://www.itu.int

6. http://www.icao.int

7. Финкенцеллер К. RFID-технологии. Справочное пособие / пер. с нем. Сойунханова Н.М., М.: Додэка-XXI, 2010, 496 с.

# İDMAN TURİZMİNİN İNKİŞAFINA DAİR DÖVLƏT SİYASƏTİ

**Rəhimli Aytən Elxan qızı**

***Azərbaycan Turizm və Menecment Universiteti***

***Elmi rəhbər: f.e.n., dos. İ.Mədətov***

***rahimli.aytan.1901@atmu.edu.az***

## XÜLASƏ

Bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə birlikdə idmana diqqət və qayğı artır. Qeyri-neft sektorları arasında daha geniş yayılmış və populyar olan idman turizmi ölkəmizin iqtisadiyyatında

aparıcı amildir. Mütəmadi idman tədbirləri ölkəyə daha çox turistin gəlməsinə şərait yaradır. Beləliklə, idman turizmi anlayışı formalaşmağa başlayır. İdman tədbirləri nəticəsində ölkəmizə gələn turistlər ölkəmizin zəngin təbiətini, gözəl guşələrini, infrastrukturunu, qədimliyin və müasirliyin qovşağını görərək buraya qayıtmağa qərar verirlər. İdman komandalarının adlarını daşıyan papaqlar, geyimlər, çantalar və ayaqqabıların satışı bu günlərdə kəskin dərəcədə artmışdır. Bunun səbəbi idmana olan marağın artmasıdır.

**Açar sözlər:** turizm, istirahət, dövlət siyasəti, dövlət tənzimlənməsi, təşviq.

## РЕЗЮМЕ

Сегодня с развитием ненефтяного сектора в Азербайджане внимание и забота о спорте растут. Спортивный туризм, который более распространен и популярен среди ненефтяных секторов, является ведущим фактором экономики нашей страны. Регулярные спортивные мероприятия создают условия для того, чтобы в страну приезжало больше туристов. Таким образом, начинает складываться концепция спортивного туризма. В результате спортивных мероприятий туристы, которые приезжают в нашу страну, увидев богатую природу, красивые уголки, инфраструктуру, стык старины и современности, решают вернуться сюда. В наш дни резко выросли продажи головных уборов, одежды, сумок и обуви с названиями спортивных команд. Это связано с растущим интересом к спорту.

**Ключевые слова:** туризм, отдых, государственная политика, государственное регулирование, продвижение.

## SUMMARY

Today, with the development of the non-oil sector in Azerbaijan, the attention and care for sports is growing. Sports tourism, which is more widespread and popular among the non-oil sectors, is a leading factor in the economy of our country. Regular sports events create conditions for more tourists to come to the country. Thus, the concept of sports tourism is beginning to take shape. As a result of sports events, tourists who come to our country, seeing the rich nature, beautiful corners, infrastructure, the junction of antiquity and modernity, decide to return here. Sales of hats, clothes, bags and shoes bearing the names of sports teams have increased dramatically these days. This is due to the growing interest in sports.

**Keywords:** tourism, recreation, public policy, government regulation, promotion

## GİRİŞ

Turizm iqtisadiyyatın güclü bir faktoru, eyni zamanda cəmiyyətdəki sosial rifah və mədəniyyətin göstəricisidir, həyat səviyyəsinin yüksəlməsinə və mənəvi zənginləşməsinə kömək edir. Azərbaycan hökuməti milli turizm sektorunun inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üçün prioritet elan edib. Son illərdə turizmin inkişafı ilə bağlı görülən işlər, qəbul edilmiş dövlət proqramları, tənzimləmə bazasının təkmilləşdirilməsi bunu bir daha təsdiqləyir. [6, 40]

Turizmin mahiyyəti onun sosial-iqtisadi mənasını ortaya qoyur. İqtisadi məna bir sahə kimi gəlir əldə etmək qabiliyyətidir. Turizm sektoru öz maddi ehtiyatlarını formalaşdırır, müvafiq fondlar təşkil edir və fəaliyyətindən gəlir əldə edir. Sosial məna iş yerlərinin açılması, sahibkarlığın inkişafı və buna görə turizm bölgələrində ev təsərrüfatlarının və əhalinin ehtiyaclarına uyğun bir xidmət sektorunun yaradılmasıdır.

Bu gün dinamik inkişaf edən bir turizm sisteminin yaradılması və dünya iqtisadiyyatına inteqrasiyası Azərbaycanın ictimai həyatında əsas diqqət yetirilən məsələlərdən biridir. Buna görə ölkə iqtisadiyyatının böyük hissəsini qeyri-neft sektoruna yönəltmək daha səmərəlidir. Hazırda Azərbaycanda idman turizmi yeni inkişaf mərhələsinə qədəm qoyub. Qeyri-neft sektorunun ən vacib sahələrindən biri olan bu turizm növü ölkə iqtisadiyyatının ən gəlirli sahələrindən biri sayılır. Hazırda ölkədə turizmin daha dinamik inkişafı üçün yeni dövlət proqramları və layihələri hazırlanır.

## ƏSAS HİSSƏ

Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş bölgələrdə dövlət və əhalinin gəlirlərinin 30% -ə qədəri turizmlə əlaqəlidir. Turizmin sosial sahə kimi inkişafı xidmət sektoru ilə əlaqələndirilir.

Xüsusilə, turizm infrastrukturu inkişaf etmiş bölgələrdə sosial infrastruktur daha çox inkişaf etmişdir. Sosial infrastruktur nəqliyyat, qida, mənzil və məişət xidmətləri ilə əlaqələndirilir. Turizm infrastrukturu

bütöv şəhərsalma və regional inkişafı təmin edir. Müstəqilliyin bərpasından sonra Azərbaycan yeni bazar iqtisadiyyatının tələbləri əsasında inkişaf edərək beynəlxalq inteqrasiya prosesi çərçivəsində dünya ölkələri ilə iqtisadi əlaqələrini genişləndirərək yeni sosial-iqtisadi inkişaf yoluna qədəm qoydu.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə turizmin inkişafına xüsusi əhəmiyyət verirdi. 1999-cu ildə ulu öndərin müvafiq Fərmanı əsasında qəbul edilmiş "Turizm haqqında Qanun" və 2002-ci ildə qəbul edilmiş "2002-2005-ci illərdə Azərbaycanda Turizmin İnkişaf Proqramı" inkişafa təkan verdi. [6, 42]

Azərbaycan bənzərsiz təbii, mədəni, milli və etnoqrafik obyektlərə malikdir. Əlverişli coğrafi mövqe, doqquz iqlim qurşağı, flora və faunanın müxtəlifliyi və zənginliyi, mədəni və tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər yaradır. [4, 19]

Günümüzdə turizm bölgəsinə çevrilmək təkcə iqtisadi deyil, həm də siyasi baxımdan ölkəmiz üçün çox vacibdir. Çünki bu gün dünyada baş verən proseslər və təhlükəsizlik məsələləri baxımından turizmin inkişafı qaçılmazdır.

Turizm eyni zamanda ölkələri və xalqları bir-birinə yaxınlaşdırır, beynəlxalq əlaqələri gücləndirir və iqtisadi və mədəni əlaqələrin inkişafına kömək edir. Turizmin həcmini artıraraq turizm bölgəsinə çevrilməklə bölgələrin sosial-iqtisadi inkişafını da çox sürətli və effektiv şəkildə həyata keçirə bilərik.Turizmin inkişafı bölgələrin qısa müddətli sosial-iqtisadi dirçəlişi deməkdir. [3, 31]

Dövlət Turizm Agentliyinin Azərbaycanda turizmin inkişafı üzrə fəaliyyət planına bölgələrdə yeni turizm infrastrukturunun inşası, bölgələrə yerli və xarici investorların cəlb edilməsi və yeni turizm müəssisələrinin yaradılması daxildir. Bu məqsədlə, ölkədə turizmin inkişafı üçün seçilmiş 30 perspektivli bölgə və şəhərə göndərilən Turizm Baş İdarəsinin işçiləri bölgələri öyrənir və bölgələrdə müxtəlif turizm növlərinin yaradılması üçün sxematik xəritələr hazırlayır. Növbəti mərhələdə Azərbaycanda turizm zonalarının müəyyənləşdirilməsi və onlara investisiya cəlb edilməsi planlaşdırılır.

Dövlət Turizm Agentliyi Birləşmiş Millətlər Təşkilatı ilə birlikdə bölgələrin turizm potensialını öyrənmək və təbliğ etmək üçün Azərbaycanın yeddi bölgəsində turizm məlumat mərkəzləri yaratmağa başlamışdır. Gördüyünüz kimi, Dövlət Turizm Agentliyi bu sahədə gördüyü tədbirlər bölgələrdə turizm sektorunun inkişafına və bununla da sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına əsaslanır.

Bu gün bir çox ölkə fərqli turizm növlərini inkişaf etdirərək bu sektorda daha da irəliləməyə çalışır. İnkişaf etməkdə olan turizm növlərindən biri də idman turizmidir. İdman turizminin ölkələrə gətirdiyi müxtəlif faydalar, şübhəsiz ki, olduqca böyükdür. Bu çərçivədə dünyanın bir çox ölkəsi idman turizmindən gəlirlərini artırmaq üçün yarışırlar. Çünki idman turizmi ölkə iqtisadiyyatının, mədəniyyətinin, ictimai həyatın, sağlamlığın, sülhün və digər sahələrin inkişafında mühüm rol oynayır. Ölkənin tanınmasında idman turizminin xüsusi rol oynadığı da deyilir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə birlikdə idmana diqqət və qayğı artır. Qeyri-neft sektorları arasında daha geniş yayılmış və populyar olan idman ölkəmizin iqtisadiyyatında aparıcı amildir. Mütəmadi idman tədbirləri buraya daha çox turistin gəlməsinə şərait yaradır. İdman tədbirləri nəticəsində ölkəmizə gələn turistlər zəngin təbiəti, gözəl guşələri, infrastrukturu, qədimliyin və müasirliyin qovşağını görərək yenidən buraya qayıtmağa qərar verirlər.

İdman turizminin əhəmiyyətini artıran üç əsas amil var. Birincisi, bunlar Formula 1 və Olimpiya Oyunları kimi dünyanın ən populyar idman növləridir. Bu idman növləri ölkənin dünyada reklamına təsir göstərir. İkincisi, idman turisti adi turistdən iki dəfə çox pul xərcləyir. Üçüncüsü, dünya turizmində artım yüzdə 4-5% olarsa, idman turizmində bu rəqəm yüzdə 14-ə çatır.

Turizm sahəsində çalışan kadrların hazırlanmasına və müxtəlif sahələrin inkişafına töhfə verəcək "2007-2016-cı illərdə Azərbaycan Respublikasında turizmin inkişafı üzrə Dövlət Proqramı" nın layihəsi hazırlanaraq aidiyyəti dövlət orqanlarına təqdim edilmişdir. Dövlət Proqramının əsas məqsədi turizm sahəsində dövlət siyasətinin "Turizm haqqında" Qanunun müddəalarına, habelə digər müvafiq normativ aktlara uyğun olaraq həyata keçirilməsi, turizm mənbələrindən biri kimi turizm resurslarından səmərəli istifadəsidir. [5, 27]

Eyni zamanda, turizmin inkişafı üçün əlverişli şəraiti olan bir ölkə kimi Azərbaycanı dünyada tanıtmaq üçün Azərbaycan turizminin və turizm sahəsindəki Azərbaycan markalarının yeni ticarət nişanının (loqosunun) dirçəldilməsi, yaradılması və inkişafı regional mədəni dəyərlər ilə ölçülür.

Turizm bu gün dünyada ən sürətlə inkişaf edən sahələrdən biridir. Beynəlxalq turizm dünyanın ümumi daxili məhsulunun yüzdə 10-unu və ixracatın yüzdə 8-ni təşkil edir və xidmətlərin təxminən üçdə biri beynəlxalq turizm hesabına təmin edilir. Dünyanın əmək qabiliyyətli əhalisinin 8,1% -i turizm və iqtisadiyyatın əlaqəli sahələrində işləyir.

İdman turizmi ölkədə inkişaf potensialı olan turizm növlərindən biridir. Bu, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanında göstərilən "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji yol xəritəsi" ində öz əksini tapmışdır. Bu sahəyə xüsusi diqqət və qayğı göstərilir, müxtəlif layihələr həyata keçirilir. [5, 24]

Növbəti illərdə idman Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda lider mövqe tutacaqdır. Bu sahədə yeni dövlət proqramları hazırlanır, bir sıra islahatlar aparılır. 2017-ci ildə ÜDM-in qeyri-neft sektoru 2,7 faiz artmışdır. 2017-ci ildə 2016-cı illə müqayisədə qeyri-neft sənayesi 3,8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə 5,9%, ticarət 2,5%, kənd təsərrüfatı 4,2%, nəqliyyat və anbar təsərrüfatı 8,5%, rabitə 6,6% artmışdır. [5, 30].

Azərbaycanda idman turizminin inkişafının əsas istiqamətlərindən biri infrastrukturun daha da təkmilləşdirilməsi və ölkənin müasir ehtiyaclarına uyğunlaşdırılmasıdır. Bildiyiniz kimi, idman turizminin inkişafında yerli turistlərin rolu böyükdür. Ekoloji turizm, dağ turizmi, kənd turizmi müxtəlif idman turizmi növləri daxilində geniş yayılmışdır. İdman turizminin inkişafı üçün dövlət büdcəsindən infrastruktur layihələrinə vəsait ayrılması nəticəsində son illərdə Azərbaycanda təşkil olunan Bakı 2015 Avropa Oyunları, Formula 1 Oyunları, İslam Oyunları ölkəyə minlərlə idman ziyarətçisini cəlb etdi və Azərbaycanda idman turizmi inkişaf etməyə başladı.

Azərbaycan Respublikasında idman turizminin inkişafı üçün dövlət mexanizmlərinin tətbiqi nəticəsində Avropa tarixində ilk Avropa Oyunları Azərbaycada keçirildi. Bu oyunların təşkilini Azərbaycana həvalə etmək Avropanın, eləcə də Beynəlxalq Olimpiya Hərəkatının ölkədə idmanın inkişafına göstərilən qayğı və nailiyyətlərin yüksək qiymətləndirilməsinin göstəricisidir.

Müasir dövrdə Azərbaycanda paytaxtın və bölgələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində aparılan işlər idman obyektlərinin, istehsal sahələrinin, eləcə də sosial infrastrukturun formalaşmasında böyük dəyişikliklər etmişdir.

Azərbaycan Respublikasında qəbul edilmiş bütün dövlət strategiyaları və dövlət proqramları nəticəsində bu gün ölkədə idman turizmi öz inkişaf mərhələsini keçirir. Təkcə paytaxtda deyil, bölgələrdə də bu turizm sektorunun inkişafına dəstək üçün büdcədən vəsait ayrılır, yeni layihələr təklif olunur.

**NƏTİCƏ**

Nəticə olaraq qeyd etmək lazımdır ki, Azərbaycanda idman turizminin inkişafı üçün potensial imkanlar olsa da, bu imkanlar hələ tam istifadə olunmamışdır.

Ölkədə ən gəlirli turizm istiqamətlərindən biri olan idman turizminin davamlı inkişafına nail olmaq üçün bütün potensial imkanlardan istifadə etmək, bütün imkanları təhlil etmək lazımdır. Hərtərəfli iş nəticəsində Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır və ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir.

Ötən dövrdə Azərbaycanın milli mədəniyyətinin və turizm potensialının beynəlxalq aləmdə tanıdılması, ölkəmizi dünya mədəni və turizm məkanına inteqrasiya etməsi, milli mədəni irsimizin, dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi və ötürülməsində müəyyən nəticələr əldə edilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının saytı//:www.fairex.az.(electron resurs).
2. Bilalov B.Ə, Gülalıyev Ç.G - “Turizmin Əsasları ” –Bakı-2015
3. Bilalov B.Ə Turizmin Menecmenti, Bakı-2005 Mütərcim nəşriyyatı.
4. Bilalov B.Ə Turizm Fəaliyyətinin Tənzimlənməsi, Bakı -2006, Mütərcim nəşriyyatı.
5. Əlirzayev Ə.Q “Turizmin iqtisadiyyatı və idarə edilməsi”- Bakı-2010. İqtisad Universiteti” Nəşriyyatı.

6. Qurbanov F.İ Azərbaycanda Turizmin inkişaf problemləri, Bakı -2007 Adiloğlu nəşriyyatı.
7. Kotler F. Marketinqin əsasları. Bakı, “ Ergün ”, 1993.
8. Rəhimov S.H. Turizm -ekskursiya işinin təşkili. Bakı, “ Mütərcim ”, 2004.
9. Soltanova H.B. və Hüseynova Ş.H. Turizmin Əsasları, Bakı -2007, Mütərcim nəşriyyatı.
10. Zeynallı Y.Q. Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarə olunmasının iqtisadi-coğrafi problemləri, Bakı, Tuna, 1999.

## İSLAM DİNİNDƏ ƏXLAQ TƏRBİYƏSİ

**Rəhimova Bəsti**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Mənzilə Rəhimova***

**Açar sözlər:** İslam dini, tərbiyə, əxlaq tərbiyəsi, kamil insan, mənəvi dəyərlər.
**Key words:** Islam religion, education, moral education, perfect man, mental values.
**Ключевые слова:** Ислам религия, воспитание, нравственное воспитание, прекрасный человек, ментальные ценности.

610-cu ildə Hira mağarasında Cəbrayıl mələyi Məhəmməd peyğəmbərə görünmüş və ona Quranın ilk beş ayəsini diktə etmişdir. Elə həmin il islamın meydana gəldiyi il hesab olunur. İslamın yarandığı ilk illərdə, Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicə, Əli ibn Əbu Talib, Əbu Bəkr və başqaları da daxil olmaqla 40-a yaxın insan ilk olaraq İslamı qəbul etdi.

“İslam” sözü s-l-m (سلم) kökündən meydana gəlmişdir. Bu kökün ümumi olaraq qəbul edilən iki anlamı vardır: 1. sülh (salam da bu kökdəndir); 2. boyun əymək, itaət etmək (Allaha təslim olmaq).

İslamın tərəfdarlarını müsəlman adlandırırlar. Ərəbcə müslim sözü “muti” - itaət etmək deməkdir. İslam yeganə Allaha (ərəb. الله) itaət etmək deməkdir. İslamı qəbul edən hər bir kəs 5 şərtə əməl etməlidir: kəlmeyi-şəhadət gətirmək, gündə 5 vaxt namaz qılmaq, oruc tutmaq, zəkat vermək və Məkkə-Kəbəni ziyarət etmək.

Allah Təala buyurmuşdur: «Allah yanında (Məqbul olan) din əlbəttə, İslamdır.» (Ali-İmran,19). İslam dini əxlaqa önəm verən ən mükəmməl bir dindir. Həzrət Məhəmməd (s) “İslam gözəl əxlaqdır” buyurmuşdur. Əxlaq cəmiyyətdə davranış modellərinin cəmidir, xalqın davranış normalarının məcmusudur.

İslam tərbiyəsi, hər şeydən öncə, islam əxlaqının tərbiyə edilməsini nəzərdə tutur. Bu isə yalnız insanda islam görüşlərinin, dini şüurun tərbiyə edilməsi və ya islam əxlaqının aşılanması ilə məhdudlaşmır. Buraya: dini və dünyəvi elmlərin öyrədilməsi, etik, estetik, əxlaqi tərbiyənin aşılanması, vətənpərvərlik hisslərinin formalaşdırılması da daxildir.

İslam dini yarandığı vaxtdan insanları əxlaqa, mənəviyyata, kamilliyə çağırır. İslam dinində əxlaq, davranış qaydaları çox böyük əhəmiyyət daşıyır. Bir insanın dəyəri onun əxlaqı ilə ölçülür. Bu dinin əsl məqsədlərindən biri də insanın əxlaqının kamilləşməsindən, onun əxlaqlı bir müsəlman olmasından ibarətdir. Çünki əxlaq anlayışı bir insanın bütün davranışlarını əhatə edər. İbadətin də hikməti insanı gözəl əxlaq sahibi olmağa yönləndirməkdir. Bunun üçün gözəl əxlaq müsəlmanların aynasıdır. Həzrət Peyğəmbər (s) buyurur: “İman baxımından möminlərin ən kamili ailəsinə şəfqət və mərhəmət göstərən, əxlaqı gözəl olandır”.

Həzrət Peyğəmbər (s) insanlara “Nur bəxş edib” onları cəhalətdən qurtarmış, iman və gözəl əxlaqın işığına qovuşdurmuşdur.

İslam əxlaqı “Qurani-Kərim”ə əsaslanır. “Qurani-Kərim” də hər bir əmr ona inananlar üçün bir müqəddəs vəzifədir. Müqəddəs kitabımızda peyğəmbərimizə xitabən deyilir: “Doğrudan da, sən böyük əxlaq sahibisən! (Böyük bir din üzərindəsən!)” Peyğəmbərimiz (s) buyurmuşdur: “Sizin ən xeyirliniz əxlaqca ən gözəl olanıdır”.

Peyğəmbərimiz müsəlman ümməti üçün "Usuvəti-həsənə" ("Gözəl nümunə") hesab edilir. İslam tərbiyəsinin ən gözəl nümunəsi şübhəsiz Məhəmməd Peyğəmbərin (s) həyatı, fəaliyyəti, daha sonra bir sıra din böyüklərinin, elm-idrak sahiblərinin və görkəmli şəxsiyyətlərin həyat tərzi, yaşantısı, nümunəsidir. Peyğəmbər (s) öz müdrik kəlamlarında tərbiyə məsələsinə geniş yer vermişdir. O özü hər yerdə, hər işdə nəzakət qaydalarını gözləmiş, bəd əməllərdən uzaq olmağı, əmanətə xəyanət etməməyi, hamının hörmətini qazanmağı tövsiyə etmişdir. Peyğəmbərimiz (s) ədəb, əxlaq haqqında deyirdi:

v Kiçiklərimizin halına acımayan, böyüklərimizin şərəfini bilib haqlarını təslim etməyən bizdən (əhli sünnətdən) deyildir.

v Möminlərin iman baxımından ən kamil olanı əxlaqı ən gözəl olandır.

v Atanın öz oğluna əvəzsiz olaraq verdiyi, bağışladığı şeylərin ən üstünü tərbiyədir.

v Allaha doğru sözdən daha qiymətli bir sədəqə yoxdur.

v Düzgün olun, çünki düzgünlük cənnətə açılan qapılardan biridir: yalan danışmaq cəhənnəm qapılarından biridir.

v Ağlına gələni danışmaq günaha yazılır.

v Çalış insanları şərdən xilas et. Bu sənin özünə verdiyin qiymətdir.

"Aranızdan ən çox sevdiklərim və qiyamət günündə mənə ən yaxın olanlarınız əxlaqı ən gözəl olanınızdır" hədisləri əxlaqı tərif edən hədislərdəndir. Qurani-Kərimdə ədalət, əhdə sadiqlik, əfv etmək, düzgünlük, ata-anaya itaət, sevgi, qardaşlıq, mərhəmət kimi gözəl əxlaqı təşviq edən və zülm, haqsızlıq, riya, həsəd və s. bu kimi xüsusiyyyətləri nəhy edən ayələrin yer alması ilahi kitabda əxlaqa nə qədər əhəmiyyət verildiyinin bir göstəricisidir.

Həzrəti Məhəmməd (s), sadəcə, bu sözləri söyləməklə kifayətlənməmiş, həmçinin gözəl əxlaqı həyatında yaşayaraq, insanlara nümunə olmuş və onu öyrətmişdir. Sevgili Peyğəmbərimiz buyurur: "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim".

İslam dinində əxlaq tərbiyəsinin anlamı çox dərin bir mənaya söykənir. Bu din əslində bizimçüm bir əxlaq məktəbidir. Hər birimizin borcudur ki, bu əxlaq tərbiyəsinə yiyələnək, islam dininin bizə bəxş etdiyi gözəlliklər əsasında özümüzü tərbiyələndirək, çünki islam tərbiyəsi görmüş şəxsin həm bədəni, həm də ruhu sağlam olur. Bir insanın əxlaqi cəhətdən tərbiyələnməsi cəmiyyət üçün çox böyük bir mənəvi dəyərdir. Çünki bir insan doğularkən tərtəmiz bir şəkildə, heç bir günahsız dünyaya gəlir. Əgər bu insanın tərbiyəsi düzgün istiqamətdə aparılarsa, düzgün əxlaqi tərbiyələndirilərsə, onda bu insan cəmiyyət üçün ən yararlı, ən vacib bir şəxsiyyətə çevriləcəkdir. Onun tərbiyəsi həmin insanın ətrafında olan insanlara da öz yansıtmasını göstərəcəkdir. Lakin bunun əksi olarsa, bir fərd düzgün tərbiyə olunmazsa və ruhunu çirkin xasiyyətlər örtərsə, ondan gözəl əxlaq gözləməyə də dəyməz. Necə ki, bədənimiz xəstəlikərdən müalicə oluna bildiyi kimi, ruhumuz da pis vərdişlərdən müalicə oluna bilir. Sevimli Peyğəmbərimiz (s) də insanlara "Əxlaqınızı gözəlləşdirin" buyurmuşdur.

İnsanın gözəl bir əxlaqa sahib olması üçün "Qurani-Kərim"də bir xeyli əmrlər mövcuddur ki, biz onlardan "Əl-İsra" surəsinə nəzər yetirsək, Allah Taalanın kəlamlarında insan əxlaqının, ümumilikdə, islam tərbiyəsinin əsas keyfiyyətlərini görə bilərik: "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb, gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!» - belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!"."Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: "Pərvərdigara! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, sən də onlara rəhm et!"

Müqəddəs Qurani-Kərimdən ayələri nümunələr gətirməklə əsas qayəmiz budur ki, islam dinində əxlaq tərbiyəsinə qovuşmaq üçün bu ayələr bizə sonsuzadək yol göstərəcəkdir. Biz müsəlmanlar həyat tərzimizi məhz Allahın bizə göndərdiyi əməllərə uyğun yaşayarsaq, o zaman gözəl əxlaq sahibi olar, Allah Taalanın sevimli qullarına çevrilərik.

## **<u>ƏDƏBİYYAT SİYAHISI:</u>**


1. F.N.İbrahimov, R.L.Hüseynzadə Pedaqogika. II cild. 2012
2. H. Əhmədov Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. 2016
3. Nəhcül Bəlağə

4. R.Hüseynzadə Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. 2020

## TURİZM XİDMƏTLƏRİ BAZARININ İNFRASTURUKTURU

**Rəhmanlı Lamiyə Ramin**
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Turizm və otelçilik (Sosial-mədəni sahələrdə xidmətlərin təşkili) magistr***
***Elmi rəhbər: dos. Ağamirzə İsfəndiyarov***
***Lamiyerehmanli@gmail.com***

### XÜLASƏ

Turizm xidmətləri, digər xidmət sahələrinə aid olan müəssisələrin fəaliyyətinin nəticələri kimi ticarət predmeti hesab edilir. Tuizm məhsullarının istehsalçıları, satıcıları və alıcıları turist xidmətləri bazarında görüşürlər. Beləliklə, turizm xidməti bazarı (turist bazarı) – turizm resurslarının əsasında yaradılmış turist məhsullarının hərəkəti ilə bağlı turizm xidmətinin alıcıları (turistlər) və satıcıları (turoperatorlar və turagentlər) arasında konkret iqtisadi münasibətlərin məcmusudur.

**Açar sözlər:** turizm, xidmət, bazar, məhsul, otel  sənayesi

### SUMMARY

Tourism services are considered to be the subject of trade as a result of the activities of enterprises belonging to other service areas. Manufacturers, sellers and buyers of tourism products meet in the market of tourist services. Thus, the tourism service market (tourist market) is a set of specific economic relations between buyers (tourists) and sellers (tour operators and travel agents) of tourism services related to the movement of tourist products created on the basis of tourism resources.

**Key's word:** tourism, service, market, product, hotel industry

### РЕЗЮМЕ

Туристические услуги считаются предметом торговли в результате деятельности предприятий, принадлежащих к другим сферам обслуживания. Производители, продавцы и покупатели туристических продуктов встречаются на рынке туристических услуг. Таким образом, рынок туристических услуг (туристический рынок) представляет собой совокупность определенных экономических отношений между покупателями (туристами) и продавцами (туроператорами и турагентами) туристических услуг, связанных с перемещением туристских продуктов, созданных на основе туристских ресурсов.

**Ключевые слова:** туризм, оказание услуг, рынок, товар, гостиничный бизнес

Turizm bazar iqtisadiyyati sisteminin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, dünyanın bir çox ölkəsində də fəal inkişaf edən bir sahədir. Turizm xidmətləri bazarı və yaxud turizm bazarı turizm ehtiyatları əsasında yaradılan pulların və turizm məhsullarının hərəkəti səbəbindən turistlər (alıcılar) və turoperator,  turagentlər (satıcılar) arasında meydana çıxan konkret iqtisadi əlaqələrin və münasibətlərin məcmusudur. Başqa sözlə desək, turizm xidmətləri bazarı – insanların istirahəti, boş vaxtını əyləncəli keçirməsi və ya sağlamlığı ilə bağlı xidmətlərə olan ehtiyaclarının ödənilməsi sahəsi kimi çıxış edir.

Turizm bazarının əsas tərkib ünsürləri sırasına turizm təklifi, turizm tələbi və turizm məhsulları daxildir. Başqa sözlə, turizm bazarının fəaliyyət mexanizmi təklif və tələbin tarazlaşdırılması sisteminə təsir edir, turist axını, pul axını və turist məhsulu arasında əlaqəni formalaşdırır.

Mövcud turizm xidmətləri bazarını turistlərin sayından, fəaliyyət miqyasından, turizm məhsullarının partiyasından və turist axının istiqamətindən asılı olaraq təsnifləşdirmək olar. Məhz göstərilən bu əlamətlərə görə turizm bazarını təsnifatı aşağıdakı kimidir:

1. Turizm məhsulunun alıcılarının yəni turistlərin sayından asılı olaraq turizm bazarlarının üç tipi mövcuddur:

- Fərdi bazarlar. Burada turistlər təkbaşına səyahət edir, öz marşrutunu müstəqil şəkildə planlaşdırır, nəqliyyat xidmətləri və mehmanxanalarda yerləşməsi haqqında bütün lazimi sifarişləri yerinə yetirirlər;
- Kütləvi bazarlar. Burada turistlər tur proramına əsasən qabaqcadan nəzərdə tutulan və haqqı ödənilən xidmət və əyləncələrin standart kompleksi ilə kifayətlənirlər. Satışa çıxarılan turların əsas kütləsini paket turlar təşkil edir;
- Populyar bazarlar. Burada isə turistlər nibətən sayı az olan kiçik qrupların tərkibində daha baha olan turlar üzrə səfər edirlər. Servis xidmətlərinin daha yüksək səviyyədə olması, bahalı otellərdə yerləşdirmə və səfər dövründə turistlərin ödədiyi digər müxtəlif xidmətlər bu tip bazarlar üçün xarakterikdir. Bu turların baha olmasına baxmayaraq, turistlərə çox böyük seçim imkanı verir.

2. Fəaliyyət miqyasına görə turizm bazarları üç yerə bölünür:

- Milli bazarlar
- Dünya bazarları
- Regional (lokal) bazarlar

Milli bazarlar, ayr-ayrılıqda götürülmüş bir ölkənin turizm bazarıdır.

Dünya bazarları – bu bütün dünya ölkələrini əhatə edən qlobal turist bazarlarıdır.

Regional va yaxud lokal bazarlar isə fərqli regionların turizm xidmətləri bazarıdır.

Bu bazarların hər biri bir-birilə qarşılıqlı əlaqədə fəaliyyət göstərdiyi üçün, müasir iqtisadi sitstem bu bazarların birgə mövcudluğunu xarakterizə edir. Turizm məhsulunun istehsalçıları regional bazara çıxarkən dünya (qlobal) və milli turist xidmətlərinin bazarlarının inkişaf meylləri və vəziyyətini də nəzərə almalıdır.

3. Satılan turizm məhsulunun partiya ölçüsündə asılı olaraq, topdansatış və pərakəndəsatış bazarlarına bölmək olar. Topdansatış bazarlarda turist məhsulunun satışı iri partiyalarla həm satılır, həm də alınır və bu bazarlarda bir qayda olaraq hüquqi şəxslər fəaliyyət göstərməkdədirlər. Pərakəndəsatış bazarlarında isə eyni xidmətlər fərdi alıcılara məhz onların şəxsi tələbatlarının ödənilməsi üçün satılır.

4. Turist axınının istiqamətindən asılı olaraq, turist bazarlarını iki yerə: gəlmə və getmə bazarlara ayırmaq olar.

Turizm xidmətləri bazarının infrasturukturuna isə aşağıdakılar aiddir:

1. Turistlərin yerləşdirilməsi üzrə onlara göstərilən xidmətlər. Belə ki, bura mehmanxana, otel və motel sənayesini, o cümlədən, pansionat, sanatoriya və turist bazalarıda daxil olmaqla müxtəlif xidmətlər daxildir. Turistlər həmçinin yerli əhalidən icarəyə götürülmüş evlərdə və şəxsi mənzillərdə, eyni zamanda çadırlarda, karvaninqlərdə, qatar, yaxta, gəmi və kempinqlərdə də yerləşdirilə bilərlər.
2. Turistlərin ərzaqla təminati üzrə xidmətlər. Bura daxildir: restoran, kafe, bar, yeməkxana, qəlyanaltı və s.
3. Turistlərin səyahət etdiyi ölkədə nəqliyyat vasitələrinin müxtəlif növləri üzrə xidmətlər: qatar, çay və dəniz gəmiləri, avtobuslar, aviaçarter reysləri və s.
4. Reklam xidməti. Ümumiyyətlə, turizmdə informasiya sisteminə - rabitə, Kütləvi İnformasiya vasitələri və internet daxildir.
5. İnzibati-nəzarət orqanlarının yerinə yetirdiyi xidmətlər: sərhəd, karantin, valyuta, polis xidmətləri, viza və pasport və s. sənədlərin hazırlanması.
6. Turist agentlikləri tərəfindən göstərilən xidmətlər: səyahət ediləcək marşrutun hazırlanması, otellərdə və nəqliyyatda yerlərin bronlaşdırılması, gediləcək ölkənin hər hansı bir bölgəsi haqqında bilgilər, turistə valyuta məzənnəsi haqqında informasiya verilməsi və b.
7. İnformasiya vasitələrinin həyata keçirdiyi xidmətlər: Bura, jurnal, radio, televiziya və qazeti misal göstərmək olar.
8. Turistlərin elmi və işgüzar maraqlarının təmin edilməsi üzrə müxtəlif xidmətlər. Məsələn, yarmarka və sərgilərdə iştirak etmək, seminar, toplanti, konqress, konfrans və simpoziumlar bura aiddir.

Yerləşdirmə imkanları səyahət xidmətləri bazarının infrastrukturunda mühüm rol oynayır. Turist axınları birbaşa otel sənayesinin ölçüsündən və təklif olunan binaların keyfiyyətindən asılıdır.

İnvestisiyanın səmərəliliyinin təhlilinə əsaslanan turizmin iqtisadi təhlili üçün otel sektorunun problemləri (idarəetmə, maliyyələşdirmə, dizayn) əsasdır. Yerləşdirmə obyektlərinin səmərəli işləməsi beynəlxalq turizmin uğuru üçün vacibdir. Deməli, yerləşdirmə turizminin ən vacib ünsürü otel sənayesinin mahiyyətidir. Qədim ənənələrdən irəli gələrək otelçilik qonağa hörmət etməyi, qonaqların qəbulu və onlara xidmət göstərilməsini özündə ehtiva edir. Keyfiyyətli xidmət yaxşı bir otel üşün ən asas şərtdir və qonaq üçün "evindən uzaq ev" mühiti yaratmalıdır.

Otel sənayesinin əsas fərqləndirici xüsusiyyəti qonaqların qəbulu, yerləşməsi, qidanlanması və oteldə qalmalarının təmin olunması üçün turistlərə təklif olunan bütün xidmətlərdir. [2]

Qlobal otel sənayesinin böyüməsi, otel yataqlarının sayının artması səyahət xidmətləri bazarının inkişafında ikiqat rol oynayır: bir tərəfdən, infrastrukturun inkişafına və dolayısıyla turizm xidmətləri və onlardan ölkə xəzinəsinə gəlirlərinin artmasına səbəb olur, digər tərəfdən isə işləyənlərin sayı artır yəni, işsizlik probleminin həllinə müsbət təsir göstərir. 90-cı illərdə dünyada otellərin sayı 46% artdı, illik artım 2,8% oldu, yəni 16 milyondan, 24 milyona kimi artım müşahidə olunmuşdur.

Hazırda isə statistik məlumatlara əsasən dünyada 13 milyondan çox otel vardır. Onlardan 7 milyonu beynəlxalq səviyyədə fəaliyyət göstərən 350-dən çox otel zəncirinə daxildir. Eyni zamanda, dünyada otellərin sayı hər il 10-15% artır.

Otel sektorunun inkişafındakı müasir tendensiyalar – alıcı bazarının formalaşması şəraitində rəqibin bazardan tamamilə kənarlaşmasına qədər rəqabətin kəskinləşməsi, beynəlxalq otel narahatlıqlarının bazara təsirinin gücləndirilməsi, otel otaqlarının əşyalarındakı sadəliklə xarakterizə olunur.

Otel xidmətləri bazarının əsas problemi kiçik və orta ölçülü şirkətlərin və otel birliklərinin bir yerdə yaşamasıdır. Məsələn, Sheraton, Novatel, Holiday Inn kimi beynəlxalq səviyyəli otellər, orta ölçülü otel müəssisələri ilə müqayisədə beynəlxalq kompüter rezervasiya sistemləri, çevik qiymət siyasəti, yüksək ixtisaslı kadrlar, mərkəzləşdirilmiş təlim sistemi kimi üstünlüklərə malikdir.

Kiçik və orta müəssisələrə gəldikdə isə onlar zəifdir, marketinq konsepsiyaları və onların investisiya mənbələri məhduddur. Son illərdə Azərbaycan, xüsusən də Bakıda otel biznesinin inkişafında sürətli bir artım müşahidə olunmuşdur. Belə ki, 2015-ci ilədək respublikada 536 otel və otel tipli müəssisə yaranmışdır ki, bu da 2010-cu il ilə müqayisədə 7% çoxdur. Beləliklə, 2019-ci ildə isə otel və otel tipli müəssisələrin sayı 642-ə qədər yüksəldi. [6]

**Cədvəl 1. Otel və otel tipli müəssisələrin mülkiyyət növləri üzrə sayı.**

| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Müəssisələrin sayı | **499** | **508** | **514** | **530** | **535** | **536** | **548** | **563** | **596** | **642** |
| O cümlədən mülkiyyət növləri üzrə: | | | | | | | | | | |
| dövlət | 37 | 34 | 27 | 27 | 27 | 49 | 45 | 35 | 38 | 33 |
| xüsusi | 447 | 460 | 466 | 485 | 489 | 470 | 488 | 515 | 545 | 592 |
| xarici | 12 | 11 | 17 | 13 | 13 | 12 | 10 | 8 | 8 | 12 |
| birgə | 3 | 3 | 4 | 5 | 6 | 5 | 5 | 5 | 5 | 5 |

Turizm xidmətləri bazarı infrasturukturunun müxtəlif elementlərinin iqtisadi rolu turistlərin səyahət zamanı xərclərinin quruluşları ilə qiymətləndirilə bilər. Deməli, turizm sənayesi dünyanın bir çox ölkələrinin iqtisadiyyatının inkişafında mühüm rol oynayır, valyuta gəlirlərinin aktiv mənbəyidir və ölkənin tədiyyə balansına təsir göstərir. Turizm bazarının formalaşması amilləri və onun sosial-iqtisadi mahiyyəti tədqiqat obyekti kimi bir sıra xüsusiyyətlərə malikdir. Məhz bu xüsusiyyətlərin təhlili, qiymətləndirilməsi və proqnozu nəzəri aspektlərlə yanaşı həmçinin praktiki əhəmiyyət kəsb edir, qlobal və lokal inkişaf strategiyasını hazırlamağa əsas verir. Turizm xidmətləri bazarının beynəlxalq tələblərə uyğun təşkili üçün onun maddi-texniki bazasınm, xidmət sferasının, kadr təminatının dünya standartlarına uyğun qurulması və onun ayrı-ayrı sektorlarda elmi-texniki tərəqqi və sivil xidmət sferasını təşkil etmək zəruriyyəti yaradır.

Turizm bazarı öz strukturuna və ahəngdarlığına görə digər kommersiya sahələrindən fərqli olaraq riskli və dayanıqlı olmayan sahədir. Onun beynəlxalq müştərilərini təmin etmək üçün turizm seqmentləşməsində toplanan bütün amillər və parametrlər bir-birini tamamlamalı, xarici vətəndaşların dayanıqlı fikir və üstünlük seçim qabiliyyətini saxlamalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. B.Ə.Bilalov., Ç.G.Gülaliyev. "Turizmin əsasları". Bakı 2015.
2. Nazmi Kozak., Meryem Akoğlan Kozak., Metin. Kozak., "Genel Turizm" Ankara 2014. səh 49.
3. Turizm ehtiyatları və onların əsas xüsusiyyətləri // AMEA Gəncə Regional Elm Mərkəzi. Xəbərlər Məcmuəsi, №.11. Gəncə 2004
4. Rüstəmova S.R. "Azərbaycanda turizmin inkişaf xüsusiyyətləri" Azərbaycan Dövlət İqtisad Universitetinin "Elmi xəbərləri" Bakı, 2013
5. Rüstəmova S.R. "Turizm xidmətləri bazarının fəaliyyət mexanizminin elmi-nəzəri əsasları", Kooperasiya. Elmi praktiki jurnal. N 1, Bakı, 2016, s.119-126
6. www.stat.gov.az

# BULUD TEXNOLOGİYALARINDA İNFORMASİYANIN TƏHLÜKƏSİZLİYİ

**Rüstəmov İdris**
***Azərbaycan Texniki Universiteti, Tələbə***
***Elmi rəhbər: Məhiş Məhərrəmzadə***

**Açar sözlər:** bulud texnologiyası, effektivlik, autentifikasiya və identifikasiya.
**Keywords:** cloud technology, effectiveness, authentification and identification.
**Ключевые слова:** облачные технологии, эффективность, аутентификация и идентификация.

Bulud texnologiyası məlumatların internet mühitində, virtual serverlərdə saxlanması əməliyyatına deyilir. Bu, qurğular arasında ortaq informasiya mübadiləsini təmin edən xidmətdir.

Bulud texnologiyasının tarixi 1950-ci illərdən başlayır. O zamandan etibarən müxtəlif universitet və şirkətlərdə istifadə edilən iriölçülü əsas kompüterlərə zəif terminal kompüterlər qoşulurdu.

Tərifdən göründüyü kimi, bulud texnologiyaları müəyyən bir konstruksiyadır. Bu konstruksiya vasitəsilə kompüter resurslarının virtuallaşmış infrastrukturu ümumi internet şəbəkəsindən istifadə etməklə istifadəçilərə servis şəklində təqdim olunur [1].

Dövlət orqanları, kiçik təşkilatlar və s. kimi aktivlər buludun istifadəçiləri hesab olunur.

İstifadəçilər bulud infrastrukturuna daxil olmaq üçün müxtəlif kliyent qurğularından istifadə edirlər. Kliyent qurğularının aşağıdakı növləri vardır:

Mobil kliyentlər - mobil qurğulardır, portativ hesablama qurğularından, smartfon tipli ağıllı telefonlardan ibarətdir.

İncə kliyentlər - daxili sərt diskləri olmayan kompüterlərdir.

Kobud kliyentlər - bulud sisteminə qoşulmaq üçün veb brauzerlərdən istifadə edən adi kompüterlərdir. Hazırda bulud texnologiyalarına əsaslanan sistemləri ənənəvi kompüter sistemlərindən fərqləndirmək üçün bir sıra aparıcı təşkilatlar tərəfindən bulud texnologiyaları üçün xarakteristikalar müəyyən olunmuşdur.

Bulud texnologiyası bizə daha çox yaddaş sahəsi, məlumatın sürətli ötürülməsi, qənaət etmək kimi bir sıra imkanlar verir. Hazırda istifadə etdiyimiz sosial şəbəkələrdə bir çox məlumatlar həmin saytların öz buludlarında yığılır. Bulud texnologiyalarına misal olaraq "Dropbox", "Google Drive", "ICloud" və s. göstərmək olar [2].

Bulud texnologiyalarının geniş tətbiqinə maneələr törədən bir sıra səbəblər vardır. Bu səbəbləri müəyyən etmək üçün Beynəlxalq Məlumat Mərkəzi (IDC - International Data Corporation) təşkilatı tərəfindən bir sıra tədqiqatlar aparılmışdır və 9 problem müəyyən olunmuşdur [3]. Digər tərəfdən, Bulud Təhlükəsizliyi İttifaqı (CSA - Cloud Security Alliance) təşkilatının da son zamanlar apardığı tədqiqatlardan görünür ki, istifadəçilərin bulud mühitinə keçidinə böyük maneə törədən səbəb informasiya təhlükəsizliyidir [4].

Bulud texnologiyalarında aşağıdakı təhlükəsizlik tələbləri vardır:

Effektivlik – boşluqların və hücumların qarşısının alınması və aşkarlanması prosesinin effektiv şəkildə həyata keçirilməsi;

Dəqiqlik – sistemin dəqiqlik səviyyəsinin artırılması. Buna nail olmaq üçün hücumların aşkarlanması prosesində pozitiv və neqativ səhvlərin dərəcəsinin minimallaşdırılması məsələsinə baxılır;

Şəffaflıq – servis provayderlərinin, proqram istehsalçılarının, istifadəçilərin və hücum edənlərin bulud sisteminin təhlükəsizlik modeli haqqında məlumatının minimal olmasına nail olmaq;

Qeydiyyatın aparılmasının mümkünlüyü – təhlükəsizlik sistemi buludun əsas funksional imkanlarına təsir etməməlidir, uçotun aparılmasını mümkün etmək üçün bulud sistemində baş verən hadisələrin qeydiyyatını aparmalıdır.

Bulud texnologiyalarının meydana gəlməsinin üstünlükləri çoxdur, lakin bu texnologiya informasiya təhlükəsizliyi ilə bağlı ciddi problemlərin də meydana gəlməsinə səbəb olmuşdur [5]. Bulud texnologiyalarında əsasən 5 təhlükəsizlik problemi vardır:

1. Autentifikasiya və identifikasiyanın idarə edilməsi;
2. Girişin idarə edilməsi;
3. Təhlükəsizlik üzrə siyasətlərin inteqrasiya prosesinin təşkili;
4. Servisin idarə edilməsi;
5. Etimadın idarə edilməsi.

Bulud texnologiyasından istifadə zamanı aşağıdakı təhlükəsizlik tədbirlərinin görülməsi vacibdir:

Məlumatların saxlandığı bulud xidmətindəki hesab üçün mürəkkəb və asanlıqla ehtimal olunmayan şifrənin təyin edilməsi.

Həssas məlumatların buludda saxlanmasına ehtiyat ehtiyat edilməsi. Burada adətən tez-tez istifadə edilən faylları saxlamaq lazımdır.

Buludun təhlükəsiz olmasına baxmayaraq, faylların və ya qurğuların əməliyyat sisteminin ziyanverici ilə yoluxma ehtimalı qaçılmazdır. Odur ki, antivirus proqramlarından istifadə etmək məsləhət görülür.

Bulud xidmətindən istifadə etməzdən əvvəl istifadə şərtləri, gizlilik və təhlükəsizlik siyasətini mütləq oxumaq lazımdır.

Məlumatları şifrələmək üçün xidmət təklif edən bulud texnologiyasına üstünlük verilməlidir. Bu əlavə təhlükəsizlik deməkdir.

Məlumatların saxlandığı serverin, məlumat mərkəzinin təhlükəsizliyi barəsində ətraflı məlumata sahib olmaq lazımdır. Onların SSAE 16, SAS 70 SOC 2 ilə audit olunmasına və ya HIPAA, PCI ilə sertifikatlaşdırılmış kliyentlərinin olmasına diqqət etmək lazımdır. Şəbəkələrarası ekranların, müdaxilənin müəyyən olunması və qarşısının alınması sistemlərinin kənar müdaxilələrin qarşısını aldığına əmin olmaq lazımdır.

Məlumatların mütamadi olaraq ehtiyat nüsxəsini çıxarmaq məsləhət görülür. Belə ki, əgər bulud xidmətini verən qurum və ya şirkət, nüsxələnmə məsələsinə düzgün yanaşmazsa, o halda məlumatlar birdəfəlik silinə bilər. Məlumatları idarəetmənin ən asan yolu onların müntəzəm olaraq nüsxələnməsidir.

Heç bir müştərinin məlumatları eyni infrastruktur üzərində olan başqa bir müştəri tərəfindən görülməməlidir.

Hər bulud layı üçün ayrıca təhlükəsizlik tədbiri görülməlidir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. C Gouda, Anurag Patro, Dines Dwivedi, Nagaraj Bhat, “Virtualization approaches in cloud computing”, volume 12 Issue 4, International Journal of Computer Trends and Technology, June 2014.
2. Hussam Aladdin S. Ahmed, Mohammed Hasan Ali, Laith M. Kadhum, Mohamad Fadli Bin Zolkipli, Yazan A. Alsariera “A Review of Challenges and Security Risks of Cloud Computing”, Vol. 9, No. 1-2, Journal of Telecommunication, Electronic and Computer Engineering.
3. Nidal M. Turab, Anas Abu Taleb, Shadi R. Masadeh, “Cloud computing challenges and solutions”, Vol. 5, No. 5, International Journal of Computer Networks & Communications (IJCNC), September 2013.
4. Reinhard Bernsteiner, Dietmar Kilian, Bernd Ebersberger, “Mobile Cloud Computing for Enterprise Systems: A Conceptual Framework for Research”, Vol 10, No 2, 2016.
5. Srinivasa Rao, Nageswara Rao, Kusuma Kumari, “High availability and reliability cloud computing: an overview”, Journal of Theoretical and Applied Information Technology, 2005 – 2009.


# KRUZİNQ SƏFƏRLƏRİNİN TURİZMDƏ ROLU


**RÜSTƏMOV SƏNAN**

***Qərbi Kaspi Universiteti***

***Elmi rəhbər: t.ü.f.d., dosent Bahadur Bilalov***

**rsnan@inbox.ru**


## XÜLASƏ


Bu məqalədə, turizmdə turistlərin ən çox maraq göstərdiyi su nəqliyyatı növlərindən olan kruzinq səfərlərinin yaranma tarixi, növləri və dünyanın ən böyük kruzinq səfərləri təşkil edən şirkətlər haqqında məlumat verilmişdir.



**Açar sözlər:** Kruzinq səfərləri, Kruzinqlər, su nəqliyyatları


## РЕЗЮМЕ


В этой статье представлена информация об истории и типах круизных путешествий, об одном из самых популярных видов круизных путешествий в туризме, а также об крупнейших мировых круизных туристических компаниях.



**Ключевые слова:** круизы, круизы, водный транспорт


## SUMMARY


This article provides information on the history and types of cruise travel, one of the most popular types of cruise travel in tourism, and the world's largest cruise travel companies.



**Keywords:** Cruise trips, Cruises, water transport


Ən qədim nəqliyyat növlərində sayılan su nəqliyyatları hələ hava nəqliyyatının kəşfindən qabaq sərnişinləri qitələr arası kimi böyük səfərlərin təşkilində bu nəqliyyat növlərindən istifadə edirdilər. Lakin ikinci dünya müharibəsindən sonra hava nəqliyyatının inkiçafı ilə, su nəqliyyatı vasitələri zəyifləməyə başladı. Lakin sonradan təkcə sərnişin daşınmasında deyil həmçinin əyləncə və istirahət məqsədləri ilə də istifadə edilməyə başladı. Nəticə etibarı ilə su nəqliyyatı itirilmiş nüfuzunu turizm nəqliyyatı kimi geri qaytarmış oldu.Su nəqliyyatı vasitələri turizm nəqliyyatlarının ayrılmaz bir hissəsi kimi turistlər tərəfindən

çox istifadə edilir. Turistlər arasında məhşur olan kuriz gəzintiləri 19-cu əsrin sonlarından inkişaf etməyə başladı. İlk kuriz səfəri 1835-ci ildə İngiltərədən dəniz vasitəsi ilə İrlandiyaya edilmişdir. Daha sonralar Almaniya şirkətləri turizm sahəsində varlı almanlar üçün yeni ixtisaslaşdırılmış gəmilər istehsal etməyə və səfərlər təşkil etməyə başladılar.[1.,s.109] 1843-cü ildə su nəqliyyatlarından olan qayıqla şay vasitəsi ilə səyahət Tomas Kuk tərəfindən təşkil edilmişdir.[1.,s.111]

İkinci dünya müharibəsi zamanı turist su nəqliyyatlarının inkişafı dayandı ki, buda müharibə ilə əlaqədar idi. Lakin ikinci dünya müharibəsindən sonra kuriz gəzintiləri bərpa edilməyə başladı ki, buda olduqca bahalı olduğundan yalnız varlı avropalılar bundan yararlanırdılar. 20-ci əsrin 60-cı illərində hava nəqliyyatlarının turizm sənayesinə daxil edilməsi ilə su nəqliyyatlarına maraq bir qədər azalmış oldu. Lakin kuriz gəzintilərinin əsas inkişaf dövrü 70-ci illərdən sonra başladı. Yeni əyləncələrin təşkili kuriz gəzintilərinə maraqı artırmış oldu. 20-ci əsrin 70-ci illərindən sonra ən bahalı kuriz gəzintiləri ABŞ-da reallaşmağa başladı. Bundan sonra dəniz səyahətləri turizmdə gəlirli bir sahəyə çevrilmiş oldu. Gəmilər ilə turiz səfərləri demək olar ki ildən ilə artmaqdadır. Ümumi turizm nəqliyyatı sektoruna nəzər salsaq görərik ki, turizm bazarında su nəqliyyatı ilə səfərlər ildən ilə təqribən 8%-ə qədər artmaqdadır.[7] Turizm sahəsində üzən otellər adlandırılan gəmilərin fəaliyyəti ‘kurizinq’ adlanan yeni xidmət sahəsinin yaranmasına başladı. Hal hazırda turizm məhsulu kimi tur operatorların fəaliyyətində kuriz səfərlərinin təşkili olduqca məşurdur. Kuriz gəmilərində turizm sektorunda olan gecələmə, qidalanma, dincəlmə, rekreasiya və əyləncə xarakterli sosal aktivələri kimi xidmətlərin hamsı mövcuddur. Kuriz gəmilərində turistlər üçün lazım olan hər cür şərait mövcuddur ki, buda konfortabelliyi artırır.Kuriz səfərləri mövsümdən asılı olaraq səyahət marşurutları dəyişir.

Turizmdə ən məşur kuriz səfərləri marşurutlarına Karib dənizi hövzəsi, Cənubi Amerika sahilləri, Panama kanalı keçidi, Havay adaları sahilləri, Şimali Amirikanın şərq və qərb sahilləri,Alyaska ətrafı, Saki okeanın cənubu, Aralıq dənizi daxili, Şimali Avropanın Skandinaviya yarımadası sahilləri və Batiq dənizi sahilləri aid edilir. Aralıq dənizi daxili kruzinq səfərləri Avropa kruzinq səfərlərinin 60%-dən çoxunu əhatə edir.2003-cü ildə Beynəlxal Kruzinq Xətləri Birliyi olan ‘CLIA’-nın verdiyi məlumatlara əsasən kruzinq səfərləri ümum dünya üzrə 9,5 milyon nəfərdən çox olmuşdur. CLIA-nın 2010ci il araşdırmalarına əsasən isə dünyada ən çox kruzinq səfərləri 12 milyon nəfər ilə Şimali Amerika Avropa regionlarında olmuşdur. Hal hazırda dünyanın məhşur dəniz kruzinq səfərləri təşkil edən ‘ Royal Caribben Line’, ‘Carnival Grup’, ‘Pricess and Star Cruises’, v. ‘P&O’ kimi nəhəng şirkətləri ildə 6 milyon turist daşımaqdadır ki, buda hər il artan tendensiya ilə davam edirdi son 2 ilə pandemiyaya qədər. Ümumdünya Turizm təşkilatının araşdırmalarına görə dəniz kruzinqlərinin əsas hissəsini bu böyük 4 şirkət öz əlində saxlayır. Dünyanın ən böyük 2620 min sərnişin tutumuna malik kruzinq gəmisi kimi İngiltərənin ‘Quenn Mary’ layneri seçilmişdir.[8] Kurizinqlərin əsas təşkilatçılarına gəmi şirkətləri, gəmi sahibləri və bu sahəyə maraq göstərən bir çox turizm şirkətləri aiddir. Kuriz gəmiləri ilə səyahətlər sərnişin sayından asılı olmayaraq yalnız əlverişli meteroloji şəraitlər zamanı təşkil edilir. Kuriz gəmilərindəki səfərlərin qiyməti, gəmidə təklif olunan xidmətlərin sayından və keyfiyyətindən asılıdır. Kuriz gəmilərində qiymət amili əsasən kayutaların həcimində, onların gəmi daxilindəki mövqelərində özünü biruzə verir. Standart olaraq kuriz gəmilərində səfərin qiymətinə əsasən 10 amil təsir edir ki, bunlarada aşağıdakılar aiddir:

1. gəminin keyfiyyəti
2. liman vergiləri
3. ərazinin tutulmasına görə vergi
4. gəminin yanacaq sərfiyyatı
5. mövcud əyləncə imkanları
6. ətrafı seyr etmə müddəti
7. sürət-maya dəyəri əlaqəsi
8. dincəlmə xidmətlərinin keyfiyyəti
9. seminar və konfranslar
10. sahil ekskursiyaları

Kruz gəmiləri ilə təşkil olunan kruzinqlər 4 kateqoriyaya bölünür:

v Kütləvi kruzinqlər

v Klassik kruzinqlər

v Xüsusi özəl kruzinqlər
v De-lüks kruzinqlər

Kütləvi kruzinqlər: Böyük həcimli gəmilər vasitəsi ilə həyata keçirilən kütləvi kruzinqlər, kruzinq səfərlərinin 60%-ə qədərini əhatə edir. Vaxt amillərinə görə kütləvi kruzinq proqramları 23- və ya 7 günlük olur. Kütləvi kruzinqlərdə standarq qiymətlər digər kruzinqlərə nisbətdə aşağı olur. Lakin turist çoxluğunun olması ilə kütləvi kruzinq səfərləri təşkil edən şirkətlər öz gəlirlərini daxili ekstra xidmətlərin satılmasından əldə edirlər. Belə kruzinqləri oyun, əyləncə və şoppinq kimi üstünlükləri çoxdur.

Klassik kruzinqlər: Kütləvi kruzinqlərdən sonra kruzinq səfərləri arasında ikinci yerdə 30%-lik paya sahib klassik kruzinqlərdir. Kütləvi kruzinqlə müqayisədə, klassik kruzinqlərdə səfərlərin müddəti minimum 7 gündən 2-3 aya kimi ola bilir. Klassik kruzinqlərin əhəmiyyəti sahil ekskursiyaları və xidmətlərin yüksək səviyyədə təşkil edilməsidir.

Özəl kruzinqlər: Bu kateqoriyaya daxil olan kruzinq səfərləri digər kruzinq səfərlərindən olduqca fərqlənir. Belə ki, özəl kruzinqlər ilə səfərin sonu özəl bir ərazidə olur. Həmin ərazilərdə turistlərə sualtı idmanlar, qütb gəzintiləri, tarixi abidələr ilə zəngin olan ərazilərə səfər, suda və quruda müxtəlif canlıların hərəkətini seyr etmək kimi xidmətlər təşkil edilir. Bu cür kruzinq səfərləri əsasən nisbətən kiçik gəmilər vasitəsi ilə həyata keçirilir. Özəl kruzinqlərdə səfərlərin qiyməti son dərəcə yüksəkdir. Lakin digər kruzinqlərdən fərqli olaraq, özəl kruzinqlərdə konfortluluq əsas şər kimi sayılmır.

De-lüks kruzinqlər: De-lüks kruzinq ekskruziv proqramlara sahib olduqca rahat kruzinq növüdür. Turistlərə digər kruzinqlərdə göstərilən xidmətlərdən də artıq xidmətlər göstərilir. Səfərin qiyməti xidmət sahələrinin çox olması ilə əlaqədar olaraq olduqca bahadır. Məhz bu qədər bahalı olması bura əsasən varlı turistlərin istifadəsi üçündür və nəticə etibarı ilə kruzinq bazarının kiçik bir hissəsini təşkil edir.

**ƏDƏBİYYAT SİYAHISI :**

1. E.N. Artyomova., V.A. Kozlova., Turistlərin nəqliyyatı, Qartal 2011
2. Məmmədov C.A.,Soltanova H.B., Rəhimov S.H., Beynəlxalq Turizm Coğrafiyası. Bakı-2002
3. Şahsuvar. Ə.H., Turizmdə Nəqliyyat xidmətlərinin təşkili, Mingəçevir-2011
4. S.S.Allahverdiyev.Nəqliyyat Müqavilələri, 1-ci hissə, Bakı-2005, 7-58 Səh.
5. Kvartalnov V.A., Turizm dərsliyi maliyə və statistika, Moskva-2000, 200-230 səh.
6. www.submarinesafaris.com
7. www.studref.com
8. www.tothostel.ru.az

## AZƏRBAYCANDA AQROTURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Rzaxanov Rauf Nazim oğlu**

### XÜLASƏ

Məqalədə aqroturizmin ölkəmizdə yayılması, əsas inkişaf istiqamətləri, bu sahədə görülən tədbirlər, “şəhərdən-kəndə”, “agritour” lahiyələri, dövəltin aqroturizm sahəsində apardığı siyasət, yerli icmalara dəstək verməsi, yerli idarəetmə orqanlarının rolu, icmaların qeyd olunan turizm növündən yararlanmaq imkanları araşdırılmışdır.

**Açar sözlər:** aqroturizm, kənd turizmi, icma turizmi, “şəhərdən-kəndə” "Agritour", bələdiyyələr, dövlət dəstəyi, qonaq evi, gecələmə yerləri.

Bu sektorun davamlı inkişafı və genişlənməsi turizmi sosial-iqtisadi tərəqqidə əsas və aparıcı qüvvələrdən birinə çevirir. Bu, özünü həmçinin yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələr və infrastrukturun qurulmasında göstərir. Azərbaycanda da bu sahənin inkişafına diqqət göstərilməkdədir. Avropa ilə Asiya arasında körpü rolu oynayan Azərbaycanda iqtisadiyyat, turizm, idman, mədəniyyət,

incəsənət və digər sahələrdə əldə olunmuş böyük uğurlar ölkəmizə nəinki əcnəbi iş adamları, həmçinin turistlər arasında marağı artırıb. Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub. Ölkəmiz dünyada yeni turizm istiqamətlərindən biri olaraq tanınmağa başlayıb. Beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə həyata keçir.

Son dövrlərdə Azərbaycanda turizm istiqamətləri üzrə infrastrukturun yenilənməsi turistlərin respublikamıza olan marağını artırır. Ölkəmizdə turizmin əksər növlərinin, həmçinin kənd, müalicə, ekoloji, mədəni, sosial, kommersiya, dini, maraq turizmi və s. üçün geniş imkanlar vardır. Xüsusilə böyük şəhərlərin əhalisi üçün şəhər həyat tərzinin səs-küyündən uzaq sakit, yaşıllıqlarla əhatəli kəndlərdə istirahət etmək fikri çox cəlbedicidir. Ölkəmizin iri sənaye mərkəzlərindən və xaricdən gələn turistlərdə kənd evlərində yaşamaq, istirahət etmək, kəndlilərin həyat tərzi ilə tanış olmaq arzusu böyükdür. Bu sahəyə maraq göstərən turistlər kənd həyatını dadmaqla yanaşı, həm də xidmət gözləyirlər. Əksər hallarda kənd evlərində bu cür şərait olmur. Turistlərin istəyinə uyğun şəraitin təşkil olunması üçün maddi xərclər tələb olunur. Bu xərclər sonda artıqlaması ilə ev, təsərrüfat sahibinə geri qayıdır. Kənd evinin sahibi turistlərə hər cür rahatlığı olan ev və yemək təqdim etməklə bərabər onlara bələdçilik, tərcüməçilik, nəqliyyat xidməti göstərmək, ev heyvanları və quşları bəsləmək üçün qısa müddətli imkan yaratmaqla gəlir əldə edə bilir. Bu sahəni inkişaf etdirmək üçün kənd əhalisinin bu yöndə maarifləndirilməsi lazımdır. Qonaq evi sahiblərinə təlimlər keçirilməlidir, çünki evdə şəraitin olmasından əlavə, xidmətlərin düzgün çatdırılması da vacibdir. İsmayıllı və Xaçmaz rayonlarında bu təlimlər keçiriləcəkdir. Təlimlər müvafiq ictimai birliyin əməkdaşları tərəfindən keçirilir.

Yeni təşkil edilən "Şəhərdən kəndə" (from city to village) layihəsi Azərbaycanda kənd turizminin inkişafını nəzərdə tutur. Layihə ilk dəfə 4 iyun 2019-cu ildə ictimaiyyətə təqdim olunub.Layihənin ilk addımı Şəkidə atıldı. Bu layihədə məqsəd, kəndlərin inkişafını turistlər üçün, həmçinin də şəhər əhalisi üçün təqdim etmək, kəndin həyat tərzi, kənd təsərrüfatı məhsullarının istehsal prosesi ilə tanış etməkdir[7].

Yay fəslində dünyanın bir çox yerlərində olduğu kimi Azərbaycanda da insanlar istirahət məqsədilə kəndlərə üz tutur. Kənd evlərində yaşayıb istirahət etmək, şəhərin mühitindən uzaqlaşmaq, ekoloji cəhətdən təmiz, təbii məhsulla qidalanmaq və eyni zamanda məhsulun istehsalı mərhələləriylə tanış olmaq, kəndlərdə istirahətin mühüm xüsusiyyətlərindəndir. Bu istək, kənd turizminin inkişafının stimullaşdırılmasına imkan yaradır. Ölkəmizdə isə bunun üçün hər cür coğrafi şərait vardır.

İyun ayından etibarən Kənd Təsərrüfatı nazirliyi, Ekologiya və Təbii Sərvətlər nazirliyi, Dövlət Turizm Agentliyi, Dövlət Aqrar Ticarət Şurasının dəstəyi ilə başlanan bu layihə regionlarda istehsalçıların iqtisadi müdafiəsini, yeni xidmət sahələrinin yaradılmasını hədəf götürərək, kəndlilər üçün elə kəndin özündə satış imkanları yaradılmasını təmin etməyi planlaşdırır. Aqroturizm marşrutları bu marağı stimullaşdırır, əlaqləndirir və xidmət sahəsinə çevirə bilir. Kəndin xidmətlərini şəhər üçün əlçatan edir. Aqroturizm insanlara kəndin qədimliyini, ənənəvi kəndli həyatını, ekoloji təmiz məhsulları, ecazkar təbiət mənzərələrini nümayiş etdirir. Bu xüsusiyyətlərinə görə aqroturizmin əsas sektorlardan birinə çevrilmə potensialına malikdir[8].

Bölgələrdə fəaliyyət gösrərən Turizm Destinasiya Menecment təşkilatları tərəfindən regionların mövcud turizm potensialının təbliğ olunması yerli əhali arasında aqroturizmin fəaliyyət növü kimi təşviqi, eləcə də kənd sakinlərinin turistlərin qəbulu, xidmətlər və s. barədə maarifləndirilməsi aparılır. Aqroturizmin özəlliyi odur ki, burada yerləşdirilən obyektlər otellər, motellər, istirahət mərkəzləri deyil, kənd qonaq evləridir. Bu, daha sərbəst turizmdir. Turistin kənd evində istirahətindən məmnunluğu üçün evin şəraiti uyğun olmalıdır[4].

Aqroturizm göstəriciləri Azərbaycan iqtisadiyyatında gəlir yaradan sektor kimi inkişaf etməyə başlayıb. Dövlətin həm büdcəsinə vergi olaraq, həm də kəndlinin özünə gəlir gətirir. Nazirlər Kabinetinin qərarına əsasən ailə-kəndli təsərrüfatının hər bir üzvünə il ərzində 5 min manatadək gəlir əldə edərsə, o heç bir vergiyə cəlb olunmur. 4 ailə üzvü varsa, təsərrüfat fəaliyyətindən 20 min manatdan çox gəlir əldə etdiyi zaman sahibkar kimi qeydiyyatdan keçib vergi ödəməlidir. Orta və aşağı gəliri olan kəndli əlavə gəlir mənbəyi əldə etmək istəyirsə, evini tələb olunan şəraitə uyğunlaşdırıb, turistə icarəyə verə bilər. Ona görə də bu cür ailələrə məqsədli kreditlər verilməsinə ehtiyac vardır. Bu kreditlər də öz növbəsində aqroturizmin inkişafına bir dəstək ola bilər[3].

Önəmli məqam odur ki, bu sahənin inkişafı davamlı olmalıdır. Həmçinin aqroturizmin inkişafı ilə kəndlilərin də həyat tərzi yaxşılaşır. Son dövrlərdə iqtisadiyyatda baş verən dəyişikliklərdən dolayı kənd yerlərində bu cür inkişaf zəruridir. Kənd mühiti şəhərdən fərqli olaraq sakit, həm də uşaqlı ailələr üçün rahat və maraqlıdır. Bu sahənin özəlliyi odur ki, qida rejimi sərbəstdir. Şəxs öz istədiyi məhsulu elə yerindəcə təsərrüfatdan əldə edə bilər. Təbiəti hiss etmək üçün kənd evində, kənd mühitində olmaq lazımdır. Aqroturizmi inkişaf etdirməklə insanların səfalı kənd yerlərində nəinki istirahət etmələrini eləcədə təbiətlə birbaşa harmoniyasını da təşkil etmək mümkündür. Kənd turizmi insanların tətil zamanı istirahət etdikləri evlərdə həm bitki, həm də ev heyvanları ilə birbaşa təması deməkdir. Həmçinin ekoloji təmiz qidadan faydalanmaqları, təmiz havada gəzmələri, səs-küylü həyatdan qısa müddətdə olsa, təcrid olunmalarıdır. Təbii ki burada maliyyə faktoru da əsas rol oynayır. Kənd yerlərində evlərin otel qiymətlərindən ucuz olmağı bu sahəni daha cəlbedici edir. Əhalinin bütün təbəqələri üçün bu sahədə qiymətlər əlçatandır. Rəsmi statistik məlumatlara görə ölkəmizin şimal-qərb regionunun 72%-i kəndlərdə yaşayır. Bu regionun aqrar sektorunun təhlilindən görmək olur ki, kəndlərdə müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olsalarda əksəriyyətin əldə etdikləri gəlir ailəni maddi olaraq tam təmin etmir. Bu sektorda çalışan insanlar əsasən dövlət tərəfindən verilən kreditlər hesabına vəziyyətdən çıxmağa çalışırlar. Ölkəmizdə aqroturizmin inkişafı, əlavə gəlir gətirən biznes növü olmaqla yanaşı həmin kəndlərin iqtisadi inkişafı hərtərəfli təsir edən və bölgələrin tanınması baxımından əhəmiyyəti böyükdür[4].

2019-cu ilin oktyabr ayında aqroturizmin inkişafına təkan olaraq "Agritour" layihəsinə start verilmişdir. Bu layihə çərçivəsində həm yerli həm də xarici turistlər üçün ölkəmizin turizm potensiallı aqrar sahələri ilə yaxından tanış olmasına şərait yaradır. Layihənin reallaşdırılması həmçinin ölkəmizin kənd təsərrüfatı sektoruna xarici investisiyanın cəlb edilməsinə də töhfə verir. Bəs "Agritour" layihəsi tam olaraq nədir? "Agritour" kənd təsərrüfatı müəssisələrinə, istehsal sahələrinə, aqroparklara, fermalara turistlərin cəlb olunmasını həyata keçirəcək rəqəmsal platformadır. Məqsəd turistləri ölkəmizin kənd təsərrüfatı ilə tanış etmək, müəyyən sahə üzrə bilik və bacarıqlara yiyələnmələrinə şərait yaratmaq, bu sahəyə kiçik və orta biznes subyektlərinin daxil olmasını təşviq etmək, turizm resurslarımızdan yararlanaraq yerli turizmimizə dəstək olmaqdır. Bu da turistlərin bölgələrimizin aqrar sektorunu yaxından tanımalarına, təbii kənd təsərrüfatı məhsullarının dadına baxmaqlarına, həmçinin potensial biznes təəssüratlarını gözdən keçirmələrinə səbəb olur. "Agritour" veb platformasının devizi - "Şəhəri deyil, ölkəni kəşf et"-"Discover the country, not a city". Layihə mobil tətbiq proqramlarında da fəaliyyət göstərəcək. Turu təşkil edən şəxs və ya ev sahibi kəndli, qeydiyyatdan keçərək burada profilini yaradır. Burada o, təsərrüfatın şəkillərini, təklif etdiyi xidmətləri və ərazi haqda məlumatları qeyd edir. Turist təklif olunan yerlərdən özünə uyğununu seçib, razılığa gəlir[7]. Fermerlərin turistlərin yerləşdirilməsi, dequstasiya turlarının təşkili, istehsalat müəssisələrinə səfər etmək, balıq tutmaq, xalçaçılıq, at sürmə kimi müxtəlif kənd təsərrüfatı fəaliyyətləri ilə məşğul omaq kimi xidmətləri təklif etməsi nəzərdə tutulur. Layihənin gedişində səfərlərdə çox iştirak etmiş istifadəçilər stimullaşdırıcı tədbirlər olaraq ödənişsiz səfər etmək şansı və bonuslar qazana bilər. Bu sahədə hədəf isə təbii ki, qlobal bazarda rəqabət aparmaqdır.

Aqroturizmin sadəcə potensialının olması bu sahənin inkişafı üçün kifayət etmir. Həmçinin idarəetmə, turist axınlarının tənzimlənməsi dövlətin qarşısında duran vacib məsələlərdəndir. Müvafiq ərazini seçərkən pansionat və digər yaşayış yerlərinin tikilə bilmə imkanları nəzərə alınır. Kənd turizmində bələdiyyələrin 2 funksiyası vardır: kənd turizminə yararlı ərazilərin seçilməsi, müəyyən bir sahənin ayrılması və ondan istifadə qaydalarını müəyyən etmək. Qeyd edilməlidir ki, Azərbaycan Respublikası prezidentinin 6 dekabr 2016-cı ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinə dair strateji yol xəritəsi" strateji məqsəd və hədəf kimi ölkədə ümumi turizmin inkişafını özündə əks etdirir[2].

Eyni zamanda bu sənəddə aqroturizmin sürətli inkişafı üçün çevik təsir mexanizmləri ifadə olunmuşdur. Aqroturizmlə bağlı xüsusi bir qanun hazırlanana qədər 23 noyabr 2005-ci ildə imzalanmış "Ailə kəndli təsərrüfatı haqda" Azərbaycan Respublikası Qanunvericiliyinə istinad etməklə, bu sahənin inkişaf etdirilməsi mümkündür.Qanunvericiliyin məqsədi kənd yerlərində kəndli-ailə əməyinə əsaslanan təsərrüfatların inkişafını dəstəkləməsi, məşğulluğun stimullaşdırılması və səmərəlilik dərəcəsinin yüksəldilməsi, alternativ gəlir mənbələrinin genişləndirilməsi və kənd yerlərinin inkişafını sürətləndirir[1].

Müxtəlif təcrübələrə istinad olunduqda görmək mümkündür ki, bəzi Avropa ölkələrində aqrar sənaye subyektləri assosasiyalar şəklində fəaliyyət göstərir. Məsələn: İtaliyada torpaq sahibləri konfederasiyası (Confagricoltura) milli aqroturizm və ətraf mühit, İspaniyada aqroturizm mülkiyyəti, ferma və kənd mehmanxana assosasiyaları fəaliyyət göstərir[5]. Aparılan araşdırmalardan məlum olur ki, aqroturizmin inkişafı üçün təşkilatlar tərəfindən proqramlar hazırlanır. Xüsusilə xarici təcrübənin öyrənilməsi xüsusi proqramlar çərçivəsində effektiv olur.

Kənd turizmi Azərbaycanda demək olar ki, bütün bölgələrdə mövcuddur. Şamaxı, İsmayıllı, Qəbələ, Xaçmaz, Quba, Şəki, Oğuz, Qax, Göygöl, Daşkəsən, Lənkəran, Masallı, Lerik, Astara rayonlarında kənd evlərində turistlərin qalması adi haldır. Aqroturizmin əsas cazibəsi kənd mühitinin rahatlığı, təmiz hava, sadə həyat tərzindədir. Şəhər həyatının sürətliliyindən qaçmaq üçün əhali son dövrlərdə turizm məqsədilə rayonlara üz tutur[4].

"Şəhərdən kəndə" layihəsi ilə ilk tur İsmayıllı rayonuna-Təzəkənd kəndinə təşkil olunmuşdur. Kənd təsərrüftaı nazirliyinin tabeliyində olan "Aqrar tədarük və təchizat" ASC və "Backpack" turizm şirkətinin birgə əməkdaşlığı ilə səyahətçilər rayonun kənd həyat tərzi ilə yaxından tanış olub. Burada təbii məhsullarla səhər yeməyi və nahar ediblər. Milli kulinariya ilə də maraqlanan səyahətçilərə müxtəlif növ yeməklər barədə məlumat verilib, "Sacda qutab hazırlanması" masterklası keçirilib. Ölkəmizdə ilk dəfə keçirilən "Üzüm və şərab" festivalı üçün tur iştirakçıları Şamaxı şəhərinə yollanıb. Rayonun Meysəri kəndində "Şirvan" şərabçılıq təsərrüfatında xarici və yerli üzüm sortlarından ibarət bağları gəzib, əl əməyi ilə üzüm yığımında iştirak ediblər. Həmçinin təsərrüfat ərazsisində yerləşən şərab zavodunda iştirakçılar yerli şərabların hazırlanması prosesi ilə tanış olublar[8].

"Şəhərdən kəndə" layihəsinin əsas məqsədi kiçik və orta fermer təsərrüfatlarının istehsal etdiyi kənd təsərrüfatı məhsulları üçün alternativ satış yolları yaratmaq, region əhalisinin sosial rifahını qaldırmaq, turistlərin asudə vaxtlarını daha əyləncəli və maraqlı keçməsinə şərait yaratmaqdır.

İcmaya əsaslanan aqroturizmi kəndlərin bərpası strategiyası kimi təşviq etmək (icraçı tərəfdaş Yerli İdarəetməyə Yardım İctimai Birliyi)-layihə Azərbaycanın 8 bölgəsində (Quba, Qusar, Şabran, Siyəzən, Xaçmaz, Salyan, Cəlilabad, Lənkəran) kimi hədəf bölgələrdə ümumi iqtisadi və sosial inkişafa töhfə verməyi planlaşdırır. Bununla məqsəd kənd təsərrüfatı və turizm sektorları arasında əlaqələri gücləndirməklə icmaya əsaslanan aqroturizmi inkişaf etdirmək və iş yerlərinin açılmasına kömək etməkdir. Layihənin konkret məqsədləri bunlardır: aqroturizm iştirakçılarının (kiçik təsərrüfatlar, kooperativlər və s.) böyüməsini dəstəkləmək, aqroturizm məhsulunu şaxələndirmək və marketinq yanaşmalarını artırmaq, davamlı yerli inkişaf strategiyası olaraq aqroturizmdə dövlət-özəl tərəfdaşlığını asanlaşdırmaq. Fayda əldə edənlər: benefisiarların arasında aqroturizm sektorundakı kiçik sahibkarlıq təsərrüfatları, kənd gəncləri, yerli hökumət və qeyri-hökumət nümayəndələri var. Fəaliyyətlər: ictimai maarifləndirmə proqramı; aqroturizm sektorunun dəyər zəncirinin təhlilini aparmaq və hədəf bölgələrdə aqroturizm inventar siyahısını tərtib etmək; gənc sahibkarlara yönəldilməklə aqroturizmə başlanğıc inkişafını dəstəkləmək; aqroturizm klasterlərinin, kooperativlərinin və digər tərəfdaşlıqların yaradılmasına dəstək vermək və onlar üçün biznesin inkişaf planını yaratmaq; cəmiyyətdə mövcud aqroturizm paketlərini təkmilləşdirmək və yeni innovativ xidmətlər və məhsullar təqdim etmək; aqroturizm şirkətləri üçün marketinq strategiyalarını hazırlamaq və həyata keçirmək; aqroturizm və qonaqpərvərlik arasında tərəfdaşlıq; təlimin davamlılığını və peşə təhsili müəssisələri ilə əməkdaşlığını təmin etmək üçün yerli peşə təlimçilərini öyrətmək; regional karyera yarmarkalarının təşkili; aqroturizm təcrübə proqramı; regional aqroturizm şuralarının yaradılması və inkişaf fəaliyyət planı; kiçikmiqyaslı sosial infrastrukturun bərpası[4].

2018-ci ilinin 17-18 noyabr tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və "Yerli İdarəetməyə Yardım İctimai Birliyi" tərəfindən həyata keçirilən "İcma Əsaslı Aqroturizmin Kənd Yerlərinin İnkişaf Strategiyası" olaraq təşviqi layihəsi çərçivəsində Quba şəhəri Şahdağ otelində TOT (Təlimçilər üçün təlim kursu) keçirilmişdir. Təlimlər aqroturizm və aqroturizmdə sahibkarlıq mövzularını əhatə edib. YİY (Yerli İdarəetməyə Yardım İctimai Birliyi)-in digər layihəsi isə eyni ildə Bərdə rayonunda "Nüsr-ət" südçülük kompleksində Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, Təhsil Nazirliyi, Avropa Təlim Fondu, Peşə Təhsili üzrə Dövlət Agentliyi və partnyor təşkilatların iştirakı ilə görüş keçirilmişdir. Layihənin büdcəsi 384,437 avro təşkil edir. Aqroturizmin ölkəmizdə üstünlük və faydalarını aşağıdakı sxemdən görmək olar[7].




**Şəkil 1.**Aqroturizmin tətbiqinin ölkəmizdə verə biləcəyi üstünlük və faydalar.
"Mənbə: http://anl.az/down/meqale/palitra/2016/avqust/503889.htm"

2020-ci ilin ilk aylarından başlayaraq dünyada yayılan COVİD-19 pandemiyası əleyhinə, turizm sahəsində alınan tədbirlərə ölkəmizdə də diqqət yetirilir. Azərbaycan Dövlət Turizm Bürosu və Dövlət Turizm Agentliyi tərəfindən ölkəmizdə turizm sənayesində gigiyena və sanitariya qaydalarına əməl olunmasının effektivliyini təmin edərək bizneslərin rəqabət qabiliyyətinin artırılması məqsədilə xüsusi proqram –SAHMAN (Safety And Hygiene Methods And Norms-sanitariya və gigiyena metdoları və normaları proqramı) hazırlanıb. Proqramın yaradılmasında əsas məqsəd beynəlx miqyasda və ölkə daxilində Azərbaycanı təhlükəsiz turizm məkanı kimi tanıtmaq və rəqabətədavamlılığını artırmaqdır. Proqram digər dövlət qurumları ilə koordinə olaraq hazırlanıb və BMT-nin Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dəstəklənir. Proqrama qoşulan nümayəndələrə təlimlər keçiriləcək, zəruri ləvazimatlarla təchiz olunacaq, brendinq və marketinq kimi istiqamətlərdə dəstək veriləcəkdir. Proqramın icrasının monitorinqinə beynəlxalq PWC şirkəti dəstək verəcək.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Bakı, 29 yanvar 2019-cu il
2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi Bakı 2016
3. Aqrar sahədə sahibkarlığın inkişafının regional problemləri Bakı, Nurlar 2013 157 s.
4. Dərgahov V.S. Kənd turizmi, dərs vəsaiti, Bakı 2020, 314 s.
5. Dernoi L. "Prospects of rural tourism: Need and opportunities", Tourism recreation research 2017
6. Morteza Haghiri, Babu P. George "Rural tourism as a sustainable development alternative: an analysıs with special reference 2018-2019
7. https://fed.az/az/aqrar/aqroturizm-maneeler-ve-inkisaf-perspektivleri-45565
8. https://azertag.az/xeber/Azerbaycanda_aqroturizmin_inkisafina_tohfe_verecek reqemsal_platforma___Agritour-1245970

# MÜQAYİSƏLİ-TARİXİ METODUN YARANMASINDA XİDMƏTLƏRİ OLAN DİLÇİLƏR

**Rzayeva Lalə**
***Bakı Dövlət Universitetinin magistrantı***
***lala.rr95@gmail.com***

## XÜLASƏ

Bu məqalədə müqayisəli-tarixi metoddan, onun yaranmasından və bu işdə xidmətləri olan dilçilərdən bəhs edilmişdir. Bir sıra dilçilərin: M.Kaşğarinin, F. Şlegelin, R. Raskın, F. Boppun, Y. Qrimin və A. X. Vostokovun adları çəkilmiş, onların dilçilik sahəsində, xüsusilə də müqayisəli - tarixi metodun yaranmasındakı xidmətləri dəyərəndirilmişdir. Müqayisəli - tarixi metodun banisini Rasmus Rask olaraq qəbul edilir. Çünki bu sahədə ilk olaraq onun əsəri nəşr edilib. Ancaq məqalədə sonda elə bir nəticəyə gəlinmişdir ki, müqayisəli - tarixi metodun banisi Mahmud Kaşğari olaraq götürülməlidir.

**Açar sözlər:** müqayisəli - tarixi metod, dilçilik elmi, dilçilər ,dillərin təsnifi, Sanskrit dili.

## РЕЗЮМЕ

## ЛИНГВИСТЫ, ВНЕСШИЕ ВКЛАД В РАЗВИТИЕ СРАВНИТЕЛЬНО-ИСТОРИЧЕСКОГО МЕТОДА

В этой статье обсуждается сравнительно-исторический метод, его происхождение и лингвисты, которые внесли свой вклад в эту работу. Были упомянуты имена ряда лингвистов: М. Кашкари, Ф. Шлегеля, Р. Раскина, Ф. Боппа, Ю. Грим и А. Х. Востокова, их заслуги в области лингвистики, особенно в развитии сравнительно-исторической науки. метод были оценены. Расмус Раск считается основоположником сравнительно-исторического метода. Потому что его работа впервые была опубликована в этой области. Однако в статье делается вывод о том, что Махмуда Кашкари следует считать основоположником сравнительно-исторического метода.

**Ключевые слова:** сравнительно-исторический метод, языкознание, лингвисты, классификация языков, Санскрит язык.

## SUMMARY

## LINGUISTS WHO CONTRIBUTED TO THE DEVELOPMENT OF THE COMPARATIVE-HISTORICAL METHOD

This article discusses the comparative-historical method, its origins, and the linguists who have contributed to this work. The names of a number of linguists: M. Gashgarli, F. Shlegel, R. Raskin, F. Bopp, Y. Grim and A. H. Vostokov were mentioned, their services in the field of linguistics, especially in the development of the comparative-historical method were appreciated. Rasmus Rusk is considered to be the founder of the comparative-historical method. Because his work was first published in this field. However, the article concludes that Mahmoud Kashgari should be considered the founder of the Comparative-Historical Method.

**Keywords:** comparative historical method, linguistics, linguists, classification of languages, Sanskrit language.

Dilə müqayisəli baxışın tarixi hələ lap qədim zamanlardan başlayır. Qədim hind dilçiliyində sanskrit dili ilə canlı dili müqayisə etmək cəhdləri var idi. XI əsrin məşhur alimi M.Kaşğari "Divani lüğat-it türk" əsərində türk dillərin müqayisəli təhlilini aparıb.

"Metod obyektiv reallıqlardakı əşyaların və cəmiyyətdəki hadisələrin nəzəri və praktik cəhətdən öyrənilməsidir. Metod elm üçün hansısa bir məqsəd deyildir. O, sadəcə obyektin, onun müxtəlif cəhətlərinin, fəaliyyətinin başa düşülməsi üçün bir vasitəsidir." [1, 45]

Dilçilikdə metod məsələsindən söhbət açdıqda bütün digər metodlardan əvvəl müqayisəli - tarixi metoddan bəhs etmək gərəkdir.

"Bu metodun yaranması dilçilikdə bir neçə vacib sahələrin meydana çıxmasına səbəb oldu. Müqayisəli - tarixi metod əsasında dillərin qohumluq təsnifi mümkün oldu. Bu metod yalnız dilçilik üçün deyil, digər ictimai elmlər üçün də yaradıcılıq istiqamətini müəyyən etmişdir." [2, 46]

Dillərin müqayisəli şəkildə tədqiq olunması avropalıların qədim hindlilərin dili olan Sanskrit dili ilə tanışlığı ilə başladı.. Sanskrit dili ilə bağlı ilk məlumatı İtalyan taciri Filippo Sasseti vermişdir. Ancaq qədim hindlilərin ədəbi dili haqqında ətraflı məlumat İngilis şərqşünas və hüquqşünas William Johnson adı ilə əlaqələndirilir. Alimin Sanskrit dili haqqında daha ətraflı məlumat onun 1786-cı ildə yazdığı "Asiya tədqiqatları" adlı əsərində öz əksini tapmışdır.

Sanskrit dilinin Avropa dilləri ilə oxşarlığı dillərin qohumluğu ideyasının meydana gəlməsi üçün əsas olmuşdur.

Müqayisəli-tarixi metodun əsas məqsədi "ana dil" problemini həll etmək idi. Bu haqda B. A. Serebrennikov qeyd edir ki: "Bəşər dilinin hansısa bir dildən, misal üçün, Adəm, yaxud da qədim yəhudi dilindən qaynaqlanması barəsində orta əsr miflərini diqqətə almasaq, deməli, "ana dil" probleminin elmi əsaslarını müqayisəli-tarixi metodun yarandığı andan almağa başlamışdır. [5, 115]

F. Şlegel "ana dil" problemi barəsində fikir bildirmişdir. F.Şlegelin, xüsusən dil tarixi və dillərin müqayisəsi ilə bağlı tədqiqatları və 1808-cİ ildə çap olunmuş "Hindlilərin dili və müdrikliyi haqqında" adlı məşhur əsəri müqayisəli-tarixi dilçiliyin təməl daşı kimi çox dəyərlidir. [2, 24]

Alimlərn bir çoxu dilçiliyin bir elm olaraq yaranmasını sırf müqayisəli-tarixi dilçiliklə bağlı olduğunu deyirlər. Onlar müqayisəli-tarixi dilçilikdən əvvəlki dövrü elməqədərki dövr kimi adlandırırlar. Bu cür mülahizənin hansı dərəcədə düzgün olub-olmamasından asılı olmayaraq, bu dilçilik məktəbinin dil elmləri tarixində nə qədər əhəmiyyətli olduğu aydın olur.

Bir çox alim dilçiliyin bir elm kimi meydana çıxmasını müqayisəli tarixi dilçiliklə əlaqələndirir. Müqayisəli tarixi dilçilikdən əvvəlki dövrü elmdən əvvəlki dövr adlandırırlar. Bu baxımdan nə dərəcədə etibarlı olmasından asılı olmayaraq

Müqayisəli-tarixi metodun baniləri R. Rask, F. Bopp, Y. Qrim və A. X. Vostokov hesab edilir. Bu dilçilər hind-Avropa dilləri ailəsinin ayrı - ayrı qruplarına dair dillərin müqayisəli qrammatikalarına aid əsərlər yazmışlar. Bu əsərlərlə onlar müayisəli - tarixi metodun əsasını qoymuşlar. Əsərlərinin nəşr olunma tarixinə əsasən bu dilçilərdən FransBoppun adı birinci sırada çəkilir.

Frans Bopp alman alimi olmuşdur. O, 1816-cı ildə Frankfurt şəhərində "Sanskrit dilinin təsrif sistemi yunan, latın, İran və alman dillərinin təsrif sistemi ilə müqayisədə" əsərini çap etdirmidir. Bu əsərində müqayisə bir məqsəd kimi nəzərdə tutulmamışdı. F. Bopp səs və forma qanunauyğunluqlarının müəyyənləşdirilməsi üçün bir vasitə kimi düşünmüşdü. Onun əsərində əsas məqsəd dillərin tarixinin öyrənilməsi idi. O, öz məqsədini müqayisə yolu ilə əldə edirdi. Ümumilikdə, bu əsəri rəsmi olaraq müqayisəli-tarixi dilçiliyin əsası kimi qəbul edilə bilər.

"F.Bopp dilləri tipoloji cəhətdən də köklərə görə təsnif etmişdi. Onun fikrinə görə, 3 cür dil mövcuddur:

1. Həqiqi söz kökü olmayan dillər.
2. Birləşmə qabiliyyətinə malik təkhecalı söz kökləri olan dillər.
3. Üç samitlə səciyyələnən ikihecalı söz kökləri olan dillər.

F. Bopp birinci sinfə Çin dili kimi amorf dilləri, ikinci sinfə HindAvropa, üçüncü sinfə isə sami dilləri aid edirdi." [2, 25]

Rasmus-Kristıan Rask Danimarkalı alimdir. Onun 1818-ci ildə Kopenhagendə "Şimal İsland dilinin mənşəyinə dair" adlı əsəri nəşr edilmişdir. Bu böyük dilçini, əslində, adı çəkilən əsərini Frans Boppdan iki il əvvəl müqayisəli-tarixi metodla yazmış, ancaq ondan iki il sonra çap etdirmişdir. Rasmus-Kristıan Rask iyirmi beş dil bilirdi. Onun ispan, italyan, friz, qədim ingilis, İsveç və başqa dillərə dair qrammatika kitabları mövcuddur. R.Raskın 1811-ci ildə çap etdirdiyi "İsland dili üzrə təlimat" adlı əsərində vacib sözlər yazmışdır. Həmin sözlər bu gün üçün əhəmiyyətli sayılır. Kitabda yazılanlar bu idi: "Qrammatikanın vəzifəsi sözləri düzəltmək barəsində göstərişlər vermək deyi, sözlərin düzəlməsini və dəyişməsini təsvir etməkdir." [4, 49]

Yakob Qrim də frans Bopp kim alman alimi olmuşdur. Onun Hettingen şəhərində çap oluna əsəri "Alman qrammatikası" adlanırdı. Alim müqayisəli - tarixi dilçilik metodu ilə Hind-Avropa dillərinin ən böyük qruplarından biri olan german dilləri sahəsində araşdırmalar aparmışdır." Alman qrammatikası" əsərin birinci cildi 1819-cu ildə nəşr edilmişdi. Ümumi dörd cildin nəşri isə 1837-ci ildə bitmişdir. 1822-ci

ildə o, müstəqil olaraq “German dillərində samitlərin ilkin dəyişməsi”əsərini çap etmişdir. Bunlardan əlavə, Yakob Qrimmin iki cilddən ibarət olan “Alman dilinin tarixi” adlı kitabı da mövcuddur.

Rus alimi olan Aleksandr Xristoforoviç Vostokov əsərini isə 1820-ci ildə Moskvada nəşr edilmişdir. Həmin əsərin adı “Slavyan dili... haqqında mülahizələr” olmuşdur. Görkəmli dilçi bu əsəri İlə rus müqayisəli-tarixi dilçiliyinin əsasını qoymuşdur. A.Vostokov rus elmi və mədəniyyəti tarixində filoloq, slavyanşünas və şair kimi tanınır. O, 1831-ci ildə rus dilinin “müfəssəl” və “müxtəsər” qrammatikalarını qələmə almış, 1858-1861-ci illərdə isə “Kilsə-slavyan dilinin lüğəti”nin iki cildini çap etdirmişdir. A.Vostokov dördcildlik “Kİlsə-slavyan və rus dili lüğəti”nin tərtibçilərindən biri və redaktorudur. Onun poetikaya dair əsərləri də mövcuddur.

Bu görkəmli alimlərin əsərlərinin yazılması və çap edilməsi, dünya dilçilik tarixində tanınması böyük hadisə kimi tarixə düşdür. Çünki onlar dilçilik tarixində geniş bir yol açmışdılar. O, öz tədqiqatlarında təkcə slavyan dillərinin materialları ilə kifayətlənməmişdir və eyni zamanda qədim slavyan kilsə-slavyan dilləri ilə müasir slavyan dilləri arasındakı münasibətləri həm də yeni slavyan dillərinin özləri arasındakı qarşılıqlı münasibətləri tətqiq etmiş, istər qədim, istərsə yeni slavyan dillərini digər qohum hind-Avropa dilləri ilə müqayisə etməmişdir. Bütün bunlara baxmayaraq onun əsərləri hind-Avropa müqayisəli-tarixi dilçiliyinin inkişafında çox mühüm rol oynamışdır.

Bunu Amerikalı dilçi L. Blumfild yüksək dərəcədə qiymətləndirirdi və o, bu hadisəni 19 - u əsr elminin çox böyük uğuru hesab etmişdir.

Bu metod dünya dilçiliyi üçün böyük nailiyyətlər gətirmişdir. Müasir dünya dilçiliyində bu cür tədqiqatlar çox güclü bir istiqamət olaraq qalır.

Dilçilik elminin inkişafında müqayisəli-tarixi metodun kəşfi çox böyük uğur oldu. Başqa elmlərdə olduğu kimi, dilçilikdə də dil faktlarına tarixilik prizmasından yanaşmaq müqayisəli-tarixi dilçiliyin əsas prinsiplərdən biridir.

XIX əsr alimləri məhz belə bir çətin vəziyyətin öhdəsindən gələ bildilər, dilin struktur elementlərindən tutmuş fəlsəfəsinə, ekstralinqvistik faktorlaradək geniş şəkildə araşdırılmağa başlanıldı. Amma onu da qeyd edək ki, XI əsrdə Mahmud Kaşğarı öz əsərində türk dillərin müqayisəli şəkildə araşdırmışdır. Buna görə də əslində, müqayisəli - tarixi metodun yaranmasını XIX əsrdən deyil, XI əsrdən götürmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Axundov A, Ümumi dilçilik, Bakı, “Şərq-Qərb”, 2006, 280 s;
2. Babayev A. Dilçiliyə giriş. Bakı, 2017. -560 s;
3. Qurbanov A. M. Ümumi dilçilik, B. 1977. 421s;
4. Rəcəbli Ə. Müqayisəli -tarixi dilçilik. Elm və təhsil. Bakı - 2017. 343 s.;
5. Серебренников Б А. Общее языкознание. М. 1973. 260 с.

# ƏSLİNDƏ ERMƏNİLƏR KİMDİR VƏ NƏ İSTƏYİRLƏR?

**Sadıqlı Ələkbər**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Namazova Şöhrət***

**Açar sözlər:** Erməni xarakteri, terror, tarixi həqiqət.
**Key words:** Armenian character, terror, historical truth.
**Ключевые слова:** Армянский характер, террор, историческая правда.

Yer üzünün zilləti olan, daim saxtakarlıq, xəyanət və yalan ilə məşhurlaşan ermənilərin özləri kimi tarixləri də tamamilə uydurmadan ibarətdir. “Böyük Ermənistan”, “Erməni soyqırımı”, “II Tiqran və onun

böyük erməni knyazlığı", "Ermənilərin seçilmiş millət olması" ermənilərin ən kiçik və ən uydurma yalanlarından sadəcə bir neçəsidir. Tarix boyunca ancaq oğurluqla məşğul olan bu uydurma millət öz saxta tarixlərinidə başqa millətlərin tarixlərini oğurlamaqla yaratmışlar. İçlərində daim nifrət, kin və həsəd ilə yaşayan ermənilər türklərə qarşı öz xüsusi qəddarlıqları ilə seçilmişlər. Fürsət düşdükcə havadarlarından dəstək alaraq Cənubi Qafqazda və Şərqi Anadoluda türklərin başına çox müsibətlər gətirmişlər. İkiüzlü olmağa vərdiş edən ermənilər öz ağalarına sadiq olduqlarını göstərmiş, lakin ağasının düşməni ilə ittifaq bağlamışlar. Birinci Dünya müharibəsində Osmanlı İmperiyasının "sadiq millət" adlandırdığı ermənilər ingilis, fransız və ruslardan dəstək alaraq Şərqi Anadoluda türklərə müsibətlər yaşatmış, amansız qəddarlıq və barbarlıq nümayiş etdirmişlər. Bu ərazilərdə etnik təmizləmə apararaq, öz qondarma və uydurma "Böyük Ermənistan" dövlətlərini yaratmaq istəmişlər. Özlərini Ön Asiyanın "ən qədim xalqı", "Qafqazda xristianlığı ilk qəbul edən xalq", hətta "Tanrı tərəfindən seçilmiş xalq" kimi qələmə verən ermənilərin "qədim tarixi"nə nəzər salaq.

Ermənilərin əcdadları hesab edilən qəbilələrin yerləşdiyi Yuxarı Fərat vadisi sonralar Urartu dövlətinin, Midiya (Mada) imperiyasının və İran-Əhəməni şahlığının tərkibinə daxil olmuşdur. Əhəməni şahlığının süqutundan sonra Balkan yarımadasından Kiçik Asiyaya köçüb gəlmiş və erməni tarixçilərinin "erməniləşdirdiyi", əslində isə ermənilərin əcdadları olduğu güman edilən qəbilələr Yuxarı Fərat vadisində məskunlaşmışlar. Yuxarı Fərat vadisində kiçik bir knyazlıq (tarixşünaslıqda "erməni çarlığı" da adlandırılır) mənşəcə parfiyalı olan (yəni erməni olmayan) II Tiqranın (e.ə.95-55) hakimiyyətinin əvvəllərində qonşu ölkələrə (Kiçik Asiyanın qərbinə və Mesopotamiyaya doğru, yəni şərqə - Azərbaycana doğru yox) işğalçı yürüşlər edərək, qısa bir müddət ərzində öz hakimiyyəti altında olan ərazini genişləndirə bildi. Lakin e.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey II Tiqranın hərbi qüvvələrini darmadağın etdikdən sonra Kiçik Asiyanın şərqində mövcud olmuş bu knyazlıq müstəqil dövlət kimi tarix səhnəsindən silinib getmişdir. Tarixdə heç zaman üç dəniz (Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi) arasındakı geniş əraziləri əhatə edən "Böyük Ermənistan" adlı dövlət olmayıb. Bu uydurmadır. Əslində isə heç bir ilk mənbə tarixdə "Böyük Ermənistan" adlanan dövlətin olduğunu təsdiq etmir. İndiyədək heç bir arxeolojiqazıntı zamanı "Böyük Ermənistan" adı həkk olunmuş pul tapılmayıb. Ermənilərin guya erməni hökmdarı olduğunu iddia etdikləri parfiyalı II Tiqranın adından zərb olunmuş pullarda da onun "Böyük Ermənistan" hökmdarı olduğu təsdiqlənmir. Ermənilər, daha doğrusu onların ulu babaları hesab olunan qəbilələr, ümumiyyətlə, Asiya qitəsinin yerli əhalisi deyillər, bu regiona köçüb gəlmədirlər. Antropoloji araşdırmalar sübut edir ki, uydurma "armenoid irqi" və ermənilər nəinki Cənubi Qafqazın aborigen əhalisi - yerli sakinləri deyillər, ümumiyyətlə Ön Asiyaya da sonradan gəlmişlər. Arxeoloji qazıntılar zamanı indiki Ermənistan Respublikası ərazisindən aşkar olunmuş qazıntı materialları, o cümlədən qədim insan qalıqları da bunu aydın sübut edir.

Ermənilərin uzunmüddətli planları var və bu planları həyata keçirmək üçün, ilk növbədə, güclü təbliğat aparır, görəcəkləri işlər üçün ideoloji mühit yaradır, ictimai fikir formalaşdırırlar. Ermənistan dövlətini yaratmağa rəsmi olaraq 1650-ci ildən başlayan ermənilər 370 illik təbliğatın nəticəsində onu yalnız 1920-ci ildə Rusiyanın köməyi ilə Azərbaycan torpağında reallaşdırmağa nail olublar. 1650-ci il ermənilərin dövlət yaratmaq məqsədilə ilk dəfə toplanıb havadarlıq üçün Avropa dövlətlərinə üz tutmağı qərara aldıqları tarixdir. Onlar həmin vaxtdan başlayaraq Avropa ölkələrinə nümayəndələr göndərib, hamısından da qovulublar. Yalnız bundan sonra Rusiyaya üz tutub, 1701-ci ildə I Pyotrla görüşüblər. Avropa dövlətlərindən qovulana qədər ermənilər Rusiyanı ikiüzlü adlandırıblar. Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən I Pyotrun 1724-cü ilin noyabrın 10-da ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində məskunlaşmasını rəsmiləşdirən fərmanından sonra başladı. Lakin Rusiyanını Qafqazdakı hərbi uğursuzluqları onun ermənilərin planlı məskunlaşdırılması siyasətini bir müddətə dondurdu. Daha sonra II Rusiya-İran müharibəsini sonlandıran, özgə torpaqlarını ikiyə parçalayan ədalətsiz Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən 40000 erməni Azərbaycanın müxtəlif ərazilərində məskunlaşdırıldı. 1829-cu ilin Ədirnə sülhünün nəticələrinə görə isə, Osmanlı İmperiyası ərazilərində yaşayan 90000 erməni də Azərbaycanda yerləşdirildi. Onlar əsasən Naxçıvan, İrəvan və Qarabağ ərazilərində məskunlaşdırıldılar. I Pyotrun vəsiyyətlərinə dinmədən əməl edən onun xələfləri Ön Asiyaya və ümumən rusların Yaxın Şərqə gələcəkdə çıxması məqsədi daşıyan ermənilərdən Şimali Azərbaycan ərazilərində etnik sədd kimi istifadə etmək idi. Beləliklə, gəlmə ermənilərin XIX əsrin birinci yarısında Şimali Azərbaycan torpaqlarında, o

cümlədən Qarabağda kütləvi şəkildə yerləşdirilməsi Azərbaycan xalqının gələcək faciələrinin baş verəcəyinə əlverişli şərait yaratmaq məqsədi daşımışdır.

Ermənilərin Cənubi Qafqazda ərazi iddialarının ideoloji əsası 1885-ci il Fransada (Marsel) yaranmış "Armenakan", 1887-ci ildə İsveçrənin Cenevrə şəhərində yaradılan "Hnçaq" və 1890-cı ildə Tiflisdə əsası qoyulan "Daşnaksütyun" millətçi partiyalarının fəaliyyəti ilə bağlı olmuşdur. Zaman keçdikcə “Böyük Ermənistan” xəstəliyinə tutulmuş erməni terrorçuları onların mənafeyini təmin etməyən qeyri-türk millətlərinin nümayəndələrinə qarşı da qəsdlər törətməyə başladılar. Birinci Dünya müharibəsi (1914-18) dövründə Çar Rusiyasının silahlandırdığı və digər böyük dövlətlər tərəfindən müdafiə olunan erməni-daşnak quldur dəstələri Şərqi Anadoluda və Azərbaycanda (həm şimalda, həm də cənubda) türk-müsəlman əhalini kütləvi surətdə qırmağa başladılar. Naxçıvan, İrəvan, Zəngəzur, Qarabağ, Urmiya, Salmas, Xoy, Maku və digər yaşayış məntəqələrində yüz minlərlə Azərbaycan türkü, o cümlədən uşaqlar, qadınlar, qocalar xüsusi amansızlıqla qətlə yetirildi. Birinci Dünya müharibəsi başa çatdı. Böyük Atatürk

Türkiyəni xilas etdi. Bununla da böyük dövlətlərin həmişə bir alət kimi istifadə etdikləri erməni millətçilərinin “Böyük Ermənistan” yaratmaq niyyəti iflasa uğradı. Bununla belə, o zamankı mürəkkəb tarixi şəraitdə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti xoş məram nümayiş etdirdi. 1918-ci il mayın 29-da Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş Azərbaycan dövlətlərindən olan İrəvan xanlığının paytaxtı olmuş İrəvan şəhərini ermənilərin “bir siyasi mərkəzləri olması” xatirinə onlara güzəştə getdi. Beləcə, ermənilərə 100 il bundan əvvəl öz torpağında yer verən Azərbaycan bu dəfə onlara paytaxt şəhəri də bağışladı. Beləliklə, tarixdə ilk dəfə olaraq, 1918-ci ildə Cənubi Qafqazda – tarixi Azərbaycan ərazisində erməni dövləti yaradıldı.

Sovet-bolşevik rejimi Çar Rusiyasının ənənəvi siyasətinin davamı olaraq erməniləri daim himayə və müdafiə etdi. Ermənistan Sovet Sosialist Respublikasının yaradıldığı Qərbi Azərbaycan torpaqlarında bu torpaqların əslsahibləri olan azərbaycanlılara qarşı növbəti təqiblər və zorakılıqlar dövrü başlandı. Nəhayət, öz torpaqlarında ermənilərə yer vermiş azərbaycanlıların kütləvi surətdə doğma yurdlarından deportasiyası həyata keçirən ermənilər Qərbi Azərbaycan torpaqlarında daha da möhkəmləndilər. Dünya sosializm birliyinin və Sovet İttifaqının dağılması ərəfəsində qarşılarına Azərbaycandan yeni ərazilər, o cümlədən Dağlıq Qarabağı qoparmaq məqsədini qoymuş erməni-daşnak millətçiləri və terrorçuları yenidən fəallaşdılar. Ermənistan silahlı birləşmələri Rusiya hərbi qüvvələrinin bilavasitə yaxından köməyilə Dağlıq Qarabağı və ətraf rayonları, respublika ərazisinin 20 faizini işğal etdilər. Bir milyondan çox Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin salındı, öz Vətənində qaçqına və məcburi köçkünə çevrildi. 1992-cı ilin 26 fevralında - 20-ci yüzilliyin sonuna yaxın bütün dünyanın gözləri qarşısında qəddarlığı ilə misli görünməmiş Xocalı soyqırımını törətdilər. İşğal aktını pərdələmək üçün Dağlıq Qarabağda oyuncaq “respublika” yaradıldı.

Azərbaycan 44 günlük “Dəmir Yumruq” əməliyyatı ilə Dağlıq Qarabağ ətrafındakı rayonları, həmçinin Azərbaycanın, İslam dünyasının mədəniyyət paytaxtı sayılan Şuşa şəhərini işğaldan azad etdi. Bununla ermənilərin yüz illərdir uydurduğu; terror, qonşu xalqlara düşmənçilik və xəyanət yolu ilə qurduqları dənizdən-dənizə uzanan “Böyük Ermənistan” planları birdəfəlik məhv oldu.

Ermənilərin həqiqi tarixini, yəni 100 illik tarixi araşdırmaq o qədərdə çətin olmaz, amma onların saxta-mifik tarixini araşdırmaq, tədqiqatlar aparmaq və erməni uydurmalarını lazımi faktlarla sübut etmək çox çətindir. Çünki ermənilərin yalanları, uydurmaları gündən-günə artmaqdadır. Ermənilərin saxtakarlığa, xəyanətə və yalana olan “sevgisi” ermənişünaslıq elmini bir növ nağıl kitabına bənzətmişdir. Ermənilərin hər dəfə bütün dünyaya sübut etməyə çalışdıqları iki məşhur yalanları – “II Tiqranın Böyük Ermənistan”ı və “1915 – Erməni soyqırımı” məsələsidir. Tarix boyunca öz uydurmaları ilə öyünən ermənilər II Tiqran və onun yaratdığı knyazlıq haqqında bir ədəd belə sübutu tarix elminə verə bilməmişlər. Uydurma “erməni soyqırımı” ilə bağlı Türkiyə Cümhuriyyətinin Ermənistan ilə birgə arxeoloji qazıntılar aparmaq üçün etdiyi təkliflər, rədd cavabı almışdır. Təbii ki, soyqırım iddiası ilə bütün dünyaya car çəkən ermənilər bütün iddialarının boşa gedəcəyini, onların növbəti yalanının ifşa olunacağını daha yaxşı bilir və başa düşürlər. Dövlətçilik tarixlərini iki min il keçmişə qədər uzadan ermənilərin əslində 100 illik dövlətçilik tarixi vardır. Həmin dövlətdə özgə torpaqlarında yaradılmışdı. 1650-ci ildən havadar axtarışında olan ermənilər ən son rusun əli ilə tarixi Azərbaycan torpaqlarında yalan, xəyanət və saxtakarlıq yolu ilə dövlət yaratmağa

"müvəffəq" olmuşlar. Amma yalan ayaq açar, yeriməz. Şübhəsizdir ki, bir gün həqiqət parlayacaq və Zəngəzur, İrəvan, Göyçə kimi tarixi Azərbaycan torpaqları öz həqiqi sahiblərinə qayıdacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Ermeni iddiaları ve tarihi gerçekler. Ankara. 1998
2. İmanov K. Ermәni tarixi uydurmalarının tarixinə giriş. Bakı, 2016
3. Qlinka S. N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı, "Azərbaycan" nəşriyyatı, 1995
4. Ruintən K.F. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı. "Adiloğlu" nəşriyyatı, 2008. 260 s.
5. Səmyuel A. Uimz - ERMƏNİSTAN - terrorçu "xristian" ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları - I cild)(Azərbaycan türkcəsirıdə)Bakı. 2004


## MARAĞA RƏSƏDXANASI VƏ ASTRONOMİK ALƏTLƏR


**Sadiqova Nigar Elsevər qızı**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı***
***Elmi rəhbər: baş müəllimi Çingiz Dadaşov.***
***nigarsadigova6@gmail.com***



**Açar sözlər:** Rəsədxana, astronomiya, armilyar, mükəmməl alət, Marağa.
**Key words:** Observatory, astronomy, armilyar, perfect instrument, Maraga.
**Ключевые слова:** Обсерватория, астрономия, армиляр, совершенный инструмент, Марага.


Azərbaycanın qədim çağlardan bir elm məbədi olduğu bəllidir. Əski çağlardan başlayaraq ta günümüzə qədər Azərbaycan alim və mütəfəkkirlərinin biliyi, bacarığı, sahib olduğu elm bütün dünya üçün örnək olub. Hələ keçən yüzilliklərdən yüksək təhsil almaq istəyən şəxslər Azərbaycan mütəfəkkirlərinin açdığı məktəb və mədrəsələrə üz tutub. Azərbaycan elminin görkəmli simalarından və dünya miqyasında tanınan mütəfəkkirlərdən biri də Xacə Məhəmməd Nəsirəddin Tusi 1201-ci il fevral ayının 17-də (597 hicri) Tus şəhərində tərbiyəçi ailəsində anadan olmuşdur. Mütəfəkkirin əsl adı Məhəmməd,atasının adı Məhəmməd, babasının adı isə Həsəndir. Dövrünün ağıllı, bilikli, görkəmli alimi olduğuna görə xalq ona Nəsirəddin adını vermişdir.Tusi ləqəbini isə Tus şəhərində anadan olduğuna görə qəbul etmişdir. Mənşə etibari ilə onun əsli Azərbaycanın ən qədim şəhərindən biri hesab edilən Həmədan şəhərindəndir. Nəsirəddin Tusi ilk təhsilini atası Məhəmməd ibn Həsəndən almışdır. O,gənclik illərində biliyini artırmaq məqsədilə Yaxın və Orta şərqin bir sıra böyük şəhərlərinə səfər etmişdir. Nəsirəddin Tusi zəmanəsinin görkəmli filosofu, astronomu, riyaziyyatçısı, tarixçisi, coğrafiyaşünası, maliyyəçisi və hüquqşünası olmuşdur. N.Tusi 25 iyun 1274-cü ildə Bağdadda vəfat etmişdir. [3, 8-15]

Misal 6. $y=2^{2x-x^2-3}$ funksiyasının ən böyük qiymətini tapın.

Həlli: $a=2>1$ olduğu üçün $y=2^t$ funksiyası $t$-nin ən böyük qiymətində ən böyük qiymət, $t$-nin ən kiçik qiymətində isə ən kiçik qiymət alır.

$t=2x-x^2-3=-(x^2-2x+3)=-(x-1)^2-2$ funksiyası $x=1$ olduqda $t=-2$ ən böyük qiymət alır. Deməli, $y=2^t$ funksiyası $t=-2$ qiymətində ən böyük qiymət alar. $y=2^{-2}=\frac{1}{4};y_{\max}=\frac{1}{4};y=^{2x-x^2-3}$ funksiyasının ən kiçik qiyməti yoxdur.

Xassə 5. Üstlü funksiyanın qrafiki absis oxunu kəsmir və qrafiki absis oxundan yuxarı yarım müstəvidə yerləşir. $y=a^x$ funksiyasına və onun qrafikinə eksponenta deyilir. Eksponenta arqumentin dəyişməsi ilə çox sürətlə artır və ya çox sürətlə azalır [2,237]

Misal 7. $y=2^{\sqrt{x^2-9x+4}}$ funksiyasının ordinat oxu ilə kəsişmə nöqtəsinin koordinatlarını tapın.

Həlli: Verilmiş funksiyanın qrafikinin $ox$ ilə kəsişmə nöqtəsinin koordinat-larını tapmaq üçün $x=o$ götürmək lazımdır. Onda $y=2^{\sqrt{x^2-9x+4}}=2^2=4$. Deməli ordinat oxu ilə verilmiş funksiya $A(0;4)$ nöqtəsində kəsişər.

Xassə 6. $0<a<1$ olduqda $x$-in sonsuz böyüməsi ilə $y$-in uyğun qiymətləri kiçilir və $y=a^x$ funksiyasının qrafiki üzərindəki nöqtələr absis oxuna qeyri məhdud yaxınlaşır. $a>1$ olduqda $x\to-\infty$ olduqda qrafik üzərindəki nöqtələr absis oxuna məhdud yaxınlaşır.

Xassə 7. $a>1, x>0$ olduqda $a^x>1$; $0<a<1$ olduqda isə $a^x<1$ olar [1,88].

Xassə 8. $a^{x_1}=a^{x_2}$ olarsa, $x_1=x_2$ olar [1,88].

Misal 8. $3^{x^2-4x}=\dfrac{1}{27}$ tənliyini həll edin.

Həlli: $3^{x^2-4x}=\dfrac{1}{27} \Leftrightarrow 3^{x^2-4x}=3^{-3} \Leftrightarrow x^2-4x=-3 \Leftrightarrow x^2-4x+3=0 \Leftrightarrow \begin{cases} x_1=3 \\ x_2=1 \end{cases}$

$x_1=3$ və $x_2=1$ ədədləri tənliyin həllidir.

Misal 9. $f(x)=a^x$ funksiyası verilmişdir. $f(-0{,}5)=0{,}25$ olarsa, $f(2)$-ni hesablayın.

Həlli: $f(-0{,}5)=0{,}25$ şərtinə əsasən $x=-0{,}5$ olduqda, $a^{-0{,}5}=0{,}25$ olur. Deməli, $\dfrac{1}{a^{\frac{1}{2}}}=0{,}25$

$\Leftrightarrow a^{\frac{1}{2}}=\dfrac{1}{0{,}25}=\left(\dfrac{1}{0{,}5}\right)^{\frac{1}{2}} \Rightarrow a=2$ olur.Onda $f(x)=a^x$ düsturuna əsasən $f(2)=2^2=4$ olar.

Xassə 9. $a>0$ və $x>0$ olarsa, $a^x<b^x$, $x<0$ olarsa, $a^x>b^x$ olar.

Xassə 10. İstənilən $x_1$ və $x_2$ həqiqi ədədləri üçün aşağıdakı bərabərliklər doğrudur. $a^{x_1}\cdot a^{x_2}=a^{x+x_{21}}$; $a^{x_1}:a^{x_2}=a^{x-x_{21}}$; $\left(a^{x_1}\right)^{x_2}=a^{x_1\cdot x_2}$.

Xassə 11. İstənilən həqiqi ədədlər üçün $(ab)^x=a^x\cdot a^x$; $\left(\dfrac{a}{b}\right)^x=\dfrac{a^x}{b^x}$ $b\neq 0$ bəra-bərlikləri doğrudur.

Xassə 12**.** Üstlü funksiya nə cüt, nə də təkdir. Yəni, $a>0$ və $a\neq 0$ olduqda $a^{-x}\neq a^x$ və $a^x\neq -a^x$. Ona görə də onun qrafiki nə ordinat oxuna, nə də koordinat başlanğıcına nəzərən simmetrik deyil.

Misal 10. $y=3^{x^2-4x+3}$ funksiyasının tək və ya cüt funksiya olduğunu yoxlayın.

Həlli: $x$-in istənilən qiymətində $f(-x)=f(x)$ şərti ödənilərsə, funksiya cüt, $f(-x)=-f(x)$ şərti ödənilərsə, funksiya tək funksiya olduğunu nəzərə alsaq,

$$f(-x)=3^{(-x)^2-4(-x)+3}=3^{x^2+4x+3}\neq 3^{x^2-4x+3}=f(x)$$

Eyni qayda ilə göstərmək olar ki, $f(-x)\neq -f(x)$ şərti də ödənilmir. $y=3^{x^2-4x+3}$ üstlü funksiyası nə tək, nə də cüt funksiyadır.

Xassə 13**.** Üstlü funksiya dövrü deyil, çünki, $a>0$ və $a\neq 0$ olduqda, istənilən $T\neq 0$ üçün $a^{x+T}\neq a^x\neq a^{x-T}$ [3,446].

Qeyd: Xassəyə əsasən funksiyası dövrü funksiya deyil. Lakin xüsusi halda bəzi üstlü funksiyaların dövrünü tapmaq olur. Məsələn, aşağıdakı misalları nəzərdən keçirək.

Misal 11. $y=\left(\dfrac{1}{2}\right)^{tg3x}$ funksiyasının dövrünü tapın.

Həlli: $u = g(x)$ dövrü funksiyadırsa, $y = f(g(x))$ funksiyasıda dövrü funksiyadır. Bu teoremə əsasən $g(x) = tg3x$ funksiyası dövrü funksiyadır. Funksiyanın dövrü $T = \frac{\pi}{|k|} = \frac{\pi}{3}$-dür. Onda $y = f(g(x)) = \left(\frac{1}{2}\right)^{tg3x}$ funksiyası da dövrü funksiya olar. Funksiyanın dövrü $T = \frac{\pi}{3}$ olar.

Xassə 14. $a > 1$ olduqda $\lim_{x \to -\infty} a^x = 0$ $\lim_{x \to +\infty} a^x = +\infty$ $0 < a < 1$ olduqda isə $\lim_{x \to -\infty} ax = +\infty$ $\lim_{x \to \infty} ax = 0$ olur [3,447].







**ƏDƏBİYYAT SİYAHISI :**

1. Ə.M.Məmmədov, R.Y.Şükürov Elementar riyaziyyat Bakı 2010.
2. N. Qəhrəmanova, M.Kərimov, J.Hüseynov “Riyaziyyat 10” Radius Bakı 2017.
3. M.H.Yaqubov və başqaları Riyaziyyat “Abituriyent” Bakı 2006.

## TURŞ SÜD MƏHSULLARININ İSTEHSAL TEXNOLOGİYASI

**Səmədova Nigar M.**
***Azərbaycan Dövlət Aqrar Universiteti, Magistr***

### XÜLASƏ

İçməli südün istehsal texnologiyası: - süd zavodlarında südün işlənmə texnologiyası aşağıdakı sxem üzrə aparılır: südün təmizlənməsi, südün normallaşdırılması, südün pasterizə edilməsi, südün butulkalara və ya kağız qablara doldurulması, qablaşdırılması, saxlanılması və satışa göndərilməsi. Yoxlanmış və çəkilmiş süd süzülərək qəbul şöbəsində olan böyük vannaya tökülür. Sonra nasos vasitəsilə aparat şöbəsində yerləşən xüsusi süzgəcə və ya təmizləyiciyə keçirilərək,bir daha mexaniki çirkdən təmizlənir və normallaşdırılır. Sonra da pasterizatora verilir, müvafiq temperaturda pasterizə olunur, dərhal soyudulur. Süd zavodlarında südü, adətən 4-60S-dək soyudularaq butulkalara doldurulub satışa göndərirlər. Südü qablaşdırmaq və pasterizə etmək üçün onu xüsusi otaqda qoyulmuş böyük (tutumu 10 tonadək olan) tanklarda saxlayırlar. Bu tankların izolə edilmiş təbəqəsi olduğu üçün südü 10-12 saat saxlamaq olar.

Südün qablara doldurulması. Pasterizə edilmib soyudulmuş südü xüsusi aqreqat vasitəsilə butulkalara doldururlar. Süd butulkalarının tutumu 1, 0.5 və 0.25 litr olur. Hazırda 0.5 litrlik butulkalardan daha çox istifadə edilir. Bir sıra süd zavodlarında elə aqreqatlar vardır ki, onlar 1 saatda 6000-12000 ədəd

butulkanı yuyur, südlə doldurur və ağzını kip bağlayırlar. Pasterizə edilib qablanmış südü, ticarət şəbəkəsinə göndərənə qədər 100S-dən yuxarı olmayan temperaturda saxlayırlar. Pasterizə prosesindən sonrakı vaxt nəzərə alınmaqla bu südü 36 saatdan çox saxlamaq olmaz.

**Açar sözlər:** Süd, Turş süd məhsulları, südün təmizlənməsi, südün normallaşdırılması, südün pasterizə edilməsi, südün turşuluğu, südün bakterioloji göstəriciləri, kazein, kefir, qımız, ayran.

## РЕЗЮМЕ

Технология производства питьевого молока: - производственная технология молока в молочных заводах проводится в ниже изложенной схеме: очищение молока, нормализация, розлив молока по бутылям и бумажным пакетам, фасовка, хранение и отправка на реализацию. Проверенное и взвешенное, просеянное молоко разливают в большую ванну, в приемном отделе. Затем с помощью насоса, находящегося в аппаратном отделе, в специальном просеивателе очищается от механических примесей и нормализуется. Затем молоко пастеризуется и сразу же охлаждается. В молочных заводах молоко обычно охлаждается до 4-6 ° C и разливается по бутылкам и пакетам и распределяется для дальнейшей реализации. Для того чтоб молоко пастеризовывать и фасовать, его держат в специальной комнате в больших объемных контейнерах (вместимость до 10 тонн). Эти контейнера покрытые снаружи термоизоляционным материалом дают возможность хранить молоко 10-12 часов.

Общая технология молочнокислых продуктов: Процесс изготовления молочнокислых продуктов в основном происходит из-за молочных бактерий которые превращают молочный сахар в молочную кислоту. В результате обмена кальции казеина меняется с водородом, казеин постепенно оседает, свертывается и образуется гатик (кефир). В общем производство гатика, кефира, кумыса и молочнокислых продуктов приготавливается по общим принципам.

**Ключевые слова:** Молоко, кисломолочные продукты, очищение молока, нормализация молока, пастеризация молока, кислотность молока, бактериологические показатели молока, казеин, йогурт, кефир, кумыс, айран.

## SUMMARY

Technology of production of milk: - milk production technology in milk factories is carried out in the following scheme: milk cleaning, normalization, pouring milk on bottles and paper bags, packaging, packaging, storage. Proven and weighed, sifted milk is poured into a large bath, in the reception room. Then, with the help of a pump, which is located in the hardware department, in a special processor, it is cleaned from mechanical impurities and normalized. Then the milk is pasteurized and immediately cooled. In dairy plants, milk is usually cooled to 4-6 ° C and poured into bottles and bags and distributed for further sale. In order to pasteurize and pack milk, it is kept in a special room in large containers (capacity up to 10 tons). These containers covered with thermal insulation material are able to store milk for 10-12 hours.

General technology of milk products: The process of preparation of milk products mainly occurs due to milk bacteria that convert milk sugar into milk acid. As a result of calcium exchange, casein is replaced by hydrogen, casein gradually settles, coagulates and forms gatik (kefir). In general, the production of gatika, kefir, kumys and other dairy products is prepared according to general principles.

**Key words:** Milk, Sour milk products, milk purification, milk normalization, milk pasteurization, milk acidity, bacteriological indicators of milk, casein, kefir, koumiss, buttermilk.

Respublikamızın Bakı, Gəncə və s. süd kombinatlarında süd satışa əsasən kağız qablarda buraxılır. Belə ki, südün kağızda buraxılması çox əlverişlidir, o yüngül və təmiz olur, sınmır və s. Kağız qabların hazırlanması üçün xüsusi kağız olmalıdır. Birdəfəlik işlədiləcəyinə görə sərf ediləcək kağızın çəkisi də normal və standart olmalıdır. İmkandan asılı olaraq bəzi şəhər süd zavidları pasterizə edilmiş südü bidonlara doldurulmuş halda ticarət şəbəkəsinə göndərir. Bu üsulun bir sıra mühüm cəhətləri vardır. Belə ki, südə ətrafdan mikrobların düşməsi imkanı yaranır.

Satışa buraxılan südün temperaturu 80S-dən çox olmamalı, təmizliyi isə birinci sinif olmalıdır. Belə süd bakterioloji göstəricilərinə görə A və B qruplarına bölünür. A qruplu südün 1 ml-də bakteriyaların sayı 150 mindən çox olmamalı, bağırsaq çöplərinin titri isə 0.3 ml olmalıdır. Sisterndə olan süddə B qrup bakteriyaları münasib olaraq 300 min və 0.3 ml olmalıdır. Turş süd məhsulları istehsalının ümumi texnologiyası: Turş süd məhsullarının hazırlanma prosesi əsas etibarilə süd şəkərinin bakteriyalar tərəfindən süd turşusuna çevrilməsindən ibarətdir. Əmələ gələn süd turşusu ilə kazein arasında gedən mübadilə reaksiyası nəticəsində, kazeinin kalsiumu hidrogenlə əvəz edildiyindən, kazein tədricən çökərək laxta (qatıq) əmələ gətirir. Bu baxımdan, qatıq, kefir, qımız və bu kimi turş süd məhsullarının hazırlanmasında ümumi xarakterli proseslərə rast gəlmək olur. Ona görə də bu növ məhsulların hazırlanmasının nəzəri və praktiki cəhətləri birlikdə izah edilir. Turş süd məhsullarının texnologiyası aşağıdakı əməliyyatdan ibarətdir:

Südün pasterizə edilməsi – keyfiyyəti yüksək olan və turşuluq dərəcəsi 200S-dən artıq olmayan üzlü və ya üzsüz süd 85-900S-də, bəzən də 950S-də ani üsulla pasterizə edilir. Südün soyudulması – pasterizə edilmiş südü dərhal hazırlanacaq məhsulun növündən asılı olaraq mayalanma dərəcəsinədək (20-450S) münasib üsulla soyudurlar. Mayalanmış südün qablaşdırılması – bu iş qablaşdırılıcı maşın vasitəsilə görülür. Bu maşın 1.0-0.5-0.25 litrlik butulkaları südlə doldurur və onların ağzını kip bağlayırlar. Südün pıxtalaşması (laxtalanması) – mayalanmış südlə doldurulmuş butulkalar termostata keçirilir və 36-400S temperaturda 3-6 saat saxlanılır. Bu zaman süd turşusuna qıcqırma prosesi nəticəsində süd laxtalanaraq qatıq alınır.

Qatığın soyudulması – laxtalanma prosesi qurtaran kimi, butulkalar soyuducu kameraya keçirilir. Əks halda qıcqırma davam edərək, məhsulun turşlaşmasına səbəb olar. Məhsulun növündən asılı olaraq onu 2-100S-dək soyudurlar. Saxlanması və göndərilməsi – turş süd məhsullarının 100S-dən aşağı temperaturda 12-18 saat saxlanması, onların konsistensiyasının və dadının yaxşılaşmasına səbəb olur. Qatıq növlərindən olan məhsullar, adətən 24, kefir və qımız isə 72 saatadək saxlanıla bilər. Bu məhsulların saxlanması müddəti, onların yetişmə dövrü hesab edilir. Göstərilən vaxtdan artıq saxlanması müxtəlif nöqsanlara (turşuma, zərdab ayrılma və s.) səbəb olur. Ona görə hazır məhsullar vaxtında satışa göndərilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI :

1. Əhmədov Ə.İ. Yeyinti yağlarının əmtəəşünaslığı. Dərs vəsaiti, Bakı: 1984 Az.XTİ-nin nəşriyyatı, 198 s.
2. Əhmədov Ə.İ. Yeyinti yağları, süd və süd məhsullarının ekspertizası. Dərslik, Çaşıoğlu 2002, 364 s.
3. Əhmədov Ə.İ. Süd və süd məhsulları. Bakı: Çaşıoğlu 1998, 58s

# LİNQVİSTİK TİPOLOGİYANIN İNKİŞAF TARİXİNDƏN

**Soltanova İmarət Nəriman qızı**
***Bakı Dövlət Universiteti II kurs magistr***
***imaretsoltanova@gmail.com***

## XÜLASƏ

Dünya dilləri haqqında müxtəlif cür təsniflərə rast gəlirik. Bu təsniflər içərisində iki təsnif xüsusilə diqqəti cəlb etmişdir - genealoji və tipoloji təsniflər. Dillərin tipoloji təsnifinə xidmət edən kriteriyaların müxtəlifliyi vahid tipologiyanın ayrıca tipologiyalara ayrılmasına gətirib çıxarır, dil tipləri haqqındakı fikri müəyyən mənada yayğınlaşdırır. Dünya dillərinin ilk tipoloji təsnifi alman alimi F.Şlegelin "Hindlilərin dili və müdrikliyi" (1808) əsərində verilmişdir.Bundan sonrakı təsniflər də bu təsnifdən yararlanaraq hazırlanmış, müxtəlif dəyişikliklər edilmişdir.

**Açar sözlər:** təsnif, dil tipi, bölgü, struktur, tədqiqat

**SUMMARY**

**FROM THE HISTORY OF LINGUISTIC TYPOLOGY DEVELOPMENT**

About world languages we come across different classifications. Of these classifications, two are particularly noteworthy -genealogical and typological classifications. The diversity of criteria that serve the typological classification of languages leads to the division of a single typology into separate typologies, and in a sense spreads the idea of language types. The first typological classification of world languages is given in the work of the German scientist F. Schlegel "The language and wisdom of the Indians" (1808).
**Keys words:** classification, language type, division, structure, research

**РЕЗЮМЕ**

**ИЗ ИСТОРИИ РАЗВИТИЯ ЛИНГВИСТИЧЕСКОЙ ТИПОЛОГИИ**

Мы сталкиваемся с различными классификациями языков мира. Среди этих классификаций особое внимание привлекли две классификации – г енеалогическая и типологическая классификации. Многообразие критериев, обслуживающих типологическую классификацию языков, приводит к выделению Единой типологии в отдельные типологии, распространяя в определенном смысле представление о типах языка. Первая типологическая классификация языков мира была предложена немецким ученым Ф.Приведено в работе Шлегеля “язык и мудрость индейцев " (1808).Последующие классификации также были разработаны с использованием этой классификации, были внесены различные изменения.
**Ключевые слова:** классификация, тип языка, дивизион, структуры, исследования.

Dünya dillərinin yaranması qədim zamanlardan alimlərin diqqətini cəlb etmişdir. Dünya dilləri haqqında müxtəlif cür təsniflərə rast gəlirik. Bu təsniflər içərisində iki təsnif xüsusilə diqqəti cəlb etmişdir - genealoji və tipoloji təsniflər. Dillərin mənşəyi ilə əlaqədar aparılan təhlillərin nəticəsində genealoji dilçilik və tipoloji dilçilik kimi müstəqil tədqiqat istiqamətləri yaranmışdır. Dillərin təsnifini çətinləşdirən məsələlərdən biri də dilin özünün daxili quruluşu ilə bağlıdır. Belə ki, bütöv dil sistemi ayrıca sistemlərin qarşılıqlı əlaqə və münasibətlərindən təşkil olunur və bu baxımdan dil heterogen sistem kimi, sistemlər sistemi kimi qəbul edilir.Dillərin tipoloji təsnifinə xidmət edən kriteriyaların müxtəlifliyi vahid tipologiyanın ayrıca tipologiyalara ayrılmasına gətirib çıxarır, dil tipləri haqqındakı fikri müəyyən mənada yayğınlaşdırır. Hətta müasir dilçilikdə belə bir fikir var ki, “tipoloji nəzəriyyənin inkişafında maneə rolunu oynayan əsas amillərdən biri dil tipi anlayışının kifayət qədər işlənilməməsidir”.

Dünya dillərinin ilk tipoloji təsnifi alman alimi F.Şlegelin “Hindlilərin dili və müdrikliyi” (1808) əsərində verilmişdir. Qədim hindlilərin müqəddəs dini kitabları çox zəngin morfoloji quruluşa malik olan sanskrit dilində yazılmışdır. Avropalılar sanskritlə ilk dəfə italyan taciri Filippo Sasseti tanış etmişdir. 1583-1586-cı illərdə Hindistanda yaşayan F.Sasseti yazdığı məktublardan birində bir neçə sanskrit sözünün italyan sözlərinə uyğunluğuna diqqət yetirmişdir.

F.Şlegel “Hindlilərin dili və müdrikliyi” əsərində sanskrit dilinin yunan, latın, fars və german dilləri ilə qohumluğunu çoxlu dil faktları ilə izah edir, sanskrit dilini ulu hind-Avropa dili kimi qəbul edir. Belə bir fikir var ki, F.Şlegel bu əsəri ilə müqayisəli-tarixi dilçiliyin təməlini qoymuşdur. F.Şlegelin bu əsəri ilə dillərin tipoloji təsnifinin də əsası qoyulur. Belə ki, burada dillərin quruluş fərqlərinə diqqət yetirilir, bu baxımdaan dillər iki qrupa, müasir anlamda isə iki tipə ayrılır:

a) fleksiyalı dillər; b) şəkilçili dillər. (8,246-248)

Tədqiqatçı morfemlərin və xüusən də köklərin fonetik vəziyyətindən asılı olmayaraq səs tərkibinin dəyişməsi və sözün müxtəlif mənalı hissələrinin sıx birikməsini daxili fleksiyanın göstəricisi kimi qəbul edir, ulu hind-Avropa dili kimi qiymətləndirdiyi sanskrit dilini fleksiyalı dillərin ən parlaq nümunəsi hesab edir. Burada ancaq hind-Avropa dilləri flektiv dil sayılmış, sami dillər flektivliyə doğru inkişaf edən dillər

kimi qəbul edilmişdir. Maraq doğuran həm də odur ki, burada sil tipləri dillərin kamilliyinin göstəricisi kimi də qəbul edilir, flektiv dillər daha mükəmməl, daha zəngin, daha uzunömürlü dillər kimi qiymətləndirilir.

Bir qədər sonra A.Şlegel "Provonsal dili və ədəbiyyatı haqqında qeydlər" (1818) əsərində qardaşının təsnifini bir qədər dəqiqləşdirir və üç dil tipini fərqləndirir:

1) qrammatik strukturu olmayan dillər; 2) şəkilçili dillər; 3) flektiv dillər.

Tədqiqatçıya görə, birinci qrupa daxil olan dillərdə söz qrammatik cəhətdən dəyişmir və buna görə də qrammatik struktura malik olmur; belə dillərdə sözlər arasındakı münasibətlər söz sırası vasitəsilə müəyyənləşir. İkinci qrupa daxil olan dillərdə sözlər arasındakı münasibətlər, əsasən, şəkilçilər vasitəsilə ifadə olunur. Üçüncü qrupa daxil olan dillərdə isə şəkilçilərlə yanaşı, daxili fleksiya da mövcud olur. (8, 244-248)

İlk tipoloji təsniflər dillərin xarici, formal əlamətlərinə əsaslanmış və morfologiyanın formal ölçülərinə görə aparılmışdır. Buna görə də morfoloji tipologiya bəzən linqvistik tipologiya kimi qəbul edilib. Lakin ənənəvi tipologiya bəzən morfologiyanın sərhədlərinə sığmır. Flektiv dillərin analitik və sintetik dillər kimi fərqləndirilməsi ilə tipoloji təsnifə sintatktik prinsip gətirilir. İlk tipoloji təsniflər dillərin xarici, formal əlamətlərinə əsaslanmış və morfologiyanın formal ölçülərinə görə aparılmışdır. Buna görə də morfoloji tipologiya bəzən linqvistik tipologiya kimi qəbul edilib. Lakin ənənəvi tipologiya bəzən morfologiyanın sərhədlərinə sığmır. Flektiv dillərin analitik və sintetik dillər kimi fərqləndirilməsi ilə tipoloji təsnifə sintatktik prinsip gətirilir. Nəzəri dilçiliyin də banisi sayılan bu görkəmli tədqiqatçı özündən əvvəlki təsnifləri qəbul edir, lakin onlara müəyyən düzəliş verir. V.Humboldtun bu təsnifi bu gün də öz əhəmiyyətini saxlayır. XIX əsrin 2-ci yarısında müqayisəli-tarixi dilçiliyin görkəmli nümayəndəsi, naturalizm dilçilik cərəyanının banisi A.Şlayxer yenidən dilləri üç tipə ayırır.

Alman filosofu Hegelin triadalarının təsiri altında olan tədqiqatçı təcrid olunan, aqlütinativ və flektiv dil tiplərini ayrır və onları inkişafın üç mərhələsi kimi qəbul edir. "Hind-Avropa dillərinin müqayisəli qrammatikası kompendiumu" (1861- 1862) adlı əsərində A.Şlayxer yenidən A.Şlegelin bölgüsünə qayıdır, onu dəqiqləşdirir, dillərin morfoloji quruluşunda tipoloji baxımdan relevant olan əlamətləri öz təsnifində əhatə etməyə çalışır. İlk dəfə A.Şlegel hind-Avropa dillərini analitik və sintetik olmaqla iki qrupa ayırmışdır. A.Şlayxer aqlütinativ dilləri də analitik və sinettik dillər olmaqla fərqləndirir. A.Şlayxerə görə təcrid olunan dillərdə ancaq məzmun öz ifadəsini səslər vasitəsi ilə tapır, münasibətin isə formal ifadəsi olmur. Buna görə də, belə dillərdə sözlər hallanmır və təsriflənmir, başqa sözlə, qrammatik cəhətdən dəyişmir, söz, müəyyən mənada kristallar kimi bölünməz vəhdət təşkil edir. A.Şlayxer bu fikirdə olub ki, onun tipoloji təsnif prinsipləri bütün canlı və ölü dilləri əhatə edir. XIX əsr dilçiliyində diqqəti cəlb edən tipoloji təsniflərdən biri H.Ştayntala məxsusdur. H.Ştayntal dilçilik daxilində psixologizm cərəyanının, xüsusilə xalqlar psixologiyasının banisi sayılır. Ştayntala görə, psixologiya ruh haqqında elmdir. Fərdi psixologiya ilə xalqlar psixologiyasını fərqləndirən tədqiqatçıya görə fərdi psixologiya fərdin ruhu, xalqlar psixologiyası xalqın ruhu haqqında elmdir.

N.Ştayntalın tipoloji təsnifi sonralar F.Misteli tərəfindən inkişaf etdirilmişdir. O da dilləri əvvəlcə iki qrupa ayırır:

1) formalı dillər; 2) formasız dillər.

Mistelinin təsnifatının əsasında dilin daxili quruluşu dayanır. Bəzi tədqiqatçıların fikrinə görə, Ştayntal və Mistelinin təsnifi Şlayxerin təsnif sxeminin mürəkkəb şəklidir. Həm də belə bir cəhətə diqqət yetirilir ki, bu təsniflər Şlayxerin təsnifi qədər məhşurlaşmayıb və onu təkmilləşdirməyib. Qeyd etdiyimiz kimi Ştayntalın görüşlərini V.Humboldtun görüşləri ilə bağlayanlar var. XIX əsrdə dil tiplərinə dillərin təkamülü baxımından yanaşılmış, ayrıca dil tipləri dillərin inkişaf səviyyələrinə görə bir-birinə qarşı qoyulmuşdur. Dillərin ilk tipoloji təsnifini verən F.Şlegel flektiv dilləri şəkilçili dillərə nisbətən daha çox inkişaf etmiş, daha zəngin, uzunömürlü dil kimi qiymətləndirmişdir. A.Şlegel də fərqləndirdiyi üç dil tipini kamillik dərəcəsinə görə bir-birinə qarşı oymuşdur. Onun fikrinə görə, qrammatik strukturu olmayan dillər dillərin inkişafının aşağı mərhələsində dayanır, belə dillərdə hər bir söz kökdür, lakin nə bitki nə də ağac yetirməyən kökdür. Belə dillərdə elmi əsər yazmaq qəhrəmanlıqdır.

Nəticə olaraq bildirək ki, dil xalq ruhunun məhsuludur və buna görə də onu xalqın mənəvi həyatı, onun bütün zənginliyi ilə əlaqədə öyrənmək lazımdır. Başqa bir tərəfdən dil xalq ruhunun ifadəsidir və deməli, məhz dilin formalarının öyrənilməsi xalq ruhunu qavramağa imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Axundov A.A. Ümumi dilçilik. Bakı; Şərq-Qərb, 2006. 278 s.
2. Qurbanov A. Ümumi dilçiliyi. II cild. Bakı; Nurlan, 2004. 532 s.
3. Qurbanov A. Ümumi dilçiliyi. I cild. Bakı; 2004. 747s.
4. Məmədov N. Axundov A. Dilçiliyə giriş. Bakı; Maarif, 1966. 315 s.
5. Rəcəbli Ə.Ə. Azərbaycan dilçiliyi. Bakı: Nurlan, 2007, 415 s.
6. Rəcəbli Ə.Ə. Dilçilik tarixi. I cild. Bakı: Nurlan, 2007, 527s.
7. Rəcəbli Ə.Ə. Dilçilik tarixi. II cild. Bakı: Nurlan, 2007, 615s.
8. Rəcəbli Ə.Ə.Nəzəri dilçilik. Bakı: Nurlan, 2003, 515s
9. Trubetskoy N.S. Fonologiyanın əsasları. Bakı: 2001, 380s


# BASQAL QƏSƏBƏSİNDƏ MƏDƏNİ-DƏRKETMƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ TURİZM PAKETLƏRİNİN HAZIRLANMASI


**Söhbətov Fərid Eyvaz oğlu**
***BDU, Magistr***
***Elmi rəhbər: prof. Qasımov Maqsud***
***sohbetovferid086@gmail.com***



**Açar sözlər:** turizm destinasiyası, mədəni turizm, təbii irs, Basqal, dərketmə, tarixi-memarlıq.
**Keywords:** tourism destination, cultural tourism, natural heritage, Basgal, perception, historical-architectural.
**Ключевые слова:** туристическое направление, культурный туризм, природное наследие, Баскаль, восприятие, историко-архитектурный


Məlumdur ki, digər dünya ölkələri kimi Azərbaycan da mövcud potensialları çərçivəsində dünya turizmindən daha çox pay almaq və bu sahədə vahid həll yolları axtarmaq üçün rəqabətə davamlı və satıla bilən məhsul və strategiyalarını inkişaf etdirməyi məqsəd seçmişdir. Bunun nəticəsində alternativ turizm konsepsiyası olan dərketmə turlarından istifadə ortaya çıxdı. Dərketmə turizm fəaliyyətinin Azərbaycanın turizm sektorunda istifadə olunması nəticəsində, mövcud turizm destinasiyalarında davamlılıq konsepsiyası artmış və yeni destinasiyalar formalaşmağa başlamışdır.

Bu baxımdan Azərbaycan da bu turizm növünü inkişaf etdirməklə turizm bölgələri üzrə cəlbedicilik yaratmağa çalışır. Azərbaycanın turizm bölgələri arasında xüsusilə Basqal turizm mərkəzi dərketmə turizminin inkişafı nəticəsində ölkəmizin ən önəmli turizm destinasiyalarından birinə çevrilə bilər[1].

Basqalın turistik destinasiya kimi formalaşmasında əsas rol oyanan mədəni-dərketmə turlarının qaynaqları aşağıdakı cədvəl üzrə ümumi şəkildə izah olunmuşdur:

. Basqal destinasiyası üçün xas olan mədəni-dərketmə turları təşkil olunarkən istifadə olunan növlər və proqrama daxil edilən əsas obyektlər aşağıdakılardan ibarətdir:

• **Mədəni irsi turlar:** Bir cəmiyyətin mədəni, təbii və tarixi əsərlərini ziyarət etmək və bu müddətdə turistik mal və xidmətlərdən faydalanmaq mədəni irsi turların əsasını təşkil edir. Basqalda bir çox milli irs nümunələrinə rast gəlmək mümkündür. Bunların içərisində turistlər tərəfindən ən çox diqqət çəkən obyektlər aşağıdakılardır[4]:

-qədim dövrlərin tarixi və mədəniyyətini özündə əks etdirən tarixi irs.

- fərqli memarlıq üslubunda tikilmiş tarixi qalalar;
- arxeloji və etnoqrafik abidələr;
- Basqal kələğayı muzeyi və ipəkçilik sənəti;
- Özünə məxsus milli mətbəxtin olması.




**Şəkil 3.1.1. Basqal qəsəbəsində mədəni-dərketmə turlarının istiqamətləri[3]**

Məlumdur ki, müxtəlif mədəni qaynaqlar əsasında hazırlanan dərketmə turlarının müxtəlif növləri vardır**Ənənəvi irs turları:** İpəkçilik, xalçaçılıq, taxta üzərində oyma, rəngsazlıq, dəmirçilik sənətləri ilə bağlı turların təşkilindən ibarətdir. Qeyd olunan ənənəvi sənətkarlıq ailə səviyyəsində əhəmiyyətin saxlasada, turistlər üçün maraqlı tur kimi təqdim olunan bilər.

• Muzey və etnoqrafik turlar. Basqalda fəaliyyət göstərən etnoqrafik muzey qonaqlara ipəkçilik sənəti, yaşayış məntəqəsinin tarixi, ənənələri haqqında məlumat verir. Eyni zamanda, ailə və icma səviyyəsində əhəmiyyətin saxlayan ənənələr, sənətkarlıq nümunələri, yerli mətbəxt mədəni-dərketmə turlarının məhsulu ola bilər[7].

Yuxarıda göstərilən dərketmə turizmi növləri göstərir ki, bu turizm bir çox müxtəlif yollarla tətbiq olunur və bu müxtəliflik bir çox mədəni abidələrin turizm obyektinə çevrilməsinə səbəb olur. Basqal turizm destinasiyasında müsbət təsirli nümunələri aşağıdakı kimi ümumiləşdirmək mümkündür**:**

• Basqalın milli-mədəni sərvətlərindən istifadə etməklə gəlmə turizmdə dərketmə məqsədilə istifadə edilməsi. Belə dərketmə tədbirləri turizm şirkətləri və icmaların əlavə gəlir əldə etməsinə imkan verir. Yerli icmaların həyat səviyyəsinin yüksəldilməsi və yeni iş imkanlarının yaradılması kimi iqtisadi təsirləri vardır. Mədəni turizmdən əldə olunan iqtisadi qazanc, mədəni irsin qorunması üçün lazımi maliyyə dəstəyini də təmin edir. Ətraf mühitin və mədəni irsin qorunması adı ilə edilən xərclər uzun müddətdə iqtisadi baxımından müsbət bir inkişafa səbəb olur[6].

• Basqal qəsəbəsində mədəni irs və ənənələr mədəniyyəti canlandırılmasına və gəlirlərin artmasına birbaşa fayda verə bilər. Mədəni mənada turistlərlə məlumat mübadiləsi təmin etməkdə təsirli ola bilər. Bölgədəki mədəni irs və ənənələrlə bağlı kütləvi tədbirlərin keçirlməsi turist axınlarının təmin olunması ilə yanaşı, turizmdə əlavə gəlir mənbəhyinə çevirə bilər.

• Basqal destinasiyasında tarixi-memarlıq, arxeloji abidələrinin dəyəri arıtlması. Bu mənada köhnə binalar dəyərlərini itirmədən müasir bir görünüş əldə edə bilirlər. Bu şəkildə ərazinin turizm cəlbediciliyi də artır. Basqalın tarixi-memarlıq, arxeoloji abidələrinə mədəni-dərketmə turizm marşrutların hazırlanması kütləvi turist axınlarının təmin olunması ilə yanaşı, köhnə binaların turizm baxımdan dəyərin artırmış olur.

• Basqal destinasiyasında mill-mədəni varlıqları ziyarət etmələri yerli sakinlərə və dövlətə əlavə gəlit imkanı təmin etmiş olardı. Bu resurslar qorunmaqla yanaşı, dərketmə və ya miras turizmi həm yerli

insanlarda, həm də turistlərdə destinasiyanın tarixi və mədəniyyəti haqqında məlumat əldə etmək üçün çox vacib bir rol oynayır[8].

- Basqal destinasiyasında tarixi-mədəni və təbii irsin yayıldığı ərazilərə qısa, orta müddətli mədəni-dərketmə turizm marşrutlarının və ekskursiyaların təşkili beynəlxalq turizmin inkişafına təkan verir. Bu məqsədlə Basqalın memarlıq, arxeloji abidələrinə, qədim məhələlərinə istiqamətlənən marşrutların hazırlanması vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi", (elektron resurs) "Azərbaycan" qəzeti. Bakı, 17 dekabr. 2016-cı il.
2. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələri. Qanunvericiliyi toplusu. II cild, Bakı: "Avrasiya press", 2011, 346 s.
3. Elmin İnkişaf Fondu. Basqal tarixi-etnoqrafik tədqiqat, Bakı 2017, 342 s.
4. Əliyeva R. Unikal Basqal qəsəbəsi. Bakı, 2007. 52 s.
5. Емельянов Б. В. Экскурсоведение. М.: Советский спорт, 2004. 216 с
6. Mckercher, B. ve Cros H. (2002). Cultural Tourism, The Partnership Between Tourism And Cultural Heritage Management, New York:The Hawort Pres.
7. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_YUNESKO-nun_qeyri-maddi_m%C9%99d%C9%99ni_irs_siyah%C4%B1s%C4%B1#Siyah%C4%B1lar https:
8. www.mct.gov.az


# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN İKT-NİN İNKİŞAFINDAKI ROLU


**Surxayev Məqsəd Maksud**

***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***

***Elmi rəhbər: Əli Abbasov***

***meqsedsurxayev@gmail.com***



**Açar sözlər:** təhsil, İKT, dövlət, kompüter, informasiya cəmiyyəti

**Ключевые слова:** образование, ИКТ, государственный, компьютер, информационное общество

**Key words:** education, ICT, state, computer, information society


Azərbaycançılıq ideologiyasının parlaq daşıyıcısı, ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev müdrik siyasətində təhsilə daim xüsusi diqqət yetirmişdir. Dahi dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsindən və böyük fəaliyyətindən danışarkən onun təhsil məsələlərinə də diqqət yetirdiyini görürük. Ölkəmiz, tarixində ikinci dəfə müstəqillik qazandıqdan sonra təhsil sistemində böyük bir dəyişikliyin şahidi oluruq [3].

1995-ci il nümayəndə heyətinin iştirakı ilə keçirilən Azərbaycan müəllimlərinin XI qurultayı 25 sentyabr 1998-ci il tarixdə saat 10.00-da Respublika Sarayında öz işinə başladı. Bu qurultay digərlərindən fərqli idi. Çünki bu qurultay ikinci dəfə şərqdə müstəqillik qazanmış Azərbaycan Respublikasının qurultayı idi. Bu qurultayda ilk dəfə olaraq müstəqil bir dövlət olaraq Azərbaycan müəllimlərinin himni səsləndirildi [1].

Azərbaycan müəllimlərinin XI qurultayında müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafına əvəzsiz tarixi töhfələr verən dahi Heydər Əliyev nitq söylədi və dərin bir çıxış etdi. Çıxışında fəaliyyətinin təhsil ilə bağlı tərəflərini izah etdi. Ümumilli liderimiz öz çıxışında müəllimlərin əməyinə yüksək qiymət vermiş, qarşıdakı illər ərzində bu sahəyə qayğı və ehtiyacın daha da artacağından bəhs etmişdir. 1998-ci ildə ulu öndər Heydər Əliyev ilk dəfə təhsil islahatı ideyasını irəli sürdü. Bu daha sonra 1999-cu ildə təhsil islahatı proqramı səviyyəsində təsdiq edilmişdir

Dövlət siyasətinin əsas prioritetlərindən biri ölkəmizdə informasiya cəmiyyəti quruculuğu prosesi idi. Dünyada informasiya cəmiyyətinin formalaşmasının əksər ölkələrdə ölkənin iqtisadi göstəricisi olduğu barədə maraqlı bir fikir mövcuddur. Respublikamızın rəhbərliyi dövründə ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sektorunun inkişafına səbəb oldu. Məlum olduğu kimi, 2003-cü ilin fevralında ümummilli lider Heydər Əliyev ölkədə informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi və inkişafı ilə bağlı "Azərbaycanın inkişafı üçün İKT üzrə Milli Strategiya" nı (2003-2012) təsdiqlədi [4].

Milli strategiyanın qəbulundan sonrakı dövr ərzində Azərbaycan hökuməti bu sahədə bir sıra kompleks tədbirlər həyata keçirmişdir. Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk xarici səfəri kimi 2003-cü il dekabrın 12-də Cenevrədə ümumdünya informasiya cəmiyyəti sammitində iştirakı Azərbaycan dövlətinin diqqətini bir daha nümayiş etdirdi.

Zirvədə çıxış edən Prezident İlham Əliyev Azərbaycan dövlətinin informasiya cəmiyyəti qurmaq üçün bütün imkanlardan istifadə edəcəyini vurğuladı. Azərbaycanın bu sahədəki dövlət siyasətinin əsas prioritetlərini şərh edərək İKT-nin inkişafında maraqlı olduğunu bildirdi. Bu istiqamətdə dövlət siyasətini həyata keçirmək üçün 20 fevral 2004-cü ildə Prezident İlham Əliyev Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması barədə qərar verdi. İnformasiya və kommunikasiya texnologiyaları üzrə təhsil sahəsində qanunvericilikdə bir sıra fərmanlar verildi, sənədlər imzalandı və təsdiq edildi. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycanın inkişafı üçün İKT üzrə Milli Strategiya" nın həyata keçirilməsində çoxsaylı təhsil layihələri yazılmış və həyata keçirilməsinə dövlət tərəfindən vəsait ayrılmışdır. Eyni zamanda ilk olaraq informasiya və kommunikasiya texnologiyaları sektorunun hüquqi bazası quruldu. 3 aprel 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT sektorunda ilk normativ-hüquqi sənəd olan "İnformasiya, informasiyalaşdırma və informasiyanın qorunması haqqında" qanunu imzaladı [2]. Məhz bu qanundan sonra təhsil sahəsində fəaliyyət göstərən bütün təhsil müəssisələrinin kompüterləşdirilməsi prosesinə təkan verildi və orta məktəblərə pulsuz kompüterlər

paylandı. Bu proses Azərbaycanın bütün bölgələrində tətbiq olunmağa başladı.13 iyun 2000-ci ildə Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" yeni bir fərman imzaladı. Bu fərmanla milli təhsil sisteminin daha da təkmilləşdirilməsi, təhsil sisteminin əsaslı inkişafı, idarəetmənin müasir prinsiplər əsasında təşkili, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyanın təməli qoyuldu.

Elm və Texnologiya, Azərbaycan'a bütün yönləriylə təsir göstərən dövlət siyasətinin əsas sahələrindən biridir. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) bu sahədə dövlət siyasətini həyata keçirən mərkəzi elm və texnologiya agentliyi hesab olunur[6]. Elmi siyasətlərin əsas prioritetləri elm və texnologiyada davamlı inkişaf tədbirlərinin təmin edilməsi, elmi və texnoloji potensialın qorunub saxlanılması, elm və texnika sahəsində yüksək ixtisaslı insan resurslarının hazırlanması və elm işçilərinin əmək dəyərinin artırılmasıdır [4].

AMEA-nın elmi fəaliyyətinin artırılması, universitetlər və elmi müəssisələr arasında müəyyən əlaqələrin qurulması, elmi tədqiqatların nəticələrinin ölkədə sosial-iqtisadi və digər sahələrdə lazımi səviyyədə istifadə olunmasını təmin etmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Elm qrupu AMEA Prezidentliyi tərəfindən yaradılmışdır. Strategiya, elm və texnologiyanın sosial-iqtisadi problemlərin həllində, innovasiya proseslərinin gücləndirilməsində və dövlətin bilik ehtiyatlarının artırılmasında artan rolu ilə bağlı məsələləri əhatə edir. [6]

Heydər Əliyevin ölkəmizin davamlı irəliləməsini təmin edən genişmiqyaslı proqramları bu gün də xalqımızın sosial-iqtisadi vəziyyətini daima yaxşılaşdırmağa xidmət edir [5]. Müstəqil Azərbaycan dövlətinə əvəzsiz tarixi xidmətləri olan, Azərbaycanı hərtərəfli inkişaf yoluna apararaq cəmiyyətdə təhsil mədəniyyətinin, informasiya mədəniyyətinin formalaşmasında əvəzsiz rolu olan Heydər Əliyevi unutmamalıyıq.

## ƏDƏBİYYAT SİYAHISI :

1. "Azərbaycan müəllim" qəzeti, 2011, 11 iyun

2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASl. Azərbaycan Respublikası Prezidentinin Fərmanları və sərəncamları Biblioqrafik göstərici №1 (6) http://files.preslib.az/site/decrees6.pdff 3. EurasiaNet Eurasia Insight - Azerbaijan: Biography Of Deceased Former President Heidar Aliyev
3. İKT sektoru hazırda Azərbaycan iqtisadiyyatında inkişaf sürətinə görə ikinci yeri tutur. http://www.yeniazerbaycan.com/Musahibe_e3586_az.html 5. The Two Faces of Azerbaijan's Mr. Aliyev // The New York Times 6. "WWW.SCIENCE.GOV.AZ". www.science.gov.az (İngilizce)

## MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN YARADICILIĞINDA AZƏRBAYCAN MÖVZUSU

**Süleymanov Süleyman**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Tofiq İsgəndərov***

**Açar sözlər:** azadlıq, xəlqilik, vətən, Azərbaycan poeziyası
**Key words:** freedom, nationalism, homeland, Azerbaijani poetry.
**Ключевые слова:** свобода, популяризация, родная страна, Азербайджанская поэзия.

Ustad Doktor Seyid Məhəmmədhüseyn Behcət Təbrizi Şəhriyar 1905-1906-ci ilin baharında-mart ayının 21-də Cənubi Azərbaycanın Təbriz şəhərinin Bağmeşə məhəlləsində anadan olmuşdur.

Şəhriyar uzun illər əksər əsərlərini fars dilində yazmasına baxmayaraq, sənət aləmində böyük Azərbaycan şairi kimi tanınmışdır. Bu hər şeydən əvvəl, şairin Təbrizdə doğulması, türkəsilli, türk ruhlu olması və əsasən də bütün Şərq aləmində əks-səda doğurmuş "Heydərbabaya salam" mənzuməsinin, eləcə də "Səhəndiyyə", "Türkün dili", "Dərya elədim", "El bülbülü", "Dövünmə və sövünmə", "Behcətabad xatirəsi", "Türkiyəyə xəyali səfər", "Aman ayrılıq", "Şatır oğlan", "Bacım oğlu Behruzun bayatıları", "Gözün aydın", "Can Rüstəm", "Oyun olduq", "İnsü cin", "İman ilə getdi", "Məlul yazıq neyləsin?", "Yalan dünya", "Analar oxşaması", "Can alır indi" və s. əsərlərinin Azərbaycan türkcəsində yazılması ilə bağlıdır. Çünki bu əsərləri doğma türkcədə yazmaqla o, həm xalqının milli şərəfini, ləyaqətini qoruyur, həm də üzləşdiyi haqsızlıq və ədalətsizlikləri, millizülm və zorakı assimilyasiyanı, şovinist siyasəti tənqid edirdi. Bu, yalnız uzun illər Cənubi Azərbaycanda Azərbaycan dilinin yasaq edilməsi və ya xalqın ana dilində yazılmış ədəbiyyata, sözə, şeirə həsrəti, təşnəliyi ilə bağlı deyildi. Bu hər şeydən öncə, Şəhriyarın doğma vətəninə tükənməz məhəbbəti, xalq həyatına bağlılığı, böyük vətəndaşlıq borcu ilə də əlaqədar idi. Şübhəsiz ki, xalqının və onun lətafətli dilinin təhriflərə məruz qalması, türkcənin bir "ləhcə" deyil, qüdrətli, cazibəli, şirin və ahəngdar bir dil olduğunu sübuta yetirmək cəhdi də bu uğurlu addımın atılmasında həlledici rol oynamışdı. Lakin şairin sürgün həyatı, xəstəliyi və müalicəsi müddətində yaşadığı ağrı-acıların, mənəvi əzabların da təkanverici təsirini unutmaq olmaz.

Belə ki, gənc Şəhriyarın sevgilisindən ayrı düşməsi, sonra üzücü iztirablarla dolu sürgün həyatı, özünə arxa,dayaq sandığı atasının qəfil ölümü, onunla vidalaşmağa icazə verilməməsi onun ruhunda dərin iz buraxmışdı. Sürgündən sonra Tehrandakı "Fəlahət" bankında şairlik istedadı ilə uyuşmayan məcburi hesabdarlıq işi,yaxın dostlarından və qohum-qardaşlarından uzunmüddətli ayrılıq, doğma el-oba həsrəti də ona təsir göstərir. "Heydərbabaya salam" poemasının (1954-cü il) ilk geniş nəşrinin Şəhriyar yazır: "O vaxt ki,mərhum anam Tehrana gəldi,onun sehrli təsiriylə keçmiş günlərin əyləncələri və uşaqlığımın şən,məsud anları yavaş-yavaş zehnimdə canlandı, ölülər dirildi və o zamankı tablolar öz rəngləriylə yenidən cızıldı". Təbii, dil aydınlığı, sadəliyi, axıcılığı ilə oxuyan hər kəsi heyrətdə qoyan bu əsərin qələmə alınmasında Kövkəb xanımın: "Ay oğul, deyirlər, sən böyük şairsən. Axı, mən sənin yazdıqlarını başa düşə bilmirəm. Olmazmı, öz dilində yazasan, mən də anlayım və zövq alım?", - gileyi də Şəhriyarı ana dilində yazıb-yaratmağa səfərbər etdiyi nəzərdən qaçmamalıdır.

Poemanın xatirələrlə dolu ovqatından insan həyatının unudulmaz, yaddaqalan və şirin çağlarının məhz uşaqlıq illəri olduğu fikri aşılanır. Ömrünün ixtiyar dövrünü yaşayan bir qoca artıq

əlçatmaz,ünyetməz uzaqlıqda qalan keçmiş anlarını, güc, qüvvət, tükənməz enerji ilə dolu vaxtlarını, o şən, məsud günləri hıçqırıqlarla anır. Ancaq uşaqlıqla bağlı bütün bu xatirələr fərdi xarakter daşımır. Mənzumədə şair öz yaşantıları əsasında elinin, obasının, xalqının keçmişini,dünənini və bu gününü ümumiləşdirərək bədii-fəlsəfi nəticələr çıxarır: Əgər əsər xalq həyatından qidalanmırsa, xalqın dili, həyatı, təbiəti, problemləri, xarakteri və bədii təfəkkürü ilə bağlı deyilsə, heç bir bədii dəyər, ümumbəşəri əhəmiyyət kəsb edə bilməz. "Heydərbabaya salam"da millilikdən doğan xəlqilik ruhu, Azərbaycan koloriti çox güclüdür. Eyni zamanda burada millilik, beynəlmiləlçilik, ümumbəşəriliklə bağlıdır və milli gerçəklik, xalq mənəviyyatı ən yüksək ideallarla aşılanır. Həmin millilik məhdud millətçiliyin heç bir təzahürü ilə bir qəlibə sığmır. Əsl bəşərilik isə məhz milli formada meydana çıxır. "Heydərbaba"nın sərhədlər aşaraq Şərq ədəbiyyatına dərin nüfuz etməsi, sevilməsi onun əsl milli, xəlqi mahiyyəti ilə bağlıdır:

Şal istədim mən də evdə ağladım
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Burada yalnız Azərbaycan koloriti duyulur və hadisənin də məhz yurdumuzda, Yaz bayramı – Novruzda baş verdiyini görürük. "Heydərbaba"da və şairin digər türkcə şeirlərində də oxucu təkcə ayrı-ayrı fərdlərin deyil, bütövlükdə Azərbaycan xalqının həyat tərzinin, məişətinin, adət-ənənələrinin, milli mətbəx və geyimlərinin özünəməxsusluğunun poetik əksini, bədii təsvirini görür, sanki özünü daha yaxından tanıyır...

Şaxtanın qılınc kimi kəsdiyi soyuq qış gecələrində kürsülü evlərdə ailənin bütün üzvləri bu kürsü ətrafında yer salıb yatır, soyuqdan qorunurdular. Şair uşaqkən evlərindəki buxarı və kürsü ətrafında nənəsindən eşitdiyi nağıl, dastan, rəvayət, əfsanə və xoş söhbətləri yad edir:

Bizdən sonra kürsülərin tovunda,
Kəndin nağıllarında, söz-sovunda,
Qarı nənənin çaxmağında, qovunda,
«Heydarbaba» özün qatar sözlərə.
İçki kimi xumar verər gözlərə.

Şair xalq məişətinin,maddi mədəniyyətinin tərkib hissələrindən olan yaşayış evlərini ən incə detallarına qədər oxucusuna xatırladır. Bütün bu incəliklər toplu halında poemada əks olunduğuna görə, "Heydərbabaya salam" mənzuməsini Azərbaycan xalqının, həyat və məişətinin güzgüsü adlandırmışlar. Qeyd etdiyimiz kimi, Güney Azərbaycanda kəndlilər yaşayış evlərini kürsülü, buxarılı, taxçalı, rəfli tikir, yastı dam örtüyü çəkirdilər. Bunu şairin həm poemaya, həm də şeirlərinə yazdığı izahlardan öyrənirik. Azərbaycanı bütün səciyyəsi,anlamı ilə tanıtmağa çalışan şair "Kərəc xatirəsi" şeirində də Azərbaycan kəndinin keçmişi və indisi, Azərbaycan xalqının yaşadığı əski və yeni evlər təsvir edir, yaşayış evlərinin daxili quruluşunda olan özəlliklərin, sakinlər üçün əlverişli cəhət və xüsusiyyətlərinin poetik təcəssümünü yaradır. Xalqın həyatında və məişətində müəyyən əhəmiyyət kəsb edən ən adi, gözə çarpan nə varsa,bütün anlamı ilə "Azərbaycan dastanı" yaradan həssas şairin diqqətindən kənarda qalmır, doğmalarının, eləcə də kənd camaatının olaylara münasibətini bədii sözün qüdrətilə bildirirdi. Millilik, milli ruh və vələnpərvərlik qanına, canına hopmuş Şəhriyarın əsərləri ilə daha dərindən tanışlıq onu göstərir ki, uzun illər vətəndən, eldən uzaqda yaşasa da, torpağına, xalqına olan odlu məhəbbəti azalmayıb və xalqı, onun həyatı yaddaşında əbədi həkk olunub. Şair "Heydərbabaya salam" poemasında kənd həyatını, kəndlilərin məişətini, həyat tərzini təsvir edərkən belə bir fikir aşılayır: hər bir xalqın tarixində, təşəkkül prosesində və formalaşmasında, maddi-mənəvi əlaqələrində, təbiət və cəmiyyət hadisələrinə münasibətində elə fərdi xüsusiyyətlər, psixoloji keyfiyyətlər mövcuddur ki, həmin keyfiyyətlər müəyyən zaman çərçivəsində aşınmalara məruz qalsa da,əslində itib yox olmur.

Tarixin səhifələrində hər cür təzyiq və müqavimətlərə sinə gərərək yaşayır, nəsillərdən-nəsillərə ötürülür. Şəhriyarın parlaq milli kolorit, xəlqilik ruhu duyulan əsərlərində təsvir olunan obraz və hadisələrin mahiyyətinə vardıqda görürük ki,bu insanlar öz xarakter və təbiətləri,düşüncə və mifoloji görüşləri, adət-ənənələri etibarilə Azərbaycan türkləridir. Hadisələr də məhz Azərbaycan məkanında baş verir, cərəyan edir. Məhz bu baxımdan «Heydərbabaya salam» mənzuməsi Azərbaycanın zəngin tarixinə, kənd həyatının

bu gününə və dünəninə, zəhmətkeş kənd elatının indisinə və keçmişinə taybatay açılan pəncərədir. Kəndlinin məişəti, evi, məşğuliyyəti, çeşidli çərəz və yeməkləri, geyimi bütün təbiiliyi, özünəməxsusluğu, cazibədarlığı ilə bu tabloda görünməkdədir. Şəhriyar gözəllik, zəriflik, ülvilik, doğma yurda,insanın doğulduğu ocağa məhəbbət, sevgi duyğuları aşılayan vətənpərvər şairdir. İctimai-siyasi fəlakətlər ucbatından doğma el-obadan didərgin düşən soydaşlarımızın ayrılıq dərdi ayrılıqların heç birinə bənzəmir. 1828-ci ildə imzalanan "Türkmənçay sülh müqaviləsi"ndən sonra o taylı-bu taylı yurdunda qardaşın qardaşdan, bacının bacıdan, ananın balasından, doğmaların, sevgililərin bir-birindən ayrılması və ayrılıq həsrətindən doğan ah-fəryadı şair Şəhriyarın da ürəyini dəlib keçir. Xalqın dərdinə kədərlənən, sevincinə sevinən böyük söz ustadının Azərbaycanın yaralarına bədii sözün qüdrətilə məlhəm qoymaq, "uzaq düşən el-obası ilə heç olmasa ağlaşmaq" istəyi daim fikrini məşğul etmiş, ruhuna, düşüncələrinə hopmuşdur.

Şəhriyar realizminin mühüm xüsusiyyətlərindən biri də xalqı təmsil edən ictimai zümrələrin dəyərləndirilməsidir. Vaxtilə Azərbaycan sovet ədəbiyyatında aparıcı simvol olan, xalqı bəyə, xana və yoxsul kəndliyə, proletariata bölüb birincilərə hər cür qara yaxmaq, ikincilərdən müsbət qəhrəman yaratmaq tendensiyası Şəhriyar yaradıcılığına tamamilə yaddır. Şəhriyar milli koloritin, Azərbaycan milli xarakterinin, bunlarla sıx bağlı olan xalq həyatının bədii ədəbiyyatda daha ətraflı,daha güclü inikasına nail olmaq üçün milli təfərrüata dərindən varır, ən incə detalları belə nəzərdən qaçırmır. Xalqın qonaqpərvərliklə bağlı adət-ənənələrini də əsərlərində əks etdirməsi bu qəbildəndir. "Yar qasidi", "Əmioğlum Mirəbülfəzlə", "Səreyinli şairə", "Kərəc xatirəsi" və ya "Nənəqız əmiqızının oğlu Əli ağaya bir yadigarlıq" adlı əsərlərində qədim adətimizin orijinallığına, qonaqpərəstlikdə milli Azərbaycan çalarının qabarıqlığına diqqəti cəlb edir.

**ƏDƏBİYYAT SİYAHISI :**


1. Hacıyev T. Ustad Seyid Məhəmmədhüseyn Şəhriyarın bədii dili. 419-431 s.
2. Həbibbəyli İ. Ustad Məhəmmədhüseyn Şəhriyar. Bakı, 1999
3. Məhəmmədhüseyn Ş. Biblioqrafiya.Bakı, 2017.486 s.
4. Qasımov H. Şəhriyarın lirikası və etiqadı.Bakı, 1999
5. Quliyev E. Şəhriyar Poeziyası və Milli Təkamül. Bakı, 2004. 281 s.
6. Şükürova E. Məhəmmədhüseyn Şəhriyar: həyatı, mühiti və yaradıcılığı. Bakı, "Azərbaycan Ensiklopediyası" NPB,1998


## TAMMƏTNLİ ELEKTRON NƏŞRLƏR VƏ ONLARIN NÖVLƏRİ


**Şahmarova Aydan Nazim qızı**
***Bakı Dövlət Universiteti***
**aydanshah@mail.ru**



**Açar sözlər:** Kitabxana, elektron kitabxana, elektron məlumat bazası, elektron nəşrlər, tammətnli elektron nəşrlər.

**Key words:** library, electronic library, electronic database, electronic publications, full-text electronic publications

**Ключевые слова:** библиотека, электронная библиотека, электронная база данных, электронные публикации, полнотекстовые электронные публикации.


XX əsrdə informasiya texnologiyalarının inkişafı, informasiya kütləsinin artması, informasiya axınının surətlənməsi, baş verən qlobal dəyişikliklərin nəticəsi olaraq ənənəvi nəşr növləri ilə yanaşı elektron nəşrlərin də yaradılmasına başlanmışdır. Elektron nəşr axtarış vasitələrilə təmin edilmiş, qeyri-

məhdud sayda istifadəçilərin oxuması üçün məqsədli şəkildə maşınlaoxunan daşıyıcıya yazılmış informasiyadır [1, 30].

Elektron nəşrlər elektron sənədlərin müəyyən hissəsini təşkil edir.Elektron nəşrlər komputerin sərt diskində, serverdə, veb-saytlarda, müxtəlif qurumların və kitabxanaların elektron məlumat bazalarında mühafizə oluna bilər. Tammətnli elektron nəşrlərə elektron kitablar, elektron jurnallar, soraq nəşrləri, musiqi əsərləri, notlar, dissertasiyalar, avtoreferatlar aid edilə bilər.Bəzi məlumatlara görə hazırda dünyada 140000 adda elmi jurnal nəşr edilir.Lakin son illərdə elmi jurnallar sahəsində böhran kəskinləşmişdir. Çünki dövri elmi nəşrlərin yaradılması texnologiyası etibarlı olsa da çox ləng işləyir, abunə qiyməti yüksəkdir. Əgər müəyyən bir şəxsə hər hansı jurnaldan bir məqalə lazımdırsa o bütün jurnalı almalıdır, yaxud jurnalı tapıb özünə lazım olan məqalənin surətini çıxarmalıdır. Buna görə də bu problemləri aradan qaldırmaq məqsədilə son dövrlərdə elektron jurnalların hazırlanmasına başlanılmışdır. 2003-cü il məlumatına görə dünyada 12 min adda tammətnli elektron jurnal buraxılır. Dünya nəşriyyatlarının əksəriyyəti elektron jurnalların yaradılmasında iştirak edirlər.Son 5 ilə qədərki dövrdə elektron jurnallar CD-ROM kimi disklərdə buraxılırdı və bu CD-ROM-lar da kitabxanaların jurnal fondalarına daxil edilirdi. Gələcəkdə elektron jurnalların istifadəçinin verdiyi sorğuya və mövzuya uyğun olaraq müxtəlif məqalələr toplusundan ibarət hazırlanması nəzərdə tutulur [4, s.34].

Elektron kitabların hazırlanmasının və yayılmasının əsas istiqamətlərindən biri nəşriyyatların və kitab mağazalarının tammətnli elektron kitabxanalarının yaradılmasıdır.ABŞ-ın "Elsevier", Almaniyanın "Şpringer", İngiltərənin "Makmillan-Press" kimi nəşriyyatları buna misal ola bilər. Bu nəşriyyatlar kitabları həm çap formatında buraxır, həm də elektron versiyada hazırlayıb elektron kitabxanaya daxil edirlər. Elektron kitablar çap kitablara nisbətən bahadır.Lakin illər keçdikcə onların elektron komponentləri ucuzlaşır.Elektron kitabların axtarış imkanları, kiçik tutumu və portativliyi onun qiymətinin istifadəçi üçün əlverişli olmasına zəmin yaradır [7, s.36]

CD-ROM-da və İnternetdə olan soraq nəşrləri, kitabları və ensiklopediyalar isə digər növ sənədlərə nisbətən axtarış imkanları daha üstün olan elektron sənədlərdir.

Xarici ölkələrin nəşriyyat və kitabxanalarında ensiklopediya və lüğətlərin CD-ROM nəşrlərinin şəbəkə versiyasının hazırlanmasına XX əsrin 90-cı illərindən başlanılmışdır.Buna misal olaraq "Britanica 2002" və "Microsoft Encarta" ensiklopediyalarını misal göstərmək olar [1, s.39].

M.F.Axundov adına Milli Kitabxanada avtomatlaşdırılmış idarəetmə sistemi tətbiq edildikdən sonra elektron kitabxana və elektron məlumat bazaları yaradılmış və oxuculara tammətnli elektron nəşrlərin müxtəlif növləri ilə xidmət göstərilmişdir. Milli Kitabxananın elektron məlumat bazasına www.anl.az linki vasitəsilə daxil olmaq olar.Burada Azərbaycanın görkəmli şəxsiyyətləri, şair, yazıçı, ictimai-siyasi xadimlər və başqalarının həyat və yaradıcılığı, kitabları, şəkillərindən ibarət fotoalbom və videogörüntülər elektron versiyada istifadəçilərə təqdim edilir.Eyni zamanda saytın ana səhifəsinin sağ və sol tərəfində "Xocalı soyqırımı", "Heydər Əliyev Fondu", "Azərbaycan kitabxanaları", "Bunları unutmaq olmaz.Qan yaddaşımız", "İşğal altında olan torpaqlarımız bizi çağırır", "Azərbaycanın hüquqi məlumat bazası" və digər elektron məlumat bazaları da var [2, s.11].

Kitabxanada olan XVIII əsrin sonlarından başlayaraq Azərbaycanda nəşr olunmuş dövri və ardı davam edən nəşrlərin elektron versiyaları da hazırlanır ki, bu da dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazasında yerləşib.İstifadəyə təqdim olunan dövri və ardı davam edən nəşrlərin siyahısındakı qəzet və jurnalların qarşısında il və ay qeyd olunub ki, bu da həmin mətbu orqanların hansı ayda hansı nömrəsinin elektron versiyasının hazır olmasını bildirir.Məsələn, jurnallar bölməsində "Əkinçi" jurnalını götürsək, 1921-ci il oktyabr ayından dekabr ayına qədər olan nömrələrin tam mətninin elektron versiyasının istifadəçilərə təqdim olunduğunun şahidi olarıq [7, s.17].

2008-ci ilin noyabr ayından Milli Kitabxanaya daxil olan 100 adda qəzet və digər dövri nəşrlərin də tammətnli elektron məlumat bazasının yaradılmasına başlanılmışdır.Yəni 100-dən çox qəzet və jurnallarda dərc olunan materialların tam elektron mətnləri mövzu və predmetlər üzrə qruplaşdırılaraq elektron məlumat bazasına daxil edilmişdir. Nəticədə İnternetə çıxış imkanı olan hər bir ucqar kənd kitabxanası və yaxud onun oxucusu heç bir çətinlik çəkmədən və əlavə vəsait ödəmədən gündəlik dövri mətbuatı oxumaq imkanı əldə etmiş olur.Artıq bu gün kitabxananın bir çox oxucuları və dünya miqyasında Azərbaycanla

maraqlanan bütün insanlar Milli Kitabxananın saytı vasitəsilə onun tammətnli elektron məlumat bazalarından bəhrələnə bilərlər [6,s.18].

Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində də əsaslı işlər görülmüşdür.2012-ci ilin məlumatına görə 4965 tammətnli elektron resursdan 1131 nüsxəsi avtoreferat, 3834 nüsxəsi isə dissertasiyadır.İl ərzində 1272 dissertasiya rəqəmsallaşdırılmışdır.2012-ci ildə Rusiya Dövlət Kitabxanasının dissertasiya və avtoreferatlarının tammətnli elektron məlumat bazasından və Azərbaycanda müdafiə olunmuş dissertasiyaların tammətnli elektron məlumat bazasından 625 oxucuya virtual xidmət olunmuşdur [6,s.25).

Milli Kitabxananın saytında sol tərəfdə dissertasiyaların elektron kitabxanası linkini seçməklə buraya keçid etmək olar.Bu dissertasiyalara misal olaraq göstərmək olar: Xələfova Sevda "XX əsrin 70-80-ci illərində Azərbaycanda dövlət kütləvi kitabxana şəbəkəsinin inkişafı", İsmayılov Xəlil "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər)", Qardaşov Rəşad "Azərbaycanda kitabxanaçılıq təhsili (yaranması, inkişafı və müasir vəziyyəti)", Rzayeva Zahidə "Respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin formalaşması mərhələləri", Aslan Knyaz "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu", Pərviz Kazımi "Səfəvilər dövründə Azərbaycanda kitabxana işi", Məmmədov Mehmanəli "Azərbaycan Respublikası kitabxanalarında kitabxanalararası abonement sistemi (1918-1990-cı illər)" və.s.

Kitabxanada olan tammətnli elektron nəşrlərdən danışdıqda notlara dair elektron nəşrləri də xüsusi qeyd etmək lazımdır.Saytın sağ tərəfində yerləşən Musiqi kitabxanası linkinə daxil olub Notlar bölməsini seçməklə onlarla tanış olmaq olar.Burada "Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri, pyeslər məcmuəsi", Bağırov Zakir Cavad oğlu "Gənclik mahnısı", Cahangirov Cahangir "Azərbaycan xalq mahnıları", Ələsgərov Süleyman "Oktyabr mahnısı", Hacıbəyli Üzeyir "Əsli və Kərəm", Maqomayev Müslüm "Nərgizin ariya və nəğməsi", Mansurov Eldar "Çıraqla gəzsən", Rüstəmov Səid "Toxucu qız", Ramazanov Rüfət "Qara Qarayeva ithaf" və digər görkəmli şəxsiyyətlərə dair not nəşrləri mövcuddur.Burada təkcə yerli yox həm də xarici notlar var.

Kitabxananın Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq Prezidentin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan kitabların əksəriyyətinin elektron versiyasını hazırlayıb və oxucuların istifadəsinə təqdim edib [4, s.11].

İstifadəçilərə virtual xidmət etmək üçün digər saytlar da mövcuddur ki, bunlardan da biri www.kitabxana.net Milli Virtual Kitabxanasıdır.Milli Virtual Kitabxanada 1-5 saniyə ərzində Azərbaycan, türk, rus, ingilis və başqa dillərdə elmi, tarixi, bədii, dini, ictimai-siyasi kitabların elektron variantını əldə etmək mümkündür.Saytda dünya ədəbiyyatından ana dilimizə çevrilmiş müxtəlif tərcümələr, maraqlı, intellektual yazılar, bilginin əsas istiqamətlərini əhatə edən oxunaqlı materiallar, şəbəkə əsərləri, yazarların rəngarəng bloq-şəbəkə gündəlikləri, qeydlər, şərhlər, ən yeni ədəbiyyat nümunələri, İnternet əsərləri və.s mətnlər yer almışdır.Şəbəkə resurslarının əksər hissəsindən istifadə etmək pulsuzdur [5,23-24].

E-Kitabxana linkinə vurduqda Azərbaycan, türk, rus, ingilis və başqa dillərdə elmi, tarixi, bədii, dini, ictimai-siyasi kitabların tam mətninin elektron variantını axtarmaq, həmçinin bu kitabları kateqoriyalar üzrə tapmaq mümkündür.Açılan səhifədə bu kateqoriyalar linklər şəklində səhifənin sol tərəfindədir.Məsələn, Azərbaycan ədəbiyyatı kitab kateqoriyasının üstündən vurduqda həmin kateqoriya üzrə salınmış kitabların tam mətninin elektron variantı açılır.Əgər bu kateqoriya üzrə konkret müəllifə və ya sərlövhəyə görə axtarış aparmaq istəyiriksə, əlifba sırası ilə istənilən müəllifin və ya sərlövhənin baş hərfi üzrə axtarış aparmaq olar [5,s.25].

Dünyanın ən qabaqcıl avtomatlaşdırılmış kitabxana informasiya sistemi ilə işləyən kitabxanalarımızdan biri də AMEA-nın Mərkəzi Elmi Kitabxanasıdır. www.mek.az saytından Mərkəzi Elmi Kitabxananın elektron kataloquna, elektron kitabxanasına və elektron məlumat bazalarına keçid almaq olar.AMEA MEK-in elektron kitabxanasında Ümumilli Lider Heydər Əliyev, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Nərgiz Axundova, Nizami Gəncəvi, Əhməd Cavad, Kamal Abdullayev, Bəxtiyar Vahabzadə və digər görkəmli şəxsiyyətlərə dair elektron nəşrlərlə tanış olmaq olar. Mərkəzi Elmi

Kitabxanın əsas fondunda Elektron resurslar fondu yaradılmışdır.Bu fondda Azərbaycan dilində 1990, rus dilində 536 və xarici dildə 15 elektron resurs olmaqla, ümumilikdə 2541 ədəd elektron resurs mühafizə olunur.Kitabxanada tammətnli elektron elmi kitab və jurnalların bazasına giriş linki mövcuddur.Burada EBSCO-40.000 elektron elmi jurnalı və İNTAS-7.000 elektron kitabı əldə etmək mümkündür [7, s.23].

COVİD-19 virusu ilə əlaqədar olaraq ölkədə elan olunan karantin rejimi dövründə AMEA-nın Mərkəzi Elmi Kitabxanası "Elektron kitablar" bazasında olan PDF formalı kitabları oxucular üçün elektron formada təqdim edir.PDF formatında akademik Kamal Abdullayevin "Azərbaycan dili sintaksisinin nəzəri problemləri", "Seçimin morfologiyası", mərhum akademiklər Həmid Araslının "Nizami və Vətən", Tofiq Haciyevin "Dədə Qorqud: dilimiz, düşüncəmiz", həmçinin "Dədə Qorqud dastanlarının dili", "Dədə Qorqud dünyası", "Dədə Qorqudda xanımlar" və digər nəşrlər oxuculara təqdim edilir.

## ƏDƏBİYYAT SİYAHISI :


1. İsmayılov X.İ. Kitabxana - informasiya texnologiyaları:(Dərs vəsaiti).-B.: Nurlar, 2009.-312s.
2. İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.6-14.
3. Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: (Dərslik).-B.: Bakı Universiteti Nəşriyyatı, 2006.-250s.
4. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-2010.-N 1.-135s.
5. Kazımi P.F. İnformasiya mühəndisliyi: (Monoqrafiya).-B.: Bakı Universiteti Nəşriyyatı.-215s.
6. Rüstəmov Ə.M İnformatika (kitabxanaçılıq informatikası):(Dərslik).-B., 2002.-511s.
7. Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası müstəqillik illərində: /Kərim Tahirov //Kitabxanaşünaslıq və informasiya.- 2010.-№1.-s.16-26.


# İNKLÜZİV SİNİF OTAQLARINDA ÖYRƏNMƏ MÜHİTİ


**Şahmarova Sevda**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Dürdanə Əliyeva***



**Açar sözlər:** seqreqasiya, inklüziv təhsil, inklüziv sinif otağı, öyrənmə mühiti.
**Key words:** segregation, inclusive education, inclusive classroom, learning environment.
**Ключевые слова:** сегрегация, инклюзивное образование, инклюзивный класс, среда обучения.


Dünyada minlərlə uşaq seqreqasiyaya məruz qalır. Hal-hazırda Azərbaycanda 60 minə yaxın sağlamlıq imkanları məhdud olan uşaq var. Onlardan yalnız 12 mini təhsilə cəlb olunub. Yəni ölkəmizdə sağlamlıq imkanları məhdud olan hər 5 uşaqdan 4-ü nə təlim prosesinə cəlb edilir, nə də cəmiyyətə inteqrasiya edə bilir. Onlar digər uşaqlarla ünsiyyətə girməkdə çətinlik çəkir və özlərini bir növ cəmiyyətdən təcrid olunmuş kimi hiss edirlər.

Hər bir uşaq bağçada, məktəbdə formalaşır, cəmiyyətin bir üzvünə çevrilir. Deməli, seqreqasiyaya məruz qalmış uşaqları cəmiyyətin bir üzvünə çevirmək üçün onları təhsilə cəlb etmək vacibdir. Bütün uşaqların təhsilə cəlb olunması üçün inklüziv təhsil ən əlverişlisidir. İnklüziya dedikdə digər uşaqlar üçün də əlçatan və onların da bəhrələnməyinə şərait yaratmaqla BÜTÜN uşaqların (həm xüsusi istedadlı, həm əlilliyi olmayan, həm də əlilliyi olan) məktəb və tədrisin bütün aspektlərinə tam şəkildə cəlb edilməsi nəzərdə tutulur. Buraya müxtəlifliyi layiqincə qiymətləndirməklə həqiqətən bütün uşaqların ehtiyaclarına uyğunlaşa bilən "adi" məktəb və sinif otaqları daxildir.

"Normal" təhsil zamanı müəllimlər sinif otağına daxil olanda uşaqları görür və onlarla necə rəftar edəcəklərini, fərdi yanaşmanı çox gözəl bilirlər. Lakin yadda saxlanılması gərəkən mövzulardan biri də bu uşaqlar sinif otağının içində olması gərəkən bütün uşaqlar olmaya bilər. Məktəbə getməsi mümkün olmadığı üçün bura daxil olmayan digərləri də ola bilər. Eləcə də fiziki olaraq sinif otağında olanlar oraya məxsus olmadığını hiss edə, dərsdə həqiqi mənada iştirak etməyə, eləcə də pis davrana bilərlər. İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam cinsi, fiziki, intellektual, sosial, emosional, linqvistik və ya digər xüsusiyyətlərindən asılı olmayaraq, bütün uşaqları səmimiyyətlə qarşılayır, yetişdirir və öyrədir. Onlar istedadlı uşaqlar və ya fiziki, yaxud öyrənmə çətinlikləri olan uşaqlar ola bilərlər. Onlar küçə uşaqları və ya işləyən uşaqlar, ucqar yerlərdə yaşayan və ya köçəri insanların uşaqları, linqvistik, etnik yaxud da mədəni azlıqlardan olan uşaqlar, İİV/QİÇS təsirinə məruz qalmış və ya digər əlverişsiz, sosial olaraq təcrid olunmuş ərazilərdən, qruplardan olan uşaqlar ola bilər.

Belə ki, inklüziv təhsil müəllimin sinifdə bu müxtəlifliyin dəyərini başa düşməsini, bütün qızların və oğlanların məktəbə gəlməsini təmin etmək üçün tədbirlər görməsini nəzərdə tutur. Lakin bütün uşaqları sinif otağına toplamaq məsələnin sadəcə yarısıdır. Digər yarısı isə onların müxtəlif öyrənmə və davranış ehtiyaclarını qarşılamaqdır ki, onlarla eyni sinifdə qalmaq istəsinlər. Bütün siniflər dərs keçdiyimiz uşaqların növləri və öyrəndikləri yollar baxımından müxtəlifdir. Hər bir uşağın nə öyrənməli olduğu, ən yaxşı necə öyrəndiyi və müəllimlərin hər bir uşaqla aktiv öyrənmək istəklərinin yaranması üçün necə müsbət əlaqə qura bilmələri nəzərə alınmalıdır. Eyni zamanda bütün uşaqların bir yerdə necə öyrənmək istədiklərini araşdırmaq lazımdır. Uşaqlar irsi amillər, yaşadıqları mühit, yaxud şəxsi və ya psixoloji ehtiyacları səbəbindən müxtəlif şəkildə davranır və öyrənirlər. Çox zaman uşaqlar öz ehtiyaclarının təmin olunmadığını hiss etdikdə, pis davrana bilərlər. Nəticə etibarilə, uşaqların davranışlarının nədən qaynaqlandığını anlamalı və baş verməzdən əvvəl pis davranışların qarşısını almağa cəhd edə, davranışlarını müsbət istiqamətə yönəldən müxtəlif vasitələrdən istifadə edilə bilər. Bu yolla siniflər bütün uşaqların təhsil almaları üçün inklüziv, səmimi, xoş mühiti olan, pis davranışların nadir rastlandığı yerə çevrilə və beləliklə, şagirdlər üçün tədris öyrənməyə daha çox vaxt sərf oluna bilər. İnklüziyanın düzgün həyata keçirilməsi hamının bu işdən bəhrələnməyidir.

Bir sıra fikirlərə görə müxtəlif əqli və fiziki bacarıqlı uşaqların ümumtəhsil müəssisələrinə cəlb edilməsi dərsi pozaraq sinifdə digər uşaqların öyrənmə prosesini zəiflədəcək, müəllimlər onlardan tələb edilən əlavə tapşırıqların öhdəsindən gəlməyəcək. Nəticədə müxtəlif əqli və fiziki bacarıqlı uşaqların özünə inamı aşağı səviyyədə olacaqdır.

Lakin çoxsaylı tədqiqatların nəticələri göstərir ki, bu fikirlər əsaslı təcrübə və dəlillərə əsaslanmaqdansa, qabaqcadan yaranmış əsassız fikirlərə söykənir. Bütün hallarda inklüziyanın üstünlükləri onun mənfi cəhətlərini üstələyir.

Bəzi hallarda müəllimlər və şagirdlər arasında problemlər olur və müəllimlər uşaqlara hər şeyi öz bildikləri kimi öyrətməyə çalışırlar. İnklüziv təhsildə bu məsələyə də bir az həssas yanaşmaq lazımdır.

Əgər müəllimlər uşaqlar üçün daha yaxşı təşkil olunmuş və onların marağını cəlb edərək dərsdə aktiv iştirak edəcəkləri şəkildə dərs planlamış olsalar, davranış pozuntusu və bunu aradan qaldırmaq üçün lazım olan cəza növünün qarşısı alına bilər. Məsələn, bəzən şagird sual verdiyi zaman müəllimlər adətən bu sualı öz biliklərinə və sinif üzərində qurduqları hakimiyyətə qarşı gəlmələri kimi qiymətləndirirlər. Əslində isə sadəcə olaraq uşaq öz fikrini daha mədəni və uyğun bir şəkildə ifadə etməkdə çətinlik çəkir ya da daha yaxşı anlamağa çalışır. Hər bir halda, uşağın yanlış davranışını düzəltməkdənsə, onu dayandırmaq üçün "daha qısa yol"a əl atıb, ciddi cəzalandırmaq istəyi hər zaman üstünlük təşkil edir və bu da uşaqların inkişafında əngəl yaradır.

İnklüziv öyrənmə yönümlü sinif yaratmaq üçün ən başlıca məqsəd aktiv şagirdlərin olmasıdır. Dərsdə həvəslə iştirak edən və daim aktiv olan şagirdlərdə davranış pozuntuları daha az şəkildə müşahidə olunur. Buna səbəb isə onların daima dərsdə olma istəyi və bunun üçün tələb olunan bütün qaydalara əməl etmələridir. Bunun qarşılığı olaraq müəllimlər də uşaqlara uşaqların dərsə yanaşdığı sevgi ilə yanaşmalıdırlar. Uşaqları bir fərd kimi yetişdirmək üçün fikirlərinə hörmətlə yanaşmaq, onları istiqamətləndirmək şərtdir.

İnklüziv təhsil bütün uşaqlar üçün səmərəli öyrənmə mühiti yaratmaqla bərabər, onların cəmiyyətin yararlı üzvünə çevrilməsinə, şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

## ƏDƏBİYYAT SİYAHISI :

1. İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam
2. Çoxuşaqlı siniflərdə tədris üçün məsləhətlər (Müəllimlər üçün bələdçi)
3. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili
4. Tim Loreman, Joanne Deppeler, David Harvey İnklüziv təhsil (Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar)

# KOMPOSTUN HAZIRLANMASI VƏ BİOHUMUS

**Şəfiyeva Nigar Vidadi qızı**
***Qərbi Kaspi Universiteti***
***Şirinova Nəcibə Əhməd qızı, kimya üzrə fəlsəfə doktoru, dosent***
**shnigar3@gmail.com**

**Açar sözlər**: biohumus, vermikultura, torpağın münbitliyi, Kaliforniya hibridi.

**РЕЗЮМЕ**
**ПРИГОТОВЛЕНИЕ КОМПОСТА И БИОГУМУС**

Компост представляет собой один из видов органических удобрений, который доступно заготавливать самостоятельно, используя различные отходы домашних животных (навоз крупного рогатого скота, овец, коз, птиц) и растительные отходы (сорняки, солома, трава). Высококачественный состав, содержащий минералы и ценные микроэлементы, приравнивается к перегною. Приготовление компоста не представляет трудоёмкий процесс, однако некоторые особенности, технология всё же имеет. Только правильный состав способен восстановить жизненные силы почвы, повысить её плодородие и улучшить структуру.Биогумус – это биологически активное, экологически чистое и натуральное органическое удобрение, которое образуется в результате переработки органических остатков в почве дождевыми червями.

**Ключевые слова**: биогумус, вермикультура, плодородие почвы, калифорнийский гибрид.

**SUMMARY**

**COMPOSTİNG AND BİOHUMUS**

Compost is one of the types of organic fertilizers that can be collected independently using various animal (manure of the cattle, sheep, goat, birds) and vegetable wastes. A high-quality composition that contains minerals and valuable micro-elements is considered to be equal to humus.

Composting is not a time-consuming process. This technology has some characteristic features.

Only with the right composition it is possible to restore the vitality of the soil, increase its productivity and improve its structure. Recipes and methods of harvesting organic fertilizers are excellent for the combination of many specific components which consist of the use of various additives. Vermicompost is a biologically active, environment-friendly and natural organic fertilizer which is formed by the processing of organic residues in the soil by earthworms.

**Key words:** biohumus, vermicompost, earthworms.

Kompost, ev heyvanlarının müxtəlif tullantılarından (mal-qara, qoyun, keçi, quşların peyinləri) və tərəvəz tullantıları (alaq otları, saman, ot) istifadə edərək müstəqil şəkildə toplana bilən üzvi gübrələrin

növlərindən biridir.Tərkibində minerallar və qiymətli mikro elementləri olan yüksək keyfiyyətli kompozisiya humusa bərabər hesab olunur.

Kompostlama vaxt aparan bir proses deyil bu texnologiyanın bəzi xüsusiyyətləri var.Yalnız düzgün kompozisiya qurduqda torpağın canlılığını bərpa etmək, məhsuldarlığını artırmaq və quruluşu yaxşılaşdırmaq olur.Üzvi gübrələrin yığım reseptləri və üsulları müxtəlif qatqıların istifadəsindən ibarət olan bir çox müəyyən komponentlərin birləşməsi üçün əladır.Ən çox nəzər yetirəcəyimiz üsul səmərəli və əlverişli üsul olmalıdır.Kompostlarda mikroorqanizmlər tərəfindən üzvi maddənin parçalanması həyata keçirilir. Onların qidası azotdur (N). Əgər materialda azot azdırsa, onda mikroorqanizmlər kifayət qədər qidalanmaz və hərəkətsiz olacaqlar. Azotun miqdarının az olması parçalanmanın sürətinə təsir edib onu zəiflədir. Kompostda parçalanmanı sürətləndirmək üçün,oraya azotla zəngin bir maddə əlavə edilməlidir.Mühitdə çoxlu azot (gübrə, quş zibili) varsa, orada parçalanma da sürətlə gedir, çox azot sərbəst buraxılır.Lakin mikroorqanizmlər azotun hamısını mənimsəyə bilmir, bir hissəsi kompostdan geri dönməz şəkildə itir. Əgər proses üçün hər hansı bir materialdan, məsələn, ot və ya ot şlamlarından istifadə edilərsə kompostlama prosesi başlamayacaq. Tövsiyə olunur ki azotla zəngin olan olan bitki qalıqlarından istifadə edilsin məsələn gübrə kimi. Kompostlaşdırma prosesi üçün yeni hazırlanmış kompost, saman,azot gübrəsi əlavə etmək olar.

**Yaxşı keyfiyyətli kompost hazırlamaq üçün əsas kompostlama tələblərinə uyğun şəkildə hazırlamaq lazımdır:**

1. Doğru üzvi maddələri seçmək;
2. Hava girişini təmin etmək;
3. Kompost kütləsində optimal nəmliyi təmin etmək;
4. Karbon - azot nisbəti ;PH nəzarət etmək
5. Temperatur;
6. Mikroorqanizmlər və s.

Nəmlik nisbəti 50-60% olmalıdır əgər bu göstəricinin altında olarsa, mikroorqanizmlər çoxala bilməyəcək.Əksinə, əgər su miqdarı bu göstəricidən yüksəkdirsə oksigen çatışmazlığı səbəbindənçürümə prosesi baş verəcək və kompost keyfiyyətli olmayacaqdır. Kompost qoyduqdan sonra 1-2 həftə ərzində istilik artmağa başlayır. Əgər temperatur 80 ℃-dən çox olarsa, azotun buxarlanması pozulacaq buna görə orta dərəcədə suvarma ilə istiliyi 60 ～ 70 ℃ aralığında saxlamaq lazımdır.Bundan bir neçə həftə sonra temperatur azalır və 3-4 aydan sonra kompost yetişir. Və 1-2 dəfə prosesi aparıb bu dövrü təkrarlasaq keyfiyyətli kompost əldə edilə bilər.

Vermikompost, bioloji cəhətdən aktiv, ətraf mühitə uyğun və torpaqdakı üzvi qalıqların torpaq qurdları (soculcan) tərəfindən işlənməsi nəticəsində əmələ gələn təbii üzvi gübrədir.

Torpağın dərin şumlanması, kimyəvi gübrələrin və pestisidlərin istifadəsi torpaq qurdlarınlın populyasiyasına və nəticədə insan sağlamlığına mənfi təsir göstərir.

Kaliforniya soxulcanları çox istifadə edilən növlərdəndir.

Təbii şəraitdə bu canlıların əlaqəli növləri yer üzünün üzvi qalıqlarını təkrar emal edərək humusa çevirirlər. Yəni torpaq təbii halda məhsuldar olur və kimyəvi gübrələrə ehtiyac duymur.









Görünüşə görə California qurdları praktik olaraq bir-birindən fərqlənmir, lakin hər növün öz üstünlüyü var. Bu qurdların çox məhsuldardır və onlar üçün gündə öz çəkiləri qədər qida yeyirlər. Və bir qurd bir ildə 1500 ədədə qədər nəsil yaradır.

Havanın temperaturu 15-25 dərəcədən artıq olduqda onlar yaxşı işləyirlər yəni daha hərəkətli olurlar. Nəm (yaş) substrat 5-7 gün ərzində saxlanmalıdır. Bu zaman onu vaxtaşırı nəmləndirmək lazımdır. Bu, amonyak qalıqlarını aradan qaldırmaq və soxulcanlara zərər verə biləcək gübrə duzlarının kristallarını əritmək üçün lazımdır.

Bir yığının üzərinə 2-3 soxulcan qoyuruq, əgər onlar substratda gizlənirlərsə, deməli, digər qurdları əlavə edə bilərik, əgər səthdə qalırsa, deməli substrat hazır deyil.

Kompostu əlimizə alıb onu sıxırıq əgər sıxıldıqda yumruğumuzda 1-2 damla nəm çıxsa, rütubət kifayətdir.Yerləşdirilkdən bir həftə sonra, soxulcanların yeni bir substrata keçib-getmədiyinə baxiriq, bu dövr onların inkişafı üçün kifayətdir. Qurdların səthi təmiz və özləri də hərəkətlidirlərsə - bu onların rifahının sübutudur. Əgər onlar laqeyddirlərsə (tənbəl), hərəkətsizdirlərsə, işığdan gizlənməyə çalışırlarsa – bu onu göstərir ki yemin tərkibindəki müxtəlif pestisidlər onlara ciddi ziyan vurub.Bu halda onları yeni evlərinə-yeni bir mühitə keçirmək lazımdır. Qurdlar yeni mühitdə yaxşı işləyirlərsə hərəkətlidirlərsə, 3-4 həftə onlar rahat qoymaq lazımdır. Bu müddət ərzində ehtiyac duyduqları tək şey nəmdir. Kultivator yatağının temperaturu 20-24 dərəcə olmalı və vaxtaşırı su ilə sulanmalıdır. Çox soyuq və ya çox isti su qurdlarda stres reaksiyasına səbəb olur (qorxu, şok) və yaxşı qidalanma və çoxalmağı dayandırırlar. Kompost yığınının qurdlarla suvarılması üçün su bir qabda saxlanmalı və ən azı 2-3 gün orada qalmalıdırlar.

Qurdların son qidalanması şaxta başlamazdan əvvəl oktyabr ayının sonunda və ya noyabr ayının əvvəlində edilməlidir. Temperatur düşəndə qurdlar aktivliklərini azaldır: hərəkətləri yavaşlayır, 6 ° C-də qurdlar qidalanmağı dayandırır və 4 ° C-də həzm sistemini qida qalıqlarından azad edir və o şəkildə də anabioz (qış yuxusu) vəziyyətə düşürlər.

Yayda becərilmə zamanı 7 -8 qat (lay) kompost hazırlamaq lazımdır.Kultivator yatağı yüksək hündürlükdə olur.Qurdlar mühitdə aşağıdan yuxarıya doğru hərəkət edir.Mövsüm başına bir qurd yatağı (100 min ədəd) açıq havada (7 ay, aprel-oktyabr ayları arasında) 1,2 ton üzvi tullantıları işləyə və 10-15 yatağı doldurmaq üçün qurdların biokütləsini əmələ gətirir. 1 ton üzvi maddədən, təxminən 600 kq vermikompost və 100 kq-a qədər qurd bədəni biokütləsi istehsal olunur.

Vermikompost, gübrə və kompozisiyaları humus tərkibində 4 -8 dəfə üstələyir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. «Почва и компост». Тимирязевская академия советует. М.: Лик-Пресс, 2001.
2. Матиас Аккерман, Сариев А. и др. «Компост», ЦОКИ, 2009 г.
3. Петренко И.М. Процессы компостирования отходов животноводства и растениеводства: монография/И.М. Петренко. Краснодар: Агро - промполиграфист, 2002.
4. Андакулов Ж. «Биогумус», ЦОКИ, 2004 г.
5. А.М. Игонин «Как повысить плодородие почвы в десятки раз с помощью дождевых червей». М.: ИВЦ Маркетинг, 1995.

# İNFORMASİYANIN ŞİFRƏLƏNMƏSİ VƏ DEŞİFRƏLƏNMƏSİ ÜÇÜN PARALEL ALQORİTMLƏRİN İŞLƏNMƏSİ

**Şirinova Aşa**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***

## XÜLASƏ

İnformasiyanın şifrələnməsi və deşifrələnməsi günümüzdə aktual və əhəmiyyətli məsələlərdən biridir. Müasir informasiya sistemlərində böyük miqdarda məlumat ötürülməsini tələb edən texnologiyalardan istifadə olunur. Bu işdə şifrələmə və deşifrələmənin hesablama prosesini sürətləndirmək üçün paralel hesablama modelindən istifadə edilməsi təklif olunur. Bu məqsədlə, paylanmış yaddaş SMP ilə çoxprosessorlu hesablama sistemlərinə yönəldilmiş paralel hesablama modeli seçilir.

**Açar sözlər:** İnformasiyanın qorunması, kriptoqrafiya, şifrələmə və deşifrələmə, şifrələmə üsulları, paralel proqramlaşdırma.

## SUMMARY

Encryption and decryption of information are some of the most pressing and important issues today. Modern information systems use technologies that require large amounts of data to be transmitted. In this paper, it is proposed to use a parallel computing model to speed up the computation process of encryption and decryption. For this purpose, a parallel computing model aimed at multiprocessor computing systems with distributed memory SMP is selected.

**Key words:** Information protection, cryptography, encryption and decryption, encryption methods, parallel programming.

## РЕЗЮМЕ

Шифрование и дешифрование информации - одна из самых актуальных и важных задач на сегодняшний день. Современные информационные системы используют технологии, требующие передачи больших объемов данных. В этой статье предлагается использовать модель параллельных вычислений для ускорения вычислительного процесса шифрования и дешифрования. Для этого выбрана модель параллельных вычислений, ориентированная на многопроцессорные вычислительные системы с распределенной памятью SMP.

**Ключевые слова:** Защита информации, криптография, шифрование и дешифрование, методы шифрования, параллельное программирование.

İşin qısa məzmunu. Müasir dövrdə, informasiya texnologiyalarının inkişafı ilə kriptoqrafiyanın və informasiyanın qorunması vasitələrinə ehtiyac artır. Qabaqcıl ölkələrdə texnologiyanın inkişafında kriptoqrafiyanın formalaşması əsas məsələlərdən biri sayılır. Şifrələmə qədimdə də, müasir dövrdə də, hərbi və dövlət təhlükəsizliyində geniş istifadə edilir.

Kriptoqrafiya hər hansı bir məlumatı fiziki olaraq düşmənin gözlərindən gizlətmək əvəzinə, hər iki tərəfin aydın şəkildə görə biləcəyi, ancaq şifrəsini necə açacağını bilən bir dildə ünsiyyət qurmasını təmin edir. Kriptoqrafik məlumat transformasiyasının əsas növlərindən biri şifrələmədir. Kriptoqrafiya informasiyanın şifrələnməsini nəzərdə tutur. Şifrələnmiş informasiya, ancaq açıq mətni oxuma icazəsi olan istifadəçi tərəfindən deşifrələnə bilər [1,2].

Şifrələmə informasiyanın təhlükəsizliyinə tam zəmanət vermir, lakin onun icazəsiz istifadəsini məhdudlaşdırır. Hər hansı bir mətni deşifrələyib oxumaq üçün açar sözünü və şifrələmə alqoritmini bilmək lazımdır. Şifrələnəcək mətn açıq mətn adlanır və bu mətn şifrələmə açarından istifadə etməklə şifrələmə alqoritmi vasitəsilə şifrələnir.

Müasir şifrələmə texnologiyası, şifrələnmiş məlumatları daha yaxşı gizlətmək üçün daha böyük ölçülü açarlardan və inkişaf etmiş alqoritmlərdən istifadə edir. Açar ölçüsü nə qədər böyükdürsə, şifrələnmiş məlumatların şifrəsini açmaq üçün cəhd edilən hücumların uğurlu alınmasının mümkünlüyü də o qədər aşağı olur. Açarların ölçüsü "kobud güc" hücumlarının müvəffəq ola biləcəyi vaxtı xeyli uzada bilər. 56 bit və 64 bit açarlar dəyər baxımından yaxın görünsə də, 64 bit açarları qırmaq 56 bit açarlardan 256 dəfə daha çətindir. Bu günki şifrələmələrin əksəriyyəti ən az 128 bit açarlardan istifadə edir. 128 bitlik bir açarla edilən şifrələməni kobud güc hücumu ilə pozmaq üçün 339,000,000,000,000,000,000,000,000,000,000 fərqli açar birləşmələrini sınanmaq lazımdır. Bu o deməkdir ki, mövcud olan ən güclü superkompüterlərdən istifadə edərək düzgün açarı tapmaq üçün milyonlarla il gözləməli olacaqsınız.

Hal-hazırda, müasir informasiya sistemlərində böyük miqdarda məlumat ötürülməsini tələb edən texnologiyalardan istifadə olunur. Aydın məsələdir ki, bu cür məlumatların klassik metodlardan istifadə edərək şifrələnməsi çox vaxt aparır. Bu baxımdan, bu işdə şifrələmə və deşifrələmənin hesablama prosesini sürətləndirmək üçün paralel hesablama modelindən istifadə edilməsi təklif olunur. Bu məqsədlə, paylanmış yaddaş SMP ilə çoxprosessorlu hesablama sistemlərinə yönəldilmiş paralel hesablama modeli seçilir [3,4].

Paralel proqramlaşdırma proseslərin bir çoxunun və hesablamaların eyni zamanda aparıldığı hesablama tipi kimi başa düşülür. Böyük həcmli məsələləri çox hallarda daha kiçik hissələrə bölmək mümkündür. Daha sonra isə bu kiçik məsələ hissələrini eyni vaxtda həll etmək mümkündür. Paralel proqramlaşdırmada müxtəlif cür proqram interfeysləri istifadə edilir. Bunlara misal olaraq OpenMP, PVM (Paralel Virtual Machine), MPI (Massively Parallel İnterface), CUDA və s. göstərmək olar.

Open MP (Open Multi Prossesing) 1997-ci ildə yaradılmışdı. Ümumi yaddaşlı çoxprossesorlu və çoxnüvəli hesablama sistemləri (SMP arxitekturalı) altproqramlara bölünmüş proqramın paralel yerinə yetirilməsini təmin edir. Open MP bir növ Tətbiqi Proqramlaşdırma interfeysidir (API). O özündə kitabxanaları, əməliyyat sistemi sazlamalarını və kompilyator direktivlərini saxlayır. Yalnız paylanan yaddaş sistemlərini hədəf kimi qeydə alır.

Bu işdə, Microsoft Visual C ++ proqramlaşdırma mühitində Oren MP paralel proqramlaşdırma texnologiyasından istifadə edərək bir kompüter proqramı hazırlanmışdır. Bu proqram əvəzetmə simmetrik şifrələmə metodlarından istifadə etməklə kifayət qədər böyük bir məlumatın Azərbaycan dilində şifrələnməsi üçün sınaqdan keçirilmişdir. Bu vəziyyətdə mümkün açarların sayı Azərbaycan dilinin 32 hərfinin, yəni 32! -nin mümkün permutasiya sayına bərabərdir. Aydındır ki, belə bir mono-əlifba şifrəsi mümkün açarları sadalamaq üçün kobud-güc metodudur. Bununla birlikdə, ədədi təcrübələr şifrələmənin şifrə mətnindəki hər bir simvolun sayılması və baş vermə tezliyini təyin etməsi ilə başlayan kriptanaliz üçün uyğun olduğunu göstərdi. Bu baxımdan, əvəzetmə şifrələmə metodlarının kriptoqrafik gücünü təmin etmək üçün Gronsfeld tərəfindən təklif olunan şifrə ilə birləşdirilmişdir [1,2].

Ədədi təcrübələrin nəticələrinin təhlili göstərir ki, təklif olunan kriptoqrafik transformasiya alqoritmində paralel hesablama modelinin istifadəsi sərf olunan vaxtı xeyli azalda bilər və az vaxtda böyük məlumatların şifrələnməsi və deşifrələnməsi həyata keçirilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Wenbo mao. Modern cryptography: theory and practice. M.: Williams, 2005.768 p.

2. Schneier Bruce. Applied cryptography. M.: triumph,, 2002. 816 p.

3. Ceze L.H. Shared-Memory Multiprocessors // Encyclopedia of Parallel Computing. Boston, MA: Springer US, 2011. P. 1810–1812

4. Федотов И. Е. Модели параллельного программирования. М.:Солон-Пр., 2017. 392 с.

# ÇOVDAR SAHƏSİNDƏ BARIT-POLİMETAL FİLİZLƏŞMƏSİNİN GEOLOJİ-STRUKTUR ŞƏRAİTİ VƏ PERSPEKTİVLİK KRİTERLƏRİ

**Şirinov Alşan Azər**
***Bakı Dövlət Universiteti***
***Elmi rəhbər: Şəhla Abdullayeva***

**Açar sözlər:** Çovdar filiz sahəsi, filizləşmə
**Ключевые слова:** Човдарское рудное поле, оруденение
**Key words:** Chovdar ore field, mineralization

Çovdar filiz sahəsi geoloji - tektonik cəhətdən Kiçik Qafqazın Lök - Qarabağ struktur - formasion zonasının Şəmkir antiklinoriumunun Daşkəsən sinklinorisinə keçid hissəsində yerləşir.

Filiz sahəsinin əsas xüsusiyyəti Çovdar braxiantiklinalıdır. Ondan bir az yuxarıda eyniadlı yataq yerləşir. Strukturun formalaşmasına ikinci dərəcəli kvarsitlərə çevrilmiş orta və iri dənəli tufların subvulkanik cisimləri, riyolit, riyolit-dasit, riolit-dasit-porfir daxildir. Parçalar çox nadir hallarda andezitik porfiritlərlə təmsil olunur. Bu süxurların cəmi ventilyasiya fasiyasına aiddir. Filiz bölgəsindəki ən böyük tektonik qırılma brakiyantiklinin cənuba doğru yerdəyişməsindən (yuxarı) yaranan dərin çatdır (genişliyi təxminən 1,5 km). Buna görə də, strukturu təşkil edən üst bayos plagioriolit–porfirin tərkib hissələrinin, bat vulkanogen-çökmə kompleks ilə təmasda olması təşkil edilir.

Yataq, diametri 10 km-dən çox olan mürəkkəb quruluşlu vulkanik mərkəzin davamlı olaraq qalxmış xarici sərhədləri boyu uzanan vulkan-günbəzin içərisində lokallaşdırılmışdır. Yataq, periferiyasında elastik toxuma olan, silislənmiş, brekçiya (çınqıl,qırıntı) bənzər süxur növləri ilə doldurulmuş, brekçiya kimi pemza və məsaməli, şüşəli pelitik material- termal karsitlər, selisitlərlə əvəz olunan minerallaşdırılmış böyük subşaquli havalandırma zonasından ibarətdir. Vulkanın ağzı dərinliyə gedən qıfa bənzər gövdə şəklindədir. Burada qızıl daha çox olur., Püskürən brekçiyalar, xüsusilə mis vulkanın ventilyasiyasının əsasını təşkil edir. Yataq, Mərkəzi filiz gövdəsi adlananların mərkəzi hissəsinin yaxşı öyrənilmişdir və ikinci dərəcəli kvarsitlərin areal inkişaf növünün (2-ci əsas sənaye növü) minerallaşmış zonaları, həmçinin qızıl ehtiyatları olan hidrotermal- dəyişdirilmiş barit, kvars-barit, kvars-karbonat və damarlı lentikulyar cisimlər şəklindədir.

Filizlərdə iyirmidən çox mineral aşkar edilmişdir. Filiz mineralları (damar kütləsinin 1% -dən azı): pirit, xalkopirit, xalkosit, solmuş filiz, yerli qızıl, yerli gümüş, stromatolit, Au-Cu... sfalerit, qalenit, bornit və s. İkinci dərəcəli minerallar: hetit, hidrohetit, malaxit, azurit, yarozit və filizlərin mineral tərkibi elektron mikroskopu vastəsi ilə tədqiq edilmişdir. Gil mineralları rentgen diffraksiyası (x-ray diffraction) yolu ilə öyrənilmişdir. Mineral əmələ gəlməsinin dörd mərhələsi müəyyən edilib: filizləşmədən əvvəlki mərhələ; erkən məhsuldar kvars-pirit-qızıl filizi; əsas məhsuldar kvars-barit-qızıl filizi və sonrakı məhsuldar kvars-karbonat-barit. Qızıl... kvars, sulfidlər, hetit, hidrohetitin demək olar ki, bütün paragenetik birləşmələrində mövcud olan bir elementdir. Yerli qızıl yataqlarının yanal istiqamətdə 0,005 ilə 0,01 mm arasındakı ölçüləri kvarsdakı çatlara, yayılmış sulfidlərin inkişaf sahələrinə, hetit-hidrohetit aqreqatlarının toplanma nöqtəsinə doğru çəkilir; hetit, pirit, xalkopirit, kovelit, xalkozin, bornit və digər qeyri-filiz minerallarında daxil olmalar ilə müşahidə olunur. Qızıl pirit seqmentlərində subdispers formada ("görünməz" qızıl) və əyriliyi az olan minerallaşmış barit çatlarında (nadir hallarda) müşahidə olunur. Minerallaşmanın zonallığı yaradılmışdır.

Aster anomaliya tipinin infraqırmızı spektrində əks olunmanın radiometrik təsirləri olan kosmik görüntülər, vulkanik ventilyasiyada qızıl minerallaşmasının zona bölgüsünü, habelə geoelektrik yarıqda filiz cisminin üç ölçülü həcmini 3D formasında bərabər şəkildə göstərir. (V.Babazadə, Ş.Musayev və.s).

Mineral geo-kimyəvi və termobarogeokimyəvi tədqiqatlar. Erkən və əsas məhsuldar qızıl-sulfid birləşmələrinin filizlərindən kvarsdakı maye daxilolmaları, həm 340-300 –dən 260$^{\circ}$C arası temperaturda homogenləşdirilmiş nisbətən böyük daxilolmalarla, həm də 240-180$^{\circ}$ C-də homogenləşdirilmiş ikinci dərəcəli daxilolmalarla araşdırılıb. Sfalerit, qalenit və bornitin termal səs analizinin nəticələri onların oxşar termodinamik şərtlərdə təxminən eyni vaxtda yarandığını göstərir. Erkən məhsuldar kvars –pirit-qızıl

filizinin filizlərinin əmələ gəlməsi zamanı təzyiq 1,8 – 0,2 kbar, əsas məhsuldar kvars-barit-qızıl filizi üçün isə 1,3 -0,05 kbar təşkil edir.

Erkən piritin izotopik tərkibi meteoritin tərkibinə yaxındır: δ34S+0,3%-lə 04 –dən +0,8% -ə qədər. Pirit 2 və sfalerit δ 34S izotopunda meteorit kükürdlə müqaisədə orta hesabla 2.5 -2%o ilə zənginləşdirilir və +0.2 – 4.6%o arasında dəyişir. Xalkopirit və qalenitin əmələ gəlmə mərhələsində δ34S izotopunun tərkibinin -2.6 ilə 3.3% arasında dəyişməsi orta hesabla +0,8 və 0,2 -ə qədər azalır. Bu, sulfid yaranmasının sonuna doğru oksidləşmə şəraitinin inkişafını, pirit və sfaleritə nisbətən sonrakı mərhələdə xalkopirit və qalenitin çökməsini göstərir. Barit kükürdünün izotopik tərkibi +7.0 ilə +18.0 arasında dəyişir. Barit-sulfid cütlüyündə bütün minerallaşmanın ümumi kükürdünün hesablanmış izotopik tərkibi, orta δ34S–dir ki, bu da yerli süxurlardan 8.0%o çoxdur.

Ağır izotopun filiz verən məhluldakı artımı qabıq kükürdün filiz əmələ gətirmə prosesinə cəlb olunduğunu göstərir. Göründüyü kimi, barit çöküntüsünün əsas amili gətirilən hidrotermal mayelərin kimyəvi tərkibi, temperatur və oksidləşmə baxımından kəskin fərqlənən meteor sularla yerdəyişməsindədir. Beləliklə, barit kükürdü qarışıq xarakter daşıyır.

Filizlərin iki növü müəyyən edilib: oksidləşən ilkin sulfid. İlkin sulfid filizlərində qızıl, dəmir, mis və qeyri-metal mineralların sulfidləri ilə birləşən kiçik yerli dənələrlə (1-8 mikron) təmsil olunur. Nadir hallarda sərbəst qızıl dənələrinin ölçüsü nisbətən böyük ölçülərə (60 mikrona qədər) çatır. Mikrospektral zondlaşdırmanın nəticələrinə görə (V. Baba-zade, Ş. Musaev və s. 2015), ilkin sulfid filizlərindəki yerli qızılın orta həcmi təxminən 91,8%, içindəki gümüş 8,2-%dir. Gümüşdən əlavə, yerli qızıldakı çirkli elementlər arasında misə də tez-tez rast gəlinir. Oksidləşdirilmiş filizlərdə qızıl adətən xırda dənəlidir (6-8 mikron); məsaməli quruluşa malik nisbətən böyük çöküntülərə nadir hallarda rast gəlinir (30 qədər mkm qədər). Qızılın əsas miqdarı (80%-dən çox) qeyri-metal minerallarla birləşir. Müəyyən olunmuş yerli qızılın demək olar ki, hamısı yüksək keyfiyyətlidir (86.6-100 %o), orta hesabla 96.7%. Oksidləşmiş filizlərdə gümüş həm yerli, həm də mis-gümüş tərkibində minerallar şəklindədir... Ag3CuS2 və stromeerit AgCuS. Ölçüləri 1 ilə 8 mikron arasında dənələr (orta hesabla 5 mikron) baritə (Cu-Ag mineral) daxil edilir. Misin mineral formaları və onların bütün nümunələrindəki nisbi tərkibi, bir nümunə xaric (Cu-0.825%), aşağıdır (0.006-0.017%) (Ş.Musaev, 2011). Nisbi filizlərdə qızılın əsas hissəsi (84,2%) yüngül fraksiyanı təşkil edən qeyri-metal minerallarla birləşir. Eyni zamanda, ilkin sulfid filizlərindəki qızılın 53,3% -i ağır hissədə cəmlənmişdir (məhsul 10.94%), su rejimində ayrılmada qızıl ehtiva edən konsentrat qızıl daşıyan "başlığın" yalnız 3.5% məhsulunu təmin edir. Növbəti prosesdə, dəmir sulfidlərindən ayrılan məhsulunda (S-44.3%, Fe-40.9) qızılın 42.9% cəmlənmişdir. Göründüyü kimi, ilkin sulfid filizərində, qızılın çox hissəsi oksidləşən filizlərdə olduğu kimi dağınıq formadadır və bu miqdardakı qızılın təxminən yarısı sulfidlərlə, digər yarısı qeyri-metal minerallarla birləşir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Ахмедов А.З., Мусаев Ш.Д. и др. Вещественный состав и технологическая характеристика минерального сырья Човдарского золоторудного месторождения. Известия НАН Азербайджана, Науки о земле, 2004, 4, 64-73.
2. Баба-заде В.М., Мусаев Ш.Д., Абдуллаева Ш.Ф. Вещественный состав минерального сырья Човдарского золоторудного месторождения. Вестник Бакинского Университета. Серия естественных наук. 2015, №1, с.87-120
3. Баба-задеВ.М., МусаевШ.М., Насибов Т.Н., РамазановВ.Г. Золото Азербайджана. Баку, 2002
4. Баба-заде В.М., Магриби А.А., Гаврилюк П.С., Рамазанов В.Г. Баритовый пояс Азербайджана. Издательство. Адилоглы,2003

# PLASTİK KÜTLƏ-QLOBAL PROBLEMLƏRDƏN BİRİ KİMİ

**Talibov Murad Xalid oğlu**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialı***
***Elmi rəhbər: b.m. Eldar Muradlı***

**Açar sözlər:** plastik kütlə, təbiət, qlobal problem
**Key words:** plastic mass, nature, a global problem
**Ключевые слова:** пластическая масса,природа, глобальная проблема

XIX əsrin axırlarından və XX əsrin əvvəllərindən başlayaraq dünyada metal, ağac, parça və digər təbii materialların iqtisadi cəhətdən daha əlverişli, yüngül,davamlı, aqressiv mühitə qarşı əks dayanan, istənilən formanı asanlıqla ala bilən və müxtəlif sintetik materiallarla əvəz olunmasına xüsusi əhəmiyyət verilməyə başlanmışdır. Məhz buna görə də bu gün məişətimizi plastik kütləsiz, daha doğrusu, kimyasız təsəvvür etmək çətindir. Bu fikri izah etməyə ehtiyac yoxdur. Ona görə də XX əsri çoxu, çox vaxt «polimerlər əsri» adlandırırlar.

İnsanlar plastik xassəli materiallardan çox qədim zamanlardan istifadə etməyə başlamışlar. Bunlardan bişirməklə bərkiyən nəm gil, qum ərintiləri, tabaşir, kül daha qədimdən məlumdur.Lakin sonralar ərinti halında yumşaq olan və soyuduqda bərkiyən plastik materialların, məsələn, asfaltın, kəhrəbanın, kanifolun (qatranın), mumun tətbiqi də daha çox genişlənmişdir.Qədim Misirdə insanların qırı əridərək parçaya, ağaca hopdurmaqla inşaatda hidroizolyasiya materialı kimi istifadə etdikləri elmə məlumdur. Beləliklə, plastik kütlələrin də istehsalının əsası yaradılmağa başlamışdır. Xüsusilə son əsrlərdə böyük kimyanın və onun sənaye sahələrinin inkişafı ilə əlaqədar olaraq plastik kütlə materialının müxtəlif növlərinin yaradılması və tətbiqi daha sürətlə genişləndirilməyə başlanmışdır. Məsələn, 1868-ci ildə ağacdan sellüloidin, 1839-cu ildə təbii kauçukun, 1843-cü ildə ebonitin, 1897-ci ildə qalalitin alınması plastik kütlənin sənaye istehsalının mənimsənilməsi tarixinə aid əlamətdar hadisələr misal ola bilər. Plastik kütlələr təbii materiallarla müqayisədə bir çox üstünlüklərə malikdir.

Hazırda ətraf mühiti çirkləndirən əsas faktorlardan biri də plastik qablaşdırma tullantılarıdır. 1960-cı illərdə bərk məişət tullantılarının tərkibində plastik tullantıların miqdarı 1 faizə qədər idi. Lakin hazırda bu göstərici 12 faizdən çoxdur. Ən əsası isə plastik tullantılar təbiətdə yüz illər ərzində parçalanmır, miqdarı isə ilbəil artır. Araşdırmalar göstərir ki, bu tullantılar düzgün idarə olunmadığından ətraf mühiti və sututarları çirkləndirir, kənd təsərrüfatı torpaqlarının dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir və məhsuldarlığın aşağı düşməsinə səbəb olur.Ötən əsrin ortalarında dünya üzrə təxminən 1,5 milyon ton plastik istehsal olunub. Həmin göstərici 1990-cı ildə təxminən 67 dəfə artaraq 100 milyon tona çatıb. 2015-ci ilə qədər isə bu rəqəm 3 dəfədən çox artıb və təxminən 322 milyon tona bərabər olub.Plastik məmulat istehsalının belə sürətlə artması plastik tullantıların, daha böyük templə çoxalmasına təkan verib. Hazırda plastik tullantıların yaranması tempinin azalması istiqamətində mühüm addımlar atılır.Statistikaya görə, hər il dünyada 500 milyon ton plastik məhsul istehsal olunur. Plastik və polietilen məhsulların parçalanaraq yox olması üçün torpaqda 800, dənizdə isə 400 il vaxt lazım gəlir. Həmçinin yarım əsrdən sonra da plastik məhlul torpağa qarışaraq onu çirkləndirməyə davam edir. Plastik qablar hər il 120 milyon ton əlavə tullantının yaranmasına səbəb olur. Belə ki, dünyada plastik tullantıların yalnız 20 faizi təkrar emal olunur. Okeana atılan tullantıların 90 faizi də məhz plastikin payına düşür. Hər il okeanlara 150 ton plastik tullantı atılır. Okeanlarda böyük tullantı adaları əmələ gəlib. Hazırda 5 belə ada var. Onlardan ikisi Sakit, ikisi Atlantik, biri isə Hind okeanındadır. Plastik tullantılar vəhşi heyvan və quşların, balıqların ölümünə səbəb olur. Hər il milyonlarla dəniz canlısı plastik tullantılar səbəbindən tələf olur. İnsan orqanizminə zərərli maddələrin 80 faizi plastik tullantılardan daxil olur. Plastik məhsulların tərkibinin əsasını insan sağlamlığı üçün təhlükəli olan bisfenol-A maddəsi təşkil edir. “Bisfenol A” fenol qrupuna aid olan üzvi birləşmədir. Bu maddə suda zəif həll olunsa da çənlərdə uzun müddət qaldıqda suya diffuziya edə bilir və insan orqanizmi üçün təhlükə yaradır.

ABŞ-ın Milli Toksikoloji Proqramının ekspertlərinin illər öncə keçirdikləri təcrübənin nəticələrinə əsasən, həmin maddə bir sıra xəstəliklərə, o cümlədən prostat və süd vəzi xərçənginin inkişafına yol açır. Alimlərin sözlərinə görə, plastik qablar günəş isitməsi və ya təkrar istifadədən sonra daha təhlükəlidirlər. Plastik və polietilen məhsullar yandırılarkən insan orqanizmi üçün zərərli kimyəvi maddə - dioksin ifraz

olunur. Dioksin bənzər quruluşa malik kimyəvi maddələrin birləşməsindən formalaşır. Bu birləşmələr hidrogen, karbon, oksigen və xlor atomlarından ibarətdir. Araşdırmalardan məlum olub ki, plastik materialların isti su və ya birbaşa isti ilə təması nəticəsində də dioksin yaranır. Beynəlxalq Xərçəng Araşdırma İnstitutunun açıqlamasına görə, dioksin xərçəng xəstəliyi əmələ gətirir. Orqanizmə daxil olub yağ toxumasında yığılan maddənin xaric olması qeyri-mümkündür. Onun təsirinin azaldılması üçün dərman vasitələri yoxdur.Alimlər qida məhsullarının plastik qablarda saxlanılması və qızdırılmasını da tövsiyə etmirlər. İstifadə müddəti orta hesabla 20 dəqiqə olan polietilen paketlər ümumi tullantıların təxmini 10 faizini təşkil edir. Statistikaya görə, bir ailə il ərzində təqribi 500 polietilen paket istifadə edir. Həmin paketlərin çürüməsinə 500 ildən çox vaxt lazımdır.

Hər il dünyada 4 trilyon paket istifadə olunur, hər 1 dəqiqədə 1 milyon polietilen torba zibil qutusuna atılır. Onlar ətraf mühitdə uzun müddət qalır və çürümür. Hazırda bir çox inkişaf etmiş ölkələrdə plastik qablaşdırıcılardan istifadənin azaldılması istiqamətində müvafiq qanunvericilik bazası yaradılır, onların toplanması və təkrar emalı sistemi təkmilləşdirilir. Avropa ölkələrinin bir çoxunda əsas tədbir kimi plastik torbaların ödənişli olması və ya onlara ekoloji vergi tətbiqi kimi üsullardan istifadə edilir. Bununla yanaşı, dəfələrlə istifadə oluna bilən parça torbalardan, bakteriyaların və ya digər canlı orqanizmlərin parçalaya biləcəyi çantalardan istifadənin təşviqi də görülən tədbirlər sırasındadır.Region ölkələrində də plastik tullantıların azaldılması məqsədilə son illərdə bir sıra tədbirlər görülüb. Türkiyədə ilkin mərhələdə bütün satış nöqtələrində qalınlığı 15-50 mikron olan plastik torbaların istifadəçilərə və ya istehlakçılara pulsuz verilməsi qadağan olunub. Gürcüstanda qalınlığı 15 mikrondan az olan plastik torbaların idxalı, istehsalı və satışı qadağan edilib, istehsalçılara istehsal etdikləri torbaların üzərinə şirkətin işarəsini və adını qeyd etmək tələbi qoyulub.Çində isə 2008-ci ilin iyunun 1-dən qalınlığı 0,025 millimetrdən az olan polietilen torbaların istehsalı, satışı və istifadəsi qadağan edilib.Ümumilikdə isə, 40 ölkədə plastik məhsulların istifadəsi məhdudlaşdırılıb. Bəzi ölkələrdə hətta turistlərin polietilen məhsullarla gəlməsinə belə icazə verilmir.Bir sıra ölkələrdə plastik qablaşdırma tullantılarının 60-70 faizi təkrar emal edilir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Elmi məcmuələr cild 21(Məişət tullantılarının emalı)
2. https://azertag.az/xeber/Plastik_tullantilar_ve_onlarin_etraf_muhite_menfi_tesiri-1253762
3. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=192
4. https://kqkiamea.az/az/news/516/
5. http://asoiu.edu.az/docs/proqramlar/2391.01.pdf?fbclid=IwAR2d8qdqH-Qd-IaqFXniuwCrJ4OuE7UnDATk3FMkr_Yi3xK7WzdEJ1wX0bo


# ИССЛЕДОВАНИЕ ХИМИЧЕСКИХ СРЕДСТВ ДЛЯ КОНСЕРВИРОВАНИЯ ДРЕВЕСИНЫ


**Талыблы Фатима, Насиров Мурсал**

***Западно-Каспийский Университет***

***Школа высоких технологий и инновационной инженерии,***

***Западно-Каспийский Университет, Кафедра Механических Устройств и Машин, преподаватель.***

***fatyatalibli23@gmail.com, nasirovmursal@gmail.com***


## РЕЗЮМЕ


Дерево чувствительно к воздействию абиотических факторов (небиологического происхождения), таких как огонь, солнце, вода, кислород и другие, а также к повреждению биологическими вредителями, бактериями, грибами, насекомыми, птицами и т. д. Долговечность менее устойчивых пород древесины увеличивается за счет использования химических средств защиты, таких как фунгициды и инсектициды. Часто для улучшения качества древесины также используются антипирены и другие консерванты.

**Ключевые слова:** абиотические, инсектициды, фунгициды, защита, древесина, химикаты, влага.

**Keywords:** abiotic, insecticides, fungicides, protection, wood, chemical, moisture

**Açar sözlər:** abiotik, insektisidlər, funqisidlər, mühafizə, oduncaq, kimyəvi, nəmlik

Ərazinin rekultivasiyasının məqsədi müxtəlif işləri (mühəndis, dağ-texniki, meliorasiya, kənd təsərrüfatı, meşəçilik və b.) kompleks şəkildə yerinə yetirərək sənaye tərəfindən pozulmuş torpaqları sağlamlaşdırıb müxtəlif istifadə növlərinə qaytarmaq, onların yerində daha məhsuldar və səmərəli təşkil olunmuş mədəni – antropogen landşaftların elementlərini yaratmaq, son nəticədə texnogen landşaftları optimallaşdıraraq ətraf mühit şəraitini yaxşılaşdırmaqdan ibarətdir.

Sənaye fəaliyyəti tərəfindən pozulmuş landşaftın rekultivasiyasının istiqaməti və metodları pozulmanın xarakterindən, regionun inkişaf vəziyyəti və perspektivindən, rekultivasiyanın həmin region üçün iqtisadi və sosial əhəmiyyətindən, fiziki-coğrafi xüsusiyyətindən asılıdır. Odur ki, müxtəlif ölkələrdə, hətta bir ölkənin müxtəlif regionlarında rekultivasiya işləri oranın spesifik xüsusiyyətlərinə uyğun aparılmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. 1.Abbasqulu Ağa Bakıxanov. «Gülüstani-İrəm», V fəsil (əlavə). Qarabağnamələr. İkinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.360-397.
2. 2.Abdullayev M.İ. Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti //Azərbaycan tarixinin çağdaş problemləri məcmuəsi, Bakı, 2000, s.37-53.
3. 3.Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, Adiloğlu, 2005, 232 s.
4. 4.Ağamalı F.R. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, Azərbaycan Ensiklopediyası, 1999, 302 s.
5. 5.Ağamalı Y.F. Qarabağ xanlığının qonşu xanlıqlar və digər dövlətlərlə münasibətləri (namizədlik dissertasiyası). Bakı, 2002.
6. 6.Axundov N. Qarabağ salnamələri. Bakı, Yazıçı, 1989, 232s.
7. 7.H.Q.Aslanov, S.A.Səfərli. «Azərbaycanın neftlə çirklənmiş torpaqları, onların rekultivasiyası və mənimsənilməsi» – Elm, 2008,190 səh.

# İDMANÇILARIN UĞUR QAZANMASINDA PSİXOLOJİ HAZIRLIĞIN ƏSAS İSTİQAMƏTLƏRİ

**Yusifova Nigar**
***BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının doktorantı,***
***prof. Kamilə Ramız qızı Əliyeva***
**gnigar_94@hotmail.com**

**Açar sözlər:** idman, gimnastika, emosional tənzimetmə, yarış, ideomotor uyğunlaşma, psixoloji, qabiliyyət.

**Ключевые слова:** спорт, гимнастика, эмоциональная регуляция, скачки, идеомоторная адаптация, психологические, способности.

**Key words:** sports, gymnastics, emotional regulation, horse racing, ideomotor adaptation, psychological, abilities.

Müasir dövrün tələblərini nəzərə alaraq digər sahələr kimi idmanda və idman məşqlərində yeni inkişafa və tərəqqiyə böyük ehtiyac duyulur. Xüsusilə də olimpiya idman növlərinə marağın yüksək olduğunu nəzərə aldıqda bu daha da vacib bir məsələ kimi ön plana çıxır. Belə idman növlərindən biridə gimnastika hesab olunur. Bu gün ölkəmizdə gimnastika idman növünün yüksək inkişafını və gənclərin marağını nəzərə alsaq, bu növdə məşqlərə daha da ciddi formada yanaşmaq tələb edilir. Lakin məşqlərdə və yarışlarda idmançılarımızın yüksək nəticələr əldə etməsinə təkçə fiziki, texniki və taktiki baxımdan hazırlıqlı olmaları kifayət etmir. Yüksək zirvələri fəth etmək üçün bunlarla yanaşı idmançıların psixoloji hazırlıqlarının yüksəldilməsi və inkişafina böyük ehtiyac duyulur və bu istiqamətdə psixoloji işin aparılması mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, bir sıra tədqiqatçılar idmançıların psixoloji hazırlığının formalaşmasında iki mərhələ fərqləndirir.

1. Ümumi psixoloji hazırlıq
2. Xüsusi psixoloji hazırlıq

Ümumi psixoloji hazırlığın məzmunu idmançıların məşqdə uğur qazanmasına imkan verəcək keyfiyyətləri inkişaf etdirməyə yönəlmişdir. Ümumi psixoloji hazırlıq məşq prosesində həyata keçirilir. O, taktiki, texniki hazırlıqla bir yerdə aparılır. Lakin eyni zamanda idmandan kənar fəaliyyət prosesində də həyata keçirilə bilər. Bu o zaman özünü göstərir ki, gənc idmançı müstəqil şəkildə və ya kiminsə köməyi ilə öz psixi proseslərini, şəxsiyyət keyfiyyətlərini yaxşılaşdırmaq üçün müəyyən tapşırıqlardan istifadə edir.

Ümumi psixoloji hazırlığın tərkibinə aşağıdakıları aid etmək mümkündür.

1. Mühüm psixoloji funksiyaların və keyfiyyətlərin inkişafı: diqqət, təsəvvür, duyğu, təfəkkür, diqqət, təxəyyül;

2. Vacib peşəkar qabiliyyətlərin inkişafı: Hərəkətlərin koordinasiyası, emosionalıq, özünütəhlil qabliyyəti;

3. Mühüm mənəvi-əxlaqi və iradi keyfiyyətlərin inkişafı: gimnastikaya məhəbbət, məqsədəyönəlişlık, nizam-intizam, müstəqillik, inadkarlıq;

4. Psixi vəziyyətini tənzim etmək, çıxışdan əvvəl diqqətini toplamaq, çıxış zamanı öz gücünü səfərbər etmək, xoşagəlməz situasiyalara qarşı dayana bilmək bacarığını inkişaf etdirmək;

5. Gimnastik hərəkətlərin effektiv yerinə yetirilməsi, intellektual, iradi və motivasion hazırlıq və təlim-tərbiyə üçün lazım olan psixoloji funksiyaların və keyfiyyətlərin inkişafı bütün pedoqoji prosesin ayrılmaz hisəsidir və gimnastların bütün hazırlığı dövründə həyata keçirilir [2, 35].

Xüsusi psixoloji hazırlıq isə başlıca olaraq idmançılarda konkret yarışda iştirakına imkan verən psixoloji hazırlığın formalaşdırılmasına istiqamətlənmişdir.

Bu zaman hazırlıq prosesində xüsusi tapşırıqlar həll edilir. Xüsusi psixi hazırlıq konkret yarışlara hazırlaşmaq və ya ayrıca bir tapşırığın yerinə yetirilməsi ilə bağlı olmaqla özü də iki hissəyə bölünür.

Konkret yarışlara psixoloji hazırlıq özündə aşağıdakıları ehtiva edir.

1. Hər bir gimnast üçün qarşıdakı həll edilməsi vacib olan xüsusi tapşırıqların qoyulması;

2. Gələcək rəqiblərinin rəqabətinin miqyası, yarışların keçirilməsinin yeri və şərtləri, o, cümlədən iştirakçılar haqqında ətraflı məlumatın əldə eilməsi;

3. Gimnastlar arasında yarışda iştirak etmək üçün motivin yaradılması;

4. Gimnastlarda öz imkanlarına və güçünə inam formalaşdırmaq və qarşıdakı yarışlarda qoyulan hədəflərə çatmaq. Gimnastlarda özünəinam hissi idmançı tərəfindən “lehinə” və “əleyhinə” olan bütün amillərin əsaslı təhlili əsasında formalaşır.

5. Gimnastların mənfi düşüncə və hisslərdən qurtarmaları üçün rəqabət öncəsi emosional vəziyyətlərinə nəzarət edilməsi.

Konkret tapşırığın yerinə yetirilməsinə yönəlmiş psixoloji hazırlıq gimnastların psixoloji hazırlığını tamamlayır. Mürəkkəb bir tapşırığı yerinə yetirmək üçün gimnast bütün imkanlarını səfərbər etməli, öz psixikasının resuslarında səmərəli şəkildə istifadə etməyi bacarmadır.

Qeyd edək ki, psixoloji hazırlığın bütün növləri bir-biri ilə sıx şəkildə bağlıdır və ümumi psixoloji hazırlığının əsasında yaranır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı:
2. Maarif, 2003, 534 s.1. 2. Смирнов Б.Н. Исследование умения преодолевать действие фактора опасности у юных гимнасток // Вопросы психологии спорта. - Л.: ГДОИФК им. П.Ф.Лесгафта, 1975, с.55-62.


# AZƏRBAYCANDA TURİZM SƏNAYESİNDƏ DATA BAZALARDAN İSTİFADƏNİN İSTİQAMƏTLƏRİ


**Zahidli Həbib**

***BDU, magistr***

***Elmi rəhbər: dosent Kərimov Rövşən***



**Açar sözlər:** informasiya komunikasiyaları, big data, verilənlərin bazası, turizmdə İKT, internet reklam.

**Key words:** information communications, big data, database, information communication technologies in tourism (ICT), online advertising.

**Ключевые слова:** информационные коммуникации, большие данные, база данных, Информационно-коммуникационные технологии в туризме (ИКТ), онлайн реклама.


Big Data, verilənlərin potensial dəyərini araşdırmağı və nəhəng verilənlərin saxlanması və təhlili ilə iqtisadi və sosial inkişafa xidmət edir. Sənaye 4.0 İnqilabının meydana gəlməsi əşyaların İnterneti (Internet of Things - IoT), süni intellekt (Sİ), kiber-fiziki sistem (KFS) texnologiyalarının inkişafı ilə baglıdır və onların müxtəlif sahələrə tətbiqi də öz növbəsində verilənlərin müxtəlif mənbəli və formatlı olması potensialını artırır[6].

Onu da qeyd edək ki, digər internet sahələrdə olduğu kimi məhsulun reklamında oniun hüquqi təyinatının qorunması vacib şərtlərdən sayılır. Ölkədə turizm şirkətlərinin internet vasitəsilə reklam xidmətlərindən istifadəsi daha çox getmə turizminə istiqamətlənir. Nəzər alsaq ki, istehlakçılar turizm xidmətlərindən istifadənin və onun haqqında məlumatın alınmasında internetdən daha çox istifadə edirlər.




**Şəkil:1.** Ölkədə fəaliyyət göstərən turizm şirkətlərinin məhsul realizə olunmasının istiqamətləri[2].

Şəkildən göründüyü kimi turizm məhsulların realizə olunmasında turizm şirkətlərinin əsas istiqamət olaraq interneti seçməsi onların beynəlxalq turları daha tez relaziə etməsinə imkan vermişdir. İnternet marketinqin turizmdə payının az olması, məhsulların daha çox onlayn vasitəsilə reklam etməsilə bağlıdır. Gələcəkdə bu xidmətlərdən geniş istifadə olunması ölkənin beynəlxalq imicinin formalaşmasında və turizm məhsulu üzrə brendin yaradılmasına imkan vemiş olardı[4].

Turizm məhsulu üzrə brendin yaradılmasnda İKT texnalogiyasından istifadə olunması imkanları. Turizm operatorları məshul üzrə brendləşmə siyasəti aparması üçün İKT texnologiyalrından geniş sürətdə istifadə edir. Burada məhsulun əsas satış kanalları,internet marketinq riskləri və gözlənilən nəticələri ntəhlili əsas götürülür. Məhsul üzrə infrastruktur amilləri, müştəri kütləsinin müəyyənləşdirlməsi əsas göstərici sayılır. Məhsulun brendləşməsində İKT-dən istifadə etməklə analoqlarının müayisəsi də aparılır.

Bu gün Azərbaycanda bütün infrastruktur layihələrində müasir informasiya texnologiyalarının tətbiqi həyata keçirilir. Gələcəyinə böyük ümidlər bəslənilən və xeyli sərməyələr yatırılan turizm sektorunda da müasir informasiya-kommunikasiya texnologiyalarından (İKT) səmərəli istifadəyə ehtiyac var[5].

Qeyd edək ki, ölkəmizdə əsasən yay və qış turizmi sektorunda inkişaf gözə çarpır və dövlət səviyyəsində bu sahənin inkişafına daha çox diqqət göstərilir. Yerli turizm şirkətləri və turistləri qəbul edən məkanlar artıq öz internet resurslarını yaratmaqla beynəlxalq "Hoteltoweb" online rezervasiya və satış texnologiyaları sisteminə qoşulublar. Bu da dünyanın istənilən nöqtəsindən sifariş almaq imkanını yaradır.

Ölkədə İKT texnologiyalarının geniş tətbiq sahəsi sosial şəbəkələr, internet vasitəsilə çıxışların təmin olunmasından ibarətdir. Bu da imkan verir ki, məhsulun müştətilərə catdırılması daha asan və izafi xərclər olmadan başa gəlsin. “Business-to-business” beynəlxalq praktikada uğurlu istifadə olunan formasından turizm biznesində geniş istifadə edə bilər. Ölkədə fəsliyyət göstərən turizm şirkətlərində əməliyyatların və məhsul satışının internet üzrərindən aparılması praktikada geniş yayılmışdır[41].

Ölkədə turizm subyektlərində tətbiq olunan İKT şəbəkəsinin köməyi ilə əldə oluna biləcək imkanları aşağıdakı kimi təsnifləndirmək olar[3]:

- Xidmətin daha ucuz başa gəlməsi üçün şəbəkənin yaradılmasının və onun imkanlarından yayarlamaq ;
- Geniş əhatəli əməkdaşların internet və sosial şəbəkələr üzrindən informasiya ilə təmin olunmasının sadəliyi;
- Qlobal şəbəkədə informasiya resurslarının, proqram təminatının və sosial medianın imkanlarından birgə istifadə oluna bilməsi imkanı;
- Portal və linklər vasitəsilə geniş geniş zolaqlı internetə qoşula bilməsi üçün hazır olması;
- Mövcud qlobal və lokal şəbəkələrlə geniş əlaqənin yaradıla bilməsi və s.

Azərbaycanda turizm sənayesində inovativ texnolojiyalardan istifadənin istiqamətləri və proqnozlaşdırlması onların fəaliyyətində tətbiq olunan metodlarla birbaşa bağlıdır. Buna görə də inovativ proqnozlaşdırma daha çox elektron informasiya vasitələrindən istifadəni özündə əks etdirir.

Azərbaycanın turizm sektorunda "Robi Guide - elektron bələdçi" adlı maraqlı layihəyə start verilir. Belə ki, ölkəyə gələn turistlərin artıq bələdçiyə pul ödəməsinə ehtiyac yoxdur. Turist (və ya yerli əhali) proqramı mobil telefona yükləyərək şəhərə çıxdığı zaman istəyindən asılı olaraq, özü axtarıb filtrləyib istiqamət seçə bilər. "Robie Guide" daxili, eləcə də qlobal bazarda turizm sahəsində yeni tendensiyaları özündə ehtiva edir.

"Robie Guide" Bakını və daha sonra bütöv Azərbaycanı əhatə edəcək. Bütün tarixi abidələr, binalar, restoranlar, əyləncə mərkəzləri, ofislər və s. barədə ətraflı məlumatı səsli (audio) və yazılı şəkildə Azərbaycan, rus və ingilis dillərində istifadəçiyə təqdim edəcək. Bundan əlavə, istifadəçilər xüsusi proqram vasitəsilə ətrafda olan əyləncə və istirahət mərkəzləri, otellər, ofislər, tarixi abidələr, restoranlar, menyular, onların qiymətləri və s. barəsində məlumatlar da əldə edəcəklər[6].

Layihə çərçivəsində ilk olaraq, "Android" əməliyyat sistemi istifadəçiləri üçün mobil tətbiq hazırlanıb. Daha sonra "iOS" və "Windows Phone" istifadəçiləri üçün də xüsusi proqramların yazılması nəzərdə tutulub. Proqram "Microsoft" sistemi üzərində, "Google Map" və e-gov API-ləri üzərindən də istifadə edilir.

İKT-nin sürətli inkişafı kommunikasiya vasitələrinin çoxalmasına, yeni informasiya resurslarının yaranmasına, informasiyaya əlçatanlığın asanlaşmasına və s. səbəb olmuşdur. Azərbaycanda turizm sənayesində böyük həcmli verilənlərin analizi üçün ənənəvi texnologiyaların tətbiqi əlverişli deyil. Bu da yeni texnologiyaların inkişafı tələbini meydana gətirir. O, faydaları ilə yanaşı artan inkişafı fonunda informasiya təhlükəsizliyi problemlərini də ortaya çıxarır[6].

Bulud və böyük verilənlər (Cloud and Big Data) Böyük məlumatlardan istifadə olunması ölkədə fəaliyyət göstərən yüksək kateqoriyalı otellərdə daha yaxşı nəticə verə bilir. Buna səbəb ağıllı alqoritmlərdən istifadə edərək strukturlaşdırılmış və strukturlaşdırılmamış verilənlərin geniş şəkildə toplanması, emal edilməsi və analiz edilməsidir. Yüksək kateqoriyalı otellərimizdə istifadə olunan digər vacib bir texnologiya açıq sistemlərdə çox böyük həcmli verilənləri idarə etməyə və real vaxt rejimində əlaqəni təmin etməyə imkan verən bulud hesablamalarıdır. Bulud hesablamalar dünyanın istənilən yerindən istənilən vaxtda məlumat əldə etmək imkanı verir, bu da rahatlığı artırır [5].

Ölkədə fəaliyyət göstərən yüksək kateqoriyalı otellərdə Big Data tətbiqi sürətli, effektiv və dəqiq informasiyalrın təmin olunmasına şərait yaradır. Big Data və Buludda olan otellərdə imkan verir:

- Məlumatların şifrələnməsi;
- Fiziki həssaslıq;
- Qeyri-müəyyən verilənlərin paylaşımı və mübadiləsi siyasəti;
- Böyük ölçülü verilənlərin toplanması.

Ölkədə fəaliyyət səyahət agentlikləri və digər broker şirkətlərdə isə İKT daha çox reklam, müştərilərlə əlaqədə məlumatların paylanması kanallarından istifadə olunur. Hımçinin sosial şəbəkələrdə paylanan informasiyanın bütün sistem üzərində görünməsi, yeniliklərin izlənilməsi üstünlük təşkil edir. Eyni zamanda, beynəlxalq aqriqatorlarda yönələn reklam və informasiyalarda qeyd olunan big data sistemlərindən istifadə olunur.

Səyahət agentlikləri maliyyə-idarəetmə sistemlərində qeyd olunan big data üzərində qurur. Bu yerləşmə müəssisələrinə ödənişlər, mövcud imkanlardan yararlanma, əlaqənin qurlması və informasiyaların saxlanılmasında big data sistemindən istifadə edirlər.

## ƏDƏBİYYAT SİYAHISI:


1. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”. “Azərbaycan” qəzeti. Bakı, 17 dekabr. 2016-cı il.
2. “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnolojiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”. “Azərbaycan” qəzeti. Bakı, 6 dekabr. 2016-cı il.
3. ATIB Azərbaycanda İKT tam hesabat Bakı 2012. 78 s.
4. “Elektron Azərbaycan” Dövlət Proqramları (2005-2008-ci illər və 2010-2012-ci illər), (elektron resurs) Bakı, 2012

5. Mahmudov R.Ş. Big data bazaların bəzi xüsuiyyətləri və problemləri// İnformasiya cəmiyyəti problemləri, Bakı 2021,1№1, 77–87
6. Hana M.A., Axente M., Joseph M. Building the Data Economies of the Future. Tomorrow's Data Economies Shaped by the Youth of Today, World Government Summit, 2019, 34 p.

## ÖRTÜKLÜ ƏKİNLƏRİN MƏHSUL İSTEHSALINDA ROLU

**Zamanov Şəmistan Barat oğlu**
***Azərbaycan Dövlət Aqrar Universiteti, Magistrant***
***Rəhbər: Dosent, a.e.f.d. Allahverdiyev Elxan Rəcəf oğlu***
***elxan_recebli@mail.ru***

**Açar sözlər:** örtüklü əkin, arpa, yonca, yem, məhsuldarlıq, keyfiyyət.

**Giriş:** Müasir dövrdə, qlobal miqyasda sənayenin sürətlə inkişafı və kənd təsərrüfatının intensivləşdirilməsi şəraitində təbii komplekslərin, ayrı-ayrı ekosistemlərin, o cümlədən biosferin və ekosistemlərin vacib komponenti olan torpaq örtüyünün, onun atribut xassəsi olan münbitliyin qorunması bütün dünyada olduğu kimi, respublukamız şəraitində də aktuallıq kəsb edir. Ümumiyyətlə əkinçilik mədəniyyətində torpağa qulluq ən vacib və ümdə məsələdir. Əgər torpağa düzgün qulluq edilməzsə onda olan qida maddələri azalar, eyni zamanda məhsuldarlıq da aşağı düşər.

Örtüklü səpin keçirərkən torpağın hazırlanması, səpin və ən başlıcası səpindən sonra suvarma həm taxıl, həm də yonca üçün eyni vaxtda keçirilir. Beləliklə yoncanın örtükaltı bitki kimi səpilməsi təşkilatı təsərrüfatı cəhətdən örtüksüz səpindən üstün olur. Örtükaltı bitki kimi səpilmiş yoncanın məhsuldarlığına gəldikdə AETPİ-nin çoxillik təcrübələrinə əsasən bunun müsbət nəticələr verməsi müəyyən edilmişdir.

Örtük altında əkilmiş yoncanın quru ot məhsulu birinci ildə hər hektardan 50-60 sentnerdən artıq olmur, örtüksüz əkində isə 100-130 sentnerə çatır. Lakin bu fərq hər hektardan alınan 25-30 sentner arpa və ya buğda ilə əvəz edilir. Örtük altında səpilən yoncanın yaz əkini də yüksək nəticə verir, bu vaxt yonca fevral ayından gec olmayaraq göyərən əkinlərdə səpilir [1].

Yoncanın əsas mühüm müsbət cəhəti ondadır ki, o şorlaşmış torpaqlara fitomeliorativ təsir edir.Torpağı çox kölgələyib, suyu çox buxarlandıraraq yeraltı suların yuxarı qatlara qalxması gücünü azaldır. Məlumdur ki, tez-tez suvarmalarda torpağın üst qatında olan duzlar yuxarı qatlardan yuyularaq daha dərin qatlara aparılır. Yoncanın belə təsiri nəticəsində yonca əkinindən sonra torpaqların üst qatında zərərli duzların miqdarı uzun müddət pambıq əkilmiş torpaqlara nisbətən həmişə xeyli az olur.Torpaqda yonca köklərinin və kövşən qalıqlarının bol toplanması torpaq strukturunun yaxşılaşmasına, rütubət tutumunun artmasına, kipliyin azalmasına, məsaməliyin artmasına və beləliklə də pambığın məhsuldarlığının xeyli yüksəlməsinə səbəb olur. Bu hal yoncanın şumlanmasından sonra ilk iki ildə daha çox müşahidə olunur, pambığın becərilməsinin 3-4-cü illərində isə yoncanın bu faydalı təsiri tədricən zəifləməyə başlayır.

Yoncanın üzvi maddəsi (köklər, kövşən qalıqları) anaerob (oksigensiz yaşayan) bakteriyaların fəaliyyəti nəticəsində çürüntüyə çevrilir. Bu çürüntü kəltənciklərdə olan torpaq hissəciklərini yapışdırır. Bundan başqa, yoncanın kökündə çox miqdardakalsium sərbəst hala keçir və torpağın kəltənciklərində olan çürüntünün hissəcikləri tərəfindən udulur. Bu udulmuş kalsium torpaq kəltənciklərini yapışdıraraq onların suya qarşı davamlığını artırır ki, bunun da nəticəsində su dəydikdə torpaq tez yapışır.

Struktursuz torpaqlar bu xassəyə malik deyildir. Bunlar suyun təsiri altında tez yapışırgüclü qaysaq bağlayır ki, bu da toxumun bir vaxtda cücərib boy artmasına mənfi təsir göstərir. Buna misal olaraq, arxakənarı-irriqasion gətirmə torpaqlar müstəsna olmaqla, Şirvan bölgəsinin torpaqlarını göstərmək olar [2: 3].

Aparılmış tədqiqatlar sübut edir ki, örtüklü əkinlərdə bitkilərin düzgün seçilməsi, kompleks aqrotexniki tədbirlərin lazımı qaydada həyata keçirilməsi ümumi məhsuldarlığın artmasına müsbət təsir edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq tədqiqat işində üzvi gübrə normalarının örtüklü əkin məqsədilə qarışıq səpilən arpa ilə yoncanın yaşıl kütlə məhsuldarlığına təsirini öyrənməyi qarşımıza məqsəd qoyduq. Təcrübə zamanı variantlar və təkrarlardan ayrı-ayrılıqda hər biçimdə yaşıl kütlə məhsulu yığılaraq çəkilib hektardan məhsuldarlıq təyin edilmiş və 1 saylı cədvəldə qeyd olunmuşdur. Alınan nəticələrin statistik işlənməsi Dospexov B.A.-ya görə dispersiya təhlili metodu ilə həyata keçirilmişdir [4].

Metodikaya uyğun olaraq birinci variantda arpanın təmiz səpini, yəni heç bir qarışıq səpin aparılmamışdır. Ancaq ikinci variantda arpa ilə yonca qarışıq səpilmiş və lazımı aqrotexniki tədbirlər aparılış ancaq üzvi gübrə tətbiq olunmamışdır.Digər variantlarda bundan fərqli olaraq müxtəlif normada üzvi gübrə tətbiq olunmuşdur. Arpa biçildikdən dərhal sonra küləş qalıqları götürülmüş və suvarma aparılmışdır. Hər suvarmadan sonra yonca biçilmişdir. Ona görədə bütün variantlarda eyni olaraq 4 dəfə (cəmi 3800 m$^3$/ha) suvarma aparılmışdır.

**Üzvi gübrə normalarının örtüklü əkində arpa biçildikdən sonra yoncanın yaşıl kütlə məhsuldarlığına təsiri. (2020)**

**Cədvəl**

| s/s | Variantlar | Məhsuldarlıq s/ha | | | | Orta məhsul darlıq s/ha | Artım | |
|---|---|---|---|---|---|---|---|---|
| | | I biçim | II biçim | III biçim | IV biçim | | S/ha | %-lə |
| | 4 dəfə suvarma 3800 m$^3$/ha | | | | | | | |
| I | 1. Arpa təmiz əkilmiş sahə | - | - | - | - | - | - | - |
| II | 2. Arpa-yonca örtüklü əkilmiş sahə | 115 | 112 | 110 | 107 | 444 | - | - |
| III | 3. Arpa-yonca örtüklü əkilmiş və hektara 10t peyin verilmişdir | 136 | 130 | 128 | 124 | 518 | 74 | 16,66 |
| IV | 4. Arpa-yonca örtüklü əkilmiş və hektara 15t peyin verilmişdir | 157 | 151 | 148 | 146 | 602 | 158 | 35,58 |
| V | 5. Arpa-yonca örtüklü əkilmiş və hektara 20t peyin verilmişdir | 159 | 151 | 149 | 147 | 606 | 162 | 37,83 |

Cədvəldən göründüyü kimi ikinci variantda örtüklü əkində arpa biçildikdən sonra yonca bitkisindən 4 biçim aparılmışdır ki, burada orta məhsuldarlıq 444 s/ha olmuşdur. Arpa-yonca örtüklü əkilmiş və hektara 10t peyin verilmiş variantda üzvi gübrələrin təsirindən məhsuldarlıq nisbətən artmış və 518 s/ha təşkil etmişdir. Arpa-yonca örtüklü əkilmiş və hektara 15t peyin verilmiş variantda isə bundan fərqli olaraq məhsuldarlıq 602 s/ha olmuşdur ki, bu da nəzarətə nisbətən 158 s/ha və ya 35,58% artım deməkdir. Arpa-yonca örtüklü əkilmiş və hektara 20t peyin verilmiş variantda isə orta məhsuldarlıq 606 s/ha, yəni gübrəsiz-nəzarət variantına nisbətən 162 s/ha və ya 37,83% artım təşkil etmişdir.

Cədvəlin təhlilindən mlum olur ki, ən yüksək məhsuldarlıq arpa-yonca örtüklü əkilmiş və hektara 20t peyin verilmiş variantda əldə olunmuşdur. Ancaq arpa-yonca örtüklü əkilmiş və hektara 15t peyin verilmiş variantla müqayisədə məhsuldarlıq arasında fərq çox cüzi olduğundan iqtisadi baxımdan əlverişli hesab olunmamışdır. Buradan məlum olur ki, arpa-yonca örtüklü əkilmiş və hektara 15t peyin verilmiş variant digər variantlardan həm aqronomik, həmdə iqtisadi baxımdan ən əlverişli variant hesab olunmuşdur.

## ƏDƏBİYAT SİYAHISI:


1. Allahverdiyev E.R., S.F.Əliyeva. Arpa ilə yoncanın qarışıq səpinlərində gübrə normalarının və suvarmaların sayının məhsuldarlığa və yemin keyfiyyət göstəricilərinə təsiri. ADAU-nun elmi əsərləri №3 Gəncə 2017 Səh 7-9

2. Аллахвердиев Э. Р. Влияние органических и минеральных удобрений на накопление азота, фосфора и калия в надземной части и люцерны при покрытом посеве. Журнал Бюллетень науки и практики. 2020. Т. 6. №2.c151-157

3. Аллахвердиев Э. Р. Халилов С. А. Рациональное использование земельных и агроклиматических ресурсов. Российская наука в современном мире XXIV Международная научно-практическая конференция Москва 31 августа 2019 Научно-издательский центр Актуальность.РФ «СБОРНИК СТАТЕЙ ст 3-5

4. Доспехов, Б.А. Методика полевого опыта / Б.А. Доспехов. – М.: Агропромиздат, 1985. – 351 с.


# ŞİMALİ AZƏRBAYCANIN XX ƏSR TARİXİNDƏ PARLAMENTARİZM


**Zeynalova Afaq Bilal qızı**

***A.A.Bakıxanov adına Tarix İnstitutunun sabiq doktorantı***



## XÜLASƏ

Məqalədə çar Rusiyası imperiyasının işğalı altında olan Şimali Azərbaycanda XX əsrin əvvəllərində öz dövlətçiliyini bərpa etmək üçün Azərbaycan xalqının apardığı mübarizə və Azərbaycan Xalq Cumhuriyyətinin yaranması və fəaliyyəti haqqında məlumatlar verilmişdir. Həmçinin Sovet İttifaqı dövrü Azərbaycan SSRİ-nin fəaliyyəti barədə məlumatlar da oxucuların diqqətinə çatdırılmışdır. Bununla yanaşı XX əsrin 90-cı illərində Şimali Azərbaycanda Azərbaycan xalqının yenidən müstəqillik uğrunda apardığı mübarizə, dövlətçiliyimizin bərpası ilə nəticələnən Azərbaycan Respublikasının yaranması və Milli Məclisin fəaliyyəti haqqında məlumatlar da işıqlandırılmışdır.



**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Parlament, Azərbaycan SSRİ Ali Soveti, Azərbaycan Respublukası, Milli Məclis



## SUMMARY

The article provides with information on the struggle of the Azerbaijani people in the early 20th centuryfor the restoration of its statehood in the Northern Azerbaijan being under occupation of tsarist Russian Empireand the establishmentand activity of the Azerbaijan People's Republic. Also, readers were informed about the activities of the AzerbaijanSSR during the Soviet era. At the same time, the information about the struggle of the Azerbaijani people for the independence in the North Azerbaijan in the 90s of the XX century,the formation of the Azerbaijan Republic which resulted in the restoration of our statehoodand the work of the Milli Majlis were highlighted.



**Key words:** Azerbaijan People's Republic, Parliament, Supreme Soviet of the Azerbaijan SSR, Azerbaijan Republic, MilliMajlis

**РЕЗЮМЕ**

В статье приводятся сведения о борьбе азербайджанского народа, об учреждении и деятельности Азербайджанской Народной Республики по восстановлению ее государственности на севере Азербайджана в начале XX века. Также читатели были проинформированы Азербайджанской ССР в советское время. В то же время была освещена информация об образовании Азербайджанской Республики и деятельности Милли Меджлиса, которая привела к борьбе за независимость азербайджанского народа в Северном Азербайджане в 90-х годах 20 века и восстановлению нашей государственности.

**Ключевые слова:** Азербайджанская Народная (Демократическая) Республика, Парламент, Азербайджанский ССР, Азербайджанская Республика, Милли Меджлис

Tarixi Azərbaycan torpaqlarının XIX əsrin I yarısında çar Rusiyası imperiyası və Qacarlar İranı dövləti arasında bölüşdürülməsi nəticəsində Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildi, Cənubi Azərbaycan isə Qacarlar İranı dövlətinin idarəçiliyində qaldı.

XX əsrin əvvəllərində böyük dövlətlərin dünyanın yenidən bölüşdürülməsi uğrunda apardıqları mübarizə I Dünya müharibəsinə gətirib çıxardı. Bu dövlətlər dünyanın yenidən bölüşdürmək və yeni müstəmləkələr əldə etmək üçün yeni planlar qurur, yeni müharibələrə hazırlıq görürdülər. Belə bir dövürdə Avropa dövlətləri ilə Şərq ölkələri arasında körpü rolunu oynayan Azərbaycanın dünyanın mühüm ticarət yollarının kəsişməsində yerləşməsi, yerüstü və yeraltı sərvətləri ilə zənginliyi böyük dövlətlərin bu əraziyə olan geosiyasi və iqtisadi marağını daha da artırırdı. Özündən asılı olmayaraq Rusiya imperiyasının işğalında olan Şimali Azərbaycan da böyük dövlətlər tərəfindən başladılan I Dünya müharibəsinə cəlb olunmuşdu.

Bu müharıbə 1917-ci ilin fevralında çar Rusiyası imperiyasında inqilabın baş verməsinə və onun parçalanmasına gətirib çıxardı. Yaranmış siyasi şərait

Azərbaycan xalqının öz milli dövlətçilik ənənələrini dirçəltməsi üçün zəmin yaratdı. Lakin Bakıda hakimiyyəti ələ keçirən S.Şaumyanın daşnak-bolşevik hökuməti Azərbaycan xalqına divan tutaraq soyqırım həyata keçirdi. Amma bu da azərbaycanlıların müqavimətini qıra bilmədi. Bolşevik hökumətinə qarşı mübarizə aparan Azərbaycan xalqı 1918-ci il mayın 28-də Məmməd Əmin Rəsulzadənin başçılığı ilə Şimali Azərbaycanda Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətini yaratdı (9, 11-14; 12, 74).

Bu, uzun illər çar Rusiyasının işğalı altında olan Şimali Azərbaycanda demokratik dövlət quruculuğunun ilk mərhələsi olmaqla yanaşı həm də bütün Şərqdə ilk demokratik Respublika olan Azərbaycan Xalq Cumhuriyyətinın və onun yaratdığı parlamentin adı ilə bağlı olmuşdur.

Azərbaycan parlamenti çox çətin və mürəkkəb bir şəraitdə yaranmışdır. Belə ki, Cənubi Qafqazdan çar Rusiyası Müəssislər Məclisinə seçilmiş deputatlar 1918-ci il fevralın 23-də Tiflisdə toplaşıb, Cənubi Qafqazda ali hakimiyyət orqanı olan Cənubi Qafqaz Seymini yaratdılar. Seymdə təmsil olunan hər üç millətin (azərbaycan, gürcü, erməni) nümayəndələri arasında daxili ziddiyyətlərin olması bir sıra məsələlərin həllində ümumi məxrəcə gəlməyə imkan vermədi.

Batum müqaviləsindən sonra Almaniya ilə Osmanlı Türkiyə arasında yaranmış ixtilaf gürcülərlə almanların anlaşması ilə nəticələndi. 1918-ci il mayın 25-də Zaqafqaziya Seyminin son iclası keçirildi. Mayın 26-da Gürcüstan Cənubi Qafqaz Seymindən çıxaraq öz istiqlaliyyətini elan etdi (21, 39). Mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan Xalq Cumhuriyyəti hökumətini yaratmaq məqsədi ilə Seymin müsəlman nümayəndələri Tiflisdə toplanaraq Milli Şuranı elan etdilər. Gizli səsvermə yolu ilə M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi.

Dörd partiyanı təmsil edən 44 nəfər azərbaycanlı deputat 1918-ci il mayın 28-də Milli Şurada birləşərək yeni dövlətin - Azərbaycan Xalq Cumhuriyyətinin İstiqlal Bəyannaməsi ilə çıxış etdilər. (23, 28; 22, 10; 2, 18).

Bununla da Azərbaycan xalqı öz milli dövlətçiliyini şimali Azərbaycan torpaqlarında bərpa etdi və Azərbaycan Xaq Cumhuriyyəti müstəqil dövlət olaraq fəaliyyə başladı. 1918-ci il iyunun 16-da Azərbaycan Xaq Cumhuriyyəti hökuməti Tiblisdən Gəncəyə köçürüldü.

Lakin ölkədə və beynəlxalq aləmdə yaranmış hərbi-siyasi vəziyyətlə əlaqədar olaraq 1918-ci il iyunun 17-də Gəncə şəhərində Osmanlı dövlətinin Qafqaz ordusunun nümayəndəsi Nuru paşa ilə aparılan danışıqlar nəticə vermədiyi üçün M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın yeddinci iclasında onun buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin səlahiyyətlərinin müvəqqəti hökumətə verilməsi haqqında iki mühüm qətnamə qəbul edildi.

Yeni təşkil ediləcək Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili və həm də xarici siyasət sahəsində Şimali Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq Azərbaycan Xaq Cumhuriyyəti Milli Şurası bütün hakimiyyəti Fətəli Xan Xoyskinin sədrliyi ilə yaradılmış hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin.

İkinci sənəd birbaşa müvəqqəti hökumətin hüquq və səlahiyyətlərinə aid idi. Sənəddə qeyd olunurdu ki, Azərbaycan Xaq Cumhuriyyəti hökuməti Azərbaycanın dövlət istiqlaliyyətini və mövcud siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunların dəyişdirilməsinə hökumətə səlahiyyət verilmir. Azərbaycan Xaq Cumhuriyyəti hökuməti altı aydan gec olmayaraq Müəssislər məclisi çağırmalıdır. Qalan məsələlərdə hökumətə bütün hüquqlardan istifadə üçün səlahiyyət verilirdi (6).

Bu zaman Azərbaycan Xaq Cumhuriyyəti hökumətinin qarşısında duran ən vacib məsələlərdən biri paytaxt Bakı şəhərini bolşevik-daşnaq işğalından azad etmək idi. Neft Bakısını əldə saxlayan bolşevik-daşnaq birləşmələri Gəncə üzərinə hucum etməyə başladılar. Azərbaycan Xaq Cumhuriyyəti hökuməti 4 iyun 1918-ci il müqaviləsinə əsaslanaraq Osmanlı dövlətindən hərbi yardım istədi. Osmanlı dövləti təcili olaraq Azərbaycan Xaq Cumhuriyyəti hökumətinə hərbi yardım göndərdi. Azərbaycan Xalq Cumhuriyyətinin və Osmanlı dövlətinin qoşunları iyunun 27-də Göyçay istiqamətində əks hücuma keçdi (23, 30-33) və sentyabrda 15-də Bakı bolşevik-daşnaq işğalından azad edildi. 1918-ci il noyabrın 19-da qəbul edilmiş qanunla Milli Şura əsasında müvəqqəti ali qanunverici orqan - parlamentin təşkili haqqında qərar Azərbaycan Xaq Cumhuriyyəti parlamentin yaranmasının əsasını qoydu. 120 nəfərdən ibarət təşkil edilmiş parlament birpalatalı idi (6).

Azərbaycan Xaq Cumhuriyyəti Milli Şurasının 19 noyabr 1918-ci il tarixli iclasının qərarına əsasən hələ 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman nümayəndələri birbaşa yeni yaradılacaq parlamentin tərkibinə daxil edilirdi. Müsəlmanlardan qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli idi. Yeni Parlamentin formalaşdırılması 1918-ci il dekabrın 3-də başa çatdırılmalı idi. Beləliklə, hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar 80, ermənilər 21, ruslar 10, almanlar 1, yəhudilər 1 nümayəndə olmaqla Azərbaycan Xaq Cumhuriyyəti Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alınır. Bu məslə ilə bağlı Milli Şuranın qəbul etdiyi qanunda göstərilirdi ki, azlıqda qalan millətlərin bütün nümayəndələri olacaq (13, 10).

Azərbaycan Xaq Cumhuriyyəti parlamentinin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları bu ərəfədə Bakıya gəlmiş Böyük Britaniya generalı Tomsondan istifadə edərək, Azərbaycan Xaq Cumhuriyyəti parlamentinin açılmasına hər vasitə ilə mane olmağa çalışırdılar. General Tomsonla aparılan danışıqlarla əlaqədar və qəzalardan bütün deputatların vaxtında Bakıya gələ bilməməsini nəzərə alaraq parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirildi. Parlamentin açılışında Azərbaycan Xaq Cumhuriyyəti Milli Şurasının sədri M.Ə.Rəsulzadə böyük təbrik nitqi söylədi. O dedi: “Bizim qaldırdığımız bayrağın üç rəngi: türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur. Bir dəfə yüksələn bayraq bir daha enməz!”. Parlamentin sədri, sədrin müavini və 3 nəfər katibdən ibarət rəhbər orqanları seçildi. Sonra Azərbaycan Xaq Cumhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyski çıxış etdi. O, səlahiyyəti müddətində müvəqqəti hökumətin gördüyü işlər haqqında məlumat verdi və öz hökumətinin istefasının qəbul olunmasını xahiş etdi (20, 7).

Parlamentin ən mütəşəkkil vaxtında - yəni 1919-cu ilin sonlarında onun tərkibinə 11 müxtəlif partiya fraksiyası və qrupunu təmsil edən 96 deputat daxil idi. Deputatların istefa verməsi, geri çağırılması və s. nəticəsində parlamentin, demək olar ki, hər 2-3 aydan bir yeni üzvlərlə təzələnməsi prosesi gedirdi. Parlamentdəki siyasi partiyalar və qurumların qüvvələr nisbəti aşağıdakı kimi bölünmüşdü: «Müsavat» və «bitərəflər» fraksiyası (38 nəfər), partiyasızlar (4 nəfər), müstəqillər (3 nəfər), erməni fraksiyası 5 (nəfər),

«daşnaksütyun» fraksiyası (6 nəfər), azlıqda qalan millətlər fraksiyası (4 nəfər) (10, 25). Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi (18, 77).

Həmin dövrdə Azərbaycan Xaq Cumhuriyyətidə sosial-iqtisadi vəziyyət son dərəcə ağır idi. AXC mövcud olduğu 23 ay ərzində büdcəsiz işləmişdi. «Dövlət büdcəsinin əsas müddəaları haqqında» qanun layihəsi parlamentə yalnız 1920-ci ilin mart ayında verilmiş və məlum səbəblər üzündən onun müzakirəsi yarımçıq qalmışdı.

Parlamentin işində hüquqi dövlət quruculuğunda xarici siyasət məsələləri də mühüm yer tuturdu. Bunun üçün hələ 1918-ci ilin dekabrında ilk iclaslardan birində Azərbaycan parlamentinin Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibi müəyyənləşdirilmişdi. Nümayəndə heyətinə Azərbaycan Xaq Cumhuriyyətinin beynəlxalq aləmdə tanınmasında əvəzsiz xidmətləri olmuş Ə.M.Topçubaşov sədrlik edirdi. Paris sülh konfransında iştirak edən Azərbaycan Xaq Cumhuriyyəti nümayəndələrinin səyi və uğurlu fəaliyyəti nəticəsində 1920-ci il yanvarın 11-də Antanta dövlətləri Azərbaycanın müstəqilliyini de-fakto tanıdı.

Ümumiyyətlə, Azərbaycan Xaq Cumhuriyyəti parlamenti 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirmişdir (1918-ci ildə 6, 1919-cu ildə 106, 1920-ci ildə 32 iclas). Bu iclaslardan 15-i yetərsay olmadığı üçün baş tutmamışdı. İclaslardan ikisi (28 may, 15 sentyabr 1919-cu il) tarixi mahiyyətli olmuş və müvafiq olaraq İstiqlal gününün və Bakının azad edilməsinin 1 illiyinə həsr edilmişdi. Parlamentin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmış, onların 230-u komissiyalarda və plenar iclaslarda müzakirə edildikdən sonra qəbul olunmuşdur. Qanun layihələrindən 82-si maliyyə nazirliyi, 32-si ədliyyə, 24-ü daxili işlər, 19-u xalq maarifı, 12-si torpaq, 10-u sosial təminat, 9-u hərbi nazirlik və s. tərəfindən təqdim edilmişdir. Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu (2, 18).

Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdi (2,18).

Azərbaycan Xaq Cumhuriyyəti parlamenti müvəqqəti ali qanunverici orqan idi. Ölkə qarşısında duran vacib məsələlər Müəssislər məclisində həll olunmalı, gənc milli dövlətin Əsas Qanunu - Konstitusiyası da burada qəbul edilməli idi. Parlamentdə gedən uzun müzakirələrdən sonra 1919-cu il iyulun 21-də Azərbaycan Xaq Cumhuriyyəti Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə qəbul edildi. Əsasnamə 4 fəsil, 116 bənddən ibarət idi (17, 25).

Azərbaycan Xaq Cumhuriyyəti parlamentinin qəbul etdiyi əsasnaməyə görə qadınlar seçki hüququna malik idilər. 4 fəsildən, 116 bənddən ibarət olan bu əsasnaməyə görə, 20 yaşına çatmış respublikanın bütün vətəndaşları Müəssislər Məclisinə seçkilərdə iştirak edə bilərdilər (14, 7).

Bununla da AXC-nin milli hökuməti İstiqlal Bəyannaməsində Şərqdə ilk dəfə olaraq, cinsi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara mülki və siyasi hüquqlar bəxş etdi. Ancaq 1920-ci ilin mart-aprel aylarında Azərbaycanda siyasi vəziyyət son dərəcə ağır idi. Rusiya agentlərinin səyi nəticəsində ölkədə sabitlik pozulmuşdu, Qarabağda və Gəncəbasarda rus işğalçılarının gəlişi üçün hazırlıq görən ermənilərin planlı qiyamları ara vermirdi. Hökumət əsas hərbi qüvvələri onlara qarşı yönəltdiyi üçün Azərbaycanın şimal sərhədləri müdafiəsiz qalmışdı.

1920-ci il aprelin 27-də XI qırmızı ordu hissələrinin Bakıya yaxınlaşdığı bir gündə Azərbaycan parlamenti son iclasını keçirdi. Onlar vətəndaş müharibəsinin və qan tökülməsinin qarşısını almaq üçün müəyyən şərtlər daxilində hökumətdən imtina etməyə razı oldular. Lakin qəbul olunan şərtlər, o cümlədən hökumət və parlament üzvlərinin təqib olunmaması şərti elə ertəsi gün unuduldu. Parlament və hökumət üzvlərinin bir qismi, xüsusən də liderlər və rəhbər vəzifədə çalışanlar qırmızı terrorun qurbanı oldu.

1920-ci il aprelin 28-də Sovet Rusiyasının hərbi hücumu və işğalı ilə Şimali Azərbaycanda yaradılmış Azərbaycan Xalq Cumhuriyyəti süqut etdi və Şimali Azərbaycan yenidən Sovet Rusiyasından asılı vəziyyətə düşdü. 1920-ci il aprelin 28-də Azərbaycan Xaq Cumhuriyyətinin yerində yaradılan Azərbaycan SSRİ Sovet imperiyasının tərkibində 1991-ci ilə qədər məcburi qalmalı oldu (7, 80). XX əsrin 90-cı illərin əvvəllərində Şimali Azərbaycanda azərbaycanlıların Sovet rejiminə qarşı bir neçə dəfə üsyanları baş vermişdi. Bu üsyanlar Sovet ordusu tərəfindən qəddarcasına yatırılmış, üsyançılar və ailələri

vəhşicəsinə qətlə yetirilmiş, bir çox ailə ata-baba yurdundan zorla çıxarılaraq sürgün edilmiş və nəticədə minlərlə azərbaycan türkü bu zorakı rejim tərəfindən repressiyalara məruz qalmışdır (12, 95).

1921-ci il mayın 6-da Azərbaycan SSRİ-nin birinci Sovetlər qurultayının çağırılması ilə Şimali Azərbaycanın sovetləşdirilməsi başa çatdırıldı (12, 84).

1920-ci ildə Azətbaycan SSr Mərkəzi İcrayyə Komitəsi yaradıldı və XX əsrin 40-cı illərinin II yarısında SSRİ Ali Sovetinin "filialı" rolunu oynayan, formal şəkildə qanunvericilik funksiyasını yerinə yetirən, Azərbaycan SSR Ali Soveti təşkil olundu. SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburi idi. Bu qayda 1978-ci il Konstitusiyasının 75-ci maddəsində də göstərilmişdir. 1978-ci il Konstitusiyasına görə deputatların sayı 360 nəfərdən 450 nəfərə çatdırılmışdı (8, 26). SSRİ Ali Soveti tərəfindən qəbul edilmiş qərarları Azərbaycan SSR Ali Soveti məcburi olaraq qəbul etməli idi. Azərbaycan SSR Ali Sovetinin səlahiyyətləri və fəaliyyət dairəsi SSRİ Konstitusiyasına müvafiq olaraq Azərbaycan SSR Konstitusiyası ilə müəyyən edilmişdi. Azərbaycan SSR Ali Sovetinin səlahiyyətinə aid məsələləri qabaqcadan nəzərdən keçirib hazırlamaq üçün, habelə Azərbaycan SSR qanunlarının, Ali Sovetin və onun Rəyasət Heyətinin digər qərarlarının həyata keçirilməsinə kömək etmək, dövlət orqanlarının və təşkilatların fəaliyyətinə nəzarət etmək üçün deputatlardan ibarət daimi komissiyalar yaradılırdı (7, 29). Daimi komissiyalarla yanaşı, Azərbaycan SSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Ali Sovetin Rəyasət Heyətinə, Nazirlər Sovetinə, öz ali dövlət hakimiyyəti orqanları simasında Naxçıvan MSSR-ə, Ali Sovetin deputatlarına, Ali Məhkəməyə, Azərbaycan SSR Prokuroruna məxsus idi. İctimai təşkilatlar da öz respublika orqanları simasında qanunvericilik təşəbbüsü hüququna malik idi (19).

Azərbaycan SSR-nin XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycan xalqının görkəmli dövlət xadimi Heydər Əliyevin strategiyasına uyğun respublikada həyata keçirilən genişmiqyaslı proqramlar müasir milli iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək dövlət müstəqilliyinin təmin olunması üçün zəmin hazırlamışdı (10, 5).

XX əsrin 80-cı illərin ortalarında Sovet İttifaqı dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi. 1985-ci ildə Sovet İttifaqı Mərkəzi Komitəsinin rəhbərliyinə gələn M.S.Qorbaçov verdiyi qərarlarla bu böhranı daha da dərinləşdirdi və Sovet imperiyasının çöküşünə səbəb oldu. Bu dövrdə Qorbaçovun ətrafında olan erməni lobbisinin nümayəndələri də bu səriştəsiz dövlət başçısının yarıtmaz fəaliyyətindən yararlanaraq, ilk öncə Qorbaçovla birləşən ermənilər o dövr Sov.İKP. MK Siyasi Bürosunun üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevə qarşı düşmən mövqe nümayiş etdirərək onu məhv etməyə çalışdılar. Heydər Əliyevin Moskvada rəhbər vəzifədən uzaqlaşdırılmasından bir ay sonra isə qondarma Dağlıq Qarabağ münaqişəsinə SSRİ-nin hakim dairələri səviyyəsində start verildi (12, 106-108).

Məqsədli olaraq 1988-ci il fevralın 28-də Moskvanın və Ermənistanın xüsusi xidmət orqanları Azərbaycan SSRİ-nin Sumqayıt şəhərində əvvəlcədən hazırlanmış plan üzrə təxribatlar törədərək hay-küy salmağa başladılar. Bu hadisələri bəhanə gətirən Ermənistan SSR rəhbərləri orada yaşayan minlərlə azərbaycan türkünü işgəncələrlə öldürdülər və yüz minlərlə azərbaycan türkünü isə öz ata-baba yurdundan zorla deportasiya etdilər. Bu dövrdə azərbaycanlıların qətiyyətli mübarizəsini görən SSRİ rəhbəri M.S.Qorbaçov, yaxın dostu Əbdürrəhman Vəzirovu AKP MK birinci katibi vəzifəsinə gətirdi (12, 110). Bununla M.S.Qorbaçov və onun əlaltıları olan ermənilər Azərbaycan SSRİ-də müticəsinə onlara qul xidməti göstərə bilən bir rəhbərin olmasını təmin edərək öz planlarını həyata keçirməyə başladılar. Sonrakı hadisələr də təsdiq etdi ki, Sovet rəhbərliyinə qul xidməti göstərən bu xəyanatkarın səhvləri Azərbaycan xalqı üçün ağır nəticələrlə başa çatdı. Belə ki, SSRİ rəhbərliyi tərəfindən bilərəkdən yaradılmış qondarma Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Moskvanın açıq surətdə ermənipərəst siyasət yeritməsinə heç bir etiraz etmədi. 1988-ci ilin sonunda Ermənistan SSR-dən deportasiya edilən azərbaycanlıların Dağlıq Qarabağ ərazisində yerləşdirilməsini təmin edə bilmədi, onun əksinə qarşısını aldı, xalqın haqlı narazılığını görə-görə xalqın yanında yer almadı və s. Hansı ki, o dövrdə Ermənistan SSR-nin rəhbərliyinin dəstəyi ilə "Qarabağ hərəkatı", "Qarabağ komitəsi" kimi təşkilatlar yaradılırdı. Azərbaycan hökumətinin acizliyini görən azərbaycalılar 1988-ci il noyabrın 17-də Bakıda Azadlıq meydanında xalq hərəkatı başlatdı. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli bayrağını qaldırdı (12, 111-112).

1989-cu il iyunun 16-da Bakıda Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı keçirildi. Konfransda Cəbhənin Proqram və Nizamnaməsi qəbul olundu. Əbülfəz Əliyev (Elçibəy) AXC-nin sədri oldu. AXC bu dövürdə geniş sosial bazaya malik idi, siyasətdə radikal, liberal, həm də barışdırıcı mövqe tutan insanları birləşdirirdi (9, 39).

M.S.Qorbaçovun anti Azərbaycan siyasəti və bu siyasəti Ə.Vəzirovun müticəsinə həyata keçirməsi xalqın haqlı narazılığına səbəb oldu. Bu prosses Azərbaycan SSR-də baş verən milli-azadlıq hərəkatına güclü təkan verdi. Azərbaycan SSR rəhbərliyinin antimilli mövqeyi 1990-ci il 20 yanvar qırğınına aparan yolun başlanğıcını qoydu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyası Azərbaycan SSR-nin paytaxtı Bakı şəhərinə nizami ordu yeridərək insanları vəhşicəsinə qətlə yetirməsi bu imperiyanın çöküşünü sürətləndirdi.

Sovet imperiyası rəhbərliyinin bu cinayətkar qərarı o dövrdə Moskvada təcrid olunmuş şəraitdə yaşayanolan Heydər Əliyevin kəskin etirazına səbəb oldu. O, 1990-cı il yanvarın 21-də Azərbaycan SSRİ-nin Moskvadakı Nümayəndəliyinə gələrək doğma xalqı ilə birlikdə olduğunu bütün dünyaya bəyan etdi (12, 114-115).

Bu zaman respublikadan qaçırılmış Azərbaycan SSR rəhbəri Ə.Vəzirovun yerinə yanvarın 24-də Azərbaycan KP MK-nin Birinci Katibi vəzifəsinə Ayaz Mütəllibov gətirildi. Ayaz Mütəllibov SSRİ hökuməti tərəfindən Bakıda elan edilmiş fövqəlada vəziyyət, komendant saatını ləğv etmədi. Ölkədə kütləvi həbslər həyata keçirdi (12, 116).

Bütün bunlara baxmayaraq nə imperiya nə də onun əlaltıları Azərbaycan xalqının azadlıq mübarizəsini qıra bilmədi. Nəhayət 30 avqust 1991-ci ildə qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə ilə yenidən dövlət müstəqilliyinin bərpa edildiyi elan olundu. Azərbaycan SSRİ Ali Soveti tərəfindən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Akt adlı Konstitusiya qanunu 18 oktyabr 1991-ci ildə qəbul olundu (12, 123; 9, 45 ).

Bununla da XX əsrin sonunda Azərbaycan xalqının milli dövlətçiliyi bərpa olundi və onun milli tarixində yeni mərhələ başlandı. Konstitusiya Aktının preambula hissəsində 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanın Rusiya tərəfindən ilhaq edildiyi, 70 il ərzində sovet rejimi tərəfindən Azərbaycan Respublikasına qarşı müstəmləkəçilik siyasətinin yeridildiyi vurğulanırdı. Konstitusiya Aktının Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslandığı qeyd edilirdi (19).

1991-ci ilin noyabırından başlayaraq Azərbaycan Respublikasının müstəqilliyini dünya dövlətləri tanımağa başladı. Azərbaycan Respublikası Ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesini tənzimləyən Helsinki müqaviləsinin Yekun aktına, Yeni Avropa üçün Paris Xartiyasında irəli sürülən prinsiplərə tərəfdar oldu və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) tam hüquqlu üzvləri sırasına qəbul edildi. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu (9, 45-46).

Bunlara baxmayaraq əvvəl SSRİ, sonralar Rusiya hərbi qüvvələrinin köməyi ilə ermənilər Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində irimiqyas baycan Respublikasının Dağlıq Qarabağ ərazisində irimiqya azərbaycanlıları buradan qovub çıxarmağa başlamışdılar. 1991-ci ilin sentyabrında Dağlıq Qarabağ ərazisində RF-nın hərbi-siyasi yardımı ilə qeyri-qanuni bir qurum, oyuncaq Dağlıq Qarabağ Respublikası yaradılmışdı. Həmin il noyabr ayının 26-da Azərbaycan Respublikası DQMV statusunu ləğv etdi.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da "Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" qanun qəbul etdi. Bu qüvvələrin ilk hissələri dekabrın 8-də cəbhəyə yola salınmışdı. İlk vaxtlar könüllülük prinsipi əsasında qurulmuş, təcrübəli hərbçiləri az olan orduda ciddi nizam-intizam yaratmaq mümkün deyildi (9, 47).

1992-ci il fevralın sonunda ermənilər və Rusiyanın 366-cı mexanikləşdirilmiş atıcı alayı tərəfindən Xocalıda soyqırım törədildi. Xocalı faciəsi ölkədə siyasi gərginliyi daha da artırdı. Ali Sovetin binası qarşısında çoxminli izdihamlı mitinqə toplaşmış xalqın tələbi ilə parlamentin 1992-ci il martın 5-6-da keçirilən fövqəladə sessiyasında Ayaz Mütəllibov istefa verməyə məcbur oldu. Parlament sədri Yaqub

Məmmədovun prezident səlahiyyətlərini daşıdığı dövrdə elan olunmuş prezident seçkiləri bu mübarizəni daha da qızışdırdı (9, 48-49).

Bu dövr Azərbaycanın qədim şəhəri Şuşa şəhərinin ermənilər tərəfindən işğal edilməsi, mayın ortalarında milli hərbi hissələrin Laçını tərk etməyə başlaması siyasi vəziyyəti daha da gərginləşdirdi. Tərəfdarları eks-prezidenti mayın 14-də parlament sessiyasında yenidən öz vəzifəsinə qaytardılar. A.Mütəllibov dərhal ölkədə fövqəladə vəziyyət tətbiqi haqqında fərman verdi. Lakin Azərbaycan xalqı parlamentin 14 may tarixli qərarını konstitusiyaya zidd hesab etdi və onu yenidən totalitarizmə qayıdış kimi qiymətləndirdi. Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyev də bu addımı qətiyyətlə pislədi. Bakıda AXC-nin qərargahı qarşısında etiraz mitinqi başlandı. Rəsmi hökumət isə fövqəladə vəziyyət haqqında qanuna uyğun tədbirlər həyata keçirə bilmədi. AXC-yə tabe olan hərbi hissələr cəbhə bölgələrindən Bakıya gətirilmişdi. Xalq Cəbhəsi Parlamentə öz qərarını ləğv etmək tələbi ilə ultimatum verdi.

Müxalifət qüvvələri respublika teleradio şirkətini, digər mühüm obyektləri, habelə Prezident aparatı binasını ələ keçirdilər. Parlamentin 18 may sessiyasında Xalq Cəbhəsi liderlərindən biri olan İsa Qəmbər Respublika Ali Sovetinin sədri seçildi. Bu sessiyada parlament səlahiyyətinin Milli Məclisə verilməsi haqqında qərar qəbul edildi. 1991-ci ildə Sovet dövründə seçilmiş 360 nəfərlik Azərbaycan SSR Ali Sovetinin səlahiyyətləri 50 nəfər deputatın təmsil etdiyi Milli Məclisə (Milli Şuraya) verildi. (11, 25).

1992-ci il iyunun 7-də Azərbaycan Respublikası Prezidentliyinə seçkilər keçirildi. Azərbaycanın Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev (Elçibəy) Azərbaycan Respublikanın Prezidenti seçildi. Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi bu təşkilatın daxildən parçalanmasını və zəifləməsini daha da sürətləndirdi (9, 49-50).

1992-ci ilin noyabr ayında Heydər Əliyevin sədrliyi ilə "Yeni Azərbaycan Partiyası" yaradıldı. Partiyanın təsis konfransı Naxçıvan şəhərində 1992-ci il noyabr ayının 21-də keçirildi. Yekdilliklə Heydər Əliyev YAP-ın sədri seçildi (12, 129-130).

1993-cü ilin ortalarında respublikada 30-a qədər siyasi partiya, cəmiyyət və hərəkat fəaliyyət göstərirdi. 1992-1993-cü illərdə Milli Məclis (Milli Şura) bir çox qanunlar qəbul etdi. Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 2 mart tarixli qərarı ilə Azərbaycan Respublikası Dövlət himni haqqında Əsasnamə təsdiq edildi (11, 40).

1993-cü il fevralın 23-də isə Azərbaycan Respublikası Dövlət gerbi haqqında əsasnamə təsdiq edildi (11, 32).

Ümumiyyətlə Milli Məclis təkcə 1992-1993-cü illər ərzində 103 iclas keçirmiş, 139 qanun və 392 qərar qəbul etmişdir (4).

Sonrakı illərdə parlament dövlət quruculuğu işində daha fəal iştirak etmiş, həm kəmiyyət, həm də keyfiyyət baxımından xeyli qanun və qərarlar qəbul etmişdir. Milli Məclis 1995-ci il noyabrın 12-də keçirilən parlament seçkilərinə qədər ölkədə qanunvericilik səlahiyyətlərini həyata keçirdi.

Məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə dövlətimiz daxili və xarici siyasəti nəticəsində müasir inkişaf yoluna qədəm qoymuş, bir çox xarici dövlətlərlə diplomatik əlaqələr qurulmuş, ölkədə hərtərəfli quruculuq işləri, iqtisadi islahatlar həyata keçirilməyə başlanmış, uğurlu neft strategiyasının təməli qoyulmuşdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışı dövründə yeni Milli Məclis formalaşdı. Milli Məclisə seçkiləri keçirmək üçün Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 18 avqust tarixli qərarı ilə 15 nəfərdən ibarət Mərkəzi Seçki Komissiyası yaradıldı. Komissiyaya ölkədə namizədlərin həm majoritar, həm də proporsional qaydada qeydə alınmasının təmin edilməsi kimi məsuliyyətli vəzifə tapşırılmışdı. Seçki haqqında qanuna görə, yaşı 18 çatmış Azərbaycan Respublikasının bütün vətəndaşlarının Milli Məclisə deputat seçmək, yaşı 25-dən çox olan vətəndaşların isə Milli Məclisə deputat seçilmək hüququ müəyyən edildi (5).

1995-ci il noyabrın 12-də ilk dəfə olaraqAzərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirildi. Yeni parlament seçkiləri 12 avqust 1995-ci ildə qəbul olunan "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" qanuna əsasən keçirildi. Azərbaycan Respublikasının Konstitusiyasına və "Milli Məclisə seçkilər haqqında" qanuna müvafiq olaraq parlamentə deputatlar majoritar və proporsional seçki sistemləri əsasında seçilmişlər. Say tərkibi 125 olan Milli Məclis deputatlarından 100-ü majoritar, 25-i proporsional seçki sistemləri qaydasında seçilmişdi.Parlament seçkiləri çoxpartiyalılıq şəraitində keçdi. Milli Məclisdə 25 deputat mandatını bölüşdürmək üçün seçkilərdə iştirak edən 8 siyasi partiyadan 200 namizəd mübarizə aparmışdır. Birmandatlı 99 seçki dairəsi üzrə 1094 vətəndaş Milli Məclisə deputatlığa

namizəd olmaq arzusunda olsa da, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında"(15, 3) qanuna əsasən bu say azaldılaraq 383-ə endirildi. Beləliklə, majoritar seçki sistemi üzrə hər seçki dairəsində bir deputat mandatı üçün orta hesabla 4 nəfər vətəndaş mübarizə aparmışdı. Bu seçkilərdə birmandatlı seçki dairələri üzrə 71, çoxmandatlı seçki sistemi üzrə 25 deputat seçildi. Milli Məclisin yeni tərkibi (96 deputat) 1995-ci il noyabrın 24-də ilk iclasını keçirdi. Noyabrın 26-da isə birmandatlı 20 seçki dairəsində təkrar səsvermə keçirilmiş və 13 deputat seçildi. 1996-cı il fevralın 4-də 15 seçki dairəsində təkrar seçkilər keçirildi. Yeni seçilmiş 18 millət vəkili parlamentin üzvü oldu.

1995-ci il noyabrın 12-də parlament seçkilərinin keçirilməsini və Konstitusiyanın referendum yolu ilə qəbul edilməsini dövlət quruculuğu və demokratiya yolunda mühüm mərhələ hesab etmək olar. Məntəqə seçki komissiyalarının üzvlərinin 13.851 nəfəri, yaxud 30 faizi siyasi partiyaların, 9.234 nəfəri və ya 20 faizi deputatlığa müstəqil namizədlərin nümayəndələri idi (1, 41-42).

Həmin dövrdə Azərbaycan Respublikası Milli Məclisinə çoxmandatlı sistem üzrə keçirilən seçkilərin nəticələri ölkə vətəndaşlarını və beynəlxalq müşahidəçiləri maraqlandıran bir məsələ idi. Seçkilərdə iştirak etmək üçün 8 siyasi partiyanın namizədlərinin siyahısı Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunmuşdu. Seçkilərə buraxılmaq üçün partiyalar minimum 50 min imza toplamalı, deputat mandatı qazanmaq üçün 8 faiz seçici səsi qazanmalı idilər.

Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən Azərbaycan Respublikası Milli Məclisinə çoxmandatlı seçki dairəsi üzrə seçkilərdə 3.556.277 seçici, yəni bütün seçicilərin 86,05 faizi iştirak etmişdir. Seçkilərdə iştirak etmiş 8 siyasi partiyadan yalnız 4 partiyanın namizədləri seçicilərin 8 faizdən çoxunun səsini aldıqları üçün deputat mandatı ala bildilər. Nəticədə Milli Məclisdə 4 partiyanın nümayəndələri təmsil olundu. 1995-ci il mayın 2-də Milli Məclisin qərarına əsasən ölkə Prezidentinin rəhbərliyi ilə komissiya yaradılmışdı. Müstəqil Azərbaycan dövlətinin Konstitusiya əsasları 1995-ci il 12 noyabr tarixli referendumda qəbul olunmuş və 1995 il noyabrın 27-dən qüvvədə olan Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir (24).

Yeni təsdiq edilmiş Konstitusiyada parlamentin təşkilinin yeni qaydaları müəyyən edilmiş, onun səlahiyyətləri xüsusi maddələrdə öz əksini tapmışdır. Konstitusiyanın 3-cü bölməsinin 5-ci fəsli qanunvericilik hakimiyyəti adlanır. 18 maddədən ibarət olan bu fəsil bütünlüklə Milli Məclisə aiddir. Konstitusiyaya görə Azərbaycan Respublikasının Milli Məclis 5 il müddətinə seçilmiş 125 deputatın daxil olduğu təkpalatalı parlamentdir.

Konstitusiyanın 96-cı maddəsinə görə, "Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüquq (qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikası Prezidentinə, Azərbaycan Respublikasının Ali məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur" (3).

Milli Məclis öz fəaliyyəti dövründə Azərbaycan Respublikasının iqtisadiyyatının inkişaf etdirilməsi, iqtisadi islahatların sürətləndirilməsi üçün mühüm qanunlar qəbul etmişdir. 1995-ci il 29 sentyabr tarixli qanunla Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» «Mühasibat uçotu haqqında» və s.Milli Məclis tərəfindən «Azərbaycan Respublikası Milli bankı haqqında» və «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» qanunları qəbul etmişdir. 1996-cı ilin birinci yarısında Milli Məclisdə 89 qanun və 48qərar qəbul edilmişdir. Həmin ilin payız şessiyasında 69 qanunlayihəsi müzakirə olunaraq qəbul edilmişdir. 23 qanun layihəsi daimikomissiyalarda müzakirə olunduqdan sonra Milli Məclis tərəfindən qəbul edilmişdir (8).

Milli Məclisin 1997-ci ildə özünün yaz sessiyası və növbədənkənar sessiyası müddətində qəbul etdiyi 138 sənəddən 124-ü qanun, 14-ü isə qərar olmuşdur (16).

Beləliklə, Milli Məclis Azərbaycan Respublikasının hüquqi dövlətçilik bazasının yaradılmasında çox mühüm addımlar atmış və əhəmiyyətli qanunlar qəbul etmişdir. XX əsrin 90-cı illərində Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, əsasnamələr və qərarlar ölkənin siyasi, sosial-iqtisadi həyatının bir çox sahələrini əhatə etmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Allahyarova T., Məmmədov F. Azərbaycanda siyasi partiyalar: seçkidən seçkiyə. Bakı, CBS-PP MMC, 2010, 146 s.

2. Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918- 1920). B., Gənclik – Gənclik mərkəzi, 1990, 96 s.
3. http://aghsu.cls.az/front/files/libraries/2374/books/279188302.pdf
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995, s.32.
5. "Azərbaycan" qəzeti, 20 may 1993.
6. "Azərbaycan" qəzeti. 9 yanvar 1996.
7. "Azərbaycan" qəzeti, 21 may 1998.
8. Azərbaycan SSR All Sovetinin daimi komissiyaları haqqında Əsasnamə, B.: Azərnəşr, I979.
9. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (əsas qanunu). B.:, 1978, c. 26.
10. A
11. zərbaycan Respublikası 1991-2001. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, 280 s.
12. Azərbaycan Respublikası dövlət müstəqiliyinin bərpasının 20-ci ildönümü Azərbaycan Milli Kitabxanası.- B., 2011, 668 s.
13. Əliyev İ., Məhərrəmov E. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı, Nurlan, 2008, s. 39-53. http://www.meclis.gov.az/?/az/topcontent/22
14. Azərbaycan Respublikasının tarixi (1991-2003). I cild. Bakı, ATİB,2016,704 s.
15. Cəfərov Vasif. Cümhuriyyət Parlamentində vətəndaş cəmiyyəti quruculuğu. Ekspress.-2017.-10 mart-№ 44.-s.10.
16. Gəncəli Sabir. O zaman qadınlar cəmiyyətin ön sıralarında idilər Azərbaycan.- 2018.- 14 aprel.- № 83.- s.7.
17. Milli Məclisə seçkilər haqqmda qanun. Bakı, 1995.
18. Milli Məclisin yaz sessiyası //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 31 iyul 1997, Nq 1
19. Nəcəfov B. Azərbaycan Demokratik Respublikası. Bakı, 1992, səh.25.
20. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər).
21. Bakı, Elm, 1990, 77 s.
22. Xalq qəzeti, 1991, 19 oktyabr.
23. Paşayev Ataxan. Azərbaycan Xalq Cümhuriyyəti – şərqin ilk demokratik,
24. parlamentli Respublikasi. Xalq qəzeti.-2014.-28 may.-N 111.-s.7.
25. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. Bakı, Elm, 1990, 116 s.
26. Азербайджанская Демократическая Республика (1918-1920).
27. Законодательные акты (Сборник документов). – Баку, издательство
28. «Азербайджан», 1998.
29. Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку,
30. Елм,1990, 96 с. 24. http://www.tercume.az/ AZERBAIJAN%20DILI/qanun.htm


## ƏNƏNƏVİ TƏLİMDƏ SÖZ YARADICILIĞININ TƏDRİSİ MƏSƏLƏLƏRİ


**Zeynalova Aytac**
***Sumqayıt Dövlət Universiteti***
***Elmi rəhbər: fil. f. d Məmmədova Sona***
***azadersulzad@gmail.com***



**Açar sözlər:** Ənənəvi təlim, söz yaradıcılığı, morfem
**Ключевые слова:** традиционное обучение, словообразование, морфема.
**Key words:** traditional teaching, word formation, morpheme.


Azərbaycan təhsilinin tarixi qədimdir. Xalq məktəbi, mollaxanalar, mədrəsələr, rus məktəbləri və s. Bu məktəblərin hər birində də müxtəlif təlim üsullarından istifadə edilib. Müasir Azərbaycan təhsilinin təlim tarixini iki yerə bölmək olar: Ənənəvi təlim və müasir təlim.

Ənənəvi təlimin tarixi müasir təlimin tarixindən daha çoxdur. Hər birinin özünəməxsus cəhətləri vardır. Azərbaycan dili fənninin tarixi hələ qədim dövrlərdən başlayır. Azərbaycan dilin dərslərinin keçilmə tarixi on doqquzuncu əsrin axırlarından başlayır.Qubadlı, Təbriz, Naxçıvan, Şamaxı və s. iri şəhərlərdə yeni tipli rus məktəbləri açılır və bu məktəblərdə tədris ana dilində aparılır.

XIX əsrin ikinci yarısıəndan başlayaraq Azərbaycanda yaşayıb yaradan ziyalı nümayəndələri olan M,F, Axundzadə, S,Ə,Şirvani, N.Vəzirov, R,Əfəndiyev və digərləri təhsilimizin məzmun, forma və metodları haqqında qiymətlı fikirlər irəli sürmüşlər. Mütəfəkkirlərin fikrincə təlimdə əyanilik, biliyi şüurlu mənimsətmək materiala əsaslı tədris etmək bunlara ciddi diqqət yetirilməlidir.

Azərbaycan dili dərslərində tədris edilən bölmələrdən biri də "Söz yaradıcılığıdır". Söz yaradıcılığı çox geniş bölmədir. Ənənəvi təlimdə söz yaradıcılığının tədrisinə ibtidai sinifdədərn başlanırdı. Müasir təlimsən fərqli olaraq Ənənəvi təlimdə söz yaradıcılığı morfologiyanın tərkibində tədris edilir.

Həsən Balıyevin fikirlərinə əsasən ənənəvi təlimdə söz yaradıcılığı üzrə işin məqsəd və vəzifələri haqqında danışaq:

Bilirik ki, istər böyüklər, istərsə də şagirdlər ilk eşitdikləri sözün dəqiq mənasını bilmək istəyirlərBunun üçün sözü hissələrə bölür, kök və ondan düzələn yeni məvhum arasında olan əlaqəni axtarırlar. Sözün tərkib hissələri üzrə dərs tədris edərkən ənənəvi təlimdə olan əhəmiyyətli cəhətlər aşağıdakılardır:

1. Sözün tərkib hissələrini şagirdlərə tədris etdikdə onlar sözün leksik mənasını açmağın yolunu öyrənmiş olurlar. Müəllimin əsas məqsədi şagirdlərə sözün morfem tərkibi ilə mənası arasındakı münasibəti şagirdlərə çatdırmaqdır.

2. Sözün kök və şəkilçiyə ayrılması hissəsini tədris edərkən şagirdlər yeni yaranan sözlərin necə əmələ gəldiyini praktik olaraq görürlər. Bu zman şagirdlərin önçəki dərslərdən öyrəndikləri bilik və bacarıqlarda onlara kömək edir.

3. Yeni sözlər yaratmağın əsas vasitələri ilə tanışlıq şagirdlərdə ətraflarında gördükləri əşyaların adlarını bildirən sözlərin bildirdiyi məvhumları dəqiqləşdirməyə,əsasən,yaxın mənalı, o cümlədən, eyni köklü sözlər, həmçinin də əşyalar arasındakı əlaqələri müəyyənləşdirməyə kömək edir.

Məsələn: Dəniz –dənizçi, gəmi-gəmiçi,odun –odunçu və s.

4. Sözü kök və şəkilçiyə ayıran zaman şagirdlər sözün kökü, leksik şəkilçi və qrammatik şəkilçi ilə tanış olur.Bunların hər birinin funksiyasını öyrənir. Leksik şəkilçilərin necə eyni sözdən fərqli mənalar bildirən sözlər yaratdığını görürlər və artıq şagirdlərdə yeni sözlər yarada bilirlər.Məsələn:

Güldan odunçu

Gül gülçü od odun

Güllük odunluq

1. Sözün kök və şəkilçiyə ayrılması şagirdlərin düzgün yazı vərdişlərinin formalaşmasında da böyü əhəmiyyətə malikdir.

2. Son olaraqda, söz tərkibinin örənilməsi şagirdlərdə düzgün danışığı formalaşdırır. Uşaqlar sözlərin mənalarını öyrənir və hər sözü düzgün yerində istifdə edə bilirlər.

Söz tərkibinin siniflər üzrə öyrənilməsi.

Ənənvi təlim proqramlarına əsasən söz tərkibini öyrədilməsinə əsaslı surətdə ııı sinifdən başlanır.

11-ci sinifdə söz yaradıcılığı(eyni köklü sözlər, sözün kökü) haqqında şagirdlərdə ümumi təsəvvür formalaşdırılır. Artıq dördüncü sinifdən başlayaraq şagirdlərin söz yaradıcılığı haqqında əldə etdikləri biliklər dərinləşdirilir.

Ənənəvi təlimdə ibtidai siniflərdə söz yaradıcılığı üzrə iş aşağıdakı ardıcıllıqla aparılır:

a) Sözün tərkib hissələri üzrə iş

b) Söz kökü, eyniköklü sözlər və şəkilçilər haqqında ilkin biliklərin yaradılması, sözün formasının dəyişməsi üzrə ilkin biliklərin verilməsi

c) düzgün yazı vərdişlərinin öyrədilməsində qrammatika və söz yaradıcılığı bölmələrinin qarşılıqlı əlaqədə tədrisi.

Söz yaradıcılığının tədrisi zamanı uşaqlar bilməlidir ki, sözün tərkib hissələri bir-birilə qarşılıqlı əlaqəlidir.Morfemin əhəmiyyəti əhəmiyyəti təkcə söz daxilində açılır. Bu səbəbdən, şagirdlər kök və şəkilçi anlayışını ayrı-ayrılıqda deyil, əlaqəli şəkildə öyrədilir.

İlk olaraq, şagirdlər sözün tərkib hissələrinin mahiyyəti və onları müqayisə etməklə, qarşılaşdırmaqla öyrənir, daha sonra hər bir şəkilçinin yeni mənalı söz yaratması və sözlər arasında məna əlaqəsi yaratmaq xüsusiyyətləri öyrədilir.

Bütün bu işlər aşağıdakı mərhələlər üzrə aparılır:

1. Söz yaradıcılığı bölməsi üzrə ilkin müşahidələrin aparılması.Bu mərhələdə (ıı sinif) kök və eyniköklü sözlər haqqında məktəblilərdə ümumi fikir formalaşdırılır.

2. Eyniköklü sözlərə aid dil qaydalarının öyrədilməsi, sözün tərkib hissələrinin öyrədilməsi üzrə işlər.

3. Kök və şəkilçinin özünəməxsus xüsusiyyətlərinin və dil qaydası olaraq əhəmiyyətinin öyrədilməsi (ııı sinif)

4. Sözün tərkibi haqqında ıı və ııı siniflərdə şagirdlərin öyrəndikləri dil qaydalarının dərinləşdirilməsi, sadə, düzəltmə.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Balıyev H. "Ana dilinin tədrisi metodikası ( Ali məktəblərin pedaqogika və ibtidai təhsil metodikası fakültəsi tələbələri üçün icmal, mühazirə və mənbə göstəriciləri)". Bakı 1997.

2. Məmmədova A. "Azərbaycan dilinin tədrisi tarixi". Bakı-Mütərcim 2015.

# TƏHSİL OCAQLARINDA GƏNCLƏRƏ HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ AŞILANMASI YOLLARI

**Zeynalova Ləman**
***Mingəçevir Dövlət Universiteti***
***Elmi rəhbər: dos. İsmayılov Mayıl***

**Açar sözlər:** Hərbi-vətənpərvərlik, təlim-tərbiyə prosesi, tarixi qələbə
**Key words:** Military-patriotism, educational process, historical victory
**Ключевые слова:** Военно-патриотизм, воспитательный процесс, историческая победа

Vətənpərvərlik insanın ölkəsinə olan ehtiraslı sevgisini ifadə edir. Bu fəzilət bir ölkənin vətəndaşlarını fədakarlıqla ölkələri üçün çalışmağa və onu daha da yaxşılaşdırmağa yönəldir. Həqiqi inkişaf etmiş bir ölkə əsl vətənpərvərlərdən ibarətdir. Yəni vətənpərvərlik əvvəlcə ölkənin maraqlarını qorumaq və sonra özünüzü düşünmək deməkdir. Hər bir xalqın inkişafında sağlam, vətənpərvər gənclik mühüm rol oynayır [1].

Ümumilli lider Heydər Əliyevin vurğuladığı kimi- Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdrusa, o insan mənəviyyatsızdır. Gərək nəbzin Vətənin nəbzi ilə vursun.

Tarixi vərəqləyəndə şahidi olursan ki, heç bir müharibə qansız, itkisiz, şəhidsiz və itkinsiz keçməyib. Eramızdan əvvəlki və eramızdakı bütün dövlətlərin hərb tarixi müharibələr, dağıntılar, insan ölümü, faciələrlə müşayiət olunur. Müharibə Vətən uğrunda olanda, işğalçıya qarşı savaşanda daha fərqli olur. Qədim Spartada bir ana övladını müharibəyə göndərərkən deyərdi ki, “Ya qalxanınla, ya da qalxanın üzərində qayıt”. İkinci Dünya Müharibəsində də insanlar “Hər şey Vətən üçün” deyərdilər. Yəni, tarix bu misallar üzərindən onu göstərir ki, doğma torpaq, vətən uğrunda canını fəda edib şəhidlik zirvəsinə yüksəlmək, öz adını xalqın tarixi yaddaşına həkk etmək. Vətən, dövlət və xalq qarşısında öz borcunu sonadək ödəmək, qəhrəmanlıq nümunəsi yaratmaq, milyonlarla insanın sevgisini qazanmaq hər bir insanın arzusu olub və bu, bu gün də belədir.

Mövcud ədəbiyyatda daim təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə can atmaq, gənclərin təhsil və tərbiyə məsələlərinə dair bütün işləri nəzarətdə saxlamaq, qabaqcıl təlim-tərbiyə metodlarının tətbiqini önə çəkilib. Eləcə də şagirdlərə elmi biliklər verilməsi ilə yanaşı, onların vətəndaş tərbiyəsi işi daim diqqət mərkəzində olması vacibliyi qeyd olunub.

İbtidai sinif müəllimləri, fənn müəllimləri, metodbirləşmə rəhbərləri, kabinet rəhbərləri ilə söhbətlərdə də daim qarşıya qoyulan məqsədlərin tam həllinə nail olmaq üçün işlərin həyata keçirilməsi prioritet məqsədlər kimi önə çəkilir. Bu sahədə müəyyən tələblər vardır ki, təhsilin inkişaf istiqamətlərini özündə birləşdirir. Tədris işi, onun inkişafının analiz edilməsi, məktəbdə digər pedaqoji fəaliyyətlərin keyfiyyətinə və s. nəzarət edilir. Şagirdlərin təlim-tərbiyəsi işinin daha yüksək səviyyədə aparılmasına xidmət edilir. Və biz tapşırılmış sahə üzrə işimizi bu istiqamətdə qurmağa çalışılmışdır [2].

Vətənpərvərlik tərbiyəsinin digər əsas istiqamətlərindən biri isə, ilk öncə hərbi-idman oyunlarıdır. Bu oyunların praktiki əhəmiyyəti danılmazdır və hərbi-vətənpərvərlik tərbiyəsi sisteminin bütün komponentlərinin qarşıya qoyduğu vəzifələrin tam həllinə imkan yaradır.”Şahin” hərbi-idman oyununun aparılması təcrübəsi şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsinin bu formasının aktuallığını və vacibliyini həmişə sübut etməkdədir.

Hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində işlərin aparılması üçün hər bir şərait yaradılmışdır. Dərslərdə, eləcə də dərsdənkənar tədbirlərdə hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün aparılması üçün böyük imkanlar yaradılıb. Hərbi qulluqçularla, veteranlarla görüşlər də təşkil edilir, şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi üzrə bütün işləri tam mənada həyata keçirə bilmək imkanları yaradılır.

Cəsurluq, rəşadət dərsləri, toplantılar, söhbətlər, sinif saatları, videofilmlərə baxış, hərbi hazırlıq üzrə dərnəyin məşğələləri – bunların sayını artırmaq da olar. Bütün bu işləri həyata keçirmək üçün tam imkanlar var və həyata keçirilir. Təhsil ocaqlarında Qarabağ müharibəsi qəhrəmanları ilə də, 2-ci Dünya müharibəsi iştirakçıları ilə də mütəmadi olaraq görüşlər keçirilir. Hər il 9 may Qələbə günü veteranlarla şagirdlərin görüşünü təşkil edilir. Onlar şagirdləri maraqlandıran sualları cavablandırırlar.

Hərbi-vətənpərvərlik tərbiyəsinin həyata keçirilən bu formaları şagirdlərin Vətənimizin müdafiəsinə hazırlığı prosesinə real kömək edir. Görülən işlər bir sistem halında, məqsədyönlü və davamlı xarakter daşıyır, şagirdlərin hərbi-vətənpərvərlik fəaliyyətinin təşkili və tərbiyənin inkişafında ardıcıllıq qorunur.

Vətənpərvər pedaqoqlar bu tərbiyə sisteminin həmişə son nəticələrə – öz vətəninin vətənpərvərləri olacaq gənc nəslin yetişdirilməsinə xidmət etməsinə çalışır və buna nail olmaq üçün var qüvvəsini sərf edirlər. Onların bu səyləri həmişə öz müsbət nəticələrini verib. İşin düzgün təşkili zamanı gənclər də dərsə böyük maraq göstərir, tədbirlərə də maraqla qatılırlar. Bu tərbiyənin düzgün aşılandığı təhsil ocaqlarının məzunları həmişə öz müəllimləri haqqında böyük sevgi və iftixarla danışırlar. Təlim-tərbiyə işi sosial proseslərin arasında ən çətini sayılır. Onun çətinliyi hərtərəfliyi ilə ölçülür. Bu proses zamanı uşaq məktəb illəri bir-birini əvəz etdikcə bir şəxsiyyət kimi formalaşır. Məhz məktəb, parta arxasında ilk dəfə oturmuş uşağın gələcəkdə onun şəxsiyyət kimi tərbiyəsinin hansı istiqamətdə inkişaf edəcəyində əsas rol oynayan bir faktordur.

Şagirdlərimizin və tələbələrimizin vətənpərvər, igid, cəsur, cəmiyyətə layiqli vətəndaşlar kimi formalaşması istiqamətində daha böyük işlər görməyi planlaşdırırıq. 2020- ci il sentyabrın 27-dən başlanmış Vətən müharibəsi Azərbaycan xalqı üçün fərqli oldu. 30 ilə yaxındır torpaqları azad etmək hər bir azərbaycanlının ən böyük arzusu idi. Hər bir məclislərdə, tədbirlərdə, hətta yaslar və toylarda torpaqlarımızın azad olunması, işğaldan azad edilməsi istəyi dəfələrlə qeyd edilməsin. Və çox sevindirici haldır ki, artıq bütün işğal altında olan torpaqlarımız azad olunub, Qarabağ Azərbaycanındır

## İBTİDAİ SİNİFLƏRDƏ ƏYLƏNCƏLİ MƏSƏLƏLƏRİN ROLU VƏ MAHİYYƏTİ

**Zülfiqarova Mirvari**
***ADPU-nun Şamaxı filialı***
***Elmi rəhbər: Rasim Nərmanov***

**Açar sözlər:** ibtidai sinif, riyaziyyatın tədrisi, əyləncəli məsələlər, idrak, inkişaf.

**Ключевые слова**: начальная школа, обучение математике, забавные задачи, познание, развитие.

**Key words:** elementary school, teaching mathematics, fun problems, cognition, development.

Müasir dövrdə riyaziyyat insan fəaliyyətinin bütün sahələrində: elmdə və texnologiyalarda, tibbdə, iqtisadiyyatda, ətraf mühitin mühafizəsi və bərpaedilməsi-abadlığında, sosial qərarların qəbul edilməsində geniş istifadə edilir. Eləcə də bəşəriyyatın inkişafında və müasir sivilizasiyanın formalaşmasında riyaziyyatın xüsusi rolunu qeyd etmək lazımdır. İnformasiya və hesablayıcı texnologiyaların inkişafı, məkan-zaman strukturunun daha yaxşı dərk edilməsi, təbiətdə mövcud olan bir çox qanunauyğunluqların kəşf edilməsi və təsviri riyaziyyatın elmi və mədəni dəyərlərini daha aydın şəkildə göstərir. Çox vacib haldır ki, riyaziyyat insanın əqli imkanlarının inkişafı üçün imkan yaradır. O, effektiv, lakonik və ikimənalı olmayan kommunikasiya imkanlarını verir. [3, 46-47]

Riyaziyyatdan istifadə etməklə çətin vəziyyəti əyani təsvir etmək, hadisələri izah etmək və onların nəticələrini şərh etmək mümkündür.

Problemin həllində onun mahiyyətini dərk etmək, adekvat riyazi aparat seçmək, belə bir problem olmadıqda isə, - onu hazırlamaq; öyrəniləcək prosesi və ya obyektin düşünülmüş modelini yaratmaq, əldə edilən modelin vasitəsilə lazımi nəticələr çıxarmaq və sonra onların tətbiqi şərhini etmək vacibdir. Praktiki və ya elmi problemlər, öz növbəsində, riyaziyyatı əhəmiyyətli və maraqlı məsələlərlə təmin edirlər. Buna uyğun olaraq, tədris zamanı ətraf aləmin dərk edilməsində, sosial- iqtisadi və ya texniki proseslərin idarə edilməsində, məişət və elmi problemlərin həll edilməsində və riyazi biliyin məntiqi sistemdə formalaşdırılması və ötürülməsində riyazi metodların istifadəsinə əsas diqqət yetirlməlidir. Bundan əlavə, riyaziyyatın tədrisi zamanı əsas fokusun (həm praktiki, eləcə də elmi xarakterli) problemlərin həllinə yönəldilməsi, şagirdin entuziazmını) Psixologiyada güclü istək və həvəsi göstərən termindir)gücləndirir və onda riyaziyyata maraq oyadır.

İbtidai siniflərdə Riyaziyyat fənninin tədrisi prosesində məsələ həlli mühüm yer tutur. Məsələ həllı müstəqil təfəkkür növlərindən biridir. Riyaziyyat dərslərinin daha səmərəli və yadda qalan keçməsi üçün müəllim şagirdlərin maraq dairələrinə uyğun məntiqi və əyləncəli məsələlərdən istifadə etməlidir. İbtidai siniflərdə şagirdlərin müşahidəçilik qabiliyyətinin və təfəkkürün inkişafına aid tapşırıqlara daha geniş yer verilməli, bunun üçün müşahidə, müqayisə, təhlil, tərkib, ümumiləşmə, təsnif tələb edən və məntiqi məsələlərə aid çalışmalar verilməlidir. Əyləncəli məsələlərin həlli şagirdlərin yaradıcı, intellektual qabiliyyətlərinin və məntiqi düşünmə bacarıqlarının inkişafına kömək edir. Məntiqi məsələlər şagirdlərdə məntiqi düşünmə bacarığının inkişaf etdirilməsində, riyazi görüşlərinin daha da genişləndirilməsində və gündəlik həyatda ətraf mühitin qanunauyğunluqlarını daha inamla dəyərləndirilməsində, onlarda intellektual səviyyənin artırılmasında müstəsna rol oynayır, araşdırma və düşünmə qabiliyyətlərinin daha da inkişaf etməsinə səbəb olur. III-IV siniflərdə riyaziyyata marağı artırmaq və onların riyazi hazırlığını təmin etmək üçün əyləncəli və ya maraqlı məsələlərdən istifadə olunmasının böyük əhəmiyyəti vardır. [4, 89] Bu mərhələdə elə şərait yaratmaq lazımdır ki, şagirdlər qarşıya çıxa biləcək çətinlikləri müstəqil şəkildə aradan qaldırmaqla irəli sürülmüş məsələni həll edə bilsinlər. Pedaqoji, psixoloji və metodik baxımdan yüksək qiymətləndirilən əyləncəliliyin məqsədi şagirdlərin diqqətini cəlb etmək, gücləndirmək və onların düşüncəsini fəallaşdırmaqdan ibarətdir. Bu tipli çalışmalar şagirdlərin əqli qabiliyyətini inkişaf etdirir,diqqəti və yaddaşı məşq etdirməklə təkmilləşdirir, təfəkkürünü inkişaf etdirir və şagirdlədə fənnə maraq yaradır.

Əyləncəli məsələlər uşaqların idrak fəaliyyətini aktivləşdirmək üçün bir vasitə kimi istifadə edilir. Əyləncəli məsələlər yaradıcı məqsədli bir fəaliyyətdir, çünki əyləncəli bir formada olan uşaqlar üçün müəyyən bilik və bacarıqların öyrənilməsi daha asandır. Əyləncəli məsələlərin dərs prosesinə daxil edilməsi öyrənmə prosesini maraqlı, uşaqlarda şən işləyən əhval-ruhiyyə yaradır, materialın assimilyasiyasında çətinliklərin aradan qaldırılmasına kömək edir. Əyləncəli məsələlərin istifadəsi yalnız dərslərin mövzusu ilə yaxından əlaqəli olduqda, təlimat materialı ilə birləşdirən, didaktik hədəflərə cavab verir. Müasir strateji məqsədlər yaradıcı, müstəqil bir insanın formalaşmasına yönəlmiş, öz həyat və fəaliyyətinin fəal bir mövzusu kimi inkişaf etdirilməsinə yönəlmişdir. [2, 10-13]

Pisxoloji araşdırmalara əsasən 1-10 yaş aralığındakı uşaqlara müəyyən bacarıq və vərdişlərin öyrədilməsi üçün ən əhəmiyyətli üsullardan biri oyun vasitəsidir, ibtidai siniflərdə riyaziyyatın tədrisində əyləncəli məsələlərdən istifadə edilməsi, bilavasitə oyun funksiyasını daşıyaraq uşaqlarda kiçik yaşda riyazi

bilik və bacarıqlara yiyələnmək üçün istək və maraq oyadır. Riyaziyyatın tədrisi zamanı əyləncəli məsələlərdən istifadə edilməsi, şagirdin riyazi bilik və bacarıqlara ən yaxşı şəkildə yiyələnməsi üçün vasitədir.

Şagirdlər üzərində müşahidə aparsaq görərik ki, şagirdlər maraq duyduğu fənnləri daha yaxşı qavrayır. Bu baxımdan, ibtidai siniflərdə riyaziyyatın tədrisi zamanı əyləncəli məsələlərin şagirdlərdə oyatdığı maraq bu fənnin daha yaxşı qavranılması və mənimsənilməsi əhəmiyyətlidir.

Nəzərə almaq lazımdır ki, şagirdlərin ibtidai siniflərdə hesab məsələlərinin həllinə və tətbiqinə aid əldə etdikləri bilik və bacarıqlar yuxarı siniflərdə riyaziyyatın, o cümlədən bir sıra digər fənlərin mənimsənilməsində əhəmiyyətli rol oynayır.

Epigenetika haqqında görüşləri ilə diqqət çəkən Amerikalı inkişaf bioloqu Bruce Harold Liptonun araşdırmalarını nəzərdən keçirdiyim zaman, maraqlı və insan həyatı üçün mühüm məlumat əldə etdim. Araşdırmada əldə olunan nəticəni qısa şəkildə belə şərh etmək olar "İnsanın 1-7 yaş aralığında öyrəndikləri və gördükləri onu şüuraltına yüklənir və şüuraltına yüklənən bu məlumatlar insanın bütün həyat fəaliyyətinə icitmai, sosial və pisxolji aspektlərdən təsir edir".[1, 55-58]

Bu elmi faktdan bir çox sahədə fərqli şəkildə istifadən oluna bilər. Biz isə bunu ibtidai siniflərdə riyaziyyatın tədrisi aspektindən yanaşaraq belə bir nəticə çıxarda bilərik: İbtidai siniflərdə riyaziyyatın tədrisində əyləncəli məsələlərdən istifadə edilməsi, nəinki ibtidai pillədə həm də, baza, orta və ali təhsil pillərində şagirdin riyazi bilik və bacarıqlara yiyələnməsi baxmında əhəmiyyətli rola malikdir.

Ən sonda isə bunu qeyd edə bilərik ki, ibtidai siniflərdə əyləncəli məsələlərin rolu və mahiyyəti sadecə şagirddə maraq oyatmır, eyni zamanda şagirdi bu fənnin öyrənilməsinə təşviq edir.

Son olaraq bir neçə əyləncəli məsələlərə baxaq:

● 7 evin hər birində 7 pişik var. Hər bir pişik 7 siçan, hər bir siçan isə 7 sünbül topası yeyir. Hər bir sünbül topasından 7 qab məhsul almaq mümkündürsə, siçanlar cəmi neçə qab məhsul yeyər?

● Bir kişinin çoxlu dəvəsi və 3 oğlu var. Kişi ölərkən oğlanlarına 17 dəvə miras qoyub gedir. Vəsiyyət edir ki, böyük oğlana dəvələrin ½ hissəsi, ortancıl oğluna 1/3 hissəsi, kiçik oğluna isə 1/9 hissəsi çatsın. Oğlanlar nə qədər edirlər ataları deyən qayda ilə dəvələri aralarında bölə bilmirlər. Bir müdrik kişinin yanına gəlirlər. Müdrik kişi dəvələri vəsiyyətdə deyildiyi kimi oğullar arasında bölür. Bunu necə edir?

● Vaqifin üç qardaşı vardır. Birincisi ondan 3 yaş böyük, ikincisi 3 yaş kiçik, üçüncüsü isə 3 dəfə kiçikdir. Atanın yaşı isə Vaqifdən 3 dəfə çoxdur. Hamısının birlikdə 95 yaşı vardır. Onların hər birinin neçə yaşı vardır?

Bu kimi əyləncəli məsələlər nəinki uşaqlarda hətta orta yaşı insanlarda belə məsələnin həll edilməsi üçün maraq yaradır. Bu cəhətdən əyləncəli məsəllər ətrafındakı bütün hadisə və obyektləri maraqla qarşılayan uşaqların riyaziyyatı böyük maraq və istəklə öyrənməsi üçün çox əhəmiyyətlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Elnarə Əfəndiyeva, Texniki-humanitar liseyin ibtidai sinif müəllimi
2. Həmidov S.S., Uşaqlarla sadə riyazi təsəvvürlərin formalaşdırılması metodikası, Bakı, APİ, 1987.
3. İ.Rüstəmov., A. Novruzov "Sadə riyazi təsəvvürlərin formalaşdırılması metodikası", Naxçıvan. 2013
4. Kazımov Kamran, İbrahimova Cəmilə:Riyaziyyat dərslərində məntiqi və əyləncəli məsələlərdən istifadənin təlim marağına təsiri.

# TOPİC - ACRA - ANTI-CAPITALIST RUSSIAN AGENCY OR AVANT-GRADE COMPETITION – RUSSIAN ARCHETYPE

**Zeynalov Rəşad Rasim oğlu**
***Western Caspian University Master student***
***Supervisor: Kəmalə Hüseynova***

A company of ACRA which originally stands for Analytical Credit Rating Agency has completed its registration process recently and planning to lay the first stone soon. As “Big Three” heralded a cut in the Russian’s credit rating from “investment grade” to “junk”, Sovereign finds it hard to arouse the curiosity of foreign investors. Besides, under the ultra-modern regulations of financial system, regulators find themselves at the improbable situation. Thus, new alternative found by Central Bank regulators is to set an unorthodox credit rating agency that issuing ratings which act as an economic barometer of Russia. Unequivocally, from external investors’ perspectives it sounds like Russia is trying to be sexy by make-up, while arguing the decision of “Big Three” is politicized and starts fighting against them through launching a Moscow-based rating agency playing under the Kremlin-dictated rules. Unforeseeable setbacks may arise while this plan is also in favor of Russian Financial Authority.

To make a picture more clear, it worth to get a glimpse of the roles of credit ratings over regulation and the methods of how top rating agencies issue ratings.

*How ratings are used by regulators.*

No doubt that the rules which control financial markets have passed an exhaustive, all-out revolutionary process and it still continues. Till the regulatory document of “International Convergence of Capital Measurement and Capital Standards”, also known as “The 1988 BIS Accord” regulators understood that the conventional ways to determine minimum required capital for financial market players for the risks they bear were outdated. Determining required capital by capital to total assets ratio was not a good indicator of risks anymore as definitions of capital and ratios considered acceptable varied from country to country. Furthermore, as banks started operating globally and over-the-counter market was flourishing, many of newer transactions were “off-balance-sheet”. This means that they had no effect on the level of assets reported, thus no effect on the amount of capital the investors required to keep. After the first attempt of the Basel Committee to set international risk-based standards for capital adequacy, calculation methods of required capital strived time to time as a result of iterative research. As a foreign investor I would not be interested in investing in Russia and I will explain it why. Let’s take a look of Regulations History.

The Cooke Ratio in 1988 Accord is defining minimum capital requirement and calculated as

$$\sum_{i=1}^{N} \omega_i L_i$$

where $L_i$ is the principal amount of the ith item and $\omega_i$ is its risk weight. The Table below is the

| Risk weight (%) | Asset category |
|---|---|
| 0 | Cash, gold bullion, claims on OECD governments such as Treasury bonds or insured residential mortgages |
| 20 | Claims on OECD banks and OECD public sector; up to an including one year claims on other countries. |
| 50 | Uninsured residential mortgage loans |
| 100 | All other claims |

Source: BIS [1988]

weights to calculate the Cooke Ratio.

So, under that regulation one would be less interested to invest in Russia. Imagine you have invested $ 100 million to OECD government debt and the same amount to the dollar denominated Russian government debt. Then your risk-weighted asset would be

$$1.0 \times 100 + 0.0 \times 100 = 100$$

Just because Russian government debt in this case is considered as fully risky. Consequently, investor should keep a proportional amount specified by regulator as a required capital.

After the release of the Basel II, market players started treat with investments more equably with the introduction of the credit ratings into the calculation of capital requirement.

Noticeably, it will cost less for the countries with decent credit ratings to borrow from external sources. Even after this alteration, Russia was a riskier standing below A. Yet, who invested in government

Risk Weights as a Percent of Principal for Exposures to Countries, Banks, and Corporations Under Basel II's Standardized Approach

| | AAA to AA– | A+ to A– | BBB+ to BBB– | BB+ to BB– | B+ to B– | Below B– | Unrated |
|---|---|---|---|---|---|---|---|
| Country* | 0 | 20 | 50 | 100 | 100 | 150 | 100 |
| Banks** | 20 | 50 | 50 | 100 | 100 | 150 | 50 |
| Corporations | 20 | 50 | 100 | 100 | 150 | 150 | 100 |

bonds of Russia would

put some proportion of his/her capital as a shield against risks they bearing. It really worth to think of the opportunity cost of this proportional capital. Additionally, Russia is not a country that effectively managed to pay all its debt back all the time. It is notorious for ineffective economic policy as proved in August, the 1998 government debt crash.




Factually, the Russian government default of August, 1998 to repay its debt also has a subliminal effect as history could be repeated. In that point, investors are keen to be aware of their "recovery rates" in the case of default. The historical data for recovery rates of the Russian government debt gives investors a SOS signal that they are taking a serious risk. At the table below, it is clear that parts who invested in the Russian Government Bonds lost 82% of principal amount of their total investment. Accordingly, from regulatory viewpoint it's a bit of costly to invest in the Russian Government Bonds, but what about the macroeconomic indicators of Russia?

**Recovery Rates on Defaulted Sovereign Bond Issuers**

| Year of Default | Defaulting Country | Average Trading Price** (% of par) | PV*** Ratio of Cash Flows (ratio in %) |
|---|---|---|---|
| 1998 | Russia | 18 | 50 |
| 1999 | Pakistan | 52 | 65 |
| 1999 | Ecuador | 44 | 60 |
| 2000 | Ukraine | 69 | 60 |
| 2000 | Ivory Coast* | 18 | NA |
| 2001 | Argentina | 27 | 30 |
| 2002 | Moldova | 60 | 95 |
| 2003 | Uruguay | 66 | 85 |
| 2004 | Grenada* | 65 | NA |
| 2005 | Dominican Republic | 95 | 95 |
| 2006 | Belize | 76 | NA |
| 2008 | Seychelles* | 29 | NA |
| 2008 | Ecuador | 26 | NA |
| **Issuer-Weighted Recovery Rates** | | **50** | **68** |
| **Value-Weighted Recovery Rates** | | **31** | **38** |

*Not rated by Moody's at the time of default.*

*** 30-day post-default price or pre-distressed exchange trading price.*

**** Ratio of the present value of cash flows received as a result of the distressed exchange versus those initially promised, discounted using yield to maturity immediately prior to default (Source: Bank of England (2005)).*

Well, all those emphasized above are historical facts and the situation as some analytics argue is far more different and Russia has more balanced economy that can handle this shock effect. Without diving more technicalities, one could simply recognize that the Russian government right now is in the situation like T junction and if the government will not take appropriate measures, things could move reversely and history could be repeated.

Simple analysis of the data taken from the Russian Central Bank database is not a bad idea to get a clue. Approximately, 84.3% of total external debt of Russia is composed of foreign currency and almost 8% of it are short-term liabilities. In number it is around 40 billion USD. International Reserves of Russia for now are around 390 billion USD. To compare, reserves plunged 25% from around USD 510 billion as

External Debt of the Russian Federation
in Domestic and Foreign Currencies by Maturity
(millions of US dollars)

| | December 2013 | March 2014 | June 2014 | September 2014 | December 2014 | March 2015 | June 2015 | September 2015 | December 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Total | 728 864 | 715 892 | 732 779 | 680 857 | 599 901 | 556 231 | 555 632 | 536 492 | 515 848 |
| Foreign currency | 541 902 | 549 124 | 539 759 | 524 720 | 492 777 | 455 404 | 443 812 | 446 888 | 435 190 |
| Domestic currency | 186 962 | 166 768 | 193 019 | 156 138 | 107 124 | 100 827 | 111 820 | 89 604 | 80 658 |

of 2013 before things started going bad. Ceteris paribus, country will be able to pay around 85% of its debt with these reserve rates.

### *1.2 POLITICS IS A BIG ISSUE*

All know that it's political willingness and course that strongly affects economic temperature of the country. It's analogous with a chess game – players have to be result-oriented and take time to think the effects of each move. May be the Kremlin has better moves ahead, but right now they sacrificed their credit rating, more broadly their political image started erode and not surprisingly their effectiveness of controlling situation too.

International Reserves of the Russian Federation for 2013

*millions of US dollars*

| | Position as of 30.11.13 | Changes in Position reflecting: | | | | | Position as of 31.12.13 |
|---|---|---|---|---|---|---|---|
| | | Transactions | Other changes in volume | Exchange rate changes | Other price changes | Total changes | |
| International Reserves | 515,590 | -7,239 | 284 | -296 | 1,257 | -5,995 | 509,595 |
| Monetary gold | 40,640 | 0 | -1,454 | 0 | 803 | -650 | 39,990 |
| Special drawing rights | 8,734 | 1 | 27 | 0 | 0 | 28 | 8,762 |
| Reserve position in the Fund | 4,530 | -148 | 14 | 0 | 0 | -134 | 4,396 |
| Other reserve assets | 461,685 | -7,092 | 1,696 | -296 | 453 | -5,239 | 456,447 |

The Sovereign Government Rating Methodology developed by credit rating agencies unequivocally states the strength of the above argument. Political score was designed to capture

- The effectiveness, stability, and predictability of the sovereign's policymaking and political institutions (primary factor).
- The transparency and accountability of institutions, data, and processes, as well as the coverage and reliability of statistical information.
- The government's payment culture.
- External security risks (potential adjustment factor).
- The potential effect of external organizations on policy setting.

Intelligibly, the Russian foreign policy proved to be unpredictably, ineffective over the course of the period. Professional political scientists could support this argument that the Kremlin administration is one of the mostly unpredictable policymakers. The effectiveness of the government policy is not ready for shocks yet and the macroeconomic indicators and last processes happening with Russia are obviously substantiating it.

As for the government's payment culture, there is no more need to talk about 1998, August crisis again. So Russia is one of the countries that are in the "Black List".

External security risks as shown in parentheses are meticulously designed for the countries which located in politically "hot" regions. Every single person who at least searched about Russia once in a lifetime knows that just a spark is enough for the ethnic groups in Russia to rise for the independence and Russian geopolitical interests in the neighboring countries as well as the last move of the Russian government around these issues is sufficient to say that Russia is in risky countries roster. Adequately, credit rating agencies promptly making an adjustment for the external risks factor after last scenarios and the government therefore, should lose its creditworthiness which I think policymakers had to be ready for it beforehand.

**CONCLUSION**

Since the current low credit ratings make it hard for the local policymakers to govern the financial system appropriately, plus it requires that financial institutions reserve more capital for their "riskiness" and all this boils down to the liquidity dry up process and consequently failure of the financial system, it serves for local regulators' interests to have their own credit rating agencies. From the "Big Three" perspective they will be under the risk of losing perfect public picture of credibility if they give the same rating after recent events happened the Russia-located region.